Doktor Casim Musəvi

Şübhalarin KƏŞFİ

İHSAN İLAHİ ZAHİRİN "ŞİƏ VƏ ƏHLİ-BEYT" KİTABINA RƏDDİYƏ

2

313news

Doktor Seyyid Casim Musəvi

ŞÜBHƏLƏRİN KƏŞFİ

İhsan İlahi Zahirin

"Şiə və Əhli-Beyt" kitabındakı iddialara

böyük rəddiyyə

2-ci cild

Layihə rəhbəri: 313news.net

Tərcüməçi: Hilal Ağamoğlanov

Redaktor: Peyman Məmmədov

Korrektor: Peyman Məmmədov

Texniki redaktor: Tural Ordubadi

Bu kitabı tərcümə etməkdə məqsədimiz insanlara sələfilərin (vəhhabilərin) ən tərifli münazirə və rəddiyyə ustadlarından birinin yalan və böhtanlarını insanlara göstərmək və bu əqidə daşıyıcılarından mümkün qədər ehtiyatlı olmalarını təbliğ etməkdir. Bu kimi şəxslər müsəlmanları azdırıb öz sıralarına daxil etməkdən ötrü hər cür yalan danışmağa və manipulyasiya etməyə hazırdırlar.

İhsan İlahi Zahir öz yalanları ilə təəssüf ki, minlərlə şiə və müxtəlif məzhəb nümayəndələrini sələfiliyə dəvət edə bilir. Əlinizdəki kitabda onun saysız-hesabsız yalanları ilə, təhrifləri ilə tanış olacaqsınız.

1987-ci ilin 23 Mart tarixində Lahor şəhərində xütbə zamanı bomba hücumu nəticəsində ağır yaralanır. Səudiyyə Kralı Fəhd ibn Əbdüləzizin göstərişi ilə Riyad şəhərindəki Feysəl Hərbi Hospitalına köçürülsə də, həyatını xilas edə bilmirlər. Cənazə namazını Şeyx ibn Baz qılmış və Bəqi qəbirstanlığında dəfn edilmişdir.

İhsan İlahi Zahir Mədinədə bir çox məşhur sələfi şeyxindən dərs almışdı. Onların arasında “əsrin mühəddisi” ləqəbli Hafiz Muhəmməd Qondəlvi, Şeyx Əlbani, Şeyx Əbdüləziz ibn Bazı saymaq olar.

İhsan İlahi Zahirin İbn Bazla xüsusi münasibətləri var idi. Xütbə zamanı İbn Baz onu öz yanında otuzdurardı. O, Mədinədə oxuyanda Şeyx İbn Baz Mədinə Universitetinin rektoru idi. İlahi Zahir son kursda ikən ona mühazirə deməyə icazə verilmişdi. Həmin vaxt o, "Qadiyanilik" əqidəsinə qarşı kitab yazır və Pakistanda nəşr etdirmək istəyir. Kitabda "Mədinə Universitetinin məzunu" sözlərini yazmaq istəsə də, faktiki olaraq Universiteti bitirmədiyi üçün rəhbərliyin icazəsi lazım olur. İbn Baz ona bu xüsusi icazəni verir. İlahi Zahir sual verir ki: "Birdən mən məzun ola bilməsəm necə?" İbn Baz cavab verir: "Əgər sən məzun ola bilməsən, mən bu Universitetin qapılarını bağlayaram!"

Onun "Şiə və əhli-beyt", "Şiə və şiəlik", "Şiə və Quran", "Şiə və sünnə" kimi yalan və təhrif dolu kitabları var. Bu kitalar bir çox başqa dillərə də tərcümə edilib. Əlinizdəki kitab onun "Şiə və əhli-beyt" kitabına rəddiyyə olaraq yazılmışdır, hansı ki, vaxtilə Pakistanda ilk 9 ay ərzində 5 dəfə təkrar-təkrar nəşr edilmişdi.

MÜNDƏRİCAT

Müqəddimə 7
İslam dövlətinin mülkiyyəti 9
Ənfal 10
Fey 18
Fədəyin şəxsən Peyğəmbərə (s) məxsus olması barədə müsəlman alimlərinin rəyi yekdildir 20
Birinci fəsil: Fədəyin tarixi və şiə mənbələrində peyğəmbərlərin (ə) mirası 23
Birinci bəhs: Fədəyin tarixindəki hadisələr 24
İmam Əlinin (ə) xilafəti dövründə Fədək 28
Möminlərin əmiri Əlinin (ə) Fədəklə bağlı addımları 37
İmam Əli (ə) niyə Fədəyi Əhli-Beytə (ə) qaytarmadı? 40
İkinci bəhs: Şiə mənbələrində peyğəmbərlərin (ə) miras buraxmadıqlarına dair rəvayətlər 75
Xanımın (ə) Əbu Bəkrin irslə bağlı qərarına münasibəti 79
Zəhranın (ə) Əbu Bəkrdən mirasını istəməkdən imtina edərək onunla razılaşdığı iddiası 80
Şiə mənbələrinə əsasən Fatimənin (ə) Əbu Bəkrin qərarı ilə razılaşdığı iddiası 81
Zəhranın (ə) narazı olduğunu və onlara qəzəbləndiyini şiələr uydurub iddiası 87
Xanımın (ə) Əbu Bəkrin verdiyi hökmdən razı olduğuna dəlalət edən şiə rəvayətləri iddiası 88
Zəhranın (ə) haqqının qəsb edilmədiyinə dair şiələrin rəvayət və rəylərinin olduğu iddiası ... 89
Fədəyin Fatiməyə (ə) hədiyyə edilməsinin inkar səbəbləri 93
Fatimənin (ə) Möminlərin əmirinin (ə) xilafətini iddia edəcəyi qorxusu 96
İkinci fəsil: Hədiyyə və miras 98
Birinci bəhs: Fədək Peyğəmbərin (s) Fatiməyə (ə) hədiyyəsidir 99
Peyğəmbərin (s) Fədəyi qızı Fatiməyə hədiyyə verdiyinə dair dəlillər 100
Fatimənin (ə) şahidlərini Əbu Bəkrin qəbul etməməsi 110
Əbu Bəkrin bu şahidliyi rədd etməyə dəlili yoxdur 112
Əbu Bəkrin şahid tələb etmədən mücərrəd iddianı yetərli bilməsi 114
İkinci bəhs: Fatimənin (ə) atasının mirasını tələb etməsi 116
Xanım Zəhranın (ə) yeganə varis olmadığı iddiası 117
Şiənin nəzərinə əsasən qadının daşınmaz əmlakdan irs aparmadığı iddiası 121
Zəhranın (ə) mirası barədə söylədiyi dəlillər 124
Üçüncü fəsil: Əbu Bəkrin "Biz peyğəmbərlər miras buraxmarıq" hədisini dəlil göstərməsinin müzakirəsi 129
Birinci bəhs: Dini və tarixi dəlillərə uyğun olmayan "Səhih"lərdəki bu hədisin tərk edilməsi. 131
İkinci bəhs: Nə üçün Peyğəmbər (s) öz varislərinə bunu xəbər vermədi? 133
Üçüncü bəhs: İmam Əli (ə) və Abbas bu hədisi eşitməmişlər 137
Dördüncü bəhs: "Miras buraxmarıq" hədisinin Quranın zahirinə zidd olması 141

Dördüncü bab: Fatimənin (ə) qəzəbi 183
Birinci fəsil : Hədislərdə Fatimənin (ə) qəzəbi 185
Birinci hədis: "Bədənimin bir parçası" hədisi 186
İkinci hədis: "Allah Fatimənin (ə) qəzəbilə qəzəblənir" 208
Üçüncü hədis: Fatimənin (ə) ilk iki xəlifəyə qəzəblənməsi 216
İkinci fəsil: Fatimənin (ə) ilk iki xəlifəyə qəzəblənməsinə Əhli-Sünnə alimlərinin münasibətinin müzakirəsi 234
1. Fatimə (ə) Əbu Bəkrlə yalnız miras barədə danışmaqdan imtina etdi 235
2. Zəhra (ə) Əbu Bəkrə qəzəblənməyib 238
3. Əbu Bəkr Fatiməni (ə) razı saldı 241
4. Fatimənin (ə) qəzəbi iman və küfr üçün meyar deyil 256
Üçüncü fəsil: Fatimə (ə) ilk iki xəlifəyə niyə qəzəblənmişdi? 318
Fatimənin (ə) ilk iki xəlifəyə qəzəblənməsinin səbəbləri 321
Birinci: Fatiməyə (ə) qarşı zorakılıq 322
A. Əsləm Qüreyşinin rəvayəti 323
B. Süleyman Teymi və İbn Ovnun rəvayəti 329
C. Ziyad ibn Küleybin rəvayəti 333
D. Əbdürrəhman ibn Ovfun rəvayəti 339
İkinci: Əhli-Beytə (ə) qarşı iqtisadı təzyiqlər 354
1. Zəhranın (ə) əlindən Fədəyin alınması 354
2. Peyğəmbər mirasını Fatiməyə (ə) verməkdən imtina 355
3. Yaxın qohumların payının ləğv edilməsi 356
Üçüncü: İlahi imamətin müdafiəsi 357
Əbu Bəkr ibn Əbu Qühafənin dövrü 358
Əbu Bəkrin xilafətinin möhkəmlənməsində Ömərin rolu 361
Ömər ibn Xəttabın xilafət dövrü 364
Ömərin qurduğu altı nəfərlik şura 367
Fatimənin (ə) ümmətə müraciəti 376
Əhli-Beytin (ə) Əbu Bəkr və Ömərin mövqeyinə etirazları 379
Beşinci bab: Əhli-Beyt (ə) və Ömər ibn Xəttab 398
Birinci fəsil: İhsan Zahirin iddialarının müzakirəsi və təhlili 401
1. Pay bölgüsündə Əhli-Beyti (ə) hamıdan öndə tutması 401
2. Ömərin Əhli-Beyti (ə) üstün tutması və onlara ehtiram göstərməsi 404
3. "Ömər xüms və qənimətlərin bölgüsündə ilk olaraq Əhli-Beytdən (ə) başlayırdı" iddiası 414
4. Ömərin zamanında dinin istiqrar tapdığı iddiası 432
5. Ömərin dinin izzət tapmasına, İslamın yüksəlməsinə və müsəlmanların əzəmətlənməsinə səbəb olduğu iddiası 440

6. Ömərin İslam sığınacağı, müsəlmanların pənahı və müraciət mənbəyi olduğu iddiası 457
7. "İmam Əli (ə) Ömərin keşiyində dayanır və onun həyatını qoruyurdu" iddiası.....466
8. Uca Allahın haqqı Ömərin dilində qərar verdiyi iddiası.....479
9. Ömərin cənnət əhli olduğu iddiası 492
10. Peyğəmbərdən (s) və Əbu Bəkrdən sonra Ömərin ümmətin arasında ən xeyirli şəxs olduğu iddiası 511
11. Əhli-Beytin (ə) Öməri tərifləmdiyi iddiası 521
12. Əhli-Beytin (ə) Öməri sevdikləri iddiası 532
İkinci fəsil: Ümmü Külsümün evlilik hekayəsi 569
Birinci məsələ: Ümmü Külsümün Ömərlə izdivacı Əhli-Beyt (ə) rəvayətlərində 573
İkinci məsələ: Ümmü Külsümün Ömərlə izdivacı barədə şiə alimlərinin sözləri 581
Üçüncü məsələ: Ümmü Külsümün Ömərlə izdivacı Əhli-Sünnə rəvayətlərində 585

Müqəddimə

“Fədək” məsələsi elmi müzakirələrdə geniş bir sahəni əhatə edir və yalnız İslam tarixindəki bəhslə məhdudlaşmır. Həmçinin xüsusi əhəmiyyət kəsb edən məsələlərə şamil olur. Mövzu ilə bağlı fərqli ibarələrlə müxtəlif məqamlarda hədislər rəvayət edilib. Nəticədə birbaşa əlaqəsinə, öz növündəki xüsusiyyət və əlamətlərinə görə əqidə və fiqh mövzularının bəhslərinə də sirayət edib.

Bu hadisə peyğəmbərlərin mirası, onların irs hökmləri çərçivəsinə daxil olması və ya kənarda tutulması mövzuları “Xatəmul-ənbiyanın (s) mirası” məsələsinə aydınlıq gətirir. Həmçinin onu fərqləndirən cəhətlərdən biri də ətrafında yaranan mübahisədir. Bu mübahisə İslamda böyük çəkisi olan – Peyğəmbərin (s) qızı xanım Zəhra (ə) və Əbu Bəkr kimi şəxslərin arasında baş vermişdi. “İrs” məsələsinin həllinin ümmətin Əhli-Beytə (ə) qarşı mövqeyinə və “xilafət” məsələsinin aqibətinə böyük təsiri var idi. O səbəbdən də, “Fədək” məsələsi müsəlmanların arasında bu günədək mübahisə mövzusudur. Barəsində çoxlu sözlər deyilmiş, mübahisələr edilmiş, əqidə mövzularında münaqişə və müzakirələr aparılmışdır. Bəziləri oradakı şəxslərin mürtəkib olduqları böyük xətanın ağırlığını yüngülləşdirməyə çalışaraq təvil və izahlar verməyə səy göstərmiş, gah da buna fəqət tarixi bir bəhs çərçivəsində yanaşmağa cəhd etmişlər.

Lakin ədalətlə yanaşsaq, burda məsələni obyektiv və incəliklə aydınlaşdıran, bəzi məsələlərin üzərindən örtüyü qaldıran bəhslər mövcuddur. Buna baxmayaraq, orada müəyyən qaranlıq nöqtələr və izah olunmamış məsələlər var ki, bəzi təəssübkeş müəlliflərin şəkk və şübhələrinin mənbəyinə çevrilmiş, öz fikir və etiqadlarına əsasən yozmalarına şərait yaratmışdır. Onlardan biri də İhsan Zahirdir ki, məsələyə səthi yanaşaraq bir çox həqiqətlərdən yan keçmişdir. Onun əsərlərinə valeh olan bəzi kəslər də bu fikirlərini təbil çalaraq aləmə yaymışlar. Bu səbəbdən də, mövzunu məntiqi silsiləyə uyğun şəkildə bəhs və

araşdırma ilə əla almağı lazım bildik. Bununla da onun ortaya atdığı şübhələrə müvafiq cavablar veriləcək. Mövzunu bir giriş və üç fəsildə araşdıracağıq:

Giriş: İslam dövlətinin mülkiyyəti

Birinci fəsil: Şiə mənbələrində peyğəmbərlərin mirası və Fədəyin tarixi

İkinci fəsil: Hədiyyə və miras

Üçüncü fəsil: Əbu Bəkrin "Peyğəmbərlər miras qoymazlar" hədisini vərəsəliyin olmadığına dəlil göstərməsi

Giriş

İslam dövlətinin mülkiyyəti

Müqəddimə

İslam qanunvericiləri İslam hökumətinin maliyyə xərclərinin mənbələrinin və onun hökmlərinin bəyanına xüsusi əhəmiyyət vermişlər. İslam dövlətinin iqtisadiyyatını təsis etmək və formalaşdırmaq, xalqın iqtisadı əmlakını və dövlətin malını istədiyi kimi xərcləmək üçün İslam hakiminin qarşısında açıq qapı buraxmamış, mövzu və hökm cəhətdən onu müəyyən sərhədlər çərçivəsinə salmışdır. İslam iqtisadiyyatının formalaşdırılması üçün mənbələr təyin etmiş, hər bir mənbəyə aid xüsusi hökmlər vermişdir. Bu mövzuda ard-arda tam aydın mənalı ayələr nazil olmuşdur. Burada İslam dövləti, hakim və dövlət əmlakı kimi mövzulara dərindən dalmaq niyyətimiz yoxdur. Lakin qanunların aydın şəkildə bəyan etdiyi İslam dövlətinin mülkiyyətini, həmçinin İslam hakiminin həmin mülkiyyət üzərindəki səlahiyyətlərini qeyd edəcəyik.

İlk dövrlərdə İslam dövlətinin mülkiyyətinin mənbələri əsasən "ənfal", "fey", hərbi qənimətlər və Peyğəmbərin (s) sədəqələri təşkil edirdi. Bunların hər birinin şiə və sünni məzhəblərinin nəzdində özünəməxsus hökmləri var. Lakin İhsan Zahir Fədəyi dövlətin malı və qənimətlərdən sayaraq onu hakimin əmrinə tabe edir, şiənin nəzərinə görə də hakimin həmin malın təsərrüfündə daha çox haqq sahibi olduğunu bildirərək şiələrin üzərinə hücum çəkir və deyir: "Onlar güman edirlər ki, Peyğəmbər (s) dövlətin malını özünün mülkiyyətinə keçirib. Bunu talan və özbaşınalığın, dinsizlik və diqqətsizliyin baş aldığı bu dövrdə belə heç bir ağıl sahibi qəbul etməz. O dövrlərdə bir dövlətin hakimiyyətini ələ keçirmiş və ya işğal etmiş şəxs oranı özünün xüsusi şəxsi mülkiyyəti elan etmir, onu dövlətin

mülkiyyətinə qatır, camaatın və rəiyyətin mənfəəti üçün istifadə edirdi. Demək, atam-anam və ruhumun fəda olduğu Peyğəmbər (s) şiələrin nəzərində yalnız özünü və öz maraqlarını düşünən, özünü başqalarından üstün tutan şəxs hesab edilər".[1]

Həmçinin deyir: "Sözü bitirməzdən öncə burada Kuleyninin qeyd etdiyi iki rəvayəti təqdim etmək istərdik... Onlardan birincisində Əbu Abdullah Sadiqdən belə dediyi nəql olunur: "Ənfal – at və miniksiz gedilib əldə edilən, yaxud bağlanılan sülh nəticəsində alınan və ya öz əlləri ilə gətirib verdikləri qənimətdir. Bütün xaraba qalmış yerlər və vadilər Peyğəmbərə (s) məxsus idi. Ondan sonra İmamındır, istədiyi kimi istifadə edə bilər". Məgər bu, Peyğəmbərdən (s) sonra imamın onun sərf edilməsində ən çox haqq sahibi olduğunu aydın izah etmirmi?"[2]

Bu ədavətə heç bir bəraət yoxdur. Aydındır ki, İslam dövlətinin mülkiyyəti mövzu və hökm baxımından yeknəsəq deyil. Onlardan bir hissəsi İmamın ixtiyarındadır ki, ondan istədiyi kimi istifadə edir, bir hissəsi müsəlmanların mülkiyyəti və bir hissəsi də Peyğəmbərin (s) xüsusi mülkiyyətidir. Lakin İhsan Zahir bu məsələyə bütöv bir şəkil verərək yeknəsəq kimi ələ alıb. Məsələnin tam aydınlaşması üçün onun iddiaları ilə əlaqədar olan "ənfal", "fey" və "hərbi qənimətlər"dən ibarət mülkiyyət məfhumlarına nəzər salaq:

Ənfal

"ən-Nəfl" və ya "ən-Nəfəl" lüğətdə "haqq sahibinə əlavə verilən şey" mənasındadır.[3] Uca Allahın sözündə də bu qeyd olunur: ***"Biz ona (İbrahimə) İshaqı, üstəlik (əlavə olaraq) Yaqubu da bəxş etdik".***[4] Yəni istəyindən əlavə

---

[1] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 87

[2] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 90

[3] əl-Furuqul-lüğviyyə, Əbu Hilal Əskəri, s. 548; Lisanul-ərəb, c. 11, s. 671 və 673; Tacul-urus, Zübeydi, c. 15, s. 747

[4] Ənbiya, 72

olaraq. Şeyx Tusi ayənin izahında deyir: ***"üstəlik"*** – yəni Allaha etdiyi duadan əlavə".[5]

Əksər Əhli-Sünnə təfsir alimlərinin də ayə ilə bağlı rəyi budur. Səmərqəndi deyir: "***üstəlik Yaqubu da"***, yəni əlavə olaraq. O, Uca Allahdan övlad istədi və Allah da ona bir oğul bəxş etdi. Həmin övlad İshaq (ə) idi. Övladının övladı isə onun istəyindən əlavə idi. Bu isə Yaqubdur (ə)".[6]

Səmani deyir: "Uca Allahın ***"Biz ona (İbrahimə) İshaqı, üstəlik (əlavə olaraq) Yaqubu da bəxş etdik"*** ayəsi barədə İbn Abbas deyir: "Əlavə olan Yaqub idi". İshaq isə əlavə deyil. Çünki Uca Allah İshaqı İbrahimin duasına əsasən ona bəxş etdi. Yaqub isə duasından əlavədir. "Üstəlik" kəlməsi – əlavə olaraq mənasındadır. Mücahid deyir: "Hər ikisi də əlavədir". Lakin ən doğrusu birinci rəydir".[7]

Nəsəfi deyir: ***"Biz ona (İbrahimə) İshaqı, üstəlik (əlavə olaraq) Yaqubu da bəxş etdik"*** **–** deyilib: "nafilə" kəlməsi "afiyə" sözü kimi məsdərdir, özündən əvvəl feil istifadə edilməyib. Yəni, ayə "Vəhəbna ləhu hibətən" mənasındadır. Həmçinin deyilib: bu əlavə, ona bəxş olunan oğulun övladıdır. Belə ki, İbrahim (ə) bir oğul istəmişdi, Uca Allah da ona üstəlik Yaqubu da bəxş etdi. Yəni diləmədiyi halda əlavə olaraq verildi. Bu kəlmə ayədə Yaqub sözündən hal kəlməsidir".[8]

Razi deyir: "Uca Allah buyurur: ***"Biz ona (İbrahimə) İshaqı, üstəlik (əlavə olaraq) Yaqubu da bəxş etdik".***[9] Yəni dilədiyindən əlavə olaraq".[10] Eləcə də bir çox sünni təfsir alimləri "nafilə" kəlməsini "əlavə, üstəlik" mənasında təfsir etmişlər.

---

[5] ət-Tibyan, Şeyx Tusi, c. 7, s. 264
[6] Təfsir, Səmərqəndi, c. 2, s. 432
[7] Təfsir, Səmani, c. 3, s. 392
[8] Təfsir, Nəsəfi, c. 3, s. 86
[9] Ənbiya, 72
[10] Təfsir, Razi, c. 15, s. 114

Qənimət də "nəfl" (əlavə) adlandırılıb. Onun cəmi "ənfal"dır[11]. Çünki o Uca Allahın bu ümmətə ələlxüsus bir əlavəsidir. Bəğəvi deyir: "Qənimətlər ənfal adlandırılıb, çünki o, Uca Allahın bu ümmətə ələlxüsus bir əlavəsidir".[12] Yaxud da müsəlmanlar qənimətlərin onlara halal edilməsi ilə digər ümmətlərdən üstün tutulmuşlar. Razi Zühridən nəql edir: "Nəfl" və "Nafilə" – əslə əlavə mənasındadır. Qənimətlər də "ənfal" adlandırılıb. Çünki müsəlmanlar qənimətlərin yalnız onlara halal edilməsi ilə digər ümmətlərdən üstün tutulmuşlar".[13]

Şiə fəqihlərinin istilah və terminologiyasında "ənfal" kəlməsində məqsəd Peyğəmbərə (s) məxsus olan əlavə mal və mülkiyyətdir. Peyğəmbərdən (s) sonra ənfal İmama (ə) məxsusdur. Bu, Allahın onlara bir fəzlidir.[14] Nəraqi "ənfal"ın lüğət mənasını qeyd etdikdən sonra deyir: "Burada məqsəd, Bəni-Haşimə nisbət verilmədən Peyğəmbərə (s) və ondan sonra İmama (ə) məxsus olan mal və mülkiyyətdir. Buradakı mətləb Peyğəmbərin (s) və İmamın (ə) mülkiyyətidir".[15]

Üzərinə at və ya dəvə sürülmədən əldə olunan, eləcə də heç bir döyüş olmadan bir tayfanın könül xoşluğu ilə verdiyi, həmçinin əvvəllər birinin mülkiyyətində olan və ya olmayan əhli məhv olmuş xarabalıqlar, dağların başı, vadilərin dibi kimi torpaqlar, vadilərin dibindəki mədənlər, İmamın (ə) izni olmadan döyüşüb əldə edilən qənimətlər, varisi olmayan miraslar və s. də "ənfal" adlandırılmışdır.

Bütün bunlar şiə alimlərinin qeyd etdikləri və Əhli-Beyt (ə) hədislərinin dəlalət etdiyi mənalardır. Şeyx Kuleyni "əl-Kafi"də İmam Sadiqdən (ə) rəvayət edir: *"Ənfal – üzərinə at və ya dəvə sürülmədən əldə olunan, eləcə də sülh bağlamış və ya döyüş olmadan bir tayfanın könül xoşluğu ilə verdiyi, həmçinin xarabalıq*

---

[11] əs-Sihah, Cövhəri, c. 5, s. 1833; Lisanul-ərəb, c. 11, s. 671; Kitabul-eyn, c. 8, s. 325

[12] Təfsir, Bəğəvi, c. 2, s. 228

[13] Təfsir, Razi, c. 15, s. 114

[14] Bax: əl-Muqniə, Şeyx Mufid, s. 278; əl-İqtisad, Şeyx Tusi, s. 284; ər-Rəsailul-aşər. s. 208; ən-Nihayə, s. 199

[15] Mustənəduş-şiə, mühəqqiq Nəraqi, c. 10, s. 139; Ğənaimul-əyyam, Mirzə Qummi, c. 4, s. 371

ərazilər və vadilərin diblaridir. Bütün bunlar Peyğəmbərə (s) və ondan sonra da İmama (ə) məxsusdur, onlardan istədikləri kimi istifadə edə bilərlər".[16]

Həmçinin "əl-Kafi"də İmam Kazimdən (ə) nəql edilir: *"Ənfal – əhli məhv olmuş xarabalıqlar, üzərinə at və ya dəvə sürülmədən sülh yolu ilə və heç bir döyüş olmadan könül xoşluğu ilə verdiyi torpaqlar, dağların başı, vadilərin dibi və meşə kimi yerlər, sahibi olmayan ölü torpaqlar, varisi olmayan sahibsiz və qəsb olunmamış miraslar. Çünki qəsb olunmuş mallar sahibinə qaytarılmalıdır. O, varisi olmayanların varisidir, naəlacların hamisidir".*[17]

Şiənin nəzərində "fey" də "ənfal"dandır. İbn Həmzə Tusi deyir: "Şəriətdə "fey" – müsəlmanların əlinə döyüşsüz keçmiş mal və mülkiyyətdir. Bu da ənfaldandır".[18]

Bəzilərinin fikrinə görə, fey və ənfal eynidirlər. Mirzə Qummi deyir: "Bəzən feyi ənfala da aid edirlər. Uca Allahın "Həşr" surəsindəki sözü də buna dəlalət edir: ***"Allahın onların mallarından Öz Peyğəmbərinə verdiyi (və ma əfa Allah) qənimət üçün siz onların üstünə nə at, nə də dəvə sürdünüz".***[19] Həmçinin bunun eyni məfhum olmasına Muhəmməd ibn Müslimin "həsən" hədisi də dəlalət edir..."[20]

Şiə alimlərinin nəzərində Fədək də həmin "fey"dən hesab edilir. Çünki o da üzərinə at və ya dəvə sürülmədən əldə edilmişdir. Bunu Şeyx Səduqun İmamlardan (ə) nəql etdiyi rəvayət də təsdiqləyir: *"Peyğəmbər (s) buyurdu: "Fədək – üzərinə at və ya dəvə sürülmədən əldə edilmişdir. O heç bir müsəlmana aid edilmədən xüsusi olaraq mənə məxsusdur".*[21]

Şiələr ənfalın xümslə heç bir bağlılığı olmadığı barədə həmfikirdirlər. Belə ki, o, xalis olaraq Peyğəmbərin (s) və ondan sonra da İmamın (ə) mülkiyyətindədir.

---

[16] əl-Kafi, Şeyx Kuleyni, c. 1, s. 539
[17] əl-Kafi, Şeyx Kuleyni, c. 1, s. 541
[18] əl-Vəsilə, İbn Həmzə Tusi, s. 203
[19] Həşr, 6
[20] Ğənaimul-əyyam, Mirzə Qummi, c. 4, s. 371
[21] əl-Əmali, Şeyx Səduq, s. 619

İmam dedikdə isə məqsəd Möminlərin əmiri Əli (ə) və onun övladlarından olan on bir imamdır (ə). Şeyx Mufid deyir: "Ənfal – Peyğəmbər (s) həyatda ikən xüsusi olaraq ona aid idi. Sağ ikən ənfal necə onun ixtiyarında idisə, vəfatından sonra eləcə də məqamına keçən İmamın xalis malıdır..."[22]

Mühəqqiq Kurki deyir: "Ənfal – həyatda ikən Peyğəmbərin (s), ondan sonra yerinə keçən İmamındır (ə)".[23]

Şeyx Tusi "Təhzibul-əhkam"da deyir: "Ənfal – həyatda ikən Peyğəmbərin (s), ondan sonra yerinə keçən İmamındır (ə). Ənfal – üzərinə at və ya dəvə sürülmədən əldə olunan torpaqlar, eləcə də tərk edilmiş ərazilər, heç bir varisi olmayan miraslar, meşələr, çöllər, mədənlər və sahibi olmayan mülklərdir".[24]

Ənfal və onun hökmləri ilə bağlı Əhli-Beyt (ə) imamlarından çoxlu rəvayətlər nəql edilmişdir. Onların üzərində böyük diqqət və yüksək keyfiyyətlə təhqiqatlar aparılmışdır. Onları burada qeyd etməyə lüzum görmürük.

Aydındır ki, Peyğəmbər (s) həyatda ikən sərf etdiyi ənfal onu bu ünvandan çıxarırdı. Onun sərfindən sonra artıq ənfalın hökmləri həmin mülkiyyətə şamil edilmirdi. Əgər bir şəxsə ənfaldan müəyyən bir əmlakı versəydi, həmin mal artıq ənfal olmaqdan çıxar və o şəxsin mülkünə çevrilərdi.

Peyğəmbərin (s) həyatda ikən Fədəyi qızı Fatiməyə (ə) verdiyinə şiələr həmfikirdirlər. Bunu şiə alimləri İmamlardan (ə) nəql etdikləri hədislərlə də bəyan ediblər. Uca Allahın ***"Yaxın qohuma haqqını ver"***[25] ayəsi Peyğəmbərə (s) nazil olduqda Fatiməni yanına çağırmalarını buyurdu. Fatimə gəldikdə *"Ey Allahın elçisi, buyur!" dedikdə Peyğəmbər (s) dedi: "Bu Fədək üzərinə at və ya dəvə sürülmədən əldə olunan mülkdür. Bu, heç bir müsəlmana aid olmadan xüsusi olaraq*

---

[22] əl-Muqniə, Şeyx Mufid, s. 278

[23] əl-Xaraciyyat, Kurki, s. 56

[24] Təhzibul-əhkam, c. 4, s. 132

[25] Rum, 38

mənimdir. Allahın mənə olan əmrinə əsasən, onu sənə verirəm. Onu özün və övladların üçün götür".[26]

Bu rəvayəti həmçinin Şeyx Kuleyni İmam Kazimdən (ə) rəvayət edib.[27]

Eləcə də Əbu Səid Xudri, İbn Abbas və başqalarından olunan rəvayətlər kimi bunlar bəzi Əhli-Sünnə mənbələrindəki rəvayətlərdə də qeyd ediliblər. Qarşıda onlara toxunacağıq.

Buna əsasən Fədək, sırf Xanım Fatiməyə (ə) məxsus mülk idi. Şiə təlimlərinə əsasən İmamın (ə) onun üzərində heç bir səlahiyyəti yoxdur.

Qənimət isə şiə fəqihlərinin nəzərində hökm və mövzu baxımından ənfaldan tam fərqlənir. Bu, güc və üstünlüklə müşriklərin mallarından əldə edilən, məişətdən və qazancdan artıq qalan şeylərdir. Onların üzərinə xüms vergisi də gəlir.[28]

Əhli-Sünnə istilahlarında ənfalda məqsəd qənimətdir, bununla yalnız savaş məkanında güc və zor tətbiq etməklə kafirlərin əlindən alınan mallar ifadə olunur. Nəvəvi deyir: "Ənfal – "nəfl" kəlməsinin cəm formasıdır. "Fa" hərfi həm fəthəli, həm də sükunlu oxunur, qənimətdir. Qənimət – kafirlərin üzərinə at və dəvələrlə hücum edilib əllərindən alınan mallardır".[29]

Onlar da ənfalın heç bir müsəlman şərik olmadan, xalis şəkildə Peyğəmbərə (s) məxsus olduğunda həmfikirdirlər. Buna Uca Allahın sözü də dəlalət edir: ***"Səndən (müharibədə əldə edilmiş) qənimətlər (onların kimə çatması) haqqında soruşarlar. De: "Qənimətlər Allahın və Peyğəmbərinindir".***[30] Buna bəzi alimləri "Birinci ənfal"[31] adını da qoymuşlar.

Lakin sonradan nazil olan ***"...bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin beşdə biri Allahın, Peyğəmbərin, onun qohum-əqrəbasının, yetimlərin,***

---

[26] əl-Əmali, Şeyx Səduq, s. 619; Uyunu əxbarir-Rza (ə), c. 2, s. 211

[27] əl-Kafi, Şeyx Kuleyni, c. 1, s. 543

[28] Muntəhəl-mətləb, Əllamə Hilli, c. 2, s. 922

[29] əl-Məcmu, Muhyiddin Nəvəvi, c. 19, s. 348-354

[30] Ənfal, 1

[31] Təfsir, İbn Kəsir, c. 2, s. 296

yoxsulların və müsafirindir"[32] ayəsinin də bunun ardı olduğunu iddia edərək qeyd olunan şəxsləri də qənimətdə Peyğəmbərə (s) şərik qərar verdilər. Şafii deyir: "Qənimətlər (ənfal) Peyğəmbərə məxsus idi. Uca Allah buyurur: ***"Səndən (müharibədə əldə edilmiş) qənimətlər (onların kimə çatması) haqqında soruşarlar. De: "Qənimətlər Allahın və Peyğəmbərinindir".***[33] Peyğəmbər (s) təkbaşına ona sahib idi. Sonra Bədr savaşında onu başqalarına da bölən ayə nazil oldu. ***"Bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin beşdə biri Allahın, Peyğəmbərin, onun qohum-əqrəbasının, yetimlərin, yoxsulların və müsafirindir".***[34]Allah beşdə birini ona və xüsusiyyətləri qeyd edilən müsəlmanlara böldü. Peyğəmbər (s) atları və dəvələri ilə hücumda iştirak edənlərə xümsdən dörd pay, atlılara üç pay, piyadalara da bir pay ayırdı".[35]

Buxari və Müslim öz "Səhih"lərində İbn Abbasdan nəql edir: "Ənfal qənimətlərdir".[36]

Beyhəqi "Sünən"də İbn Abbasdan "Ənfal" surəsi barədə rəvayət edir: ***"Səndən (müharibədə əldə edilmiş) qənimətlər (onların kimə çatması) haqqında soruşarlar. De: "Qənimətlər Allahın və Peyğəmbərinindir".***[37] "Ənfal qənimətlərdir. Xalis şəkildə Peyğəmbərə (s) məxsus idi, heç kəsin onda payı yox idi... Sonra Uca Allah ***"Bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin beşdə biri Allahın, Peyğəmbərin, onun qohum-əqrəbasının, yetimlərin, yoxsulların və müsafirindir"***[38] ayəsini endirdi. Sonra onun beşdə birini Peyğəmbərə, yaxın qohumlarına... böldü".[39]

---

[32] Ənfal, 41
[33] Ənfal, 1
[34] Ənfal, 41
[35] Kitabul-umm, Şafii, c. 7, s. 372. Bax: əl-Muğni, Abdullah ibn Qudamə, c. 7, s. 298
[36] Səhih, Buxari, c. 5, s. 198; Səhih, Müslim, c. 5, s. 146
[37] Ənfal, 1
[38] Ənfal, 41
[39] əs-Sünənul-Kubra, Beyhəqi, c. 6, s. 293

Onlar həmçinin Fədəyin qənimətdən (ənfaldan) olmadığında da həmfikirdirlər. Belə ki, bir çox rəvayətin də işarə etdiyi kimi Fədək, üzərinə at və ya dəvələrlə hücum çəkilmədən əldə edilmişdir. Rəvayət olunur ki, Xeybər yəhudiləri qalalarına sığınmışdılar, Peyğəmbərdən (s) onların canlarını qorumağı xahiş etdilər və Peyğəmbər (s) bu istəklərini qəbul etdi. Fədək əhli bunu eşitdikdə Peyğəmbərdən (s) eyni xahişi etdilər. Onların hədiyyə etdikləri Fədək ələlxüsus Peyğəmbərə (s) məxsus idi, çünki o, nə at və nə də dəvələrin hücumu nəticəsində əldə edilməmişdi.

Müslim öz "Səhih"ində Malik ibn Ovsdan, o da Ömərdən rəvayət edir: *"Bəni-Nəzirin malları müsəlmanların üzərilərinə at və ya dəvə sürmədən əldə etdikləri Allahın Öz Peyğəmbərinə verdiyi əmlak idi. Ələlxüsus Peyğəmbərə (s) məxsusdu. Peyğəmbər (s) əhlinin illik xərclərinə ondan sərf edir, qalanını isə silah-sursat alır, Allah yolunda xərcləyirdi".*[40]

Bunu Tirmizi "Sünən"də qeyd edərək deyir: *"Bu hədis həm həsən və həm də səhih yollarla rəvayət olunmuşdur".*[41]

Eləcə də bu hədisi "Sünən"ində[42] Nəsai və digər hədis alimləri öz kitablarında qeyd etmişlər.

Əbu Davud "Sünən"də Zühriyə və Abdullah ibn Əbu Bəkrə, Muhəmməd ibn Məsləmənin övladlarından bir neçəsinə istinadən onların belə dediyini nəql edir: *"Xeybər əhlindən bir dəstəsi qalada qalmışdılar. Peyğəmbərdən onların canlarını qorumasını xahiş etdilər və Peyğəmbər (s) bu istəklərini qəbul etdi. Fədək əhli bunu eşitdikdə Peyğəmbərdən (s) eyni xahişi etdilər. Onların hədiyyə etdikləri Fədək ələlxüsus Peyğəmbərə (s) məxsus idi, çünki o, nə at və nə də dəvələrin hücumu nəticəsində əldə edilməmişdi".*[43]

---

[40] Səhih, Müslim, c. 5, s. 151
[41] Sünən, Tirmizi, c. 3, s. 131
[42] Sünən, Nəsai, c. 7, s. 132
[43] Sünən, Əbu Davud, c. 2, s. 37

Fey

Bu kəlmə lüğətdə qayıtmaq mənasındadır. Cövhəri deyir: "Fel olaraq "Faə, yəfiu, fey" – qayıtdı. "Əfaəhu ğeyruhu" – qaytardı. Filan şəxs qəzəb halından tez qayıdır".[44] Həmçinin günəşin günortadan sonra saldığı kölgə də bu kəlmə ilə ifadə olunub. Belə ki, o, bir tərəfdən digər tərəfə qayıtmaqdadır.[45]

Sünnə terminologiyasında isə bu kəlmə müsəlmanların at və ya dəvə sürmədən əldə etdiklərinə deyilir. Sanki, bu əslində onlara məxsus idi və onlar bunu geri qaytardılar. Əbu Bəkr Kaşani Hənəfi deyir: "Feyə gəldikdə, bu, at və ya dəvə sürmədən əldə edilənlərə deyilir".[46] İbn Əbdülbərr Maliki deyir: "Fey – üzərilərinə at və ya dəvə sürmədən, döyüşsüz, hər hansı bir yolla kafirdən alınan şeylərdir".[47]

Muhyiddin Nəvəvi Şafii deyir: "Fey: bu, kafirdən döyüşsüz alınan maldır".[48]

İbn Qüdamə deyir: "Fey – kafirlərin malından müsəlmanların əlinə döyüşsüz qayıdan şeylərdir".[49]

Əhli-Sünnənin feyin xərclənməsi barədə fikri onun sırf Peyğəmbərin (s) mülkiyyətində olmasıdır. Əbu Bəkr Kaşani deyir: "Fey ələlxüsus Peyğəmbərə (s) məxsus idi və ondan istədiyi kimi istifadə edirdi. İstəsə özünə sərf edər, istədikdə dilədiyi şəxslərin arasında bölərdi. Uca Allah buyurur: ***"Allahın onların mallarından Öz Peyğəmbərinə verdiyi qənimət üçün siz onların üstünə nə at, nə də dəvə sürdünüz. Lakin Allah Öz peyğəmbərlərini istədiyi kimsələr üzərində hakim edər. Allah hər şeyə qadirdir!"***[50]

---

[44] əs-Sihah, Cövhəri, c. 1, s. 63; Lisanul-ərəb, c. 1, s. 124; Tacul-urus, Zübeydi, c. 1, s. 213

[45] ən-Nihayətu fi ğaribil-hədis, İbn Əsir, c. 3, s. 482; Lisanul-ərəb, c. 1, s. 126; Tacul-urus, Zübeydi, c. 1, s. 214

[46] Bədaius-sənai, Əbu Bəkr Kaşani, c. 7, s. 116.

[47] əl-Kafi, Qurtubi, s. 216

[48] əl-Məcmu, Nəvəvi, c. 19, s. 375

[49] əl-Muğni, Abdullah ibn Qüdamə, c. 7, s. 297

[50] Bədaius-sənai, Əbu Bəkr Kaşani, c. 7, s. 116

Səmərqəndi deyir: "Feyə gəldikdə, o, döyüşsüz əldə olunan şeydir, Peyğəmbərə (s) məxsusdur, ondan istədiyi kimi istifadə edir".[51]

Bu mətləbə Buxarinin Ömərdən nəql etdiyi rəvayət də dəlalət edir: *"Bəni-Nəzirin malları müsəlmanlar at və ya dəvə sürmədən əldə olunmuşdu, Allah onları Peyğəmbərə (s) vermişdi. Bunlar məxsusi olaraq ona aid idi. Ailəsinin illik xərclərini ondan ödəyir, yerdə qalanını isə silah-sursata xərcləyirdi".*[52]

Onların feyin sərf olunması ilə bağlı nəzərlərinə göz yumsaq, Fədəyin üzərinə at və ya dəvə sürülmədən əldə edilən qənimətlərdən olduğunda həmfikirdirlər. O, Peyğəmbərin (s) xalis mülkiyyətində idi. İbn Həcər Əsqəlani deyir: "Fədək isə, (fa-sı fəthəli, nöqtəsiz "dəl"dən sonra "kəf" yazılır) şəhərdir, onunla Mədinənin arasında üç mərhələ var. Döyüş tarixlərini yazanlar onun yəhudilərə məxsus olduğunu qeyd ediblər. Xeybər fəth edildikdə Fədək əhli Peyğəmbərin (s) yanına elçi göndərərək aman diləyiblər ki, şəhəri tərk edib getsinlər... O (Fədək) yalnız Peyğəmbərə (s) məxsus idi".[53]

Fədəyin Peyğəmbərə (s) məxsus mülkiyyət olduğuna həmçinin Buxari və Müslimin öz "Səhih"lərində Aişədən nəql etdikləri rəvayət də dəlalət edir: *"Peyğəmbərin (s) qızı Fatimə Əbu Bəkrin yanına adam göndərib Peyğəmbərin (s) mirasını, Allahın Mədinədən ona məxsus etdiklərini (*feyini*), Fədəyi və Xeybər xümsündən qalanları tələb etdi..."*[54]

Əbu Davud və Beyhəqi öz "Sünən"lərində Malik ibn Ovs ibn Hədəsandan rəvayət edirlər: *"Ömər dəlil gətirdiyi şeylərdən biri də bu idi ki, deyirdi: Peyğəmbərə xalis məxsus olan üç şey var idi: Bəni-Nəzir, Xeybər və Fədək..."*[55]

Nəvəvi Müslimin kitabına yazdığı şərhində Peyğəmbər (s) sədəqələri və xüsusi mülkiyyəti barədə Qazi İyazdan nəql edir: "Həmçinin Fədək ərazisinin yarısı.

---

[51] Tuhfətul-füqəha, Səmərqəndi, c. 3, s. 298

[52] Səhih, Buxari, c. 3, s. 227-228; c. 6, s. 58

[53] Fəthul-Bari, İbn Həcər Əsqəlani, c. 6, s. 140-141

[54] Səhih, Buxari, c. 5, s. 82, c. 6, s. 58; Səhih, Müslim, c. 5, s. 154

[55] Sünən, İbn Davud, c. 2, s. 23; əs-Sünənul-kubra, Beyhəqi, c. 6, s. 296; c. 7, s. 59

Fədək əhli Xeybərin fəthindən sonra onun yarısını verərək sülh bağladılar. Şəxsən Peyğəmbərə (s) məxsus idi... Bütün bunlar yalnız Peyğəmbərin (s) mülkiyyətində idi, müsəlmanların onların üzərində heç bir haqqı yoxdu".[56]

Fey – şiə alimlərinin terminologiyasında müsəlmanların üzərilərinə at və ya dəvə sürmədən kafirlərdən əldə etdikləri mallardır. Bu, şəxsən Peyğəmbərə (s), ondan sonra da İmamlara (ə) məxsusdur. Şeyx Tusi deyir: "Fey kəlməsi "faə, yəfiu" felindəndir, qayıtdı mənasındadır. Şəriətdəki məqsədi Uca Allahın Qurandakı bu sözünə əsasəndir: ***"Allahın onların mallarından Öz Peyğəmbərinə verdiyi (və ma əfa Allah) qənimət üçün..."*** Bunlar düşməndən, üzərinə at və ya dəvə sürülmədən əldə edilən, qaytarılan şeylərdir. Hökmü isə: yalnız Peyğəmbərə (s) məxsus idi. Ondan sonra yerinə keçən imamların (ə) ixtiyarındadır. Onlardan başqa heç kimin bu mallardan nəsibi yoxdur".[57]

Əvvəldə də qeyd etdiyimiz kimi, şiənin nəzərində fey ənfaldan hesab olunur. Bəzi alimləri isə onların eyni məna kəsb etdiklərinə hökm veriblər. Həmçinin onlar, Peyğəmbər (s) həyatda ikən Fədəyi qızı Xanım Fatiməyə (ə) hədiyyə verdiyində həmfikirdirlər.

Fədəyin şəxsən Peyğəmbərə (s) məxsus olması barədə müsəlman alimlərinin rəyi yekdildir

Təqdim edilənlərdən aydın olur ki, müsəlmanlar Fədəyin (ənfal, fey və ya başqa bir adda olmasına nəzər yetirmədən) üzərinə at və ya dəvə sürülmədən əldə etdikləri, şəxsən Peyğəmbərə (s) məxsus mal olmasında və heç kəsin onun üzərində payı sahibi olmadığında həmfikirdirlər. Burada ən əhəmiyyətli məqam Fədəyin yalnız Peyğəmbər (s) mülkiyyəti olmasında heç bir fikir ayrılığının olmamasıdır.

---

[56] Şərhu Müslim, Nəvəvi, c. 12, s. 82

[57] əl-Məbsut, Şeyx Tusi, c. 2, s. 64-66

Şiə alimlərinin icmasına əsasən Peyğəmbər (s) Fədəyi canının bir parçası olan qızı Fatiməyə (ə) hədiyyə edib. Bunun nəticəsində Peyğəmbərin (s) mülkiyyətindən çıxaraq qızının şəxsi mülkiyyətinə keçib. Bunu heç bir əks fikir olmadan şiə alimləri İmamlardan da (ə) nəql ediblər. Uca Allahın ***"Yaxın qohuma haqqını ver"***[58] ayəsi Peyğəmbərə (s) nazil olduqda Fatiməni yanına çağırmalarını buyurdu. Fatimə gəldikdə *"Ey Allahın elçisi, buyur!" dedikdə Peyğəmbər (s) dedi: "Bu Fədək üzərinə at və ya dəvə sürülmədən əldə olunan mülkdür. Bu, heç bir müsəlmana aid olmadan xüsusi olaraq mənimdir. Allahın mənə olan əmrinə əsasən, onu sənə verirəm. Onu özün və övladların üçün götür".*[59]

Əhli-Sünnənin icmasının rəyinə görə, Peyğəmbər (s) miras qoymayıb, geridə buraxdıqları sədəqədir. Həmçinin Fədək Peyğəmbərin (s) mülkiyyətindən çıxmamışdır və o da sədəqələrə daxildir. Bunu Buxari "Səhih"də Aişədən rəvayət edir: *"Fatimə (ə) və Abbas Əbu Bəkrin yanına gələrək miraslarını, Fədəkdəki torpağı və Xeybərdən payına düşənləri tələb etdilər. Əbu Bəkr dedi: "Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: "Biz miras qoymarıq, geridə buraxdıqlarımız sədəqədir".*[60]

Bunlara əsasən, İhsan Zahirin "hakim Fədəkdən istifadədə daha çox haqq sahibidir" sözünün puçluğu aydın olur. Belə ki, o, Fədəyin qənimətlərdən ibarət dövlət malı olduğunu və hakimin sərəncamında olduğunu iddia edirdi.[61] Şiə təlimlərinə əsasən, Fədək hədiyyə edilməklə ənfal (qənimət) hökmündən çıxmışdır. Həmçinin onlar Peyğəmbərin (s) həyatda ikən ondan xərclədiyində də həmfikirdirlər. Hədiyyə edilməklə Fədək Fatimənin (ə) xüsusi mülkiyyətinə çevrilmişdi. Buna əsasən də hakimin onun üzərində heç bir hökmü ola bilməzdi.

Sünnilər isə Fədəyin üzərinə at və ya dəvə sürülmədən əldə edilən, şəxsən Peyğəmbərə (s) məxsus və vəfatınadək onun sərəncamında qaldığında yekdil

---

[58] Rum, 38

[59] əl-Əmali, Şeyx Səduq, s. 619; Uyunu əxbarir-Rza (ə), c. 2, s. 211

[60] Səhih, Buxari, c. 5, s. 25; c. 8, s. 3

[61] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 87

rəyə sahibdirlər. Onlar həmçinin Peyğəmbərin (s) özündən sonra miras qoymadığında, geridə buraxdıqlarının sədəqə olduğunda da həmfikirdirlər. Onun vəfatından sonra isə Fədəyi sədəqələrə əlavə ediblər.

Bunlara əsasən aydın olur ki, hakimin onların üzərində istifadə haqqı yoxdur. Sadəcə bu sədəqə olaraq müvəqqəti sərəncama keçə bilər. Bu isə yeni fikir deyil. Əhli-Sünnənin bu məsələdəki rəyi əvvəldə belədir. Bu rəyin zəif olması barədə şiə alimləri əqli və nəqli dəlillər təqdim etmiş, peyğəmbərlərin (ə) miras hökmləri dairəsindən kənarda qalmadıqlarını isbat etmişlər.

Birinci fəsil: Fədəyin tarixi və şiə mənbələrində peyğəmbərlərin (ə) mirası

Burada iki bəhs var:

Birinci bəhs: Fədəyin tarixindəki hadisələr

İkinci bəhs: Şiə mənbələrində peyğəmbərlərin (s) mirasının olmadığına dair rəvayətlər

Birinci bəhs: Fədəyin tarixindəki hadisələr

Fədək ətrafında dövr edən tarixi mərhələlərə nəzər salan şəxs Fədək barədə yanaşmanın müəyyən bir qayda çərçivəsində olmadığını, həmçinin aydın bir dəlilə uyğun rəftar edilmədiyini görəcək. Əksər zamanlarda onunla bağlı hökmlərdə "ictihad", siyasət, həvaye-nəfs və istəklərin aşkar təsirləri görünür. İlk üç xəlifənin onunla bağlı fərqli rəftarları olmuş, Əməvilər və Abbasilər dövründə isə vəziyyət dolaşıq hal almışdı.

Əvvəldə də qeyd edildiyi kimi, ilk dövrlərdə Əbu Bəkr Fədəyi Əhli-Beytin (ə) əlindən almış, Ömər isə öz xilafəti dövründə miras ünvanı ilə deyil, daha yaxşı baxılması və qulluq edilməsi üçün onlara (ə) qaytarmışdı. Bunu Müslim və Buxarinin rəvayətlərində də görürük. Ömər Abbasa və Möminlərin əmirinə (ə) deyir (rəvayət Müslimdəndir): *"Əgər istəyirsinizsə onu sizə verərəm, belə ki, Peyğəmbərin (s) onunla rəftar etdiyi kimi sizin də rəftar etməniz Allahın boynunuzdakı əhdidir – demişdim. Siz onu götürdünüz. Belə deyilmi?" Dedilər: "Bəli, elədir". Ömər dedi: "Sonra yanıma gəlib aranızda hökm etməməyimi istədiniz. Xeyr, Allaha and olsun ki, sizin aranızda bundan başqası ilə hökm etməyəcəyəm".*[62]

İbn Həcər bu rəvayətin şərhində "*...Xeyr, Allaha and olsun ki, sizin aranızda bundan başqası ilə hökm etməyəcəyəm"* sözü ilə bağlı deyir: "Yəni, bunu sizə yalnız rəhbərlik və baxım üçün verirəm".[63]

Lakin Osman xilafəti dövründə onu geri aldı və Mərvan ibn Həkəmə verdi. Bu, Peyğəmbərin (s) qovaraq sürgün etdiyi həmin Mərvan ibn Həkəmdir ki, Osman onu Mədinəyə qaytardı, himayə etdi və qızı ilə evləndirdi. İbn Əbdu Rəbbih Əndəlusi deyir: "Camaatı Osmana qarşı ən çox qəzəbləndirən isə Peyğəmbərin (s) qovaraq sürgün etdiyi həmin Həkəm ibn Əbülası himayə etməsiydi... Fədək Peyğəmbərin (s) sədəqəsi olduğu halda Osman onu Mərvana verdi".[64]

---

[62] Səhih, Müslim, c. 5, s. 153; Səhih, Buxari, c. 4, s. 44

[63] Fəthul-bari, İbn Həcər, c. 6, s. 145

[64] əl-Əqdul-fərid, İbn Əbdu Rəbbih, c. 2, s. 87

İbn Həcər "Fəthul-bari"də deyir: "Osman öz rəyinə uyğun Fədəkdən istifadə edirdi. Əbu Davud Müğeyrə ibn Muqsəmin vasitəsilə rəvayət edir: "Ömər ibn Əbdüləziz Mərvan oğullarını bir yerə toplayıb dedi: "Peyğəmbər (s) Fədəkdən əldə etdiklərini Bəni-Haşimə xərcləyir, onların kölələrini evləndirirdi... Peyğəmbərin (s), Əbu Bəkrin və Ömərin dövrlərində belə idi. Sonra Osmanın dövründə Mərvan onu ələ keçirdi".[65]

Məlum olur ki, Möminlərin əmiri Əli (ə) öz xilafəti dövründə Fədəyi Mərvandan geri alıb. Çünki Müaviyə hakimiyyəti ələ keçirdikdən sonra onu ikinci dəfə Mərvana qaytarır. Təbəri öz "Tarix"ində yazır: "Əhli-Sünnənin siyər əhlinin sözlərinə əsasən Mərvan həmin il camaatı Həccə apardı. Müaviyənin ona qarşı qəzəbli olduğuna, eləcə də əvvəl bağışladığı Fədəyi ondan geri aldığına əsasən vəzifədən çıxarılacağını gözləyirdi".[66]

İbn Səd "ət-Təbəqat" əsərində Cəfər ibn Muhəmməd Ənsaridən nəql edir: "Müaviyə Mərvan ibn Həkəmi Mədinəyə vali təyin etdi. Mərvan Müaviyəyə məktub yazaraq ondan Fədəyi istədi və Müaviyə onu Mərvana verdi. Fədək Mərvanın əlində idi, onun meyvələrini satır, hər il on minlərlə dinar qazanırdı. Sonra Müaviyə ona qəzəbləndi, Mədinənin valiliyindən çıxardı, Fədəyi geri aldı və onun Mədinədəki vəkilinin sərəncamına verdi. Vəlid ibn Ütbə ibn Əbu Süfyan və Səid ibn As onu Müaviyədən istəsələr də, onlara vermədi. Mərvan ibn Həkəmi növbəti dəfə Mədinəyə vali təyin etdikdə Mərvan müraciət etmədən Müaviyə Fədəyi yenidən ona verdi. Ötən dövr ərzində Fədəkdən əldə olunan gəliri də geri qaytardı. Fədək Mərvanın ixtiyarında idi".[67]

Mərvandan sonra Ömər ibn Əbdüləzizin hakimiyyət dövrünədək Fədək Bəni-Üməyyənin əlində oldu. Bəlazuri deyir: "Ömər ibn Əbdüləziz camaata xütbə söyləyərək dedi: "Fədək üzərinə at və ya dəvə sürülmədən əldə olunmuş və Allah onu Peyğəmbərə (s) vermişdi... Müaviyə hakimiyyətə gəldikdə onu Mərvan ibn

---

[65] Fəthul-bari, İbn Həcər, c. 6, s. 141

[66] Tarix, Təbəri, c. 4, s. 173, "Qırx doqquzuncu ilin hadisələri".

[67] ət-Təbəqatul-kubra, Muhəmmməd ibn Səd, c. 5, s. 388

Həkəmə verdi. Mərvan da Əbdülməlikə və atama verdi. Nəticədə Fədək Vəlidin, Süleymanın və mənim mülkiyyətimdə oldu. Vəlid hakimiyyətə gəldikdə ondan onun öz payını istədim və Vəlid onu mənə verdi. Həmçinin Süleymandan da ona aid olan hissəni istədim, o da öz payını mənə hədiyyə etdi. Onları bir əldə cəmlədim. Mənim üçün ondan daha sevimli mülkiyyət yox idi.[68] Şahid olun ki, onu sahiblərinə qaytarıram".[69]

Ardınca onu Zəhra (ə) balalarına qaytardı. Yaqut Həməvi "Möcamul-buldan" kitabında deyir: "Ömər ibn Əbdüləziz xilafətin rəhbərliyinə keçdikdə Mədinədəki məmuruna məktub yazaraq Fədəyi Fatimənin (ə) övladlarına qaytarmağı əmr etdi. Ömər ibn Əbdüləzizin xilafəti müddətində Fədək onlarda idi".[70]

Lakin Ömər ibn Əbdüləziz öldükdən sonra xəlifə elan olunan Yezid ibn Əbdülməlik onu Fatimənin (ə) övladlarından geri aldı. Yaqut deyir: "Yezid ibn Əbdülməlik hakimiyyətə gəldikdə onu qaytardı və hələ də Bəni-Üməyyənin əlindədir".[71]

Abbasilər dönəmində Əbülabbas Səffah hakimiyyəti ələ keçirdikdə Fədəyi Əli ibn Əbu Talibin (ə) övladlarından Həsən ibn Həsənin oğlu Abdullaha qaytardı. Əbu Cəfər Mənsur öz xilafəti zamanında yenidən onlardan geri aldı. Lakin Mehdi ibn Mənsur xəlifə olduqda təkrarən Fatimənin (ə) övladlarına qaytardı. Musa ibn Mehdi ilə qardaşları isə onu əllərindən aldılar. Məmun xilafətə gələnədək Fədək onlarda qaldı. Məmun xəlifə olduğu zaman onu yenidən Fatimənin (ə) övladlarına qaytardı. Yaqut Həməvi deyir: "Əbülabbas Səffah xilafətin rəhbərliyinə keçdikdə Fədəyi Abdullah ibn Həsən ibn Həsən ibn Əli (ə) ibn Əbu Talibə verdi. Abdullah onların qəyyumu idi və onu Əli ibn Əbu Talibin (ə) övladlarının arasında bölüşdürürdü. Mənsur xəlifə olduqda Həsən övladları ona qarşı qiyam etdilər, bu səbəbdən, Fədəyi onlardan geri aldı. Mehdi ibn Mənsur özünün xilafəti dövründə

---

[68] Bu sözlər Fədəyin ərazisinin genişliyini, varidat və mənfəətinin çoxluğunu göstərir.

[69] Futuhul-buldan, Bəlazuri, c. 1, s. 36-37

[70] Möcamul-buldan, Həməvi, c. 4, s. 239

[71] Möcamul-buldan, Həməvi, c. 4, s. 239

geri qaytardı, Musa Hadi onu əllərindən alıb Məmunun hakimiyyətinədək ixtiyarında saxladı".[72]

Bəlazuri deyir: "İki yüz onuncu ildə möminlərin əmiri Məmun Abdullah ibn Harun Rəşid əmr verərək Fədəyi Fatimə övladlarına qaytardı. Bu barədə Mədinənin valisi Qəsəm ibn Cəfərə məktub yazaraq dedi: "...Peyğəmbər (s) Fədəyi qızı Fatiməyə vermişdi və o, ondan xərcləyirdi. Bu, Peyğəmbər (s) ailəsinin nəzdində aydın və məlum, ixtilafsız bir məsələdir. Ona onlardan daha layiq bir şəxsi tanımıram. Möminlərin əmiri qərara alıb ki, onu öz varislərinə qaytarıb təhvil versin. Bununla Allaha və Peyğəmbərinə (s) yaxınlaşmaq, Allahın haqqını və ədalətini bərpa etmək və Peyğəmbərinin (s) əmrini və sədəqəsini yerinə yetirmək istəyirəm". Bunu öz kargüzarlığında təsbit etməyi və məmurlarına bu haqda bildiriş göndərməyi tapşırdı. Peyğəmbərin (s) vəfatından sonra hər bir mövsümdə bir carçı çıxar, Peyğəmbərə (s) aid sədəqənin, bəxşişin və s. tələbləri olan şəxsləri çağırar, iddiaçının sözü qəbul edilərək istəyi icra olunardı. Fatimə (r) Peyğəmbərdən (s) qalanlar barədə sözü təsdiq edilməyə ən layiq şəxs idi. Möminlərin əmiri özünün məmuru Mübarək Təbəriyə məktub yazaraq Fədəyi öz keçmiş sərhədləri, bütün hüquqları, xidmətçiləri və gəliri ilə bərabər Fatimənin övladlarına qaytarmağı əmr etdi..."[73]

Xilafət Mütəvəkkilə həvalə olunduqda yenidən Fədəyi Fatimənin övladlarının əlindən aldı və Məmundan əvvəlki sahiblərinə qaytarmağı əmr etdi. Bəlazuri deyir: "Mütəvəkkil Əlallah (r) xəlifə olduqda onu Məmundan əvvəl sahib olan şəxslərə qaytarmağı tapşırdı".[74]

Müntəsir hakimiyyətə gəldikdə isə onu təkrarən Fatimənin övladlarına geri verdi. İbn Əsir öz "Tarix"ində yazır: "Müntəsir böyük həlimliyə sahibi idi... Camaata Əlinin (ə) və Hüseynin (ə) qəbirlərini ziyarət etməyi əmr edirdi. Ələvilər atasının xilafəti zamanında qorxu altında yaşadıqları halda, onun dövründə

[72] Möcamul-buldan, Həməvi, c. 4, s. 239
[73] Futuhul-buldan, Bəlazuri, c. 1, s. 37-38
[74] Futuhul-buldan, Bəlazuri, c. 1, s. 38

amanda və asayişdə idilər. Onlara mülkiyyət azadlığı verdi, Fədəyi Əli ibn Əbu Talibin (ə) oğulları Həsən (ə) və Hüseynin (ə) övladlarına qaytarmağı əmr etdi".[75]

İmam Əlinin (ə) xilafəti dövründə Fədək

İhsan Zahirin iddiasına görə, Möminlərin əmiri Əli (ə) də öz xilafəti dövründə Fədəklə əvvəlki iki xəlifə kimi rəftar etmişdi. Buna Seyyid Mürtəzaya nisbət verdiyi cümlələri dəlil göstərmişdi. İhsan Zahir deyir: **"Necə ki, ələmul-huda ləqəbli şiə alimi Seyyid Mürtəza deyir: "Xilafət Əli ibn Əbu Talibə yetişdikdə Fədəyin qaytarılması barədə söz açaraq dedi: "Mən Əbu Bəkrin və Ömərin qadağan etdiyi şeyi qaytarmağa Allahdan həya edirəm".[76]**

Bunun izahı qarşıda qeyd ediləcək, inşallah. Çox təəssüf olsun ki, müəllif öz adəti üzrə yenə də saxtakarlığa yol vermiş, oxucunu növbəti dəfə yanıltmağa səy göstərmişdir.

İhsan Zahir bu kəlmələri Seyyid Mürtəzanın "əş-Şafi" kitabından nəql edib. Həmin kitabı Seyyid Mürtəza Qazi Əbdülcabbar Mötəzilinin "əl-Muğni" kitabına cavab olaraq qələmə alıb. Seyyid Mürtəza öz üslubuna əsasən birinci Qazi Əbdülcabbarın sözlərini nəql edir, ardınca da ona cavab verir. Verdiyi cavabda isə Əhli-Sünnə rəvayətlərindən dəlillər təqdim edir. Əhli-Sünnə mənbəyindəki hədisin bir hissəsinin onun etiqadına əks olmasına baxmayaraq, rəvayəti əksər hallarda kəsmədən, tam mətnlə nəql edir. Bütün bunlar Seyyid Mürtəzanın elmi əmanətə olan qayğısını göstərir.

Halbuki İhsan Zahir burada bir çox yerdə saxtakarlığa əl atır, gah Qazi Əbdülcabbarın sözlərini Seyyid Mürtəzaya nisbət verir (necə ki, birinci cilddə dəfələrlə bunun şahidi olduq), gah da Seyyid Mürtəzanın cavab olaraq Əhli-Sünnədən nəql etdiyi rəvayətin bir hissəsini müəllifin rəyi kimi təqdim edir. Necə ki, bunu hazırkı məqamda da müşahidə edirik.

---

[75] əl-Kamilu fit-tarix, İbn Əsir, c. 7, s. 116

[76] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 89

İhsan Zahir bu adətinin üzərində inadla israr edir. Bunun arxasında duran həqiqi səbəbi bilmirik. Ya məsələ onun üçün qarışıq qalmışdır, ya da bunu qəsdən edib.

Burada isə qəsdən saxtakarlığa əl atdığına şübhə etmirik. Çünki həmin mənbədə Seyyid Mürtəzanın sözləri olduqca aydındır.

Qazi Əbdülcabbar özünün "əl-Muğni" kitabında iddia edir ki, Fatimə (ə) Əbu Bəkrin dəlillərini eşitdikdə öz tələbindən əl çəkdi. Deyir: "Fatimə (ə) Əbu Bəkrin dəlillərini eşitdikdə öz tələbindən əl çəkdi. Əvvəldə də, sonra düz qərar qəbul etdi".[77]

Seyyid Mürtəza isə cavabında bildirir ki, Fatimə (ə) tələbində mübahisə və münaqişədən əl çəkdi, lakin qəzəbli, zülm edilmiş və acı çəkərək onlardan üz çevirdi. Sonra isə Seyyid bu sözlərinə Əhli-Sünnə rəvayətlərindən dəlillər təqdim edərək deyir: "Ömrümə and olsun ki, o, tələbində mübahisə və münaqişədən əl çəkdi, lakin qəzəbli, zülm edilmiş və acı çəkərək onlardan üz çevirdi. Bu məsələdə onun qəzəbi və narazılığı heç bir insaflı şəxsə gizli deyil. Şiə olmaları ilə ittiham edilməyən və ya şiə təəssübü çəkməyən bir çox ravilər Xanımın (ə) oradakı sözlərini nəql etmişdir. Tələbində mübahisə və münaqişədən əl çəkməsi və onlardan üz döndərməsi, qeyd etdiyimiz qəzəb və narazılığa dəlildir".[78]

Sonra buna dəlil olaraq, Seyyid Mürtəza Zəhranın (ə) sözlərinin qeyd edildiyi Əhli-Sünnə rəvayətlərini nəql edir. Ürvənin Aişədən, Übeydullah ibn Muhəmməd Həfs Təmimi (İbn Aişə) yolu ilə nəql etdiyi rəvayəti qeyd edərək kitabında deyir: "Onun (Qazi Əbdülcabbarın) "Fatimə (ə) Əbu Bəkrin dəlillərini eşitdikdə öz tələbindən əl çəkdi. Əvvəldə də, sonra düz qərar qəbul etdi" sözünə gəldikdə, ömrümə and olsun ki, o, tələbində mübahisə və münaqişədən əl çəkdi, lakin qəzəbli, zülm edilmiş və acı çəkərək onlardan üz çevirdi. Bu məsələdə onun qəzəbi və narazılığı heç bir insaflı şəxsə gizli deyil. Şiə olmaları ilə ittiham

[77] əl-Muğni fil-İmaməti (I bölmə), Qazi Əbdülcabbar, s. 329

[78] əş-Şafi, Seyyid Mürtəza, c. 4, s. 69.

edilməyən və ya şiə təəssübü çəkməyən bir çox ravilər Xanımın (ə) oradakı sözlərini nəql etmişdir. Tələbində mübahisə və münaqişədən əl çəkməsi və onlardan üz döndərməsi, qeyd etdiyimiz qəzəb və narazılığa dəlildir.

Burada sözlərimizin doğruluğuna dəlil olacaq rəvayətləri qeyd edirik. Əbu Abdullah Muhəmməd ibn İmran Mirzəbani deyir: Muhəmməd ibn Əhməd Katib Əhməd ibn Übeyd ibn Nasih Nəhəvidən, o da Ziyadidən, o da Şərqi ibn Qətamidən, o da Muhəmməd ibn İshaqdan, o da Saleh ibn Keysandan, o da Ürvədən, o da Aişədən nəql edir.

Mirzəbani deyir: Əbu Bəkr Muhəmməd ibn Məkki, Əbüleyna Muhəmməd ibn Qasim Seymamidən, o da İbn Aişədən nəql edir:[79] "Peyğəmbərin (s) vəfatından sonra Fatimə (ə) öz xanım xidmətçi və qulluqçuları ilə Əbu Bəkrin yanına getdi".

Birinci rəvayətdə Aişə deyir: "Fatimə Əbu Bəkrin onu Fədəkdən məhrum etmək qərarını eşitdikdə üzərinə örtük atıb öz xanım xidmətçi və qulluqçuları ilə onun yanına getdi".

Buradan başlayaraq rəvayətlərin ardı eynidir: "...və qövmün qadınları ilə Əbu Bəkrin yanına daxil oldu. O, mühacir, ənsar və digərləri ilə bir yerdə idi. Xanım (ə) örtüyünü büküb ağlamağa başladı. Məclisdəkilər hamısı onun bu ağlamağından həyəcanlanıb ağladılar. Sonra bir az sakitləşdi, qəzəbi yatdı və sözə başladı. Allaha həmd və səna söyləyib, Peyğəmbəri salavat və salamla yad etdikdən sonra dedi: ***"Sizə özünüzdən bir peyğəmbər gəldi ki, sizin əziyyətə (məşəqqətə) düşməyiniz ona ağır gəlir, o sizdən (sizin iman gətirməyinizdən) ötrü təşnədir, möminlərə şəfqətli, mərhəmətlidir!".***[80]

---

[79] "Təqribut-təhzib"də İbn Həcər onun tərcümeyi-halında deyir: "Übeydullah ibn Muhəmməd ibn Aişə – babasının adı Həfs ibn Ömər ibn Musa ibn Übeydullah ibn Müəmmər Təmimidir. Ona Təlhənin qızı Aişəyə nisbət verilərək İbn Aişə, İbn Aişi və ya İbn İşi də deyilib. Belə ki, onların nəslindəndir. Siqədir, səxavətli şəxs olub, Qədəriyyədən olduğu iddia olunsa da, bu təsdiqini tapmayıb. İyirmi səkkizinci ildə ölüb". (c. 1, s. 638)

[80] Tövbə, 128

Odur ki, əgər bunu nəzərə alsanız, anlayacaqsınız ki, o mənim atamdır, sizin arvadlarınızın atası deyil. Və mənim əmim oğlunun qardaşıdır. Sizin kişilərdən deyil. Necə bir iftixara səbəbdir!

O, öz peyğəmbərliyini xəbərdarlığı ilə bildirdi və öz yolunu müşriklərin uçurumundan aralı saldı. Onların başlarını vurdu, boğazlarından yapışıb sıxaraq hikmət və moizələri ilə Allah yoluna dəvət etdi. Bütləri dağıtdı, başçılarının başlarını elə əzdi ki, çoxu dağıldı və arxalarını meydana çevirərək qaçdı.

Sübh gecənin pərdəsini yarıb çıxdı və haqqın parlaq siması üzündəki niqabı yerə atdı. Mütləq həqiqət və əsl haqq-ədalət göründü. Din başçısı sözə başladı və şeytansifət azğınların boğazları quruyub susdu. İxlas kəliməsi tamamlandı. Halbuki siz yanar çalanın qırağında fürsət axtaran adamyeyənlərin bir tikəsi idiniz. Hər yetən sizə bir təpik vururdu. Küçədəki gölməçələrdən çirkli su içir, ağacların yarpaqlarını yeyirdiniz. Alçaqlıq və yaramazlıq kölgəsi üstünüzü bürümüşdü. Qorxurdunuz ki, sizi bir göz qırpımında bu adamların arasından taparlar.

Bütün bunlardan sonra (bu zillət və xiffətlərin, yolazma və dinsizliklərin arxasından) Uca Allah Öz iradəsi ilə sizi atam Muhəmmədin (s) əli ilə xilas etdi və doğru yola yönəltdi. Halbuki onun özü insansifət yırtıcılarla, canavar xislətli ərəblərlə və dikbaş Kitab əhli ilə çarpışırdı. ***"Onlar hər dəfə savaş alovunu qızışdırdıqda (o İlahi nurlarını söndürmək məqsədilə) Uca Allahın Özü həmin atəşi söndürürdü".***

Haqsızlıq və günahların baş alıb getdiyi, məlun şeytanın hər an göründüyü, dinsiz əjdahaların dil çıxararaq alov püskürdüyü o çağlarda atam – Allahın Rəsulu (ə) dərhal öz əmisi oğlu Əlini (ə) o od püskürən əjdahalarla mübarizə üçün qabağa verdi. O da (əmisi oğlunun – qardaşının, rəhbərinin və müəlliminin əmri ilə) igidcəsinə irəli çıxır və bir göz qırpımında möhkəm yumruğu ilə əjdahanı əzib suyunu çıxarırdı. Özünün iti qılıncını həmin atəşi susdurmadan yerə qoymur, rahatlıq nə olduğunu bilmirdi. Axı o, haqq yolunda əzab-əziyyətlər görmüşdü,

İlahi fərmanını yerinə yetirməkdə çox sınaqlardan çıxmışdı. O, Allahın Elçisinin (s) ən yaxın (hamıdan yaxın) qohumu, İlahini sevənlərin, övliyaların başçısı idi. Siz isə o qorxulu çağlarda əmin amanlıqda öz eyş-işrətinizlə məşğul idiniz".

Burada Əbu Əynanın İbn Aişədən nəql etdiyi xəbər başa çatır. Ürvə ibn Zübeyr Aişədən bu əlavəni nəql edir: "Uca Allah elə ki, peyğəmbərlərin əbədi evini – Öz seçilmişlərinin daimi məskənini sonuncu peyğəmbərin (s) ixtiyarına verdi, sizin gizli düşmənçilik və nifaqınız aşkara çıxdı, yolunu azmışların içindəki qəzəb dilə gəldi. Heç bir adı-sanı olmayan adamlar dahilik iddiasına düşdülər. Azğın və günahkar adamlar səslərini başlarına ataraq küçələrdə meydan suladılar.

Bəli, şeytan başını deşikdən çıxarıb sizi özünə tərəf səslədi. Şeytan gördü ki, onun dəvətini canla-başla qəbul edir, sözünü eşidir və ona hörmət-izzətlə baxırsınız. Odur ki, sizdən ayağa durmağı xahiş etdi və gördü ki, nə tez ayağa qalxırsınız. Sizi dağlayıb gördü ki, necə də atəşsevərsiniz. Siz də qəzəblənib başqalarına daha yandırıcı dağlar vurdunuz.

Allahın Peyğəmbəri (s) ilə əhd-peyman bağlamışdınız, lakin onu çox tez unutdunuz. Həmin əhdin mürəkkəbi quruyan kimi, bəhanə etdiniz ki, bir fitnə olmasın deyə, qorxudan belə iş tutmusunuz ***"Bilin ki, özünüz fitnə içindəsiniz və cəhənnəm hər tərəfdən kafirləri qoynuna almaqda davam edir".***

Bəs necə oldu ki, bu cür iş tutdunuz? Bu cür hara gedib çıxacaqsınız? Halbuki Allahın kitabı – Quran qarşınızdadır. Onun mətləblərini aşkar, hökmləri aydın, göstərişləri nurani, çatdırdıqları göz qabağında, əmrləri bəllidir. Bunlara baxmayaraq, Ona məhəl qoymadınız? Yoxsa, Ondan üz çevirmək istədiniz? Bəlkə Quran əvəzində başqa şey tapıb, onun hökmlərinə əməl edirsiniz? Bilin ki, Quranın əksinə olan hökm zülmkarlar üçün yaxşılıq əvəzi deyil. ***"Kim İslam dinindən başqa din axtarsa, əsla ondan qəbul olunmayacaq və o, axirətdə də ziyankarlardan olacaq".***

Sonra o qədər sakit durmadınız ki, bu nabələd minik heyvanı ram olsun, cilovunu ələ versin və sizə tabe olsun. Biz də (bu zülmlər qarşısında) bədəninə

xəncər saplanmış, ürəyinə nizə batmış bir adam kimi dözür, səbr edirik. İndi güman edirsiniz ki, bizə Allahın Rəsulundan (s) bir irs qalmayıb? ***"Onlar Cahiliyyət dövrünün hökmünümü istəyirlər? Tam qənaət sahibi olan bir camaat üçün Allahdan daha yaxşı hökm verə bilən kimdir?!"***[81]

Bax, ey Əbu Qihafənin oğlu! Sən atandan irs qazanmalısan, mən isə öz atamın irsindən məhrum qalmalıyam?

"Heyhat, əgər düşünürsən ki, Allahın Kitabının hökmlərinə görə sənin atandan qalma irsin var, mənə isə atamdan heç bir irs nəsib olmayıbdır, çox yanılırsan. ***"Sən çox əcaib bir şeylə gəldin! (Və ya çox çirkin bir iş gördün!)".***[82] Amma sən də bil ki, doğrudan da məhşər günü də var və o gün axırda gələcək və sənlə üz-üzə duracaq. Həmin gün özün başa düşəcəksən ki, Uca Allah nə gözəl hakim, Muhəmməd (s) nə yaxşı iddiaçı və haqqını istəyəndir. Qiyamət günü də nə yaxşı bir vaxtdır. ***"Hər bir xəbərin*** (Quranda sizə xəbər verdiyim əzabın Allah tərəfindən təqdir olunmuş) ***müəyyən bir vaxtı var və siz (onu) biləcəksiniz".***[83]

Sonra atasının qəbrinə tərəf getdi...

Deyir: Əbu Bəkr Allaha həmd-səna söylədi, Peyğəmbərə və ailəsinə salavat göndərib dedi: "Ey qadınların ən yaxşısı və ən yaxşı peyğəmbərin qızı! Allaha and olsun ki, mən Peyğəmbərin (s) rəyinə düşmənçilik edə bilmərəm. Yalnız onun izni ilə rəftar edirəm. Başçı öz əhlini aldatmaz. Mən Allahı şahid tuturam, O, şahid olaraq yetərlidir! Mən Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: "Biz peyğəmbərlər özümüzdən sonra qızıl-gümüş, ev-mülk miras buraxmarıq. Yalnız kitab və hikmət, elm və peyğəmbərlik miras qoyarıq".

Deyir: "Xilafət Əli ibn Əbu Talibə yetişdikdə Fədəyin qaytarılması barədə söz açaraq dedi: "Mən Əbu Bəkrin və Ömərin qadağan etdiyi şeyi qaytarmağa həya edirəm".[84]

---

[81] Maidə, 50

[82] Məryəm, 27

[83] Ənam, 67

[84] əş-Şafi fil-imamət, Seyyid Mürtəza, c. 4, s. 68-76

İhsan Zahirin nəql etdiyi Seyyid Mürtəzanın sözlərinə nəzər salan şəxs onun bu xütbəni Əhli-Sünnə mənbələrindən rəvayət etdiyini aydın görəcək. Necə ki, bunu öz sözləri ilə də bəyan edir: "Şiə olmaları ilə ittiham edilməyən və ya şiə təəssübü çəkməyən bir çox ravilər Xanımın (ə) oradakı sözlərini nəql etmişdir".[85]

İlahi İhsan Zahirin Seyyid Mürtəzaya nisbət verdiyi kəlmələr həqiqətdə ona məxsus deyil. Oradakı sözlər Ürvə ibn Zübeyrin Aişədən nəql etdiyi Xanım Zəhranın (ə) sünni mənbəyindəki xütbəsindən bir parçadır. Seyyid Mürtəza bu xütbəni kitabında İbn Aişənin və Ürvə ibn Zübeyrin sözlərinə heç bir şey artırmadan və azaltmadan tam mətni ilə qeyd edib. Bu rəvayət isə Qazi Əbdülcabbarın sözlərinə cavabdır.

Seyyid Mürtəzanın bu cavabla məqsədi İbn Aişənin və Ürvə ibn Zübeyrin sünni mənbəyindəki rəvayətləri Zəhranın (ə) qəzəbli olduğunu, ilk iki xəlifəyə qarşı narazılığını bildirir, bu rəftarları ilə ona zülm və acı verdiklərini, onlardan şikayət etdiyini açıq bəyan edir.

Seyyid Mürtəza bu rəvayətləri öz əqidəsinə əsasən deyil, əksinə, onların öz rəvayətlərini özlərinə qarşı dəlil göstərmək üçün nəql edir. Bunun isbatı isə Ürvənin rəvayətini nəql etməzdən əvvəl Seyyidin qeyd etdiyi kəlmələrdir: "Ömrümə and olsun ki, o, tələbində mübahisə və münaqişədən əl çəkdi, lakin qəzəbli, zülm edilmiş və acı çəkərək onlardan üz çevirdi. Bu məsələdə onun qəzəbi və narazılığı heç bir insaflı şəxsə gizli deyil".[86]

Bu kəlmələr Ürvənin xütbə ilə bağlı sözləri ilə uyğun deyil: "Xilafət Əli ibn Əbu Talibə yetişdikdə Fədəyin qaytarılması barədə söz açaraq dedi: "Mən Əbu Bəkrin və Ömərin qadağan etdiyi şeyi qaytarmağa həya edirəm".

Aydındır ki, bu fikirlər bir-birinə ziddir. Belə ki, Ürvənin rəvayəti onun mübahisədən əl çəkərək razılaşdığını bildirir. Bu isə Qazi Əbdülcabbarın digər bir

---

[85] əş-Şafi fil-imamət, Seyyid Mürtəza, c. 4, s. 68

[86] əş-Şafi, Seyyid Mürtəza, c. 4, s. 68-69

iddiası idi: “Fatimə (ə) Əbu Bəkrin dəlillərini eşitdikdə öz tələbindən əl çəkdi. Əvvəldə də, sonra düz qərar qəbul etdi”.

Seyyid Mürtəza isə bu sözə qətiliklə etiraz edir: “Fatimə (ə) tələbində mübahisə və münaqişədən əl çəkdi, lakin qəzəbli, zülm edilmiş və acı çəkərək onlardan üz çevirdi”.[87]

Həmçinin, göründüyü kimi, Seyyid Mürtəza Ürvə ibn Zübeyrin Aişədən nəql etdiyi rəvayətlə Xanım Zəhranın (ə) sözlərini dəlil göstərir, yalnız Ürvənin sözlərini qeyd etmir. Həmin sözlər isə Fatimənin (ə) xütbəsi ilə bağlı Ürvənin rəvayətdəki şəxsi fikirləridir. Ürvə xütbəni kamil mətnlə rəvayət etdikdən sonra Fədəklə bağlı Möminlərin əmirinin (ə) öz xilafəti dövründəki sözlərinə də yer verir. Aişədən nəql edilən hissə yalnız Xanım Zəhranın (ə) xütbəsindən ibarətdir. Lakin Ürvənin sözləri Aişənin rəvayətinin bir hissəsi deyil, Fədəyin sonrakı taleyi ilə bağlıdır. Ürvənin bu sözlərindəki məqsədinin nə olduğunu anlamırıq. Belə ki, onun sözlərinin xütbə ilə bir əlaqəsi yoxdur. Bəlkə də, bu, Xanımın (ə) ilk iki xəlifə barəsindəki sərt sözlərinin təsirini zəiflətmək məqsədi daşıyır.

Xanım Fatimənin (ə) tələbində mübahisə və münaqişədən əl çəkərək, lakin qəzəbli, zülm edilmiş və acı çəkərək onlardan üz çevirdiyinə işarə edən dəlillərdən biri də Buxarinin “Səhih”də Aişədən nəql etdiyi rəvayətdir: *“Peyğəmbərin (s) qızı Fatimə (ə) atasının vəfatından sonra Əbu Bəkr Siddiqdən atasından qalan mirası bölüb payını verməsini istədi. Əbu Bəkr dedi: “Peyğəmbər (s) buyurub: “Biz miras qoymarıq, bizdən qalanlar sədəqədir”.*

Peyğəmbərin (s) qızı Fatimə bundan qəzəbləndi, vəfat etdiyi vaxtadək Əbu Bəkrlə danışmadı”.[88]

Həmçinin “Səhih”də Aişə yolu ilə rəvayət edir: *“Peyğəmbərin (s) qızı Fatimə Əbu Bəkrin yanına adam göndərib Peyğəmbərin (s) mirasını, Allahın Mədinədən ona məxsus etdiklərini (*feyini*), Fədəyi və Xeybər xümsündən qalanları tələb etdi...*

[87] əş-Şafi, Seyyid Mürtəza, c. 4, s. 68-69

[88] Səhih, Buxari, c. 4, s. 42

Əbu Bəkr ona bir şey verməkdən imtina etdi. Fatimə Əbu Bəkrə qəzəbləndi və vəfat edənədək onunla bir daha danışmadı. Peyğəmbərin (s) vəfatından sonra altı ay yaşadı.Vəfat etdikdə həyat yoldaşı Əli onu gecə ikən dəfn etdi. Dəfnində Əbu Bəkrin iştirakına izn vermədi..."[89]

Eləcə də Müslim "Səhih"indən Aişədən rəvayət edir: *"Peyğəmbərin (s) qızı Fatimə Əbu Bəkrin yanına adam göndərib Peyğəmbərin (s) mirasını, Allahın Mədinədən ona məxsus etdiklərini (*feyini*), Fədəyi və Xeybər xümsündən qalanları tələb etdi... Əbu Bəkr ona bir şey verməkdən imtina etdi. Fatimə Əbu Bəkrə qəzəbləndi və vəfat edənədək onunla bir daha danışmadı. Peyğəmbərin (s) vəfatından sonra altı ay yaşadı.Vəfat etdikdə həyat yoldaşı Əli onu gecə ikən dəfn etdi. Dəfnində Əbu Bəkrin iştirakına izn vermədi..."*[90]

Aişənin hədisi aydın şəkildə Fatimənin (ə) Fədəyi və atasının mirasını istədiyinə və Əbu Bəkrin də bunları verməkdən imtinasına dəlalət edir. Xanım (ə) onun göstərdiyi dəlilləri qəbul etmir, ölənədək ona qəzəbli qalır, hətta cənazəsinə namaz qılmasının qadağan edilməsini də vəsiyyət edir. Bunlar bəzi rəvayətlərdə qeyd edilib, lakin bura onları qeyd etməyin yeri deyil.

Bundan əlavə, Ürvənin və İhsan Zahirin iddiaları digər cəhətdən təhrifdir. Belə ki, İmam Əli (ə) "Mən... Allahdan həya edirəm" deməmişdir. Çünki o, bu məsələdə Allahdan deyil, insanlardan həya edirdi. Belə ki, əlindəki hakimiyyətdən istifadə edib Fədəyi Zəhranın (ə) övladlarına qaytarmaqla onu qohumbazlıqda və öz mənfəəti üçün səy göstərməkdə ittiham edəcəklərindən çəkinirdi. Belə ki, bu artıq ilk iki xəlifənin dövründə baş vermişdi. Həmin vaxt Fatimənin (ə) sözlərinə Əlini (ə) şahid göstərməsi özləri üçün mənfəət əldə etmək iddiası ilə rədd edilmişdi.

"Rəşhul-vəla" kitabında qeyd edilən səhih rəvayətdə deyilir: *"Həsən (ə) və Hüseyn (ə) atalarının xilafəti zamanında ona dedilər: "Ey möminlərin əmiri, Fədəyi*

---

[89] Səhih, Buxari, c. 5, s. 82

[90] Səhih, Müslim, c. 5, s. 153-154

bizə qaytar. Fədəyin bizim haqqımız olduğunu bilirsən". İmam Əli (ə) buyurdu: "Fədəyin və mirasın sizin haqqınız olduğuna heç bir şübhə yoxdur. Keçmiş xəlifələr ondan məhrum etdilər. Sonrakılar da buna əsasən rəftar etdilər. Sizin haqqınız olduğunu bildiyim halda, onu sizə qaytarmağa həya edirəm. Əgər ayaqlarım bu sürüşkən yerdə (fitnələrdə) möhkəm qərar tutsaydı, çox şeyləri dəyişərdim".[91]

Bu hədis Fədəyin və mirasın onların haqqı olduğunu, bunda heç bir şübhəyə yer olmadığını aydın bəyan edir. Lakin özündən əvvəlki xəlifələr bu haqqa zülm etdilər, camaat da bu zülmlərin əsasında rəftar etdilər. Əgər dövründə baş qaldıran sürüşkən fitnələrdə ayaqları sabit qərar tutsaydı, bütün bunları kökündən dəyişərdi. Təqdim edilən bu dəlillərdə Ürvənin və İhsan Zahirin iddia və gümanlarına uyğun bir şey varmı?! Daha geniş şərhi "Özündən əvvəlki xəlifələrin qoyduğu möhkəmlənmiş qaydalar" bəhsində qeyd edəcəyik.

Möminlərin əmiri Əlinin (ə) Fədəklə bağlı addımları

Tarix kitabları Möminlərin əmiri Əlinin (ə) xilafəti dövründə Fədəyin statusu barədə bizə aydın şəkildə məlumat vermir. İmamın (ə) xilafətindən əvvəl Fədəyin Mərvan ibn Həkəmin sərəncamında olduğu sübuta yetmiş faktdır. Osman Mərvanı qızı ilə evləndirdikdən sonra Fədəyi onun mülkiyyətinə keçirmişdi. Buna əvvəldə toxunduq.

Aydındır ki, İmam Əli (ə) xilafəti zamanında ədalət və siyasətinə uyğun olaraq ədaləti bərpa etməyə, hər bir şeyi öz həqiqi məcrasına qaytarmağa səy göstərmişdir. Xüsusilə də, Osmana qarşı camaatı qəzəbləndirən və üsyan etmələrinə rəvac verən səbəblərin aradan qaldırılması məsələləri daim gündəmdə idi. Şübhə yoxdur ki, İmamın (ə) önündə duran ən əsas məsələ iqtisadiyyat idi. Təbəri Abdullah ibn Zübeyrə, ondan da atasına yetişən sənədlə rəvayət edir: *"Mədinə əhli Osmana məktub yazaraq onu tövbə etməyə çağırdılar. Ona qarşı dəlillər sadaladılar, Allahın onlara verdiyi haqları almadıqca və ya*

[91] Rəşhul-vəla fi şərhid-dua, Hafiz Əsəd ibn Əbdülqahir İsfahani, s. 115

öldürmədikcə ondan əl çəkməyəcəkləri barədə Allaha and içdilər... Osman Əlinin yanına adam göndərib onu çağırtdı. Əli gəldikdə Osman dedi: "Ey Əbülhəsən! Camaatın etdiklərini görür, mənim etdiklərimi də bilirsən. Onların məni öldürməyəcəklərinə əmin deyiləm. Allaha and olsun ki, hətta qanım belə tökülsə onları narazı olduqları hər bir məsələdə razı salacağam, özümdə və başqasında olan haqlarını qaytaracağam".

Əli dedi: "Camaatın sənin ədalətinə qətlindən çox ehtiyacları var. Mən razı salınmadıqca razılaşmayacaq bir dəstə insan görürəm. Onlar ilk dəfə gəldikdə sən Allah qarşısında söz verib barəsində qəzəbləndikləri bütün şeylərdən əl çəkəcəyini bildirdin, mən də onları səndən uzaqlaşdırdım. Lakin ardınca verdiyin sözlərdən heç birini tutmadın. Bu dəfə məni aldatma, mən sənin boynuna götürdüyün haqqı onlara çatdıracağam". Osman dedi: "Bəli, çatdır, Allaha and olsun ki, onlara olan vədimə vəfa edəcəyəm".

Əli camaatın qarşısına çıxıb dedi: "Ey camaat, siz haqqınızı tələb etdiniz, o sizə verildi. Osman söz verdi ki, özü və digərləri tərəfindən ədaləti bərpa edəcək, sizin bəyənmədiyiniz bütün işlərdən əl çəkəcək. Bunu qəbul edin və təsdiqləyin".

Camaat dedi: "Biz qəbul edirik. Ondan bizim üçün bir zəmanət al. Belə ki, biz onun əməlsiz boş sözlərinə əsla razı olmayacağıq".

Əli dedi: "Bu sizin haqqınızdır".

Ardınca Osmanın yanına qayıdıb bunları ona xəbər verdi. Osman dedi: "Mənimlə onların arasında möhlət olacaq bir müddət təyin et. Mən onların tələblərini bir gün ərzində yerinə yetirə bilmərəm".

Əli dedi: "Mədinədə olanlarla bağlı möhlət yoxdur. Kənarda olanlara isə əmrinin ora çatacağı müddət sənə verilən möhlətdir".

Osman: "Yaxşı, ancaq Mədinədəkiləri tənzimləmək üçün mənə üç gün vaxt ver".

Əli razılığını bildirib camaatın qarşısına çıxdı, baş tutan söhbəti onlara xəbər verdi və Osmanla onların arasında bir razılaşma yazdırdı. Razılaşmaya əsasən, üç gün müddətində qəsb edilmiş bütün haqlar geri qaytarılmalı, camaatın

bəyənmədiyi məmurlar işdən çıxarılmalı idi. Ardınca camaat qarşısında Osmandan məxluqlardan alına biləcək ən möhkəm and və vədi aldı, buna mühacir və ənsarın öndə gələn şəxslərini şahid tutdu.

Camaat ondan əl çəkib verdiyi vədlərini yerinə yetirməsini gözlədi. Osman isə həmin andan döyüşə hazırlaşmağa, silah yığmağa başladı və qısa müddətdə böyük ordu topladı. Möhlət verilən üç gün başa çatdıqda o, verdiyi sözlərdən heç birini yerinə yetirməmiş, heç bir məmuru işdən çıxarmamışdı. Bu səbəbdən, camaat ona qarşı üsyan etdi".[92]

Zəhəbi deyir: "Camaat möminlərin əmiri Osmana qəzəbləndi. Səbəb isə onun əmisi Həkəmə qarşı göstərdiyi lütf və himayə, onu Mədinəyə qaytarması və yüz min dirhəmlə mükafatlandırması idi".[93]

Bəlazuri özünün "Ənsabul-əşrəf" kitabında Zühriyə istinad etdiyi sənədlə rəvayət edir: "Camaat Osmanı Səd ibn Əbu Vəqqası Kufə valiliyindən çıxararaq Vəlid ibn Üqbəni təyin etməkdə, Ali Həkəmə iltifat göstərməkdə, onlara pul hədiyyə etməkdə, Mərvan ibn Həkəmə Afrikanın xümsünü verməkdə, onun və Bəni-Üməyyənin əhlinə xüsusi səxavət göstərməkdə ittiham edirdilər... Beytül-malın xəzinədarı Abdullah ibn Ərqəm yoldaşı ilə dedilər: "Xəzinənin açarlarını bizdən təhvil al". Lakin bunu etmədi, oradan pul götürür, geri qaytarmırdı. O, cümə günü məsciddə olarkən Abdullah yoldaşı ilə gəlib açarları onun minbərinin üzərinə qoydular və dedilər: "Bu sizin beytül-malınızın (yaxud xəzinənizin) açarlarıdır. Biz məsuliyyəti üzərimizdən götürürük..."[94]

İmam Əlinin (ə) hökumətinin ümdə məsələsi əvvəlki hakimiyyətin yaratdığı iqtisadi fəsadları və maliyyə zərərlərini aradan qaldırmaq idi. Bu səbəbdən, mübarək xilafətinin ilk günlərində Osmanın qanunsuz olaraq paylayıb başqalarının mülkiyyətinə keçirdiyi əmlakları geri almağa başladı. Onlardan biri də Fədək idi. Belə ki, əvvəldə də qeyd etdiyimiz kimi, Osman xilafəti dövründə

---

[92] Tarix, Təbəri, c. 3, s. 403-404. Bax: əl-Kamilu fit-tarix, İbn Əsir, c. 3, s. 169-170

[93] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 2, s. 108

[94] Ənsabul-əşrəf, Bəlazuri, c. 6, s. 208-209

onu haqsız olaraq Mərvan ibn Həkəmə vermişdi. İmam Əli (ə) onu geri alıb beytül-mala qaytardı. İbn Abbasın rəvayətində deyilir: *"Əli (ə) beyətdən iki gün sonra Mədinədə xütbə söyləyib buyurdu: "Bilin və agah olun ki, Osmanın pay verdiyi hər bir mülk, Allahın malından hədiyyə etdiyi hər bir pul və mal geri alınıb beytül-mala qaytarılacaq. Köhnə haqqı heç nə ləğv edə bilməz. Əgər onunla qadınların mehriyəsinin verildiyini, şəhər camaatının arasında bölündüyünü görsəm belə, onu əvvəlki vəziyyətinə qaytaracağam. Çünki ədalətdə bir genişlik var. Ədalət dar gələn şəxsə, zülm daha dar gələr".*[95]

Osmanın bağışladığı malları İmam Əli (ə) müsəlmanlara qaytararkən söylədiyi sözlərdən daha biri: *"And olsun Allaha, Osmanın bağışladığını tapsam, onunla qız ərə verib kəniz alsalar belə sahibinə qaytaracağam. Çünki ədalətdə bir genişlik var. Haqq və ədalət dar gələn şəxsə, zülm daha dar olar".*[96]

İmam Əli (ə) niyə Fədəyi Əhli-Beytə (ə) qaytarmadı?

Möminlərin əmiri Əlinin (ə) Fədəyi Əhli-Beytə (ə) qaytardığı isbat olunmayıb. Əksinə, şiə mənbələrində onun Fədəyi qaytarmadığını təsdiqləyən rəvayətlər mövcuddur. Şeyx Səduq "İləluş-şəraye"də İbrahim Kərxiyə istinadən rəvayət edir: *"İmam Sadiqdən (ə) nə üçün Möminlərin əmiri Əlinin (ə) xilafətə keçdikdə Fədəyi geri qaytarmadığını soruşdum. Buyurdu: "Peyğəmbərin (s) Məkkəni fəth edərkən rəftarını özünə nümunə götürdü. Belə ki, Əqil ibn Əbu Talib onun evini (məcbur qalıb) satmışdı. Peyğəmbərə (s) "öz evini geri qaytarmayacaqsan?" deyə soruşulduqda o, buyurmuşdu: "Əqil bizə evmi qoydu? Biz Əhli-Beyt bizdən zülmlə alınan şeyin geri qaytarılmasını tələb etmərik". İmam Əli (ə) də bu səbəbdən Fədəyi geri almadı".*[97]

Şeyx Səduqun "İləluş-şəraye"dəki bu hədisi barədə qarşıda söhbət açacağıq.

---

[95] Nəhcül-Bəlağənin şərhi, İbn Əbülhədid, c. 1, s. 269
[96] Nəhcül-Bəlağənin şərhi, İbn Əbülhədid, c. 1, s. 46
[97] İləluş-şəraye, Şeyx Səduq, c. 1, s. 155

İmamın (ə) Fədəyi Əhli-Beytə (ə) geri qaytarmamasını bəziləri əvvəlki iki xəlifənin Fədəklə bağlı rəftarlarından razılıq kimi ifadə edirlər. Lakin bu iddianın batilliyi aşkardır. Buna aşağıdakı cavabları veririk:

1. Fədəyin Fatimənin (ə) haqqı olduğunu İmamın (ə) aydın bəyan etməsi

İmamın (ə) öz xilafəti dövründə Fədəyi Əhli-Beytə (ə) qaytarmaması heç də ilk iki xəlifənin Fədəklə bağlı rəftarından razı olduğu mənasını daşımır. Əvvəldə Fədəyin Fatiməyə (ə) məxsus olduğunu və ilk iki xəlifənin onun əlindən aldığını bəyan etmişdik. Həmçinin tarix bizim üçün Möminlərin əmirinin (ə) ilk iki xəlifənin Fədəklə bağlı səhv addımlarını, onun Fatimədən (ə) alınmasını tənqid etmişdi. O, Fədəyi özlərinin qəsb edilmiş haqqı kimi görürdü. Necə ki, bunu Müslimin "Səhih"indən nəql etdiyimiz rəvayətdə də gördük. Abbas və Möminlərin əmiri (ə) Ömərin yanına gəlib Peyğəmbərdən qalan mirası və Fədəyi ondan tələb etdilər. *"Peyğəmbər (s) vəfat etdikdən sonra Əbu Bəkr "Mən Peyğəmbərin vəlisiyəm" demişdi. Siz ikiniz gəldiniz. Bu (Abbas) qardaşı oğlunun mirasını, bu (Əli) isə xanımının atasından qalan irsini tələb edirdi. Əbu Bəkr dedi ki, Peyğəmbər (s) "Biz peyğəmbərlər özümüzdən sonra miras qoymarıq. Geridə buraxdıqlarımız sədəqədir" buyurub. Siz ikiniz də onu yalançı, günahkar, nadan və xain gördünüz... Əbu Bəkr öldükdən sonra mən Peyğəmbərin (s) və Əbu Bəkrin vəlisi oldum. Siz ikiniz də məni yalançı, günahkar, nadan və xain gördünüz... Sonra sən və bu əlbir olub yanıma gəlib "onu (Fədəyi) bizə ver" dediniz. Mən isə "Əgər istəyirsinizsə onu sizə verərəm, belə ki, Peyğəmbərin (s) onunla rəftar etdiyi kimi sizin də rəftar etməniz Allahın boynunuzdakı əhdidir" demişdim. Siz onu götürdünüz. Belə deyilmi?" Dedilər: "Bəli, elədir". Ömər dedi: "Sonra yanıma gəlib aranızda hökm etməməyimi istədiniz. Xeyr, Allaha and olsun ki, sizin aranızda Qiyamətədək bundan başqası ilə hökm etməyəcəyəm. Əgər (Fədəyə baxmağı) bacarmırsınızsa, onu mənə geri qaytarın".*[98]

[98] Səhih, Müslim, c. 5, s. 152-153

Bu hədis aydın şəkildə İmam Əlinin (ə) Fədəyi Fatimənin (ə) haqqı olduğunu etiqad bəslədiyini göstərir. Bu səbəbdən də, Ömər, baxım üçün onlara verdiyi Fədəyi geri qaytarmalarını istəyir. *"Siz ikiniz indi rəqib olaraq gəlmisiniz, bu (Abbas) qardaşı oğlunun payını, bu (Əli) isə xanımının payını tələb edir"* sözü miras mövzusunda onların razılaşa bilmədiklərini göstərir. Göründüyü kimi burada söhbət sədəqədən getmir. Buna Ömərin sözləri də dəlalət edir: "*Xeyr, Allaha and olsun ki, sizin aranızda bundan başqası ilə hökm etməyəcəyəm".* Yəni, sizə yalnız baxım və istifadə üçün Fədəyi verirəm.

Bunu İbn Həcər də təsdiqləyərək deyir: "Sondakı *"Siz ikiniz indi rəqib olaraq gəlmisiniz, bu (Abbas) qardaşı oğlunun payını, bu (Əli) isə xanımının payını tələb edir. Xeyr, Allaha and olsun ki, sizin aranızda Qiyamətədək bundan başqası ilə hökm etməyəcəyəm"* sözlərinin mənası budur ki, onu sizə yalnız idarəçiliyi üçün vermişəm".[99]

Qarşıda bu hədislə bağlı söhbət edəcəyik.[100]

Təbərani Ömərə istinad etdiyi sənədlə deyir: "Peyğəmbər (s) dünyadan köçdükdə mən və Əbu Bəkr Əlinin yanına gəlib dedik: "Peyğəmbərin (s) özündən sonra geridə buraxdıqları barədə fikrin nədir?" Əli dedi: "Biz Peyğəmbərə və onun geridə buraxdıqlarına ən çox haqq sahibi olan şəxslərik". Dedim: "Xeybərdən qalanalara da?" Dedi: "Bəli, Xeybərdən qalanlara da". Dedim: "Bəs Fədək necə?" Buyurdu: "Bəli, Fədəyə də". Dedim: "Xeyr! Allaha and olsun ki, başımızı mişarla bədənimizdən ayırsalar da belə, xeyr".[101]

2. Vəziyyətin uyğun olmadığı üçün İmam (ə) Fədəyi qaytarmadı

---

[99] Fəthul-Bari, İbn Həcər, c. 9, s. 346

[100] "Biz miras qoymarıq, geridə buraxdıqlarımız sədəqədir" hədisilə bağlı "Üçüncü: İmam Əli (ə) və Abbas "Biz miras qoymarıq" hədisini eşitməyiblər" bölməsində söhbət açılacaq.

[101] əl-Möcamul-övsat, Təbərani, c. 5, s. 288

İmamın (ə) hakimiyyət dövrünə nəzər salan şəxs Fədəyi Əhli-Beytə (ə) qaytarmamasının səbəbləri ilə üz-üzə gələcək. Bu səbəb və arqumentlərin bəzisinə nəzər salaq:

A. Özündən əvvəlki xəlifələrin qoyduğu möhkəmlənmiş qaydalar

Tarixdən məlum olur ki, Möminlərin əmiri Əli (ə) xiləfətə Peyğəmbərin (s) vəfatından təqribən iyirmi beş il sonra gələ bilir. Artıq həmin vaxtadək özündən əvvəlki xəlifələr bir çox qanunlar qoymuş, onların yaratdıqları qaydalar bir çox müsəlmanın qəlbində qərar tutmuşdu. Onları qısa bir zamanda asanlıqla dəyişmək qeyri-mümkün idi. Onların qanun şəklinə salıb camaatın arasında yaydıqları məsələlərdən biri də peyğəmbərlərin (ə) miras buraxmaması, Fədəyin Peyğəmbərin (s) özündən sonra qoyduğu sədəqələrdən olması idi. Bu məsələnin kökündən dəyişdirilməsi və qısa müddətdə ona qarşı çıxmaq İmamın (ə) xilafəti ilə bağlı xoşagəlməz söhbətləri ortaya atacaqdı. Osmanın fitnələrinin ardınca onun da hakimiyyətindən sui-istifadə etdiyini düşünəcəkdilər.

Bəzi şiə rəvayətlərində bu mənaya işarə edilir. Şeyx Kuleyni "əl-Kafi"də Süleym ibn Qeys Hilaliyə istinadən nəql edir ki, İmam Əli (ə) ətrafında ailə üzvləri, yaxın adamları və şiələri toplaşan bir vaxtda buyurdu: *"Allaha and olsun ki, məndən əvvəlki rəhbərlər Allahın Peyğəmbərinə (s) bilərəkdən müxalif olan böyük işlərə əl atdılar. Əgər camaatı o işləri tərk etməyə və indiki halından Peyğəmbərin zamanında tətbiq edildiyi şəklinə qaytarmağa məcbur etsəm, əsgərlərim ətrafımdan dağılar, ordumda mən və mənim fəzilət və vilayətimi bilən, buna da yalnız Quran və Peyğəmbərin (s) sünnəsindən dəlilləri olan bir qrup tərəfdarımdan başqa kimsə qalmaz.*

Əgər əmr verib İbrahim məqamını Peyğəmbərin (s) qoyduğu yerə geri qaytarsam, Fədəyi Fatimənin varislərinə versəm, Peyğəmbərin (s) "sa'" və "mud" ölçü vahidlərini əvvəlki ölçülərinə çevirsəm, Peyğəmbərin (s) təyin etdiyi torpaqları sahiblərinə versəm, Cəfər ibn Əbu Talibin evini varislərinə qaytarsam və məsciddən

ayırsam, məndən əvvəlki hakimlərin haqsız və zülmlə verdikləri hökmlərə yenidən baxsam, Xeybərin ərazilərindən paylananları geri alsam, bölüşdürmə divanını (Divanul-ətiyyəni) ləğv edib Peyğəmbərin (s) bölüşdürdüyü kimi sərvəti zənginlərin arasında paylaşdırmasam[102]*, Bəni-Təğlib uşaqlarını əsir götürsəm*[103]*, camaata Ramazan ayında ancaq vacib namazları cəm halda qılmağı əmr etsəm, nə deyərsiniz?! Belə bir vəziyyətdə mənimlə çiyin-çiyinə savaşan ordumda bəziləri "Ey müsəlmanlar!" deyə fəryad qoparıb mənə "Ömərin sünnəsini dəyişdirirsən? Bizə Ramazan ayında könüllü olaraq cəm halda qıldığımız namazı qadağan edirsən?" deyəcəklər. Beləliklə ordumda üsyan çıxaracaqlarından çəkindim..."*[104]

Sünni hədislərində isə eynilə bu cür hadisənin Peyğəmbərlə (s) baş verdiyini, bəzi məsələləri dəyişmədən əvvəlki halında saxladığı qeyd olunur. Səbəb isə qövmün buna dözə bilməyəcəyi idi. Buxari öz "Səhih"ində Aişəyə istinadən Peyğəmbərin (s) ona belə dediyini nəql edir: *"Əgər qövmünün cahiliyyə dövrü yaxın keçmiş olmasaydı və bu səbəbdən, qəlblərinin inkar edəcəyindən qorxmasaydım divarı Kəbəyə daxil edər və qapısını yerlə bərabər edərdim".*[105]

Yenə də Aişədən başqa kəlmələrlə rəvayət edilir ki, Peyğəmbər (s) buyurdu: *"Qövmünün küfrdən uzaqlaşdığı az müddət olmasaydı Kəbəni sökər, onu İbrahimin (ə) tikdiyi təməl üzərində yenidən ucaldardım. Qüreyş onu təməlindən kiçik tikmiş və təməlini arxada qoymuşdur".*[106]

---

[102] "Divanul-ətiyyə" Beytül-malın bölüşdürülməsi üçün Ömərin əmri ilə yaradılmış və hər bir kəsə dərəcəsinə görə pay verilməsini nəzərdə tutan bir qurumdu. Bu cür bölüşdürülmə Peyğəmbərin (s) zamanındakı sünnəyə zidd idi. Peyğəmbər (s) Beytül-malı müsəlmanların arasında bərabər bölüşdürürdü.

[103] İmam Cəfər Sadiq (s) buyurur: "Bəni-Təğlib xristian bir tayfa idi. Təkəbbür göstərib cizyə verməkdən imtina etdilər. Ömərdən onlarda cizyə tələb etməməsi xahiş etdilər və qarşılığında müsəlmanların ödədiklərinin iki misli zəkat ödəyəcəklərini təklif etdilər. Ömər də onların bu təklifini qəbul etdi. "Biharul-ənvar", köhnə çap, c. 8, s.287. Ömərin bu qərarı Peyğəmbərin (s) sünnəsinin ziddinə olaraq dinə daxil etdiyi bidət idi. Burada da Allahın əmrini öz istəyinə görə tapdalamışdı.

[104] əl-Kafi, Şeyx Kuleyni, c. 8, s. 58-63

[105] Səhih, Buxari, c. 2, s. 156; c. 8, s. 132

[106] Səhih, Buxari, c. 2, s. 156

Başqa kəlmələrlə həmçinin ondan nəql edilir ki, Peyğəmbər (s) buyurdu: *"Əgər qövmünün cahiliyyət dövrü yaxın keçmiş olmasaydı Kəbənin sökülməsini əmr edər, ondan kənarda qalanları yenidən içərisinə salar, qapısını yerə birləşdirər, şərqdən və qərbdən iki qapı qoyar və İbrahimin tikdiyi təməlin üzərində ucaldardım". Zübeyrin oğlu buna əsasən onu söküb yenidən tikdi".*[107]

Müslim öz "Səhih"ində Aişəyə istinadən yazır: "Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: *"Əgər qövmünün cahiliyyət dövrü (və ya küfrü dedi) yeni başa çatmış olmasaydı Kəbənin xəzinəsini Allah yolunda xərcləyər, qapısının yerlə bərabərləşdirər və hasarını onun içinə salardım".*[108]

Nəsai "əs-Sünənul-kubra"da Aişədən nəql edir: "Peyğəmbər (s) buyurdu: *"Əgər qövmünün cahiliyyət dövrü yeni başa çatmış olmasaydı Kəbəni sökər, (yenisini tikib) iki qapı qoyardım". Abdullah ibn Zübeyr hakimiyyətə gəldikdə onu yenidən tikib iki qapı qoydu".*[109]

Başqa kəlmələrlə yenə Aişə deyir: "Peyğəmbər (s) buyurdu: "Görmürsənmi qövmün Kəbəni tikərkən İbrahimin qoyduğu təməldən kiçik tikiblər?!" Dedim: "Ya Peyğəmbər, onu İbrahimin tikdiyi təmələ qaytarmayacaqsan?" Buyurdu: "Əgər qövmün küfrdən yeni uzaqlaşmış olmasaydı..."[110]

Peyğəmbərin (s) qövmü ilə münasibətində vəziyyət belədirsə, bu zaman İmam Əli (ə) ondan da üzrlüdür. Xüsusilə də, Peyğəmbərə (s) itaəti buyuran, sünnəsini nümunə götürməyə təşviq edən ayələrin nurunda bu belədir: ***"Allaha və Peyğəmbərə itaət edin! Əgər üz döndərərsinizsə, şübhəsiz ki, Allah da kafirləri (haqdan üz çevirənləri) sevməz!"***[111] Eləcə də: ***"Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət***

---

[107] Səhih, Buxari, c. 2, s. 156
[108] Səhih, Müslim, c. 4, s. 98
[109] əs-Sünənul-kubra, Nəsai, c. 3, s. 454
[110] əs-Sünənul-kubra, Nəsai, c. 3, s. 454-455
[111] Ali-İmran, 32

günündən qorxanlar) və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!"[112] Və bu mövzuda nazil olmuş digər ayələr.

Bir çox mənbələrimizdə bu məqamı bəyan edən bir çox rəvayət var ki, İslam tarixinin həmin dövründə baş verən hadisələrin üzərindən örtüyü qaldırır, yalnız Fədəklə bağlı deyil, Möminlərin əmirinin (ə) ümumən əvvəlki üç xəlifə ilə münasibətlərini də aydınlaşdırır. Şeyx Səduq "İləluş-şərai"də İbn Məsudun vasitəsilə nəql edir: *"Kufə məscidində müzakirə etdikləri vaxt dedilər: "Nə üçün Möminlərin əmiri (ə) Təlhə, Zübeyr, Aişə və Müaviyə ilə mübarizə apardığı kimi ilk üç xəlifə ilə mübarizə aparmadı?"*

Bu xəbər Əliyə (ə) çatdıqda camaat namazı üçün çağırış edilməsini buyurdu. Camaat toplaşdıqda minbərə qalxıb Allaha həmd və səna söylədikdən sonra buyurdu: "Ey camaat, sizin filan-filan sözləriniz mənə çatıb".

Dedilər: "Düz buyurursan, ey Möminlərin əmiri, biz bunları demişik".

Buyurdu: "Mənim etdiklərim peyğəmbərlərin (ə) sünnələrinə əsaslanır. Uca Allah kitabında buyurur: ***"Həqiqətən, Allahın Rəsulu sizin üçün gözəl örnəkdir!"***[113]

Dedilər: "Ey Möminlərin əmiri! O peyğəmbərlər (ə) kimdir?"

Buyurdu: Onlardan birincisi İbrahimdir (ə). O zaman ki qövmünə dedi: ***"Mən sizi və sizin Allahdan başqa tapındığınız bütləri tərk edib bir kənara çəkilirəm..."***[114] *Əgər onun bu sözü qövmünün zorakılığından qorxmadığı üçün söylədiyini desəniz, küfr etmiş olarsınız. Əgər onlardan gördüyü zorakılıq səbəbindən uzaqlaşdı söyləsəniz, belə olduqda mən vəsi olaraq daha üzrlüyəm.*

Həmçinin mənim üçün onun xalası oğlu Lutda da nümunə var. Belə ki, deyib: ***"Kaş sizə çatan bir gücüm-qüvvətim olaydı, yaxud möhkəm bir arxaya söykənəydim".***[115] *Əgər onun qövmünə yetəcək gücü olduğunu desəniz, küfr etmiş*

---

[112] Əhzab, 21
[113] Əhzab, 21
[114] Məryəm, 48
[115] Hud, 80

olarsınız. Yox, əgər gücünün olmadığı üçün bunları söylədisə, o zaman vəsi daha üzrlüdür.

Həmçinin Yusufda (ə) da mənim üçün nümunə var: ***"Ey Rəbbim! Mənim üçün zindan bunların məni sövq etdikləri işi görməkdən xoşdur".***[116] *Əgər Yusufun (ə) Rəbbinə dua edib onu zindanda saxlamasını Rəbbindən narazı olduğu üçün söylədiyini desəniz, küfr etmiş olarsınız. Yox, əgər zindanı seçməklə Rəbbinin razılığını diləyirdi desəniz, o zaman vəsi daha üzrlüdür.*

Mənim üçün Musada (ə) gözəl nümunə var: ***"Buna görə də sizdən qorxub qaçdım".***[117] *Əgər Musaya qövmü tərəfindən heç bir təhlükə olmadığı halda qorxub qaçdığını söyləsəniz, küfr etmiş olarsınız. Əgər qorxduğunu deyirsinizsə, o zaman vəsi ondan daha üzrlüdür.*

Həmçinin qardaşım Harunda da (ə) mənim üçün nümunə var: ***"Ey anam oğlu! Bu tayfa məni zəif bilib az qaldı ki, öldürə".***[118] *Əgər onu zəif bilib öldürməyə cəhd göstərmədiklərini desəniz, küfr etmiş olarsınız. Yox, əgər zəif düşürüb hətta öldürməyə cəhd göstərdikləri üçün susduğunu düşünürsünüzsə, o zaman bir vəsi olaraq mən daha üzrlüyəm.*

Eləcə də Muhəmməddə (s) də mənim üçün gözəl nümunə var. O zaman ki, qövmündən duyduğu təhlükə və qorxuya görə şəhərdən qaçıb mağaraya sığındı, məni isə öz yerinə yatağına yatırdı. Əgər qövmündən qorxmadığı üçün qaçdığını deyirsinizsə, küfr etmiş olacaqsınız. Yox, əgər onlardan qorxduğu üçün məni öz yerinə yatağına yatırıb mağaraya qaçdığını deyirsinizsə, o zaman vəsi daha üzrlüdür!"[119]

B. Osmanın xilafətindən sonra xəlifə olması

---

[116] Yusuf, 33
[117] Şuəra, 21
[118] Əraf, 150
[119] İləluş-şərai, Şeyx Səduq, c. 1, s. 148-149

İmam Əlinin (ə) xilafəti özündən sonra böyük problemlər və fitnələr buraxmış Osmanın hakimiyyətinin ardınca gəldi. Osmanın yanlış siyasəti, pis idarəçiliyi, xüsusilə də, maddi məsələlərdəki səhvləri ümməti xilafət mərkəzinə qarşı ayağa qalxmağa vadar etmiş, hakimiyyətinə etirazlar edilmiş və sonda onun qətli ilə nəticələnmişdi.

Təbərinin "Tarix"ində Əbdürrəhman ibn Yəsardan rəvayət edilir: "Osmanın etdiklərini gördükdə Mədinədəki Peyğəmbər (s) səhabələri ətraf məntəqələrə dağılmış səhabələrə məktub yazdılar: "Siz Allah yolunda Muhəmmədin (s) dini üçün səy göstərdiyiniz halda, ardınızdan onun dini fəsada uğradı və tərk edildi. Yanımıza gəlin, Peyğəmbərin dinini bərpa edin". Uzaq yerlərdən gəlib nəhayət onu qətlə yetirdilər".[120]

İbn Əsir "Tarix" kitabında 34-cü ilin hadisələrini qeyd edərkən deyir: "Həmin ildə bir dəstə Peyğəmbər (s) səhabəsi və başqaları digər səhabələrə məktub göndərdilər: "Buraya gəlin, cihad buradadır. Camaat Osmana qarşı çox ciddidir, heç kimdən görmədikləri pisliklər ondan çəkiblər. Səhabələrdən yalnız az sayda adam: Zeyd ibn Sabit, Əbu Üseyd Saidi, Kəb ibn Malik və Həssan ibn Sabit onu müdafiə etdilər".[121]

Zəhəbinin "İslam tarixi" kitabında isə yazılıb: "Fitnəyə düşməmək üçün onu (Osmanı) tək qoyub, məsələnin qətlə qədər gedib çıxmayacağını düşünən Peyğəmbər (s) səhabələri Osman qətlə yetirildikdə onu ölümə tərk etdikləri üçün peşman oldular".[122]

Əbu Bəkrin qızı Aişə camaatı Osmana qarşı qaldıranların önündə gedirdi. Bir dəfə onu küfrdə ittiham edib qətlinə də səsləmişdi. Təbəri öz "Tarix"ində Əsəd ibn Abdullahdan nəql edir: "Elm əhlindən onunla görüşənlərdən: Aişə (r) Məkkəyə qayıdarkən Sərifdə Əbd ibn Ümmü Kilabla (o, Əbd ibn Əbu Sələmədir) qarşılaşdı və ondan nə olduğunu soruşdu. Əbd dedi: "Osmanı öldürdülər, səkkizi

---

[120] Tarix, Təbəri, c. 3, s. 400-401

[121] əl-Kamilu fit-tarix, İbn Əsir, c. 3, s. 150-151

[122] Tarixul-İslam, Zəhəbi, c. 3, s. 448

qaldı". Aişə "Bəs sonra nə etdilər?" deyə soruşduqda Əbd dedi: "Mədinə əhli icma edərək Əli ibn Əbu Talibə beyət etmək üçün birləşdilər". Aişə dedi: "Sənin bu dediyin adama beyət ediləcəyinə kaş göy yerin üstünə çöküb düşsəydi. Məni geri götürün, geri götürün!" Məkkəyə qayıtmaq üçün üz tutdu və dedi: "Allaha and olsun ki, Osman məzlum olaraq qətlə yetirildi. Vallahi, mən onun qanının intiqamını mütləq tələb eədəcəyəm". Bu zaman Əbd ona dedi: "Niyə? İlk dəfə Osmanın səhv addımlar atdığını və yolundan azdığını söyləyən "Bu axmaq qocanı öldürün, o, kafir olub!" deyən sən deyildinmi?" Aişə dedi: "Onlar Osmanın tövbə etməsini istədilər, sonra da onu öldürdülər. Bəli, mən o sözləri demişəm. Onlar da deyiblər. Lakin son sözüm əvvəlkindən daha xeyirlidir". İbn Ümmü Kilab ona dedi:

Rəy də səndəndir, dəyişmək də,
Külək də səndəndir, yağış da.
Rəhbərin qətlinə sən əmr verdin
Onun kafir olduğunu bizə sən söylədin.
Bizi qətlinə təşviq etdin,
Onun qətlində sənə itaət etdik.
Qatili, əmr edən şəxs yanımızdadır.
Başımızın üstündən tavan uçmadı
Günəş də, Ay da tutulmadı.
Camaat güclü bir şəxsə beyət etdi,
Yağan doluları aradan qaldıracaq,
Əyrilikləri düzəldəcək.
Savaş paltarlarını geyəcək.
Vəfalı şəxs əsla xain kimi olmayacaq.

Aişə Məkkəyə qayıtdı. Məscidin qapısına gedib Hicri-İsmailə tərəf yönəldi. Camaat onun ətrafına toplaşdıqda dedi: "Ey camaat, Osman məzlum olaraq öldürülüb. Allaha and olsun ki, onun qanının intiqamını tələb edəcəyəm!"[123]

Halbuki Osman tənqid və ittiham edildikdə Aişə onu "axmaq qoca" deyə vəsf edirdi.

Başqa bir dəfə də onu "zalım, müstəbid" adlandırıb, camaatı ondan uzaqlaşdırmağa çağırmışdı. "Ənsabul-əşrəf"də yazılır: "Abdullah ibn Abbas Aişənin yanından keçirdi. Osman onu Həcc mərasiminə rəhbər təyin etmişdi. Aişə isə yolun üzərindəki evlərdən birində idi. Aişə dedi: "Ey İbn Abbas, Allah sənə ağıl, düşüncə və izahlar verib. Camaatı o zalım və müstəbiddən uzaqlaşdır".[124]

Gah da Peyğəmbərin (s) köynəyini və bir tükünü çıxarıb "Peyğəmbərin (s) köynəyi və saçının tükü köhnəlib xarab olmamış Osman onun sünnəsini zay etdi" deyirdi. Bəlazuri "Ənsabul-əşrəf"də Abbas ibn Hişam ibn Muhəmməddən, o da Əbu Mixnəfin istinadı ilə deyir: "Əmmara edilənlərin xəbəri Aişəyə çatdı və o, bərk qəzəbləndi. Peyğəmbərdən (s) qalan saç tüklərindən, paltarlarından və başmaqlarından birini çölə çıxarıb dedi: "Peyğəmbərinizin (s) sünnəsini nə tez tərk etdiniz?! Bu onun tükü, paltarı və başmağıdır ki, özündən sonra hələ də köhnəlməyib". Osman nə dediyini bilməyəcəyi həddə çox qəzəbləndi. Məscidi səs-küy bürüdü, camaat "Sübhanallah, sübhanallah!" söyləməyə başladı".[125]

Elə orada Zührinin vasitəsilə nəql edilir: "Aişə Peyğəmbərin tükünü, başmağını və paltarını göstərib dedi: "Peyğəmbərinizin (s) sünnəsini nə tez tərk etdiniz?!"[126]

İbn Əbdülbərrin "əl-İstiab" kitabında yazılıb: "Əhnəf ağıllı, həlim xasiyyətli, dindar, zəkalı, fəsahətli və hazırcavab idi. Aişə Bəsrəyə gəldikdə onun yanına adam göndərdi. Əhnəf gəldikdə Aişə dedi: "Ey Əhnəf, vay olsun sənə! Möminlərin əmiri Osmanın qatilləri ilə savaşı tərk etdiyin üçün Allahın qabağında nə üzr

---

[123] Tarix, Təbəri, c. 3, s. 477; əl-Kamilu fit-tarix, İbn Əsir, c. 3, s. 206

[124] Ənsabul-əşrəf, Bəlazuri, c. 2, s. 287

[125] Ənsabul-əşrəf, Bəlazuri, c. 2, s. 275

[126] Ənsabul-əşrəf, Bəlazuri, c. 2, s. 292

gətirəcəksən?! Sayın azlığındandır, yoxsa tayfan sənə itaət etmir?" Əhnəf dedi: "Ey möminlərin anası! Qocalmamışam və hadisənin üzərindən də uzun zaman keçməyib. Bir il əvvəl sən onu pisləyir və ittiham edirdin".

Aişə dedi: "Vay olsun, ey Əhnəf! Onlar Osmanı qab kimi sildilər və qətlə yetirdilər". Əhnəf dedi: "Ey möminlərin anası! Sən razı olduğun halda əmrinə itaət edirəm, narazı olduğu halda isə onu tərk edirəm".[127]

Həmçinin Təlhə ibn Übeydullah, o da camaatı Osmanın üzərinə təhrik edənlərdən biridir. Bəlazuri "Ənsabul-əşrəf"də İbn Sirindən belə dediyini rəvayət edir: "Peyğəmbər (s) səhabələrindən Osmana qarşı Təlhədən daha sərti yox idi".[128]

Yenə də "Ənsabul-əşrəf"də deyilir: "Mucəmmi ibn Cariyə Ənsari Təlhə ibn Übeydullahın yanından keçərkən Übeydullah ona dedi: "Ey Mucəmmi, yoldaşın nə edir?" Dedi: "Güman edirəm ki, onu siz öldürmüsünüz". Təlhə dedi: "Əgər öldürülsə belə, nə müqərrəb mələkdir, nə də mürsəl peyğəmbər!"[129]

İbn Əbu Şeybə "əl-Müsənnəf"də Hukeym ibn Cabirdən nəql edir: "Osman mühasirəyə alındıqda Əli Təlhənin yanına gəldi. O, evində balışa söykənib oturmuşdu. Əli dedi: "Sənə Allahı şahid tuturam! Camaatı möminlərin əmirindən uzaqlaşdırmasan onu öldürəcəklər". Təlhə dedi: "Xeyr, Allaha and olsun ki, Bəni-Üməyyə haqqı geri verməyənədək bunu etməyəcəyəm".[130]

Həmçinin Osmana su verilməsinə qadağa qoyan şəxsin də Təlhə olduğu qeyd edilib. "Ənsabul-əşrəf"də deyilir: "Əbu Mixnəf və başqaları deyirlər: "Təlhə mühasirədə saxladığı Osmana qarşı daha sərt addım ataraq ona su ötürülməsini də qadağan etdi. Əli ibn Əbu Talib bundan qəzəbləndi və qab dolu suyu ona göndərdi".[131]

---

[127] əl-İstiab, İbn Əbdülbərr, c. 2, s. 716
[128] Ənsabul-əşrəf, Bəlazuri, c. 6, s. 201
[129] Ənsabul-əşrəf, Bəlazuri, c. 6, s. 292
[130] əl-Müsənnəf, İbn Əbu Şeybə Kufi, c. 7, s. 276
[131] əl-Müsənnəf, İbn Əbu Şeybə Kufi, c. 6, s. 188

İbn Həcər deyir: “Yaqub ibn Süfyan səhih sənədlə Qeys ibn Əbu Hazimdən nəql edir ki, Mərvan ibn Həkəm Təlhəni atın üzərində görüb dedi: “Bu, Osmana qarşı yardım edirdi”. Ox atıb onu atdan saldı. Təlhə çoxlu qan itirib öldü”.[132]

Eləcə də Osmana qarşı camaatı təhrik edənlərin önündə böyük səhabələr də gedirdi. Onlardan biri Əbdürrəhman ibn Üdeys Bəlvi idi. Eyni onun barəsində ibn Vəzzahdan nəql edir: “Fitnənin rəhbəri Əbdürrəhman ibn Üdeys Bəlvi idi. Osmana qarşı Misir əhlini də o cəlb etmişdi”.[133]

İbn Əbdülbərr “əl-İstiab”da onun tərcümeyi-halında deyir: “Əbdürrəhman ibn Üdeys Bəlvi ağac altında Peyğəmbərə (s) beyət (Rizvan beyəti) edən səhabə idi. Əbu Ömər deyir: “O, Misirdən gəlib Osmanı mühasirəyə alan və sonra da öldürən ordunun başçısı idi”.[134]

Onlardan biri də Muhəmməd ibn Əbu Hüzeyfədir. İbn Həcər onun tərcümeyi-halında deyir: “Muhəmməd ibn Əbu Hüzeyfə ibn Ütbə ibn Rəbiə... Vaqidi onu “Əbülqasim” künyəli şəxslərin siyahısında qeyd edir. Adı Muhəmmədir, səhabədir. Atası Əbu Hüzeyfə Yəmamədə şəhid oldu. Osman Muhəmmədi himayəsinə alıb onu tərbiyə etdi. Muhəmməd böyüdükdə Osmanın xəlifəti dövründə ondan Misirə getmək üçün izn istədi. Osman izn verdi. Osmana qarşı camaatı ən çox təhrik edən şəxslərdən idi...”[135]

Zəhəbi onun barəsində yazır: “Muhəmməd ibn Əbu Hüzeyfə – Əbülqasim Əbşəmi. Şərəfli şəxslərdəndir. Atası Həbəşistana birinci hicrət zamanı dünyaya gəlib. Rəy sahibidir... Sonra isə Osmana qarşı üsyan edənlərdən oldu, Misirin rəhbərliyini ələ keçirdi”.[136]

---

[132] əl-İsabə, İbn Həcər, c. 2, s. 432
[133] Ümdətul-qari, Eyni, c. 5, s. 231
[134] əl-İstiab, İbn Əbdülbərr, c. 2, s. 840
[135] əl-İsabə, İbn Həcər, c. 6, s. 10
[136] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 3, s. 479-480

İbn Əbdülbərr onun barəsində deyir: “Muhəmməd ibn Əbu Hüzeyfə Osmana qarşı camaatı ən çox təhrik edən şəxslərdən idi...”[137]

Eləcə də, onlardan biri Əmr ibn Asdır ki, İbn Əbdülbərr onun barəsində deyir: “Həmçinin (Osman) Əmr ibn Ası Misirin rəhbərliyindən uzaqlaşdırdıqdan sonra camaatı Osmanın əleyhinə var gücü ilə təhrik və təşviq etməyə başladı”.[138]

Həmçinin Hükeym ibn Cəbələ Əbdi, İbn Əbdülbərr onun barəsində deyir: “Peyğəmbərin (s) zamanında yaşayıb, ondan bir rəvayət və ya hədis nəql etdiyinə rastlamamışam. Bu isə Peyğəmbərdən (s) nəql edilən hədisləri eşitdiyinə, ancaq onu görmədiyinə dəlalət edir. Saleh, dindar şəxs idi, tayfasının arasında onun sözünə itaət olunurdu”.[139]

Onlardan biri də Muhəmməd ibn Əbu Bəkrdir ki, İbn Həcər onun barəsində yazır: “Rəy sahibidir... Əli onu tərifləyirdi”.[140]

İbn Əbdülbərr isə deyir: “Əli ibn Əbu Talib Muhəmməd ibn Əbu Bəkri tərifləyir və üstün tuturdu. Çünki o, abid və ictihad sahibi idi. Osmanın qətlində iştirak edənlərdəndir”.[141]

Həmçinin Osmanın əleyhinə camaatı qaldıran və təhrik edən bir çox digər səhabələr ki, burada onların hamısının adını qeyd etməyə imkanımız yoxdur.

Osmanın etdiyi bu hərəkətlər ümumi narazılığa səbəb olmuş, Aişənin, Təlhənin və bir dəstə böyük səhabənin camaatı onun əleyhinə qaldırması fitnə alovlarını qızışdırmış və “İstefa!” sədalarını yüksəltmişdi. İbn Əbu Şeybə “əl-Müsənnəf”də Əbu Səidə istinadən deyir: “Camaat Aişənin çadırının yanında idi. Bu zaman Osman oradan keçirdi. Bu Məkkədə olmuşdu. Əbu Səid deyir: Məndən başqa onların hamısı Osmanı söyüb lənətlədilər. Aralarında Kufə əhlindən bir nəfər var idi. Osman vaxtilə onu mükafatlandırmışdı. Osman dedi: “Ey kufəli, sən

---

[137] əl-İstiab, İbn Əbdülbərr, c. 3, s. 1369
[138] əl-İstiab, İbn Əbdülbərr, c. 3, s. 1369
[139] əl-İstiab, İbn Əbdülbərr, c. 1, s. 366; Usdul-ğabə, İbn Əsir, c. 2, s. 40
[140] Təqribut-təhzib, c. 2, s. 59
[141] əl-İstiab, İbn Əbdülbərr, c. 3, s. 1367

də məni söyürsən? Mədinəyə gələrsən". Sanki, onu təhdid edirdi. Əbu Səid deyir: Mədinəyə gəldikdə ona Təlhə ilə görüşməsinin lazım olduğu deyildi. O, Təlhə ilə birlikdə Osmanın yanına getdi. Osman onu gördükdə dedi: "Allaha and olsun ki, sənən yüz qırmanc vurduracağam!"

Təlhə dedi: "Allaha and olsun, vurdurmayacaqsan! O, zinakar deyil ki, yüz qırmanc vurdurasan".

Osman dedi: "Verdiklərimi geri alacağam!"

Təlhə dedi: "Allah əvəzində ona ruzi yetirər".[142]

Osmanın xilafəti Peyğəmbər (s) səhabələrinin çevriliş və hökumətdə qayda qanun yaratmaq üçün ilk qiyam və inqilabı idi. Bu inqilabda Osman qiyamçılar tərəfindən öldürüldü. Təbərinin "Tarix"ində yazılır: "Osmanın etdiklərini gördükdə Mədinədəki Peyğəmbər (s) səhabələri ətraf məntəqələrə dağılmış səhabələrə məktub yazdılar: "Siz Allah yolunda Muhəmmədin (s) dini üçün səy göstərdiyiniz halda, ardınızdan onun dini fəsada uğradı və tərk edildi. Yanımıza gəlin, Peyğəmbərin (s) dinini bərpa edin". Uzaq yerlərdən gəlib sonda onu qətlə yetirdilər".[143]

İbn Əsir "Tarix" kitabında hicri 34-cü ilin hadisələrini qeyd edərkən deyir: "Həmin ildə bir dəstə Peyğəmbər (s) səhabəsi və başqaları digər səhabələrə məktub göndərdilər: "Buraya gəlin, cihad buradadır. Camaat Osmana qarşı çox ciddidir, heç kimdən görmədikləri pisliklər ondan çəkiblər. Səhabələrdən yalnız az sayda adam: Zeyd ibn Sabit, Əbu Üseyd Saidi, Kəb ibn Malik və Həssan ibn Sabit onu müdafiə etdilər".[144]

Bəlazuri "Ənsabul-əşrəf"də İbn Şihab Zühri yolu ilə Səid ibn Müseyyibdən nəql edir: "Misirlilər gəlib Abdullah ibn Səd ibn Əbu Sorhdan şikayət etdilər və Osmandan onun yerinə Muhəmməd ibn Əbu Bəkri təyin etməyi istədilər. Osman məktub yazıb onu vəzifəyə təyin etdiyini bildirdi. Bir dəstə mühacir və ənsarı

---

[142] əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 7, s. 264, c. 8, s. 685

[143] Tarix, Təbəri, c. 3, s. 400-401

[144] əl-Kamilu fit-tarix, İbn Əsir, c. 3, s. 150-151

onlarla bərabər Misirə göndərdi ki, İbn Əbu Sorhla aralarında baş verənlərə nəzarət etsinlər. Muhəmməd ibn Əbu Bəkr və misirlilər yola düşdülər, Mədinədən üç gecəlik yol məsafəsində uzaqlaşmışdılar ki, bir qulamın dəvənin üzərində sürətlə çapdığını gördülər. Sanki, qulam nəyinsə ardınca tələsir, yaxud kimsə onu qovurdu. Muhəmməd ibn Əbu Bəkrin əshabı (onu saxlayıb) nə baş verdiyini və nə üçün belə sürətlə getdiyini, kimdən qaçdığını və ya kimi qovduğunu soruşdular. Qulam onlara gah: "Mən möminlərin əmirinin (Osmanın) qulamıyam", gah da: "Mərvanının qulamıyam, Misirdəki valiyə məktubunu çatdırmaq üçün göndərilmişəm" dedi. Məktubun onda olub-olmadığını soruşduqlarında "Məndə deyil" deyə cavab verdi. Üzərini axtardılar, lakin heç bir şey tapmadılar. Qulamın yanında dəridən kiçik su tuluğu var idi, içi quru idi, içərisində nə isə var idi. İçindəkini çıxarmaq üçün onu silkələdilər, ancaq çıxara bilmədilər. Onu kəsdikdə içində Osmanın İbn Əbu Sorha göndərdiyi məktubu tapdılar. Muhəmməd ibn Əbu Bəkr yanındakılar, mühacir və ənsarı bir yerə toplayıb onların gözlərinin qarşısında məktubu açdı. Orada yazılmışdı: "Muhəmməd ibn Əbu Bəkr və filan-filan kəslər yanına gəlib çatdıqda onları qətli üçün bir hiylə qur, Muhəmmədin məktubunu məhv et. Əmrim sənə çatanadək işinin başında ol. Səndən şikayətə gələnləri də həbs et, inşallah".[145]

İbn Şəbbə Nəmiri bu hadisəni "Tarixul-Mədinə" kitabında Səid ibn Müsəyyib yolu ilə müəyyən əlavələrlə qeyd edib. Orada deyilir: "Məktubu oxuyub qorxuya düşdülər və Mədinəyə qayıtdılar. Muhəmməd məktubu yanındakı adamların möhürü ilə möhürlədi və onlardan birinə verdi.

Mədinəyə gəldilər. Ardınca Təlhəni, Zübeyri, Əlini, Sədi və digər Peyğəmbər (s) səhabələrini bir yerə toplayıb onların hüzurunda məktubu açdılar. Yolda saxlanılmış qulamın əhvalatını danışdıqdan sonra məktubu onlara oxudular. Mədinə əhlindən Osmana qəzəblənməyən qalmadı. Onun İbn Məsuda, Əbu Zərrə və Əmmara qarşı etdikləri də xatırlanması qəzəblərini daha da artırdı.

[145] Ənsabul-əşrəf, Bəlazuri, c. 2, s. 283-285

Muhəmmədin əshabı onların yanına gəldi və Osmanın evini mühasirəyə aldılar. Muhəmməd ibn Əbu Bəkr Bəni-Təmimi və digərlərini də çağırtdırdı. Ona bu işdə Təlhə ibn Übeydullah yardım edirdi. Aişə (r) də onu çox tənqid və təhqir edirdi.

Əli bunu görüb Təlhəni, Zübeyri, Sədi, Əmmarı və Peyğəmbərin (s) Bədrdə iştirak edən səhabələrini çağırtdı. Məktubu götürüb qulam və dəvəsi ilə birlikdə Osmanın yanına gəldi və dedi: "Bu sənin qulamındır?" Osman "Bəli" deyə cavab verdi.

Əli: Dəvə də sənindir?

Osman: Bəli.

Əli: Bu məktubu sən yazmısan?

Osman "Xeyr" deyib ardınca and içdi ki, nə onu yazıb və nə də yazılmasına göstəriş verib.

Əli (r) dedi: "Məktubdakı sənin möhüründür?"

Osman: Bəli.

Əli (r): Qulamın sənin dəvənin üzərində və üzərində sənin möhürün olan məktubla göndərilir, lakin sənin bundan xəbərin yoxdur?!

Osman yenə həmin məktubu yazmadığına və yazdırmadığına, həmin qulamı Misirə göndərmədiyinə Allaha şahid tutub and içdi.

Məktubdakı xətti tanıdılar, bu, Mərvanın xətti idi. Bununla bağlı Osmana (r) şikayət edib Mərvanı onlara vermələrini tələb etdilər. Lakin Osman Mərvanı təslim etməkdən imtina etdi. (Mərvan həmin vaxt Osmanın evində gizlənmişdi). Muhəmməd ibn Əbu Bəkrin əshabı qəzəbli halda onun yanından çölə çıxdılar. Osmanın bu işindən olduqca narazı idilər. Bilirdilər ki, o, yalandan and içməz. Lakin bir dəstə adam dedilər: "Osman Mərvanı haqq-hesab çəkmək və məktubla bağlı məsələni izah etmək üçün bizə vermədikcə qəlbimizdə ona qarşı heç bir üzr ola bilməz. Mərvan Peyğəmbər (s) səhabələrinin öldürülməsinə hansı haqla göstəriş verə bilər?! Əgər bunu Osman yazıbsa, onu xəlifəlikdən çıxaracağıq, yox,

əgər Mərvan onu Osmanın imlası ilə yazıbsa Mərvanla bağlı məsələni öz tərəfimizdən götür-qoy edə bilər".

Evlərini mühasirəyə aldılar, lakin Osman Mərvanı qətlə yetirəcəklərindən qorxub onu təhvil verməkdə imtina etdi. Camaat Osmanı mühasirədə saxlayıb su verilməsini belə qadağan etdilər".[146]

İbn Sədin "ət-Təbəqat" və Bəlazurinin "Ənsabul-əşrəf" kitablarında yazılıb (mətn "ət-Təbəqat"dandır): "Osmanı mühasirəyə alan misirlilərin sayı altı yüz nəfər idi, başçıları Əbdürrəhman ibn Üdeys Bəlvi, Kənanə ibn Bişr ibn Əttab Kindi və Əmr ibn Həmiq Xəzai idi. Kufədən gələnlər isə iki yüz nəfərdən ibarət idilər ki, başçıları Malik Əştər Nəxəi idi. Bəsrədən gələnlərin sayı yüz nəfərdi, başçıları Hukeym ibn Cəbələ Əbdiydi".[147]

"əl-Kamilu fit-tarix" kitabında yazılır: "Muhəmməd ibn Əbu Bəkr və Muhəmməd ibn Əbu Hüzeyfə Misirdə camaatı Osmana qarşı təhrik edirdilər. Misirlilər beş yüz nəfərlə (min nəfər olduqları da deyilib) Mədinəyə doğru çıxdıqda onların arasında Əbdürrəhman ibn Üdeys Bəlvi və Kənanə ibn Bişr ibn Əttab Leysi, Sevdan ibn Həmran Səkuni, Quteyrə ibn Fulan Səkuni də var idi. Onların üzərində rəhbər Ğafiqi ibn Hərb Əkki idi. Kufə əhli Mədinəyə tərəf hərəkət etdikdə aralarında Zeyd ibn Sovhan Əbdi, Əştər Nəxəi, Ziyad ibn Nəzr Harisi, Abdullah ibn Əsamm Amiri olmaqla Misir əhlidən yola çıxan dəstənin sayı qədər adam var idi. Başçıları Əmr ibn Əsamm idi. Bəsrə əhlinin də sayı misirlilər qədər idi. Aralarında Hükeym ibn Cəbələ Əbdi, Züreyh ibn Abid, Bişr ibn Şüreyh Qeysi və İbn Mühtəriş var idi. Rəhbərləri Hərqus ibn Züheyr Sədi idi. Onların hamısı Şəvval ayında Mədinəyə doğru yola çıxdılar".[148]

İbn Əbu Şeybə "əl-Müsənnəf"də Vəssaba istinadən yazır: "Möminlərin əmiri Osman məni göndərib Əştəri çağırmağımı buyurdu. Əştər gəldikdə Osman dedi:

---

[146] Tarixul-Mədinə, İbn Şəbbə Nəmiri, c. 4, s. 1159-1161; Ənsabul-əşrəf, c. 6, s. 184-185; əs-Siqat, İbn Həbban, c. 2, s. 256

[147] ət-Təbəqatul-kubra, İbn Səd, c. 3, s. 71; Ənsabul-əşrəf, c. 6, s. 219

[148] əl-Kamilu fit-tarix, İbn Əsir, c. 3, s. 158-159

“Ey Əştər, camaat məndən nə istəyir?” Dedi: “Üç şeydən və bunların heç birindən vaz keçməyəcəklər. Ya onların qarşısında xəlifəlikdən istefa verib: “Bu da sizin xilafətiniz, istədiyiniz şəxsi seçin” deyəcəksən, ya da səndən hesab sormalarına imkan verəcəksən. Əgər bu ikisindən boyun qaçırsan onlar səni öldürəcəklər...”[149]

“Ənsabul-əşrəf”də Osmanın mühasirəyə alınması hadisəsində deyilir: *“Osman Əlinin ardınca adam göndərdi. Əli gəldikdə dedi: “Ey Əbülhəsən, oradakı camaatın yanına get, onları Allahın kitabına və Peyğəmbərinin sünnəsinə dəvət et”. Əli dedi: “Yaxşı, amma mənə Allah qarşısında qəti söz ver ki, sənin əvəzinə onların qarşısında zamin duracağım hər bir şeyi yerinə yetirəcəksən”. Osman razılaşdıqda Əli ondan alınması mümkün olan ən ciddi vədi aldı. Camaatın qarşısına çıxdıqda dedilər: “Sən geri dur”. Əli dedi: “Xeyr, əksinə, mənim qarşımda Allahın kitabına uyğun narazı olduğunuz məsələləri söyləyin”. Sonra Osmanın verdiyi vədi onlara söylədi. Camaat bu vədlərə zamin olub-olmadığını Əlidən soruşduqda o, “Bəli, zaminəm” dedi. Camaat razılığını bildirdi. Onların başçıları və möhtərəm şəxsləri Əli ilə birlikdə Osmanın yanına daxil oldular. Tələblərini söylədilər və o da hər məsələdə onların sözləri ilə razılaşdı. Camaat ondan bu sözlərini yazılı şəkildə təsdiqləməyi tələb etdi və Osman bunları bir kağızda yazdı:*

“Bismillahir-Rəhmanir-Rəhim. Bu, Allahın qulu möminlərin əmiri Osmandan mömin və müsəlmanlardan ona qəzəblənən və narazı olan əhddir ki, sizin aranızda Allahın kitabına və Peyğəmbərinin sünnəsinə uyğun rəftar edəcəyimə söz verirəm. Məhrumun haqqını verəcək, qorxuda olanı əminliyə çıxaracaq və naqislikləri aradan qaldıracaq, beytül-mala qənaət edəcəyəm. Əli ibn Əbu Talib möminlər və müsəlmanlar üçün Osmanın burada yazılanları yerinə yetirməsinə zamindir.

Şahidlər: Zübeyr ibn Əvvam
Təlhə ibn Übeydullah
Səd ibn Malik ibn Əbu Vəqqas
Abdullah ibn Ömər

[149] əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 8, s. 583

Zeyd ibn Sabit

Səhl ibn Hənif

Əbu Əyyub Xalid ibn Zeyd

Zül-qəədə, otuz beşinci il.

Hər bir dəstə öz məktubunu götürüb getdi. Əli ibn Əbu Talib Osmana dedi: "Çıx, camaatın qarşısında hamının eşidəcəyi gözəl bir söhbət et ki, onları sənə qarşı nifrətdən çəkindirsin. Qəlbində olanlara Allahı şahid tut ki, şəhər əhalisi səmimiliyinə inansın. Kufədən, Bəsrədən və ya Misirdən başqa bir dəstənin gəlməyəcəyinə əmin deyilsən. O zaman yenə "Ey Əli, onların qarşısını al" deməyəsən. Əgər razı olmasam "Qohumluq əlaqəni kəsdin, haqqıma laqeyd yanaşdın" deyəcəksən.

Osman camaatın qarşısına çıxıb onlara müraciət etdi, etdiyi yanlışları iqrar etdi, Allahdan bağışlanma dilədi və dedi: "Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: "Yanlışlığa yol verən üzr istəyib tövbə etsin". Mən sizi qəzəbləndirənlərin birincisiyəm. Yanlışlığa düşdüyümdə möhtərəm şəxsləriniz yanıma gəlib öz fikirlərini bildirsinlər. Allaha and olsun ki, əgər bir kölə belə məni haqqa yönəltsə, ona tabe olaram. Allahın hökmündən savayı qəbul ediləcək şey yoxdur".

Söylədiyi xütbə camaatı sevindirdi, onun qapısının qarşısına toplaşıb sevinclərini izhar etdilər. Bu zaman Mərvan camaatın qarşısına çıxıb onları dağıtmağa başladı və dedi: "Eybəcər olub adam arasına çıxa bilməyəsəniz! Nə yığılmısınız bura! Möminlərin əmirinə mane olursunuz. Əgər sizdən birinə ehtiyacı olsa, özü çağıracaq".

Camaat dağılışıb getdi. Bu xəbər Əliyə çatdıqda qəzəbli halda Osmanın yanına gəlib dedi: "Mərvanın etdiklərindən razısan? O sənin dinini zay edir və ağlını aldatmaqla məşğuldur. Düşünürəm ki, səni pis vəziyyətə salacaq, sonra da yalnız

qoyacaq. Bundan sonra narazıları səndən uzaqlaşdırmaq üçün buraya qayıtmayacağam".

Osmanın həyat yoldaşı Nailə bint Fərafəsə dedi: "Əli ibn Əbu Talibin Mərvan haqqındakı sözlərini eşitdin və bir daha sənin yanına qayıtmayacağını da söylədi. Sən Mərvana boyun əyirsən, halbuki camaatın nəzərində onun nə qədri və nə də qiyməti var".

Osman Əlinin ardınca adam göndərdi, yalnız o, gəlmədi".[150]

Təbəri Abdullah ibn Zübeyr vasitəsi ilə atasından nəql edir: "Mədinə əhli Osmana məktub yazaraq onu tövbə etməyə çağırdılar. Ona qarşı dəlillər sadaladılar, Allahın onlara verdiyi haqları almadıqca və ya öldürmədikcə ondan əl çəkməyəcəkləri barədə Allaha and içdilər. Ölüm təhlükəsini hiss etdikdə nəsihətçiləri və ailəsini toplayıb məsləhət istəyib dedi: "Camaatın etdiklərini görürsünüz. Bundan çıxış yolu nədir?" Onlar Əli ibn Əbu Talibin yanına adam göndərib çağırmasını, ondan bu təhlükəni dəf etməsini, yardım gələnədək onları sakitləşdirməsini xahiş etməyi məsləhət bildilər. Osman dedi: "Camaat üzrü qəbul etməyəcək. Mənim boynumda onlar ilk dəfə gələrkən üzərimə götürdüyüm əhd var. Onlara yenə söz versəm, əvvəlki sözümü yerinə yetirməyimi tələb edəcəklər".

Mərvan ibn Həkəm dedi: "Ey möminlərin əmiri, sən güclənənə qədər onlara yaxınlaşmağın onların çoxalıb mühasirəyə almalarından daha yaxşıdır. Odur ki, onların istədiklərini ver və sənə yuxarıdan baxdıqları məsələlərdə sən onlara yuxarıdan bax. Onlar sənə qarşı çıxıblar, heç bir əhddən söz gedə bilməz".

Osman Əlinin yanına adam göndərib onu çağırtdı. Əli gəldikdə Osman dedi: "Ey Əbülhəsən! Camaatı etdiklərini görür, mənim etdiklərimi də bilirsən. Onların məni öldürməyəcəklərinə əmin deyiləm. Onları məndən uzaqlaşdır. Allaha and olsun ki, hətta qanım belə tökülsə onları narazı olduqları hər bir məsələdə razı salacağam, özümdə və başqasında olan haqlarını qaytaracağam".

---

[150] Ənsabul-əşrəf, c. 6, s. 179-180; Tarix, Təbəri, c. 3, s. 395-397; əl-Kamilu fit-tarix, c. 3, s. 164-166; əl-Bidayətu vən-nihayə, c. 7, s. 192-194

Əli dedi: "Camaatın sənin ədalətinə qətlindən çox ehtiyacları var. Mən razı salınmadıqca razılaşmayacaq bir dəstə insan görürəm. Onlar ilk dəfə gəldikdə sən Allah qarşısında söz verib barəsində qəzəbləndikləri bütün şeylərdən əl çəkəcəyini bildirdin, mən də onları səndən uzaqlaşdırdım. Lakin ardınca verdiyin sözlərdən heç birini tutmadın. Bu dəfə məni aldatma, mən sənin boynuna götürdüyün haqqı onlara çatdıracağam". Osman dedi: "Bəli, çatdır, Allaha and olsun ki, onlara olan vədimə vəfa edəcəyəm".

Əli camaatın qarşısına çıxıb dedi: "Ey camaat, siz haqqınızı tələb etdiniz, o sizə verildi. Osman söz verdi ki, özü və digərləri tərəfindən ədaləti bərpa edəcək, sizin bəyənmədiyiniz bütün işlərdən əl çəkəcək. Bunu qəbul edin və təsdiqləyin".

Camaat dedi: "Biz qəbul edirik. Ondan bizim üçün bir zəmanət al. Belə ki, biz onun əməlsiz boş sözlərinə əsla razı olmayacağıq".

Əli dedi: "Bu sizin haqqınızdır".

Ardınca Osmanın yanına qayıdıb bunları ona xəbər verdi. Osman dedi: "Mənimlə onların arasında möhlət olacaq bir müddət təyin et. Mən onların tələblərini bir gün ərzində yerinə yetirə bilmərəm".

Əli dedi: "Mədinədə olanlarla bağlı möhlət yoxdur. Kənarda olanlara isə əmrinin ora çatacağı müddət sənə verilən möhlətdir".

Osman: "Yaxşı, ancaq Mədinədəkiləri tənzimləmək üçün mənə üç gün vaxt ver".

Əli razılığını bildirib camaatın qarşısına çıxdı, baş tutan söhbəti onlara xəbər verdi və Osmanla onların arasında bir razılaşma yazdırdı. Razılaşmaya əsasən, üç gün müddətində qəsb edilmiş bütün haqlar geri qaytarılmalı, camaatın bəyənmədiyi məmurlar işdən çıxarılmalı idi. Ardınca camaat qarşısında Osmandan məxluqlardan alına biləcək ən möhkəm and və vədi aldı, buna mühacir və ənsarın öndə gələn şəxslərini şahid tutdu.

Camaat ondan əl çəkib verdiyi vədlərini yerinə yetirməsini gözlədi. Osman isə həmin andan döyüşə hazırlaşmağa, silah yığmağa başladı və qısa müddətdə böyük ordu topladı. Möhlət verilən üç gün başa çatdıqda o, verdiyi sözlərdən heç birini

yerinə yetirməmiş, heç bir məmuru işdən çıxarmamışdı. Bu səbəbdən, camaat ona qarşı üsyan etdi.

Əmr ibn Həzm Ənsari qiyam etdi, bu ərəfədə misirlilər də Zi Xəşəbə yetişmişdilər. Baş verənləri onlara xəbər verdi və onlarla birlikdə Mədinəyə gəldi. Osmanın yanına adam göndərib dedilər: "Sən etdiklərindən tövbə edib, narazı olduğumuz məsələləri həll edəcəyinə dair Allah qarşısında möhkəm əhd verdin və biz də bu vədin qarşısında buradan ayrıldıq". Osman dedi: "Bəli, mən vəd vermişdim". Onlar dedilər: "Bəs məmuruna yazıb qasidinlə göndərdiyin bu məktub nədir?!"[151] Məktubla bağlı hadisə bir az əvvəl nəql edildi.

Bununla da aydın olur ki, Osmanın yanlış siyasəti nəticəsində ümmətin arasında dərin uçurum yaranmışdı. Az qala bu əməllər ümmətin zehnində Peyğəmbərin (s) yaratdığı rəhbər obrazının cizgilərini də silməkdə, fitnə və etirazlar doğurmaqda və özündən sonra yanlışlıqlar buraxmaqda idi. Bütün bunların yükü Möminlərin əmirinin (ə) çiyinlərinin üzərinə düşürdü. İmam (ə) problemlərin aradan qaldırılmasına, İslamı Peyğəmbərin (s) zamanındakı mövqeyinə qaytarmağa, Peyğəmbərin (s) yaratdığı rəhbər obrazını bərpa etməyə başladı. Xüsusilə də, burada müsəlmanların beytül-malı ilə bağlı məsələlər əhəmiyyət kəsb edirdi.

İmam (ə) Osmanın və yaxın adamlarının maliyyə siyasətlərini yenidən nəzərdən keçirdi, ədalət və bərabərliyə çağırdı. Lakin bu yeni siyasətdən razı olmayan bəzi adamların qəzəbinə tuş gəldi. Halbuki İmam (ə) bu ilahi siyasətini ümmət fərdlərindən öncə özünə, ailəsinə, əqrəbalarına və dostlarına qarşı tətbiq edirdi. İbn Abbasın rəvayətində deyilir: *"Əli (ə) beytdən iki gün sonra Mədinədə xütbə söyləyib buyurdu: "Bilin və agah olun ki, Osmanın pay verdiyi hər bir mülk, Allahın malından hədiyyə etdiyi hər bir pul və mal geri alınıb beytül-mala qaytarılacaq. Köhnə haqqı heç nə ləğv edə bilməz. Əgər onunla qadınların mehriyəsinin verildiyini, şəhər camaatının arasında bölündüyünü görsəm belə, onu*

[151] Tarix, Təbəri, c. 3, s. 403-404. Bax: əl-Kamilu fit-tarix, İbn Əsir, c. 3, s. 169-170

əvvəlki vəziyyətinə qaytaracağam. Çünki ədalətdə bir genişlik var. Ədalət dar gələn şəxsə, zülm daha dar gələr".[152]

İmam Əli (ə) Osmanın qarşısına çıxan, yaltaqlanan hər kəsə hay verdiyi mal və mülkləri geri alıb beytül-mala qaytardı. Əli ədalətinin şamil olduğu məsələlərdən biri də Fədək idi. Lakin onu Əhli-Beytə (ə) qaytarması bu islahat siyasətinə zərər yetirəcəkdi. Bəziləri onun da bu yoldan uzaqlaşdığını düşünə bilərdilər. İmam (ə) ədalət və bərabərliyi Əhli-Beytini (ə) önə çəkmədən, bütün müsəlmanlar üzərində tətbiq etmək istəyirdi.

İmam Əli (ə) siyasətinin ümumi addımlarını Bəsrə valisi Osman ibn Hüneyn Ənsariyə yazdığı məktubda da qısaca ifadə edir. Bu məktubu Bəsrə əhlinin Osmanı qonaqlığa dəvət etməsini və onun qonaqlığa getməsini eşidəndə yazıb. *"Ey Hüneyfin oğlu, mənə xəbər çatıb ki, Bəsrə gənclərindən biri səni toy süfrəsinə dəvət edib və sən tələsik həmin süfrəyə doğru getmisən. Sənin üçün növbənöv ləzzətli yeməklər istənilib və qarşına böyük kasalar gətirilib. Sənin, kasıb və yoxsullarını qovan, varlıları isə dəvət edən bir camaatın qonaqlığına getməyini güman etməzdim. Buna görə də bu yeməkdən dişlədiyinə diqqət et. (Halal və ya haram olması) sənə məlum olmayan şeyi at (yemə). Qazanılma yollarının pak olmasını (halal və düz yolla əldə edildiyini) bildiyin şeyi ye. Bil ki, tabe və ardıcıl olan hər bir şəxsin bir imam və başçısı var ki, ona tabe olur və onun elminin nuru ilə aydınlıq axtarır. Bunu da bil ki, sizin imamınız öz dünyasından iki köhnə paltarla, yeməklərdən isə iki tikə çörəklə kifayətlənib. Sizin bu cür etmək qüdrətiniz yoxdur. Amma (heç olmasa) mənə təqva, çalışqanlıq, iffət və düzlüklə kömək edin. Allaha and olsun ki, sizin dünyanızdan qızıl toplamamışam, onun qənimətlərindən çoxlu mal yığmamışam və əynimdəki köhnə paltardan başqa digər bir köhnə paltar hazırlamamışam.*

Bəli, göyün kölgə saldığı bütün şeylərdən (dünya malından) yalnız Fədək bizim əlimizdə idi ki, bir dəstə adam ona paxıllıq etdi. Başqaları da bəxşiş edərək ondan

---

[152] Nəhcül-Bəlağənin şərhi, İbn Əbülhədid, c. 1, s. 269

keçdilər. Allah gözəl hakimdir. Mən Fədəyi və Fədəkdən qeyrisini nə edəcəyəm? Halbuki insanın yeri sabah qəbir və gordur ki, onun qaranlıqlarında nişanələri məhv olacaq və xəbərləri itib gedəcək. Həmçinin elə bir çuxurdur ki, əgər onun genişliyi çoxalsa və gorqazanın əlləri onun genişliyində çalışsa daş-kəsək onu sıxar və torpaq bir-birinin üstünə yığılaraq deşiklərini örtər.

Mənim fikir və düşüncəm bundadır ki, öz nəfsimi təqva ilə tərbiyə edərək xar edim ki, qorxu və vahiməsi çox olan gündə (qiyamətdə) asudə və rahat olsun, sürüşkənliyin kənarında möhkəm dayansın. Əgər istəsəm yolumu bu balın saf və təmizinə, buğda çörəyinin xalisinə və bu ipək paltarın toxunulmuşuna sala bilərəm. Amma Hicazda, yaxud Yəmamədə kiminsə bir tikə çörəyə ümidsiz olması və tox yatdığı vaxtı yadından çıxarması ehtimalı ola-ola nəfsi istəklərin mənə qalib gəlməsi və hərisliyin çoxluğunun məni yemək seçməyə vadar etməsi məndən necə də uzaqdır!! Həmçinin ətrafımda ac qarın və isti böyrəklər ola-ola tox qarınla yatmaq... məndən çox uzaqdır...

Dövranın çətinliklərində onlarla həmdərd olmadan, acı günlərində gözləri önündə durmadan mənə "Möminlərin əmiri və başçısı" deyilməsi ilə kifayətlənim?! Məni fikri ancaq ot olan bağlı heyvan, yaxud bir şey tapıb yemək üçün zir-zibili alt-üst edən və mədəsini əlinə düşənlə doldurarаq onun üçün nəzərdə tutulan şeydən qafil olan açıb buraxılmış dördayaqlı kimi yaratmayıblar ki, gözəl təamlar yemək məni (əbədi xoşbəxtlikdən) saxlasın. Həmçinin məni bekar qalaraq əbəs yerə özbaşınalıq etmək və ya azğınlıq ipini çəkərək düşünmədən sərgərdanlıq yoluna yollanmağım üçün yaratmayıblar.

Sanki, sizdən birinizin belə dediyini görürəm: "Əgər Əbu Talib oğlunun yeməyi budursa, onda zəiflik və süstlük onu tay-tuşları ilə döyüşdən və şücaətlilərlə rəqabət apararaq bərabərlik etməkdən saxlamayacaq!" Bilin ki, (suyun az çatdığı) çöl ağacının taxtası bərkdir (möhkəmdir). Amma (suyu çox olan bağlarda əkilmiş) yaşıl ağacların qabıqları daha nazikdir. (Yağış suyundan başqa digər bir su tapmayan) səhra bitkilərinin alovlarının şöləsi daha çox saçır və onlar daha gec sönürlər.

Mənimlə Rəsulullah (bağlılıq və birlik baxımından hər ikisi bir kökdən bitmiş) xurma ilə xurma və (bir-birinə birləşmiş) əl ilə bazu kimiyik. (Buna görə də) Allaha and olsun ki, əgər bütün ərəblər mənə qarşı müharibə etməyə birləşsələr onların qabağından qaçmaram və əgər ələ fürsət düşsə onlara tərəf tələsərəm (Allahın və dinin yardımı yolunda hamısının boynunu vuraram). Tezliklə yer üzünü bu baş-ayaq şəxsdən və başıaşağı gövdədən (Müaviyədən) təmizləməyə çalışacağam ki, daş-kəsək biçilmiş buğdadan ayrılsın...

Xoş o adamın halına ki, qayıdış (qiyamət günü) qorxusu gözlərini oyaq saxlayan, yanlarını yataqlardan uzaqlaşdıran, dodaqları yavaş-yavaş Rəblərini zikr edən və istiğfarın (bağışlanmaq istəyinin) çoxluğundan günahları (dağınıq buludlar kimi) dağılmış dəstənin içərisində Rəbbinin vacib etdiklərini əda edir, çətinliklərdə dözümlüdür, gecələr yuxu və mürgü qalib gələnə kimi yuxudan uzaqdır, (yuxu və mürgü ona qalib gələndə isə) yeri öz döşəyi və əlini isə yastığı edir! ***"Onlar Allahın firqəsidirlər. Bilin ki, Allahın firqəsi – məhz onlar, nicat tapıb əbədi səadətə qovuşanlardır".*** *Buna görə də ey Hüneyfin oğlu, Allahdan qorx (qarın otarmaqla məşğul olma). Gərək bir neçə tikə çörəklə kifayətlənəsən ki, o sənin oddan qurtulmağına səbəb olsun".*[153]

C. İmamın (ə) Əhli-Beytinin (ə) özündən sonra mübahisədən uzaq tutmaq istəyi

Möminlərin əmirinin (ə) öz xilafəti dövründə Fədəyi Əhli-Beytə (ə) qaytarmamasının səbəblərini araşdıran şəxs həmin anlayış və səbəblərin geniş sərhədləri çərçivəsində mühüm məsələləri nəzərə almalıdır. Bu məsələlərdən biri də İmamın (ə) öz ailəsini bir çox bəla və faciələrdən uzaq tutmaq istəyidir. Belə ki, o, ümmətin gələcəyi ilə bağlı məlumata sahib olduğu üçün Əhli-Beytini (ə) gözləyən acı hadisələrdən və mübarizələrdən xəbərdar idi. Bunu Peyğəmbərin (s) verdiyi xəbərlərdən, özünün imamət elmindən, şəxsi uzaqgörənliyindən, dərin

[153] Nəhcül-Bəlağə, məktub 45

zəkası və aşıb-daşan elmi ilə bilirdi. Beləliklə də özündən sonra Əhli-Beytinə (ə) üz verəcək əziyyətləri göz önündə saxlayaraq, onları toxuna biləcək əlavə bəlalardan qorumağa çalışırdı.

Sübuta yetmiş və müsəlmanların arasında məşhurdur ki, Peyğəmbər (s) ümmətin arasındakı parçalanma və təfriqə, Əhli-Beytinə (ə) qarşı hücumlar barədə öncədən xəbər vermişdi. Bu barədə Əhməd ibn Hənbəl özünün "Müsnəd"ində[154], eləcə də Tirmizi və Əbu Davud "Sünən"lərində[155], həmçinin digər kitablarda Əbu Hüreyrədən nəql olunur (mətn Əbu Davudun "Sünən"indəndir): *"Peyğəmbər (s) buyurdu: "Yəhudilər yetmiş bir (və ya iki), xristianlar da yetmiş bir (və ya iki) firqəyə bölündülər. Mənim ümmətim də yetmiş üç firqəyə bölünəcək".*[156]

Buxari "Səhih"də Əbu Hüreyrədən nəql edir: "Doğruçular doğruçusunun (Peyğəmbərin) belə buyurduğunu eşitdim: *"Ümmətimin həlakı Qüreyşdən olan şəhvətbazların əlilədir".* Mərvan: "Şəhvətbazlar?" deyə soruşduqda Əbu Hüreyrə dedi: "Əgər istəsən onların adlarını da saya bilərəm: Bəni-fulan, bəni-fulan..."[157]

Qurtubi Buxarinin nəql etdiyi bu hədislə bağlı deyir: "Sanki, Əbu Hüreyrənin "Bəni-fulan, bəni-fulan" sözlərindəki şəxslər, Allah bilir, bəlkə də, Yezid ibn Müaviyə, Übeydullah ibn Ziyad, eləcə də Bəni-Üməyyə padşahlarından onların yolunu davam edənlərdir. Onlar Peyğəmbərin (s) Əhli-Beytinin üzvlərini və onların gənclərini qətlə yetirmiş, Mədinədə, Məkkədə və digər yerlərdə mühacir və ənsarın ən yaxşılarını öldürmüşdülər. Həccacın, Süleyman ibn Əbdülməlikin və oğlunun tökdüyü qanlar, tələf etdikləri mal-mülklər, Hicazda, İraqda və digər məntəqələrdə törətdikləri qətliamlar dəhşətlidir.

Xülasə, Bəni-Üməyyənin bu əməlləri Peyğəmbərin (s) Əhli-Beyti və ümmətinə qarşı çıxılacağı, qanunsuz addımlar atılacağı, qanını tökəcəkləri, qadınlarını

---

[154] Müsnəd, Əhməd ibn Hənbəl, c. 2, s. 332
[155] Sünən, Tirmizi, c. 4, s. 134
[156] Sünən, Əbu Davud, c. 2, s. 390
[157] Səhih, Buxari, c. 4, s. 178

təhqir edəcəkləri, azyaşlılarını əsir götürəcəkləri, məskənlərini xaraba qoyacaqları, fəzilət və şərəflərini inkar edəcəkləri, onları lənətləməyi və söyməyi mübah biləcəkləri, Peyğəmbərin (s) vəsiyyətinə müxaliflik edəcəkləri barədə verdiyi xəbərlərinə uyğundur. Vah olsun sizin Peyğəmbərin (s) qarşısına dayanıb xəcalət çəkəcəyiniz günə! Vay olsun sizin həmin gün rüsvayçılığınıza!”[158]

Ümmətinin və Əhli-Beytinin (ə) gələcəyi ilə bağlı Peyğəmbərin (s) bu xəbərlərindən sonra İmam (ə) öz ailəsi üçün bu bəlaları az da olsa yüngülləşdirmək istəmişdir. Bunlardan biri də Fədəyi geri qaytarmamaqdır ki, nəticədə onları hakimiyyətdən öz mənfəətləri üçün istifadə etməkdə ittiham etməsinlər. Xüsusilə də, İmam (ə) Fədəyin gələcəkdə ümmətin arasındakı ixtilaf mövzusuna çevriləcəyini, öz xilafət dövrünün isə az olacağını gözəl bilirdi. Həmçinin o, ümmətin bir hissəsinin ona qarşı üsyan qaldıracağından da məlumatlı idi. Peyğəmbərdən (s) nəql olunan bir çox hədislər özündən sonra Əhli-Beytə (ə) böyük zülmlərin olduğunu qeyd edir. Hakim özünün “əl-Müstədrək” kitabında Həyyan Əsədiyə istinadən rəvayət edir: “Əlinin belə dediyini eşitdim: “Peyğəmbər (s) mənə buyurdu: “Məndən sonra ümmət sənə qarşı çıxacaq. Sən isə mənim dinimin üzərində yaşayacaq, sünnətim üzərində ikən qətlə yetiriləcəksən. Səni sevən məni sevmiş, sənə nifrət edən mənə nifrət etmişdir. (Əli ilə işarə edərək) bunu buna boyayacaqlar”. Yəni saqqalını başının qanına boyayacaqlar”. Hakim Nişapuri bu hədisin səhih olduğunu bildirir.[159] Eləcə də Zəhəbi “ət-Təxlis”[160] əsərində hədisin səhih olduğunu qeyd edir.

Bunu isə Xətib Bağdadi öz “Tarix”ində Əbu İdris Əsədi sənədi ilə Möminlərin əmirindən (ə) nəql edib: *“Peyğəmbərin (s) mənə verdiyi əhdlərdən biri də, ümmətin ondan sonra mənə qarşı çıxacağıdır”.*[161]

---

[158] ət-Təzkirah, Qurtubi, s. 642

[159] əl-Müstədrək ələs-Səhiheyn, Hakim Nişapuri, c. 3, s. 153

[160] Təliqatuz-Zəhəbi fit-Təxlis, c. 3, s. 153

[161] Tarixu Bağdad, Xətib Bağdadi, c. 11, s. 216

Həmçinin İbn Əsakir özünün "Tarix",[162] İbn Kəsir isə "əl-Bidayətu vən-nihayə"[163] əsərində bunu qeyd ediblər.

Beyhəqi "Dəlailun-nubuvvə" kitabında Sələbə Həmaniyə istinadən nəql edir: "Əlinin minbərdə belə söylədiyini eşitdim: *"Allaha and olsun ki, Ümmi Peyğəmbər mənə xəbər verib ki, ondan sonra ümmət mənə qarşı çıxacaq".*[164]

Zəhəbi "Təzkiratul-huffaz" Əlqəməyə istinadən Əlinin (ə) belə buyurduğunu yazır*: "Peyğəmbər mənə əhd verib dedi: "Məndən sonra ümmət sənə qarşı çıxacaq".*[165]

Hakim "əl-Müstədrək"də İbn Abbasdan nəql edir: *"Peyğəmbər (s) Əliyə dedi: "Bil ki, sən məndən sonra çətinliklərlə üzləşəcəksən". Əli dedi: "Dinim salamat olacaq?" Peyğəmbər (s) "Bəli, dinin salamat olacaq" deyə cavab verdi".* Hakim şərhində deyir: "Bu hədis Buxari və Müslimin şərtinə əsasən səhihdir, lakin onu kitablarında qeyd etməyiblər".[166]

Əbu Yəla Mosuli öz "Müsnəd"ində Əbu Osmandan, o da Möminlərin əmirindən (ə) nəql edir: *"Peyğəmbər (s) məni qucaqlayıb ağlamağa başladı. Ağlamağının səbəbini soruşduqda dedi: "Bir çox insanın qəlbindəki sənə qarşı olan gizli kin-küdurət məndən sonra zahir olacaq". Dedim: "Ya Peyğəmbər, dinim salamat olacaq?" Peyğəmbər (s) "Bəli, dinin salamat olacaq" deyə cavab verdi".*[167]

Eləcə də Bağdadi[168] və İbn Əsakir[169] öz "Tarix"lərində, Zəhəbi "Mizanul-itidal" əsərində yazırlar: "Nəsai bunu "Müsnədu Əli" kitabında Hərəminin vasitəsilə nəql edib, Bəğəvi isə Qəvariridən, o da Hərəvidən rəvayət edib".[170]

---

[162] Tarixu Mədinəti Diməşq, İbn Əsakir, c. 42, s. 448
[163] əl-Bidayətu vən-nihayə, İbn Kəsir, c. 6, s. 244
[164] Dəalilun-nubuvvə, Beyhəqi, c. 7, s. 312, hədis 2759
[165] Təzkiratul-huffaz, Zəhəbi, c. 3, s. 995
[166] əl-Müstədrək ələs-Səhiheyn, Hakim Nişapuri, c. 3, s. 151
[167] Müsnəd, Əbu Yəla, c. 1, s. 427
[168] Tarixu Bağdad, c. 12, s. 394
[169] Tarixu mədinəti Diməşq, İbn Əsakir, c. 42, s. 322
[170] Mizanul-itidal, Zəhəbi, c. 3, s. 355-356

Heysəmi də "Məcməuz-zəvaid"də nəql edərək deyir: "Bunu Əbu Yəla və Bəzzar da nəql ediblər. O rəvayətdə Fəzl ibn Ümeyrə var ki, İbn Həbban onun siqə (inanılan şəxs) olduğunu bildirib. Digərləri isə onu zəif ravi hesab edirlər. Rəvayətin digər raviləri isə siqələrdir".[171]

Hədisin əvvəlini Hakim "Müstədrək"də Fəzl ibn Ümeyrəyə[172] istinadən nəql edib və deyib: "Bu hədis Buxari və Müslimin şərtinə əsasən səhihdir, lakin onu kitablarında qeyd etməyiblər".[173]

İbn Ədiyy "əl-Kamil" əsərində Ənəs ibn Malik sənədi ilə nəql edir: "Mən və Əli Peyğəmbərlə (s) birlikdə Mədinə ətrafında gəzməyə çıxdıq. Bir bağın yanından keçdikdə Əli "Nə gözəl bağdır!" dedi. Peyğəmbər (s) onun Cənnətdəki bağının bundan daha gözəl olduğunu söylədi. Doqquz belə bağın yanından ötdük, hər dəfəsində eyni sözləri söylədilər. Sonra Peyğəmbər (s) ağlamağa başladı. Əli bunun səbəbini soruşduqda buyurdu: *"Bir dəstə insanın qəlbindəki sənə qarşı olan gizli kin-küdurət məni itirdiklərindən sonra zahir olacaq".*[174]

Həmçinin İbn Əsakir "Tarix"ində,[175] Zəhəbi "Mizanul-itidal"da[176] İbn Abbasdan, Təbərani "əl-Möcamul-kəbir"də[177] bunu nəql ediblər.

Bu, müxtəlif tarixi kəsimlərdəki hakimiyyətlər tərəfindən əməli olaraq baş verdi. Fədək siyasi səbəblərdən əllərindən alındı. Hətta Fədəyin siyasi yönü onun maddi tərəfindən daha dərin mənalar qazandı. Bu, hakimiyyətlərin əlində bir

---

[171] Məcmuz-zəvaid, Heysəmi, c. 9, s. 118

[172] Hakim Nişapuri deyir: "Əli ibn Həmşaz Ədildən, o da Abbas ibn Fəzl Əsfatidən, o da Əli ibn Abdullah Mədinidən və İbrahim ibn Muhəmməd ibn Ərərədən, onlar da Hərəmi ibn Ümarədən, o da Fəzl ibn Ümeyrədən nəql edir ki, Məymun Kərdi, Əbu Osman Hindinin Əlinin (r) belə dediyini söyləyir: "Mədinə küçələrində Peyğəmbər (s) mənim əlimdən tutaraq gəzirdik. Bir bağın yanından ötdükdə dedim: "Ya Peyğəmbər, nə gözəl bağdır!" Peyğəmbər (s) mənim Cənnətdəki bağımın bundan daha gözəl olduğunu söylədi". Bu, sənədi səhih hədisdir, lakin Buxari və Müslim kitablarında qeyd etməyiblər". (əl-Müstədrək, c. 3, s. 139)

[173] əl-Müstədrək ələs-Səhiheyn, Hakim Nişapuri, c. 3, s. 139

[174] əl-Kamil, Abdullah ibn Ədiy, c. 7, s. 173-174

[175] Tarixu mədinəti Diməşq, İbn Əsakir, c. 42, s. 323

[176] Mizanul-itidal, Zəhəbi, s. 480

[177] əl-Möcamul-kəbir", Təbərani, c. 11, s. 61

karta çevrildi. Bir hakim Əhli-Beytə (ə) xoş münasibətini göstərmək üçün onu sahiblərinə qaytarır, onların müxaliflərinin razılığını qazanmaq üçün isə yenidən geri alırdı. Bu, uzun müddət davam etdi. Bu səbəbdən, tarixdə Əhli-Beytə (ə) yaxınlıq təəssüratı yaratmaq məqsədilə Fədəyin onlara geri qaytarıldığını görürük. Necə ki, bunu Abbasi xəlifəsi Məmun etmişdi.

İmam (ə) Əhli-Beytini (ə) özündən sonra mübahisələrdən nə qədər uzaq tutmaq istəsə də, çox təəssüf ki, ümmət onların haqqına riayət etmədi, Peyğəmbərin (s) onlar barəsindəki əhdinə vəfa göstərmədi. Təbərinin "Tarix"ində yazılır: "Camaat düşməncəsinə Hüseynin qadınlarına, zinət əşyalarına və mallarına hücum çəkdi. Qadın gördükdə çiynindəki örtüyünü dartır, ona görə bir-biri ilə mübarizə aparır və götürüb qaçırdılar".[178]

Buxari "Səhih"də Ənəs ibn Malikə istinadən yazır: *"Hüseyn ibn Əlinin (ə) başı Übeydullah ibn Ziyada gətirilib bir tasa qoyuldu. O, əlindəki çubuqla başı oyan-buyana çevirir və gözəlliyi barədə bəzi sözlər söyləyirdi". Ənəs deyir: "Hüseyn Peyğəmbərə (s) ən çox bənzəyən şəxs idi". Həmin vaxt Hüseynin başı qara rəngli vəsmə bitkisi ilə boyanmışdı".*[179]

Tirmizi də həmçinin Ənəsə istinadən öz "Sünən"ində yazır: *"İbn Ziyadın yanında idim, Hüseynin kəsilmiş başı gətirildi. Öz çomağı ilə onun burnunu-qulağını oynadır və deyirdi: "Bunun kimi gözəl görməmişəm". Ənəs dedi: "O, insanların arasında Peyğəmbərə (s) ən çox bənzəyən şəxs idi".*[180]

D. Fatiməyə (ə) olan zülmlərdən sonra Əhli-Beyt (ə) maddi mübahisələri özünə layiq bilmədi

Bütün bu illərdə onlardan alınan haqların müqabilində Əhli-Beyt (ə) maddi mübahisələrə daxil olmağı özünə layiq bilmədi. Siyasi vəziyyətin onlar üçün hazırladığı şəraitdən (xüsusilə də, Osmanın qətlindən sonra) istifadə edərək

[178] Tarix, Təbəri, c. 4, s. 346
[179] Səhih, Buxari, c. 4, s. 216
[180] Sünən, Tirmizi, c. 5, s. 325

Fədəyi özlərinə qaytarmağı, ümmətin arasında fitnə alovları çıxarmaq və böhranı dərinləşdirməyə fürsət axtaran şəxslərə yol açmamaq üçün münasib bilmədilər. Çünki onlar (ə) ali və pak şəxslər idilər.

Buna şiə rəvayətləri də işarə edir. Şeyx Səduq "İləluş-şəraye"də İbrahim Kərxiyə istinadən rəvayət edir: *"İmam Sadiqdən (ə) nə üçün Möminlərin əmiri Əlinin (ə) xilafətə keçdikdə Fədəyi geri qaytarmadığını soruşdum. Buyurdu: "Peyğəmbərin (s) Məkkəni fəth edərkən rəftarını özünə nümunə götürdü. Belə ki, Əqil ibn Əbu Talib onun evini (məcbur qalıb) satmışdı. Peyğəmbərə (s) "öz evini geri qaytarmayacaqsan?" deyə soruşulduqda o, buyurmuşdu: "Əqil bizə evmi qoydu? Biz Əhli-Beyt bizdən zülmlə alınan şeyin geri qaytarılmasını tələb etmərik". İmam Əli (ə) də bu səbəbdən Fədəyi geri almadı".*[181]

Həmçinin İmam Əlinin (ə) Bəsrədəki valisi İbn Hüneyfə yazdığı məktubdakı sözlərini də qeyd etmişdik: *"Bəli, göyün kölgə saldığı bütün şeylərdən (dünya malından) yalnız Fədək bizim əlimizdə idi ki, bir dəstə adam ona paxıllıq etdi. Başqaları da bəxşiş edərək ondan keçdilər. Allah gözəl hakimdir. Mən Fədəyi və Fədəkdən qeyrisini nə edəcəyəm? Halbuki insanın yeri sabah qəbir və gordur ki, onun qaranlıqlarında nişanələri məhv olacaq və xəbərləri itib gedəcək".*[182]

Buna əsasən Əhli-Beyt (ə) Fədəyin maddi yönünə göz yumdu. Beləliklə də Fədək onların xilafətə haqqını və məzlumluqlarını ifadə edən bir rəmzə çevrildi. Fədək gətirdiyi faciəvi bədbəxtliklərlə, Fatimənin (ə) pak məqamına edilən təcavüzlə onların qəlbini ən çox narahat edən məsələ idi. Belə ki, bunun nəticəsində onların da sözlərinə əsasən Xanım "Şəhid Siddiqə (doğru danışan və haqlı olan)" deyə anıldı. Necə ki, Kuleyni "əl-Kafi"də İmam Rzadan (ə) rəvayət edir: *"Həqiqətən də Fatimə (ə) şəhid Siddiqədir (doğru danışan və haqlı olandır)".*[183]

Buna əsasən, hər dəfə Əhli-Beytdən (ə) "Fədək" məsələsi ilə bağlı söhbət düşəndə sözü xilafətin onlardan qəsb edilməsi ilə uzlaşdırırdılar. Çünki Fədəyin

---

[181] İləluş-şəraye, Şeyx Səduq, c. 1, s. 155

[182] Nəhcül-Bəlağə, 45-ci məktub

[183] əl-Kafi, Şeyx Kuleyni, c. 1, s. 458

onlara qaytarılması həqiqətdə xilafət haqlarının qaytarılması idi. Bunu təsdiq edən dəlillərdən biri Zəməxşərinin "Rəbiul-əbrar" kitabında Harun Rəşidin İmam Museyi-Kazimə (ə) söylədiyi sözlərdir: *"Ey Əbülhəsən, Fədəyin sərhədlərini söylə ona sizə qaytarım". (İmam) bundan imtina etdi. Harun israr etdikdə buyurdu: "Onu yalnız bütün sərhədləri ilə birgə geri ala bilərəm". Harun onun hüdudlarının nələr olduğunu soruşduqda buyurdu: "Əgər onları söyləsəm, əsla geri qaytarmazsan". Harun dedi: "Babanın haqqına and olsun ki, qaytararam". İmam (ə) buyurdu: "Onun ilk sərhədi Ədəndir". Bu zaman Harunun üzünün rəngi dəyişdi və dedi: "Davam et". İmam (ə): "İkinci sərhədi Səmərqənddir". Harun bunu eşitdikdə rəngi bozardı. "Üçüncü sərhədi Afrikadır". Bu zaman da üzünün rəngi qaraladı və dedi: "Davam et". İmam (ə): "Dördüncü sərhədi Ərəb yarımadasının dəniz sahillərindən ta Ərmənniyyəyə kimidir". Harun Rəşid dedi: "Bizə bir şey qalmadı... Gəl, mənim yerimdə otur". İmam (ə) buyurdu: "Mən sənə dedim axı ki, onun tam sərhədlərini söyləsəm, əsla razı olmayacaqsan". Harun Rəşid bu an onu öldürmək qərarına gəldi".*[184]

Buna yaxın bir mənaya Şeyx Kuleyninin "əl-Kafi"dəki rəvayəti də işarə edir. Əli ibn Əsbata istinadən İmam Kazimin (ə) Abbasi xəlifəsi Mehdinin qəsb olunmuş haqları geri qaytardığını gördüyü vaxt belə dediyini rəvayət edir: *"Bizim haqqımızı niyə qaytarmırsan?" Mehdi "Ey Əbülhəsən, haqqınız nədir?" deyə soruşduqda buyurdu: "Uca Allah Peyğəmbər (s) Fədəyi və onun vilayətlərini üzərinə at və ya dəvə sürülmədən fəth etdiyi zaman bu ayəni endirdi:* ***"Yaxın qohuma haqqını ver".***[185] *Peyğəmbər (s) Fatiməni çağırıb buyurdu: "Ey Fatimə, Uca Allah mənə Fədəyi sənə verməyi əmr etdi". Xanım dedi: "Ey Peyğəmbər, Allahdan və səndən bunu qəbul etdim". Peyğəmbər (s) həyatda ikən Fədəyin vəkaləti Fatimədə (ə) idi. Əbu Bəkr xəlifəliyə keçdikdə Fədəyin vəkalətini ondan aldı... Mehdi dedi: "Ey Əbülhəsən, onun sərhədləri mənə söylə". Buyurdu: "Onun bir sərhədi Ühüd dağı,*

---

[184] Rəbiul-əbrar, Zəməxşəri, c. 1, s. 315-316

[185] Rum, 38

digər Misirin Ərişi, Ərəb yarımadasının dəniz sahillərindən Ərəb şəhəri olan Dövmətul-Cəndəldir...”[186]

İmam (ə) bu sözləri ilə Fədəyin bütün İslam dövlətinin hüdudlarını ehtiva edən bir mənaya işarə edir. Əgər Abbasi xəlifəsi qəsb olunmuş haqları geri qaytarmaq vədində doğru olsaydı, o zaman Əhli-Beytin (ə) ən böyük məzlumiyyəti və qəsb olunmuş haqqı olan Peyğəmbər (s) xilafətini qaytarmalı idi.

Bunları İlahi İhsan Zahir və onun kimi Əhli-Beytin (ə) saf və pak çeşməsindən uzaq düşmüşlər əsla anlayıb dərk edə bilməzlər. Bu səbəbdən də, Şeyx Kuleyninin “əl-Kafi”dəki bu rəvayətini götürüb tənqid və məsxərə məqsədilə istifadə edir: **“Qeyd edəcəyimiz ikinci rəvayət də “əl-Kafi”dəndir. Əbülhəsən Musa Mehdinin yanına gəlib, onun qəsb olunmuş haqları qaytardığını görüb deyir: .... Mehdi dedi: “Ey Əbülhəsən, onun sərhədlərini mənə söylə”. Buyurdu: “Onun bir sərhədi Ühüd dağı, digər Misirin Əriş şəhəri, Ərəb yarımadasının dəniz sahilləri və Dövmətul-Cəndəldir...” (əl-Usul-minəl-Kafi, c. 1, s. 543)**

Yəni bütün aləm. Bunlara və bunların yalanlarına baxın. Xeybərin bir kəndi harada, dünyanın yarısı olacaq ərazi harada! Bu adamlar və onların şişirtmələri həqiqətən təəccüb doğurur! Kiçiyi necə böyüdür, böyüyü necə kiçildirlər! Bu, onların şişirtmələrinə və uydurmalarına daha bir dəlildir”.[187]

Belə bir üsluba susmaqdan başqa heç bir cavab verə bilmərik. Allah bizə kifayət edər, O, necə də gözəl vəkildir! Şair nə gözəl deyib:

Səfehə cavab verməkdənsə sükut edərəm
Nə qədər sükut var ki, cavab əvəzinə cavabdır.

---

[186] əl-Kafi, Şeyx Kuleyni, c. 1, s. 543

[187] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir. s. 90

E. İmam Əlinin (ə) sərəncamındakı Fədək

Mümkündür ki, deyilsin: Fədək Möminlərin əmirinin (ə) sərəncamına keçdikdən sonra və müsəlmanların xəlifəsi qismində onun həqiqi ixtiyar sahibi olduğu halda, sanki, onu sahiblərinə geri qatarmış və ya gəlirini beytül-mala daxil etmək üçün onlardan izn almışdır. Xüsusilə də, İmamın (ə) xilafəti üçün tələb olunan şəraitin yaradılmasına yönəltmişdir. İmamın (ə) ədalət və dürüstlüyünün dar gəldiyi bəzi narazı adamların varlığı səbəbindən Fədəyi beytül-mala qaytardıqdan sonra Əhli-Beytinə (ə) geri verməsi heç də zərurət kəsb etmirdi. Belə ki, o haqq sahibi və müsəlmanların xəlifəsi olaraq həmin dövrdə münasib gördüyü şəkildə və tam səlahiyyətlə ondan istifadə edirdi.

İkinci bəhs: Şiə mənbələrində peyğəmbərlərin (ə) miras buraxmadıqlarına dair rəvayətlər

İlahi İhsan Zahirin şiə alimlərinin üzərinə hücum çəkərək "Biz miras buraxmarıq, özümüzdən sonra qalanlar sədəqədir" rəvayətinin mətn və məzmun baxımından guya şiə hədis kitablarındakı varlığından xəbərsiz olmaqda ittiham edir. Deyir: **"Siddiqə həsəddən və düşmənçilikdən burada inkar etdiklərini onların öz kitablarında beşinci[188] imamlarının Peyğəmbərdən (s) rəvayət etdiyini bilmirlər..."[189]** Ardınca Şeyx Kuleyininin "əl-Kafi" kitabından İmam Əbu Abdullah Sadiqdən (ə) nəql edilən iki rəvayəti qeyd edir. Həmçinin bu rəvayətlərin məzmununu dəstəkləyən daha iki rəvayətin Şeyx Səduq tərəfindən nəql edildiyini iddia edərək deyir: **"Bu rəvayətlərdən savayı daha iki rəvayət var ki, onu bu qövmün Səduqu nəql edir. Həmin rəvayətlər qeyd etdiyimiz rəvayəti təsdiqləməkdədir..."[190]** Ardınca da həmin rəvayətləri qeyd edir.

Məsələnin həqiqətinin tam bəyan olması üçün əvvəlcə Kuleyni və Şeyx Səduqun bu fəsildə qeyd etdikləri rəvayətləri təqdim edəcək, ardınca da onlar barədə deyiləcək sözlərimizi söyləyəcəyik ki, İlahi Zahirin iddialarının batilliyi, həddən artıq zəifliyi aydın olsun. Bu zəiflik elə bir dərəcədədir ki, Əbu Bəkrin söylədiyi rəvayətlə bunların arasındakı fərqin aydın olmasına baxmayaraq, o, bunları bir-birindən ayıra bilməyib.

1. Şeyx Kuleyninin rəvayətində peyğəmbərlərin (ə) miras buraxmadıqlarına dəlalət yoxdur

---

[188] İlahi Zahir özünü şiə məzhəbinin bilicisi kimi göstərməsinə baxmayaraq, beşinci İmam Muhəmməd Baqirlə (ə) altıncı İmam Cəfər Sadiqi (ə) bir-birindən fərqləndirə bilmir. Məlum olduğu kimi "əl-Kafi"dəki həmin rəvayət İmam Sadiqdən (ə) rəvayət edilir. O isə şiələrin altıncı imamıdır.

[189] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 85

[190] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 86

Şeyx Kuleyni "əl-Kafi" kitabında İmam Sadiqə (ə) istinad olunan rəvayəti nəql edir: İmam (ə) buyurdu: *"Peyğəmbər (s) buyurub: "Kim elm əldə edəcək bir yolu izləsə, Allah onun yolunu Cənnətə yönəldər. Mələklər özlərindən razı olmaları üçün elm tələbələrinin qarşına qanadlarını sərərlər. Elm tələbəsi üçün göydə və yerdə olanlar, hətta dənizdəki balıqlar belə istiğfar edərək bağışlanma diləyirlər. Alimin abid üzərindəki üstünlüyü bədrli gecədə ayın ulduzlar üzərindəki üstünlüyü kimidir. Alimlər peyğəmbərlərin varisləridir. Peyğəmbərlər özlərindən sonra dinar-dirhəm deyil, fəqət, elm vəsiyyət edərlər (və ya varisləri təyin edərlər). Kim ondan bir şey götürsə, böyük bir pay əldə etmişdir".*[191]

Həmçinin Şeyx Kuleyni İmam Sadiqdən (ə) bu rəvayətin məzmununa yaxın başqa bir rəvayət də nəql edir: *"Alimlər peyğəmbərlərin varisləridir. Çünki peyğəmbərlər özlərindən sonra dinar-dirhəm vəsiyyət etməzlər, yalnız hədislərini miras qoyarlar. Kim ondan bir şey götürsə, böyük bir pay əldə etmişdir..."*[192]

Bu iki rəvayətdə peyğəmbərlərin (ə) mal-mülk irsinin olmadığına heç bir dəlil yoxdur. Rəvayətlər elmin və alimin üstünlüyün bəyan etmək üçün söylənib. Peyğəmbərlər (ə) camaatın miras aparması üçün dirhəm və dinar irs qoymurlar. Məqsədi heç də dünya əhli kimi pul toplamaq deyil. Onların məqsədi və məramı elmdir. Özlərindən sonra alimlər üçün elm və hədislər qoyurlar ki, onlar da təlim yolu ilə bundan irs payı alırlar. Ona görə də rəvayətin sonunda *"...Kim ondan bir şey götürsə, böyük bir pay əldə etmişdir..."* deyilir. Bu isə onların öz yaxınları üçün yaşayış və məişətlərində zəruri olan mal-mülkün irs qoyulmasını inkar etmir.

"Peyğəmbərlər özlərindən sonra dinar-dirhəm deyil, lakin elm vəsiyyət edərlər (və ya varisləri təyin edərlər)" sözünə gəldikdə, bu, təkvini məsələ ilə bağlı nəqli (xəbəri) cümlədir ki, peyğəmbərlərdən (ə) sonra elmin alimlərə keçdiyini ifadə edir. Bu əmr və ya tələb (inşai) ifadə edən cümlə deyil ki, şəri hökmlərin çıxarılmasında istifadə edilsin. Çünki qanun və hökmlər, məsələn, qəzavət, kəfalət

---

[191] əl-Kafi, Şeyx Kuleyni, c. 1, s. 34; əl-Əmali, Şeyx Səduq, s. 116; Səvabul-əmal, Şeyx Səduq, s. 131

[192] əl-Kafi, Şeyx Kuleyni, c. 1, s. 32

və s. məsələlərdə olduğu kimi yalnız əmr (inşa) cümlələrindən əldə edilməsi mümkündür. Lakin peyğəmbərlərin (ə) özlərindən sonra qoyduqları ən bariz miras olan elm, hədis və fəzilətlərlə zinətlənmək yalnız şəxsi səy və çalışma sayəsində əldə edilir. Bunun barəsində söhbət etdiyimiz miras kimi birindən digərinə ötürülməsi mümkünsüzdür.

Hədisin dinar və dirhəmi kənarda tutaraq yalnız elmi qeyd etməklə kifayətlənməsi əslində həqiqi deyil, izafi (II dərəcəli və məcazi) məsələdir. Çünki peyğəmbərlər (ə) özlərindən sonra yalnız elm və hədis qoymamışlar, zöhd, təqva və s. bu kimi dəyərləri də vəsiyyət etmişlər.

Buna əsasən Şeyx Kuleyninin rəvayətindən alındığı güman edilən məna batil zəndir, bu rəvayətlərin mənaları barədə naşı düşüncədən qaynaqlanır. Bunlardan əlavə, hədislərdəki kəlmə fərqləri də bunu aydın göstərir. Kuleyninin rəvayətində "Ləm yuvarrisu" (miras qoymadılar) feli qeyd edilir. Mənası da budur ki, onlar miras qoya biləcəkləri heç bir mal-mülkə malik deyildilər ki, onu da miras buraxsınlar. Halbuki Buxarinin rəvayətində isə "La nuvarrisu" feli istifadə edilir ki, mənası: (biz kiməsə miras qoymarıq) onların kimisə varis təyin etməyə haqqının olmadığıdır. Bu iki mənanın arasındakı fərq isə aydındır.

Bununla bərabər deyilir: Buxarinin rəvayəti hökmə bənzəyir. Sanki, o Peyğəmbərin (s) mirası ilə bağlı hökmü açıqlayır. Lakin Kuleyninin rəvayəti miras mövzusundan bəhs edir. Sanki, ümumən peyğəmbərlərin (ə) mirası barədə söhbət açır. Bu dairəni genişləndirərək aralarında heç bir qohumluq bağı olmadığı halda alimləri də varislər sırasına əlavə edir. Belə olduqda varislərin siyahısı alimlərlə məhdudlaşmır. Əksinə, onlar digər varislərə əlavə edilirlər, onların isə yalnız elm və hədis miras apardıqları bildirilir.

Bu iki rəvayət elmin fəziləti və alimin məqamı barədə söhbət açır, Peyğəmbər (s) səhabələrinin elm, əxlaq, fəzilət və gözəl rəftar sahibinə çevrilmələri üçün ciddi səy göstərib peyğəmbərlər (ə) kimi elmə, əxlaqa və xoş rəftara sahib olmalarının vacibliyi vurğulanır. Bu xüsusiyyətlərlə onlar peyğəmbərdən (ə)

sonra ümmətin islahcısı, kitab və sünnətin təlimçisi ola bilərlər. Nəinki səhabəlik fürsətindən istifadə edərək özləri üçün dünya mal-mülkü toplamağa, məqam və şan-şöhrət axtarmağa üz tutsunlar.

2. Şeyx Səduqun hər iki rəvayəti peyğəmbərlərin (ə) irs məsələsindən uzaqdır

Kuleyninin rəvayətinə bənzər bir digər rəvayəti Şeyx Səduq İbn Əbu Rafinin qızından, o da anasından nəql edir. Orada deyilir: "Fatimə (ə) dedi: "Ey Allahın elçisi, bunlar sənin iki övladındır. Onlara bir şey ver. Peyğəmbər (s) buyurdu: "Həsənə öz heybətimi və başçılıq qabiliyyətimi verdim, Hüseynə isə səxavət və şücaətimi verirəm".[193]

Həmçinin Şeyx Səduq "əl-Xisal" kitabında yenə də İbn Əbu Rafinin qızından nəql edir: "Fatimə (ə) Peyğəmbərin (s) vəfatı ilə nəticələnən xəstəliyi zamanı Həsən və Hüseyni (onlara salam olsun!) onun yanına gətirib dedi: "Ya Peyğəmbər, bunlar sənin iki övladındır. Onlara bir şey vəsiyyət et". Buyurdu: "Həsənə heybətimi və başçılıq qabiliyyətimi, Hüseynə isə cürət və səxavətimi irs qoyuram".[194]

Bu iki rəvayət "peyğəmbərlərin (ə) maddi mirası" məsələsindən kənardır:

Birinci rəvayət: Məlumdur ki, bu hadisə "miras" məsələsi ilə bağlı deyil. Rəvayətdən yalnız hədiyyədən söhbət gedir. Çünki burada **"nəhhilhuma"** (onlara bir şey ver) deyilir. Bu isə Xanım Zəhranın (ə) atasından (s) Həsən və Hüseynə hədiyyə verməsini istədiyinə dəlalət edir. Peyğəmbər (s) Həsənə öz heybətini və başçılıq qabiliyyətini, Hüseynə isə səxavət və şücaətini verir.

İkinci rəvayətə gəldikdə, bunu da "miras" məsələsinə şamil etmək mümkün deyil. Belə ki, Xanım Fatimənin (ə) həyatda olduğuna görə nəvələr Həsən və Hüseyn Peyğəmbərin (s) mirasının dairəsində daxil deyillər. Bu səbəbdən də,

---

193 əl-Xisal, Şeyx Səduq, s. 77

194 əl-Xisal, Şeyx Səduq, s. 77

rəvayət heç də maddi mirasdan bəhs etmir. Xanım Zəhra (ə) atasından övladları üçün sahib olduğu kəramətli xüsusiyyətlərdən verməsini diləyir. Bu rəvayətlər bir daha Xanımın (ə) atası ilə aralarında olan sıx və möhkəm əlaqənin dəlilidir.

Bundan əlavə, miras insan dünyadan köçdükdən sonra bölüşdürülür. Həyatda olan bir şəxsdən miras buraxması istənilməz.

Xanımın (ə) Əbu Bəkrin irslə bağlı qərarına münasibəti

Buxari, Müslim və digərlərinin səhih hədislərində Aişədən nəql edilən rəvayət Xanım Fatimənin (ə) Əbu Bəkrin verdiyi hökmdən əsla razı olmadığına dəlalət edir.

Bəzi sünni rəvayətlərində isə onun öz tələbini müxtəlif zaman fasilələri ilə bir neçə dəfə təkrar etdiyi qeyd olunur. Necə ki, buna Buxari və Müslimin öz "Səhih"lərində Müəmmərdən, onun da Zühridən, onun da Ürvədən və onun da Aişədən nəql etdiyi rəvayət də dəlalət edir. Deyir: *"Fatimə (ə) və Abbas Əbu Bəkrin yanına gəlib miraslarını – Fədək torpağını, Xeybərdən qalan paylarını istədilər..."*[195]

Aişənin birinci rəvayətində Xanım Fatimənin (ə) öz irsini təkbaşına gəlib tələb etdiyi, ikinci rəvayətdə isə artıq Abbasla eyni tələblə Əbu Bəkrin yanına gəldiyi qeyd edilir.

Fatimə (ə) həyatının son anlarınadək bu mövqeyindən geri çəkilmədi. Bunu ömrünün son anlarınadək ilk iki xəlifəyə qəzəbli olduğunu da, dünyadan onlara qəzəbli halda köçdüyünü də təsdiqləyir. Bunu Buxari və Müslim öz "Səhih"lərində Peyğəmbərin (s) zövcəsi Aişəyə istinadla nəql etdikləri rəvayətdən də anlamaq olur: *"Fatimə Əbu Bəkrə qəzəbləndi və vəfat edənədək onunla bir daha danışmadı".*[196]

Bunu təsdiqləyən digər bir rəvayət Əbu Bəkr və Ömərin Xanımın (ə) həyatının son günlərində razılıq əldə etmək üçün onun yanına gəlmələri barədədir. Lakin o,

---

[195] Səhih, Buxari, c. 5, s. 25

[196] Səhih, Buxari, c. 4, s. 42 və c. 5, s. 82

onlardan razı olmadı və Buxarinin rəvayətində də qeyd olunduğu kimi onlara qəzəbli halda dünyadan köçdü.

Zəhranın (ə) Əbu Bəkrdən mirasını istəməkdən imtina edərək onunla razılaşdığı iddiası

Təqdim edilənlərdən İlahi İhsan Zahirin xəyalında qurduğu iddianın necə də puç olduğu aydın görünür. Belə ki, o, Xanımın Əbu Bəkrin qərarından razı qalaraq irs tələbindən geri çəkildiyini iddia edirdi: **"Siddiq bunları Fatiməyə (r) bildirdikdə Xanım öz tələbindən əl çəkdi və ölənədək miras barədə bir kəlmə belə söz açmadı".**[197]

O, bu qənaətə necə gəlib?! Halbuki Buxari və Müslimin rəvayətləri bütün aydınlığı ilə Xanımın (ə) onlara qəzəbləndiyini və ölənədək qəzəbinin davam etdiyini qeyd edir. Bu qəzəb onun narazılığının bütün kəlmələrdən daha aydın bəyanıdır. O, hətta vəfatından sonra özü üçün namaz qılınmasına belə onlara izn vermədi.

Peyğəmbərin (s) Fatiməyə (ə) Fədəyi verdiyi barədə şiə və sünnilərin sözləri bir-birinə uyğundur. Əbu Bəkr xəlifə olduqda isə Fədəyi ondan aldı. Xanım (ə) adam göndərib Peyğəmbərdən (s) qalan mirasını onlardan istədikdə ona bir şey verməkdən boyun qaçırdılar. Fatimə (ə) qəzəblənərək bir daha onlarla danışmayacağına and içdi və onlar barəsində Allaha bəddua edəcəyini bildirdi. Ölüm yetişənədək bu halına davam etdi və son anlarında onların cənazə namazında iştirak etməməsini belə vəsiyyət etdi. Möminlərin əmiri (ə) onun namazını qılıb gecə ikən onu dəfn etdi. İbn Meysəm Bəhrani deyir: "Şiənin arasında məşhur və ittifaq etdikləri məsələdir ki, Peyğəmbər (s) hələ həyatda ikən Fədəyi qızı Fatiməyə (ə) vermişdi. Bu barədə müxtəlif yollarla rəvayətlər nəql edilib... Əbu Bəkr xəlifə olduqda Fədəyi ondan almağa qərar verdi. Xanım (ə)

[197] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 83

adam göndərərək atasının mirasını ondan istədi... Xeybərdən qalan mirası ona verməkdən imtina etdi...”[198]

Ardınca İbn Meysəm Fatimənin (ə) Fədək xütbəsini qeyd edir. Xütbənin sonunda isə deyir: “Sonra evinə qayıtdı, Əbu Bəkrlə bir daha əsla kəlmə kəsməyəcəyinə and içdi və ondan Allaha şikayət etdi. Ölüm yetişənədək bu halına davam etdi və son anlarında onların cənazə namazında iştirak etməməsini belə vəsiyyət etdi”.[199]

Şiə mənbələrinə əsasən Fatimənin (ə) Əbu Bəkrin qərarı ilə razılaşdığı iddiası

İhsan İlahi Zahirin xəyalında uydurduğu əcaib məsələlərdən biri də bəzi şiə rəvayətlərinin Xanım Fatimənin (ə) Əbu Bəkrin qərarından razı qaldığına dəlalət etdiyi iddiasıdır. Buna İbn Meysəm Bəhraniyə istinad etdiyi sözlərlə dəlil göstərməyə çalışır və iddia edir ki, Dənbəli də buna oxşar sözləri özünün “əd-Durrətun-Nəcəfiyyə” kitabında qeyd edir. İhsan Zahir deyir: **“Bəzi şiə rəvayətlərində onun bu qərardan razı qaldığı qeyd olunur. Necə şiə İbn Meysəm “Nəhcül-Bəlağə”də yazır: “Əbu Bəkr ona dedi: “Atanın götürdüyü miqdarı sən də alacaqsan. Peyğəmbər (s) Fədəkdən yalnız sizin illik ehtiyacınızı götürər, geridə qalanını isə bölüşdürüb Allah yolunda xərcləyərdi. Sən də onun istifadə etdiyi kimi istifadə edə bilərsən”. Xanım razılaşıb bu barədə ondan vəd aldı”. Eyni sözləri Dənbəli şərh yazdığı “əd-Durrətun-Nəcəfiyyə” kitabında da deyir”.[200]**

Bu iddia baş verənlərə tamamilə ziddir. Çünki şiələr, həmçinin onlardan Bəhrani və digərləri Əbu Bəkrin Xanım Fatimənin (ə) haqqına zülm etdikləri, Fədəyi əlindən aldıqları, atası Peyğəmbərin (s) mirasından məhrum etdikləri

---

[198] Nəhcül-Bəlağənin şərhi, İbn Meysəm Bəhrani, c. 5, s. 104
[199] Nəhcül-Bəlağənin şərhi, İbn Meysəm Bəhrani, c. 5, s. 105
[200] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 83-84

barədə və Xanımın (ə) bu səbəbdən onlara qəzəblənib bəddua etdiyində, onlara qəzəbli halda da dünyadan köçdüyündə həmfikirdirlər. Necə ki, buna Bəhraninin özünün əvvəldə qeyd etdiyimiz sözləri də dəlalət edir.

Onun İbn Meysəm Bəhranidən nəql etdiyi sözlər isə yarımçıqdır. Belə ki, Bəhrani həmin yerdə məsələ ilə bağlı fərqli fikirləri qeyd etməkdədir. Əvvəldə məşhur və şiənin həmfikir olduğu rəyi nəql edir. Ardınca şiənin rəyinin qarşılığında zəif fikri nəql edərək deyir: "Şiənin arasında məşhur və üzərində ittifaq etdikləri məsələdir ki, Peyğəmbər (s) hələ həyatda ikən Fədəyi qızı Fatiməyə (ə) vermişdi. Bu barədə müxtəlif yollarla rəvayətlər nəql edilib... Əbu Bəkr xəlifə olduqda Fədəyi ondan almağa qərar verdi. Xanım (ə) adam göndərərək atasının mirasını ondan istədi... Xeybərdən qalan mirası ona verməkdən imtina etdi..." Ardınca İbn Meysəm deyir: "Əbu Bəkrin ona belə dediyi rəvayət olunur: "Atanın götürdüyü miqdarı sən də alacaqsan. Peyğəmbər (s) Fədəkdən yalnız sizin illik ehtiyacınızı götürər, geridə qalanını isə bölüşdürüb Allah yolunda xərcləyərdi. Sən də onun istifadə etdiyi kimi istifadə edə bilərsən". Xanım razılaşıb bu barədə ondan vəd aldı..." Sonra müəllif yazır: "Sonra evinə qayıtdı, Əbu Bəkrlə bir daha əsla kəlmə kəsməyəcəyinə and içdi və ondan Allaha şikayət etdi. Ölüm yetişənədək bu halına davam etdi və son anlarında onların cənazə namazında iştirak etməməsini belə vəsiyyət etdi".[201]

İbn Meysəmin həmin vaxt şiənin rəyinə müxalif fikri nəql etdiyinə daha bir dəlil bunun ardınca *"Sonra evinə qayıtdı, Əbu Bəkrlə bir daha əsla kəlmə kəsməyəcəyinə and içdi və ondan Allaha şikayət etdi. Ölüm yetişənədək bu halına davam etdi və son anlarında onların cənazə namazında iştirak etməməsini belə vəsiyyət etdi"* deməsidir.

Bu isə şiənin sözünün qarşılığında zəif sözdür. İbn Əbu Meysəm də buna işarə edir. Buna yaxın bir rəvayəti İbn Əbülhədid "Nəhcül-Bəlağə"yə yazdığı şərhdə Cövhəridən nəql edib. Orada Əbu Bəkrin Xanım Zəhraya (ə) belə dediyi qeyd

[201] Nəhcül-Bəlağənin şərhi, İbn Meysəm Bəhrani, c. 5, s. 104-107

olunur: “Atanın götürdüyü miqdarı sən də alacaqsan. Peyğəmbər (s) Fədəkdən yalnız sizin illik ehtiyacınızı götürər, geridə qalanını isə bölüşdürüb Allah yolunda xərcləyərdi. Bəs sən onunla nə edəcəksən?” Fatimə dedi: “Atamın istifadə etdiyi kimi istifadə edəcəyəm”. Əbu Bəkr dedi: “Ondan atan kimi istifadə etməyin Allah qarşısında bir vəzifən oldu”. Xanım “İlahi şahid ol...” dedi”.[202]

Bu rəyin zəifliyi aşkardır. Əvvəla, bu, şiələrin üzərində həmfikir olduqları rəyə müxalifdir. Həmçinin Buxarinin, Müslimin və digərlərinin nəql etdikləri rəvayətlərlə də ziddiyyət təşkil edir. Həmin rəvayətlərdə Xanımın (ə) Əbu Bəkrə qəzəbləndiyi, qəzəbli halda da dünyadan köçdüyü və cənazəsinə namaz qılmalarına izn vermədiyi bildirilir. Eləcə də İbn Meysəm Bəhraninin bunu mürsəl (ravilərini qeyd etmədən) və “rəvayət edilib” başlığı ilə nəql etməsi onun nəzərində də bu fikrin zəif və etibarsız olduğuna dəlalət edir.

Lakin İhsan İlahi Zahir təhqiqat ruhundan və elmi əmanət anlayışından tam uzaqlaşaraq İbn Meysəm Bəhraninin sözünü ixtisar etmiş, “Şiənin arasında məşhur və üzərində ittifaq etdikləri məsələdir ki,..” sözlərini qeyd etməmiş, həmçinin ikinci zəif rəyin nəqlində müəllifin “...rəvayət olunur” sözünü də pozaraq oxucunu və bu şiə kitabından xəbəri olmayan şəxsləri aldatmağa çalışıb. Bununla da bəzi şiələrin nəzərində həmin rəyin yeganə etibarlı rəy olduğu təəssüratı yaratmağa cəhd göstərib. İlahi Zahir deyir: **“Bəzi şiə rəvayətlərində onun bu qərardan razı qaldığı qeyd olunur. Necə ki, şiə İbn Meysəm “Nəhcül-Bəlağə”də yazır:...”**[203]

Eyni sözlər İhsan İlahi Zahirin Dənbəlidən nəql etdiyi hissə barədə də deyir: **“Eyni sözləri Dənbəli şərh yazdığı “əd-Durrətun-Nəcəfiyyə” kitabında da deyir”.**[204]

Təhqiqatçılara məlumdur ki, Dənbəlinin “əd-Durrətun-Nəcəfiyyə” əsəri İbn Meysəm Bəhraninin yazdığı kitabın şərhidir. Dənbəli də öncə Fədəyi

---

[202] Nəhcül-Bəlağənin şərhi, İbn Əbülhədid, c. 16, s. 216

[203] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 83

[204] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 84

Peyğəmbərin (s) Fatiməyə (ə) verdiyini, Əbu Bəkrin isə ondan aldığını, Xanım Fədəyi və mirasını tələb etdikdə ona verməkdən imtina etməsini, nəticədə Xanımın qəzəblənərək bir daha bu barədə söz açmayacağına and içməsini, onlardan Allaha şikayət etməsini, vəfatından sonra onun üçün cənazə namazı qılmamalarını vəsiyyət etməsini və dünyadan onlara qəzəbli halda köçməsi kimi şiənin məşhur rəyini nəql edir. Sonra isə Dənbəli sünni camaatın Xanımın Əbu Bəkrin qərarından razı olması, onun verdiyi hədiyyə və mirası qəbul etməsini qeyd edir. Həmin rəyin isə "rəvayət olunur" sözü ilə zəifliyinə işarə edir, şiənin məşhur rəyinin müqabilində onun qəbul edilə bilməyəcəyini bildirir. Dənbəli deyir: "Şiənin arasında məşhur və üzərində ittifaq etdikləri məsələdir ki, Peyğəmbər (s) hələ həyatda ikən Fədəyi qızı Fatiməyə (ə) vermişdi. Bu barədə müxtəlif yollarla rəvayətlər nəql edilib. Onlardan biri Əbu Səid Xudridir ki, ***"Yaxın qohuma haqqını ver"***[205] ayəsi nazil olduqda Peyğəmbərin (s) Fədəyi qızı Fatiməyə (ə) verdiyini söyləyir. Əbu Bəkr xəlifə olduqda Fədəyi ondan almağa qərar verdi... Xəbər Xanıma çatdıqda örtüyünə büründü, övladlarını və yaxın qadınlarını götürüb oraya üz tutdu. Oraya daxil olduqda mühacir və ənsarın öndə gələnlərinin də onun (Əbu Bəkrin) yanında olduğunu gördü... Ey Əbu Quhafənin oğlu, sənin atandan miras aparıb, mənim isə apara bilməyəcəyim Allahın kitabındamı yazılıb?! Nə pis bir böhtandır! Noxta taxıb ona sahib ol, məhşər günündə mütləq qarşına çıxacaq. Allah hakim olaraq və Muhəmməd də hami (vəkil) olaraq necə də gözəldirlər! Görüş yeri Qiyamətdir, həmin vaxt batil əhli ziyana uğrayacaq. Hər bir xəbərin müəyyən bir vaxtı var və siz biləcəksiniz ki, rüsvayçı əzab kimə gələcək, kim həmişəlik əzaba düçar olacaqdır!.."

Sonra Dənbəli deyir: "Rəvayət olunur ki, Xanımın sözlərini eşitdikdən sonra o, Allaha həmd və səna söyləyib Peyğəmbərə (s) salavat söylədi. Ardınca dedi: "Ey Xanımların ən xeyirlisi, ən yaxşı atanın qızı! Allaha and olsun ki, Peyğəmbərin (s) rəyini əsla aşmaram, onun əmrindən başqa şeyə əməl etmərəm. Həqiqətən də

[205] Rum, 38

başçı yalan demir. Sözünü dedin və fikirlərini çatdırdın. Sərt danışıb üz çevirmisən. Allah bizi də, səni də bağışlasın. Peyğəmbərin (s) silahını, miniyini və ayaqqabısını Əliyə verdim. Yerdə qalanlar barədə isə onun belə buyurduğunu eşitmişəm: "Biz peyğəmbərlər özümüzdən sonra heç kimə qızıl, gümüş, torpaq, mülk və ev buraxmarıq. Özümüzdən sonra iman, elm, hikmət və sünnə qoyarıq. Mənə əmr və tövsiyə etdiyinə əsasən əməl edəcəyəm". Xanım dedi: "Peyğəmbər (s) onu mənə hədiyyə etmişdi".

Əbu Bəkr: Buna şahidlik edəcək adam var?

Bu zaman Əli ibn Əbu Talib və Ümmü Əymən gəlib şahidlik etdilər. Ömər ibn Xəttab və Əbdürrəhman ibn Ovf isə gəlib şəhadət verdilər ki, Peyğəmbər (s) buyurub...

Əbu Bəkr dedi: "Əli də, Ümmü Əymən də, Ömər də, Əbdürrəhman da doğru dedilər. Atanın götürdüyü miqdarı sən də alacaqsan. Peyğəmbər (s) Fədəkdən yalnız sizin illik ehtiyacınızı götürər, geridə qalanını isə bölüşdürüb Allah yolunda xərcləyərdi. Sən də onun istifadə etdiyi kimi istifadə edə bilərsən".

Xanım razılaşıb bu barədə ondan vəd aldı. Onun gəlirini götürür, ehtiyacı olduğu qədərini onlara verir və qalanını bölüşdürürdü. Özündən sonrakı xəlifələr də Müaviyənin xilafətinədək belə etdilər".[206]

Dənbəlinin sözlərində Fədəklə bağlı iki fikrin olduğu aydın görünür:

Birinci: Fədəyi Fatiməyə (ə) Peyğəmbər vermişdir və Əbu Bəkr Peyğəmbərin (s) vəfatından sonra onun əlindən almışdır. Xanım Fədəyi və mirasını ondan istədikdə onları verməkdən imtina etdi. Xanım ona qəzəbləndi və bu qəzəbi dünyadan köçənədək bitmədi. Bu, şiənin nəzərində məşhur və üzərində həmfikir olduqları rəydir. Dənbəli də bunu "Şiənin arasında məşhur və üzərində ittifaq etdikləri məsələdir ki,.." sözləri ilə açıq bəyan edir.

İkinci: Fədək və mirasla bağlı rəftarına görə Əbu Bəkr Fatimədən üzr istəyir, Xanım da onun üzrünü qəbul edərək razılaşır. Bu isə Əhli-Sünnənin sözüdür.

---

[206] əd-Durrətun-Nəcəfiyyə, Dənbəli Xoi, s. 331-332

Dənbəli buna mətndəki "Rəvayət olunur ki, Xanımın sözlərini eşitdikdən sonra o,..." sözləri ilə işarə edir.

Bunlar "əd-Durrun-Nəcəfiyyə" kitabında Dənbəlinin aydın sözləridir və İhsan İlahi Zahirin sözlərini iddialarını edir. Belə ki, o, deyirdi: **"Eyni sözləri Dənbəli şərh yazdığı "əd-Durrətun-Nəcəfiyyə" kitabında da deyir".**[207] Yəni İbn Meysəm Bəhrani Fatimənin razı olduğunu rəvayət etdiyi kimi o da bunu rəvayət edib. Halbuki İbn Meysəm də, Dənbəli də bunu Əhli-Sünnədən nəql edirlər. Əvvəldə bunu qeyd etmişdik. Bu rəvayətləri əsla şiələrdən nəql etməmişlər. Belə ki, sözlərinin əvvəlində bunun şiələrin arasında məşhur və üzərində ittifaq etdikləri məsələ olduğunu, Peyğəmbərin (s) Fədəyi Fatiməyə (ə) verdiyini, Peyğəmbərin (s) vəfatından sonra isə Əbu Bəkrin Fədəyi Xanımın (ə) əlindən aldığını, ardınca isə Xanımın Fədəyi və mirasını tələb etdiyini, onun isə bir şey verməkdən boyun qaçırdığını, nəticədə Xanımın ölənədək onlara qarşı qəzəbli olduğunu və qəzəbli olduğu halda da dünyadan köçdüyünü aydın şəkildə vurğulayırlar. İbn Meysəm deyir: "Şiənin arasında məşhur və ittifaq etdikləri məsələdir ki, Peyğəmbər (s) hələ həyatda ikən Fədəyi qızı Fatiməyə (ə) vermişdi... Sonra evinə qayıtdı, Əbu Bəkrlə bir daha əsla kəlmə kəsməyəcəyinə and içdi və ondan Allaha şikayət etdi. Ölüm yetişənədək bu halına davam etdi və son anlarında onların cənazə namazında iştirak etməməsini belə vəsiyyət etdi".

Dənbəli deyir: "...Əbu Səid Xudri ki, ***"Yaxın qohuma haqqını ver"***[208] ayəsi nazil olduqda Peyğəmbərin (s) Fədəyi qızı Fatiməyə (ə) verdiyini söyləyir... Dedi: "Ey Əbu Quhafənin oğlu, sənin atandan miras aparıb, mənim isə apara bilməyəcəyim Allahın kitabındamı yazılıb?! Nə pis bir böhtandır! Noxta taxıb ona sahib ol, məhşər günündə mütləq qarşına çıxacaq. Allah hakim olaraq və Muhəmməd də hami (vəkil) olaraq necə də gözəldirlər! Görüş yeri Qiyamətdir, həmin vaxt batil

---

[207] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 84

[208] Rum, 38

əhli ziyana uğrayacaq. Hər bir xəbərin müəyyən bir vaxtı var və siz biləcəksiniz ki, rüsvayçı əzab kimə gələcək, kim həmişəlik əzaba düçar olacaqdır!..”

Zəhranın (ə) narazı olduğunu və onlara qəzəbləndiyini şiələr uydurub iddiası

İlahi İhsan Zahir Zəhranın (ə) narazılığı və Əbu Bəkrə qəzəbləndiyini şiələrin uydurduğunu iddia edir. Guya bunda məqsəd səhabələrlə Əhli-Beytin (ə) arasındakı ixtilaf və düşmənçilik təəssüratı yaradaraq əshabı tənqid etməkdir. Deyir: **“Lakin Fatimənin bu məsələdə belə asanlıqla razı olması şiələrin xoşuna gəlməmişdi. Bu səbəbdən, onlar uzun-uzadı bir çox kitablar yazmış, cızma-qaralar qələmə almışlar...”**[209]

Başqa yerdə isə deyir: **“Onların bu səylərinin məqsədi matəm məclisləri qurmaq, orada Əhli-Beytin haqqını “qəsb” edənlərə lənət və təhqirlər söyləmək, Peyğəmbər (s) xəlifələri və səhabələrlə Əhli-Beytin arasında nifrət və ədavətin varlığını isbat etməkdir...”**[210]

Cavab:

Xanım Zəhranın (ə) aralarındakı münaqişə səbəbindən ilk iki xəlifəyə qəzəbləndiyi və qəzəbli halda dünyadan köçdüyü isbat olunmuş və şəksiz məsələdir. Bundan əlavə Xanım (ə) onlara cənazəsinə namaz qılmağı, dəfnində iştirak etməyi qadağan etmiş, gecə ikən dəfn edilmişdir. Qəbrinin harada olduğu isə bilinmir. Bunu Əhli-Sünnənin “səhih”ləri, “sünən” və “müsnəd” kitabları da təsdiqləyir. İnşallah, dördüncü babda bu barədə geniş izah veriləcək.

---

[209] Şiə və Əhli-Beyt, s. 84

[210] Şiə və Əhli-Beyt, s. 89

Xanımın (ə) Əbu Bəkrin verdiyi hökmdən razı olduğuna dəlalət edən şiə rəvayətləri iddiası

İlahi İhsan Zahirin iddiasına görə şiə alimləri Əbu Bəkrin Peyğəmbərdən (s) qalan mirasla və verilən hökmlə bağlı Xanımın (ə) razılığına dəlalət edən əməllər nəql edirlər. Deyir: **"Şiələrin özlərinin imamları Əbu Bəkrin yalnız sözlə kifayətlənmədiyini, bunu əməli olaraq həyata keçirdiyini qeyd edirlər".**[211]

Bu iddia dəlilsizdir. Digərləri kimi biz də heç bir şiə mənbəyində onun bu böhtanına dəlil tapa bilmədik.

Bəli, burada da hiylə işlədərək İbn Meysəm Bəhraniyə, Dənbəliyə, İbn Əbülhədidə və Seyyid Əli Nəqi Feyzül-İslama nisbət verərək bəzi "dəlilləri" oxucuya sırımağa çalışıb. Deyir: **"İbn Meysəmin, Dənbəlinin, İbn Əbülhədidin və müasir dövrün müəlliflərindən Əli Nəqi Feyzül-İslamın rəvayət etdiyi kimi: "Onun (yəni Fədəyin) gəlirini götürür, ehtiyacı olduğu qədərini onlara (Əhli-Beytə) verir və yerdə qalanını bölüşdürürdü. Özündən sonra Ömər, Osman və Əli də belə etdilər".**[212]

Bu saxtakarlıq barədə İbn Meysəm və Dənbəliyə istinad etdiyi rəvayətlərin müzakirəsi zamanı söz açdıq. İlahi Zahirin buradakı sözləri də həmin rəvayətdən bir hissədir. "Rəvayət olunur ki, Əbu Bəkr Xanıma (ə) dedi: "Atanın götürdüyü miqdarı sən də alacaqsan... Onun gəlirini götürür və ehtiyacı olduğu qədərini onlara verir, yerdə qalanını isə bölüşdürürdü..."[213] Həmçinin Dənbəlinin qeyd etdiyi sözləri də bəyan etmişik.

Qeyd oldunduğu kimi, İbn Meysəm və Dənbəlinin hər iki rəvayəti "rəvayət olunur"[214] kəlmələri zikr edilib. İbn Əbülhədidin Cövhəridən nəql etdiyi bu rəvayət şiənin məşhur rəyinin qarşılığında qeyd edilir. Necə ki, İbn Meysəm və

---

[211] Şiə və Əhli-Beyt, s. 84

[212] Şiə və Əhli-Beyt, s. 84

[213] əd-Durrətun-Nəcəfiyyə, Dənbəli Xoi, s. 331-332

[214] Nəhcül-Bəlağənin şərhi, İbn Meysəm Bəhrani, c. 5, s. 105; əd-Durrətin-Nəcəfiyyə, Dənbəli Xoi, s. 331-332

Dənbəli də bunu onlardan nəql edib və bundan əvvəl də "şiənin nəzərində məşhur və üzərində həmfikir olduqları məsələdir ki..."[215] deyirlər. Bunu bir az əvvəl qeyd etmişdik.

Lakin İlahi İhsan Zahir bir neçə dəfə cümlələri hissələrə bölərək bir çox oxucunun "Nəhcül-Bəlağə"nin həmin şərhlərindən məlumatı olmadığını nəzərə alıb müxtəlif yerlərdə dəlil kimi təqdim etməyə çalışır.

Zəhranın (ə) haqqının qəsb edilmədiyinə dair şiələrin rəvayət və rəylərinin olduğu iddiası

Batiliyyi məlum və heç bir təhqiqatçıya gizli olmayan məsələlərdən biri də Zəhranın (ə) haqqını Əbu Bəkrin qəsb etmədiyinə dair şiələrin rəvayət və rəylərinin olduğu iddiasıdır. Buna isə Əllamə Məclisiyə istinad etdiyi İmam Baqir (ə) və Zeyd ibn Əliyə (ə) nisbət verilən iki rəvayəti dəlil göstərir. İhsan Zahir deyir: **"Haqqının qəsb edilməsinə gəldikdə, Məclisi öz inad və kobudluğuna baxmayaraq, bunları deməyə məcbur olur: "Əbu Bəkr Fatimənin qəzəbləndiyini görüb ona dedi: "Mən sənin fəzilətini və Peyğəmbərə (ə) yaxınlığını əsla inkar etmirəm. Fədəyi yalnız Peyğəmbərin əmrini icra edərək alıram..."**

Bu sözlərdən sonra kimsə "Əbu Bəkr Fatiməni qəzəbləndirdi, haqqını qəsb etdi və əziyyət verdi" deyə bilər?"[216]

Həmçinin deyir: **"Bu səbəbdən də, Əbu Cəfər Muhəmməd Baqirdən bu barədə Kəsir Nəvval**[217] **soruşur: "Allah məni sənə fəda etsin! Necə düşünürsünüz, Əbu Bəkr və Ömər sizin haqqınıza zülm etdilərmi?" Dedi: "Xeyr, Quranı aləmlərə qorxudan olaraq bəndəsinə nazil edənə and olsun ki, xardal dənəsi qədər belə haqqımıza zülm etmədilər..."**

---

[215] Nəhcül-Bəlağənin şərhi, İbn Meysəm Bəhrani, c. 5, s. 105; əd-Durrətin-Nəcəfiyyə, Dənbəli Xoi, s. 331-332

[216] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 88

[217] Kitabında bu cür qeyd edilib. Halbuki ravinin düzgün adı Kəsir Nəvadır.

Baqirin qardaşı Zeyd ibn Əli ibn Hüseyn Fədək barəsində ulu babası Əli ibn Əbu Talib və qardaşı Muhəmməd Baqirin dediyi fikirləri söyləyir. Buhturi ibn Həssan deyir: "Əbu Bəkrin əməllərini pisləmək məqsədilə Zeyd ibn Əliyə (ə) dedim: "Əbu Bəkr Fədəyi Fatimənin (ə) əlindən aldı". O dedi: "Əbu Bəkr rəhmli şəxs idi, Peyğəmbərin (s) hər hansı bir rəftarını dəyişməkdən çəkinirdi... Sonra Zeyd dedi: "Allaha and olsun ki, əgər bu məsələ mənə təklif olunsa, Əbu Bəkrin verdiyi hökmü mən də verərəm".[218]

Bu iddianın puçluğu iki məsələ ilə aydın olur:

Birinci məsələ: Qeyd edilən dəlillər şiə mənbələri deyil. İmam Baqirə (ə) və Zeyd ibn Əliyə (ə) nisbət verilən bu iki rəvayət heç bir şiə mənbəyində qeyd edilməyib. Bu rəvayətləri Nəmiri "Tarixul-Mədinə" kitabında nəql edib. Orada deyir: "Muhəmməd ibn Səbbah Yəhya ibn Mütəvəkkil Əbu Əqildən, o da Kəsir Nəvvadan Əbu Cəfərə belə dediyini nəql edib: *"Allah məni sənə fəda etsin! Necə düşünürsünüz, Əbu Bəkr və Ömər sizin haqqınıza zülm etdilərmi, yaxud haqqınızı aradan apardılarmı?" Dedi: "Xeyr, Furqanı aləmlərə qorxudan olaraq bəndəsinə nazil edənə and olsun ki, xardal dənəsi qədər belə haqqımıza zülm etmədilər". Dedim: "Sənə fəda olum, siz onları dost bilirsiniz?" Buyurdu: "Bəli, vay olsun sənə, dünya və axirətdə onları dost bil. Sənə bir şey toxunsa, mənim boynumdadır".*[219]

Həmçinin "Tarix" əsərində deyir: "Muhəmməd ibn Abdullah ibn Zübeyrdən, o da Füzeyl ibn Mərzuqdan, o da Nəmiri ibn Həssandan nəql edir: *"Əbu Bəkrin əməllərini pisləmək məqsədilə Zeyd ibn Əliyə (r) dedim: "Əbu Bəkr Fədəyi Fatimənin (ə) əlindən aldı". O dedi: "Əbu Bəkr rəhmli şəxs idi, Peyğəmbərin (s) hər hansı bir rəftarını dəyişməkdən çəkinirdi. Fatimə (r) onun yanına gəlib dedi: "Peyğəmbər (s) Fədəyi mənə vermişdi". Əbu Bəkr buna şahidinin olub-ollmadığını soruşduqda Əlini və Ümmü Əyməni şahid olaraq gətirdi. Ümmü Əymən dedi: "Mənim Cənnət əhlindən olduğuma şahidlik etmirsənmi?" Əbu Bəkr onun Cənnət əhlindən olduğunu*

---

[218] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 89

[219] Tarixul-Mədinə, İbn Şəbbə Nəmiri, c. 1, s. 201

təsdiqlədi. (Əbu Əhməd deyir: yəni bunu Əbu Bəkrə və Ömərə dedi) Ardınca Fədəyi Peyğəmbərin (s) Fatiməyə verdiyinə şahidlik etdi. Əbu Bəkr isə dəlil olaraq bir kişi və bir qadının şəhadətini qəbul etməyəcəyini bildirdi.

Zeyd dedi: "Allaha and olsun ki, əgər bu məsələ mənə təklif olunsa, Əbu Bəkrin (r) verdiyi hökmü mən də verərəm".[220]

Bunu həmçinin Cövhəri "əs-Səqifə və Fədək"[221] kitabında rəvayət edib. İbn Əbülhədid də "Nəhcül-Bəlağənin şərhi"ndə ondan nəql edir.[222]

Nəmiri və Cövhərinin şiə olduğunu heç bir sünni iddia etməyib. Həmçinin İbn Əbülhədidin də şiə olduğu isbatlanmayıb. Bunu yalnız İlahi İhsan Zahir iddia edib. Bu iddiasına isə əvvəldə cavab vermişik.[223]

Əllamə Məclisiyə nisbət verdiyi sözlərə gəldikdə, bu iddiadan başqa bir şey deyil. Çünki həmin sözlər Əllamə Məclisiyə məxsus deyil. Həqiqətdə həmin sözlər Məclisinin Əhli-Sünnə alimlərindən olan Cövhərinin nəql etdiyi Xanım Fatimənin (ə) xütbəsindən bir parçadır. Əllamə Məclisi kitabındakı həmin fəsildə Fatimənin (ə) xütbəsini Əhli-Sünnə yolu ilə təsdiqləməkdədir. İlahi İhsan Zahirin bu əməli həqiqətən də təəccüblüdür. Çünki Əllamə Məclisi əvvəldə məqsədinin bu xütbəni yalnız sünni mənbələrindən nəql etmək olduğunu açıq-aydın bəyan edir. Ardınca isə aləm qadınlarının Seyyidəsinin (ə) xütbəsini qeyd edir ki, möhtərəm oxucudan buna diqqət yetirməsini xahiş edirik. Həmin sözləri müəllif kitabının haşiyəsində qeyd edir: "Bu barədə varid olan xəbər və rəvayətləri şiə mənbələrindən deyil, əhli-hədisdən (Əhli-Sünnədən) və onların kitablarından nəql edəcəyəm. Bu fəsildə qeyd edilən bütün rəvayət və sözlər Əbu Bəkr Əhməd ibn Əbdürrəhman Cövhərinin "əs-Səqifə" kitabındandır. O, alim, ədəbli, siqə (inanılan) və təqvalı bir şəxsdir. Bir çox hədis alimləri onu tərifləmiş, ondan və onun başqalarından rəvayət etdiklərini nəql etmişlər. Bu xütbəni üç sənədlə:

---

[220] Tarixul-Mədinə, İbn Şəbbə Nəmiri, c. 1, s. 199

[221] əs-Səqifə və Fədək, Cövhəri, s. 110

[222] Nəchul-Bəlağənin şərhi, İbn Əbülhədid, c. 16, s. 219-220

[223] Kitabın müqəddiməsinə bax.

Möminlərin əmiri Əlinin qızı Zeynəbdən, İmam Muhəmməd Baqirdən (ə) və Abdullah ibn Həsəndən rəvayət edir.

Həmçinin bunu "Kəşful-ğummə"nin müəllifi də Cövhəridən nəql edir, Məsudi tarix kitablarının arasında ən mötəbəri sayılan "Murucuz-zəhəb" kitabında da ona işarə edir..."[224]

Bu sözlərinin ardınca isə xütbəni nəql edir. Görürsünüz ki, İhsan İlahi Zahir mətni necə qayçılayaraq Əllamə Məclisiyə nisbət verir. Halbuki Əllamə Məclisi aydın şəkildə Xanım Zəhranın (ə) xütbəsini Əhli-Sünnə mənbələrindən, onların kitablarından nəql edəcəyini bildirir.

İkinci məsələ: Şiələrin Peyğəmbərdən (s) və pak Əhli-Beytindən (ə) nəql etdikləri rəvayətləri olduqca çox və genişdir, şiə rical və dirayə alimləri onu onların üzərində əsasla təftiş aparmışlar. Bu geniş rəvayət mirası özündə çoxlu səhih dəlilləri ehtiva edir. Həmin dəlillərdə Xanımın (ə) məzlumiyyəti və haqqının qəsb edilməsi bütün cəhətləri ilə öz əksini tapır. Şeyx Tusi "əl-Əmali"də Möminlərin əmirinin (ə) belə buyurduğunu yazır: "Peyğəmbər qızı Fatimə (ə) məzlum oldu, haqqından məhrum edildi, mirası əlindən alındı. Onun barəsində Peyğəmbərin (s) vəsiyyətinə əməl olunmadı, nə onun, nə də Allahın haqqı qorunmadı. Hakim və zalımlardan intiqam alan olaraq Allah kifayətdir".[225]

"əl-Kafi"də Şeyx Kuleyni sənədi İmam Rzaya (s) yetişən rəvayəti nəql edir: *"Həqiqətən də Fatimə (ə) şəhid Siddiqədir (doğru danışan və haqlı olandır)".*[226]

"Nəhcül-Bəlağə"də Möminlərin əmiri (ə) buyurur: *"Bəli, göyün kölgə saldığı bütün şeylərdən (dünya malından) yalnız Fədək bizim əlimizdə idi ki, bir dəstə adam ona paxıllıq etdi. Başqaları da bəxşiş edərək ondan keçdilər".*[227]

---

[224] Həqqul-yəqin, Əllamə Məclisi, s. 203-210
[225] əl-Əmali, Şeyx Tusi, s. 156
[226] əl-Kafi, Şeyx Kuleyni, c. 1, s. 458
[227] Nəhcül-Bəlağə, c. 3, s. 71

İlahi İhsan Zahirin şiələrə mənsub olduğunu iddia etdiyi rəvayətlərin[228] Xanımın (ə) haqqının qəsb edildiyini, məzlum və şəhid olduğunu bəyan edən bu açıq mənalı və səhih rəvayətlər qarşısında heç bir dəyəri yoxdur.

Fədəyin Fatiməyə (ə) hədiyyə edilməsinin inkar səbəbləri

"Fatimənin məzlumluğu" məsələsi və haqqının qəsb edilməsi barədə fikir yayındırmaq məqsədilə İhsan İlahi Zahirin ortaya atdığı məsələlərdən biri də hadisənin arxasındakı səbəb və məqsədləri qeyd etməsidir. Bəzi şiə alimlərinə nisbət verərək, buradakı məqsədin Əhli-Beytin (ə) iqtisadi cəhətdən zəiflədilməsi olduğunu yazır. Ardınca bu iddianı rədd etməyə çalışaraq deyir: **"Məclisi və digərləri iddia edirlər ki, Əbu Bəkr və dostları bu addımı məhz Əlini və Əhli-Beytini müflis etmək üçün atmışlar ki, maddi imkan vasitələri ilə ətrafına insan cəlb edə bilməsin. Nə qəribədir?! Bunlar Əlini və Əhli-Beytini bu əsrlərdəki hakimiyyət və rəhbərlik həvəskarları kimi zənn edirlər, düşünürlər ki, onlar bu istəklərini pul və rüşvətlə həyata keçirə bilərdir?! Əgər məsələ bundan asılı idisə, onların maliyyə imkanları geniş idi. Çünki Kuleyni Əbülhəsəndən nəql edir... yeddi ərazini (bostanı) Fatiməyə (ə) vəqf edilmişdi... Məgər yeddi ərazinin sahib olan şəxsin pula ehtiyacı olarmı?!"**[229]

Sözlərindən anlaşılır:

1. Xanımdan (ə) Fədəyin alınmasının və haqqından məhrum edilməsinin arxasındakı səbəb hadisənin baş verdiyini heç də inkar etmir və Peyğəmbər (s) Əhli-Beytinə (ə) qarşı təzyiqi əsla kiçiltmir. Belə ki, bu, müsəlmanların ən səhih

[228] Halbuki həmin rəvayətlər məhz Əhli-Sünnə mənbələrində idi.
[229] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 86-87

hədis və tarix mənbələrinin təsdiq etdiyi hadisədir. Bu hadisə ilə bağlı Buxari və Müslimin rəvayətlərini təqdim etmişdik.

Həmçinin bu qəsbin arxasında hər hansı səbəbin qeyd edilməsi düz və ya yanlış ola biləcək ictihaddır.

2. İlahi İhsan Zahirin Əllamə Məclisidən nəql etdiyi Xanım Fatimənin (ə) haqqından məhrum edilməsinin arxasındakı səbəb Möminlərin əmiri (ə) və Əhli-Beytinin (ə) maddi cəhətdən zəiflədilməsi fikri (əlavə olaraq qeyd edək ki, İhsan Zahir Əllamə Məclisinin hansı kitabından bu fikirləri nəql etdiyini göstərmir) həmin məsələ ilə bağlı ehtimal olunan səbəblərdən yalnız biridir. Bunu həmçinin Fədəyin tarixi və coğrafi üstünlükləri də dəstəkləyir. O çox geniş bir ərazini əhatə edirdi. Həmçinin onun maddi gəliri də olduqca çox idi. Xəlifələr və padşahlar onun gəlirlərini İslam dövlətinin genişliyinə və fəthlərin çoxluğuna rəğmən öz yaxınları və qohumlarının arasında da bölüşdürürdülər. Buna Fədəyin tarixilə bağlı bəhsdə işarə etdik.

Fədəyin ərazisinin genişliyi və külli miqdarda gəlirinin olmasına dəlillər mövcuddur. Belə ki, Peyğəmbər (s) onun gəlirlərinin bir hissəsini silah, döyüş və İslam ordusunun ehtiyatının daşınması üçün yük dəvələri almağa sərf edirdi. Baxmayaraq ki, həmin vaxt ordu günü-gündən böyüyür və ehtiyacları da artırdı. Razi deyir: "O, Fədəyin gəlirindən özünün və himayəsində olanların xərcliyini götürür, qalan hissəsini isə silah və dəvə alınmasına xərcləyirdi".[230]

Həmçinin bir az əvvəldə Buxaridən nəql etdiyimiz rəvayət də buna dəlalət edir: "Peyğəmbər (s) ailəsinin bir illik xərcliyini onun gəlirindən götürür, yerdə qalanını isə Allahın pulu olaraq din yolunda xərcləyirdi".[231]

Bu, Fədəyin gəlirinin böyük əhəmiyyət kəsb etdiyini göstərir. Fədəyin Əbu Bəkrin xilafətinin ilk vaxtlarında da olduqca böyük maddi əhəmiyyət daşıdığını demək mümkündür. Çünki həmin dövrdə dövlətin gəlir mənbəyi heç də çox

---

[230] Təfsirur-Razi, c. 29, s. 284

[231] Səhih, Buxari, c. 4, s. 43

deyildi. Həmin vaxtlarda fəthlər yox səviyyəsində idi, bəzi tayfalar xilafətə qarşı baş qaldırmışdı. Hətta zəkat verməkdən imtina edənlərə qarşı savaş da olmuşdu. Hələbi özünün "əs-Sirətul-Hələbiyyə" kitabında yazır: "Səbt ibn Cövzinin (r) sözünə əsasən, Əbu Bəkr (r) Fədəyi ona (Xanım Fatiməyə) verdiyi barədə bir yazı yazdı. Ömər (r) onun yanına daxil olub nə yazdığını soruşdu. Dedi: "Bunu Fatiməyə yazıram, atasından qalan mirasıdır". Ömər dedi: "Müsəlmanlara xərclənən şeyimi? Halbuki gördüyün kimi, ərəblər sənə qarşı çıxıb savaşırlar". Sonra məktubu götürüb cırdı".[232]

Fədəyin maddi yönü onun Əhli-Beytin (ə) əlindən alınmasının yalnız bir səbəbidir. Bu heç də "əl-Kafi"də rəvayət edilən yeddi hasarın Fatiməyə vəqf olunması xəbəri ilə ziddiyyət təşkil etmir. Çünki o mülklərin gəliri az idi. Peyğəmbər onun gəlirlərini qonaqlarına və naiblərinə xərcləyirdi. Necə ki, bunu "əl-Kafi" Əhməd ibn Muhəmmədə istinadən rəvayət edir: "İmam Rzadan (ə) Peyğəmbərin (s) Fatiməyə (ə) miras qoyduğu yeddi mülk barədə soruşduqda İmam (ə) buyurdu: "Xeyr, o, miras deyil, vəqf idi. Peyğəmbər (s) onun gəlirlərindən öz qonaqları və naibləri üçün xərclik götürürdü".[233]

Bunu Şeyx Səduq və Şeyx Tusi mürsəl hədis olaraq nəql ediblər. Orada "naibləri" əvəzinə "yanına gələnlərə"[234] yazılıb.

Qeyd edilən xəbərdən aydın olur ki, Peyğəmbər o mülkləri həyatda olarkən Fatiməyə (ə) vəqf edir və ondan qonaqlara və naiblərə xərcləməyi şərt qoyur.

Həmin bu mülklər kiçik bostanlardan ibarət idi. Onlar torpaq divarla əhatə olunduğuna görə "yeddi hasar"[235] adlanırdı. Bu bostanlardan Peyğəmbər (s) qonaqlarına və naiblərinə xərcləyirdi.

---

[232] əs-Siratul-Hələbiyyə, c. 3, s. 488

[233] əl-Kafi, c. 7, s. 47

[234] Mən la yəhzuruhul-fəqih, Şeyx Səduq, c. 4, s. 244; Təhzibul-əhkam, Şeyx Tusi, c. 9, s. 145

[235] Lisanul-ərəb, c. 7, s. 279-280; "HVT" hərfləri

Əlbəttə ki, İslam dövlətinin şah damarı kimi onun həyatında mühüm rola sahib mal ilə şəxsi və ailə ehtiyacları üçün istifadə edilən malın həcmi bir-biri ilə müqayisəyə gəlməz.

Fatimənin (ə) Möminlərin əmirinin (ə) xilafətini iddia edəcəyi qorxusu

Mötəzilədən olan bəzi Əhli-Sünnə alimləri Fədəyin Fatimədən (ə) alınmasının, iddiasının rədd edilərək şahid tələb edilməsinin, sözünün təsdiq edilməməsinin və atasından qalan mirasdan məhrum edilməsinin səbəbinin arxasında daha incə məqamların olduğunu qeyd etmişlər. Onlar buna səbəb kimi Əbu Bəkrin və Ömərin Fatimənin (ə) sonradan Möminlərin əmirinin (ə) xilafətini iddia edəcəyindən qorxduqlarını bildiriblər. Çünki Əlinin (ə) xilafəti barədə qəti dəlillər mövcuddur. Həmçinin Xanımın (ə) hədiyyə və mirasla bağlı sözlərinin təsdiqi və iddiasının qəbul edilməsi bunun ardınca xilafət iddiasının qəbul edilməsinə yol açacaqdı. İbn Əbülhədid Mötəzili deyir: "Bağdadda Qərb mədrəsəsinin müəllimi Əli ibn Fariqidən Fatimənin doğru-deyib demədiyini soruşdum. "Bəli" cavabını verdikdə dedim: "Bəs nə üçün Əbu Bəkr onun doğruçu olduğunu bildiyi halda Fədəyi ona qaytarmadı?" Təbəssüm etdi, sonra şərəf və hörmətilə, azca incə zarafatı ilə dedi: "Əgər bu gün mücərrəd iddiasına görə ona Fədəyi versə sabah gəlib öz əri üçün xilafət iddiası irəli sürəcək, Əbu Bəkri oturduğu yerdən tərpədəcəkdi. Bu zaman nə etiraz etmək mümkün olacaq, nə də bir şeydə razılaşmaq. Çünki onun doğruçu olduğunu təsdiqləyərək heç bir şahid və şəri bəyyinəyə ehtiyac qalmadan sözünü qəbul etməyi öz üzərinə götürmüş olacaq".[236] Ardınca İbn Əbülhədid Əli ibn Fariqinin sözlərinə şərh verərək deyir: "Yarı zarafat, yarı ciddi söyləmiş də olsa, bu doğru sözdür".[237]

---

[236] Nəhcül-Bəlağənin şərhi, İbn Əbülhədid, c. 16, s. 284

[237] Nəhcül-Bəlağənin şərhi, İbn Əbülhədid, c. 16, s. 284

Nəticə: Əbu Bəkrin Zəhraya (ə) Fədəyi və mirasdan payını verməkdən imtina etməsinin səbəblərinə göz yumsaq, bu barədə deyilmiş və ya deyiləcək hər bir söz şəxsi rəy və ictihad sayılır, məsələnin həqiqi səbəbini ifadə etmir. Lakin qəti bir həqiqətdir ki, bu "miras" məsələsi müsəlmanların arasında Əhli-Beytin (ə) məqamına çox mənfi təsirini göstərdi, onlara qarşı cürət zəmini yaratdı. Ola bilsin ki, Kərbəla faciəsi də məhz bu cürətin nəticəsi oldu.

İkinci fəsil: Hədiyyə və miras

Burada iki bəhs var:

Birinci bəhs: Fədək Peyğəmbərin (s) Fatiməyə (ə) hədiyyəsidir
İkinci bəhs: Fatimənin (ə) atasının mirasını tələb etməsi

Birinci bəhs: Fədək Peyğəmbərin (s) Fatiməyə (ə) hədiyyəsidir

Hədiyyə lüğətdə könül xoşluğu ilə verməkdir.[238] Uca Allah buyurur: ***"Qadınlarınızın mehrlərini könül xoşluğu ilə verin!"***[239] Əksər hallarda övlada verilən hədiyyə mənasına istifadə edilir. Bu, Qurani-Kərimin də təşviq etdiyi bəyənilən əməllərdən sayılır. Quran buyurur: ***"(Allaha) məhəbbəti yolunda (və ya mal-dövləti çox sevməsinə baxmayaraq) malını qohum-əqrəbaya, yetimlərə..."***[240] Ayədə ilk olaraq qohum-əqrəbanın zikr edilməsi onların digərlərinə nisbətdə üstünlüyünü bildirir.

Termin olaraq isə: heç bir əvəz olmadan, qızılın və ya bir malın başqasının mülkiyyətinə keçirilməsidir. Mövzumuz da bu məna ilə bağlıdır.

Bununla bağlı İslamın ilk dövrlərindən ta bugünkü vaxtadək barəsində ən çox danışılan və mübahisə edilən məsələ Fədəkdir. Əbu Bəkrin hakimiyyətinin ilk günlərində xilafət kürsüsünə tam yiyələnməmiş onunla pak Siddiqə Xanım Fatimənin (ə) arasında Peyğəmbərin (s) Fədəyi ona hədiyyə etməsi barədə münaqişə yaşanmışdı. Fatimə (ə) Fədəyin Peyğəmbərin (s) hədiyyəsi olduğunu iddia etmiş, Əbu Bəkr isə bu iddianı qəbul etməyərək ondan şəri şahidlər gətirməsini tələb etmişdi. Onun hədiyyə olduğuna zövcəsi Möminlərin əmiri Əli (ə), övladları Həsən (ə) və Hüseyn (ə), eləcə də Ümmü Əymən şahidlik etmişlər. Lakin bu şahidləri yetərsiz sayılmış, ondan kamil şəri bəyyinə – iki kişi və ya bir kişi və iki qadın şahid gətirməsi tələb olunmuşdu. Beləliklə Fədək onun əlindən alınmış, oradakı vəkil və xidmətçilər vəzifələrindən çıxarılmışdı. Burada nəzər yetirilməsi vacib olan bir neçə məsələ var:

---

[238] Bax: əl-Qamusul-muhit, Firuzabadi, c. 4, s. 55; Lisanul-ərəb, c. 11, s. 65

[239] Nisa, 4

[240] Bəqərə, 177

Peyğəmbərin (s) Fədəyi qızı Fatiməyə hədiyyə verdiyinə dair dəlillər

Şiə alimlərinin nəzdində Peyğəmbərin (s) Fədəyi qızı Fatiməyə verdiyi qəti nəqli dəlillərlə isbat olunub və bu barədə aralarında icma var. Buradakı məqsədimiz isə məsələni Əhli-Sünnə mənbələrinə əsasən isbatlamaqdır. Onların hədis mənbələrində Fədəyin Fatiməyə (ə) hədiyyə olunduğuna dair bir çox dəlillər mövcuddur. Onlardan bəzisini qeyd edək:

1. Rəvayətlər

Əhli-Sünnənin bir çox hədis alim və hafizi Uca Allahın ***"Yaxın qohuma haqqını ver"***[241] ayəsi Peyğəmbərə (s) nazil olduqda Fatiməni yanına çağıraraq Fədəyi ona veridiyini qeyd etmişlər. Əbu Yəla Mosuli (vəfatı: h.q 307) "Müsnəd" kitabında Ətiyyə Ovfinin Əbu Səid Xudriyə istinadən belə söylədiyini nəql edir: ***"Yaxın qohuma haqqını ver"*** ayəsi nazil olduqda Peyğəmbər (s) Fatiməni yanına çağıraraq Fədəyi ona verdi".[242]

Həmçinin bu hədisi Əbu Sədi Xudriyə istinadən bir çox Əhli-Sünnə hədisçisi nəql etmişdir. Süyuti deyir: "Bəzzar, Əbu Yəla, İbn Əbu Hatəm və İbn Mərduveyh Əbu Səid Xudridən (r) nəql ediblər ki, ***"Yaxın qohuma haqqını ver"*** ayəsi nazil olduqda Peyğəmbər (s) Fatiməni yanına çağıraraq Fədəyi ona verdi".[243]

Eləcə də "Lubabun-nuqul" kitabında yazır: "Təbərani və başqaları Əbu Səid Xudridən nəql edirlər: ***"Yaxın qohuma haqqını ver"*** ayəsi nazil olduqda Peyğəmbər (s) Fatiməni yanına çağıraraq Fədəyi ona verdi".[244]

İbn Ədiy yazır: "Ətiyyədən, o da Əbu Səiddən nəql edir: ***"Yaxın qohuma haqqını ver"*** ayəsi nazil olduqda Peyğəmbər (s) Fatiməni yanına çağıraraq Fədəyi ona verdi".[245]

---

[241] İsra, 26

[242] Müsnəd, Əbu Yəla Mosuli, c. 2, s. 334, hədis 1075

[243] əd-Durrul-mənsur, Cəlaləddin Süyuti, c. 4, s. 177. Həmçinin bax: Fəthul-qadir, Şovkani, c. 3, s. 224

[244] Lubabun-nuqul, Cəlaləddin Süyuti, s. 123

Bəziləri bu hədisdə Ətiyyə Ovfi[246] ilə əlaqədar mənfi fikirlər söyləmişlər. Lakin onların sözləri rədd edilir. Çünki Əhli-Sünnənin böyük rical alimləri onun "siqə" (inanılan, etibarlı) şəxs olduğunu bildirmişlər. İbn Səd özünün "ət-Təbəqatul-kubra" kitabında deyir: "İnşallah, "siqə" idi. Onun sağlam hədisləri var".[247]

Ömər ibn Şahin Yəhya ibn Muindən nəql edir: "Ətiyyə Ovfidə (müşkül) problem yoxdur".[248] Yəhya ibn Muin izah verir ki, kimin barəsində "problem (müşkül) yoxdur" deyirsə, demək həmin şəxs "siqə"dir. Xətib Bağdadi Əhməd ibn Əbu Xeysəməyə istinadən yazır: "Yəhya ibn Muinə dedim: "Sən, "filan şəxsdə problem yoxdur" və ya bəzən "Filan şəxsin problemi var, zəifdir" deyirsən. O dedi: "Əgər sənə bir şəxs barəsində "onda problem yoxdur" deyirəmsə, demək o siqədir. Əgər "zəifdir" deyirəmsə, bil ki, o siqə deyil, onun hədisləri yazılmaz".[249]

İbn Əbu Hatəm deyir: "Atamdan Əbu Nəzrə və Ətiyyə barəsində soruşulduqda o dedi: "Əbu Nəzrə mənə daha sevimlidir".[250]

Əbu Nəzrə siqədir, Əbu Hatəmin bu sözü Ətiyyənin də siqə olduğuna dəlalət edir. Çünki cümlə iki siqənin müqayisəsindən ibarətdir. Sual isə onlardan hansının daha etibarlı olduğu barədədir. Əgər Ətiyyəni zəif bilsəydi, o zaman fərqli kəlmələrdən istifadə edərdi.

Bu söz Yəhya ibn Səid Qəttanın Cəbr ibn Nouf Əbu Vəddakdan bu barədə soruşularkən söylədiyi cavab qəbilindəndir. O demişdi: "O, mənə Ətiyyədən daha sevimlidir".[251]

Əbu Bəkr Bəzzar deyir: "Ondan böyük şəxsiyyətlər hədis rəvayət etmişlər".[252]

---

[245] əl-Kamil, Abdullah ibn Ədiy, c. 5, s. 190
[246] Bax: Məcməuz-zəvaid, Heysəmi, c. 7, s. 49
[247] ət-Təbəqatul-kubra, Muhəmməd ibn Səd, c. 6, s. 304
[248] Tarixu əsmais-siqat, İbn Şahin, s. 172
[249] əl-Kifayə, Xətib Bağdadi, s. 39
[250] əl-Cərh vət-tədil, İbn Əbu Hatəm Razi, c. 8, s. 241
[251] Tarixul-kəbir, Buxari, c. 2, s. 243; Təhzibut-təhzib, İbn Həcər, c. 2, s. 52
[252] Təhzibut-təhzib, İbn Həcər, c. 7, s. 202

Tirmizi özünün "Sünən" əsərində ravilərinin arasında onun da olduğu bir çox hədisin "həsən" və "səhih" olduğunu bildirmişdi.[253]

İbn Xuzeymə "Səhih"də ondan hədis nəql edir.[254] Kitabının tam adı "Sənədində kəsilmə olmadan, qüsursuz ravilərdən, ədalətli şəxsin ədalətlidən nəql etdiyi sənədli səhihlər"dir.[255]

Hafiz ibn Həcər deyir: "İbn Xuzeymənin kitabındakı hədislərin hökmü... onlardan dəlil götürüləcək səlahiyyətdədir. Çünki onlar "həsən" və "səhih" dairəsindədirlər, az hissəsində belə şübhə doğuracaq illət yoxdur".[256] (s. 112)

Heysəmi onun barəsində bir neçə yerdə deyir: "Etibarlı sayılıb".[257]

İbn Həcər deyir: "Doğru danışandır, çox xəta edir".[258]

İbn Kəsirin bu hədisə etiraz edərək "Bu hədisin sənədi səhih olsa da, mənasına müşkül var. Çünki ayə Məkkədə nazil olub. Fədək isə Xeybərlə birlikdə hicrətin yeddinci ilində fəth edilib. Bununla digərinin arasında necə uyğunluq ola bilər?"[259] sözlərə gəlincə, bu, düzgün iddia deyil. Belə ki, əksər təfsir alimləri bu ayənin Mədinə ayələrindən olduğunu bəyan ediblər. Onlardan Razini, Əbus-Səudu, Süyutini misal göstərmək olar. Deyirlər: "26, 32, 33 və 57-ci ayələrdən savayı ümumilikdə "İsra" surəsi Məkkə surəsidir".[260]

"Yaxın qohuma haqqını ver" ayəsi isə surənin məhz 26-cı ayəsidir.

Hakim Həskani "Şəvahidut-tənzil" kitabında bu hədisi sənədli şəkildə və müxtəlif yollardan rəvayət edib. Onların arasında Əta və İbn Abbas da var. Deyir:

---

[253] Sünən, Tirmizi, c. 1, s. 296; c. 2, s. 394, c. 3, s. 228, 317-318; c. 4, s. 7-8, s. 42, 46, 84, 96, 260, 261; c. 5, s. 23, 50, 137, 268, 278-279, 303, 372

[254] Səhih, İbn Xuzeymə, c. 3, s. 159

[255] Bax: Səhih, İbn Xuzeymə, c. 1, s. 3

[256] ən-Nəktu əla kitabi İbn Səlah, İbn Həcər Əsqəlani, c. 1, s. 291

[257] Məzməuz-zəvaid, Heysəmi, c. 4, s. 59, 72, 102, 263, 282; c. 5, s. 132; c. 8, s. 186, 187; c. 10, s. 388, 407

[258] Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 678

[259] Təfsir, İbn Kəsir, c. 3, s. 39

[260] Təfsir, Razi, c. 20, s. 145; Təfsir, Əbus-Səud, c. 5, s. 153; Təfsirul-Cəlaleyn, Süyuti, s. 364

"Yaxın qohuma haqqını ver" ayəsi nazil olduqda Peyğəmbər (s) Fatiməni yanına çağıraraq Fədəyi ona verdi. Səbəb isə yaxın qohumluq idi".[261]

Eləcə də sənədli şəkildə İmam Sadiqdən (ə), İmam Baqirdən (ə), İmam Səccadan (ə), İmam Hüseyndən (ə) və o da Möminlərin əmirindən (ə) belə rəvayət etdiyini nəql edir: ***"Yaxın qohuma haqqını ver"*** ayəsi nazil olduqda Peyğəmbər (s) Fatiməni yanına çağıraraq Fədəyi ona verdi".[262]

Süyuti bu hədisi həmçinin ibn Mərduveyhin İbn Abbasa istinadən nəql etdiyini yazır: "İbn Mərduveyh İbn Abbasa istinadən (r) deyir: ***"Yaxın qohuma haqqını ver"*** ayəsi nazil olduqda Peyğəmbər (s) Fədəyi qızı Fatiməyə pay verdi".[263]

Təbərani Ömərə istinad etdiyi sənədlə deyir: "Peyğəmbər (s) dünyadan köçdükdə mən və Əbu Bəkr Əlinin yanına gəlib dedik: "Peyğəmbərin (s) özündən sonra geridə buraxdıqları barədə fikrin nədir?" Əli dedi: "Biz Peyğəmbərə və onun geridə buraxdıqlarına ən çox haqq sahibi şəxslərik". Dedim: "Xeybərdən qalanalara da?" Dedi: "Bəli, Xeybərdən qalanlara da". Dedim: "Bəs Fədək necə?" Buyurdu: "Bəli, Fədəyə də". Dedim: "Xeyr! Allaha and olsun ki, başımızı mişarla bədənimizdən ayırsalar da belə, xeyr".[264]

İmamın (ə) Fədəyin özlərinin (ə) haqqı olduğu barədə sözləri hədiyyə və irslə uyğunluq təşkil edir.

Heysəmi "Məcməuz-zəvaid"də bu hədisi rəvayət etdikdən sonra deyir: "Təbərani bunu "Möcamul-övsat"da nəql edib. Hədisin oradakı sənədində Musa ibn Cəfər ibn İbrahim var. O, zəifdir".[265]

Heysəminin Musa ibn Cəfəri zəif bilməsi izahsızdır, bunu alimlərin əksəriyyəti qəbul etmir. Belə ki, heç bir rical alimi onun ravi olaraq qüsurlu olduğuna hökm

---

[261] Şəvahidut-tənzil, Hakim Həskani, c. 1, s. 571, hədis 608

[262] Şəvahidut-tənzil, Hakim Həskani, c. 1, s. 442, hədis 473

[263] əd-Durrul-mənsur, Süyuti, c. 4, s. 177; Fəthul-qadir, Şovkani, c. 3, s. 224

[264] əl-Möcamul-övsat, Təbərani, c. 5, s. 288

[265] Məzməuz-zəvaid, Heysəmi, c. 9, s. 40

verməyib. Heysəmi sonrakı nəsil alimlərdəndir, onun bu rəyi etibarlı sayılmaz. Ən azından həmin ravinin "vəziyyətinin qaranlıq" olduğunu deyə bilər.

Nəticə: Bu hədisi üç böyük səhabə (Əbu Səid Xudri, İbn Abbas və Möminlərin əmiri) rəvayət etmişlər. Bir çox hədis alimləri hədisi müxtəlif yollarla nəql ediblər. Hədis elmində qəbul edilən faktdır ki, əgər bir rəvayəti bir neçə səhabə rəvayət edirsə, onu qeyd edən hədis alimləri çoxdursa, həmçinin müxtəlif yollarla nəql edilirsə bu zaman, bu nəql yollarından bəzisi zəif olsa belə biri digərini gücləndirmiş olur. Albani özünün "İrvaul-ğalil" kitabında deyir: "(İstilah elmində) iqrar olunur ki, əgər aralarında ittiham olunan (hədis uyduran) şəxs yoxdursa, müxtəlif yollarla nəql olunan hədislər biri digərini gücləndirir. Necə ki, bunu Nəvəvi özünün "ət-Təqrib" əsərində, Süyuti "Şərh"ində təsdiq edirlər".[266]

Bu söz mürsəl hədislər barədə də deyilib. İbn Həcər bəzi mürsəl hədisləri nəql etdikdən sonra deyir: "Bu mürsəl hədislər biri digərini qüvvətləndirir".[267] Həmçinin bəzi mürsəl hədislər barədə deyir: "Bu dörd hədis mürsəldir. Biri digərini gücləndirir".[268]

2. Fatimənin (ə) Fədək üzərində mülkiyyətçiliyi

"Fədək" məsələsi ilə bağlı mühüm məsələlərdən biri də Fədəyin Fatimə (ə) tərəfindən idarəçiliyi, Əbu Bəkrin onun əlindən Fədəyi alması və vəkillərini oradan çıxarmasıdır ki, bu da sünni hədislərində tam aydın şəkildə bəyan edilmir. Bu dəlillər Fədək və miras iddiaları arasına qarışmışdır. Öz ardınca da Zəhranın (ə) bu tərəddüdü ilə məqamı barədə zaman-zaman bir çox suallar yaranmışdı. O, gah Fədəyin sahibliyini iddia edir, gah da onu Peyğəmbərin (s) mirası olaraq istəyir. Rəvayətlər Əbu Bəkrlə Fatimənin (ə) arasındakı bu münaqişənin tarixi ardıcıllığını nəzərdən qaçırmışdır.

---

[266] İrvaul-ğalil, Albani, c. 1, s. 160. İttiham olunan şəxsdə məqsəd "hədis uydurmaqda" ittiham olunmaqdır.

[267] əd-Dirayətu fi təxrici əhadisil-hidayə, İbn Həcər, c. 1, s. 266

[268] Təğliqut-təliq, İbn Həcər, c. 3, s. 269

Dəlilləri diqqətlə araşdırdıqda hadisənin ilk dəfə Əbu Bəkr tərəfindən Zəhranın (ə) Fədəkdəki vəkillərini oradan çıxarması ilə bağladığını görürük. Xanim (ə) buna etiraz edərək Peyğəmbərə (s) tərəfindən Fədəyin onun mülkiyyətinə keçirildiyini bildirir. Əbu Bəkr isə ondan buna iki kisi və ya bir kişi, iki qadın şahid gətirməyi tələb edir. Bununla da həmin mövzunu bağlayır.

Bundan sonra Xanım (ə) ondan Peyğəmbərdən (s) qala mirasını istəyir. Lakin yenə də tələbi geri çevrilir. Qeyd edildiyi kimi, bu zaman ona qəzəblənərək, ölənədək bir daha onunla danışmır və dünyadan ona qəzəbli halda gedir.

Hadisənin bu tarixi ardıcıllığı sünni mənbələrində aydın şəkildə bəyan edilməsə də, müəyyən hissələrlə fərqli rəvayətlərdə nəql olunublar. Əvvəldə onlardan bir neçəsini qeyd etmişik. Burada isə Fədəyin Fatimənin (ə) mülkiyyəti olduğuna dəlalət edən möhkəm dəlilləri qeyd edəcəyik. Hafiz Ömər ibn Şəbbə Nəmiri ibn Həssandan rəvayət edir: "*...Əbu Bəkrin əməllərini pisləmək məqsədilə Zeyd ibn Əliyə (r) dedim: "Əbu Bəkr Fədəyi Fatimənin (ə) əlindən aldı..."*[269]

Bunu ondan həmçinin Hafiz ibn Həcər Heytəmi "əs-Səvaiqul-muhriqə"də nəql edir.[270]

"Fatimənin (ə) əlindən aldı" sözündən aydın olur ki, Fədək əvvəldə onun ixtiyarında idi. Məlum məsələdir ki, ixtiyarında olması ona sahib olmasıdır. Burada həmin qaydaların ifadə etdikləri mənalara daxil olmaq istəmirik, lakin məlum şəri qaydalara əsasən, Fədəyin Fatimənin (ə) əlində olması onun şahid gətirməsinə ehtiyacı aradan qaldırır.

Fədəyin coğrafi mövqeyinə və yüksək ictimai əhəmiyyətinə diqqət yetirdikdə müsəlmanların arasında hədiyyə ilə bağlı "şahidlərin azlığı" məsələsi özlüyündə sadəlövhlükdür. Çünki Fədək geniş ərazini əhatə edən bir torpaq sahəsi idi və Mədinədən uzaqda yerləşirdi. Yaxın bir məntəqə və ya kiçik bir ərazi deyildi ki, orada baş verən işlər camaatın gözü önündə olsun, sahibi asanlıqla bilinsin. Eləcə

---

[269] Tarixul-Mədinə, İbn Şəbbə Nəmiri, c. 1, s. 199

[270] əs-Səvaiqul-muhriqə, İbn Həcər, c. 1, s. 107-108

də onun mühiti islami mühit deyildi. Yerləşdiyi məntəqə də, camaatı da xalis yəhudilərdən ibarət idi. Bu səbəbdən də, Fatimənin (ə) ona sahib olduğu müsəlmanların arasında məlum deyildi.

Eləcə də, hadisələr Əbu Bəkrin hakimiyyətinin ilk anlarında baş verdi. O, işləri hələ bütünlükdə ələ ala bilməmişdi. Müxtəlif məsələlər baş qaldırmış, o da hər bir vasitə ilə onları dəf etməyə çalışırdı. Ta ki, sərtlik qalib gəldi, meydan qarışdı və fitnə müsəlmanları öz ağuşuna aldı. Fədəyin Əhli-Beytin (ə) əlində olması geniş maliyyə gəlirləri səbəbilə növbəti narahatlığı yaradacaqdı. Necə ki, buna Buxarinin İbn Ömərə istinadən nəql etdiyi rəvayət də işarə edir: *"Xeybər fəth olunanadək doymaq nədi bilməzdik".*[271] Bütün bu gəlirlərin Əhli-Beytin (ə) əlində cəmləşməsindən qorxurdular.

Buna əsasən deyirik: "Əgər "Fədək" məsələsi Əbu Bəkrin hakimiyyətinin son dövrlərində baş versəydi, belə ki, artıq məsələlər həllini tapmış və üsyanlar yatırılmışdı, o zaman onun barəsində başqa cür hökm ediləcəkdi.

3. Hədiyyə olduğuna dair dəlillər

A. Doğruçular doğruçusu Fatimənin (ə) Peyğəmbərin (s) Fədəyi ona hədiyyə verdiyi iddiası

Doğruçular doğruçusu pak Fatimeyi-Zəhranın (ə) Fədəyi Peyğəmbərin (s) ona hədiyyə etdiyi iddiası, Əbu Bəkrin ondan şahid tələb etməsi, onun isə Möminlərin əmiri Əlini (ə), Ümmü Əyməni şahid qismində gətirməsi məşhur hadisədir. Bunu Əhli-Sünnə alimləri Əbu Bəkrin Fədəyin Peyğəmbərin (s) qızına hədiyyəsi olduğu iddiasını rədd etdiyinə dəlil göstərirlər. İbn Həcər deyir: "Xanım Fədəyin ona hədiyyə edildiyi iddiasına yalnız həyat yoldaşı Əlini və Ümmü Əyməni şahid olaraq gətirdi. Lakin bu, şahid sayını tamamlamadı..."[272]

---

[271] Səhih, Buxari, c. 5, s. 83

[272] əs-Səvaiqul-muhriqə, İbn Həcər Heytəmi, c. 1, s. 93, I çap, 1997-ci il

Bəlazuri deyir: "Hicrətin 210-cu ilində Harun Rəşidin oğlu möminlərin əmiri Abdullah Məmun Fədəyi Fatimənin övladlarına qaytarmağı əmr etdi... Hər mövsüm Peyğəmbərə (s) aid sədəqənin, bəxşişin və s. tələbləri olan şəxsləri çağırar, iddiaçının sözü qəbul edilərək istəyi icra olunardı. Fatimə (r) Peyğəmbərdən (s) qalanlar barədə sözü təsdiq edilməyə ən layiq şəxs idi..."[273]

Qurani-Kərim "Təthir" ayəsi ilə Əhli-Beytin (ə) günahlardan məsumluğuna şahidlik edir. Müsəlmanların icmasına əsasən Xanım Zəhranın (ə) Əhli-Beytdən (ə) olduğu şübhəsizdir. Günahdan məsumluğu barədəki bu dəlil Fədəyin hədiyyə olduğuna dair iddiasını da təsdiq etmiş olur. Çünki məsum şəxs əsla yalan danışmaz. Əgər bir şey iddia etsə, şübhəsiz ki, iddiası doğru və həqiqətə uyğundur. Hakimin bu qədər məlumata sahib olması onun sözünü əsas götürüb hökm verməsi üçün kifayət edir. Hətta bu məlumat onun üçün hakimlik məlumatlarından daha üstündür.

Əbu Bəkr Xanım (ə) üçün bu xüsusiyyəti düşünmürdüsə, o zaman hakimin sahib olduğu məlumatlara əsasən hökm verməsinə də icazə verilir. Əgər Zəhra (ə) ilə Möminlərin əmiri Əlinin (ə) sözü hökm verməyə kifayət etmirdisə, o zaman kimin sözü buna yetəcəkdi?!

Xüsusilə də, Cabir ibn Abdullah Ənsarinin və Əbu Səid Xudrinin qarşıda nəql ediləcək[274] rəvayətlərindən görünür ki, Əbu Bəkrin nəzərində iddianın doğruluğu barədə məlumat ona uyğun hökm verməyə kifayət edir.

B. Fədəyin Fatiməyə (ə) hədiyyə olunduğuna dair İmam Əlinin (ə) təkid etməsi

Möminlərin əmiri Əli (ə) Fədəyin Fatiməyə (ə) hədiyyə olunduğunda təkid edirdi. Buxarinin nəql etdiyi rəvayətə görə, Ömər xəlifə olduqda Əbu Bəkrin öz gümanlarına əsasən verdiyi hökmünə uyğun olaraq Fədəyi Əhli-Beytə (ə) yalnız

---

[273] Futuhul-buldan, c. 1, s. 37-38

[274] Qarşıda "Əbu Bəkrin şahidsiz iddia ilə qane olması" başlığı altında bu barədə söhbət açılacaq.

idarəçilik şərti ilə geri qaytardı. Lakin İmam Əli (ə) ilə Abbas ibn Əbdülmüttəlib bu barədə narazılıq etdilər. "Səhih"də Malik ibn Ovsdan nəql edilən uzun bir rəvayətdə (onların gümanına əsasən) Peyğəmbər (s) irsi barədə Əli (ə) ilə Abbasın arasında baş verən mübahisəyə hökm vermək üçün Ömərin yanına gəldiklərində onlara dedi: "Öz rəhbərliyim dövründə iki il onu saxladım... Sonra siz yanıma gəldiniz. Sözləriniz də, məsələniz də eyni idi. Ey Abbas, sən gəlib qardaşının oğlundan (yəni Peyğəmbərdən) qalan payını, bu isə (yəni İmam Əli) xanımının atasından qalan payını istəyirdi... Sonra düşündüm ki, onu (Fədəyi) sizə verim, dedim... Siz də bizə qaytar dediniz. Buna görə də onu sizə qaytardım..."[275]

Bu rəvayət aydın şəkil Möminlərin əmirinin (hətta Xanım Fatimənin (ə) şəhadətindən, Əbu Bəkrin vəfatından sonra belə – tərc.) Peyğəmbər (s) həyatda ikən Fədəyi Fatiməyə (ə) verdiyinə təkid etdiyini göstərir.

Şübhə yoxdur ki, onun belə bir mövqeyinin xüsusi dəlaləti var. Möminlərin əmiri üçün ümmətin ən doğru hökm veräni və ən elmlisi kimi xüsusiyyətlər sübuta yetmişdir. Ömər bir çox zaman Möminlərin əmirinin (ə) hökm və qəzavətlərinin, rəyinin doğru olduğunu bildirmiş, bir çox dəfə onun hökm və qəzavət etməsi üçün müraciət etmişdi. Səbəb isə İmamın (ə) ümmətin ən elmlisi və Peyğəmbər (s) sünnəsini ən çox bilən olmasıydı. Ömərin bu sözü də məşhurdur: "Əbülhəsən olmayan yerdə Allah mənə heç bir çətinlik yaşatmasın".[276]

C. Peyğəmbərdən (s) özündən sonra qalanları yalnız silahı, qatırı və Mədinədəki sədəqə torpaqları ilə məhdudlaşdırmaq

[275] Səhih, Buxari, c. 4, s. 42-44

[276] Ənsabul-əşraf, Bəlazuri, c. 2, s. 351; əl-Mənaqib, Müvəffəq Xəvarəzmi, s. 97

Peyğəmbərin (s) Fədəyi Fatiməyə (ə) hədiyyə etdiyinə dəlalət edən dəlillərdən biri də onun (s) özündən sonra silahından və ağ qatırından savayı bir şey qoymadığını deyən rəvayətlərdir. İbn Şəbbə Nəmiri "Tarixul-Mədinə" kitabında Əmr ibn Harisdən rəvayət edir: *"Peyğəmbər (s) özündən sonra silahından və ağ qatırından başqa bir şey qoymadı".*[277]

Bu rəvayətlə Fədəyin ələlxüsus Peyğəmbərə (s) məxsus olduğuna dəlalət edən rəvayətləri cəmlədikdə Peyğəmbərin (s) özündən sonra qoyduğu mirasdan Fədəyin kənarda qaldığını görürük. Buxari "Səhih"də Peyğəmbərin (s) özündən sonra irs qoyduqlarına *"sədəqə qərar verdiyi torpaqlar"*ı[278] da əlavə edib. Bu torpaqlara Fədək daxil deyil. Çünki Buxari Peyğəmbərin (s) zövcəsi Aişəyə istinadən öz "Səhih"ində yazır: *"Fatimə Əbu Bəkrdən Peyğəmbərin (s) özündən sonra qoyduğu Xeybərdən qalanları, Fədəyi və Mədinədəki sədəqə torpaqları... istəyirdi".*[279]

Nəmiri bu rəvayəti qeyd etdikdən sonra Buxarinin əlavəsini Əbu Əhməd Şəhbadan nəql edir: "Əbu Əhməd Şəhba deyir: *"və sədəqə qərar verdiyi torpaqlar".*[280]

Nəticə: Fatimənin (ə) mülkiyyətinə dair əvvəlki və eləcə də burada nəql olunan rəvayətlər Fədəyin Fatiməyə (ə) hədiyyə olunduğuna dəlalət edir. Buradan da İhsan İlahi Zahirin sözünün puçluğu aydınlaşır: **"Peyğəmbər (s) vəfatından və Əbu Bəkrə Allahın Elçisinin xəlifəsi və möminlərin əmiri olaraq beyət edildikdən sonra Peyğəmbərin qızı Fatimə onun yanına adam göndərib atasından qalan – Allahın Peyğəmbərinə bəxş etdiyi Fədək mirasını istədi".**[281]

---

[277] Tarixul-Mədinə, İbn Şəbbə Nəmiri, c. 1, s. 200
[278] Səhih, Buxari, c. 3, s. 186
[279] Səhih, Buxari, c. 4, s. 42
[280] Tarixul-Mədinə, İbn Şəbbə Nəmiri, c. 1, s. 200
[281] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 83

Sözlərindəki zəiflik bundan ibarətdir ki, Fatimə (ə), qeyd edildiyi kimi, əvvəlcə Əbu Bəkrdən əlindən alınan hədiyyəni – Fədəyi tələb etdi. Hədiyyə iddiası rədd edildikdən sonra atasından qalan mirası istədi. Əbu Bəkr ona bir şey verməkdən imtina etdi. Qarşıda bu barədə söhbət açacağıq.

Fatimənin (ə) şahidlərini Əbu Bəkrin qəbul etməməsi

Əvvəldə də qeyd etdiyimiz kimi, Fədək, heç bir müsəlmanın onda payı olmadan bütünlüklə Peyğəmbərə (s) məxsus idi, həyatda ikən şəxsən özü ondan istifadə edirdi. ***"Yaxın qohuma haqqını ver"*** ayəsi nazil olduqda Peyğəmbərin (s) Fədəyi qızı Zəhraya (ə) verdiyinə dair dəlilləri bir az əvvəl təqdim etdik. Hədiyyə edildikdən sonra Peyğəmbər (s) həyatda ikən Fədək Fatimənin (s) mülkiyyətində idi. Peyğəmbər (s) dünyadan köçdükdə Əbu Bəkr Fədəyi onun əlindən aldı və vəkillərini oradan çıxardı.

Xanım (ə) buna qarşı Fədəyin ona məxsus olduğunu, Peyğəmbər (s) həyatda ikən onun mülkiyyətinə keçirdiyini söylədikdə Əbu Bəkr şahid gətirməsini tələb etdi. Fatimə (ə) şahidləri gətirdikdə Əbu Bəkr onların şahidliyini qəbul etmədi, kamil şəri şahidlər – iki kişi və ya bir kişi, iki qadın şahid gətirməsini tələb etdi.

Hafiz ibn Şəbbə Nəmiri "Tarixul-Mədinə" kitabında Nəmiri ibn Həssana istinadən nəql edir: "Əbu Bəkr ona dedi: *"...Əbu Bəkr buna şahidinin olub-olmadığını soruşduqda əlini və sonra da Ümmü Əyməni şahid olaraq gətirdi. Ümmü Əymən dedi: "Mənim Cənnət əhlindən olduğuma şahidlik etmirsənmi?" Əbu Bəkr onun Cənnət əhlindən olduğunu təsdiqlədi (Əbu Əhməd deyir: yəni bunu Əbu Bəkrə və Ömərə dedi). Ardınca (Ümmü Əymən) Fədəyi Peyğəmbərin (s) Fatiməyə verdiyinə şahidlik etdi. Əbu Bəkr isə dəlil olaraq bir kişi və bir qadının şəhadətini qəbul etməyəcəyini bildirdi".*[282]

[282] Tarixul-Mədinə, İbn Şəbbə Nəmiri, c. 1, s. 199-200. Kitabın təhqiqatçıları Əli Muhəmməd Dundəl və Yasin Səduddin deyirlər: "Hədisin sənədi həsəndir".

Bəlazuri "Futuhul-buldan" kitabında Malik ibn Cövənədən, o da atasından nəql edir: *"Fatimə Əbu Bəkrə dedi: "Peyğəmbər (s) Fədəyi mənə hədiyyə vermişdir". Onun bu sözünə Əli ibn Əbu Talib də şahidlik etdi. Ondan başqa bir şahid tələb edildikdə bu dəfə Ümmü Əyməni gətirdi. Əbu Bəkr dedi: "Ey peyğəmbər qızı, yalnız iki kişinin və ya bir kişi ilə iki qadının şahidliyinin məqbul olduğunu bilirsən". Fatimə üz çevirib getdi".*[283]

Həmçinin orada yazılır: *"Fatimə (r) Əbu Bəkr siddiqə (r) dedi: "Fədəyi mənə ver. Peyğəmbər (s) onu mənə verib". Əbu Bəkr ondan şahid gətirməsini istədi. Ümmü Əymənlə Peyğəmbərin azad etdiyi köləsi Rəbahı şahid gətirdi. Onlar buna şahidlik etdilər. Əbu Bəkr dedi: "Bu məsələdə yalnız bir kişi və iki qadının şahidliyi məqbuldur".*[284]

Həmirinin "Möcamul-buldan" kitabında deyilir: *"Peyğəmbər (s) vəfat etdikdən sonra Fatimə (r) Əbu Bəkrə dedi: "Peyğəmbər (s) Fədəyi mənə hədiyyə etmişdi, onu mənə ver". Onun bu sözünə Əli ibn Əbu Talib də şahidlik etdi. Ondan başqa bir şahid tələb edildikdə bu dəfə Peyğəmbərin azad etdiyi köləsi Ümmü Əymən şahidlik etdi. Əbu Bəkr dedi: "Ey peyğəmbər qızı, yalnız iki kişinin və ya bir kişi ilə iki qadının şahidliyinin məqbul olduğunu bilirsən". Fatimə üz çevirib getdi".*[285]

Razinin "Təfsir"ində qeyd olunur ki, Peyğəmbər vəfat etdikdən sonra *"Fədəyin onun hədiyyəsi olduğunu iddia etdi. Əbu Bəkr dedi: "Sən fəqir də, varlı da olsan mənim üçün insanların ən əzizi və sevimlisisən. Lakin sözünün doğru olduğunu bilmirəm. Yalnız sənin sözünü əsas götürüb hökm verə bilmərəm". Onun üçün Ümmü Əymən və Peyğəmbərin (s) azad etdiyi köləsi şahidlik etdilər. Lakin Əbu Bəkr ondan şəriətdə şahidliyi qəbul edilən şahidlər gətirməsini istədi. Belə şahidləri gətirə bilmədi".*[286]

---

[283] Futuhul-buldan, Bəlazuri, c. 1, s. 35
[284] Futuhul-buldan, Bəlazuri, c. 1, s. 35
[285] Möcamul-buldan, Həməvi, c. 4, s. 239
[286] Təfsir, Razi, c. 29, s. 284

Səmhudi deyir: “Mucidd Fadəyin Fədəyə dair məsələdə qeyd edir ki, Ömərin Əli və Abbasa verdiyi, barəsində mübahisələri düşdüyü məhz Fədək idi. Fədək barədə deyir: “Fatimə (r) Fədəyi Peyğəmbərin (s) ona hədiyyə etdiyini söyləyirdi. Lakin Əbu Bəkr (r) dedi: “Buna şihid gətirməni istəyirəm”. Əli şahidlik etdi. Başqa bir şahid gətirməsini istədi. Bu dəfə Ümmü Əymən şahidlik etdi. Əbu Bəkr dedi: “Ey peyğəmbər qızı, yalnız iki kişinin və ya bir kişi ilə iki qadının şahidliyinin məqbul olduğunu bilirsən”. Fatimə üz çevirib getdi”.[287]

Bunlar Əbu Bəkrin Fədəyin hədiyyə olmasına dair Fatimədən (ə) şahid tələb etdiyinə dəlalət edən açıq dəlillərdir. Əsas dəlillər Möminlərin əmiri (ə) ilə Ümmü Əymənin şahidlik etdiklərini qeyd edir. Lakin Əbu Bəkr bu şahidliyi qəbul etmir. Çünki onun iddiasına əsasən bunlar kamil şəri şahidlər deyillər, iki kişinin və ya bir kişi ilə iki qadının şahidlik etməsi lazımdır. Bəzi sünni rəvayətləri Əlinin şahidliyinin Fatimənin əri olduğuna və öz mənfəəti üçün çalışdığına görə, Ümmü Əyməni isə şahidliyin tamamlanmadığına görə rədd etdiyini yazırlar.

Əbu Bəkrin bu şahidliyi rədd etməyə dəlili yoxdur

Əbu Bəkrin Fatimənin (s) şahidlərini inkar etməsinə bir çox irad və etiraz söyləmək olar. Onlardan bir neçəsini müxtəsər şəkildə qeyd edək:

1 – Əvvəldə də qeyd edildiyi kimi Fədək Fatimənin (ə) ixtiyarında idi. Belə olduğu təqdirdə şahid gətirməyə ehtiyac qalmır. Çünki həmin anda mülk onun əlindədir. Onun müqabilində ikinci iddiaçı sahib də yoxdur. İddia yalnız Fədəyin müsəlmanların qəniməti olmasıdır. Bu halda mülk sahibindən şahid tələb etmək yersiz və yanlışdır.

Fatimənin (ə) Fədəyin ona atasından hədiyyə olaraq keçdiyini söyləməsi onu mülk sahibindən iddiaçıya çevirmir. Çünki onun iddiasını inkar edən bir kəs yoxdur. Əksinə, Fədəyin müsəlmanların qəniməti olduğu iddia edilir. Ona görə də

[287] Vəfaul-vəfa, Səmhudi, c. 3, s. 999

iddiaçının şahid gətirməsi tələb olunur. Belə ki, mülk həmin anda Fatimənin (ə) əlindədir və Fədəyin sahibi olduğunu iddia edən ikinci şəxs də yoxdur.

2 – Burada şahidlik andla tamamlanmalıdır. Çünki maliyyə məsələlərində bir şahidlə və içilən and kifayət edir. Bəs nə üçün Əbu Bəkr Möminlərin əmiri Əlinin (ə) və Ümmü Əymənin şahidliyinə rəğmən Fatimədən (ə) and içməsini tələb etmir? Halbuki qarşıda da qeyd edəcəyimiz kimi, Əbu Bəkr başqa maliyyə ixtilaflarında bir şahidlə içilən andı hökm üçün yetərli bilir.

Burada həmin sual Fatimənin (ə) özünə qaytarılaraq deyilə bilməz ki, "nə üçün o özü şahidliyinin tamamlanması üçün and içməsini təklif etmədi"?

Cavab olaraq deyilər: Fatimə (ə) onun və Möminlərin əmiri Əlinin (ə) sözünü rədd etdikdən sonra əmin idi ki, Əbu Bəkr onu bu haqdan məhrum etməyə qərarlıdır. Bu iki şəxs Quranın və sünnənin bəyanına əsasən pak, doğru sözlü və sözləri təsdiq olunan şəxslər idilər. Quran onların bütün pisliklərdən uzaq olduğunu bəyan edərək buyurur: ***"Ey Əhli-Beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"***[288] Bütün müsəlmanlar onların Əhli-Beytdən (ə) olduqlarında həmfikirdirlər.

Həmçinin bundan əlavə, and içməsini tələb etmək hakimin vəzifəsidir. Çünki iddiaçı məhz hakimdir, iddiasını da o özü isbatlamalıdır, qarşısındakı deyil.

Hakimin hökm verməsi üçün əsas amil iddiaçının sözünün doğruluğu barədə məlumata sahib olmaqdır. Möminlərin əmiri (ə) və Ümmü Əymənin şahidliyindən sonra belə bir elmin hasil olmadığını düşünmək çətindir. Belə ki, Uca Allah Əlinin Peyğəmbərin (s) nəfsi (özündən) olduğuna, Peyğəmbərin (s) onun barəsində "Əli haqq ilə, haqq da Əli ilədir", "Allah və Rəsulu onu, o da Allahı və Rəsulunu sevir" dediyi, Ümmü Əymənin Cənnət əhli olduğuna Əbu Bəkrin özünün şahidlik etdiyi məlumdur!

---

[288] Əhzab, 33

4 – Demək olar ki, "Fədək" məsələsi özlüyündə heç də bəzilərinin düşündüyü və ya təəssürat yaratmağa çalışdığı kimi, fiqhi bir ixtilaf deyil. Bu ixtilafda bir çox qəzavət şərtləri çatışmır. Ona görə bu, qəzavət, hakim və ya inkar məsələsi deyil. Həqiqətdə bu, xəlifənin Fədəyi müsadirəsi, Fatimənin isə bu qərara etiraz etməsidir!

5 – Əbu Bəkr öz elminə görə hökm verib və bir çox yerdə yalnız şahid tələb etmədən mücərrəd iddiaya əsasən hökm çıxarıb. Qarşıdakı bəhsdə bu barədə söhbət açacağıq.

Əbu Bəkrin şahid tələb etmədən mücərrəd iddianı yetərli bilməsi

Fədəklə bağlı düşündürən və insanda suallar yaradan məsələlərdən biri də Əbu Bəkrin bir çox yerdə şahid tələb etmədən iddiaçının mücərrəd iddiasına qane olaraq hökm verməsidir. Buxari "Səhih"də Cabir ibn Abdullah Ənsaridən nəql edir: *"Peyğəmbərin (s) vəfatından sonra Əbu Bəkrə Əla ibn Həzrəmi tərəfindən pul gətirildi. Əbu Bəkr dedi: "Peyğəmbərin (s) kimə borcu və ya vədi vardısa, yanımıza gəlsin". Cabir gəlib belə söylədiyini deyir: "Peyğəmbər (s) mənə filan, filan və filan şeyləri verəcəyini vəd etmişdi". Əbu Bəkr əlini üç dəfə uzatdı.*

Cabir deyir: "Hər dəfəsində əlimə beş yüz (dinar) qoydu".[289]

İbn Sədin "ət-Təbəqat"da Əbu Səid Xudriyə istinadən nəql etdiyi rəvayətdə deyilir: *"Bəhreyndən mal (pul) gəldikdə Əbu Bəkrin carçısının Mədinədə belə səsləndiyini eşitdim: "Peyğəmbərin (s) kimə vədi vardısa, gəlib istəsin". Camaat gəldikdə onlara bu maldan verdi. Əbu Bəşir Mazani (Ənsari) gəlib Peyğəmbərin (s) ona belə söylədiyini dedi: "Ey Əbu Bəşir, mənə bir şey gətirsələr, yanıma gəl". Əbu Bəkr ona iki və ya üç ovuc (pul) verdi. (Əbu Bəşir) Onun sayının min dörd yüz dinar olduğunu gördü".*[290]

---

[289] Səhih, Buxari, c. 3, s. 163

[290] ət-Təbəqatul-kubra, Muhəmməd ibn Səd, c. 2, s. 318-319

Əbu Bəkrin səhabələrin Peyğəmbərin (s) borc və vəd iddialarını şahidsiz qəbul etməsinin, Zəhranın (ə) hədiyyə ilə bağlı sözlərinə isə şahid tələb etməsinin səbəbləri aydın deyil. Necə səhabənin Peyğəmbərin (s) ona müəyyən məbləğ pul vəd etdiyi iddiası oluna, lakin canının bir parçası qızının iddiası şahid gətirmək tələbilə rədd edilə bilər?!

Eləcə də, borc və ya vəd iddiası ilə hədiyyə iddiasının arasındakı fərq də aydın deyil!

Əgər hakim hər hansı bir şəxsə öz rəyinə əsasən bir şey verə bilirsə, nə üçün "Fədək" məsələsində vəziyyət dəyişir?!

İbn Əbülhədid Seyyid Mürtəzanın "Daha yaxşı olardı ki, onları dində sahib olduqları üstünlükdən əlavə, sahib olduqları məziyyətlərə görə ehtiram göstərərdi" sözünün ardınca gözəl ifadələrlə yazır: "Bu sözə cavab yoxdur. Əgər müsəlmanlara Fədək lazım idisə, o zaman Peyğəmbərin (s) hörməti, haqqının yüksək tutulması və əhdinin qorunmasına riayət edərək qızını razı salacaq bir şeylə Fədəyi əvəzləyə bilər, qəlbini xoşhal edərdilər. Hakim məsləhət bildiyi təqdirdə müsəlmanlarla məşvərət etmədən də buna hökm verə bilərdi".[291]

[291] Nəhcül-Bəlağənin şərhi, İbn Əbülhədid, c. 16, s. 286

İkinci bəhs: Fatimənin (ə) atasının mirasını tələb etməsi

Xilafət rəhbərliyi Zəhranın (ə) mülkiyyətini mənimsədikdən sonra o, təbii olaraq haqqının müdafiəsinə qalxdı. Lakin Əbu Bəkrin sərt və inadkar mövqeyi onu (ə) bu haqdan əliboş qaytardı, Əlinin (ə), Həsənin (ə), Hüseynin (ə) və Ümmü Əymənin[292] şahidliyinə baxmayaraq, Fədəyin hədiyyə olduğu iddiası rədd edilərək haqqına zülm olundu. Lakin Xanım (ə) rəhbərliyin onu haqqından məhrum etməkdə israrlı olduğunu görüncə, tələbini dəyişərək atası Peyğəmbərdən (s) qalan mirası istədi. Onun atasından qalan mirası tələb etdiyi barədə bütün müsəlmanlar həmfikirdirlər. Müsəlman tarixçilər, seyr və hədis əhli buna öz kitablarında yer vermişlər. Buxari və Müslim öz "Səhih"lərində İbn Şəhabdan, o da Ürvə ibn Zübeyrdən rəvayət edirlər: *"Möminlərin anası Aişə (r) bildirdi ki, Peyğəmbərin (s) qızı Fatimə (ə) atasının vəfatından sonra Əbu Bəkr siddiqdən Peyğəmbərə (s) məxsus* fey*lərdən öz miras payının ayrılmasını istədi".*[293]

İddiasının hədiyyədən mirasa dəyişməsi, heç də onun hədiyyə olduğu iddiasından əl çəkdiyinə dəlalət etməz. O, bununla Əbu Bəkrə demək istəyirdi ki, əgər Fədəyin atamın mənə hədiyyəsi olduğunu qəbul etmir və şahidlərimin təsdiqini etibarlı saymırsansa, buna baxmayaraq, Fədək hələ də atam Peyğəmbərin (s) özündən sonra qoyduğu mirasa daxildir. Çünki o üzərinə at və ya dəvə ilə hücum çəkilmədən əldə edilən feydir. Fey isə sırf Peyğəmbərə (s) məxsusdur. Beləliklə də Fədəyi miras ünvanı ilə tələb etməyə başlayır. Burada iddia fərqi yoxdur. Çünki Xanım (ə) qarşı tərəfin qəbul etdiyi qaydalara uyğun tələb irəli sürür. Buna məhkəmə, iddia və qəzavət məsələlərində icazə verilir.

İslam şəriətində mirasla bağlı hökmlərin aydınlığı, bəlkə də, bu iddia dəyişikliyindəki sirri aydın anlamaq üçün bizə yardım edir. Qurani-Kərim namaz və digər İslam vaciblərinin əksinə olaraq, miras məsələsinə xüsusi diqqət ayırmış,

---

[292] Həsən (ə) və Hüseynin (ə) şahidliyindən əlavə, şiə mənbələrində İmamlardan (ə) nəql edilənə əsasən Əsma bint Ümeys də Xanım Zəhra (ə) üçün şahidlik etmişdi.

[293] Səhih, Buxari, c. 4, s. 42; Səhih, Müslim, c. 3, s. 136

bir çox ayələrində irsin ən incə məqamlarına belə aydınlıq gətirmişdir. Məsələn, namaz mövzusunda yalnız ümumi hökmlər qeyd edildiyi halda, irslə bağlı məsələlərin incəliklərinə belə toxunmuşdur. Bu səbəbdən də, miras məsələlərində müsəlmanların arasında ixtilafın olmadığını görürük.

Həmçinin burada Xanımın (ə) öz yaxını və elm şəhərinin qapısı olan İmam Əlinin (ə) rəyindən istifadə etməməsi də miras məsələsində qaranlıq və ya xüsusi hökmlərin olmadığını göstərir. Təbii ki, əgər belə bir xüsusi hökm olsaydı, İmam (ə) mütləq ona xəbər verirdi. Ona görə də iddiasının indiyədək eşitmədikləri bir "hədislə" rədd edilməsi onlar üçün gözlənilməz oldu. Bununla da xəlifənin qarşısına dəlil qoymaq cəhdləri fayda vermədi. Qəzəbli, narazı, hədiyyə iddiası rədd edilmiş və atasının mirasından məhrum olunaraq məzlum halda geri qayıdıb evinə qapandı.

Lakin burada mövzu ilə bağlı bəzi suallar yaranır: Nə üçün yeganə varis olmadığı halda Xanım Fatimə (ə) öz miras haqqını təkbaşına müdafiə edirdi? Necə ola bilər ki, şiənin də rəyinə əsasən, qadın daşınmaz mülkiyyətdən miras aparmadığı halda o, Fədəyi tələb edirdi?

Bu iki sualın cavabı aşağıdakı kimidir:

Xanım Zəhranın (ə) yeganə varis olmadığı iddiası

Cavabın aydın olmasına baxmayaraq, İhsan İlahi Zahirin dəfələrlə təkrarladığı budur ki, Fədəyin Peyğəmbər (s) mirası olduğunu qəbul etsək belə, yeganə varis olmadığı halda ona miras payı kimi necə iddia edə bilər? Halbuki Əbu Bəkr təkcə onu deyil, qızı Aişəni, Ömərin qızı Həfsəni və Peyğəmbərin əmisi Abbası da bu mirasdan məhrum etmişdir. İlahi Zahir deyir: **"Əgər Fədək Peyğəmbərin (s) mirasıdırsa, Fatimə (s) onun heç də yeganə varisi deyil. Siddiq və Faruqun qızları da onun varisləridir. Siddiq Fatimə kimi onları da bu paydan**

məhrum etdi. Həmçinin Peyğəmbərin (s) əmisi Abbas da yaşayırdı, şübhəsiz ki, o da varislərdən idi".[294]

Cavab:

Şiə hökmlərinə əsasən Fatimə (ə) Fədəyin yeganə varisidir. Çünki irs aparan şəxslərin birinci dəstəsinə aid idi. Halbuki Peyğəmbərin (s) əmisi Abbas üçüncü dəstəyə daxildir. Birinci varis dəstəsinə aid şəxs olduğu halda digər dəstələrdən heç kəs mirasdan pay ala bilməzlər. Şiələrin nəzərində üstün bir dəstənin varlığı aşağıdakı dəstələri mirasdan məhrum etmiş olur. Yəni birinci dəstəyə mənsub olan meyitin ata-anası və ya övlad varsa, onlar digər qohumları mirasdan kənarlaşdırmış olur.[295] Əllamə Hilli deyir: "Üçüncü fəsil, "Dəstələrin arasındakı maneə": Bu, ya irsin əsli ilə bağlıdır ki, burada yaxın qohumun varlığı uzaq qohumun irs aparmasına maneədir. Belə ki, övlad olduğu halda övladın övladı irs aparmaz... Buna əsasən yaxın uzağı məhrum edir. Həmçinin övladın varlığı ata-anaya yaxın olan baba və nənənin, əmi və dayıların, eləcə də onların övladının irs aparmasına bir maneədir. Ata-ana və zövcələr istisnadır... Ata-anaya yaxınlıq təkcə ataya yaxın şəxsin eyni dərəcədə olmasına baxmayaraq, miras aparmasına maneədir..."[296]

Abbas isə yalnız Əhli-Sünnədəki qanuna[297] əsasən qohumluğa görə miras aparır. Bu, vərəsələrin payından artıq hissənin qohuma verilməsidir. Onlar digər mərtəbədə atanın qohumlarıdırlar. Necə ki, əgər varis tək və ya iki qız övladı olsa, artıq qalan hissə meyitin qardaşlarına, əmilərinə və ya əmisi uşaqlarına verilir.[298]

---

[294] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 87

[295] İrs aparan dəstələrlə bağlı bax: əl-Muqniə, Şeyx Mufid, s. 703, "Dəstələrin arasındakı maneə" fəsli; əl-Məbsut, Şeyx Tusi, c. 4, s. 81; İrşadul-əzhan, Əllamə Hilli, c. 2, s. 131

[296] Qəvaidul-əhkam, Əllamə Hilli, c. 3, s. 355-356

[297] Bax: əl-Məcmu, Nəvəvi, c. 16, s. 100; Fəthul-muin, Milibari Hindi, c. 4, s. 143; əş-Şərhul-kəbir, Əbülbərəkət, c. 4, s. 285; əl-Məbsut, Sərxəsi, c. 30, s. 19; Bədaius-sənai, Əbu Bəkr Kaşani, c. 2, s. 241

[298] Bax: Bədaius-sənai, Əbu Bəkr Kaşani, c. 7, s. 335; əl-Məbsut, Sərxəsi, c. 29, s. 160-161

Bizim nəzərimizdə belə bir irs bölgüsü ümumi rəyə əsasən batildir. Hətta onun batilliyi məzhəbimizin zərurətindəndir. "Cəvahirul-kəlam" kitabının müəllifi deyir: "Alimlərimizin icmasına və Məsumlardan (ə) nəql olunan xəbərlərə əsasən, hətta məzhəbimizin zərurətidir ki, qohumluq bağına görə miras aparılmaz".[299]

Peyğəmbərin (s) zövcələri Fədəkdən heç bir pay ala bilməzdilər. Çünki məlumdur ki, Fədək daşınmaz mülkiyyətdir. Əgər qadının həyat yoldaşından övladı olmasa, şiənin ortaq nəzərinə əsasən ərdən heç bir mülkiyyət mirası aparmaz. "Cəvahirul-kəlam" kitabının müəllifi deyir: "Qadının həyat yoldaşının bəzi irsindən miras aparmadığı barədə bizdə ixtilaf yoxdur. İmamiyyə şiələrinin nəzərinə əsasən qadın kişinin torpaq mülkiyyətindən məhrumdur. Hətta Şeyx Taifənin "əl-Xilaf" və Əllamə Hillinin "əs-Sərair" kitablarındakı sözlərinə əsasən, daşınmaz mülkiyyətdən məhrumluğu barədə icma mövcuddur".[300]

Qız övladı isə şiənin nəzərinə görə hər bir şeydən, hətta daşınmaz əmlakdan da irs aparır. Hürr Amili deyir: "Əgər qadının ərindən övladı olmasa, daşınmaz əmlakdan, evdən, silahdan və minikdən heç bir irs aparmaz. Lakin qız övladları bunların hamısından miras payı alırlar..."[301]

Bəli, Əhli-Sünnə rəvayətlərinə əsasən, Peyğəmbərin (s) mirasını yalnız Fatimə (ə) tələb etməmiş, onunla birgə Abbas kimi digər vərəsələr də bu tələbdə iştirak etmişlər. Bunu əvvəldə Müəmmərdən, onunda Zühridən, onun Ürvədən, onun da Aişədən nəql etdiyi Buxarinin rəvayətində görürük: *"Fatimə (ə) və Abbas Əbu Bəkrin yanına gəlib Fədək torpağından və Xeybərdən qalan miraslarını istədilər..."*[302]

Buxarinin nəql etdiyi bu rəvayət Fatimənin təkbaşına miras iddiası irəli sürmədiyini, Peyğəmbərin (s) əmisi Abbasın da həmçinin qardaşı oğlundan qalan mirası tələb etdiyini bildirir.

---

[299] Cəvahirul-kəlam, Şeyx Nəcəfi, c. 39, s. 99
[300] Cəvahirul-kəlam, Şeyx Nəcəfi, c. 39, s. 207
[301] Vəsailuş-şiə, Hürr Amili, c. 26, s. 205
[302] Səhih, Buxari, c. 5, s. 25

Aydındır ki, bu rəvayət Abbasın da İmam Əli (ə) və Fatimə (ə) kimi Əbu Bəkrin iddia etdiyi "Biz peyğəmbərlər özümüzdən sonra miras qoymarıq..." "hədis"ini eşitmədiyinə dəlalət edir.

Bəzi sünni rəvayətlərində qeyd edildiyi kimi, Abbas Peyğəmbərdən (s) qalan mirasını hətta Ömərin xilafəti dövründə də bir neçə dəfə tələb etmişdir. Müslimin "Səhih"də nəql etdiyi rəvayətə görə Ömər Möminlərin əmiri Əliyə (ə) və Abbasa dedi: *"Siz ikiniz də eyni sözlə yanıma gəlib: "onu bizə ver" dediniz. Mən isə: əgər istəsəniz onu sizin yalnız idarəçiliyinizə verə bilərəm ki, onunla Peyğəmbər (s) rəftar etdiyi kimi davranasınız". Siz də razılaşıb qəbul etdiniz. Belə deyilmi?" Dedilər: "Bəli, elədir". Ömər sözünə davam etdi: "Sonra da gəlib aranızda hökm etməyimi istədiniz. Xeyr, Allaha and olsun ki, Qiyamətədək aranızda bundan artığına hökm verməyəcəyəm. Əgər bacarmırsınızsa, onu mənə qaytarın".*[303]

Hədisdən aydın olur ki, Əli (ə) və Abbas Ömərin yanına ikinci dəfə gəlirlər. Bu dəfə Peyğəmbərin (s) mirasını idarəçilik üçün deyil, miras ünvanı ilə tələb edirlər. Buna rəvayətdəki *"Sonra da gəlib aranızda hökm etməyimi istədiniz. Xeyr, Allaha and olsun ki, Qiyamətədək aranızda bundan artığına hökm verməyəcəyəm. Əgər bacarmırsınızsa, onu mənə qaytarın"* sözləri də dəlalət edir.

Həmçinin bəzi sünni rəvayətlərində Peyğəmbər (s) zövcələrinin də gəlib miraslarını tələb etdikləri qeyd edilir. İbn Şəbbə "Tarixul-Mədinə" kitabında Aişəyə istinadən yazır: "Peyğəmbərin (s) həyat yoldaşları Osmanı Əbu Bəkrin (r) yanına göndərdilər..."[304]

Həməvi "Möcamul-buldan" əsərində Ürvə ibn Zübeyrə istinadən rəvayət edir: *"Peyğəmbərin (s) həyat yoldaşları Osman ibn Əffanı Əbu Bəkrin yanına göndərib Peyğəmbərdən (s) qalan miras paylarını istədilər. Əbu Bəkr dedi: "Mən*

---

[303] Səhih, Müslim, c. 5, s. 152-153

[304] Tarixul-Mədinə, İbn Şəbbə Nəmiri, c. 1, s. 207

Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: "Biz peyğəmbərlər özümüzdən sonra miras qoymarıq..."[305]

Təbərani də "əl-Möcamul-övsat" kitabında Aişəyə istinadən rəvayət edir: *"Peyğəmbərin (s) həyat yoldaşları Osman ibn Əffanı Əbu Bəkrin yanına göndərib Peyğəmbərdən (s) qalan miras paylarını istədilər..."*[306]

İlahi İhsan Zahirin iddiasına görə,[307] Əbu Bəkr və Ömər öz qızları Aişə və Həfsəni mirasdan məhrum etsələr də, onu "nəfəqə" (xərclik) adı altında başqa bir şeylə əvəzlədilər. Bu nəfəqənin miqdarı onlara çatacaq mirası dəfələrlə üstələyirdi. Verilən miqdarın çoxluğunu Aişənin çox xərcləməklə məşhurlaşması da təsdiq edir. Halbuki onun ixtiyarında heç bir gəlir mənbəyi yox idi. Hətta bacısının oğlu Abdullah ibn Zübeyr ona bunu qadağan edəcəyi ilə təhdid etdi. Nəvəvi deyir: *"Rəvayət olunur ki, Peyğəmbərin (s) zövcəsi Aişə çox pul xərcləyirdi. İbn Zübeyr ondan buna son qoymasını istədi, əks təqdirdə onun qarşısını alacağını söylədi".*[308]

Buxari "Səhih"də Aişədən belə dediyini rəvayət edir: *"Abdullah ibn Zübeyr Aişənin alış-verişi və hədiyyələri barədə dedi: "Allaha and olsun Aişə buna son qoymasa, onun qarşısını alacağam".*[309]

Şiənin nəzərinə əsasən qadının daşınmaz əmlakdan irs aparmadığı iddiası

İhsan Zahirin şiənin nəzəri ilə Fatimənin (ə) Fədək tələbinin arasında ziddiyyət olduğu iddiasının bir az əvvəl qeyd etdiklərimizə əsasən batil olduğu aydındır. Onun iddiasına əsasən, şiələrin nəzərində qadınlar daşınmaz əmlakdan

---

305 Möcamul-buldan, Həməvi, c. 4, s. 239

306 əl-Möcamul-övsat, Təbərani, c. 4, s. 104

307 İlahi Zahir deyirdi: "Siddiq və Faruqun qızları da onun varisləridir. Siddiq Fatimə kimi onları da bu paydan məhrum etdi". Şiə və Əhli-Beyt, s. 87

308 əl-Məcmu, Nəvəvi, c. 13, s. 378

309 Səhih, Buxari, c. 7, s. 90

irs aparmırlar. İlahi Zahir deyir: **"Buna etiraz edən şiələr bilmirlər ki, onların məzhəbində qadınlar daşınmaz əmlak və torpaq mülkiyyətindən heç bir irs aparmırlar... Onların bütün alimləri belə mülkiyyət növlərindən qadınların miras payı almadıqlarını qeyd etmişlər. Əgər qadın bunlardan irs aparmırsa, bəs Fatimə necə Fədəyi tələb edə bilərdi? Halbuki onların da rəyinə görə Fədək şübhəsiz ki, daşınmaz əmlakdır...?!"**[310]

Cavab:

Şiənin nəzərində övlad olan qadınla zövcə olan qadına mirasla bağlı fərqli hökmlər şamil olur. Bir az əvvəl qız övladının daşınmaz əmlakdan irs apardığını qeyd etmişdik. Hətta bunun məzhəbimizin zəruriyyətindən olduğunu da vurğuladıq.[311] Bu isə şiələrin nəzərində, övladı olmayan qadının ərindən daşınmaz əmlak mirası aparmaması ilə ziddiyyət təşkil etmir.[312]

Bu məsələ ya İhsan Zahir üçün qaranlıq qalmışdır, yaxud da o, araşdırma ruhundan uzaq düşmüşdür. Növbəti dəfə saxtakarlığa əl ataraq şiə mənbələrindən məlumatı olmayan oxucunu aldatmağa çalışmışdır.

İhsan Zahirin Şeyx Kuleyninin "əl-Kafi" və Şeyx Səduqun "Mən la yəhzuruhul-fəqih" kitablarından qadınların daşınmaz əmlakdan miras aparmadıqlarına dəlil olaraq göstərdiyi rəvayətlərə gəldikdə isə, bu bir daha onun savadsızlığını göstərir. Kitabında yazır: **"Kuleyniyə nəzər sal, o qadınların irs aparmadığı barədə xüsusi müstəqil bir fəsil açır. Səduq ibn Babəveyh Qummi isə özünün səhih "Mən la yəhzuruhul-fəqih" kitabında Əbu Abdullah Cəfərdən rəvayət edir: "... Ondan (İmam Sadiqdən) qadınların mirasdan paylarına düşən şeylər barədə soruşdum. Buyurdu: "Torpaq və daşınmaz əmlaklardan onların heç bir mirası yoxdur".**[313]

---

[310] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 87-88

[311] Bax: Vəsailuş-şiə, Hürr Amili, c. 26, s. 205

[312] Bax: Cəvahirul-kəlam, Şeyx Cəvahiri, c. 39, s. 207

[313] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 87-88

Şiə alimləri, eləcə də Şeyx Kuleyni və Şeyx Səduq da bu və buna bənzər digər rəvayətdəki "qadınlar" sözündən məqsədin həyat yoldaşdan – zövcədən başqasının olmadığını qeyd etmişlər. Şeyx Kuleynin "əl-Kafi" kitabında "Qadınlar daşınmaz əmlakdan miras aparmazlar" fəslində qeyd etdiyi hədislərin özü də burada məqsədin yalnız zövcə olduğunu açıq bəyan edir. Oradakı bəzi rəvayətlər isə zövcənin bu əmlakdan irs aparmamasının səbəblərinə aydınlıq gətirir.[314]

Şeyx Səduqun mövzu ilə bağlı nəql etdiyi bəzi rəvayətlərdə də buna izah verilir. Əhvaldan İmam Əbu Abdullahdan belə buyurduğunu eşitdiyi nəql edilir: *"Qadınlar daşınmaz əmlakdan heç bir şey irs aparmazlar. Onlar yalnız evin, bağın dəyərindən pay alarlar. Qadınlar dedikdə məqsəd zövcədir".*[315]

Rəvayətdəki *"Qadınlar dedikdə məqsəd zövcədir"* sözü "qadınlar" sözünün aydın izahıdır. Bu izahın həm ravi Əhvalın, həm də müəllif Şeyx Səduqun sözü olma ehtimalı da var. Lakin bu, mənaya heç bir zərər yetirmir. Çünki hər ikisinin sözü mövzumuzu təsdiq edir.

Nəticə: Şeyx Kuleyni və Şeyx Səduqun mövzuya dair nəql etdikləri rəvayətlərdə "qadınlar" kəlməsində məqsədin zövcələr olduğuna aydın ləfzi izahlar mövcuddur. Belə ki, bu barədə aşkar dəlalətlə səhih şiə rəvayətləri də var. Həmçinin şiə alimləri zövcələrin kişinin daşınmaz əmlakından irs aparmadığı barədə həmfikirdirlər. Halbuki qız övladı hər bir şeydən miras aparır. Bu məlumatlardan sonra məsələdə hər hansı ziddiyyətin olduğuna kim şəkk edə bilər?!

Lakin qəti əminik ki, məsələ bununla yekunlaşmayacaq. Hələdə İhsan Zahirdən sonra iddiasının batilliyinin aydın olmasına baxmayaraq, onun sözlərini təkrarlayanlar tapılacaq. Necə ki, İhsan Zahir də bu və digər məsələləri araşdırma aparmadan və dəqiqləşdirmədən öz səlaflərindən nəql edirdi.

---

[314] Bax: əl-Kafi, Şeyx Kuleyni, c. 7, s. 128-130, "Qadınlar daşınmaz əmlakdan və torpaqdan miras aparmazlar" fəsli

[315] Mən la yəhzuruhul fəqih, Şeyx Səduq, c. 4, s. 348

İhsan Zahirin sözlərində ən çox diqqət çəkən qəribə nüans budur ki, deyir: **"Səduq ibn Babəveyh Qummi isə özünün səhih "Mən la yəhzuruhul-fəqih" kitabında..."** Aydın məsələdir ki, kitab üçün "səhih" terminini istifadə etmək Əhli-Sünnəyə məxsus üslubdur. Bəzi kitab və mənbələrini "səhih" ünvanı ilə təqdim etmişlər. "Səhih Müslim", "Səhih Buxari" kimi. Lakin "Səhih" ünvanı ilə tanınan heç bir şiə kitabı mövcud deyil. İhsan Zahirin bu sözləri açıq-aydın iftira və böhtandır!

Zəhranın (ə) mirası barədə söylədiyi dəlillər

Əbu Bəkr Peyğəmbərin (s) canının bir parçasının Xanımın (ə) və elmdə geniş olanların əsla eşitmədikləri bir hədislə miras haqqından məhrum etməsindən sonra Xanım Fatimə (ə) bu iddianın saxta olduğuna dəlillər göstərməyə başladı. Bunun üçün Qurani-Kərimdən iki növ ayələr təqdim etdi:

Birinci növ: Peyğəmbərlərin (s) özlərindən sonra miras buraxdıqlarına dəlalət edən ayələr. Məsələn, Zəkəriyyənin (ə) söylədiyi sözlər barədə Uca Allah buyurur: ***"Buna görə də mənə Öz dərgahından bir oğul bəxş et ki, o, həm mənə, həm də Yaqub nəslinə varis olsun. Ey Rəbbim! Həm də elə et ki, o riza (Sənin rizanı) qazanmış olsun!"***[316] Həmçinin: ***"Süleyman Davuda (peyğəmbərlikdə, elmdə və mülkdə) varis oldu".***[317]

İkinci növ: Mirasın hökmlərinə dəlalət edən ümumi ayələr. Həmin ayələrdə nəbi və rəsullar barədə bu hökmlərin istisna olduğu qeyd edilmir. Əksinə, bu ayələr ümumi şəkildə Xanımın (ə) atası Peyğəmbərdən (s) miras aparmaq haqqının olduğuna dəlalət edir. Necə ki ayədə buyurulur: "***Allah övladlarınız haqqında sizə tövsiyə buyurur ki, oğula iki qız hissəsi qədər pay düşür".***[318]

---

[316] Məryəm, 5-6
[317] Nəml, 16
[318] Nisa, 11

Xanımın (ə) bunları öz xütbəsində dilə gətirdiyini öndə gedən sünni alimləri də qeyd etmişlər. *"Fədəkdən məhrum edildiyi xəbəri ona yetişdikdə çarşabını örtüb, tərəfdarları və Bəni-Haşim qadınlarından ibarət bir dəstə ilə Əbu Bəkrin yanına getdi. Elə hicablanmışdı ki, çadrasının ətəyi ayağının altına düşürdü. Peyğəmbər (s) kimi yol gedir və ondan zərrə qədər də fərqlənmirdi. Məscidə girdikdə mühacir və ənsardan çox sayda adamın Əbu Bəkrin ətrafında olduğunu gördü. Onlarla Xanım (ə) arasına bir örtük çəkildikdən sonra uzun bir xütbə söylədi və xütbəsində bir çox mühüm həqiqətlərin üstünü açdı. Xütbəsində belə söylədiyi nəql edilir: "Siz Allahın kitabını bilərəkdənmi tərk edib onu arxanıza atdınız?! Orada Uca Allah buyurur:* ***"Süleyman Davuda (peyğəmbərlikdə, elmdə və mülkdə) varis oldu".***[319] *Həmçinin Yəhya ibn Zəkəriyyənin (ə) hekayəsindən söz açaraq buyurur:* ***"Buna görə də mənə Öz dərgahından bir oğul bəxş et ki, o, həm mənə, həm də Yaqub nəslinə varis olsun. Ey Rəbbim! Həm də elə et ki, o riza (Sənin rizanı) qazanmış olsun!"***[320]

Eləcə də buyurur: ***"Qohumlar (bir-birinə vərəsə olmaq baxımından) Allahın Kitabında möminlərdən və mühacirlərdən daha yaxındırlar";***[321] ***"Allah övladlarınız haqqında sizə tövsiyə buyurur ki, oğula iki qız hissəsi qədər pay düşür";***[322] ***"Sizin hər birinizi ölüm haqlayan zaman qoyub gedəcəyiniz maldan valideynlərinizə, yaxın qohumlarınıza verilməsi üçün ədalət üzrə vəsiyyət etməyiniz zəruridir. Müttəqilərə (bu) vacibdir".***[323]

Siz güman edirsiniz ki, mənim atamın mirasında heç bir haqqım, eləcə də onunla aramızda heç qohumluq bağım yoxdur?! Yoxsa Allah bu ayələrini sizə şamil edərək Peyğəmbərini (s) bu hökmlərdən kənarda tutmuşdur?! Yoxsa "Din əhli bir-birinə miras buraxmır" deyirsiniz və ya mənim və atamın eyni dindən olmadığınımı

---

[319] Nəml, 16
[320] Məryəm, 5-6
[321] Əhzab, 6
[322] Nisa, 11
[323] Bəqərə, 180

söyləyirsiniz?! Bəlkə Quranın xüsusi və ümumi ayələrini Peyğəmbərdən (s) yaxşı bilirsiniz?! Bəlkə yenidən cahiliyyə hökmlərinin qayıtmasını istəyirsiniz? ***"Tam qənaət sahibi olan bir camaat üçün Allahdan daha yaxşı hökm verə bilən kimdir?!"***[324]*Yoxsa mənim miras payıma zülm və zorla sahib çıxmaq istəyirsiniz?* ***"Zülm edənlər isə (öləndən sonra) hansı dönüşə dönəcəklərini (hara qayıdacaqlarını, aqibətlərinin necə olacağını, hansı inqilabla sarsılacaqlarını) mütləq biləcəklər!"***[325].[326]

Bu xütbəyə[327] diqqət yetirən şəxs bəzi sözlərinin nəql edilmədiyinə və bəzisinin də silindiyinə rəğmən, Xanımın (ə) ən aydın əsas hökmlərə toxunduğunu, bir çox həqiqətlərin üzərindən örtüyü qaldırdığını görəcək. Lakin bütün bunlara baxmayaraq, bir dəstə hədis və tarix alimi, eləcə də ədəbiyyat və lüğət ərbabı bu xütbəni nəql etmişlər. İbn Əbu Teyfur (vəfatı: h.q 280-ci il) özünün "Bəlağatun-nisa"[328] kitabında, Əbu Səid Mənsur ibn Həsən Abi (vəfatı: h.q 421) "Nəsrud-dur",[329] Xəvarəzmi (vəfatı: h.q 568) "Məqtəlul-Hüseyn",[330] İbn Əsir (vəfatı: h.q 606) "Mənalut-talibi fi şərhi tıvalil-ğəraib",[331] Sibt ibn Cövzi (vəfatı: h.q 654) "Təzkiratul-xəvass",[332] İbn Əbülhədid (vəfatı: h.q 656) isə Əbu Bəkr Əhməd ibn Əbdüləziz Cövhərinin (vəfatı: h.q 323) "əs-Səqifətu və Fədək"[333] kitabından nəql edərək özünün "Şərhu Nəhcül-Bəlağə" kitabında qeyd etmişlər. Eləcə də Əbülbərəkət Muhəmməd Bauni Şafii (vəfatı: h.q 871) "Cəvahirul-

---

[324] Maidə, 50

[325] Şüəra, 227

[326] Bəlağatun-nisa, İbn Teyfur, s. 17

[327] Xütbə geniş şəkildə "Möminlərin əmiri Əlinin (ə) xilafəti dövründə Fədək" başlığı altında olan bölmədə təqdim edildi.

[328] Bəlağatun-nisa, İbn Teyfur, s. 17

[329] Nəsrud-dur, Əbu Səid Mənsur ibn Həsən Abi, c. 1, s. 262-264

[330] Məqtəlul-Hüseyn, Müvəffəq Xəvarəzmi, c. 1, s. 77

[331] Mənalut-talibi fi şərhi tıvalil-ğaraib, İbn Əsir, s. 501-534

[332] Təzkiratul-xəvass, Sibt ibn Cövzi, c. 2, s. 352-353. Xanımın (ə) Peyğəmbərə (s) şikayətini də qeyd etmişdir.

[333] Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid, c. 16, s. 211

mətalibi fi mənaqibil-imami Əli ibn Əbu Talib (ə)”[334] əsərində xütbəyə yer vermişdir.

Həmçinin bir dəstə lüğət və ədəbiyyat ərbabı da kitablarında qeyd etmişlər. Onlardan: Xəlil ibn Əhməd Fərahidi (vəfatı: h.q 170) “Kitabul-eyn”[335] əsərində, Zəməxşəri (vəfatı: h.q 538) “əl-Faiqu fi ğaribil hədis”,[336] İbn Əsir (vəfatı: h.q 606) “ən-Nihayətu fi ğaribil-hədis”,[337] İbn Mənzur (vəfatı: h.q 711) “Lisanul-ərəb”[338] kitablarında.

Müasirlərdən isə dr. Ömər Rza Kəhalə özünün “Əlamun-nisa”[339] və dr. Tofiq Əbu Ələm “Əhlul-beyt”[340] kitablarında qeyd etmişlər.

Bu xütbənin həqiqətən də Zəhraya (ə) məxsus olmasını təsdiqləyən digər bir amil onun məzmununun bəzi səhih hədislərdə də nəql olunmasıdır. Tirmizi və Beyhəqi öz “Sünən”lərində Əbu Hüreyrəyə istinadən rəvayət edirlər (rəvayət Tirmizinin kitabındandır): *“Fatimə Əbu Bəkrin yanına gəlib dedi: “Səndən kim irs aparacaq?” Əbu Bəkr dedi: “Ailəm və övladlarım”. Xanım (ə) belə olan təqdirdə özünün nə üçün atasından miras apara bilməyəcəyini soruşduqda Əbu Bəkr dedi: “Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: “Biz peyğəmbərlər özümüzdən sonra...”*[341]

Tirmizi bu hədislə bağlı deyir: “Əbu Hüreyrənin hədisi “həsən”dir. Mövzu cəhətdən yeganə hədisdir (ğaribdir)”.[342]

Əhməd ibn Hənbəl öz “Müsnəd”ində Əbu Sələməyə istinadən yazır: *“Fatimə (r) Əbu Bəkrə dedi: “Sən öldükdə varislərin kimlərdir?” Dedi: “Övladlarım və ailəm”.*

---

[334] Cəvahirul-mətalibi fi mənaqibil-imami Əli ibn Əbi Talib (ə), Əbülbərəkət Bauni, c. 1, s. 158

[335] Kitabul-eyn, c. 8, s. 323

[336] əl-Faiqu fi ğaribil-hədis, Zəməxşəri, c. 3, s. 212

[337] ən-Nihayətu fi ğaribil-hədis, İbn Əsir, c. 4, s. 273

[338] Lisanul-ərəb, c. 15, s. 257

[339] Əlamun-nisa, Ömər Kəhalə, c. 3, s. 1208

[340] Əhlul-beyt, Tofiq Əbu Ələm, s. 158. “əs-Səadə” mətbəəsi, Misir

[341] Sünən, Tirmizi, c. 3, s. 81-82; əs-Sünənul-kubra, Beyhəqi, c. 6, s. 302

[342] Sünən, Tirmizi, c. 3, s. 82

Xanım buyurdu: "Bəs biz niyə Peyğəmbərdən (s) irs aparmırıq?" Əbu Bəkr: "Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: "Biz peyğəmbərlər özümüzdən sonra..." –deyə cavab verdi".[343]

Əbu Sələmə miras və Zəhra (ə) ilə Əbu Bəkrin arasında baş verən hadisələrdən bəhs edən rəvayətlərin hamısını Əbu Hüreyrədən nəql edib. Bəlkə də, bu səbəbdən hədisə şərh yazan Şüeyb Arnavut "hədis başqa şəxs səbəbindən "səhih"dir"[344] deyir.

İbn Səd "ət-Təbəqatul-kubra" kitabında Fatimə (ə) ilə Abbasın Əbu Bəkrin yanına gələrək miraslarını tələb etdiklərini qeyd edir. Onlarla birgə Möminlərin əmiri Əli (ə) də gəlmişdi. *"Əbu Bəkr dedi: "Peyğəmbər buyurub ki, "biz miras buraxmarıq, özümüzdən sonra qalanlar sədəqədir". Peyğəmbərin (s) buyuruğuna əməl etmək mənə vacibdir". Əli dedi:* ***"Süleyman Davuda (peyğəmbərlikdə, elmdə və mülkdə) varis oldu".***[345] *Zəkəriyyə deyir:* ***"Buna görə də mənə Öz dərgahından bir oğul bəxş et ki, o, həm mənə, həm də Yaqub nəslinə varis olsun".***

Əbu Bəkr dedi: "Bu belədir. Sən bizim bildiklərimizi bilirsən".[346]

Əli dedi: "Bunu Allah belə buyurur".

Bu sözdən sonra susdular və üz çevirib getdilər".[347]

---

[343] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 10

[344] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 10

[345] Nəml, 16

[346] "Kənzul-ümmal"da belədir: "Sən bizim kimi bilirsən".

[347] ət-Təbəqatul-kubra, Muhəmməd ibn Səd, c. 2, s. 315; Kənzul-ümmal, Müttəqi Hindi, c. 5, s. 625

Üçüncü fəsil: Əbu Bəkrin “Biz peyğəmbərlər miras buraxmarıq” hədisini dəlil göstərməsinin müzakirəsi

Burada bir neçə bəhs var:

Birinci: Dini və tarixi dəlillərə uyğun olmayan “Səhih”lərdəki bu hədisin tərk edilməsi

İkinci: Nə üçün Peyğəmbər (s) öz varislərinə bunu xəbər vermədi?

Üçüncü: İmam Əli (ə) və Abbas bu hədisi eşitməmişlər

Dördüncü: “Miras buraxmarıq” hədisinin Quranın zahirinə zidd olması

Giriş

Əbu Bəkr Zəhranın (ə) atası Peyğəmbərdən (s) qalan miras iddiasını rədd etdi, mirasdan ona heç bir şey vermədi və peyğəmbərlərin miras buraxmadıqlarını, onlardan geridə qalan şeylərin sədəqə olduğunu iddia etdi. Bu iddiasına isə yalnız özünün Peyğəmbərdən (s) eşitdiyi "Biz peyğəmbərlər miras buraxmarıq, özümüzdən sonra geridə qoyduqlarımız sədəqədir" hədisini dəlil göstərdi. Buxari və digər Əhli-Sünnə hədis alimlərinin Ürvə ibn Zübeyrin vasitəsilə belə dediyini nəql edirlər: *"Möminlərin anası Aişə (r) bildirdi ki, Peyğəmbərin (s) qızı Fatimə (ə) atasının vəfatından sonra Əbu Bəkr siddiqdən Peyğəmbərə (s) məxsus* feylərdən *öz miras payının ayrılmasını istədi. Əbu Bəkr dedi: "Peyğəmbər belə buyurub: "Biz peyğəmbərlər özümüzdən sonra miras buraxmarıq. Geridə qoyduqlarımız sədəqədir". Əbu Bəkr ona bir şey verməkdən imtina etdi. Fatimə Əbu Bəkrə qəzəbləndi və vəfat edənədək onunla bir daha danışmadı. Peyğəmbərin (s) vəfatından sonra altı ay yaşadı. Fatimə Əbu Bəkrdən Xeybərdən, Fədəkdən, Mədinədəki Peyğəmbər (s) sədəqələrindən özünə düşən payı istəyirdi. Əbu Bəkr isə imtina etdi və dedi: "Mən Peyğəmbərin (s) etdiyi heç bir işi tərk etməmişəm. O necə əməl edibsə, mən də elə rəftar edəcəyəm. Mən onun rəftarından nəyisə tərk edib, nəticədə azacağımdan qorxuram".*

Mədinədəki sədəqələri Ömər Əli və Abbasa verdi, Xeybər və Fədəyi isə saxladı. Ömər deyirdi: "Bu ikisi Peyğəmbərin (s) sədəqəsidir. Bunun hüquqları ona məxsus idi, qazancından qonaqlarına və naiblərinə xərcləyirdi. Onların ixtiyarı hazırda onun yerinə rəhbərlikdə olan şəxsdədir".

Deyir: "Onların ikisi bu gün də belədir".[348]

Həmçinin "Səhih" Aişədən rəvayət edir: *"Peyğəmbərin (s) qızı Fatimə (ə) atasından qalan mirası almaq üçün Əbu Bəkrin yanına adam göndərdi, ondan*

[348] Səhih, Buxari, c. 4, s. 42. İhsan Zahir deyir: "Əbu Bəkr Peyğəmbərin (s) "Biz miras buraxmarıq, özümüzdən sonra qalanlar sədəqədir". buyurduğunu bildirdi". Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 83

Peyğəmbərə (s) məxsus Mədinədəki feylərdən, *Fədəkdən və Xeybərdən qalan xümsü istədi. Əbu Bəkr dedi: "Peyğəmbər belə buyurub: "Biz peyğəmbərlər özümüzdən sonra miras buraxmarıq. Geridə qoyduqlarımız sədəqədir".*[349]

Buxari və digərlərinin kitablarında qeyd edilən, Əbu Bəkrin dəlil göstərdiyi "Miras buraxmarıq" hədisini bir neçə əsas mülahizələrlə müzakirə etmək olar. Bunlar aşağıdakı kimidir:

Birinci bəhs: Dini və tarixi dəlillərə uyğun olmayan "Səhih"lərdəki bu hədisin tərk edilməsi

Dini və tarixi dəlillərə uyğun olmayan hədislərin tərk edilməsində və hökmünə əməl edilməməsində heç bir müşkül yoxdur. Buna əsasən, "Səhih"də hər hansı bir hədisin olması onun məqbul və hökmünə əməl edilməli olduğunu zəruri etməz. Bu dəlillərə müxalif olduğu təqdirdə onlar tərk edilməli və əhəmiyyət verilməməlidir. Bəzi Əhli-Sünnə alim və hədisşünasları "Səhih"lərdəki başqa rəvayətlərlə bunu tətbiq ediblər. Əhli-Sünnə alimləri tərəfindən bəzi dini və tarixi məsələlərə müxalif olduğu üçün rədd edilən belə hədislərdən bir neçəsinə nəzər salaq:

1 – Buxari və Müslim öz "Səhih"lərində Şərik ibn Abdullah ibn Əbu Nimrə istinadən yazırlar: *"Ənəs ibn Malikin Peyğəmbərin (s) Kəbə məscidindən Merac gecəsində hərəkət etməsi barədə danışdığını eşitdim: "Ona vəhy olunmazdan (peyğəmbər göndərilməzdən) əvvəl üç nəfər gəldi. Həmin vaxt o, Məscidul-haramda yatmışdı..."*[350]

Bu rəvayət dini və tarixi hadisələrə zidd olduğuna görə inkar olunub. Çünki İsra (Merac) hadisəsinin Peyğəmbərin (s) besətindən sonra baş verdiyi məlumdur. İbn Həcər Buxarinin bu rəvayətinin şərhində deyir: *"Ona vəhy olunmazdan əvvəl"* sözünü Xəttabi, İbn Həzm, Əbdülhəqq və Qazi İyad Nəvəvi

---

[349] Səhih, Buxari, c. 5, s. 82; Həmçinin: c. 4, s. 208-209

[350] Səhih, Buxari, c. 4, s. 168, c. 8, s. 203-204; Səhih, Müslim, c. 1, s. 102

inkar etmişlər. Nəvəvi deyir: "Şərikin rəvayətində bəzi mətləblər var ki, inkar olunub. Onlardan biri "Ona vəhy olunmazdan əvvəl" sözüdür. Şübhəsiz ki, bu, səhvdir. Alimlərin ümumi icmasına əsasən, namazın vacib buyurulması İsra gecəsində baş vermişdir. O zaman Merac necə vəhydən əvvəl ola bilər?!"[351]

Nəvəvi Müslimin kitabındakı həmin rəvayətin şərhində deyir: *"Ona vəhy olunmazdan əvvəl idi"* sözü heç kimin razılaşmayacağı bir səhvdir. Çünki Meracın baş verdiyi vaxt barədə deyilən ilk müddət besətdən on beş ay sonradır..."[352]

2 – Müslim "Səhih"də Əbu Hüreyrəyə istinadən rəvayət edir: *"Peyğəmbər (s) mənim əlimdən tutub dedi: "Uca Allah torpağı şənbə günü, onun üzərində dağları bazar günü, ağacları bazar ertəsi, bəyənilməyən şeyləri çərşənbə axşamı və nuru çərşənbə günü yaratdı, cümə axşamı məxluqları orada xəlq etdi. Adəmi (ə) cümə günü axşam çağı cümənin son saatlarında məxluqların sonuncusu olaraq yaratdı".*[353]

Bu rəvayət də Qurani-Kərimin aşkar ayələrinə zidd olduğu üçün inkar edilib. İbn Kəsir deyir: "Bu hədis Müslimin "Səhih"inin qəribə hədislərindəndir. Onun barəsində Əli ibn Mədəni, Buxari və başqa hədis hafizləri fikir söyləmiş, Kəbul-Əhbarın sözləri olduğunu deyiblər, Əbu Hüreyrənin də bu sözləri Kəbdən eşitdiyini bildiriblər. O, bəzi rəvayətləri qarışıq salır, sonra da Peyğəmbərə (s) istinad edirdi. Bunu Beyhəqi də qeyd etmişdir".[354]

Həmçinin deyir: "Müslim ibn Həccac öz "Səhih"ində, Nəsai Həccacdan (o, Həccac ibn Muhəmməd Əvardır), o da İbn Cərihdən nəql edib. Burada yeddi günün mövzusunu əhatə edir. Halbuki Uca Allah bu barədə ***"altı gündə"*** buyurur. Ona görə də Buxari və digər hədis alimləri bu rəvayət barədə fikir söyləmiş, onun

---

[351] Fəthul-Bari, İbn Həcər, c. 13, s. 399
[352] Şərhu Müslim, Nəvəvi, c. 2, s. 209-210
[353] Səhih, Müslim, c. 8, s. 127
[354] Təfsir, İbn Kəsir, c. 1, s. 72

Əbu Hüreyrənin Kəbdən rəvayət etdiyi Peyğəmbərə (s) yetişməyən hədis olduğunu bildirmişlər”.[355]

Alusi deyir: “Gizli deyil ki, bu rəvayət aşkar ayələrə ziddir. Bu hədis, Müslimin “Səhih”də nəql etməsinə rəğmən ya səhih deyil, ya da izahdır. Mənim fikrimə görə, yaradılışın ilk günü bazar, ikinci günü bazar ertəsi və s. Məxluqların cəm edildiyi gün cümədir. Özünüz düşünün”.[356]

Və bu mövzuda olan digər rəvayətlər. Lakin onları burada qeyd etmək mövzumuzdan kənardır.

Buna əsasən, bir hədisin mücərrəd olaraq “Səhih”lərdə və ya digər kitablarda mövcudluğu onun həqiqiliyinə qəti əminlik yaratmır. “Miras buraxmarıq” hədisinin “Səhih”lərdə olması, onun müzakirəsinin və ya bəhsinin qadağan olunması demək deyil. Həmin hədisin doğruluğunun şübhəli olduğuna yönələn güclü dəlil və qeydləri nəzərə alsaq, miras barədəki ümumi və mütləq mənalı ayələrin bu hədislə xüsusiləşdirilməsi və ya izah verilməsi düzgün olmaz.

İkinci bəhs: Nə üçün Peyğəmbər (s) öz varislərinə bunu xəbər vermədi?

İndiyədək aydın bir cavab verilməyən suallardan biri də Peyğəmbərin (s) bu hədisi birbaşa aid olduğu yaxınlarına hansı səbəbdən söyləməməsidir. Həmin şəxslər onun yaxınları olan Möminlərin əmiri (ə), Fatimə, Abbas və zövcələridir.

Bəs Peyğəmbər (s) nə üçün ümmətin ən itaətkarı və Peyğəmbər (s) yolunun kamil davamçısı,[357] onun ən yaxın dostu, sirrinin əmanətdarı, din və dünyada ən etimadlı şəxs olan Möminlərin əmiri Əliyə (ə) bunu bildirmədi?![358]

---

[355] Təfsir, İbn Kəsir, c. 2, s. 230. Kəbul-Əhbar bunu Tövratdan nəql etmişdir. Bu yəhudi hekayələri də “Səhih”lərə yol tapmışdır.

[356] Təfsir, Alusi, c. 8, s. 133

[357] Buxari, Müslim və digərləri Peyğəmbərin (s) Xeybər savaşı günü belə buyurduğunu yazırlar: *“Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, Allah onun əli ilə fəthi nəsib edəcək. O, Allahı və peyğəmbərini, Allah və peyğəmbəri də onu sevir”.* (Səhih, Buxari, c. 5, s. 76, c. 4, s. 12, c. 4, s. 20, 207; Səhih, Müslim, c. 5, s. 195, c. 7, s. 120, 121, 122)

Nə üçün Peyğəmbər (s) bu hədisi Zəhraya (ə) bildirmədi? Bildirsəydi, Xanım (ə) iddia ilə evindən çıxmaz, tənqidə məruz qoymaz və kimlərinsə töhmət hədəfinə çevirməzdi! Halbuki Peyğəmbər (s) qızına toxuna biləcək ən kiçik narahatlığın qarşısını almağa belə çox diqqətli idi. Hətta ona toxunacaq əzabı özünə toxunan əzab kimi təqdim edirdi. Müslim "Səhih"də Misvər ibn Mixrəmədən Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: *"Fatimə, həiqətən də mənim bir parçamdır, ona əziyyət edən hər bir şey mənə də əziyyət verər".*[359]

Həmçinin möminlərin anaları olan zövcələrinə niyə bu barədə xəbər vermədi? Halbuki bu hökm ilk növbədə onlara aid idi. Onların ümmətinin önünə çıxıb tələblərini izhar etmələri də şənlərinə layiq deyildi. Onlar da Osmanı Əbu Bəkrin yanına göndərərək miraslarını tələb etdilər. Bunu Buxari öz "Səhih"ində Malikə, o da İbn Şihaba, o da Ürvəyə və o da Aişəyə istinadən rəvayət edir: *"Peyğəmbər (s) vəfat etdikdən sonra zövcələri Peyğəmbərin (s) mirasını tələb etmək üçün Osmanı Əbu Bəkrin yanına göndərmək istədilər..."*[360]

İbn Həcər bu hədisin şərhində yazır: "Hədisdə bu ayəyə eyham var: ***"De: "Əgər siz Allahı sevirsinizsə, mənim ardımca gəlin..."*** (Ali-İmran, 31). Sanki, Peyğəmbər (s) bu sözüylə Əlinin onun ardınca ən kamil şəkildə gedən şəxs olduğuna işarə edir və onu Allahın sevdiyi şəxs olaraq vəsf edir". (Fəthul-bari, c. 7, s. 57-58)

[358] Tirmizi "Sünən" əsərində Cabir ibn Abdullaha istinadən yazır: "Taifə gedərkən Peyğəmbər (s) Əlini çağırıb onunla xəlvətdə söhbət etdi. Camaat onun əmisi oğlu ilə söhbətinin uzun çəkdiyinə diqqət yetirdi. Peyğəmbər (s) buyurdu*: "Onunla mən deyil, Allah xəlvətdə söhbət edirdi".*

Tirmizi deyir: "Bu "həsən" hədisdir... Peyğəmbərin (s) *"Allah xəlvətdə söhbət edirdi"* sözünün mənası "Onunla xəlvətdə söhbət etməyi Allah mənə əmr etdi"dir". (Sünən, Tirmizi, c. 5, s. 303)

İbn Əbülhədid Mötəzili deyir: "Bunu Əhməd (r) özünün "Müsnəd"ində rəvayət edib". (Şərhu Nəhcül-Bəlağə, c. 9, s. 173)

Mübarəkpuri yazır: "ət-Tayyibi deyir: "Bu bir ilahi sirr, qeybi məsələdir ki, onu son həmin sirrin xəzinədarı qərar verir". Qari isə deyir: "Görünən odur ki, bu xəlvəti söhbət savaş və s. kimi dini hadisələrlə bağlı dünyəvi məsələlərin sirridir". (Tuhfətul-əhvəziyyə, c. 10, s. 158-159)

Təbəraninin "əl-Möcamul-kəbir"dəki rəvayətində Cabirə istinadən deyilir: "Əbu Bəkr (r) ona dedi: "Ya Peyğəmbər (s) sənin Əli ilə xəlvət söhbətin bütün gün qədər uzandı". Peyğəmbər (s) buyurdu: *"Onunla mən deyil, Allah xəlvətdə söhbət edirdi".* (əl-Möcamul-kəbir", c. 2, s. 186)

[359] Səhih, Müslim, c. 7, s. 141

[360] Səhih, Buxari, c. 8, s. 5

İbn Əbdülbərr "ət-Təmhid" kitabında qeyd edir ki, Peyğəmbərin (s) zövcələri "Miras buraxmırıq" hədisindən xəbərsiz idilər. Yazır: "Heç kəs inkar etmir ki, bütün qadınları (yəni Fatimə (ə) və zövcələr) miraslarını tələb etmişdilər. Peyğəmbərin (s) bu sözündən onların heç bir məlumatı yox idi".[361]

İbn Əbdülbərr əvvəlcə Əqilin Zühridən nəql etdiyi rəvayəti qeyd edir. Həmin rəvayətdə Fatimənin (ə) adam göndərərək Əbu Bəkrdən atasından qalan mirasını istədiyi bildirilir. Ardınca Malikin bu rəvayətini nəql edir. Sanki, məsələ ona da qaranlıq qalır. Necə olur ki, Əqil Zühridən Fatimənin (ə) mirasını istədiyini, Malik də həmin Zühridən Peyğəmbərin (s) zövcələrinin öz miraslarını istədikləri rəvayət edir?

O isə Malikin rəvayətini tərcih edir. Çünki Əqilin Zühridən nəql etdiyi isbat olunmuş məsələdir... Müəllif Fatimənin (ə) miras tələbinin məşhur və məlum məsələ olduğunu, bundan başqa hədislərdə də qeyd edildiyini nəzərə almadan bu işdə düşüncələri qarışmış, Əqillə Malikin rəvayətlərini cəm edərək onların heç birinin "Miras" hədisindən xəbərlərinin olmadığını söyləmişdir. O səbəbdən də, qadınlar irs tələbi irəli sürmüşlər. İbn Əbdülbərr yazır: "Əqilin bu rəvayətində Fatimə Əbu Bəkrdən mirasını tələb etmək üçün adam göndərir. Maliklə Yunusun rəvayətində də Peyğəmbər (s) zövcələrinin miraslarını istədikləri bildirilir. Qəlb Malikin rəvayətinə meyl edir, həmçinin Yunusun rəvayəti də onu eynilə izləyir. Baxmayaraq ki, Əqilin varlığı hədisi gücləndirir. Həmçinin Fatimənin öz mirasını tələb etdiyi də məşhur və məlum məsələdir. Heç kəs inkar etmir ki, bütün qadınları (yəni Fatimə (ə) və zövcələr) miraslarını tələb etmişdilər. Peyğəmbərin (s) bu sözündən onların heç bir məlumatı yox idi. Əbu Bəkr onlara bu barədə xəbər verdikdə susub razılaşdılar".[362]

Bəs əmisi Abbas ibn Əbdülmüttəlibə niyə bu barədə xəbər verməyib? Halbuki bununla Abbas kimi yaşlı bir insanın özündən kiçik hakimin qarşısında boynunu

---

[361] ət-Təmhid, İbn Əbdülbərr, c. 8, s. 153

[362] ət-Təmhid, İbn Əbdülbərr, c. 8, s. 152-153

büküb miras diləməsinin qarşısını almış olardı. Ümmətin ağsaqqalı kimi şöhrət tapması Əbu Bəkrin xilafət dövrünü yaşamış, ardınca Ömərin xilafəti zamanında da miras tələbi irəli sürmüşdür. Bunu malik ibn Ovsun rəvayəti də bəyan edir. Həmin rəvayəti Buxari və Müslim nəql etmişlər. Rəvayətə əsasən, Möminlərin əmiri (ə) və Abbas (onların iddiasına görə) Ömərin yanına gəlmiş və Peyğəmbərdən (s) qalan miraslarını tələb etmişlər. Deyir: *"Sonra siz yanıma gəldiniz. Sözləriniz də, məsələniz də eyni idi. Ey Abbas, sən gəlib qardaşının oğlundan (yəni Peyğəmbərdən) qalan payını, bu isə (yəni İmam Əli) xanımının atasından qalan payını istəyirdi..."*[363]

Bizim qeyd etdiyimiz bu sualları Fəxri Razi şiə alimlərinin dilindən öz "Təfsir"ində qeyd edib. Orada deyir: "Bu məsələni bilməyə ehtiyacı olanlar Fatimə, Əli və Abbas idi. Onlar ən böyük zahidlər, alimlər və din əhli idilər. Ancaq Əbu Bəkrin bu məsələni bilməsinə ehtiyac yox idi. Çünki onun Peyğəmbərdən (s) miras payı aparacağı heç ağlından belə keçməmişdi. Bəs Peyğəmbər (s) belə bir məsələni aidiyyatı olmayan şəxsə niyə xəbər verib? Halbuki bunu bilməyə daha çox ehtiyacı olan şəxslər var idi?"[364]

Bəzən də deyiblər ki, Peyğəmbər (s) onlara bu barədə xəbər verib, Zəhra da (ə) bu hədisi bilirdi. Lakin o bu hədisin xüsusi, Əbu Bəkr isə ümumi mənaya şamil olduğunu düşünürdü. Bu barədə İbn Həcər yazır: "Əbu Bəkrin qeyd olunan hədisi dəlil göstərməsinə rəğmən onun (Zəhranın) qəzəblənməsinin səbəbi hədisin izahında Əbu Bəkrin düşündüyündən fərqli məna anlaması idi. Bəlkə də, Zəhra "Miras buraxmırıq" hədisində ümumidən xüsusi mənaya etiqad bəsləyirdi. Onun fikrinə əsasən, torpaq və əmlakdan olan mənfəətlər bununla istisna edilmirdi. Lakin Əbu Bəkr isə ümumi mənaya etiqad bəsləyib. Ona görə də hədisin izahında fikirləri ziddiyyət təşkil edib".[365]

---

[363] Səhih, Buxari, c. 4, s. 42-44, c. 6, s. 191, c. 8, s. 4, 147; Səhih, Müslim, c. 5, s. 152

[364] ət-Təfsirul-kəbir, Fəxr Razi, c. 9, s. 210

[365] Fəthul-Bari, İbn Həcər, c. 6, s. 140

Lakin bu sözlərlə müşkül aradan qalxmır. Çünki hədislərin zahirinə əsasən Fatimə (ə) atasından qalan bütün mirası – feyləri, Fədəyi, xümsü tələb edirdi. Necə ki, bunu Buxari də öz kitabında qeyd edir: *"Peyğəmbərin (s) qızı Fatimə Əbu Bəkrin yanına adam göndərib Peyğəmbərin (s) mirasını, Allahın Mədinədən ona məxsus etdiklərini (*feyini*), Fədəyi və Xeybər xümsündən qalanları tələb etdi".*[366]

İbn Həcərin bu yanaşması Zührinin Aişədən Xanım Zəhra (ə) ilə Abbasın birlikdə miras olan torpaqlarını istədiyini nəql etdiyi rəvayəti göz önündə tutsaq, olduqca qəribədir. Deyir: *"Fatimə (ə) və Abbas Əbu Bəkrin yanına gələrək Peyğəmbərdən (s) qalan miraslarını – Fədəkdəki torpaqlarını və Xeybərdən payına düşənləri tələb etdilər".*[367]

İbn Həcərin və onun kimilərin bəhs mövzusundan uzaqlaşmasının, bu cür aydın yanlışlığa düşmələrinin səbəbi dəlil və sübutları kənara atmaqla olsa belə, öz etiqadi miraslarını qorumaqdır.

Əlavə olaraq bu zaman demək olar: Bəs nə üçün Peyğəmbər (s) bunu da onlara bildirmədi? Nə üçün hədisin xüsusi deyil, miras məsələsinə ümumən şamil olduğunu onlara söyləmədi?

Üçüncü bəhs: İmam Əli (ə) və Abbas bu hədisi eşitməmişlər

Əgər "Miras buraxmarıq" hədisi mövcud idisə, o zaman Möminlərin əmiri ilə Abbas Ömərin xilafəti dövründə onun yanına gəlib mübahisə etməzdilər. Onlar ki, bu hədisin varlığından xəbərdar idilər, yaxud da Əbu Bəkrin hədisi söyləməsi ilə onlar bu məlumata sahib olmuşdular! Əgər belə idisə, bəs niyə mübahisə edirdilər? Buxari və Müslim öz "Səhih"lərində Malik ibn Ənəsə istinadən rəvayət edirlər ki, Möminlərin əmiri (ə) ilə Abbas Peyğəmbərdən (s) qalan mirası və Fədəyi tələb etməyə gəldikdə Ömər onlara belə dedi: *"Peyğəmbərin (s) vəfatından sonra Əbu Bəkr özünün Peyğəmbər (s) canişini olduğunu dedi. Siz ikiniz də gəldiniz,*

---

[366] Səhih, Buxari, c. 5, s. 82

[367] Səhih, Buxari, c. 5, s. 82; c. 8, s. 3

sən (Abbas) qardaşın oğlunun, bu (Əli) isə zövcəsinin atasından qalan mirasını istəyirdiniz. Əbu Bəkr sizə Peyğəmbərin (s) belə buyurduğunu söylədi: "Biz miras buraxmırıq, qoyduqlarımız sədəqədir". (Ömər deyir:) "Siz onu yalançı, günahkar, namərd və xain olaraq görürdünüz... Əbu Bəkr öldükdən sonra mən Peyğəmbərin (s) və Əbu Bəkrin canişini oldum. Siz ikiniz məni də yalançı, günahkar, namərd və xəyanətkar bildiniz... Sonra siz yanıma gəldiniz. Sözləriniz də, məsələniz də eyni idi. Onu sizə verməyimi istədiniz. Mən isə: "Əgər istəyirsinizsə onu sizə verərəm, belə ki, Peyğəmbərin (s) onunla rəftar etdiyi kimi sizin də rəftar etmənizAllahın boynunuzdakı əhdidir – demişdim. Siz onu götürdünüz. Belə deyilmi?" Dedilər: "Bəli, elədir". Ömər dedi: "Sonra yanıma gəlib aranızda hökm etməməyimi istədiniz. Xeyr, Allaha and olsun ki, Qiyamətə qədər sizin aranızda bundan başqası ilə hökm etməyəcəyəm. Əgər bacarmırsınızsa, onu mənə qaytarın".[368]

Buna İbn Həcər də diqqət yetirib. O deyir: "Burada ciddi bir müşkül var. Belə ki, Əli də, Abbas da Peyğəmbərin (s) "Miras buraxmırıq" hədisini bilirdilər və əgər bilirdilərsə, o zaman nə üçün Əbu Bəkrdən miraslarını tələb edirdilər? Hətta Əbu Bəkrdən eşitdikləri halda hədis barədə məlumata sahib oldularsa, bəs nə üçün Ömərin xilafəti zamanı ondan da istədilər?"[369]

Rəvayətdəki *"İndi də yanıma gəlib mübahisə edirsiniz. Bu (Abbas) qardaşı oğlundan qalan mirası, bu (Əli) isə zövcəsinin atasından qalan payını tələb etdiyini deyir"* sözləri aydın şəkildə mübahisənin idarəçilik üstündə deyil, mirasa görə baş verdiyinə dəlalət edir. Buna Ömərin *"Xeyr, Allaha and olsun ki, sizin aranızda bundan başqası ilə hökm etməyəcəyəm"* sözü də işarə edir. Yəni onu sizə yalnız idarəçilik üçün verəcəyəm, miras payı olaraq deyil. Bunu İbn Həcər də söyləyib: "Rəvayətin sonundakı *"İndi də yanıma gəlib mübahisə edirsiniz. Bu (Abbas) qardaşı oğlundan qalan mirası, bu (Əli) isə zövcəsinin atasından qalan payını tələb etdiyini deyir. Xeyr, Allaha and olsun ki, sizin aranızda bundan başqası ilə hökm*

---

[368] Səhih, Müslim, c. 5, s. 152-153; Bax: Səhih, Buxari, c. 4, s. 44, c. 6, s. 191, c. 8, s. 4, 147

[369] Fəthul-Bari, İbn Həcər, c. 6, s. 144

etməyəcəyəm" cümlələrinin mənası budur ki, sizə onu yalnız idarəçilik qismində verirəm".[370]

Bəziləri hədisi müəyyən yönə istiqamətləndirməyə cəhd ediblər. Lakin İbn Həcər bunları zəif hesab edib. Deyir: "Əbu Davudun "Sünən"ində və digər kitablarda isə deyilir: "(İmam Əli (ə) və Abbas) istəyirdilər ki, Ömər onların payını bölsün. Bununla hər biri öz payına rəhbərlik etsin. Ömər isə bundan imtina edir, onun üzərinə "bölünmüş" və ya "hissə" sözünün şamil olmamasını istəyir. Bu səbəbdən də and içir. Şərhçilərin çoxu bu məna üzərində dayanmış və onun ən yaxşı şərh olduğu qənaətinə gəlmişlər".[371]

Bundan daha qəribəsi isə, İbn Cövzinin, eləcə də Şeyx Muhyiddinin "Əli və Abbas Ömərdən yalnız bunu tələb edirdilər" deməsi rəvayətin zahirinə uyğun deyil, belə ki, onlar (Əbu Bəkrin xilafəti dövründə olduğu kimi) ikinci dəfə Ömərin yanına gəlib eyni şeyi (mirası) tələb edirdilər".[372]

İbn Həcər özünün qeyd etdiyi cəhətə gəldikdə: "(Doğrusunu Allah bilir) Fatimə ilə bağlı əvvəlki hədisdən də görünür ki, Əli, Fatimə və Abbas da "Miras buraxmarıq" sözünün ümuma deyil, bəzi şeylərə şamil olan xüsusi mənada

---

[370] Fəthul-Bari, İbn Həcər, c. 6, s. 145

[371] "Onun sözünə işarə olaraq: "Lakin Nəsainin, Ömər ibn Şəbbənin Əbu Buxtiridən nəql etdiyi rəvayət bunu miras olaraq bölməsini istədiklərini deyir. Sondakı (yəni Buxarinin rəvayətindəki hədisin sonluğu) *"İndi də yanıma gəlib mübahisə edirsiniz. Bu (Abbas) qardaşı oğlundan qalan mirası, bu (Əli) isə zövcəsinin atasından qalan payını tələb etdiyini deyir. Xeyr, Allaha and olsun ki, sizin aranızda bundan başqası ilə hökm etməyəcəyəm"* cümlələr də yalnız idarəçilik üçün verdiyinə dəlalət edir. Nəsainin İkrimə ibn Xaliddən, onun da Malik ibn Ovsdan nəql etdiyi rəvayətdə də belə deyilir". (Fəthul-Bari, c. 6, s. 145)

İbn Həcər İsmail Qazinin (Əhli-Sünnənin iddiasına görə) İmam Əli (ə) ilə Abbasın arasındakı mübahisənin mirasa görə deyil, sədəqələrin istifadəsinə görə olduğu fikrini inkar edərək deyir: "Əli (ə) ilə Abbasın arasında mübahisənin ikinci dəfə Ömərin dövründə baş verməsi barədə İsmail Qazinin Dəraqutinin vasitəsilə etdiyi rəvayətlə əlaqədar deyir: "Mübahisə miras barədə deyildi, onlar sədəqlərin idarəçiliyi və onların xərclənməsi barədə idi". (Fəthul-Bari, c. 6, s. 145)

[372] Fəthul-Bari, c. 6, s. 145

deyildiyinə etiqad bəsləyirdilər. Ona görə də Əli və Abbas Ömərin və ondan əvvəlki xəlifənin bu məsələdə onlara zülm etdiklərini düşünürdülər”.[373]

Bunun hədisin zahirinə müxalif olduğu, Fatimənin (ə) atasından qalan bütün mirası tələb etdiyi barədə sözlərini əvvəldə də qeyd etmişdik. Bunlar Peyğəmbərin (s) fiələri, Fədək və xümsdür, onların bir hissəsi deyildi. Necə ki, bunu Buxarinin rəvayəti də təsdiqləyir: *“Əbu Bəkrin yanına adam göndərib Allahın Mədinədən Peyğəmbərə (s) məxsus etdiklərini (*feyini*), Fədəyi və Xeybər xümsündən qalanları tələb etdi...”*[374]

Həmçinin hədisin ümumi məna verdiyi Möminlərin əmiri (ə) kimi bir şəxsə naməlum olduğunu düşünmək də olmur. Halbuki səhabələr bir şeyi daha yaxşı anlamaq, eləcə də müşkül yaradan məsələlərin həlli üçün məhz ona müraciət edərdilər.

Buna rəğmən, bəs Əbu Bəkrin özü nə üçün Fatiməyə (ə) hədisin ümumi mənaya şamil olduğunu bildirmir? İbn Həcər Fatimənin (ə) Fədək tələbilə bağlı iddiasında buna işarə edir. Əgər hədisin ümumi mənaya şamil olduğunu ona bildirdisə, bəs nə üçün o, öz həyat yoldaşı Möminlərin əmirinə (ə) bunu xəbər vermədi?!

Eləcə də, İmam Əli (ə) və Abbas ötən uzun müddət ərzində hədisin ümumi mənada olduğundan necə xəbərsiz qalıblar? Halbuki onların miras tələbi Əbu Bəkrin xilafəti dövründə olduğu kimi, Ömərin də xilafət müddətində davam etmişdir!

Əbu Bəkrin söylədiyi “Miras buraxmarıq” hədisində Abbasın xəbərinin olmadığını təsdiqləyən amillərdən biri də əvvəldə təqdim etdiyimiz Müəmmərin Aişədən nəql etdiyi rəvayətdir. Buxari və Müslim onu öz “Səhih”lərində qeyd

---

[373] Fəthul-Bari, c. 6, s. 144

[374] Səhih, Buxari, c. 5, s. 82

edirlər: *"Fatimə (ə) və Abbas Əbu Bəkrin yanına gələrək miraslarını, Fədəkdəki torpağı və Xeybərdən payına düşənləri tələb etdilər..."*[375]

Dördüncü bəhs: "Miras buraxmarıq" hədisinin Quranın zahirinə zidd olması

"Biz miras buraxmarıq, özümüzdən sonra qoyduqlarımız sədəqədir" hədisi Qurani-Kərimin xüsusi olaraq nəbi və rəsulların bir-birindən miras apardıqlarını bildirən açıq ayələrinə müxalifdir. Həmçinin onlar irsin hökmlərindən kənarda tutulmayıblar. Bu ayələrdən: ***"... bir oğul bəxş et ki, o, həm mənə, həm də Yaqub nəslinə varis olsun".***[376] Həmçinin: ***"Süleyman Davuda (peyğəmbərlikdə, elmdə və mülkdə) varis oldu".***[377]

Həmçinin mirasla bağlı ümumi hökmlərin bəyan edildiyi və peyğəmbərlərin (ə) bu hökmlərdən kənarda tutulduğuna dair heç bir işarənin olmadığı ayələr. Uca Allah buyurur: "***Allah övladlarınız haqqında sizə tövsiyə buyurur ki, oğula iki qız hissəsi qədər pay düşür".***[378] Eləcə də: ***"Qohumlar (bir-birinə vərəsə olmaq baxımından) Allahın Kitabında möminlərdən və mühacirlərdən daha yaxındırlar".***[379]

Keçmiş və müasir müsəlman alimlərinin bu xüsusi və ümumi ayələr barədə fikirləri var. Bunlar da deyilənlərə işarə edir. Bu yerdə deyilməli olan sözlər isə bunlardır:

Xüsusi mənada olan ayələr

---

[375] Səhih, Buxari, c. 5, s. 25
[376] Məryəm, 5-6
[377] Nəml, 16
[378] Nisa, 11
[379] Əhzab, 6

Qurani-Kərimin bəzi ayələrində peyğəmbərlərin (s) irsi ilə bağlı bəzi ayələr mövcuddur. Bunlardan biri Uca Allahın Zəkəriyyə peyğəmbərlə (ə) bağlı sözləridir: ***"Buna görə də mənə Öz dərgahından bir oğul bəxş et ki, o, həm mənə, həm də Yaqub nəslinə varis olsun. Ey Rəbbim! Həm də elə et ki, o riza (Sənin rizanı) qazanmış olsun!"***[380]

Həmçinin Uca Allahın bu ayəsi: ***"Biz Davuda və Süleymana elm (insanların arasında mübahisəli məsələləri həll edib ədalətli hökm çıxartmaq, quşların dilini bilmək və i.a.) verdik. Onlar dedilər: "Bizi öz mömin bəndələrinin çoxundan üstün tutan Allaha həmd olsun!" Süleyman Davuda (peyğəmbərlikdə, elmdə və mülkdə) varis oldu və dedi: "Ey insanlar! Bizə quş dili öyrədildi və (peyğəmbərlərə, padşahlara nəsib olan) hər şeydən verildi. Bu, həqiqətən, açıq-aşkar bir lütfdür!"***[381]

Uca Allahın ***"həm mənə, həm də Yaqub nəslinə varis olsun",*** həm də "***Süleyman Davuda varis oldu"*** sözləri maddi mirasa dəlalət edir. Çünki vərəsəliyin həqiqəti məhz maddi mirasdır. Nübuvvət, elm, hikmət, üstünlük, din və bu kimi mənalar irs baxımından yalnız məcazi mənada istifadə edilir. Məcaz mənasında istifadə edildiyinə dair isə mütləq bir eyham olmadır. Yalnız bu eyhamın vasitəsilə həqiqi mənasından uzaqlaşa bilər.

Lüğət alimləri də mirasın bir şeyin bir şəxsdən digərinə, yaxud bir dəstədən digər dəstəyə keçməsi olduğunu söyləmişlər. Həqiqi mənası bir maddi şeyin digərinə keçməsidir. Məcazi mənada isə digər məfhumların ötürülməsidir. Fərahidi deyir: "İrs: kəlməsindəki "əlif"in əsli "vav"dır. Lakin "i" saiti ilə gəldiyi üçün "həmzə"yə çevrilib... Deyirsən: "Bu mənim qazancımdan və atalarımın mirasındandır".[382]

Əzhəri deyir: "Əbülabbas İbn Ərabidən miras apardı. "Vərs, virs, irs, iras, vurras və turas" eyni mənalardır. Əbu Zeyd deyir: "Filankəs atasından irs apardı".

---

[380] Məryəm, 5-6

[381] Nəml, 15-16

[382] Kitabul-eyn, c. 8, s. 234

Onun varisi oldu. “Kişi övladını gözəl bir irsə varis etdi”. “Kişi Bəni-filankəsi malına varis etdi”. Bu, onları övladları ilə bərabər malına varis etdikdə deyilir. Halbuki onların mirasdan payları yox idi... Deyilir: “Filankəsi filankəsin varisi etdim”. Yəni onu mirasa varis etdim. “Meyitin malını varislərinə buraxdı”. Yəni malını onlar üçün qoydu”.[383]

Cövhəri deyir: “Miras kəlməsinin əsli “mivras”dır, “vav”ın əvvəli “i” olduğu üçün “yə” hərfinə çevrilib. “Turas” kəlməsində “tə” hərfinin əsli “vav”dır. Deyirsən: “Atamdan irs apardım... Onu özünə varis etdi. Yəni, onu malının varislərinin sırasına daxil etdi”.[384]

İbn Mənzur yazır: “İbn Ərabi deyir: “İrs” nəzəri, “virs” isə maddi şeylərdir”.[385] Deyir: “Əbu Zeyd isə deyir: “Filankəs atasından irs apardı. Kişi övladını gözəl bir irsə varis etdi”. Deyilir: “Filankəsin malına varis oldum. Yəni miras apardığım şəxs öldükdə onun malı mənim oldu. Uca Allah Zəkəriyyənin sözləri və duası barədə xəbər verərək buyurur: ***“Öz dərgahından bir oğul bəxş et ki, o, həm mənə, həm də Yaqub nəslinə varis olsun”.*** Yəni məndən sonra yaşasın və mirasım ona keçsin”.[386]

Rağib İsfahani deyir: “Virasət” və “irs” heç bir razılaşma bağlanmadan bir şəxsin mülkiyyətinin sənə keçməsidir. Meyitdən keçən mal da belə adlandırılır. Mülkiyyətin belə bir keçidinə miras və irs deyilir”.[387]

Fəyumi deyir: “Varisə” feli – məs: atasının malına varis oldu. Sonra deyilir: “Atasına mal cəhətdən varis oldu”. “Turas” və “irs” kəlmələri də eyni mənadadır. Bu kəlmələrdəki “tə” və “həmzə” “vav” hərfinin əvəzinədir. Failin ismi “varis”dir. Cəmi “vurras” və “vərəsə”dir. Necə ki, “kafir”, “kuffar” və “kəfərə” deyilir. Miras aparılan mala, həmçinin ataya (şəxsə) “mövrus” deyilir. “Əvrasə” feili – bir kəsi

---

[383] Təhzibul-luğət, Əbu Mənsur Əzhəri, Muhəmməd ibn Əhməd, c. 15, s. 85
[384] əs-Sihah, Cövhəri, c. 1, s. 295-296
[385] Lisanul-ərəb, c. 2, s. 111
[386] Lisanul-ərəb, c. 2, s. 199-200
[387] əl-Müfrədat, Rağib İsfahani, s. 518

varis etdi, yəni varislərin arasına daxil etdi. "Varrəstuhu" yəni onu mirasa şərik qərar verdi".

Farabi deyir: "Vərrasəhu" – yəni onu malının varislərindən etdi". Əbu Zeyd də deyir: "Kişi filankəsi malına varis etdi – o zaman ki, payı olmayan şəxsi varislər sırasına daxil etdi".[388]

Seyyid Əli Xan Mədəni "ət-Tərraz" kitabında həqiqi irsin cümlədə istifadə yerlərini qeyd etdikdən sonra deyir: "Məcazi olaraq isə: "Filankəsdən elm irs apardım – yəni onun elmindən faydalandım. "Qənaətin mirası izzətdir" və ya "Onlar şan-şöhrətə varis oldular".[389]

Bəzi sünni təfsir alimləri bu iki ayədəki ***"varis olsun"*** və ya ***"varis oldu"*** kəlmələrinin məcaz mənalarında istifadə edildiyini söyləmişlər. Belə ki, onlar buradakı mirası maddi irs kimi təqdir etməmişlər. Qurtubi İbn Ətiyyənin sözlərini nəql edir: "Zəkəriyyəyə layiq olan zahir məna onun elm və din mirasını nəzərdə tutmasıdır. Belə olduqda varislik məcazi məna daşıyır".[390] Eyni sözləri Sələbi də deyib.[391]

Şövkani isə Uca Allahın "***Süleyman Davuda varis oldu"*** sözünün izahında deyir: "Yəni elm və peyğəmbərliyə varis oldu". Qətadə və Kəlbi deyirlər: "Davudun on doqquz oğlu var idi. Onlardan yalnız Süleyman peyğəmbərliyə varis oldu... Ümumən təfsirçilər də belə demişlər. Belə bir miras məcazi mənada olan irsdir. Necə ki, Peyğəmbər (s) buyurub: *"Alimlər peyğəmbərlərin varisləridir".*[392]

İbn Aşur qeyd edilən ayənin təfsirində deyir: "Bu ayədə irs məcazi mənada istifadə olunub. Bununla ali dəyərlər mülkə bənzədilib. Necə ki, xəlifəlik dövlətin mülkünün yeni xəlifəyə keçməsidir".[393]

---

[388] əl-Misbahul-munir fi ğaribiş-şərhil-kəbir, Fəyumi, c. 2, s. 654
[389] ət-Tarraz, Əli Xan, c. 3, s. 452, "VRS" hərfləri
[390] Təfsir, Qurtubi, c. 11, s. 78
[391] Təfsir, Sələbi, c. 4, s. 6-7
[392] Fəthul-qədir, Şövkani, c. 4, s. 129
[393] ət-Təhriru vət-tənvir, İbn Aşur, c. 1, s. 3061

Həmçinin bəzi sünni alimləri ayədəki mirasın maddidən daha geniş və ümumi, bir neçə həqiqi mənada müştərək olaraq istifadə edildiyini bildiriblər. Burada həm maddi, həm elm, nübuvvət, gözəl rəftar və ali dəyərlər nəzərdə tutulur. Necə ki, Razinin sözləri bu qəbildəndir. Peyğəmbərlərin (ə) mirasındakı ixtilafları qeyd etdikdən sonra yazır: "Bu rəvayətlər beş şeydən birinə aiddir. Bunlar mülkiyyət, ali məqam, elm, nübuvvət və gözəl rəftardır. İrs kəlməsi bunların hamısı barədə istifadə edilib".[394]

Bilirsən ki, kəlmənin ümumi olaraq həqiqi və məcazi mənada istifadə edilməsi mümkündür. Lakin burada söhbət mövzunun özü barədədir. Lüğət alimlərinin irs kəlməsini həqiqi mənada maddi mülkiyyət barədə istifadə edildiyini təqdim etdik.

Bəli, bəzi müasir dövrə yaxın yaşamış alimlər lüğətdə nəzərdə tutulmasa da maddi və qeyri-maddi mənalara şamil etməyə səy göstərmişlər. Alusi deyir: "Bunun həqiqi lüğət mənasında yalnız maddi miras barədə istifadə edildiyini qəbul etmirik. Halbuki onun həqiqəti özündə həm də elm, məqam və mülkiyyəti də ehtiva edir..."[395]

Mirasın həqiqi mənada istifadə edildiyi yəqin məsələdir. Bu barədə heç kim irad bildirməyib. Buna əsasən, məqam, elm, nübuvvət, hikmət və hakimiyyət kimi mənalarda istifadəsi onu həqiqi mənadan uzaqlaşdıran və ya həqiqi ilə məcazi mənaların müştərək ifadə olunması üçün bir eyhama ehtiyac duyur. Qeyd edilən ayələrdə isə həmin eyham və işarə yoxdur.

Ayələrdəki "irs" kəlməsinin həqiqi mənada istifadə edildiyini təsdiqləyən başqa bir dəlil İbn Sədin "ət-Təbəqat" kitabında nəql etdiyi hədisdir: *"Əli dedi:* ***"Süleyman Davuda varis oldu",*** *həmçinin* ***"həm mənə, həm də Yaqub nəslinə varis olsun".*** *Əbu Bəkr isə dedi: "Bu belədir, Allaha and olsun ki, sən də mənim*

[394] Təfsir, Razi, c. 21, s. 184

[395] Ruhul-məani, Alusi, c. 16, s. 63

bildiyim kimi[396] *bilirsən". Əli dedi: "Allahın kitabı belə deyir". Susdular, üz çevirib getdilər".*[397]

Göründüyü kimi, İmam Əli (ə) bu iki ayəni maddi mirasa dəlil göstərir, heç bir səhabə də buna etiraz etmir, "*Susdular, üz çevirib getdilər".*

Lakin Əbu Bəkrin bu hədisinə mübtəla olan Əhli-Sünnə alimləri bu ayələrdə məcazi, ya da həqiqi və məcazi mənalarında özündə ehtiva edən ümumi olaraq miras anlamının ifadə olunduğunu iddia etmişlər. Burada da iki yöndə ixtilafa düşmüşlər:

Birinci: Peyğəmbərlərin (ə) miras buraxmadığı aralarında həzrət Muhəmməd (s) olmaqla, bütün peyğəmbərlərə şamildir, yoxsa bəzi məsələlərdə olduğu kimi yalnız ona (s) məxsus edilən hökmdür?

Onların çoxu bu hökmün bütün peyğəmbərlərə (ə) şamil olduğu qənaətinə gəliblər. Digərləri isə bunun yalnız İslam peyğəmbərinə (s) aid olduğu fikrini irəli sürüblər. Qurtubi yazır: "Əbu Əmr deyir: "Alimlər Peyğəmbərin (s) "Miras buraxmarıq" sözünün izahı barədə ixtilaf etmiş, iki fikir bildirmişlər: onların əksəriyyəti peyğəmbərlərin (ə) miras buraxmadığını, özlərindən sonra qalanların sədəqə olduğunu söyləmiş, digərləri isə yalnız İslam peyğəmbərinin (s) miras buraxmadığını demişlər. Çünki Uca Allah onun bütün malını sədəqə qərar verərək sahib olduğu fəzilətləri daha da artırmışdır. Bu hökm ümmətlə onun arasında nikahdakı bağlı hökmlərdəki fərqlilik kimidir. Onun üçün mübah olan başqaları üçün haram idi".[398]

İbn Aşur deyir: "Zahir budur ki, peyğəmbərlərin (ə) miras buraxmasına izn verilir. Uca Allah buyurur: "***Süleyman Davuda varis oldu".*** Ancaq Peyğəmbərimizin (s) "Biz peyğəmbərlər özümüzdən sonra miras buraxmarıq, geridə qoyduqlarımız sədəqədir" sözündə isə məqsəd özüdür. Necə ki, Ömər Buxarinin "Səhih"ində Əli ilə Abbasın arasında baş verənlərin qeyd edildiyi

---

[396] Kənzul-ümmal, Müttəqi Hindi, c. 5, s. 625

[397] ət-Təbəqatul-kubra, Muhəmməd ibn Səd, c. 2, s. 315

[398] Təfsir, Qurtubi, c. 11, s. 78

hədisdə buna əsaslanır. Ömər deyir: "Bu sözündə məqsəd Peyğəmbərin özü idi". Bununla da mirasın sədəqə olması yalnız Muhəmməd peyğəmbərin (s) şəxsi xüsusiyyətinə çevrilir. Baxmayaraq ki, əvvəllər Zəkəriyyə ilə bağlı hökmdə də məqsəd peyğəmbərlik, xüsusilə, müqəddəs kitabların və onların şərhinin mirasıdır".[399]

İkinci: Bu ayədəki mirasın özü barədə ixtilaf etmiş, məsələ ilə bağlı bir çox qeydlər irəli sürmüşlər. Bu mirasın mal, mülk, məqam, elm, nübuvvət, gözəl əxlaq, hikmət və hakimiyyət olduğunu demişlər. Bu ixtilafı Fəxr Razi özünün "Təfsir"ində qısaca belə qeyd etmişdir: "Mirasdakı məqsəd barədə bir neçə yöndən ixtilaf etmişlər. Onlardan biri budur ki, ayədəki irs maddi mirasdır. Bu İbn Abbasın, Həsənin və Zəhhakın sözüdür. İkincisi: bu iki ayədə məqsəd peyğəmbərlikdir. Bu isə Əbu Salehin fikridir. Üçüncüsü: ***"həm mənə"*** sözü ilə "mənim malıma" ***"həm də Yaqub nəslinə varis olsun"*** sözü ilə isə "peyğəmbərliyə varis olsun" qeyd edilib. Bu Suddinin, Mücahidin və Şəbinin sözləridir. Həmçinin İbn Abbasdan, Həsəndən və Zəhhakdan da bu fikir rəvayət olunub. Dördüncü: "mənim elmimə və Yaqubun peyğəmbərliyinə varis olsun". Bu da Mücahiddən rəvayət olunur.

Bu rəvayətlər beş həqiqətə qayıdır. Bunlar mal, məqam, elm, nübuvvət və gözəl rəftardır".[400]

Qurtubi yazır: "Nəhhas deyir ki, ***"həm mənə, həm də Yaqub nəslinə varis olsun"*** sözünün mənası barədə alimlərin üç cavabı var. Deyilib ki, bu, peyğəmbərlikdir, həmçinin hikmət olduğu da söylənilib, başqa bir söz isə mal irsidir..."[401]

İbn Kəsir deyir: "Uca Allahın ***"Süleyman Davuda varis oldu"*** sözünün mənası hakimiyyət və peyğəmbərlikdə varis olmaqdır".[402]

---

[399] ət-Təhriru vət-tənvir, İbn Aşur, c. 1, s. 3061
[400] Təfsir, Razi, c. 21, s. 184
[401] Təfsir, Qurtubi, c. 11, s. 78
[402] Təfsir, İbn Kəsir, c. 3, s. 370

Ayələrdə irsin bu cəhəti ilə bağlı bir çox amillərini qeyd etmişlər. Onlardan ən əhəmiyyətlilərini təqdim edəcəyik:

"Həm mənə, həm də Yaqub nəslinə varis olsun" ayəsi

Əhli-Sünnə alimləri bu ayədə qeyri-maddi irsin iradə olunduğunu bildirən bir neçə amili qeyd ediblər. Onlar ən əsası:

Birinci amil: Ayələrin ardıcıllığı

Ayənin ardıcıllığı qeyri-maddi mirasın iradə olunduğuna dəlalət edir. Xüsusilə də, ayədə ***"Mən özümdən sonra gələn qohum-əqrəbamdan*** (yerimə keçəcək əmioğlularımın və digər vərəsələrimin məsləyimi ləyaqətlə davam etdirməyəcəyindən) ***qorxuram"***[403] sözü buna işarə edir. Belə ki, Zəkəriyyə peyğəmbərin (ə) şəni özündən sonra mal-mülkü üçün qorxmaqdan daha ucadır. İbn Kəsir deyir: "Peyğəmbər bu həddə mal-dövlətə şövqlü olmaqdan daha uca və daha əzəmətlidir. Özündən sonra gələn qohum-əqrəbasının əməllərindən çəkindiyi üçün başqa bir varisinin olmasını Allahdan diləyir".[404]

Həmçinin ***"həm də Yaqub nəslinə varis olsun"*** sözü də buna işarə edir. Belə ki, Yaqub peyğəmbərlə (ə) onun arasında heç bir irs əlaqəsi yoxdur. Bu səbəbdən də, əksər Əhli-Sünnə alimləri mirasın məhz nübuvvət olduğu qənaətinə gəlirlər. Fəxr Razi "Təfsir" kitabında bu ayənin şərhində deyir: "Mirasdakı məqsəd barədə bir neçə yöndən ixtilaf etmişlər. Onlardan biri budur ki, ayədəki irs maddi mirasdır. Bu İbn Abbasın, Həsənin və Zəhhakın sözüdür. İkincisi: bu iki ayədə məqsəd peyğəmbərlikdir. Bu isə Əbu Salehin fikridir. Üçüncüsü: ***"həm mənə"*** sözü ilə "mənim malıma" ***"həm də Yaqub nəslinə varis olsun"*** sözü ilə isə "peyğəmbərliyə varis olsun" qeyd edilib. Bu Suddinin, Mücahidin və Şəbinin sözləridir. Həmçinin İbn Abbasdan, Həsəndən və Zəhhakdan da bu fikir rəvayət

---

[403] Məryəm, 5-6

[404] Təfsir, İbn Kəsir, c. 3, s. 117

olunub. Dördüncü: "mənim elmimə və Yaqubun peyğəmbərliyinə varis olsun". Bu da Mücahiddən rəvayət olunur".[405]

Eləcə də Uca Allahın ***"Həm də elə et ki, o (öz əqidəsi, itaəti və gözəl əxlaqı ilə) riza (Sənin rizanı) qazanmış olsun!"*** sözü də buna dəlildir. Bu kəlmələr irsin mənəvi vəsfinə işarə edir. Və qeyri-maddi mirasa uyğun olan digər amillər...[406]

Müzakirə

Bu iddialara belə cavab verilir:

1 – Bu amillər mirası həqiqi mənasından uzaqlaşdırmaq üçün doğru sayılmır. Çünki Zəkəriyyənin (ə) hadisəsi və övlad istəyi duası maddi irsə dəlalət edir. Belə ki, Uca Allah bu hadisəni "Ali-İmran" surəsində fərqli bir şəkildə bəyan edir: ***"Belə olduqda, Rəbbi (Məryəmi) yaxşı qəbul etdi, onu gözəl bir fidan kimi böyütdü və Zəkəriyyəyə tapşırdı. Zəkəriyyə hər dəfə (Məryəmin) ibadət etdiyi mehraba girdikdə, onun yanında bir ruzi olduğunu görərdi. (Zəkəriyyə:) "Ey Məryəm, bunlar sənin üçün haradandır?" – dedikdə, o: "Allah tərəfindəndir!"- deyə cavab verərdi. Həqiqətən, Allah istədiyi şəxsə hədsiz ruzi verər! (O zaman) Zəkəriyyə Rəbbinə dua edərək dedi: "Ey Rəbbim! Mənə də Öz tərəfindən pak bir övlad bəxş et! Sən, həqiqətən, duaları eşidənsən!"***[407]

Zəkəriyyə (ə) Məryəmin (ə) bu vəziyyətini müşahidə etdikdə əlini duaya qaldırıb övlad istədi ***"(O zaman) Zəkəriyyə Rəbbinə dua edərək dedi..."*** Aydındır

---

[405] Təfsir, Razi, c. 21, s. 184; Bax: Camiul-bəyan, İbn Cərir Təbəri, c. 16, s. 60; Məanil-Quran, Nəhhas, c. 4, s. 311; Əhkamul-Quran, Cəssas, c. 3, s. 282; Təfsir, Səmərqəndi, c. 2, s. 368; Təfsir, Sələbi, c. 6, s. 206; Təfsir, Vahidi, c. 2, s. 676; Təfsir, Səmani, c. 3, s. 278; Təfsir, Bəğəvi, c. 3, s. 188; Zadul-məsir, İbn Cövzi, c. 5, s. 146; Təfsir, İzz ibn Əbdüs-salam, c. 2, s. 269; Təfsir, İbn Kəsir, c. 3, s. 117; və digər təfsirlər.

[406] Camiul-bəyan, İbn Cərir Təbəri, c. 16, s. 62; Təfsir, Silmi, c. 1, s. 421; Təfsir, Sələbi, c. 6, s. 206; Təfsir, Səmərqəndi, c. 2, s. 368; Təfsir, Bəğəvi, c. 3, s. 189; Təfsir, Nəsəfi, c. 3, s. 31; Təfsir, Alusi, c. 16, s. 64 və s.

[407] Ali-İmran, 37-38

ki, Məryəmin (ə) bu vəziyyəti ilə Zəkəriyyənin (ə) duasının arasında bir əlaqə var. O, qarşısında bir peyğəmbər və ya alim görmürdü ki, bundan şövqlənərək Allahdan onun kimi bir övlad bəxş etməsini diləsin. Əksinə, o, qarşısında ibadət və salehlik görüb bu sifətləri daşıyacaq övladla müjdələnməsini istəyirdi ki, yaxınları və əmisi uşaqlarının əvəzinə varisi olsun. Onların zahiri vəziyyətlərinə, əxlaqlarına və həyat baxışlarına əsasən bilirdi ki, mirasdan aldıqları payla yer üzündə daha çox fəsad törədəcəkdilər.

Bir cəhətdən Zəkəriyyə (ə) Məryəmdə (ə) ibadət və salehlik əlamətlərini seyr edir, digər cəhətdən də öz yaxınlarının törətdikləri fəsadları görürdü. Bütün bunlar onun əllərini qaldırıb dua etməsinə rəvac verdi və Allahdan ona saleh, abid bir övlad əta etməsini dilədi ki, onların əvəzinə varisi olsun.

Zəkəriyyənin (ə) aqibəti barədə qorxub narahat olduğu irs ölümündən sonra əmisi övladlarına keçmək qabiliyyəti olan mirasdır. Ona görə də Allahda ona varisi olacaq bir övlad verməsini istəyir ki, mirasından qohumlarına heç bir pay nəsib olmasın. Duasında da həmin övladın Allahın razı qalacağı bir şəxs olmasını vurğulayır. Bununla duasındakı hədəfi də göstərmiş olur.

2 – Əhli-Sünnə alimlərinin qeyd etdikləri nübuvvət, elm, məqam, gözəl əxlaq və hakimiyyət kimi miraslar Zəkəriyyənin qorxusu və narahatçılığı üçün səbəb ola bilməz. Çünki:

- nübuvvət və elm birindən digərinə keçmək baxımından nisbət qəbul edə bilməz və miras aparılmaz. Belə ki, nübuvvətin təyini bütünlüklə Allahın əlində olan bir məsələdir. Elm isə qazanılan və əldə edilən bir həqiqətdir, istəyə, səyə və çalışmağa bağlıdır. Bu cəhətdən Zəkəriyyənin (ə) fasiq əmisi övladlarının elm və nübuvvət varisi olacaqlarından qorxmasının heç bir mənası yoxdur. Həmçinin bəzi Əhli-Sünnə alimləri də nübuvvətin mirasdan olmasının qeyri-mümkünlüyünü bildirmişlər. Qurtubi Nəhhasdan bu sözlərini hekayə edir: “Ancaq “peyğəmbərlik (nübuvvət) miras apardılar” sözü mümkünsüzdür. Çünki nübuvvət irsən keçməz. Əgər irslə keçsəydi, o zaman bir kəs deyə bilər: “İnsanlar

Nuhun (ə) nəsil qohumlarıdırlar, o, mürsəl peyğəmbər idi (Beləliklə insanların da peyğəmbərlikdən mirasları olmalıdır)”.[408]

Yaxud da, Zəkəriyyənin (ə) yaxın qohumlarının vəziyyəti məqam və gözəl əxlaq kimi keyfiyyətlərin onlara keçməsinin qarşısını alır. Çünki ali məqam bir dini mənsəbdir ki, özündə elm, əxlaq, ibadət və Allaha bağlılıq kimi bir çox şərtləri ehtiva edir. Bunlardan heç biri isə onlarda yox idi, xüsusilə də, onların rüsvayçı əməlləri və pis rəftarları camaatın arasında məşhur idi.

Həmçinin gözəl əxlaq da belədir. Heç bir şəxs əxlaqa miras nəticəsində sahib ola bilməz. Gözəl əxlaq xalis niyyətin və saleh əməlin nəticəsidir. Halbuki Zəkəriyyənin (ə) yaxınlarından saleh əməl sahibin olacağına ümid yox idi. Necə ki, Zəkəriyyə (ə) özü də bu qorxusunu dilə gətirərək əvəzində Allahdan ona saleh övlad əta etməsini istəyir. Bu baxımdan da Zəkəriyyənin (ə) yaxın qohumlarının ondan məqam və gözəl əxlaq kimi vəsflərin miras aparacaqlarına qorxusunun mənası qalmır.

Nəticə mal, mülk və hakimiyyət kimi miras mənaları qalır. Belə ki, mal, mülk və sərvətsiz heç bir dini hakimiyyət, rəhbərlik və qüdrət düşünülməz. Əgər Zəkəriyyə (ə) qohumlarının bu hakimiyyəti ələ keçirəcəklərindən qorxurdusa, o zaman belə bir qorxusu təqdirəlayiqdir.

3 – Zəkəriyyənin bu qorxusu maddi irslə və onun qeyri-saleh insanların əlinə keçəcəyi ilə bağlı idi. Bu isə Zəkəriyyənin (ə) İlahi peyğəmbərlik ruhu ilə tam uyğundur. Çünki maddi qüdrətin bir çox şeyləri dəyişmək və təsir göstərmək qüdrətinə sahib olduğunu gözəl bilirdi. Maddi qüdrət elə bir təsiredici amildir ki, onun qarşısında çox az şey duruş gətirə bilir. Onunla pis vicdanlar, şəxslər, tərəfdarlar, güc və qüvvət satın alınır... Hətta onun təsiri mənəvi təsirdən daha çoxdur. Əlindəki imkanının zəifliyinə görə nə qədər saleh insanı ətrafındakılar xor görərək tərk etmişdir, eləcə də zəngin bir şəxsin məclisində iştirak etmək nə qədər insanın arzusudur... Bunlara əsasən, maddi gücün yanlış yolda olan bir

[408] Təfsir, Qurtubi, c. 11, s. 81

şəxsin əlinə düşməsi ilə cəmiyyəti özünə tab etmək üçün saleh insanlara öz təsirini nüfuz etdirəcəyini gözləmək olar. Zəkəriyyənin (ə) qorxusu bu vasitələrin qeyri-saleh qohumlarının əlinə keçməsidir. Bu qorxu onun peyğəmbərlik və mənəvi məqamı ilə ziddiyyət təşkil etmir.

4 – Ayənin maddi irslə bağlı olduğunu dəstəkləyən digər amil isə bəzi Əhli-Sünnə alimlərinin də ayədəki ***"həm mənə... varis olsun"*** sözünün şərhində bunu söyləməsidir. Muqatil ibn Süleyman öz "Təfsir"ində yazır: "Yəni malıma varis olsun; ***"həm də Yaqub nəslinə varis olsun"*** sözü isə: babaları Masanın oğluna, elminə və üstün dini məqamına varis olsun mənasındadır".[409]

İbn Cərir Təbəri "Təfsir"ində deyir: ***"Həm mənə və həm də Yaqub nəslinə varis olsun" –*** ölümümdən sonra malıma, Yaqub ailəsinin isə nübuvvətinə varis olsun. Belə ki, Zəkəriyyə Yaqubun övladlarından idi. Bu söylədiklərimizi şərh və izah əhli də deyirlər".[410]

Səmərqəndi isə öz "Təfsir"ində yazır: ***"Həm mənə və həm də Yaqub nəslinə varis olsun" –*** İkrimə deyir: "Mənim malıma və Yaqubun nəslinə varis olsun". Eynilə bunu Zəhhak da söyləyib".[411]

Sələbi "Təfsir"ində yazır: "Həsən deyir: Məna budur ki, mənim malıma, Yaqub ailəsinin isə peyğəmbərlik və üstün dini məqamına varis olsun".[412]

İbn Cövzi öz "Təfsir"ində yazır: "Bu ayədəki mirasla bağlı 4 cür fikir söylənmişdir. Onlardan biri budur: "mənim malıma, Yaqub ailəsinin isə peyğəmbərliyinə varis olsun". Bunu İkrimə İbn Abbasdan rəvayət edib. Bunu Əbu Saleh də söyləyib..."[413]

---

[409] Təfsir, Muqatil ibn Süleyman, c. 2, s. 307
[410] Camiul-bəyan, İbn Cərir Təbəri, c. 16, s. 60
[411] Təfsir, Səmərqəndi, c. 2, s. 368
[412] Təfsir, Sələbi, c. 6, s. 206
[413] Zadul-məsir, İbn Cövzi, c. 5, s. 146

Silmi isə "Təfsir"ində yazır: ***"Həm mənə"*** – malıma, ***"və həm də Yaqub nəslinə*** – peyğəmbərliyə, yaxud elmə və nübuvvətə, ya Ali Yaqubun peyğəmbərlik əxlaqına, ya da mənim elmimə və Ali Yaqubun hakimiyyətinə – ***varis olsun".***[414]

Alusi deyir: "Cəlaləddin Süyuti "əd-Durrul-mənsur" əsərində İbn Abbasdan, Mücahiddən, İkrimədən, Əbu Salehdən onların bu ayə barədə belə dediklərini nəql edir: ***"Həm mənə*** – yəni malıma".[415]

Razi öz "Təfsir"ində yazır: "Daha yaxşı olar ki, bu ayədəki miras dinə fayda verəcək və məsləhətinə olacaq hər bir şeyə şamil olsun. Bu isə özündə peyğəmbərliyi, elmi, gözəl əxlaqı, dində üstün məqamı, mal-mülkü və saleh əməlləri ehtiva edir. Bütün bunların daimi qalmasını arzulamaq olar ki, həmişə fayda versin".[416]

Bu Əhli-Sünnə təfsirçiləri təfsir alimlərinin ilk təbəqəsinə mənsubdurlar. Halbuki onlara ayədə qeyri-maddi mirasın iradə olunduğu gizli deyildi.

İkinci amil: Əks təqdirdə kəlmə boş və əbəs yerə istifadə olunur

Ayədə maddi mirasın qeyd olunmasını söyləmək Qurani-Kərimdə boş yerə söylənmiş söz olduğunu iddia etməkdir. Halbuki Quran belə bir sözdən münəzzəhdir. Əgər boş yerə işlənirsə, onun barəsində xəbər verməyin faydası yoxdur. Övladın atasından miras apardığı aydın məsələdir. Ona görə də ayədə qeyri-maddi mirasla bağlı məsələdə nəzərdə tutulsun ki, kitabda onun barəsində xəbər vermək özünü doğrultsun. Alusi deyir: "Atasından miras aparmaq üçün Allahdan övlad diləməklə (Zəkəriyyənin) vəsf olunmasında nə fayda var? Övladın və yaxın qohumların atadan miras apardığı bütün qanunlarda öz əksini tapmış məsələdir".[417]

---

[414] Təfsir, İzz ibn Əbdüssalam Silmi Diməşqi Şafei, c. 2, s. 269
[415] Təfsir, Alusi, c. 16, s. 64
[416] Təfsir, Razi, c. 21, s. 184
[417] Təfsir, Alusi, c. 4, s. 219

Müzakirə

Bu, ayələrdə maddi irsin mənəvi miras mənasında işlədilməsinə göstərilən ən zəif amildir. Çünki sadə bir neçə cəhəti qeyd etməklə mənasız yerə işlətmək iddiasından uzaqlaşmaq və Hikmət Sahibinin kəlamını qorumaq mümkündür. Məsələn, Uca Allah buyurur: "***Sizin minməyinizdən ötrü (litərkəbu[418]), həm də zinət üçün atı, qatırı və uzunqulağı*** (O yaratdı)***".[419]*** Burada məna aydın olduğu üçün ***"Sizin minməyinizdən ötrü"*** səbəbinin qeyd edilməsinin faydası yoxdur. Belə ki, bu heyvanlar həmin məqsədlər üçün istifadə edilir. Ona görə də ayəyə bu iradı aradan qaldırmaq üçün məqsədin anlaşılandan fərqli məna olduğunu demək lazım gələcək.

Buna əsasən, bəzi Əhli-Sünnə alimləri bu ayədə qeyd olunan səbəbin yeyilən heyvanlarla minilən heyvanların ayrılmasına diqqət yönəltmək üçün olduğunu söyləmişlər.[420] Bu izah isə ayədə kəlmənin həqiqi mənasında istifadə edildiyinə və əbəs yerə ayədə olmadığına dəlil olaraq kifayətdir. Buna əsasən, deyilə bilər ki, Zəkəriyyə (ə) ilə bağlı məsələdə əsl məqsəd yaxın qohumların varlığına rəğmən saleh varis zərurətinin dilə gətirilməsidir. Yardım, dayaq olmaq və s. məsələlərə ehtiyac duyulmadan, yalnız mal-dövləti onun sərəncamında qoysun. Zəkəriyyə (ə) məhz belə bir varisə ehtiyac duyurdu, nəinki mübarək ömrünün son çağlarında ona dünyəvi işlərdə yardım edəcək bir övlada.

Bu məna irslə bağlı əbəs və yersiz kimi güman edilən kəlmədən həmin iddianı götürməyə kifayət edir. Bu, qeyd edilə biləcək ən sadə izahdır.

Üçüncü amil: Tarixi dəlillər

---

[418] "Yərkəbu" feli ərəb dilində fərqli məcazi mənalar da ifadə edir. Bu baxımdan ayədəki həmin feli başqa mənalarda da istifadə etmək mümkündür.

[419] Nəhl", 8.

[420] Camiul-bəyan, Təbəri, c. 14, s. 110-111; Məanil-əxbar, Nəhhas, c. 4, s. 56; Əhkamul-Quran, Cəssas, c. 3, s. 238; Təfsir, Səmərqəndi, c. 2, s. 266-267; Təfsir, Sələbi, c. 6, s. 8; Təfsir, Razi, c. 19, s. 229; Təfsir, Qurtubi, c. 10, s. 76; Təfsir, İbn Kəsir, c. 2, s. 583

Zəkəriyyənin heç bir mal-mülkü yox idi ki, varis olacaq bir oğula da ehtiyac duysun. Zəkəriyyənin (ə) vəziyyəti barədə xəbər verən tarix kitabları onun fəqir ömür sürdüyünü və dülgər olaraq çalışdığını yazmışlar. İbn Cövzi bu amilə işarə edərkən yazır: "O, mal-mülk sahibi deyildi. Əbu Hüreyrə Zəkəriyyənin (ə) dülgər olduğunu Peyğəmbərdən (s) nəql etmişdir".[421]

İbn Kəsir deyir: "Zəkəriyyənin (ə) mal-mülk sahibi olduğu qeyd edilməyib. O, dülgər idi və öz əlinin zəhməti ilə dolanırdı. Belə bir şəxs isə mal toplaya bilməz. Xüsusilə də, peyğəmbər olduğu halda. Belə ki, peyğəmbərlər dünyada ən zahid şəxslər idilər".[422]

Müzakirə

Zəkəriyyənin (ə) mal-mülk sahibi olmadığı qeybdən xəbər vermək kimi bir şeydir. Bununla bağlı nə bir dəlil və nə də rəvayət nəql etmədilər, lakin belə bir fikri zənn edərək ayədəki irsi həqiqi zahiri mənasından uzaqlaşdırırlar. Halbuki qəti dəlillərlə isbatlanmış iki əsas məsələ burada ziddiyyət təşkil edir. Bu məsələlər isə Zəkəriyyənin (ə) əlində geniş və çox miqdarda maliyyə imkanının olduğunu göstərir. Bu iki məsələ aşağıdakılardır:

1. Dinin rəhbəri olması

Təfsir və tarix alimlərinin arasında "Zəkəriyyənin (ə) öz zamanında dinin başçısı olduğu barədə rəy birliyi var".[423] Məlumdur ki, dini rəhbərlik böyük bir dini müəssisənin idarəçiliyidir. Buraya bir çox məbədlər, din adamları və xidmətçilər daxildir. Onun böyük nüfuzu və işlərini həyata keçirmək üçün geniş maliyyə imkanlarının olması labüddür. Bu vasitələr ya həmin dövrdə mövcud olan hakimiyyət tərəfindən təmin edilməli, ya da hədiyyə, nəzir və ianələr hesabına formalaşmalı idi. Hətta bəzən belə dini müəssisələrin sərəncamında

[421] Zadul-məsir, İbn Cövzi, c. 5, s. 147
[422] Təfsir, İbn Kəsir, c. 3, s. 117
[423] Təfsir, Sələbi, c. 3, s. 57; Təfsir, Bəğəvi, c. 3, s. 189; Təfsir, Razi, c. 21, s. 185

müstəqil maliyyə mənbələri, heyvan və əkin torpaqları olduğu da deyilir. Belə olduqda onun əlində böyük bir maddi qüdrət olur ki, bunun özündən sonra əmisi övladlarının əlinə keçməsindən qorxurdu.

2. Mülk və səltənətdə məşhur olan Süleyman peyğəmbərin (ə) ailəsi ilə rabitəsi

Əksər Əhli-Sünnə təfsir alimlərinin də nəzərinə əsasən, Zəkəriyyənin (ə) həyat yoldaşı İmranın qızı və Məryəmin bacısı idi. O, Davudun oğlu Süleymanın (ə) övladlarındandı. Nəsli Yaqub ibn İshaq ibn İbrahimə (ə) yetişirdi. Razi deyir: "Əksər təfsir alimləri bu ayədəki Yaqubun İshaq ibn İbrahimin (ə) oğlu olan Yaqub olduğunda həmfikirdirlər. Belə ki, Zəkəriyyənin (ə) zövcəsi Məryəmin bacısı idi və o, Süleymanın (ə) Yəhuza ibn Yaqubdan olan övladlarındandı".[424] Ayədəki Yaqub nəslindəki məqsəd nə Yaqubun özü və nə də bütün ailə üzvləri deyil, aydın olduğu kimi, bəzi üzvləridir. Yəni Zəkəriyyənin (ə) Yaqubun ailəsindən olan zövcəsidir. Buna əsasən, Uca Allahın "***həm də Yaqub nəslinə varis olsun"*** sözünün mənası budur: "mənim və Yaqubun nəslindən olan həyat yoldaşımın varisi olsun".

Aydındır ki, Süleymanın (ə), eləcə də Əriqənin ailəsi hökmdarlıq və səltənətləri ilə məşhur idi. Qurani-Kərimin də nəql etdiyinə əsasən, Süleymanın mülk və səltənət sahibi olduğuna heç kəsin şübhəsi yoxdur. Necə ki, belə böyük bir sərvətin iyirmi-otuz il müddətində tükənməyəcəyinə də şəkk yoxdur. Əksinə, Süleyman (ə) peyğəmbərin varisləri kimi saleh şəxslərin əlinə düşməklə belə bir sərvət uzun illər davam edərdi.

Bunun peyğəmbərliklə heç bir ziddiyyəti də yoxdur. Belə ki, Süleymanın (ə) mülk və sərvət sahibi olduğu Qurani-Kərimdə də təsdiqini tapmışdır. Hətta onun Allahdan belə bir sərvət istədiyi də qeyd olunur. Uca Allah da onun duasını qəbul etmişdi: ***"(Süleyman dua edib) dedi: "Ey Rəbbim! Məni bağışla və mənə elə bir***

[424] Təfsir, Razi, c. 21, s. 21, s. 184

mülk (səltənət) ver ki, məndən sonra (o cürəsinə) heç kəs nail ola bilməsin. Həqiqətən, Sən böyük ehsan (kərəm) sahibisən! Biz küləyi ona ram etdik. Külək onun əmri ilə istədiyi yerə rahatca gedirdi. (Biz) şeytanlardan olan hər bir bənnanı və qəvvası, eləcə də başqalarını (digər şeytanları) zəncirlənmiş halda (onun ixtiyarına verdik və ona belə buyurduq:) "Bu Bizim ehsanımızdır, (ondan kimə istəsən) ver, yaxud (saxlayıb) vermə! O, saysız-hesabsızdır (səndən bu nemətlər barəsində haqq-hesab tələb olunmayacaqdır)".[425]

Həmçinin şübhə yoxdur ki, Süleyman peyğəmbərin (ə) varisləri onun sərvətini saleh və xeyirxah işlərdə istifadə edirdilər. Peyğəmbər (ə) övladlarının və nəvələrinin rəftarı da belədir. Onların fasiq və ya yanlış yolda olduqlarına dair heç bir dəlil yoxdur. Buna əsasən deyilir ki, dəlilin olmaması bir şey olmadığına dəlildir. Əksinə, burada keçən müddət ərzində onların həmin sərvəti və dövləti genişləndirmək, inkişaf etdirmək ehtimalı mümkün sayılır ki, nəticədə bu sərvət sonrakı saleh nəsillərinə yetişsin. Bu saleh nəvələrdən biri də Zəkəriyyənin (ə) zövcəsi idi.

Nəticə: Zəkəriyyənin (ə) mülk və sərvət sahibi olduğuna iki əsas dəlil var ki, bunlar ali dini rəhbər məqamı və zövcəsinin Süleyman (ə) peyğəmbərin nəslindən olmasıdır. Eləcə də Uca Allahın Zəkəriyyənin (ə) dilindən nəql etdiyi: ***"Mən özümdən sonra gələn qohum-əqrəbamdan*** (yerimə keçəcək əmioğlularımın və digər vərəsələrimin məsləyimi ləyaqətlə davam etdirməyəcəyindən) ***qorxuram. Həm də elə et ki, o (öz əqidəsi, itaəti və gözəl əxlaqı ilə) riza (Sənin rizanı) qazanmış olsun!"***[426] ayələri də Zəkəriyyənin (ə) əlində müəyyən miqdarda mal və mülkün olduğuna işarə edir. Hətta əlindəki malın münasib şəxslərin əlinə keçməyəcəyi təqdirdə bir çox məsələləri dəyişə biləcək həcmdə olduğunu da demək olar.

---

[425] Sad, 35

[426] Məryəm, 5-6

“Süleyman Davuda varis oldu” ayəsi

Əhli-Sünnə alimləri ayədə qeyri-maddi mirasın nəzərdə tutulduğuna bir neçə ayəni dəlil göstərmişlər. Onlardan biri də budur: ***“Biz Davuda və Süleymana elm (insanların arasında mübahisəli məsələləri həll edib ədalətli hökm çıxartmaq, quşların dilini bilmək və i. a.) verdik. Onlar dedilər: “Bizi öz mömin bəndələrinin çoxundan üstün tutan Allaha həmd olsun!” Süleyman Davuda (peyğəmbərlikdə, elmdə və mülkdə) varis oldu və dedi: “Ey insanlar! Bizə quş dili öyrədildi və (peyğəmbərlərə, padşahlara nəsib olan) hər şeydən verildi. Bu, həqiqətən, açıq-aşkar bir lütfdür!”***[427]

Ayədə buna işarə edən bir neçə amil var:

Birinci amil: Ayələrin ardıcıllığı

Ayənin həm əvvəlində və həm də ardında mirasın qeyri-maddi irs olduğuna dəlalət edən amillər var. Xüsusilə də, ayədə Uca Allah ***“elm verdik”*** sözünün ardınca ***“Süleyman Davuda varis oldu”*** deyilir və bundan sonra da ***“Bizə quş dili öyrədildi”*** buyurulur. Bunlar isə elm və peyğəmbərliklə uzlaşır. Ayə Uca Allahın Davuda (ə) xüsusi elm verdiyini, bundan sonra da Süleymanın (ə) Davuddan (ə) miras apardığını qeyd edir. Bunun ardınca isə Süleymanın (ə) dilindən onlara quşların dilinin öyrədildiyi bildirilir. Bu amilləri ard-arda düzdükdə məna aydın olur. Həmin məna budur: Uca Allah Davuda (ə) xüsusi bir elm vermişdir və Süleyman da (ə) Davuddan (ə) bunu miras aparmışdır. Razi öz “Təfsir”ində deyir: “Əgər Uca Allah araya fasilə salaraq *“Süleyman Davudun mal-mülkünə varis oldu”* desəydi, o zaman ***“Ey insanlar! Bizə quş dili öyrədildi!”*** sözünün mənası qalmayacaqdı. Əgər “həm peyğəmbərlik və həm də padşahlıq məqamına varis oldu” desək, bu daha gözəl olardı. Çünki quş dilinin öyrədilməsi miras apardıqlarının sırasına daxildir...”[428]

---

[427] Nəml, 15-16

[428] Təfsir, Razi, c. 24, s. 186

Müzakirə:

Əvvəldə də qeyd etdiyimiz kimi, irs həqiqi mənada yalnız maddi şeylərə aid edilir. Məcazi olaraq isə nübuvvət, elm və digər məfhumlar üçün istifadə edilir. Yalnız həqiqi mənasında istifadə edilməsinə bir mane yarandıqda məcazi mənada işlədilir. Lakin bu ayədə maneə yaradacaq amil yoxdur. Belə ki, bu ayənin maddi irs mənasında istifadə edilməsinə heç bir şey mane olmur. O, elm və hakimiyyətdən əlavə atası Davuddan (ə) mal və mülkünü də miras aparır. Xüsusi ilə də ayədə ***"Bizə hər şeydən verildi"*** deyə buyurulması Uca Allahın Süleymana (ə) həm maddi və həm də qeyri-maddi şeyləri verdiyinə aydın dəlalət edir.

Bundan əlavə, Süleyman (ə) atası həyatda ikən alim bir şəxs idi. Hətta atasından daha elmli olduğunu da söyləmək mümkündür. Buna Qurani-Kərimdəki Allahın sözü də dəlalət edir: ***"Davudu və Süleymanı da (yad et)! O zaman onlar bir tayfanın qoyunlarının girib xarab etdiyi bir əkin sahəsi haqqında hökm verirdilər və Biz də onların hökmünə şahid idik. Biz onu (məsələnin hökmünü) dərhal Süleymana anlatdıq. Və onların hər birinə hökm (hikmət, peyğəmbərlik) və elm (şəriəti dərindən bilmək) verdik".***[429] Bu ayə Süleymanın (ə) hələ atası Davudun (ə) zamanında peyğəmbər olduğuna aydın ifadə edir. Belə ki, Uca Allah Davuda (ə) bildirmədiyini Süleymana (ə) bildirir.

Hətta bu və ardınca gələn digər ayələr aşkar bəyanla Uca Allahın həm Davuda (ə) və həm də Süleymana (ə) hikmət və elm verdiyini göstərir: ***"Davudu və Süleymanı da (yad et)! O zaman onlar bir tayfanın qoyunlarının girib xarab etdiyi bir əkin sahəsi haqqında hökm verirdilər və Biz də onların hökmünə şahid idik. Biz onu (məsələnin hökmünü) dərhal Süleymana anlatdıq. Və onların hər birinə hökm (hikmət, peyğəmbərlik) və elm (şəriəti dərindən bilmək) verdik. Biz dağları və quşları Davudla birlikdə (Allahı) təqdis edib tərifləsinlər deyə ona ram etdik. Bunları (sizə təəccüblü görünsə də, lövhi-***

[429] Ənbiya, 78-79

məhfuzdakı əzəli hökmümüzlə) Biz etmişdik. Biz (Davuda) sizi (düşmənlə) vuruşda qorumaq üçün zireh (toxumaq) sənətini öyrətdik. Artıq şükür edərmisiniz? Əmri ilə bərəkət verdiyimiz yerə (Şama) doğru şiddətlə əsən küləyi də Süleymana biz ram etdik. Biz hər şeyi bilənik! Biz şeytanlardan qəvvaslıq edənləri və başqa işlər görənləri (ev tikənləri, mehrab düzəldənləri) də onun ixtiyarına verdik. Biz (Süleymanın əmrindən çıxmasınlar, gördükləri işləri təzədən korlamasınlar, fitnə-fəsad törətməsinlər deyə) onların üstündə göz olurduq".[430]

Ayə onların hər ikisini elm və hikmət verildiyini buyurur. Yəni onların şərik olduqları bir elmdən. Bu elm quşların dilini bilməkdir. Buna Süleyman peyğəmbərin (ə): ***"Ey insanlar! Bizə quş dili öyrədildi!"*** sözü də dəlildir. Həmçinin onlardan hər birinin özünəməxsus xüsusiyyətləri də var idi. Davudla birlikdə (Allahı) təqdis edib tərifər söyləmək üçün dağlar ona ram edilmişdi. Dəmir onun üçün əlində əriyirdi. O bunun vasitəsilə zireh, qılınc və digər savaş alətləri düzəldirdi. Bununla belə Süleymana (ə) isə küləyin əmrinə əsasən əsdirmək, şeytan və cinlərin hakimiyyətinin ram edilməsi bəxş olunmuşdu.

Onların arasındakı müştərək xüsusiyyətləri Uca Allah hər ikisinə müəyyən peyğəmbərlik keyfiyyəti olaraq lütf etmişdi.

Həmçinin Uca Allahın ***"Biz onu (məsələnin hökmünü) dərhal Süleymana anlatdıq"*** sözü də ondan əvvəl heç kimə, hətta atası Davuda (ə) belə bəxş edilməyən xüsusi bir elmdən söhbət açır. Uca Allah anlamaq fəzilətini ona lütf göstərir. Qurtubi bir dəstə Əhli-Sünnə alimlərindən nəql edir: ***"Biz onu (məsələnin hökmünü) dərhal Süleymana anlatdıq"*** sözünü onun Davuddan (ə) üstünlüyünə dəlalət etdiyini bildiriblər. Onun bu fəziləti də Davud (ə) üçün bir fəzilətdir. Çünki övladının üstünlüyünü görmək ataya sevinc bəxş edir".[431]

---

[430] Ənbiya, 78-82

[431] Təfsir, Qurtubi, c. 11, s. 308

Əlavə olaraq, elm kəsbi məsələlərdəndir, yalnız səy və tələbkarlıqla əldə edilə bilər. Əgər onun birindən digərinə intiqalı fərz edilsə, bu ancaq düşüncə və baxış nəzərindən doğru sayılar. Halbuki nəbi və rəsullardakı elm Allahın onlara bir bəxşişi və lütfüdür. Bu elm düşüncə və nəzərə əsasən əldə edilmir. Bununla da bir peyğəmbər öz elmini nə özündən əvvəlki peyğəmbərdən və nə də bir başqasından miras aparmır.

Bəlkə də, buna görə Əhli-Sünnənin böyük müfəssirləri irs ayələrini elm deyil, nübuvvət və hakimiyyət mirası olaraq izah etmişlər. Çünki elm miras aparmağın heç bir mənası yoxdur. Ayənin də bəyan etdiyi kimi, Süleyman (ə) həmin vaxtda atasından daha elmli idi. Səmərqəndi "Təfsir" əsərində yazır: "Uca Allah buyurur: ***"Süleyman Davuda varis oldu".*** Yəni, mülkünə varis oldu".[432]

Nəsəfi yazır: ***"Süleyman Davuda varis oldu" –*** nübuvvət və hakimiyyətdən irs apardı".[433]

Razi deyir: ***"Süleyman Davuda varis oldu".*** Burada ehtimal nübuvvət və hökmdarlıq mirasıdır".[434]

Qurtubi yazır: "Süleyman onun mülkünə və peyğəmbərlik məqamına varis oldu".[435]

İbn Kəsir yazır: ***"Süleyman Davuda varis oldu"*** – yəni, nübuvvətdə varis oldu".[436]

Alusi deyir: ***"Süleyman Davuda varis oldu"*** – yəni nübuvvət və hökmdarlıqda onun yerinə keçdi".[437]

Elmin miras olaraq keçəcək bir məfhum olmadığına görə, (eləcə də peyğəmbərliyin də mirasla keçmədiyi barədə bir az əvvəl qeydlər verdik. Bunu

---

[432] Təfsir, Səmərqəndi, c. 2, s. 575
[433] Təfsir, Nəsəfi, c. 3, s. 206
[434] Təfsir, Razi, c. 21, s. 184
[435] Təfsir, Qurtubi, c. 13, s. 164
[436] Təfsir, İbn Kəsir, c. 3, s. 117; c. 4, s. 36
[437] Təfsir, Alusi, c. 19, s. 170

Qurtubi Nəhhasdan[438] nəql edirdi. Bundan əlavə, Süleyman atasının zamanında artıq peyğəmbər idi) miras aparılan şeyin peyğəmbərlik olmasının heç bir mənası qalmır. Hakimiyyətin də əsasını maddi imkanların təşkil etdiyini söyləmişdik. Bununla da məqsədin maddi mirasdan başqası olmadığı aydınlaşır. Ayələrin bu ardıcıllığı da irsin maddi olmasına bir maneə deyil.

Bunu dəstəkləyən digər amil isə bəzi Əhli-Sünnə təfsir alimlərinin Uca Allahın ***"axşamüstü ona cins, çapar atlar göstərildiyi zaman"***[439] ayəsinin izahında məqsədin Süleymana (ə) atası Davuddan (ə) qalan atlar olduğunu söyləməsidir. Ğərnati[440] isə bu sözü əksər alimlərə nisbət verərək deyir: "Bu ayənin hekayəsi barədə müxtəlif fikirlər səsləndirilib. Əksər alimlər demişlər: Süleymana (ə) təqdim edilən bu atlar atasından miras qalmışdı... Atların görünüşü onun nəzərlərini yayındırmış və axşam olmuşdu. Nəticədə axşam (əsr)[441] namazı qəzaya getmişdi. Bundan çox təəssüflənərək demişdi: ***"Onları (atları) mənə qaytarın!"*** Namazının qəza olmasına səbəb olduqlarına görə onların boyunlarını və qıçlarını qılıncdan keçirməyə başladı".[442]

Bu Eyni də "Umdətul-qari"də[443], Sələbi və Bəğəvi öz "Təfsir"lərində[444] Muqatildən nəql edirlər: "Süleyman (ə) atası Davuddan min dənə at irs aparmışdı..."[445]

İkinci amil: Süleymanın (ə) xüsusi qeyd edilməsi

---

438 Təfsir, Qurtubi, c. 11, s. 81

439 Sad, 31

440 İbn Cüzey Ğərnati – Muhəmməd ibn Muhəmməd ibn Əhməd ibn Muhəmməd ibn Abdullah ibn Yəhya ibn Əbdürrəhman ibn Yusuf ibn Səid ibn Cüzey Kəlbi, Əbülqasim Ğərnati Əndəlusi Maliki. Lisanuddin ibn Xətibin şeyxlərindəndir. Hicri 693-cü ildə doğulmuş və 758-ci ilin Rəbiul-əvvəl ayının əvvəlində vəfat etmişdir. Bir çox fiqhi və etiqadi əsərin sahibidir.

441 Əslində, belədir.

442 ət-Təshilu liulumit-tənzil, Ğərnati Kəlbi, c. 3, s. 184

443 Umdətul-qari, Eyni, c. 16, s. 13

444 Təfsir, Sələbi, c. 8, s. 199; Təfsir, Bəğəvi, c. 4, s. 60

445 Umdətul-qari, Eyni, c. 16, s. 13; Təfsir, Sələbi, c. 8, s. 199; Təfsir, Bəğəvi, c. 4, s. 60.

Süleymanın (ə) xüsusi qeyd edilməsi onun atasından qeyri-maddi, xüsusi bir irs apardığına dəlildir. Əks təqdirdə bu xüsusiləşdirmənin heç bir mənası olmaz. Davudun (ə) Süleymandan əlavə də övladları var idi. İbn Kəsir bu ayənin şərhində deyir: "Burada məqsəd maddi miras deyil. Əks təqdirdə digər övladları qeyd etmədən mirası yalnız Süleymana (ə) aid etməzdi. Məlum olduğuna əsasən, Davudun yüz zövcəsi var idi".[446]

Müzakirə:

Davudun (ə) övladlarının çox olduğunu bildirən rəvayətlər xəbəri-vahidlərdir, bu da ayənin zahirinin maddi mirasa şamil olmasına heç bir maneə yaratmır. Xüsusilə də, hökm ayəsinə. Bu rəvayətlər təfsir və tarix kitablarında[447] mürsəl (raviləri qeyd olunmadan) nəql ediliblər, heç bir istinadını görməmişik.

Şiə yolu ilə isə yalnız bir rəvayət qeyd edilib. Onu Şeyx Kuleyni özünün "əl-Kafi" kitabında İmam Əbu Abdullah Sadiqə (ə) istinad edilərək nəql edir. Uzun rəvayətdə deyilir: "Davudun (ə) bir neçə övladı var idi".[448]

Rəvayətin sənədində Bəkr ibn Saleh, Müəlla ibn Muhəmməd və Eysəm ibn Əsləm adlı şəxslər var. Onlardan Bəkr ibn Salehin Nəccaşi öz "Rical"ında zəif olduğunu bildirir: "Zəif ravidir".[449] Ğəzairi isə deyir: "Olduqca zəifdir".[450]

Müəlla ibn Muhəmməd barədə Nəccaşi deyir: "Hədisləri və məzhəbi şübhəlidir".[451] Eləcə də Əllamə Hilli "Xülasətul-əqval"[452] kitabında, Təfrişi "Nəqdur-rical"da[453] bunu söyləyirlər. İbn Davud onun barəsində deyir: "Hədisləri

---

[446] Təfsir, İbn Kəsir, c. 3, s. 370

[447] Bax: Tarix, Yaqubi, c. 1, s. 51; əl-Kamil fit-tarix, İbn Əsir, c. 1, s. 228; Məanil-Quran, Cəssas, c. 5, s. 120; Təfsir, İbn Zəmənin, c. 3, s. 296; Təfsir, Sələbi, c. 7, s. 193; Təfsir, Səmani, c. 4, s. 81; Təfsir, Bəğəvi, c. 3, s. 408 və s.

[448] əl-Kafi, Şeyx Kuleyni, c. 1, s. 278

[449] Rical, Nəccaşi, s. 109

[450] Rical, İbn Ğəzairi, s. 44

[451] Rical, Nəccaşi, s. 418

[452] Xülasətul-əqval, Əllamə Hilli, s. 409

[453] Nəqdur-rical, Təfrişi, c. 4, s. 398

mərufdur və inkar edilir, zəif ravilərdən hədis rəvayət edirdi".[454] İbn Ğəzairidən nəql edilir: "Müəlla ibn Muhəmməd Bəsri, Əbu Muhəmməd, hədisləri mərufdur və inkar edilir. Zəiflərdən rəvayət edib. Hədislərindən hansısa bir məsələni dəlil olaraq götürmək caizdir".[455]

Eysəm ibn Əsləmə gəldikdə, o, məchul şəxsdir. Rical kitablarında onu etibarlı edəcək heç bir söz qeyd edilməyib.[456]

Bundan əlavə, Uca Allah Qurani-Kərimdə ***"Biz Davuda Süleymanı bəxş etdik"***[457] deyə buyurmaqla onu Özünün nemətlərindən olduğunu bildirir. Ona Süleymanı (ə) oğul olaraq bəxş edir. Ayənin zahirindən anlaşılan odur ki, Davudun (ə) Süleymandan (ə) savayı övladı yox idi.

Əgər Davudun (ə) ondan başqa övladlarının olduğu fərz edilsə, yenə də ayədə Süleymanın (ə) adının xüsusi qeyd edilməsi digər qardaşlarına nisbətdə xüsusi bir maddi miras aparmasından qaynaqlanır. Belə ki, o, maldan əlavə, Davudun (ə) hakimiyyətini və səltənətini də irs aparır. Halbuki qardaşlarının bunda heç bir payı yoxdur. Hakimiyyət və səltənətin əsasını maddi amillərin formalaşdırdığını əvvəldə qeyd etmişdik.

Əllamə Tustəri bu amilə başqa cür cavab da verir: "Əgər ayədə Süleymanın (ə) miras apardığı xüsusi qeyd edilirsə, bu yenə də digər qardaşlarının mirasdan məhrum edildiyi mənasını vermir. Əgər ayədə məhdudlaşdırıcı bir amil olsaydı, o zaman mirasın yalnız Süleymana (ə) aid olduğunu deyə bilərdik. Lakin ayədə belə bir amil yoxdur".[458]

Üçüncü amil: Əks təqdirdə kəlmə boş və əbəs yerə istifadə olunur

---

[454] Rical, Əbu Davud, s. 279
[455] Xülasətul-əqval, Əllamə Hilli, s. 409
[456] Müstədrəkatu ilmi ricalil-hədis, Əli Namazi Şahrudi, c. 6, s. 149
[457] Sad, 30
[458] əs-Səvarimul-muhriqə, Nurullah Tustəri, s. 166

Bu da əvvəlki ayədə qeyd edilən amilin eynisidir. İbn Kəsir ***"Süleyman Davuda varis oldu"*** ayəsinin şərhində yazır: "Yəni peyğəmbərliyə varis oldu. Əgər bu maddi miras olsaydı... bunun bildirilməsində bir fayda olmazdı. Bütün şəriət və qanunlarda övladın atasından miras apardığı təsbit olunub. Əgər bu xüsusi bir irs olmasaydı, Quranda onun barəsində xəbər verməyə lüzum qalmayacaqdı".[459]

Alusi deyir: "Süleymanın (ə) bu cür varisliklə vəsf edilməsi heç də özündə üstünlük və imtiyaz iddiası ehtiva etmir. Belə ki, xeyirxah da, fasiq də öz atasından miras aparır. Əgər ümumi (maddi) vərəsəlik qeyd edilirsə, o zaman bu peyğəmbərin (ə) fəzilət və üstünlüyü nədədir?!"[460]

Müzakirə:

Əksər Əhli-Sünnə təfsir alimlərinin qeyd etdiklərinə əsasən, bu ayədəki miras nübuvvət, elm və hakimiyyət, eləcə də əvvəldə barəsində cavab verdiyimiz digər şeylərdir. İbn Kəsir bunlardan nübuvvəti seçərək deyir: ***"Süleyman Davuda varis oldu"*** – yəni, nübuvvətdə varis oldu".[461] Alusi isə bunlardan nübuvvət və elmi seçir, deyir: "Yalan xəbərlərə istinad edərək bu iki ayədəki mənanın dəlaləti barədə güman etdikləri fikir yanlışdır. Çünki bu iki ayədəki irs nübuvvət və elm mirasıdır".[462]

Əvvəldə də qeyd etdiyimiz kimi, mirasın nübuvvət və elm iddiası ən bəsit "amil"dir. Çünki bu iki məfhum birindən digərinə keçmir və miras aparılmır. Nübuvvət bütünlüklə Allahın əmrində olan işdir. Uca Allah buyurur: ***"Rəbbin istədiyini yaradar və (istədiyini də peyğəmbər) seçər. Onların (istədiklərini etməyə) heç bir ixtiyarı yoxdur".***[463] İrs olaraq heç kimə keçmir. Elm də kəsbi və

---

[459] Təfsir, İbn Kəsir, c. 3, s. 476
[460] Təfsir, Alusi, c. 4, s. 218-219
[461] Təfsir, İbn Kəsir, c. 3, s. 117; c. 4, s. 36
[462] Təfsir, Alusi, c. 4, s. 218
[463] Qəsəs, 68

qazanılan bir məfhumdur, əldə edilməsi üçün səy, tələbkarlıq və çalışmağa ehtiyac duyur. Bu cəhətdən, Zəkəriyyənin (ə) fasiq qohumlarının onun elminə varis olacaqlarına dair heç bir qorxusu ola bilməzdi. Bəzi Əhli-Sünnə alimləri peyğəmbərliyin miras ola bilməyəcəyini aydın bildirmişlər. Qurtubi Nəhhasdan nəql edir: "Ancaq "peyğəmbərlik (nübuvvət) miras apardılar" sözü mümkünsüzdür. Çünki nübuvvət irsən keçməz. Əgər irslə keçsəydi, o zaman bir kəs deyə bilər: "İnsanlar Nuhun (ə) nəsil qohumlarıdırlar, o, mürsəl peyğəmbər idi (Beləliklə insanların da peyğəmbərlikdən mirasları olmalıdır)".[464]

Sonuncu amil əvvəlkilərdən ən zəifidir. Ayə barədə deyilənləri aydın dəlillərlə batil etdikdən sonra təsəvvür edilən ən yaxın nəzər mirasın məhz mal və mülk olduğunu demək qalır. Bunu İbn Kəsir və Alusinin mövzu ilə bağlı ehtimal edilən zəif və uzaq nəzərlərlə kənara atmaq mümkün deyil. Bundan əlavə, ən kiçik şərh belə ayədəki kəlmənin boş və əbəs istifadə edilmədiyini isbatlamağa kifayət edir. Ayədə (varlıqları fərz olunduğu təqdirdə) digər övladlar yad edilmədən yalnız Süleymanın (ə) varis olaraq zikr edilməsinə cavab xarakterli məntiqə uyğun başqa bir cəhəti qeyd etmək olar: Süleymanın (ə) Davuddan (ə) irs aparmasının xüsusi olaraq vurğulanması bunun yalnız mal-mülk cəhətdən olmadığını bəyan etmək üçündür. Belə ki, digər varislərin aldıqları paydan əlavə Süleyman (ə) atasının həm hakimiyyət və səltənətinə varis oldu. Bununla bərabər, hakimiyyət və səltənətin maddi mirasdan olduğunu əvvəldə izah etmişik.

Xülasə: Təqdim edilənlərdən aydın olur ki, bu iki ayə barədə qeyd edilən hər hansı bir amil irsi həqiqi maddi məfhumundan uzaqlaşdıra bilməz. Bununla da mirasın maddi olmadığına və ya başqa mənaların da daxil olduğuna heç bir əsaslı dəlil qalmır. Bu barədə yalnız əsaslandıqları Əbu Bəkrin "Miras buraxmarıq" hədisidir. Necə ki, bir dəstə Əhli-Sünnə alimləri də bu iki ayənin qeyri-maddi mirasa şamil olduğuna yalnız peyğəmbərlərin (ə) miras buraxmadıqlarına dair

[464] Təfsir, Qurtubi, c. 11, s. 81

səhih hədisin əsas olduğunu qeyd etmişlər. Qurtubi ayələrdəki miras barədə fikirləri nəql etdikdən sonra deyir: "Buna əsasən, malına varis olacaq övlad diləmir, çünki peyğəmbərlər özlərindən sonra miras qoymazlar. Bu, ayə barədəki ən düzgün fikirdir. Peyğəmbərimiz də (ə) öz mirasını mal-mülk deyil, nübuvvət və elm mirası olaraq izah etmişdi. Onun (s) belə buyurduğu təsdiqlənib ki: *"Biz peyğəmbərlər özümüzdən sonra miras buraxmarıq, geridə qoyduqlarımız sədəqədir".* Əbu Davudun kitabında yazılıb: "Alimlər peyğəmbərlərin varisləridir. Çünki peyğəmbərlər dinar və dirhəm miras qoymazlar, onlar yalnız elmi irs buraxarlar".[465]

Həmçinin deyir: "Süleyman (ə) Davuddan (ə) mal irsi aparmadı, onun hikmət və elminə varis oldu. Eynilə Yəhya da Yaqub nəslinin bu irsindən miras aparmışdı. Rafizilərdən savayı bütün elm əhli Quranın bu ayələrindəki izahın belə olduğunu söyləmişlər. Yalnız Həsəndən nəql ediləndən başqa... Peyğəmbərin ("Miras buraxmarıq") sözünə zidd olan hər bir söz yanlışdır və tərk edilməlidir".[466]

Ğərnati deyir: ***"Buna görə də mənə Öz dərgahından bir oğul (vəli) bəxş et"*** – yəni varisim olacaq bir vərəsə. Deyilib: Yəni malımın varisi. Həmçinin elm və nübuvvətin varisi olduğu da deyilib. Bu son fikir Peyğəmbərin (s) də sözünə əsasən ən uyğunudur. O (s) buyurub: *"Biz peyğəmbərlər özümüzdən sonra miras buraxmarıq".*[467]

Əbus-Səud deyir: "Uca Allahın ***"varisim olsun"*** sözü oğulun (vəlinin) sifətidir... Yəni elm, din və nübuvvətdə mənim varisim olsun. Çünki peyğəmbərlər (ə) mal-mülk miras buraxmazlar. Peyğəmbər (s) buyurub: *"Biz peyğəmbərlər özümüzdən sonra miras buraxmarıq, geridə qoyduqlarımız sədəqədir".*[468]

---

[465] Təfsir, Qurtubi, c. 11, s. 78
[466] Təfsir, Qurtubi, c. 11, s. 78
[467] ət-Təshilu liulumit-tənzil. Ğərnati Kəlbi, c. 3, s. 2
[468] Təfsir, Əbus-Səud, c. 5, s. 254-255

Şövkani deyir: "Burada məqsəd maddi miras deyil, əksinə, elm, nübuvvət və dini məsələlərə rəhbərlikdir. Peyğəmbərimizin (s) belə buyurduğu məlumdur: *"Biz peyğəmbərlər özümüzdən sonra miras buraxmarıq, geridə qoyduqlarımız sədəqədir".*[469]

Alusi məsələ ilə bağlı fikirləri qeyd etdikdən sonra deyir: "Əhli-Sünnənin səhih hədislərə əsasən rəyi budur ki, peyğəmbərlər (ə) özlərindən sonra mal-mülk buraxmaz və varis təyin etməzlər".[470]

Göründüyü kimi, ayələrin qeyri-maddi mirasa şamil edilməsində və mirasın məcazi mənada istifadə olunduğunda əsas dəlilləri məhz Əbu Bəkrin bu hədisidir. Bizim də söhbətimizin əsas mövzusu elə bu hədisdir. Belə ki, əgər bu amil (Əbu Bəkrin hədisi) həmin ayələrin xüsusi miras haqqında istifadə edilməsinə işarə edirsə, o zaman ayələrlə bağlı bu izahı Peyğəmbər (s) həyatda ikən ən azından bəyan edər və ya ona eyham vurardı. Lakin nə sünni və nə də şiə mənbələrində təfsir, hədis və tarix alimləri bu ayələrdən biri nazil olanda Peyğəmbərin (s) bu sözləri və ya buna bənzər izahları söylədiyini nəql etməmişlər. Halbuki həmin mənanı ifadə etmək üçün bu ən münasib zaman idi. Bu iki ayədən biri nazil olarkən Peyğəmbər (s) nəbi və rəsulların mirası, xüsusilə də, özündən sonra varisi olacaq Əhli-Beyti (ə) ilə bağlı bütün hökmləri təfsilatlı şəkildə şərh və izah edərdi. Belə ki, Uca Allah Quranda buyurur: ***"Sənə də Quranı nazil etdik ki, insanlara onlara göndəriləni (hökmləri, halal-haramı) izah edəsən və onlar da düşünüb dərk edələr!"***[471]

Lakin bunun əvəzinə Peyğəmbərin (s) vəfatından sonra Əbu Bəkrin anidən Əhli-Beytə (ə) qarşı bu hədisi dəlil göstərdiyini, Qurana bərabər olan Əhli-Beytə (ə) rəğmən öz rəyini əsas götürərək onları dinləməkdən imtina etdiyini görürük. Sanki, zəlalətdən uzaq olmaq üçün bu işdən çəkinməyi Peyğəmbər (s) "Səqaleyn"

---

[469] Fəthul-qədir, Şövkani, c. 3, s. 322

[470] Təfsir, Alusi, c. 16, s. 64

[471] Nəhl, 44

hədisi ilə vəsiyyət etmişdi. Bütün bunlar insanı hədisin həqiqətində şəkkə salan qəribə məsələlərdir.

Bunlardan əlavə, həmin hədis Əbu Bəkrin dövründə belə heç bir başqa şəxsdən rəvayət edilməyib. Onu Ömərin dövründə bəzi səhabələr rəvayət etmişlər ki, bu da səhabə haqqında hüsnü-zənn qaydasına uyğun olaraq onların rəvayətini dəstəkləmək xarakteri daşıyıb. Belə ki, onlar bu sözü şəxsən Peyğəmbərin (s) özündən eşitməmiş, öz rəvayətlərində Əbu Bəkrin Peyğəmbərdən (s) eşitdiyinə əsaslanmışlar.

Nəticə:

Söylənən amilləri və onlara verilən cavabları nəzərə alaraq, ayələrdə maddi və mənəvi irsin eyni vaxtda ifadə edildiyini söyləmək də mümkündür. Məqsəd varisin atasını məqamına və yerinə oturduğunu bildirməkdir. Bununla da atasına məxsus olan bütün maddi-mənəvi haqlar onun üçün də hasil olur və hər iki məsələdə dəstəklənir. Ona görə də yalnız xüsusi mənaya üstünlük verənlər onun yanında bu cəhəti də qeyd etməyə çalışmışlar. Bunu Fəxr Razi kimi bəzi Əhli-Sünnə alimlərinin sözlərində də müşahidə edirik. Razi öz "Təfsir"ində deyir: "Daha yaxşı olar ki, buradakı mirası dinin fayda və məsləhəti üçün olan hər bir şeyə aid edək. Bu isə özündə peyğəmbərliyi, elmi, gözəl əxlaqı, dində üstün məqamı, mal-mülkü və saleh əməlləri ehtiva edir. Bütün bunların daimi qalmasını arzulamaq olar ki, həmişə fayda versin".[472]

Mirasla bağlı ümumi ayələr

Qurani-Kərimdə heç bir nəbi və rəsulu istisna etmədən, ümumi və mütləq şəkildə miras məsələləri ilə bağlı hökmləri bildirən bir çox ayə var. Məsələn:

[472] Təfsir, Razi, c. 21, s. 184

"Oğula iki qız hissəsi qədər pay düşür";[473] "Qohumlar Allahın Kitabında (Quranda irs, varislik baxımından) bir-birinə daha münasibdirlər (yaxındırlar)".[474]

Bütün müsəlmanların rəy birliyinə əsasən, Quranda bu ayələri xüsusiləşdirəcək heç bir ayə yoxdur. Peyğəmbər (s) vəfat etdiyi vaxtadək aralarında Əhli-Beyt (ə) də olmaqla bütün müsəlmanlar bu ayələri xüsusiləşdirəcək heç bir amili belə bilmirdilər. Lakin Fatimə (ə) öz atasının irsini tələb etdikdə Əbu Bəkr Peyğəmbərdən (s) eşitdiyini iddia edərək bu amili irəli sürdü. Bu hədislə də Əhli-Sünnə alimləri qarşısında irslə bağlı ayələri xüsusiləşdirməyin qapısını açdı.

Müsəlman alimlərinin nəzərində aydın məsələdir ki, xüsusiləşdirici bir amil yalnız Peyğəmbər (s) sözü olduğu (kəlmə cəhətdən) və dəlalət (kəsb etdiyi məna) cəhətdən höccət olması sübuta yetdikdən sonra təsir gücünə sahib ola bilər. Qeyd edilən hədisdə isə bu iki məsələ naqisdir. Peyğəmbər (s) sözü olması baxımından – biz bunu inkar edəcək bir neçə dəlil və amil qeyd etdik. Dəlalət cəhətinə gəldikdə isə "...ma tərakna sadaqatun"[475] (özümüzdən sonra qoyduqlarımız sədəqədir) sözü barədə mübahisə yaranıb. Ehtimal olunur ki, buradakı "ma" "o şey ki," mənasında olan bağlayıcı (mousul) isimdir. Bu cəhəti Razi də öz "Təfsir"ində iqrar edib: "Ehtimal olunur ki, "...ma tərakna sadaqatun" ibarəsi "La nuvarrisu" (miras buraxmarıq) sözünə bağlanır. Təqdir isə belə olur: "Bizim özümüzdən sonra buraxdığımız o şey ki, sədəqədir, ona varis təyin etmərik".[476]

Buna əsasən peyğəmbərlərin (ə) mirasının xüsusiləşməsinin heç bir mənası qalmır. Çünki şəriətə əsasən də, heç bir varis vəfat edən şəxsin ayırdığı sədəqədən pay götürə bilməz.

---

[473] Nisa, 11

[474] Ənfal, 75

[475] Səhih, Buxari, c. 8, s. 3

[476] ət-Təfsirul-kəbir, Razi, c. 9, s. 210-211

Xüsusiləşmə dedikdə, peyğəmbərlərin (ə) digər insanlara nisbətdə özlərindən sonra sədəqə qoymasındakı fərq ehtimalıdır. Belə ki, peyğəmbərlərin (ə) bir şeyi sədəqə ayırmasına qərar verməsi artıq həmin əşyanı onların mülkündən çıxararaq sədəqəyə çevrilməsi deməkdir.

Bu iradı və cavabını Fəxr Razi "Təfsir"ində belə təsdiqləyir: "Əgər deyilsə ki, bu təqdirə əsasən, Peyğəmbərin (s) miras məsələsində heç bir xüsusi amil qalmır. Cavab olaraq deyərik: "Xeyr, xüsusilik qalır, belə ki, peyğəmbərlərin (ə) müəyyən malını sədəqə etmək qərarı artıq həmin malı onun mülkiyyətindən çıxarır və heç bir varis ondan miras apara bilmir. Halbuki digər insanlar barədə belə bir xüsusiyyət yoxdur[477]".[478]

Lakin Fəxr Razi "ma" kəlməsinin bağlayıcı (mousul) olma ehtimalını əsasən alınacaq cavabı bəyan etmədi. Yalnız: "Fatimə (ə) bu söhbətdən sonra Əbu Bəkrin sözü ilə razılaşdı, Əbu Bəkrin söylədiyinin doğruluğunda hamı həmfikir oldu (icma etdi). Və bu məsələ də aradan qalxdı. Doğrusunu Allah bilir".[479]

Bu cavabın acizliyi açıq-aydındır. Belə ki, fəslin əvvəlində Buxarinin "Səhih"ində qeyd etdiyi rəvayətə əsasən, Xanım Fatimənin (ə) Əbu Bəkrə qəzəbli və ondan narazı halda dünyadan köçdüyünü bildirdik.[480] Bəs o nə zaman razılaşdı və bu zənn olunan icma nə vaxt baş verdi?!

Peyğəmbərlərin (ə) mirası barədə hədisin məsdəri barədə də həmçinin mübahisə var. Bəzən miras buraxmamaqda məqsəd onların mütləq şəkildə miras qoymadıqları deyil, adət və rəftarlarının belə olduğudur. Necə ki, bunu İbn Ətiyyə də ehtimal edir. Qurtubi "Təfsir"ində ondan nəql edərək yazır: "*Biz peyğəmbərlər miras qoymarıq"* sözündə məqsədin peyğəmbərlərin adət və rəftarının belə olduğu ehtimal edilir. Baxmayaraq ki, onların arasında məşhur rəyə əsasən, Zəkəriyyənin (ə) mal miras buraxdığı da qeyd edilib. Bu sözün mənası, sanki,

---

[477] Yəni, onlar bir şeyi sədəqə vermədikcə onların mülkiyyətindən çıxmır.

[478] ət-Təfsirul-kəbir, Razi, c. 9, s. 210-211

[479] ət-Təfsirul-kəbir, Razi, c. 9, s. 210-211

[480] Səhih, Buxari, c. 4, s. 42; c. 5, s. 82, 154

sənin belə dediyin kimidir: “Biz müsəlmanların məşğuliyyəti ibadətdir”. Məqsəd isə bunu çox vaxtlar etdiyinizi bildirməkdir. Buna əsasən Sibəveyh yazır: “Biz ərəblər millətlərin arasında ən qonaqpərvər xalqıq”.[481]

Bu sözlərə əsasən Əbu Bəkrin hədisindən heç də ümumi mənanı xüsusiləşdirəcək fikir yaranmır.

Nəticə: Yaranmış bütün bu irad və suallar hədisin düzgün anlaşılması qarşısında bir çox amilləri ortaya çıxarır, eləcə də onun mövcudluğu barədə suallar yaradır.

Xətm

Bəhsimizdə aldığımız nəticələri aşağıda sadalayacağımız bandlərlə müxtəsər şəkildə qeyd edə bilərik:

1. İslam şəriəti aydın şəkildə İslam dövlətinin maliyyə və gəlir mənbələrini, eləcə də dövlət rəhbərinin həmin mal üzərindəki səlahiyyəti müəyyən edib. İlk dövrlərində İslam dövlətinin maliyyə mənbələri əsasən ənfal, fey və hərbi qənimətlər olub. Bunların hər birinin özünəməxsus hökmləri də var idi ki, həm şiə və həm də Əhli-Sünnənin nəzərində bunlar aydın məsələlərdir. Həmçinin bunların hökm və mövzu cəhətdən eyni olmadığı da məlumdur. Onların bəzisi rəhbərin (imamın) malıdır ki, ondan istədiyi kimi xərcləyər, bəzisi müsəlmanlarındır, bəzisi isə Peyğəmbərin (s) xüsusi malıdır. Lakin İlahi İhsan Zahir məsələni bütöv bir şəkildə götürərək onun eyni məfhum olduğunu təsəvvür edib.

2. Ənfal (təkdə: nəfl) – lüğətdə haqq etdiyindən artıq mənasındadır. Şiə fiqh alimlərinin istilahında isə Peyğəmbərə (s) məxsus olan əlavə maldır. Peyğəmbərdən (s) sonra həmin malın sahibi İmamdır (ə). Bu, Allahın onlara lütfüdür. Üzərinə at və ya dəvə sürülüb hücum edilmədən əldə olunan torpaqlar

[481] Təfsir, Qurtubi, c. 13, s. 164

da ənfala aiddir. Fey şiələrin nəzərində ənfaldan sayılır. Ənfalın üzərinə xüms gəlmədiyi barədə onlar həmfikirdirlər. Belə ki, bu mal xalis olaraq Peyğəmbərə (s), ondan sonra da İmama məxsusdur. İmam dedikdə məqsədləri Möminlərin əmiri (ə) və özündən sonra onun ard-arda on bir övladıdır (ə).

Aydındır ki, Peyğəmbər (s) həyatda ikən ənfaldan xərclədiyi mallar həmin malları bu ünvandan çıxarır və artıq həmin mala ənfalın hökmləri şamil olmur. Əgər ənfaldan bir şeyi bir şəxsə versə, həmin mal o şəxsin mülkiyyətinə çevrilir, bundan sonra o mala ənfal deyilmir.

Bütün şiələr Peyğəmbər (s) həyatda ikən Fədəyi qızı Fatiməyə (ə) hədiyyə etdiyində həmfikirdirlər. Bu, İmamların (ə) vasitəsilə də rəvayət olunub. Buna əsasən fey olan Fədək sırf Fatiməyə (ə) məxsus mülkə çevrilib. Şiə hökmlərinə əsasən, artıq İmamın onun üzərində heç bir səlahiyyəti qalmır.

3. Şiə alimlərinin nəzərində qənimət hökm və mövzu cəhətdən ənfaldan fərqlənir. Qənimət onların nəzdində müşriklər üzərində qələbə ilə ələ keçirilən və onlardan zorla alınan, həmçinin qazancla əldə olunan mallardır. Bunların hər ikisindən xüms tələb olunur. Əhli-Sünnənin əksər alimlərinin istilahında ənfal elə qənimətdir. Onlar buradakı məqsədin yalnız darul-hərbdə (savaş meydanında, savaş baş verən şəhərdə) kafirlərdən zorla alınan mallar olduğunu söyləyirlər. Onların rəy birliyinə əsasən, ənfal heç bir müsəlman şərik olmadan, bütünlüklə Peyğəmbərə (s) məxsus idi. Necə ki, buna Uca Allahın sözü də şahidlik edir: ***"Səndən (müharibədə əldə edilmiş) qənimətlər (onların kimə çatması) haqqında soruşarlar. De: "Qənimətlər Allahın və Peyğəmbərinindir".***[482] Lakin onların iddialarına əsasən sonradan həmin ayə Uca Allahın bu digər ayəsi ilə nəsx (hökmü ləğv) olundu: ***"...bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin beşdə biri Allahın, Peyğəmbərin, onun qohum-əqrəbasının, yetimlərin, yoxsulların və müsafirindir".***[483] Nəticədə qeyd olunan şəxslər də Peyğəmbərlə (s) birlikdə

[482] Ənfal, 1

[483] Ənfal, 41

ənfala şərik oldular. Həmçinin onlar Fədəyin qənimət mənasında olan ənfal olmadığında həmfikirdirlər. Çünki Fədək üzərinə at və ya dəvə ilə hücum çəkilmədən əldə edilmişdir. Beləliklə də, şəxsən Peyğəmbərə (s) məxsus idi.

4. Fey – lüğətdə "qaytarmaq" deməkdir. Əhli-Sünnənin istilahında isə müsəlmanların üzərinə at və ya dəvə ilə hücum etmədən əldə etdikləri mallardır. Onların əksər alimləri feyin xərclənmə hüququnun yalnız Peyğəmbərə (s) məxsus olduğunu bildirirlər. Həmçinin onlar Fədəyin heç bir hücum olmadan əldə edilən və xalis Peyğəmbər (s) mülkiyyəti olduğuna həmrəydirlər.

Şiə fəqihlərinin istilahında fey müsəlmanların at və ya dəvə ilə hücum etmədən əldə etdikləri şeylərdir. Bunlar, xüsusilə, Peyğəmbərə (s), ondan sonra isə Əhi-Beytə (ə) məxsusdur. Şiə alimlərinin nəzərində feynin ənfaldan olduğunu yuxarıda qeyd etdik. Eləcə də onlar Fədəyin Peyğəmbər (s) tərəfindən Fatiməyə (ə) hədiyyə edildiyində həmfikirdirlər.

5. Fədəyin hücum edilmədən alınan mülk olduğu və xalis Peyğəmbərə (s) məxsus olması barədə müsəlmanların arasında fikir birliyi mövcuddur. Bu mülkdə onun heç bir şəriki yox idi. Onun ənfal, fey və ya hər hansı bir adda olduğuna göz yumsaq, sırf Peyğəmbərə (s) məxsus mal olmasında heç bir ixtilaf yoxdur. Bu mülkü Peyğəmbərin (s) canının bir parçası olan qızı Fatiməyə (ə) verdiyinə dair şiələrin icması (fikir birliyi) var. Buna əsasən həmin mülk Peyğəmbərin mülkiyyətindən çıxaraq qızın xüsusi mülkiyyətinə çevrilib. Əhli-sünənnin etiqadına əsasən, Peyğəmbər (s) özündən sonra miras buraxmayıb və geridə qoyduqları bütünlükdə sədəqədir, eləcə də Fədək Peyğəmbərin (s) mülkiyyətindən çıxmamış və həmin sədəqələrdən hesab edilməlidir.

Bunlara əsasən, İlahi İhsan Zahirin hakimin Fədəkdən istifadə etməkdə daha çox haqqa sahib olduğu fikrinin nə qədər puç olduğu aydınlaşır. Belə ki, onun sözlərinə görə, Fədək dövlətin malıdır, ənfaldandır (qənimətdir) və hakimin sərəncamındadır. Halbuki şiə hökmlərinə əsasən Fədək ənfal olmaqdan çıxıb və artıq ona ənfalın hökmləri tətbiq edilməz. Çünki Peyğəmbərin (s) həyatda ikən

ondan istifadə etdiyi barədə həmfikirdirlər. Sonra onu qızına hədiyyə etmiş və bununla da öz mülkiyyətindən çıxaraq qızının şəxsi mülkiyyətinə çevrilmişdir. Bu əsasla imamın (rəhbərin) onun üzərində heç bir haqqı yoxdur. Necə ki, Əhli-Sünnə də Fədəyin hücum edilmədən əldə olunan və xalis Peyğəmbərə (s) məxsus mülk olduğunda həmfikirdirlər. Eləcə də vəfat edənədək Fədək onun mülkiyyəti olaraq qaldığını bildirirlər. Peyğəmbərin (s) miras buraxmadığında, geridə qoyduqlarının sədəqə olduğunda onların rəy birliyi mövcuddur və Fədəyi Peyğəmbərin (s) vəfatından sonra sədəqələr sırasına daxil edirlər.

Bununla aydın olur ki, rəhbərin Fədəkdən istifadə etməkdə daha çox haqq sahibi olması fikrinin heç bir əsası yoxdur, o yalnız Peyğəmbərin (s) sədəqəsi olaraq onu saxlaya bilər. Çünki onlar (ə) miras buraxmamışlar. Bu heç də yeni fikir deyil, əksər Əhli-Sünnə alimlərinin məsələ ilə bağlı rəyi belədir. Şiə alimləri onların bu qənaətinin yanlışlığına dair bir çox nəqli və əqli dəlillər təqdim etmiş, nəbi və rəsulların ümumi miras hökmlərindən kənarda qalmadıqlarını qeyd etmişlər.

6. Fədəyin əldən-ələ keçdiyi tarix mərhələləri onun barəsində müəyyən bir hökmün rəhbər tutulmadığını və aydın bir dəlilə əsasən rəftar olunmadığını göstərir. Əksər vaxtlarda onun hökmü ictihad, siyasət, şəxsi rəy, acgözlük və s. amillərə əsasən verilmişdir. İlk üç xəlifənin onunla rəftarı bir-birindən tam fərqlənmiş, Əməvi və Abbasi hakimiyyətləri dövründə isə tam başqa hökmlər verilmişdi. İlk çağlarda Əbu Bəkr onu Əhli-Beytdən (ə) aldı. Ömər isə xilafəti illərində onu miras olaraq deyil, yalnız idarəçilik üçün onlara qaytardı. Osman isə xilafət rəhbərliyinə gəldikdən sonra Fədəyi Allah düşməni və Peyğəmbərin (s) Mədinədən qovduğu Mərvan ibn Həkəmə verdi. Belə ki, Osman Mərvanı Mədinəyə geri qaytararaq himayə etmiş, onu qızı ilə evləndirmişdi. İmam Əlinin (ə) xilafəti zamanında onu Mərvandan geri aldığı məlum olur. Çünki Müaviyənin xilafəti ələ keçirdiyi zaman Fədəyi ikinci dəfə Mərvan ibn Həkəmə verdiyini görürük. Mərvandan sonra Fədək Ömər ibn Əbdüləziz ibn Mərvanın vaxtınadək

Bəni-Üməyyənin əlində qaldı. Ömər ibn Əbdüləziz onu Fatimənin (ə) övladlarına qaytardı. Lakin o vəfat edəndən sonra hakimiyyətə gələn Yezid ibn Əbdüləziz onu yenidən Əhli-Beyt (ə) övladlarının əlindən aldı.

Abbasilər hakimiyyətə gəldikdə Əbülabbas Səffah Fədəyi Abdullah ibn Həsən ibn Həsən ibn Əliyə (ə) verdi. Əbu Cəfər Mənsur isə xilafəti zamanında geri aldı, Mehdi ibn Mənsur isə yenidən geri qaytardı. Ardınca Musa ibn Mehdi və qardaşı onların əlindən aldı. Ta Məmun xəlifə olanadək onların ixtiyarında qaldı. Məmun onu Fatimənin (ə) övladlarına qaytardı. Hakimiyyət Mütəvəkkilə çatdıqda yenidən geri aldı və Məmundan əvvəlki sahiblərinə verməyi əmr etdi. Müntəsir isə hakimiyyətə gəlib onu yenə də Zəhranın (ə) övladlarına qaytardı.

7. İmam Əlinin (ə) xilafəti dövründə Fədəklə bağlı məsələləri tarix bizə tam və geniş şəkildə ərz etməyib. Lakin sübut olunub ki, Fədək İmamın (ə) xilafət müddətindən əvvəl Mərvanın əlində olub və onu Osman qızı ilə evləndirdikdən sonra Mərvana hədiyyə verib. Həmçinin Möminlərin əmirinin (ə) ədalət və siyasətinə uyğun olaraq məlumdur ki, hər bir şeyi layiq olduğu yerə qaytarırdı. Xüsusilə də, insanların Osmana qəzəblənmələrinə səbəb olan məsələləri. İqtisadi siyasətin İmamın (ə) xilafətində ən ümdə məsələ olduğuna şəkk yoxdur. Onun hakimiyyətinin ən əsas vəzifəsi özündən əvvəlki hakimiyyətin süqutuna səbəb olan iqtisadi zərərləri və maliyyə fəsadlarını aradan qaldırmaq idi. Bu səbəbdən də, ilk vaxtlardan etibarən Möminlərin əmiri (ə) Osmanın hədiyyə etdiyi torpaqları və malları, o cümlədən Fədəyi geri qaytarmağa başladı. Lakin Fədəyi Əhli-Beytə (ə) verib-vermədiyi sübuta yetməyib. Əksinə, şiə mənbələrində onu Əhli-Beytə (ə) qaytarmadığına dair rəvayətlər var. Buna əsasən də həmin irad meydana atılır. İrad isə bundan ibarətdir: İmam (ə) Fədəyi Əhli-Beytə (ə) geri qaytarmaması özündən əvvəlki ilk iki xəlifənin onunla bağlı hökmünə razı olduğunu göstərir. Lakin bu iradın batilliyi aşkardır. Çünki İmam (ə) özü Fədəyin Fatiməyə (ə) məxsus olduğunu dəfələrlə bəyan etmişdir. Həmçinin onu geri qaytarmaması hakimiyyətindən öz mənfəəti üçün sui-istifadə etdiyi, əvvəlki

xəlifələrin adətini dəyişdiyi iddiaları ilə üz-üzə qalmaması, Əhli-Beytinin (ə) özündən sonra münaqişə mənbəyindən uzaq tutmaq, onları Fatimənin (ə) şəhadətindən sonra maddi mübahisələrə cəlb etməmək istəyindən, eləcə də nəticə etibarı ilə onun gəlirindən istifadə haqqının İmamın (ə) öz əlində olmasından də irəli gəlir.

8. Hədiyyə lüğətdə bir şeyi verməkdir. Termin olaraq isə qızıl və ya malı əvəzsiz bir şəxsə bağışlamaqdır. Mövzumuzda bəhs olunan məna da budur. İlk vaxtlardan etibarən bu günümüzədək buna ən aydın və barəsində ən çox mübahisə yaranan dəlil Fədəkdir. Şiə alimlərinin nəzərində qəti nəqli dəlillərlə Peyğəmbərin (s) Fədəyi qızı Fatiməyə (ə) hədiyyə etdiyi isbat olunub və onlar bu barədə həmfikirdirlər. Lakin bizim məqsədimiz məsələni Əhli-Sünnə mənbələrinə əsasən isbatlamaqdır. Dəlil olaraq, onlarda Fədəyin Fatiməyə (ə) hədiyyə olunduğuna dair bir çox rəvayətlər var. Bununla da İhsan İlahi Zahirin Fatimənin (ə) yalnız atasından qalan mirası istədiyi ilə bağlı iddiasının puçluğu aşkar olur. Hədiyyə olduğunu isbatlayan dəlillər:

A. Rəvayətlər: Bir çox sünni hədis hafiz və alimi ***"Yaxın qohuma haqqını ver"***[484] ayəsi Peyğəmbərə (s) nazil olduqda Fatiməni yanına çağıraraq Fədəyi ona verdiyini rəvayət etmişlər. Bu hədis üç böyük səhabədən – Əbu Səid Xudridən, İbn Abbasdan və Möminlərin əmiri Əlidən (ə) nəql edilmişdir. Bunu Təbəri, Bəzzar, Əbu Yəla, İbn Əbu Hatəm, İbn Mərduveyh və s. hədis kitab müəllifləri öz kitablarında qeyd ediblər.

B. Fatimənin (ə) Fədək mülkiyyəti: Əhli-Sünnə mənbələrində aydın şəkildə qeyd olunmasa da, Fədəklə bağlı mühüm məsələlərdən biri də Fədəyin Fatimənin (ə) mülkiyyətində olduğu halda Əbu Bəkrin onun əlindən alması, Xanımın (ə) xidmətçilərini oradan çıxarmasıdır. Bunlar Fədəklə irs tələbi arasına qarışmış, Xanımın (ə) tələbi barədə çox vaxt tərəddüdə yol açmışdır. O, gah Fədək mülkünü, gah da Fədəyi atası Peyğəmbərin (s) mirası olaraq tələb etmişdi. Tarixi

[484] Rum, 38

dəlillərdə Xanımın (ə) Əbu Bəkrdən tələbinin ardıcıllığı nəzərdən qaçmışdır. Dəlillər üzərindəki diqqət və araşdırma ilk olaraq hadisələrin Əbu Bəkrin Xanım Fatimənin (ə) xidmətçilərini Fədəkdən çıxarması ilə başladığını göstərir. O isə buna etiraz edərək Əbu Bəkrin yanına gəlmiş və Fədəyin ona atası Peyğəmbər (s) tərəfindən hədiyyə verildiyini söyləmişdir. Buna dəlil olaraq isə Möminlərin əmiri Əli (ə) ilə Ümmü Əyməni şahid gətirmişdi. Lakin onların şahidliyi qəbul edilməmiş və bununla da hədiyyə mövzusu bağlanmışdı. Bundan sonra Fatimə (ə) qayıdıb atasından qalan mirası istəmiş, bu dəfə də rədd cavabı almışdı. Bu səbəbdən, Əbu Bəkrə qəzəblənmiş və dünyadan ondan narazı halda köçmüşdü.

Hadisənin bu tarixi ardıcıllığı belə aşkaranə qeyd edilməsə də və Əhli-Sünnə mənbələrində aydın vurğulanmasa da mövzuları fərqli rəvayətlərdə hissə-hissə nəql olunmuşdur. Lakin onların arasında Xanımın (ə) Fədəyin sahibi olduğuna dəlalət edən güclü dəlillər də var. Onlardan biri Hafiz Ömər ibn Şəbbənin Nəmiri ibn Həssandan nəql etdiyi rəvayətdir. Orada deyilir: *"Əbu Bəkr (r) Fatimənin (r) əlindən Fədəyi aldı".* Məlum məsələdir ki, sahib olmaq mülkiyyətində olmağa dəlalət edir. Fədək Fatimənin (ə) mülkiyyəti olduğuna görə şahid gətirməsinə də ehtiyac qalmırdı.

C. Fədəyi şəxsən Peyğəmbərin (s) öz qızına hədiyyə etdiyinə dair olan bir çox dəlillər var. Onlardan Siddiqə Fatimənin (ə) özünün bunu iddia etməsi, Möminlərin əmiri Əlinin (ə) Fədəyin hədiyyə olduğunu təsdiqləməsi.

9. Xanımın (ə) gətirdiyi şahidlərin şəhadətinin Əbu Bəkr tərəfindən rədd edilməsinə bir neçə irad var. Onlardan:

A. Fədəyin Fatimənin (ə) mülkiyyətində olduğu üçün şahid gətirməyə ehtiyacı yox idi. Çünki o, malın həmin andakı sahibidir. Onun qarşısına isə bunun müsəlmanların qəniməti olmasından başqa heç bir iddia qoyulmamışdı (yəni başqa bir şəxsin sahiblik iddiası yoxdur). Bu səbəbdən, ondan şahid tələb olunması yersiz və yanlışdır.

Fədəyin atasının ona hədiyyəsi olmasını bildirməsi onu mülkiyyətçidən iddiaçıya çevirmir. Çünki onun iddiasını bir kəs inkar etmir, əksinə, onlar Fədəyin müsəlmanların qəniməti olduğunu iddia edirlər ki, bu da onun mülkiyyətinə keçməsi barədə şahid gətirməsini labüd edir. Baxmayaraq ki, onun sahibliyi müqabilində heç kəs Fədəyə sahib olduğunu iddia etməmişdir.

B. Bu yerdə Xanımın (ə) and içməklə tamamlanmalı idi. Çünki maddi məsələlərdə şahid və and içmək kifayət edir. Bununla da Möminlərin əmiri Əlinin (ə) və Ümmü-Əymənin şahidliyi ilə bərabər Xanımın (ə) and içməsi hökmü sabit etməli idi. Bəs Əbu Bəkr nə üçün onların şahidliyi ilə bərabər Xanımın (ə) and içməsini ondan istəmədi? Halbuki Əbu Bəkrin özü də (qeyd edilən rəvayətlərə əsasən,) maddi məsələlərdə bir şahidlə andı hökm üçün kifayət bilirdi.

C. Hökm çıxarılarkən, adətən iddianın doğruluğunun hakimə məlum olması hökm üçün yetərlidir. Lakin Möminlərin əmirinin (ə) və Ümmü Əymənin şahidliklərindən Əbu Bəkr üçün bunun məlum olunmaması başa düşülən deyil. Çünki İmam Əli (ə) Peyğəmbərin (s) özü nisbətində şəxs idi, onun daim haqla və haqqın da onunla bərabər olduğuna Peyğəmbər (s) şahidik etmişdi. Eləcə də Peyğəmbərin (s) sözünə əsasən, Allah və rəsulu onu, o da Allahı və rəsulunu sevirdi. Bundan əlavə, Allahın rəsulu (s) Ümmü Əymənin cənnət əhlindən olduğunu da buyurmuşdu!

D. Mümkündür ki, Fədək məsələsinin həqiqətdə fiqhi mənada bir iddia və hadisə olmadığı deyilsin. Necə ki, bəziləri bunun fiqhi məsələ kimi təsəvvür edir və ya təsəvvürünü yaratmağa çalışırlar. Belə ki, bu məsələdə bir çox qəzavət şərtləri tamamlanmayıb. Ona görə də burada qəzavət, qazi və ya iddiaçı söhbəti yersizdir. Məsələnin həqiqəti budur ki, xəlifə Fədəyi müsadirə edir, Fatimə (ə) isə bu qərara etiraz üçün gəlir!

E. Əbu Bəkr bir çox yerdə öz məlumatına əsaslanaraq, heç bir şahid tələb etmədən hökm vermişdir. Səhabələrin borc və ya vəd kimi iddialarını şahid tələb

etmədən məqbul sayaraq istədiklərini onlara verdiyi halda, Fatimənin (ə) hədiyyə iddiasını rədd edərək şahid gətirməsini istəməsi qətiyyən aydın deyil.

10. Heç kimin o vaxtadək eşitmədiyi bir hədislə mirasından məhrum edildikdə Xanım (ə) bu hədisin batil olduğuna dəlillər göstərməyə başladı. Bunun üçün Qurandan mirasla bağlı ümumi və peyğəmbərlərin mirası ilə bağlı xüsusi ayələri söylədi. Xüsusi ayələrdə peyğəmbərlərin (s) necə miras qoyduqlarını və varislərinin irs apardıqlarını bəyan etdi, ümumi ayələrdə isə bu hökmlərdən Peyğəmbərin (ə) istisna edilmədiyini göstərdi. Qurandakı irslə bağlı bu ayələr onun atası Peyğəmbərin (s) mirasının varisi olduğunu sübut edir. Bunu İbn Əbu Teyfur, Əbu Səd Mənsur ibn Həsən Abi, İbn Əsir, Səbt ibn Cövzi və başqa öndə gələn Əhli-Sünnə alimlərinin də rəvayət etdikləri xütbəsində dilə gətirir.

Bu xütbəyə diqqət yetirən şəxs bəzi sözlərinin nəql edilmədiyinə və bəzisinin də silindiyinə rəğmən, Xanımın (ə) ən aydın əsas hökmlərə toxunduğunu, bir çox həqiqətlərin üzərindən örtüyü qaldırdığını görəcək. Lakin bütün bunlara baxmayaraq, bir dəstə hədis və tarix alimi, eləcə də ədəbiyyat və lüğət ərbabı bu xütbəni nəql etmişlər.

Bu xütbənin həqiqətən də Zəhraya (ə) məxsus olmasını təsdiqləyən digər bir amil onun məzmununun bəzi səhih hədislərdə də nəql olunmasıdır.

11. Əbu Bəkrin dəlil göstərdiyi “Miras buraxmarıq” hədisinin “Səhih”lərdə olması onun müzakirəsinin və ya bəhsinin qadağan olunması demək deyil. Onun barəsində bir neçə mühüm qeydlər edilmişdir. Onlardan:

A. Əhli-Sünnə alimlərinin baş vermiş hadisələrə uyğun olmayan “Səhih”lərdəki hədisləri rədd etməsi. Onların fikrinə əsasən, sübuta yetmiş dini və tarixi hadisələrə uyğun olmayan hədislər, “Səhih”lərdə olsa belə kənara atılmalı və onların hökmünə əməl olunmamalıdır. Buna əsasən, bir hədisin mücərrəd olaraq “Səhih”də qeyd edilməsi onu qəbul edərək hökmünə uyğun əməl etmək zərurətini ortaya qoymur.

B. Cavabsız qalan suallardan biri də Peyğəmbərin (s) bu hədisi öz yaxınlarına və mirası ilə birbaşa əlaqəli olan şəxslərə bildirməməsidir. Bu şəxslər Möminlərin əmiri (ə), Fatimə (ə), Abbas və Peyğəmbərin (s) zövcələridir.

C. İmam Əli (ə) və Abbas bu hədisi eşitməmişdilər. Əgər bu hədisin varlığını bilsəydilər o zaman (onların rəvayətini və gümanına əsasən) Ömərin xilafəti dövründə də miras iddialarını davam etdirməzdilər. Əgər onlar bunu bilirdilərsə, yaxud Əbu Bəkrin söyləməsi ilə xəbər tutmuşdularsa, o zaman niyə mübahisə edirdilər?

D. "Miras buraxmarıq" hədisi Qurana ziddir. Belə ki, Qurani-Kərimdə xüsusi olaraq peyğəmbərlərin (ə) mirasına dəlalət edən, eləcə də bir-birlərindən irs apardıqlarına və miras hökmlərindən kənarda qalmadıqlarını bildirən ayələrlə uzlaşmır. Əhli-Sünnənin nəzərinə görə də miras kəlməsi həqiqi mənada maddi, məcazi mənada isə digər məfhumlarda istifadə edilir. Məcazi məna isə daim buna işarə edən bir amilə ehtiyac duyur. Lakin bu ayələrin məcazi mənada olduğuna dair təqdim edilən amillərin heç biri onu həqiqi mənasından yayındırmır və maddi mirasa şamil olmasını da inkar etmir. Bu cəhətdən kəlmənin həqiqi mənasının aradan qalxması mümkün deyil.

Həmçinin Quranın irslə bağlı ümumi ayələrinə də ziddir. Belə ki, həmin ayələrdə peyğəmbərlər (ə) barəsində bu hökmlərin istisna edildiyinə heç bir qeyd yoxdur. "Miras buraxmırıq" hədisinin isə həmin ümumi hökmdə olan ayələrin xüsusiləşdirilmə səlahiyyəti yoxdur. Hədisin həqiqətən Peyğəmbər (s) sözü olub-olmamasına göz yumsaq belə, Peyğəmbərin (s) ciyərparələri İmam Əli (ə) və Xanım Fatimə (ə) bu sözün heç də ümumən peyğəmbərlərin (ə), xüsusən isə Rəsulullahın (s) maddi mirasının olmadığına dəlalət etmədiyinə etiqad bəsləyirdilər. Çünki onlar üçün qəti dəlillərlə bunun belə olmadığı sabit idi.

Buna da göz yumsaq, nəticədə səhabə ilə Əhli-Beytin (ə) arasında hədisin başa düşülməsi barədə fikir ayrılığı yaranır. Bir tərəfdən İmam Əli (ə) və Xanım Zəhra (ə) hədisin peyğəmbərlərin (ə) maddi mirasının olmadığına dəlalət etmədiyini,

digər tərəfdən də ilk iki xəlifə buna dəlalət etdiyini düşünürlər. Bu zaman hər iki rəy hökmdən düşür. Belə olduqda isə irslə bağlı ümumi mənalı ayələr həmin hədislə xüsusiləşmir.

Dördüncü bab: Fatimənin (ə) qəzəbi

Burada bir neçə fəsil var:

Birinci fəsil: Hədislərdə Fatimənin (ə) qəzəbi

İkinci fəsil: Fatimənin (ə) ilk iki xəlifəyə qəzəblənməsinə Əhli-Sünnə alimlərinin münasibətinin müzakirəsi

Üçüncü fəsil: Fatimə (ə) ilk iki xəlifəyə niyə qəzəblənmişdi?

Giriş

Üzərinə həvaye-nəfslərin küləkləri əsən, ciddi sınaqlarla üzləşən və zərbələr alan hədislərdən biri Peyğəmbərin (s) buyurduğu *"Fatimə mənim bir parçamdır, onu qəzəbləndirən məni qəzəbləndirmişdir"* hədisi-şərifidir. Bu, Əhli-Beytin (ə) böyük fəzilət və üstünlüyünü əsaslandıran, eyni zamanda da onlarla bərabər və ya onlardan üstün tutulan şəxsləri kənarlaşdıran hədislərdəndir.

"Bir parçamdır" hədisi müsəlmanların arasında məşhurdur. Onu bir çox böyük səhabə Peyğəmbərdən (s) eşitmiş, müsəlmanlar rəvayət etmişdir. O böyük dəlalət və geniş məzmuna malikdir. Lakin İhsan İlahi Zahir böyük ciddi-cəhdlə bunu görməməzlikdən gəlməyə və Fatimənin (ə) ilk iki xəlifəyə qəzəbinin həqiqəti üzərinə zülmət pərdələri örtməyə çalışmışdır. Elə güman edib ki, Fatimənin (ə) qəzəbi bir şəxsin iman və küfrü üçün səbəb deyil. Belə ki, o, həmçinin öz həyat yoldaşı Möminlərin əmiri Əliyə (ə) də qəzəblənmişdi. İlahi Zahir Fatimənin Əliyə (ə) qarşı qəzəblənməsi barədə deyir: **"Çünki onun razılığı və ya narazılığı bir şəxsin iman və küfrü üçün səbəb deyil. O (r), Əli ibn Əbu Talibə də (r) qəzəblənmişdi. Lakin heç kəs Əlinin (r) bununla İslamdan çıxdığını söyləmir".**[485]

Bu sözlərinə bir neçə dəlil sadalayır. Fatimənin (ə) qəzəbinin həqiqətinin və dəlalətinin aydın olması üçün məsələni üç fəsildə ələ alacağıq:

Birinci fəsil: Hədislərdə Fatimənin (ə) qəzəbi

İkinci fəsil: Fatimənin (ə) ilk iki xəlifəyə qəzəblənməsinə Əhli-Sünnə alimlərinin münasibətinin müzakirəsi

Üçüncü fəsil: Fatimə (ə) ilk iki xəlifəyə niyə qəzəblənmişdi?

---

[485] Şiə və Əhli-Beyt, İhsan İlahi Zahir, s. 193

Birinci fəsil : Hədislərdə Fatimənin (ə) qəzəbi

Birinci hədis: "Bədənimin bir parçası" hədisi

İkinci hədis: "Uca Allah Fatimənin (ə) qəzəbilə qəzəblənir

Üçüncü hədis: Fatimənin (ə) ilk iki xəlifəyə qəzəblənməsi

Birinci hədis: "Bədənimin bir parçası" hədisi

"Bir parçamdır" hədisi səhih və Peyğəmbərin (s) söylədiyində qəti əminlik olan hədislərdəndir. Bu hədis ən əhəmiyyətli mənbələrdə qeyd edilmiş, Əhli-Sünnənin böyük hədis hafiz və alimlərindən rəvayət olunmuşdur. Onun rəvayət yollarından bir neçəsini qeyd edək:

Hədisin rəvayət yolları

1. Misvərin nəql etdiyi hədis

İbn Əbu Məlikə bir neçə yoldan nəql edib. Bunlar:

A. Əmr ibn Dinar İbn Əbu Məlikədən nəql edib

Buxari öz "Səhih"ində "Peyğəmbərin (s) yaxınlarının fəzilətləri" bölməsində Əmr ibn Dinara, o da İbn Əbu Məlikəyə, o da Misvər ibn Məxrəməyə istinadla Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: *"Fatimə mənim bir parçamdır, onu qəzəbləndirən məni qəzəbləndirmişdir".*[486]

Bu hədisi həmçinin "Fatimənin (ə) fəzilətləri" bölməsində də qeyd edir.[487]

Müslim öz "Səhih"ində də rəvayət edib. Orada deyilir: *"Həqiqətən də Fatimə mənim bir parçamdır, ona əziyyət verən hər bir şey mənə də əziyyət edər".*[488]

Beyhəqi özünün "əs-Sünənul-kubra" kitabında bu hədisi nəql edib. *"Fatimə mənim bir parçamdır, ona əziyyət edən mənə əziyyət etmişdir".*[489] Bunun ardınca

---

[486] Səhih, Buxari, c. 4, s. 210, hədis 3714, "Səhabənin fəzilətləri", bölmə 12, "Peyğəmbərin (s) yaxınlarının fəziləti".

[487] Səhih, Buxari, c. 4, s. 219, hədis 3767, "Səhabənin fəzilətləri", bölmə 29, "Fatimənin (ə) fəziləti".

[488] Səhih, Müslim, c. 7, s. 141, hədis 6202, "Səhabənin (r) fəzilətləri", bölmə 15, "Peyğəmbər (s) qızı Fatimənin fəzilətləri".

[489] əs-Sünənul-kubra, Beyhəqi, c. 10, s. 201-202. "Atanın övladı, övladın da ata-anası üçün şahidlik edə bilməyəcəyini söyləyənlər" bölməsi

Beyhəqi deyir: *"Buxari bunu öz "Səhih"ində Əbu Vəliddən, Müslim isə Əbu Müəmmərdən, o da Süfyandan rəvayət etmişlər".*[490]

Təbərani "əl-Möcamul-kəbir"də,[491] Nəsai "əs-Sünənul-kubra"da[492] Buxarinin rəvayəti ilə eyni kəlmələrdə olan hədisi nəql etmişlər.

Nəsai "əs-Sünənul-kubra"da rəvayət edir: *"Fatimə mənim bir parçamdır, onu qəzəbləndirən məni qəzəbləndirmişdir".*[493]

B. Leysin ibn Əbu Məlikədən nəql etdiyi rəvayət

Buxari "Səhih"də bu hədisi Leysə, o da İbn Əbu Məlikəyə, o da Misvər ibn Məxrəməyə istinadla nəql edir: *"Peyğəmbərin (s) minbərin üzərindən belə buyurduğunu eşitdim: "Haşim ibn Müğeyrə övladları qızlarını Əli ibn Əbu Taliblə evləndirmək üçün məndən izn istədilər. İzn vermirəm, izn vermirəm, yenə də izn vermirəm! Əgər Əli ibn Əbu Talib istəyirsə, qızımla boşansın və onların qızı ilə evlənsin. Qızım mənim bir parçamdır, onu narahat edən şey məni də narahat edər, ona əziyyət edən şeylər mənə də əziyyət edər".* Buxari rəvayətin ardınca deyir: *"Eynilə belə buyurdu".*[494]

Müslim "Səhih"də rəvayət edir: *"Həqiqətən qızım mənim bir parçamdır, onu narahat edən şey məni də narahat edər, ona əziyyət edən şeylər mənə də əziyyət edər".*[495]

Tirmizi "Sünən"də[496] eynilə Buxarinin rəvayətindəki sözləri nəql edir.

---

[490] əs-Sünənul-kubra, Beyhəqi, c. 10, s. 201-202. "Atanın övladı, övladın da ata-anası üçün şahidlik edə bilməyəcəyini söyləyənlər" bölməsi

[491] əl-Möcamul-kəbir, Təbərani, c. 22, s. 404, hədis 1012, "Fatimənin (r) fəzilətləri" bölməsi

[492] əs-Sünənul-kubra, Nəsai, c. 5, s. 97, "Peyğəmbər (s) qızı Fatimənin (r) fəzilətləri" bölməsi; Səhabənin fəzilətləri; s. 78, "Fatimənin (r) fəzilətləri".

[493] əs-Sünənul-kubra, Nəsai, c. 5, s. 148, hədis 852, 43-cü bölmə

[494] Səhih, Buxari, c. 5, s. 2004, hədis 4932, bölmə 108

[495] Səhih, Müslim, c. 4, s. 1902, hədis 2449, bölmə 15

[496] Sünən, Tirmizi, c. 5, s. 697, hədis 3867, "Peyğəmbər (s) qızı Fatimənin fəzilətləri" bölməsi

Əbu Davud,[497] İbn Macə,[498] İbn Həbban,[499] Təbərani "əl-Möcamul-kəbir"də[500] isə Müslimin nəql etdiyi kimi rəvayət edirlər.

Nəsai "əs-Sünənul-kubra" əsərində də nəql edib: *"Həqiqətən qızım mənim bir parçamdır, onu narahat edən şey məni də narahat edər, ona əziyyət edən şeylər mənə də əziyyət edər".*[501] Eləcə də "Fəzailus-səhabə" kitabında yaxın kəlmələrlə rəvayət edir.[502]

C. İbn Ləhiənin İbn Məlikədən nəql etdiyi rəvayət

Təbərani "əl-Möcamul-kəbir"də İbn Ləhiəyə istinadən, onun İbn Məlikədən, onun da Misvər ibn Məxrəmədən nəql etdiyi rəvayəti qeyd edir: *"Peyğəmbər (s) minbərə qalxıb Allaha həmd-səna söylədikdən sonra buyurdu: "Həqiqətən də qızım (yəni Fatimə) mənim bir parçamdır, onu narahat edən şey məni də narahat edər, ona əziyyət edən şeylər mənə də əziyyət edər".*[503]

İkinci nəql yolu: İmam Əli ibn Hüseynin (ə) Misvərdən nəql etdiyi rəvayət

Buxari "Səhih"də Şüeybin vasitəsilə Zühridən nəql edir: *"Əli ibn Hüseyn Misvər ibn Məxrəmənin belə söylədiyini dedi: "Əli Əbu Cəhlin qızı üçün elçilik etməyə hazırlaşırdı. Fatimə bunu eşitdikdə Peyğəmbərin (s) yanına gəlib dedi: "Camaat sənin öz qızlarına görə qəzəblənməyəcəyini güman edir. Bu Əli, Əbu Cəhlin qızı ilə evlənmək istəyir".*

---

[497] Sünən, Əbu Davud, c. 1, s. 632, hədis 2071. "İki qadınla eyni vaxtda evlənməyin kərahəti" bölməsi

[498] Sünən, İbn Macə, c. 1, s. 643, hədis 1997.

[499] Səhih, İbn Həbban, c. 15, s. 405, hədis 6955.

[500] əl-Möcamul-kəbir, Təbərani, c. 22, s. 404, hədis 1010, "Fatimənin (r) fəzilətləri".

[501] əs-Sünənul-kubra, Nəsai, c. 5, s. 97, "Peyğəmbərin (s) qızı Fatimənin üstünlükləri".

[502] Fəzailus-səhabə, Nəsai, s. 78, "Peyğəmbərin (s) qızı Fatimənin üstünlükləri".

[503] əl-Möcamul-kəbir, Təbərani, c. 22, s. 404, hədis 1010, "Fatimənin (ə) fəzilətləri".

Peyğəmbərin (s) ayağa qalxıb şəhadət gətirdiyini, sonra belə buyurduğunu eşitdim: "Mən qızımı Əbülas ibn Rəbiyə vermişdim, çünki o, mənə düz danışmışdı. Həqiqətən, Fatimə mənim bir parçamdır və mən onun kədərlənməsini istəmirəm! Allaha and olsun, Peyğəmbər qızı ilə Allahın düşməninin qızı birlikdə eyni adamın nikahında ola bilməz!"

Bundan sonra Əli elçilikdən imtina etdi.

Muhəmməd ibn Əmr ibn Həlhələ İbn Şihabdan, o da Əli ibn Hüseyndən, o da Misvardən bu sözləri də əlavə edir: "Peyğəmbərin (s) Bəni-Əbdü Şəmsdən olan kürəkənini yad edərək xoş sözlərlə tərifladiyini və belə buyurduğunu eşitdim: "Mənimlə söhbətində həmişə düz danışıb, vədinə vəfalı olub".[504]

Bunu həmçinin Müslim də öz "Səhih"ində qeyd edir. Orada deyilir: *"Mən qızımı Əbülas ibn Rəbiyə vermişdim, çünki o, mənə düz danışmışdı. Həqiqətən, Muhəmmədin qızı Fatimə mənim bir parçamdır və mən onun (fitnəyə salınaraq) narahat edilməsini istəmirəm! Allaha and olsun, Peyğəmbər qızı ilə Allahın düşməninin qızı əsla birlikdə eyni adamın nikahında ola bilməz!"*[505]

Nəsai isə hədisi müxtəsər olaraq nəql edib. Orada deyilir: *"Həqiqətən Fatimə mənim bir parçamdır".*[506]

Bunu həmçinin İbn Macə,[507] İbn Həbban,[508] Təbərani[509] və Əbu Yəla Mosuli[510] də öz kitablarında Buxarinin rəvayətinə uyğun şəkildə qeyd etmişlər.

Buxari "Səhih"də "bir parçam" kəlməsi qeyd edilmədən Muhəmməd ibn Əmr ibn Həlhələ Dulidən, o da İbn Şihabdan, o da Əli ibn Hüseyndən rəvayət edib: *"Onlar Hüseyn ibn Əlinin (r) qətl hadisəsindən sonra Yezid ibn Müaviyənin*

---

[504] Səhih, Buxari, c. 3, s. 1364, hədis 3523, bölmə 16. "Peyğəmbərin (s) kürəkənləri".

[505] Səhih, Müslim, c. 4, s. 1902, hədis 2499, rəqəm 95, s. 15, "Fatimənin (ə) fəzilətləri" bölməsi

[506] əs-Sünənul-kubra, Nəsai, c. 5, s. 148, hədis 8521, bölmə 43

[507] Sünən, İbn Macə, c. 1, s. 644, hədis 1999

[508] Səhih, İbn Həbban, c. 15, s. 408, hədis 6957; c. 15, s. 535, hədis 7060

[509] əl-Möcamul-kəbir, c. 20, s. 18, hədis 18

[510] Müsnəd, Əbu Yəla Mosuli, c. 13, s. 104, hədis 7181

yanından ayrılıb Mədinəyə gəldikdə Misvər ibn Məxrəmə onunla qarşılaşıb dedi: "Mənə əmriniz olacaq bir ehtiyacınız varmı?" Mən isə heç bir ehtiyacımın olmadığını söylədim. O dedi: "Peyğəmbərin (s) qılıncını (Zülfüqarı) mənə verirsənmi? Qorxuram ki, camaat onu səndən almaq üçün üstünə gəlsin. Allaha and içirəm ki, əgər onu mənə versən, ölənədək onu əsla başqasına vermərəm.

Əli ibn Əbu Talib Əbu Cəhlin qızına elçi düşmək istədikdə Peyğəmbərin (s) bu minbəri üzərinə qalxaraq camaata xütbə söylədiyini eşitdim. Həmin gün mən möhtəlim idim. O (s) buyururdu: "Fatimə məndəndir, onun dinində fitnə çıxaracaqlarından qorxuram".

Sonra Bəni-Əbdü Şəms tayfasından olan kürəkənini yad edib onu tərifləyərək dedi: "Mənimlə söhbətində həmişə düz danışıb, vədinə vəfalı olub. Mən nə bir haramı halal etmiş, nə də halalı haram buyurmuşam. Lakin, Allaha and olsun, peyğəmbər qızı ilə Allahın düşməninin qızı əsla birlikdə eyni adamın nikahında ola bilməz!"[511]

Həmçinin Müslim də "Səhih"də[512], Əbu Davud,[513] İbn Həbban[514] və Təbərani[515] də öz kitablarında eyni kəlmələrlə bunu nəql edib.

Nəsai isə müxtəsər şəkildə qeyd edib. Orada deyilir: *"Peyğəmbərin (s) bu minbəri üzərinə qalxaraq camaata xütbə söylədiyini eşitdim. Həmin gün mən möhtəlim idim. O (s) buyururdu: "Fatimə mənim bir parçamdır".*[516]

Üçüncü nəql yolu: Übeydullah ibn Əbu Rafinin Misvərdən nəql etdiyi rəvayət

Hakim "Müstədrək"də Cəfər ibn Muhəmmədin vasitəsilə Abdullah ibn Əbu Rafidən, o da Misvər ibn Məxrəmədən Peyğəmbərin (s) belə buyurduğunu nəql

---

511 Səhih, Buxari, c. 3, s. 1132, hədis 2943, bölmə 5
512 Səhih, Müslim, c. 4, s. 1902, hədis 2449, rəqəm 95, bölmə 15
513 Sünən, Əbu Davud, c. 1, s. 631, hədis 2069
514 Səhih, İbn Həbban, c. 15, s. 407, hədis 6956
515 əl-Möcamul-kəbir, Təbərani, c. 20, s. 19, hədis 20
516 əs-Sünənul-kubra, Nəsai, c. 5, s. 148, hədis 8522, bölmə 43

edir: *"Fatimə mənim bir budağımdır, onu sevindirən şey məni də sevindirir, ona sıxıntı verən şey mənə də sıxıntı verər".*[517]

Hakim bu hədisin səhih olduğunu bildirir: *"Bu, sənədi səhih hədisdir, lakin Buxari və Müslim kitablarında qeyd etməyiblər".*[518] Zəhəbi "ət-Təlxis" kitabında onun bu fikri ilə razılaşır*: "Hədis səhihdir".*[519]

Təbərani "əl-Möcamul-kəbir"də Bəni-Haşimin azad etdiyi kölə Əbu Səidin vasitəsilə Abdullah ibn Cəfərdən, o da Misvərin qızı Ümmü-Bəkrdən, o da Cəfər ibn Muhəmməddən, o da Übeydullah ibn Əbu Rafidən, o da Misvər ibn Məxrəmədən nəql edir: *"Həsən ibn Həsən Misvərin qızı üçün elçi göndərdi. O dedi: "Təyin etdiyim bir vaxtda yanıma gəlməsini söylə". Görüşdükdə Misvər Allaha həmd-səna söyləyib dedi: "Mənim üçün sizin qohumluq və kürəkənliyinizdən üstün heç bir qohumluq və nəsil əlaqəsi yoxdur. Lakin Peyğəmbər (s) buyurub: "Fatimə mənim bir budağımdır, onu sevindirən şey məni də sevindirir, ona sıxıntı verən şey mənə də sıxıntı verər. Qiyamət günü mənim qohumluq və nəslimdən savayı bütün qohumluq və nəsil əlaqələri qırılacaq" Onun qızı sizdədir. Əgər səni onunla evləndirsəm bu, onu narahat edəcək". O üzr istəyib getdi".*[520]

Hakim "Müstədrək"də bunu nəql edərək ardınca səhih olduğunu bildirir: *"Bu, sənədi səhih hədisdir, lakin Buxari və Müslim kitablarında qeyd etməyiblər".*[521] Zəhəbi "ət-Təlxis" kitabında onun bu fikri ilə razılaşır: "Hədis səhihdir".[522]

Heysəmi "əz-Zəvaid"də Təbəranidən rəvayət edib. Nəql etdiyi bu hədisin ardınca deyir: *"Bunu Təbərani də rəvayət edib. Oradakı ravilərin arasında Misvərin qızı Ümmü-Bəkr də var. Onu nə pisləyib və nə də siqə olduğunu söyləyiblər. Hədisin qalan raviləri siqədirlər (inanılan etibarlı şəxslərdir)".*[523]

---

[517] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 168, hədis 4734.
[518] əs-Sünənul-kubra, Nəsai, c. 5, s. 148.
[519] əl-Müstədrək ələs-səhiheyn, Hakim, c. 5, s. 148, Zəhəbinin "ət-Təlxis"dəki şərhi
[520] əl-Möcamul-kəbir, Təbərani, c. 20, s. 25, hədis 30
[521] əl-Müstədrək ələs-səhiheyn, Hakim, c. 3, s. 172, hədis 4747
[522] əl-Müstədrək ələs-səhiheyn, Hakim, c. 3, s. 172, Zəhəbinin "ət-Təlxis"dəki şərhi
[523] Məcməuz-Zəvaid, Heysəmi, c. 9, s. 328, hədis 15203

Beyhəqi Abdullah ibn Cəfərin vasitəsilə bu hədisi nəql edir. Orada Misvərin qızı Ümmü-Bəkr Übeydullah ibn Əbu Rafidən, o da Misvər ibn Məxrəmədən (r) Peyğəmbərin (s) belə buyurduğunu deyir: *"Fatimə mənim bədənimin bir parçasıdır, ona sıxıntı verən şey mənə də sıxıntı verər, onu sevindirən şey məni də sevindirər. Mənim qohumluq, nəsil və nəsəb əlaqələrimdən savayı bütün qohumluq əlaqələri Qiyamət günü kəsiləcək".*[524]

Dördüncü nəql yolu: Misvərin qızı Ümmü-Bəkrin atası Misvərdən nəql etdiyi rəvayət

Təbərani "əl-Möcamul-kəbirdə" Əbdüləziz ibn Abdullah Üveysidən, o da Abdullah ibn Cəfər Məxrəmidən, o da Misvərənin qızı Ümmü-Bəkrdən, o da atasından Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: *"Fatimə mənim bir budağımdır, onu qəzəbləndirən şey məni də qəzəbləndirər, sevindirən şey də məni sevindirər".*[525]

2. Abdullah ibn Zübeyrin hədisi

Tirmizi "Sünən"də Əyyubun vasitəsilə İbn Əbu Məlikədən, o da Abdullah ibn Zübeyrdən nəql edir: *"Əli Əbu Cəhlin qızına elçi göndərmək istədi. Bu xəbər Peyğəmbərə (s) yetişdikdə buyurdu: "Fatimə mənim bir parçamdır, ona əziyyət edən şeylər mənə də əziyyət edər, onu üzən şeylər məni də üzər". Tirmizi hədisin ardınca deyir: "Bu həsən səhih hədisdir".*[526]

Həmçinin Albani də onun səhih olduğunu söyləyib.[527]

Eləcə də Təbərani,[528] Bəzzar,[529] Hakim[530] öz kitablarında hədisi qeyd etmişlər, Hakim onun səhih olduğunu bildirib.

---

[524] əs-Sünənul-kubra, Beyhəqi, c. 7, s. 64, hədis 13173, bölmə 43

[525] əl-Möcamul-kəbir, Təbərani, c. 22, s. 405, hədis 1014

[526] Sünən, Tirmizi, c. 5, s. 698, hədis 3869, "Fatimənin (ə) fəzilətləri" bölməsi

[527] Həmin mənbə, Albaninin bu kitabın hədislərinin hökmləri

[528] əl-Möcamul-kəbir, Təbərani, c. 22, s. 405, hədis 1013

3. Ənəsin hədisi

Əbu Nəim İsfahani "Hilyətul-övliya" kitabında Abdullah ibn Muhəmməd ibn Osman Vasitidən, o da Yaqub ibn İbrahim ibn İbad ibn Əvvamdan, o da Əmr ibn Ovndan, o da Həşimdən, o da Yunusdan, o da Həsəndən, o da Ənəsdən nəql edir: *"Peyğəmbər (s) xanımlar üçün nəyin daha yaxşı olduğunu soruşdu. Biz nə cavab verəcəyimizi bilmədik. Əli Fatimənin yanına gedib bunu ona söylədi. Xanım dedi: "Mən deyərdim ki, onlar üçün ən yaxşı olanı heç bir (yad) kişinin onları və onların da heç bir kişini görməməsidir". Əli qayıdıb bunu Peyğəmbərə (s) söylədi. Peyğəmbər (s) bunu ona kimin öyrətdiyini soruşdu. Əli bunu Fatimənin söylədiyini bildirdi. Allahın elçisi buyurdu: "O, mənim bir parçamdır".*[531]

Dəraqutni bu sənədlə hədisi qeyd etmiş və istinadının həsən olduğunu söyləmişdir.[532]

4. Möminlərin əmiri Əlinin (ə) hədisi

Bəzzar "Müsnəd"ində Abdullah ibn İmranın vasitəsilə Əli ibn Zeyddən, o da Səid ibn Müseyyibdən, o da Əlidən (r) rəvayət edir ki, Peyğəmbərin (s) yanında olarkən Allahın elçisi buyurdu: *"Qadın üçün ən yaxşı şey nədir?" Hamı susdu. Mən evə qayıdıb Fatimədən bunun cavabını soruşduqda "Onları heç bir yad kişinin görməməsidir" deyə söylədi. Fatimənin cavabını Peyğəmbərə (s) çatdırdıqda "Həqiqətən də Fatimə mənim bir parçamdır" buyurdu".*[533]

Bunu həmçinin Əbu Nəim "Hilyətul-övliya"da rəvayət edib.[534]

5. Əli ibn Hüseynin (ə) hədisi

---

[529] Müsnəd, Bəzzar, c. 6, s. 150, hədis 2193

[530] əl-Müstədrək ələs-səhiheyn, c. 3, s. 173, hədis 4751

[531] Hilyətul-övliya və təbəqatul-əsfiya, Əbu Nəim Əhməd ibn Abdullah İsfahani, c. 2, s. 40-41

[532] Ətraful-ğəraibi vəl-əfrad, Dəraqutni, c. 5, s. 379, hədis 5798

[533] Müsnəd, Bəzzar, c. 2, s. 159, hədis 526

[534] Hilyətul-övliya və təbəqatul-əsfiya, Əbu Nəim Əhməd ibn Abdullah İsfahani, c. 2, s. 41

Süheyli "ər-Rovzul-anif"də Həmmad ibn Sələmənin vasitəsilə Əli ibn Zeyddən, o da Əli ibn Hüseyndən (ə) rəvayət edir: *"Tövbəsi qəbul edildikdə*[535] *Fatimə onu dirəkdən açmaq istədi. O, yalnız Peyğəmbərin (s) onu açacağına and içdiyi bildirdi. Peyğəmbər (s) buyurdu: "Həqiqətən, Fatimə mənim bir parçamdır".*[536]

Bu rəvayətin sənədi ta İmam Zeynəlabidin Əli ibn Hüseynədək (ə) səhihdir. Süheyli bu hədisi Fatiməni (ə) təhqir edənlərin küfrünə dəlil olaraq göstərmişdir. Rəvayətin ardınca deyir: *"Bu hədis onu təhqir edən şəxsin küfr etdiyinə dəlalət edir. Ona dua edən (salavat göndərən) isə Peyğəmbərə (s) salavat göndərmişdir".*[537]

Başqa bir yerdə isə Əbu Bəkr ibn Davudun "Bir parçamdır" hədisini Fatimənin (ə) anası Xədicədən (ə) üstünlüyünə dəlil göstərdiyini qeyd edir. Süheyli deyir: *"Əbu Bəkr ibn Davuddan Aişənin, yoxsa Xədicənin üstün olduğu barədə soruşuldu. O, dedi: "Peyğəmbər (s) Aişəyə Cəbrailin salamını söyləyib. Xədicəyə isə Cəbrail Peyğəmbərin (s) vasitəsilə Allahın salamını çatdırıb. Təbii ki, o (Xədicə) daha fəzilətlidir". Ondan Xədicə və Fatimədən hansının daha üstün olduğu soruşulduqda dedi: "Peyğəmbər (s) buyurub: "Həqiqətən, Fatimə mənim bir parçamdır". Peyğəmbərin (s) bir parçasına heç kim bərabər ola bilməz. Bu, gözəl izah və sübutdur. Bunun düzgünlüyünə Əbu Lübabənin hadisəsi də şahidlik edir. O, özünü məscidin qarşısındakı dirəyə bağlamış, Peyğəmbərdən (s) başqasının onu bu dirəkdən açmamasına and içmişdi. Tövbəsi qəbul olmuş və Fatimə də onu dirəkdən açmaq üçün getmişdi. Lakin içdiyi anda görə o, bundan imtina etmişdi. Həmin vaxt*

---

535 Əbu Lübabə Təbuk savaşından Allaha və Rəsuluna xəyanət etmişdi. Sonra tövbə edərək özünü məscidin qarşısındakı dirəyə bağlamış, Peyğəmbərdən (s) başqasının onu bu dirəkdən açmamasına and içmişdi. Tövbəsi qəbul olmuş və Fatimə də onu dirəkdən açmaq üçün getmişdi. Lakin içdiyi anda görə o, bundan imtina etmişdi. Həmin vaxt Peyğəmbər (s) *"Həqiqətən, Fatimə mənim bir parçamdır"* deyə buyurmuş və ardından Fatimə onun iplərini dirəkdən açmışdı.

536 ər-Rovzul-anif, Süheyli, c. 6, s. 328. Əbu Lübabənin hadisəsi

537 ər-Rovzul-anif, Süheyli, c. 6, s. 328. Əbu Lübabənin hadisəsi

Peyğəmbər (s) "Həqiqətən, Fatimə mənim bir parçamdır" deyə buyurmuş və ardından Fatimə onun iplərini dirəkdən açmışdı".[538]

6. Şəbinin hədisi

İbn Əbu Şeybə "əl-Müsənnəf" kitabında Muhəmməd ibn Bişrin vasitəsilə Zəkəriyyədən, o da Amir Şəbidən rəvayət edir: *"Əli Əbu Cəhin qızı üçün onun əmisi Haris ibn Hişamın yanına elçi gəldi. Peyğəmbərdən (s) onun barəsində fikir soruşduqda buyurdu: "Onun Nəsil və nəcabəti barədə məndən soruşursan?" Əli dedi: "Onun nəsil nəcabətini tanıyıram. Lakin sənin nə buyuracağını bilmək istərdim". Peyğəmbər (s) buyurdu: "Xeyr, Fatimə mənim bir parçamdır, onu narahat etməni istəmirəm". Əli bunu eşitdikdə onu üzəcək belə bir addımı atmayacağını bildirdi".*[539]

Bu hədis mürsəldir (sənədsizdir). Qarşıda Şəbinin mürsəl hədisləri barədə söhbət açacağıq.

Zəkəriyyə – İbn Əbu Zaidədir.[540] O hədis saxtakarlarındandır.[541] Öz şeyxi Şəbinin adından saxta hədis söyləyirdi.

Hədisin rəvayət yollu barədə əldə olunan nəticə

"Fatimə mənim bir parçamdır, onu qəzəbləndirən məni qəzəbləndirmişdir" sözü bir çox səhih yollarla nəql edilib ki, sənəd cəhətdən barəsində söhbət yoxdur. Həmçinin *"Həqiqətən, Fatimə mənim bir parçamdır, ona əziyyət edən şey mənə də əziyyət edər"* hədisi də belədir.

Eləcə də *"Fatimə mənim bir budağımdır, ona sıxıntı verən şey mənə də sıxıntı verər"* hədisi səhih yollarla nəql edilmişdir.

---

538 ər-Rovzul-anif, Süheyli, c. 2, s. 429-430. Xədicə ilə Aişənin müqayisəsi.

539 əl-Müsənnəf, İbn Əbu Şeybə Kufi, c. 6, s. 388, hədis 32274, "Peyğəmbər (s) qızı Fatimənin fəzilətləri".

540 Bax: Təhzibul-kəmal, Mizzi, c. 9, s. 359, rəqəm 1992

541 Bax: Təhzibut-təhzib, İbn Həcər, c. 3, s. 284, rəqəm 616

Hədislərin İmam Əlinin (ə) Əbu Cəhlin qızına elçi düşməsi barədə hissələrinə qarşıda toxunacağıq.[542]

Hədisin məzmun dəlaləti

"Bir parçamdır" hədisi öz müxtəlif kəlmələri ilə insanlardan yalnız Fatiməyə (ə) məxsus olan bir fəziləti isbatlayır. Təqdim olunan bütün hədislərdə "bir parçamdır" kəlməsi var. Bu söz "bir hissə"[543] mənasını verir. Filan şəxs mənim bir parçamdır, yəni mənə olan yaxınlığına görə[544] cisminin bir hissəsi kimidir. Peyğəmbərin (s) *"Fatimə mənim bir parçamdır"* sözü də bu mənadadır. Yəni mənim cismimin bir parçasıdır.

"Tikə, hissə" kəlməsi məna etibarı ilə "bir parça" kəlməsinin sinonimidir.[545] "Bir tikəmdir" sözü də bir parçamdır mənasındadır.

"Budaq" kəlməsi də bitişik olan mənasını verir, həqiqi mənasında ağacın bir budağıdır.[546] Buna əsasən "Fatimə məndən bir budaqdır", yəni mənə bitişik və mənə bağlıdır. Mənə yaxınlığı budağın gövdəyə bitişdiyi kimidir.

Hədisin dəlalətini müxtəsər şəkildə təqdim edirik:

1. Hədis aydın şəkildə Fatimənin qəzəbinin və ona verilən əziyyətin Peyğəmbərin (s) qəzəbi və ona verilən əziyyət olduğuna dəlalət edir. Peyğəmbər (s) öz qəzəbini və özünə olunan əziyyəti onun qəzəbi və əziyyəti ilə bərabər tutub. Peyğəmbər (s) onu qəzəbləndirən və əziyyət edən şeyin özünü də qəzəbləndirib əziyyət etdiyinə hökm verib.

---

[542] əl-Kaşif, Zəhəbi, c. 1, s. 405, rəqəm 1643

[543] Lisanul-ərəb, c. 8, s. 15.

[544] əl-Müfrədat, Rağib İsfahani, s. 50.

[545] Tacul-urus, Zübeydi, c. 18, s. 329, "ŞNN" hərfləri

[546] Möcamul-məqayisil-lüğət, İbn Faris, c. 3, s. 248. "ŞCN" hərfləri; Lisanul-ərəb, c. 13, s. 233, "ŞCN" hərfləri; Tacul-urus, Zübeydi, c. 18, s. 313, "ŞCN" hərfləri

Kim tərəfindən olursa olsun, Fatiməni (ə) qəzəbləndirəcək və ya əziyyət edəcək bir hərəkət baş versə, bu səhih hədisin hökmünə əsasən həmin şəxs Peyğəmbəri (s) qəzəbləndirmiş və ona əziyyət etmişdir.

Əksər Əhli-Sünnə alimləri Fatimənin (ə) qəzəbləndirilməsinin və əziyyət edilməsinin haram olduğuna hökm vermişlər. İbn Həcər bu hədisi nəql etdikdən sonra deyir: *"Hədisdə ona əziyyət etməyin haram olduğu bildirilir. Ona əziyyət edən Peyğəmbərə (s) əziyyət etmiş olur. Çünki rəy birliyinə əsasən, Peyğəmbərə (s) istər az, istər çox əziyyət etmək haramdır. O, Fatiməyə əziyyət edən şeyin ona da əziyyət etdiyinə hökm vermişdir. Kim tərəfindən olursa olsun, Fatiməyə (ə) əziyyət edəcək bir hərəkət baş versə, bu səhih hədisin hökmünə əsasən həmin şəxs Peyğəmbərə (s) əziyyət etmişdir. Xanımın övladını qətlə yetirməkdən çox ona əziyyət verəcək bir hərəkət yoxdur. Buna əsasən, həmin işi görənlərin tezliklə dünyada cəzalarını alacaqları, axirətdə isə daha şiddətli əzaba düçar olacaqları məlumdur".*[547]

Bu sözü, həmçinin Mübarəkpuri "Tuhfə"də,[548] Əzim Abadi "Ovnul-məbud"[549] kitabında və digərləri də öz kitablarında söyləyiblər.

Mənavi deyir: *"Kim məndən (yəni Peyğəmbərdən) bir tükə əziyyət etsə..." – yəni kiçik olsa belə bir parçam sayılan şəxslərə. Bu, Peyğəmbərin (s) digər bir sözü kimi məcazdır. Buyurur: "Fatimə mənim bir parçamdır, ona əziyyət edən mənə əziyyət etmişdir, mənə əziyyət edən isə Allaha əziyyət etmişdir". Əbu Nəim Deyləmi bunları da əlavə edib: Həmin şəxsə yerlər və göylər dolusu Allahın lənəti olacaq. Allah onlardan pislikləri uzaqlaşdırmış, paklamış, şərəfləndirmişdir. Bunu onlar özləri deyil, onları seçən və üstün edən Allah etmişdir. Heç bir müsəlmana onları etdikləri əməllərə görə məzəmmət etmək layiq deyil. Belə ki, onları Allah paklamışdır, onlarda qüsur axtaranlar isə bunun nəticədə Allaha qayıdacağını (Allaha eyib tutmaq mənasına gəldiyini) bilməlidir".*[550]

---

[547] Fəthul-Bari, c. 9, s. 270

[548] Tuhfətul-əhvazi, Mübarəkpuri, c. 10, s. 251

[549] Ovnul-məbud, Əzim Abadi, c. 6, s. 57

[550] Feyzul-qədir şərhul-camiis-sağir, Mənavi, c. 6, s. 24, hədis 8247

Eyni "Ümdətul-qari"də bu hədisi nəql etdikdən sonra deyir: *"Burada Peyğəmbərə (s) ediləcək ən kiçik əziyyətin haram olduğu bildirilir".*[551]

Peyğəmbərə (s) əziyyət etməyin qadağan olunması barədə QUrani-Kərimdə də ayələr var. Uca Allah buyurur: ***"Allaha və Onun Peyğəmbərinə əziyyət edənlərə Allah dünyada və axirətdə lənət etmiş və onlar üçün həqarətli bir əzab hazırlamışdır!"***[552]***; "Allahın Rəsuluna əziyyət verənləri şiddətli bir əzab gözləyir!";***[553] ***Sizə Allahın Peyğəmbərini incitmək... əsla yaraşmaz".***[554]

Ayələr aydın şəkildə Peyğəmbərə (s) əziyyət edən kəsin hər iki dünyada Allahın lənətinə düçar olduğunu, axirət aləmində isə onun üçün şiddətli əzab hazırlandığını bildirir.

Uca Allahın əziyyət edilməkdən, zərər və ya xətər verilməkdən münəzzəh olduğu məlumdur. Onun Peyğəmbərlə (s) birlikdə vurğulanması və bu əziyyətə şərik olduğunun qeyd edilməsi Peyğəmbər (s) üçün bir şərəfləndirmədir. Həmçinin Peyğəmbərə (s) pislik etmək istəyən şəxsin bu əməli ilə Allaha pislik etmiş olacağına işarədir. Uca Allah Peyğəmbərə (s) əziyyət edən kəsləri dünya və axirətdə lənətləmiş, onlar üçün axirətdə alçaldıcı əzab hazırlandığını vəd etmişdir.

Alçaldıcı əzab vəsfindən Peyğəmbərə (s) dünyada verilən əziyyətdə məqsədlərinin Allaha və rəsuluna həqarət etmək olduğu anlaşılır. Bu səbəbdən də, axirətdə əməllərinin qarşılığı alçaldıcı əzabdır.

Hədis mütləq mənada Fatimənin (ə) qəzəbinə səbəb olacaq məsələdə haqq olduğunu göstərir. Əks təqdirdə, əgər onun qəzəbi batil iddiaya görə olsa, Peyğəmbər (s) öz qəzəbini onun qəzəbilə bərabər tutmazdı.

---

551 Ümdətul-qari, Eyni, c. 20, s. 212.
552 Əhzab, 57
553 Tövbə, 61
554 Əhzab, 53

Əbu Cəhlin qızına elçilik məsələsi[555] bu qəzəb səbəbindən baş tutmadı. Belə ki, nəql olunan hədislərdə elçilik məsələsinin həyata keçdiyi nəql edilmədi. Necə ki, Möminlərin əmiri Əlidən (ə) və İmam Zeynəlabidindən (ə) rəvayət olunan Əbu Lübabə hadisəsində də qəzəbdən söhbət açılmır. Eləcə də Ənəsin, həmçinin Misvərdən Əmr ibn Dinar, Übeydullah ibn Rafi və qızı Ümmü Bəkrin vasitəsilə nəql edilən rəvayətlərdə də bu qeyd yoxdur.

Elçilik hadisəsi isə ancaq Misvərdən Leys və İmam Zeynəlabidin (ə) yolu ilə nəql edilən və İbn Zübeyrlə Şəbinin mürsəl rəvayətlərində varid olub.

Bu elçilik hadisəsi barədə qarşıda geniş söhbət açacağıq. "Səhih"lərdə qeyd edilməsinə rəğmən elçilik hadisəsi qəbuledilməzdir. Çünki orada dində isbatlanmış və Quranda Peyğəmbərlərin (s) ən şərəflisinin rəftarı ilə əlaqədar ziddiyyətlər mövcuddur.

Həmçinin bu bəhs Əhli-Sünnənin hədislərinə uyğun olaraq məsələni təhlil edir. Onlar Peyğəmbərdən (s) başqasının məsum olmadığına etiqad bəsləyirlər. Belə ki, bu barədə bizim rəvayət yollarımızla fərqli şəkildə nəql edilən rəvayət İmamın (ə) və Xanımının (ə) ismətinə heç də xilaf deyil.

Xanımın (ə) qəzəbini cəlb edən məsələlərdən biri ilk iki xəlifənin Fədəyi onun əlindən alması və "Miras buraxmarıq" hədisini dəlil göstərərək atası Peyğəmbərin (s) mirasından məhrum etmələridir. Bu hədis elə qəzəbə səbəb olan amildir. Çünki Fatimə (ə) bu hədisi onlardan qəbul etmədi. Qəzəblənməsi isə onların "Miras" hədisini anlamaqda xətaya yol verdiklərinin dəlilidir. Onlar Xanımın (ə) qəzəbləndiyini görüb Fədəyi geri qaytarmalı və atası Peyğəmbərin (s) mirasını ona verməli idilər. Öz iddialarında israr edərək "Miras" hədisindən möhkəm yapışmaq əvəzində, *"Fatimə mənim bir parçamdır, onu qəzəbləndirən və əziyyət edən şeylər məni qəzəbləndirib əziyyət etmişdir"* hədisini əsas götürməli idilər.

Xüsusən (onların rəvayətinə əsasən), Xanımın (ə) qəzəbi səbəbilə İmamın (ə) elçilikdən imtina etdiyini və Peyğəmbərin (s) də öz qızını dəstəklədiyini

[555] Əhli-Sünnənin iddiasına əsasən

görmüşdülər. Bu məsələdə vəzifəsi risaləti təbliğ olan Peyğəmbər (s) İslamda çoxevliliyin icazəli olduğunu, İmamın (ə) bu elçiliklə şəriət çərçivəsindən kənara çıxmadığını söyləmir. Əksinə, təkidlə: *"...onu qəzəbləndirəcək və üzəcək şey məni qəzəbləndirər və üzər"* deyə buyurur. (Onların rəvayətlərinə əsasən) İmam (ə) bunun qarşılığında üzr istəyərək istəyindən əl çəkir. Belə ki, İslamda çoxevliliyin icazəli olduğunun dəlilləri açıq-aydındır. Halbuki "Miras buraxmarıq" hədisinin mövzusu qeyri-müəyyən, əleyhinə bir çox dəlillər və ümumi irs ayələri var. Eləcə də Fatimə (ə) və onun həyat yoldaşı Əli (ə) ilk iki xəlifənin bu hədisi dəlil göstərmələrinə qarşı çıxmışdır.

2. Hədis Fatimənin (ə) qəzəbinin mütləq mənada sübutuna dəlalət edir, istər bu qəzəbin səbəbi icazəli, istər caiz olmayan məsələ ilə bağlı olsun. Həmçinin qəzəbinin maddi və ya qeyri-maddi şeylərlə bağlı olması da önəm kəsb etmir.

Onu qəzəbləndirmək mütləq şəkildə icazəli deyil, hətta bu qəzəbi şəriətlə icazə verilən məsələ olsa belə. Məsələn, (Əhli-Sünnənin iddiasına əsasən,) Möminlərin əmiri Əlinin (ə) Əbu Cəhlin qızına elçi düşməklə yeni evlilik mələsində olduğu kimi. İmamın (ə) bir neçə dəfə evlənməsi şəriətə əsasən icazəli olsa da, Fatimənin (ə) üzərinə ikinci nikaha haqqı yoxdur. Çünki bu nikah onu qəzəbləndirəcəkdi.

Yaxud da bu qəzəb İslam hökm və dəlillərini anlamaqda göstərilən səydə olsun. Əbu Bəkr və Ömərin "Miras buraxmarıq" hədisinə əsaslanıb Fədəyi və atasının mirasını onu verməkdən imtina etdikdə qəzəbləndiyini görürük. Hətta hədisin doğruluğu fərz olunsa belə, onların buna haqqı yox idi. Çünki bu iş Xanımı (ə) qəzəbləndirəcəkdi.

Həmçinin (məsələn, vurmaq, qabırğasını sındırmaq, bətnindəki körpəni düşürmək kimi) şəriətlə icazə verilməyən məsələlərdə də onu qəzəbləndirmək olmazdı.

İstər evini yandırmaq təhdidi olsun, istər evinə icazəsiz soxulmaq, hədiyyəni əlindən almaq və ya mirasdan məhrum etmək olsun...

Dəlillər onu mütləq şəkildə qəzəbləndirməyin qadağan olunduğuna dəlalət edir.

3. Əbu Lübabənin hadisəsi ilə bağlı nəql edilən rəvayəti Süheyli Fatiməni (s) təhqir edənin küfrünə dəlil olaraq göstərir. Əbu Lübabə Allaha və rəsuluna xəyanət etmiş, sonra da tövbə etmişdi. Bunun ardınca Ümmü Sələmənin evinin önündə özünü məscidin dirəyinə bağlamış, Peyğəmbərdən (s) başqasının onu açmamasına and vermişdi. Onun tövbəsi qəbul edildikdə Fatimə (ə) onu dirəkdən açmaq üçün gəlmiş, lakin verdiyi anda görə bundan imtina etmişdi. Peyğəmbərin (s) *"Fatimə mənim bir parçamdır"* deməsindən sonra Fatimə onu dirəkdən açmışdı.

Bu hədisdən alınan nəticəyə əsasən, Xanımın (ə) Peyğəmbərə (s) bərabər tutulması təkcə qəzəb və əziyyət kimi nəfsi hallarla bağlı deyil. Çünki bu hədisdə onun qəzəbi və ya əziyyəti ilə bağlı heç bir qeyd yoxdur. Burada bərabərlik Fatimənin (ə) şəxsiyyəti ilə bağlıdır. Belə ki, o, Peyğəmbərin (s) bir hissəsi və parçasıdır. Həmçinin feli də onun felinə bərabərdir. Əbu Lübabəni dirəkdən açması Peyğəmbərin (s) onu dirəkdən açması deməkdir. Göründüyü kimi, bu feil Əbu Lübabənin andını da pozmur. Çünki onu açan Peyğəmbərin (s) bir paçası olan Fatimədir (ə). Ondan zahir olan və ona yönələn hər bir hərəkət Peyğəmbərin hərəkəti və Peyğəmbərə (s) yönəlmiş addımdır.

Buna əsasən, Fatiməni (ə) təhqir edən həqiqətdə Peyğəmbəri (s) təhqir etmişdir, Peyğəmbəri (s) söyən şəxs isə kafir olur.

Buna görə də Əbu Bəkr ibn Davud "Bir parçamdır" hədisinə əsaslanaraq Fatimənin (ə) Xədicədən (ə) fəzilətli olduğuna hökm edir: "Bunun düzgünlüyünə Əbu Lübabənin hadisəsi də şahidlik edir. O, özünü məscidin qarşısındakı dirəyə bağlamış, Peyğəmbərdən (s) başqasının onu bu dirəkdən açmamasına and içmişdi. Tövbəsi qəbul olmuş və Fatimə də onu dirəkdən açmaq üçün getmişdi. Lakin içdiyi anda görə o, bundan imtina etmişdi. Həmin vaxt Peyğəmbər (s)

"Həqiqətən, Fatimə mənim bir parçamdır" deyə buyurmuş və ardından Fatimə onun iplərini dirəkdən açmışdı".[556]

Müəllifin oradakı "Peyğəmbərin (s) bir parçasına heç kim bərabər ola bilməz" sözü də Əbu Bəkr ibn Davudun sözünü təsdiqləyir. O, bunda haqlıdır. Həmçinin Əbu Lübabənin hadisəsində də, Peyğəmbər (s) bu hədisini onun andını pozmadığına dəlil olaraq söyləyir, Fatimənin (ə) felinin öz feli olduğunu bildirir. Çünki Fatimə (ə) onun canının bir parçasıdır.

Bu isə bir daha hədislərin qəzəb və əziyyət kimi yalnız nəfsi hallarla bağlı olmadığını təsdiqləyir. Belə ki, Əbu Lübabə hadisəsinin belə nəfsi hisslərlə əlaqəsi yoxdur. Hədis onun hərəkətinin birbaşa Peyğəmbərin (s) hərəkəti olduğunu sübut edir.

4. Əbu Bəkr Şaşi və Beyhəqi "Bir parçamdır" hədisi ilə Fatiməni (ə) təhqir edənlərin kafir olacağına hökm etmişlər. İbn Həcər deyir: "Peyğəmbərin (s) *"Onu qəzəbləndirən məni qəzəbləndirmişdir"* sözünü Süheyli Fatiməni (ə) təhqir edən şəxsin kafir olacağına dəlil göstərmişdir".[557]

Eyni deyir: "Peyğəmbərin (s) "Fatimə mənim bir parçamdır" sözünü Beyhəqi Fatiməni (ə) söyən şəxsin küfr etdiyinə dəlil olduğunu bildirmişdir".[558]

İbn Həcərin nəzərincə Şaşinin bu nəticəyə gəlməsinə səbəb təhqir olunacağı təqdirdə Xanımın (ə) qəzəblənəcəyidir. Belə ki, Peyğəmbər (s) onun qəzəbilə öz qəzəbini bərabər tutmuşdur. Peyğəmbəri (s) qəzəbləndirən şəxs isə artıq kafir olur. Deyir: "Bunun səbəbi: Təhqir edildiyi təqdirdə Xanımın (ə) qəzəblənəcəyidir. Peyğəmbər (s) öz qəzəbini qızının qəzəbilə bərabər tutmuşdur. Peyğəmbəri (s) qəzəbləndirən şəxs isə təkfir olunar". Ardınca irad bildirərək deyir: "Qeyd edilən bu səbəbdə gizli olmayan nəzərlər mövcuddur".[559]

---

[556] ər-Rovzul-anif, Süheyli, c. 2, s. 429-430. Xədicə ilə Aişənin müqayisəsi

[557] Fəthul-Bari, c. 7, s. 82. Həmçinin "Feyzul-qədir"də də belə deyilib. c. 4, s. 554

[558] Ümdətul-qari, Eyni, c. 16, s. 249

[559] Fəthul-Bari, c. 7, s. 82. Həmçinin "Feyzul-qədir"də də belə deyilib. c. 4, s. 554

Şaşinin “bir parçamdır” hədisindən Fatiməni (ə) təhqir edən şəxsin küfr etdiyinə hökm çıxarmasına İbn Həcərin iradına cavab olaraq bildiririk ki, dəlalət cəhəti yalnız bununla bitmir. Burada digər cəhətlər də var. Onlardan:

A. Onu qəzəbləndirən şəxs Peyğəmbəri (s) inkar etmişdir. Onu inkar edən kəs isə kafirdir.

B. Peyğəmbərə (s) əziyyət etmək, onu incitmək qadağan olunub. Bu cəhətdən bir neçə hökm hasil olur:

Quran ayələrinə əsasən Peyğəmbərə (s) əziyyət edən və onu incidən şəxsə Allah hər iki aləmdə lənət edər, axirətdə isə onun üçün alçaldıcı əzab hazırlayar. Bu vəsf həmin şəxsin küfrünün nəticəsidir.

Kafir kəs Allahı, yaxud Peyğəmbərini (s) və ya onun vəzifəsini daşıyacaq şəxsi inkar edəndir. Onun bu küfrünün nəticəsi isə Allahın qəzəbi, lənəti və əzabıdır.

Qadağan olunan Peyğəmbərə az və ya çox, fərq etməz, mütləq mənada ona əziyyət vermək və incitməkdir. Necə ki, Əhli-Sünnə alimlərinin bu qənaətini əvvəldə qeyd etdik.

Hədis aydın şəkildə Fatiməni (ə) qəzəbləndirəcək və ya incidəcək hər hansı bir hərəkətin Peyğəmbəri (s) də qəzəbləndirib incidəcəyinə dəlalət edir. Necə ki, bunu İbn Həcər də qeyd edib.

Təhqirin aydın şəkildə qəzəb hədəfi olması şübhəsizdir. Eləcə də təhqirin qadağan olması barədə Qurani-Kərimdə və hədislərdə də ayələr nazil olub. Həmçinin Allahı və Peyğəmbərini (s) təhqir etməyin də qadağan olduğuna dair dəlillər mövcuddur. Hətta onlardan birini təhqir edən şəxsin qanının halal olmasına da hökm edilib. Eləcə də səhabələrin təhqir olunması qadağandır. Sünni hədis alimləri öz kitablarında bu mövzuya dair xüsusi fəsillər ayırmışlar. Bunlar məlum və aydın məsələlərdir, Quran və sünnədə də təsbit olunub.

C. Digər bir cəhət, Fatimənin (ə) qəzəbinin və ya razılığının Peyğəmbər (s) ümməti üçün bir ilahi imtahan olmasıdır. Bu, özlüyündə kafirlə mömini bir-birindən ayıran amildir. İzahı: İmtahan digər ümmətlərdə də olduğu kimi

Peyğəmbər (s) ümmətində də bir ilahi qaydadır. Uca Allah buyurur: ***"Sizdən əvvəlkilərin başına gələnlər sizin başınıza gəlməmiş behiştə daxil olacağınızımı güman edirsiniz? Onları (şiddətli) fəlakət və sıxıntı elə bürümüş, elə sarsılmışdılar..."***[560]

Buxari və Müslim Əta ibn Yəsardan, o da Əbu Səiddən (r) Peyğəmbərin (s) belə buyurduğunu nəql edirlər: *"Sizdən əvvəlki ümmətlərin adətlərini qarış-qarış, addım-addım izləyəcək, hətta girdikləri kərtənkələ yuvalarına da girəcəksiniz".*[561]

Bu imtahanlar eynilik təşkil etmir, müxtəlif surətlərdədir. Gah şərab içmək kimi insanın şəxsi feli ilə bağlı olur. Necə ki, Uca Allah buyurur: ***"Allah sizi (axar) bir çayın vasitəsilə imtahan edəcək. Kim onun suyundan içsə, o məndən (mənə tabe olanlardan) deyil. Kim ondan dadmasa, dadsa da, bir ovucdan artıq içməsə, o məndəndir!"***[562]***;*** gah da inam, Allahın və rəsulunun vədinə iman, düşmənlərə qarşı savaş kimi kənar amillərlə əlaqəli olur. Uca Allah buyurur: ***"O zaman onlar üstünüzə həm yuxarı, həm də aşağı tərəfdən (vadinin üst və alt tərəfindən) hücum etmiş və (qorxudan) gözünüz hədəqəsindən çıxıb ürəyiniz ağzınıza gəlmişdi. Allah barəsində də müxtəlif fikirlərə düşmüşdünüz. Məhz onda (Xəndək vuruşunda) möminlər imtahana çəkilmiş (kimin həqiqi mömin, kimin münafiq olduğu bəlli olmuş) və möhkəm sarsılmışdılar. O zaman münafiqlər və qəlblərində mərəz (şəkk) olanlar: "Allah və Onun peyğəmbəri bizə yalan vəd etmişdir. (Biz zəfər çala bilməyəcəyik)" -deyirdilər".***[563]

Bu hər iki məsələ Uca Allahın digər bir ayəsində cəm olunub: ***"Əlbəttə, Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal, can (övlad) və məhsul qıtlığı ilə imtahan edərik. (Ya Rəsulum! Belə imtahanlara) səbir edən şəxslərə müjdə ver!"***[564]

---

[560] Bəqərə, 214
[561] Səhih, Buxari, c. 6, s. 2669, hədis 6889, bölmə 14; Səhih, Müslim, c. 4, s. 2054, bölmə 3
[562] Bəqərə, 249
[563] Əhzab, 10-12
[564] Bəqərə, 155

Bu ilahi imtahanlar möminlərlə kafirlərin bir-birindən seçilməsi funkisiyasını daşıyırdı. Məsələn, Talutun camaatına çayın suyundan içmək qadağan edildikdə içənlər azaraq məhv oldular, içməyənlər isə hidayət tapıb nicat qazandılar. Digər ilahi imtahanlarında nəticəsi belə olurdu.

Fatimənin (ə) qəzəb və ya razılığını Uca Allah müsəlmanlar üçün bir imtahan vəsiləsi qərar vermişdi ki, Peyğəmbərin (s) vəfatından sonra köhnə adət-ənənələrinə qayıdanlarla iman üzərində qalanlar bir-birindən seçilsinlər.

Bu cəhət digər ümmətlərin də imtahan edildikləri (məsələn, Talutun ümmətində çayın suyundan içmək kimi) imtahanlardan fərqli olaraq Fatiməyə (ə) xas xüsusiyyətdir. Halbuki orada çayın özəl bir xüsusiyyəti yox idi. Buna əsasən, Fatiməni (ə) qəzəbləndirənlərin vəziyyəti çayın suyundan içən kəslərin vəziyyətindən Qiyamət günü Allah qarşısında daha acınacaqlı olacaq.

Bütün bunlardan aydın olur ki, İhsan Zahirin **"Çünki onun razılığı və ya narazılığı bir şəxsin iman və küfrü üçün səbəb deyil"**[565] sözü məlumatsız, elmsiz, qeybdən verilən xəbər və həvaye-nəfsdən söylənmiş kəlmələrdir. Fatimənin (ə) qəzəbinin və onun incidilməsinin Peyğəmbərin (s) qəzəbi və incidilməsi, Peyğəmbərin (s) incidilməsinin isə küfr olduğu barədə özündən əvvəlki salehlərin aydın sözləri qarşısında bunu deməyi necə rəva bilir?!

Hədisin dəlalətindən hasil olur:

Hədisin dəlaləti barədə bəhsdən əldə olunan nəticələr bunlardır:

1. Hədis Fatimənin (ə) qəzəbinin və onun incidilməsinin Peyğəmbərin (s) qəzəbinə və incidilməsinə bərabər olduğuna dəlalət edir. Fatiməni (ə) qəzəbləndirəcək və ya incidəcək addım atan hər bir kəs Peyğəmbəri (s) qəzəbləndirmiş və onu incitmişdir. Əksər Əhli-Sünnə alimləri Xanımın (ə) qəzəbləndirilməsinin və ya incidilməsinin haramlığına hökm etmişlər.

[565] Şiə və Əhli-Beyt, s. 193

2. Hədisdən anlaşıldığına əsasən, Fatimə (ə) yalnız haqqa görə qəzəblənər. Əgər batilə və ya haqqı olmayan şeyə görə qəzəblənsəydi Peyğəmbər (s) onun qəzəbini öz qəzəbinə bərabər tutmazdı.

Əbu Cəhlin qızına elçilik məsələsi bu qəzəb səbəbindən baş tutmadı. Belə ki, nəql olunan hədislərdə elçilik məsələsinin həyata keçdiyi nəql edilmədi. Bundan əlavə, hədisin bütün nəql yolları Misvərdə, həmçinin Zübeyr və Şəbinin iki mürsəl hədisində bitir. Belə ki, bu hədisdə dində isbatlanmış və Quranda Peyğəmbərlərin (s) ən şərəflisinin rəftarı ilə əlaqədar nəql edilənlərə ziddiyyətlər mövcuddur.

Həmçinin bu bəhs Əhli-Sünnənin hədislərinə uyğun olaraq məsələni təhlil edir. Bu barədə bizim rəvayət yollarımızla fərqli şəkildə nəql edilən rəvayət İmamın (ə) və Xanımının (ə) ismətinə heç də xilaf deyil.

Xanımın (ə) qəzəbini cəlb edən məsələ ilk iki xəlifənin "Miras buraxmarıq" hədisini dəlil göstərərək mirasdan məhrum etmələridir. Bu hədis elə qəzəbə səbəb olan amildir. Çünki Fatimə (ə) bu hədisi onlardan qəbul etmədi. Qəzəblənməsi isə onların (hədisin doğruluğu fərz edildikdə) "Miras" hədisini anlamaqda xətaya yol verdiklərinin dəlilidir.

3. Hədisdə Fatimənin (ə) mütləq şəkildə, hər hansı bir məsələ barəsində qəzəbinə dəlalət var. Hər hansı bir dəlil olsa belə, onun qəzəbləndirilməsinə icazə verilmir.

4. Süheyli Əbu Lübabənin hadisəsindəki hədisə əsasən, Fatimənin (ə) təhqir edilməsinin küfr olduğuna hökm edib. Bu qərarı verməsinə dəlil olaraq isə Fatimənin Əbu Lübabəni iplərdən azad etməsinin onun andını pozmadığıdır. Belə ki, Əbu Lübabə yalnız Peyğəmbərin (s) onu açmasına and vermişdi. Süheyli Fatimənin feil və hərəkətlərinin Peyğəmbərin (s) feil və hərəkətlərinə bərabər olduğuna əsaslanmışdı. Çünki o, Peyğəmbərin (s) bir parçasıdır. Bu bərabərlik Fatimənin (ə) şəxsiyyəti cəhətdəndir. Buna əsasən, Fatiməni (ə) təhqir edən kəs həqiqətdə Peyğəmbəri (s) təhqir etmişdir, Peyğəmbəri (s) təhqir edən isə kafir olur.

5. Şaşi və Beyhəqi "Bir parçamdır" hədisi ilə Fatiməni (ə) təhqir edənlərin kafir olacağına hökm etmişlər. İbn Həcər buna səbəb olaraq isə təhqir edildiyi təqdirdə Xanımın (ə) qəzəblənəcəyini göstərmişdir. Belə ki, Peyğəmbər (s) öz qəzəbini qızının qəzəbilə bərabər tutmuşdur. Ardınca isə irad olaraq deyir: "Qeyd edilən bu səbəbdə gizli olmayan nəzərlər mövcuddur".

İbn Həcərin Şaşinin gəldiyi bu nəticəyə iradı batildir. Şaşinin "bir parçamdır" hədisindən Fatiməni (ə) təhqir edən şəxsin küfr etdiyinə hökm çıxarmasına səbəb yalnız bununla bitmir. Burada digər cəhətlər də var. Onlardan:

- onu qəzəbləndirən şəxs Peyğəmbəri (s) inkar etmişdir. Onu inkar edən kəs isə kafirdir.

- Peyğəmbərə (s) əziyyət etmək, onu incitmək qadağan olunub. Bu cəhətdən bir neçə hökm hasil olur:

- Quran ayələrinə əsasən Peyğəmbərə (s) əziyyət edən və onu incidən şəxsə Allah hər iki aləmdə lənət edər, axirətdə isə onun üçün alçaldıcı əzab hazırlayar. Bu vəsf həmin şəxsin küfrünün nəticəsidir. Kafir kəs Allahı, yaxud Peyğəmbərini (s) və ya onun vəzifəsini daşıyacaq şəxsi inkar edəndir. Onun bu küfrünün nəticəsi isə Allahın qəzəbi, lənəti və əzabıdır.

- İmtahan digər ümmətlərdə cərəyan edən bir ilahi sünnədir. Həmin imtahanlar Peyğəmbər ümmətinin arasında da vaqe olacağı barədə Kitab və sünnədə dəlillər var. Fatimənin (ə) qəzəb və ya razılığını Uca Allah müsəlmanlar üçün bir imtahan vəsiləsi qərar vermişdir. Onu heç bir halda qəzəbləndirmək olmaz. *"Onu qəzəbləndirən məni qəzəbləndirmişdir, onu incidən məni incitmişdir"* hədisi eyni Uca Allahın ***"Kim onun suyundan içsə, o məndən deyil"*** ayəsinin məcrasındadır. Hətta imtahan vəsiləsi olmaq, çaya bir özəllik verməsə də, Fatiməyə (ə) xüsusi bir imtiyaz bəxş edir.

İkinci hədis: "Allah Fatimənin (ə) qəzəbilə qəzəblənir".

Təbərani "əl-Möcamul-kəbir"də "Əli ibn Əbu Talibə (r) istinad olunanlar" bölməsində Muhəmməd ibn Abdullah Həzrəmidən, o da Abdullah ibn Muhəmməd ibn Salim Qəzzazdan, o da Hüseyn ibn Zeyd ibn Əlidən, o da Əli ibn Ömər ibn Əlidən, o da Cəfər ibn Muhəmməddən, o da atasından, o da Əli ibn Hüseyndən, o da Hüseyn ibn Əlidən (r), o da Əlidən (r) nəql edir: *"Peyğəmbərin (s) Fatiməyə (r) belə buyurdu: "Həqiqətən də Allah sənin qəzəbinlə qəzəblənir və sənin razılığınla razı olur".*[566]

"Mənaqibu Fatimə (r)" bölməsində isə bunu Bişr ibn Musa və Muhəmməd ibn Abdullah Həzrəmiyə istinadən nəql edib.[567]

Heysəmi özünün "Zəvaid" kitabında bu hədisi Təbəranidən nəql edib, sənədinin "həsən" olduğunu bildirərək deyib: "Bunu Təbərani də rəvayət edib, sənədi "həsən"dir".[568]

Həmçinin Hakim "Müstədrək"də nəql edir və sənədinin səhih olduğunu söyləyir: "Bu, sənədi səhih hədisdir, lakin Buxari və Müslim onu kitablarında qeyd etməyiblər".[569]

İbn Əbu Asim də Abdullah ibn Əmr ibn Salimə, o da Əhli-Beytə (ə) və Möminlərin əmiri Əliyə (ə) istinadən kitabında qeyd edir.[570]

Mizzi "Təhzibul-kəmal"da yazır: "Bizə Əli ibn Hüseyndən, o da Hüseyn ibn Əlidən, o da Əlidən nəql edilib ki, Peyğəmbər (s) Fatiməyə buyurdu: *"Allah sənin rızanla razı olur və qəzəbinlə qəzəblənir".*[571]

---

566 əl-Möcamul-kəbir, Təbərani, c. 1, s. 108, hədis 182

567 əl-Möcamul-kəbir, Təbərani, c. 22, s. 401, hədis 1001

568 Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 203, "Fatimənin fəzilətləri" bölməsi

569 əl-Müstədrəku ələs-səhiheyn, c. 3, s. 154

570 Bunu ondan İbn Həcər özünün "əl-İsabə fi təmyizis-səhabə" kitabında qeyd edib. c. 8, s. 57.

571 Təhzibul-kəmal, c. 35, s. 250, rəqəm 7899

İbn Əbu Dünya "əl-İxvan"da deyir: "Əhməd ibn İbrahim ibn Kuseyrdən, o da Musa ibn İsmaildən, o da Amir ibn Əbu Amir Xəzzazdan nəql edir: Haşim ibn Qasim bizdən soruşdu: "Səfa qardaşları kimdir?" Cavabında mən bir söz, bu isə başqa söz söylədi. Dedi: Xeyr, bu, sənin qəzəbinlə qəzəblənən və rizanla razı olandır".[572]

Zəhəbinin Hüseyn ibn Zeydi zəif hesab etməsi

Zəhəbi "ət-Təlxis" kitabında bu hədisi Hakimin səhih bilməsinə qarşılıq deyir: "*Həqiqətən də Allah sənin qəzəbinlə qəzəblənir və sənin razılığınla razı olur*" hədisindəki Hüseyn ibn Zeyd hədisləri inkar olunan şəxsdir.[573]

Zəhəbinin bu iddiasının cavabı

Zəhəbinin Hüseyn ibn Zeydi ravi olaraq qüsurlu bilməsi bir neçə cəhətdən rədd olunur:

Birinci: Hüseyn ibn Zeyd ibn Əli ibn Hüseyn ibn Əli ibn Əbu Talib (ə) İbn Macənin[574] "Sünən"inin ravilərindədir. Dəraqutni[575] onun siqə (inanılan, etibarlı) şəxs olduğunu söyləyib. O, barəsində ixtilaf olan şəxsdir. Ona görə də İbn Həcər "Təqribut-təhzib"də deyir: "Doğru danışan şəxsdir, bəzən xəta edib".[576]

Barəsində müxtəlif fikirlər olan şəxslərə tətbiq olunan qaydaya görə, onun hədisləri "həsən" ünvanındadır. Bu barədə Əhli-Sünnə alimlərinin nəzərlərini

---

572 əl-İxvan, İbn Əbu Dünya, s. 125

573 əl-Müstədrəku ələs-səhiheyn, Hakim, c. 3, s. 167

574 İbn Macə "Sünən"də İbad ibn Yaqubdan, o da Hüseyn ibn Zeyd ibn Əli ibn Hüseyn ibn Əlidən, o da İsmail ibn Abdullah ibn Cəfərdən, o da atasından, o da Əlidən Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: *"Mən öldükdə Ğirs (və ya Ğərs) quyumdan yeddi su tuluğu ilə mənə qüsl verərsiniz".* c. 1, s. 471. "Mizanul-itidal"da Məqaniidən, o da İbad Rəvacinidən, o da Hüseyn ibn Zeyddən, o da İsmail ibn Abdullah ibn Cəfərdən, o da atasından, o da Əlidən, o da Peyğəmbərdən belə nəql edir: *"Mən öldükdə Ğirs (və ya Ğərs) quyusundan yeddi su tuluğu ilə mənə qüsl ver".* (c. 1, s. 535)

575 Bunu ondan İbn Həcər "Təhzibut-təhzib"də nəql edib, c. 2, s. 294

576 "Təqribut-təhzib", İbn Həcər, c. 1, s. 215

nəql etmişdik. Necə ki, İbn Həcər "Təhzibut-təhzib"də Abdullah ibn Saleh ibn Muhəmməd ibn Müslim Cəhninin ravisi olduğu hədisə "həsən" deyir. Halbuki onun barəsində də müxtəlif fikirlər var.[577] Zərkəşi də "əl-Laliul-mənsurə"də Kuseyr ibn Şənzirin nəql etdiyi hədisə "həsən" deyir. Lakin o da barəsində ixtilaf olunan ravidir.[578] Həmçinin Heysəmi "Məcməuz-zəvaid"də Abdullah ibn Muhəmməd ibn Əqilin rəvayət etdiyi hədisə "həsən" hökmü verir. Bu ravi barəsində də müxtəlif fikirlər var.[579] Hafiz ibn Qəttan isə "Bəyanul-vəhmi vəl-iham" kitabında Üsamə ibn Zeyd Leysinin hədisinə "həsən" deyir, baxmayaraq ki, bu ravinin barəsində ixtilaf var.[580] Eləcə də Mənavi "Feyzul-qədir"də Əhməd ibn Bədilin hədisinə "həsən" hökmü verir, o da ixtilaflı şəxsdir.[581] Və başqaları...

Buradan aydın olur ki, bir ravinin inam və ya zəifliyində alimlərin arasında ixtilaf olduqda bu, rəvayətin etibardan düşməsinə səbəb olmaz. Əksinə, onu "həsən" hədis dərəcəsində qəbul edərlər. Əhli-Sünnə alimlərinin nəzərində rəvayətin dəlil olması cəhətindən "həsən" hədis elə "səhih" hədis kimidir.

Hüseyn ibn Zeyd haqqında müxtəlif fikirlərin olduğu da deyilməlidir. Qaydaya əsasən isə, barəsində ixtilaf olan şəxsin ravisi olduğu hədis "həsən" dərəcəsindədir.

İkinci: Rical alimlərindən Hüseyn ibn Zeydin tərcüməsini yazanlardan heç biri onun hədislərinin inkar olunduğunu deməyib. Bəli, onun barəsində yalnız İbn Ədiy deyib ki: "Ümid edirəm ki, onda bir müşkül yoxdur, ancaq mən onun bəzi rəvayətlərində inkar ediləcək şeylərə rastlamışam". Lakin bu söz Zəhəbinin nəzərində bir şəxsin "zəif" hesab edilməsinə dəlil deyil. "Mizanul-itidal"da Əhməd ibn İtab Mərvəzinin tərcümeyi-halında yazır: "Əhməd ibn Səid Mədan deyir:

---

577 Təhzibut-təhzib, İbn Həcər Əsqəlani, c. 5, s. 228

578 Laliul-mənsurə fil-əhadisil-məşhurə (kitabın adı "ət-Təzkiratu fil-əhadisil-məşhurə" kimi tanınıb), Zərkəşi, c. 1, s. 42

579 Məcməuz-zəvaid və mənbəul-fəvaid, Heysəmi, c. 1, s. 26

580 Bəyanul-vəhmi vəl-ihami fi kitabil-əhkam, İbn Qəttan Farisi, c. 4, s. 420.

581 Feyzul-qədir şərhəl-camiis-sağir, Mənavi, c. 1, s. 369

“Saleh şeyxdir (ağsaqqaldır), fəzilətli və inkar olunan hədislər rəvayət edib”. Mən deyirəm: İnkar olunan hədis rəvayət edən hər kəs zəif demək deyil”.[582]

Hakim deyir: “Dəraqutnidən Süleyman ibn Bint Şərhəbil barədə soruşdum. “Siqə (etibarlı) olduğunu dedi. Mən onun inkar edilən hədislərinin olub-olmadığını soruşduqda “Həmin hədisləri zəif ravilərdən nəql edir. Amma özü siqədir”.[583]

Üçüncü: “Hədisləri inkar olunan şəxslər barəsində də onların arasında fikir ayrılığı mövcuddur. Əhməd ibn Hənbəlin və başqalarının nəzəri Buxarinin nəzərindən fərqlənir. Bəzən Əhməd ibn Hənbəlin nəzərində “hədisi inkar olunan” şəxsin rəvayəti Buxarinin nəzərində höccət və dəlildir. İbn Həcər “Fəhul-Bari”nin müqəddiməsində Yezid ibn Abdullah ibn Xuseyfə Kindinin tərcümeyi-halında və onun etibarlı olmasını deyir, baxmayaraq ki, həmin şəxsə Əhməd ibn Hənbəl “hədisi inkar olunur” deyir. “Deyirəm: Əhməd bu sözü hədisləri öz müasirlərinə naməlum olan şəxslər barədə istifadə edib. Bunu isə yalnız həmin şəxslərin hədislərinə nəzər salaraq təyin edib. İbn Xuseyfənin sözlərini Malik və bütün imamları dəlil olaraq görmüşlər”.[584]

Malik və bütün Əhli-Sünnə imamları İbn Xuseyfə barəsində Əhməd ibn Hənbəlin belə bir fikrinin olmasına baxmayaraq, onun sözünü höccət və dəlil hesab etmişlər.

Həmçinin “Fəthul-Bari”nin müqəddiməsində Muhəmməd ibn İbrahim Teyminin tərcümeyi-halında onun etibarlı olduğu qeyd edilir, lakin Əhməd ibn Hənbəl onun barəsində “inkar olunan hədisləri var” deyə bildirir. “Deyirəm: Əhməd və bir dəstə hədis alimi ravi və ya yer nisbəti cəhətdən “fərd” olan hədislər barədə “inkar olunur” sözünü işlətmişlər. Lakin bir dəstə alim də bu hədisləri dəlil olaraq götürmüşdür”.[585]

---

[582] Mizanul-itidal, Zəhəbi, c. 1, s. 118

[583] Sualatul-Hakim, Dəraqutni, s. 217-218

[584] “Fəthul-Bari”nin müqəddiməsi, İbn Həcər, s. 453

[585] “Fəthul-Bari”nin müqəddiməsi, İbn Həcər, s. 436

Eləcə də Bureyd ibn Abdullahın tərcümeyi-halında deyir: "Əhməd və başqaları yeganə ravidən nəql olunan hədislərə "inkar olunan hədislər" deyirlər".[586]

"İnkar olunan hədis" termini rical alimlərinin nəzərində məna və dəlalət cəhətdən yeksənəq deyil. Onun bir çox məna və dəlalətləri var. Buna əsasən də, bəzən ravi Əhməd ibn Hənbəlin nəzərində hədisləri inkar olunan şəxs ola bilər ki, Buxari və digərlərinin nəzərində həmin hədislər dəlil hesab olunar.

Buna əsasən, Zəhəbinin nəzərində "hədisləri inkar olunan" termininin hansı ravilər barədə istifadə olduğunu müəyyən etmək lazımdır. O, "Tarixul-İslam" kitabında bu termindəki məqsədini izah edir. Orada Abdullah ibn Müaviyə Zübeyri barədə Buxarinin "hədisləri inkar olunur" və "bəzi hədisləri inkar olunur" sözlərini qeyd etdikdən sonra deyir: "Bu iki sözün mənaları eynidir. Çünki bəzi hədisləri inkar olunan şəxs, elə hədisləri inkar olunan şəxsdir. Biz "hədisləri inkar olunan şəxs" dedikdə o şəxsin bütün rəvayət etdiyi hədislərin inkar olunduğunu demirik. Əgər ravi bir çox hədis rəvayət etmişsə, onlardan bir hissəsi inkar olunursa biz həmin şəxs barədə də "hədisləri inkar olunur" deyirik".[587]

Kəlmələrdən də göründüyü kimi, Zəhəbinin nəzərincə, əgər ravinin nəql etdiyi hədislərdən bəzisi də inkar edildikdə ona "hədisləri inkar olunur" deyilir.

Lakin bu mənanın Hüseyn ibn Zeydə tətbiq olunmasını araşdırmaq lazımdır, əksinə, bəlkə də, bu ona şamil edilməməlidir. Çünki Zəhəbinin yuxarıdakı və eləcə də digər alimlərin mövzu ilə bağlı sözlərinə nəzər saldıqda "hədisləri inkar olunur" demək üçün həmin şəxsin bir çox hədislərinin inkar edilməsinin lazım olduğunu görürük. Təkcə bir və ya bir neçə hədisinin inkar olması həmin hökmü verməyə kifayət etməz. İbn Dəqiq barədə Səxavi deyir: "İnkar olunan hədislər rəvayət edib – dedikdə, məqsəd onun hədislərinin mücərrəd olaraq tərk ediləcəyi mənasını verməz. İnkar olunan rəvayətləri çox olduqda isə nəticədə ona

---

[586] "Fəthul-Bari"nin müqəddiməsi, İbn Həcər, s. 390

[587] Tarixul-İslam, Zəhəbi, c. 12, s. 251

“hədisləri inkar olunur” sözü şamil olur. Çünki “hədisləri inkar olunur” sözü bir şəxs üçün vəsf və sifətdir ki, hədisləri tərk edilməyə layiq olsun. Lakin bu, davamlı olaraq inkar olunan hədislər rəvayət etdiyinə hökm etmir. Belə ki, Əhməd ibn Hənbəl Muhəmməd ibn İbrahim Teymi barədə “inkar olunan hədislər rəvayət edib” deyir, halbuki Buxari və Müslim onun barəsində həmfikirdirlər, *“Əməllər niyyətlədir”* hədisini də ona istinadən nəql ediblər”.[588]

Hüseyn ibn Zeydin tərcümeyi-halında heç kim onun hədislərinin “inkar olunan hədislər” dərəcəsinə yetdiyini söyləməmişdir.

Bəlkə də, Zəhəbi bunu İbn Ədiyin bir az əvvəl qeyd etdiyimiz “...ancaq mən onun bəzi rəvayətlərində inkar ediləcək şeylərə rastlamışam” sözünə əsaslanaraq söyləyib.

Ancaq İbn Ədiyin həmin sözü onun “hədisləri inkar olunan şəxs” olduğuna dəlalət etmir. Bu necə ola bilər? Axı o, bu sözlərindən əvvəl onun barəsində “Ümid edirəm ki, onda bir müşkül yoxdur” deyir!

“Ümid edirəm ki, onda bir müşkül yoxdur” sözündə isə məqsədin onun hədislərinin “inkar edilən hədislər” dərəcəsinə çatmadığına və tərk edilmədiyinə işarədir. Əlbəttə, bu necə ola bilərdi? Axı o, İbn Macənin ravilərindəndir.

Zəhəbinin Hüseyn ibn Zeyd barədə Əbu Hatəmdən nəql etdiyi “tanınır, inkar edilir”[589] sözlərinə gəldikdə, bu yanlışdır. Doğrusu isə belədir: “bilirsən, inkar edirsən”.[590]

Bunların arasındakı fərq ondan ibarətdir ki, Əbu Hatəmin sözlərində şəxs əvəzliyi oğlu Əbdürrəhmana işarə edir, Zəhəbinin, barəsində yanlış təsəvvür yaratmağa çalışdığı Hüseyn ibn Zeydə deyil. Əbdürrəhman ibn Əbu Hatəm deyir: “Atamdan (onun barəsində[591]) nə fikirdə olduğunu soruşdum, əllərini yellədi,

---

[588] Fəthul-Muğis (Şərhu əlfiyyətil-hədis), Şəmsəddin Muhəmməd ibn Əbdürrəhman Səxavi, c. 1, s. 373

[589] Mizabul-itidal, Zəhəbi, c. 1, s. 535

[590] əl-Cərhu vət-tədil, Razi, c. 3, s. 53

[591] Əslində, bu kəlmə düşüb, əlavə Kövsərilinin nüsxəsindəndir.

sonra çevirdi. Bununla "bilirsən, inkar edirsən" demək istədi".[592] Yəni mənim onun barəsindəki rəyimi bilirsən, lakin bu rəyimi inkar edirsən.

Bunu həmçinin Mizzi,[593] Zeyləi[594] və Albani[595] də ondan nəql edib.

Buna əsasən, Zəhəbinin Hüseyn ibn Zeyd barədə Əbu Hatəmin sözünə etdiyi istinad onun iddiasına uyğun deyil.

Beləliklə aydın olur ki, heç bir rical alimi açıq şəkildə Hüseyn ibn Zeydin "hədisləri inkar olunur" demir. Eləcə də "hədisləri inkar olunan" hər bir şəxs "zəif" və hədisi dəlil sayılmayan deyil. Bəzi hədisləri inkar olunan ravilər də hədisləri ümumiyyətlə inkar olunan şəxs demək deyil. Buna əsasən, Zəhəbinin Hüseyn ibn Zeyd barədə "hədisləri inkar olunur" deməsi bütün sünni alimlərinə onun hədislərinin dəlil olmayacağı zərurətini yaratmır. Həmçinin Zəhəbinin "hədisləri inkar olunan" şəxs barədəki sözləri bu vəsfin eynilə Hüseyn ibn Zeydə şamil edilməyəcəyini göstərir.

Dördüncü: Hüseyn ibn Zeyd ibn Əli ibn Hüseyn ibn Möminlərin əmiri Əli (ə) barəsində mənfi rəy söyləmiş rical alimlərinin sözlərinə diqqət yetirənlər onun özünün şəxsi cəhətlərinə görə mənfi rəy verilmədiyini görəcəklər. Heç kim onun yalan, uydurma və saxta hədis söylədiyi ittihamını irəli sürməyib. Onu zəif bilmələrinin səbəbi əqidəsi və hədislərinin məzmunudur. Mizzi "Təhzibul-kəmal"da Hüseyn ibn Zeydin tərcümeyi-halında yazır: "Əbu Əhməd ibn Ədiy deyir: "Ümid edirəm ki, onda bir müşkül yoxdur, ancaq mən onun bəzi rəvayətlərində inkar ediləcək şeylərə rastlamışam". Zübeyr ibn Bikar deyir: "Anası övlad sahibi olan cariyədir..." İbad ibn Yaqub Rəvacəni deyir: "Hüseyn ibn

---

592 əl-Cərhu vət-tədil, Razi, c. 3, s. 53

593 Təhzibul-kəmal, Mizzi, c. 6, s. 376-377

594 Nasbur-rayə, Zeyləi, c. 2, s. 209

595 İrvaul-ğalil, Albani, c. 2, s. 345

Zeyd ibn Əlinin “Bismillahir-rəhmanir-rəhim”i (namazda)[596] səsli söylədiyini gördüm”.[597]

Demək, Hüseyn ibn Zeydin hədisinin məzmunu rical alimlərinin əqidəsinə müxalifdir. Onun Əhli-Beytin (ə) fəzilətlərinə dair çoxlu rəvayətləri var. “Bismillah”ı səsli söyləməsi, cariyə övladı olması onun barəsində mənfi rəy vermələrinin və hədislərinin inkar olunmasının ən əsas səbəbidir!

[596] Şiə fiqhinə əsasən gündəlik namazlarda “bismillah” səsli, Əhli-Sünnə fiqhinə əsasən isə səssiz oxunur (tərc.)

[597] Təhzibul-kəmal, Mizzi, c. 6, s. 377

Üçüncü hədis: Fatimənin (ə) ilk iki xəlifəyə qəzəblənməsi

Fatimənin (ə) ilk iki xəlifə ilə mübahisəsi əsnasında onlara qəzəbləndiyi isbat olunmuş məsələdir. Buna "Səhih"lərdə nəql edilər rəvayətlər də dəlildir. Həmçinin bu barədə Əhli-Sünnə alimlərinin arasında ixtilaf yoxdur, yalnız nadir hallarda bəziləri tərəfindən fərqli fikir səslənsə də, onların həmin sözlərinə diqqət yetirilməyib. Hər hansı bir hökm qeyd etməzdən əvvəl qeyd edilən mövzu ilə bağlı hədislərə və onların mətn dəlalətlərinə nəzər salaq:

Hədisin rəvayət yolları

Fatimənin (ə) ilk iki xəlifəyə qəzəbləndiyini bildirən hədisi Əhli-Sünnənin bir çox böyük hədis alim və hafizləri kitablarında qeyd etmişlər. Burada onların nəql yollarına və kəlmələrinə işarə edəcəyik.

1. Aişənin hədisi

Aişədən bu hədis bir neçə yolla rəvayət edilib:

Birinci yol: Saleh Zühridən, o da Ürvədən, o da Aişədən nəql edir:

Buxari öz "Səhih"ində İbrahim ibn Səddən, o da Salehdən, o da İbn Şihabdan nəql edir ki, Ürvə ibn Zübeyr möminlərin anası Aişənin (r) ona belə söylədiyini xəbər verir: "*Əbu Bəkr ona dedi: "Peyğəmbər (s) buyurub: "Biz miras qoymarıq, bizdən qalanlar sədəqədir". Peyğəmbərin (s) qızı Fatimə qəzəbləndi, əlaqəsini kəsdi və vəfat etdiyi vaxtadək Əbu Bəkrlə danışmadı".*[598]

Eyni kəlmələrlə bu rəvayəti Əhməd ibn Hənbəl "Müsnəd"də[599], Beyhəqi "əs-Sünənul-kubra"da nəql etmişlər. Orada deyilir: "*Əbu Bəkr (r) ona dedi: "Peyğəmbər (s) buyurub: "Biz miras qoymarıq, bizdən qalanlar sədəqədir".*

[598] Səhih, Buxari, c. 3, s. 1126, hədis 2926, "Xümsün vacibliyi" bölməsi

[599] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 6, hədis 25

Peyğəmbərin (s) qızı Fatimə qəzəbləndi, əlaqəsini kəsdi və vəfat etdiyi vaxtadək Əbu Bəkrlə danışmadı". [600]

İkinci yol: Əqildən, o da Zühridən, o da Qrvədən, o da Aişədən nəql edir

Buxari "Səhih"də Yəhya ibn Bükeyrin vasitəsilə Leysdən, o da Əqildən, o da İbn Şihabdan, o da Ürvədən, o da Aişədən rəvayət edir: *"Əbu Bəkr ona bir şey verməkdən imtina etdi. Buna görə Fatimə Əbu Bəkrə hirsləndi və əlaqəsini kəsib vəfat edənədək onunla bir daha danışmadı. Peyğəmbərin (s) vəfatından sonra altı ay yaşadı. Vəfat etdikdə həyat yoldaşı Əli onu gecə ikən dəfn etdi. Əbu Bəkrin ona namaz qılmasına izn vermədi..."*[601]

Müslim "Səhih"ində Hüceynin vasitəsilə Leysdən, o da Əqildən, o da İbn Şihabdan, o da Ürvə ibn Zübeyrdən, o da Aişədən nəql edir: *"Buna görə Fatimə Əbu Bəkrlə əlaqəni kəsdi və vəfat edənədək bir daha danışmadı. Peyğəmbərin (s) vəfatından sonra altı ay yaşadı. Vəfat etdikdə həyat yoldaşı Əli onu gecə ikən dəfn etdi. Əbu Bəkrin ona namaz qılmasına (dəfnində iştirak etməsinə) izn vermədi, Əli özü onun namazını qıldı".*[602]

Əhməd ibn Hənbəl Həccac ibn Muhəmmədin vasitəsilə Leysdən, o da Əqildən, o da İbn Şihabdan, o da Ürvədən, o da Aişədən nəql edir: *"Əbu Bəkr Fatiməyə bir şey verməkdən imtina etdi. Buna görə Fatimə Əbu Bəkrə hirsləndi".*[603]

İbn Həbban "Səhih"ində Yezid ibn Movhəbin vasitəsilə Leys ibn Səddən, o da Əqil ibn Xaliddən, o da İbn Şihabdan, o da Ürvə ibn Zübeyrdən, o da Aişədən nəql edir: *"Əbu Bəkr Fatiməyə bir şey verməkdən imtina etdi. Buna görə Fatimə Əbu Bəkrə hirsləndi, əlaqəsini kəsdi. Peyğəmbərin (s) vəfatından sonra altı ay yaşadı və vəfat edənədək onunla bir daha danışmadı. Vəfat etdikdə həyat yoldaşı Əli (r) onu*

---

[600] əs-Sünənul-kubra, Beyhəqi, c. 6, s. 300, hədis 12514

[601] Səhih, Buxari, c. 4, s. 1549, hədis 3998, "Xeybər savaşı" bölməsi

[602] Səhih, Müslim, c. 3, s. 1380, hədis 1759, bölmə 16

[603] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 9, hədis 55

gecə ikən dəfn etdi. Əbu Bəkrin ona namaz qılmasına izn vermədi, özü namazını qıldı".[604]

Üçüncü yol: Şüeyb ibn Əbu Həmzədən, o da Zühridən, o da Ürvədən, o da Aişədən nəql edir

Beyhəqi "əs-Sünənul-kubra"da Şüeyb ibn Əbu Həmzənin vasitəsilə Zühridən, o da Ürvə ibn Zübeyrdən Aişənin (r) belə söylədiyini xəbər verir: *"Əbu Bəkr Fatiməyə bir şey verməkdən imtina etdi. Fatimə buna görə Əbu Bəkrlə əlaqəsini kəsdi".* Ardınca Beyhəqi deyir: "Buxari bunu "Səhih"də Əbu Yəmandan rəvayət edib".[605]

Buxarinin Əbu Yəmandan, onun da silsiləvi olaraq Şüeybdən, Zühridən, Ürvə ibn Zübetrdən və onun da Aişədən nəql etdiyi rəvayətdə Fatimənin (ə) əlaqəsini kəsdiyinə, hirsləndiyinə və qəzəbləndiyinə dair kəlmələr yoxdur.[606]

İbn Həbban "Səhih"ində Şüeybin vasitəsilə nəql edir: *"Əbu Bəkr Fatiməyə bir şey verməkdən imtina etdi. Fatimə buna görə Əbu Bəkrlə əlaqəni kəsdi və ölənədək onunla danışmadı. Peyğəmbərin (s) vəfatından sonra altı ay yaşadı. Vəfat etdikdə zövcəsi Əli ibn Əbu Talib (r) onu gecə ikən dəfn etdi".*[607]

Təbərani "Müsnəduş-şamiyyin" kitabında Əbu Zərədən, o da Əbu Yəmandan, o da Şüeybdən, o da Zühridən, o da Ürvə ibn Zübeyrdən Aişənin belə söylədiyini xəbər verir: *"Əbu Bəkr Fatiməyə bir şey verməkdən imtina etdi. Fatimə buna görə Əbu Bəkrə hirsləndi, əlaqəsini kəsdi və üz döndərib ölənədək onunla danışmadı. Peyğəmbərin (s) vəfatından sonra altı ay yaşadı. Vəfat etdikdə zövcəsi Əli ibn Əbu Talib (r) onu gecə ikən dəfn etdi. Əbu Bəkrə bu işdəiştirak etməyə izn vermədi. Əli ona namaz qıldı".*[608]

---

[604] Səhih, İbn Həbban, c. 14, s. 573, hədis 6607
[605] əs-Sünənul-kubra, Beyhəqi, c. 6, s. 300, hədis 12513
[606] Səhih, Buxari, c. 3, s. 163, hədis 3508, bölmə 12
[607] Səhih, İbn Həbban, c. 11, s. 152, hədis 4823
[608] Müsnəduş-Şamiyyin, Təbərani, c. 4, s. 198, hədis 3097

Dördüncü yol: Müəmmər Zühridən, o da Ürvədən, o da Aişədən nəql edir

Buxari "Səhih"də Abdullah ibn Muhəmməddən, o da Hişamdan, o da Müəmmərdən, o da Zühridən, o da Ürvədən, o da Aişədən nəql edir: *"Fatimə (ə) və Abbas Əbu Bəkrin yanına gələrək miraslarını, Fədəkdəki torpağı və Xeybərdən payına düşənləri tələb etdilər. Əbu Bəkr dedi: "Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: "Biz miras qoymarıq, geridə buraxdıqlarımız sədəqədir". Muhəmmədin ailəsi də bu maldan istifadə edirdi. Allaha and olsun ki, Peyğəmbərin (bu mallarla) etdiyi rəftarı əsla mən də tərk etməyəcəyəm". Fatimə onunla əlaqəni kəsdi və ölənədək danışmadı".*[609]

Həmçinin İbrahim ibn Musanın vasitəsilə Hişamdan, o da Müəmmərdən, o da Zühridən, o da Ürvədən, o da Aişədən sonda qəzəblənməsini qeyd etmədən müxtəsər olaraq nəql edilib.[610]

Müslim İshaq ibn İbrahim yolu ilə Muhəmməd ibn Rafidən və Abdullah ibn Hümeyddən, (digərləri deyir Əbdürrəzzaqdan), (İbn Rafi deyir) Müəmmərdən, o da Zühridən, o da Ürvədən Aişənin belə dediyini müxtəsər olaraq xəbər verir: *"Hədis Əqilin Zühridən nəql etdiyi mənada rəvayət edilir, lakin sonra deyir: "Əli qalxıb Əbu Bəkrin üstünlüklərindən, fəzilətlərindən, İslamdakı öncüllüyündən danışdı, sonra gedib ona beyət etdi. Camaat Əlinin yanına gəlib doğru söylədiyini və düz hərəkət etdiyini dedilər. Yaxşılığı əmr etmək məsələləri zamanı camaat həmişə Əlinin tərəfində idi".*[611]

Bu hədis ikinci rəvayət yolu nəql olunarkən qeyd edildi. Orada ardınca belə deyilirdi: "*Əbu Bəkr Fatiməyə bir şey verməkdən imtina etdi. Fatimə buna görə Əbu Bəkrə qəzəbləndi və üz döndərib ölənədək onunla danışmadı".*

Əbdürrəzzaq Müəmmərdən nəql edir: *"Fatimə buna görə Əbu Bəkrə qəzəbləndi və üz döndərib ölənədək onunla danışmadı. Vəfat etdikdə zövcəsi Əli onu gecə ikən*

---

[609] Səhih, Buxari, c. 6, s. 2474, hədis 6346, bölmə 2

[610] Səhih, Buxari, c. 4, s. 1481, hədis 3810, bölmə 11

[611] Səhih, Müslim, c. 3, s. 1380, hədis 1759, bölmə 16

dəfn etdi. Əbu Bəkrə bu işdə izn verilmədi. Əli ona namaz qıldı. Fatimə həyatda ikən Əlinin camaatla münasibəti var idi. Lakin o vəfat etdikdən sonra onlar münasibətdən çəkindi. Peyğəmbərin (s) vəfatından sonra Fatimə (ə) altı ay yaşadı". Müəmmər bir nəfərin Zühridən belə soruşduğunu deyir: "Həmin altı ayda Əli beyət etməmişdi?" Zühri dedi: "Xeyr, nə o, nə də Bəni-Haşimdən bir kəs Əli beyət edənədək (Əbu Bəkrə) beyət etməmişdi".[612]

Beyhəqi "əs-Sünən"də Əbdürrəzzaqdan nəql edir: *"Əbu Bəkr Fatiməyə bir şey verməkdən imtina etdi. Fatimə buna görə Əbu Bəkrə hirsləndi və üz döndərib ölənədək onunla danışmadı".*

Əbdürrəzzaq Müəmmərdən nəql edir: *"Fatimə buna görə Əbu Bəkrlə əlaqəni kəsdi və ölənədək onunla danışmadı. Vəfat etdikdə zövcəsi Əli (r) onu gecə ikən dəfn etdi. Əbu Bəkrə (r) bu işdə izn verilmədi". Aişə deyir: "Fatimə həyatda ikən Əlinin camaatla münasibəti var idi. Lakin o vəfat etdikdən sonra onlar münasibətdən çəkindi". Müəmmər deyir: "Zühridən Fatimənin Peyğəmbərdən (s) sonra nə qədər yaşadığını soruşdum, cavabında "altı ay" dedi. Başqa bir nəfər Zühridən soruşdu: "Həmin altı ayda Əli (r) beyət etməmişdi?" Zühri dedi: "Xeyr, Bəni-Haşimdən heç kəs beyət etməmişdi".*[613]

Beşinci yol: Vəlid ibn Muhəmməddən, o da Zühridən, o da Ürvədən, o da Aişədən nəql edir

İbn Şəbbə Nəmiri Süveyd ibn Səidin vasitəsilə Həsən ibn Osmandan nəql edirlər ki, Vəlid ibn Muhəmməd Zühridən, o da Ürvədən, o da Aişədən rəvayət edir: *"Əbu Bəkr Fatiməyə bir şey verməkdən imtina etdi. Fatimə buna görə Əbu Bəkrə hirsləndi və üz döndərib ölənədək onunla danışmadı. Peyğəmbərin (s)*

[612] əl-Müsənnəf, Əbdürrəzzaq, c. 5, s. 472. hədis 9774
[613] əs-Sünənul-kubra, Beyhəqi, c. 6, s. 300. hədis 12512

vəfatından sonra altı ay yaşadı. Vəfat etdikdə zövcəsi Əli onu gecə ikən dəfn etdi. Əbu Bəkrə bu işdə iştirak etməyə izn vermədi. Əli (r) ona namaz qıldı".[614]

2. Əbu Hüreyrənin hədisi

Tirmizi "Sünən"də Əli ibn İsanın vasitəsilə Əbdülvəhhab ibn Ətadan, o da Muhəmməd ibn Əmrdən, o da Əbu Sələmədən, o da Əbu Hüreyrədən belə nəql edir: *"Fatimə Əbu Bəkr və Ömərin yanına gələrək atası Peyğəmbərdən (s) qalan mirasını istədi. Onlar Peyğəmbərin "Biz miras buraxmarıq" buyurduğunu dedilər. Fatimə dedi: "Allaha and olsun ki, bundan sonra heç vaxt sizinlə danışmayacağam". Sonralar dünyadan köçənədək onlarla bir kəlmə belə kəsmədi".*[615]

Hədis yollarına əsasən hasil olur ki:

Bu mövzuda hədislər iki yolla nəql edilib.

Birincisi, Zühridən, onun da Ürvədən, onun da Aişədən nəql etdiyi yol. Bu yolla və azacıq fərqli kəlmələrlə Saleh, Əqil, Şüeyb, Müəmmər və Vəlid rəvayəti nəql ediblər.

Salehlə Müəmmərin rəvayətlərində "Fatimə qəzəbləndi", Şüeyb, Əqil və Vəlidin rəvayətlərində isə "Fatimə hirsləndi" deyə keçir.

"Əbu Bəkrlə əlaqəsini kəsdi və vəfat edənədək onunla danışmadı" sözləri isə beş ravinin – Salehin, Əqilin, Müəmmərin, Şüeybin rəvayətlərində (İbn Həbbanın qeyd etdiyi kəlmələrlə) və Vəlidin rəvayətində qeyd olunur.

"Vəfat etdikdə həyat yoldaşı Əli onu gecə ikən dəfn etdi. Əbu Bəkrin ona namaz qılmasına izn vermədi" cümlələri isə Buxari və Müslimin nəql etdikləri Əqilin rəvayətində, İbn Həbbanın sözləri ilə Müəmmər və Şüeybin, eləcə də Vəlidin rəvayətində qeyd edilib.

---

[614] Tarixul-Mədinə, İbn Şəbbə Nəmiri, c. 1, s. 196-197

[615] Sünən, Tirmizi, c. 4, s. 157, hədis 1609; İləl, Tirmizi, c. 1, s. 265

Yalnız "əlaqəsini kəsdi" sözü isə Müslimin nəql etdiyi Əqilin, həmçinin Buxari ilə Əbdürrəzzaqın Müəmmərdən nəql etdikləri rəvayətlərdə deyilib.

Salehin və Əqilin Buxari, Əhməd və İbn Həbbanın sözləri ilə qeyd edilən rəvayətləri, eləcə də Şüeybin, Müəmmərin (Müslimdəki), Vəlidin rəvayətlərində "qəzəbləndi" ardınca isə "əlaqəni kəsdi" sözləri ilə nəql olunur.

İkinci: Əbu Sələmə Əbu Hüreyrədən nəql etdiyi rəvayətdə isə deyilir: *"Allaha and olsun ki, bundan sonra heç vaxt sizinlə danışmayacağam". Sonralar dünyadan köçənədək onlarla bir kəlmə belə kəsmədi".*

İrad və onun cavabı

Zührinin rəvayətindəki "Dedi: Və əlaqəsini kəsdi..."[616] və bu kimi sözlərdən vəhhabi kitablarında Fatimənin (ə) qəzəbinin və əlaqəsini kəsməsinin ("Dedi" "və" kəlmələri istifadə edildiyinə görə) ya başlanğıcda, ya da müvəqqəti olduğu məlum olur.

Bu, bir neçə səbəbdən yanlış xəyaldır:

Birinci: Qeyd edildiyi kimi, Zühridən bir tək ravi nəql etməyib, ondan həm Saleh, Əqil, Şüeyb, Müəmmər və həm də Vəlid rəvayət ediblər.

"Dedi: Və (nəticədə) əlaqəsini kəsdi..." sözü yalnız Müslimin Əqilin vasitəsilə nəql etdiyi rəvayətdə və Müəmmərin rəvayətində deyilib.

Ancaq Salehin və Əqilin Buxari, Əhməd və İbn Həbbanın nəql etdiyi rəvayətlərində, eləcə də Şüeyb və Vəlidin rəvayətlərində bu kəlmələr yoxdur. Orada kəlmələrin ardıcıllığı "fa" bağlayıcı ədatı ilə sıralanır.

Salehdən Buxari, Əhməd və onlara yaxın kəlmələrlə Beyhəqinin nəql etdiyi rəvayətdə deyilir: *"Əbu Bəkr (r) ona dedi: "Peyğəmbər (s) buyurub: "Biz miras qoymarıq, bizdən qalanlar sədəqədir". Peyğəmbərin (s) qızı Fatimə qəzəbləndi, əlaqəsini kəsdi və vəfat etdiyi vaxtadək Əbu Bəkrlə danışmadı".*

---

[616] Belə ki, bu sözün Aişənin deyil, ravi Zührinin olduğu gümanını yaratmağa cəhd edirlər.

Buxarinin və ona yaxın kəlmələrlə Əhməd və İbn Həbbanın Əqildən nəql etdikləri rəvayətdə isə deyilir: *"Əbu Bəkr Fatiməyə bir şey verməkdən imtina etdi. Buna görə Fatimə Əbu Bəkrə hirsləndi, əlaqəsini kəsdi. Peyğəmbərin (s) vəfatından sonra altı ay yaşadı və vəfat edənədək onunla bir daha danışmadı. Vəfat etdikdə həyat yoldaşı Əli onu gecə ikən dəfn etdi. Əbu Bəkrin ona namaz qılmasına izn vermədi, özü namazını qıldı".*

Təbərani və İbn Həbbanın (Beyhəqi də kitabında buna yaxın kəlmələrlə nəql edir) kitablarında isə Şüeybin rəvayətində deyilir: *"Əbu Bəkr Fatiməyə bir şey verməkdən imtina etdi. Fatimə buna görə Əbu Bəkrə hirsləndi, əlaqəsini kəsdi və üz döndərib ölənədək onunla danışmadı".*

Əbu Hüreyrənin hədisində isə deyilir: *"(Xanım dedi:) Allaha and olsun ki, bundan sonra heç vaxt sizinlə danışmayacağam". Sonralar dünyadan köçənədək onlarla bir kəlmə belə kəsmədi".*

Bütün qeyd etdiyimiz bu hədislərin sənədi səhihdir, müxtəlif yollarla rəvayət edilib. Bunlarda qəzəbinin bitdiyinə və ya müvəqqəti olduğuna dəlalət edən heç bir işarə yoxdur. Həmin mətnlər rəvayətin birbaşa Aişənin sözləri olduğuna açıq-aşkar dəlalət edir.

İkinci: Zühridən nəql edənlərin arasında Yəhya ibn Muinin nəzərinə görə Saleh Müəmmərdən daha üstündür. Mizzi və digərləri Yaqub ibn Şeybədən nəql edirlər: Əhməd ibn Abbas Yəhya ibn Muinin belə dediyini söyləyir: "Zührinin əshabının arasında ən üstünü Malik, sonra Saleh ibn Keysan, sonra isə Müəmmər, sonra isə Yunusdur".[617]

Əbu Hatəmin nəzərində isə o, Əqildən də sevimlidir. Mizzi və başqaları Əbdürrəhman ibn Əbu Hatəmdən nəql edirlər: "Atamdan soruşdular: "Saleh ibn Keysan sənə sevimlidir, yoxsa Əqil?" Dedi: "Saleh mənə daha sevimlidir".[618]

---

[617] Təhzibul-kəmal, Mizzi, c. 13, s. 82, rəqəm 2834; Təhzibut-təhzib, İbn Həcər, c. 4, s. 350, rəqəm 692

[618] Həmin mənbə

Müslimin Əqilədək olan ravi yolu Buxarinin sənədindən fərqlənir. Müslim rəvayəti Huceyndən, o da Leysdən və o da Əqildən nəql edir. Buxari isə Yəhya ibn Bükeyrdən, o da Leysdən və o da Əqildən rəvayət edib.

Leysin ravilərində Yəhya ibn Bükeyr Hüceyndən daha üstündür. Mizzi və digərləri İbn Ədiydən nəql edirlər: "(Yəhya ibn Bükeyr) Leys ibn Sədin qonşusu idi, onun barəsində ən yaxın şəxsdir. Onun heç kimin Leysdən nəql etmədiyi rəvayətləri var".[619]

Üçüncü: "Səhih"lərə şərh yazanlardan heç kim öz geniş ictihad, izah və təvillərinə baxmayaraq, Fatimənin ilk iki xəlifəyə qəzəbindən bu müasir "şərhçilər"in qənaətinə gəlməyiblər. Heç kimi Zührinin rəvayətindən qəzəbin başa çatdığını və ya müvəqqəti olduğunu anlamayıb. Xüsusilə də, İbn Həcər bu qəzəb və əlaqə kəsmək barədə bütün cəhətləri və deyilə biləcək sözləri qeyd etmiş, onlardan Əbu Bəkrin Fatiməni (ə) razı saldığını və onun da razılaşdığı variantını seçmişdi. Buna isə Şəbinin mürsəl hədisini dəlil göstərmişdi. Zührinin rəvayətlərindəki kəlmələrdə yaxından və ya uzaqdan qəzəbin bitdiyinə dəlalət edən heç bir işarəyə rast gəlməmişdi.

Onun sözlərini sizə təqdim edirik: *"Fatimə qəzəbləndi, Əbu Bəkrlə əlaqəsini kəsdi və bu əlaqəsini kəsməsi vəfat edənədək davam etdi..."* sözü və Müəmmərin rəvayətində *"Əlaqəsini kəsdi və vəfat edənədək danışmadı"* sözü Ömər ibn Şəbbənin kitabında Müəmmərdən bir az fərqli nəql olunub: *"...vəfat edənədək bu mal-mülk (miras) haqqında danışmadı".* Həmçinin Tirmizi bəzi şeyxlərindən nəql etdiyi Fatimənin Əbu Bəkr və Ömərə söylədiyi *"Sizin ikinizlə danışmayacağam"* sözləri bu miras mövzusunda danışmayacağı mənasındadır. Əbu Bəkr Şaşi ardınca isə deyir ki, rəvayətdəki "qəzəbləndi" sözü ümumiyyətlə danışmamağa dəlalət edir, bu isə əlaqəni kəsmək deməkdir. Əhməd və Əbu Davudun Əbu

[619] Təhzibul-kəmal, Mizzi, c. 11, s. 208, rəqəm 377; Təhzibut-təhzib, İbn Həcər, c. 3, s. 1213, rəqəm 1466

Tüfeylin vasitəsilə nəql etdiyi rəvayətdə: *"Fatimə Əbu Bəkrin yanına adam göndərib dedi: "Peyğəmbərdən (s) sənmi miras aparacaqsan, yoxsa ailəsi?"*

Əbu Bəkr: Xeyr, ailəsi.

Fatimə: Bəs Peyğəmbərdən (s) qalan pay haradadır?

Əbu Bəkr: Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: "Allah bir peyğəmbərə azuqə göndərib, sonra onun canını aldıqda həmin payı özündən sonrakı üçün saxlayır". Mən bunu müsəlmanlara vermək istəyirəm.

Fatimə: Sən və eşitdiyin... (daha düzgün olar)".

Bu rəvayət "Səhih"dəki əlaqəni kəsməklə bağlı rəvayətlərə zidd deyil və Fatimənin razı olduğuna da dəlalət etmir. Eyni zamanda burada Əbu Bəkrin inkar edən sözü də var: "Xeyr, ailəsi". Bu söz "Peyğəmbərlər miras buraxmaz" hədisi ilə ziddiyyət təşkil edir.

Bəli, Beyhəqi Şəbinin vasitəsilə rəvayət edir: "Əbu Bəkr baş çəkmək üçün gəldikdə Əli Fatiməyə dedi: "Gələn Əbu Bəkrdir, səndən izn istəyir". Xanım dedi: "Sən izn vermək istəyirsən?" Əli "Bəli" deyə cavab verdi. Xanım da ona izn verdi. Əbu Bəkr içəri daxil olub onu razı saldı, Xanım da razılığını bildirdi".

Bu rəvayət mürsəl də olsa, Şəbiyə istinadı səhihdir. Bunun vasitəsilə Fatimənin Əbu Bəkrlə əlaqəsini kəsdiyi bitmiş olur. Bəzi imamlar deyiblər: "Onun əlaqə kəsməyi görüşmək və bir yerdə oturmaqla bağlı idi. Bu isə haram əlaqəkəsmə deyil. Çünki buradakı şərt görüşmək və filan-filan məsələlərin baş verməsi ilə başa çatırdı. Fatimə Əbu Bəkrin yanından qəzəbli halda çıxdıqdan sonra atasına görə hüznə, sonra da xəstəliyinə başı qarışmışdı".

Əgər Şəbinin hədisi isbat olsa, aradakı irad da bitər. Məsələnin belə olması da daha münasibdir. Belə ki, Xanımın (qəzəbində inad etməyəcəyi qədər) ağıl və din genişliyi məlumdur".[620]

Bu sözlər Əhli-Sünnə alimlərinin və "Səhih"ləri şərh edənlərin Fatimənin (ə) qəzəbi və əlaqəsini kəsməsi ilə bağlı söylədiyi sözlərdir. Onlardan heç kim bunun

[620] Fəthul-bari, İbn Həcər, c. 6, s. 202-203 (s. 233, hədis 3094)

başlanğıcda baş verdiyini demir. Bəli, İbn Həcər və başqaları Əbu Bəkr və Ömərin Fatiməni razı saldıqlarını, nəticədə Fatimənin də bununla razılaşdığını üstün rəy kimi seçiblər. Lakin buna Şəbinin mürsəl hədisindən savayı heç bir səhih dəlil təqdim etməyiblər. Onların bu qəzəb mövzusunda əsaslandıqları yalnız bu mürsəl rəvayət olub. Şəbinin mürsəl hədisi ilə Zührinin mürsəl hədisinin arasındakı fərq isə bəyan olunmayır!

Dördüncü: Əgər bunu inkar etsəniz, o zaman bununla bağlı deyiləcək ən qısa söz budur ki, Zühri "əlaqəni kəsmək" rəvayətini gah sənədli olaraq; necə ki, Saleh və Əqildən Buxari, Əhməd və İbn Həbbanın kitablarındakı, Şüeybin, Müəmmərin Müslimin kitabındakı və Vəlidin rəvayətində olduğu kimi; həmçinin gah da birbaşa, mərfu olaraq nəql etdiyidir; necə ki, Müslimin Əqildən, Buxarinin və Əbdürrəzzaqın Müəmmərdən nəql etdikləri kimi.

Bunların maneəsi yoxdur, gah sənədli, gah da mürsəl olaraq eyni hadisəni nəql edib. Lakin müsnəd (sənədli) hədisləri mürsəl hədislərlə əsaslandırmaq hədis elmində yeni bir qaydanın icad olunması deməkdir. Bu isə vəhhabi kitablarına və onların adətlərinə müvafiqdir.

Beşinci: Yalnız mənanın nəql edilməsini icazəli bilib-bilməyənlər alimlərin arasındakı fikir ayrılığı ancaq hədis barədədir. Lakin bizim bəhsimiz Peyğəmbər (s) hədisinin nəqli barədə deyil ki, həmin ixtilaf çərçivəsinə daxil olsun. Burada yalnız hadisə və nəfsi hal nəql olunur. Bu zaman həmin halı vəsf edən kəlmələr fərqli ola bilərlər. Lakin yenə də bütün bu kəlmələr Xanımın əlaqəsini kəsdiyinə və razı olmadığına dəlalət edir.

Baxmayaraq ki, əksər alimlər yalnız mənanın nəql edilməsinin icazəli olduğunu söyləmişlər. Mənaya xələl gətirmədən kəlmə fərqləri dəlildə təsir qoymur. Belə rəvayətlər Əhli-Sünnənin altı səhih kitablarında və digərlərində də var. Burada ravinin məhz Zührinin özünün olması da diqqətə alınmalıdır.

Hədisin dəlaləti

Fatimənin (ə) ilk iki xəlifəyə qəzəbləndiyini bildirən hədislər özündə bəzi aydın dəlilləri ehtiva edir ki, onlardan diqqəti yayındırmaq mümkün deyil. Bəzilərini sizə təqdim edirik:

1. Narazılıq və əlaqəni kəsmək

Qəzəb razılığın ziddidir. İbn Mənzur "Lisanul-ərəb"də deyir: "Qəzəb – razılığın antonimidir. Feli "ğazabə", məsdər olaraq "ğazab, "məğzəbə".[621] Bu söz özlüyündə çətinlik və gücə də dəlalət edir. Deyilir ki, "ğazbə" möhkəm daşdır. Buradan da qəzəb sözü kökünü götürüb. Çünki bu, narazılığın şiddətli ifadəsidir. Failin ismi "ğazban" və "ğazub"dur".[622]

"Fatimə Əbu Bəkrə qəzəbləndi və onunla əlaqəsini kəsdi" sözü birbaşa aydın şəkildə narazılıq və əlaqəni kəsməyə dəlalət edir. Bu və buna bənzər kəlmələr qeyd etdiyimiz rəvayətlərdə varid olub.

Hədislərin narazılığa və əlaqəni kəsdiyinə dəlalət etdiyi İbn Həcər də üstüörtülü şəkildə Əhməd və Əbu Davudun İbn Tüfeylin vasitəsilə nəql etdikləri "Fatimə Əbu Bəkrin yanına adam göndərib dedi: *"Peyğəmbərdən (s) sənmi miras aparacaqsan, yoxsa ailəsi?" Əbu Bəkr: "Xeyr, ailəsi..."* rəvayətinin təqibində ifadə edir. Orada deyir: "Bu, "Səhih"dəki açıq-aydın əlaqənin kəsildiyinə işarə edən rəvayətə zidd deyil, həmçinin razılığa da dəlalət etmir".[623]

Həmçinin Süheyldən Tirmizinin bəzi şeyxlərinin vasitəsilə nəql etdiyi "Fatimənin Əbu Bəkr və Ömərə dediyi "sizinlə danışmayacağam", yəni miras barədə danışmayacağam" sözlərinə də yer verərək deyir: "Rəvayətdə "qəzəbləndi" sözünün qeyd edilməsi onun yalnız miras barədə deyil,

---

[621] Lisanul-ərəb, c. 1, s. 648-649. "ĞZB" hərfləri

[622] Bax: Kitabul-eyn, Xəlil Fərahidi, c. 4, s. 369; Tərtibu islahil-məntiq, İbn Sikkit Əhvazi, s. 279; Sihah, Cövhəri, c. 1, s. 194-195; əl-Furuqul-luğəviyyə, Əbu Hilal Əskəri, s. 391-392; Möcamu məqayisil-luğəti, Əbülhüseyn Əhməd ibn Faris Zəkəriyyə, c. 4, s. 428

[623] Fəthul-Bari, İbn Həcər, c. 6, s. 139-140

ümumiyyətlə danışmayacağına dəlalət edir. Bu aydın şəkildə əlaqəni kəsməkdir”.[624]

İbn Həcər bu sözləri ilə “Səhih”dəki rəvayətin aydın şəkildə əlaqəni kəsməyə dəlalətini ifadə edir. Həmçinin Şaşinin sözlərinə susması da həmin sözlərlə həmfikir olduğunu göstərir.

Muqrizi Tirmizinin sözlərinə etiraz olaraq deyir: “Sizinlə danışmayacağam” sözünün mənası, yəni “siz doğru söyləyirsiniz, mən bir daha miras barədə sizinlə danışmayacağam” deməkdir. Bunu Əbu Hüreyrənin nəql etdiyi rəvayətin ardınca söyləyir. Əli ibn İsa ibn Yezid Bağdadinin fikri buna uyğun deyil. Leys Əqildən, o da İbn Şihabdan, o da Ürvədən, o da Aişədən nəql edir ki: *“Fatimə atasının mirasını Əbu Bəkrdən tələb etdi”.* Hədisdə deyilir: *“Buna görə Fatimə Əbu Bəkrə hirsləndi, onunla əlaqəsini kəsdi və ölənədək danışmadı”.* Buxari və Müslimin hər ikisi bu hədisi eyni kəlmələrlə nəql etmişlər.

İbrahim ibn Səd Saleh ibn Keysandan, o da İbn Şihabdan bu hədisi həmin sənədlə rəvayət edib. Orada deyilir: *“Peyğəmbərin (s) qızı Fatimə qəzəbləndi və Əbu Bəkrlə ölənədək əlaqəsini kəsdi”.* Bu hədis barədə də həmfikirdirlər. Yalnız təkcə Buxari bu kəlmələrlə qeyd etmişdir”.[625]

Muqrizi Əli ibn İsanın bu izahını və onun “Səhih”lərdəki rəvayətlərə qarşı çıxmasının rədd edib. Bu isə onun “Səhih”lərdəki hədislərin aydın şəkildə qəzəbə, əlaqəni kəsməyə və narazılığa dəlalət etdiyinə etiqad bəslədiyini göstərir.

“Fatimə hirsləndi” ibarəsi barədə də vəziyyət bundan çox fərqlənmir. Belə ki, “hirslənmək” kəlməsi lüğətdə “qəzəblənmək” mənasındadır. İbn Sikkit deyir: “Vacədə əleyhi – qəzəbləndikdə deyilir”.[626] Fərahidi deyir: “Hirslənmək qəzəblənməkdir”.[627] İbn Mənzur deyir: “Ona hirsləndi – yəni qəzəbləndi. “İman”

---

[624] Fəthul-Bari, İbn Həcər, c. 6, s. 139-140
[625] İmtaul-əsma, Muqrizi, c. 13, s. 158-159
[626] əs-Sihah, Cövhəri, c. 2, s. 547
[627] Kitabul-eyn, c. 6, s. 169

hədisində deyilir: “İnni sailukə, fəla təcid əleyyə – yəni mənim sualımdan qəzəblənmə”.[628]

2. Narazılığın və əlaqənin kəsilməsinin davam etməsi

“Əbu Bəkrlə ölənədək əlaqəni kəsdi” sözü Fatimənin (ə) ilk iki xəlifəyə qəzəbləndiyini qeyd edən əsas rəvayətlərdə nəql edilir. Bu isə həmin qəzəb və əlaqənin kəsilməsinin Fatimənin (ə) dünyadan köçdüyü vaxtadək davam etdiyini göstərir. O, vəfat edərkən də narazı idi.

Bunun əksini sübut etməyə isə Şəbinin mürsəl hədisindən savayı heç bir dəlil yoxdur. Onun barəsində qarşıda geniş söhbət açacağıq.

Qəzəb və narazılığının bitdiyi gümanı isə Aişənin sözlərindən deyil, Zührinin sözlərinə əsasən iddia edilir. Bunun cavabı bir az əvvəl qeyd edildi. Həmin sözlər yalnız Müslimin Əqildən, Buxari və Əbdürrəzzaqın Müəmmərdən nəql etdiyi rəvayətlərdə varid olub.

Ancaq Salehdən, Əqildən Buxarinin, Əhməd ibn Hənbəlin və İbn Həbbanın nəql etdiyi rəvayətlərin, həmçinin Şüeybin Müslimin Müəmmərdən nəql etdiyi rəvayətlərin hamısının sənədləri səhihdir. Orada qəzəbin bitdiyinə dəlalət və ya işarə edən heç bir kəlmə yoxdur. Həmin hədislərdə bütün sözlərin Aişəyə məxsus olduğu açıq-aydındır. Orada ardıcıllıq “fa” bağlayıcısı ilə ifadə edilir, “dedi:” kəlməsi həmin rəvayətlərdə yoxdur.

Əgər bunu inkar etsəniz, o zaman bununla bağlı deyiləcək ən qısa söz budur ki, Zühri “əlaqəni kəsmək” rəvayətini gah sənədli olaraq; necə ki, Saleh və Əqildən Buxari, Əhməd və İbn Həbbanın kitablarındakı, Şüeybin, Müəmmərin Müslimin kitabındakı və Vəlidin rəvayətində olduğu kimi; həmçinin gah da birbaşa, mərfu olaraq nəql etdiyidir; necə ki, Müslimin Əqildən, Buxarinin və Əbdürrəzzaqın Müəmmərdən nəql etdikləri kimi.

---

[628] Lisanul-ərəb, c. 3, s. 445-446, “VCD” hərfləri

Hadisəni gah sənədli, gah da mursəl olaraq qeyd etməsinin heç bir maneəsi (eyibi) yoxdur. Lakin müsnəd (sənədli) hədisləri mürsəl hədislərə nisbət vermək açıq-aydın batil işdir.

3. Əbu Bəkrə Fatimə (ə) üçün cənazə namazı qılmağa izn verilməməsi

"Vəfat etdikdə zövcəsi Əli onu gecə ikən dəfn etdi, Əbu Bəkrə izn vermədi, özü onun namazını qıldı" (İmam Əli (ə) namazı qıldı. Necə ki, Müslimin rəvayətində *"Əli onun namazını qıldı"* deyilir) sözünə gəldikdə, bu kəlmələr aydın şəkildə Fatimə (ə) üçün namaz qılınmasına və dəfnində iştirak etməsinə izn verilmədiyinə dəlalət edir.

Bu, Xanımın (ə) vəsiyyətinə əsasən idi. İbn Həcər "zövcəsi Əli onu gecə ikən dəfn etdi, Əbu Bəkrə xəbər etmədi" sözünün ardınca deyir: "Bir çox yolla onun gecə dəfn edildiyi və bunun öz vəsiyyətinə əsasən edildiyi nəql olunub".[629]

Bu isə onun qəzəbinin şiddətinin izharıdır.

Həmçinin buna Əbdürrəzzaqın İbn Cərih və Əmr ibn Dinarın vasitəsilə Həsən ibn Muhəmmədin ona belə söylədiyini nəql edən rəvayət də dəlalət edir. Orada deyilir: "Peyğəmbərin (s) qızı Fatimə gecə dəfn edildi". Dedi: "Əli Əbu Bəkrin ona namaz qılmaması üçün ondan gizlədi. Onların arasında bir şey (narazılıq) var idi".[630]

Həmçinin İbn Üyeynənin vasitəsilə Əmr ibn Dinardan, o da Həsən ibn Muhəmməddən eyni rəvayəti nəql edir. Yalnız orada "Xanım özü bunu vəsiyyət etmişdi" sözləri də yer alır.[631]

Hakim "Müstədrək"də Əbu İshaq İbrahim ibn Muhəmməd ibn Yəhya və Əbülhüseyn ibn Yaqub Hafizin vasitəsilə Əbülabbas Muhəmməd ibn İshaqdan, o da Qüteybə ibn Səiddən, o da Leysdən, o da Əqildən, o da Zühridən, o da Ürvədən, o da Aişədən nəql edir: "Peyğəmbər (s) qızı Fatimə gecə dəfn edildi. Onu Əli dəfn

---

[629] Fəthul-Bari, İbn Həcər, c. 7, s. 378

[630] əl-Müsənnəf, Əbdürrəzzaq, c. 3, s. 521, hədis 6554, "Gecə dəfni" bölməsi

[631] əl-Müsənnəf, Əbdürrəzzaq, c. 3, s. 521, hədis 6555, "Gecə dəfni" bölməsi

etdi və Əbu Bəkrə (r) xəbər vermədi. Onun namazını da Əli ibn Əbu Talib (r) qıldı”.[632]

Bunu da qeyd etməliyik ki, adətən cəmiyyətdə tanınmış məqam sahibi olan bir şəxs vəfat etdikdə həmin şəxsin yaxınları tərəfindən xüsusi bir mərasim təşkil edilir. Bu vaxt rəhbər və hökumət üzvləri iştirak üçün məlumatlandırılır. Əksinə, gizli və ya gecə ikən dəfn edilməklə cəmiyyətdən gizlədilmir!

Fatimənin (ə) İslam peyğəmbərinin (s) qızı və aləm qadınlarının xanımı olmasını, həmçinin də həmin dövrdə Əbu Bəkrin hakimiyyətin rəhbəri olduğunu nəzərə alsaq onun gecə ikən belə gizli şəkildə, cənazə namazına çağırış edilmədən dəfn edilməsini təsəvvürü insanı düşündürür. Hətta onun öz vəsiyyətinə əsasən dövrün xəlifəsinə də xəbər verilmədi. Bütün bunlar onun qəzəbinin şiddətinin ifadəsi deyilmi?!

İbn Həcərin Əbu Bəkrin Fatimənin (ə) namazında və dəfnində iştirak etməməsinə göstərdiyi üzrlər

İbn Həcər Əbu Bəkrin Fatimənin (ə) cənazə namazında və dəfnində iştirak etməməsinə iki yöndən üzr göstərib. Onlardan biri Xanımın vücudunun daha çox gizli qalmasını təmin etmək, digəri isə onun ölümündən xəbərsiz olmasıdır. “Bir çox yolla onun gecə dəfn edildiyi və bunun öz vəsiyyətinə əsasən edildiyi nəql olunub” sözünün ardınca deyir: “Vücudunun daha çox gizli qalmasını təmin etmək üçün; və ola bilsin ki, Əbu Bəkr onun vəfat etdiyini bilmirdi. Çünki bunun ondan gizli qalacağını zənn etmirdi”.[633] Eyni də onun məlumatsız olduğuna əmin idi.[634]

Bunlar dəlilsiz və boş sadə iddialardan ibarətdir. Dəlillər isə bunun əksini sübut edir. Onun vəfatından xəbərsiz olma iddiasının yanlışlığına iki cəhət dəlalət edir:

---

[632] əl-Müstədrəku ələs-səhiheyn, c. 3, s. 178, hədis 4764

[633] Fəthul-Bari, İbn Həcər, c. 7, s. 378

[634] Umdətul-qari, Eyni, c. 17, s. 259

Birinci: Beyhəqi "əs-Sünənul-kubra"da Əbu Hazim Hafizin vasitəsilə Əbu Əhməd Muhəmməd Hafizdən, o da Əbülabbas Muhəmməd ibn İshaq Səqəfidən, o da Qüteybə ibn Səiddən, o da Muhəmməd ibn Musadan, o da Ovn ibn Muhəmməd ibn Əli ibn Əbu Talibdən, o da anası Ümmü Cəfər bint Muhəmməd ibn Cəfərdən, o da İmarə ibn Muhacirdən, o da Ümmü Cəfərdən nəql edir ki, Peyğəmbərin (s) qızı Fatimə dedi: *"Ey Əsma, (cənazə məsələsində) qadınlarla etdikləri rəftarı mən xoşlamıram, qadının üzərinə bir parça atıb ardınca səf-səf gedirlər". Əsma dedi: "Ey Peyğəmbər (s) qızı, Həbəşistanda gördüyümü sənə xəbər verimmi? Xurma ağacının budaqlarını qatlayıb bir kəcavə düzəldirlər, üzərinə də parça örtürlər". Fatimə (r) dedi: "Bu nə gözəldir! Bununla da kişi cənazələri qadından fərqlənir. Mən öldükdə mənə sən və Əli (r) qüsl verin, yanıma heç kəsi buraxmayın".*

Fatimə (r) vəfat etdikdə Aişə gəlib içəri daxil oldu. Bunu görən Əsma dedi: "İçəri girmə!". O gedib atası Əbu Bəkrə şikayət edib dedi: "Bu Xəsəməli[635] *qadın mənimlə Peyğəmbər (s) qızının arasına girməyə çalışır, onun üçün gəlinlərə xas təxti-rəvan qurub". Əbu Bəkr gəlib qapının qarşısında dayanaraq dedi: "Ey Əsma, Peyğəmbərin (s) qızı Fatimə (ə) üçün gəlinlərə xas təxti-rəvan qurub xanımlarını yanına niyə buraxmırsan?" Buyurdu: "O, mənə yanına heç kəsi buraxmamağı hələ həyatda ikən tapşırıb. Həmçinin bu kəcavəni qurmağı da özü mənə vəsiyyət edib". Əbu Bəkr (r) "Nə tapşırıbsa, onu et" deyib getdi. Əli və Əsma ona qüsl verdilər".*[636]

İkinci: Bu, lüğətə və kəlmələrin istifadə qaydalarına müxalifdir. "Lisanul-ərəb"də və "Tacul-urus"da deyilir: Əbu Xalid Əsədi şerində deyir: "O zaman ki nə izn verdi, nə də söylədi".[637] Hədisdə isə deyilir: "Əgər izn istədisə, ona izn verilmədi".[638]

Vücudunun daha çox gizli qalması iddiası da bir neçə cəhətdən batildir:

---

[635] Yəməndə qəbilə adıdır.

[636] əs-Sünənul-kubra, Beyhəqi, c. 4, s. 34-35; əz-Zurriyyətut-tahirətun-nəbəviyyə, Muhəmməd ibn Əhməd Dulabi, s. 154; əl-İstiab, İbn Əbdülbərr, c. 4, s. 1879-1880 (1897-1898); Usdul-ğabə, İbn Əsir, c. 5, s. 524

[637] Lisanul-ərəb, c. 15, s. 476, Tacul-urus, Zubeydi, c. 20, s. 429

[638] Səhih, Buxari, c. 3, s. 1057, hədis 2730, bölmə 69

Birinci: Ümmü Cəfərin hədisində qeyd edildiyi kimi, Əsma Fatimə (ə) üçün onun öz göstərişi ilə gəlinlərə xas təxti-rəvan qurmuşdu. Bu isə örtünməni tam təmin edirdi.

İkinci: Bu həddə onun vücudunun gizli qalmasını istəmək Xanım Fatimənin (ə) həyatda olarkən cisminin bəzi mübarək keyfiyyətləri ilə bağlı onların öz raviləri ilə nəql etdikləri rəvayətlərə ziddir. Buxari və Müslim Məsruqun vasitəsilə Aişədən nəql edirlər: *"Fatimə gəlirdi, onun yerişi Peyğəmbərin (s) yerişi kimi idi..."*[639]

Üçüncü: "Əbu bəkrə izn vermədi" sözü başqalarının deyil, məhz Əbu Bəkrə izn verilmədiyini göstərir. Əgər ümumən vücudunun gizli qalmasını istəsəydilər, digərlərini də onunla bərabər iştirakdan məhrum etdikləri bildirilər, namaz və dəfn yalnız Möminlərin əmiri (ə) və Bəni-Haşimlə məhdudlaşardı.

[639] Səhih, Buxari, c. 3, s. 1326, hədis 3426, "İslamda nübuvvət əlamətləri" bölməsi; Səhih, Müslim, c. 4, s. 1904, hədis 2450, "Fatimənin fəzilətləri" bölməsi

İkinci fəsil: Fatimənin (ə) ilk iki xəlifəyə qəzəblənməsinə Əhli-Sünnə alimlərinin münasibətinin müzakirəsi

Burada bir neçə bəhs var:

1. Fatimə (ə) Əbu Bəkrlə bu miras haqqında söhbətdən imtina etdi;

2. Fatimə (ə) Əbu Bəkrə qəzəblənmədi;

3. Əbu Bəkr Fatiməni (ə) razı saldı;

4. Fatimənin (ə) qəzəbi iman və küfr səbəbi deyil.

Giriş

"Fatimə bir parçamdır" hədisi aydın şəkildə onu incidənin Peyğəmbəri (s) incitdiyinə dəlalət edir. Qurani-Kərimdə Peyğəmbəri (s) incitməyi qadağan edən, onu incidən kəsin dünya və axirətdə Allahın lənətinə düçar olacağını və onun üçün axirətdə alçaldıcı əzab hazırlandığını bildirən ayələr mövcuddur.

Həmçinin "Fatimənin qəzəbi" hədisi də açıq-aydın Fatimənin (ə) Əbu bəkrə qəzəbləndiyinə, onunla əlaqəsini kəsdiyinə, ondan qəzəbli, incik və məzlum halda dünyadan köçdüyünə dəlalət edir.

Buna əsasən, Əhli-Sünnə alimləri həmin hədisləri yozmaq, ya da zəif və mürsəl hədisləri əsas götürüb "qəzəb" hədisinin ilk iki xəlifənin onu razı saldığı barədə rəvayətlərə zidd olduğunu bildiriblər. Bu fəsildə onların mövzu ilə bağlı söylədikləri ən əhəmiyyətli cavablara nəzər salacağıq. Bu aşağıdakı başlıqlardan qeyd ediləcək:

1. Fatimə (ə) Əbu Bəkrlə yalnız miras barədə danışmaqdan imtina etdi

Hədisdə Fatimənin (ə) ilk iki xəlifə ilə əlaqəsini kəsərək onlarla ölənədək danışmaması yalnız mübahisə mövzusu olan mal və mirasla bağlı olub. Buna İbn Şəbbə Nəmirinin "Tarixul-Mədinə" kitabında İshaq ibn İdrisdən, o da Muhəmməd ibn Sövrdən, o da Mummərdən, o da Zühridən, o da Ürvədən, onun da Aişədən nəql etdiyi rəvayət dəlalət edir: *"Fatimə (ə) və Abbas Əbu Bəkrin yanına gələrək miraslarını, Fədəkdəki torpağı və Xeybərdən payına düşənləri tələb etdilər. Əbu Bəkr dedi: "Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: "Biz miras qoymarıq, geridə buraxdıqlarımız sədəqədir". Muhəmmədin ailəsi də bu maldan istifadə edirdi..." Fatimə onunla əlaqəni kəsdi və ölənədək bu miras haqqında bir daha danışmadı".*[640]

[640] Tarixul-Mədinə, Ömər ibn Şəbbə Nəmiri, c. 1, s. 197

"Fatimə onunla əlaqəni kəsdi və ölənədək bu miras haqqında bir daha danışmadı" sözü Fatimənin (ə) Əbu Bəkrlə yalnız miras mövzusunda danışmaqdan imtina etdiyinə dəlalət edir.

Bunu həmçinin Tirmizi bəzi şeyxlərindən də nəql edir ki, Fatimənin Əbu Bəkr və Ömərə "Sizinlə bir daha danışmayacağam" sözü miras haqqında danışmayacağı mənasındadır.[641]

Müzakirə

Fatimənin (ə) Əbu Bəkrlə əlaqəni kəsərək onunla danışmaqdan imtina etməsinin yalnız mirasla bağlı olması bir neçə cəhətdən batil iddiadır:

Birinci cəhət:

İshaq ibn İdris zəif ravidir və hədisləri tərk olunur. Zəhəbi "Mizanul-itidal" kitabında yazır: "İshaq ibn İdris Əsvari Bəsri – Əbu Yaqub. Himam və Abandan, ondan da Ömər ibn Şəbbə və İbn Musnə nəql ediblər. İbn Mədini onun hədislərini tərk edib. Əbu Zərə deyir: "Zəif və əhəmiyyətsizdir". Buxari onu tərk edib. Dəraqutni deyir: "Hədisləri inkar olunur". Yəhya ibn Muin deyir: "Yalançıdır, hədis uydururdu".[642]

Heysəmi "Məcmməuz-zəvaid"də Tüveylə bint Müslimin hədisinin ardınca deyir: "Bəni-Harisədən bir kişi mənə dedi ki, Peyğəmbər (s) buyurdu: "Bunlar qeybə inanan adamlardır":[643] Bunu Təbərani "Möcamul-kəbir"də də nəql edib. Orada İshaq ibn İdris Əsvari var ki, o zəifdir və hədisləri tərk edilir".[644]

Həmçinin "məcməuz-zəvaid"də Səhl ibn Sədin rəvayət etdiyi "Peyğəmbər (s) Badiyə əhlindən bir qadınla evləndi, onun qabırğasının üzərində ağ ləkə gördü və

---

[641] Bax: Sünən, Tirmizi, c. 4, s. 157, hədis 1609, bölmə 44; Fəthul-Bari, İbn Həcər, c. 6, s. 139-140

[642] Mizanul-itidal, Zəhəbi, c. 1, s. 184

[643] əl-Möcamul-kəbir, Təbərani, c. 25, s. 43-44

[644] Məcməuz-zəvaid, Heysəmi, c. 2, s. 14-15

ondan ayrıldı”[645] hədisin ardınca deyir: “Bunu Təbərani nəql edib, ravilərin arasında İshaq ibn İdris Əsvari var. O, kəzzabdır (çox yalan danışandır)”.[646]

(Hakimin “Müstədrək” və “Səhih”ində söylədiyi və Zəhəbinin “Təlxis”də onunla razılaşdığı) Səmurə ibn Cundəbin hədisinin ardınca Albani deyir: “Bu onların uydurmasıdır. Ravilərin arasında İshaq ibn İdris var, o, yalançılıqda ittiham olunub”.[647]

İkinci cəhət:

Qeyd edildiyi kimi, “Səhih”dəki rəvayət açıq-aydın şəkildə Əbu Bəkrlə əlaqənin kəsildiyinə və ondan narazılığa dəlalət edir. Bu isə söhbətin yalnız mirasla bağlı deyil, ümumən bir daha danışmamaqdan getdiyinə işarədir. İbn Həcər Əbu Bəkr Şaşidən nəql edir: “qəzəbləndi” sözü Xanımın (ə) ümumiyyətlə danışmaqdan imtina etdiyinə dəlalət edir. Bu isə aydın şəkildə əlaqənin kəsilməsidir”.[648]

Həmçinin buna rəvayətdəki “fa” bağlayıcısı da dəlalət edir. *“Və (nəticədə) Fatimə qəzəbləndi və Əbu Bəkrlə əlaqəsini kəsib ölənədək onunla danışmadı”.*[649] Bu isə fəqət mirasla bağlı deyil, ümumiyyətlə danışmamağa açıq-aydın dəlalət edir.

Üçüncü cəhət:

Xanımın (ə) ilk iki xəlifəyə qəzəblənməsi və onlarla yalnız miras mövzusunda deyil, mütləq şəkildə əlaqəsini kəsməsi yayınmaq mümkün olmayan məsələdir. Çünki “Səhih”dəki səhih hədis buna dəlalət edir. İbn Şəbbənin yuxarıdakı İshaq ibn İdrisdən nəql etdiyi rəvayət isə zəifdir. Bu səbəbdən də, Əhli-Sünnənin böyük alimləri bunu təsdiqləmiş, lakin bundan sonrakı müddətdə razılaşdığını sübut etməyə çalışmışlar. İbn Həcər “Fəthul-Bari”də İbn Şəbbənin bu rəvayətini rədd

---

[645] əl-Möcamul-kəbir, Təbərani, c. 6, s. 161
[646] Məcməuz-zəvaid, Heysəmi, c. 4, s. 300-301
[647] İrvaul-ğalil, Albani, c. 5, s. 32-33
[648] Üçüncü hədisə bax
[649] Fəthul-Bari, İbn Həcər, c. 6, s. 139-140

edərək yazır: "İbn Şəbbə bunu başqa bir yolla Müəmmərdən nəql edir: "Bu miras barədə onunla bir daha danışmadı..." Həmçinin Tirmizi bəzi şeyxlərindən nəql edir ki, "Fatimənin Əbu Bəkr və Ömərə söylədiyini "Sizinlə bir daha danışmayacağam" sözünün mənası "bu miras barədə bir daha danışmayacağam" deməkdir. Ardınca Əbu Bəkr Şaşinin sözlərini nəql edir: "Rəvayətdəki "qəzəbləndi" sözü ümumiyyətlə danışmamağa dəlalət edir, bu isə əlaqəni kəsmək deməkdir".[650]

Göründüyü kimi, İbn Həcər İbn Şəbbənin və Tirmizinin bəzi şeyxlərindən nəql etdikləri rəvayətini Əbu Bəkr Şaşinin sözləri ilə təqib edir. Şərhə cavab verməməsi isə onun da Şaşi ilə həmfikir olduğuna dəlalət edir.

2. Zəhra (ə) Əbu Bəkrə qəzəblənməyib

Fatimə (ə) Əbu Bəkrə qəzəblənmədi. Buna Əbu Tüfeylin rəvayəti dəlildir. Əhməd ibn Hənbəl bu rəvayəti "Müsnəd"də Vəlid ibn Cümeyin vasitəsilə Əbu Tüfeyldən nəql edir: *"Peyğəmbər (s) dünyadan köçdükdən sonra Fatimə Əbu Bəkrin yanına adam göndərib dedi: "Peyğəmbərdən (s) sənmi miras aparacaqsan, yoxsa ailəsi?"*

Əbu Bəkr: Xeyr, ailəsi.

Fatimə: Bəs Peyğəmbərdən (s) qalan pay haradadır?

Əbu Bəkr: Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: "Allah bir peyğəmbərə azuqə göndərib, sonra onun canını aldıqda həmin payı özündən sonrakı üçün saxlayır". Mən bunu müsəlmanlara vermək istəyirəm.

Fatimə: Sən və eşitdiyin (daha yaxşı bilər)".[651]

Beyhəqinin nəql etdiyi kəlmələrdə isə deyilir: "*Sən və Peyğəmbərdən eşitdiyin daha yaxşı bilər deyib qayıtdı".*[652]

---

[650] Fəthul-Bari, İbn Həcər, c. 6, s. 139-140

[651] Müsnəd, İbn Hənbəl, c. 1, s. 4

[652] Sünən, Beyhəqi, c. 6, s. 303, hədis 12526, bölmə 6

Müzakirə

Fatimənin (ə) Əbu Bəkrə qəzəblənmədiyini iddia etmək bir neçə cəhətdən batildir:

Birinci cəhət

Əbu Tüfeylin hədisi Xanımın (ə) razılığına dəlalət etmir. Həmçinin "Səhih"dəki açıq-aydın qəzəblənmə və əlaqəni kəsməyə dəlalət edən hədislərə zidd deyil. Oradakı "*Sən və eşitdiyin (daha yaxşı bilər)"* və ya "*Sən və Peyğəmbərdən eşitdiyin daha yaxşı bilər deyib qayıtdı"* sözləri Əbu bəkrə qəzəblənmədiyinə dəlalət etməz, həmçinin "Səhih"lərdəki qəzəbləndiyini və əlaqəsini kəsdiyini bildirən hədisləri aradan qaldırmaz!

İbn Həcər Əbu Tüfeylin rəvayətinin ardınca deyir: "Əhməd və Əbu Davudun Əbu Tüfeylin vasitəsilə nəql etdikləri hədis... "Səhih"dəki açıq-aydın əlaqəni kəsməyə dəlalət edən hədislərə zidd deyil və (Xanımın (ə) razılığına dəlalət etmir".[653]

İkinci cəhət

Əbu Tüfeylin bu hədisi "Səhih"də Peyğəmbərə (s) istinad edilən "Biz miras buraxmarıq" hədisinə ziddir. Belə ki, Əbu Bəkrin Fatimənin (ə) *"Peyğəmbərdən (s) sənmi miras aparacaqsan, yoxsa ailəsi?"* sualına Əbu Bəkrin *"Xeyr, ailəsi"* deyə cavab verməsi Peyğəmbərin (s) özündən sonra varislərinin olduğunu aşkar bəyan edir.

Bu ziddiyyəti bir çox Əhli-Sünnə alimləri də qeyd etmişlər. Həmin ziddiyyət səbəbindən rəvayətin inkar olunduğuna hökm vermişlər. Zəhəbi hədisi nəql qeyd

[653] Fəthul-Bari, İbn Həcər, c. 6, s. 139-140

etdikdən sonra deyir: "Əhməd ibn Hənbəl bunu "Müsnəd"də nəql edib, bu isə inkar olunan hədisdir. Rəvayətin inkarına səbəb *"Xeyr, ailəsi"* sözüdür".[654]

İbn Həcər Əsqəlani "Fəthul-Bari"də rəvayətin ardınca deyir: "Əhməd və Əbu Davudun Əbu Tüfeylin vasitəsilə nəql etdiyi rəvayət... Orada inkar olunan söz var. Həmin söz Əbu Bəkrin *"Xeyr, ailəsi"* söyləməsidir. Bu kəlmə "Səhih"in "Biz miras buraxmarıq" hədisi ilə ziddiyyət təşkil edir".[655]

Eyni həmçinin rəvayətin ardınca deyir: "Deyirəm: kəlmələrində qəribəlik və inkar, sənədində isə şiə var".[656]

İbn Kəsir hədisi qeyd etdikdən sonra deyir: "Bu hədisin kəlmələrində qəribəlik və inkar olunan sözlər var".[657]

Üçüncü cəhət

Əksər Əhli-Sünnə alimləri dəlil olmadığına görə bu iradı qəbul etməmişlər. Çünki Əbu Tüfeylin rəvayəti heç də Xanımın (ə) razılığına dəlalət etmir, "Səhih"dəki "Biz miras buraxmarıq" hədisi ilə də ziddiyyət təşkil edir. İbn Həcər "Fəthul-Bari"də yazır: "Əhməd və Əbu Davudun nəql etdikləri bu hədis: *"Peyğəmbər (s) dünyadan köçdükdən sonra Fatimə Əbu Bəkrin yanına adam göndərib dedi: "Peyğəmbərdən (s) sənmi miras aparacaqsan, yoxsa ailəsi?"*

Əbu Bəkr: Xeyr, ailəsi.

Fatimə: Bəs Peyğəmbərdən (s) qalan pay haradadır?

Əbu Bəkr: Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: "Allah bir peyğəmbərə azuqə göndərib, sonra onun canını aldıqda həmin payı özündən sonrakı üçün saxlayır". Mən bunu müsəlmanlara vermək istəyirəm.

Fatimə: Sən və eşitdiyin daha yaxşı bilər".

---

654 Tarixul-İslam, Zəhəbi, c. 3, s. 23

655 Fəthul-Bari, İbn Həcər, c. 6, s. 139-140

656 Umdətul-qari, Eyni, c. 15, s. 20

657 əl-Bidayətu vən-nihayə, İbn Kəsir, c. 5, s. 310; əs-Siyrətun-nəbəviyyə, c. 4, s. 574

Bu rəvayət "Səhih"dəki açıq-aydın əlaqəni kəsməyə dəlalət edən hədislərə zidd deyil və (Xanımın (ə) razılığına dəlalət etmir. Həmçinin orada inkar olunan söz var. Həmin söz Əbu Bəkrin "Xeyr, ailəsi" söyləməsidir. Bu kəlmə "Səhih"in "Biz miras buraxmarıq" hədisi ilə ziddiyyət təşkil edir".[658]

3. Əbu Bəkr Fatiməni (ə) razı saldı

Fatimə (ə) Əbu Bəkrə həqiqətən də qəzəbləndi, lakin sonra Əbu Bəkr onu razı sala bildi. Vəfat etdikdə də ondan narazı deyildi. Buna Şəbinin rəvayəti dəlalət edir. Beyhəqi "əs-Sünənul-kubra"da İsmail ibn Əbu Xalidin vasitəsilə Şəbidən nəql edir: *"Fatimə xəstələndikdə Əbu Bəkr ona baş çəkmək üçün gəldi. Bu zaman Əli Fatiməyə dedi: "Gələn Əbu Bəkrdir, səndən izn istəyir". Xanım dedi: "Sən izn vermək istəyirsən?" Əli "Bəli" deyə cavab verdi. Xanım da ona izn verdi. Əbu Bəkr içəri daxil olub onu razı salmağa çalışdı. Dedi: "Allaha and olsun ki, Allahın, Peyğəmbərinin və siz Əhi-Beytin razılığını qazanmaq üçün evimi, malımı, ailəmi və nəslimi də tərk edərəm". Sonra onu razı saldı və Fatimə də razılığını bildirdi".* Beyhəqi bunun ardınca deyir: "Bu mürsəl, səhih istinadla həsən hədisdir".[659]

Müzakirə

Əbu Bəkrin Fatiməni sonradan razı saldığı iddiası dəlilsizdir. Şəbinin rəvayətini buna dəlil göstərmək bir neçə cəhətdən batildir:

Birinci cəhət: Şəbinin rəvayəti mürsəldir

Yuxarıda qeyd etdiyimiz kimi, Beyhəqi rəvayətin mürsəl olduğunu etiraf edir. İbn Həcər də Beyhəqinin bu rəvayətini Şəbidən nəql edərək deyir: "Bu mürsəl olsa da, Şəbiyə istinadı səhihdir".[660]

---

[658] Fəthul-Bari, İbn Həcər, c. 6, s. 139-140

[659] əs-Sünənul-kubra, Beyhəqi, c. 6, s. 301, hədis 12515, bölmə 5

[660] Fəthul-Bari, İbn Həcər, c. 6, s. 139-140

Mürsəl hədislər barəsində Əhli-Sünnə alimlərinin arasında böyük fikir ayrılığı mövcuddur. Onların fərqli sözləri var. Onlardan biri: mütləq şəkildə rədd edilir. Bu, əksər hədis alimlərinin sözüdür. İkinci: mütləq şəkildə qəbul edilir. Bu isə Malikin, Əbu Hənifənin və onların əshabının fikridir. Üçüncü: müəyyən şərtlər cəm olsa qəbul, cəm olmasa rədd edilir.

Bistəvi İclinin "Mərifətus-siqat" kitabının müqəddiməsində onların mürsəllə bağlı sözlərini qısaca qeyd etmişdir.[661]

Müslim Nişapuri və onun kimi əksər və böyük hədis alimləri mürsəlin höccət olmadığını söyləmişlər. Onu şərtlər daxilində qəbul edənlər də ondan dəlil kimi istifadə etməyə imkan verəcək müəyyən şərtlər barədə ortaq bir fikrə gəlməmişlər. Bu şərtlərdə də ixtilaf etmişlər. Bu isə mürsəlin dəlil kimi istifadə dairəsini daha da daraldır.

İkinci: Bu söz Fatimənin (ə) qəzəbinin vəfat edənə kimi davam etdiyini bildirən "Səhih"dəki hədislərə ziddir

Əbu Bəkrin Fatiməni (ə) razı saldığı iddiası "Səhih"dəki rəvayətdə Xanımın (ə) qəzəbinin vəfat etdiyi vaxtadək davam etdiyini bildirən hədislərə ziddir. Orada deyilir: *"Əbu Bəkrlə vəfat edənə kimi əlaqəsini kəsdi".*[662]

Bunu Əbu Bəkrə öz vəsiyyətinə əsasən cənazə namazını qılmasını qadağan etməsi də təsdiqləyir: *"Fatimə vəfat etdikdə zövcəsi Əli onu gecə ikən dəfn etdi. Əbu Bəkrə onun üçün namaz qılmağa izn vermədi, özü namazını qıldı".*[663] Müslimin nəqlində isə deyilir: *"Əli ona özü namaz qıldı".*[664]

Necə ki, "Səhih"dəki rəvayət də açıq-aydın şəkildə qəzəbi və əlaqənin kəsildiyini bəyan edir. Eləcə də həmin rəvayət bu qəzəb və üz döndərmənin Xanımın (ə) vəfatınadək, hətta vəfatından sonra da davam etdiyinə dəlalət edir.

---

[661] "Mərufətus-siqat"ın müqəddiməsi, c. 1, s. 114-116

[662] Səhih, Buxari, c. 4, s. 42, hədis 3093. "Xümsün vacibliyi" bölməsi

[663] Səhih, Buxari, c. 4, s. 1549, hədis 3998, bölmə 36

[664] Səhih, Müslim, c. 3, s. 1380, hədis 1759, bölmə 16

Üçüncü: Şəbinin Möminlərin əmirinə (ə) qarşı mənfi münasibəti olub

Şəbinin Möminlərin əmirinə (ə) qarşı mənfi münasibəti olub, onun hədislərini dəlil kimi görməyib. Burada onun mənfi münasibətinə işar edən bəzi amil və dəlillərə nəzər salaq:

A. Şəbi Əməvi dövlətinin qazisi olub

Şəbi Əməvi dövlətinin qazilərindən biri idi. İbn Həcər "Təhzibut-təhzib"də İbn Muindən nəql edir: "Şəbi Ömər ibn Əbdüləzizin qazisi idi".[665]

İbn Həbban "Əxbaril-quzat" kitabında Vəlid ibn Sərinin vasitəsilə nəql edir: "Əbdülhəmid ibn Əbdürrəhman məni Kufə divanı üçün Ömər ibn Əbdüləzizin yanına göndərdi. Məndən qazimizin kim olduğunu soruşdu. Mən isə məmur Şəbi olduğunu söylədim. "Əbdüləziz ibn Mərvanın dostumu?" deyə soruşduqda, mən "Bəli" deyə cavab verdim..."[666]

B. Şəbi Əməvi xəlifələrinin yaxın dostlarından idi

Şəbi Əməvi xəlifələrinin yaxın dostlarından idi. Zirikli "əl-Əlam"da deyir: "Əbdülməlik ibn Mərvana yetişdi. Onun dostu, həmkarı və Rum padşahına elçisi idi... Ömər ibn Əbdüləziz onu qazi təyin etmişdi".[667]

Zəhəbi öz "Tarix" kitabında İbn Aişədən nəql edir: "Əbdülməlik ibn Mərvan Şəbini Rum padşahının yanına göndərdi. Oradan qayıtdıqda Əbdülməlik dedi: "Ey Şəbi, Rum padşahının nə yazdığını bilirsənmi?" Mən nə yazdığını soruşdum. Dedi: "Yazır ki, müsəlmanların elçinizi nə üçün xəlifə qoymadıqlarına təəccüb edirəm". Dedim: "Ey möminlərin əmiri, çünki o məni görüb, ancaq sizi görməyib". Bunu Əsməi də rəvayət edib. Orada deyilir: " Ey Şəbi, o bu sözü ilə məni səni öldürməyə

---

[665] Təhzibut-təhzib, İbn Həcər, c. 5, s. 59

[666] Əxbarul-quzat, Muhəmməd ibn Xələf ibn Həbban, c. 1, s. 79

[667] əl-Əlam, Zirikli, c. 3, s. 251

təşviq etməyə çalışıb". Bu söz Rum padşahına çatdıqda dedi: "Allaha and olsun ki, məqsədim elə bu olub".[668]

C. Şəbi İmam Əliyə (ə) qarşı hücum edirdi

Şəbi bir çox sözləri ilə İmam Əliyə (ə) qarşı hücum edirdi. İbn Əbu Şeybə "əl-Müsənnəf"də Şəbiyə istinadla deyir: " Cəməl savaşında səhabələrdən, mühacir və ənsardan Əli, Əmmar, Təlhə və Zübeyrdən başqası olmayıb. Əgər beşinci şəxsin adını çəksəniz, o zaman mən kəzzabam (çox yalan danışandır)".[669]

Bu sözləri açıq-aydın iftira və yalandır, seyr və tarix əhlinin icmasına xilafdır. Cəməl savaşında Möminlərin əmiri (ə) ilə bərabər bir çox səhabə iştirak etmişdi. Əsami "Səmtun-nucum" kitabında Şəbinin bu sözlərinin ardınca deyir: "Dedi: "Cəməl savaşında səhabələrdən, mühacir və ənsardan Əli, Əmmar, Təlhə və Zübeyrdən başqası olmayıb". Bu söz ondan başqa siqə (inanılan və etibarlı) şəxslərin nəql etdiklərinə müxalifdir".

Zəhəbi yazır: "Səid ibn Cubeyr deyir: "Cəməl savaşında Əli ilə bərabər səkkiz yüz nəfər ənsar, "Rizvan" beyətində iştirak edənlərdən dörd yüz nəfər şəxs var idi". Bunu Cəfər ibn Əbu Müğeyrə Səiddən, Müttəlib ibn Ziyad isə Suddidən rəvayət edib. Orada deyilir: "Cəməl savaşında Əli ilə bərabər yüz otuz nəfər Bədr əhli, yeddi yüz nəfər Peyğəmbər (s) səhabəsi iştirak edirdi. Onlarla bərabər otuz min qoşun savaşırdı. Bundan böyük savaş olmamışdı".[670]

Xəlifə ibn Xəyyat "Tarix" kitabında Səid ibn Cubeyrə istinadən yazır: "Cəməl savaşında Əli ilə bərabər səkkiz yüz nəfər ənsar, dörd yüz nəfər "Rizvan" beyətində iştirak edənlərdən var idi".[671]

Şəbi Möminlərin əmirinə (ə) iftira atır, İmamın (ə) adından hədislər uydururdu. Əbdürrəhman ibn Əbu Hatəm Razi deyir: "Şəbinin Əlidən rəvayət

---

[668] Tarixul-İslam, Zəhəbi, c. 7, s. 127

[669] əl-Müsənnəf, İbn Şeybə, c. 8, s. 710; əl-İləl, Əhməd ibn Hənbəl, c. 3, s. 45

[670] Tarixul-İslam, Zəhəbi, c. 3, s. 484

[671] Tarix, Xəlifə ibn Xəyyat, s. 138

etdiyi vaciblər barədə atamdan soruşdular. Dedi: "Mənim nəzərimdə bu, Şəbinin Əlinin sözlərinə qoşduğudur. Əlinin özünü buna həsr edəcəyini düşünmürəm".[672]

İmam Əliyə (ə) qarşı ən pis iftiralarından biri İmamın (ə) Quran oxuya bilmədiyinə və ya qəbirə girənədək Quranı əzbərləmədiyinə Allaha and içməsidir. Bəsəvi (Fəsəvi) "əl-Mərifətut-tarix" kitabında Şərikin vasitəsilə İsmail ibn Əbu Xaliddən nəql edir: "Eşitdim ki, Şəbi Əlinin (qəbirə)[673] girənə qədər Quran oxuya bilmədiyinə and içirdi".

Bu sözlər Peyğəmbərin (s) İmam Əli (ə) barədə söylədiyi bu kəlmələr qarşılığında olduqca batil və iftiradır: *"Əli Quranla, Quran da Əli ilədir. Hovuz başında mənə qovuşanadək əsla bir-biridən ayrılmazlar".* Bunu Hakim öz "Müstədrək"ində Əbu Səid Teyminin vasitəsilə Əbu Zərrin köləsi Əbu Sabitdən nəql edib: "Cəməl günü Əli (r) birlikdə idim. Aişəni orada dayanan gördükdə camaata gələn fikirlər mənə də gəldi. Yalnız zöhr namazında Allah məndən bunu uzaqlaşdırdı, Möminlərin əmiri ilə birlikdə savaşa girdim. Döyüş bitdikdən sonra Mədinəyə qayıtdım, Ümmü Sələmənin yanına gedib dedim: "Allaha and olsun ki, mən səndən yemək və içmək diləməyə gəlməmişəm. Mən Əbu Zərrin köləsiyəm". Dedi: "Xoş gəlmişsən". Sonra bu hadisəni ona danışdım. Dedi: "Qəlblər bu cür ürkəndə sən nə edirdin?" Dedim: "Ta ki, Allah məndən bu fikirləri günorta vaxtı uzaqlaşdırdı". Dedi: "Əhsən, Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: *"Əli Quranla, Quran da Əli ilədir. Hovuz başında mənə qovuşanadək əsla bir-biridən ayrılmazlar".*[674]

Hakim bu hədisin səhih olduğunu bildirir. Rəvayətin ardınca deyir: "Bu, sənədi səhih hədisdir. Əbu Səid Teymi – Uqeysadır, etibarlı (siqə) və əmin şəxsdir. Lakin

---

[672] əl-Cərh vət-tədil, Razi, c. 6, s. 324

[673] Bu kəlmə əsl mətndə yoxdur. Bunu Sahibi "Fiqhul-luğət" kitabında əlavə edir, c. 1, s. 50

[674] əl-Mərifətut-tarix, Yaqub ibn Süfyan Fəsəvi, c. 1, s. 101

Buxari və Müslim bu hədisi kitablarında nəql etməyiblər".[675] Zəhəbi də "ət-Təlxis" kitabında onunla razılaşır: "səhihdir".[676]

Sahibi "Fiqhul-luğət" kitabında yazır: "İbn Quteyb də nalayiq sözlər işlətmiş və çirkin şeylər nəql etmişdi. Məsələn, Şəbidən Əbu Bəkrin, Ömərin və Əlinin Quranı bir yerə cəm etmədən öldüklərini rəvayət edib. Şərikin İsmail ibn Əbu Xaliddən belə söylədiyini deyir: "Şəbinin Allaha and içərək belə dediyini eşitdim: "Əli qəbrinə daxil olanda Quran hafizi deyildi". Bu, *"Məni itirməzdən əvvəl (dilədiyinizi) məndən soruşun. Belə ki, Quranda elə bir ayə yoxdur ki, gecə və ya gündüz, düzəndə və ya dağ başında nazil olduğunu bilməyim"* deyən bir şəxs barəsində söylənən olduqca çirkin bir sözdür. Suddi Əbdu Xeyrdən nəql edir ki, Əli (r) Peyğəmbərin (s) yeni vəfat etdiyi vaxtlarda camaatda bir bəd əlamət gördü. Bu səbəbdən, Quranı bir yerə toplamadıqca kürəyinə əbasını atıb çölə çıxmayacağına and içdi. Deyir: "Quranı bir yerə toplayanadək evində oturdu. Bu, Quranın bir yerdə olduğu ilk kitab idi..." Əli ibn İbrahim Əli ibn Əbdüləzizdən, o da Əbu Übeydədən, o da Nəsr ibn Babdan, o da Həccacdan, o da Həkəm ibn Əbu Əbdürrəhman Suləmidən belə dediyini nəql edir: "Əlidən yaxşı qiraətə sahib bir şəxsi görmədim. Arxasında namaz qılırdıq, bir hərfi düşürdü, bir qədər oxuduqdan sonra həmin yerə qayıtdı və hərfi yenidən oxuyaraq ardını davam etdi".[677]

Sahibinin sözləri barədə müəyyən nəzərlərimizin olduğu gizli deyil. Şəbinin həyasızcasına söylədiyi bu sözlər yalnız İbn Qüteybənin vasitəsilə nəql edilməyib. Bunu Fəsəvi Əhməd ibn Xəlildən də rəvayət edib. Orada deyir: "Əbu Əhməd Zübeyri Şərikdən, o da İsmail ibn Əbu Xaliddən nəql edir ki, Şəbinin belə dediyini eşitdi..."[678]

Həmçinin Şəbinin sözləri yalnız Möminlərin əmiri (ə) aiddir, orada Əbu Bəkr və Ömər qeyd edilmir. Lakin Sahibi səbəbini açıqlamadan onları da İmam Əli (ə)

---

[675] əl-Müstədrəku ələs-səhiheyn, Hakim, c. 3, s. 124

[676] əl-Müstədrəku ələs-səhiheyn, Hakim, c. 3, s. 124

[677] Fiqhul-luğət, Sahibi, c. 1, s. 50; əl-Mərifətut-tarix, c. 1, s. 483.

[678] əl-Mərifətut-tarix, c. 1, s. 101

ilə birlikdə zikr edib. Xüsusən, o, Şəbinin bu sözünü Fəsəvinin Şərikin vasitəsilə İbn Əbu Xaliddən nəql etdiyi rəvayətlə dəlil kimi göstərir. Orada isə Şəbi öz sözləri ilə yalnız İmam Əliyə (ə) hücum çəkir.

Bəlkə də, Sahibi bununla İbn Əbu Xalidin Şəbinin Allaha and içərək "Əlinin Quran oxuya bilmədən qəbirə[679] daxil oldu" sözünü yüngülləşdirmək istəmişdir. Lakin bu səyindən nə fayda?! Belə ki, Fəsəvinin nəlq etdiyi rəvayətdə İbn Qüteybə yoxdur və sözlər də yalnız İmam Əli (ə) ünvanlanır.

D. Şəbi Möminlərin əmiri Əlini (ə) söyürdü

Şəbi İmam Əlini (ə) söyürdü. O, minbərlərdən Möminlərin əmiri Əlini (ə) söyməyi sünnəyə çevirmiş Əməvi dövlət məmurlarından idi, səhabələri və müsəlmanları da onu söyməyə çağırırdı. Müslimin "Səhih"ində Amir ibn Səd ibn Əbu Vəqqas atasından rəvayət edir: *"Müaviyə ibn Əbu Süfyan Sədə dedi: "Əbu Turabı söyməkdən səni çəkindirən nədir?" Səd dedi: "Peyğəmbərin (s) onun barəsində söylədiyi üç şeyi qeyd edəcəyəm ki, bunlara görə onu heç vaxt söyməyəcəyəm. Həmin üç şeydən birinin məndə olması mənim üçün hər şeydən daha sevimli olardı..."*[680]

Onlar İmamı (ə) söyməkdən boyun qaçıranları cəzalandırırdılar. Hətta bunun cəzası zina və digər böyük günahların cəzasından daha şiddətli olurdu. İbn Həcər İbn Səiddən nəql edir: "Həccac Muhəmməd ibn Qasimə məktub yazaraq Ətiyyəyə Əlini söyməyi təklif etməsini istədi və dedi: "Əgər boyun qaçırsa ona qırx qamçı vur və saqqalını qırx". Ətiyyə söyməkdən imtina etdi, o da onun barəsində Həccacın hökmünü icra etdi".[681]

Əməvi dövlət adamları ilə belə bir əlaqəsi olan şəxs kimi Şəbinin İmam Əlini (ə) söyməsi təbii nəticədir. Bəlazuri "Ənsabul-əşrəf"də Şəbiyə istinadən yazır: "Bəsrədə Həccacın yanına gəldik. Onun yanında Mədinədən gəlmiş, aralarında

---

[679] Bu kəlmə əsl mətndə yoxdur. Bunu Sahibi "Fiqhul-luğət" kitabında əlavə edir, c. 1, s. 50

[680] Səhih, Müslim, c. 4, s. 1871, "Fəzilətlər".

[681] Təhzibut-təhzib, İbn Həcər, c. 7, s. 201

Əbu Sələmə ibn Əbdürrəhman ibn Ovf (r) da olmaqla mühacir və ənsar övladı olan qarilər (qonaqlar), Şam və Kufə əhlinin qariləri (qonaqları) var idi. İsti bir gün idi... Həccac öz döşəyinin üzərində oturmuş, Ənbəsə ibn Səiddə onun yanında əyləşmişdi. Biz də içəri daxil olub stulda əyləşdik. Həsən içəri girdi, Həccac onu salamladı, onun üçün döşəyinin yanında stul qoyulmasına göstəriş verdi. Həsən əyləşdi... Həccac onlarla müzakirə aparmağa, sual verməyə başladı. Əli ibn Əbu Talib yad edildikdə isə onu təhqir edir, biz də onun şərindən amanda qalmaq üçün onun bu sözlərini təqib edirdik. Həsən isə susaraq barmağını çeynəyirdi.

(Həccac) Dedi: "Ey Əbu Səid, nə olub susmusan?"

Həsən: Nə deməyimi istəyirsən?

Həccac: Mənə Əbu Turab barədə fikrini söylə.

Həsən: Uca Allahın belə buyurduğunu eşitmişəm: ***"İndi yönəldiyin qibləni yalnız Peyğəmbərə tabe olanlarla ondan üz çevirənləri bir-birindən ayırd etmək üçün təyin etdik. Bu, ağır görünsə də, ancaq Allahın doğru yola yönəltdiyi şəxslər üçün ağır deyil. Allah sizin imanınızı (bundan əvvəl Beytülmüqəddəsə üz tutaraq qıldığınız namazlarınızı) əvəzsiz buraxmaz. Allah insanlara qarşı, əlbəttə, mehribandır, mərhəmətlidir".***[682] Əli Allahın doğru yola yönəltdiyi şəxslərdən və iman əhlindəndir. Həmçinin o, Peyğəmbərin (s) əmisi oğlu, qızı ilə evləndirdiyi şəxs və insanlardan ona ən sevimlisi, Allah tərəfindən bir çox şeylərdə öndə olmaqla bərəkətlənmiş şəxsdir. Nə sən, nə də bir kəs bunlara qadağa qoya və ya bunların arasına keçə bilməz...

Həccacın üzündən qəzəbləndiyi və rənginin dəyişdiyi hiss olundu. Hirslənərək döşəkdən qalxdı və arxadakı otağa girdi.

Çölə çıxdıqda Həsənin əlindən tutub ona dedim: "Ey Əbu Səid, əmiri qəzəbləndirdin". Dedi: "Məndən uzaq dur, ey Şəbi... Bir insan şeytanını gətirmisən, öz həvaye-nəfsinə uyğun danışır, sən də onunla həmfikir olursan...

---

[682] Bəqərə, 143

Vay olsun sənə, ey Şəbi! Allahdan qorx, əgər səndən soruşulsa ya doğrunu söylə, ya da susub salamat qal...”[683]

E. Şəbi İmamın (ə) əshabına böhtan ataraq adlarını ləkələyirdi

Şəbi Möminlərin əmiri Əlinin (ə) bəzi səhabələrini ləkələməyə cəhd göstərmişdi. Onlardan biri Haris Əvar Həmədanidir. Onu kəzzablıqda (çox yalan danışmaqda) ittiham etmişdi. Halbuki Haris doğru danışmağı və etibarlılığı ilə məşhur idi. Qurtubi deyir: “Şəbi Harisə yalançılıq böhtanı atıb. Ancaq belə deyil, Harisdə yalan aşkar edilməyib. Şəbi ondan Əli ibn Əbu Talibə ifrat məhəbbətinə və digərlərindən üstün bilməsinə görə intiqam alıb. Buna əsasən də (Allah daha yaxşı bilir!) Şəbi onu kəzzab bilib”.[684]

Şəbinin həyasızlığı həddini aşaraq Peyğəmbər (s) nəvəsi Əbu Abdullah Hüseyni (ə) belə yalançılıqda ittiham etməyə cürət verib. Abdullah ibn Əhməd ibn Hənbəl “əs-Sünnə” əsərində Mucaliddən Şəbinin belə dediyini nəql edir: “Əlinin (r) qətlindən sonra Hüseyn ibn Əlinin (r) yanına gedib dedik: “Möminlərin əmiri ilə görüşə bizim üçün izn al”. Dedi: “O yatıb...”[685]. Dedik: “Biz sənin nəzərdə tutduğun şəxsi demirik. Məqsədimiz möminlərin əmiri və ağasıdır...” Hüseyn dedi: “O öldürülüb”. Dedik: “Allaha and olsun ki, o öldürülməyib, canlı insanlar kimi nəfəs alır, paltarı tərinə bulaşır”. Dedi: “Əgər belə bilirsinizsə, o zaman yanına daxil olun, salamlayın, amma onu narahat etməyin”.[686]

F. Şəbi Möminlərin əmiri Əlinin (ə) şiələrinə nifrət edirdi

Şəbi İmam Əlinin (ə) şiələrinə şiddətlə nifrət edirdi. Abdullah ibn Əhməd ibn Hənbəl “əs-Sünnə” kitabında Mücalidin vasitəsilə nəql edir ki, Şəbiyə deyildi: “Bu şiələri söymə, sən özün də (vaxtilə) onlardan öyrənməmisən?” Dedi: “Onların

---

683 Ənsabul-əşraf, Bəlazuri, c. 4, s. 315

684 Təfsir, Qurtubi, c. 1, s. 5

685 İmam Həsəni (ə) nəzərdə tutur.

686 əs-Sünnə, Abdullah ibn Əhməd, c. 2, s. 558

hansından?" Dedilər: "Haris Əvardan, Səsəə ibn Sovhandan və Rəşid Hicridən..."[687]

G. Şəbi dinə əhəmiyyət vermirdi

Şəbinin hədislərini qəbul etməyə mane olan digər bir məsələ isə onun dinə əhəmiyyət verməməsi, günah məclislərində iştirak etməsidir. Zəhəbi Əbu Yəhya Həmanidən rəvayət edir: "Əbu Hənifə mənə söylədi: "Şəbinin ipək parçadan paltar geyindiyini, şairlərlə birlikdə oturduğunu gördüm. Ondan bir məsələ haqqında soruşduğumda dedi: "Bəni-İstiha (kölələr qəbiləsi) bu barədə nə deyirlər?"[688]

Beyhəqi isə "Mərifətus-sunəni vəl-asar" kitabında yazır: "Bizə Şəbinin şahmat oynadığı rəvayət olunub".[689]

H. Şəbinin hədislərinin çoxu mürsəldir

Şəbinin hədislərini qəbul etməyə mane olan digər bir məsələ isə onun hədislərin çoxunu mürsəl olaraq söyləməsidir. İbn Həcər "Təhzibut-təhzib" kitabında Şəbinin tərcümeyi-halında yazır: "Hakim "Mərifətu ulumil-hədis" kitabında deyir: "O, Aişədən, İbn Məsuddan, Üsamə ibn Zeyddən, Muaz ibn Cəbəldən, Zeyd ibn Sabitdən və həmçinin Əlidən hədis eşitməyib. Əlini həyatda bircə dəfə görüb". İbn Mədini "İləl" kitabında yazır: "Zeyd ibn Sabitdən hədis eşitməyib, Əbu Səid Xudri və Ümmü Sələmə ilə görüşməyib". Tirmizi isə "İləlul-kəbir"də deyir: "Muhəmməd deyir ki, Şəbinin Ümmü Haniədən hədis eşitdiyindən xəbərim yoxdur". Dəraqutni "İləl"də yazır: "Şəbi Əlidən yalnız bir kəlmə, başqalarından isə bir hərf belə eşitməyib". Bəlkə də, bu sözü ilə məqsədi Buxarinin ondan nəql etdiyi rəvayətdə Əlinin bir qadına hədd tətbiq edərkən söylədiyi "Sənə Peyğəmbər (s) sünnətinə əsasən hədd tətbiq edirəm" sözüdür.

---

[687] əs-Sünnə, Abdullah ibn Əhməd, c. 2, s. 558

[688] Tarixul-İslam, Zəhəbi, c. 7, s. 130-131

[689] Mərifətus-sunəni vəl-asar, Beyhəqi, c. 7, s. 431

Dəraqutni “Sualat” kitabında deyir: “İbn Məsuddan hədis eşitməyib, onu cəmi bir dəfə görüb”. Əbu Əhməd Əskəri deyir: “Şəbi Əbu Cübeyrədən mürsəl olaraq hədis nəql edib”. İbn Əbu Hatəm “əl-Mərasil” kitabında İbn Muindən nəql edir: “Şəbi Aişədən mürsəl nəql edir”. Atasının isə belə söylədiyini deyir: “Onun Üsamədən hədis eşitməsi mümkün deyil. O, Fəzl ibn Abbası da görməyib, İbn Məsuddan hədis eşitməyib”. Deyir: “Atamın belə söylədiyini eşitdim: “Əli ibn Ömərdən eşitməyib”. Əbu Zərə isə deyir: “Şəbi Muazdan mürsəl nəql edib”.[690]

Dördüncü: İbn Əbu Xalid bəzi rəvayətləri Şəbidən mürsəl olaraq rəvayət edib

İbn Həcərin “Şəbiyə istinadı səhihdir” sözü diqqət çəkən məqamdır. Bəzən deyilir: İsmail ibn Əbu Xalid bəzi rəvayətləri Şəbidən mürsəl olaraq rəvayət edirdi. Bunu İcli də qeyd edib. Onun tərcümeyi-halında deyir: “Çox vaxt Şəbidən mürsəl nəql edib”.[691]

İbn Əbu Xalidin mürsəl rəvayətlərinə isə heç bir əhəmiyyət verilmir. Necə ki, bunu Yəhya ibn Səid etiraf edir. İbn Həcər deyir: “İbn Əbu Xeysəmə özünün “Tarix” kitabında Yəhya ibn Səidin sözlərini qeyd edir: “İbn Əbu Xalidin mürsəl hədisləri əhəmiyyətsizdir”.[692]

Müzakirənin nəticəsi:

Əbu Bəkrin Fatiməni (ə) razı saldığı dəlilsiz bir iddiadır. Şəbinin rəvayətinin buna dəlil olma səlahiyyəti yoxdur. Çünki mürsəl rəvayətdir.

Müslim Nişapuri və onun kimi əksər və böyük hədis alimləri mürsəlin höccət olmadığını söyləmişlər. Onu şərtlər daxilində qəbul edənlər də ondan dəlil kimi istifadə etməyə imkan verəcək müəyyən şərtlər barədə ortaq bir fikrə

---

[690] Təhzibut-təhzib, İbn Həcər Əsqəlani, c. 5, s. 59-60

[691] əs-Siqat, İcli, c. 1, s. 224, rəqəm 87

[692] Təhzibut-təhzib, İbn Həcər, c. 1, s. 255, rəqəm 543

gəlməmişlər. Bu şərtlərdə də ixtilaf etmişlər. Bu isə mürsəlin dəlil kimi istifadə dairəsini daraldır.

Bundan əlavə, Fatiməni (ə) razı saldığı iddiası "Səhih"dəki rəvayətdə Xanımın (ə) qəzəbinin vəfat etdiyi vaxtadək davam etdiyini bildirən hədislərə ziddir. Hətta bu qadağa vəfatından sonra öz vəsiyyətinə əsasən cənazə namazını qılmasını qadağan etməsi ilə də davam edir.

Həmçinin Şəbinin Möminlərin əmirinə (ə) qarşı mənfi münasibəti olub. O, Əməvi dövlətinin qazilərindən, yüksək rütbəli dövlətin adamı, xəlifələrin yaxın dostu idi. O səbəbdən, bu hədisinə etimad etmək olmaz.

İbn Həcərin bəzi imamlardan nəql etdi yanaşma isə batildir. Orada deyirlər: "Onun əlaqə kəsməyi görüşmək və bir yerdə oturmaqla bağlı idi. Bu isə haram əlaqəkəsmə deyil. Çünki buradakı şərt görüşmək və filan-filan məsələlərin baş verməsi ilə başa çatırdı".

Bu, doğru yanaşma deyil və dəlilsiz bir iddiadır. Bəlkə də, ən zəif yanaşmadır. Buna yalnız İbn Həcər Şəbinin mürsəl hədisindən savayı heç bir səhih dəlil təqdim etməyib. Həmçinin bu yanaşma "Səhih"dəki əlaqəni kəsmək və bunun ölənədək davam etdiyinə, hətta vəfat edəndən sonra öz vəsiyyətinə əsasən cənazə namazını qılmasını Əbu Bəkrə qadağan etməsini bildirən açıq-aydın səhih hədislərə ziddir.

İbn Həcərin Şəbinin mürsəl hədisləri barədə sözləri

İbn Həcərin sözlərindən anlaşılan budur ki, Fatimənin (ə) ilk iki xəlifəyə qəzəblənməsi yayınmaq mümkün olmayan məsələdir. Çünki "Səhih"dəki səhih hədis buna dəlalət edir. Lakin Şəbinin yuxarıdakı rəvayətinə əsasən onlar sonradan Xanımı (ə) razı salmışlar.

Hakimin dəlilindən belə nəticəyə gəlinir ki, Şəbinin rəvayəti mürsəl də olsa ona qədərki sənədi səhihdir. O isə yalnız siqələrdən (etibarlı şəxslərdən) rəvayət nəql edirdi. Bu mürsəl rəvayəti kənara atmaq onun nəticədə zərərli bir düşüncəni

ortaya çıxmasını tələb edəcək ki, həmin düşüncəyə də heç kim dəstək verməmişdi. Bu düşüncə isə Fatimənin (ə) ilk iki xəlifəyə qəzəbinin sonadək davam etməsidir.

Demək, ya Şəbinin mürsəl hədisini əsas götürərək Fatimənin (ə) qəzəbinin bir müddət davam etdiyini qəbul edərək sonra aradan qalxması ilə iradı da aradan qaldırırıq. Belə ki, Xanımın (ə) ağıl və din səviyyəsinin genişliyi məlumdur. Ya da rəvayəti inkar edərik. Bu zaman Fatimənin (ə) qəzəbində sonadək inad etdiyi iddiasından yayınmaq mümkün olmur. Onun qəzəbi isə pis nəticələr doğurur. Belə bir nəticəyə etiqad bəslənildiyini heç kim deməyib.

İbn Həcər "Bir parçamdır" hədisinin ardınca deyir: "Bəli, Beyhəqi Şəbinin vasitəsilə rəvayət edir: "Əbu Bəkr baş çəkmək üçün gəldikdə Əli Fatiməyə dedi: "Gələn Əbu Bəkrdir, səndən izn istəyir". Xanım dedi: "Sən izn vermək istəyirsən?" Əli "Bəli" deyə cavab verdi. Xanım da ona izn verdi. Əbu Bəkr içəri daxil olub onu razı saldı, Xanım da razılığını bildirdi".

Bu rəvayət mürsəl də olsa, Şəbiyə istinadı səhihdir. Bunun vasitəsilə Fatimənin Əbu Bəkrlə əlaqəsini kəsdiyi bitmiş olur. Bəzi imamlar deyiblər: "Onun əlaqə kəsməyi görüşmək və bir yerdə oturmaqla bağlı idi. Bu isə haram əlaqəkəsmə deyil. Çünki buradakı şərt görüşmək və filan-filan məsələlərin baş verməsi ilə başa çatırdı. Fatimə Əbu Bəkrin yanından qəzəbli halda çıxdıqdan sonra atasına görə hüznə, sonra da xəstəliyinə başı qarışmışdı..."

Əgər Şəbinin hədisi isbat olsa, irad da bitər. Məsələnin belə olması da daha münasibdir. Belə ki, Xanımın (qəzəbində inad etməyəcəyi qədər) ağıl və din genişliyi məlumdur".[693]

Cavab

İbn Həcərin sözləri bir neçə cəhətdən batildir:

[693] Fəthul-bari, İbn Həcər, c. 6, s. 202-203 (s. 233) hədis 3094

Birinci: Şəbinin rəvayəti mövzu ilə bağlı dəlil olaraq göstərilmək səlahiyyətində deyil. Bunun bir neçə səbəbi var.

1. Rəvayət mürsəldir. Müslim Nişapuri və onun kimi əksər və böyük hədis alimləri mürsəlin höccət olmadığını söyləmişlər. Onu şərtlər daxilində qəbul edənlər də ondan dəlil kimi istifadə etməyə imkan verəcək müəyyən şərtlər barədə ortaq bir fikrə gəlməmişlər. Bu şərtlərdə də ixtilaf etmişlər. Bu isə mürsəlin dəlil kimi istifadə dairəsini daraldır.

2. "Səhih"dəki rəvayətdə Xanımın (ə) qəzəbinin vəfat etdiyi vaxtadək davam etdiyini bildirən hədislərə ziddir. Orada aydın şəkildə onunla ölənədək əlaqəsini kəsdiyi qeyd edilib: *"Əbu Bəkrlə vəfat edənə kimi əlaqəsini kəsdi".*

Qəribədir ki, İbn Həcər Əbu Tüfeylin rəvayətinin sənədi "həsən" olduğu halda onu ikinci cəhətin qeyd edərkən rədd edir. Səbəb olaraq isə bu hədisin "Səhih"də Peyğəmbərə (s) istinad edilən "Biz miras buraxmarıq" hədisinə zidd olmasını göstərir. Lakin Şəbinin rəvayətinin mürsəl və eləcə də "Səhih"də Fatimənin (ə) qəzəbinin vəfat etdiyi anadək davamiyyətinə dəlalət edən rəvayətin aydın mətninə zidd olmasına rəğmən susur, bu ziddiyyətə göz yumur!

3. Şəbinin Möminlərin əmirinə (ə) qarşı mənfi münasibəti olub. O, Əməvi dövlətinin qazilərindən, yüksək rütbəli dövlətin adamı, xəlifələrin yaxın dostu idi. Onun hədisləri dəlil sayılmaz.

İkinci: Qeyd edilən xüsusiyyət Fatimənin (ə) qəzəbi barədə isbatlanıb. Peyğəmbər (s) də onun qəzəbini və incidilməsini öz qəzəbinə və incidilməsinə bərabər tutmuşdur. Peyğəmbərin (s) yalnız bəzi qəzəbinin (Allaha sığınırıq!) insanı pis aqibətə düçar edəcəyini söyləmək isə mənasızdır. Buna əsasən də, Fatimənin (ə) bəzi qəzəbinin pis aqibətə səbəb olacağını söyləmək də puç fikirdir.

Ona görə də, Xanımın (ə) qəzəbinin şiddət və ya zəifliyi onun davam edib etmədiyini bəyan etmir. Qəzəbdə inad göstərib sonadək dirənmək məzəmmət

olunur. Lakin onun qəzəbinin Peyğəmbərin (s) qəzəbilə eyni səviyyədə olduğu hökmünə əsasən, bütün qəzəbləri haqlı və təqdir olunandır.

Xanımın (ə) qəzəbinin şiddəti iki məsələdən aydın olur:

1. İlk iki xəlifənin ondan üzr diləməməsi; Xüsusilə də, İbn Həcər Xanımın (ə) ağıl və din genişliyinin məlum olmasını özü də etiraf edir. Həmçinin müsəlmanın dilədiyi üzrü qəbul etmək barədə Qurani-Kərimdə də ayələr mövcuddur: ***"Ayələrimizə iman gətirən şəxslər sənin yanına gəldikdə, onlara "Sizə salam olsun!" de".***[694]

Əgər onlar Peyğəmbərin (s) canının bir parçasından (ə) üzr istəsəydilər, şübhəsiz ki, onların üzrünü qəbul edərdi. Lakin bu üzr yalnız Şəbinin mürsəl hədisində qeyd olunur.

Buna əsasən, İbn Həcər və onun kimilərin Xanımın (ə) qəzəbinin şiddəti məsələsində öz nəfslərinin istəklərinə uymamalıdırlar. Onun qəzəbində heç bir məzəmmət olunan şey yoxdur. Əksinə, bütün qəzəbləri haqdır və təqdir olunur.

2. Onun qəzəbi dünyəvi səbəblərdən deyildi. Xanımın (ə) dininin, paklığının və ağlının... səviyyəsi məlum ikən yalnız Fədək və mirasa görə belə qəzəblənəcəyi ağıla sığmır. Fatimənin (ə) mənəvi məqamı qarşılığında Fədəyin və Peyğəmbər (s) mirasının nə qiyməti var ki?! O, aləm və ya Cənnət qadınlarının seyyidəsi (xanımı) məqamına boşuna nail olmayıb. Bu məqamı onu digər insanlardan üstün və seçkin edən daşıdığı pak və təmiz ruhuna görə qazanıb.

Bu möhtərəm məqama layiq olan da onun yalnız Allahın dini üçün qəzəblənməsidir. Yoxsa məsələ yalnız əkin torpağı və mirasla əlaqəli olsaydı, o zaman xəlifələr asanlıqla onları təhvil verərdilər. Lakin bunun arxasında onların əl götürə bilməyəcəkləri böyük məsələ var idi. Bu məsələ Peyğəmbərin (s) xilafəti idi.

---

[694] Ənam, 54

4. Fatimənin (ə) qəzəbi iman və küfr üçün meyar deyil

Fatimənin (ə) ilk iki xəlifəyə qəzəbinin əhəmiyyətini azaltmaq üçün söylənən səbəblərdən biri bu qəzəbin iman və küfr meyarı olmadığıdır. O, Möminlərin əmiri Əliyə (ə) qəzəblənmişdi, lakin bu qəzəbi səbəbindən Əlinin (ə) İslamdan çıxdığını heç kəs söyləmir.

Bəlkə də, bu barədə ən qəribə hekayə guya Möminlərin əmiri Əlinin (ə) Əbu Cəhlin qızına elçi düşməsi, bunu eşidən Fatimənin (ə) ona qəzəblənib atası Peyğəmbərə (s) şikayət etməsi, Peyğəmbər (s) bu addımı şiddətli şəkildə qınayaraq qarşılığında "Fatimə mənim bir parçamdır, onu qəzəbləndirən məni qəzəbləndirmişdir" hədisini söyləməsidir.

Bu qəribəliyi artıran məsələlərdən biri də həmin hadisənin müsəlmanların diqqətini daha çox cəlb etməsi üçün "Səhih"lərə və əhəmiyyətli hədis mənbələrinə yol tapmasıdır ki, Xanımın (ə) səhih hədislərdəki həqiqi qəzəbinin qarşılığında iddia edilsin. Məqsəd isə Xanımın (ə) ilk iki xəlifəyə qəzəblənməsi, zülm və əziyyət görməsi, haqqından məhrum edilməsi məsələsində Möminlərin əmiri Əlini (ə) də həmin ittiham dairəsinə daxil etməkdir.

İbn Teymiyyə bundan da irəli gedərək bunu məhz Əmiərl-mömininin (ə) üzərində tətbiq etməyə çalışır: "Əgər bu (qəzəb), səbəbkar üçün şiddətli əzab vədidirsə, bu vədin Əli ibn Əbu Talibə də şamil olması lazımdır. Əgər əzab vəd edəcək bir məsələ deyilsə, o zaman bu işdə Əbu Bəkr Əlidən daha kənarda qalır".[695]

İbn Teymiyyənin ardınca isə İhsan Zahir kimi ardıcılları danışmağa başlayır. Məqsəd isə hədisi daha da əsaslandırmaqdır. O, bu hədisin guya şiə mənbələrində də təsdiqləndiyi xülyasını yaratmağa çalışır.

İhsan Zahir Əllamə Məclisidən Fatimənin (ə) Əbu Bəkrdən narazı halda dünyadan köçdüyünə dair hadisəni nəql etdikdən sonra şərhində deyir: **"Baxmayaraq ki, Fatimənin qəzəb və ya razılığı iman və küfr məsələsi deyil.**

[695] Minhacus-sünnə, İbn Teymiyyə, c. 4, s. 252

Belə ki, o, Əli ibn Əbu Talibə də qəzəblənmişdi. Lakin heç kim onun bu qəzəb səbəbindən İslamdan xaric olduğunu söyləmir. Bu (Əliyə qəzəblənməsi) şiələrin öz kitablarında da rəvayət olunur. Səduq ləqəbli İbn Babəveyh Qummi öz kitabında Əbu Abdullahdan (Cəfərdən), onların altıncı məsum imamından belə soruşulduğunu rəvayət edir: "Cənazəni ətrafını işıqlandırmaq üçün məşəl, qəndil və çıraqda olan bir alovla müşayiət etmək olar?" Əbu Abdullahın (ə) bu sualdan rəngi dəyişdi, əyləşdiyi halda dedi: "Bədbəxtlərdən bir bədbəxt Peyğəmbər (s) qızı Fatimənin (ə) yanına gələrək ona dedi: "Əlinin Əbu Cəhlin qızına elçi düşdüyünü bilmirsən?" Xanım dedi: "Doğru söyləyirsən?" Üç dəfə dedi: "Bəli, doğru söyləyirəm". Qısqanclıqdan özünü ələ ala bilmədi. Belə ki, Uca Allah qadınlara qısqanc olmağı, kişilərə isə cihad və səyi buyurub. Qadınlardan buna səbr edənin mükafatını isə Allah yolunda hicrət edənin savabı qədər yazır. Dedi: "Fatimə bu xəbərdən olduqca kədərləndi. Axşamadək bu barədə düşündü. Gecə düşəndə Həsəni sağ və Hüseyni sol qucağına götürüb, Ümmü Külsümü sol əlini sağ əli ilə tutaraq atasının evinə getdi. Əli gəlib Fatiməni evdə görmədi, kədərləndi və buna ona təsir etdi. Lakin baş verənlərdən xəbərsiz idi. Atasının evindən onu çağırmağa utandı. Məscidə çıxıb namaz qılmağa başladı. Bir qədər namaz qıldıqdan sonra məscidin torpağını balış kimi toplayıb başını ona söykədi.

Peyğəmbər (s) Fatimənin üzündə kədəri gördü. Dəstəmaz aldı, paltarını geyinib məscidə çıxdı, namaz qıldı, hər iki rükətdən sonra Allaha dua edərək Fatimənin hüzn və kədərini aradan qaldırmasını dilədi. Çünki onun yanından ayrıldıqda gərgin nəfəs aldığını görmüşdü.

Onun yata və bir yerdə qərar tuta bilmədiyini görən Peyğəmbər (s) ayağa qalxmasını söylədi. Peyğəmbər (s) Həsənin, Fatimə isə Hüseynlə Ümmü Külsümün əlindən tutaraq Əlinin (ə) yanına getdilər. O yatmışdı. Peyğəmbər (s) ayağının onun ayağına toxundurarak "Ey Əbu Turab (torpaq

atası), qalx! Neçə nəfəri narahat etmisən. Əbu Bəkri evindən, Öməri məslisdən və Təlhəni çağır" dedi. Əli onları çağırdı. Onlar Peyğəmbərin (s) yanında toplaşdıqda buyurdu: "Ya Əli! Bilmirsənmi ki, Fatimə mənim və mən də onun bir parçasıyam? Onu incidən məni incitmişdir.

(Baxmayaraq ki, bu hədis məxsusi olaraq Əlinin (r) bu hərəkəti barəsində söylənir, şiələr bunu Əbu Bəkr Siddiqə (r) şamil etmək istəyirlər. Buna əsasən, İbn Teymiyyə deyir: "Əgər bu (qəzəb), səbəbkar üçün şiddətli əzab vədidirsə, bu vədin Əli ibn Əbu Talibə də şamil olması lazımdır. Əgər əzab vəd edəcək bir məsələ deyilsə, o zaman bu işdə Əbu Bəkr Əlidən daha kənarda qalır" (Bu, İhsan Zahirin haşiyə sözləridir).

Məni incidən isə Allahı incitmişdir. Kim onu mənim vəfatımdan sonra incitsə, onu mən həyatda ikən incitmiş kimidir. Onu mən həyatda ikən incidən şəxs də mənim vəfatımdan sonra incidən şəxs kimidir". (İləluş-şəraye, Qummi, s. 185-186, Nəcəf çapı) Bu rəvayəti həmçinin Əllamə Məclisi "Cəlaul-uyun" kitabında fars dilində qeyd edir.

Həmçinin Fatimə Əliyə başqa bir dəfə də qəzəblənib. Bu Əlinin başını qardaşının ona hədiyyə etdiyi cariyənin dizləri üzərində gördükdə baş verir. Onun rəvayətini isə Qummi və Məclisi Əbu Zərə istinadla nəql edirlər: "Mən və Cəfər ibn Əbu Talib Həbəş torpaqlarına hicrət etmişdik. Cəfərə qiyməti dörd min dirhəm olan bir cariyə hədiyyə edilmişdi. Mədinəyə qayıtdıqda onu qardaşı Əliyə (ə) bağışladı. Əli (ə) onu Fatimənin evində saxlayırdı. Bir gün Fatimə evə daxil olduqda Əlinin (ə) başını cariyənin düzləri üzərinə qoyduğunu gördü və dedi: "Ey Əbülhəsən! Onunla bunu etdin? (Sözlərin düşüklüyünə, şiələrin axmaqlığına, Peyğəmbər (s) əhli-beytinə atdıqları böhtan və iftiraya baxın! Onlar hələ əhli-beytin məhəbbət və dostluğunu iddia edirlər. Əhli-beyt belə avamlıqdan uzaqdır!) Əli (ə) dedi: "Ey Peyğəmbər qızı! Allaha and olsun ki, mən onunla heç bir şey etməmişəm. Sən nəyi nəzərdə tutursan?" Fatimə dedi: "Atamın evinə

getməyimə icazə ver". Əli izn verdiyini söylədi. Fatimə üzərinə örtüyünü atıb atasının evinə getdi". (İləluş-şəraye, s. 163, Nəcəf çapı; Biharul-Ənvar, s. 43-44, "Əli ilə birgə yaşaması" babı)

Hətta üçüncü dəfə də ona qəzəblənmişdi. Şiələr rəvayət edirlər ki, "Fatimə Əbu Bəkrdən Fədəyi istədikdə və Əbu Bəkr də onu verməkdən imtina etdikdə evinə qayıtdı. Vəsf edilməyəcək dərəcədə hirslənmişdi və sonra xəstələndi. Ona yardım etməkdən imtina etdiyinə görə Əliyə də qəzəblənmişdi. Dedi: "Ey Əbu Talibin oğlu! Ana bətnində olan uşaq kimi büzüşüb qalmış, müttəhim kimi evin küncündə oturmusan. Halbuki zamanın ən şücaətli adamlarını öldürmüş və onlarla savaşmışdın. İndi isə bu qadınabənzərlərdən çəkindin. Bu Quhafənin oğlu məndən atamın hədiyyə etdiyi Fədəyi zülm və zorla aldı, mənimlə mübahisə etdi. Heç kim mənə kömək etmədi. Nə bir yardımçım, nə köməkçim, nə vəkilim və nə də bir himayəçim oldu. Qəzəbli gedib kədərli qayıtdım. Öz dəyərli şəxsini tək qoydun, canavarlar gəldi, getdi, sən tərpənmədin. Kaş ki, bundan əvvəl ölərdim, unudulub gedərdim. Atama şikayət edəcək və Rəbbim qarşısında bunu dilə gətirəcəyəm". (Həqqul-yəqin, Məclisi, "Fədək" bəhsi, s. 203-204; eynisi Təbərsinin "İhticac"ında və "Əmali"də də nəql olunur. s. 295, Nəcəf çapı)

Başqa bir hadisə də var ki, onu Məclisi, Tusi, İrbəli və başqaları da qeyd ediblər. Həmin hadisə Əli (r) ilə Fatimənin (r) arasında baş verir. Həmin vaxt Fatimə inciyir və ardınca Əliyə qəzəblənir. Şiələrin bütün bunlara nə cavab verəcəklərini, insaflı şəxslərinin buna necə hökm edəcəklərini bilmirik. Biz isə hökm və cavab olaraq onlarla razılaşırıq. Onlar Əlinin müdafiəsi üçün nə cavab söyləsələr bizim də Siddiq və Faruq (Allah onlardan razı olsun!) barədəki cavabımız odur. Əgər qəzəbləndikdən sonra Əlidən narazılığı aradan getdi desələr, biz də deyirik ki, qəzəbləndikdən sonra ilk iki xəlifədən də razı oldu. Əbu Bəkr onun yanına getdi, Ömər üçün

də üzr dilədi və o da bağışladı". (İbn Əbülhədid "Şərhu Nəhcül-Bəlağə", c. 1, s. 57, Beyrut çapı; "Həqqul-yəqin", s. 180, Tehran çapı; "İbn Meysəm, "Şərhu Nəhcül-Bəlağə", c. 5, s. 507, Tehran çapı; Dənbəli, "Şərhu Nəhcül-Bəlağə", s. 331, Tehran çapı)".[696]

Müzakirə

Bu yanaşmalar bəzi səbəblərə görə çox yanlışdır:

Birinci: Fatimənin qəzəblənməsi və incidilməsi Peyğəmbərin qəzəblənəməsi və incidilməsidir

Əvvəldə də qeyd edildiyi kimi, Fatimənin (ə) qəzəblənməsi və inciməsi Peyğəmbərin (s) qəzəbi və incidilməsidir. Fatiməni (s) qəzəbləndirən və ya ona əziyyət edən hər bir şey Peyğəmbəri də (s) qəzəbləndirir və ona əziyyət edir. Necə ki, bunu "Fatimə mənim bir parçamdır" hədisi də aydın şəkildə bəyan edir. Hətta Fatimənin (ə) qəzəb və incidilməsi Allahın qəzəb və incidilməsidir. Necə ki, bu, Hüseyn ibn Zeydin təqdim etdiyimiz hədisdə qeyd edildi. Hakim həmin hədisin "səhih", Heysəmi isə "həsən" olduğunu söyləmişdi. Zəhəbinin onu zəif bilməsi isə şəxsi xülyasıdır, buna müvafiq bəhsdə cavab verdik.

Əksər Əhli-Sünnə alimləri Fatimənin (ə) qəzəbləndirilməsinin və incidilməsinin haram olduğunu bildiriblər. Əbu Nəim Deyləmi deyir: Onu qəzəbləndirən və ya incidən şəxsə yerlər və göylər dolusu Allahın lənəti olacaq". Şaşi və Beyhəqi isə onu təhqir edənin küfrünə hökm etmişlər.

Buradan da İhsan Zahirin **"Baxmayaraq ki, Fatimənin qəzəb və ya razılığı iman və küfr məsələsi deyil"** sözünün acizliyi anlaşılır. Bu pakistanlı müəllifin

[696] Şiə və Əhli-Beyt, səhifə kənarındakı şərh, s. 193-195

sözü hara, böyük Əhli-Sünnə alimlərinin qeyd edilən sözləri hara!!! Allah mənfur təəssübü məhv etsin! Gözləri necə də heç bir şey görməyəcək həddə kor edir?!

İkinci: "Səhih"də Zəhranın (ə) Əlidən (ə) razılığını bildirən rəvayətlər

Uydurduqları bu Əbu Cəhlin qızının elçiliyi hadisəsində də görünür ki, Fatimə (ə) qəzəbləndiyi üçün İmam Əli (ə) bu elçilikdən imtina edir, nəticədə Xanım (ə) ondan razı qalır. Necə ki, bu, Buxarinin "Səhih"də Şüeybin vasitəsilə Zühridən, onun da Əli ibn Hüseyndən (ə), onun da Misvər ibn Məxrəmədən nəql etdiyi hədisdə görürük. Orada "Əli elçilikdən əl çəkdi"[697] deyilir.

Halbuki "Səhih"də Fatimənin (ə) Əbu Bəkr və Ömərə qəzəbli halda dünyadan köçdüyü aydın bəyan edilir.

Fatimənin (ə) qəzəbinin xüsusiyyəti, eləcə də onun Möminlərin əmiri Əlidən (ə) razılığı əksər Əhli-Sünnə alimləri tərəfindən etiraf olunmuşdur. Lakin Xanımın ilk iki xəlifəyə qəzəblənməsi və onlara qəzəbli halda dünyadan köçməsi "Səhih"in rəvayətlərinə əsasən isbat olunub. Şəbinin Əbu Bəkrin Xanımı (ə) razı saldığına və onun da razılaşdığına dəlalət edən rəvayəti bunlara qarşı dəlil ola bilməz. Çünki mürsəl rəvayətdir. Onun özü və rəvayəti barədə təfsilatı ilə söhbət etdik.

Buradan da İhsan İlahi Zahirin sözünün acizliyi görünür: **"Əgər qəzəbləndikdən sonra Əlidən narazılığı aradan getdi desələr, biz də deyirik ki, qəzəbləndikdən sonra ilk iki xəlifədən də razı oldu. Əbu Bəkr onun yanına getdi, Ömər üçün də üzr dilədi və o da bağışladı". (İbn Əbülhədid, Şərhu Nəhcül-Bəlağə, c. 1, s. 57)**

Sözünün puçluğu bundadır ki, onun İmam Əlidən (ə) razı olduğunu "Səhih"də rəvayət aydın şəkildə bəyan edir. Necə ki, həmçinin Xanımın (ə) Əbu Bəkr və Ömərə qəzəbli halda dünyadan köçdüyü də həmin mötəbər kitabdadır. Onlardan razı olduğuna dəlil isə yalnız İbn Həcərin və Əbu Bəkr Əhməd ibn Əbdüləzizin

[697] Səhih, Buxari, c. 3, s. 1364, hədis 3523, bölmə 16

“əs-Səqifə və Fədək” kitabında istinad etdikləri Şəbinin mürsəl rəvayətidir. Əhməd ibn Əbdüləzizdən də İbn Əbülhədid “Nəhcül-Bəlağə”nin şərhində bunu nəql edib. Laki İhsan İlahi Zahir öz adəti üzrə yenə də saxtakarlıq edib. İhzan Zahirin öz həvaye-nəfsinə uyğun kəsib dəlil göstərdiyi nəql etdiyi parçanı tam mətnlə sizə təqdim edirik:

İbn Əbülhədid yazır: “Əbu Bəkr (Əhməd ibn Əbdüləziz) deyir: “Əbu Zeyd Ömər ibn Şəbbədən, o da Əbu Bəkr Bahilidən, o da İsmail ibn Mucaliddən, o da Şəbidən nəql edir: “Əbu Bəkr Zübeyrin harada olduğunu soruşduqda qılıncla silahlanmış halda Əlinin yanında olduğunu dedilər. Dedi: “Ey Ömər, ey Xalid ibn Vəlid qalxın gedin”. Onlar evin qapısına çatdıqda Ömər içəri girdi, Vəlid isə çöldə qaldı. Ömər Zübeyrə üzünü tutub dedi: “Bu qılınc nədir?” Zübeyr dedi: “Əliyə beyət edirik”. Ömər onu qınından çıxarıb daşa çırparaq qırdı. Sonra Zübeyrin əlindən tutub ayağa qaldırdı və qapıya tərəf itələyərək dedi: “Ey Vəlid, onu tutub saxla”. Sonra üzünü Əliyə tutaraq dedi: “Qalxıb Əbu Bəkrə beyət et”. Əli yerindən tərpənmədi. Ömər onun əlindən tutub qaldırmaq istədikdə Əli qalxmaqdan imtina etdi. Onu dartaraq Zübeyr kimi, qapıya tərəf itələyib çölə çıxardı. Fatimə onların bu rəftarını gördükdə evin qapısına tərəf gəlib dedi: “Ey Əbu Bəkr, Peyğəmbər (s) Əhli-Beytinin üzərinə nə tez hücum çəkdiniz?! Allaha and olsun ki, Allahın dərgahına qovuşanadək Ömərlə əsla danışmayacağam”.

Deyir: “Bundan sonra Əbu Bəkr Xanımın yanına gedərək ondan Ömər üçün üzr istədi, o da Öməri bağışladı”.[698]

Əvvəldə təqdim etdiyimiz kimi, Fatimənin (ə) Əbu Bəkr və Ömərdən razılığına Şəbinin rəvayətindən başqa dəlalət edən heç bir şey yoxdur. Şəbinin mürsəl hədisi barədə söhbətimiz isə əvvəldə qeyd edildi.

Ancaq İhsan İlahi Zahirin gümanına və bu gümanına İbn Teymiyyədən gətirdiyi sitatlara əsasən, “Bir parçamdır” hədisinin İmam Əli (ə) barədə söyləndiyinə gəlincə, İmam Əlinin (ə) elçilik iddiası boş bir iftiradır ki, ona nifrət

[698] Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid, c. 2, s. 57

bəsləyən Bəni-Üməyyə və onun tərəfdarları tərəfindən bu müqəddəs şəxsiyyətə qarşı uydurulmuşdur. Qarşıda bu barədə söhbət açacağıq.

Hədisin rəvayət yollarına əsasən isə "Bir parçamdır" hədisi müxtəlif hadisələrlə bağlı bir neçə dəfə söylənib. Əbu Lübabənin hadisəsində olduğu kimi. Süheyli bu rəvayəti Fatiməni təhqir edənlərin küfrə dəlil olaraq göstərmişdir.

Həmçinin bundan əlavə, "bir parçamdır" hədisinin dəlalət bəhsində əksər Əhli-Sünnə alimlərinin bu hədisə əsasən Fatiməni (ə) incitməyin haram olduğuna hökm etdikləri qeyd edildi. Hətta Şaşi və Beyhəqi onu təhqir edənin kafir olacağına da hökm vermişlər. Göründüyü kimi, İmam Əlinin (ə) Əbu Cəhlin qızına elçiliyi məsələsi onun qəzəbləndirilməsinin və incidilməsinin haram və küfr olduğuna verdikləri hökmdə öz əksini tapmır.

Nəticə

Fatimənin (ə) İmam Əlidən (ə) razılığı "Səhih"də aydın bəyan olunub. Həmçinin onun Əbu Bəkr və Ömərə qəzəbli olduğu halda dünyadan köçdüyü də "Səhih"də qeyd edilir. Şəbidən nəql edilən mürsəl rəvayət bunlara qarşı dəlil ola bilməz.

"Səhih" Fatimənin (ə) İmam Əlinin (ə) Əbu Cəhlin qızına (uydurma) elçiliyinə görə qəzəbləndiyi bildirilib. İmam (ə) isə bu qəzəb səbəbindən elçilikdən imtina edir. Lakin Xanım (ə) ilk iki xəlifəyə qəzəbləndikdən sonra onlara qəzəbli halda dünyadan köçüb. Söhbət mövzusu Fatimənin (ə) Əbu Bəkr və Ömərə qəzəbləndikdən sonra onlardan razılığına dəlil təqdim etməkdir (bu "dəlil" isə yalnız Şəbinin mürsəl rəvayətidir – Tərc.).

"Bir parçamdır" hədisinin yalnız İmam Əliyə (ə) aid olduğu iddiası İbn Teymiyyənin Əhli-Sünnə alimlərinin mütəvatir saydığı, bir çox fərqli ravilərin vasitəsilə nəql etdikləri *"Mən kimin mövlasıyam, bu Əli də onun mövlasıdır"* hədisini inkar etdiyi kimi, məşhur fırıldaqlarından biridir.

Buna əsasən, İbn Teymiyyənin ardıcıllarından elmi və təəssübdən uzaq bir cavab tələb etdiyimiz sual budur: "Fatimənin (ə) İmam Əlidən (ə) razılığı "Səhih"də aydın qeyd olunub. Bəs "Səhih"də aşkar surətdə Xanımın (ə) Əbu Bəkr və Ömərdən qəzəbli halda dünyadan köçdüyünə dəlalət edən hədisin müqabilində durmaq səlahiyyəti olan dəliliniz nədir?!

Üçüncü: Əbu Cəhlin qızına elçilik rəvayəti tənqidlər qarşısında tab gətirmir

İmam Əlinin (ə) Əbu Cəhlin qızına elçiliyi hadisəsinin elmi, obyektiv və nə də tarixi əsası yoxdur. Bunun həqiqi mənbəyi şəxsi istəklər, nifrət dolu qəlblər və siyasi məqsədlərdir. Bu hadisəni təhlil və araşdırma cəhətdən ədalət tərəzisinin gözünə qoyaraq obyektiv bəhs qarşısındakı duruşuna nəzər salacağıq.

Birinci: Hadisə Quran və dini cəhətdən isbat olunmuş məsələlərlə ziddiyyət təşkil edir

Bir hədisin sadəcə "Səhih"lərdən birində nəql edilməsi onun həqiqətən də qəti şəkildə baş verdiyi anlamını verməz. Yəni onu qəbul etmək və ona müvafiq əməl etmək zərurəti yaratmaz. Belə ki, isbat olunmuş dini və tarixi məsələlərə uyğun olmayan hədislərin kənara atılmasının və onlara uyğun əməl edilməməsinin heç bir müşkülü yoxdur. Buna əsasən Əhli-Sünnə alimləri və hədisşünasları "Səhih"lərdəki bəzi hədisləri rədd etmişlər. Məsələn, Şərik ibn Abdullah ibn Əbu Nimrdən Buxari və Müslimin öz "Səhih"lərində nəql etdikləri hədis kimi. *"Ənəs ibn Malikin Peyğəmbərin (s) Kəbə məscidindən Merac gecəsində hərəkət etməsi barədə danışdığını eşitdim: "Ona vəhy olunmazdan (peyğəmbər seçilməzdən) əvvəl üç nəfər gəldi. Həmin vaxt o, Məscidul-haramda yatmışdı..."*[699]

Bu rəvayət dini və tarixi hadisələrə zidd olduğuna görə inkar olunub. Belə ki, Merac hadisəsinin Həzrət Muhəmmədin (s) peyğəmbər göndərilməsindən sonra

[699] Səhih, Buxari, c. 4, s. 168, c. 8, s. 203-204; Səhih, Müslim, c. 1, s. 102

baş verdiyi məlumdur. İbn Həcər Buxarinin bu rəvayətinin şərhində deyir: *"Ona vəhy olunmazdan əvvəl"* sözünü Xəttabi, İbn Həzm, Əbdülhəqq və Qazi İyad Nəvəvi inkar etmişlər. Nəvəvi deyir: "Şərikin rəvayətində bəzi mətləblər var ki, inkar olunub. Onlardan biri "Ona vəhy olunmazdan əvvəl" sözüdür. Şübhəsiz ki, bu səhvdir. Alimlərin ümumi icmasına əsasən, namazın vacib buyurulması Merac gecəsində baş vermişdir. O zaman, Merac necə vəhydən əvvəl ola bilər?!"[700]

Nəvəvi Müslimin "Səhih"indəki həmin rəvayətin şərhində deyir: *"Ona vəhy olunmazdan əvvəl idi"* sözü heç kimin razılaşmayacağı bir səhvdir. Çünki Meracın baş verdiyi vaxt barədə deyilən ilk müddət besətdən on beş ay sonradır..."[701]

Əhli-Sünnə alimlərinin və hədisşünaslarının qəti dini və tarixi dəlillərə zidd olduğuna görə rədd etdikləri "Səhih"lərdəki hədislərdən biri də Müslimin "Səhih"ində Əbu Hüreyrəyə istinadən etdiyi rəvayətdir: *"Peyğəmbər (s) mənim əlimdən tutub dedi: "Uca Allah torpağı şənbə günü, onun üzərində dağları bazar günü, ağacları bazar ertəsi, bəyənilməyən şeyləri çərşənbə axşamı və nuru çərşənbə günü yaratdı, cümə axşamı məxluqları orada xəlq etdi. Adəmi (ə) cümə günü axşam çağı cümənin son saatlarında məxluqların sonuncusu olaraq yaratdı".*[702]

Bu rəvayət də Qurani-Kərimin aşkar ayələrinə zidd olduğu üçün inkar edilib. İbn Kəsir deyir: "Bu hədis Müslimin "Səhih"inin qəribə hədislərindəndir. Onun barəsində Əli ibn Mədəni, Buxari və başqa hədis hafizləri fikir söyləmiş, Kəbul-Əhbarın sözləri olduğunu deyiblər, Əbu Hüreyrənin də bu sözləri Kəbdən eşitdiyini bildiriblər. O, bəzi rəvayətləri qarışıq salır, sonra da Peyğəmbərə (s) istinad edirdi. Bunu Beyhəqi də qeyd etmişdir".[703]

Həmçinin deyir: "Müslim ibn Həccac öz "Səhih"ində, Nəsai Həccacdan (o, Həccac ibn Muhəmməd Əvardır), o da İbn Cərihdən nəql edib. Burada yeddi günün mövzusunu əhatə edir. Halbuki Uca Allah bu barədə ***"altı gündə"*** buyurur.

---

[700] Fəthul-Bari, İbn Həcər, c. 13, s. 399
[701] Şərhu Müslim, Nəvəvi, c. 2, s. 209-210
[702] Səhih, Müslim, c. 8, s. 127
[703] Təfsir, İbn Kəsir, c. 1, s. 72

Ona görə də BUxari və digər hədis alimləri bu rəvayət barədə fikir söyləmiş, onun Əbu Hüreyrənin Kəbdən rəvayət etdiyi Peyğəmbərə (s) yetişməyən hədis olduğunu bildirmişlər".[704]

Alusi deyir: "Gizli deyil ki, bu rəvayət aşkar ayələrə ziddir. Bu hədis, Müslimin "Səhih"də nəql etməsinə rəğmən ya səhih deyil, ya da izahdır. Mənim fikrimə görə, yaradılışın ilk gün bazar, ikinci günü bazar ertəsi və s. Məxluqların cəm edildiyi gün cümədir. Özünüz düşünün".[705]

Və bu mövzuda olan digər rəvayətlər. Lakin onları burada qeyd etmək mövzumuzdan kənardır.

Həmçinin ravinin Buxari və Müslimin ravilərindən olması söylədiyi hər bir sözü qəbul etməyi zəruri qılmır. Bu iki "Səhih"in bəzi raviləri barədə geniş bir söhbət mövzusu var. Məsələn, Mərvan ibn Həkəm ibn Əbülas barədə. məlum olduğu kimi, o, Əhli-Sünnənin nəzərində Cənnətlə müjdələnmişlərdən biri olan Təlhənin qatilidir. İbn Həcər deyir: "İbn Əsakir Təlhəyə ox ataraq onu öldürən şəxsin Mərvan ibn Həkəm olduğunu müxtəlif yollarla rəvayət edir. Onlardan: Əbülqasim Bəğəvinin səhih sənədlə Carud ibn Əbu Səbrədən nəql edir: "Cəməl savaşı günü Mərvan Təlhəyə baxıb dedi: "Bu gündən səndən intiqamımı almağı istəməyəcəyəm". Ardınca onu oxla nişan alaraq öldürdü". Yaqub ibn Süfyan səhih sənədlə Qeys ibn Əbu Hazimdən nəql edir ki, Mərvan ibn Həkəm Təlhəni atın üzərində görüb dedi: "Bu, Osmana qarşı yardım edirdi". Ox atıb onu atdan saldı. Təlhə çoxlu qan itirib öldü. Bunu Əbdülhəmid ibn Saleh Qeysdən rəvayət edib". Təbərani Yəhya ibn Süleyman Cufidən, Vəkidən eyni sənədlə nəql edir: "Həmin gün Mərvan ibn Həkəmin Təlhəni oxla vurduğunu gördüm. Ox onun diz qapağından dəydi. Təlhə çoxlu qan itirərək öldü".[706]

Necə ki? Burada səhabələrlə bağlı başqa bir nüans da var. Məsələn, Təlhənin qatili Mərvanın atası Həkəm ibn Əbülas barədə. Bu, Əhməd ibn Hənbəlin də öz

---

[704] Təfsir, İbn Kəsir, c. 2, s. 230

[705] Təfsir, Alusi, c. 8, s. 133

[706] əl-İsabə, İbn Həcər, c. 3, s. 432

“Müsnəd”indən qeyd etdiyi kimi, Peyğəmbər (s) tərəfindən özü və sülbü lənətlənmiş kəsdir. Əhməd ibn Hənbəl Abdullah ibn Nümeyrin vasitəsilə Osman ibn Hükeymdən, o da Əbu Əmamə ibn Səhl ibn Hüneyfdən, o da Abdullah ibn Əmrdən nəql edir: “Peyğəmbərin (s) yanında oturmuşduq. Əmr ibn As libasını geyinmək üçün getmişdi. Biz orada ikən Peyğəmbər (s) buyurdu: “İndi sizin yanınıza lənətlənmiş bir kişi gələcək”. Allaha and olsun ki, qorxu içində narahatlıqla içəri və çölə baxırdım ki, filankəs, yəni Həkəm içəri girdi”.[707]

Şüeyb Arnavut bu hədisin şərhində yazır: “Müslimin şərtinə əsasən hədisin sənədi səhihdir. Ravilər “siqə”dirlər və Müslimlə Buxarinin “Səhih”lərinin raviləridir. Yalnız Osman ibn Hukeym tək Müslimin ravilərindəndir”.[708]

Əhməd ibn Hənbəl “Müsnəd”də Şəbiyə istinadən rəvayət edir: “Abdullah ibn Zübeyr Kəbəyə söykənərək deyirdi: “Bu Kəbənin Rəbbinə and olsun ki, Peyğəmbər (s) filnakəsi (Həkəmi) və onun sülbündən gələnləri lənətləmişdir”.[709]

Şüeyb Arnavut bu hədisin şərhində yazır: “Raviləri “siqə”dilər, Buxari və Müslimin raviləridir. Bəzzar bu rəvayəti Əbdürrəzzaqın vasitəsilə eyni istinad və kəlmələrlə nəql etmişdir: “Bu Evin Rəbbinə and olsun ki, Allah Həkəmi və onun sülbündən gələnləri Peyğəmbərin (s) dili ilə lənətləmişdir...” Abdullah ibn Əmr ibn Asın səhih sənədlə Peyğəmbərin (s) “İndi sizin yanınıza lənətlənmiş bir kişi gələcək” deyə buyurduğunu əvvəldə qeyd etdik...”[710]

Albani Peyğəmbərin (s) Həkəmi lənətlədiyi hədisi nəql etdikdən sonra deyir: “Mən Həkəmin tərcümeyi-halını yazan bəzi alimlərin bu hədisləri və onların səhihliyini həmin şəxsin tərcüməsində qeyd etmədiyinə olduqca təəccüb edirəm. Bu ya səhabə qorxusundan, ya Osmanın əmisi olmaqdan irəli gəlib. Yoxsa onların Allah tərəfindən heç bir danlaq qəbul etməyəcəkləri məlumdur?!

---

[707] Müsnəd, Əhməd ibn Hənbəl, c. 2, s. 163, hədis 6520

[708] Müsnəd, Əhməd ibn Hənbəl, c. 2, s. 163, hədis 6520. Şüeyb Arnavutun həmin hədisə yazdığı şərh

[709] Müsnəd, Əhməd ibn Hənbəl, c. 4, s. 5, hədis 16173. Şüeyb Arnavutun şərhilə

[710] Müsnəd, Əhməd ibn Hənbəl, c. 4, s. 5, hədis 16173. Şüeyb Arnavutun şərhilə

Yaxud da bu, onların hakimiyyəti dövründə baş verib ki, onlar barəsində belə hədisləri qeyd etməyə və haqqı bəyan etməyə mane olub?

Məsələn, İbn Əsir "Usudul-ğabə"də deyir: "Onun lənətlənməsi və lənətlənməməsi barədə çoxlu hədislər nəql olunub. Onları qeyd etməyə ehtiyac yoxdur. Lakin qəti olan budur ki, Peyğəmbərin (s) onun bəyənmədiyi əməllərinə dözməsi və göz yumması, əlbəttə ki, ilahi bir əmrə görə idi".

Bundan daha qəribəsi isə İbn Həcər onun uzun tərcümeyi-halının əvvəlini belə başlayır: "İbn Səkən yazır: Deyilir ki, Peyğəmbər (s) ona bəddua etmişdi. Lakin bu isbat olunmayıb". Susur və ardınca bir söz demir. Əksinə, davamında bir çox rəvayətlər nəql edir ki, burada onun əleyhinə dualar yer alır. Onlardan bəzisinin zəif olduğunu mən "əz-Zəifə" kitabında qeyd etmişəm. Lakin o, onların hamısı barədə susaraq, bəzilərinin zəif olduğunu söyləyir. Sonda isə Aişənin hədisini nəql edir ki, Mərvana Peyğəmbərin (s) onun atasını lənətlədiyini və həmin vaxt onun da atasının sülbündə olduğunu bildirir. Lakin bunun doğruluğunu bəyan etmək əvəzinə Buxarinin rəvayətindəki ziddiyyətə diqqət yönəldir. Ardınca isə deyir: "Deyirəm: Buxarinin kitabında bu hadisə həmin əlavə qeyd edilmədən varid olub".

Mən isə deyirəm: Ardınca deyilən bu sözün heç bir dəyəri yoxdur. O, bu əlavənin sənədinin səhih olduğunu bilir. Məgər bu əlavə Buxarinin ravilərindən nəql edilmirmi?! Yalnız bununla bitmir. Əvvəldə təqdim etdiyimiz kimi, bunun səhih dəlilləri də mövcuddur. Onun dəlil olduğuna yalnız bu sözlər kifayət edir! Hədisin şərhinin sonunda isə deyir: *"Ümmətimin həlakı Qüreyşdən olan bir şəhvətpərəstin əlilədir".*[711]

"Mərvanın atası Həkəmin və ondan olacaq övladların lənətləndiyi barədə hədislər mövcuddur. Onları Təbərani və digərləri qeyd etmişlər. Əksəriyyəti barədə söz deyə bilsə də, bəziləri "yaxşı"dır. Bəlkə də, qeyd etdikləri şəhvətpərəst də buna aid edilir".

---

[711] Fəthul-Bari, c. 13, s. 11

Bütün bunlardan daha təəccüblüsü Zəhəbinin "Tarix" kitabında Həkəmin tərcümeyi-halında göstərdiyi ehtiyat və tərəddüddür (c. 2, s. 96): "Onun lənətləndiyi barədə "inkar olunan" hədislər var. "İnkar olunan" hədisləri dəlil göstərmək icazəli deyil".

Belə deyir. Halbuki bir səhifə sonra Şəbinin İbn Zübeyrdən əvvəldə də qeyd etdiyimiz kimi, sənədi səhih rəvayəti nəql edir!".[712]

Buna əsasən, Mərvan ibn Həkəmin Buxarinin ravilərindən olması və ya Həkəm ibn Əbülasın səhabə olması onlar barədə tənqid qapısının heç də bağlanması demək deyil.

Demək, bir hədisin yalnız "Səhih"lərdə və ya başqa mötəbər kitablarda olması heç də onun qəti olaraq baş verdiyinə dəlalət etməz. Həmçinin bir ravinin Buxari və ya Müslimin ravilərindən olması da onun tənqid edilə bilməyəcəyi mənasını daşımaz. Hətta həmin şəxsin səhabə olması da bu zəruri etməz.

Qeyd edilənlərə əsasən, İmam Əlinin (ə) Əbu Cəhlin qızına elçilik hadisəsinin "Səhih"lərdə özünə yer tapması onun müzakirə edilməyəcək səviyyədə olması demək deyil. Əksinə, Quran və dinlə isbat olunmuş bəzi məsələlərə zidd olduğuna görə onu qəbul etmək mümkün deyil. Bunlardan bir neçəsini qeyd edək:

A. Peyğəmbərin ali və möhtərəm məqamına uyğun olmaması

Bu hadisə Qurani-Kərimin əzəmətli deyə vəsf etdiyi Peyğəmbərin üstün əxlaqı ilə qəti şəkildə uzlaşmır, nəinki Peyğəmbərin (s), həmçinin Möminlərin əmiri Əlinin (ə) yüksək məqamına ziddir. Belə ki, əgər hadisə həqiqətən də baş veribsə, bu, aydın şəkildə şəriəti pozmaq və Qurani-Kərimin dörd qadınla evlənməyin halal olduğuna dair hökmünə qarşı çıxmaqdır.

Peyğəmbər (s) Allahın mübah və icazəli bildiyi bir işi necə inkar və qadağan edər?! Hətta bu inkarı minbərinin üzərinə qalxaraq açıq şəkildə elan edər?!

[712] əs-Silsilətus-səhihə, Albani, c. 13, s. 43, bab 3240

Qeyd edilir ki, Peyğəmbərlə (s) heç bir vəchlə müqayisə olunmayan Abbasi Xəlifəsi Məmun qızı Ümmü Fəzli İmam Əbu Cəfər Muhəmməd ibn Əli (ə) ilə evləndirib Mədinəyə yola saldı. Bir müddət sonra İmamın (ə) başqa bir qadınla da evləndiyi xəbərini atasına çatdırdı. Atası isə nəticə etibarı ilə bu cavabı verdi: Biz Onu sənlə Allahın mübah qərar verdiyi şeyi ona qadağan etməyin üçün evləndirməmişik.

Seyyid Mürtəzanın da mövzu ilə bağlı uzun sözləri var ki, onlardan bir hissəsini təqdim edirik: "Bu xəbər özündə batilliyinə və yalan olduğuna şəhadət verdiyi dəlilləri ehtiva edir. Belə ki, orada Peyğəmbərin (s) bu elçiliyi tənqid etdiyi və minbərinin üzərinə qalxaraq xütbə söyləyib, inkar etdiyi iddia olunur. Məlumdur ki, əgər İmam Əli (ə) qeyd edildiyi kimi, bunu həqiqətən də etmiş olsa, şəriətin tələbini pozmuş olmur. Çünki dörd qadınla eyni vaxtda evlilik Peyğəmbərin (s) dili ilə halal elan edilmiş bir əməldir. Şəriətlə mübah və icazəli bir əməli Peyğəmbər (s) inkar və tənqid etməz, bundan narahat da olmaz. Belə ki, Uca Allah onu belə bir işdən, nöqsan və töhmət sayılacaq sözlərdən uca tutmuş, qızı ilə başqalarının arasında fərq qoymaqdan uzaq saxlamışdır. Qəlbini nə qədər ağrıtsa da, Peyğəmbərin (s) bunu dili ilə inkar etməsi, eləcə də minbər üzərinə qalxaraq bu inkarını bu qədər şahidin qarşısında elan etməsi caiz və mümkün bir əməl deyil. Onun özünəməxsus helmi və qəzəbini cilovlamaq xüsusiyyəti var idi. Uca Allah da onu bunu inkar edəcək ən gözəl əxlaq və ədəb keyfiyyətləri ilə vəsf edib. Bu keyfiyyətlər də belə bir hərəkəti ona nisbət verməyə və baş verdiyini təsdiq etməyə bir maneədir. Qəlbini ağrıdacaq bu məsələdə onun kimi bir şəxsin edəcəyi ən çox ehtimal olunan hərəkət İmam Əlini (ə) təklikdə gözəl bir tərzdə və mülayim sözlərlə danlamaq, gizlində onu bu işdən çəkindirmək olardı. Halbuki Məmun Peyğəmbərlə (s) müqayisə oluna bilməyəcəyi halda qızını Əbu Cəfər Muhəmməd ibn Əli (ə) ilə evləndirib Peyğəmbər (s) şəhəri Mədinəyə yola salır. Qızı məktub yazaraq İmam Muhəmməd ibn Əlinin (ə) başqa bir qadınla da evləndiyini ona xəbər verdikdə Məmun onun sözlərini rədd edərək belə cavab

verir: “Onu sənlə Allahın mübah qərar verdiyi şeyi ona qadağan etməyin üçün evləndirməmişik”. Qızının qeyrətini çəkməkdə Məmun daha çox narazılıq etməyə layiq, cəmiyyətdəki məqamı isə bu işə müdaxilə etməyə və mane olmağa daha münasibdir. Allaha and olsun ki, bu rəvayətdə Peyğəmbərə (s) olan tənə İmam Əliyə (ə) elçilik səbəbilə edilən tənədən daha böyükdür. Bu xəbəri yalnız Allahsız, pis məqsədli və onları gözdən salmaq istəyən, ya da Əhli-Beytə (ə) inadla düşmənçilik edən və qəlbi nifrətlə dolu kəs uydura bilər”.[713]

Seyyid Mürtəzanın sözlərindən belə qənaətə gəlinir ki, rəvayətin məzmunu onun uydurulduğuna şahidlik edir. Belə ki, rəvayət təkcə İmam Əlinin (ə) deyil, həmçinin peyğəmbərlərin sonuncusunun (s) ali və möhtərəm məqamını gözdən salan və nübuvvət üslubuna zidd olan məcradadır. Belə ki, əgər hadisə həqiqətən də baş veribsə, bu, aydın şəkildə şəriəti pozmaq və Allahın kitabında dörd qadınla evlənməyin halal olduğuna dair hökmə qarşı çıxmaqdır.

İbn Həcərin buna bəraət qazandırması və onun cavabı

İbn Həcər rəvayətdəki bu məzmun naqisliyini görüb Peyğəmbərin (s) qeyd edəcəyi hökmü geniş yayılması məqsədilə belə bir addım atdığını bəhanə gətirmişdir. Yəni Peyğəmbər (s) qızı ilə Allahın düşmənini bir nikah altında cəmləməyin qəti şəkildə caiz olmadığını və ya yaxud bunu tərk etməyin övla olduğunu çatdırmaq istəyib. İbn Həcər deyir: “Peyğəmbər (s) qeyd edəcəyi hökmün müsəlmanların arasında yayılması, bunun vacib və ya övla olduğunu bilmələri üçün xütbə söyləmişdir. Şərif Mürtəza isə bu nöqtədən qafil olmuş və bu hədisin uydurma olduğunu güman etmişdir”.[714]

İbn Həcərin bu sözlərinin cavabı

İbn Həcərin söylədiyi bu bəhanə iki cəhətdən rədd edilir:

---

[713] Tənzihul-ənbiya, Şərif Mürtəza, s. 220, 1409-cu il

[714] Fəthul-Bari, c. 7, s. 68

1. İbn Həcərin "Peyğəmbər (s) qeyd edəcəyi hökmün müsəlmanların arasında yayılması, bunun vacib və ya övla olduğunu bilmələri üçün..." sözü Peyğəmbərin (s) digər şəri hökmlərin yayılması üçün təbliğ yoluna uyğun deyil. Xüsusən də onun ali əxlaqı nəzərə alındıqda.

2. Bu, ümumi mükəlləflərin icra edəcəyi və ya qarşılaşacağı bir vəziyyətin hökmü deyil ki, belə bir üslubda ümumən müsəlmanlara və şahidlər tuturaq söylənsin. Bu, yalnız Peyğəmbər (s) qızı ilə bağlı olan xüsusi bir hökmdür. Həmin hökm isə məsələ ilə əlaqəli şəxslərə məhdud bir çərçivədə söylənməklə hədəfinə çatacaqdı.

İbn Həcərin başqa bir yozumu

İbn Həcər bu hadisəni hədisin məzmununa əsaslanaraq başqa cür də yozmağa səy göstərmişdir. Deyir: *"Peyğəmbərin (s) Bəni-Əbdü Şəmsdən olan kürəkənini yad edərək: "Mənimlə söhbətində həmişə düz danışıb..."* sözü, sanki, Peyğəmbərin (s) qızı Zeynəbdən başqası ilə evlənməyəcəyinə dair üzərinə öhdəlik götürdüyündən xəbər verir. Eləcə də Əli bu öhdəliyi üzərinə götürmüş ola bilər. Əgər belədirsə, o zaman Əlinin həmin şərti unutduğunu düşünüb xütbə söyləyərək ona xatırlatmış olur. Yaxud da belə bir öhdəçiliyi olmayıb və şərt olaraq ifadə etməyib. Lakin onun bu həddi qoruması daha layiqli idi. Bu səbəbdən də, Peyğəmbər (s) tərəfindən danlağa məruz qaldı. Peyğəmbər (s) isə az halda bir kəsi birbaşa ittiham edərdi. Sanki, burada Əlini aşkar danlamaqla Fatimənin (ə) razılığının önəmini bildirmək istəyib. Bu hadisə Məkkənin fəthindən sonra baş vermişdi. Həmin vaxt Peyğəmbərin (s) ondan başqa qızı həyatda qalmamışdı. Anasından sonra bacılarını da itirmək ona təsir etmişdi. Bu hadisə isə onun hüznünü daha da artırmışdı".[715]

İbn Qeyyim şərtləşmə versiyasını seçib, bunun ürfən bir şərt olduğunu qeyd edib. Rəvayətdəki *"Mənimlə söhbətində həmişə düz danışıb"* sözünə əsaslanaraq,

[715] Fəthul-Bari, c. 7, s. 68-69

bir şəxsin zövcəsinə başqa bir qadınla evlənməyəcəyinə söz verdikdə buna vəfa etməsi lazımdır. Evləndiyi təqdirdə isə evliliyi ləğv etməkdə qadının haqqı var. Müxtəlif kəlmələrlə rəvayət edilmiş bu hədisi nəql etdikdən sonra deyir: "Bu hökm özündə bəzi məsələləri cəm edir. Onlardan biri: Əgər kişi öz həyat yoldaşı ilə başqa qadınla evlənməyəcəyi barədə şərt bağlasa, bu şərtinə əməl etməsi lazımdır. Evləndiyi təqdirdə isə qadın evliliyini ləğv edə bilər. Hədisdə bu məzmun belə ifadə olunur: Peyğəmbər (s) bu elçiliyin Fatiməni incidib kədərləndirdiyini xəbər verir. Həmçinin bunun Peyğəmbərin (s) özünü də üzüb kədərləndirdiyini bildirir.

Tam məlumdur ki, Peyğəmbər (s) Fatiməni (r) Əli ilə evləndirərkən qızını və atasını incidib kədərləndirməyəcəyini şərt kəsmişdi. Bu şərt əqdin şərtlərindən olmasa da, onun evliliyin şərtlərindən sayıldığı aydındır. Peyğəmbərin (s) həmin hadisə vaxtı digər kürəkənini yad edib tərifləməsi, sözlərinə sadiq və vəfalı olduğunu qeyd etməsi Əli üçün bir xatırlatma və onu nümunə götürməyə bir təşviqdir. Buradan da anlaşılır ki, onların arasında qızını incitməyəcəyi və kədərləndirməyəcəyi barədə bir vəd olub, digər kürəkəni bu vədə sadiq olduğu kimi onun da vədinə vəfa göstərməsini gözləyir. Buna əsasən, ürfü şərtləşmənin söz verərək şərt kəsmə kimi hökmə sahib olduğunu, bu şərtin pozulmasının aradakı razılığı da pozacağına səbəb ola biləcəyini görürük. Əgər fərz olunsa ki, qadınları evdən çıxarmamaq və ərlərinə belə bir imkan tanımamaq bir tayfanın arasında adət halını alıb və bu adətləri də davam edir, o zaman bu şərt qadını evdən çıxarmamaq barədə sözlə bağlanmış şərt kimidir. Belə bir şərtləşmə Mədinə əhlinin arasında da var idi. Əhməd də (r) bu qaydanı qeyd edib: "Ürfi şərt sözlü şərt kimidir. Buna əsasən, paltarı yumağın pulu paltarı yuyucuya verən şəxsin, yeməyi bişirənin pulu sifarişçinin, çörəkçinin pulu çörəyi alanın boynundadır. Halbuki onların arasında heç bir sözlü şərtləşmə yoxdur. Buna görə də, bir evin xanımın üzərinə ikinci xanımla evlənməmək bir tayfanın kişilərinin arasında adətdirsə və həmin adət də davam edirsə, bu zaman şərt sözlə

bağlanmış şərt kimidir. Həmçinin qadının şərəfi, məqamı və ehtiramına görə ikinci xanımla evliliyin tərk edilməsi adətdirsə, bu zaman da ikinci evliliyin olmayacağına söz verilmiş kimidir. Buna əsasən, aləm qadınlarının seyyidəsi və Adəm övladlarının ağasının qızı Fatimə belə bir ehtirama daha çox layiqdir. Əgər müvafiq şərt əqd əsnasında bağlansa, bu nikahın təməli deyil, onun təkidi olacaq. Əlinin Əbu Cəhlin qızı ilə evlənməkdən çəkindirilməsində də gözəl bir hikmət var. Belə ki, qadın öz həyat yoldaşının dərəcəsinə uyğun möhtərəmdir . Əgər hər ikisi də ali dərəcəyə sahib şəxslərdirsə, necə ki, bunu Fatimə (r) və Əlinin (r) timsalında görürük, o zaman Uca Allah Fatimə ilə Əbu Cəhlin qızını nə Fatiməyə tay və nə də Əli kimi bir həyat yoldaşına sahib olmaq kimi dərəcədə bərabər tutmaz. Onların arasında böyük fərq var. Əbu Cəhlin qızının Fatimənin (r) üzərinə ikinci xanım kimi gətirilməsi nə şəri və nə də ehtiram cəhətdən xoş sayıla bilməz”.[716]

Cavab

Bu cavabda qeyd edilənlər bir neçə səbəbdən batildir:

Birinci səbəb:

“(Bəni-Şəmsdən olan Əbülas ibn Rəbi), sanki, üzərinə Peyğəmbərin (s) qızı Zeynəbdən başqası ilə evlənməyəcəyinə dair öhdəlik götürdüyündən xəbər verir. Eləcə də Əli...” iddiası zənn və qeybdən xəbər verməkdir. “***Onların əksəriyyəti ancaq zənnə uyar, zənn isə əsla həqiqət ola bilməz. Allah nələr etməkdə olduğunuzu biləndir!”***[717]

İbn Qeyyimin bunun ürfü şərt olması, qadınları evdən çıxarmamaq və ərlərinə belə bir imkan tanımamaq adət halında olması və bu adətin davam etdiyi fərz olunsa, o zaman ürfü şərtin sözlə bağlanmış şərt kimi olduğuna dair sözlərinin

[716] Zadul-məad, İbn Qeyyim Cövziyə, c. 5, s. 107

[717] Yunus, 36

yanlışlığı gün kimi aydındır. Bu iddianın yanlışlığı ondadır ki, həmin dövrlərdə ümmətin arasında Peyğəmbərin (s) xanədanı belə bir xüsusiyyətlə seçilmirdi. Belə ki, Osman Peyğəmbərin (s) iki qızı ilə evləndiyi halda bir-birinin ardınca başqa qadınlarla da evlənmişdi. Peyğəmbərin (s) həmin qızları yaşca Fatimədən (ə) böyük idilər. Buna əsasən, Peyğəmbər (s) ailəsinin ümmətin arasında hörmət, ehtiram, şərəf və məziyyətlərinə baxmayaraq, belə bir xüsusiyyəti qeyd olunmamışdı.

İbn Qeyyimin qeyd etdiyi "qadının şərəfi, məqamı və ehtiramına görə ikinci xanımla evliliyin tərk edilməsi adətdirsə, bu zaman da ikinci evliliyin olmayacağına söz verilmiş kimidir. Buna əsasən, aləm qadınlarının seyyidəsi belə bir ehtirama daha çox layiqdir" – sözü İbn Həcərin yalnız Fatimənin (ə) belə bir xüsusiyyətə sahib olması fikrindən fərqlənmir.[718] Belə ki, Peyğəmbəri (s) qızları üzərinə başqa qadının alınmasının mümkünsüz olduğu kimi tanınmırdılar. Osman bir-birinin ardınca Peyğəmbərin (s) iki qızı ilə nikah bağlayır, onların da üzərinə ard-arda başqa qadınlarla evlənir. Bu isə onların həmin işə razılığını göstərir. İlahi, durub deməsinlər ki, bu da Osmana məxsus bir məziyyətdir, Peyğəmbərin (s) digər kürəkənlərindən fərqli olaraq onun başqa qadınla evlənmək haqqı var!

İkinci səbəb:

"Əgər belədirsə, o zaman Əlinin həmin şərti unutduğunu düşünüb ona xatırlatmış olur. Yaxud da belə bir öhdəçiliyi olmayıb və şərt olaraq ifadə etməyib. Lakin onun bu həddi qoruması daha layiqli idi" sözünün batilliyi açıq-aşkardır. Əgər İmam Əli (ə) bu şərti unutmuşsa, yaxud da şərt olaraq ifadə etməyib, lakin onun həddi qoruması daha yaxşı idisə, məlumdur ki, unutmuş şəxs günahkar sayılmaz. Ona unutduğunu bu şəkildə xatırlatmaq şəriətin ruhuna ziddir. Belə olduqda Peyğəmbər (s) İmamın (ə) belə sərt sözlərə və danlağa layiq

[718] Əvvəldə bu barədə İbn Həcərin fikrinə cavab verilmişdi.

olmadığını bilməli və ehtiramını qorumalı idi. Xüsusilə də, İbn Həcər bu kəlmələrdən sonra Peyğəmbərin (s) az halda bir kəsi birbaşa ittiham etdiyini söyləyir. Biz də bilirik ki, bir kəsi birbaşa ittiham etmək Peyğəmbərin (s) adətindən deyil. Çünki o, ***"əzəmətli əxlaq sahibidir".***[719]

Üçüncü səbəb:

"Sanki, burada Əlini aşkar danlamaqla Fatimənin (ə) razılığının önəmini bildirmək istəyib" sözləri puç iddiadır. Çünki bir şəxsin razılığını qazanmaq üçün başqa bir şəxsi icazəli və mübah əmələ görə danlamağa heç bir bəraət ola bilməz.

Hətta İmam Əlinin (ə) bu əməlinin haram olduğu fərz edilsə, onu belə şiddətli və sərt kəlmələrlə danlamamalı idi. Çünki bu əməl Uca Allahın buyruğuna zidd olardı: ***"Ey iman gətirənlər! Allah qarşısında (borcunuzu yerinə yetirməkdə) sabitqədəm və ədalətli şahidlər olun. Hər hansı bir camaata qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu, təqvaya daha yaxındır. Allahdan qorxun. Allah etdiklərinizdən xəbərdardır!"***[720]

Peyğəmbərə (s) nisbət verilən "*Əgər Əli ibn Əbu Talib istəyirsə, qızımla boşansın və onların qızı ilə evlənsin"* sözləri də hökmləri təbliğ etmək və icra etməklə mükəlləf olan risalət sahibinin üslubuna, həmçinin İslam və şəriətin ruhuna ziddir. Belə ki, Uca Allah boşanma qərarını kişinin öhdəsinə qoyub. Peyğəmbər (s) möminlərə canlarından üstün olsa da, bu şəkildə onlarla rəftardan münəzzəhdir. Onun gözəl rəftar və davranışları buna ən yaxşı dəlildir. Yoxsa Uca Allah ona ***"Sən, həqiqətən də əzəmətli əxlaq sahibisən"***[721] deyə xitab etməzdi.

Məgər Uca Allah Peyğəmbəri barədə bunları boşunamı söyləyib: ***"Sonra yaxınlaşdı və aşağı endi. (Aradakı məsafə) iki yay uzunluğunda, bəlkə, ondan da yaxın oldu".***[722]

---

[719] Qələm, 4
[720] Maidə, 8
[721] Qələm, 3
[722] Nəcm, 8-9

Dördüncü səbəb:

Deyir: "Həmin vaxt Peyğəmbərin (s) ondan başqa qızı həyatda qalmamışdı. Anasından sonra bacılarını da itirmək ona təsir etmişdi. Bu hadisə isə onun hüznünü daha da artırmışdı". Bu iddia da batildir. Çünki bir yaxına üz vermiş müsibət başqalarını haqsız yerə və sərt şəkildə danlamağa haqq qazandırmaz, Allahın kitabındakı hökmü təxirə salmaz. Belə ki, Uca Allah Qurani-Krimdə buyurur: ***"...Sizə halal olan (bəyəndiyiniz) başqa qadınlardan iki, üç və dörd nəfərlə nikah bağlayın!"***[723]

B. Əhli-Beytin (ə) yüksək məqamına zidd olması

Bu hadisə Uca Allahın bütün günahlardan pak etdiyi Əhli-Beytin (ə) ali məqamı, özündə İslamın ən yüksək nümunəsini ehtiva edən öz aralarındakı təbii əlaqələri ilə uyuşmayan tərzdə hekayə edilmişdir. Onlar sözləri, hərəkətləri və rəftarları ilə hər kəsə nümunə olan şəxslərdir. Belə ki, Peyğəmbərin (s) və Əhli-Beytinin ali məqamına bir təhqirdir ki, Peyğəmbər (s) ocağında və vəhy evində tərbiyə almış pak ruhlarını və ali şəxsiyyətlərini dəyərdən salır. Halbuki Uca Allah Əhli-Beytə (ə) bütün müsəlmanların barəsində həmfikir olduqları xüsusiyyətlər bəxş etmişdir. Onlardan bir neçəsinə nəzər salaq:

Ali Muhəmmədin (ə) bütün pisliklərdən uzaq olması

Uca Allah buyurur: ***"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"***[724]

Müslim "Səhih"də Aişəyə istinadən nəql edir: "Bir gün Peyğəmbər (s) səhər tezdən qara tüklərdən toxunmuş əba ilə çölə çıxdı. Həsən ibn Əli yanına gəldi. Peyğəmbər (s) onu əbası ilə örtdü. Ardınca Hüseyn, sonra Fatimə, sonra da Əli

---

[723] Nisa, 3

[724] Əhzab, 33

gəldi. Onları da əbasının altına aldı və buyurdu: ***"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"***[725]

Bu hədisi müxtəlif ravi yolları ilə Əhli-Sünnənin digər hədis imamları da nəql etmişlər. Onlardan bəzilərinin mənbələrini təqdim edirik:

Əhməd ibn Hənbəl "Müsnəd"də, Hakim "Müstədrək"də və Nəsai "əs-Sünənul-kubra"da İbn Abbasdan[726] nəql ediblər.

Tirmizi və Təbərani Ömər ibn Əbu Sələmədən nəql edir: ***"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür)çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"*** *ayəsi Ümmü Sələmənin evində Peyğəmbərə (s) nazil olduqda Fatiməni, Həsəni və Hüseyni çağırdı. Əli onun arxa tərəfində dayanmışdı. Onların hamısının üzərini öz əbası ilə örtüb buyurdu: "İlahi, bunlar mənim Əhli-Beytimdir. Onlardan hər cür pisliyi uzaqlaşdır və onları pak-pakizə qərar ver". Bu vaxt Ümmü Sələmə dedi: "Ya Peyğəmbər, mən də onlarlayam?" Buyurdu: "Sən durduğun yerdə dayan. Sən xeyir üzərindəsən".*[727]

Hakim Nişapuri "Müstədrək"də və Bəzzar Cəfər ibn Əbu Talibdən nəql ediblər.[728]

Təbərani isə "əl-Möcəmul-övsat"da Əbu Səid Xudridən rəvayət edib.[729]

İbn Əbu Şeybə bu rəvayəti özünün "əl-Müsənnəf", eləcə də Təbərani və Hakim öz kitablarında Ənəs ibn Malikə istinadən rəvayət ediblər. [730]

Əhməd ibn Hənbəl, Beyhəqi, Təbərani və Hakim həmçinin Ümmü Sələməyə istinadən nəql ediblər.[731]

---

[725] Səhih, Müslim, c. 4, s. 1883, hədis 2424, bölmə 9

[726] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 330-331; əl-Müstədrək ələs-səhiheyn, c. 3, s. 132-134; əs-Sünənul-kubra, Nəsai, c. 5, s. 113; Xəsaisu Əmiril-muminin, Nəsai, s. 62

[727] Sünən, Tirmizi, c. 5, s. 351, hədis 3205, bölmə 34; əl-Möcamul-kəbir, c. 9, s. 26

[728] Müsnəd, Bəzzar, c. 6, s. 210; əl-Müstədrək, Hakim Nişapuri, c. 3, s. 148

[729] əl-Möcəmus-səğir, Təbərani, c. 1, s. 135, əl-Möcəmul-övsat, c. 3, s. 380; c. 8, s. 112, əl-Möcəmul-kəbir, c. 3, s. 52, 56; c. 23, s. 249

[730] əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 7, s. 527; əl-Möcəmul-kəbir, c. 3, s. 56; Müstədrək, Hakim, c. 3, s. 158

Əhməd “Müsnəd”də, eləcə də İbn Əbu Şeybə, İbn Həbban, Təbərani və Hakim Vasilə ibn Əsqədən rəvayət ediblər.[732]

Və bunlardan əlavə başqa ravilərdən də nəql edilib.

Bu ayə Əhli-Beytin (ə) ən yüksək səviyyədə bütün pisliklərdən pak olduğunu aydın bəyan edir. Möminlərin əmiri (ə) ilə Fatimənin (ə) isə Əhli-Beytdən olduğu şübhəsizdir.

Burada Əhli-Beytin (ə) kimlərdən ibarət olduğu, ayənin Peyğəmbər (s) xanımlarına xitabdan sonra gəlməsi və s. bu kimi bəhsləri açmaq istəmirik. Çünki hədislər ayədəki əhli-beytdən məqsədin Peyğəmbər (s), Möminlərin əmiri Əli (ə), Fatimə (ə), Həsən (ə) və Hüseyn (ə) olduğunu aydın bəyan edir.

Heç bir başqa möminin özünə rəva görməyəcəyi, lakin bu saf şəxsiyyətlərə nisbət verilən bu elçilik hekayəsi həqiqətdə baş veribsə, o zaman ayənin də onlar barədə təsdiqlədiyi paklıq necə olsun?!

Bu ayənin onların günahlardan qorunduğuna və məsumluğuna dəlalət etdiyini xatırlatmadan keçə bilmirik. Ayə üzərində obyektiv araşdırma aparan şəxs açıq şəkildə Əhli-Beytin (ə) məsumluğuna dəlalət etdiyini görəcək. Belə ki, ayədəki “İnnəma” (fəqət) ədatı həsr və məhdudlaşdırmaya dəlaəlt edir. Ədatın ayənin başlanğıcında gəlməsi də piçliklərin uzaqlaşdırılması və paklanmanın iradə olunduğunu bildirir. “Əhli-beyt” kəlməsi istər sadəcə xüsusiləşdirmə, istər mədh, istər nida olsun, pisliklərdən uzaqlaşdırmanın yalnız həmin xitab olunan şəxslərə aid edildiyini göstərir.

Buna əsasən ayədə iki xüsusiləşdirmə və aid etmə var. Bunlardan biri pisliklərdən uzaqlaşdırma və paklanma, digəri isə bu uzaqlaşdırma və paklanmanın yalnız Əhli-Beytə (ə) aid edilməsidir.

---

[731] Müsnəd, Əhəməd ibn Hənbəl, c. 6, s. 292; əl-Möcəmul-övsat, Təbərani, c. 4, s. 134; əl-Möcəmul-kəbir, c. 3, s. 52, 54; c. 23, s. 286, 327, 333, 337, 357; Müstədrək, Hakim, c. 2, s. 416; c. 3, s. 146. əs-Sünənul-Kubra, Beyhəqi, c. 2, s. 150

[732] Müsnəd, Əhməd ibn Hənbəl, c. 4, s. 107; əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 7, s. 501; Səhih, İbn Həbban, c. 15, s. 432; əl-Möcamul-kəbir, c. 3, s. 55-56; əl-Müstədrək, Hakim, c. 2, s. 416

Pislik – çirk və ləkə mənasında bir sifətdir, çəkinilməsi və nifrət edilməsi vacib olan bir şeyi ifadə edir. Bəzən, (məsələn, donuz kimi) bir şeyin zahiri nəcisliyinə, bəzən də batini cəhətdən (şirk, küfr, pis əməl kimi) mənəvi pislik və çirkinliyə dəlalət edir. Bunlardan hansı olursa-olsun, nəticədə qəlbin batil və ya pis əməllə bağlılığının təsiridir.

Pisliyin uzaqlaşdırılması dedikdə, məqsəd insanı haqq etiqad və əməldə xətaya sövq edəcək nəfsdəki bütün xəbis və çirkin xüsusiyyətlərin aradan aparılmasıdır. Bu da insanı batil etiqadlardan və pis əməllərdən qoruyacaq ilahi ismətin nəfsdəki əməli surətidir.

Pisliklərin uzaqlaşdırılmasında məqsədin təqva olması ayədə Əhli-Beytə xüsusi olaraq edilən xitabla uyğun gəlmir. Necə ki, şəri təkliflərdə təkid edilməsi Peyğəmbərin (s) məqamı ilə əsla uzlaşmaz.

Əgər ayədə pisliklərdən uzaqlaşdırma dedikdə məqsədin sadəcə qadağalardan çəkinmək və vacibləri yerinə yetirməklə paklanma və dində təqva olduğu deyilsə, o zaman Uca Allahın xüsusən Əhli-Beytə müraciət etməsinin heç bir mənası qalmır. Çünki buradakı paklanma istəyi və pisliklərdən uzaqlaşdırma Uca Allahın digər bir ayəsindəki ümumi iradədən heç nə ilə fərqlənməyəcək. Bu cəhətdən də ümumi ayənin xüsusiləşməsi heç bir fayda verməyəcək. Uca Allah buyurur: ***"Allah sizi çətinliyə salmaq istəməz, lakin O sizi pak, təmiz etmək və sizə olan nemətini tamamlamaq (artırmaq) istər..!"***[733]

Bu Əhli-Beytin ifadə etdiyi mənalarla heç bir cəhətdən uzlaşmır. Çünki "Əhli-Beyt" məfhumunun xüsusiləşdirilməsinə zidd olur. Halbuki yuxarıdakı ayədə xitab dinin hökmlərinə mükəlləf olan bütün müsəlmanlaradır.

Əgər deyilsə ki, ayədə pisliklərin uzaqlaşdırılmasında məqsəd təkidli və ali dərəcəli təqvadır, o zaman məna belə olur: şəri təkliflərdə onlara yönəlmiş bu təkid, savab və cəzalarının ikiqat olması Uca Allahın faydalanması üçün deyil, onların paklaşdırılması və pisliklərdən uzaqlaşdırılması üçündür.

---

[733] Maidə, 6

Bu sözlər Peyğəmbərin (s) Allah tərəfindən məsum edildiyi ilə fikri ilə uzlaşmır. Halbuki bu məsumluq əməllə qazanılmayıb, ona Allah tərəfindən bəxş edilib. Bu baxımdan təkliflərdə təkid göstərmək, Peyğəmbəri (s) ikiqat cəza ilə qorxutmaq ona bəxş edilmiş bu məsumluğun müqəddiməsi və ya səbəbi kimi ola bilməz.

Bu səbəbdən də, ayədə pisliklərin uzaqlaşdırılması ismətə əsaslanır. Burada günahlardan paklanma da Allahın mütləq iradəsidir. Məsumluq bütün təkliflərin təkidli şəkildə icrasından asılı olan məsələ deyil. Əksinə, Əhli-Beytdən pisliklərin uzaqlaşdırılması və paklandırılması məxsusi olaraq onların Əhli-Beyt olmasına görədir.

Bəzi Əhli-Sünnə təfsirçilərinin sözləri də bu mənaya işarə edir. Razi deyir: ***"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"*** – pak etmək onların günahsız qərar verilməsidir".[734]

Başqa bir yerdə deyir: "Uca Allah Əhli-Beyt barədə buyurur: ***"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"*** Bu paklanma günah və məsiyətlərdən pak edilmələridir".[735]

Bu təsdiqləyən amil ayədəki "pislik" sözüdür ki, Qurani-Kərimdə üç müxtəlif yerdə də qeyd olunub: ***"Allah kimi düz yola yönəltmək istəsə, onun köksünü (qəlbini) İslam (dini) üçün açıb genişləndirər, kimi azdırmaq istəsə, onun köksünü (ürəyini) daraldıb sıxıntıya salar. O, sanki, (sıxıntının şiddətindən) göyə çıxar. Allah <u>iman gətirməyənlərə pisliyi</u> belə edər!"***[736]; ***"Heç kəs Allahın izni olmadan iman gətirə bilməz (buna görə də əbəs yerə özünü yorma). Allah <u>anlamayanları pisliyə belə</u> düçar edər";***[737] ***"Budur. Və kim (ihramda ikən)***

---

[734] Təfsir, Razi, c. 11, s. 177

[735] Təfsir, Razi, c. 16, s. 25

[736] Ənam, 125

[737] Yunus, 100

Allahın haram buyurduqlarına hörmət (riayət) etsə, bu, Rəbbi yanında onun üçün xeyirli olar. Sizə deyilənlərdən başqa, qalan heyvanlar (onların ətini yemək) sizə halal edilmişdir. Belə olduğu təqdirdə, pislik olan bütlərdən və yalan sözlərdən də (Allaha şərik qoşmaqdan da) çəkinin".[738]

Bu ayələrli "Əhzab" surəsinin 33-cü ayəsi ilə birləşdirdikdə anlayırıq ki, ayədə işarə edilən Əhli-Beytə Uca Allah iman həqiqəti, ağıl kamilliyi və bütlərdən çəkinməyi bəxş edib. Onlardan bu işlər zahir olmaz. Lakin bu xüsusiyyətlər bir çox möminlərdə mövcuddur. Halbuki "Təthir" ayəsi onlara bu xüsusiyyətlərin Uca Allah tərəfindən bəxş və ehsan edildiyini bildirir.

Ali-Muhmmədə salavat deyilməsi

Uca Allah buyurur: ***"Həqiqətən, Allah və Onun mələkləri Peyğəmbərə salavat deyirlər. Ey iman gətirənlər! Siz də ona salavat deyib layiqincə salamlayın! (Allahummə səlli əla Muhəmmədin və ali Muhəmməd)".***[739]

Buxari "Səhih"də Kəb ibn Əczəyə istinadən yazır: *"Peyğəmbərə (s) deyildi: "Ey Allahın elçisi, sənə necə salam verməyi bilirik. Bəs salavatı necə söyləyək?" Buyurdu: "Deyin: "İlahi, İbrahimə salavat göndərdiyin kimi Muhəmmədə və ailəsinə salavat göndər. Həqiqətən sən tərifənib şükür olunmağa, öyülüb mədh edilməyə layiqsən! İlahi, İbrahimi mübarək etdiyin kimi Muhəmmədi və ailəsini də mübarək qərar ver. Həqiqətən sən tərifənib şükür olunmağa, öyülüb mədh edilməyə layiqsən!"*[740]

Bunu həmçinin Müslim də "Səhih"ində Əczədən nəql edib.[741]

Eləcə də Buxari Əbu Səid Xudridən,[742] həmçinin Əbu Hümeyd Saididən də nəql edib.[743]

---

[738] Həcc, 30

[739] Əhzab, 56

[740] Səhih, Buxari, c. 4, s. 1802, hədis 4519, bölmə 282; c. 4, s. 1233, hədis 3190, bölmə 12; c. 5, s. 2338, hədis 5996, bölmə 31

[741] Səhih, Müslim, c. 1, s. 305,hədis 406, bölmə 17

[742] Səhih, Buxari, c. 5, s. 2339, hədis 5999, bölmə 32

[743] Səhih, Buxari, c. 4, s. 1802, hədis 4520, bölmə 282; c. 5, s. 2339, hədis 5997, bölmə 31

Müslim də Əbu Hümeyddən,[744] Əbu Məsud Ənsaridən[745] rəvayət etmişdir.

Bu çoxsaylı səhih hədislər Peyğəmbərə (s) söylənən salavatın ayədəki tərtib əsaslandığını göstərir və Peyğəmbərin (s) ardınca salavatda ailəsi də yad edilir.

Bunu Əhməd ibn Hənbəlin və digərlərinin Şəhr ibn Hovşəbdən, onun da Ümmü Sələmədən nəql etdikləri rəvayət də təsdiqləyir. *"Peyğəmbər (s) Fatiməyə dedi: "Həyat yoldaşın v övladlarnla bərabər yanıma gəl". Fatimə onlarla birlikdə gəldi. Onların üzərinə Fədək əbasını örtdü, əlini onların üzərinə qoyub buyurdu: "İlahi, həqiqətən bunlar Muhəmmədin ailəsidir. Öz salavat və bərəkətini Muhəmməd və Ali Muhəmməd üzərində qərar ver. Həqiqətən sən tərifənib şükür olunmağa, öyülüb mədh edilməyə layiqsən!". Ümmü Sələmə deyir: "Mən də onlarla birlikdə əbanın altına daxil olmaq üçün onun kənarından tutub qaldırdım. Peyğəmbər (s) onu əlimdən özünə tərəf çəkib buyurdu: "Sən xeyir üzərindəsən".*[746]

Uca Haqq-taalanın və mələklərinin salavat və salam göndərdiyi belə pak şəxsiyyətlər barəsində ləkə sayılacaq "elçilik" hekayəsi necə düşünülə və iddia edilə bilər?!

Muhəmmədin ailəsi Allahın kitabına bərabər şəxslərdir

Peyğəmbərin (s) öz Əhli-Beyti (ə) haqqında çox sayda hədislər söylədiyinə müsəlmanlar həmfikirdirlər. Bu hədislər onların ali məqamlarına, yüksək dərəcələrinə və ümmətin hidayətindəki mövqelərinə aydın dəlalət edir. Bunlarda biri "Səqaleyn" hədisidir. Müslim öz "Səhih"ində Zeyd ibn Ərqəmdən nəql edir: *"Bir gün Peyğəmbər (s) Məkkə ilə Mədinənin arasında yerləşən, Xumm deyilən yerdə qalxıb aramızda dayanaraq xütbə söylədi. Allaha həmd-səna söyləyib, moizə etməyə başladı. Sonra buyurdu: "Ey camaat, mən də bir bəşərəm, Rəbbimin elçisinin gələcəyi və mənim də müsbət cavab verəcəyim gün yaxındadır. Sizin aranızda iki*

---

[744] Səhih, Müslim, c. 1, s. 306, hədis 407, bölmə 17

[745] Səhih, Müslim, c. 1, s. 305, hədis 405, bölmə 17

[746] Müsnəd, Əhməd ibn Hənbəl, c. 6, s. 323, hədis 26789; Müsnəd, Əbu Yəla Mosuli, c. 12, s. 456; əl-Möcamul-kəbir, c. 3, s. 53

ağır əmanət qoyuram: onlardan birincisi Allahın kitabıdır. Orada hidayət və nur var. Allahın kitabını götürüb ona möhkəm sarılın".

Sonra insanları Allahın kitabına rəğbətləndirərək təşviq etdi. Ardınca dedi: "Və Əhli-Beytim! Əhli-Beytim haqqında sizi Allaha tapşırıram, Əhli-Beytim haqqında sizi Allaha tapşırıram, Əhli-Beytim haqqında sizi Allaha tapşırıram!"[747]

Tirmizi də "Sünən"ində bunu qeyd edib: *"Peyğəmbər (s) buyurdu: "Mən sizin aranızda əmanət qoyuram. Əgər ondan yapışsanız məndən sonra azmayacaqsınız. Onlardan biri digərindən əzəmətlidir. Allahın kitabı – səmadan yerə uzanmış bir kəndirdir. Və itrətim olan Əhli-Beytim. Onlar Hovuzun başında yanıma varid olanadək əsla bir-birlərindən ayrılmazlar. Məndən sonra onlarla necə rəftar edəcəyinizə diqqət yetirin!"*[748]

Hakim Nişapuri isə "Müstədrək"də nəql edir: *"Mən sizin aranızda iki ağır əmanət qoyuram: Allahın kitabı və Əhli-Beytim. Onlar Hovuz başında yanıma daxil olanadək bir-birindən ayrılmazlar".* Hakim deyir: "Bu, Buxari və Müslimin şərtinə əsasən sənədi səhih hədisdir, lakin onlar öz kitablarında qeyd etməyiblər".[749]

Zəhəbi bunun ardınca deyir: "Buxari və Müslimin şərtlərinə əsasəndir".[750] Bu söz onların şərtlərinə uyğunluğu ifadə edir.

Hədisi çoxlu rəvayət yolları mövcuddur. Tirmizi bu barədə deyir: "Bu mövzuda Əbu Zərdən, Əbu Səiddən, Zeyd ibn Ərqəmdən və Hüzeyfə ibn Üseyddən nəql olunub".[751]

Deyilir ki, hər bir şeyin özü görə əhəmiyyəti, ali dəyəri və ağırlığı var. Peyğəmbər (s) öz Əhli-Beytini Quranla bərabər tutaraq hər ikisini birlikdə ağır əmanət adlandırmışdır. Səbəb isə hər iki əmanət əzəmətli məqamı və yüksək şənə malik olmasıdır. Çünki bunlara sarılıb əməl etmək məsuliyyətli və

---

[747] Səhih, Müslim, c. 4, s. 1873, hədis 2408, bölmə 4

[748] Sünən, Tirmizi, c. 5, s. 329

[749] Müstədrək, Hakim, c. 3, s. 160, hədis 4711

[750] Müstədrək, Hakim, c. 3, s. 160, hədis 4711, "Təliqatuz-Zəhəbi fit-təlxis" kitabı ilə birgə

[751] Sünən, Tirmizi, c. 5, s. 328

əhəmiyyətli işdir. Nəvəvi deyir: "Alimlər deyirlər ki, onların "iki ağır əmanət" adlandırılması sahib olduqları əzəmətə və yüksək məqama görədir. Onları əməl etməyin ağırlığı və məsuliyyəti cəhətindən belə adlandırıldığı da deyilib".[752]

Pak itrətin Qurani-Kərimlə birlikdə qeyd edilməsinin sirri budur ki, Allahın kitabında hidayət və nur var. Ona sarılıb möhkəm yapışmaq vacibdir. Bu isə yalnız pak itrətin vasitəsilə mümkündür. Çünki onun bütün məzmununu idrak edən yalnız Əhli-Beytdir. Uca Allah Qurani-Kərimdə buyurur: ***"Bu, (Allah tərəfindən nazil edilməsinə, haqdan gəlməsinə) heç bir şəkk-şübhə olmayan, müttəqilərə (Allahdan qorxanlara, pis əməllərdən çəkinənlərə) doğru yol göstərən Kitabdır".***[753] Quranın hidayət və nur olmasında şəkk yoxdur. Lakin hər kəs üçün deyil, yalnız müttəqilər (təqvalılar) və itrətdən möhkəm yapışanlar üçün.

Mübarəkpuri yazır: "ət-Tayyibi deyir: "Bəlkə də, bu vəsiyyətin və Quranın itrətlə bərabər zikr edilməsinin sirri onların məhəbbətinin vacib buyurulması ilə analşılır: ***"De: "Mən sizdən bunun (risaləti təbliğ etməyimin) müqabilində qohumlara məhəbbətdən (əhli-beytə sevgidən) başqa bir şey istəmirəm".***[754] Uca Allah nemət və ehsanlarının şükrünü Quranın vasitəsilə yalnız onların məhəbbəti olduğunu bildirir. Sanki, Peyğəmbər (s) də bu vəsiyyəti ilə ümmətə şükrü yerinə yetirməyi tövsiyə edir... onları küfrdən çəkindirir. Kim bir-birindən ayrılmayan, Qiyamət günü və məhşərdə də Hovuz başına çatanadək birlikdə olacaq bu ehsan və nemətlərə şükrü yerinə yetirsə, onlar da Peyğəmbər (s) yanında bu xeyirxah əməlinə görə ona təşəkkür edər, Peyğəmbər (s) şəxsən özü onu mükafatlandırar, Uca Allah da onu geniş əcr bəxş edər. Lakin vəsiyyəti pozan və nümətə küfr edən şəxsin hökmü bunun əksidir. Buna əsasən, Peyğəmbərin (s)

---

752 Şərhu Müslim, Nəvəvi, c. 15, s. 180

753 Bəqərə, 2

754 Şura, 23

"Məndən sonra onlarla necə rəftar edəcəyinizə diqqət yetirin!" sözünün mənası anlaşılır. Yəni baxın, görün ki, doğrunun yoxsa pisin arxasınca gedirsiniz?!"[755]

Allahın kitabı ilə birlikdə zikr olunan, bu əxlaq və keyfiyyətlərə sahib insanlarla "elçilik" hekayəsi necə uzlaşa bilər?!

Nəticə

Bu ayələrə, Ali Muhəmməd barədə söylənmiş təqdim etdiyimiz və etmədiyimiz bir çox hədislərin müsəlmanların arasında böyük əhəmiyyəti var. Bu ayə və hədislər onlar üçün heç kəsin ortaq olmayacağı üstün xüsusiyyətləri isbat edir. Həmin xüsusiyyətlər isə onların yalnız şəxsiyyətləri və əzəmətli məqamları ilə məhdudlaşmır. Allahın onlar üçün dində xüsusi qərar verdiyi məxluqları hidayət etmək məqamını da ifadə edir. Bunu Peyğəmbər (s) öz ümmətinə ən aydın kəlmələrlə bəyan etmişdir. Ümmətin vəzifəsi isə bu nurdan iqtibas götürmək və hidayətlərinə tabe olmaqdır ki, nəticədə Allahın ən böyük rizvanına nail olsunlar və Allaha yaxınlığın ən ali dərəcəsinə çatsınlar.

Bu keyfiyyət, fəzilət və üstünlüklərə onlar boşu-boşuna nail olmayıblar. Onlar buna layiq olduqlarına və haqları çatdığına görə Allaha yaxınlıq məqamına sahib olublar.

Əbu Cəhlin qızının elçilik hekayəsi Əhli-Beytin (ə) bu uca məqamı ilə əsla uzlaşmır, onların aralarındakı münasibət mühiti ilə uyuşmur, onları təhqir edir və pak ruhlarının sahib olduğu ali şəxsiyyət məqamından aşağıda tutur.

C. Zəhranın (ə) mənəvi məqamına uyğun olmaması

"Elçilik" hekayəsi Fatimənin (ə) mənəvi məqamına da ləkə salır. Bir çox səhih hədislər onun mənəvi fəzilət və məqamını açıq ifadə edir. Belə ki, Fatimə (ə) əvvəldə də təqdim etdiyimiz Əhli-Beyt (ə) barədə nazil olmuş ayələrin və söylənmiş hədislərin hökmünə ortaqdır. Qeyd edildiyi kimi, o, Peyğəmbərin (s)

[755] Tuhfətul-əhvəzi, c. 10, s. 197

canının bir parçasıdır, Cənnət qadınlarının seyyidəsidir. Buxari "Səhih"də Aişədən rəvayət edir ki, Fatimə (ə) Peyğəmbərin (s) ona belə söylədiyini xəbər verib: *"(Ey Fatimə,) məgər Cənnət qadınlarının və ya mömin qadınların seyyidəsi olmaqdan razı deyilsən?"*[756]

Həmçinin Aişədən başqa bir kəlmələrlə də nəql edib: *"Ey Fatimə, məgər mömin qadınların və ya bu ümmətin qadınlarının seyyidəsi olmaqdan razı deyilsən?"*[757]

Eyni kəlmələrlə Müslim öz "Səhih"ində bu rəvayətə yer verib.[758]

Tirmizi "Sünən"də Hüzeyfəyə istinadla nəql etdiyi rəvayətdə Peyğəmbərin (s) belə buyurduğunu yazır: *"Bu bir mələkdir ki, bu gecədən öncə əsla yer üzünə enməmişdi. Rəbbindən izn alaraq məni salamlamaq və Fatimənin Cənnət qadınlarının seyyidəsi, Həsən və Hüseynin isə Cənnət gənclərinin ağaları olduğunu müjdə vermək üçün yanıma gəlmişdir".*[759]

Hakim "Müstədrək"də Aişənin belə söylədiyini nəql edir: *"Danışıq və söhbətində Peyğəmbərə (s) Fatimədən çox bənzəyən bir şəxs görmədim. Onun yanına gəldikdə Peyğəmbər (s) ayağa qalxar, öpər, onu salamlayar, əlindən tutub öz yerində əyləşdirərdi. Peyğəmbər (s) onun otağına daxil olduqda isə onu qarşılamaq üçün qarşısında dayanar və əlini öpərdi".*[760] Ardınca Hakim deyir: "Bu Buxari və Müslimin şərtinə əsasən səhih hədisdir, lakin kitablarında bunu qeyd etməyiblər".[761]

Həmçinin "Müstədrək"də Aişəyə istinadən onun hər vaxt Fatiməni xatırladıqda belə söylədiyini nəql edir: *"Ondan daha doğru ləhcədə danışan bir şəxsi görmədim. Atası da belə idi".*[762] Hakim deyir: "Bu, Müslimin şərtinə əsasən

---

[756] Səhih, Buxari, c. 3, s. 1326, hədis 3426, bölmə 22
[757] Səhih, Buxari, c. 5, s. 2317, hədis 5928, bölmə 43
[758] Səhih, Müslim, c. 4, s. 1904, hədis 2450, bölmə 15
[759] Sünən, Tirmizi, c. 5, s. 660, hədis 3781, bölmə 31
[760] Müstədrək, Hakim, c. 3, s. 160
[761] Müstədrək, Hakim, c. 3, s. 160
[762] Müstədrək, Hakim, c. 3, s. 160-161

səhih hədisdir, lakin nə Buxari və nə də Müslim bunu kitablarında qeyd etməyiblər".[763] Zəhəbi də "Təlxis"də onunla razılaşıb.[764]

İbn Həcər Sübki Kəbirdən nəql edir: "Aişənin sayılmayacaq qədər fəzilətləri var. Lakin bizim üstün bildiyimiz və Allahın dinində etiqab bəslədiyimiz budur ki, Fatimə Xədicədən də, Aişədən də əfzəldir".[765]

Mənavi Sübkinin yuxarıdakı sözündən sonra yazır: "Şihabuddin ibn Həcər deyir: "əs-Sübkinin söylədiyi sözlərinin aydınlığına görə mühəqqiqlər də onun fikrini dəstəkləmişlər... Hədislərdən onun bacılarından da əfzəl olduğu anlaşılır. Belə ki, o, xüsusi olaraq Peyğəmbərin (s) canının bir parçasıdır".[766]

Zəhəbi Fatimənin (ə) tərcümeyi-halında yazır: "Onun məşhur üstünlükləri var... Misvərdən səhih sənədlə Peyğəmbərin (s) belə buyurduğu nəql edilir: *"Fatimə mənim bir parçamdır, onu narahat edən və incidən şey məni də narahat edər və incidər".* Fatimə, əri və övladları barəsində ***"Ey əhli-beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"*** ayəsi nazil olub. Peyğəmbər (s) bu zamn onların üzərinə əbasını örtərək "İlahi, bunlar mənim əhli-beytimdir" deyə buyurmuşdur. Tirmizi Aişənin hədisində ondan belə soruşulduğunu nəql edir: "Peyğəmbər (s) üçün ən sevimli şəxs kim idi?" Dedi: "Qadınlardan Fatimə, kişilərdən isə onun əri idi..." Tirmizi Zeyd ibn Ərqəmdən rəvayət edir ki, Peyğəmbər (s) Fatiməyə, Əliyə və onların iki övladına dedi: *"Mən sizinlə savaşanlarla savaşda, sülhdə olanlarla sülhdəyəm".* Peyğəmbər (s) sonuncu xəstəliyi zaman ona (Fatiməyə) ümmətin qadınlarının seyyidəsi olduğunu xəbər vermişdi".[767]

---

[763] Müstədrək, Hakim, c. 3, s. 161

[764] Müstədrək, Hakim, c. 3, s. 175, "Təliqatuz-Zəhəbi fit-təlxis" kitabı ilə birgə.

[765] Fəthul-Bari, İbn Həcər, c. 7, s. 105; Mənavi, Feyzul-qədir, c. 4, s. 555; Təfsir, Alusi, c. 3, s. 156; İbn Diməşqi Şafei, Cəvahirul-mətalib, c. 1, s. 153

[766] Feyzul-qədir, c. 4, s. 555

[767] Tarixul-İslam, Zəhəbi, c. 3, s. 45

Mizzi isə Fatimənin (ə) tərcümeyi-halında bəzi fəzilətlərini qeyd etdikdən sonra yazır: "Onun üstün əməl və fəzilətləri olduqca çoxdur. Allah ondan razı olsun və onu razı salsın".[768]

Yekun: "Elçilik" hekayəsi Fatimənin (ə) mənəvi məqamı ilə uyğun gəlmir.

D. "Elçilik" hekayəsi şəriətin çoxevlilik hikməti ilə ziddiyyət təşkil edir

"Elçilik" hekayəsi çoxevliliyin icazəli olmasının hikməti ilə ziddiyyət təşkil edir. Kişi birdən artıq qadınla evlənə bilər. Şübhə yoxdur ki, çoxevlilik məsələsi, xüsusilə, qadınlar tərəfindən çətin qəbul olunan məsələdir. Öz razılığı ilə bunu qəbul edəcək qadın tapmaq müşküldür. Sanki, o bu məsələdə məğlub kimidir, bu cür evliliyi yalnız şəriətə itaət və İslam dininə olan imanına görə qəbul edir.

Peyğəmbər (s) belə çətin qəbul edilən hökmlərini başqalarından öncə özü əməli şəkildə icra etməklə təbliğ edirdi ki, başqalarının nəfslərində buna qarşı olan tərəddüdləri aradan qaldırsın. Şübhəsiz ki, Peyğəmbərin (s) feli hər hansı bir hökmü qəbul etməkdə tərəddüdə yol açan maneələri aradan qaldırırdı. Məsələn, oğulluğu olan Zeydin zövcəsi ilə evlənməsi kimi. Allah Peyğəmbərə (s) onunla evlənməyi vacib buyurdu ki, möminlər öz oğulluqlarının boşadıqları zövcələri ilə evlənməyə çəkinməsinlər. Peyğəmbər (s) bu hökmü camaatın pis qarşılayacağı qorxusundan bir müddət özündə gizləmişdi. Lakin Uca Allah onu xəbərdar edərək buyurdu: ***"(Ya Peyğəmbər!) Xatırla ki, bir zaman Allahın (İslam dininə yönəltməklə) nemət verdiyi və sənin özünün (köləlikdən azad etməklə) nemət verdiyin şəxsə (Zeyd ibn Harisəyə): "Zövcəni (Zeynəb bint Cəhşi) saxla (boşama), Allahdan qorx!" -deyir, Allahın aşkar etdiyi şeyi (Zeynəbin boşanacağı təqdirdə onu almağın haqda sənə nazil olan vəhyi) ürəyində gizli saxlayır və adamlardan (onların Peyğəmbər oğulluğunun boşadığı övrətlə evlənir, – deyəcəklərindən) qorxurdun. Halbuki əslində sənin qorxmağına daha çox layiq olan kimsə Allahdır. Zeyd zövcəsi ilə əlaqəsini kəsdikdə***

[768] Təhzibul-kəmal, Mizzi, c. 35, s. 251

(Zeynəbi boşadıqda) səni onunla evləndirdik ki, oğulluqları övrətlərini boşadıqları zaman onlarla evlənməkdə möminlərə heç bir çətinlik (günah) olmasın! (Bu işdən möminlərə heç bir günah gəlmədiyini bildirmək üçün belə bir övrətlə birinci səni evləndirib bütün müsəlmanlara nümunə etdik). Allahın hökmü mütləq yerinə yetər!"[769]

Əgər Peyğəmbər (s) və qadınların seyyidəsi olan qızı aydın hökmün qarşısında belə rəftar edirdilərsə (Allaha sığınırıq!) başqa gəlinlərin ataları çoxarvadlığı necə qəbul edərdilər?! Və ya bu hadisədən sonra hansı qadın üzərinə ikinci arvadın alınmasına razı olardı?!

E. Peyğəmbər (s) Əbülası tərifləyib Möminlərin əmiri Əlini (ə) pisləyir?!

"Peyğəmbərin (s) Bəni-Əbdü Şəmsdən olan kürəkənini yad edərək xoş sözlərlə tərifladiyini və belə buyurduğunu eşitdim: "Mənimlə söhbətində həmişə düz danışıb, vədinə vəfalı olub".[770] Misvər bu sözləri Peyğəmbərin (s) Əbülası tərfilədiyinə dəlalət edir. Bu cümlələr onun Peyğəmbərlə (s) söhbətində həmişə düzdanışan olduğunu və verdiyi vədinə sadiq qaldığını bildirir. Rəvayətdəki bu kəlmələr isə Peyğəmbərin (s) dilindən Möminlərin əmiri Əliyə (ə) etiraz olaraq səslənir. Belə ki, o, Əbülas kimi olmayıb, Peyğəmbərlə (s) söhbətində düz danışmayıb və vədinə vəfa etməyib!

Bu isə insanda suallar yaradır: Peyğəmbər (s) Əbülas ibn Rəbini necə tərifləyə bilər?! Halbuki o, Hüdeybiyyə sülhünədək müşrik olaraq qalmış, müşriklərlə müharibələrdə iki dəfə əsir düşmüşdü. Peyğəmbərin (s) qızı olan zövcəsi ilə onun arasında İslam ayrılıq salmış, xanım müsəlman olduğu üçün hicrət etdikdə onu

---

769 Əhzab, 37

770 Səhih, Buxari, c. 3, s. 1364, hədis 3523, bölmə 16. "Peyğəmbərin (s) kürəkənləri"; Səhih, Buxari, c. 3, s. 1132, hədis 2943, bölmə 5; Səhih, Müslim, c. 4, s. 1902, hədis 2449, rəqəm 95, bölmə 15

müşrikliyinə görə tərk etmişdi. İslamı qəbul etdikdən sonra da tarix onun heç bir üstünlük və ya xidmətini qeyd etməyib![771]

Belə bir adam Möminlərin əmiri Əli (ə) ilə necə müqayisə oluna bilər? Halbuki İmam Əli (ə) İslamı ilk qəbul edən və iman gətirən, iştirak etdiyi bütün savaşlarda ön cərgədə olan, İslamın yardımçısıdır. Quran onun paklığına, məsumluğuna "Təthir" ayəsi ilə şəhadət edir. "Mübahələ" ayəsində isə onu Peyğəmbərin (s) "özü" olaraq zikr edir. Peyğəmbər də (s) "Bayraq" hədisi ilə Allahın və rəsulunun onu sevdiyinə, onun da Allahı və rəsulunu sevdiyinə şəhadət verib. Peyğəmbər (s) həmçinin onun barəsində buyurub: *"O, məndən sonra hər bir möminin vəlisidir"; "Mən kimin mövlası idimsə, bu Əli də onun mövlasıdır".* Kitab və sünnədə Əli (ə) barədə nəql olunmuş bir çox başqa hədislər...

Rəvayətdəki *"Mənimlə söhbətində həmişə düz danışıb, vədinə vəfalı olub"* sözləri onun yalan olduğuna hökm çıxarmaq üçün yetərlidir. Qeyd edək ki, rəvayətin ravisi Misvər Əməvi dövlət şəxslərindəndir. Burada öz rüsvayçı həyat seyrinə rəğmən, sözü doğru qəbul edilərək rəvayəti təriflənən kəs Əməvi şəxsiyyətlərindən biridir, məzəmmət olunan isə öz şərəfli həyat seyri, sözləri və əməlləri, zahiri və batini ilə İslama cisim və ruh bəxş etmiş Möminlərin əmiri Əlidir (ə). Onun mübarək həyat yolunda heç bir nöqsan yoxdur. Bəni-Üməyyənin bu böyük İslam şəxsiyyətinə qarşı nifrəti isə məlumdur.

F. İmam Əlinin (ə) Fatiməyə (ə) qarşı diqqətsizliyi necə düşünülə bilər?!

Yalnız Əhli-Sünnə kitablarından (şiə hədis mənbələrində Xanımın (ə) fəzilətlərinə dair nəql olunan rəvayətləri nəzərə almasaq belə) nəql etdiyimiz rəvayətlərin də qeyd etdiyi kimi, Allah və Peyğəmbəri (s) yanında əzəmətli və möhtərəm məqama sahib olan belə bir qadını Möminlərin əmiri Əli (ə) kimi şəxsin incidəcəyi, etinasızlıq göstərəcəyi və onu narahat etməyi özünə rəva

[771] Bax: Siyəru əlamin-nübəla, Zəhəbi, c. 2, s. 246 – 150, Peyğəmbərin qızı Zeynəbin tərcümeyi-halı; Tarixul-İslam, c. 2, s. 68-69

biləcəyi necə düşünülə bilər? Halbuki o, Xanımın (ə) məqamını gözəl anlayırdı. Həmçinin ərəb tayfalarından böyük səhabələr onun üçün atasına elçi düşdüyünü, Peyğəmbər (s) isə onlara rədd cavabı verərək məhz Əli (ə) evləndirmişdi. Bu seçimin özü tərəfindən deyil, Allah-taala tərəfindən edildiyini də onlara bildirmişdi. Uca Allah isə Xanım (ə) üçün əlbəttə ki, məxluqların arasından onu incitməyəcək və kədərləndirməyəcək şəxsi seçəcəkdi.

İmam Əlinin (ə) Peyğəmbərlə (s) sıx əlaqəsi var idi, ona tam itaətkar idi. Heç bir söz söyləmədən əmrlərini icra edirdi. Bundan əlavə, onun ali şəxsiyyətinin fəzilətləri, Allahın və rəsulunun (s) razılığı uğrunda göstərdiyi fədakarlıqları barədə saysız rəvayətlər mövcuddur. Bütün bunlar da bizi elçilik hadisəsinin baş verdiyini qəbul etməkdən çəkindirir.

İkinci: Hadisənin ravisi Misvər ibn Məxrəmə

Elçilik hadisəsinin ravisi Misvər ibn Məxrəmə barədə söylənəcək bəzi qeydlər var. Onlardan ən mühümlərinə nəzər salaq:

A. Hadisənin yeganə ravisi Misvər və onun İmam Əli (ə) ilə düşmənçiliyi

İbn Zübeyr və Şəbinin mürsəl rəvayətlərini nəzərə almasaq, elçilik hekayəsinin yalnız Misvər ibn Məxrəmə tərəfindən rəvayət edildiyinin görürük. İbn Zübeyr və Şəbi barədə əvvəldə söhbət açdıq.

Misvər ibn Məxrəmənin rəvayətini qəbul etmək mümkün deyil. Çünki o, Əhli-Beytdən (ə) üz çevirənlərdən, Abdullah ibn Zübeyrin dövlət adamların və ona yaxın şəxslərdən idi. Zəhəbi deyir: "Məkkədə Zübeyrin oğluna qoşulmuşdu, Yezid hakimiyyətinə qarşı qəzəbli idi. Mühasirə zamanı mancanaqdan atılan daş ona dəymişdi... Əta ibn Yezid deyir: "Abdullah ibn Zübeyr Məkkədə Misvərsiz heç bir iş barədə qəti qərar vermirdi".[772]

[772] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 3, s. 391-393

Misvər Abdullah ibn Zübeyrlə birlikdə savaşmağı və onun qarşısında şəhid olmağın tam qanuni olduğunu düşünürdü. Belə də oldu. Mancanaqdan atılan "Daş ona dəydi. Bu zaman huşunu itirdi, bir gün huşsuz vəziyyətdə, heç bir kəlmə söyləmədən yaşadı və dünyadan köçdü".[773]

Abdullah ibn Zübeyrin İmam Əliyə (ə) və Əhli-Beytə (ə) münasibəti hamıya məlumdur. O və atası Cəməl müharibəsində İmama (ə) qarşı vuruşmuşlar. Əhli-Beytə (ə) qarşı gizli və aşkar nifrəti var idi. İbn Əbülhədid deyir: "Abdullah ibn Zübeyr Əliyə (ə) nifrət edirdi. Onun barədə söylənən fəzilətləri zəiflətməyə və barəsində xoş olmayan şeylər söyləməyə çalışırdı. Seyr və tarix müəlliflərindən Ömər ibn Şəbbə, İbn Kəlbi, Vaqidi və başqaları yazırlar ki, xilafət iddia etdiyi günlərdə qırx cümə boyunca Peyğəmbərə və ailəsinə salavat söyləməkdən çəkinmişdi. Deyirdi: "Məni salavat söyləməkdən çəkindirən bəzi adamların təkəbbürlə yuxarıdan baxmasıdır". Muhəmməd ibn Həbibin və Əbu Übeydə Müəmmər ibn Müsənnənin rəvayətində isə deyilir: "Onun pis əhli var idi ki, Əlinin adı gələndə təəccüblü adamlar kimi başlarını yelləyərdilər" Səid ibn Cübeyr Abdullah ibn Zübeyrin Abdullah ibn Abbasa belə dediyini nəql edir: "Sənə istinadən söyləndiyini eşitdiyim bu sözlər nədir?" İbn Abbas: "Hansı sözlər?" Dedi: "Mənim barəmdə söylədiyin töhmət və danlaqlar". İbn Abbas dedi: "Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: *"Qonşusu ac olduğu halda özü tox olan nə pis müsəlmandır!"* İbn Zübeyr dedi: "Mən sizin evə (Bəni-Haşimə) olan nifrətimi qırx ildir gizlədirəm".[774]

Misvərin İmam Əliyə (ə) qarşı düşmənçiliyinin ən bariz dəlillərindən biri də İmamın (ə) düşmənləri olan xəvariclərin yanında yüksək məqamı və etimadıdır. Zübeyr ibn Bikar deyir: "Xəvariclər onu müdafiə edir və öz tərəfdarları kimi qəbul edirdilər".[775]

---

[773] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 3, s. 391-394

[774] Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid, c. 4, s. 61-62

[775] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 3, s. 391

Misvər Müaviyəni tərifləyir və ona salavat söyləyirdi. Ürvə deyir: "Misvər Müaviyənin adının çəkildiyini eşidər-eşitməz ona salavat göndərirdi".[776]

B. Misvərin yaşı hadisəyə şahid olaraq nəql etməyə münasib deyil

Bu hadisənin doğruluğuna şübhə yaradan amillərdən biri də Misvər ibn Məxrəmənin hicrətdən iki il sonra dünyaya gəlməsidir. Necə ki, İbn Həcər də bunu qeyd edir: "Doğumu hicrətdən iki sonra olmuşdur. Fəthdən sonra, hicrətin səkkizinci ilinin Zil-hiccə ayında Mədinəyə gəlmişdi. Həmin vaxt altı yaşında idi".[777]

Həmçinin deyir: "Hicrətdən iki il sonra Məkkədə doğuldu, hicrətin səkkizinci ilinin Zil-hiccə ayının sonlarında onu Mədinəyə gətirdilər. Hicrətin altmış dördüncü ilində vəfat etdi".[778]

Demək, bu söhbəti eşitdiyini güman etdiyi vaxt onun altı yaşı olur. Bəs Misvər necə deyə bilir ki, "Mən Peyğəmbərdən (s) eşitdim... həmin vaxt möhtəlim idim"?! Məgər altı yaşlı bir uşaq möhtəlim ola bilərmi?!

İbn Həcər də "Təhzibut-təhzib"də bu irada işarə edərək yazır: "Müslimin "Səhih"ində Əlinin Əbu Cəhlin qızına elçilik məsələsi ilə bağlı hədisdə deyilir: *"Misvər dedi: "Peyğəmbərin (s) minbərdən camaata xütbə etdiyini eşitdim. Həmin vaxt mən möhtəlim idim".* (Hədisi tam nəql edir və sonra deyir:) "Burada bir uyğunsuzluq görünür. Çünki tarix alimləri onun hicrətin ikinci ilində dünyaya gəldiyində həmfikirdirlər. Elçilik hadisəsi isə bundan altı və ya yeddi il sonra baş vermişdir. Bəs o özünə necə möhtəlim deyir? Ehtimal olunur ki, o bu sözün terminoloji mənası olan həddi-buluğ yaşını deyil, lüğəti mənası olan ağıl və idrakı qəsd edir. Doğrusunu Allah bilir".[779]

---

[776] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 3, s. 392

[777] əl-İsabə, ibn Həcər, c. 6, s. 94

[778] Təhzibut-təhzib, c. 10, s. 137. Həmçinin bax: Təhzibul-kəmal, Mizzi, c. 27, s. 581; Siyəru əlamin-nübəla, Zəhəbi, c. 3, s. 394

[779] Təhzibut-təhzib, c. 10, s. 137

İbn Həcərin bu ehtimalı lüğət və ürfü mənalara ziddir. Belə ki, yaşı altı olan heç bir uşağın ağlı, idrakı və düşüncəsi nə qədər yüksək olsa da ona əsla "möhtəlim" deyilməz.[780]

Onun ağıl və idrakı necə yüksək idi ki, camaat qarşısında ayıb yeri açıldığı halda onu örtməyə düşüncə çatmır?! Bunu Müslim "Səhih"ində Misvər ibn Məxrəməyə istinadən rəvayət edib: *"Ağır bir daşı qaldırmaq üçün yaxınlaşdım. Üzərimdə qurşağımdan aşağı bir örtük var idi... Daş qucağımda ikən üzərimdəki örtük açılıb düşdü. Əlimdəki daşı qoya bilmədiyim üçün onu lazım olduğu yerədək apardım. Bunu görən Peyğəmbər (s) buyurdu: "Örtüyünün yanına gedib onu götür, lüt gəzmə".*[781]

Görürük ki, bu uşağın üzərindən örtüyü açılır və o camaatın, xüsusilə də, Peyğəmbərin (s) gözü önündə lüt-üryan gəzir. Lakin nə həyası və nə də "üstün dərrakəsi" daşı ataraq örtüyünü götürməyi ona təlqin etmir.

Buna baxmayaraq, hələ möhtəlim olduğunu da iddia edir. İbn Həcər də onu müdafiə etməyə cəhd göstərərək deyir ki, möhtəlim olduğunu deməkdə məqsədi, bəlkə də, ağıl və idraka sahib olduğunu bildirmək istəyidir. Lakin onun lüt-üryan övrətini örtməyə ağlının niyə yetmədiyini heç cür anlamırıq!

C. Misvərin söz və hərəkətlərindəki ziddiyyətlər

Buxari və digərlərinin Muhəmməd ibn Əmr ibn Həlhələ Dulidən, o da İbn Şəhabdan, o da Əli ibn Hüseyndən nəql edilən rəvayətdə deyilir: *"Onlar Hüseyn ibn Əlinin (r) qətl hadisəsindən sonra Yezid ibn Müaviyənin yanından ayrılıb Mədinəyə gəldikdə Misvər ibn Məxrəmə onunla qarşılaşıb dedi: "Mənə əmriniz olacaq bir ehtiyacınız varmı?" Mən isə heç bir ehtiyacımın olmadığını söylədim. O dedi: "Peyğəmbərin (s) qılıncını (Zülfüqarı) mənə verirsənmi? Qorxuram ki, camaat onu səndən almaq üçün üstünə gəlsin. Allaha and içirəm ki, əgər onu mənə versən,*

[780] Bax: əs-Səhihu min sirətin-Nəbiyyil-əzəm (s), c. 5, s. 325

[781] Səhih, Müslim, c. 1, s. 184, hədis 660, bölmə 19

ölənədək onu əsla başqasına vermərəm. Əli ibn Əbu Talib Əbu Cəhlin qızına elçi düşmək istədikdə...”[782]

Bu rəvayətdə iki müşkül var:

Birinci: İmam Əli ibn Hüseyn (ə) atası İmam Hüseynin (ə) qətlindən sonra Şamdan Mədinəyə gəldikdə təskinlik və təsəlliyə ehtiyac duyurdu. O, atası Hüseynin (ə), yaxın qohum və tərəfdarlarının qətlinə şahid olmuş, əsirlik acıları yaşamış, risalət evinin qadın və uşaqlarının Yezidin sarayındakı müsibətləri ilə üz-üzə dayanmışdı. Misvərin İmam Əli ibn Hüseynə (ə) söylədiyi sözlər və İmam əlinin (ə) Əbu Cəhlin qızına elçilik hekayəsini anlatması onun qəlbini daha da sındıracaq və acılarını alovlandıracaqdı. Ağıllı adam belə sözləri müsibət görmüş bir əhlə əsla söyləməz.

Əgər Misvər İmam Əli ibn Hüseynin (ə) babasının qılıncı qorumaq üçün özünü fəda etməyə hazır idisə, bəs görən nə üçün atası İmam Hüseynə (ə) yardım etmək üçün belə bir fədakarlıq göstərmədi?! Bununla bərabər, İmam Hüseyni (ə) qətlə yetirdiyinə və ailəsini əsir götürdüyünə görə Yezidi qınayan bir söz belə söyləmədi.

Hədisi şərh etdikdən sonra İbn Həcər Əsqəlani də bu iki nöqtəyə diqqət yetirib. Yazır: “Mən hələ də Misvərə təəccüb edirəm ki, Əli ibn Hüseynə (ə) təəssübü necə bu həddə çatıb ki, qılıncı ona verdiyi təqdirdə ölənədək onu əsla başqasına verməyərək qoruyacağını Allaha and içirək vəd verir. Qorumağının səbəbi isə onun Fatimə ovladı olmasıdır. Halbuki bu söhbətdə Əli ibn Hüseynin (ə) hələ qurumamış yarasına diqqətsizlik göstərir, babası Əli ibn Taliblə bağlı xoş olmayan sözləri yad edir. Belə ki, Fatimənin üzərinə Əbu Cəhlin qızını ikinci zövcə olaraq almaq istəyir. Məsələ Peyğəmbərin (s) buna qarşı çıxması ilə baş tutmur.

Misvərin başqa hərəkətinə bundan daha çox təəccüb edirəm. Belə ki, Fatimə övladına qayğı göstərərək canının bahasına olsa da qılıncını qoruyacağına and

[782] Səhih, Buxari, c. 3, s. 1132, bölmə 5

içir, lakin Fatimənin övladı – yəni Hüseyn üçün öz canını əsirgəyir. Lakin ehtimal ki, Hüseyn İraqa tərəf yola düşərkən Misvər və digər Hicaz əhli məsələnin bu həddə çatmayacağını düşünürdülər. Daha doğrusunu Allah bilir".[783]

İbn Həcərin Misvər və digər Hicaz əhlinin İmam Hüseynin (ə) qiyamının belə nəticələnəcəyini zənn etmədikləri barədə söylədiyi üzr zəndən savayı bir şey deyil. Zənn isə haqqı əsla həqiqət ola bilməz. onun bu iddiasını, həmçinin İmam Hüseynin (ə) inqilabını, Kərbəla faciəsini və İmamın (ə) yardım istəməsini müfəssəl şəkildə qələmə almış seyr və tarix əhlinin nəql etdikləri də puç edir. İmam Hüseyn (ə) ümməti özünə qardım üçün ayağa qaldırma cəhd göstərmiş və ümmət qarşısında höccəti tamamlamışdı. Nəinki, inqilabının başlanğıcını Mədinədə Yezidə beyət etməkdən boyun qaçırmaqla elan etmiş, Həcc əməlləri üçün Məkkəyə tərəf üz tutmuş, orada da insanları inqilabına dəstək verməyə dəvət etmiş, ardınca da ona beyət etmiş İraq əhlinə tərəf yola çıxmışdı.

İkinci: Rəvayətin mətni anlaşılmazdır. Niyə Misvər bir anda İmam Əlinin (ə) elçilik hekayəsini anlatmağa başlayır? Halbuki onun İmam Səccadla (ə) söhbəti qılınc barədə idi, lakin bir anda sözü elçilik məsələsinə yönəldir: *"Allaha and içirəm ki, əgər onu mənə versən, ölənədək onu əsla başqasına vermərəm. Əli ibn Əbu Talib Əbu Cəhlin qızına elçi düşmək istədikdə..."*

3. Elçilik hekayəsinin dəlaləti barədə

Yuxarıda qeyd edilənlərdən əlavə, rəvayətin mətninə diqqət yetirdikdə bu hadisənin İmam Əli (ə) və Əhli-Beytin (ə) düşmənlərinin həvaye-nəfslərindən qaynaqlandığını və uydurulduğunu aydın görmək olur. Bunu isbat edəcək bəzi amillər mövcuddur. Onların aşağıda müxtəsər şəkildə qeyd edəcək və hökmü möhtərəm oxucuların ixtiyarına buraxacağıq.

[783] Fəthul-Bari, c. 9, s. 285

A. Peyğəmbər (s) və Allah düşməninin qızını bir şəxsin nikahında cəmləmək

Peyğəmbərin (s) bu elçilik hadisəsini eşitdikdə söylədiyi "*Allaha and olsun, peyğəmbər qızı ilə Allahın düşməninin qızı əsla birlikdə eyni adamın nikahında ola bilməz!*"[784]sözü Əhli-Sünnə yolu ilə isbat olunduğuna əsasən, Osmanın Peyğəmbərin (s) qızı ilə Allahın düşməninin qızını öz nikahında cəmləndiyinə dair dəlillərə ziddir. Əgər Allah düşməninin qızı ilə Peyğəmbər (s) qızının bir şəxsin nikahında cəmlənməsi haram və Allahın çəkinməsi vacib olan hökmlərindəndirsə, bəs nə üçün Peyğəmbər (s) öz qızları Rüqəyyə və ya Ümmü Külsümün Osmanın nikahında olarkən Allahın düşməni Şeybənin qızı Rəmlə ilə eyni vaxtda nikahlanmasına etiraz etməyib?!

Osman Peyğəmbərin (s) qızı ilə Rəmlə bint Şeybəni eyni zamanda nikahında saxlayır

Hədis, eləcə də seyr və tarix əhli Osmanın Rəmlə bint Şeybə ilə evləndiyini qeyd ediblər. İbn Kəsir deyir: "(Osman) Rəmlə bint Şeybə ibn Rəbiə ibn Əbdü Şəms ibn Əbdü Mənaf ibn Qusayla evləndi. Ondan Aişə, Ümmü Əban və Ümmü Əmr adlı övladları dünyaya gəldi".[785]

Şeybə ibn Rəbiə Allahın düşməni idi. Necə ki, İbn Həcər bunu qeyd edib: "Rəmlə bint Şeybə ibn Rəbiə – atası Bədr savaşında kafir olaraq öldürülüb".[786]

Bu izdivacın tarixi barədə müxtəlif fikirlər söylənib. Lakin bütün bunların hamısı Osmanın Peyğəmbərin (s) iki qızından birini (Rüqəyyə və ya Ümmü Külsümü) Rəmlə bint Şeybə ilə eyni vaxtda cəmlədiyini təsdiqləyir. Həmin fikirlərə nəzər salaq:

---

[784] Səhih, Buxari, c. 4, s. 47, hədis 3110, bölmə 51; Səhih, Müslim, c. 7, s. 141, hədis 6203, bölmə 15

[785] əl-Bidayətu vən-nihayə, c. 7, s. 245

[786] əl-İsabə, c. 8, s. 142-143, rəqəm 11192

Birinci fikir: Osman Rəmlə ilə hicrətdən əvvəl Məkkədə evləndi

İbn Əbdülbərr deyir: "Rəmlə bint Şeybə ibn Rəbiə mühacir qadınlardandır. Həyat yoldaşı Osman ibn Əffanla hicrət etmişdi".[787]

Həmin vaxt Osman Peyğəmbərin (s) qızı Rüqəyyə ilə də evli idi. İbn Əsir deyir: "Osman İslamı qəbul etdikdən sonra Peyğəmbər (s) onu qızı Rüqəyyə ilə evləndirdi. Onların hər ikisi Həbəşistana hicrət etdilər. Sonra Məkkəyə qayıdıb yenidən Mədinəyə hicrət etdilər".[788] Buradan göründüyü kimi, Osman Rəmlə ilə Rüqəyyəni hicrətdən əvvəl öz nikahında cəm etmişdi.

İkinci fikir: Osman Rəmlə ilə hicrətdən sonra Mədinədə evləndi

Bu fikri İbn Əsir doğru sayıb. Onların hicrətdən əvvəl Məkkədə evləndiklərini qeyd etdikdən sonra deyir: "Mənim nəzərim başqadır. "Həyat yoldaşı Osmanla Mədinəyə hicrət etdi" fikrinə qarşılıq deyirəm: "Osman əvvəlcə Həbəşistana, sonra Mədinəyə hicrət etdi. Bu vaxt onunla birgə zövcəsi – Peyğəmbərin (s) qızı Rüqəyyə var idi. Rüqəyyədən sonra Peyğəmbərin (s) digər qızı Ümmü Külsümlə evləndi. Əgər "həyat yoldaşı Osmanla hicrət etdi" deyilməsi daha doğru olar. Çünki Rəmlə əvvəlcə hicrət etdi, sonra isə Osmanla evləndi".[789]

Əgər Rəmlə ilə evliliyi hicrətin üçüncü ilindən əvvəl olmuşdursa, bu zaman da Rəmlə ilə Rüqəyyəni öz nikahında cəmləmiş olur. Çünki Rüqəyyənin vəfatı Bədr savaşı günlərində olmuşdu.[790]

Əgər Osman Rəmlə ilə hicrətin üçüncü ilindən sonra evlənmişsə, bu zaman da onunla Peyğəmbər (s) qızı Ümmü Külsümü öz nikahında cəmləmiş olur. Çünki Ümmü Külsəmlə Rüqəyyənin vəfatından sonra evlənib. Necə ki, bunu bir az əvvəl İbn Əsir də qeyd etdi.[791]

---

[787] əl-İstiab, c. 4, s. 1846, rəqəm 3345
[788] Usdul-ğabə, İbn Əsir, c. 5, s. 458
[789] Usdul-ğabə, İbn Əsir, c. 5, s. 458
[790] əl-İstiab, c. 4, s. 1846, rəqəm 3345
[791] Usdul-ğabə, İbn Əsir, c. 5, s. 458

Üçüncü fikir: Osman Rəmlə ilə Məkkədə Qisas ümrəsi[792] zamanında evlənib

İbn Həcərin fikrinə əsasən, Rəmlə ilə Osmanın evliliyi Qisas ümrəsi zamanı Məkkədə baş vermiş, ardınca da Rəmlə onunla Mədinəyə hicrət etmişdi. O deyir: "Bəlkə də, Osman onunla Qisas ümrəsində evlənmiş və ardınca da Mədinəyə hicrət etmişdi".[793]

Bu fikrə əsasən də Rəmlə ilə Peyğəmbərin (s) qızı Ümmü Külsümü eyni vaxtda nikahında cəmləmiş olur. Belə ki, Qisas ümrəsi hicrətin yeddinci ilində baş verib. Ümmü Külsüm ilə Osman isə Rüqəyyənin vəfatından sonra hicrətin üçüncü ilində evləniblər. Ümmü Külsüm hicrətin doqquzuncu ilində dünyadan köçüb. İbn Əsir və başqalarının da qeyd etdiyinə əsasən, onun namazını şəxsən Peyğəmbər (s) qılmışdır.[794]

Bu sözlərdən hər hansı birini əsas götürsək belə, yenə də Osman Peyğəmbərin (s) iki qızından birini (Rüqəyyə və ya Ümmü Külsümü) Rəmlə bint Şeybə ibn Rəbiə ilə eyni vaxtda nikahında cəmləmiş olur.

Osman Peyğəmbər (s) qızı ilə Allah düşməni Vəlidin qızı Fatiməni eyni vaxtda nikahında cəm edir

Osman həmçinin Rüqəyyə və ya Ümmü Külsümlə eyni vaxtda Vəlid ibn Əbdü Şəmsin qızı Fatimə ilə də nikahda idi. İbn Həcər yazır: "Fatimə bint Vəlid ibn

---

[792] Bu hadisə hicrətin yeddinci ilində baş verib. Bir il öncə Zil-qəədə ayında mükriklər Peyğəmbərə (s) Ümrəyə gəlməyi qadağan etdikləri üçün bir il sonra ard-arda qələbələr qazanan müsəlmanlar Peyğəmbərin (s) rəhbərliyi altında yenə həmin ayda Məkkəyə daxil olub ümrəni yerinə yetirdilər. Bu zaman əksər məkkəlilər Peyğəmbəri və əshabını görməmək üçün şəhəri tərk etmişdilər. Buna "Qəza ümrəsi" və ya "Sülh ümrəsi" də deyilir.

[793] əl-İsabə, c. 8, s. 142-143, rəqəm 11192

[794] Usdul-ğabə, İbn Əsir, c. 5, s. 612

Əbdü Şəms ibn Vəlid ibn Müğeyrə... Anası Əbu Cəhin qızı Ümmü Hükeymdir. Osman ibn Əffan onunla evlənmiş, Səid və Vəlid adlı ovladları olmuşdur".[795]

Fatimənin atası Vəlid kafir idi, yalnız Məkkənin fəthi günü iman gətirmişdi. İbn Əbdülbərr deyir: "Vəlid ibn Əbdü Şəms ibn Vəlid ibn Müğeyrə ibn Abdullah ibn Ömər ibn Məxzum Qüreyşi Məxzumi... fəth günü İslamı qəbul edib".[796]

Peyğəmbərin (s) qızı ilə Allah düşməni Üyeynənin qızı Ümmül-bənin eyni vaxtda Osmanın nikahında

Eləcə də Peyğəmbərin (s) qızı Rüqəyyə və ya Ümmü Külsümlə eyni vaxtda Üyeynə ibn Hisn Fəzarinin qızı Ümmül-bənin də Osmanın nikahında olur. İbn Həcər deyir: "Üyeynə ibn Hisn Fəzarinin qızı Ümmül-bənin – atası səhabə olmuş, özü isə Peyğəmbəri (s) görmüşdür. Osmanla evlənmişdi".[797]

İbn Kəsir deyir: "(Osman) Üyeynə ibn Hisn Fəzarinin qızı Ümmül-bəninlə evlənmiş, ondan Əbdülməlik adlı oğlu dünyaya gəlmişdi. Ona Ütbə də deyilib.[798]

Üyeynənin İslamı qəbul etməsi Məkkənin fəthi günündə olub. İbn Əbdülbərr deyir: "Üyeynə ibn Hisn ibn Hüzeyfə ibn Bədr Fəzari – künyəsi Əbu Malikdir, fəthdən sonra müsəlman olub. Fəthdən əvvəl İslamı qəbul etdiyi də deyilib... O, qəlbi İslama isidilən şəxslərdəndir. Sərt qəlbli ərəblərdən idi".[799]

Nəticə: Təqdim edilənlərə əsasən Əhli-Sünnə alimləri Bəni-Üməyyənin uydurduğu *"Peyğəmbər qızı ilə Allahın düşməninin qızı əsla birlikdə eyni adamın nikahında ola bilməz!"* rəvayətinin yalan olduğunu, yaxud da Rüqəyyə və Ümmü Külsümün Peyğəmbərin (s) qızları deyil, övladlığa götürdüyü qızlar olduğunu söyləmələri lazımdır.

---

[795] əl-İsabə, c. 8, s. 282, rəqəm 11638; s. 277, rəqəm 11612; c. 6, s. 470-471; ət-Təbəqatul-kubra, c. 3, s. 54; c. 5, s. 153; Tarixu mədinəti Diməşq, c. 21, s. 221

[796] əl-İstiab, c. 4, s. 1552, rəqəm 2720

[797] əl-İsabə, c. 8, s. 365, rəqəm 11918

[798] əl-Bidayətu vən-nihayə, c. 7, s. 245; ət-Təbəqatul-kubra, c. 3, s. 54

[799] əl-İstiab, c. 3, s. 1249, rəqəm 2055

Hökmün yalnız İmam Əliyə (ə) və Fatiməyə (ə) aid olması iddiasının heç bir dəlili yoxdur

Bəzi Əhli-Sünnə alimləri Peyğəmbər (s) qızı ilə Allah düşməninin qızının bir şəxsin nikahında olması qadağasının Peyğəmbərin (s) qızlarına və ya yalnız Fatiməyə (ə) aid olduğunu söyləyiblər. İbn Həcər deyir: "Mənim üçün aşkar olan budur ki, qızları ilə evli olan şəxslərin başqa qadınla evlənmələrinin qadağan olması Peyğəmbərə (s) xas xüsusiyyət olduğu uzaq fikir deyil. Bunun Fatiməyə xas xüsusiyyət olduğu da ehtimal oluna bilər".[800]

Bunun xas bir xüsusiyyət olmasının etibar cəhəti yoxdur və Osmanın Peyğəmbər (s) qızı ilə Allah düşməninin qızlarını öz nikahında cəm etməsi ilə bu iddia batil olur.

Bunun Peyğəmbərin (s) digər qızlarından fərqli olaraq yalnız Fatiməyə (ə) məxsus xüsusiyyət olması isə mücərrəd zənn və gümandır. Zənn isə əsla həqiqət ola bilməz. Hökmün yalnız ona aid olduğu halda Peyğəmbərin (s) İmam Əliyə (ə) bunu xəbər vermədiyini düşünmək olmaz. Əgər Fatimənin (ə) üzərinə ikinci qadınla evlənmək haram idisə, bu yalnız ona məxsus bir hökm olacaqdı. Bəs niyə Əli (ə) və Fatimə (ə) bu hökmü heç vaxt eşitməmişdilər? Həmin vaxta qədər özlərinə məxsus olan belə bir hökmdən bixəbər olmaları ağıla müvafiqdirmi? Məgər Allaha və Rəsuluna (s) Əlidən (ə) artıq təslim olan ikinci bir şəxs var idimi?

Əlinin (ə) Allaha və Peyğəmbərə (s) itaəti məşhur idi, bir nəfər də olsa onun Peyğəmbərin (s) hansısa bir hökmünü və ya tələbini rədd etdiyini söyləməmişdir.

B. Əbu Cəhlin qızı İmamın (ə) elçilik hadisəsində artıq evli idi

Elçiliyi güman olunan qadın Əbu Cəhlin qızı Cüveyriyədir. O, fəth ilində müsəlman olmuşdu. "ət-Təbəqat"da İbn Sədin sözlərindən anlaşılır ki, Cüveyriyə İslamı qəbul edən vaxt Məkkədə ailə qurub. Deyir: "Cüveyriyə bint Əbu Cəhl ibn Hişam ibn Müğeyrə ibn Abdullah ibn Ömər ibn Məxzum – anası Ərva bint Əbüleys

[800] əl-İstiab, c. 3, s. 1249, rəqəm 2055

ibn Üməyyə ibn Əbdü Şəmsdir. İslamı qəbul edərək Peyğəmbərə (s) beyət gətirmiş, Əttab ibn Üseyd ibn Əbüleys ibn Üməyyə ilə evlənmişdir. Sonra Əban ibn Səid ibn As ibn Üməyyə ilə izdivac etmiş, ondan heç bir övladı olmamışdır".[801]

Onunla evlənən Əttab ibn Üseyd də həmçinin fəth günü müsəlman olmuşdu. Peyğəmbər (s) fəthdən sonra Məkkədən çıxdıqda onu öz məmuru təyin etmişdi. Peyğəmbər (s) vəfat edənədək o, Məkkənin əmiri idi.[802]

Əgər Məkkə fəth olunduqda İslamı qəbul edərək Cüveyriyə Əttab ibn Üseydlə evlənibsə və o da Peyğəmbərin (s) vəfatınadək Məkkənin əmiri olaraq qalıbsa, bəs Möminlərin əmiri Əli (ə) ona nə vaxt elçilik edib?!

Hekayənin uydurma olduğunu təsdiqləyən amillərdən biri elçiliyi edilən qadının qılınc qorxusu altında İslamı qəbul etmiş Məkkə tüləqalarından olmasıdır. O, atalarının qatillərinə nifrət edənlərdən idi. İbn Əsir deyir: "Zöhr vaxtı olduqda Peyğəmbər (s) Bilala Kəbənin damına çıxaraq azan verməsini buyurdu. Həmin vaxt qüreyşlilər Məkkənin kənarındakı dağın ətəyinə toplaşaraq bunu müşahidə edirdilər. Onlardan bəzisi aman diləmiş, bəzisi də iman gətirmişdi. Bilal azanda "Əşhədu ənnə Muhəmmədən rasulullah" kəlməsini söylədikdə Əbu Cəhlin qızı Cüveyrə dedi: "Allah atama Bilalın Kəbə üzərindən bu bağırtısını eşitməmək lütfünü göstərib". Onun belə dediyi də nəql edilib: "Allah Muhəmmədin zikrini ucaltdı. Amma biz namaz qılsaq (və ya salavat desək də) da atalarımızın qatillərini əsla sevməyəcəyik".[803]

Əbülfida deyir: "Əbu Cəhiln qızı dedi: "Allah atama Bilalın Kəbə üzərindən bu bağırtısını eşitməmək lütfünü göstərib".[804]

"Sevdiklərimizi öldürənləri əsla sevməyəcək" deyən bir qadın ata-babalarının qatili olan Əli ibn Əbu Taliblə (ə) evlənməyə necə razı ola bilər?!

---

[801] ət-Təbəqatul-kubra, c. 8, s. 261-262

[802] Bax: Təhzibul-kəmal, c. 19, s. 282-283

[803] əl-Kamilu fit-tarix, c. 2, s. 254, "Məkkənin fəthi" bölməsi

[804] Tarix, Əbülfida, c. 1, s. 181

C. Peyğəmbərə (s) istinad edilən sözlərdəki ziddiyyət

Peyğəmbərin (s) sözləri dəlalət, dəlil və uyğunluq cəhətindən ilahi vəhydən heç də fərqlənmir. Çünki ***"O, həva-həvəslə danışmır (nəfsinə uyub kefi istəyəni) demir. Bu, ancaq (Allah dərgahından) nazil olan bir vəhydir".***[805] Peyğəmbər (s) öz minbərindən Əbu Cəhlin qızını "Allahın düşməninin qızı" deyərək təqdim edə bilər? Halbuki o özü insanları Cüveyrənin qardaşı İkriməyə "Allah düşməninin oğlu" deməyi qadağan etmişdi!

Rəvayət olunur ki, İkrimə Mədinəyə gəldiyi zaman Peyğəmbər (s) öz səhabələrinə buyurmuşdu: *"Əbu Cəhlin oğlu İkrimə yanınıza iman gətirmiş və hicrət etmiş halda gəlir. Onun atasını söyməyin, çünki ölünü söymək diriyə əziyyət verər".*[806]

Əbu Cəhlin qızının elçilik hekayəsi barədə söhbətin nəticəsi

Bir çox əhəmiyyətli dəlil Əbu Cəhlin qızının elçilik hekayəsini uydurub toxumağa çalışanların onun iplərini heç də möhkəm sıxmağı bacarmadıqlarını göstərir. Belə ki, bir çox güclü dəlil və amillər hadisənin baş verdiyinə şəkk yaradır. Aydın olur ki, bu hekayə Fatimənin (ə) qəzəbləndiyi və qəzəbli halda da dünyadan köçdüyü ilk iki xəlifəni Peyğəmbərin (s) "Fatimə bir parçamdır" hədisinin hökmündən çıxarmaq üçün uydurulmuş və artırılmış bir nağıldır.

Yaxud Misvər bu səbəbləri sonradan uydurmuş və rəvayətə əlavə etmişdir. Həmçinin ola bilər ki, bu rəvayətlər Misvərin adından uydurulub. Çünki Misvər "Bir parçamdır" hədisinin ravilərindəndir.

Bunu təsdiqləyən amillərdən biri "Bir parçamdır" hədisinin bu hekayə qeyd edilmədən "Səhih"lərdə rəvayət edilməsidir. Möminlərin əmiri Əlinin (ə) və Əbu Lübabə hadisəsində İmam Zeynul-abidinin (ə) rəvayətləri kimi. Eləcə də Ənəsin,

---

[805] Nəcm, 3-4

[806] əl-Müstədrəkus-səhiheyn, c. 3, s. 241. Həmçinin bax: Tarixu Diməşq, c. 41, s. 63; Kənzul-ümmal, c. 11, s. 741, hədis 33625, c. 13, s. 542, hədis 37419; İmtaul-əsma, Muqrizi, c. 1, s. 398; Subulul-huda vər-rəşad, Şami, c. 5, s. 253

Misvərin Əmr ibn Dinar, Übeydullah ibn Əbu Rafi və qızı Ümmü Bəkrin yolu ilə nəql edildiyi rəvayətlərdə olduğu kimi.

Lakin elçilik hekayəsi Misvərin Leys və İmam Əli ibn Hüseyn (ə) yolu ilə nəql edilən, həmçinin Şəbi və İbn Zübeyrin mürsəl rəvayətlərində qeyd edilib.

Əgər "Bir parçamdır" hədisinin səbəbi elçilik hadisəsinə görə Fatimənin (ə) qəzəblənməsidirsə, bəs nə üçün "Səhih"lərdəki "Bir parçamdır" hədislərində bu hadisə zikr olunmur?!

Ravinin bunu əhəmiyyətsiz saydığını söyləmək uzaq fikir olar. Çünki səbəbi qeyd etmədən səbəbin nəticəsini söyləmək ağla müvafiq deyil. Bundan əlavə, iki mürsəl rəvayətdən başqa, elçilik hədisin sənədi yalnız Misvərə istinad edilir. Belə olduqda, niyə bir rəvayətdə hadisəni zikr edir, başqa rəvayətdə söyləmir?!

İhsan İlahi Zahirin Şeyx Səduqa atdığı iftira

İhsan Zahirin sübut olaraq Şeyx Səduqun "İləluş-şəraye" kitabından elçilik hadisəsi səbəbindən Fatimənin (ə) Möminlərin əmirinə (ə) qəzəbləndiyini barədə təqdim etdiyi "dəlil" açıq-aydın iftiradan savayı bir şey deyil. Belə ki, İhsan Zahir "İləluş-şəraye"dəki rəvayətin bəzi hissələrini pozaraq öz iddiasına uyğunlaşdırmağa çalışıb. Rəvayətin tam mətnini sizə təqdim edirik:

Şeyx Səduq "İləluş-şəraye"də Əmr ibn Əbülmiqdama və Ziyad ibn Abdullha istinadən onların belə söylədiyini rəvayət edir: "Bir nəfər İmam Sadiqin (ə) yanına gələrək dedi: "Allah sənə mərhəmət etsin! Cənazəni ətrafını işıqlandırmaq üçün məşəl, qəndil və çıraqda olan bir alovla müşayiət etmək olar?" Əbu Abdullahın (ə) bu sualdan rəngi dəyişdi, əyləşdiyi halda dedi: "Bir bədbəxt Peyğəmbər (s) qızı Fatimənin (ə) yanına gələrək ona dedi: "Əlinin Əbu Cəhlin qızına elçi düşdüyünü bilmirsən?" Xanım dedi: "Doğru söyləyirsən?" O, üç dəfə "Bəli, doğru söyləyirəm" dedi. Qısqanclıqdan özünü ələ ala bilmədi. Belə ki, Uca Allah qadınlara qısqanc olmağı, kişilərə isə cihad və səyi buyurub. Qadınlardan buna səbr edənin mükafatını isə Allah yolunda hicrət edənin savabı qədər yazır.

Dedi: “Fatimə xəbərdən olduqca kədərləndi. Axşamadək bu barədə düşündü. Gecə düşəndə Həsəni sağ və Hüseyni sol qucağına götürüb, Ümmü Külsümün sol əlini sağ əli ilə tutaraq atasının evinə getdi. Əli gəlib Fatiməni evdə görmədi, kədərləndi və bu ona təsir etdi. Lakin baş verənlərdən xəbərsiz idi. Atasının evindən onu çağırmağa utandı. Məscidə çıxıb namaz qılmağa başladı. Bir qədər namaz qıldıqdan sonra məscidin torpağını balış kimi toplayıb ona söykəndi.

Peyğəmbər (s) Fatimənin üzündə kədəri gördü. Dəstəmaz aldı, paltarını geyinib məscidə çıxdı, namaz qıldı, hər iki rükətdən sonra Allaha dua edərək Fatimənin hüzn və kədərini aradan qaldırmasını dilədi. Çünki onun yanından ayrıldıqda gərgin nəfəs aldığını görmüşdü.

Onun yata və bir yerdə qərar tuta bilmədiyini görən Peyğəmbər (s) ayağa qalxmasını söylədi. Peyğəmbər (s) Həsənin, Fatimə isə Hüseynlə Ümmü Külsümün əlindən tutaraq Əlinin (ə) yanına getdilər. O yatmışdı. Peyğəmbər (s) ayağını onun ayağına toxunduraraq “Ey Əbu Turab (torpaq atası), qalx! Neçə nəfəri narahat etmisən. Evindən Əbu Bəkri, məclisdən Öməri, həm də Təlhəni çağır” dedi. Əli onları çağırdı. Onlar Peyğəmbərin (s) yanında toplaşdıqda buyurdu: “Ya Əli! Bilmirsənmi ki, Fatimə mənim və mən də onun bir parçasıyam? Onu incidən məni incitmişdir. Məni incidən isə Allahı incitmişdir. Kim onu mənim vəfatımdan sonra incitsə, onu mən həyatda ikən incitmiş kimidir. Onu mən həyatda ikən incidən şəxs də mənim vəfatımdan sonra incidən şəxs kimidir”.

Deyir: Əli dedi: “Bəli, ya Peyğəmbər, bilirəm”. Peyğəmbər (s) buyurdu: “Bəs səni bunu etməyə nə vadar etdi?”

Əli: Səni haqq Peyğəmbər olaraq göndərənə and olsun ki, sənə çatan xəbərlərdən heç birini mən etməmişəm.

Peyğəmbər: Düz söylədin, doğru dedin.

Fatimə bu cavabdan sevindi, təbəssüm etdi və bu təbəssümündən ön dişlərinin parıltısı göründü. Orada olanlardan (Əbu Bəkr və Ömərdən) biri

digərinə dedi: “Təəccüblüdür, bizi bu saatda bura çağırmaqla nə demək istəyirdi?”

Sonra Peyğəmbər (s) Əlinin əlindən tutaraq barmaqlarını barmaqlarının arasına saldı. Peyğəmbər (s) Həsəni, Əli Hüseyni, Fatimə isə Ümmü Külsümü götürərək evlərinə apardı. Üzərilərinə örtük çəkib Allaha dua etdi. Ardınca evlərindən çölə çıxıb məsciddə gecə namazından qalan hissəni qılmağa başladı...”[807]

Rəvayət aydın şəkildə bəzi bədbəxt və yalançıların Fatimənin (ə) önündə Əli barədə (ə) yalan söyləyib və iftira atdıqlarını göstərir. Bu isə Xanımı (ə) kədərləndirir. Bir müddətdən sonra isə bunun yalan olduğu məlum olur.

Rəvayətin İhsan Zahirin iddiasına əsla uyğun olmadığına və Şeyx Səduqa iftira atıldığından əlavə, biz rəvayətin sənədindən bəhs etmirik. Çünki əsas məqsədimiz yalnız İhsan Zahirin iddiasına cavab verməkdir.

Şeyx Səduq bunu həmçinin “əl-Əmali”də Əlyəməyə istinadən rəvayət edib. Həmin rəvayətdə İmam Sadiq (ə) inkar edərək buyurur: “Məgər Vəsilər ağasına (ə) dünyapərəstlik və hakimiyyət sevgisi, sükut etmək əvəzinə fitnəni üstün tutmaq, haqsız yerə müsəlmanların qanını axıtmaq kimi iddiaları nisbət vermirlərmi? Məgər onda bir xeyir olsaydı Xalid ibn Vəlid onun boynunun vurulmasını əmr etməzdi demirlərmi? Məgər Fatimə ilə evli olduğu halda Əbu Cəhlin qızına elçi düşdüyünü, Fatimənin bundan atasına şikayət edərək minbərindən müsəlmanlara belə səsləndiyini söyləmirlərmi: Əli Allahın peyğəmbərinin qızın üzərinə Allahın düşməninin qızı ilə evlənmək istəyir. Bilin ki, Fatimə mənim bir parçamdır, onu incidən məni incidib, onu sevindirən məni sevindirib və onu qəzəbləndirən məni qəzəbləndirib?”[808]

Bu rəvayət elçilik hekayəsinin münafiqlər tərəfindən İmam Əliyə (ə) qarşı atılmış iftira olduğuna açıq-aydın dəlalət edir.

---

[807] İləluş-şəraye, Şeyx Səduq, c. 1, s. 185-189

[808] əl-Əmali, Şeyx Səduq, s. 164

Başqa bir hekayə

Əbu Cəhlin qızına elçilik məsələsi bu müqəddəs şəxsiyyətə qarşı uydurulmuş ilk hekayə deyil. Onlar buna bənzər başqa bir hadisə də uydurarak onun nurunun üzərini örtməyə səy göstəriblər.

1. Əsma bint Ümeysin elçilik hekayəsi

"Fatimə mənim bir parçamdır" hədisinin məqamını kiçiltmək və İmam Əlini (ə) Fatimənin (ə) qəzəb dairəsinə daxil etmək üçün uydurulmuş başqa bir hekayə İmamın (ə) Əsma bint Ümeysə elçi düşməsi hadisəsidir. Təbərani Əsma bint Ümeysdən belə dediyini nəql edir: "Əli ibn Əbu Talib mənə elçi düşdü. Bu xəbər Fatiməyə çatdıqda Peyğəmbərin (s) yanına gəlib Əsmanın Əli ilə evlənəcəyini ona söylədi. Peyğəmbər (s) buyurdu: "O (Əsma), Allahı və rəsulunu incitməməlidir".[809]

Buna qarşı olan iradlar

Birinci: "Heysəmi bu rəvayətin zəif olduğunu bildirib. Rəvayəti nəql etdikdən sonra deyir: "Təbərani bunu "əl-Möcamul-kəbir" və "əl-Möcamul-övsat"da nəql edib. Bu iki kitabdakı ravilərin arasında tanımadığım şəxslər var".[810]

İkinci: Bu zənn olunan elçilik nə vaxt baş verib? Əsma bint Ümeys həyat yoldaşı Cəfər ibn Əbu Talib şəhadətə qovuşduqdan sonra Əbu Bəkrlə evlənib və Əbu Bəkr vəfat edənədək onun nikahda qalıb. İbn Əbdülbərr deyir: "Əsma bint Ümeys həyat yoldaşı Cəfər ibn Əbu Taliblə Həbəşistana hicrət edib. Cəfərdən Yəhya adlı oğlu dünyaya gəlib. Bu barədə heç bir ixtilaf yoxdur".[811]

---

[809] əl-Möcamul-kəbir, c. 22, s. 405; c. 24, s. 152-153. Bax: əd-Durrul-mənsur, c. 5, s. 215; Fəthul-qadir, c. 4, s. 300; Subulul-huda vər-rəşad, Salihi Şami, c. 11, s. 45

[810] "Məcməuz-zəvaid", c. 9, s. 203

[811] əl-İstiab, c. 4, s. 1784-1785

İbn Səd deyir: "Cəfər ibn Əbu Talibdən sonra Əsma bint Ümeyslə Əbu Bəkr evləndi. Ondan Muhəmməd ibn Əbu Bəkr dünyaya gəldi. Onunla evli ikən Əbu Bəkr vəfat etdi".[812]

Mizzi deyir: "Əvvəlcə Cəfər ibn Əbu Taliblə evli idi. Onunla birgə Həbəşistana hicrət etmişdi. Sonra Mütə savaşında Cəfər ibn Əbu Talib öldürüldü. Əbu Bəkr siddiq onunla evləndi. Əbu Bəkr ölənədək onunla evli idi. Ardınca Əli ibn Əbu Talib onunla evləndi".[813]

İbn Həcər deyir: "Əsma bint Ümeys Xəsəmiyyə səhabə, Cəfər ibn Əbu Taliblə, sonra Əbu Bəkrlə, ondan sonra da Əli ilə evli olub. Onlardan övladları dünyaya gəlib. Peyğəmbərin (s) zövcəsi Meymunə bint Harisin anabir bacısı idi. Əlidən sonra dünyadan köçdü. O, ilk mühacirlərdəndir. Ondan Cəfərin Abdullah və Ovn adlı övladları var idi. Və başqa övladları da olub. Cəfərlə birlikdə Həbəşistana, sonra da Mədinəyə hicrət edib".[814]

Əgər o ilk mühacirlərdəndirsə və həyat yoldaşı Cəfərlə Həbəşistana hicrət edibsə, bəs İmam Əli (ə) ona nə vaxt elçilik edib?!

Mövzu ilə bağlı söhbəti burada nöqtələyirik. Çünki irad söyləyən bunu qeyd etməmişdir. Lakin biz onun sözünü rədd etmək üçün bu bəhsi açmışıq.

2. Cariyə hekayəsi

İmam Əlini (ə) Fatimənin (ə) qəzəb dairəsinə daxil etmək üçün söylənən digər bir hekayə isə cariyə ilə bağlıdır. Onların gümanına əsasən, İmam (ə) bir cariyə hədiyyə edilmişdi. Bir gün Fatimə (ə) içəri daxil olduqda İmam Əlinin (ə) başını cariyənin dizləri üzərində görür və bu səbəbdən qəzəblənir. Çox böyük təəssüf ki, bu uydurma hekayə bəzi şiə mənbələrinə də yol tapa bilib. Şeyx Səduq "İləluş-şəraye"də Səd ibn Abdullahdan nəql edir: *"Samirrada Həsən ibn Ərəfədən, o da Vəkidən, o da Muhəmməd ibn İsraildən, o da Əbu Salehdən, o da Əbu Zərdən (r)*

[812] ət-Təbəqatul-kubra, c. 8, s. 282
[813] Təhzibul-kəmal, c. 35, s. 127
[814] Lisanul-mizan, İbn Həcər, c. 7, s. 522, rəqəm 5878

rəvayət edir: "Mən və Cəfər ibn Əbu Talib Həbəş torpaqlarına hicrət etmişdik. Cəfərə qiyməti dörd min dirhəm olan bir cariyə hədiyyə edildi. Mədinəyə qayıtdıqda onu qardaşı Əliyə (ə) bağışladı. Əli (ə) onu Fatimənin evində saxlayırdı. Bir gün Fatimə evə daxil olduqda Əlinin (ə) başını cariyənin düzləri üzərinə qoyduğunu gördü və dedi: "Ey Əbülhəsən! Onunla bunu etdin? Əli (ə) dedi: "Ey Peyğəmbər qızı! Allaha and olsun ki, mən onunla heç bir şey etməmişəm. Sən nəyi nəzərdə tutursan?" Fatimə dedi: "Atamın evinə getməyimə icazə ver". Əli izn verdiyini söylədi. Fatimə üzərinə örtüyünü atıb atasının evinə getdi. Bu zaman Cəbrail (ə) enib dedi: "Ya Muhəmməd, Uca Allah sənə salam söyləyir və buyurur ki, Fatimə sənin yanına Əlidən şikayətçi olaraq gəlib. Əli barədə onun heç bir şikayətini qəbul etmə".

Fatimə içəri girdikdə Peyğəmbər (s) buyurdu: "Əlidən şikayət etməyə gəlmisən?" Xanım dedi: "Kəbənin Rəbbinə and olsun ki, bəli". Peyğəmbər (s) ona geri qayıtmasını və onun razılığını almasını söylədi. Fatimə Əlinin (ə) yanına qayıdıb üç dəfə "Ey Əbülhəsən, səndən razılığını diləyirəm" dedi.

Əli (ə) dedi: "Dostum və əzizim Peyğəmbərə (s) məndən şikayət etdin? Peyğəmbərin (s) yanında pis oldum! Ey Fatimə, Allahı şahid tuturam ki, bu andan etibarən cariyə Allaha xatir azaddır, onun dəyəri olan dörd min dinar Mədinə əhlinin fəqirlərinə sədəqədir".

Sonra libasını və ayaqqabılarını geyinib Peyğəmbərin (s) yanına getdi. Bu zaman Cəbrail (ə) nazil olub dedi: "Ya Muhəmməd, Allah sənə salam söyləyir və buyurur: "Əliyə de ki, Fatiməni razı salmaq üçün cariyəni azad etdiyinə, dörd min dirhəmin sədəqə verdiyinə görə ona cənnəti bəxş edir, odu haram edirəm. Mənim mərhəmətimlə istədiyin şəxsi Cənnətə götürə bilər və əfvimlə dilədiyini oddan çıxara bilərsən". Bu zaman Əli dedi: "Mən Allahın cənnət və cəhənnəmini bölənəm".[815]

Bu rəvayətə iki cəhətdən nəzər salmaq mümkündür:

[815] İləluş-şəraye, Şeyx Səduq, c. 1, s. 163-164

Birinci: Rəvayətin sənədində bir neçə ravi Əhli-Sünnədəndir. Həsən ibn Ərəfə Tirmizi, Nəsai və İbn Macənin ravilərindəndir,[816] Əhli-Sünnə alimləri onun siqə (etibarlı, inanılan şəxs) olduğunu söyləyiblər.[817]

Vəkiə gəldikdə, o, Vəki ibn Cərrahdir, Həsən ibn Ərəfənin şeyxidir, Buxari, Müslim, Əbu Davud, Tirmizi, Nəsai və İbn Macənin ravilərindəndir.[818] Əhli-Sünnə alimləri onun da siqə olduğunu bildirmişlər.[819]

Muhəmməd ibn İsrail isə məchul şəxsdir. Bəlkə də, o Muhəmməd ibn Əbu İsraildir ki, adı burada səhv düşüb. Muhəmməd ibn Əbu İsraili İbn Həbban özünün "əs-Siqat" kitabında qeyd edib. Orada deyir: "Muhəmməd ibn Əbu İsrail – Əbdülməlik ibn Əbu Bəşirdən, Əlqəmə ibn Vaildən rəvayət nəql edib. Həmmam ibn Yəhya da onda rəvayət edib".[820]

Buna əsasən də rəvayətin əsas mənbəyinin Əhli-Sünnə olduğu aydınlaşır.

İkinci: Rəvayət Fatimənin (ə) İmam əliyə (ə) qəzəbləndiyinə dəlalət etmir. Əksinə, ondan tam razılığına aydın işarə edir. Necə ki, üç dəfə buyurur: *"Ey Əbülhəsən, səndən razılığını diləyirəm".*

Bu rəvayətin məzmunu haqqında söhbəti inkar ediləcək nüansların çoxluğuna görə uzatmaq istəmirik. Xüsusilə də, *"Dostum və əzizim Peyğəmbərə (s) məndən şikayət etdin? Peyğəmbərin (s) yanında pis oldum!"* sözünə diqqət yetirin. İmam (ə) haqqında belə bir söz doğrudurmu? Əgər belə bir hərəkəti Peyğəmbəri (s) incidəcək və onun yanında pis vəziyyətdə qoyacaqdısa, İmam (ə) bunu heç edərdimi?

Bu rəvayət bir tərəfdən "Bir parçamdır" hədisinin və Fatimənin (ə) Əbu Bəkrlə Ömərə olan qəzəbinin şəninin kiçiltmək, digər tərəfdən də İmam Əlinin (ə)

---

816 Bax: Təhzibul-kəmal, Mizzi, c. 6, s. 201-210; Təhzibut-təhzib, İbn Həcər, c. 2, s. 255

817 Bax: Təhzibul-kəmal, Mizzi, c. 6, s. 201-210; Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 162

818 Bax: Təhzibul-kəmal, Mizzi, c. 30, s. 462-484; Təhzibut-təhzib, İbn Həcər, c. 11, s. 109-114

819 Bax: Təhzibul-kəmal, Mizzi, c. 30, s. 462-484; Təhzibut-təhzib, İbn Həcər, c. 11, s. 109-114

820 əs-Siqat, İbn Həbban, c. 9, s. 36

üstünlükləri və ali məqamı barədə tərəddüdlü fikirlər yaymaq üçün uydurulub. Belə ki, bir dəstə Əhli-Sünnə hədis alimi Peyğəmbərin (s) belə buyurduğunu nəql ediblər: *"Ya Əli, sən Cənnətlə cəhənnəmi (əhlini) bölənsən".*[821] İbn Həcər Heytəmi "əs-Səvaiqul-muhriqə"də deyir: "Dəraqutni yazır ki, Ömərin təşkil etdiyi altı nəfərlik şura qarşısında çıxış edərkən uzun xütbəsinin bir hissəsində dedi: "Allahı sizə şahid tuturam, məgər aranızda elə bir kəs varmı ki, Peyğəmbər (s) onun barəsində: "Ya Əli, Qiyamət günü məndən əlavə sən də Cənnət və cəhənnəmi bölənsən" desin?" Dedilər: "İlahi", xeyr!.." İbn Simak Əbu Bəkrin (r) ona belə söylədiyini rəvayət edir: "Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: *"Əlinin icazə yazdığı şəxsdən başqası Siratdan keçə bilməyəcək".* Buxari Əlidən (r) belə buyurduğunu rəvayət edir: *"Qiyamət günü düşmənləri ilə aralarında hökm edilməsi üçün Rəhmanın qarşısında diz çökəcək ilk şəxs mənəm".*[822]

İmamın (ə) Fatiməyə yardımdan imtina etdiyi iddiası

İhsan Zahirin iddiasına görə, Əbu Bəkr və Ömərlə mübahisəsində İmam Əli (ə) ona yardım etmədiyi üçün Fatimənin (ə) ona qəzəbləndiyini iddia edir. İhsan Zahir deyir: **"Üçüncü dəfə də ona qəzəblənmişdi. Şiələr rəvayət edirlər ki, "Fatimə Əbu Bəkrdən Fədəyi istədikdə və Əbu Bəkr də onu verməkdən imtina etdikdə evinə qayıtdı. Vəsf edilməyəcək dərəcədə hirslənmişdi və sonra xəstələndi. Ona yardım etməkdən imtina etdiyinə görə Əliyə də qəzəblənmişdi. Dedi: "Ey Əbu Talibin oğlu! Ana bətnində olan uşaq kimi büzüşüb qalmış, müttəhim kimi evin küncündə oturmusan Sən həmin pəhləvansan ki, qartalların qanadlarını sındırardın. İndi isə bu qadınabənzərlərdən çəkindin. Bu Quhafənin oğlu məndən atamın hədiyyə etdiyi Fədəyi zülm və zorla aldı, mənimlə mübahisə etdi. Heç kim mənə kömək etmədi. Nə bir yardımçım, nə köməkçim, nə vəkilim və nə də bir**

[821] əs-Səvaiqul-muhriqə, İbn Həcər Heytəmi, c. 2, s. 369
[822] əs-Səvaiqul-muhriqə, İbn Həcər Heytəmi, c. 2, s. 369

himayəçim oldu. Qəzəbli gedib kədərli qayıtdım. Öz dəyərli şəxsini tək qoydun, canavarlar gəldi, getdi, sən tərpənmədin. Kaş ki, bundan əvvəl ölərdim, unudulub gedərdim. Atama şikayət edəcək və Rəbbim qarşısında bunu dilə gətirəcəyəm".[823]

Cavab:

İhsan Zahir bu iddiasında haqdan çox yayınıb, cümlələri təhrif edib. İddiasının puçluğunun aydın olması üçün əvvəlcə qeyd etdiyi rəvayəti olduğu kimi nəql edəcəyik. Sonra onun sənədi və məzmunu üzərində dayanacaq, deyilməli olan sözləri söyləyəcəyik. Bundan sonra isə hökm verməyi möhtərəm oxucunun sərəncamında qoyacağıq.

Şeyx Tusi "əl-Əmali"də yazır: "Əbülhəsən Muhəmməd ibn Əhməd ibn Şazandan, o da Əbülhüseyn Muhəmməd ibn Əli ibn Müfəzzəl ibn Həmmam Kufidən, o da Muhəmməd ibn əli ibn Müəmmər Kufidən, o da Muhəmməd ibn Hüseyn Zəyyat Kufidən, o da Əhməd ibn Muhəmməddən, o da Aban ibn Psmandan, o da Aban ibn Təğlibdən Cəfər ibn Muhəmmədin (ə) belə söylədiyini nəql edir: *"Fatimə Əbu Bəkrdən Fədəyi istədikdə və Əbu Bəkr də onu verməkdən imtina etdikdə evinə qayıtdı, Əlinin yanına gələrək dedi: "Ey Əbu Talibin oğlu! Ana bətnində olan uşaq kimi büzüşüb qalmış, müttəhim kimi evin küncündə oturmusan. Sən həmin pəhləvansan ki, qartalların qanadlarını sındırardın. İndi isə qorxaq toyuqların lələkləri əlində aciz qalıbsan. Əbu Quhafənin oğlu zülmkarlıqla atamın bəxşişini və övladlarımın payını əlimdən aldı. Allaha and olsun ki, buna qarşı ciddi mübarizə apardım, mübahisə etdim. Heç ənsar mənə kömək etmədilər, mühacirlər dadıma yetişmədilər. Hamı başını aşağı əyib gözlərini yerə dikmişdi. Heç bir kəs məni müdafiə edib zalımların zülmünün qarşısını almadı. Qəzəblənib evdən çıxdım. İndi isə pərişan və başıaşağı evə qayıdıram. Üzlərin Seçimim olsaydı, kaş ki acı*

[823] Şiə və Əhli-Beyt, haşiyə, s. 194

hadisələrdən və tələbimdən qabaq öləydim. Mənim Allah dərgahında üzrlü sayılmağım üçün bu kifayətdir ki, onlar haqqıma təcavüz etdilər və mən səni himayə etmək istədim. Vay olsun mənə açılan hər səhərdə! Vay olsun! Etimad etdiyim şəxs (Peyğəmbər) vəfat etdi, əzələlərim süstləşdi. (İntiqam üçün) şikayətim Rəbbimə, gedişim atama tərəfdir. İlahi, Sən şiddətli qüvvət sahibisən!

Möminlərin əmiri (ə) cavabında ona buyurdu: "Vay sənə yox, əksinə, sənin düşmənlərinə olsun! Ey seçilmiş peyğəmbər qızı və nübüvvət yadigarı, mənə acığın tutmasın. Mən din yolunda süstlük etməmiş, qüdrətimdə olanı əlimdən əsirgəməmişəm. Bu haqqqından məhrum edilmisən də, bil ki, ruzin təminatdadır, yoxsulluqdan da amandasan. Uca Allahın axirətdə sənin üçün hazırladıqları əlindən alınanlardan daha qiymətlidir. Allahın köməyinə ümidvar ol!"

Xanım dedi: "Allaha mənə kifayət edər, O, necə də gözəl vəkildir!"[824]

Şeyx Təbərsi (vəfatı: h.q 548) "əl-İhticac"da deyir: "Abdullah ibn Həsən atalarına (ə) istinadən rəvayət edir: "Əbu Bəkr və Ömər Fədəyi Fatimədən (ə) almağa qərar verdikdə və bu xəbər ona çatdıqda... Sonra Xanım (ə) geri qayıtdı, Möminlərin əmiri (ə) isə onun yanına gəlməsini gözləyirdi. Evə daxil olduqda Möminlərin əmirinə (ə) dedi: *"Ey Əbu Talibin oğlu! Ana bətnində olan uşaq kimi büzüşüb qalmış, müttəhim kimi evin küncündə oturmusan. Sən həmin pəhləvansan ki, qartalların qanadlarını sındırardın. İndi isə qorxaq toyuqların lələkləri əlində aciz qalıbsan. Əbu Quhafənin oğlu zülmkarlıqla atamın bəxşişini və övladlarımın payını əlimdən aldı. Allaha and olsun ki, buna qarşı ciddi mübarizə apardım, mübahisə etdim. Heç ənsar mənə kömək etmədi, mühacirlər dadıma yetişmədilər. Hamı başını aşağı əyib gözlərini yerə dikmişdi. Heç bir kəs məni müdafiə edib zalımların zülmünün qarşısını almadı. Qəzəblənib evdən çıxdım. İndi isə pərişan və başıaşağı evə qayıdıram.*

Canavarlar bunu fürsət bildi. Nə sözün və nə də gücünlə məni müdafiə etmədin. Seçimim yoxdur. Kaş ki, bu acı hadisələrdən və tələbimdən qabaq öləydim. Mənim

---

[824] əl-Əmali, Şeyx Tusi, s. 683

Allah dərgahında üzrlü sayılmağım üçün bu kifayətdir ki, onlar haqqıma təcavüz etdilər və mən səni himayə etmək istədim. Vay olsun mənə açılan hər səhərdə! Vay olsun mənə günəşin batdığı hər gündə! Etimad etdiyim şəxs (Peyğəmbər) vəfat etdi, əzələlərim süstləşdi. (İntiqam üçün) şikayətim atama, gedişim Rəbbimədim. İlahi, Sən onlardan daha şiddətli qüvvət və güc sahibisən! Əzabın onlardan daha şiddətlidir!"

Möminlərin əmiri (ə) cavabında buyurdu: "Vay sənə yox, əksinə, sənin düşmənlərinə olsun! Ey seçilmiş peyğəmbər qızı və nübüvvət yadigarı, mənə acığın tutmasın. Mən din yolunda süstlük etməmiş, qüdrətimdə olanı əlimdən əsirgəməmişəm. Bu haqqqından məhrum edilmisən də, bil ki, ruzin təminatdadır, yoxsulluqdan da amandasan. Uca Allahın axirətdə sənin üçün hazırladıqları əlindən alınanlardan daha qiymətlidir. Allahın köməyinə ümidvar ol!"

Xanım dedi: "Allaha mənə kifayət edər!"[825]

Rəvayətin sənədinin müzakirəsi

Şeyx Təbərsinin "əl-İhticac"dakı rəvayəti mürsəldir. Şeyx Tusinin rəvayəti isə ravilərin arasında olan İbn Şazan, İbn Həmmam Kufi və İbn Müəmmər Kufi səbəbindən zəifdir. Onların hamısı halı məchul şəxslərdir, heç biri barədə xoş söz deyilməyib.[826]

Rəvayətin məzmunun müzakirəsi

"əl-Əmali" və "əl-İhticac"dakı rəvayətlərin məzmunu yardım etmədiyinə görə Fatimənin (ə) İmam Əliyə (ə) qəzəbləndiyinə dəlalət etmir. Orada söhbət qarşı tərəfin inkar, yalan və nifaqını bəyan etmək, ən kiçik imtahanda ifşa olunmaları barədədir. Bu məqamda münasib olan tərz danlaqları qarşısındakı həmsöhbətinə

[825] əl-İhticac, Şeyx Təbərsi, c. 1, s. 131-146; Mənaqibu Ali Əbi Talib, İbn Şəhraşub, c. 2, s. 50

[826] Bax: Möcamu ricalil-hədis, Seyyid Xoyi, c. 16, s. 29; Müstədrəkatu ilmi ricalil-hədis, Əli Namazi Şahrudi, c. 7, s. 246; əl-Mufidu min möcami ricalil-hədis, Muhəmməd Cəvahiri, s. 556

ünvanlayaraq ona töhmət vurmaq, bu utandırıcı əməllərinin və pis nəfslərinin üstünü örtən kimi təqdim etməkdir. Bu tərz söhbətdə məsələnin tam izhar olunması və aydınlaşmasına yardım edir. Məqsəd bundan artığı deyil. Bu "qızım sənə deyirəm, gəlinim eşit" tərzidir. Xanımın (ə) sözləri Əhli-Beyti (ə) müdafiə etməməkdə İmamı (ə) günahlandırmaq və danlanmaq deyil, qarşı tərəfin iddialarını izhar etməkdir.

Belə bir tərzdə dialoq bir çox ağıl sahiblərinin söhbətlərində də müşahidə olunur. Hətta Qurani-Kərimdə də varid olub. Həmin ayələrdə Uca Allah Peyğəmbərini (s), sanki, danlayır: ***"Allah səni bağışlasın! Doğru danışanlar sənə bəlli olmadan, yalançıları tanımadan əvvəl nə üçün onlara (cihadda iştirak etməməyə) izin verdin?"***[827], eləcə də: ***"Allah (bununla) sənin əvvəlki və sonrakı günahlarını bağışlayacaq, sənə olan nemətini tamam-kamal edəcək və səni düz yola müvəffəq edəcəkdir!"***[828]

Buna yaxın bir cavabı Əllamə Məclisi "Bihar"da zikr edib. Onun sözlərindən hasil olur ki, Xanım Zəhra (ə) İmamla (ə) bu tərzdə danışmaqla qarşı tərəfdəkilərin əməllərini ifşa etmək və onlara olan qəzəbini büruzə vermək istəyib ki, həmin dövrün insanları və tarix Əhli-Beytin (ə) düçar olduğu bu böyük zülmə diqqət yetirsin. Burada Xanımın İmam Əliyə (ə) qəzəbindən əsla söhbət gedə bilməz. Əllamə Məclisi deyir: "Xanım bu sözləri bəzi məqsədlərlə söyləyib, həqiqətdə İmamın (ə) hərəkətlərini tənqid etmir, əksinə, ondan razıdır. Xanımın (ə) hədəfi onların qəbahətli əməllərini və rəzil hərəkətlərini bəyan etməkdir. İmamın (ə) sükutu heç də onların əməllərindən razılığı ifadə etmək deyil. Bu tərzdə söhbət bir çox dialoq və söhbətlərdə baş verir. Məsələn, bəzən rəhbər öz yaxın adamlarını rəyətini əməllərinə görə danlayır, halbuki onların həmin məsələdə heç bir günahının olmadığını da bilir. Bu tərzlə rəyətin günahının böyüklüyünü ifadə etmək istəyir. Bu isə ətrafdakılara məsələnin rəhbərin yaxın

[827] Tövbə, 43
[828] Fəth, 2

adamını danlayacaq qədər mühüm olduğunu göstərməkdir. Buna nümunə kimi, Musanın (ə) qövmünün yanına qəzəbli halda qayıtmağını, əlindəki lövhələri yerə atmasını və qardaşının başından tutub özünə tərəf çəkməyini göstərmək olar. Halbuki həmin vaxt Musanın (ə) məqsədi qardaşı Harunu inkar və ittiham etmək deyildi. Əksinə, bu əməli ilə qövmünə onların cinayət və günahlarının nə dərəcə böyük olduğunu izhar etmək istəyirdi".[829]

Buna əsasən, İhsan Zahirin yuxarıdakı sözlərindəki saxtakarlığın və xüsusilə də, Fatimə (ə) barədə şiə alimlərinə nisbət verdiyi iftiraların üzərində dayanırıq: "**Şiələr rəvayət edirlər ki, "Fatimə Əbu Bəkrdən Fədəyi istədikdə və Əbu Bəkr də onu verməkdən imtina etdikdə evinə qayıtdı. Vəsf edilməyəcək dərəcədə hirslənmişdi və sonra xəstələndi. Ona yardım etməkdən imtina etdiyinə görə Əliyə də qəzəblənmişdi. Dedi: "Ey Əbu Talibin oğlu! Ana bətnində olan uşaq kimi büzüşüb qalmış, müttəhim kimi evin küncündə oturmusan Sən həmin pəhləvansan ki, qartalların qanadlarını sındırardın. İndi isə bu qadınabənzərlərdən çəkindin.** Şeyx Tusinin rəvayətində və Şeyx Təbərsinin mürsəl hədisində bu sözlər harada zikr olunub?!

İhsan Zahir bununla şiənin ziddinə olan hər bir şeyi təhqiq və tədqiqsiz qəbul etməyə hazır olan bəzi oxucuları aldatmağa çalışıb. Dünya qadınlarının Seyyidəsinin (ə) dili ilə şiə alimlərinə yalan və böhtan nisbət verərək "bu qadınabənzərlərdən çəkindin" kimi sözlər işlədir. Bu kəsin başqalarına nisbət verdiyi sözlərdəki insafsızlığına və təqvasızlığına nəzər yetirin!

[829] Biharul-ənvar, Əllamə Məclisi, c. 29, s. 234

Üçüncü fəsil: Fatimə (ə) ilk iki xəlifəyə niyə qəzəblənmişdi?

Burada bir neçə bəhs var:

Fatimənin (ə) ilk iki xəlifəyə qəzəblənməsinin səbəbləri:

Birinci: Fatiməyə (ə) qarşı zorakılıq
İkinci: Əhli-Beytə (ə) qarşı iqtisadi təzyiq
Üçüncü: İlahi İmamətin müdafiəsi

Giriş

Qəzəb sözü Qurani-Kərimin bir çox ayələrində və şərif hədislərdə Uca Allah tərəfindən dəfələrlə zikr edilib. ***"Allah ona qəzəb və lənət edər, (axirətdə) onun üçün böyük əzab hazırlar!",***[830] həmçinin ***"Musa qəzəbli və kədərli halda tayfasının yanına dönərkən..."***;[831] və s. ayələr.

Uca Allahın qəzəbindən məqsəd Onun cəzası, məsiyət etmiş şəxsi inkarı və ona qarşı hiddətidir. Qurtubi deyir: "Lüğətdə qəzəb – şiddətdir... Allahın qəzəblə vəsf olunması isə Onun cəza verəcəyinin bildirilməsidir".[832]

Nəvəvi deyir: "Uca Allahın qəzəbindəki məqsəd Ona qarşı məsiyət etmiş şəxsdən intiqam alacağını, ağrıdıcı əzab verəcəyini bildirməkdir. Bu elə bir alçaldıcı əzabdır ki, onun nə əvvəllər və nə də sonradan mislini heç kim görməmişdir. Allahın qəzəbinin mənası budur".[833]

Zəməxşəri "əl-Kəşşaf"da yazır: "Allahın qəzəbi... bu, şüura malik günahkarlardan intiqam və onlara göndəriləcək cəzadır".[834]

Məxluqların qəzəbi intiqam və ya cəza mənasındadır. Ğəzzali və digərləri onu tərif edərkən demişlər: "Qəlbin qanının intiqam istəyi ilə qaynamasıdır".[835]

Razi deyir: "Qəzəb – bir nəfs halıdır ki, nifrət olunan şeyləri uzaqlaşdırmaq üçün istifadə edilir".[836]

Məxluqun qəzəbinin həm tərifəlayiq və həm də məzəmmətə hədəf olması mümkündür. Tərifəlayiq qəzəb Allaha görə və Onu inkar edənlərə qarşı qəzəblənməkdir. Belə bir qəzəb insana izzət bəxş edən və mənəviyyatını

---

[830] Nisa, 93

[831] Əraf, 150

[832] Təfsir, Qurtubi, c. 1, s. 150

[833] Şərhu Müslim, Nəvəvi, c. 3, s. 68

[834] əl-Kəşşafu ən həqaiqit-tənzili və uyunil-əqavil, Zəməxşəri, c. 1, s. 71

[835] Ondan Əbu Hilal Əskəri "əl-Furuqul-lüğviyyə" kitabında nəql edib. s. 391-392; Umdətul-qari, Eyni, c. 24, s. 234

[836] Təfsir, Razi, c. 21, s. 47

yüksəkdən hörmətə layiq bir fəzilətdir. Pislənən qəzəb isə insanı ağıl və şəriətin qoyduğu hədləri sövq edən, ədalətdən uzaqlaşdıran qəzəbdir.

Bəs, Fatimənin (ə) ilk iki xəlifəyə qəzəbi tərifəlayiq və ya məzəmmət olunan qəzəbdir?

Ötən fəsildə İbn Həcərin Şəbinin mürsəl hədisi ətrafındakı sözlərini təqdim etmiş və Fatimənin (ə) ilk iki xəlifəyə qəzəbinin inkarolunmaz fakt olduğu nəticəsinə gəldiyini bildirmişdik. Çünki səhih hədislər buna aydın dəlalət edirdi. Lakin Şəbinin mürsəl hədisinə əsasən, sonradan Xanım (ə) onları bağışladığını və razılığını ifadə etdiyini bildirmişdi. Bu hədis Fatimənin onlara qarşı qəzəbinin sonadək davamiyyətli olmadığını göstərir və müşkülü aradan qaldırırdı. Xüsusilə də, Xanımın (ə) ağıl və dini cəhətdən dərin zəkaya sahib olduğu bilinirdi. O deyir: "Bu rəvayət mürsəl də olsa, Şəbiyə istinadı səhihdir. Bunun vasitəsilə Fatimənin Əbu Bəkrlə əlaqəsini kəsdiyi bitmiş olur... Əgər Şəbinin hədisi isbat olsa, aradakı irad da bitər. Məsələnin belə olması da daha münasibdir. Belə ki, Xanımın (qəzəbində inad etməyəcəyi qədər) ağıl və din genişliyi məlumdur".[837]

Onun sözlərindən belə başa düşülür ki, əgər sonradan razılığını ifadə etməsəydi Fatimənin (ə) ilk iki xəlifəyə qarşı qəzəbi (ağlına və dindəki dərinliyinə görə) pislənilən qəzəb olacaqdı.

Şübhə yoxdur ki, İbn Həcər də digər Əhli-Sünnə alimləri kimi Fatimə (ə) ilə mübahisədə Əbu Bəkrin tərəfini qorumağı əsas hədəf götürüb. Bu səbəbdən də, Fatimənin (ə) qəzəbinin pis nəticələr verməyəcək cəhətdən təqdim edilməsinə çalışıb.

Belə bir qəzəb barədə onun sözlərini qeyd etmiş, Fatimənin (ə) qəzəbinin xüsusiyyətləri, bütünlüklə haqq və tərifəlayiq qəzəb olduğunun isbatlandığını bildirmişdik. Çünki onun qəzəbi Peyğəmbərin (s) qəzəbilə eynilik təşkil edirdi.

Burada Fatimənin (ə) onlara qarşı qəzəbinin davamiyyətli olub-olmadığının üzərində dayanmaq istəmirik. Yalnız Fatimənin (ə) bu böyük qəzəbinin

---

[837] Fəthul-bari, İbn Həcər, c. 6, s. 202-203 (s. 233, hədis 3094)

arxasındakı sirrin barəsində söhbətə ehtiyac duyulduğu qədər bu barədə danışacağıq. Necə ki, bunu üstüörtülü şəkildə İbn Həcər və digərləri də etiraf etmişlər.

Fatimənin (ə) bu tərzdə ilk iki xəlifəyə qəzəblənməsinin səbəbi nədir?

Məgər aləm və ya Cənnət qadınlarının seyyidəsi (ə) sadə dünya malı, atasının hədiyyəsi və ya mirası üçün belə şiddət və inadla qəzəblənəcək şəxsidirmi? Halbuki eyni şəkildə Əbu Bəkr Peyğəmbərin (s) digər varislərinə də mirasdan pay verməkdən imtina etmişdi.

Fatimənin (ə) ilk iki xəlifəyə qəzəblənməsinin səbəbləri

Peyğəmbərin (s) vəfatından sonrakı dövrün hadisələrini Əhli-Sünnə yolu ilə rəvayət edilmiş mötəbər xəbər və rəvayətlərə insaf gözü ilə nəzər salan şəxs Fatimənin (ə) belə şiddətlə qəzəblənməsinə səbəbin yalnız xilafəti Əbu Bəkrə təslim etmək üçün Əhli-Beytə (ə) qarşı ciddi və davamlı təzyiqlərdən sonra baş verdiyini görəcək. Lakin, Allah təəssübün kökünü kəssin, Əhli-Sünnə təhqiqatçıları və alimləri bu rəvayətdəki məsələlərə insafla baxmaq əvəzinə, məsələni yanlış yönə çevirmiş, Fatimənin (ə) belə tərzdə qəzəbində qarşı tərəfə haqq qazandırmağa çalışmışlar. Sanki, Fatimənin (ə) qəzəbinə rəğmən, həmin iki şəxsin üstün xüsusiyyətləri isbat olunmuş faktdır. Fatimənin (ə) belə şiddətlə qəzəblənməsinin səbəbini təhqiq etmək üçün Allahın bəxş etdiyi ağıl nemətindən üz çevirmişlər. Onun nə üçün belə açıq və şiddətli şəkildə qəzəbləndiyinə əhəmiyyət verməmişlər.

Peyğəmbərin (s) Əhli-Beyti (ə) ilk iki xəlifənin xilafət tamahı qarşısında ən böyük maneə idi. Onların Peyğəmbər (s) yanındakı məqamını, mənəvi dərəcələrini və ümmətə təsir güclərini bilirdilər. Ona görə də, belə bir tamaha sahib olan kəslərin etdiyi kimi, qarşısındakının ali məqamını zəiflətmək və bununla da ümmət üzərindəki təsirlərini minimuma endirməyi hədəfləyir, onlardan, xüsusilə də, Fatimədən (ə) gözlənilən etirazların təsirini heçə endirmək

istəyirdilər. Belə ki, onun Peyğəmbərə (s) yaxınlığı, mənəvi məqamı, ümmətə təsiri və Möminlərin əmiri Əlinin (ə) yanında yer alması, bütün bunlar onu susdurmaq üçün mövcud olan səbəblər idi.

Hədislərin və tarixin Əhli-Beytə (ə) müxalif hökumətlər dövründə yazılmasına və islami dəlilləri qeydə alan Əhli-Sünnə yazarlarının mümkün dərəcədə ilk iki xəlifə olduqlarına görə xüsusən, səhabələr barədə isə ümumən göstərdikləri dəstəyə rəğmən, eləcə də bu mövzuda öz əqidələrindən irəli gələrək səhabələri pisləyəcək bir çox dəlilləri rədd etmələrinə və kitablarında qeyd etməmələrinə baxmayaraq, ilk dövrlərin hadisələrində Əbu Bəkrlə Ömərin Əhli-Beytə (ə) zidd münasibətlərini qeyd edən dəlillərlə yenə də rastlaşırıq. Bu dəlillərdə onların necə şiddətli inad və terror üslublarından istifadə etdiklərini görürük. Həmçinin Əhli-Beytin (ə) belə rəftara qarşı aydın şəkildə onları ittiham etdiklərini və onların sərt qəlbləri və amansız təbiətləri qarşısında duruş gətirməyə çalışdıqlarını müşahidə edirik.

Fatimənin (ə) ilk iki xəlifəyə bu böyük qəzəbi onların İslam qanunlarını pozmaları, İslam peyğəmbərinin ailəsinə yönəltdikləri ittihamlar və göstərdikləri pis rəftarlar qarşısında ən güclü fəryad səsi idi.

Mümkündür ki, bu böyük qəzəbin arxasındakı sirri araşdıran şəxs ilk dövrlərdə onların ümumən Əhli-Beytlə, xüsusən də Fatimə ilə rəftarlarını təhqiq edərkən öz ülvi arzularına qovuşsunlar. Burada Əhli-Sünnə hədis və tarix alimlərinin Peyğəmbərin (s) vəfatının ilk dövrlərində ilk iki xəlifənin Əhli-Beytlə (ə) rəftarlar barədə nəql etdikləri bəzi həqiqətlərə işarə etməklə kifayətlənirik:

Birinci: Fatiməyə (ə) qarşı zorakılıq

Peyğəmbərin (s) canının bir parçasının evini yandırmaqla təhdid etmək bu pak şəxslərdən beyət almaq və Əbu Bəkrin xəlifəliyini möhkəmlətmək üçün istifadə edilən ən mənfur üslubdur. Necə ki, bu onların Əhli-Beytə (ə) qarşı düşməncəsinə rəftarına da açıq-aşkar dəlalət edir. Bunu Peyğəmbərin (s)

ehtiramına təcavüz edərək və canının bir parçası olan Fatimənin evinə soxulmaqla icra etməyə çalışırlar.

Peyğəmbər qızının evinin yandırılması təhdidi və evinə soxulmaq barədə bir çox mötəbər hədis və rəvayət mövcuddur. Onlardan bəzisinə nəzər salaq:

A. Əsləm Qüreyşinin rəvayəti

İbn Əbu Şeybə (vəfatı: h.q 235)[838] özünün "əl-Müsənnəf" kitabında Muhəmməd ibn Bişrə istinadən Übeydullah ibn Ömərdən, o da Zeyd ibn Əsləmdən və o da atası Əsləmdən belə rəvayət edir: *"Peyğəmbərdən (s) sonra Əbu Bəkrə beyət edildikdə Əli və Zübeyr Peyğəmbərin qızı Fatimənin yanına gəlib bu məsələ ilə bağlı onunla məsləhətləşdilər. Bu xəbər Ömər ibn Xəttaba çatdıqda Fatimənin evinə üz tutdu. İçəri daxil olub dedi: "Ey Peyğəmbərin qızı, Allaha and olsun ki, bizə sənin atandan, atandan sonra da səndən daha sevimli şəxs yoxdur. Lakin Allaha and verirəm ki, bu mənim üçün maneə deyil. Əgər bu kəslər yenə də sənin yanına toplaşsalar, evin onlarla birgə yandırılmasını əmr edəcəyəm".*

---

[838] O hafiz Abdullah ibn Muhəmməd ibn Əbu Şeybə İbrahim ibn Osman Kufidir. Onuncu təbəqədəndir. tabeinlərin tabeinlərindən rəvayət almışdır. Hicrətin 235-ci ilində vəfat edib. Ona Buxari, Müslim, Əbu Davud, Nəsai və İbn Macə rəvayət ediblər. Mizzi yazır: "Osman ibn Səid Dərram deyir: "Yəhya Həmaninin belə dediyini eşitdim: İbn Əbu Şeybənin övladları elm əhlidirlər. Bizimlə hər bir mövzuda rəqabət aparırdılar". Abdullah ibn Əhməd ibn Hənbəl deyir: "Atamın belə dediyini eşitmişəm: "Əbu Bəkr ibn Əbu Şeybə doğru sözlü şəxsdir, mənim üçün Osmandan daha sevimlidir". Abdullah deyir: "Atama dedim: "Yəhya ibn Muin deyir ki, Osman mənə daha sevimlidir". Dedi: "Əbu Bəkr bizim üçün Osmandan daha yüksəkdədir".

İcli, Əbu Hatəm, İbn Xərraş onun "siqə" olduğunu söyləyib. İcli əlavə edir: "O, hədis hafizi idi..." Cürcüni deyir: "Yəhya ibn Muindən Əbu Bəkr ibn Əbu Şeybənin Şərikdən eşitdikləri barədə soruşdum. Dedi: "Əbu Bəkr bizim nəzərimizdə doğrudanışan şəxsdir. Əgər Şərikdən eşitdiyini iddia edirsə, bu sözü təsdiqlənməlidir..."

Əmr ibn Əli deyir: "İbn Əbu Şeybədən daha hafiz bir şəxs görmədim. Əli ibn Mədini ilə birlikdə yanımıza gəlmişdi. Şeybani üçün əzbərdən dörd yüz hədis saydı".

Abdullah ibn Əbu Ziyad Əbu Übeyd Qasim ibn Səlamdan nəql edir: "Söhbət bu dörd nəfərə çatdı: Əbu Bəkr ibn Əbu Şeybəyə, Əhməd ibn Hənbələ, Yəhya ibn Muinə və Əli ibn Mədiniyə. Əbu Bəkr onlardan daha çox hədis bilən, Əhməd daha fəqih, Yəhya daha çox icmaya yönəlik, Əli isə onların ən savadlısı idi..." ("Təhzibul-kəmal", c. 16, s. 34-41)

Ömər oradan ayrıldıqdan sonra onlar yenə də gəldilər. Fatimə dedi: "Bilirsiniz, Ömər indicə bura gəlmişdi. Allaha and içdi ki, əgər siz bura qayıtsanız sizinlə birgə evi yandıracaq. Allaha and olsun ki, söz verdiyini edəcək. Çıxıb gedin, özünüz məşvərət edin, mənim yanıma qayıtmayın".

Onlar çevrilib getdilər və Əbu Bəkrə beyət edənədək geri qayıtmadılar".[839]

Bu rəvayətin sənədindəki şəxslər etibarlı (siqə) ravilərdir:

Muhəmməd ibn Bişr ibn Fərafəsə ibn Muxtar Əbdi – Yəhya ibn Muin,[840] İcli[841], Əbu Davud[842], Nəsai,[843] İbn Həbban,[844] Zəhəbi[845] və İbn Həcər[846] onun etibarlı (siqə) olduğunu söyləmişlər.

Ondan Buxari, Müslim, Əbu Davud, Tirmizi, Nəsai, İbn Macə və başqalrı hədis rəvayət etmişlər.

Übeydullah ibn Ömər ibn Həfs ibn Asim ibn Ömər ibn Xəttabı Yəhya ibn Muin,[847] İcli,[848] Əbu Zərə və Əbu Hatəm,[849] Zəhəbi[850] və İbn Həcər[851] etibarlı (siqə) saymışlar.

Ondan Buxari, Müslim, Əbu Davud, Tirmizi, Nəsai, İbn Macə və başqaları hədis rəvayət etmişlər.

---

[839] əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 7, s. 432

[840] Tarix, İbn Muin (Duri), c. 1, s. 197

[841] Mərifətus-siqat, İcli, c. 2, s. 233

[842] Təhzibul-kəmal, Mizzi, c. 24, s. 523; əl-Kaşif fi mərifəti mən ləhu rivayətun fi kutubis-sittə, Zəhəbi, c. 2, s. 159; Təzkiratul-huffaz, c. 1, s. 322; Siyəru əlamin-nübəla, c. 9, s. 266; Tarixul-islam, c. 14, s. 344, Təhzibut-təhzib, İbn Həcər, c. 9, s. 64

[843] əl-Cərhu vət-tədil, Süleyman ibn Xələf Baci, c. 2, s. 673

[844] Məşahiru uləmail-əmsar, İbn Həbban, s. 273

[845] Siyəru əlamin-nübəla, c. 9, s. 266; Təzkiratul-huffaz, c. 1, s. 322

[846] Təqribut-təhzib, İbn Həcər Əsqəlani, c. 1, s. 469, rəqəm 5756

[847] "Təzkiratul-huffaz"dan nəql edilərək, Zəhəbi, c. 1, s. 160-161

[848] Mərifətus-siqat, İcli, c. 2, s. 113

[849] ət-Tədilu vət-təcrih, Süleyman ibn Xələf Baci, c. 2, s. 990-991

[850] əl-Kaşif fi mərifəti mən ləhu rivayətun fi kutubis-sittə, Zəhəbi, c. 1, s. 685; Təzkiratul-huffaz, c. 1, s. 160-161; Tarixul-islam, c. 9, s. 214-215

[851] Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 637; Lisanul-mizan, İbn Həcər, c. 7, s. 514

Zeyd ibn Əsləm Qüreyşi Ədəvini Əhməd ibn Hənbəl,[852] Əbu Zərə, Əbu Hatəm, İbn Səd, Nəsai, İbn Xərraş,[853] İbn Həbban,[854] İbn Ədiy,[855] Eyni[856] və İbn Həcər[857] etibarlı (siqə) saymışlar.

Onun hədislərini Buxari, Müslim, Əbu Davud, Tirmizi, Nəsai, İbn Macə və başqaları rəvayət etmişlər.

Əsləm Qüreyşi Ədvi Mədəniyə (yuxarıda barəsində "etibarlı" olduğu deyilən Zeyd ibn Əsləmin atasıdır) gəldikdə, Ömər ibn Xəttabın qulu olub, ikinci təbəqəyə məxsusdur, böyük tabeinlərdəndir. Hicrətin 80-ci ilində (və ya 60-ci ildən sonra) Mədinədə vəfat edib. İcli,[858] İbn Həbban,[859] Mizzi,[860] Zəhəbi[861] və İbn Həcər[862] kimi rical alimləri onun etibarlı (siqə) olduğunu söyləyib, onların nəzərində yüksək məqama malik olduğunu bildirən müxtəlif kəlmələrlə onu tərifləyiblər. Onu etibarlı, fəqih, imam, tabeinlərin ağalarından biri kimi sifətlərlə vəsf ediblər.

Ondan Buxari, Müslim, Əbu Davud, Tirmizi, Nəsai, İbn Macə və başqaları hədis rəvayət ediblər.

Rəvayətin sənədindəki problem

Əsləm Qüreyşinin səhabə, yoxsa tabein olması barədə mübahisə olub. Belə ki, bu cəhətdən onun mürsəl hədislər nəql etdiyi deyilib.

Bəziləri onun səhabə olduğunu iddia etmədən Peyğəmbəri (s) gördüyünü, lakin ondan hədis eşitmədiyini söyləmişlər. Bəziləri isə onun tabein olduğunu

---

[852] əl-İləl, Əhməd ibn Hənbəl, c. 1, s. 409, rəqəm 856
[853] Təhzibul-kəmal, Mizzi, c. 10, s. 12-17.
[854] əs-Siqat, İbn Həbban, c. 4, s. 246; Məşahiru uləmail-əmsar, İbn Həbban, s. 130
[855] əl-Kamil, İbn Ədiy, c. 3, s. 208
[856] Umdətul-qari, Eyni, c. 1, s. 201
[857] Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 326
[858] Mərifətus-siqat, İcli, c. 1, s. 223
[859] əs-Siqat, İbn Həbban, c. 4, s. 45
[860] Təhzibul-kəmal, Mizzi, c. 2, s. 529-531
[861] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 4, s. 98-100
[862] Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 89; Təhzibut-təhzib, İbn Həcər, c. 1, s. 233

bildirmişlər. Çünki səhabənin "siqə" olmasını söyləmək Əhli-Sünnə hədis alimlərinin adəti deyil. Onların nəzərində səhabələr bütünlükdə ədalətli şəxslərdir.

Əsləmin Peyğəmbəri (s) gördüyünü deyənlər sırasında Muhəmməd ibn Sədin, İbn Əsirin, Mizzinin, Əlauddin Muğlətayinin (Bərqiyə istinadən), Eyninin, Süyutinin və başqalarının adlarını çəkmək olar. Muhəmməd ibn Səd onu Peyğəmbərlə (s) görüşənlərin sırasında qeyd edib.[863] İbn Əsir deyir: "Ömər ibn Xəttabın azad etdiyi köləsi Əsləm – Yəmən gənclərindən idi, Peyğəmbəri (s) görmüşdü".[864]

Mizzi deyir: "Peyğəmbərin (s) dövründə yaşamışdır".[865] Əlauddin Muğlətayi deyir: "Bərqi "Rəvatul-muvatta" kitabında "Peyğəmbəri (s) görmüş şəxslər" fəslində onun adını qeyd edir. Lakin onun Peyğəmbərdən (s) rəvayət etdiyi isbat olunmayıb".[866]

Eyni deyir: "Peyğəmbərin (s) yaşadığı dövrlərdə yaşayıb, lakin səhabələrin arasında adını heç kim qeyd etməyib".[867]

Süyuti yazır: "Peyğəmbəri (s) görüb, hicri 80-ci ildə vəfat edib. Həmin vaxt yüz on dörd yaşı var idi".[868]

Əhli-Sünnə alimlərinin nəzərində məşhur rəy budur ki, Ömər onu Peyğəmbərin (s) vəfatından sonra alıb. Bunu İbn Həcər "əl-İsabə" əsərində qeyd edib: "Məlumdur ki, Ömər onu Peyğəmbərin (s) vəfatından sonra alıb. İbn İshaq və digərləri də bunu deyiblər".[869]

Lakin onun səhabədən olduğu barədə fikir Əhli-Sünnə dəlillərinə daha uyğundur. Belə ki, Buxarinin də qeyd etdiyi kimi Əsləm yəmənli gənclərdəndir:

---

[863] "Tarixu mədinəti Diməşq" kitabından nəql edilərək, İbn Əsakir, c. 8, s. 346
[864] Usdul-ğabə, İbn Əsir, c. 1, s. 77
[865] Təhzibul-kəmal, Mizzi, c. 2, s. 283
[866] İkmalu təhzibul-kəmal fi əsmair-rical, Əlauddin Muğlətayi, c. 2, s. 134
[867] Umdətul-qari, Eyni, c. 14, s. 304
[868] Təbəqatul-huffaz, Süyuti, c. 1, s. 2
[869] əl-İsabə, İbn Həcər, c. 1, s. 215

“Ömər ibn Xəttabın köləsi Əsləm Qüreyşi, Ədvi, Mədəni, (künyəsi) Əbu Xaliddir, Yəmən gənclərindəndir”.[870]

Yəmən Peyğəmbərin (s) zamanında İmam Əli (ə) tərəfindən fəth edilmişdi. Əhli-Sünnə rəvayətlərinə əsasən bütün qənimətləri Peyğəmbər (s) üçün götürərək Vida həccinə gəlmişdi. Əhli-Sünnənin səhabələr üçün qeyd etdiyi ilk xüsusiyyət də Vida həccində iştirak etməkdir.

Mümkün deyil ki, Əsləm Qüreyşinin Vida həccində iştirak etdiyi iddia olunsun, lakin bununla bərabər Peyğəmbəri (s) görmədiyi və sözünü eşitmədiyi deyilsin!

Bunu təsdiqləyən dəlil İbn Mundənin vasitəsilə Əbdülmunim ibn Bəşirdən, o da Əbdürrəhman ibn Zeyd ibn Əsləmdən, o da atasından, o da babasından nəql etdiyi rəvayətdir: “O, Peyğəmbərlə (s) birlikdə iki səfərdə olmuşdu”.[871]

Bu faktla Ömərin Əsləmi Peyğəmbərin (s) vəfatından sonra Məkkədə kölə olaraq almasının arasında heç bir ziddiyyət yoxdur.[872] Belə ki, Ömərin onu alması, onun İslamı qəbul etməsi, Peyğəmbəri (s) görməsi və sözünü eşitməsinin arasında bir vacib şərt yoxdur. Ömərin onu Peyğəmbərin (s) vəfatından sonra aldığı barədə dəlil mövcuddur, həmçinin onun Peyğəmbərin (s) dövrünü gördüyü barədə də dəlil var. Bu dəlillərin arasında bir ziddiyyət yoxdur ki, onlardan birini tərcih edərək digərini kənara ataq. Bu iki dəlil Əsləmin Peyğəmbəri (s) gördüyünə, onun vəfatından sonra isə Ömərin Əsləmi kölə olaraq aldığına dəlalət edir. Onun Peyğəmbəri (s) görməsi və ya sözünü eşitməsi Ömərin onu almasına bağlı deyil. Ola bilsin ki, o, özünün əvvəlki ağasının köləsi olduğu vaxt Peyğəmbəri (s) görmüş və sözünü eşitmişdir.

Lakin bu, rəvayətin səhih dəlil olmasına heç bir təsir göstərmir. Onların arasında Əsləmin səhabə olub-olmaması barədə fikir ayrılığı olsa da, onlar onun

---

[870] ət-Tarixul-kəbir, Buxari, c. 2, s. 23; ət-Tarixus-sağir, c. 1, s. 164

[871] Usudul-ğabə, c. 1, s. 78; İkmalu təhzibul-kəmali fi əsmair-rical, c. 2, s. 134; əl-İsabə, c. 1, s. 215; Camiul-əhadis, Süyuti, c. 32, s. 472; Kənzul-ümmal, Müttəqi Hindi, c. 13, s. 274

[872] Tarix, Yəhya ibn Muin, c. 1, s. 165; Tarixu mədinəti Diməşq, İbn Əsakir, c. 8, s. 341-343; Təzkiratul-huffaz, Zəhəbi, c. 1, s. 53; Siyəru əlamin-nübəla, c. 4, s. 98

böyük tabeinlərdən olduğunda həmfikirdirlər. Tabein saxtakar olmadığı təqdirdə onun mürsəl nəql etdiyi hədislər də Əhli-Sünnənin nəzərində dəlil hesab olunur. Molla Əli Qari səhabə olub-olmadığında ixtilaf yaranan şəxslərin mürsəl hədislərinin qəbul edilməyəcəyi barədə fikri rədd edərək deyir: "Tabeinin mürsəl hədisi Əhli-Sünnə alimləri nəzərində (etibarlı) dəlildir, Barəsində səhabə olub-olmadığı barədə fikir ayrılığı olan şəxsin sözü bəs necə dəlil olmasın?!"[873]

Bir çox Əhli-Sünnə alimi bu rəvayətin sənədinin səhih olduğunu bildirmişdir. Hakim "Müstədrək"də hədisi hekayə etmədən qeyd edir və deyir: "Bu, Buxari və Müslimin şərtinə əsasən səhih hədisdir, lakin onu kitablarında qeyd etməyiblər".[874]

Müasir kitab müəlliflərlərindən olan dr. Həsən ibn Fərhan Maliki deyir: "Onun yalan və səhih olmadığını zənn edirdim. Sonda qüclü sənədlə rəvayət edildiyini gördüm. Onlardan biri də İbn Əbu Şeybənin "əl-Müsənnəf"dəki rəvayətidir".[875]

Rəvayətin dəlaləti

Bu rəvayət (mütabiq) aydın dəlalətlə Ömərin Fatimənin (ə) evini yandırmaqla təhdid etdiyinə dəlalət edir. Həmçinin bunu etmək məqsədinin olduğuna və qəti qərar verdiyinə işarə edir: *"Lakin Allaha and verirəm ki, bu mənim üçün maneə deyil. Əgər bu kəslər yenə də sənin yanına toplaşsalar, evin onlarla birgə yandırılmasını əmr edəcəyəm".*

Ömər oradan ayrıldıqdan sonra onlar yenə də gəldilər. Fatimə dedi: "Bilirsiniz, Ömər indicə bura gəlmişdi. Allaha and içdi ki, əgər siz bura qayıtsanız sizinlə birgə evi yandıracaq. Allaha and olsun ki, söz verdiyini edəcək. Çıxıb gedin, özünüz məşvərət edin, mənim yanıma qayıtmayın".

---

[873] Mirqatul-məfatih şərhu mişkatil-məsabih, Əli ibn Soltan Muhəmməd Qari, c. 9, s. 434

[874] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 155

[875] "Qiraətun fi kutubil-əqaid əl-Məzhəbul-Hənbəli nəmuzəcən", Həsən ibn Fərhan Maliki, s. 52, "Əbu Bəkrin xilafəti Ömərə vəsiyyət etməsi və müsəlmaların buna münasibəti" fəsli.

Burada Ömərin Fatimənin (ə) evini yandırmaqla təhdid etdiyinə açıq dəlalət olduğu kimi, onun Peyğəmbərin (s) evini yandırıcağına da dəlalət var. Belə ki, Ömər deyir: *"Ey Peyğəmbərin qızı, Allaha and olsun ki, bizə sənin atandan, atandan sonra da səndən daha sevimli şəxs yoxdur. Lakin Allaha and verirəm ki, bu mənim üçün maneə deyil..."* Bunu Ömərin edəcəyini Zəhra da and içərək təsdiqləyir: "Allaha *and olsun ki, söz verdiyini edəcək".*

Həmçinin *"geri qayıtmadılar"* sözü də Ömərin Peyğəmbər qızının evini yandırmaqda qərarlı olduğunu bir daha sübut edir. Eləcə də, Fatimənin (ə) onun evində toplaşmamaları istəməsi evini və Peyğəmbər ailəsini (ə) qorumaq, onların da bu istəyi yerinə yetirərək ora qayıtmamaları Ömərin bunu edəcəyinə yəqinliklərinin hasil olduğunu göstərir.

Ömərin and içməsi, Zəhranın da bu anda əsaslanaraq öz andı ilə təsdiq etməsi, eləcə də Fatimənin (ə) tələbilə İmam Əli (ə) ilə Zübeyrin bunu yerinə yetirməsi Ömərin Peyğəmbər ailəsinin və vəhy nazil olan evi yandırması təhdidinin real olduğuna dəlalət edir.

Bu rəvayətdə evin yalnız yandırılması ilə təhdid edilməsi qarşıdakı vaxtlarda belə bir şeyin baş verməyəcəyi demək deyil. Əksinə, rəvayət aydın şəkildə Fatimənin (ə) bu təhdidi ciddi qəbul etdiyinə dəlalət edir. Bunun nəticəsində də İmam Əlidən (ə) və Zübeyrdən onun evindən çıxmalarını istəyir ki, Peyğəmbər ailəsinin evinin yandırılmasının qarşısını alsın. Onlar da Fatimənin (ə) sözünü tam ciddiyyəti ilə qəbul edərək onun istəyini yerinə yetirirlər.

B. Süleyman Teymi və İbn Ovnun rəvayəti

Bəlazuri (vəfatı: h.q 279) "Ənsabul-əşraf" kitabında Mədaininin vasitəsilə Məsləmə ibn Müharibdən, o da Süleyman Teymi və İbn Ovndan belə dediklərini rəvayət edir: *"Əbu Bəkr Əliyə xəbər göndərib beyət etməsini istədi. Lakin Əli beyət etmədi. Ömər gəldi, əlində yanan taxta var idi. Qapıda Fatimə onu qarşılayıb dedi:*

"Ey Xəttabın oğlu! Mənim üzümə qapımı yandıracaqsan?!" Dedi: "Bəli, bu sənin atanın gətirdiyindən (dinindən) daha vacibdir".[876]

Bu rəvayətin sənədi səhihdir. Ricalındakı ravilərin hamısı etibarlı (siqə) şəxslərdir.

Mədaini – Əli ibn Muhəmməd ibn Abdullah ibn Əbu Seyfdir, etibarlı (siqə) şəxslərdəndir. Onun barəsində Yəhya ibn Muin deyir: "siqə, siqə, siqədir".[877] Həmçinin Zəhəbi[878] və başqaları da onun "siqə" olduğunu söyləyib.

Məsləmə ibn Müharib Ziyadini İbn Həbban "əs-Siqat" kitabında qeyd edib.[879]

İsmail ibn Əlyyə Buxarinin "Səhih" kitabının ravilrindəndir. Həmin kitabın bir çox fəslində ondan səhih hədislər nəql etmişdir.[880]

Süleyman ibn Tərxan Teymini Yəhya ibn Muin, Nəsai,[881] İbn Səd,[882] Əhməd ibn Hənbəl,[883] İbn Həbban,[884] Zəhəbi[885] və İbn Həcər[886] etibarlı (siqə) saymışlar. Şöbə onun barəsində deyir: "Süleyman Teymidən daha doğrudanışan bir kəsi görmədim".[887] Həmçinin deyir: "İbn Ovnla Süleyman Teyminin şəkki belə, yəqindir".[888]

---

[876] Ənsabul-əşraf, Bəlazuri, c. 1, s. 268

[877] Tarixu Bağdad, Xətib Bağdadi, c. 12, s. 55; Siyəru əlamin-nübəla, c. 10, s. 401; Mizanul-itidal, c. 3, s. 153; Tarixul-islam, c. 16, s. 290; Lisanul-mizan, İbn Həcər, c. 4, s. 253

[878] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 10, s. 400-402

[879] əs-Siqat, İbn Həbban, c. 7, s. 490

[880] Bax: Səhih, Buxari, c. 1, s. 97, "Bud barədə qeydlər" babı; c. 2, s. 1331, "İnəyin zəkatı" babı; c. 3, s. 30

[881] Təhzibul-kəmal, Mizzi, c. 12, s. 8; Siyəru əlmain-nübəla, Zəhəbi, c. 6, s. 197

[882] ət-Təbəqatul-kubra, Muhəmməd ibn Səd, c. 7, s. 252-253

[883] əl-Cərhu vət-tədil, Razi, c. 4, s. 125; Təhzibul-kəmal, Mizzi, c. 12, s. 8, s. 8; Təhzibut-təhzib, İbn Həcər, c. 4, s. 176

[884] əs-Siqat, İbn Həbban, c. 4, s. 300; Məşahiru uləmail-əmsar, s. 151

[885] əl-Kaşifu fi mərifəti mən ləhu rivayətun fi kutubis-sittə, Zəhəbi, c. 1, s. 461

[886] Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 387

[887] Hədisu Xeysəmə, s. 167; əl-Cərhu vət-tədil, Razi, c. 1, s. 142, c. 4, s. 124-125; ət-Tədilu vət-təcrih, Süleyman ibn Xələf Baci, c. 3, s. 1260-1261; Təhzibul-kəmal, c. 12, s. 8; Təzkiratul-huffaz, Zəhəbi, c. 6, s. 196; Təhzibut-təhzib, İbn Həcər, c. 4, s. 176 və s. mənbələr

[888] Təbəqatul-muhəddisin bi İsfahan, Abdullah ibn Həbban, c. 2, s. 357; Təhzibul-kəmal, c. 12, s. 8; Suyəru əlamin-nübəla, Zəhəbi, c. 1, s. 150

Ondan Buxari, Müslim, Əbu Davud, Tirmizi, Nəsai, İbn Macə və başqaları hədis nəql ediblər.

Abdullah ibn Ovn ibn Ərtiban Muznini Yəhya ibn Muin, Nəsai,[889] Əbu Hatəm,[890] İbn Səd,[891] İbn Həbban,[892] İcli,[893] Zəhəbi[894] və İbn Həcər[895] onun etibarlı (siqə) olduğunu söyləyiblər.

Şöbə deyir: "İbn Ovnun "Mən zənn edirəm ki, bunu eşitmişəm..." deyərək hədis söyləməsi mənə etibarlı (siqə) bir şəxsin "mən həqiqətən də bunu eşitmişəm" deməsindən daha sevimlidir".[896]

Əvzai onun barəsində deyir: "Süfyan və İbn Ovn ölsələr camaat (ravi cəhətdən) bərabər səviyyədə olacaq".[897]

Ondan Buxari, Müslim, Əbu Davud, Tirmizi, Nəsai, İbn Macə və başqaları hədis nəql ediblər.

Rəvayətin sənədindəki müşkül

Bu rəvayətdə söhbət onun mürsəl olması barədədir. Belə ki, İbn Ovn və Süleyman Teymi Əbu Bəkri görməmmişlər. İbn Ovf hicri 150-ci ildə, Süleyman Teymi isə 143-cü ildə vəfat ediblər. Halbuki hadisə hicrətin 11-ci ilində baş verib.

Lakin bu fakt rəvayətin dəlil olmasına maneə yaratmır. Çünki Süleyman Teymi Ənəs kimi bəzi səhabələrdən hədis eşidib. İcli deyir: "Süleyman ibn Tərxan Teymi

---

[889] Təhzibut-təhzib, İbn Həcər, c. 5, s. 305

[890] ət-Tədilu vət-təcrih, Baci, c. 2, s. 937; Tarixu mədinəti Diməşq, c. 31, s. 353; Təhzibut-təhzib, İbn Həcər, c. 5, s. 305

[891] ət-Təbəqatul-kubra, Muhəmməd ibn Səd, c. 7, s. 261

[892] əs-Siqat, İbn Həbban, c. 7, s. 4

[893] Mərifətus-siqat, İcli, c. 2, s. 49

[894] əl-Kaşifu fi məərifəti mən ləhu rivayətun fi kutubis-sittə, Zəhəbi, c. 1, s. 582; Tarixul-İslam, c. 9, s. 460

[895] Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 520

[896] əl-Cərhu vət-tədil, Razi, c. 5, s. 131; Təhzibut-təhzib, İbn Həcər, c. 5, s. 305

[897] əl-Cərhu vət-tədil, Razi, c. 1, s. 203, 283; Tarixu mədinəti Diməşq, c. 7, s. 123, c. 31, s. 343; əl-Kaşifu fi mərifəti mən ləhu rivayətun fi kutubis-sittə, Zəhəbi, c. 1, s. 582; Təzkiratul-huffaz, c. 1, s. 156; Siyəru əlamin-nübəla, c. 6, s. 367; Tarixul-islam, c. 9, s. 461

– tabeindir, siqədir, Bəsrə əhlinin ən yaxşı şəxslərindəndir... Ənəsdən hədis eşidib”.[898]

Zəhəbi deyir: “Süleyman ibn Tərxan Əbülmötəmər Teymi, Bəsrədə olub, ağalardan biridir, Ənəsdən və Əbu Osman Hindidən hədis eşidib”.[899]

İbn Ovna gəldikdə, onun da bəzi səhabələrdən hədis eşitməsi mümkündür. Necə ki, bunu Səfədi “əl-Vafi bil-vafiyyat” kitabında qeyd edir: “Abdullah ibn Ovn Ərtiban – Əbu Ovn Muzni, hafizdir, elm imamlarından biridir... Bir dəstə səhabədən hədis eşitməsi mümkündür. Siqə şəxs idi, çox hədis rəvayət edib, osmanidir (Osmanın tərəfdarlarındandır)”.[900]

Buna əsasən, rəvayətin sənədində qopuqluq yoxdur. Belə ki, İbn Ovnla Süleyman Teyminin səhabələrdən hədis eşitmələri mümkündür.

Bundan əlavə, Teymi və İbn Ovn tabeinlərdəndir. Aydın şəkildə bəyan olunub ki, əgər tabein saxtakar deyilsə, onun nəql etdiyi mürsəl hədislər səhabədən eşitdiyi və ya özü iştirak etdiyi kimi qəbul edilir. İbn Həcər deyir: “Əgər o (tabein) sxatakar deyilsə, yerinə yetirdiyi əmələri ya eşitdiyi, ya da gördüyü ehtimal olunur”.[901]

Bir çox Əhli-Sünnə alimi İbn Ovnun hədislərdə saxtakarlıq etməyən həmin o az dəstəyə aid olduğunu qeyd ediblər. İbn Cəd öz “Müsnəd”ində, Nəsai “Zikru əsmail-mudəllisin”də, Mizzi “Təhzibul-kəmal”da, Zəhəbi “Siyəru əlamin-nübəla”da, İbn Həcər Əsqəlani “Təhzibut-təhzib” və “Təbəqatul-mudəllisin”də, Bədrəddin Eyni “Məğanil-əxyar”da Şöbəyə istinadən yazırlar: “Hədis əshabından sxtakarlıq etməyəni görmədim, yalnız Əmir ibn Mərrə və İbn Ovndan savayı”.[902]

Buna əsasən, rəvayətin dəlil olmasında heç bir şübhə yoxdur.

---

[898] Mərifətus-siqat, İcli, c. 1, s. 43

[899] əl-Kaşifu fi məərifəti mən ləhu rivayətun fi kutubis-sittə, Zəhəbi, c. 1, s. 461

[900] əl-Vafi bil-vəfiyyat, Səfədi, c. 17, s. 211-212

[901] Fəthul-Bari, İbn Həcər Əsqəlani, c. 8, s. 716

[902] Müsnəd, İbn Cəd, c. 1, s. 24; Zikrul-mudəllisin, Nəsai, c. 1, s. 59; Təhzibul-kəmal, c. 22, s. 235; Siyəru əlmain-nübəla, c. 5, s. 197; Təbəqatul-mudəllisin, İbn Həcər Əsqəlani, c. 1, s. 58; Təhzibut-təhzib, c. 8, s. 89; Məqanil-əxyar, Bədrəddin Mahmud ibn Əhməd Eyni, c. 3, s. 468

Əlavə olaraq qeyd edək ki, Bəzən deyilir: Hicrətin ilk əsrinin böyük şəxsiyyətlərinin bir hadisənin baş verdiyi barədə etirafları onun həqiqətən baş verdiyinin isbat üçün kifayət edir. Xüsusilə də, belə şəxslər Süleyman Teymi və İbn Ovn kimi alimlər olduqda. Onlar bir hadisəni görməsələr belə, baş verdiyi barədə sözləri kifayət edir. Çünki onların yalan söylədiyi və ya yalançı şəxsdən bu hadisəni nəql etmələri qeyri-mümkündür, belə ki, sonrakı nəsillər onların etibarlı (siqə) olduğunu təsdiqləmişlər. Əksər Əhli-Sünnə alimlərinin etiqadına əsasən, İbn Ovnun və ya Teyminin şəkki digərlərinin yəqinindən əfzəldir.

Rəvayətin dəlaləti

Rəvayət açıq şəkildə və birbaşa Ömərin Peyğəmbər (s) qızının evini yandırmaqla təhdidinə və bunu etməkdə qərarlı olduğuna dəlalət edir. Bunu rəvayətdəki sözlərdən anlayırıq: *"...Ömər əlində bir od parçası ilə gəldikdə Fatimə onunla qapıda rastlaşıb dedi: "Ey Xəttabın oğlu, mənim üzümə evimi yandırmaq istəyirsən?" Ömər "Bəli" deyə cavab verdi".*

"Ey Xəttabın oğlu, mənim üzümə evimi yandırmaq istəyirsən?" Ömər "Bəli" deyə cavab verdi" sözləri təhdidin baş verdiyini göstərir. Həmçinin *"...Ömər əlində bir od parçası ilə gəldikdə..."* bunu etməyə qərar olduğuna dəlalət edir. Rəvayətdən alınan bu miqdar dəlalət iddia üçün kifayət edir.

C. Ziyad ibn Küleybin rəvayəti

Təbəri (vəfatı: h.q 310) "Tarix"ində İbn Hümeydə istinadən Cərirdən, o da Müğeyrədən, o da Ziyad ibn Küleybdən nəql edir: *"Ömər Əlinin evinə gəldi. Orada Təlhə, Zübeyr və bir dəstə mühacir var idi. Dedi: "Allaha and olsun ki, ya sizinlə birgə evi yandıracağam, ya da çıxıb beyət edin". Zübeyr qılıncını sıyıraraq çölə çıxdı.*

Bu zaman ayağı büdrədi və əlindəki qılınc yerə düşdü. Onun üzərinə atılıb yaxaladılar".[903]

Rəvayətin sənədi səhihdir, ravilər etibarlı (siqə) şəxslərdir:

İbn Hümeyd – Muhəmməd ibn Hümeyd ibn Həyyan Təmimidir, onuncu təbəqədəndir, tabein tabeinlərindən hədis eşidib, hicrətin 248-ci ilində vəfat edib.[904]

Əbu Davud, Tirmizi, İbn Macə, Əhməd ibn Hənbəl, Yəhya ibn Muin və başqaları ondan rəvayət nəql ediblər.

Yəhya ibn Muin,[905] Əhməd ibn Hənbəl[906] və digərləri[907] kimi böyük alimlərdən bir dəstəsi də onun siqə olduğunu bəyan edib, onun ali dərəcəsinin olduğuna dəlalət edən sözlərlə tərifləyiblər, etibar, hifz və elm kimi sifətlərlə vəsf ediblər.

Cərir ibn Əbdülhəmid ibn Qurtuz-zabiyyə gəldikdə, İbn Muin,[908] Nəsai,[909] İbn Səd,[910] İcli,[911] İbn Həbban,[912] İbn Şahin,[913] Əbu Hatəm,[914] Zəhəbi[915] və İbn Həcər[916] onun etibarlı (siqə) ravi olduğunu söyləyiblər.

---

[903] Tarix, Təbəri, c. 2, s. 443

[904] əl-Cərhu vət-tədil, Razi, c. 7, s. 232; Tarixu Bağdad, c. 2, s. 255; Təhzibul-kəmal, c. 25, s. 97; Təqribut-təhzib, İbn Həcər, c. 2, s. 69

[905] əl-Cərhu vət-tədil, c. 7, s. 232; Tarixu əsmais-siqat, Ömər ibn Şahin, s. 208; Tarixu Bağdad, c. 2, s. 257, c. 11, s. 285; Təhzibul-kəmal, c. 19, s. 482, c. 25, s. 101; Təhzibut-təhzib, c. 7, s. 136

[906] Tarixu əsmais-siqat, Ömər ibn Şahin, s. 208

[907] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 11, s. 504; Mizanul-itidal, c. 3, s. 531; Tarixul-İslam, c. 18, s. 425-426; Tarixu Bağdad, c. 2, s. 256-257; Təhzibul-kəmal, c. 25, s. 151; Təhzibut-təhzib, c. 9, s. 112, 115

[908] Tarixu İbn Muin, Yəhya ibn Muin, s. 60

[909] Tarixu İbn Muin, Yəhya ibn Muin, c. 4, s. 550

[910] ət-Təbəqatul-kubra, Muhəmməd ibn Səd, c. 7, s. 381

[911] Mərifətus-siqat, İcli, c. 1, s. 267

[912] əs-Siqat, İbn Həbban, c. 6, s. 145

[913] Tarixu əsmais-siqat, Ömər ibn Şahin, s. 56

[914] Təhzibul-kəmal, Mizzi, c. 4, s. 550

[915] Təzkiratul-huffaz, Zəhəbi, c. 1, s. 271-272

[916] Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 158, c. 2, s. 66; Təhzibut-təhzib, İbn Həcər, c. 2, s. 65

Ondan Buxari, Müslim, Əbu Davud, Tirmizi, Nəsai və İbn Macə rəvayət nəql ediblər.

Müğeyrə, o, Müğeyrə ibn Muqsəm Zabiydir. O da həmçinin etibarlı (siqə) şəxslərdəndir. İbn Muin, Əbu Hatəm, Nəsai,[917] İbn Səd,[918] İcli,[919] İbn Həbban,[920] İbn Şahin,[921] Zəhəbi[922] onu siqə saymışlar. "Mizanul-itidal"da deyir: "İmamdır, siqədir. Lakin Əhməd ibn Hənbəl onun yalnız İbrahim Nəxəidən olan rəvayətini zəif hesab edib. Halbuki həmin rəvayət "Səhih"lərdə də varid olub".[923]

"...Halbuki həmin rəvayət "Səhih"lərdə də varid olub" sözü Əhməd ibn Hənbəlin sözünə açıq-aydın etirazdır.

Onun rəvayətləri Buxarinin, Müslimin, Əbu Davudun, Tirmizinin, Nəsainin və İbn Macənin kitablarında var.

Ziyad ibn Küleyb Təmimi Hənzəli, o da siqə şəxslərdəndir. Onu Nəsai,[924] İcli,[925] İbn Həbban,[926] Zəhəbi[927] və İbn Macə[928] etibarlı ravi saymışlar.

Ravilərindən olduğu rəvayətləri Müslim, Əbu Davud, Tirmizi və Nəsai öz kitablarında nəql ediblər.

Rəvayətin sənədindəki irad

Rəvayətin sənədindəki ravilərin hamısının siqə olduğu qeyd edildi. Buna əsasən də həmin rəvayət dəlil göstərilmək səlahiyyətinə malik olur. Lakin bir dəstə rical əhli tərəfindən rəvayətin sənədindəki ravilərdən bir neçəsinin zəif

---

917 Təqribut-təhzib, İbn Həcər, c. 28, s. 399, 400, 401; Təhzibut-təhzib, c. 2, s. 65
918 ət-Təbəqatul-kubra, Muhəmməd ibn Səd, c. 67, s. 337
919 Mərifətus-siqat, İcli, c. 2, s. 293
920 əs-Siqat, İbn Həbban, c. 7, s. 464
921 Tarixu əsmais-siqat, Ömər ibn Şahin, s. 219
922 Təzkiratul-huffaz, Zəhəbi, c. 1, s. 143; Siyəru əlamin-nübəla, c. 6, s. 10
923 Mizanul-itidal, Zəhəbi, c. 4, s. 165
924 Təhzibul-kəmal, Mizzi, c. 9, s. 506
925 Mərifətus-siqat, İcli, c. 1, s. 384
926 əs-Siqat, İbn Həbban, c. 6, s. 327; Məşahiru uləmail-əmsar, s. 261
927 əl-Kaşifu fi mərifəti mən ləhu rivayətun fi kutubis-sittə, Zəhəbi, c. 1, s. 416
928 Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 323; Təhzibut-təhzib, c. 3, s. 329

olduğu bildirilib. Nəsai və Cüzcani Muhəmməd ibn Hümeydi zəif saymışlar. Mizzi "Təhzibul-kəmal"da bu ravinin tərcümeyi-halında yazır: "Nəsai deyir: "Etibarlı deyil". İbrahim ibn Yaqub Cüzcani deyir: "Qeyri-siqədir".[929]

Ancaq bu sözlər bir neçə cəhətdən məqbul sayılmır:

Birinci: Nəsai ravilərin etibarlı sayılması cəhətindən olduqca bəhanə axtaran, hər şeyə irad tutandır. Elə bir həddə ki, hətta Əhli-Sünnənin dörd məzhəb imamlarından biri, Hənəfi məzhəbinin başçısı olan Əbu Hənifəni belə zəif hesab etmişdir. Luknəvi "ər-Rəfu vət-təkmil" kitabında deyir: "Nəsainin Əbu Hənifə barədəki bu sözləri qəbuledilməzdir. O, olduqca bəhanə axtaran və hər şeyə irad tutan bir rical alimidir".[930]

Cüzcaninin isə Möminlərin əmirinə (ə) ədavəti ilə tanınırdı. İbn Ədiy "əl-Kamil" kitabında deyir: "Cüzcani Dəməşqdə yaşayırdı. Minbərdə xütbə söyləyənlərdən idi. Əhməd ibn Hənbəl onunla yazışırdı. Onunla yazışmasından ürəklənərək məktubları minbərdən camaata da oxuyurdu. Dəməşq əhlinin Əliyə qarşı tutduqları hücum yolunun qatı tərəfdarı idi".[931]

İbn Həcər onun barəsində deyir: "əs-Sələmi Dəraqutninin onun etibarlılığı barədəki sözlərindən sonra belə dediyini nəql edir: "Lakin o Əlidən üz döndərmiş adamlardan idi. Hədis əhli onun qapısının qarşısına toplaşmışdı. Cariyəsi bir cücə çıxararaq onu kəsmələrini camaatdan istədi. Lakin onu kəsəcək bir kəs tapılmadı. Cüzcani dedi: "Sübhanallah, bir cücəni kəsməyə adam tapılmır, amma Əli səhər tezdən iyirmi mindən çox müsəlmanı qılıncdan keçirdi".[932]

Buna əsasən, Nəsai və Cüzcaninin Muhəmməd ibn Hümeyd Razini zəif bilməsi rəvayətin sənədinə zərər yetirmir, onun dəlil olmasını batil etmir. Belə ki, İbn Muin, Əhməd ibn Hənbəl, Təyalusi kimi rical alimlərinin onun etibarlı (siqə) şəxs

---

[929] Təhzibul-kəmal, Mizzi, c. 25, s. 105

[930] ər-Rəfu vət-təkmilu fil-cərhi vət-tədil, Luknəvi Hindi, c. 1, s. 121

[931] əl-Kamil, Abdullah ibn Ədiy, c. 1, s. 310

[932] Mizanul-itidal, Zəhəbi, c. 4, s. 448; Təhzibut-təhzib, İbn Həcər Əsqəlani, c. 1, s. 159; Lisanul-mizan, c. 6, s. 301

olduğu barədəki sözləri qarşısında bəhanə axtaran və hər şeyə irad tutan Nəsainin və ya İmam Əliyə (ə) ədavəti ilə tanınan Cüzcaninin onu zəif bilməsi heç bir əhəmiyyət kəsb etmir, onların dəlilləri qarşısında duruş gətirə bilmir.

İkinci: Barəsində ixtilaf olan rəvayətlərin hökm qaydasına əsasən, onun rəvayəti "həsən" dərəcəsindədir. "Həsən" rəvayətin dəlil olduğuna isə şübhə yoxdur. İbn Həcər "əl-Qovlul-musəddəd" kitabında Qəzə ibn Süveyd barədəki ixtilafı qeyd etdikdən sonra yazır: "Bu imamların sözlərindən hasil olur ki, onun hədisləri "həsən" dərəcəsindədir".[933]

"Təhzibut-təhzib"də İbn Qəttandan nəql edərək Abdullah ibn Saleh ibn Muhəmməd ibn Müslim Cəhninin tərcümeyi-halında deyir: "O, doğrudanışan şəxsdir, onun barəsində hədislərini etibrdan salacaq heç bir söz isbat olunmayıb. Yalnız barəsində ixtilaf mövcuddur. Nəticə olaraq isə hədisləri "həsən"dir".[934]

Dr. Muhəmməd Nasir Albani və başqaları bu qaydaya əsasən bir çoxlarının rəvayətlərini səhih hesab etmişlər.[935]

Buna görə də, rəvayətin ravilərindən birini alimlərin zəif hesab etməsi həmin rəvayəti etibardan salmaz. Onu yalnız "həsən" səviyyəsinə endirər. "Həsən" rəvayətin "səhih" kimi dəlil olduğuna isə heç kəsin şübhəsi yoxdur.

Eləcə də, hətta Muhəmməd ibn Hümeyd barədə ixtilafın olduğunu qəbul etsək belə, bu, rəvayətə zərər yetirmir və onun dəyərini azaltmır. Çünki bu ixtlaf rəvayəti "həsən" səviyyəsinə endirmiş olur. "Həsən" rəvayətdən dəlil kimi istifadə etməyin problemi isə yoxdur.

Nəticə: Rical alimlərinin Muhəmməd ibn Hümeyd barədəki ixtilafı sənədə təsir göstərmir. Çünki onu pisləyənlər ya Nəsai kimi olduqca bəhanə axtaran və hər şeyə irad tutan, ya da İmam Əliyə (ə) düşmənçiliyi ilə tanına Cüzcani kimi şəxslərdir. Bu cür adamların İbn Hümeydi zəif hesab etməsi Yəhya ibn Muin və

---

[933] əl-Qovlul-musəddəd, İbn Həcər Əsqəlani, c. 1, s. 30

[934] Təhzibut-təhzib, c. 5, s. 228

[935] Bax: Zilalul-cənnəti, Albani, c. 1, s. 131, hədis 323; İrvaul-ğalil, Albani, c. 5, s. 109

Əhməd ibn Hənbəl kimi digər rical alimlərinin onu "siqə" hesab etməsinin qarşısında əhəmiyyət kəsb etmir.

Bundan əlavə, barəsində ixtilaf olan şəxsin rəvayəti "həsən" hökmündədir. Dəlil göstərilmə məqamında isə o "səhih" kimidir, xüsusilə də, tarixi hadisələr mövzusunda. Bizim mövzumuz da bu qəbildəndir.

Rəvayətin sənədindəki başqa bir irad

Rəvayətin sənədinə yönəlmiş başqa bir irad da Ziyad ibn Küleybin hadisəyə şahid olmamasıdır. O, müəyyən şəxslərin vasitəsilə hadisəni nəql edir. Beləliklə də rəvayətin sənədində qopuqluq yaranır.

Bunan cavaında deyə bilərik ki, bu irad da rəvayətin dəlil olmasına mənfi təsir göstərmir. Çünki Ziyad ibn Küleyb tabeinlərdəndir. Tabein saxtakar olmadığı təqdirdə onun mürsəl rəvayətinin Əhli-Sünnə nəzərində dəlil olduğunu yuxarıda qeyd etdik.

Bundan əlavə, ilk əsrin alimlərinin bir hadisənin baş verdiyini etiraf etmələri onun baş verdiyini isbat etmək üçün yetərli amildir. Xüsusilə də, İbn Küleybin nəqlində qətiyyət və yəqin var. Bu isə hadisəni səhabədən eşitdiyini məlum edir. Həmçinin onun şeyxlərinin hamısı da etibarlı şəxslərdir (siqələrdir). Onlardan:

- İbrahim Nəxəi. Zəhəbi onun tərcümeyi-halında deyir: "İbrahim Nəxəi fəqihdir, təqva və xeyirxahlıqla tanınırdı, şöhrətdən çəkinirdi. Elm rəislərindən idi".[936]

- Səid ibn Cübeyr. İbn Həcər onun tərcümeyi-halında yazır: "Səid ibn Cübeyr etibarlıdır (siqədir), dürüstdür, fəqihdir".[937]

- Amir Şəbi. İbn Həcər onun tərcümeyi-halında yazır: "Amir Şəbi siqədir, məşhurdur, fəqih və fəzilət sahibidir".[938]

---

[936] əl-Kaşifu fi məərifəti mən ləhu rivayətun fi kutubis-sittə, Zəhəbi, c. 1, s. 228

[937] Təqribut-təhzib, İbn Həcər Əsqəlani, c. 1, s. 234, rəqəm 2278

[938] Təqribut-təhzib, İbn Həcər Əsqəlani, c. 1, s. 278, rəqəm 3092

- Füzeyl ibn Əmr Fəqihi. İbn Həcər onun tərcümeyi-halında yazır: "füzeyl ibn Əmr Fəqihi siqədir".[939]

Nəticə: Ziyad ibn Küleybin rəvayətinin mürsəl olduğu barədə deyilənlər rəvayətin dəlil kimi qəbul edilməsinə təsir etmir. Çünki o, tabeindir və saxtakar deyil. Saxtakar olmayan tabeinlərin mürsəl rəvayətlərinin Əhli-Sünnə nəzdində dəlil olduğunu yuxarıda qeyd etmişdik.

Bundan əlavə, ilk əsrin alimlərinin bir hadisənin baş verdiyini etiraf etmələri onun baş verdiyini isbat etmək üçün yetərli amildir. Xüsusilə də, İbn Küleybin nəqlində qətiyyət və yəqin var. Bu isə hadisəni səhabədən eşitdiyini məlum edir. Həmçinin onun şeyxlərinin hamısı da etibarlı şəxslərdir (siqələrdir).

Rəvayətin dəlaləti

Rəvayət aydın şəkildə Ömərin Peyğəmbərin (s) canının bir parçasının evini yandıracağı ilə təhdid etməsinə, bu işi görməkdə qərarlı olduğuna növbəti bir dəlildir. Necə ki, bu onun sözündən də anlaşılır: *"Allaha and olsun, ya sizi evlə birgə yandıracağam, ya da ki çıxıb beyət edəcəksiniz".* Təhdidini Allahın zatına andla müşayiət etməsi bunu etməkdə qətiyyətli və qərarlı olduğunu bir daha təsdiqləyir.

D. Əbdürrəhman ibn Ovfun rəvayəti

Təbərani (vəfatı: h.q 360) "əl-Möcamul-kəbir"də Əlvan ibn Davud Bəclidən, o da Hümeyd ibn Əbdürrəhman ibn Hümeyd ibn Əbdürrəhman ibn Ovfdan, o da Saleh Keysandan, o da Hümeyd ibn Əbdürrəhman ibn Ovfdan, o da atasından nəql edir: *"Əbu Bəkrin (r) ölümü ilə nəticələnən xəstəliyi zamanı baş çəkmək üçün yanına getdim. Salam verdim, gecəni necə keçirdiyini soruşdum. Qalxıb oturdu və dedi: "Allaha yaradan olaraq həmd etməklə sabahımı açdım". Sonra dedi: "Amma gördüyünüz kimi ağrıyıram. Ağrılarıma baxmayaraq, boynumda bir məsuliyyətiniz*

[939] Təqribut-təhzib, İbn Həcər Əsqəlani, c. 1, s. 448, rəqəm 5430

var. Özümdən sonra üzərinizdə bir vəsiyyət edirəm. Sizin üçün ən yaxşınızı seçdim. Sizin hamınız xilafəti ona verdiyimə görə qəzəblənirsiniz...

Sonra dedi: "Mən yalnız etdiyim və etmədiyim üç şey barədə təassüflənirəm, kaş ki, onları etməyəydim, digər üçün isə edəydim. Üç şey də var ki, Peyğəmbərdən (s) onlar barəsində soruşmaq istəyərdim. Etməmək istədiyim üç şey bunlardır: "Ey kaş, mən Fatimənin evinə hücum etməyəydim. Gərək onları öz başlarına buraxaydım və mənim əleyhimə müharibə əhdi-peymanı bağlayaydılar..."[940]

Bu rəvayət sənəd etibarı ilə tamdır. Yalnız Əlvan ibn Davud Bəlci cəhətindən barəsində söz var. Heysəmi "Məcməuz-zəvaid"də yazır: "Bunu Təbərani rəvayət edib. Orada Əlvan ibn Davud Bəlci var ki, zəif ravidir. Bu fakt isə rəvayəti inkar edir".[941]

Bu zəiflətmə rəvayətin sənədinə təsir etmir. Çünki bu rəvayət Aiz tərəfindən Leys ibn Sədə, o da Saleh ibn Keysana istinadən də nəql edib. Orada Əlvan ibn Davud Bəlci yoxdur. Zəhəbi Əlvan ibn Davud Bəlcinin yuxarıdakı rəvayətini nəql edəndən sonra yazır: "Bu sözlərlə və bundan daha uzun mətnlə İbn Vəhəb Leys ibn Səddən, o da Saleh ibn Keysandan nəql edib. Həmçinin Aiz də rəvayət edib".[942]

Leys ibn Səd bunu Saleh ibn Keysandan Əlvan ibn Davud olmadan rəvyaət edir. "Mən yatmışdım, yuxuda camaat mənə təqdim edilirdi..." hədisində Abdullah ibn Bükeyrin vasitəsilə nəql edildiyi kimi. İbn Əbdülbərr "əl-İstiab"da yazır: "Həsən ibn Həccac Zəyyat Təbəranidən, o da Həsən ibn Muhəmməd Mədənidən, o da Yəhya ibn Abdullah ibn Bükeyrdən, o da Leys ibn Səddən, o da Saleh ibn Keysandan, o da İbn Şihabdan, o da Əbu Əmamə ibn Səhl ibn Hüneyfdən, o da Əbu Səid Xudridən Peyğəmbərin (s) belə buyurduğunu eşitdiyini nəql edir: "Mən yatmışdım, yuxuda camaat mənə təqdim edilirdi..."[943]

---

[940] əl-Möcamul-kəbir, Təbərani, c. 1, s. 62
[941] Məcməuz-zəvaid, Heysəmi, c. 5, s. 203
[942] Tarixul-İslam, Zəhəbi, c. 3, s. 118
[943] əl-İstiab, İbn Əbdülbərr, c. 3, s. 1149

Buna əsasən, Heysəminin Təbəraninin kitabındakı Əlvan ibn Davuddan nəql olunan rəvayəti zəif bilməsi rəvayətə təsir etmir. Çünki Leys tərəfindən İbn Vəhəb yolu ilə Saleh ibn Keysandan da bu rəvayət nəql olunub.

Əlavə olaraq, İbn Həbban Əlvan ibn Davud Bəlcini etibarlı (siqə) şəxs sayır.[944]

Bəzən Əlvan ibn Davud Bəlci barəsində "hədisləri inkar olunan şəxs" deyilməsi diqqət çəkən nöqtədir. Belə ki, Üqeylinin onun tərcümeyi-halı barədəki aydın sözləri bu ravinin yalnız bir, bizim təqdim etdiyimiz hədisinin olduğu barədədir. Deyir: "Əlvan ibn Saleh də deyilir, onun yalnız bir hədisi var ki, o da etina olunası deyil. Yalnız bu hədislə tanınır... Bu hədis bizə Yəhya ibn Əyyub Əllafdan, Səid ibn Kuseyr ibn Əfirdən, o da Əlvan ibn Davuddan, o da o da Hümeyd ibn Əbdürrəhman ibn Hümeyd ibn Əbdürrəhman ibn Ovfdan, o da Saleh Keysandan, o da Hümeyd ibn Əbdürrəhman ibn Ovfdan, o da atasından nəql edir: *"Əbu Bəkrin (r) ölümü ilə nəticələnən xəstəliyi zamanı baş çəkmək üçün yanına getdim. Salam verdim, gecəni necə keçirdiyini soruşdum. Qalxıb oturdu..."*[945]

Onun yalnız bir və qəbul edilməyən hədisinin olması "hədisləri inkar olunan" hökmünü onun üzərində sabit etmir, onun pislənməsinə və ya zəif hesab edilməsinə rəvac vermir. Onların "hədisləri inkar olunan şəxs" barədəki sözlərini əvvəldə Hüseyn ibn Zeyd barədə söhbətimizdə təqdim etmişik. Həmin mövzuya müraciət edə bilərsiniz.

Məlum olan budur ki, "hədisləri inkar olunur" sözü zəifin digəri ilə müxalifəti olan rəvayətlərə deyilir. Yəni, əgər bir zəif hədis varsa və nəql olunan ondan üstün rəvayətlərə müxalifdirsə, zəifin hədisi "inkar olunan" adlanır. Lakin bəzi qədim alimlər bu termini ravinin özünə də şamil ediblər. Ancaq bu səbəblərdən heç biri Əlvan ibn Davudun üzərinə "hədisləri inkar olunur" adını qoymağa səbəb yaratmır. Onun adını İbn Həbban "əs-Siqat" kitabında qeyd edib. Üqeyli isə onun yalnız bir və qəbul edilməyən hədisinin olduğunu bildirib. Halbuki bu hədisi İbn

---

[944] əs-Siqat, İbn Həbban, c. 8, s. 526

[945] əz-Züəfa, Üqeyli, c. 3, s. 419

Vəhəbin vasitəsilə Leys Saleh ibn Keysandan rəvayət edib. Leys isə Buxarinin, Müslimin, Əbu Davudun, Tirmizinin, Nəsainin və İbn Macənin ravilərindəndir. İbn Həcər onun barəsində deyir: "Etibarlı, dürüst, fəqih, imam, məşhur şəxsdir. Yeddinci təbəqədəndir".[946]

Zəhəbi isə deyir: "Dürüst şəxsdir".[947]

Əgər Əlvan ibn Davudun hədisi dəlil götürülə bilməzsə, bəs o zaman Leysin rəvayəti necə?!

Rəvayətin dəlaləti

Rəvayətdəki *"Ey kaş, mən Fatimənin evinə hücum etməyəydim. Gərək onları öz başlarına buraxaydım və mənim əleyhimə müharibə əhdi-peymanı bağlayaydılar..."* cümləsi Fatimənin (ə) evinə hücumun baş verdiyinə və bu hücumla ehtiramına təcavüz edildiyinə, Əbu Bəkrin isə bu hərəkətdən peşmançılıq keçirdiyinə dəlalət edir.

Bunu təsdiqləyən digər amillər isə ilk iki xəlifənin həyatlarının sonlarında bu hadisədən duyduqları peşmançılığı tarix və sey alimlərinin nəql etdikləri sözlərdə ifadə etmələridir. Beyhəqi Cüveyribdən, o da Zəhhakdan nəql edir: "Əbu Bəkr ağaca yenicə qonmuş bir quşun yanından keçirdi. Dedi: "Ey quş, xoş halına! Uçursan, ağacın üzərinə qonursan, meyvələrindən yeyirsən və sonra da uçub gedirsən. Üzərində nə hesab və nə də əzab vədi var. Kaş ki, mən də sənin kimi olardım. Allaha and olsun ki, yol kənarında bir ağac olmaq, dəvələrin mənim yanımdan keçməsini, yarpaqlarımdan qırıb yeməsini, həzm etməsini və peyin olaraq xaric etməsini istərdim, amma bəşər olmaq istəməzdim". Ravi deyir: "Ömər (r) dedi: "Kaş ki, bir kəsin qoçu olaydım. O qədər bəsləyəydilər ki, qoçlardan ən kökü mən olaydım. Görüşlərinə gələn sevdikləri adam üçün məni

[946] Təqribut-təhzib, İbn Həcər, c. 2, s. 48

[947] əl-Kaşif, Zəhəbi, c. 2, s. 151

kəsəydilər. Ətimin bir hissəsini qızardar, bir hissəsini qurudub yeyərdilər, amma bəşər olmayaydım”.[948]

Əbu Nəim və Hənnad da bunu nəql ediblər. Orada: “...yeyərdilər, nəcis halında çıxarardılar, amma bəşər olmayaydım”.[949]

İbn Səd özünün “ət-Təbəqutul-kubra” kitabında Abdullah ibn Amir ibn Rəbiənin vasitəsilə nəql edir: “Ömər ibn Xəttabın bir saman çöpünü götürüb belə söylədiyini gördüm: “Kaş ki, bu saman çöpü kimi olardım! Kaş ki, xəlq olunmayaydım! Kaş ki, anam məni doğmayaydı! Kaş ki, var olmayaydım! Kaş ki, unudulub aradan getmiş olardım!”[950]

Bəs ilk iki xəlifə nə etmişdilər ki, peyin və nəcis olmağı diləyir, amma insan olmaq istəmirdilər?!

Fatimənin (ə) ehtiramına bir neçə dəfə edilən hücum

Qeyd edilən hadisələr zamanı evin yandırılması ilə bağlı təhdidlər və onların baş vermə vaxtları müxtəlif olmuşdur. Bu (İbn Əbu Şeybənin, Təbərinin və Bəlazurinin) rəvayətlər hadisələrin arasında qısa da olsa zaman fasilələrinin olduğu təsəvvürünü yaradır, rəvayətlərdəki kəlmə fərqlərindən doğan vahid bir hadisə olmadığını göstərir. Buna rəvayətlərin məcrası da dəlalət edir:

İbn Əbu Şeybənin rəvayətində Ömər təhdid edərək və bu təhdidini həyata keçirəcəyinə and içərək yalnız müəyyən şəxslərin Fatimənin (ə) evində toplaşmasını qadağan edir. lakin həmin şəxslərdən beyət tələb olunduğuna toxunmur.

Bu təhdidin arxasındakı məqsəd ancaq evə toplaşmağı qadağan etməkdir. Burada Ömər qorxuducu amillərə əl atmır, yalnız Allaha and içib sözlü hədələ ilə kifayətlənir.

---

[948] Şəbul-iman, Beyhəqi, c. 1, s. 485, hədis 787

[949] Hilyətul-övliya, Əbu Nəim İsfahani, c. 1, s. 52; əz-Zöhd, Hənnad ibn Səriy Kufi, c. 1, s. 257

[950] ət-Təbəqatul-kubra, Muhəmməd ibn Səd, c. 3, s. 360; Tarixul-xüləfa, Süyuti, c. 1, s. 116

Bu təhdid hadisələrin başlanğıcında, Əbu Bəkrin xilafəti tam ələ keçirməsindən əvvəl baş vermişdi.

Lakin Təbərinin rəvayətindən görünür ki, Ömər Peyğəmbər (s) qızının evinə toplaşmış şəxslərin hədələyərək onlardan beyət almağa çalışır. Bu məqsədlə Əlinin (ə) evinə gəlir. Orada isə həmin vaxtda Təlhə, Zübeyr və bir dəstə mühacir toplaşmışdı. Ömər deyir: "Allaha and olsun ki, ya evi sizinlə birgə yandıracağam, ya da çıxıb beyət edəcəksiniz".

Demək, bu hədənin məqsədi onlardan beyət almaqdır. Bu məsələ az qala onların arasında dava-dalaşa da səbəb olacaqdı. Xəlifənin adamları məsələni zor tətbiq etməklə də olsa həll etməyə çalışırdılar. Bu səbəbdən, evə toplaşanlardan Zübeyri yaxalayaraq əl-qolunu bağlayıb beyət etməsi üçün apardılar.

Bu təhdidlər Əbu Bəkr böyük çoxluğun beyətini aldıqdan sonra da davam etdi.

Bəlazurinin rəvayətində isə Ömər beyət almaq üçün İmam Əlini (ə) hədələyir və bu təhdidini həyata keçirəcəyinə də and içir. Təhdid isə birbaşa Əbu Bəkrin əmri ilə gerçəkləşir. *"Əbu Bəkr Əliyə xəbər göndərib beyət etməsini istədi. Lakin Əli beyət etmədi. Ömər gəldi, əlində yanan taxta var idi. Qapıda Fatimə onu qarşılayıb dedi: "Ey Xəttabın oğlu! Mənim üzümə qapımı yandıracaqsan?!" Dedi: "Bəli..."*

Bu təhdidin məqsədi isə şəxsən İmam Əlidən (ə) beyət almaq idi. Həmin vaxt Ömər hədələyici vasitələrdən də istifadə edərək əlində yanan taxta parçası ilə gəldi və İmamı (ə) iki seçim qarşısında qoydu: ya İmam (ə) beyət edəcək, ya da Ömər içəridəkilərlə birlikdə evi yandıracaq!

Bu təhdidlər Əbu Bəkrə beyət edilənədək davam edib.

Rəvayətlərin dəlalətləri barədə sözün xülasəsi

Ömərin Peyğəmbər (s) qızını evini yandırmaqla təhdid etməsi danılması mümkün olmayan, isbatlanmış bir həqiqətdir. Çünki bir çox mötəbər səhih rəvayətlər buna dəlalət edir, biri digərini gücləndirir. Buna əsasən, bir çox Əhli-Sünnə təhqiqatçıları da bunu söyləmişlər. İbn Əbdü Rəbbih Əndəlusi deyir: "Əbu

Bəkrə beyətdən boyun qaçıranlar Əli, Abbas, Zübeyr, Səd ibn Übadə idi. Əli, Abbas və Zübeyr Əbu Bəkr onları çölə çıxarmaq üçün Öməri göndərənədək Fatimənin evində oturmuşdular. Əbu Bəkr Ömərə demişdi: "Əgər imtina etsələr onları öldür". Ömər də onların evini yandırmaq üçün əlində odla gəlmişdi. Bu zaman Fatimə onu qarşılamış və demişdi: "Ey Xəttabın oğlu, evimizi yandırmağa gəlmisən?!" Ömər: "Bəli, ya da ümmət beyt etdiyi kimi siz də beyət edəcəksiniz!" deyə cavab vermişdi".[951]

Həmçinin müasir alimlər də bunu təsdiqləyirlər. Dr. Həsən ibn Fərhan Maliki deyir: "Lakin Ömərə beyət edilən zaman Əlinin tərəfdarları Əbu Bəkr siddiqə beyət edilən zaman olduğundan az idi. Belə ki, Əbu Bəkrin xilafətinin ilk vaxtlarında Fatimənin evinə olan hücumlar səbəbindən tərəfdarları azalsa da, bəzi səhabələr Əli ilə birgə Əbu Bəkrə beyət etmək istəmirdilər. Bu səbəbdən də, mübahisə və hücumlar baş vermişdi. Bu hadisələrin baş verdiyi səhih sənədlərlə isbatlanıb. Acı hadisələrdir, onların təkrarlanmasını istəmirlər". Sonra isə səhifənin haşiyəsində yazır: "Bu hücumların baş verdiyi iddiasının yalan olduğunu düşünürdüm, ta ki, onların güclü sənədləri ilə qarşılaşdım. Onlardan: İbn Əbu Şeybənin "əl-Müsənnəf"də qeyd etdiyi..."[952]

Ustab dr. Ömər Rza Kəhalə deyir: "Əbu Bəkr Əli ibn Əbu Talibin yanında Abbas, Zübeyr, Səd ibn Übadə kimi beyətdən boyun qaçıran bir dəstə adamın olduğunu gördü. Onlar Fatimənin evinə toplaşmışdılar. Əbu Bəkr onların yanına Öməri göndərdi. Ömər gəldikdə çöldən onları çağırdı. Onlar çölə çıxmaqdan imtina etdilər. Bir odun parçası istədi və dedi: "Canım əlində olana and içirəm ki, ya çölə çıxacaqsınız, ya da mən içəridəkilərlə birgə evi yandıracağam!" Ona deyildi: "Ey Ey Əbu Həfs, Fatimə də içəridədir". Ömər dedi: "İçəridə olsa belə..."[953]

Ustad Əbdülfəttah Əbdülməqsud deyir: "Ömər ibn Xəttab Əlinin evinə gəldi, Təlhə, Zübeyr və bir dəstə mühacir də orada idi. Ömər dedi: "Allaha and olsun, ya

---

[951] əl-Əqdul-fərid, İbn Əbdü Rabbih Əndəlusi, c. 2, s. 73.

[952] Qiraətun fi kutubil-əqaidil-məzhbul-Hənbəli nəmuzəcən, Maliki Həsən ibn Fərhan, s. 52

[953] Əlamun-nisa, Ömər Rza Kəhalə, c. 4, s. 114

evi yandıracağam, ya da çıxıb beyət edəcəksiniz...”[954] Həmçinin yazır: “Tarixçilərin yazdıqları bir çox kitablar bu narahatedici xəbərlərə oxşar hadisələri nəql ediblər ki, onlarda Ömərin Əlini öldürmək və ya evini içəridəkilərlə birgə yandırmaq təhdidləri kimi sərt rəftarları ilə qarşılaşırıq”.[955]

Bu və başqa rəvayət, xəbər və sözlərdən sonra həmin təhdidin baş verməsi və ya onun həyata keçirilməsində qərarlı olmağı inkar etməyə heç bir səbəb qalmır.

Eləcə də rəvayətlərdən hadisələrin müxtəlif məcralarda cərəyan etdiyi də anlaşılır. Belə ki, Ömər bir neçə dəfə Əhli-Beyti (ə) evləri ilə birgə yandırmaqla təhdid etmiş, onlara evlərində bir dəstə şəxsin toplaşdıqlarını eşitdikdə bunu qadağan etmiş, bu zaman Allaha and içməklə təhdidində təkidli olduğunu bildirmişdi. Necə ki, bunu İbn Əbu Şeybənin rəvayətində gördük.

Başqa bir dəfə də Fatimənin evindəkiləri beyət almaq üçün təhdid edib. Həmin vaxt aralarında dava-dalaş da baş verib. Orada xəlifənin adamları da mübahisəyə qoşulublar. Bunu Təbərinin rəvayətində görürük.

Üçüncü dəfə təhdid Əbu Bəkrin əmrinə əsasən, şəxsən İmam Əlidən (ə) beyət almaq üçün baş verib. Həmin vaxt Ömər od parçası kimi qorxuducu vasitələrdən də istifadə edib...

Ömərin bu təhdidlərini Peyğəmbərin (s) canının bir parçası ciddi qəbul etmişdir. Nəticədə İmam Əlidən (ə) və Zübeyrdən onun yanından çıxıb getmələrini istəmişdir. İbn Əbu Şeybənin rəvayətində qeyd edildiyi kimi, onlar da bu istəyi yerinə yetirmişlər. Lakin Ömər onlardan əl çəkdimi?!

İbn Əbu Şeybə və Bəlazurinin iki rəvayəti bu suala cavab vermir. Ancaq Təbəri və Təbəraninin rəvayətlərində suala cavab tapa bilirik. Görünür ki, Ömər bununla onlardan əl çəkmədi, yenidən evlərinin qarşısına qayıtdı, evə soxuldu, qapını yandırdı.

---

[954] əl-İmamu Əli, Əbdülfəttah ibn Əbdülməqsud, c. 2, s. 266

[955] əs-Səqifətu vəl-xilafə, Əbdülfəttah Əbdülməqsud, s. 14

Bu rəvayətlərin dəlalətlərinin arasında heç bir ziddiyyət yoxdur. Əksinə, biri digərini dəstəkləyir. Hadisələrin ilk vaxtlarında Səqifə toplantısının nəticəsinə hər hansı etirazın qadağan edilməsini göstərən amillər var. Nübuvvət evində toplanmaq həmin etiraz növlərindən biri idi. Lakin bu toplanma Zəhranın (ə) evinin yandırılması təhdidi ilə qadağan edilir.

Lakin əksəriyyətdən Əbu Bəkrə beyət alınmasından sonra bu işin bütünlüklə həll olunması məsələsi ortaya çıxır. Zorakılıq və təhdidlər qarşısında Fatimənin (ə) evi özünün müqəddəsliyi, ehtiramı və Peyğəmbər (s) xanədanı olması cəhətdən bir aman qalası kimi görünürdü. Ancaq onlar Ömərin bu ehtiramə qorumayacağından, istəyinə sərtlik göstərməklə çatmağa hazır olduğundan qorxurdular. Nəticədə Ömər zor gücünə, dava-dalaşla onları evdən çıxardı. Belə ki, Ömər və xəlifənin adamları məsələni silah gücünə də olsa həll etməyə və onları xəlifəyə beyətə məcbur etməyə qərar vermişdilər.

Digərlərindən bu şəkildə beyət aldıqdan sonra məsələni tam bitirmək üçün şəxsən İmam Əlinin (ə) özündən beyət almaq yolunu tutdular. Buna Bəlazurinin "əl-Ənsab"da İbn Abbasa istinadən qeyd etdiyi rəvayət dəlalət edir. Deyir: "Əli ibn Əbu Talib (r) beyət etməkdən imtina edirdi. Əbu Bəkr Öməri onun yanına göndərdi və dedi: "Onu ən sərt tərzdə yanıma gətir". Ömər onu gətirdikdə aralarında mübahisə oldu. Əli dedi: ""Ey Ömər, (xilafət dəvəsini) yaxşı sağ, çünki yarısı sənə qalacaq. Allaha and olsun ki, sənin bu gün onun rəhbərliyi üçün əlləşməyin, sabah onu sənə verəcəyinə görədir..."[956]

Lakin İmam (ə) beyət etdimi?

Əmirəl-möminin (ə) Əbu Bəkrə beyət etdimi?

Buxari "Səhih"də Yəhya ibn Bükeyrin vasitəsilə Leysdən, o da Əqildən, o İbn Şihabdan, o da Ürvədən, o da Aişədən nəql edir: *"Əbu Bəkr Fatiməyə bir şey verməkdən imtina etdi. Buna görə Fatimə ona qəzəbləndi. Ölənədək onunla*

[956] Ənsabul-əşraf, Bəlazuri, c. 1, s. 269

əlaqəsini kəsdi və bir kəlmə də danışmadı. Peyğəmbərdən (s) sonra altı ay yaşadı. Vəfat etdikdə həyat yoldaşı Əli onu gec ikən dəfn etdi, Əbu Bəkrə ona namaz qılmağa izn vermədi və öz namazını qıldı. Fatimə həyatda ikən Əlinin camaatla münasibəti var idi, o vəfat etdikdən sonra isə Əli camaatla münasibətə əhəmiyyət verməyərək Əbu Bəkrlə barışmaq və beyət üçün imkan axtardı. Həmin aylarda o, beyət etməmişdi".[957]

Bu, birbaşa və ardıcıl hadisələrlə nəql olunnmuş hədisdir, onun kəsik və ya qopuq olduğuna dair heç bir işarə mövcud deyil. Rəvayət aydın şəkildə İmam Əlinin (ə) Fatimə (ə) həyatda olduğu müddətdə beyət etmədiyinə dəlalət edir.

Müslim öz "Səhih"ində Hüceynin vasitəsilə Leysdən, o da Əqildən, o da İbn Şihabdan, o da Ürvə ibn Zübeyrdən, o da Aişədən nəql edir: "(Ravi) dedi: "Onunla əlaqəsini kəsdi..."[958]

Əvvəldə İbn Bükeyrin Leysdən rəvayət nəql etməkdə Hüceyndən daha əmin şəxs olduğunu qeyd etmişdik. Hüceynin "dedi" kəlməsi ilə rəvayətin qopuq və ya kəsik olduğunu iddia edilməsi ilə İbn Bükeyrin də sözlərini buna əsaslandırmaq doğru deyil. Bu barədə deyilən ən uzaq söz Zühri bir yerdə ardıcıl (İbn Bükeyrin rəvayətində olduğu kimi), bir yerdə də öz rəyi ilə nəql edib (Hüceynin rəvayətində olduğu kimi).

Bununla da İbn Həcərin İmam Əlinin (ə) Fatimənin (ə) vəfatından öncə beyət etməsi iddiasının puçluğu ortaya çıxır. Orada deyir: "Müslimin Zühridən bir şəxsin ona belə dediyini rəvayət etdiyi xəbərdə deyilir: "Fatimə vəfat edənədək o, Əbu Bəkrə beyət etməmişdi?" Dedi: "Xeyr, hətta Bəni-Haşimdən bir nəfər də beyət etməmişdi". Beyhəqi bunun zəif olduğunu söyləyib, çünki Zühri rəvayəti istinadla nəql etmir. Əbu Səiddən nəql olunan rəvayət daha səhihdir. Başqası isə onun ikinci dəfə, birincini təsdiqləmək üçün beyət etdiyini söyləmişdir. Səbəb isə miras səbəbindən baş verənləri aradan qaldırmaq idi. Buna əsasən, Zührinin

---

[957] Səhih, Buxari, c. 4, s. 1549, hədis 3998, "Xeybər qəzvəsi" fəsli

[958] Səhih, Müslim, c. 3, s. 1380, hədis 1759, fəsli 16 ("Miras buraxmarıq" fəsli)

həmin günlərdə "Əli beyət etməmişdi" sözləri, yəni onun yanında olmamışdı, yardım etməyə macal tapmamışdı və s. kimi yozulur".

Cavabın nəticəsi budur ki, Müslimin kitabında qeyd olunana əsasən, Zühri aydın şəkildə Fatimə (ə) vəfat edənədək İmamın (ə) Əbu Bəkrə beyət etmədiyinə etiqad bəsləyirdi. Bu fikrə Zühri Ürvədən və Aişədən aldığı məlumatlara əsasən gəlmişdi. Necə ki, bu, Buxari "Səhih"ində Yəhya ibn Bükeyrin Leysə, onundfa Zühriyə, o da Ürvəyə və o da Aişəyə istinadla qeyd edir.

Zührinin fikrini və İmamın Fatimə (ə) həyatda olduğu müddətdə beyət etmədiyinə etiqadını Müslimin rəvyaətindən əldə edirik. Onun bu etiqadına dəlilini isə Buxarinin rəvayətindən alırıq. Buna əsasən, İbn Həcərin sözündən də anlaşılır ki, Zührinin sözləri Yəhyanın rəvayətindən daha istinadlı, rəyini isə Hüceynin ondan rəvayət etdiyi də təsdiqləyir.

Buradan da anlaşılır ki, İbn Əbu Şeybənin rəvayətindəki "Əbu Bəkrə beyət edənədək onun (Fatimənin) yanına qayıtmadılar" sözündə məqsəd Möminlərin əmiri Əlinin (ə) ətrafına toplaşıb Fatimənin (ə) evində cəmləşmiş Zübeyr və digər səhabələrdir. Lakin İmam Əli (ə) Yəhyanın rəvyaətindən də göründüyü kimi, yalnız Fatimənin (ə) vəfatından sonra beyət edir.

Rəvayətdə istifadə edilən "qayıtmadılar" kəlməsindəki cəm şəkilçisi həmin təhdiddən sonra Fatimənin (ə) evinə toplaşan səhabələrin bir dəstəsinin beyət etdiyini göstərir.

Əhi-sünnə mənəbələrindəki bu kimi rəvayətlərə nəzər saldıqda Ömərin Əbu Bəkr üçün müsəlmanlardan zorla beyət aldığını aydın görmək olur. Onun bu məqsədlə sərtlik, zor, hədə-qorxu və məcburiyyət kimi üslublardan istifadə etdiyi barədə çoxlu dəlillər mövcuddur. Bu dəlillərdən biri Buxarinin "Səhih"ində qeyd edilir. Aişəyə istinadən nəql olunur: *"Ömər camaata hədə-qorxu gəlirdi. Belə ki, onların arasında nifaq var idi".*[959]

[959] Səhih, Buxari, c. 3, s. 1341, hədis 3468, fəsil 5

Onun beyət almaq üçün hədəflədiyi ünvanlardan biri də Əhi-Beyt (ə) idi. Belə ki, onlar öz varlıqları ilə beyətdən imtina edənlər üçün Ömərin təhdidlərindən bir aman qalası timsalını daşıyırdılar. Qalanın divarlarının uçurulması bu sığınacağın fəth edilməsinə və qarşılarına beyət məsələsinin tamamlanmasına yol açacaqdı. Ömərin pak itrətə qarşı belə sərt rəftar üslubu beyətdən boyun qaçıran şəxslərə bir mesaj xarakteri də daşıyırdı. Belə ki, bununla Əhli-Beytin (ə) həmin şəxslərdən beyət alınmasına qarşı olmadıqları təəssüratı yaratmaq istəyirdilər. Ardınca isə heç bir ehtiram və imtiyazı gözləmədəndigər planlarının da icrasına qədəm qoyacaqdılar.

Mələklər Əhli-Beytə (ə) başsağlığı verirlər

Ömərin Əhli-Beytə (ə) qarşı yalnış hərəkətlərinin və sərtliyinin hansı dərəcədə qəbahətli olduğunun şiddətini göstərən dəlillərdən biri də sünni hədis hafizlərinin qeyd etdiyi rəvayətdir. Həmin rəvayətdə Peyğəmbərin (s) vəfatından sonra mələklərin nazil olub Əhli-Beytə (ə) başsağlığı verdikləri qeyd edilir. Hakim Nişapuri "Müstədrək"də Cabir ibn Abdullah Ənsariyə istinadən yazır: *"Peyğəmbər (s) vəfat etdikdə mələklər onlara başsağlığı verirdilər. Onlar mələklərin səslərini eşidir, özlərini görmürdülər. Mələklər deyirdilər: "Allahın salamı, rəhməti və bərəkəti sizə olsun, ey Əhli-Beyt! Hər müsibətdə Allah yanından bir başsağlığı və əldə verilənin yaxınlarına bir qarşılıq var. Ona görə də, Allahdan yapışın, Ondan diləyin. Həqiqətən də əsl məhrum savablardan məhrum qalan şəxsdir. Allahın salamı, rəhmət və bərəkəti üzərinizə olsun!"*[960]

Hakim bu rəvayətin səhih olduğunu deyir: "Bu, istinadı səhih hədisdir, lakin Buxari və Müslim "Səhih"lərində qeyd etməyiblər".[961]

Zəhəbi də özünün "ət-Təlxis" əsərində bu rəvayətin səhih olduğunu bildirir.[962]

---

[960] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 57
[961] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 57
[962] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 59

Şafei "əl-Umm" kitabında İmam Cəfər Sadiq ibn Muhəmmədin vasitəsilə atasından, o da babasından bu rəvayəti nəql edib.[963]

"Beyhəqi "Dəlailun-nubuvvə" kitabında Hakimdən, Şafeidən nəql edir və ardınca deyir: "Bu iki rəvayətin istinadı zəif də olsa, biri digərini gücləndirir".[964]

Muqrizi isə "İmtaul-əsma" kitabında Beyhəqinin sözünü araşdıraraq deyir: "Hakim "Müstədrək"də Cabirin bu hədisini Əbu Vəlidin vasitəsilə rəvayət edir və "Bu, istinadı səhih hədisdir, lakin Buxari və Müslim "Səhih"lərində qeyd etməyiblər" deyə bildirir. Sənəddə adı keçən Məxzumi Xalid ibn İsmail Kufi deyil, bu, Hişam ibn İsmail Sağanidir. O isə etibarlı və əmin şəxsdir".[965]

Buradan məlum olur ki, Beyhəqi adı keçən Məxzuminin məhz Xalid ibn İsmail Kufi olduğunu güman edib, lakin bu yanlış gümandır. Belə ki, buradakı Məxzumi Hişam ibn İsmail Sağanidir və bunu Muqrizi aydın bəyan edir. Bunun digər dəlili də Hakim və Zəhəbinin hədisin səhih olduğuna dair sözləridir. Zəhəbinin Beyhəqidən sonra yaşamasını nəzərə alsaq, onun Beyhəqinin bu gümanından xəbərdar olduğunu, lakin susmağa üstünlük verdiyini məlum olur.

Allahın mələkləri Peyğəmbərin (s) vəfatı səbəbilə Əhli-Beytə (ə) başsağlığı vermək üçün onların evlərinə nazil olduqları halda, Ömər əlindəki od parçası tutaraq bu evin qapısının qarşısında dayanır və əhli ilə birlikdə evi yandıracağı ilə hədələyir. Nəyə görə? Rəhbərlik və xilafət sevdasına görə!

Əbu Bəkrin xilafəti üçün beyəti tamamalamaq hədəfində Ömərin tapdamadığı bir İslamda ehtiram olunan bir şey qaldımı?!

Buxari "Səhih"də Əbu Hüreyrəyə istinadla Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: *"Siz rəhbərlik sevdasına tutulacaqsınız, lakin Qiyamət günü buna peşman olacaqsınız. (Xilafət) nə yaxşı xeyir mənbəyi və necə də pis (Cənnətdən) ayırı salandır!"*[966]

---

[963] Kitabul-umm, Şafei, c. 1, s. 317

[964] Dəlailun-nubuvvə, Beyhəqi, c. 8, s. 433

[965] İmtaul-əsma, Muqrizi, c. 14, s. 563-564

[966] Səhih, Buxari, c. 6, s. 2613, hədis 6729, fəsil 7 ("Rəhbərlik sevgisinin pisliyi")

Ömər Fatiməni (ə) vurubmu?

Ömərin Əhli-Beytə (ə) qarşı bu kobud rəftarından daha da betəri Şəhristaninin (vəfatı: h.q 548) "əl-Miləlu vən-nihəl" kitabında Nizamdan (vəfatı: h.q 231)[967] nəql etdiyi hadisədir. Deyir: "Böhtanına davam edərək deyir: "Ömər beyət günü Fatimənin bətninə vurdu, nəticədən Fatimənin bətnindəki uşağı düşdü. Ömər bu zaman qışqırırdı: "Fatimənin evinin içəridəkilərlə birlikdə yandırın!" Həmin vaxtda isə evdə Əlidən, Fatimədən, Həsən və Hüseyndən savayı heç kəs yox idi".[968]

Nizamın bu sözlərinə Cəvini Şafeinin (vəfatı: h.q 722)[969] İbn Abbasa istinadla nəql etdiyi sözləri də işarə edir: "Bir gün Peyğəmbər (s) əyləşmişdi... Fatimə (ə) gəldi. Peyğəmbər (s) onu gördükdə ağladı və sonra buyurdu: "Qızım, yanıma gəl". Onu qarşısında oturdub dedi: ..." Onu gördükdə məndən sonra ona qarşı edəcəkləri rəftarı xatırladım. Onun evinə zillət girəcək, ehtiramı tapdanacaq, haqqı qəsb olunacaq, mirasdan məhrum ediləcək, qabırğası sındırılacaq və bətnindəki körpəsi düşəcək. Həmin vaxt "Ya Muhəmməd!" deyə nida edəcək, amma cavab verməyəcəklər, yardım istəyəcək, ancaq köməyinə heç kəs gəlməyəcək. Məndən sonra hüznlü, kədərli və ağlar qalacaq..."[970]

Demək Peyğəmbərin (s) canının bir parçasına qarşı ədavət etiqadı boşu-boşuna yaranmayıb. Buna etiqad bəsləyən Nizam kimi bir çox müsəlman alimi

---

[967] Zəhəbi "Siyəru əlamin-nübəla"da (c. 10, s. 542) onun tərcümeyi halında yazır: "Nizam – Mötəzili şeyxidir, yazdığı kitablar var. Adı Əbu İshaq İbnrahim ibn Səyyardır. Bəzi məsələlərlə bağlı rəyi ilə tanınır. O, Şeyx Cahizdir".

[968] əl-Miləlu vən-nihəl, Şəhristani, c. 1, s. 57

[969] Zəhəbi onu öz şeyxlərindən sayırdı. Onun barəsində deyir: "İmam, mühəddis, kamil müvəhhid, İslamın fəxri, dinin başçılarından olan İbrahim ibn Muhəmməd ibn Muəyyəd ibn Həməveyh Xorasani Cəvini, sufi şeyxidir. Müəyyəd Tusinin əshabından olan şəxslərdən bizə hədis rəvayət edirdi. Rəvayətlərə qarşı olduqca diqqətli və həssas idi. Gözəl qiraəti var idi, dindar və əməlisaleh şəxs idi. Ğazan Məlik onun vasitsilə İslamı qəbul etmişdi. Hicrətin 722-ci ilində vəfat edib. Həmin vaxt 78 yaşında idi". (Təzkiratul-hiffaz, c. 4, s. 1505-1506)

[970] Fəraidus-səmteyn, Cəvini, c. 1, s. 34-35, hədis 371

olmuşdur. Onların etiqadına əsasən, Ömər Əhli-Beytlə (ə) rəftarında bütün həd, meyar və insanlıq dəyərlərini aşmışdır. Cəvini Şafei kimi alimlər bunu İbn Abbasdan da nəql və rəvayət etmişlər.

Bunu dəstəkləyən dəlillərdən biri İbn Qüteybə Dinəvəri (vəfatı: h.q 276)[971] özünün "əl-İmamətu vəs-siyasə" kitabında qeyd edir: *"Sonra Ömər aya qalxıb getdi, bir dəstə adam da onunla birlikdə gedirdi. Fatimənin evinin qapısına gəlib qapını döydülər. Fatimə onların səslərini eşitdikdə yüksək səslə fəryad etdi: "Atacan, ya Peyğəmbər! Səndən sonra Xəttabın və Əbu Qühafənin oğlanlarından bu çəkdiklərimiz nədir?!" Ora gələnlərdən bir dəstəsi Fatimənin bu fəryadını və ağlamaq səslərini eşitdikdə ağlaya-ağlaya oranı tərk etdilər. Az qalmışdı bu fəryaddan qəlbləri dağılsın, ciyərləri parçalansın. Orada Ömər və onunla da bir dəstə adam qaldı. Onlar Əlini evdən çıxarıb Əbu Bəkrin yanına gətirdilər və "Beyət et!" dedilər. Əli dedi: "Əgər beyət etməsəm, onda nə olacaq?" Dedilər: "Özündən başqa heç bir ilah olmayan Allaha and olsun ki, o zaman sənin boynunu vuracağıq". Dedi: "Bir Allah bəndəsini, Peyğəmbərin qardaşını öldürəcəksiniz?" Ömər dedi: "Allah bəndəsini bəli, amma Peyğəmbər qardaşını yox". Bu zaman Əbu Bəkr susub*

---

[971] Zəhəbi "Siyəru əlamin-nübəla"da İbn Qüteybənin tərcümeyi-halında deyir: "İbn Qüteybə – böyük əllamə, bir çox elmin sahibidir. Künyəsi Əbu Muhəmməddir. Adı Adbullah ibn Müslim ibn Qüteybə Dinəvəridir. Mərvəzi olduğu da deyilib. Yazıçı və bir çox əsərin müəllifidir. Bağdada köçmüşdü... Əbu Bəkr Xətib deyir: "Etibarlı, dindar və fəzilətli şəxsdir... Dinəvərin məhkəməsinin qazisi də olub. Ərəb dili, hədis və tarix elminin ustadlarındandır..." Məsudi əs-Səczi deyir: "Əbu Abdullah Hakimin belə dediyini eşitdim: "Ümmət Quteybi yalançı olduğu haqda həmfikir idi. Bu sözdən başqa onu ittiham edəcək heç bir məlumata sahib deyildim. Ancaq Xətib onun etibarlı (siqə) olduğunu söylədi. Həmçinin Əhməd ibn Səlamə Həmmad ibn Hərranidən onun Sələfidən Hakimin "İbn Qüteybənin rəvayətlərinə əsaslanmaq icazəli deyil" sözlərini inkar etdiyini mənə bildirdi və dedi: "ibn Qüteybə etibarlı (siqə) şəxslərdəndir..." (Siyəru əlamin-nübəla, c. 13, s. 296-299) Xeyrəddin Zirkili "Əlam" kitabında onun tərcümeyi-halında "əl-İmamətu vəs-siyasə" kitabını zikr edir və deyir: "Abdullah ibn Müslim ibn Qüteybə Dinəvəri, Bağdadda doğulub, Kufədə yaşayıb. Bir müddət Dinəvər məhkəməsinin qazisi olub. Bağdadda vəfat edib. Kitablarından ..."əl-İmamətu vəs-siyasə". (c. 4, s. 137)

heç bir söz söyləmirdi. Ömər ona dedi: "Onun barəsində nə əmr edirsən?" Dedi: "Fatimə onun yanında olduğu müddətcə onu heç bir şeyə məcbur etmə".[972]

İbn Qüteybənin rəvayəti bizə Fatimənin (ə) vəfatından sonra İmam Əlinin (ə) Əbu Bəkrə beyətinin arxasındakı sirri bəyan edir. Bu sirr məcburiyyətdir. Təbii ki, Fatimənin (ə) vəfatından sonra da İmam Əli (ə) Əbu Bəkrə beyətdən boyun qaçırırdı. Xanımın (ə) vəfatından sonra isə İmamdan (ə) hansı yolla olursa-olsun beyət almaqda onların qarşısında heç bir maneə qalmadı.

İkinci: Əhli-Beytə (ə) qarşı iqtisadı təzyiqlər

İlk iki xəlifənin Əhli-Beytə (ə) qarşı münasibətlərinin soyuqluğunu göstərən məsələlərdən biri də maddi təzyiq və iqtisadi məhdudiyyət siyasətləridir. Məqsəd isə onların qüdrətlərini zəiflətmək idi. Araşdıran bir şəxs Əhli-Sünnə mənbələrinə nəzər saldıqda Əhli-Beytin (ə) əlində olan əksər maliyyə imkanlarının məhdudlaşdırıldığını görəcək. Fədəyin onlardan müsadirə edilməsi və Peyğəmbər mirasından məhrum edilmələri heç də təsadüf deyildi. Digər tərəfdən də Uca Allahın yaxın qohumlara ayırdığı payın da ləğv edilməsi digər bir faktdır. Həqiqətən də bunlar planlı, diqqətli və hiyləgər addımlar idi ki, Peyğəmbər ailəsini (ə) maddi sıxıntı halında saxlamağı, maliyyə qüdrətlərini zəiflətməyi və möhtac vəziyyətinə düşürməyi hədəfləyirdi. Fədək, yaxın qohumların payı və Peyğəmbər miras – Əhli-Beytin (ə) əlindəki əsas maliyyə mənbələri idi. Əbu Bəkr və Ömər bu mənbələri onların əlindən almaq üçün cürbəcür səbəblər uydurdular. Bütün bunları etimad olunan sünni rəvayətlərində də müşahidə etmək mümkündür. Onlara aşağıdakı başlıqlarda işarə edirik:

1. Zəhranın (ə) əlindən Fədəyin alınması

Əbu Bəkrin hakimiyyətinin ilk dövrlərində və xilafət beyəti tam alınmamışdan öncə onunla Siddiqə Fatimənin (ə) arasında Peyğəmbər hədiyyəsi olan Fədəklə

[972] əl-İmamətu vəs-siyasə, İbn Qüteybə Dinəvəri, s. 20

bağlı ciddi mübahisə yaşanmışdı. Onun hədiyyə olduğuna İmam Əli (ə) və Ümmü Əymən də şahidlik etmiş, lakin bu şahidlikləri qəbul edilməmişdi. Nəticədə Fadək Fatimənin (ə) əlindən alınmışdı.

Xilafət tam əlində olmasına, ərazinin genişlənib hətta Fars imperiyasını da əhatə etməsinə və yeganə söz sahibi olmasına baxmayaraq, Ömər də öz hakimiyyəti zamanı israrla Fədəyi beytül-malda saxlamışdır. Bu isə Əhli-Beytin (ə) maddi mühasirəsi siyasətində məqsədin cəmiyyətə təsir gücündən məhrum etmək və möhtac halda saxlamaq olduğunu göstərir. Fədək məsələsi müfəssəl şəkildə üçüncü babda qeyd olundu. Oraya müraciət edə bilərsiniz.

2. Peyğəmbər mirasını Fatiməyə (ə) verməkdən imtina

Əbu Bəkr və Ömərin birbaşa əmri ilə Fatimənin (ə) sahib olduğu Fədək əlindən alındıqdan sonra, o, öz haqqını müdafiə etməyə başladı. Lakin Əbu Bəkrin sərt mövqeyi və onu verməməkdə qərarlı olması Xanımı (ə) yenə də bu haqqından əliboş geri çevirdi. Möminlərin əmiri Əli (ə) ilə Ümmü Əymənin şahidliklərinə rəğmən Fədəyin hədiyyə olduğu iddiasının qəbul edilmədi. Lakin o, hakimiyyətin onu haqqından məhrum etməkdə israrlı olduqlarını gördükdə iddiasını atası Peyğəmbərdən (s) qalan miras tələbinə çevirdi. Ancaq bu da fayda vermədi. Çünki onlar onu bu mirasdan da məhrum etdilər. Bu iddia dəyişikliyi heç də Fədəyin atasının hədiyyəsi olduğu tələbindən imtina etməsi anlamını daşımırdı. Əksinə, o, bununla Əbu Bəkrə demək istəyirdi ki, əgər Fədiyin atamın hədiyyəsi olaraq mənə qaytarmır, şahidlərimi qəbul etmirsənsə o zaman bunun hələ də atam Peyğəmbərin (s) mülkü olduğunu bilirsən. Belə ki, Fədək üzərinə at və ya dəvə sürülmədən əldə olunmuş qənimətdir. Belə olduqda onu miras ünvanı ilə tələb edirəm. Bunlar isə əsla fərqli iddialar deyillər. Çünki Xanım Fatimə (ə) bu zaman qarşı tərəfin qəbul etdiyi əsaslara müvafiq danışmış olur. Belə üslubdan istifadə etməyə mübahisələrdə və məhkəmə iddialarında icazə verilir. Lakin xəlifənin mövqeyi və indiyədək eşitmədiyi bir hədisin hökmü ilə tələbi yenə rədd

edildi. Nə qədər dəlillər təqdim etsə də heç bir faydası olmadı. Narazı, qəzəbli, məzlum və məhrum halda evinə qayıtdı.

Ömərin xilafəti dövründə də vəziyyət bu cür davam etdi, Əhli-Beyt (ə) Peyğəmbərin (s) mirasından məhrum qaldı. Üçüncü babda bu barədə də söhbət açmışdıq.

3. Yaxın qohumların payının ləğv edilməsi

Mötəbər sünni hədislərini araşdırdıqda Əhi-Beytin (ə) maddi qüdrətinin məhdudlaşdırılması istiqamətində atılmış digər bir addımla da rastlaşırıq. Bu isə Uca Allahın Peyğəmbər (s) ailəsi üçün ayırdığı payın onlara verilməsinin Əbu Bəkr və Ömər tərəfindən qadağan edilməsidir. Ömərin öz hakimiyyəti illərində bu qadağanı qanuniləşdirmə cəhdləri isə Əhli-Beytin (ə) haqqından məhrum edilməsinin arxasındakı nəfsani çalarlardan xəbər verir.

Hakimiyyət tərəfindən Əhli-Beyt Fədəkdən, ardınca da Peyğəmbərin (s) mirasından məhrum edildikdən sonra Allahın onlara məxsusi olaraq ayırdığı pay da əllərindən alındı. Bu qərar da Əbu Bəkr və Ömər tərəfindən verilmiş , birbaşa nəzarətləri altında həyata keçirilmişdi. Ömər öz hakimiyyəti illərində xilafətin güclü və varlı olduğu zamanlarda Əhli-Beyti (ə) razı salmaq üçün Allahın onlara məxsus etdiyi bu paydan kiçik bir miqdar verməyə cəhd etsə də, onlar bunu götürməkdən imtina etdilər.

Müslim "Səhih"də Yezid ibn Hürmüzün vasitəsilə nəql edir: *"Nəcdə ibn Amir İbn Abbasa məktub yazdı. İbn Abbasın məktubu oxuduğunu və cavab yazdığını gördüm. O dedi: "Allaha and olsun ki, əgər içinə düşdüyü pislikdən onu geri qaytarmaq istəyim olmasaydı, əsla ona cavab yazmadım". Sonra cavabında yazdı: "Sən Allahın kitabında paylarını zikr etdiyi yaxın qohumların (zil-qurbənin) kim olduğu barədə soruşursan. Peyğəmbərin (s) yaxın qohumları bizik. Lakin qövmümüz bu payımızı verməkdən imtina etdi".*[973]

---

[973] Səhih, Müslim, c. 3, s. 1444, hədis 1812, fəsil 48

Əbu Davub "Sünən"də qeyd edir ki, Nəcdə Həruri İbn Abbasdan yaxın qohumların (zil-qurbənin) kim olduğunu soruşduqda dedi: *"Peyğəmbərin (s) yaxınlarıdır. Peyğəmbər (s) bu payı onların arasında bölüşdürürdü. Ömər ona əl qoydu. Biz də onu haqqımız olaraq görməyib özünə qaytardıq və qəbul etmədik".*[974]

Həmçinin Əhməd,[975] Nəsai,[976] Əbu Yəla,[977] İbn Həbban, Təbərani,[978] Beyhəqi[979] və digərləri də bunu qeyd ediblər.

Təqdim edilənlərdən aydın olur ki, Əhli-Beyti (ə) Fədək, miras və yaxın qohumların payı kimi maddi gəlir mənbələrindən məhrum etmək siyasəti heç də təsadüfi hadisələr deyildi. Əksinə, Əbu Bəkr və Ömərin təlimatları ilə diqqət və hiyləgərliklə hazırlanmış, icra edilmiş zəncirvarı planın ardıcıl halqaları idi. Məqsəd isə siyasi amillər səbəbilə Əhli-Beyti (ə) maddi qüdrətdən məhrum etməkdi. Ömərin hakimiyyəti dövründə yaxın qohumların payının məhrum edilməsini qanuniləşdirməsi isə bir daha məsələdə nəfsani məqsədlərin mövcudluğundan xəbər verir.

Üçüncü: İlahi imamətin müdafiəsi

İlk iki xəlifənin Əhli-Beyti (ə) Peyğəmbər (s) xilafətindən məkr və sərtliklə kənarlaşdırması Fatimənin (ə) onlara qəzəbinin ən mühüm səbəbidir. Onların Əhli-Beytlə (ə) münasibətlərindəki israrı ilə Peyğəmbərin (s) vəfatından sonrakı müddətdə aralarındakı münaqişənin formasını büruzə verir. Fatimənin (ə) atasının vəfatından sonra qısa sürən ömrü müddətində çox düşməncəsinə münasibət gördü. Belə ki, onun yaşadığı müddət "Səhih"də də qeyd edildiyi kimi, altı ayı ötmədi. İlk iki xəlifə dövrünə müxtəsər nəzər salaq:

---

[974] Sünən, Əbu Davud, c. 2, s. 26
[975] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 320
[976] Sünən, Nəsai, c. 7, s. 128
[977] Müsnəd, Əbu Yəla Mosuli, c. 5, s. 41
[978] əl-Möcamul-kəbir, Təbərani, c. 10, s. 334
[979] əs-Sünənul-kubra, Beyhəqi, c. 6, s. 345

Əbu Bəkr ibn Əbu Qühafənin dövrü

Peyğəmbər (s) dövründə müsəlman ümməti vahid bir toplum idi. Lakin onun öz Məhbubunun dərgahına köçməsi ilə bərabər xilafət mövzusunda parçalanmalar başladı. Halbuki Peyğəmbərin (s) pak cəsədi hələ kəfənlənib torpağa belə tapşırılmamışdı. Səqifə toplantısı bu parçalanmanın əməli şəkildə təməlini təşkil etdi. Bununla da biri digərindən fərqlənən fikirlər yarandı:

Birinci: Peyğəmbər xəlifəliyi məsələsində qəti dəlillərin olmasının zəruriliyinə və Möminlərin əmiri Əlinin (ə) qəti dəlillərlə xəlifə təyin olunduğuna etiqad bəsləyənlər; Bəni-Haşim və Miqdad, Salman, Əbu Zərr Ğəffari və s. böyük səhabələr bunun belə olduğuna inanırdılar.

İkinci: Dəlilin olmadığına, xəlifə seçimi məsələsinin müsəlmanların özlərinə həvalə edildiyinə və öz aralarından seçməli olduğuna, beyət etməklə işin tamamlanacağına inananlar; Səhabələrin digər dəstəsi də buna etiqad bəsləyirdi. Onlardan: Əbu Bəkr, Ömər, Osman, Əbu Übeydə Cərrah, Əbdürrəhman ibn Ovf və başqaları.

Bu məsələləri İslam tarixinin həmin həssas dönəmini ehtiva edən səhih dəlil və xəbərlər də təsdiqləyir. Buxari "Səhih"də Ömər ibn Xəttaba istinadən belə dediyini yazır: *"Sizdən bəzilərinizin belə dediyi xəbəri mənə çatıb: "Allaha and olsun, əgər Ömər ölsə filankəsə beyət edəcəyik". Heç kəs belə qürrələnməsin və deməsin ki, Əbu Bəkrə də beyət qəfildən, məşvərətsiz oldu və baş tutdu. Bəli, Əbu Bəkrə beyət həqiqətən də o cür olub. Amma, Allah onun şərindən qorudu. Sizdən heç kimin boynu Əbu Bəkrə əyildiyi kimi başqasına əyilmədi. Kim müsəlmanlarla məşvərət etmədən bir kəsə beyət etsə o da, beyət edilən də aldadılmışdır. Kim birinə məşvərətsiz beyət etsə, beyət edənin də, beyət olunanın da beyəti düzgün deyil. Onlar öldürüləcəklər. Peyğəmbər (s) vəfat etdikdə Ənsarın bizə müxalif olduğundan xəbər tutduq. Onlar öz başçıları ilə Bəni-Saidənin "Səqifə"sində toplanmışdılar. Əli ibn Əbu Talib, Zübeyr ibn Əvvam və onlarla birlikdə olanlar da bizə qarşı çıxdılar.*

Mühacirlər Əbu Bəkrin yanında toplaşmışdılar. Əbu Bəkrə dedim: "Ey Əbu Bəkr, gəl bizimlə ənsardan olan qardaşlarımızın yanına gedək. Biz onların yanına yollandıq. Onlara yaxınlaşdıqda aralarından iki saleh şəxsə rastladıq. Onlar camaatın bu məsələlərini müzakirə edirdilər. Dedilər: "Ey mühacirlər, hara gedirsiniz?" Dedik: "Ənsardan olan qardaşlarımızın yanına". Dedilər: "Onların yanına getmək borcunuz deyil. Öz işinizlə məşğul olun". Dedim: "Allaha and olsun ki, onların yanına gedəcəyik". Yola davam edib Bəni-Saidə Səqifəsinə çatdıq. Onların qarşısında əbasına bürünmüş bir kişi var idi. Bu kişinin kim olduğunu soruşdum. Onun Səd ibn Übadə olduğunu söylədilər. Ona nə olduğunu, nə üçün əbasına büründüyünü xəbər aldıqda azca soyuqladığını dedilər. Biz onlarla əyləşdik. Bir nəfər qalxıb kəlimeyi-şəhadət söylədi, Allaha layiqli şəkildə həmd-səna dedi və buyurdu: "Biz Allahın yardımçıları, İslam ordusuyuq, siz mühacirlər isə kiçik bir dəstəsiniz. Sizdən bəzi adamlar bizi olduğumuz məqamdan düşürmək və xilafəti əlimizdən almaq istəyir". Onlar öz üstünlüklərini qeyd edib sözlərini bitirdikdə mən danışmaq istədim. Allaha and olsun ki, mən o zaman çox xoşuma gələn gözəl sözlər fikirləşmişdim və Əbu Bəkrdən öncə özüm danışmaq istəyirdim. Mən danışmaq istəyəndə Əbu Bəkr tələsməməyimi dedi. Mən də onu qəzəbləndirmək istəmədim. O məndən daha həlim və daha səlis nitqli idi. Allaha and olsun, o, mənim fikirləşdiyim sözlərin hamısını və ondan da gözəlini qeyd etdi. Belə olan təqdirdə mən artıq susdum. Sonra Əbu Bəkr sözünə davam edərək dedi: "Siz dediyiniz xeyirli işlərə layiqlisiniz. Lakin bu iş (xəlifəlik) Qüreyşlilərə məxsus olaraq qalacaqdır. Onlar ərəblərin arasında ən gözəl nəsəbə və məkana (Kəbəyə) sahibdirlər. Mən sizin üçün bu iki nəfərdən birini (yəni, Əbu Übeydəni və Öməri) təklif edirəm. Siz hansını istəyirsiniz ona da beyət edin. O bizim ikimizin arasında oturmuşdu, birdən mənim və Əbu Übeydənin əlindən tutdu. Onun dediklərinin içərisində yalnız bu sözlər mənə ağır gəldi. Allaha and olsun, aralarında Əbu Bəkr olan bir camaata başçılıq edib günaha batmaqdansa, öz istəyimlə başımın vurulması mənə daha xoşdur". Ənsardan biri dedi: "Biz İslamın yardımçıları və böyük bir hissəsiyik. Ey qüreyşlilər, bizdən bir rəhbər, sizdən də bir

rəhbər olsun. Səslər yüksəldi, ortalıq bir-birinə qarışdı. İxtilaf düşəcəyindən qorxdum və dedim: "Ey Əbu Bəkr, əlini uzat". Əbu Bəkr əlini uzatdıqda mən və mühacirlər ona beyət etdik. Sonra ənsar da ona beyət etdi. Səd ibn Übadə izdihamdan ayaqlar altında qaldı. Onlardan bir nəfər dedi: "Səd ibn Übadəni öldürdünüz". Mən dedim: "Allah Səd ibn Übadəni öldürsün".

Sonra Ömər dedi: "Allaha and olsun, orada Əbu Bəkrə beyət etməkdən daha üstün bir nəticəyə gələ bilmədik. Öz aramızdan bir nəfərə beyət etməmiş oradan ayrılmağa qorxduq. Qorxduq ki, insanlar kimməsə beyət olunmadığını görüb bizdən sonra öz aralarından kimməsə beyət edərlər. Belə olan təqdirdə biz ya onlarla bərabər istəmədiyimiz adama beyət etməli, yaxud onlara müxalif olub fitnə-fəsada qapı açmalıydıq. Kim, müsəlmanlarla məsləhətləşmədən bir insana beyət edərsə, onları döyüşə cürətləndirməmək üçün ona və ona beyət edən qətlə yetirilər".[980]

Bu rəvayət Peyğəmbər xilafəti uğrunda müsəlmanların arasında mübahisə və ixtilaf olduğunu, Zübeyr və bir dəstə mühacirin Səqifə xəlifəsini inkar etdiklərini, Əhli-Beytə (ə) sığınaraq Möminlərin əmirinin (ə) bayrağı altında cəmləşdiklərini aydın göstərir. *"...Onlar öz başçıları ilə Bəni-Saidənin "Səqifə"sində toplanmışdılar. Əli ibn Əbu Talib, Zübeyr ibn Əvvam və onlarla birlikdə olanlar da bizə qarşı çıxdılar. Mühacirlər Əbu Bəkrin yanında toplaşmışdılar".*

Nəticədə bir dəstə mühacir Əhli-Beytə tərəf üz tutdu, onların hidayət yolu ilə getməyi və Səqifə əhli qarşısına onların bayrağı altında çıxmağı seçdi. Hədisdən aydın görünən nəticələr bunlardır. Bu hadisəni Əsləm Qüreyşinin əvvəlki hədisi də dəstəkləyir. "Əgər bunlar sənin evində bir də toplansalar, onlarla birgə evin yandırılmasını əmr edəcəyəm".[981]

Buna əsasən, Səqifə beyəti yeni İslam məzhəbinin yaranmasının rəsmi elanı idi. Belə ki, bu, bir dəstənin digərindən ayrıldığını elan etdiyi beyət idi. Orada Əbu Bəkrə beyət edənlər bu gün "Əhli-Sünnə" məzhəbinin təməlini və əsasının təşkil

---

[980] Səhih, Buxari, c. 8, s. 25-26, hədis 6442, fəsil 16, "Zina etmiş hamilə qadının cəzalandırılması" babı

[981] əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 7, s. 432

edənlərdir. Beyəti inkar edənlər, onun qanunsuz olduğunu bildirənlər, Əhli-Beytin (ə) tərəfini tutanlar, xilafətin onlara məxsus olduğuna və onlardan zülmlə alındığına etiqad bəsləyənlər isə bu gün "şiə" olaraq tanınan firqənin əsasını təşkil etdilər.

Əbu Bəkrin xilafətinin möhkəmlənməsində Ömərin rolu

İslam tarixində araşdırma aparan şəxs Əbu Bəkrin xilafətinin möhkəmlənməsində Ömərin əhəmiyyətli rolunun şahidi olacaq. Əbu Cəfər İskafi (vəfatı: h.q 220) deyir: "Bundan sonra Ömərə beyət olundu. Bunu ona Əbu Bəkr hazırladı. Necə ki, vaxtilə Ömər Əbu Bəkr üçün xilafət məsələsini hazırlamışdı... Müsəlmanlar isə bu təyinata ikrah duyur və qəzəblərini bildirdilər. Onlar deyirdilər: "Üzərimizə kobud və qəddar bir kəsi rəhbər təyin etdin".[982]

Buxarinin yuxarıda qeyd etdiyimiz rəvayətindəki əsas məsələlərdən biri xilafətin Əbu Bəkr üçün hazırlanmasında Ömərin aparıcı rolu, ixtilaf düşəcəyindən qorxması və ənsarın özlərindən bir nəfərin xəlifə seçib beyət etmək istəməsidir. Bu amillər onun öz gümanına əsaslanıb Əbu Bəkrə beyətə təhrik etdi. Necə ki, buna söylədiyi bu sözlər də şahidlik edir: *"İxtilaf düşəcəyindən qorxdum və dedim: "Ey Əbu Bəkr, əlini uzat". Əbu Bəkr əlini uzatdıqda mən və mühacirlər ona beyət etdik... Öz aramızdan bir nəfərə beyət etməmiş oradan ayrılmağa qorxduq. Qorxduq ki, insanlar kimməsə beyət olunmadığını görüb bizdən sonra öz aralarından kimməsə beyət edərlər".*

Bunu dəstəkləyən digər amil Buxarinin "Səhih"də Aişəyə istinadən nəql etdiyi başqa bir rəvayətdir. Aişə dedi: *"Ömər camaata hədə-qorxu gəlirdi. Belə ki, onların arasında nifaq var idi".*[983]

---

[982] əl-Miyaru vəl-muvazinə, s. 47

[983] Səhih, Buxari, c. 3, s. 1341, hədis 3467, fəsil 5

Bu rəvayət Ömərin Əbu Bəkr üçün xilafəti hazırlamağa böyük səy göstərdiyinə və bu yöndə müxtəlif üsullara əl atdığına dəlalət edir. Aişə bunu iki əsas məsələ ilə vurğulayır:

Birinci: hədə-qorxu; Aişənin *Ömər camaata hədə-qorxu gəlirdi"* sözü Ömərin bu işdə heç də xoş olmayan vasitələrdən istifadə etdiyini göstərir. Bu isə insanlara hədə qorxu gəlmək, beyət almaq üçün onları qorxutmaqdır.

Bunu Bəlazurinin İbn Abbasdan nəql etdiyi rəvayət də təsdiqləyir: *"Əli ibn Əbu Talib (r) beyət etməkdən imtina edirdi. Əbu Bəkr Öməri onun yanına göndərdi və dedi: "Onu ən sərt tərzdə yanıma gətir". Ömər onu gətirdikdə aralarında mübahisə oldu. Əli dedi: "Ey Ömər, (xilafət dəvəsini) yaxşı sağ, çünki yarısı sənə qalacaq. Allaha and olsun ki, sənin bu gün onun rəhbərliyi üçün əlləşməyin, sabah onu sənə verəcəyinə görədir..."*[984]

"Onu ən sərt tərzdə yanıma gətir" sözü Əbu Bəkrə beyət üçün təhdid və hədə-qorxu vasitələrindən istifadə edildiyini aydın göstərir.

Həmçinin bunu dəstəkləyən digər bir rəvayəti İbn Əbu Şeybə (vəfatı: h.q 235) özünün "əl-Müsənnəf" kitabında Zəbidə istinadən nəql edir: *"Əbu Bəkrin vəfatı yaxınlaşdıqda Öməri özündən sonra xəlifə təyin etdi. Deyir: "Camaat dedi: "Üzərimizə kobud və qəddar bir kəsi xəlifə təyin edirsən?! Üstümüzdə hakim olsa daha da kobud və qəddar olacaq. Onu üzərimizə xəlifə təyin etdiyinə görə Rəbbinin hüzurunda nə cavab verəcəksən?"*[985]

Eləcə də bu, "Tarixul-Mədinə"[986] kitabında, həmçinin Qazi Əbu Yusuf "əl-Xərrac"da,[987] İbn Əsakir "Tarixu mədinəti Diməşq"[988] kitablarında qeyd ediblər.

---

[984] Ənsabul-əşraf, Bəlazuri, c. 1, s. 269

[985] əl-Müsənnəfu fil-əhadis vəl-asar, İbn Əbu Şeybə Kufi, c. 6, s. 358; c. 7, s. 434

[986] Tarixul-Mədinə, İbn Şəbbə Nəmiri, c. 2, s. 671

[987] əl-Xərrac, Əbu Yusuf, s. 11

[988] Tarixu mədinəti Diməşq, c. 30, s. 413

Səhabələr Ömərin xəlifə olacağından qorxurdular. Bunun səbəbi isə onun Əbu Bəkr üçün beyət alarkən istifadə etdiyi sərt addımları görmələri, kobudluğu və qəddarlığı idi.

İkinci: nifaq; Aişənin *"...Belə ki, onların arasında nifaq var idi"* sözü Əbu Bəkrə beyətə məcbur qalan şəxslərlə qarşı nifaqın olduğuna dəlalət edir.

Burada nifaqdan məqsəd vəziyyətə münasib olaraq Möminlərin əmirinə (ə) qarşı duyulan kindir. Müslim öz "Səhih"ində Ədiy ibn Sabindən, o da Zirdən Əlinin (ə) belə söylədiyini nəql edir: *"Toxumu yarıb məxluqları yaradana and olsun ki, ümmi Peyğəmbər (s) mənə xəbər verdi ki, mömindən başqası məni sevməz, münafiqdən başqası da mənə nifaq duymaz".*[989]

Möminlərin əmirindən (ə) üz çevirərək Əbu Bəkrə beyət etmək Aişənin yuxarıdakı sözündə işarə etdiyi həmin nifaqdır. Belə həmin vaxt vəziyyət bundan ibarət idi.

Buxarinin yuxarıda qeyd etdiyimiz hədisinin ehtiva etdiyi əsas məsələlərdən biri də Səqifə beyətinin ani qərarlar kölgəsində həyata keçirilməsidir. Belə ki, Ömər yaranmış səs-küyü gözəl fürsət bildi. Bunu öz sözü də bəyan edir: *"Səslər yüksəldi, ortalıq bir-birinə qarışdı. İxtilaf düşəcəyindən qorxdum və dedim: "Ey Əbu Bəkr, əlini uzat". Əbu Bəkr əlini uzatdıqda mən və mühacirlər ona beyət etdik... Səd ibn Übadə izdihamdan ayaqlar altında qaldı. Onlardan bir nəfər dedi: "Səd ibn Übadəni öldürdünüz". Mən dedim: "Allah Səd ibn Übadəni öldürsün".*

Necə ki, rəvayətdəki *"Sizdən az sayda adam bizi olduğumuz məqamdan düşürmək və xilafəti əlimizdən almaq istəyir"* bu sözlər də ənsarın Səqifədə toplanmasının səbəbinin mühacirlərdən bir dəstəsinin xilafət iddiası etdiyinin cavabı olduğunu bəyan edir. Bu iddianın əsası isə hakimiyyəti bütünlüklə ənsardan almaq və onlara hakimiyyətdə heç bir haqq tanımamaqdan ibarət idi. Belə ki, ənsardan olan xətib mühacirlər Səqifəyə gəldikdən sonra aralarında heç bir söhbət baş vermədən birbaşa mövzuya daxil olur. Bu isə hər iki tərəfin

[989] Səhih, Müslim, c. 1, s. 223, hədis 113, fəsil 33

iddiadan xəbərdarlığını göstərir: *"Biz onlarla əyləşdik. Bir nəfər qalxıb kəlimeyi-şəhadət söylədi, Allaha layiqli şəkildə həmd-səna dedi və buyurdu: "Biz Allahın yardımçıları, İslam ordusuyuq, siz mühacirlər isə kiçik bir dəstəsiniz. Sizdən bəzi adamlar bizi olduğumuz məqamdan düşürmək və xilafəti əlimizdən almaq istəyir".*

Eləcə də Ömərin *"Allaha and olsun, o, mənim fikirləşdiyim sözlərin hamısını və ondan da gözəlini qeyd etdi. Belə olan təqdirdə mən artıq susdum"* sözləri Əbu Bəkrlə aralarında əvvəlcədən bir həmfikirliyin olduğunu göstərir. Bu tam həmrəylik isə onların məsələ ilə bağlı deyəcəkləri sözləri razılaşdırdıqlarından xəbər verir. Lakin Əbu Bəkr Ömərin kobudluq və sərtliyini bildiyi üçün ona danışmağa icazə vermir, onu susdurub özü sözə başlayır.

Ömər ibn Xəttabın xilafət dövrü

Vəziyyət Ömərin xilafəti zamanı bundan da pis oldu. Belə ki, o, böyük ciddi-cəhdlə xilafətin Əhli-Beytə (ə) çatmaması üçün əlindən gələni əsirgəmədi. Bəlkə də, Buxarinin rəvayətindəki Ömərin elə öz sözlərindən də başa düşülür: *"Sizdən bəzilərinin belə dediyi xəbəri mənə çatıb: "Allaha and olsun, əgər Ömər ölsə filankəsə beyət edəcəyik". Heç kəs belə qürrələnməsin və deməsin ki, Əbu Bəkrə də beyət qəfildən, məşvərətsiz oldu və baş tutdu. Bəli, Əbu Bəkrə beyət həqiqətən də o cür olub. Amma, Allah onun şərindən qorudu. Sizdən heç kimin boynu Əbu Bəkrə əyildiyi kimi başqasına əyilmədi. Kim müsəlmanlarla məşvərət etmədən bir kəsə beyət etsə o da, beyət edilən də aldadılmışdır. Kim birinə məşvərətsiz beyət etsə, beyət edənin də, beyət olunanın da beyəti düzgün deyil. Onlar öldürüləcəklər".*

Filankəsə beyət edəcəyini söyləyən şəxs kimdir? Beyət ediləcək filan şəxs bəs kimdir? Nə üçün Ömər özündən sonra bu beyətdən bu dərəcədə qorxur? Nə üçün məsələni şuraya çıxarmaqda israr edir? Məgər onun müsəlmanlara xəlifə təyin edilməsi məşvərətsiz və məsləhətsiz olaraq şəxsən Əbu Bəkr tərəfindən deyidimi?

Bu sualların cavabları Peyğəmbər xilafəti ilə bağlı bir çox məsələlərin üzərindən pərdəni götürür.

"Fthul-Bari"də Hafiz İbn Həcər rəvayətdəki "filankəsə beyət edəcəyəm" sözünün izahında deyir: "Bəzzarın "Müsnəd"ində və "əl-Cədiyyat" kitabında zəif sənədlə beyət olunacaq şəxsin Təlhə ibn Übeydullah olduğu nəql edilib. Lakin nə bu sözü deyən və nə də nəql edənin adı çəkilməyib. Sonra buna Bəlazurinin "Ənsabul-əşraf" kitabında möhkəm sənədlə rast gəldim. Orada deyilir: "Ömər dedi: "Zübeyrin belə söylədiyi xəbəri mənə çatıb ki, əgər Ömər ölsə biz Əliyə beyət edəcəyik..."[990]

Demək "filankəs deyib ki" sözündə məqsəd Zübeyr, "filan şəxsə beyət edəcəyik" sözündə isə Möminlərin əmiri Əlidir (ə). Lakin görünür Ömər bundan olduqca hiddətlənir və İmam Əlinin (ə) şəxsiyyətinin Əbu Bəkrdən üstün olmadığını təlqin etməyə çalışır, onların qətl ediləcəyini bildirir: "*Kim müsəlmanlarla məşvərət etmədən bir kəsə beyət etsə o da, beyət edilən də aldadılmışdır. Kim birinə məşvərətsiz beyət etsə, beyət edənin də, beyət olunanın da beyəti düzgün deyil. Onlar öldürüləcəklər".* Güman edir ki, bu, müsəlmanları məşvərəti olmadan baş verəcək!

Lakin Ömərin narahatlığı həqiqətdə heç də müsəlmanlar və onların məşvərəti ilə bağlı deyil. Belə ki, aydın məsələdir ki, Zübeyrin İmam Əliyə (ə) beyət dəvəti heç də şəxsi təşəbbüsü deyildi. Bu, bir dəstə böyük Peyğəmbər (s) səhabəsinin iddiası idi. Buna *"...beyət edəcəyik"* sözü də işarə edir. İbarədə cəm şəkilçisindən istifadə edilib. Həmçinin həmin vaxtın hadisələri də buna ən yaxşı şahiddir. Belə ki, Peyğəmbər (s) səhabələri və tabeinlər Osmanı mühasirəyə alaraq onu qətlə yetirdilər. Ardınca heç bir tərəddüd keçirmədən İmam Əliyə (ə) üz tutub ona beyət etdilər. Təbərinin "Tarix"ində Əbdürrəhman ibn Yəsardan nəql olunur: "Osmanın etdiklərini gördükdə Mədinədəki Peyğəmbər (s) səhabələri ətraf məntəqələrə dağılmış səhabələrə məktub yazdılar: "Siz Allah yolunda

[990] Fəthul-Bari, c. 1, s. 338

Muhəmmədin (s) dini üçün səy göstərdiyiniz halda, ardınızdan onun dini fəsada uğradı və tərk edildi. Yanımıza gəlin, Peyğəmbərin dinini bərpa edin". Uzaq yerlərdən gəlib nəhayət onu qətlə yetirdilər".[991]

İbn Əsir də özünün "Tarix" əsərində 34-cü hicri ilinin hadisələrini qeyd edərkən yazır: "Həmin ildə bir dəstə Peyğəmbər (s) səhabəsi və başqaları digər səhabələrə məktub göndərdilər: "Buraya gəlin, cihad buradadır. Camaat Osmana qarşı çox ciddidir, heç kimdən görmədikləri pisliklər ondan çəkiblər. Səhabələrdən yalnız az sayda adam: Zeyd ibn Sabit, Əbu Üseyd Saidi, Kəb ibn Malik və Həssan ibn Sabit onu müdafiə etdilər".[992]

Onların Osmana bu qədər qəzəblənmələri və tərəddüd etmədən İmam Əliyə (ə) tərəf axışıb beyət etmələri onun illərlə xilafət haqqından məhrum edilməsindən ümmətin böyük narazılığını göstərir.

Biz Ömərin Zübeyrin bu dəvətindən yalnız müsəlmanların məşvərətsiz iş tutacaqlarına səbəbindən narahat olduğunu ona görə söyləmirik ki, çünki Ömər özündən sonra Əməvi Osmanın xəlifəliyini məsləhət görürdü. Buna Harisə ibn Muzrəbin səhih rəvayəti də işarə edir. İbn Həcər "Fəthul-Bari"də yazır: "Bəğəvi "Möcəm"də, Xeysəmə "Fəzailus-səhabə"də səhih sənədlə Haris ibn Muzrəbdən rəvayət eidr: "Ömərlə həcci yerinə yetirirdim. Özündən sonra Osman ibn Əffanın xəlifə seçilməsinə təşviq edən ilk adam idi".[993]

İbn Əsakir Hüzeyfəyə istinad edilən rəvayəti nəql edir: "Ömərə dedim: "Səndən sonra xəlifə kimdir?" Dedi: "Əffanın oğlu".[994]

Təbəri isə "Tarix" kitabında yazır: "Osman Ömərin xilafəti dövründə onun xələfi kimi çağırılırdı. Dedilər: "Xələf" ərəb dilində bir şəxsdən sonra gələn şəxsdir".[995]

---

[991] Tarix, Təbəri, c. 3, s. 400-401

[992] əl-Kamilu fit-tarix, İbn Əsir, c. 3, s. 150-151

[993] Fəthul-Bari, c. 13, s. 171

[994] Tarixu mədinəti Diməşq, İbn Əsakir, c. 39, s. 188.

[995] Tarix, Təbəri, c. 3, s. 2.

Ömərin hesablamalarına görə, xilafətin Osmana keçməsi nəticədə onun Üməyyə övladlarına ötürülməsinə şərait yaradacaq. Lakin bu planın vəbalını həm Osman, həm də müsəlman ümməti ağır ödədi. İbn Əsakir İbn Abbasdan nəql olunan rəvayətdə Ömər belə dediyini yazır: "Allaha and olsun ki, olduqca qayğılıyam. Əgər bu məqama (xəlifəliyə) layiqli bir şəxs tapsam... Dedim: "Bəs Osman?" Ömər dedi: "Ah, ah, qohumlarını doyuracaq, onlarla maraqlanacaq". Sonra dedi: "Əgər onu təyin etsəm bütün Üməyyə övladlarını vəzifəyə təyin edəcək, Əbu Muit övladlarını camaatın boynuna mindirəcək. Allaha and olsun ki, əgər onu təyin etsəm bunları edəcək. Vallahi, əgər bu baş versə ərəblər onun üzərinə qalxacaq və onu öldürəcəklər".[996]

Ömərin bəzi səhabələrin ondan sonra İmam Əliyə (ə) beyət etməsi ilə bağlı niyyətlərindən xəbərdar olmasına baxmayaraq, Osmanın xilafətinin gətirdiyi acı hadisələr məhz onu İmam Əlidən (ə) önə keçirməyin nəticəsi idi. Bu isə onun Əhli-Beytlə (ə) əlaqələrinin zəifliyini bir daha sübuta yetirir. Sanki, o deyir: "Xəlifə Osmanın öldürülməsi, Üməyyə övladlarının xilafətə qovuşması və fitnənin qopması xilafətin Əhli-Beytin (ə) əlinə keçməsindən yaxşıdır.

Ömərin təşkil etdiyi altı nəfərlik şura xilafətin Osmana həvalə edilməsi və xəlifəliyinə qanuni don geyindirmək üçün planlanmışdı. Şura isə sadəcə öncədən təyin edilmiş xəlifənin seçim imitasiyası idi. Necə ki, buna Harisənin bir az əvvəl təqdim etdiyimiz səhih rəvayəti, Hüzeyfənin və Təbərinin rəvayətləri də şahidlik edir.

Ömərin qurduğu altı nəfərlik şura

Ömərin bu şuranı qurmaqda məqsədi Əməvi Osmanı xilafətə qovuşdurmaq idi. Burada Ömərin həmin şurada Osmanın seçilməsi üçün aldığı tədbirlərə müxtəsər şəkildə nəzər salaq:

---

[996] Tarixu mədinəti Diməşq, c. 44, s. 439

1. Namizədə qarşı çıxan az saylı dəstənin qətli

Məsələnin güc tətbiqi yolu ilə həlli üçün şura əhlinin aralarından bir nəfəri xəlifə seçə bilmədikləri təqdirdə onların öldürülməsi və xəlifənin ordu başçıları tərəfindən seçilməsi ilə bağlı Ömər sərt əmrlər vermişdi. Beyhəqi "Sünənul-Kubra" əsərində Abdullah ibn Ömərdən nəql etdiyi uzun bir hədisdə deyilir: "(Şuranın) üçüncü günü möhtərəm şəxslər və ordu başçıları toplaşıb dedilər: "Aranızdan birini rəhbər seçin, kim məşvərətsiz rəhbər seçilsə, onun boynunu vurun".[997]

Heysəminin "Məcməuz-zəvaid"ində Əbu Rafidən nəql etdiyi uzun hədisdə deyilir: "Onlara üç gün vaxt verdi və Süheybə camaata namaz qıldırmağı tapşırdı". Heysəmi bunun ardınca deyir: "Bunu Əbu Yəla da rəvayət edib. Rəvayətin sənədindəki ravilər "Səhih"in ravilləridir".[998]

Həmin vaxt ordu başçılarının hamısı İmam Əliyə (ə) düşmən kəslər idi. Bunu qarşıda qeyd edəcəyik.

Əgər Şurada rəylər iki hissəyə ayrılsa çoxluğu azlıqdan üstün tutmalı idilər. Dəraqutni Səid ibn Amirin vasitəsilə Cüveyriyədən Ömərin belə dediyini nəql edir: "Azlıq çoxluğa tabe olmalıdır. (Şurada) seçilmədən xəlifə olacaq şəxsi öldürün".[999]

Şura əhlinin iştirakçılarının arasında İmam Əlinin (ə) idarəçilik düşüncəsi ilə həmfikir olan şəxslər də var idi.

Əgər şura əhlinin rəyi iki bərabər hissəyə bölünsəydi, o zaman aralarında Əbdürrəhman ibn Ovfun olduğu hissənin rəyi əsas götürüləcəkdi. Buna qarşı çıxan şura əhlinin isə qanı tökülməli idi. İbn Şəbbə Nəmiri "Tarixul-Mədinə" kitabında Abdullah ibn Ömərin atasına istinad etdiyi rəvayətdə Süheybə belə dediyini bildirir: "Əgər beş nəfər bir şəxs barəsində həmfikir olsa və bir nəfər

---

[997] əs-Sünənul-Kubra, Beyhəqi, c. 8, s. 151; Kənzul-Ümmal, Müttəqi Hindi, c. 5, s. 745; Tarixu mədinəti Diməşq, İbn Əsakir, c. 44, s. 438; Tarixul-İslam, Zəhəbi, c. 3, s. 282

[998] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 77

[999] Fəthul-Bari, İbn Həcər, c. 13, s. 168-169

qarşı çıxsa, qılıncla onun başını əz (boynunu vur). Əgər dörd nəfər bir şəxs barədə razılaşıb iki nəfər ona müxalif olsa, o ikisinin boynunu vur. Əgər üç nəfər bir şəxsdə, digər üç nəfər isə başqa şəxs barəsində razılaşsa, o zaman Abdullah ibn Öməri hakim təyin edin. O hansı dəstəyə hökm versə onların namizədini seçin. Əgər Abdullah ibn Ömərin hökmünə razılaşmasanız, o zaman aralarında Əbdürrəhman ibn Ovfun olduğu dəstənin namizədini xəlifə təyin edin, qəbul etməyəcəkləri təqdirdə digər üç nəfərin isə boynunu vurun".[1000]

Eyni sözlər Təbərinin "Tarix"[1001] kitabında, "əl-Kamilu fit-tarix"[1002] əsərində də qeyd olunub.

Əbdürrəhman ibn Ovf isə İmam Əlidən (ə) çəkinirdi. Qarşıda buna toxunacağıq.

2. Ordu başçılarının şura üzərində nəzarəti

Ömərin şura üçün gördüyü təbdir və verdiyi tapşırıqlardan biri onunla bərabər Həcc mərasimini icra etmiş və bərabər Mədinəyə gəlmiş ordu başçılarını xəlifə seçimində şura əhli üzərinə nəzarətçi təyin etməsidir. Bunu Buxari "Səhih"də Misvər ibn Məxrəmədən nəql edir: "Ordu başçılarına tapşırdı. Onlar bu Həcc mərasimini Ömərlə birgə yerinə yetirmişdilər".[1003]

Həmin bu ordu başçıları İmam Əliyə (ə) düşmən şəxslər idi. Bunlar: Şam əmiri Müaviyə, Kufə əmiri Müğeyrə ibn Şöbə, Bəsrə əmiri Əbu Musa Əşəri və Misir əmiri Əmr ibn As idi. İbn Həcər Buxarinin rəvayətindəki bu sözlərin şərhində deyir: "Ordu başçılarına tapşırdı. Onlar bu Həcc mərasimini Ömərlə birgə yerinə yetirmişdilər" sözündə məqsəd onların Məkkəyə gəldikləri, Ömərlə birlikdə Həcci yerinə yetirdikləri və Mədinəyə qədər müşayiət etdikləridir. Onlar: Şam əmiri

[1000] Tarixul-Mədinə, İbn Şəbbə Nəmiri, c. 3, s. 925
[1001] Tarix, Təbəri, c. 3, s. 294
[1002] əl-Kamilu fit-tarix, İbn Əsir, c. 3, s. 67
[1003] Səhih, Buxari, c. 6, s. 2634, hədis 6781, fəsil 43

Müaviyə, Homs əmiri Ümeyr ibn Səd, Kufə əmiri Müğeyrə ibn Şöbə, Bəsrə əmiri Əbu Musa Əşəri və Misir əmiri Əmr ibn As idi".[1004]

Nəinki, bu şəxslər hətta İmama (ə) şiddətli düşmənçilikləri ilə tanınırdılar. Belə ki, sonralar, İmam Əlinin (ə) xilafəti dövründə ona qarşı Cəməl və Siffin savaşlarına qatıldılar. Onların şəkki yox idi ki, İmamın (ə) xəlifə seçilməsi sahib olduqları vəzifələri itirmələri və ilk iki xəlifənin dövründəki dünyəvi ləzzətlərdən məhrum qalmaları deməkdi. Sonrakı hadisələr onların hansı yolla olursa-olsun hakimiyyətdə qalmaq arzusunu ortaya çıxardı. Onları birləşdirən amal İmam Əlinin (ə) xəlifə seçiləcəyi təqdirdə vəzifələrini itirəcəkləri, Osmanın seçiləcəyi təqdirdə isə öz vəzifələrini qoruyacaqları idi.

Onların əlində Ömərdən aldıqları açıq-aydın əmrlər və maddi məqsədləri üçün söz birlikləri var idi. Şura üçün ayrılan üç gün başa çatdıqda heç bir qərar qəbul edilməsəydi, onlar bu göstərişləri icra edəcəkdilər.[1005]

3. İlk iki xəlifənin idarəçilik üslubunu xəlifəlik seçimində şərt olması

Şura tərəfində xəlifə seçimində Allahın kitabı və Peyğəmbərin (s) sünnəsi ilə yanaşı bəzi şərtlər də qoyulmuşdu ki, seçiləcək xəlifə ona sadiq qalmalı idi. Bunlardan ən əhəmiyyətlisi Peyğəmbər (s) sünnəsi ilə bərabər Əbu Bəkr və Ömərin idarəçilik üsulunu davam etdirmək öhdəliyidir. İbn Həcər deyir: "Əbdürrəhman ibn Ovf başçılığı üzərinə götürdükdə xəlifəliyi Əliyə təklif etdi. Lakin Əli bəzi şərtlərlə razılaşmadı. Osmana təklif etdikdə isə o, razılaşdı. Bunu Asim ibn Bəhdələnin Əbu Vaildən nəql etdiyi rəvayət də təsdiqləyir. Deyir: "Əbdürrəhman ibn Ovfdan Əlini kənarda qoyub Osmana necə beyət etdiklərini soruşdum, dedi: "Mənim bunda günahım yoxdur. Əliyə təklif edib dedim: "Allahın kitabı, Peyğəmbərin (s) sünnəsi, Əbu Bəkr və Ömərin üslubuna əsaslanacağın

---

[1004] Fəthul-Bari, İbn Həcər, c. 13, s. 170; Ümdətul-qari, Eyni, c. 24, s. 273

[1005] Bax: Fəthul-Bari, c. 13, s. 168-169; Tarix, Yaqubi, c. 2, s. 160; əs-Sünənul-kubra, Beyhəqi, c. 8, s. 151; Kənzul-ümmal, c. 5, s. 745; Tarixu mədinəti Dimeşq, c. 44, s. 438; Tarixul-islam, Zəhəbi, c. 3, s. 282

təqdirdə sənə beyət edirəm". O isə "Bacardığım qədər..." deyə cavab verdi. Ardınca Osmana təklif etdim, o bu şərtləri qəbul etdi".[1006]

Əbdürrəhman ibn Ovfun əlavə etdiyi bu qeydlərin həqiqəti barədə, xüsusilə də, "Əbu Bəkr və Ömərin üslubu" sual olunur. Belə ki, əgər onların üslubu Quran və sünnəyə uyğun idisə, İmam Əlinin (ə) onu inkar etməsi mümkün deyildi. Çünki bu zaman həmin üsluba əsaslanmaq elə Qurana və sünnəyə əsaslanmaq olacaqdı. İmam (ə) isə Quran və sünnəyə riayət etməyə daha layiq şəxs idi. Belə ki, Əbu Zərin azad etdiyi köləsi Sabitdən nəql olunan səhih hədisə əsasən Əli Quranla, Quran da Əli ilədir. Orada Ümmü Sələmə deyir: *"Peyğəmbərin (s) belə buyurduğunu eşitdim: "Əli Quranla, Quran da Əli ilədir. Hovuz başında yanıma varid olanadək əsla bir-birindən ayrılmazlar".* Hakim Nişapuri "Müstədrək"də deyir: "Bu səhih hədisdir".[1007] Zəhəbi də "Təlxis"də[1008] onunla həmfikir olduğunu bildirir.

Həmçinin bu şərtin özü-özlüyündə Quran və sünnəyə müxalif olmamalı idi. Belə ki, heç kəs bunu iddia etməz.

Bu şərtin həqiqətini bəyan edərkən bunun yalnız bəzi şəxslərin xeyrinə söyləndiyini demək olar. Məsələn, ordu sahiblərinin öz vəzifələrində qalması, ilk iki xəlifənin bəzi adamlara beytül-maldan ayırdıqları payı davam etdirmək və bu qəbildən olan digər məsələlər, hansı ki, İmamın (ə) bunları qəbul etməsi mümkün deyildi: "Allaha and olsun ki, sizin islahınız üçün özümü (dinimi) zay etmərəm".[1009] Çünki o, Osmanın əksinə olaraq, bu məsələlərdə dinini zay edəcək zərərlər görürdü. Ancaq Osman bunda zərərləri görmürdü. O səbəbdən də, bütün varlığı ilə xəlifəliyə hazır idi. Əbdürrəhman ibn Ovf da bundan istifadə edərək, İmamın (ə) imtinasından sonra xilafəti Osmana təklif edərək, ona beyət etdi.

[1006] Fəthul-Bari, c. 13, s. 170-171

[1007] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 123

[1008] Bax: əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 134, kitaba Zəhəbinin "Təlxis"dəki qeydlərilə

[1009] Ənsabul-əşraf, Bəlazuri, s. 458

Bunu dəstəkləyən rəvayəti Buxari "Səhih"də Misvər ibn Məxrəmədən nəql edir: *"Əbdürrəhman ibn Ovf bəzi məsələlərə görə Əlidən qorxurdu".*[1010] Belə ki, ona beyət etdikdə Əbu Bəkr və Ömərin qaydalarını dəyişəcəyindən qorxurdu. Xüsusilə də, ordu başçılarını vəzifədən çıxaracağından, Ömərin öz xilafəti dövründə qanuniləşdirdiyi müsəlmaların arasında beytül-malın təbəqələrə əsasən bölünməsini ləğv edəcəyindən ehtiyatlanırdı.

Bunu Zührinin Misvər ibn Məxrəmədən nəql etdiyi rəvayət də dəstəkləyir: "Şura məsələsində insanlardan ən məlumatlısı mən idim. Çünki Əbdürrəhman ibn Ovfun elçisi idim..." Hadisəni qeyd etdikdən sonra sonda deyir: "Əbdürrəhman ayağa qalxıb əmmaməsini qoydu və qılıncını üzərindən asdı. Məscidə daxil olub minbərə yüksəldi, Allaha həmd-səna söylədikdən sonra Osmana işarə edərək ona beyət etdi. Anladım ki, dayım onların arasında məsələni qarışığa salıb. Birinə haqq verərək digərini bundan məhrum edib".[1011]

İmam Əlinin (ə) Əbu Bəkr və Ömərin üslubunu qəbul etməməsi Əbdürrəhman ibn Ovfun ona beyətdən imtina etməsində əsas amil idi. Buna Səid ibn Amirin rəvayətində qeyd edilən sözlər də dəlalət edir: "Biz yalnız Əliyə beyət ediləcəyini düşünürdük".[1012] İbn Həcər bunun izahında deyir: "Yəni dəlillərə əsasən onun üstün tutulub seçiləcəyi məlum idi".[1013] Belə ki, Əbdürrəhman ibn Ovf da İmam Əliyə (ə) beyət etməyə meylli idi. Lakin əvvəlki xəlifələrin idarəçiliyi nəticəsində sahib olduqları imtiyazları dəyişdirəcəyindən qorxdu.

İbn Həcər Misvər ibn Məxrəmənin qeyd etdiyimiz "Əbdürrəhman ibn Ovf bəzi məsələlərə görə Əlidən qorxurdu" rəvayətinin izahı barədə İbn Hübeyrədən nəql edir ki, Əbdürrəhman İmam Əlinin (ə) zarafatcıllığından ehtiyat edirdi. İbn Hübeyrə deyir: "Zənn edirəm ki, o, Əlinin zarafatcıllığına və ya bu səpkidə olan

---

[1010] Səhih, Buxari, c. 6, s. 2634, hədis 6781, fəsil 43

[1011] Fəthul-Bari, c. 13, s. 171

[1012] Fəthul-Bari, c. 13, s. 170

[1013] Fəthul-Bari, c. 13, s. 170

xüsusiyyətlərinə işarə edib”.[1014] Bu sözlər mücərrəd zəndən başqa bir şey deyil. Necə ki, bunu sözünün əvvəlində İbn Hübeyrənin özü də etiraf edir. Zənn isə əsla həqiqəti əvəzləyə bilməz.

İbn Həcər sözlərinə görə isə: “Mənə elə gəlir ki, onun qorxusu başqasına beyət edildikdə ona itaət etməyəcəyi idi”.[1015] Əgər “başqasına” sözündə məqsəd Osmandırsa, (yəni: Osmandan başqasına beyət edildikdə Osman ona itaət etməyəcəkdi – Tərc.) o zaman İbn Ovf qorxurdu ki, əgər Osmana beyət etməsə, onunla hesablaşmayacaq və itaət göstərməyəcək. Bu, heç də uzaq fikir deyil. Xüsusilə də, sonrakı illərdə Ümməyə övladlarının İmama (ə) beyətdən boyun qaçırdıqları, ona qarşı Cəməl və Siffin savaşlarına çıxdıqları məlumdur. Həmin savaşlarda isə minlərlə müsəlmanın qanı axıdılmışdı.

Lakin bu, İmam Əliyə (ə) beyəti tərk edərək Osmana beyət etməsində əsla Əbdürrəhman ibn Ovfa haqq qazandıra bilməz. Ona vacib olan özündən yeni təklif yaratmaq deyil, boynunda olan təklifə əməl etməkdi. Şura əhli və müsəlmanlar bu məsələni ona əmanət etmişdilər. Onun vəzifəsi isə xəlifəliyə münasib şəxsə beyət etməkdi. O bunu yerinə yetirməli, öz qorxu və zənnini kənara atmalı idi. Sadəcə başqasına beyət edəcəkləri təqdirdə ona itaət etməyəcəyindən qorxaraq nə haqla Osmana beyət edə bilər?! Əbdürrəhman ibn Ovfun bu qorxusu onun əməlinə əsla haqq qazandırmır. Xüsusilə də, Şuranı Ömərin təyin etdiyini və əhlini də özü seçdiyini nəzərə alsaq, şübhə yoxdur ki, Osmanın itaətsizliyi şura əhlinin və ümmətin ona qarşı çıxması ilə nəticələnəcəkdi. Beləliklə də onun itaətsizliyinin heç bir təsiri olmayacaqdı.

Lakin əgər məqsəd Möminlərin əmiri Əlidirsə (ə), Əbdürrəhman ibn Ovfun başqasına beyət edəcəyi təqdirdə İmamın (ə) ona tabe olmayacağından qorxması həqiqətdən çox-çox uzaqdır, dəlilsiz bir iddiadır. Buna müsəlmanların vəhdətini qorumaq naminə özündən əvvəlki xəlifələrə etdiyi beyəti misal göstərmək olar.

[1014] Fəthul-Bari, c. 13, s. 170

[1015] Fəthul-Bari, c. 13, s. 170

İmamın (ə) bu vəhdəti parçalayacaq və ya sıralarını pozacaq bir addım atacağını isə düşünmək qeyri-mümkündür.

4. Əbdürrəhman ibn Ovfun hamıdan üstün tutulması

Şura məsələsində digər tədbir və əməliyyatlardan biri Əbdürrəhman ibn Ovfa üstünlük tanınması və şura əhlinin arasından xəlifə seçimində digərlərinə rəğmən əhəmiyyətli səlahiyyət verilməsidir. Baxmayaraq ki, İmamın (ə) xilafətin rəhbərliyinə keçməsi məsələsində şəxsi fikirləri var idi. İnsanın şəxsən bir şeyi bəyənməsi və öz rəyinin daha yaxşı olduğunu düşünməsi təbii haldır. Əbdürrəhman ibn Ovfun qarşısında iki seçim var idi:

Birinci: Özünə beyət olunması; Səid ibn Amirin rəvayətində deyildiyi kimi: "Süheyb camaata sübh namazını qıldırdıqda Əbdürrəhman ibn Ovf kənardan gəlib minbərə qalxdı. Elçisi Səd onu anidən yaxınlaş dedi: "Başını qaldır, Muhəmməd ümmətinə bax və özünə beyət al".[1016]

İkinci: Özünün inandığı və rəyinə əhəmiyyət verəcək bir şəxsə beyət etmək; Necə ki, bunu yuxarıda Misvər ibn Məxrəmənin rəvayətində görürük: "Əbdürrəhman ayağa qalxıb əmmaməsini qoydu və qılıncını üzərindən asdı. Məscidə daxil olub minbərə yüksəldi, Allaha həmd-səna söylədikdən sonra Osmana işarə edərək ona beyət etdi. Anladım ki, dayım onların arasında məsələni qarışığa salıb. Birinə haqq verərək digərini bundan məhrum edib".[1017]

Göründüyü kimi, Əbdürrəhman ikinci seçimi etdi. Çünki özünün də etirafına əsasən, tamahı hələ müsəlmanlara xəlifə olacaq səviyyəyə çatmamışdı: "Bu məsələyə (xəlifəliyə) görə sizinlə rəqabət aparmayacağam".[1018]

Ömərin şura təyini ilə bağlı söhbətin xülasəsi

[1016] Fəthul-Bari, c. 13, s. 170

[1017] Fəthul-Bari, c. 13, s. 171

[1018] Səhih, Buxari, c. 6, s. 2634, hədis 6781, fəsil 43

Təqdim edilənlərdən aydın olur ki, Ömər tərəfindən qurulmuş şurada onun üzvləri baxımından xüsusi tapşırıqları və tədbirləri olmuşdur. Bunlar isə İmam Əlinin (ə) xilafətə yetişməsinin qarşısının alınması üçün alınmış tədbirlər idi. Həmçinin bu tədbirlər növbəti xəlifənin Osman ibn Əffan olmasına hesablanmışdı. Baxmayaraq ki, onun xəlifə olacağı təqdirdə Üməyyə övladlarını müsəlmanların rəhbərliyinə gətirəcəyini və onlara imtiyazlar tanıyacağını bilirdi. Bu isə nəticədə böyük bir fitnəyə səbəb olacaq və Osmanın qətli ilə bitəcəkdi. Bütün bunları Ömər görürdü. Lakin bütün bunlara baxmayaraq, tərəzinin gözünü Osmanın xeyrinə əydi.

Ömər Əbu Bəkrin xəlifəliyi üçün nə qədər çalışırdısa, özündən sonra xilafətin İmam Əliyə (ə) yetişməməsi üçün də bir o qədər səy göstərirdi. Bu şura da gözlər qarşısında yalnız zahiri bir pərdə idi ki, əsas hədəfi xilafətin Əhli-Beytin (ə) əlinə keçməsinin qarşısını almaq və onların tərəfdarlarının səsini kəsmək, seçimə qanuni don geyindirmək idi. Çünki ilk vaxtlardan – Peyğəmbərin (s) vəfatından bəri müsəlmanların rəyi İmam Əlinin (ə) xəlifəliyinə yönəlikdi. Bu səslər Bəni-Saidə Səqifəsində də yüksəlmişdi: "Əlidən başqasına beyət etməyəcəyik".[1019]

Heç bir tədbir görmədən, Osmanın birbaşa xəlifə təyin edilməsi (Əbu Bəkrin Öməri təyin etdiyi kimi) ona qarşı rəylərin parçalanması, xilafətin əlindən çıxması və hakimiyyətdə qərarlaşa bilməyəcəyi ilə nəticələnəcəkdi. Bütün bunlar isə hakimiyyətin İmam Əliyə (ə) çatması ilə başa çatacaqdı. Osmanda Ömərin Əbu Bəkr üçün xilafəti möhkəmlətməsi və ondan sonra hakimiyyəti əlində saxlaması keyfiyyətləri, eləcə də sərtlik və qəddarlıq xüsusiyyətləri yox idi. Belə ki, Ömər Peyğəmbərin (s) müsəlmanları zəlalətə düşməkdən qoruyacaq vəsiyyət yazmasına mane olacaq qədər cürət göstərmiş, Əbu Bəkrə beyət almaq üçün Peyğəmbər (s) qızının evini içəridəkilərlə bərabər yandırmağa cəhd etmişdi.

Şübhəsiz ki, İmamın (ə) formalaşdırılmış bu şuradan kənarda tutulması onun qanuniliyini şübhə altına alacaqdı. Çünki səhabələrin arasında fəzilət, üstünlük,

[1019] Tarix, Təbəri, c. 2, s. 443

elm, hikmət, zəka və hazırcavablıqda... onunla müqayisə edilə biləcək heç kəs yox idi. Belə bir şəxsin iştirak etmədiyi şuranın təyin edəcəyi xəlifə müsəlmanlarının inamını itirməsinə səbəb olacaqdı. Ona görə də, istəməsələr belə İmamın (ə) adını bu şuraya əlavə etmişdilər ki, seçimə qanuni don geyindirsinlər və İmam Əlini (ə) həqiqi xəlifə görən müsəlmanları susdursunlar.

Bu həqiqətlər İmama (ə) da məlum idi. Lakin onun şurada iştirakı həqiqi Peyğəmbər (s) xəlifəsi olduğunu isbatlamaq və onların qarşısında höccətini tamamlamaq idi. Belə ki, İmam (ə) bunun çatdırılmasında olduqca diqqətli idi. Çünki İmamın (ə) nəzərindəki İmamət anlayışı Səqifədə formalaşan, Əbu Bəkrin ictihadı və ya Ömərin şurası ilə seçilən zahiri rəhbərlik məfhumundan tam fərqlənirdi. Belə ki, İmamın (ə) imamət anlayışı Allahın müəyyən meyarlar və xüsusiyyətlərə əsasən bəxş etdiyi ilahi bir əhddir, insanın Allaha tərəf hidayəti və Ona qovuşması ilə birbaşa əlaqəlidir. Bu səbəbdən, İmam (ə) yaranmış münasib şəraiti əldən verməyərək öz haqqını onlara bəyan etdi. Məhz ona görə də biz şuradakı çıxışında və özünün xəlifəlik illərində də ümmətə Peyğəmbər (s) zamanında onlardan alınan əhdləri xatırlatdı. Bu çıxışlarını Əhli-Sünnənin Əhməd ibn Hənbəl[1020] kimi bir çox böyük hədis alimləri öz kitablarında nəql ediblər.

Fatimənin (ə) ümmətə müraciəti

İlk iki xəlifənin Fatiməyə (ə) qarşı bəd rəftarı onu üzmüş və qarşıdakı ağır faciəni formalaşdırmağa başlamışdı. Xanım (ə) onları bu rəftarlarından çəkindirmək üçün dəlillər ortaya qoyurdu. Lakin hər dəfə bu səyləri səmərəsiz qalırdı. Onlar öz qərarlarını hər şeydən öndə tutur və heç bir dəlili layiq bilmirdilər. Bu zaman Fatimə (ə) onlara qəzəblənir və ümmətə müraciət etmək qərarına gəlir ki, onların bu addımlarının böyük yanlışlığını bəyan etsin. Nəticədə həlak olan da, nicat tapan da açıq-aydın dəlilləri eşidim öz aqibətini seçsin.

[1020] Bax: Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 88, 84, 118; c. 4, s. 370; c. 5, s. 366, 370

Böyük Əhli-Sünnə alimləri Əbu Bəkrin Fədəyi və Peyğəmbər (s) mirasını verməməkdə israrlı olduğunu görən Fatimənin (ə) çarşabını örtüb, tərəfdarları və Bəni-Haşim qadınlarından ibarət bir dəstə ilə Əbu Bəkrin yanına getdiyini yazırlar. *"...Elə hicablanmışdı ki, çadrasının ətəyi ayağının altına düşürdü. Peyğəmbər (s) kimi yol gedir və ondan zərrə qədər də fərqlənmirdi. Məscidə girdikdə mühacir və ənsardan çox sayda adamın Əbu Bəkrin ətrafında olduğunu gördü. Onlarla Xanım (ə) arasına bir örtük çəkildikdən sonra uzun bir xütbə söylədi və xütbəsində bir çox mühüm həqiqətlərin üstünü açdı. Xütbəsində belə söylədiyi nəql edilir: "Aranızda ilahi haqqın gözətçisi, hər birinin əli yetdiyi Allah peymanının qoruyucusu və Peyğəmbərin (s) özündən sonra ümmətin arasında yadigar qoyduğu şey – Allahın danışan Kitabı və aşkar nur olan sadiq Qurandır. Bu, dəlilləri aydın, batini aşkar, zahiri nur, ona etiqad bəsləyənlər üçün iftixar mənbəyi və eşidənlərini nicat sahilinə yönəldən bir kitabdır.*

Məhz bu kitabın vasitəsilə Allahın aydın dəlilləri ilə tanış olmaq, (bəndələrə) vacib olan işlərin təfsirini, haram olanların şərhini oxumaq, aydın və kifayət edən dəlilləri, əxlaqi göstərişləri, bəyənilən və caiz olan işləri tapmaq olar.

Allah-taala, imanı sizin üçün şirkdən paklanma səbəbi, namazı təkəbbürlük və qürrələnməkdən xilas olmaq, zəkatı ruhun təmizlənməsi və ruzinin artması, orucu səmimiyyətin (ixlas) təsbiti vasitəsi, həcci İslam ayininin güclənmək, ədaləti ürəklərin bir-birinə bağlanması, bizə itaəti İslam yolunun nizamı, imamlığımızı təfriqə və pərakəndəlikdən amanda qalmaq, məhəbbətimizi İslamın izzəti... qərar verdi.

İndi ki, bunlar həqiqətdir, siz də ilahi təqvanı rəhbər tutub, Onun məqamına yaraşanı yerinə yetirərək əmrləri pozmamalı və çalışıb, müsəlman kimi dünyadan getməlisiniz.

Allahın əmr və qadağalarına itaət edib, din, elm və hidayəti özünüzə rəhbər edin. ***"Həqiqətən də Allahdan alim bəndələri qorxar".***

Siz Allahın kitabını bilərəkdənmi tərk edib onu arxanıza atdınız?! Orada Uca Allah buyurur: ***"Süleyman Davuda (peyğəmbərlikdə, elmdə və mülkdə) varis oldu".***[1021] *Həmçinin Yəhya ibn Zəkəriyyənin (ə) hekayəsindən söz açaraq buyurur:* ***"Buna görə də mənə Öz dərgahından bir oğul bəxş et ki, o, həm mənə, həm də Yaqub nəslinə varis olsun. Ey Rəbbim! Həm də elə et ki, o riza (Sənin rizanı) qazanmış olsun!"***[1022]

Eləcə də buyurur: ***"Qohumlar (bir-birinə vərəsə olmaq baxımından) Allahın Kitabında möminlərdən və mühacirlərdən daha yaxındırlar";***[1023] ***"Allah övladlarınız haqqında sizə tövsiyə buyurur ki, oğula iki qız hissəsi qədər pay düşür";***[1024] ***"Sizin hər birinizi ölüm haqlayan zaman qoyub gedəcəyiniz maldan valideynlərinizə, yaxın qohumlarınıza verilməsi üçün ədalət üzrə vəsiyyət etməyiniz zəruridir. Müttəqilərə (bu) vacibdir".***[1025]

Siz güman edirsiniz ki, mənim atamın mirasında heç bir haqqım, eləcə də onunla aramızda heç qohumluq bağım yoxdur?! Yoxsa Allah bu ayələrini sizə şamil edərək Peyğəmbərini (s) bu hökmlərdən kənarda tutmuşdur?! Yoxsa "Din əhli bir-birinə miras buraxmır" deyirsiniz və ya mənim və atamın eyni dindən olmadığınımı söyləyirsiniz?! Bəlkə Quranın xüsusi və ümumi ayələrini Peyğəmbərdən (s) yaxşı bilirsiniz?! Bəlkə yenidən cahiliyyə hökmlərinin qayıtmasını istəyirsiniz? ***"Tam qənaət sahibi olan bir camaat üçün Allahdan daha yaxşı hökm verə bilən kimdir?!"***[1026]*Yoxsa mənim miras payıma zülm və zorla sahib çıxmaq istəyirsiniz?* ***"Zülm edənlər isə (öləndən sonra) hansı dönüşə dönəcəklərini (hara qayıdacaqlarını, aqibətlərinin necə olacağını, hansı inqilabla sarsılacaqlarını) mütləq biləcəklər!"***[1027].[1028]

[1021] Nəml, 16
[1022] Məryəm, 5-6
[1023] Əhzab, 6
[1024] Nisa, 11
[1025] Bəqərə, 180
[1026] Maidə, 50
[1027] Şüəra, 227

Bu xütbəyə nəzər salan şəxs Xanımın (ə) mövcud olan aydın hökmlərə toxunduğunu və bir çox həqiqətin üzərindən örtüyü qaldırdığını görəcək. Bu xütbənin nəqli barədə iddialara və ya bəzi hissələrinin pozulduğuna baxmayaraq, bir çox hədis və tarix, eləcə də lüğət və ədəbiyyat alimləri bunu nəql ediblər. Fədək mövzusunu təhlil edərkən onlara toxunmuşduq.

Əhli-Beytin (ə) Əbu Bəkr və Ömərin mövqeyinə etirazları

Əhli-Sünnə yolu ilə Əhli-Beytdən (ə) nəql edilən rəvayətlərə nəzər saldıqda onların Əbu Bəkr və Ömərlə münasibətlərində ciddi çəkişmələrin olduğunu, onları ən pis rəzillik sifətləri ilə – yalan, xəyanət və saxtakar kimi gördüklərini müşahidə edərik. Müslim "Səhih"də Malik ibn Ənəsdən Ömərin İmam Əliyə (ə) belə dediyini nəql edir: *"Peyğəmbər (s) vəfat etdikdən sonra Əbu Bəkr "Mən Peyğəmbərin vəlisiyəm" demişdi. Siz ikiniz gəldiniz. Bu (Abbas) qardaşı oğlunun mirasını, bu (Əli) isə xanımının atasından qalan irsini tələb edirdi. Əbu Bəkr dedi ki, Peyğəmbər (s) "Biz peyğəmbərlər özümüzdən sonra miras qoymarıq. Geridə buraxdıqlarımız sədəqədir" buyurub. Siz ikiniz də onu yalançı, günahkar, nadan və xain gördünüz... Əbu Bəkr öldükdən sonra mən Peyğəmbərin (s) və Əbu Bəkrin vəlisi oldum. Siz ikiniz də məni yalançı, günahkar, nadan və xain gördünüz..."*[1029]

Bu rəvayət Möminlərin əmirinin (ə) ilk iki xəlifəyə qarşı xüsusi münasibətinin olduğunu göstərir. İmam (ə) onlarda həqiqi mömin sifəti görmürdü. Onlar İmamın (ə) nəzərində yalan, günah, nadanlıq və xəyanət kimi rəzil və qəbih əməllərə mübtəla olmuş kəslər idi. Burada məsələnin baş verməsi, həmin sifətlərlə İmamın onları vəsf etməsinin və bunun səbəbləri bəhsinə daxil olmaq istəmirik. Sadəcə burada bildirmək istədiyimiz İmamın (ə) ilk iki xəlifə barədəki etiqadının onların yalançı, günahkar, nadan və xain olmasıdır.

[1028] Bəlağatun-nisa, İbn Teyfur, s. 16-17

[1029] Səhih, Müslim, c. 3, s. 1376, hədis 1757, fəsil 15

Onun belə düşünməsinin səbəbləri burada bizim üçün əhəmiyyətli deyil. Həmçinin Müslimin "Səhih"inin bəzi şərhçilərinin bu rəzil vəsflərdən onları xilas etmək üçün guya ki, ictihadda düşdükləri ixtilaf səbəbi kimi təqdim etməsi də fayda vermir. Belə ki, İmamın (ə) Fədək və Peyğəmbər (s) mirası barədəki hökmü Əbu Bəkrlə Ömərin hökmündən tamamilə fərqlənirdi. İmamın (ə) sözlərinə görə bu cür hökm verən şəxslər həmin rəzil sifətlərlə vəsf olunurlar. Necə ki, Nəvəvi "Şərhu Müsllim" kitabında Maziridən nəql edir: "Yəni, məqsəd budur: sizin bu məsələdəki hökmlə bağlı fikriniz Əbu Bəkr və Ömərin hökmündən fərqlənir. Sizin rəyinizin hökmünə əsasən, biz verdiyimiz bu qərara görə həmin sifətlərlə vəsf olunuruq. Yaxud da məna budur ki, rəhbər bu sifətlərlə vəsf olunursa, onun verdiyi hökm də ittihama məruz qalır. Sizin qarşı çıxmağınız insanlarda bizim haqqımızda belə vəsflər barədə düşüncə formalaşdırır".[1030]

Bu yanaşmaların hədisin zahirinə zidd olduğuna baxmayaraq, İmamın (ə) Öməri həmin sifətlərlə vəsf etməsini inkar etmir. Sadəcə həmin vəsfləri yumşaltmağa səy göstərir.

Nəticə

Bu bəhsdən aldığımız nəticələri aşağıdakı kimi sıralaya bilərik:

Birinci: Peyğəmbərin (s) hədislərinin elmi, dini və rəsmi çəkisi var, onun hədisləri dildən-dilə əzbər olmuş, rəvayət edilmiş və yaşadılmışdır. Eyni vaxtda bu xüsusiyyətlərinə görə hədislər üzərində təhrif, dəyişdirmə və uydurma kimi saxtakarlıqlar üçün də qapı açılmışdır. Bu isə şərif Peyğəmbər (s) sünnəsinin təəssüf doğuran yönüdür. Bu cür bəlalara hədəf olan ən çox hədis Əhli-Beytin (ə) fəzilət və üstünlüklərindən bəhs edən, xüsusilə də, onların ümmətin arasında hidayət bayrağı və ümmətin rəhbərləri olması ilə bağlı hədislərdir. Belə ki, zalım hakimiyyətlər müxtəlif yol və üslublarla Peyğəmbərin (s) adından Əhli-Beytin (ə)

[1030] Şərhu Müslim, Nəvəvi, c. 12, s. 72

rəqiblərinin fəzilətlərinə, onlar kimi üstünlüyə sahib olduqlarına dair hədislər uydurmuş, onların fəzilətlərini başqalarının adına çıxarmışlar. Bunlar ya hədislərə müəyyən kəlmələr əlavə edilməklə, yaxud hədislərin xüsusi olaraq Əhli-Beytə (ə) aid olması təsəvvüründən ümməti yayındırmaq üçün müxtəlif səbəb və hadisələr uydurmaqla edilib.

Bu cür bəlalarla üz-üzə qalmış hədislərdən biri *"Fatimə mənim bir parçamdır, onu qəzəbləndirən məni qəzəbləndirmişdir"* hədisidir. Bu hədis Fatiməyə (ə) əzəmətli bir üstünlük və xüsusi bir fəzilət bəxş edir, Əhli-Beytlə (ə) eyni sıraya qoyulan və ya onlardan üstün tutulan şəxsləri müqayisədən kənarlaşdırır.

İkinci: "Fatimə mənim bir parçamdır" hədisi səhih və Peyğəmbərin (s) söylədiyinə qəti əminlik olan hədislərdən sayılır, müsəlmanların arasında böyük şöhrətə sahibdir. Belə ki, bir çox səhabə onu şəxsən Peyğəmbərdən (s) eşitmiş, müsəlmanlar özlərinin ən səhih kitablarında nəql etmişlər.

Həmçinin Fatimənin (ə) ilk iki xəlifə ilə mübahisəsi zəminində onlara qəzəbləndiyi də isbat olunmuş və şəkk qəbul etməyən məsələdir. "Səhih"dəki rəvayətlər də Fatimənin (ə) dünyadan onlara qəzəbli halda köçdüyünü bildirir. Bundan əlavə, cənazəsində iştirak etməmələrini, ona namaz qılmamalarını vəsiyyət edir. Eləcə də səhih yollarla nəql edildiyinə əsasən, gecə dəfn edilməsini və qəbrinin gizli saxlanılmasını da tapşırır.

Üçüncü: "Bir parçamdır" hədisi aydın şəkildə Fatiməni (ə) qəzəbləndirən və onu incidənin Peyğəmbəri qəzəbləndirdiyi və onu incitdiyinə dəlalət edir. Qurani-Kərimdə isə Peyğəmbəri (s) qəzəbləndirmək və ya onu incitmək qadağan edilmişdir. Uca Allah buyurur: ***"Allaha və Onun Peyğəmbərinə əziyyət edənlərə Allah dünyada və axirətdə lənət etmiş və onlar üçün həqarətli bir əzab hazırlamışdır!"***[1031]

Dördüncü: Əhli-Sünnə alimləri Fatimənin (ə) ilk iki xəlifəyə qəzəbini ciddi-cəhdlə yozmağa çalışmış və ya səhih hədisin qarşısına onun razılığına işarə edən

[1031] Əhzab, 57

zəif və mürsəl hədislərlə çıxmağa səy göstərmişlər. Onların bur cəhdlərini aşağıdakı kimi sıralamaq olar:

1. Fatimənin (ə) ilk iki xəlifədən üz döndərdi və onlarla ölənədək bir daha danışmadı; Bu, yalnız aralarında mübahisə mövzusu olan mülk barədə danışmamaqdır. Bunun dəlili İbn Şəbbə Nəmirinin "Tarixul-Mədinə" kitabındakı rəvayətdir. Orada deyir: *"Ölənədək bu mal-mülk barədə onunla danışmadı".*

Cavab budur ki, Xanımın (ə) üz döndərməsi və ölənədək danışmaması təkcə mal mövzusunda deyil, mütləq mənadadır. "Səhih"dəki rəvayət də buna dəlildir. İbn Şəbbənin həmin hədisi isə ravilərin arasında İshaq ibn İdrisin olması ilə zəif hesab edilir. Bunu Əhli-Sünnənin böyük alimləri də təsdiq ediblər. Lakin bu təsdiqlərinə rəğmən bundan sonra da Xanımın (ə) razılığını sübut etməyə çalışıblar.

2. Fatimə (ə) Əbu Bəkrə qəzəblənmədi; Bu Əhməd ibn Hənbəlin Əbu Tüfeyldən nəql etdiyi rəvayətdə iddia olunur. Orada deyilir: *"Sən və eşitdiyin doğru olar..."*

Cavab: Əbu Tüfeylin hədisi Xanımın (ə) razılığına dəlalət etmir. Həmçinin onun qəzəbləndiyini və əlaqəsini kəsdiyini bildirən "Səhih"dəki rəvayətə də zidd deyil. Eləcə də "Səhih"dəki "Biz peyğəmbərlər miras buraxmarıq" "hədisinə" də müxalifdir.

3. Fatimə (ə) Əbu Bəkrə qəzəbləndi, sonradan razılığını bildirdi, dünyadan onlardan razı halda köçdü; Buna Beyhəqinin Şəbidən nəql etdiyi rəvayət işarə edir: *"...onu razı saldı, Xanım da razılığını bildirdi".* Hədisin Şəbiyə istinadı səhihdir.

Cavab: Rəvayət mürsəldir. Mürsəl barəsində Əhli-Sünnə alimlərinin arasında ixtilaf mövcuddur. Onlar bu mövzuda fərqli sözlər söyləmişlər. Bir dəstəsi mürsəl hədisləri mütləq şəkildə rədd edib. Bu, Buxari, Müslim və başqa əksər hədis alimlərinin rəyidir. Onlar mürsəl hədisin dəlil olmadığını söyləyiblər. Digərləri isə onları ayırmağa çalışmışlar. Lakin onların dəlil olması ilə bağlı hər hansı şərt

üzərində yekdil fikrə gələ bilməyiblər. Bu isə mürsəlin höccət olma dairəsini daraldan amildir.

Eləcə də, Əbu Bəkrin Fatiməni (ə) razı saldığı və onun da razılaşdığı sözü "Səhih"də onun qəzəbinin ölənədək davam etdiyini bildirən rəvayətlə ziddiyyət təşkil edir. Öz vəsiyyəti ilə vəfatından sonra Əbu Bəkrin ona namaz qılmasını qadağan etməsi də qəzəbinin davam etdiyinin başqa bir dəlilidir. "Səhih"dəki rəvayət aydın şəkildə Fatimənin (ə) qəzəbləndiyinə və onlardan üz döndərdiyinə dəlalət etdiyi kimi, bu qəzəb və üz çevirmənin ölənədək davam etdiyini də açıq-aydın bildirir.

Bundan əlavə, Şəbinin Möminlərin əmiri Əliyə (ə) qarşı mənfi münasibətinin olduğu da məlumdur. O, Bəni-Ümməyənin məmuru, dövlət adamı və xəlifələrinin dostu idi. Həmçinin halal-harama da əhəmiyyət vermirdi. Çox vaxt mürsəl hədislər danışırdı. Onu bu və digər hədislərini dəlil kimi götürmək olmaz.

4. Fatimənin qəzəb və ya razılığı iman və küfr meyarı deyil. Belə ki, o, Möminlərin əmiri Əliyə (ə) də qəzəblənmişdi. Əgər bu qarşı tərəfə əzab vəd edəcək bir feldirsə, o zaman bu vəd Əli ibn Əbu Talib barəsində də tətbiq olunmalıdır. Əgər sahibinə əzab vəd edəcək bir feil deyilsə, o zaman Əbu Bəkr Əlidən daha üzrlüdür.

Cavab: Fatimənin (ə) qəzəbləndirilməsi və ya incidilməsi Peyğəmbərin (s) qəzəbləndirilməsi və incidilməsidir. Əhli-Sünnə alimləri Xanımın (ə) qəzəbləndirilməsinin və incidilməsinə haram olduğuna hökm etmişlər. Əbu Nəim və Deyləmi deyirlər: "Ona qəzəbləndirən və ya incidən şəxsə Allah yer və göylər dolusu lənət edər". Süheyli, Şaşi və Beyhəqi isə onu söyən və ya təhqir edən şəxsin həmin anda kafir olacağını bildirmişlər.

"Səhih"dəki rəvayət (hadisənin ardından) onun Möminlərin əmiri Əlidən (ə) razı olduğunu, Əbu Bəkr və Ömərdən narazı halda vəfat etdiyini bildirir.

İbn Teymiyyə və davamçılarının cavab vermədikləri sual budur: Fatimənin (ə) qəzəbinin xüsusiyyətləri Əhli-Sünnə alimlərinin icmasına əsasən sübuta yetirilib.

İmam Əlidən (ə) razılığı isə “Səhih”dəki rəvayətlərdə açıq şəkildə dilə gətirilir. Bəs “Səhih” hədislərdə onun Əbu Bəkrə qəzəbləndiyi və bu halda da dünyadan köçdüyünə dəlalət edən hədisin qarşısına sizin çıxara biləcəyiniz dəliliniz haradadır?

Bunlara rəğmən, onun Möminlərin əmirinə (ə) qəzəblənməsi əsli olmayan boş bir iftiradır ki, Bəni-Üməyyənin və ardıcıllarının bu müqəddəs şəxslərə qarşı nifrət qələmlərinin məhsuludur.

Beşinci: Hər hansı bir hədis və rəvayətin səhih və mötəbər kitablardan səhih sənədlərlə qeyd edilməsi hadisənin mütləq şəkildə və qəti olaraq baş verdiyi demək deyil. Əksinə, həmin hadisənin baş vermə ehtimalına və zənninə dəlalət edir. Rəvayəti qeyd edən kitabların müəllifləri müəyyən dərəcədə elm və mərifətə sahib olsalar da, səhih və ya uydurma hədisləri bir-birindən kamil şəkildə ayırmaqda xəta və ya yanlışdan qorunmamışlar. Bu kitablarda qeyd olunmuş Möminlərin əmiri Əlinin (ə) Əbu Cəhlin qızına elçilik hekayəsinin nə elmi, nə obyektiv və nə də tarixi bir əsası yoxdur. Onun həqiqi mənşəyi nifrət dolu rəzil nəfslər və siyasi məqsədlərdir. Onu uyduran kəslərin əsas hədəfləri bu müqəddəs şəxsləri alçaltmaq və İslamdakı uca məqamlarını ləkələməkdir. Bu uydurma hekayətə bildiriləcək başlıca iradlar:

1. Hekayə Quran və dində sabit olan məsələlərlə ziddiyyət təşkil edir. Hədisin sadəcə “Səhih”lərdə və ya digər kitablarda olması onun qəti olaraq baş verdiyi anlamına gəlməz, onun mütləq qəbuluna və ona uyğun əməl etməyə hökm verməz. Belə ki, dini və tarixi hadisələrlə isbatlanmayan hədislərin kənara atılmasında, hökmünə əhəmiyyət verməməkdə heç bir müşkül yoxdur. Mövzu barədə bəhslərdə də qeyd edildiyi kimi, Əhli-Sünnə alimləri də “Səhih”lərin bəzi hədislərini rədd ediblər. Eləcə də, ravinin sadəcə Buxari və Müslimin “Səhih”lərinin ravilərindən olması onun tənqid olunmayacağı demək deyil. “Səhih”lərin raviləri barədə geniş bir müzakirə mövzusu var. Məsələn, Mərvan ibn Həkəm ibn Əbülas barəsində olduğu kimi. Tarix və sirə nəql edənlərin

nəzərlərində sübuta yetirilib ki, o, Əhli-Sünnə nəzərində Cənnətlə müjdələnmiş on nəfərdən biri olan Təlhənin qatilidir. Həmçinin ravi səhabələrlə də bağlı məsələ belədir. Məsələn, Həkəm ibn Əbülas (Mərvanın atsı və Təlhənin qatili) barədə. Belə ki, Peyğəmbər (s) onu və belindən gələcək nəslini lənətləmişdir. Bu, təqdim etdiyimiz səhih hədislərdə qeyd olunurdu.

Buna əsasən, Əbu Cəhlin qızına elçilik hekayəsinin "Səhih"də qeyd edilməsi heç də onun müzakirələrin fövqündə dayanması, Qurana və dində sabit olan məsələlər müqabilində heç bir irad söylənməyəcəyi demək deyil. Həmin iradlardan ən əhəmiyyətlilərinə nəzər salaq:

A. Peyğəmbərin (s) ali və əzəmətli məqamı ilə ziddiyyət təşkil etməsi; Bu hekayə Qurani-Kərimin də "əzəmətli əxlaq" deyə vəsf etdiyi uca Peyğəmbər əxlaqı ilə bir araya sığmır. Həmçinin nəinki Möminlərin əmiri Əlinin (ə), hətta Peyğəmbərin (s) məqamı ilə ziddiyyət təşkil edir. Belə ki, əgər bu həqiqətən baş veribsə, o zaman bunu edən başqa şəxslərə şəriət qadağa qoymamalıdır. Lakin dörd qadınla eyni vaxtda evlilik Allahın kitabına əsasən halaldır. Allahın mübah bildiyi bir işi Peyğəmbər (s) necə inkar edə bilər? Hətta bu inkarını açıq şəkildə bəyan edərək minbər üzərindən, şahidlərin iştirakı ilə sərt sözlərlə ümmətə elan edər?!

Tarixçilər Abbası xəlifəsi Məmunun (hansı ki, onunla Peyğəmbərin (s) arasında müqayisə aparmaq belə yersizdir!) qızı Ümmü Fəzli İmam Əbu Cəfər Muhəmməd ibn Əli ilə (ə) evləndirdikdən sonra onu İmamla birlikdə Mədinəyə göndərdiyini yazırlar. Bir müddət sonra isə qızı Ümmü Fəzl atasına məktub yazaraq onun üzərinə başqa bir qadınla da evləndiyini yazdı. Xülasə olaraq atası ona belə cavab verdi: Biz səni onunla Allahın mübah bildiyi bir işi qadağan etmək üçün evləndirməmişik.

Buna başqa bir irad: əgər Peyğəmbər (s) bunu açıq elan edirsə, həmin hökm hamıya şamil olmalıdır. Halbuki bu hökm bütün mükəlləflərə xas bir hökm deyil.

Bu baxımdan da, digər şəri hökmləri çatdırmaqda olduğu kimi, bunu da öz ali əxlaqına müvafiq bir şəkildə aid olan şəxslərə çatdıra bilərdi.

Buna etiraz oluna bilər ki: İmam (ə) Xanım Fatimə (ə) ilə evlənərkən başqa bir qadınla evlənməyəcəyini üzərinə öhdəlik olaraq götürmüşdü, yaxud belə bir şərt var idi və İmam (ə) onu unutmuşdu, ya da belə bir şərtləşmə yox idi, lakin İmamın (ə) bu məsələdə həssaslıq göstərib, ehtiramı qoruyaraq elçi düşməməsi gərəkdi və bu səbəbdən, Peyğəmbər (s) belə sərt sözlərlə onu danladı deyilsə, cavab belə olar: Bu iddialar puç və havadan deyilmiş sözlərdir, zəndən başqa bir şey deyil. Əgər İmam (ə) şərti unutmuşdusa və ya belə bir şərt yox idi, lakin ehtiramı qoruması lazım idisə; birinci halda, unutmuş insan mükəlləf və müqəssir deyil, onun bu şəkildə sərt sözlərlə danlanması isə şəriətlə uzlaşmır. Bir şəxsin razılığının əldə edilməsi üçün mübah bir məsələnin başqa bir şəxsə nöqsan sayılması da doğru deyil. Əgər bunun haram əməl olduğu fərz edilsə belə, Peyğəmbərin bu cür sərt və İslam ruhuna müxalif kəlmələrlə danlamasına rəvac verməz. Necə ki, yaxın bir adamının üzülməsi buna səbəb olan şəxsin camaatın arasında haqsız yerə sərt sözlərlə tənqid olunmasını, Allahın kitabında açıq bəyan etdiyi hökmü qüvvədən salmasına da amil olmaz.

İbn Qeyyimin bu şərtin ürfü olduğu və ürfü şərtin də ləfzi şərt hökmü daşıdığı iddiası da puçdur. Onun iddiasına görə, əgər bir şəhərdə və müəyyən bir zamanda hansısa bir alicənab ailədən olan qadının üzərinə kişilər başqa xanımla evlənməzdilərsə və bu da onların arasında davam edən bir adət idisə, demək artıq bu adət sözlə bağlanmış şərt hökmündədir. Bu iddianın yanlışlığı ondadır ki, həmin dövrlərdə ümmətin arasında Peyğəmbərin (s) xanədanı belə bir xüsusiyyətlə seçilmirdi. Belə ki, Osman Peyğəmbərin (s) iki qızı ilə evləndiyi halda bir-birinin ardınca başqa qadınlarla da evlənmişdi. Peyğəmbərin (s) həmin qızları yaşca Fatimədən (ə) böyük idilər. Buna əsasən, Peyğəmbər (s) ailəsinin ümmətin arasında hörmət, ehtiram, şərəf və məziyyətlərinə baxmayaraq, belə bir xüsusiyyəti qeyd olunmur.

Həmçinin İbn Qeyyimin iddiasına əsasən, bir qadın özünün şərəf, ehtiram və məqamına görə ərinin onun üzərinə başqa bir qadınla evlənməyəcəyinə əmindirsə, onun üzərinə başqa qadınla evlənməyi tərk etmək sözlə bağlanmış şərt kimidir. Aləm qadınlarının xanımı Fatimə (ə) isə belə bir haqqa hamıdan çox sahibdir.

Bunun cavabı belədir: Bu söz İbn Həcərin belə bir hökmün yalnız Fatiməyə (ə) məxsus olması barədəki ehtimalına bənzəyir. Ona yuxarıda cavab verdik. Digər Peyğəmbər (s) qızlarından heç birinin belə imtiyazı yox idi. Osman onların üzərinə bir-biri ardınca evlənirdi. İlahi, təkcə deməsinlər ki, bu da Osmana xas bir məziyyət idi!

B. Əhli-Beytin (ə) uca məqamı ilə ziddiyyəti; Bu hekayədəki üslub və münasibət Uca Allahın bütün pislikləri uzaqlaşdırıb pak-pakizə qərar verdiyi Əhli-Beytin (ə) ali məqamı ilə heç cür uzlaşmır, onların arasındakı yüksək islami dəyərlərə söykənən əlaqə ruhuna tamamilə ziddir. Onlar ailə, söz və feil olaraq hər bir şəxsə nümunədirlər. Halbuki bu hekayə Peyğəmbərlə (s) Əhli-Beytin (ə) arasındakı münasibətlərə zərbə vurur, onları sahib olduqları uca şəxsiyyətlərindən uzaqlaşdırır, nübuvvət ocağında və vəhy evində tərbiyə almış pak ruhlarını rəzil xüsusiyyətlər dərəcəsinə endirir. Lakin Uca Allah onlara barəsində müsəlmanların da həmfikir olduqları bir çox xüsusiyyətlər verib ki, bu hekayə o xüsusiyyətlərlə heç cür bir araya sığmır. Məsələn, Uca Allah onlara günahlardan paklıq əta edib, onları namazın təşəhhüdündə və salavatda Peyğəmbərlə (s) birlikdə yad edib və Öz kitabına bərabər tutub.

Əgər Əhli-Beytin (ə) üzvləri möminlərin özləri barədə inkar edib və ayıb bildikləri elçilik hadisəsində hekayə olunan belə mənfi nəfsi hallara sahibdirlərsə, bəs ayənin onlar barəsindəki təkidlə bəyan etdiyi o paklıq haradadır?!

Məgər Uca Allah və mələkləri bu hekayədə qeyd edilən nəfsi hallara sahib şəxslərə salavat və salam göndərərlərmi?!

Məgər bu hadisədəki əxlaqı keyfiyyətlərə sahib şəxslər Allahın kitabına bərabər tutula bilərlərmi?!

C. Fatimənin (ə) mənəvi məqamı ilə uzlaşmır; Bir çox səhih hədislər onun fəzilətlərini və mənəvi məqamını qeyd edir. Bundan əlavə, Əhli-Beyt (ə) üzvü olaraq bu ailə haqqında nazil olmuş ayələrin və söylənmiş hədislərin hökmünə də şərikdir. O, Peyğəmbərin (s) canının bir parçası, qadınların ən üstünü və cənnət qadınlarının seyyidəsidir.

Ç. Bu elçilik hekayəsi çoxevliliyə icazə verən şəriət hökmü ilə uzlaşmır; Birdən çox qadınla evlənmək kişinin haqqıdır. Şübhə yoxdur ki, belə bir fakt, xüsusilə, qadınlar tərəfindən rahatlıqla həzm edilmir. Tam könül xoşluğu ilə buna razı olacaq qadın tapmaq çətindir. Onlar buna yalnız şəri hökm olaraq, Allahın əmrinə itaətlərini və Ona imanlarını göstərərək boyun əyirlər. Bu tip hökmlərin təbliğ adətən Peyğəmbər (s) tərəfindən digərləri qarşısında birbaşa əməli şəkildə icra edilərək ümmətə çatdırılırdı ki, insan nəfsləri bunu qəbul etməkdə özlərinə bir nümunə götürə bilsinlər və narahatlıq keçirməsinlər. Şübhə yoxdur ki, Peyğəmbərin (s) əməli icrası hər hansı bir hökmün qəbul edilməsi önündəki maneələri tam aradan qaldırırdı. Məsələn, oğulluğu olan Zeydin boşadığı həyat yoldaşı ilə evlənməsi; Uca Allah onunla evlənməyi Peyğəmbərə (s) vacib buyurmuşdu ki, möminlər övladlığa götürdükləri şəxslərin boşadıqları qadınlarla evlənməkdə utanmasınlar. Peyğəmbər (s) bunu insanların pis qarşılayacağından ehtiyatlanaraq özündə həmin vaxtadək gizləsə də Uca Allah onu əmin etdi və bu ehtiyatına görə danladı. Əgər Peyğəmbər (s) və qadınların ən üstünü olan qızı Fatimə (ə) Allahın mübah bir hökmü ilə camaat qarşısında bu cür davranırlarsa, o zaman qızlarının üzərinə başqa qadın alınmış atalar niyə bunu etməsinlər?! Və yaxud, hər hansı bir qadın üzərinə başqa bir qadının gətirilməsinə niyə razı olsun?!

D. Peyğəmbər Əbülas ibn Rəbini necə tərifləyər?! Halbuki bu şəxs Hüdeybiyyə sülhünədək müşrik olaraq qalmışdı, iki dəfə müşriklərlə birlikdə əsir düşmüşdü,

İslam onunla Peyğəmbər (s) qızı olan zövcəsinin arasında ayrılıq salmış – xanımı müsəlman olaraq Həbəşistana hicrət etdikdə onu mişrikliyinə görə Məkkədə tərk etmişdi. Hətta İslamı qəbul etdikdən sonra da tarix onun dindəki heç bir məziyyətini zikr etməyib.

Belə bir insan Möminlərin əmiri Əli (ə) kimi şəxsiyyətlə necə müqayisə oluna bilər?! Halbuki İmam Əli (ə) ilk müsəlman, bütün savaşlarda ön cərgədə dayanan, İslamın yardımçısıdır, Quran onun paklığına və məsumluğuna "Təthir" ayəsilə, Peyğəmbərin (s) öz nəfsi olduğuna isə "Mübahələ" ayəsi ilə şəhadət verir. Peyğəmbər (s) "Bayraq" hədisi ilə Allahın və rəsulunun onu sevdiyinə, onun da Allahı və rəsulunu sevdiyinə şahidlik edir. Peyğəmbər (s) onun barəsində: *"O, məndən sonra bütün möminlərin vəlisidir"; "Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır"* deyə buyurur. Kitab və sünnətdə İmam Əli (ə) barəsində varid olmuş bir çox digər ayə və hədislər...

E. Fatimə (ə) kimi əzəmətli bir məqama və Allah yanında ehtirama sahib olan qadını Möminlərin əmiri (ə) kimi bir şəxsiyyətin narahat etməyi özünə rəva bilməsi heç ağıla müvafiqdirmi? Belə ki, İmam (ə) da onun məqamını bilir, böyük səhabələrin və möhtərəm ərəblərin ona elçi düşdüklərini gözəl bilirdi. Lakin atası Peyğəmbər (s) onların hamısının təkliflərindən imtina etmiş və qızı Fatiməni (ə) Əli (ə) ilə evləndirmişdi. Ardınca da bu evliliyin özünün deyil, Uca Allahın məxluqların arasından seçimi olduğunu xəbər vermişdi. Uca Allah isə onun üçün onu üzəcək və ya əziyyət edəcək bir şəxsi əsla həyat yoldaşı seçməz.

2. Rəvayətin ravisi Misvər ibn Məxrəmə barədə bildiriləcək bir neçə irad mövcuddur ki, bizi bu rəvayəti qəbul etməkdən çəkindirir:

A. Bu hekayənin yalnız Misvər ibn Məxrəmə tərəfindən nəql edilməsi və onun İmam Əliyə (ə) qarşı ədavəti; İbn Zübeyr və Şəbinin iki mürsəl rəvayətindən başqa bu hadisə nəql edilən rəvayətlər Misvər ibn Məxrəmədən rəvayət edilir. Misvərin rəvayətini isə qəbul etmək mümkün deyil. Çünki o, Əhli-Beytdən (ə) üz döndərmiş və onlara qarşı olan şəxslərdən, Abdullah ibn Zübeyr hakimiyyətinin

nümayəndələrindən və ona yaxın adamlardandır. O, İbn Zübeyrlə çiyin-çiyinə savaşmağı qanuni bilir və onun qarşısında ölümü şərəf sayırdı. Abdullah ibn Zübeyrin Əhli-Beytə (ə) münasibəti isə gün kimi aydın məsələdir. O və atası Cəməl savaşında İmam Əliyə (ə) qarşı savaşmışdılar. Əhli-Beytə (ə) gizli və aşkar nifrəti var idi. Misvərin Möminlərin əmiri Əliyə (ə) qarşı düşmənçiliyinin ən yaxşı dəlillərindən biri isə onun İmam (ə) düşmənləri olan Xəvariclər yanında böyük hörmətə malik olmasıdır.

B. Misvər ibn Məxrəmənin yaşı bu hadisəyə şahid olub rəvayət etməsinə münasib deyil; Bu hadisənin doğruluğuna şəkk yaradan amillərdən biri Misvər ibn Məxrəmənin hicrətdən iki il sonra dünyaya göz açmasıdır. Buna əsasən, hadisəyə altı yaşında ikən şahid olur. Belə olduqda, necə deyə bilir ki, "Mən Peyğəmbərdən (s) eşitdim ki... və mən həmin vaxt möhtəlim idim"?! Məgər altı yaşlı bir oğlan uşağı möhtəlim olarmı?!

Bu möhtəlimliyin lüğəti mənada deyil, əqli cəhətdən yetkinlik olması kimi yozulması ürfə və lüğətə ziddir. Altı yaşlı uşağın sahib olduğu üstün ağıl, zəka və təfəkkürə baxmayaraq, ona əsla möhtəlim deyilməz. Əgər belə üstün zəkaya sahihb idisə, bəs bu ağıl və zəkası onu camaat qarşısında açılmış övrətini örtməyə niyə vadar etmədi?! Görürük ki, daş daşıyarkən örtüyü çiynindən düşmüş və o, əlindəki daşı yerə qoyub örtüyünü çiyninə atmaq əvəzinə lüt-üryan halda camaatın, xüsusilə də, Peyğəmbərin (s) gözü önündə daşı daşımaqda davam edir. Bəs üstün ağlı niyə bunu ona əmr etmir?!

Bu uşaq Peyğəmbərin (s) minbər üzərindən söylədiyi bu sözləri necə eşidə və rəvayət edə bilər ki, həmin məsciddə hazır olan səhabələrdən heç kəs bunu eşitməmiş və rəvayət etməmişdir?!

C. Misvərin daşürəkliyi və hərəkətlərindəki ziddiyyət; İmam Zeynəlabidin Əli ibn Hüseyn (ə) atasının Kərbəladakı qətlindən və Şamda yaşadıqları əsirlikdən sonra Mədinəyə qayıtdıqda başsağlığına və təsəlliyə möhtac idi. Atasının, nəslinin gənclərinin öldürülməsi, əsirliyin ağrı-acılarının, Əhli-Beyt (ə) xanımlarının əsir

alınıb məhbəslərə atılması kimi müsibətlərə şahid olmuş bir insandı. Misvərin ona xitabən sözləri və babasının elçilik hadisəsini nəql etməsi, o hekayəyə əsasən babasının məqamına töhmət vurulması onun qəlbini daha da qırar və acılarını artırardı. Ağıllı insan belə sözlərdən əsla istifadə etməzdi.

Əgər Misvər İmam Zeynəlabidiniin (ə) babasının qılıncını qurumaq üçün bu qədər canfəşanlıq göstərirdisə, bəs nə üçün atası İmam Hüseynə (ə) yardım üçün tükünü belə tərpətmədi, Kərbəladakı müsibətə görə ağzından Yezidi ittiham və ya məzəmmət edəcək bir kəlmə çıxarmadı?!

Buna Misvər və digərlərinin Hicaz əhli olduqları, İmam Hüseynlə (ə) bağlı məsələnin qətlə qədər çatmayacağını düşünmələri kimi deyiləcək üzrlər yersizdir. Bunlar boş zəndən başqa bir şey deyil. Eləcə də tarixçilərin və sirə əhlinin Kərbəla inqilabı, İmamın (ə) yardım istəməsi, ümmətə görə qiyam etməsi, köməkçi toplamaq üçün elçilər göndərməsi kimi nəql etdikləri faktlarla uzlaşmır. Necə ola bilər ki, İmam (ə) öz inqilabının başlanğıcını Mədinədə elan etmiş, Yezidə beyətdən aşkar imtina edərək Məkkəyə tərəf üz tutmuş, Həcc mərasimi zamanı Yezidə qarşı üsyana səsləmiş və bütün bunlardan sonra ona beyət etmiş İraqa tərəf yola çıxmışdır.

Bundan əlavə, rəvayətin mətnində də anlaşılmazlıq var. Misvərin bir anda elçilik hekayəsini danışmağa nə səbəb oldu? Onun İmam Zeynəlabidinlə (ə) söhbəti qılınc barədə idi. Sonra bir andaca söhbət elçilik hadisəsinə çevrilir... *"...əgər onu mənə versən, ölənədək onu əsla başqasına vermərəm. Əli ibn Əbu Talib Əbu Cəhlin qızına elçi düşmək istədikdə..."*

3. Həmçinin rəvayətin mətninə də bir sıra iradlar var ki, onlardan bəzisini qeyd edək:

A. Peyğəmbərin (s) "Allah düşməni ilə peyğəmbər qızı eyni vaxtda bir kişinin nikahı altında olmaz" sözü; Bu söz Əhli-Sünnə yolu ilə edilən rəvayətlərdə Osmanın Peyğəmbərin (s) qızı ilə Allah düşmənlərinin qızlarını öz nikahında cəmləməsi sözü ilə ziddiyyəti var. Əgər bu iş haram və Allahın qadağan

hökmlərindən biri idisə, bəs nə üçün Osman Rüqəyyə və ya Ümmü Külsümlə Allah düşməni olan Şeybənin qızı Rəmləni öz nikahında cəmlədikdə Peyğəmbər (s) etirazını bildirmədi?!

Bu hökmün yalnız İmam Əli ilə (ə) Fatiməyə (ə) məxsus olması iddiası isə puç bir xəyaldan başqa bir şey deyil və dəlilsiz iddiadır. Zənn isə əsla haqqı əvəz edə bilməz. Əgər belə bir məxsusi hökm var idisə, bəs nə üçün Peyğəmbər (s) onları xəbərdar etmədi ki, bu hadisə də baş verməsin?

Uca Allahın sözünə əsasən: ***"...Sizə halal olan (bəyəndiyiniz) başqa qadınlardan iki, üç və dörd nəfərlə nikah bağlayın!"***[1032] hökm ümumidir, dəlilsiz və ya yaşı səkkizi ötməyən, camaatın və ələlxüsus Peyğəmbərin (s) qarşısında öz övrətini örtməyəcək qədər düşüncəsiz olan bir uşağın iddiası ilə heç kəs barəsində xüsusiləşməz.

B. Elçiliyi güman olunan şəxs Əbu Cəhlin qızı Cüveyriyədir. O, Fəth ilində İslamı qəbul etmişdir. İbn Sədin "ət-Təbəqat"dakı sözlərindən aydın olur ki, İslamı qəbul etdikdən birbaşa sonra Məkkədə evlənmişdi. Onun həyat yoldaşı Əttab ibn Üseyd də fəth günü müsəlman olmuş və Peyğəmbər (s) Məkkədən qayıdarkən onu həmin şəhərin valisi təyin etmişdi. Peyğəmbərin (s) vəfatınadək o, Məkkə valisi idi.

Əgər Əttab ibn Üseyd İslamı qəbul etdikdən dərhal sonra Cüveyriyə ilə evlənmiş və Peyğəmbərin vəfatınadək Məkkənin valisi olmuşdusa, bəs Möminlərin əmiri (ə) Cüveyriyəyə nə vaxt elçi düşmüşdü?!

Eləcə də, elçiliyi iddia edilən şəxs qılınc altında Məkkənin fəthi zamanı müsəlman olmuş tüləqadır. Onun isə öz atalarının qatillərinə qarşı nifrəti var idi. Deyirdi: "Bizim sevdiklərimizi və əzizlərimizi öldürənləri əsla sevmərik. Allah atama Bilalın Kəbə üzərindən bu bağırtısını eşitməmək lütfünü göstərib".

Əzizimi öldürəni əsla sevmərəm deyən bir qadın atasının qatili İmam Əli (ə) ilə evlənməyə necə razı olardı?!

[1032] Nisa, 3

C. Peyğəmbərin (s) sözü dəlalət, məzmun və dəlil olmaq cəhətdən ilahi vəhydən fərqlənmir. Allahın peyğəmbəri (s) minbər üzərindən Əbu Cəhlin qızı Cüveyriyyə barədə "Allah düşməninin qızı" kəlməsini işlətməsi təəccüb doğurur. Halbuki şəxsən Peyğəmbərin (s) özü onun qardaşı Əkrəmə ibn Əbu Cəhl haqqında camaatı "Allah düşməninin oğlu" sözünü işlətməyi qadağan etmişdi.

4. "Fatimə mənim bir parçamdır" hədisi "Səhih"də elçilik məsələsi qeyd edilmədən də rəvayət olunur. Necə ki, biz bunu Möminlərin əmirinin (ə) və İmam Zeynəlabidinin (ə) Əbu Lübabənin hadisəsini rəvayət edərkən də görürük. Eləcə də Ənəsdən, Misvərdən Əmr ibn Dinarın vasitəsilə, Übeydullah ibn Əbu Rəfidən və Misvərin qızı Ümmü Bəkrdən nəql edilən rəvayətlərdə də həmin hekayə yoxdur.

Elçilik hadisəsi yalnız Misvər ibn Məxrəmə yolu ilə Leysdən və İmam Zeynəlabidindən (ə), eləcə də İbn Zübeyr və Şəbinin iki mürsəl rəvayətində nəql olunub.

Əgər "Fatimə mənim bir parçamdır" hədisinin deyilməsinə səbəb Fatimənin (ə) bu elçilik məsələsinə görə qəzəblənməsi idisə, bəs nə üçün onlar bu hadisəni hədislə birlikdə qeyd etməyiblər?!

Ravinin bunu əhəmiyyətsiz görməsi olduqca uzaq nəzərdir. Çünki səbəbi zikr etmədən səbəbin nəticəsini qeyd etmək ağıl müvafiq deyil. Xüsusilə də, bunun rəvayət yolu Misvərlə və iki mürsəl rəvayətlə məhduddursa, nə üçün bir yerdə onu qeyd edir, digərində isə əhəmiyyət vermir?!

Altıncı: İhsan İlahi Zahir İmam Əlinin (ə) Əbu Cəhlin qızına elçi düşməsi nəticəsində Fatimənin (ə) qəzəbləndiyinə dair Şeyx Səduqun "İləluş-şəraye" kitabından dəlil göstərməsi müəllifə atılmış iftira və yalandır. Belə ki, İhsan Zahir "İləluş-şəraye"dəki rəvayətin bir neçə hissəsini kəsmiş və öz iddiasına cavab verə biləcək şəklə salmağa cəhd göstərmişdir. Pozduğu hissələr budur: *"Əli dedi: "Bəli, ya Peyğəmbər, bilirəm". Peyğəmbər (s) buyurdu: "Bəs səni bunu etməyə nə vadar etdi?"*

Əli: Səni haqq Peyğəmbər olaraq göndərənə and olsun ki, sənə çatan xəbərlərdən heç birini mən etməmişəm.

Peyğəmbər: Düz söylədin, doğru dedin.

Fatimə bu cavabdan sevindi, təbəssüm etdi və bu təbəssümündə ön dişlərinin parıltısı göründü".

Şiə mənbələrində olan elçiliklə bağlı mövcud rəvayətlər bunun Əhli-Beytə (ə) qarşı münafiqlər tərəfindən atılmış böhtan olduğunu göstərir. Şeyx Səduqun "İləluş-şəraye"dəki Əlqəmədən nəql etdiyi rəvayət də buna dəlildir. Həmin rəvayətdə İmam Sadiq (ə) inkar edərək Əlqəməyə deyir: "Məgər Fatimə ilə evli olduğu halda Əbu Cəhlin qızına elçi düşmək istədiyini ona nisbət vermədilərmi?! Guya Peyğəmbər (s) də bu səbəbdən, minbər üzərində müsəlmanlara ondan şikayət edərək deyib: "Əli Allahın düşməninin qızını peyğəmbər qızının üzərinə almaq istəyir. Bilin ki, Fatimə mənim bir parçamdır, onu incidən məni incitmiş, onu sevindirən məni sevindirmiş və onu qəzəbləndirən məni qəzəbləndirmişdir".

Yeddinci: Əhli-Beytin (ə) müqəddəslik günəşinin nurunu gizlətmək, "Fatimə mənim bir parçamdır" hədisinin təsirini azaltmaq və İmam Əlini (ə) Fatimənin (ə) qəzəbləndiyi şəxslər sırasına daxil etmək üçün uydurulan başqa bir hekayə İmamın (ə) Əsma bint Ümeysə elçi düşməsidir. Buna Təbəraninin Əsma bint Ümeys yolu ilə nəql etdiyi rəvayəti dəlil göstərirlər.

İrad olaraq bildiririk ki, Heysəmi həmin rəvayətin zəif olduğunu söyləyib. Eləcə də bu işin mümkün olmamasını vurğulayan başqa bir amil onun həyat yoldaşı Cəfər ibn Əbu Talibin vəfatından dərhal sonra Əbu Bəkrlə evlənməsidir.

Səkkizinci: İmam Əlini (ə) Fatimənin (ə) qəzəbləndiyi şəxslər sırasına daxil etmək üçün uydurulan başqa bir hekayə İmam (ə) hədiyyə edildiyi güman olunan cariyə ilə bağlıdır. Bir gün Fatimə (ə) İmamın (ə) başını cariyənin dizləri üzərində görür. Bu səbəbdən, ona qəzəblənir. Təəssüflər olsun ki, rəvayətin bəzi hissələri şiə mənbələrinə də yol tapa bilib. Belə ki, onu Şeyx Səduq "İləluş-şəraye"də Səd

ibn Abdullahın vasitəsilə Hüseyn ibn Ərəfədən, o da Vəkidən, o da Muhəmməd ibn İsraildən, o da Əbu Salehdən və o da Əbu Zərdən nəql edib.

Buna irad olaraq deyirik: Həmin rəvayətin ravilərinin əksəriyyəti Əhli-Sünnə ravilləridir. Bu da rəvayətin əsas mənbəyinin Əhli-Sünnədən qaynaqlandığını göstərir. Muhəmməd ibn İsrail məchul ravidir. Bundan əlavə, rəvayətdə Fatimənin (ə) İmam Əliyə (ə) qəzəbləndiyinə heç bir dəlalət yoxdur. Əksinə, orada İmamdan (ə) tam razılığı ifadə edilir: *"...Fatimə Əlinin (ə) yanına qayıdıb üç dəfə "Ey Əbülhəsən, səndən razılığını diləyirəm" dedi".*

Bundan başqa, rəvayətin məzmununda inkar ediləcək məqamlar var: *"Əli (ə) dedi: "Dostum və əzizim Peyğəmbərə (s) məndən şikayət etdin? Peyğəmbərin (s) yanında pis oldum!"* İmamın (ə) belə sözlər söyləməsi ağıla müvafiq deyil. Belə ki, əgər etdiyi əməlin Peyğəmbəri (s) üzəcək bir əməl olduğunu bilirdisə, bunu ta öncədən niyə edirdi?!

Doqquzuncu: İmamın (ə) ilk iki xəlifəyə qarşı müdafiə etməməsi səbəbindən Fatimə (ə) ona qəzəbləndi iddiası; Bu iddia da puçdur. Belə ki, bu rəvayətin kökü Şeyx Təbərsinin "əl-İhticac" kitabındadır və orada mürsəl nəql olunur. Şeyx Tusinin "əl-Əmali"də müsnəd (sənədli) nəql etdiyi rəvayətdə isə ravilərinin çoxu məchul şəxslərdir. Həmçinin bu iki rəvayətin məzmunu Fatimənin (ə) İmam Əliyə (ə) qəzəbləndiyinə dəlalət etmir. Belə ki, oradakı söhbət "Sənə deyirəm, qonşum eşitsin" babındadır. Fatimə (ə) İmamla (ə) bu tərzdə danışmaqla onların əməllərini ifşa etmək və onlara qarşı qəzəbinin şiddətini bildirmək istəyir ki, həmin dövrün insanları və tarix Əhli-Beytə (ə) olunan zülmlərin böyüklüyünü bilsin. Burada İmam (ə) qarşı qəti şəkildə qəzəb ifadəsi yoxdur. Bu cür danlaq üslubu böyük alim və aqil şəxsiyyətlərin danışıqlarında çox rast gəlinir. Hətta Qurani-Kərimdə də Uca Allah Peyğəmbərinə (s) bu üslubda xitab edir: ***"Allah səni bağışlasın! Doğru danışanlar sənə bəlli olmadan, yalançıları tanımadan***

əvvəl nə üçün onlara (cihadda iştirak etməməyə) izin verdin?"[1033] Buna yaxın cavabı Əllamə Məclisi "Bihar"da da qeyd edib.

Onuncu: Bir çox ayə və hədislərdə Allahın qəzəbi barədə xatırlamalar var. Onun qəzəbi cəzası və Özünə qarşı asi olanların inkarı deməkdir.

Məxluqların qəzəbi isə intiqam və cəzalandırmaq istəyidir. Belə qəzəblərdən təqdirəlayiq olanı və məzəmmət olunanı da var. Təqdirəlayiq olan Allaha və Onun əmrlərinin icrasına görə qəzəblənməkdir. Bu isə insana izzət bəxş edən, mənəviyyatını yüksəldən şərəf və fəzilətdir. Məzəmmət olunan qəzəb isə insanın ifrata vardığı və nəticədə ədalətdən uzaqlaşdığı, ağıl və şəriətin hüdudlarını pozduğu qəzəbdir.

Bəs Fatimənin (ə) ilk iki xəlifəyə qarşı qəzəbi təqdirəlayiq, yoxsa məzəmmət olunan qəzəbdir?

İbn Həcər iddia edib ki, Fatimənin (ə) qəzəbi inkarı mümkün olmayan qəzəbdir. Çünki səhih hədis bu qəzəbə dəlalət edir. Lakin sonradan onlara qarşı qəzəbinin soyuduğunu demək daha doğru olar. Necə ki, buna Şəbinin mürsəl hədisi də dəlalət edir. Bu mürsəl hədis Fatimənin (ə) ilk iki xəlifəyə qarşı qəzəbinin davamlı olması müşkülünü aradan qaldırır. Xüsusilə də, Xanımın (ə) geniş ağıl və dini dünyagörüşünə sahib olduğunu da bilirik.

Belə ki, əgər Fatimənin (ə) ilk iki xəlifəyə qəzəbindən sonra razılığı olmasaydı, bu onun tərəfindən məzəmmətə layiq qəzəb olacaqdı.

Buna cavabımız: İbn Həcərin bu sözləri bir neçə cəhətdən batildir:

1. Şəbinin rəvayəti mürsəl olduğu üçün burada dəlil götürülə bilməz. Əksər Əhli-Sünnə hədisşünasları mürsəlin mütləq şəkildə dəlil olmadığını söyləyiblər. Həmçinin bu mürsəl hədis "Səhih"də Fatimənin (ə) qəzəbinin ölənədək davam etdiyini bildirən səhih hədislə ziddiyyət təşkil edir. Bunlardan əlavə, Şəbi İmam Əliyə (ə) qarşı müxalifliyi ilə tanınır. O, Bəni-Üməyyə məmuru, onların dövlət

[1033] Tövbə, 43

adamı və xəlifələrə yaxın şəxsi idi. Mürsəl olmasından əlavə, bu səbəbdən də, onun hədisi dəlil sayıla bilməz.

2. Fatiməyə (ə) məxsus xüsusiyyətlərə əsasən, o bütünlüklə haqdır və qəzəbi də təqdirəlayiqdir. Çünki Peyğəmbər (s) onun qəzəbini öz qəzəbilə bərabərləşdirib. Eləcə də onun qəzəbinin şiddəti hər vaxt qəzəbli olduğunu bildirmir. Belə ki, hər vaxt qəzəbli olmaq bəyənilməyən xüsusiyyətdir. Onun qəzəbinin şiddəti iki məsələ ilə aydınlaşır:

A. İlk iki xəlifə Fatimədən (ə) üzr istəmədilər; Əgər ondan üzr istəsəydilər İbn Həcərin özünün də təsdiqinə əsasən, ağıl və dini genişliyi səbəbindən, ayə və hədislərin üzr istəyən şəxsin üzrünü qəbul etmək barədəki göstərişlərinə əsasən, onların üzrünü qəbul edərdi. Onların üzr istədiklərinə isə Şəbinin mürsəl rəvayətindən savayı heç bir dəlil yoxdur.

B. Onun qəzəbi dünyəvi məsələ ilə bağlı deyildi; Xanımın (ə) mənəvi məqamı məlumdur. Bu məqama layiq qəzəb məhz Allahın dininə görə qəzəblənməkdir. Qəzəb torpaq, əkin-biçin və ya yalnız dünyəvi faydaları olan mirasla əlaqədar olsaydı xəlifələr asanlıqla onu verərdilər. Demək məsələ onların əsla imtina edə bilməyəcəkləri məsələlərlə bağlı idi. Bu məsələ isə Peyğəmbər (s) xilafətidir.

On birinci: Fatimənin (ə) xəlifəyə qarşı bu böyük qəzəbinin arxasındakı sirri araşdıran şəxs Əhli-Sünnə mənbələrinin də Peyğəmbərin (s) vəfatından sonra baş verən, mötəbər xəbər və rəvayətlərlə nəql edilən hadisələrlə, ilk iki xəlifənin Fatimə (ə) və Əhli-Beytlə (ə) amansız rəftarı ilə qarşılaşacaqlar. Belə ki, Əbu Bəkrin xəlifəliyini inkar edib, həyat yoldaşı Əlinin ilahi hökm və dəlillərlə xilafət haqqını müdafiə edərkən onun hörmətinə təcavüz edilmiş, əlindən bütün maliyyə vasitələri alınmışdı. Məqsəd isə İmamı (ə) möhtac vəziyyətə salmaq və təsir gücünü azaltmaq idi.

Beşinci bab: Əhli-Beyt (ə) və Ömər ibn Xəttab

Burada iki fəsil var:

Birinci fəsil: İhsan Zahirin iddiasının müzakirə və təhlili

İkinci fəsil: Ümmü Külsümün evlilik hekayəsi

Müqəddimə

İhsan İlahi Zahirin iddiasına görə, Əhli-Beytlə (ə) Ömər ibn Xəttabın əlaqələrində sevgi və məhəbbət hakim idi. Ömər Peyğəmbər (s) ailəsini öz ailəsindən daha üstün bilir, onların ehtiramını və haqqını hər şeydən öndə tuturdu. Eləcə də Əhli-Beyt (ə) də onun hakimiyyətinə öz itaətləri və məsləhətləri ilə yardım edirdi. İhsan Zahir deyir: **"Faruq Peyğəmbər ailəsini öz ailəsindən daha üstün bilirdi. Onlara ehtiram göstərir, haqq və hüquqlarında, eləcə də pay bölgülərində özündən və ailəsindən öndə tuturdu".**[1034] Həmçinin deyir: **"Onlar da Öməri uca tutur, dəstəkləyir, itaət və vəfa göstərir, özündən sonra adını övladlarına qoymaqla yaşadır, qohumluq əlaqələri qurur və ona yaxınlaşırdılar".**[1035]

Buna dəlil olaraq isə Əhli-Beytin (ə) Öməri tərifləmiklərini, sevdiklərini və beyət etdiklərini, qızları Ümmü Külsümü onunla evləndirdiklərini və Ömərin onlara qarşı ehtiramını göstərir. Bütün bunlara da şiə kitablarından olduğu iddiası ilə dəlillər nəql edir. Cavab ardıcıllığına əsasən, qarşıda onları sizə təqdim edəcəyik.

Giriş

İhsan Zahirin iddialarına aşağıdakı cavablarla aydınlıq gətiriləcək:

Birinci: Mötəbər dəlillər Ömərin Əhli-Beytə (ə) qarşı düşmən münasibətinə açıq şəkildə dəlalət edir. Peyğəmbər (s) Əhli-Beyti (ə) bu rəftara qarşı gah əməli (Fatimənin (ə) Ömərə qəzəbləndiyi və bu qəzəbinin nəticəsi olaraq ölənədək onunla danışmadığı kimi), gah da açıq şəkildə ifadə etməklə (İmam Əlinin (ə) Öməri yalan və xəyanət kimi rəzil sifətlərlə vəsf etməsi kimi) qarşı çıxırdı.

[1034] Şiə və Əhli-Beyt, s. 109

[1035] Şiə və Əhli-Beyt, s. 131

Dördüncü babada bu iki cəhətə müvafiq hədislərlə və müfəssəl şəkildə işarə edildi. Ora müraciət edə bilərsiniz.

İkinci: İhsan Zahirin bu iddialarına təqdim etdiyi sübutların mövzuya dəlil olmaq səlahiyyəti yoxdur və mötəbər deyil. Həmçinin dəlil təqdim edərkən təhqiqatçıların münasib bildikləri üslubu izləməmiş, zəif, tərk edilmiş, saxta və ya qeyri-səhih yollarla nəql edilmiş rəvayətlərə əsaslanmışdır. Şübhə yoxdur ki, hər bir iddianın dəyəri ona uyğun təqdim edilən dəlillərə əsasən ölçülür. Əksə halda həmin iddia zənn, nəzəriyyə və ehtimal olaraq qalacaq. Bunların heç birinə isə etimad etmək mümkün deyil. Bunlar hər hansı bir həqiqəti isbatlaya və ya batil bir iddianı inkar edə bilməz. Bu babın birinci fəslini onun iddialarına, onlara təqdim etdiyi dəlillərin müzakirəsinə və təhlilinə ayırırıq.

Üçüncü: Möminlərin əmiri Əlinin (ə) qızı Ümmü Külsümün Ömərlə evləndirilməsi hekayəsi Əhli-Beytlə (ə) Ömərin arasındakı mehriban münasibətlərə dəlil ola bilməz. Çünki evlilik hadisəsi xoş münasibəti vacib etmir. Həmçinin Ömərin Əhli-Beytə (ə) qarşı ədavətinə, sərt rəftarına və ehtiramsızlığına dəlalət edən səhih və mötəbər dəlillər bu iddianı ortadan qaldırır. Bu babın ikinci fəslini bütünlüklə Ümmü Külsümün evlilik hekayəsinin araşdırılmasına həsr edəcəyik.

Birinci fəsil: İhsan Zahirin iddialarının müzakirəsi və təhlili

İhsan Zahir Əhli-Beyt (ə) və Ömərlə bağlı bir sıra iddialar irəli sürmüşdür. Bu fəsildə Allahın inayətilə, onun əsas iddialarına və təqdim etdiyi dəlillərə nəzər salacaq, tənqid və təhlil tərəzisində ölçəcəyik. Bunlar aşağıdakı başlıqlar altında təhlil ediləcək:

1. Pay bölgüsündə Əhli-Beyti (ə) hamıdan öndə tutması

İhsan Zahir iddia edir ki, Ömər ibn Xəttab beytül-maldan düşən payın bölüşdürülməsində Əhli-Beyti (ə) hamıdan önə salırdı. Bu iddiasına Yaqubinin "Tarix"indən və İbn Əbülhədidin "Nəhcül-Bəlağə"yə yazdığı şərhindən dəlil təqdim edir. İhsan Zahir deyir: **"Tarixçilərin böyük hissəsi qeyd edir ki, Ömər beytül-mal bölgüsünü təyin etdikdə Peyğəmbərə (s) yaxınlıqlarına görə və Əhli-Beytə (ə) ehtiram olaraq Bəni-Haşimi hamıdan önə salardı. Yaqubi bunu qeyd edərək yazır: "Ömər iyirminci il üçün nəzərdə tutulan pay bölgüsünə görə divan qurmuşdu. Deyir: "Maliyyə çoxalmışdı, ona divan qurmaq məsləhət görüldü. O da Əqil ibn Əbu Talibi, Məxrəmə ibn Nofəli və Cübeyr ibn Mitim ibn Nofəl ibn Əbdü Manafı çağırıb camaatı məqamlarına görə qeydiyyata almağı tapşırdı. Onlara Əbdü Manaf övladlarından başlamağı buyurdu. Siyahıya yazılan ilk şəxsə – Əli ibn Əbu Talibə..."**[1036]

İhsan Zahir yenə də deyir: **"İbn Əbülhədid isə yazır: "Xeyr, ilk olaraq Peyğəmbərdən (s) və ailəsindən başladı, sonra onlara ən yaxın, ardınca onlara yaxın olan Bəni-Haşimi yazdı, sonra Bəni-Əbdülmüttəlibi, sonra Bəni-Əbdü Şəmsi və Nofəl övladlarını, sonra da Qüreyşin digər tayfalarını..."**[1037]

[1036] Şiə və Əhli-Beyt, s. 109-110

[1037] Şiə və Əhli-Beyt, s. 110

Cavab

Bu iddia bir neçə cəhətdən batildir:

Birinci: İlk iki xəlifənin Əhli-Beyt (ə) əleyhinə maddi və iqtisadi məhdudiyyət siyasəti yürütdüyü və bu vasitə ilə onların təsirlərini minimuma endirməyi hədəflədiklərini qeyd etmişik. Onlar Əhli-Beytin (ə) əlindən Fədək, Peyğəmbər (s) mirası, Peyğəmbərin (s) yaxınlarının (zül-qurbənin) payı kimi bütün maliyyə qaynaqlarını almışdılar. Ömər də öz hakimiyyəti müddətində bu siyasəti davam etdirmişdi. Dördüncü babın üçüncü fəslinə müraciət edin.

İkinci: Yaqubi və İbn Əbülhədidin rəvayətləri önə salmanın siyahı tutulan zaman baş verdiyinə, bunun payın miqdarı ilə bağlı olmadığına dəlalət edir. Həmçinin Əhli-Beytin (s) Ömərin verdiyi paydan imtina etdikləri də rəvayətlərlə sübuta yetib. Çünki bunu özlərinin haqqı olaraq görmürdülər (belə ki, xümsü bölən Əhli-Beytin (ə) öz olmalı idi). Əbu Davud "Sünən"də İbn Abbas sənədi ilə rəvayət edir: *"Ömər bizə ondan bir pay verdi. Lakin biz onu haqqımız olaraq görmədik, özünə qaytardıq və götürməkdən imtina etdik".*[1038]

Albani hədisin sənədinin səhih olduğunu bildirir. Rəvayəti nəql etdikdən sonra deyir: "Səhihdir".[1039]

Bu rəvayəti Əhməd ibn Hənbəl də "Müsnəd"də qeyd edir: *"Onlara ayırdığı pay evlənənlərinə yardım etmək, zərərə düşmüşlərinin zərərlərini aradan qaldırmaq və fəqirlərinə vermək üçün idi. Bundan artığını verməkdən imtina etdi".*[1040]

Şüeyb Arnavut bu hədisin sənədinin səhih olduğunu söyləyir. Hədisi nəql etdikdən sonra deyir: "Hədisin sənədi Müslimin şərtinə əsasən səhihdir. Raviləri Buxari və Müslimin ravilləridir, etibarlıdırlar (siqədirlər). Yalnız Yezid ibn Hörmüz təkcə Müslimin ravilərindəndir".[1041]

[1038] Sünən, Əbu Davud, c. 2, s. 162, hədis 2982; "Xümsün bölüşdürülməsi və yaxın qohumların payının bəyanı" fəsli

[1039] Həmin kitab, Yusuf Hutun şərhləri və Albaninin hədislərə hökmlərilə

[1040] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 320

[1041] Həmin kitab, Şüeyb Arnavutun hədislərə hökmlərilə

Əbu Yəla Mosuli özünün "Müsnəd"ində[1042] Əhmədin rəvayətinə oxşar rəvayəti nəql edir. Hüseyn Səlim Əsəd onun sənədinin səhih olduğunu bildirir. Deyir: "Raviləri etibarlıdır (siqədir)".[1043]

Üçüncü: İhsan Zahirin şiə məfhumunu düzgün anlamaması mənbələrdə yanlışlığa yol verməsinə zəmin yaradıb. Belə ki, İbn Əbülhədidin Mötəzili şeyxlərindən olduğu məlumdur. Firqələr barədə azca təsəvvürü olan şəxs Mötəzili firqəsinin Əhli-Sünnənin əsas kəlam və əqidə məzhəblərindən biri olduğunu bilir. Lakin bu məzhəbin bəzi fikirlərinin İmamiyyə şiələri ilə üst-üstə düşməsi (məsələn: ağılın yaxşı və pisi dərk etmək qabiliyyətinə sahib olması; Mötəzili Bağdad alimlərinin İmam Əlini (ə) hamıdan üstün bilməsi və s. kimi) İhsan Zahirin İbn Əbülhədidi şiə hesab etməsinə rəvac verib.

Həmçinin Yaqubinin "Tarix" əsərinin də şiə mənbəyi olduğu isbatlanmayıb. Əksinə, kitabın müəllifi Əhməd ibn İshaq ibn Cəfər ibn Vəhəb ibn Vazeh Yaqubinin Əhli-Sünnəyə mənsub olduğuna dair güclü dəlillər mövcuddur. Onun ailəsindən Abbasilərə meylli şəxslər çıxmışdı. Zirkili onun tərcümeyi-halında yazır: "Tarixçidir, çoxlu səfər edirdi. Bağdad əhlindəndir. Babası Abbasi xəlifəsi Mənsurun dostlarından idi".[1044]

Eləcə də, şiə və sünni müsəlman təhqiqatçılarının nəzərində də sübuta yetmiş faktdır ki, bu iki kitab qarşı tərəfə dəlil olaraq göstəriləcək mənbələrdən sayılmırlar.

İhsan Zahirdən şiələrə qarşı dəlil təqdim etmək tələb olunur və o, bunu on iki imam şiələrinin öz mənbələrindən gətirməlidir. Yaqubi və İbn Əbülhədidin şiə olmadıqları şübhəsizdir. Onlar barədə kitabın birinci cildinin müqəddiməsində söhbət açmışdıq. Oraya müraciət edə bilərsiniz.

[1042] Müsnəd, Əbu Yəla Mosuli, c. 5, s. 123, hədis 2739, "İbn Abbasa isnad olunanlar".

[1043] Həmin kitab, Hüseyn Səlim Əsədin hədislərə hökmlərilə

[1044] əl-Əlam, c. 1, s. 95

2. Ömərin Əhli-Beyti (ə) üstün tutması və onlara ehtiram göstərməsi

İhsan Zahir iddia edir ki, Ömər Əhli-Beyti (ə) üstün tutur və daim ehtiram göstərirdi. Buna Yezdəgirdin qızının hekayəsini dəlil kimi təqdim edir. Həmçinin iddia edir ki, İbn İnəbə və Kuleyni o qızın Ömər tərəfindən İmam Hüseynə (ə) verildiyini qeyd ediblər. Ömər qızı onlara verməklə Əhli-Beyti (ə) özündən və ailə üzvlərindən üstün tutduğunu göstərib. Eləcə də İbn Əbülhədidin rəvayətini də dəlil olaraq təqdim edir. Başqa bir dəlili isə Şeyx Tusiyə istinad edir. Üçüncüsünü həm Şeyx Tusiyə və həm də Şeyx Səduqa nisbət verir. İhsan Zahir deyir: **"Faruq Əhli-Beyti üstün tutur və onlara başqalarına, hətta öz ailəsinə və yaxınlarına göstərmədiyi ehtiramı göstərirdi.**

Qeyd olunur ki, İran şahının – həmin dövrlərdə dünyanın ən böyük imperiyalarından birinin başçısı Yezdəgirdin qızı əsir götürülərək digər əsirlərlə birlikdə... Ömərin yanına gətirildi... Lakin Faruq onu nə özü üçün və nə də əzizləri üçün seçmədi, Peyğəmbər (s) ailəsini tərcih etdi, onu Hüseyn ibn Əliyə (r) verdi. Əli ibn Hüseyn o qadından dünyaya gəldi...

Bunu məşhur şiə alimi İbn İnəbə[1045] də qeyd edir: "Adı Şəhrəbanudur. Mədainin fəthi zamanı əsir götürülüb. Ömər ibn Xəttab onu Hüseynə (ə) hədiyyə edib".

Həmçinin bunu tanınmış şiə hədisşünası özünün səhih "Usulul-Kafi" kitabında da qeyd edir. İmam Baqirdən rəvayət olunan hədis belədir: "Yəzdəgirdin qızı Ömərin hüzuruna gətirildikdə Mədinənin bakirələri onu qarşılamış, nuru məscidi işıqlandırmışdı. Ömər ona baxdıqda qız üzünü örtmüş və fars dilində "Vay! Hörmüzün günü qara gəldi" söyləmişdi. Ömər onu təhqir etdiyini düşünüb cəzalandırmaq istədikdə Möminlərin əmiri (ə) onun buna haqqının olmadığını bildirib dedi: "Seçmək ixtiyarını öz öhdəsinə qoy. Kimi bəyənsə, mehriyəsini həmin şəxsin beytül-maldakı payından hesabla".

[1045] Cəmaluddin Əhməd ibn Əli ibn Hüseyn Həsəni Hüseyni, h.q 748-828, miladi 1347-1424

Şəhrəbanu irəli gələrək, əlini imam Hüseynin (ə) çiyninə qoymuşdu...”

Ömərin Əhli-Beyti üstün tutmasının və onlara olan ehtiramının daha bir sübutu İbn Əbülhədidin Yəhya ibn Səiddən nəql etdiyi rəvayətdir: “Ömər Hüseyn ibn Əliyə (ə) bəzi məsələlərlə bağlı yanına gəlməsini söylədi. Hüseyn (ə) yolda Abdullah ibn Ömərlə rastlaşdı və haradan gəldiyini soruşdu. Dedi: “Atamın yanına girmək üçün izn istədim, amma izn vermədi”. Hüseyn qayıtdı. Sabahı gün Ömər onunla rastlaşıb dünən yanına gəlməməsinin səbəbini soruşdu. Hüseyn (ə) dedi: “Sənin yanına gəlirdim, lakin oğlun Abdullah onun yanına girməyə izn vermədiyini söylədi, mən də geri qayıtdım”. Ömər dedi: “Məgər sənin hörmətin mənim yanımda onun kimidir?! Məgər sizin kimi şəxslər var?!” (Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid, c. 3, s. 110)

Bəli, Ömər bütün Bəni-Haşim barədə də belə fikirdəydi. Əli ibn Hüseyn atası Hüseyn ibn Əlidən belə dediyini rəvayət edir: “Ömər ibn Xəttab dedi: “Bəni-Haşimə baş çəkmək sünnət, onları ziyarət etmək isə müstəhəbdir” (əl-Əmali, Tusi, c. 2, s. 345, Nəcəf çapı).

Tusi və Səduq nəql edirlər ki, Ömər Əli ibn Əbu Talib barəsində söylənən tənələrə əsla qulaq asmaz və qəbul etməzdi. Bir dəfə “bir kişi Ömərin hüzurunda Əli (ə) barədə pis sözlər danışdı. Ömər (Peyğəmbərin (s) qəbrini göstərib) dedi: “Bu qəbrin sahibini tanıyırsan?.. Əli barədə xoş sözdən başqa heç nə söyləmə. Əgər onu incitsən, bu şəxsi qəbrində incitmiş olarsan”. (əl-Əmali, Tusi, c. 2, s. 46; əl-Əmali, Şeyx Səduq, s. 324; eyni rəvayət İbn Şəhr Aşubun “əl-Mənaqib” əsərində də qeyd olunur, c. 2, s. 154, Hindistan çapı)”.[1046]

Cavab

[1046] Şiə və Əhli-Beyt, s. 110-111

Bu iddiası dəlilsizdir. İhsan Zahirin "əl-Kafi" və "Ümdətut-talib" kitablarından dəlil olaraq təqdim etdiyi Yezdəgird qızının hekayəsinin, İbn Əbul Hədidin, Tusinin və Şeyx Səduqun rəvayətlərinin onun iddiasına heç bir dəlaləti yoxdur. Onun dəlil göstərdiyi rəvayətlər barədə sözlərimiz budur:

Şeyx Kuleyninin rəvayəti

Səffar (vəfatı: h.q 290) "Bəsairud-dərəcat" və Şeyx Kuleyni (vəfatı: h.q 329) "əl-Kafi"də Nəsr ibn Məzahimdən, o da Əmr ibn Şimrdən, o da Cabirdən İmam Baqirin (ə) belə buyurduğunu nəql edirlər. Deyir (rəvayət Səffarın kitabındandır): *"Yezdəgirdin qızı Ömərin hüzuruna gətirilib şəhərə daxil olduqda Mədinənin qızları onu qarşıladı, məscid onun nuru ilə işıqlandı. Məscidə girdikdə Öməri görüb üzünü örtdü və dedi: "Vay! Hörmüzün günü qara gəldi".*

Deyir: "Ömər qəzəblənib dedi: "Bu qız məni təhqir edir". Onu cəzalandırmaq istədikdə Möminlərin əmiri (ə) dedi: "Sənin buna haqqın yoxdur. Seçmək ixtiyarını öz öhdəsinə qoy. Kimi bəyənsə, mehriyəsini həmin şəxsin beytül-maldakı payından hesabla". Ömər ona seçməsini söylədi. Şəhrəbanu irəli gələrək, əlini imam Hüseynin (ə) çiyninə qoydu..."[1047]

Bu rəvayət sənəd və dəlalət cəhətdən zəifdir. Sənəd cəhətindən ravi Əmr ibn Şimrə görə zəifdir. O, olduqca zəifdir ravidir. Nəcaşi onun barəsində deyir: "Əmr ibn Şimr Əbu Abdullah Cufi Ərəbi, İmam Sadiqdən (ə) rəvayət nəql edib, olduqca zəif ravidir. Cabir Cufinin kitabına hədislər əlavə olunub ki, bəziləri Əmr ibn Şimrə nisbət verilir".[1048]

Həmçinin İbn Ğəzairi,[1049] Əllamə Hilli,[1050] İbn Davud,[1051] Təfrişi[1052] və digərləri də onu zəif saymışlar.

[1047] Bəsairud-dərəcat, Muhəmməd ibn Həsən Səffar, s. 355; əl-Kafi, c. 1, s. 467
[1048] Rical, Nəcaşi, s. 287, rəqəm 765
[1049] Rical, İbn Ğəzairi, s. 74, rəqəm 78
[1050] Xülasətul-əqval, Əllamə Hilli, s. 378
[1051] Rical, İbn Davud, s. 264, rəqəm 370

Dəlalət cəhətinə gəldikdə isə, burada İhsan Zahirin iddiasına heç bir dəlil yoxdur, əksinə, mövzu onun iddiasından çox uzaqdır. Rəvayətdə həmin əsir qadının Öməri gördükdən sonra fars dilində bəzi kəlmələr söylədiyi, Ömərin də onların mənasını anlamayıb onu təhqir etdiyini düşünməsi və bunun nəticəsində onu cəzalandırmaq istəməsi, lakin Möminlərin əmiri Əlinin (ə) onu Ömərin qəzəbindən, sərtliyindən və cəzasından xilas edib qadının özünün müsəlmanlardan birini seçməsini təklif etdiyi bildirilir. Ömər də bu təklifi qəbul edir. Nəticədə qadın Peyğəmbərin (s) nəvəsini seçir.

Bütün bu işlərdə Ömərin hansı xidməti və ya üstünlüyü var? Gücü və qüdrəti olmayan bir əsiri cəzalandırmaq istədikdən sonra fikrindən daşınmasımı fəzilətdir?! Halbuki bu istəyi də sadəcə onu söydüyü zənn və gümanına bağlı idi!

İbn İnəbənin rəvayəti

İbn İnəbə kimi tanınan Cəmaluddin Əhməd ibn Əli Hüseyni deyir: "Əli Zeynəlabidin Səccad; onun anası barədə ixtilaflı fikirlər var. Məşhur rəy budur ki, onun anası Sasani şahı Yəzdəgird ibn Şəhriyarın qızı Şah Zənandır. Onun adının Şəhrəbanu olduğu da deyilib. Deyilənə görə, Mədainin fəthi zamanı əsir götürülmüş, Ömər ibn Xəttab tərəfindən İmam Hüseynə (ə) verilmişdir. Həmçinin deyilir ki, Həris ibn Cabir Cufi Yəzdəgird şahının iki qızını Möminlərin əmiri Əli ibn Əbu Talibə (ə) göndərmiş, Möminlərin əmiri (ə) onları qəbul etmiş, onlardan birini oğlu Hüseynə (ə) vermiş, o xanımdan Əli ibn Hüseyn (ə) dünyaya gəlmişdir. Digər qızı isə Muhəmməd ibn Əbu Bəkrə vermiş, ondan fəqih Qasim ibn Muhəmməd ibn Əbu Bəkr dünyaya gəlmişdi. Onlar xalaoğludurlar. İbn Cərir Təbəri deyir: "Adı Ğəzalədir, fars imperatorunun qızlarından biridir. Mübərrid deyir: "O (yəni İmam Səccadın (ə) anası), Yəzdəgirdin qızlarından olan Səlamədir. Yezid ibn Vəlid ibn Əbdülməlik Mərvaninin anasının bibisidir". Lakin tarix və

[1052] Nəqdur-rical, Təfrişi, c. 3, s. 336, rəqəm 54

nəsəb alimləri bunu inkar etmiş və demişlər: "Yezdəgirdin qızları ataları Xorasana gedərkən onunla birlikdə idilər".

Uca Allah Əli ibn Hüseyni (ə) Peyğəmbərin doğuluşunda olduğu kimi, pak sülblərdən dünyaya gətirmişdir. Tarixin də şahidlik etdiyinə əsasən, Yəzdəgird ibn Şəhriyar məcusi və kəbinsiz dünyaya gəlmiş şəxsdir. Ərəblər əcəmləri, hətta padşah olsalar belə, əsla fəzilətli bilmirdilər. Əgər onların padşahlarını fəzilətli bilsəydilər, o zaman bir əcəmi şəxsi ərəbdən üstün tutmuş olacaqdılar. Nəticədə ulu əcdadları olan Qəhtanı Adnandan üstün sayacaqdılar. Lakin onların nəzərində bunlar heç bir fəzilətə sahib deyillər. Bəzi avamlar, eləcə də İmam Hüseyn (ə) övladlarından bir çoxu belə bir nisbəti qeyd edərək deyirlər: Əli ibn Hüseyndə (ə) nübuvvət və padşahlıq (xüsusiyyətləri) cəm olub. Hətta bildiyiniz sübut olunsa belə, bunun heç bir mənası yoxdur".[1053]

Bu sözlərdən aydın olur ki, İbn İnəbə burada İmam Əli ibn Hüseynin (ə) pak anası haqqında fərqli və ixtilaflı fikirləri nəql etməkdədir. Əvvəlcə məşhur rəydən başlayır. Həmin rəy isə onun fars əsirlərindən olması fikridir. Orada iki fərqli nəzəri qeyd edir. Onlardan biri onu Ömərin İmam Hüseynə (ə) verməsidir ki, İhsan İlahi Zahir də buna işarə edir. Digəri isə Həris ibn Cabir Cufinin İmam Əliyə (ə) Yezdəgird ibn Şəhriyarın iki qızını göndərməsi, İmamın (ə) da onları qəbul edib birini İmam Hüseynə (ə), digərini isə Muhəmməd ibn Əbu Bəkrə verməsidir.

Ardınca isə bu nəzərləri zəif hesab edərək avam insanların sözləri olduğunu bildirir. Özünün seçimi isə Əli ibn Hüseynin (ə) anasının fars qızlarından olmadığıdır: "Uca Allah Əli ibn Hüseyni (ə) Peyğəmbərin doğuluşunda olduğu kimi, pak sülblərdən dünyaya gətirmişdir. Tarixin də şahidlik etdiyinə əsasən, Yəzdəgird ibn Şəhriyar məcusi və kəbinsiz dünyaya gəlmiş şəxsdir..."

İbn İnəbənin onu məşhur rəy kimi təqdim etməsi isə Nəsr ibn Məzahimin rəvayətinə əsasən belə söylənməsidir. Həmin rəvayət barədə isə yuxarıda söhbət açdıq.

[1053] Ümdətut-talib, İbn İnəbə, s. 192-193

İhsan Zahir burada da öz adətinə sadiq qalaraq İbn İnəbənin sözlərini ixtisar edir, oradan yalnız bir cümləni nəql edir ki, oxucuda bu məsələ ilə bağlı yalnız bir rəyin olduğu təəssüratını yaratsın. Halbuki məsələ heç də belə deyil.

İbn Əbülhədidin rəvayəti

A. İbn Əbülhədid deyir: *"Yəhya ibn Səid rəvayət edir: "Ömər Hüseyn ibn Əliyə (ə) bəzi məsələlərlə bağlı yanına gəlməsini söylədi. Hüseyn (ə) yolda Abdullah ibn Ömərlə rastlaşdı və haradan gəldiyini soruşdu. Dedi: "Atamın yanına girmək üçün izn istədim, amma izn vermədi". Hüseyn qayıtdı. Sabahı gün Ömər onunla rastlaşıb dünən yanına gəlməməsinin səbəbini soruşdu. Hüseyn (ə) dedi: "Sənin yanına gəlirdim, lakin oğlun Abdullah onun yanına girməyə izn vermədiyini söylədi, mən də geri qayıtdım". Ömər dedi: "Məgər sənin hörmətin mənim yanımda onun kimidir?! Məgər sizdən möhtərəm şəxslər var?!"*[1054]

Ravi Yəhya ibn Səid – Yəhya ibn Səid ibn Qeys Ənsari Nəccaridir, künyəsi Əbu Səid Mədəni Qazidir. Hicrətin 144-cü ilində və ya ondan sonra vəfat edib. Buxari, Müslim, Əbu Davud, Tirmizi, Nəsai və İbn Macə ondan rəvayət nəql ediblər. Əhli-Sünnənin əksər rical alimləri onun siqə (etibarlı) ravi olduğunu bildiriblər.

Bu, Əhli-Sünnə hədis hafizlərinin ondan səhih sənədlə İmam Hüseynin (ə) fəzilətləri barədə nəql etdikləri məşhur rəvayətlərdəndir. Hafiz ibn Həcər Əsqəlani Yəhya ibn Səid Ənsarinin vasitəsilə Übeyd ibn Hüneyndən, o da Hüseyn ibn Əlidən rəvayət edir: *"Ömərin yanına getdim. O, minbərdə xütbə söyləyirdi. Minbərə qalxıb ona dedim: "Atamın minbərindən en, get atanın minbərinə çıx!" Ömər dedi: "Atamın minbəri olmayıb". Mənim əlimdən tutub yanında oturtdu. Minbərdən düşdükdən sonra məni evlərinə apardı və dedi: "Sənə bunları kim öyrədib?" Dedim: "Allaha and olsun ki, mənə bunları heç kəs öyrətməyib". Ömər dedi: "Atam fəda olsun, bəlkə gəlib bizimlə axşam yeməyinə qalasan". Dedi: "Bir gün onun yanına gəldim. O, Müaviyə ilə təklikdə idi. Oğlu Abdullah da qapıda*

[1054] Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid, c. 12, s. 66

dayanmışdı. Abdullah ibn Ömər qayıtdıqda mən də onunla birlikdə qayıtdım. Bundan bir müddət sonra mənimlə qarşılaşdıqda dedi: "Səni (dünən) niyə görmədim?" Dedim: "Ey möminlərin əmiri, mən gəlmişdim, sən Müaviyə ilə təklikdə oturmuşdun. Oradan Abdullah ibn Ömərlə birlikdə qayıtdım". Dedi: "Sən izndə Abdullah ibn Ömərdən daha üstünsən. Başımızdakı gördüyün bu tüklər Allah tərəfindən, sonra da sizin sayənizdə çıxmışdır (və ya: Sahib olduqlarımız Allahın və sonra da sizin sayənizdədir)".[1055] İbn Həcər bu rəvayətin ardınca deyir: "Sənədi səhihdir".[1056]

İbn Həcər "Təhzibut-təhzib" kitabında bu rəvayəti Hüseyn ibn Əlinin (ə) tərcümeyi-halında nəql edir və ardınca deyir: "Bunu Xətib Yəhya səhih istinadla rəvayət edib".[1057]

Bu rəvayəti İbn Üyeynə Yəhyadan mürsəl (sənədsiz) olaraq rəvayət edib. Daraqutni deyir: "Hüseyn ibn Əlinin Ömərə "Atamın minbərindən aşağı en..." barədəki hədisi, Ömərin "Sən izndə Abdullah ibn Ömərdən daha üstünsən. Başımızdakı gördüyün bu tüklər Allah tərəfindən, sonra da sizin sayənizdə çıxmışdır" (*və ya: Sahib olduqlarımız Allahın və sonra da sizin sayənizdədir*) sözləri barədə soruşuldu. Dedi: "Bunu Həmmad ibn Zeyd Yəhyadan, o da Übeyd ibn Hüneyndən, o da Hüseyndən, o da Ömərdən nəql edib. Həmçinin İbn Üyeynə Yəhya ibn Səiddən sənədsiz və mürsəl şəkildə (sənədsiz) birbaşa Ömərin bu sözləri ilə rəvayət edib: *"Məgər sizdən möhtərəm şəxslər var?!"* Hədis Həmmad ibn Zeydindir. Çünki o, sənədini qeyd edir".[1058]

Əgər İbn Əbülhədidin Mötəzili şeyxlərindən olduğuna göz yumsaq belə, o, açıq şəkildə rəvayətin Yəhyaya məxsus olduğunu söyləyir. Bəs İhsan Zahir Əhli-Sünnədən olan bir şəxsin rəvayətini şiəyə necə dəlil olaraq göstərə bilir?!

[1055] əl-İsabətu fi təmyizis-səhabə, İbn Həcər, c. 2, s. 77-78
[1056] əl-İsabətu fi təmyizis-səhabə, İbn Həcər, c. 2, s. 77-78
[1057] Təhzibut-təhzib, İbn Həcər, c. 2, s. 300
[1058] İləl, Daraqutni, c. 2, s. 125

Bundan əlavə, rəvayətin məzmunu onun iddiasından daha xüsusidir. Bu barədə Şeyx Tusi və Şeyx Səduqun rəvayətlərini müzakirə edərkən söhbət açacağıq.

Şeyx Tusi və Şeyx Səduqun rəvayəti

Şeyx Səduq "əl-Əmali"də Hüseyn ibn Yəhya ibn Zəris Bəcəlinin vasitəsilə rəvayət edir: Atam Əbu Əvanədən, o da atasından, o da Abdullah ibn Məsləmə Qənəbidən, o da Abdullah ibn Ləhiədən, o da Muhəmməd ibn Əbdürrəhman ibn Ürvə ibn Zübeyrdən, o da atasından, o da babasından nəql edir: *"Bir kişi Ömər ibn Xəttabın hüzurunda Əli ibn Əbu Talib haqqında pis sözlər danışdı. Ömər ona dedi: "Bu qəbrin sahibini tanıyırsan? O, Muhəmməd ibn Abdullah ibn Əbdülmüttəlibindir. (Barəsində danışdığın şəxs isə) Əli ibn Əbu Talib ibn Əbdülmüttəlibdir. Əlini yalnız yaxşılıqla yad et. Belə ki, əgər sən onun barəsində pis danışsan bu şəxsi qəbrində incitmiş olarsan".*[1059]

Eyni sənədlə bu rəvayəti Şeyx Tusi "əl-Əmali"[1060] kitabında rəvayət edib.

Həmçinin Şeyx Tusi "əl-Əmali" əsərində Əhməd ibn Muhəmməd ibn Saltın vasitəsilə rəvayət edir. Əhməd ibn Muhəmməd ibn Səid bizə xəbər verdi ki, Muhəmməd ibn İsmail ibn İbrahim ibn Musa ibn Cəfər ibn Muhəmmədə atasının əmisi Əbu Abdullah ibn Musa atasından, o da babasından, o da Əli ibn Hüseyndən, o da atasından (ə) belə nəql edir: "Ömər ibn Xəttab dedi: *"Bəni-Haşimə baş çəkmək sünnət, onları ziyarət etmək isə müstəhəbdir".*[1061]

Bu iki rəvayətin sənədinə nəzər salmadan belə, iddianın rəvayətlərdən daha xüsusi məna daşıdığını görə bilərik. Belə ki, Əhli-Beytin (ə) fəzilətini ifadə etmək başqa, onlara üstünlük vermək və ehtiram göstərmək başqa bir məsələdir.

Bu iki məsələnin aralarında bir-birləri ilə bağlılığın olması vacib deyil. Belə ki, birinci məsələ nəzəri və etiqadi məsələdir ki, bu da Əhli-Beytin (ə)

[1059] əl-Əmali, Şeyx Səduq, s. 472

[1060] əl-Əmali, Şeyx Tusi, s. 431

[1061] əl-Əmali, Şeyx Tusi, s. 335-336

Peyğəmbərdən (s) sonra məxluqların ən fəzilətliləri olması, onlara baş çəkməyin sünnət, ziyarət etməyin bəyənilən iş olması və onlara əziyyət etməyin Peyğəmbərə (s) əziyyət vermək anlamını daşımasıdır.

Ancaq ikinci məsələ əməli və feli rəftarla bağlıdır. Bu isə müsəlman şəxsin Əhli-Beytə (ə) bağlı rəftar və danışığında ehtiram göstərməsi, onları üstün tutması, heç kimi onlardan önə keçirməməsi, evlərini yandırmaqla təhdid etməməsi və beyət almaq üçün zorla evlərindən çıxarmamasıdır.

Bir şəxs nəzəri və etiqadi cəhəti təsdiq və etiraf etdiyi halda əməli rəftarında buna xilaf davrana bilər. Buna bir çox Quran ayələri də işarə edir: ***"Həqiqətən, əgər onlardan: "Göyləri və yeri kim yaratmışdır?!" – deyə soruşsan, mütləq: "Allah!" – deyə cavab verəcəklər. (Ya Peyğəmbər!) De: "Elə isə bir söyləyin görək, əgər Allah mənə bir zərər toxundurmaq (sıxıntı vermək) istəsə, sizin Allahdan qeyri ibadət etdiklərinizi Onun zərərini aradan qaldıra bilərlərmi?! Yaxud: "Əgər Allah mənə bir mərhəmət əta etmək istəsə, onlar Onun mərhəmətinə mane ola bilərlərmi?!" De: "Mənə təkcə Allah kifayət edər. Təvəkkül edənlər yalnız Ona təvəkkül edərlər!"***[1062] Görürük ki, onlar nəzəri və etiqadi cəhətdən yerin və göylərin xaliqinin Allah olduğunu etiraf edirlər. Lakin əməli cəhətdən bu xaliqi inkar edərək Ondan başqalarına üz tuturlar.

Bizim məsələdə də vəziyyət belədir. Bir şəxsin tərif və mədh dolu sözlərlə tərifləməsi, ona həm də əməli cəhətdən də ehtiram və təqdir göstərdiyinə dəlalət etməz. Həqiqətən də, onun bu sözlərinin əsl tərcüməçisi tərifladiyi şəxslərə qarşı əməli rəftar və davranışlarıdır. Belə ki, tarixin də nəql etdiyi kimi, ən rəzil formada Peyğəmbər (s) nəvəsi İmam Hüseyni (ə) qətlə yetirənlərin və vəhy evinin xanımlarını əsir götürənlərin də Əhli-Beytin (ə) fəzilət və üstünlükləri, Allah yanındakı ehtiramlarını ifadə edən sözlərinə rast gəlinir. Allahın lənətinə gəlmiş Übeydullah ibn Ziyad İmam Hüseynin (ə) kəsilmiş başını qamçı ilə ora-

[1062] Zümər, 38

bura çevirərək fəzilətlərini sadalayırdı.[1063] Bütün bunlar isə həmin şəxslərdə hətta düşmənlərin belə inkar edə bilmədiyi fəzilətlərin olduğuna şahidlik edir.

Nəticə: Əhli-Beytin (ə) fəzilətlərini dost-düşmən hər kəs tanıyır, hər kəs onların fəzilətlərini etiraf edir. Ömər də bir çox sözlərində Əhli-Beytin (ə) fəzilətlərini və uca məqamlarını iqrar edib. Lakin iqrar olunan bu fəzilət və üstünlüklər əməli rəftarda əksini tapmalıdır. Belə ki, onlardan önə keçməməli, Peyğəmbərin (s) canının bir parçasını qəzəbləndirməməli, evini yandırmaqla hədələməməli, Möminlərin əmiri Əlini (ə) zorla beyətə məcbur etməməlidir. Onun Əhli-Beyt (ə) haqqında söylədiyi fəzilətlər, Allah yanında sevimli olduqları ilə bağlı sözlər Əhli-Beytə (ə) ehtiram və təqdirinin göstəricisi deyil. Xüsusən də, qeyd edilməlidir ki, Peyğəmbərin (s) buyurduğuna əsasən, Əliyə (ə) məhəbbət imanın, ona nifrət isə münafiqliyin əlamətidir. Bunu Müslim "Səhih"də Əbu Zərrə istinadən qeyd edir: *"Əli dedi: "Toxumu yaran, məxluqları yaradana and olsun ki, Peyğəmbər (s) mənə mömindən başqasının məni sevməyəcəyini və münafiqdən başqasının da nifrət bəsləməyəcəyini söylədi".*[1064]

Mömini münafiqdən ayıran xüsusiyyətlərdən biri İmam Əlini (ə) sevmək və ya ona nifrət bəsləməkdir. Bu səbəbdən, bəzi səhabələr zaman-zaman İmam Əliyə (ə) məhəbbətlərinin olduğunu ifadə edərək özlərini nifaq ləkəsi rüsvayçılığından xilas etməyə çalışırdılar. Ömərin Möminlərin əmiri (ə) barədəki bu sözləri də həmin məcradadır.

[1063] Buxari "Səhih"də Ənəs ibn Malikə istinadən yazır: *"Hüseyn ibn Əlinin (ə) başı Übeydullah ibn Ziyada gətirilib bir tasa qoyuldu. O, əlindəki çubuqla başı oyan-buyana çevirir və gözəlliyi barədə bəzi sözlər söyləyirdi". Ənəs deyir: "Hüseyn Peyğəmbərə (s) ən çox bənzəyən şəxs idi". Həmin vaxt Hüseynin başı qara rəngli vəsmə bitkisi ilə boyanmışdı".* (Səhih, Buxari, c. 4, s. 216)

Tirmizi də həmçinin Ənəsə istinadən öz "Sünən"ində yazır: *"İbn Ziyadın yanında idim, Hüseynin kəsilmiş başı gətirildi. Öz çomağı ilə onun burnunu-qulağını oynadır və deyirdi: "Bunun kimi gözəl görməmişəm". Ənəs dedi: "O, insanların arasında Peyğəmbərə (s) ən çox bənzəyən şəxs idi".* (Sünən, Tirmizi, c. 5, s. 325)

Həmçinin Təbərinin "Tarix" əsərində bu hadisə daha geniş qeyd edilir. (c. 4, s. 349)

[1064] Səhih, Müslim, c. 1, s. 61

3. "Ömər xüms və qənimətlərin bölgüsündə ilk olaraq Əhli-Beytdən (ə) başlayırdı" iddiası

İhsan Zahir iddia edir ki, Ömər xüms və qənimətlərin bölgüsündə ilk olaraq Əhli-Beytdən (ə) başlayardı. Bu sözünə isə İbn Meysəm Bəhraniyə, Dənbəliyə və İbn Əbülhədidə nisbət verdiyi sözləri dəlil kimi təqdim edir. İhsan Zahir deyir: **"Peyğəmbər (s), ondan sonra da Əbu Bəkr etdiyi kimi, Faruq da xüms bölgüsünü Əhli-Beytdən (ə) başlayırdı. Bunu Siddiq və Fədəklə bağlı məsələlərə toxunarkən qeyd etdik. "Onun (yəni Fədəyin) gəlirini götürür, ehtiyacı olduğu qədərini onlara (Əhli-Beytə) verir və yerdə qalanını bölüşdürürdü. Özündən sonra Ömər, Osman və Əli də belə etdilər (Şərhu Nəhcül-Bəlağə, İbn Meysəm, c. 5, s. 107; həmçinin, əd-Durrətun-Nəcəfiyyə, s. 332. Eləcə də, İbn Əbülhədidin "Şərh"ində)".**[1065]

Cavab

İhsan Zahirin bu iddiası dəlilsiz və sübutsuz bir iddiadır. Onun puçluğunun daha da aydın olması üçün iddiasına şahid göstərdiyi dəlilləri tam mətn şəkildə qeyd edəcəyik:

A. Əbu Bəkr və Fədəklə bağlı söylədiklərini dəlil göstərməsi

İhsan Zahir bu iddiasının dəlilinin əvvəldə Əbu Bəkr və Fədəklə bağlı təqdim etdiyi dəlillər olduğunu söylədi: "Peyğəmbər (s), ondan sonra da Əbu Bəkr etdiyi kimi, Faruq da xüms bölgüsünü Əhli-Beytdən (ə) başlayırdı. Bunu Siddiq və Fədəklə bağlı məsələlərə toxunarkən qeyd etdik".

Cavab olaraq deyirik:

Fədəklə bağlı üçüncü babda geniş şəkildə söhbət açdıq. Ora müraciət edin. Əbu Bəkrin Əhli-Beytə (ə) münasibətinə gəldikdə isə, onun oradakı sözlərini eynilə təqdim edirik: **"Bir çox rəvayətlərdə onun** (İmam Əlinin (ə) – Tərc.) **və**

[1065] Şiə və Əhli-Beyt, s. 111-112

övladlarının Siddiqin pul hədiyyələrini, xüms və qənimətlərdən paylarını qəbul etdikləri bildirilir. Əli onun zamanında xüms və qənimətləri bölən, onlara məsul şəxs idi.[1066] Bütün bu mallar Əlinin sərəncamında idi. Ardınca Həsənin, sonra Hüseynin, Əli ibn Hüseynin, Həsən ibn Həsənin və Zeyd ibn Həsənin ixtiyarında oldu (Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid, c. 4, s. 118)".[1067]

Onun bu iddiasına dəlili səhifənin haşiyəsində qeyd etdiyi Əbu Davudun rəvayəti və İbn Əbülhədidin "Şərh"indəki sözləridir:

"Əbu Davud "Sünən"də Abdullah ibn Abdullahın vasitəsilə Əbdürrəhman ibn Əbu Leyladan rəvayət edir: "Əlinin belə dediyini eşitdim: *"Mən, Abbas, Fatimə və Zeyd ibn Harisə Peyğəmbərin (s) yanına toplaşmışdıq. Dedim: "Ya Peyğəmbər! Əgər Allahın kitabına əsasən mənim bu xümsdə haqqım olduğunu buyurursansa, onu sən həyatda ikən böl ki, səndən sonra heç kəs mənimlə onun barəsində mübahisə etməsin". Peyğəmbər (s) onu böldü. Peyğəmbər (s) həyatda ikən onları mən bölürdüm. Ondan sonra Əbu Bəkr də mənə bu vəzifəni tapşırdı. Ömərin hakimiyyətinin son illərində ona çox mal gəlirdi, o bizi bu haqdan məhrum etdi, payımızı özü bölərək bizə göndərdi. Mən: "Bizim ona ehtiyacımız yoxdur. Müsəlmanlar daha möhtacdırlar" deyib özünə qaytardım. Ömərdən sonra mənə heç kim bu təklifi etmədi. Bir dəfə Ömərin yanından çıxarkən yolda Abbasla qarşılaşdım.*

[1066] İhsan Zahir səhifənin haşiyəsində deyir: **"Əbu Davudun kitabında Əlinin (r) belə dediyini rəvayət olunur: "Mən, Abbas, Fatimə və Zyed ibn Harisə Peyğəmbərin (s) yanına toplaşmışdıq. Dedim: "Ya Peyğəmbər! Əgər Allahın kitabına əsasən mənim bu xümsdə haqqım olduğunu buyurursansa, onu sən həyatda ikən böl ki, səndən sonra heç kəs mənimlə onun barəsində mübahisə etməsin". Peyğəmbər (s) onu böldü. Peyğəmbər (s) həyatda ikən onların mən bölürdüm. Ondan sonra Əbu Bəkr də mənə bu vəzifəni tapşırdı. Ömərin hakimiyyətinin son illərində ona çox mal gəlirdi, o bizi bu haqdan məhrum etdi, payımızı özü bölərək bizə göndərdi. Mən: "Bizim ona ehtiyacımız yoxdur. Müsəlmanlar daha möhtacdırlar" deyib özünə qaytardım".** (Əbu Davud, Xərac kitabı; Müsnəd, Əhməd).

[1067] Şiə və Əhli-Beyt, s. 70-71

Dedi: "Ya Əli, sübh vaxtı bizi bir şeydən məhrum etdin ki, əsla bizə geri qaytarılmayacaq..."[1068]

Bu rəvayətin sənədi zəifdir. Bunu Albani hədisə hökm verərkən də qeyd edib.[1069] Həmçinin "Səhih"də Ömərin Xeybərin xümsü, Fədək və Peyğəmbərin (s) Mədinədəki sədəqələrini əlində saxlaması barədə Abbasla İmam Əlinin (ə) mübahisəsini nəql edilən səhih rəvayətə də ziddir.

İbn Əbülhədid deyir: "Bil ki, Fədək məsələsi ilə əlaqədar qeyd edilən xəbər və rəvayətlərin şərhi ilə bağlı üç mövzuda sözümüz var:

- **Birincisi:** Fədək məsələsi ilə bağlı hədislər;
- **İkincisi:** Peyğəmbər (s) miras buraxır, ya yox?
- **Üçüncü:** Həqiqətən Peyğəmbər (s) Fədəyi Fatiməyə hədiyyə edib, ya yox?

Birinci: Şiə kitablarından və ravilərindən deyil, hədis əhlinin dilindən və kitablarından nəql olunan xəbər və rəvayətlər. Bizdə onlara (şiə rəvayət və ravilərinə) əhəmiyyət verməmək əsas şərtlərdəndir. Bu mövzu ilə bağlı nəql edəcəyimiz dəlillər Əbu Bəkr Əhməd ibn Əbdüləziz Cövhərinin "Səqifə və Fədək" kitabından və Peyğəmbərin (s) vəfatından sonra baş qaldıran ixtilaf və narazılıqlardan olacaq. Əbu Bəkr Cövhəri alim, hədisşünas, bir çox kitabın müəllifi, etibarlı və təqvalı şəxsidir, hədis mütəxəssisləri onu tərifləmiş və rəvayət etdiyi hədisləri öz kitablarında nəql etmişlər".

Bundan sonra deyir: "Əbu Bəkr deyir: "Əbu Zeyd Muhəmməd ibn Yəhyada, o da Əbdüləziz ibn İmran ibn Ədüləziz ibn Abdullah Ənsaridən, o da İbn Şihabdan, o da Malik ibn Ovs ibn Hədəsandan Ömərin Abbasa, Əliyə, Əbdürrəhman ibn Ovfa, Təlhəyə və Zübeyrə belə dediyini eşitdiyini nəql edir: *"Allahı sizə şahid tuturam, Peyğəmbərin (s) belə buyurduğunu bilirsinizmi: "Biz peyğəmbərlər miras buraxmarıq, özümüzdən sonra qoyduqlarımız sədəqədir"? Dedilər: "İlahi, bəli".*

[1068] Sünən, Əbu Davud, c. 2, s. 163, hədis 2984

[1069] Yusuf Hutun həmin kitaba şərhləri və Albaninin hədislərə hökmlərilə

Dedi: "Allahı sizə şahid tuturam, belə deyilmi ki, Peyğəmbər (s) öz ailəsini qənimətlərin payına daxil edir, sonra geridə qalanını beytül-mala verirdi?" Dedilər: "İlahi, elədir".

Peyğəmbər (s) dünyadan köçdükdə Əbu Bəkr bunun qarşısını aldı. Ey Abbas, sən gəlib qardaşın oğlunun mirasından payını, sən də, ey Əli, xanımının atasından qalan mirasını tələb edirdin. Düşünürdünüz ki, Əbu Bəkr bu məsələdə xəyanət və günah edib. Allaha and olsun ki, o, itaətkar və haqqa tabe olan bir şəxs idi. Əbu Bəkr öləndən sonra mən də onları vermədim. Siz ikiniz gəlib mirasdan payınızı istədiniz. Sən, ey Abbas, gəlib qardaşın oğlunun mirasından payını, Əli isə xanımının atasından qalan mirasını tələb edirdi. Güman edirdiniz ki, mən də bu məsələdə xəyanət və günah edirəm. Allah bilir ki, mən bu məsələdə haqqa mütiyəm və ona tabe oluram. Öz aranızda bu məsələni müzakirə edib qərara gəlin, yoxsa, Allaha and olsun ki, onlar sizə qaytarılmayacaq. Onlar iksi qalxdılar, aralarındakı mübahisəni tərk etdilər və mən də sədəqələri onlara verdim".

Əbu Zeyd Əbu Ğəssanın belə dediyini söyləyir: Əbdürrəzzaq Sənani Müəmmər ibn Şihabdan, o da Malikdən buna bənzərini nəql edir və ardınca deyir: "Bu mallarla bağlı Əli Abbasa üstünlüyünü isbatladı. Onların ixtiyarı Əlinin əlində idi. Sonra Həsənin, Hüseynin, Əli ibn Hüseynin, Həsən ibn Həsənin və Zeyd ibn Həsənin əlində idi".[1070]

İhsan Zahir İbn Əbülhədidin bu sözlərini qayçılayaraq özünə dəlil olması üçün münasib şəklə salıb. Halbuki əsl mətndə İbn Əbülhədid yalnız Əhli-Sünnə mənbələrindən Fədəklə bağlı məsələni nəql etdiyini açıq deyir. "Birinci fəsil" olaraq qeyd etdiyi mövzuda Malik ibn Ovsun hədisini dəlil olaraq təqdim edir. Bu hədis onun vasitəsilə "Səhih"də və digər kitablarda Ömərdən rəvayət edilir. Qarşıda bunu qeyd edəcəyik. Lakin Sənaninin ondan nəql etdiyi rəvayətdə bəzi əlavə kəlmələr də var ki, bunu İbn Əbülhədidin özü də vurğulayır. İhsan Zahir isə həmin əlavələri götürərək İbn Əbülhədidə nisbət verir, öz gümanına əsasən, onun

[1070] Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid, c. 16, s. 229

şiə olduğunu söyləyir. Həmçinin bu "dəlilini" Əbu Bəkrin, Ömərin və Osmanın xüms bölgüsündə Əhli-Beytdən (ə) başladığı iddiasına da sübut olaraq göstərir.

Buna əsasən, İhsan Zahirin iddiasına göstərdiyi dəlil Əbdürrəzzaqın Malikdən nəql etdiyi rəvayətdəki əlavələrdir. Halbuki bu rəvayət özü də bütünlüklə İhsan Zahirin iddiasından uzaqdır. Məsələnin tam aydın olması üçün Müslimin "Səhih"indəki Malikin hədisini təqdim edir və söhbəti uzatmağa ehtiyac olmadığı üçün bir neçə mülahizəni qeyd edirik ki, onun öz hədis mənbələrindən şiəyə dəlil göstərdiyi tam aydın olsun.

Müslim "Səhih"ində Zühri yolu ilə Malik ibn Ovsdan nəql edir: *"Ömər ibn Xəttab mənə xəbər göndərib yanına getməyimi istədi. Günortaya yaxın mən onun yanına getdim. Evində döşək üzərində oturmuş, torpaqdan balış kimi düzəldib ona söykənmişdi. Mənə dedi: "Ey Malik, sizin qövmün bir neçə ailəsi yanımıza gəlib. Onlara beytül-maldan verilməsini tapşırmışam. Onu götür və aralarında böl". Dedim: "Bəlkə bunu başqa adama tapşırasan?" Mənə özümün aparmağımı buyurdu. Sonra Yərfa (Ömərin xidmətçisi) gəlib dedi: "Ey möminlərin əmiri, Osmana, Əbdürrəhman ibn Ovfa, Zübeyr və Sada içəri girmək üçün icazə verirsən?" Ömər: "Bəli", dedi. Onlar içəri girdilər. Sonra yenə Yərfa gəlib dedi: "Abbas ilə Əlinin də gəlməsinə izn verirsən?" Ömər (yenə): "Bəli", deyib onlara da icazə verdi. Abbas içəri girdikdə dedi: "Ey möminlərin əmiri! Mənimlə bu yalançı, günahkar, vəfasız və xainin arasında hökm ver". Orada olanlar: "Bəli, ey möminlərin əmri, aralarında hökm verib onları rahatlat" dedilər (Malik ibn Ovs deyir: "Mənə elə gəlir ki onlar, burada olanları bunun üçün əvvəlcədən göndərmişdilər").*

Ömər dedi: "İkiniz bir az durun! (sonra üzünü camaata tutdu) Sizə yerlə göyün Onun izni ilə qərar tapdığı Allahı şahid tuturam! Peyğəmbərin (s) "Biz miras buraxmarıq, geridə qoyduqlarımız sədəqədir" buyurduğunu bilmirsinizmi?" Oradakılar "Bəli" deyə cavab verdilər. Sonra üzünü Abbas ilə Əliyə tutub dedi: "Sizə yerlə göyün Onun izni ilə qərar tapdığı Allahı şahid tuturam! Peyğəmbərin (s) "Biz miras buraxmarıq, geridə qoyduqlarımız sədəqədir" buyurduğunu bilmirsinizmi?"

Onlar "Bəli" deyə cavab verdilər. Ömər dedi: "Həqiqətən də Allah Peyğəmbərinə ondan başqa heç kimə bəxş etmədiyi xüsusiyyətlər bəxş edib. Uca Allah buyurub: ***"Allahın Öz Peyğəmbərinə (fəth olunmuş) məmləkətlərin əhalisindən (dinc yolla) verdiyi qənimət Allaha, Peyğəmbərə, qohum-əqrəbaya, yetimlərə, yoxsullara və (pulu qurtarıb yolda qalan) müsafirə məxsusdur"***[1071] *(Ravi deyir: Ömərin bu ayədən əvvəlki ayəni oxuyub-oxumadığını bilmirəm). Peyğəmbər (s) Bəni-Nəzirənin mallarını sizin aranızda böldü. Allaha and olsun ki, heç kimi sizdən üstün tutmadı, sizi kənarda tutub özü də onları götürmədi. Nəhayət bu maldan qaldı. Peyğəmbər (s) bundan illik xərcliyini götürər, artıq qalanı da beytül-mala əlavə edərdi".*

Ömər sonra dedi: "Sizə yerlə göyün Onun izni ilə qərar tapdığı Allahı şahid tuturam! Bunu bilirdiniz?" Oradakılar: "Bəli" dedilər. Sonra Abbasla Əlidən də oradakılar kimi "Bunu bilirsinizmi?" deyə soruşdu. Onlar: "Bəli" deyə cavab verdilər. Ömər bunun ardınca dedi: "Peyğəmbər (s) vəfat etdikdən sonra Əbu Bəkr "Mən Peyğəmbərin vəlisiyəm" demişdi. Siz ikiniz gəldiniz. Bu (Abbas) qardaşı oğlunun (Peyğəmbərin) mirasını, bu (Əli) isə xanımının atasından qalan irsini tələb edirdi. Əbu Bəkr dedi ki, Peyğəmbər (s) "Biz peyğəmbərlər özümüzdən sonra miras qoymarıq. Geridə buraxdıqlarımız sədəqədir" buyurub. Siz ikiniz də onu yalançı, günahkar, nadan və xain gördünüz. Əbu Bəkr öldükdən sonra mən Peyğəmbərin (s) və Əbu Bəkrin vəlisi oldum. Siz ikiniz də məni yalançı, günahkar, nadan və xain gördünüz. Sonra sən və bu şəxs əlbir olub yanıma gəlib "onu (Fədəyi) bizə ver" dediniz. Mən isə "Əgər istəyirsinizsə onu sizə verərəm, belə ki, Peyğəmbərin (s) onunla rəftar etdiyi kimi sizin də rəftar etməniz Allahın boynunuzdakı əhdidir" demişdim. Siz onu götürdünüz. Belə deyilmi?" Dedilər: "Bəli, elədir". Ömər dedi: "Sonra yanıma gəlib aranızda hökm etməməyimi istədiniz. Xeyr, Allaha and olsun

[1071] Həşr, 7

ki, sizin aranızda Qiyamətədək bundan başqası ilə hökm etməyəcəyəm. Əgər (Fədəyə baxmağı) bacarmırsınızsa, onu mənə geri qaytarın".[1072]

Bu rəvayət Peyğəmbərin (s) malını Ömərin Əhli-Beytə (ə) miras olaraq deyil, yalnız idarəçilik üçün verdiyinə aydın dəlalət edir. İmam Əli (ə) ilə Abbas isə bu barədə (onların gümanına və iddiasına əsasən) mübahisə edirlər. Ömərin yanına gəlib bu malı onlara irs hökmü ilə verməsini istəyirlər. Lakin Ömər bundan imtina edirək əvvəlki idarəçilik hökmü üzərində israr edir.

Bunu Müslim "Səhih"ində həmçinin Ürvə ibn Zübeyrin vasitəsilə də nəql edir. Orada Peyğəmbərin (s) zövcəsi Aişə ona bildirir: *"Peyğəmbərin (s) Mədinədəki sədəqələrini Ömər Əliyə və Abbasa verdi. Lakin Fədəklə Xeybəri özündə saxladı. Ömər deyirdi: "Bunlar Peyğəmbərin (s) sədəqələridir. Onu qonaqlarına, kimsəsizlərə və öz naiblərinə verirdi. Özündən sonra da onun vəlilərinin sərəncamındadır". Dedi: "Bu gün də belədir".*[1073]

Bu rəvayət də aydın surətdə Ömərin Fədək və Xeybəri əlində saxladığına, İmam Əli (ə) ilə Abbasa isə yalnız Mədinədəki sədəqələri verdiyinə dəlalət edir. Onların iddia və gümanlarına əsasən də, İmam (ə) bu məsələdə Abbasa qalib gəlir!

Əbdürrrəzaq Müəmmərə istinadən Zühridən, o da Malik ibn Ovs ibn Hədəsan Nəsridən rəvayət edib: *"Ömər ibn Xəttab mənə xəbər göndərib bildirdi ki, qövmümdən bir neçə ailə Mədinəyə gəlib. Onlara beytül-maldan verilməsini tapşırıb. Onu götürüb və aralarında bölməyimi istədi. Dedim: "Bəlkə bunu başqa adama tapşırasan?" Mənə özümün aparmasını buyurdu. Mən onun yanında ikən (Ömərin xidmətçisi) Yərfa gəlib dedi: "Ey möminlərin əmiri, Osmana, Əbdürrəhman ibn Ovfa, Sad ibn Əbu Vəqqas və Zübeyr ibn Əvvama (Ravi deyir: Təlhənin adını çəkib-çəkmədiyini bilmirəm) içəri girmək üçün icazə verirsən?" Ömər: "Bəli" dedi. Onlar içəri girdilər.*

[1072] Səhih, Müslim, c. 3, s. 1376, hədis 1757, "Feyin hökmü" fəsli, c. 5, s. 152-153

[1073] Səhiih, Müslim, c. 3, s. 1380, hədis 1759, "Peyğəmbərin (s) "Biz miras buraxmarıq" sözü" fəsli

Sonra bir müddət keçmişdi ki, yenə Yərfa gəlib dedi: "Abbas ilə Əlinin də gəlməsinə izn verirsən?" Ömər (yenə): "Bəli", deyib onlara da icazə verdi. Abbas içəri girdikdə dedi: "Ey möminlərin əmiri! Mənimlə bunun arasında hökm ver" (Ravi: Həmin vaxt onların arasında Peyğəmbərin (s) Bəni-Nəzirədən qalan feyləri (qənimətləri) barədə mübahisə var idi). Orada olanlar: "Bəli, ey möminlərin əmri, aralarında hökm verib onları rahatlat" dedilər".

Onların aralarındakı mübahisə bir müddət davam etdi. Sonra Ömər üzünü camaata tutub dedi: "Sizə yerlə göyün Onun izni ilə qərar tapdığı Allahı şahid tuturam! Peyğəmbərin (s) "Biz miras buraxmarıq, geridə qoyduqlarımız sədəqədir" buyurduğunu bilmirsinizmi?" Oradakılar "Bəli, belə buyurub" deyə cavab verdilər. Sonra üzünü onlara (Abbas ilə Əliyə) tutub eyni sözləri dedi. Onlar da "Bəli" deyə cavab verdilər. Ömər dedi: "Mən sizə bu feylər barədə məlumat verim. Həqiqətən də Allah Peyğəmbərinə heç kimə bəxş etmədiyi xüsusiyyətlər bəxş edib. Uca Allah buyurub: ***"Allahın onların (Bəni-Nəzər qəbiləsinin) mallarından Öz Peyğəmbərinə verdiyi qənimət üçün siz onların üstünə nə at, nə də dəvə sürdünüz. Lakin Allah Öz peyğəmbərlərini istədiyi kimsələr üzərində hakim edər. Allah hər şeyə qadirdir!"***[1074] *Bunlar Peyğəmbərə (s) məxsus idi. Allaha and olsun ki, heç kimi sizdən üstün tutmadı, sizi kənarda tutub özü də onları götürmədi. Nəhayət onlardan bu mallar qaldı. Peyğəmbər (s) bundan illik xərcliyini götürüb ailəsinə xərcləyər, bəzən bir illik xərcliklərini saxlayar, geridə qalanını isə Allah yolunda xərcləyərdi.*

Peyğəmbər (s) vəfat etdikdən sonra Əbu Bəkr "Mən Peyğəmbərin vəlisiyəm" dedi və Peyğəmbər (s) istifadə etdiyi kimi onlarla davrandı".

Sonra Əli və Abbasa tərəf gəlib dedi: "Siz ikiniz onun bu məsələdə zalım və günahkar olduğunu düşündünüz. Halbuki Allaha and olsun, o dürüst, xeyirxah və haqqa itaətkar idi. Əbu Bəkr mənim xilafətimdən əvvəl iki il rəhbərlik etdi. Mən də o mallarla Peyğəmbər (s) və Əbu Bəkr kimi rəftar etdim. Siz mənim də bu məsələdə

[1074] Həşr, 6

zalım və günahkar olduğumu düşündünüz. Sonra siz yanıma gəldiniz. Bu (Abbas) qardaşı oğlunun (Peyğəmbərin) mirasını, bu (Əli) isə xanımının atasından qalan irsini tələb edirdi. Mən sizə dedim ki, Peyğəmbər (s) "Biz peyğəmbərlər özümüzdən sonra miras qoymarıq. Geridə buraxdıqlarımız sədəqədir" buyurub. Sonra onu sizə verməyi düşündüm. Sizdən onlarla, Peyğəmbərin (s) və Əbu Bəkr rəftar etdiyi kimi davranacağınız barədə əhd aldım. Onun idarəçiliyini sizə verdikdən sonra gəlib bütünlüklə təhvil verilməsini və bundan fərqli hökm etməyimi istədiniz. Yerlə göyün Onun izni ilə qərar tapdığı Allaha and olsun ki, sizin aranızda bundan başqası ilə hökm etməyəcəyəm. Əgər (Fədəyə baxmağı) bacarmırsınızsa, onu mənə geri qaytarın".

Deyir: "Əli o mallar barədə qalib gəldi. O mallar Əlinin, ondan sonra Həsənin, sonra Hüseynin, sonra Əli ibn Hüseynin, sonra Həsən ibn Həsənin və sonra da Zeyd ibn Həsənin əlində idi".

Müəmmər deyir: "Sonra Abdullah ibn Həsənin əlində idi, ardınca isə bunlar (yəni Bəni-Abbas) onların əlindən aldı".[1075]

"Əli o mallar barədə qalib gəldi. O mallar Əlinin, ondan sonra Həsənin,.. əlində idi" sözü Əbdürrəzzaqın rəvayətə əlavəsidir. Necə ki, buna "Deyir:" sözü də işarə edir.

Eləcə də Buxarinin Zührinin vasitəsilə nəql etdiyi rəvayət: "Bu hədisi Ürvə ibn Zübeyrə danışdım. O dedi: "Malik ibn Ovs düz deyir. Mən Peyğəmbərin (s) zövcəsi Aişənin belə dediyini eşitmişəm: *"Peyğəmbərin zövcələri Osmanı Əbu Bəkrin yanına göndərib ondan Peyğəmbər (s) feylərindən onların payına düşənləri istədilər. Mən də onların arasında idim..." (Ravi) Deyir: "Bu sədəqələr Əlinin əlində idi, onu Abbasın əlindən almışdı və mallar barədə məsələdə ona qalib gəlmişdi. O mallar Əlinin, ondan sonra Həsən ibn Əlinin, sonra Hüseyn ibn Əlinin, sonra Əli ibn Hüseynin və Həsən ibn Həsənin sərəncamında idi. Sonuncuların hər ikisi ondan*

[1075] əl-Müsənnəf, Əbdürrəzzaq, c. 5, s. 471, hədis 9772, "Əli ilə Abbasın mübahisəsi" fəsli

istifadə edirdilər. Sonra Zeyd ibn Həsənin ixtiyarında oldu. Bu mallar Peyğəmbərin (s) həqiqi sədəqələri idi".

Bu rəvayət sondakı bu kəlmələrin heç də Malik ibn Ovsun sözləri olmadığını göstərir.

Nəticə: Malikin rəvayəti Ömərin Fədəyi, Xeybərin xümsünü və Mədinədəki Peyğəmbər (s) sədəqələrini İmam Əliyə (ə) yalnız idarəçilik üçün verdiyini bildirir. İmam Əli (ə) ilə Abbas isə Ömərin yanına gələrək bunları miras ünvanı ilə onlara qaytarmasını istəyirlər. Lakin Ömər bundan imtina edir.

Ancaq Aişənin rəvayətində isə Ömərin Fədək və Xeybəri əlində saxlayaraq yalnız Peyğəmbərin (s) Mədinədəki sədəqələrinin idarəçiliyini onlara verdiyi bildirilir.

Əbdürrəzzaqın "əl-Müsənnəf" əsərindəki bu rəvayətin sonundakı əlavələr isə rəvayətin mənbəyi olan Malik ibn Ovsun deyil, müəllifin öz sözləridir. Buna rəvayətdəki "Deyir:" sözü də dəlalət edir.

Bundan əlavə, Buxarinin "Səhih"ində qeyd olunan, Zühri yolu ilə Malikdən rəvayət edilən hədisdə də bu əlavə var və orada da həmin sözlər Malikin deyil, Ürvənin dilindən nəql olunur.

Bütün bunların İhsan Zahirin iddia etdiyi "Ömər xümsü bölərkən Əhli-Beytdən (ə) başlayırdı" sözünə yaxından-uzaqdan heç bir dəlaləti yoxdur. Malikin bu hədisində Əhli-Beytin (ə) üstün tutulduğuna dəlil haradadır?!

B. İbn Əbülhədidin rəvayətinin, İbn Meysəmin və Dənbəlinin sözlərinin dəlil göstərilməsi

İhsan Zahir Ömərin xümsü bölüşdürməyə Əhli-Beytdən (ə) başladığı iddiasına İbn Əbülhədidin "Şərhu Nəhcül-Bəlağə" kitabındakı rəvayətini, İbn Meysəm və Dənbəlinin sözlərini dəlil göstərir: **"Onun (yəni Fədəyin) gəlirini götürür, ehtiyacı olduğu qədərini onlara (Əhli-Beytə) verir və yerdə qalanını bölüşdürürdü. Özündən sonra Ömər, Osman və Əli də belə etdilər ("Şərhu**

Nəhcül-Bəlağə", İbn Meysəm, c. 5, s. 107; həmçinin "əd-Durrətun-Nəcəfiyyə" kitabı, s. 332. Eləcə də İbn Əbülhədidin "Şərh"ində)".[1076]

İbn Əbülhədidin rəvayəti

Buna cavab verməzdən əvvəl İbn Əbülhədidin sözlərinin əslini və tam mətnini qeyd etməyimiz və onlar barədə deyiləcək sözləri qeyd etməyimiz yerinə düşər:

İbn Əbülhədid yazır: "Əbu Bəkr deyir: Muhəmməd ibn Zəkəriyyə İbn Aişədən, o da atasından, o da əmisindən nəql edir: *"Fatimə Əbu Bəkrlə danışdıqda o (Əbu Bəkr) ağladı. Sonra dedi: "Ey Peyğəmbərin qızı, Allaha and olsun ki, sənin atan nə dinar, nə dirhəm miras buraxmayıb. O deyirdi: "Peyğəmbərlər miras buraxmazlar". Fatimə dedi: "Fədəyi Peyğəmbər (s) mənə hədiyyə edib". Əbu Bəkr buna şahidlik edəcək şəxslərin olub-olmadığını soruşdu. Əli ibn Əbu Talib və Ümmü Əymən gəlib şahidlik etdilər. Sonra Ömər ibn Xəttabla Əbdürrəhman ibn Ovf isə gəlib Peyğəmbərin (s) həmin malları bölüşdürdüyünü bildirdilər. Əbu Bəkr dedi: "Ey Peyğəmbər qızı! Sən də, Əli də, Ümmü Əymən də, Ömər və Əbdürrəhman ibn Ovf da düz söyləyirsiniz. Sənin bu malın Peyğəmbərə məxsusdur. Peyğəmbər (s) Fədəkdən sizin dolanışığınız miqdarını götürür, yerdə qalanını isə bölüşdürür və Allah yolunda xərcləyirdi. Bəs sən nə edəcəksən?" Fatimə dedi: "Atam necə edirdisə mən də elə edəcəyəm". Əbu Bəkr dedi: "Atan kimi istifadə edəcəyimə sənin qarşında Allahı şahid tuturam". Fatimə dedi: "İlahi, şahidəm!" Əbu Bəkr də bu cür edəcəyinə Allahı şahid tutdu. Fatimə "İlahi, şahid ol!" dedi".*

Əbu Bəkr onun (yəni Fədəyin) gəlirini götürür, ehtiyacı olduğu qədərini onlara (Əhli-Beytə) verir və yerdə qalanını bölüşdürürdü. Özündən sonra Ömər, Osman və Əli də belə etdilər. Müaviyə ibn Əbu Süfyan hakimiyyətə gəldikdə onun üçdə birini Mərvan ibn Həkəmə, üçdə birini Əmr ibn Osman ibn Əffana və digər üçdə birini isə oğlu Yezid ibn Müaviyəyə (l) verdi. Bu Həsən ibn Əlinin (ə) ölümündən sonra baş verdi, Mərvan ibn Həkəmin hakimiyyətinədək davam etdi. O, hakimiyyətə gəldikdə

[1076] Şiə və Əhli-Beyt, s. 111-112

Fədəyi bütünlüklə öz əlinə keçirdi. Sonra oğlu Əbdüləzizə, o da öz oğlu Ömər ibn Əbdüləzizə verdi. Ömər ibn Əbdüləziz xilafət rəhbərliyinə gəldikdə qaytardığı ilk haqq məhz bu oldu. Həsən ibn Həsən ibn Əli ibn Əbu Talibi (ə) çağırıb ona verdi".[1077]

Bu sözlərindən dəlil göstərilən parça *"Əbu Bəkr onun (yəni Fədəyin) gəlirini götürür,.."* sözlərindən başlayır. İhsan Zahirin bu sözləri dəlil göstərməsi yanlışdır. Çünki:

1. Bu söz, ardınca gələn *"Ömər ibn Əbdüləziz xilafət rəhbərliyinə gəldikdə qaytardığı ilk haqq bu oldu. Həsən ibn Həsən ibn Əli ibn Əbu Talibi (ə) çağırıb ona verdi"* cümlələrində olduğu kimi İbn Əbülhədidin mürsəl (sənədsiz) sözüdür.

2. Bu iddia Osmanın Fədəyi öz kürəkəni Mərvan ibn Həkəmə verdiyinə dair qəti dəlillərə ziddir. Belə ki, bu davranış müsəlmanların Osman ibn Əffana qarşı qəzəblərini alovlandıran məsələlərdən biri idi (bu barədə yeddinci fəsildə müfəssəl şəkildə söhbət açacağıq). Bunu bir çox Əhli-Sünnə hədis hafizi, mühəddis və tarixçisi qeyd etmişdir. Onlardan Əbu Davud, Beyhəqi, İbn Əsakir və digərlərinin adlarını çəkmək olar. Həmin mənbələrə əsasən, Ömər ibn Əbdüləziz deyir (rəvayət Əbu Davudun kitabındandır): "Ömər hakimiyyətə gəldikdə özündən əvvəlki iki nəfər kimi ondan istifadə etdi. Beləcə davam etdi. Sonra onu Mərvana verdi".[1078]

İbn Həcər bunun şərhində yazır: "Sonra onu Mərvana verdi" – yəni Osmanın xilafəti dövründə".[1079]

İbn Əbdü Rəbbih Əndəlusi deyir: "Camaatı Osmana qarşı qəzəbləndirən səbəblərdən biri Peyğəmbərin (s) qovduğu Həkəm ibn Ası himayəsinə alması... Fədəyi Mərvana verməsi idi. O (Fədək), Peyğəmbərin (s) sədəqələrindən idi".[1080]

[1077] Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid, c. 16, s. 216

[1078] Sünən, Əbu Davud, c. 2, s. 24. Həmçinin bax: Sünən, Əbu Davud, c. 2, s. 24, əs-Sünənul-kubra, Beyhəqi, c. 6, s. 301; Tarixu mədinəti Diməşq, İbn Əsakir, c. 45, s. 179

[1079] Fəthul-bari, İbn Həcər, c. 6, s. 141

[1080] əl-Əqdul-fərid, İbn Əbdü Rəbbih, c. 2, s. 78

3. Bu sözlər "Səhih"də qeyd olunan, Ömərin Fədək və Xeybəri əlində saxlayaraq İmam Əliyə (ə) və Abbasa yalnız Peyğəmbərin (s) Mədinədəki sədəqələrini verdiyinə və onların iddialarına əsasən, İmamın (ə) Abbasa üstün gələrək onu aldığına dəlalət edən rəvayətə ziddir. Həmçinin "Səhih"dəki Ömərin Xeybəri, Fədəyi və Mədinədəki Peyğəmbər (s) sədəqələrini İmamla (ə) Abbasa yalnız idarəçilik üçün verdiyi və bununla bağlı onların arasında ciddi mübahisə yaşandığına dair rəvayətə də müxalifdir.

4. Bu iddiasına dəlil göstərdiyi mənbə də Əhli-Sünnənin rəyidir. Necə ki, bunu sözünün əvvəlində İbn Əbülhədid də qeyd edir.

İbn Meysəm və Dənbəlinin sözləri

Cavaba başlamazdan əvvəl İbn Meysəmlə Dənbəlinin sözlərini tam şəkildə qeyd etməyimiz və onlar barədə fikirlərimizi söyləməyimiz yerinə düşər:

İbn Meysəm Bəhrani deyir: "Şiələrin arasında məşhur və ittifaq etdikləri məsələdir ki, Peyğəmbər (s) hələ həyatda ikən Fədəyi qızı Fatiməyə (ə) vermişdi. Bu barədə müxtəlif yollarla rəvayətlər nəql edilib. Onlardan: Əbu Səid Xudri deyir: ***"Yaxın qohuma haqqını ver"***[1081] *ayəsi nazil olduqda Peyğəmbər (s) Fədəyi qızı Fatiməyə (ə) hədiyyə etdi. Əbu Bəkr xəlifə olduqda Fədəyi ondan almağa qərar verdi. Xanım (ə) adam göndərib atasının mirasını ondan istədi. O deyirdi: "Onu atam həyatda ikən mənə verib". Buna Əlini (ə) və Ümmü Əyməni şahid göstərdi. Onlar da gəlib şahidlik etdilər. Əbu Bəkr ona Peyğəmbərdən (s) rəvayət etdiyi hədislə cavab verdi: "Biz peyğəmbərlər miras buraxmarıq. Geridə buraxdıqlarımızın hamısı sədəqədir". Fədəyə gəldikdə, o Peyğəmbərin (s) sərəncamında olan müsəlmanların malı idi, ondan Allah yolunda xərcləyirdi. Mən hazırda Peyğəmbər (s) olduğu kimi, onun rəhbəriyəm".*

Xəbər Xanıma çatdıqda örtüyünə büründü, övladlarını və özünə yaxın qadınları götürüb oraya üz tutdu. İçəri girdikdə mühacir və ənsarın öndə gələnlərinin də

[1081] Rum, 38

onun (Əbu Bəkrin) yanında olduğunu gördü. Onunla oradakıların arasında bir pərdə asıldı. Xanım (ə) örtüyünü büküb ağlamağa başladı. Məclisdəkilər hamısı onun bu ağlamağından həyəcanlanıb ağladılar. Xanım bir müddət camaatın ağlamaq səslərinin sakitləşməsini gözlədi. Səs-küy yatdı və sözə başladı: "Etdiyi ehsanlara görə Allaha həmdlə başlayır, qəlblərə ilham etdiyi hidayətlərə görə Ona şükürlər edirəm...

Bunları sizi ağuşuna almış məğlubiyyət, üz vermiş gücsüzlük və yəqin azlığınızı bildiyim üçün söylədim. Bunlardan möhkəm yapışın ki, başqaları sizi arxada qoymasın, ləyaqətdə üstün olmasın ki, rüsvayçılıqda qalar, şərəfsizliklə damğalanarsınız, nəticədə Allahın qəlbləri yandıran oduna girərsiniz. Etdikləriniz Allahın gözü qarşısındadır. Zülm edənlər gedəcəkləri yerin necə də pis olduğunu mütləq biləcəklər".

Sonra evinə qayıtdı, Əbu Bəkrlə bir daha əsla kəlmə kəsməyəcəyinə və ondan Allaha şikayət edəcəyinə dair and içdi. Ölüm yetişənədək bu halı davam etdi və ömrünün son anlarında özünün cənazə namazında (Əbu Bəkrin) iştirak etməməsini vəsiyyət etdi.

Rəvayət olunur ki: Əbu Bəkr onun sözlərini eşitdikdə Allaha həmd-səna söylədi, Peyğəmbərə və ailəsinə salavat göndərib dedi: "Ey Xanımların ən xeyirlisi, ən yaxşı atanın qızı! Allaha and olsun ki, Peyğəmbərin (s) rəyini əsla aşmaram, onun əmrindən başqa şeyə əməl etmərəm. Həqiqətən də başçı yalan demir. Sözünü dedin və fikirlərini çatdırdın. Sərt danışıb üz çevirmisən. Allah bizi də, səni də bağışlasın. Peyğəmbərin (s) silahını, miniyini və ayaqqabısını Əliyə verdim. Yerdə qalanlar barədə isə onun belə buyurduğunu eşitmişəm: "Biz peyğəmbərlər özümüzdən sonra heç kimə qızıl, gümüş, torpaq, mülk və ev buraxmarıq. Özümüzdən sonra iman, elm, hikmət və sünnə qoyarıq". Mənə əmr və tövsiyə etdiyinə əsasən əməl edəcəyəm".

Xanım dedi: "Peyğəmbər (s) onu mənə hədiyyə etmişdi".

Əbu Bəkr: Buna şahidlik edəcək adam varmı?

Bu zaman Əli ibn Əbu Talib və Ümmü Əymən gəlib şahidlik etdilər.

Ömər ibn Xəttab və Əbdürrəhman ibn Ovf isə gəlib şəhadət verdilər ki, Peyğəmbər (s) onun gəlirlərini bölüşdürürdü.

Əbu Bəkr dedi: "Əli də, Ümmü Əymən də, Ömər də, Əbdürrəhman da doğru dedilər. Atanın götürdüyü miqdarı sən də alacaqsan. Peyğəmbər (s) Fədəkdən yalnız sizin illik ehtiyacınızı götürər, geridə qalanını isə bölüşdürüb Allah yolunda xərcləyərdi. Mən də onun rəftar etdiyi kimi istifadə edəcəyəm".

Xanım razılaşıb bu barədə ondan vəd aldı. (Əbu Bəkr) onun gəlirini götürür, ehtiyacı olduğu qədərini onlara verir və qalanını bölüşdürürdü. Özündən sonrakı xəlifələr də Müaviyənin xilafətinədək belə etdilər. Həsəndən (ə) sonra Fədəyin gəlirinin üçdə birini Mərvana verdi. Mərvan öz xəlifəliyi dövründə isə onu tamamilə əlinə keçirdi. Sonra övladlarına ötürdü. Ta ki, Ömər ibn Əbdüləzizin hakimiyyətinədək belə davam etdi. O, öz xilafəti dövründə Fədəyi Fatimənin (ə) övladlarına qaytardı..."[1082]

Dənbəli deyir: "Şiələrin arasında məşhur və ittifaq etdikləri məsələdir ki, Peyğəmbər (s) hələ həyatda ikən Fədəyi qızı Fatiməyə (ə) vermişdi. Bu barədə müxtəlif yollarla rəvayətlər nəql edilib. Onlardan: Əbu Səid Xudri deyir: ***"Yaxın qohuma haqqını ver"***[1083] *ayəsi nazil olduqda Peyğəmbər (s) Fədəyi qızı Fatiməyə (ə) hədiyyə etdi. Əbu Bəkr xəlifə olduqda Fədəyi ondan almağa qərar verdi. Xanım (ə) adam göndərib atasının mirasını ondan istədi. O deyirdi: "Onu atam həyatda ikən mənə verib". Buna Əlini (ə) və Ümmü Əyməni şahid göstərdi. Onlar da gəlib şahidlik etdilər. Əbu Bəkr ona Peyğəmbərdən (s) rəvayət etdiyi hədislə cavab verdi: "Biz peyğəmbərlər miras buraxmarıq. Geridə buraxdıqlarımızın hamısı sədəqədir". Fədəyə gəldikdə, o Peyğəmbərin (s) sərəncamında olan müsəlmanların malı idi, ondan Allah yolunda xərcləyirdi. Mən hazırda Peyğəmbər (s) olduğu kimi, onun rəhbəriyəm".*

[1082] Şərhu Nəhcül-Bəlağə, İbn Meysəm Bəhrani, c. 5, s. 104-107

[1083] Rum, 38

Xəbər Xanıma çatdıqda örtüyünə büründü, övladlarını və özünə yaxın qadınları götürüb oraya üz tutdu. İçəri girdikdə mühacir və ənsarın öndə gələnlərinin də onun (Əbu Bəkrin) yanında olduğunu gördü. Onunla oradakıların arasında bir pərdə asıldı. Xanım (ə) örtüyünü büküb ağlamağa başladı. Məclisdəkilər hamısı onun bu ağlamağından həyəcanlanıb ağladılar. Xanım bir müddət camaatın ağlamaq səslərinin sakitləşməsini gözlədi. Səs-küy yatdı və sözə başladı: "Etdiyi ehsanlara görə Allaha həmdlə başlayır, qəlblərə ilham etdiyi hidayətlərə görə Ona şükürlər edirəm...

Bunları sizi ağuşuna almış məğlubiyyət, üz vermiş gücsüzlük və yəqin azlığınızı bildiyim üçün söylədim. Bunlardan möhkəm yapışın ki, başqaları sizi arxada qoymasın, ləyaqətdə üstün olmasın ki, rüsvayçılıqda qalar, şərəfsizliklə damğalanarsınız, nəticədə Allahın qəlbləri yandıran oduna girərsiniz. Etdikləriniz Allahın gözü qarşısındadır. Zülm edənlər gedəcəkləri yerin necə də pis olduğunu mütləq biləcəklər".

Sonra evinə qayıtdı, Əbu Bəkrlə bir daha əsla kəlmə kəsməyəcəyinə və ondan Allaha şikayət edəcəyinə dair and içdi. Ölüm yetişənədək bu halı davam etdi və ömrünün son anlarında özünün cənazə namazında (Əbu Bəkrin) iştirak etməməsini vəsiyyət etdi.

Rəvayət olunur ki: Əbu Bəkr onun sözlərini eşitdikdə Allaha həmd-səna söylədi, Peyğəmbərə və ailəsinə salavat göndərib dedi: "Ey Xanımların ən xeyirlisi, ən yaxşı atanın qızı! Allaha and olsun ki, Peyğəmbərin (s) rəyini əsla aşmaram, onun əmrindən başqa şeyə əməl etmərəm. Həqiqətən də başçı yalan demir. Sözünü dedin və fikirlərini çatdırdın. Sərt danışıb üz çevirmisən. Allah bizi də, səni də bağışlasın. Peyğəmbərin (s) silahını, miniyini və ayaqqabısını Əliyə verdim. Yerdə qalanlar barədə isə onun belə buyurduğunu eşitmişəm: "Biz peyğəmbərlər özümüzdən sonra heç kimə qızıl, gümüş, torpaq, mülk və ev buraxmarıq. Özümüzdən sonra iman, elm, hikmət və sünnə qoyarıq". Mənə əmr və tövsiyə etdiyinə əsasən əməl edəcəyəm".

Xanım dedi: "Peyğəmbər (s) onu mənə hədiyyə etmişdi".

Əbu Bəkr: Buna şahidlik edəcək adam varmı?

Bu zaman Əli ibn Əbu Talib və Ümmü Əymən gəlib şahidlik etdilər. Ömər ibn Xəttab və Əbdürrəhman ibn Ovf isə gəlib şəhadət verdilər ki, Peyğəmbər (s) onun gəlirlərini bölüşdürürdü.

Əbu Bəkr dedi: "Əli də, Ümmü Əymən də, Ömər də, Əbdürrəhman da doğru dedilər. Atanın götürdüyü miqdarı sən də alacaqsan. Peyğəmbər (s) Fədəkdən yalnız sizin illik ehtiyacınızı götürər, geridə qalanını isə bölüşdürüb Allah yolunda xərcləyərdi. Mən də onun rəftar etdiyi kimi istifadə edəcəyəm".

Xanım razılaşıb bu barədə ondan vəd aldı. (Əbu Bəkr) onun gəlirini götürür, ehtiyacı olduğu qədərini onlara verir və qalanını bölüşdürürdü. Özündən sonrakı xəlifələr də Müaviyənin xilafətinədək belə etdilər. Həsəndən (ə) sonra Fədəyin gəlirinin üçdə birini Mərvana verdi. Mərvan öz xəlifəliyi dövründə isə onu tamamilə əlinə keçirdi. Sonra övladlarına ötürdü. Ta ki, Ömər ibn Əbdüləzizin hakimiyyətinədək belə davam etdi. O, öz xilafəti dövründə Fədəyi Fatimənin (ə) övladlarına qaytardı..."[1084]

Bu mətnlərdən dəlil göstərdiyi *"(Əbu Bəkr) onun gəlirini götürür, ehtiyacı olduğu qədərini onlara verirdi"* sözüdür. İhsan Zahirin bu sözdən dəlil kimi istifadə etməsi yanlışdır. Çünki:

1. İbn Meysəm Bəhrani və Dənbəli Xoyi öz kitablarının bu hissəsində Fədək hadisəsi ilə bağlı fərqli fikirləri nəql etməkdədirlər. Öncə şiələrin arasında məşhur və barəsində həmfikir olduqları rəyi nəql edirlər. Bu rəy isə: Peyğəmbərin (S) Fədəyi qızı Fatiməyə (ə) hədiyyə etməsi, Əbu Bəkrin Peyğəmbərin (S) vəfatından sonra onun əlindən alması, Fatimə (ə) adam göndərib Fədəyi və atasından qalan mirası Əbu Bəkrdən tələb etməsi, Əbu Bəkrin ona bir şey verməkdən boyun qaçırması, nəticədə Xanımın ona qəzəblənməsi və bir daha danışmayacağına dair and içməsi, ona bəddua etməsi, bu halının

[1084] əd-Durrətun-Nəcəfiyyə, Dənbəli Xoyi, s. 331-332

dünyadan köçənədək davam etməsi və cənazəsinə namaz qılmağı ona qadağan etməsidir.

Ardınca isə şiənin sözünün müqabilində zəif sayılan ikinci rəyi nəql edirlər. Həmin rəy isə bundan ibarətdir: Fatimə (ə) Fədəyi tələb etdikdən sonra Əbu Bəkr ona Fədəklə Peyğəmbərin (s) rəftar etdiyi kimi rəftar edəcəyinə söz verir, Xanım (ə) bununla razılaşır və ondan vəd alır. Bu vədə Əbu Bəkr də, ondan sonra Ömər və Osman da sadiq qalırlar.

İhsan Zahirin dəlil olaraq təqdim etdiyi hissə şiənin məşhur və barəsində həmfikir olduqları nəzərin müqabilində zəif olan həmin ikinci rəyin bir parçasıdır. O, bu rəyi İbn Meysəmə və Dənbəliyə nisbət verir. Halbuki həm İbn Meysəm, həm də Dənbəli kitablarının bu bölməsində yalnız müxalif rəyi nəql ediblər. Belə ki, "Küfrü nəql edən kafir sayılmaz".

Əvvəldə də qeyd etdiyimiz kimi, İbn Meysəmin "Nəhcül-Bəlağənin şərhi" və Dənbəlinin "əd-Durrətun-Nəcətiyyə" kitabları eyni kitabdır. İkinci kitab birincinin qısaldılmış xülasəsidir. Buna o kitablardan nəql etdiyimiz həmin rəvayətin sözlərindəki eyniliklər də şahidlik edir.

İbn Meysəmlə Dənbəlinin şiənin məşhur rəyi qarşılığında nəql etdikləri fikirlər həqiqətdə İbn Əbülhədidin "Şərhu Nəhcül-Bəlağə" kitabında mürsəl olaraq (sənədsiz) yer verdiyi fikirlərdir. Onun şərhini və verdiyimiz cavabları yuxarıda qeyd etmişik.

2. Göstərilən dəlil iddiadan tam uzaqdır. Belə ki, İhsan Zahirin iddiası Öməri xümsü bölərkən ilk olaraq Əhli-Beytdən (ə) başladığı idi. Halbuki təqdim edilən dəlildə isə bildirilir ki, şiə olmayan bəzi şəxslər rəvayət edirlər ki, Əbu Bəkr Fədəyin gəlirini götürür, ehtiyacı olduğu qədərini Əhli-Beytə (ə) verirdi. Ondan sonra xəlifələr də belə etdilər. Bu sözlər iddiadan uzaqdır və bundan əlavə, Əhli-Sünnənin rəyidir. Necə ki, bunu İbn Meysəm və Dənbəli də öz kitablarında bildiriblər.

3. Bu iddia Osmanın Fədəyi Mərvana verdiyi ilə bağlı qəti dəlillərə müxalifdir. Həmçinin "Səhih"də Fədək və Xeybəri Ömərin öz əlində saxladığı, yalnız Mədinədəki Peyğəmbər (s) sədəqələrini İmam Əli (ə) ilə Abbasa verdiyini bildirən səhih rəvayətin bəyanına da ziddir. Eləcə də "Səhih"dəki digər rəvayətdə Ömərin Fədəyi, Xeybəri və Peyğəmbər (s) sədəqələrini İmam Əli (ə) ilə Abbasa yalnız idarəçilik üçün verdiyi, bu mövzuda onların arasında ciddi mübahisə baş qaldırdığı da qeyd olunur.

Buradan, möhtərəm oxucuya, İhsan Zahirin elmi bəhs qaydalarına necə əhəmiyyətsiz yanaşdığı aydın olur!

4. Ömərin zamanında dinin istiqrar tapdığı iddiası

İhsan Zahir iddia edir ki, Ömər ibn Xəttabın xilafəti zamanında din istiqrar tapdı və yer üzünə yayılmağa başladı. Buna isə dəlil olaraq İmamın (ə) "Nəhcül-Bəlağə"dəki sözlərini göstərir. Elə güman edir ki, İmam (ə) bu sözləri Ömər haqqında söyləyir və məqsədi də odur. Deyir: **"Əli ibn Əbu Talib (r) Faruqu və onun hakimiyyətini yad edir, Adəm övladlarının ağasının (Muhəmməd peyğəmbərin) gördüyü və Ömər ibn Xəttabı müjdələdiyi yuxusunun öz təsdiqini tapdığını deyir: "(Əbu Bəkrdən sonra) bir vali xalqa hakim oldu (Ömər xilafət məqamında oturdu). Beləliklə, (xilafət işini) bərpa etdi və düzgün yolda oldu, nəhayət, (dəvə istirahət edəndə boynunun qabağını yerə qoyub sakitləşdiyi kimi) din qərar tutdu".**

Şiə alimi, "Nəhcül-Bəlağə"ni şərh edən İbn Meysəm Bəhrani, eləcə də Dənbəli bu sözlərin şərhində deyirlər: "Vali Ömər ibn Xəttabdır..."

Mötəzili, şiə İbn Əbülhədid bu xütbəni qeyd edərək deyir: "Həmin vali Ömər ibn Xəttabdır. Bu, Əlinin (ə) öz xilafəti günlərində söylədiyi uzun xütbəsindədir. Orada Peyğəmbərə (s) yaxınlığını, onun yanındakı xüsusi məqamını və ona öz sirlərini açmasını danışır. Deyir: "Ondan sonra müsəlmanlar öz rəylərinə əsasən özlərindən bir nəfəri seçdilər, o, öz

zəifliyinə baxmayaraq, onları bir-birinə yaxınlaşdırdı, bacardığı qədər onları doğru yola istiqamətləndirdi. Ondan sonra bir vali onlara rəhbər oldu. Beləliklə, (xilafət işini) bərpa etdi və düzgün yolda oldu, nəhayət, (dəvə istirahət edəndə boynunun qabağını yerə qoyub sakitləşdiyi kimi) din qərar tutdu".

Sən Əliyə bax, Peyğəmbərin (s) gördüyü yuxunu hərfbəhərf təsdiq edərək bu sözlərlə Əbu Bəkri və Öməri necə vəsf edir. Faruqu o pak zatın (s) müjdələrinin hədəfi qərar verir. Dinin onun mübarək xəlifəlik dövründə yerinə oturduğunu görün necə iqrar və etiraf edir".[1085]

Cavab

Cavabdan əvvəl "Nəhcül-Bəlağə"dəki mətnin əslini, eləcə də bu sözlərə alim və şərhçilərin verdikləri izahları tam şəkildə qeyd edirik:

A. Şərif Rəzi deyir: *"İmam Əli (ə) buyurur: "(Əbu Bəkrdən sonra) bir vali xalqa hakim oldu (Ömər xilafət məqamında oturdu). Beləliklə, (xilafət işini) bərpa etdi və düzgün yolda oldu, nəhayət, (dəvə istirahət edəndə boynunun qabağını yerə qoyub sakitləşdiyi kimi) din qərar tutdu".[1086]*

B. İbn Əbülhədid özünün "Nəhcül-Bəlağə"yə yazdığı şərhində bu sözlərin izahında deyir: "əl-Ciran" – dəvənin boynunun qabağıdır, sözügedən vali Ömər ibn Xəttabdır. Bu sözlər onun öz xilafəti günlərində söylədiyi uzun xütbədəndir. Orada Peyğəmbərə (s) yaxınlığını, onun yanındakı xüsusi məqamını və ona öz sirlərini açmasını danışır. Deyir: *"Ondan sonra müsəlmanlar öz rəylərinə əsasən özlərindən bir nəfəri seçdilər, onları bir-birinə yaxınlaşdırdı, bacardığı qədər onları istiqamətləndirdi. Ondan sonra bir vali onlara rəhbər oldu. Beləliklə, zorakılıq və kobudluqla (xilafət işini) bərpa etdi və düzgün oldu, nəhayət, (dəvə istirahət edəndə boynunun qabağını yerə qoyub sakitləşdiyi kimi) din qərar tutdu. Sonra üçüncü*

[1085] Şiə və Əhli-Beyt, s. 92-93

[1086] Nəhcül-Bəlağə, c. 3 (4), s. 107, kəlam 459; Xəsaisul-əimmə, Şərif Rəzi, s. 124

barədə ixtilafa düşdülər. Özü heç bir işə sahib çıxa bilmədi. Ailəsi ona üstünlük qurdu, ağzına yüyən bağlanmış dəvə balası idarə edildiyi kimi öz istəklərinə uyğun onu idarə etdilər. Onunla camaatın arasındakı məsələlər gah uzaqlaşdı, gah da yaxınlaşdı. Nəhayət onun üzərinə qalxdılar və qətlə yetirdilər. Sonra su axıb çuxura gəldiyi kimi yanıma gəlib mənə beyət etmək istədilər".

Xütbənin tam mətni məşhurdur".[1087]

C. "Həmçinin İbn Meysəm Bəhrani də "Nəhcül-Bəlağə"dəki bu sözləri şərh edərək deyir: "Nəql olunur ki, vali Ömər ibn Xəttabdır. Bu sözlər öz xilafəti dövründə söylədiyi uzun xütbədəndir. Orada Peyğəmbərə (s) yaxınlığını, onun yanındakı xüsusi məqamını və ona öz sirlərini açmasından danışır. Deyir: *"Ondan sonra müsəlmanlar öz rəylərinə əsasən özlərindən bir nəfəri seçdilər, onları bir-birinə yaxınlaşdırdı, özündə olan zəiflik və ciddiliyi ilə bacardığı qədər onları istiqamətləndirdi. Ondan sonra bir vali onlara rəhbər oldu. Özündə olan zorakılıq və kobudluqla (xilafət işini) bərpa etdi və düzgün oldu, nəhayət, (dəvə istirahət edəndə boynunun qabağını yerə qoyub sakitləşdiyi kimi) din qərar tutdu. Sonra üçüncü barədə ixtilafa düşdülər. Özü heç bir işə sahib çıxa bilmədi. Ailəsi ona üstünlük qurdu, ağzına yüyən bağlanmış dəvə balası idarə edildiyi kimi öz istəklərinə uyğun onu idarə etdilər. Onunla camaatın arasındakı məsələlər gah uzaqlaşdı, gah da yaxınlaşdı. Nəhayət onun üstünə qalxdılar və qətlə yetirdilər. Sonra su axıb çuxura gəldiyi kimi yanıma gəlib mənə beyət etmək istədilər".*

Xütbə uzundur. "əl-Ciran" – dəvənin boynunun qabağıdır, burada istifadə edilməsində məqsəd dəvə istirahət edəndə boynunun qabağını yerə qoyub sakitləşdiyi kimi dinin qərar tutması və yayılmasıdır".[1088]

Ç. İbrahim ibn Həsən Xoyi "əd-Durrətun-Nəcəfiyyə" kitabında "Nəhcül-Bəlağə"dəki bu sözlərin şərhində yazır: "Nəql olunur ki, vali Ömər ibn Xəttabdır. Bu sözlər (İmam Əlinin) öz xilafəti dövründə söylədiyi uzun xütbədəndir. Orada

[1087] Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid, c. 20, s. 219

[1088] Şərhu Nəhcül-Bəlağə, İbn Meysəm Bəhrani, c. 5, s. 463

Peyğəmbərə (s) yaxınlığını, onun yanındakı xüsusi məqamını və ona öz sirlərini açmasından danışır. Deyir: *"Ondan sonra müsəlmanlar öz rəylərinə əsasən özlərindən bir nəfəri seçdilər, onları bir-birinə yaxınlaşdırdı, özündə olan zəiflik və ciddiliyi ilə bacardığı qədər onları istiqamətləndirdi. Ondan sonra bir vali onlara rəhbər oldu. Özündə olan zorakılıq və kobudluqla (xilafət işini) bərpa etdi və düzgün oldu, nəhayət, (dəvə istirahət edəndə boynunun qabağını yerə qoyub sakitləşdiyi kimi) din qərar tutdu. Sonra üçüncü barədə ixtilafa düşdülər. Özü heç bir işə sahib çıxa bilmədi. Ailəsi ona üstünlük qurdu, ağzına yüyən bağlanmış dəvə balası idarə edildiyi kimi öz istəklərinə uyğun onu idarə etdilər. Onunla camaatın arasındakı məsələlər gah uzaqlaşdı, gah da yaxınlaşdı. Nəhayət onun üzərinə qalxdılar və qətlə yetirdilər. Sonra su axıb çuxura gəldiyi kimi yanıma gəlib mənə beyət etmək istədilər".*

Xütbə uzundur. "əl-Ciran" – dəvənin boynunun qabağıdır, burada istifadə edilməsində məqsəd dəvə istirahət edəndə boynunun qabağını yerə qoyub sakitləşdiyi kimi dinin qərar tutması və yayılmasıdır".[1089]

E. Darəqutni "İləl" kitabında yazır: "Əlidən Əmr ibn Süfyanın sözü barədə soruşulduqda dedi: "Ey camaat, Peyğəmbər (s) bu xilafət məsələsində bizə istinad edəcəyimiz heç bir vəsiyyət etmədən dünyadan köçdü. Sonra Əbu Bəkr öz rəyi ilə Öməri xəlifə təyin etdi. O, (xilafət işini) bərpa etdi və düzgün oldu, nəhayət, din qərar tutdu".

Deyir: Bu Əsvəd ibn Qeysin rəvayət etdiyi hədisdir və onun barəsində ixtilaf var.

Bunu Əbu Davud Həfəri Asim ibn Numandan (o, İbn Əbu Xalid ibn İsmail ibn Əbu Xaliddir), o da Sovridən, o da Əsvəd ibn Qeysdən, o da Əmr ibn Süfyandan, o da Əlidən rəvayət edib.

Asimin atası bunda ixtilaf etmiş, Sovridən, o da Əsvəd ibn Qeysdən, o da Səid ibn Əmr ibn Süfyandan və o da atasından rəvayət etmişdir.

[1089] əd-Durrətun-Nəcəfiyyə, Dənbəli Xoyi, c. 2, s. 393

Həmçinin bunu Yəhya ibn Yəman Sovridən, o da Əsvəd ibn Qeysdən, o da Süfyan ibn Əmrdən və ya Əmr ibn Süfyandan rəvayət etmişdir.

Əbdüssəməd ibn Həssan Sovridən rəvayət etmiş, ancaq sənədini verməmişdir. Orada deyir: Süfyan bir nəfərdən, o da Əsvəddən, o da Əlidən rəvayət edir.

Eləcə də Əbu Yəhya Həmmani və Əbdürrəzzaq Sovridən, o da Əsvəd ibn Qeysdən, o da adını çəkmədiyi bir nəfərdən, o da Əlidən nəql edib.

Həmçinin Şərik Əsvəd ibn Qeysdən, o da adının çəkmədiyi bir şeyxdən, o da Əlidən rəvayət edir.

Əbsər də Sovridən, o da Səvvardan, o da Əsvəd ibn Qeysdən, o da atasından, o da Əlidən nəql edib.

Mərvan Fəzari öz şeyxi Musavirdən, o da Əmr ibn Süfyandan mürsəl olaraq (sənədsiz), o da Əlidən rəvayət edir.

Sovri (r) bu rəvayətdə dağınıqlığa yol verib, sənədini sabit söyləməyib.

Bunu bizə Əhməd ibn Muhəmməd ibn Sədan, ona Şüeyb ibn Əyyub rəvayət edir. Deyir: Əbu Davud Həfəri Asim ibn Numandan, o da Süfyandan, o da Əsvəd ibn Qeysdən, o da Əmr ibn Süfyandan nəql edir: “Cəməl günü Əli Süfyanın oğluna (Müaviyə) üstün gəldikdə dedi: “Ey camaat, Peyğəmbər (s) bu xilafət məsələsində bizə istinad edəcəyimiz heç bir vəsiyyət etmədən dünyadan köçdü. Ta ki, Əbu Bəkrin rəyə əsasən xəlifə olduğunu gördük. O, (xilafət işini) bərpa etdi və düzgün oldu, nəhayət, din qərar tutdu. Sonra bir dəstə adam bu dünyanı istədi. Allah həmin məsələlər barədə hökm etdi”.

Əbu Ömər Qazi Muhəmməd ibn Əhməd ibn Cüneyddən, o da Hüseyn ibn İsmail Muhamilidən, o da Muhəmməd ibn Cəvvandan, o da Asim ibn Süfyandan, o da Əsvəd ibn Qeysdən, o da Səid ibn Əmr ibn Süfyandan, o da atasından nəql edir: “Əli xütbə söyləyərək dedi: “Peyğəmbər (s) bu xilafət məsələsində bizə istinad edəcəyimiz heç bir vəsiyyət etmədi. Lakin rəyə əsasən Əbu Bəkrin xəlifə olduğunu gördük. O, (xilafət işini) bərpa etdi və düzgün oldu. Sonra Ömər xəlifə oldu. O, (xilafət işini) bərpa etdi və düzgün oldu, nəhayət, din qərar tutdu”. İbn

Cəvvan deyir: “İbn Cüneyd bu sözləri əlavə edir: “Sonra bir dəstə adam bu dünyanı istədi. Allah dilədiyini bağışladı, dilədiyinə isə əzab verdi”.

Əhməd ibn Muhəmməd ibn Sədan Şüeybdən, o da Əbu Yəhya Həmmanidən, o da Süfyandan, o da Əsvəd ibn Qeysdən, o da bir nəfərdən, o da Əlidən rəvayət edir: “Peyğəmbər (s) bu xilafət məsələsində bizə istinad edəcəyimiz heç bir vəsiyyət etmədi. Lakin bir rəy irəli sürüldü. Əgər düzgündürsə, Allahdandır, əgər yanlışdırsa səbəbkar özümüzük. Əbu Bəkr xəlifə oldu. O, (xilafət işini) bərpa etdi və düzgün oldu. Sonra Ömər xəlifə oldu, o da (xilafət işini) bərpa etdi və düzgün oldu. Sonra din qərar tutdu. Ardınca bir dəstə adam bu dünyanı istədi. Allah dilədiyini əvf etdi, dilədiyinə isə əzab verdi”.

Əbu Ömər Qazi Əhməd ibn Mənsurdan və Həsən ibn Yəhyadan (nəql Əhməddəndir), o da Əbdürrəzzaqdan nəql edir ki, Süfyan Sovri bizə xəbər verdi ki, Əsvəd ibn Qeys bir nəfərdən, o da Əlidən rəvayət edir ki, Cəməl savaşı günü buyurdu: “Peyğəmbər (s) xilafət məsələsində bizə istinad edəcəyimiz heç bir vəsiyyət etmədi. Lakin özümüzdən bir rəy irəli sürüldü. Əgər düzgündürsə, Allahdandır, əgər xətadırsa səbəbi özümüzük. Əbu Bəkr xəlifə oldu. Allahın rəhməti Əbu Bəkrə olsun. O, (xilafət işini) bərpa etdi və düzgün oldu. Sonra Ömər xəlifə oldu. Allah ona rəhm etsin. O da (xilafət işini) bərpa etdi və düzgün oldu, nəhayət, din qərar tutdu. Ardınca bir dəstə adam bu dünyanı istədi. Allah dilədiyi üçün bağışladı (və ya belə dedi: dilədiyini bağışladı), dilədiyinə isə əzab verdi”.[1090]

Bu mətnləri nəql etdikdən sonra deyirik:

İhsan Zahirin “Nəhcül-Bəlağə”dəki kəlamı və şərhçilərin sözlərini dəlil göstərməsi bir neçə səbəbdən batildir. Çünki:

“Nəhcül-Bəlağə”dəki kəlam; orada Ömər barədə bir qeyd və həmin sözlərdəki məqsədin məhz o olduğuna dair heç bir dəlil yoxdur. Əksinə, məqsədin Ömər

[1090] İləl, Daraqutni, c. 4, s. 83-88

olması mümkünsüzdür. Çünki məhz həmin kitabda İmamın (ə) açıq-aydın kəlamlarına əsasən, Ömərin düzgün olmadığı bildirilir. Belə ki, buyurur: *"Çox heyrətamiz və təəccüblüdür ki, sağlığında xalqdan beyətinin geri götürülməsini istəyir. Ancaq ölümünə bir neçə gün qalmış xəlifəliyə Öməri vəsiyyət edir. Bu iki qarətçi xilafəti dəvənin iki döşü kimi öz aralarında böldülər* (dəvənin bir döşünü Əbu Bəkr, digərini isə Ömər öz əlinə götürüb sağdılar, dəvənin sahibini isə ondan məhrum etdilər). (Beləliklə, Əbu Bəkr xilafəti) *hamar olmayan, sərt yerdə yerləşdirdi* (Öməri özündən sonra xəlifə etdi), *halbuki Ömər sərt və acıdil idi, onunla görüş əziyyət verici idi və* (dini məsələlərdə) *səhvləri,* (verdiyi səhv fətvalara görə) *etdiyi üzürxahlıqları saysız-hesabsız idi. Onunla ünsiyyət* (həm İmamın, həm başqalarının onunla ünsiyyəti) *cilovunu bərk tutduqda burnunu yaralayıb dağıdan, cilovunu boş tutub, öz başına buraxdıqda isə süvarisini həlak edən dikbaş, itaətsiz dəvəyə minmək kimi idi. Allaha and olsun, onun vaxtında camaat çətinliyə düçar olaraq, səhvə yol verdi və doğru yola qədəm qoymadan haqdan uzaqlaşdı. Mən də bu uzun müddətdə* (on il altı ay) *dözdüm və ağır möhnətlə, qəmlə yoldaş oldum.*

Ömər də öz yolunun sonuna yetişdi (və libası tərk etməzdən öncə) xilafət məsələsini, məni də onlardan biri güman etdiyi bir neçə adamın arasında ortaya qoydu. Pərvərdigara, təşkil olunmuş şuradan və etdikləri məşvərətdən sənə pənah gətirirəm. Camaat məni necə Əbu Bəkrə bərabər tutub, mənə şəkk-şübhə ilə yanaşdı? İş o yerə çatdı ki, o gün belə şəxslərlə (şura üzvü olan beş nəfərlə) bir sırada dayandım".[1091]

İmamın (ə) dəlil göstərilən sözlərindən məlum olur ki, ərəb dilindəki mətndə "o" şəxs əvəzliyi Peyğəmbərə (s) yönəlib. Necə ki, bunu "Nəhcül-Bəlağə"ni şərh edən Şeyx Muhəmməd Əbdəh də qeyd edir. Həmin kəlamın şərhində deyir: "əl-Ciran" – "əl-kitab" vəznindədir, dəvənin boynunun qabağıdır. Dəvə istirahət etmək üçün boynunu yerə uzadır. Bu söz isə bir şeyin qərarlaşmasına eyhamdır.

[1091] Nəhcül-Bəlağə, xütbə 3, "Şiqşiqiyyə" xütbəsi

Validə məqsədi isə Peyğəmbərdir (s). Müsəlmanların işlərinə, siyasət və şəriətlərinə rəhbərlik etdi. Kimlərsə bunun Ömər ibn Xəttab olduğunu söyləyiblər".[1092]

Həmçinin oradakı şəxs əvəzliyinin işarə əvəzliyi olaraq müsəlmanların əvvəlki fərdlərinə də aid edilməsi mümkündür.

Dənbəlinin "əd-Durrətun-Nəcəfiyyə" kitabındakı mətnə gəldikdə, bu İbn Meysəm Bəhraninin "Şərhu Nəhcül-Bəlağə" kitabının xülasəsidir. Onun kitabındakı cümlələr İbn Meysəmin kitabındakı cümlələrlə eynidir. Onlar hər iki mətndə məqsədin Ömər olduğunu söyləməyiblər. Sadəcə həmin rəyləri nəql ediblər. Belə ki, "Küfrü nəql edən kafir sayılmaz". Onların nəql etdikləri rəy isə İbn Əbülhədidindir. Bunun dəlili isə onların mətni ilə İbn Əbülhədidin mətninin uyğunluq təşkil etməsidir.

İbn Əbülhədidin mətndəki məqsədin Ömər ibn Xəttab olmasına dair sözlərinə gəldikdə, onun istinadı yalnız Əmr ibn Süfyanın Əlidən (ə) nəql etdiyi hədisdir ki, bunu da Daraqutni özünün "İləl" kitabında müxtəlif yollarla nəql edir. Xüsusilə, diqqət yetirilməlidir ki, İbn Əbülhədid bu sözlərin Əmr ibn Süfyanın sözlərinin bir parçası olduğu fikrinə əsaslanaraq "Nəhcül-Bəlağə"yə nisbət verir. Demək, bu sözlərin əsli Əmr ibn Süfyanın hədisindəndir. O da bu yerdə Əhli-Sünnədən olan Əmr ibn Süfyanın sözlərini dəlil göstərib.

"Nəhcül-Bəlağə"nin bir çox yerində İmam Əli (ə) adlarını çəkmədən öz əshabını mədh edir. Bu qəbildən olan sözləri: *"Keçmiş zamanlarda mənim Allah yolunda (Əbuzər Qəffari və ya Osman ibn Məz'un adlı) bir qardaş və dindaşım var idi ki, dünyanın onun gözündə kiçik olması, onu mənim gözümdə böyüdürdü. Qarnı ona hakim deyildi. Beləliklə, tapmadığı şeyi arzulamır, tapanda isə onu çox işlətmirdi..."*[1093]

[1092] İləl, Daraqutni, c. 1, s. 32-33, Şeyx Muhəmməd Əbdəhin təhqiq və şərhilə

[1093] Nəhcül-Bəlağə, hikmət 281 (286)

İmamın (ə) dəlil göstərilən parçadakı vəsflərində məqsədin bu və ya digər səhabəsi olduğunu söyləmək boş iddiadan başqa bir şey olmayacaq. Yalnız buna məxsusi bir işarə olması halı istisnadır.

Buna əsasən, İmamın (ə) ümumi sözlərini müəyyən bir şəxsə aid etmək doğru deyil. Xüsusilə də, "Nəhcül-Bəlağə"də barəsində məzəmmət edən sözlər söylənmiş şəxslərə aid edilməz.

5. Ömərin dinin izzət tapmasına, İslamın yüksəlməsinə və müsəlmanların əzəmətlənməsinə səbəb olduğu iddiası

İhsan Zahir iddia edir ki, Ömər dinin izzətlənməsinə, İslamın yüksəlməsinə və müsəlmanların əzəmət tapmasına səbəb olmuşdur. Bu sözlərinə isə "Nəhcül-Bəlağə"dən dəlil göstərmişdir. Elə güman etmişdir ki, həmin sözlərdə məqsəd məhz Ömərdir. Deyir: **"Nəhcül-Bəlağə"də Əlidən nəql olunan nə qədər xütbə var ki, buna dəlalət edir... ki, Faruq dinin izzətlənməsinə, İslamın yüksəlməsinə, müsəlmanların əzəmət tapmasına və İslam ölkəsinin genişlənməsinə səbəb olmuşdur... Peyğəmbərin əmisi oğluna, iki nəvəsinin atasına fikir verin ki, Öməri necə mədh edir. O deyir: "Allah filankəsin şəhərlərinə bərəkət versin və qorusun ki, o, əyriliyi düzəltdi, xəstəliyi müalicə etdi, sünnəni bərqərar etdi və fitnə-fəsadı arxaya atdı. Dünyadan pak paltar və az eyblə getdi. Onun xeyrini əldə etdi və şərini qabaqladı. Allahın itaətini yerinə yetirərək itaətsizlikdən çəkinib Onun haqqını əda etdi. O (dünyadan) köçdü, (lakin) onları (müsəlmanları) elə haçalanmış yollarda qoyub getdi ki, o yollarda yolunu azan hidayət, hidayət edilmiş isə yəqinlik tapmaz". (Nəhcül-Bəlağə, Sübhi Salehin təhqiqi ilə, s. 350; Nəhcül-Bəlağə, Muhəmməd Əbdəhin təhiqiqi ilə, c. 2, s. 9322)**

İbn Əbülhədid deyir: "Filankəs sözü ilə Ömər ibn Xəttaba işarə edilib. Mən "Nəhcül-Bəlağə"ni toplayan Əbülhəsən Rəzinin nüsxəsini gördüm, orada filankəs sözünün altında Ömər yazılmışdı. Bu barədə Əbu Cəfər

Yəhya ibn Əbu Zeyd Ələvidən soruşduqda mənə filankəsin Ömər olduğunu dedi. Dedim: "Möminlərin əmiri (ə) onu tərifləyir?" Dedi: "Bəli". (Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid, c. 3, s. 92, cüz 12)

Eyni sözləri İbn Meysəm də qeyd edir (bax: "Nəhcül-Bəlağə"nin şərhi, İbn Meysəm, c. 4, s. 96-97). Eləcə də Dənbəli "əd-Durrətun-Nəcəfiyyə"də (s. 257) və kitabın farsca şərhində (c. 4, s. 712)".[1094]

Cavab

İhsan Zahirin "Nəhcül-Bəlağə"dən və kitabın şərhçilərindən gətirdiyi dəlil batildir. Sizə "Nəhcül-Bəlağə"dəki mətni və şərhçilərin sözlərini təqdim edirik:

A. "Nəhcül-Bəlağə"dəki mətn

Seyyid Rəzi deyir: "İmamın (ə) kəlamlarından: *"Allah filankəsin şəhərlərinə bərəkət versin və qorusun ki, o, əyriliyi düzəltdi, xəstəliyi müalicə etdi, fitnə-fəsadı arxaya atıb sünnəni bərqərar etdi. Dünyadan pak paltar və az eyblə getdi. Onun xeyrini əldə etdi və şərini qabaqladı. Allahın itaətini yerinə yetirərək itaətsizlikdən çəkinib Onun haqqını əda etdi. O (dünyadan) köçdü, (lakin) onları (müsəlmanları) elə haçalanmış yollarda qoyub getdi ki, o yollarda yolunu azan hidayət, hidayət edilmiş isə yəqinlik tapmaz".*[1095]

Bu sözlər özlüyündə qısa və icmalidir, "filankəs" deyə işarə edilən şəxs barədə tərif və mədh xüsusiyyəti daşıyır. Lakin mühüm olan, İmama (ə) nisbət verilən bu sözlərin səhihliyidir ki, o həqiqətən bu sözləri söyləyib, ya yox. Heç bir şiə alimi "Nəhcül-Bəlağə" kitabının tənqiddən münəzzəh və hədis elminin qanunlarından kənarda olduğunu iddia etməyib. Seyyid Rəzi isə kitabında nəql etdiyi mətnlərin mənbələrinin haradan olduğunu və ya kimlərdən rəvayət etdiyini açıqlamayıb. Həmçinin kitab hədis deyil, ədəbiyyat və bəlağət mənbəyi sayılır.

[1094] Şiə və Əhli-Beyt, s. 93-94

[1095] Nəhcül-Bəlağə, İmam Əlinin (ə) xütbəsi, c. 2, s. 222, Şeyx Muhəmməd Əbdəhin təhqiqi ilə

Mühüm məsələlərdən biri də barəsində "filankəs" deyə söhbət açılan şəxsin kimliyidir. İmama (ə) nisbət verilən sözlərdə bu şəxsin kimliyinə ən kiçik bir işarə belə yoxdur. Oradakı vəsfləri bir çox şəxsə tətbiq etmək mümkündür. Bunu bir şəxsə aid etmək boş zəndən savayı bir şey deyil.

Həmin sözlərdəki məqsədin Ömər və ya Əbu Bəkr olması mümkün deyil. Çünki "Nəhcül-Bəlağə"nin özündə və bir çox mətndə onların doğru-düzgün xəlifə olmadıqları açıq qeyd edilib, onlar və onların xəlifəlik dövrləri məzəmmət olunub. Bunlardan biri İmamın (ə) aşağıdakı sözləridir: *"Agah ol! Allaha and olsun ki, filankəs mənim xəlifəlik üçün dəyirmanın orta qütbü kimi olduğumu bildiyi halda xəlifəliyi köynək kimi əyninə geydi. Elm və maarif mənim feyz bulağımda sel tək çağlar, elm və bilik səmasında qanad çalanların heç biri mənim zirvəmə çata bilməz. Sonra (Əbu Qühafənin oğlu xəlifəlik köynəyini haqsız yerə geydiyinə və camaat onu təbrik etdiyinə görə) xəlifəlik köynəyini soyunub, ondan kənara çəkildim. Öz işlərim barəsində fikirləşdim ki, əlsiz (ordu və tərəfdarsız) hücum edim (öz haqqımı tələb edim), yoxsa qocaları həlak edən, gəncləri solduran və qocaldan, möminlərin (fəsadın aradan qalxması üçün) ölüncəyə qədər əziyyət çəkdiyi kor qaranlığa (xalqın azğınlığına) səbr edim. Səbr etməyin ağıllı iş olduğunu görüb, gözlərimi toz, çör-çöp, boğazımı isə sümük tutduğu halda səbr etdim. Mirasımın tarac olunduğunu görürdüm.*

Birincisi (Əbu Bəkr) öz yolunun sonuna çatıb xəlifəliyi – özündən sonra İbn Xəttabın (Ömərin) boynuna atdı. Çox heyrətamiz və təəccüblüdür ki, sağlığında xalqdan beyətinin geri götürülməsini istəyir, ancaq ölümünə bir neçə gün qalmış xəlifəliyə Öməri vəsiyyət edir. Bu iki qarətçi xilafəti dəvənin iki döşü kimi öz aralarında böldülər (dəvənin bir döşünü Əbu Bəkr, digərini isə Ömər öz əlinə götürüb sağdılar, dəvənin sahibini isə ondan məhrum etdilər). (Beləliklə, Əbu Bəkr xilafəti) hamar olmayan, sərt yerdə yerləşdirdi (Öməri özündən sonra xəlifə etdi), halbuki Ömər sərt və acıdil idi, onunla görüş əziyyət verici idi və (dini məsələlərdə) səhvləri, (verdiyi səhv fətvalara görə) etdiyi üzürxahlıqları saysız-hesabsız idi.

Onunla ünsiyyət (həm İmamın, həm başqalarının onunla ünsiyyəti) cilovunu bərk tutduqda burnunu yaralayıb dağıdan, cilovunu boş tutub, öz başına buraxdıqda isə süvarisini həlak edən dikbaş, itaətsiz dəvəyə minmək kimi idi. Allaha and olsun, onun vaxtında camaat çətinliyə düçar olaraq səhvə yol verdi və doğru yola qədəm qoymadan haqdan uzaqlaşdı. Mən də bu uzun müddətdə (on il altı ay) dözdüm və ağır möhnətlə, qəmlə yoldaş oldum.

Ömər də öz yolunun sonuna yetişdi (və libası tərk etməzdən öncə) xilafət məsələsini, məni də onlardan biri güman etdiyi bir neçə adamın arasında ortaya qoydu. Pərvərdigara, təşkil olunmuş şuradan və etdikləri məşvərətdən sənə pənah gətirirəm. Camaat məni necə Əbu Bəkrə bərabər tutub, mənə şəkk-şübhə ilə yanaşdı? İş o yerə çatdı ki, bu gün belə şəxslərlə (şura üzvü olan beş nəfərlə) bir sırada dayandım. Bununla belə (yenə də səbr edib şurada iştirak etdim) enişyoxuşlarda onların ardınca getdim (məsləhətə görə, hər yerdə onlarla razılaşdım). Beləliklə, onlardan biri paxıllıq və kininə görə haqdan əl çəkərək batil yola qədəm qoydu, başqa birisi Osmanın kürəkəni və qohumu olduğundan məndən üz döndərdi. Başqa iki nəfərinsə (Təlhə ilə Zübeyr rəzalət və alçaqlığına görə) adını çəkmək rüsvayçılıqdır.

(Ömərin ölümündən sonra, onun göstərişi ilə yaradılan şurada) qövmün üçüncüsü (Osman) ayağa qalxdı. Yeyib bayıra getməkdən (çox yeyib-içməkdən şişən dəvə kimi) hər iki tərəfini şişirtmişdi və onun atalarının övladları da (onun qohumu olan Əməvilər) onunla əlbir idilər. Onun dolaşıq ipi çözülənə qədər iştahlı dəvə bahar otlarının hamısını yediyi kimi Allahın malını (müsəlmanların beytül-malını) yeyirdilər. Rəftarı qətlinin tezləşməsinə, qarnının doluluğu devrilməsinə səbəb oldu.

(Osmanın öldürülməsindən) sonra kaftarın boynunun tükü tək camaatın məni dövrəyə almasından başqa heç nə məni bu çətin və böyük işə vadar etmədi. Hər tərəfdən üstümə elə hücum çəkdilər ki, izdihamdan, camaatın çoxluğundan Həsən

və Hüseyn ayaq altında qaldılar. Paltarım və əbam hər iki tərəfdən cırıldı, (beyət etmək üçün) qoyun sürüsü kimi məni dövrəyə aldılar".[1096]

Həmçinin İmam Əlinin (ə) Malik Əştəri Misirə vali təyin edəndə onunla Misir əhalisinə göndərdiyi məktubundakı sözləri: *"Allaha həmd və Həzrət Peyğəmbərə salamdan sonra! Nöqsan sifətlərdən pak və uzaq olan Allah Muhəmmədi (s) bəşəriyyəti (ilahi əzabdan) qorxudan və (insanların nicatı üçün Allah tərəfindən göndərilmiş) peyğəmbərlərə şahid kimi göndərmişdir. O (s) vəfat etdikdən sonra müsəlmanlar xilafət barəsində çəkişmə və qalmaqala düşdülər. Allaha and olsun ki, qəlbimə gəlmir və fikrimdən belə keçmirdi ki, ərəblər ondan (s) sonra xilafəti Əhli-Beytindən başqa birinə həvalə edəcək və ondan (s) sonra xilafəti məndən əsirgəyəcəklər. Məni camaatın beyət etmək üçün filankəsə (Əbu Bəkrə) tərəf tələsmələrindən başqa bir şey narahat etmədi (və ya təəccübləndirmədi). Beləliklə, (həmin vəziyyətdə) əl saxladım (onları öz ixtiyarlarına buraxdım). Nəticədə camaatın bir dəstəsinin dindən dönərək mürtəd olduqlarını və İslamdan qayıdaraq Muhəmmədin (s) dinini məhv etmək istədiklərini gördüm. Qorxdum ki, İslam və müsəlmanların köməyinə başlamasam, onda nöqsan və dağıntı (yaranmasını) görərəm, onun müsibət və kədəri mənim üçün, nəticəsi (susuz adamın su sandığı) ilğım kimi (yaxınlaşanda) yoxa çıxan və ya bulud kimi səpələnən bir neçə günlük müvəqqəti mal olan sizə hakimlik və vilayəti əldən çıxarmaqdan daha ağır olar".*[1097]

İmamın (ə) Əbu Bəkr və Ömərin xilafətləri barədə bu açıq və geniş sözlərinin müqabilində qısa və icmali, (filankəs sözüylə) nəzərdə tutulan şəxsi məlum olmayan mədh bildirən kəlamını onlara (Əu Bəkr və Ömərə) aid etmək mümkün deyil. Xüsusilə də, İmamiyyə məzhəbinin əqidəsinə əsasən, həmin şəxslər tənqid obyekti olduqları nəzərə alınsa, Əhli-Beytin (ə) məsum və pak üzvlərindən İmam Əliyə (ə) edilən zülmlərin, ilk iki xəlifə ilə Qüreyşin ona qarşı ayağa qalxması barədə mütəvatir hədislərin müqabilində bu filankəsin Ömər olduğunu söyləmək

---

[1096] Nəhcül-Bəlağə, İmam Əlinin (ə) "Şiqşiqiyyə" xütbəsi, c. 1, s. 32-33

[1097] Nəhcül-Bəlağə, 62-ci məktub, c. 3, s. 118-121

əsla doğru deyil. İmam Əlinin (ə) "Nəhcül-Bəlağə"dəki sözlərindən: *"Mənim Qüreyşlə nə işim var? (Onların mənimlə düşmənçiliyinin səbəbi nədir?) Allaha and olsun, (onlarla müharibə etməkdə məqsədim budur ki,) kafir (müşrik) olduqları vaxt onlarla döyüşdüm və haqq yolundan dönərək fitnə-fəsad yolunu tutduqları indiki vaxtda da onlarla döyüşürəm. Mən dünən (Peyğəmbərin sağlığında müharibələrdə) onlara yol yoldaşı olduğum kimi (müqavimət göstərirdim) bu gün də onlarlayam. Allaha and olsun ki, Allah bizi Qüreyşdən üstün tutduğu və onları itaətimizə daxil etdiyi üçün bizdən intiqam alırlar".*[1098]

B. İbn Əbülhədidin sözləri

İbn Əbülhədid qeyd edilən kəlamın şərhində deyir: "Filankəs" sözü ilə Ömər ibn Xəttaba işarə edilib. Mən "Nəhcül-Bəlağə"ni toplayan Əbülhəsən Rəzinin nüsxəsində "filankəs" sözünün altında Ömər yazıldığını gördüm. Bunu mənə şair Fəxxar ibn Muidd Musəvi Əvdəi də söylədi.

Bu barədə Əbu Cəfər Yəhya ibn Əbu Zeyd Ələvidən soruşduqda mənə "filankəsin" Ömər olduğunu dedi. Dedim: "Möminlərin əmiri (ə) onu belə sözlərlə tərifləyir?"

Dedi: "Bəli. İmamiyyə şiələri deyirlər ki, bu sözlər təqiyyə məqsədilə, səhabələri islah etmək üçün söylənib. Zeydiyyənin səlahiyyətli şəxsləri isə deyirlər: "Həqiqətən də onu tərifləyir. İmam (ə) tərifi yalnız öz yerində və öz miqdarında söyləyər". Zeydilərdən olan Carudiyyələr deyirlər: "Bu, Osman haqqında dediyi sözlərdir ki, bununla özünü qınaqdan qurtarmaq istəyir. Necə ki, bir rəhbər özündən əvvəlki ölmüş rəhbəri sağlığında tərifləyir, amma həmin sözləri eyham mənası daşıyır.

Ona dedim: "Ancaq hazırkı rəhbərin özündən əvvəlkini tərifləməsi və ya eyham etməsi icazəli deyil. Yalnız o zaman mümkündür ki, həmin tərif barəsində heç bir şəkk və şübhə olmayan bir həqiqət olsun. Əgər İmam onun sünnəni

[1098] Nəhcül-Bəlağə, xütbə 33

bərqərar etdiyini və dünyadan təmiz paltarla köçdüyünü, az eybi olduğunu, Allahın itaətini yerinə yetirərək itaətsizlikdən çəkinib, Onun haqqını əda etdiyini etiraf edirsə, bu, həqiqi tərif olur, bununla da özündən əvvəlki Osman ibn Əffana məzəmmət nöqteyi-nəzərindən eyham vurduğu iddiası puç olur.

Mənə heç bir cavab vermədi, yalnız sənə söylədiklərimi dedi.

Ravəndi isə bu kəlamın şərhində deyir: "İmam (ə) özünün bəzi əshabını gözəl davranışlarına görə tərifləyir. Sözügedən fitnə isə Peyğəmbərdən (s) sonra baş verən xəlifə seçimi və mübahisələrdir.

Bu, uzaq rəydir. Çünki Möminlərin əmirinin (ə) sözlərindən onun təqva sahibi və əməlisaleh bir valini tərifl ədiyi aydın anlaşılır. Sən onun necə vəsf etdiyini görmürsənmi: "...əyriliyi düzəltdi, xəstəliyi müalicə etdi, sünnəni bərqərar etdi və fitnə-fəsadı arxaya atdı". Həmçinin: "Onun xeyrini əldə etdi və şərini qabaqladı"; "Allahın itaətini yerinə yetirərək itaətsizlikdən çəkinib..."; "O, (dünyadan) köçdü, (lakin) onları (müsəlmanları) elə haçalanmış yollarda qoyub getdi ki..."

Məgər "onları" əvəzliyi rəyətə işarə etmirmi? Bu sözləri insanları idarə edən şəxsdən başqasına şamil etmək mümkündürmü? Peyğəmbərdən (s) öncə dünyadan köçmüş rəhbərlərin isə heç bir (ilahi) dəlilləri yox idi.

Bu sözlərdə Peyğəmbərdən (s) öncə vəfat etmiş və ya öldürülmüş Osman ibn Məzun, Musəb ibn Ümeyr, Həmzə ibn Ədbülmüttəlib Übeydə ibn Haris və ya digərləri kimi şəxslər də nəzərdə tutulması düzgün deyil.

Bu cür mənasız yozumlar məni təəccübləndirmir. Əbu Cəfər Muhəmməd ibn Cərir Təbərinin bəyan etdiyi sözlər də bu kəlmələrdəki mənanın Ömər ibn Xəttab olduğunu göstərir. Təbəri deyir: "Ömər öldükdə qadınlar onun üçün ağladılar. Həmin qadınlardan biri deyirdi: "Ömərə görə hüzndəyik, bu hüzn bütün bəşərə yayılıb". Əbu Həssəmənin qızı deyir: "Vah Ömərcan! Əyriliyi düzəltdi, xəstəliyi müalicə etdi, fitnə-fəsadı arxaya atdı və sünnəni bərqərar etdi, dünyadan təmiz libasla və eyiblərdən uzaq şəkildə köçdü".

Təbəri deyir: “Saleh ibn Keysan Müğeyrə ibn Şöbədən rəvayət edir: “Ömər dəfn olunduqdan sonra Əlinin (ə) yanına gəldim. Ondan Ömər barədə bir şey eşitmək istəyirdim. Saçını və saqqalını silkələyər halda qarşıma çıxdı. O, yenicə qüsl almış və libasına bürünmüşdü. Şübhə yox idi ki, bu məsələ (xilafət) ona keçəcəkdi. Dedi: “Allah Xəttabın oğluna rəhmət etsin. Əbu Həssəmənin qızı düz söylədi: “Onun xeyrini götürdü və şərindən nicat tapdı”.

Gördüyünüz kimi, bu sözlər o kəlamdakı məqsədin Ömər ibn Xəttab olduğu zənnini bir daha qüvvətləndirir”.[1099]

İhsan Zahirin “Filankəs” sözündəki məqsədin Ömər olduğuna dair öz iddiasına İbn Əbülhədidin bu sözlərini dəlil göstərməsi yanlışdır. Belə ki, İbn Əbülhədidin “filankəs” sözündə məqsəd Ömərdir, Əbülhəsən Rəzinin öz dəsti-xətti ilə yazdığı nüsxəni tapdığı və orada filankəs sözünün altında Ömər yazıldığını görməsi, bu barədə Fəxxar ibn Muidd Musəvi ilə söhbət etdikdə onun da bunu təsdiqləməsi, eləcə də Əbu Cəfər Yəhya ibn Əbu Zeyd Ələvidən soruşması, onun da bu şəxsin Ömər olduğunu deməsi kimi sözlərinin heç bir faydası yoxdur. Belə ki, bu sözlər onun zənnini artırmaqdan başqa heç bir fayda verməyib. Necə ki, bunu İbn Əbülhədidin özü də mətndə etiraf edir: “Gördüyünüz kimi, bu sözlər o kəlamdakı məqsədin Ömər ibn Xəttab olduğu zənnini bir daha qüvvətləndirir”.

İbn Əbülhədidin qəti söylədiyi fikirlər İmamiyyə məzhəbi üçün etibarlı dəlil hesab edilmir, zənnimi dəlil olacaq?!

Eləcə də, Seyyid Rəzinin öz dəsti-xətti ilə yazıldığı güman edilən nüsxədəki “filankəs” sözünün altında “Ömər” yazılması da kitaba bəzi haşiyə yazanların əlavəsi ola bilər.

İbn Əbülhədidin Əbu Cəfər Yəhya ibn Əbu Zeyd Ələviyə nisbət verdiyi sözlərə gəlincə, hətta bu sözlərin sənədi sübut olunsa belə, bu, Ələvinin mücərrəd şəxsi ictihadından başqa bir şey olmayacaq. Belə ki, Ələvinin filankəsin Ömər olduğunu haradan bildiyini söylənmir.

[1099] Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid, c. 12. s. 3-5

İbn Əbülhədidin sözlərinin zəifliyinə şahidlik edən digər amil mətndəki uyğunsuzluqdur. Belə ki, əvvəldə qəti şəkildə bu kəlamdakı məqsədin Ömər olduğunu söyləyir. Lakin sözünün sonunda bu fikrindən dönür, qəti fikrini qüvvətli zənn kimi ifadə edir!

Xüsusilə, imamət məsələsində qeyd olunan bu bəhslər şiə və Əhli-Sünnənin arasında ta ilk əsrlərdən baş qaldırmışdı. Lakin İbn Əbülhədiddən öncə hər hansı bir Əhli-Sünnə aliminin belə bir iddiasının olduğunu görməmişik.

İbn Əbülhədidin yuxarıdakı "Əbu Cəfər Muhəmməd ibn Cərir Təbərinin bəyan etdiyi sözlər də bu kəlmələrdəki mənanın Ömər ibn Xəttab olduğunu göstərir" sözündən məlum olur ki, o, bəzi sünni rəvayətlərinə əsasən bu qənaətə gəlib. Həmin rəvayətlər özündə "Nəhcül-Bəlağə"dəki kəlamın bəzi sözlərini ehtiva edirdi. O, bunu "Sonra bir vali onlara rəhbər oldu" kəlamının şərhində də etmişdi. Belə ki, həmin sözləri Əmr ibn Süfyanın hədisinə calamağa səy göstərmiş və həmin hədisin zəminində şərh verməyə çalışmışdı. Yuxarıda onu müzakirə etmişik.

İbn Şəbbə Nəmiri (vəfatı: h.q 262) özünün "Tarixul-Mədinə" kitabında Ğəssan ibn Əbdülhəmidə istinadən yazır: "Bizə xəbər çatıb ki, Müttəlib övladlarının müttəfiqi Abdullah ibn Malik ibn Üyeynə Əzdi deyir: "Ömərin (r) cənazəsinin dəfnindən Əli (r) ilə qayıtdıqda evinə gedib qüsl aldı. Sonra yanımıza gəlib xeyli müddət susdu. Bir müddətdən sonra dedi: "Allah Ömərə ağlayan qadınlara bərəkət versin! Əbu Həssəmənin qızı düz söyləyir: "Vah Ömər! Əyriliyi düzəltdi, xəstəliyi müalicə etdi, dünyadan təmiz libasla və az eyiblə köçdü. Vah Ömər! Sünnəni bərqərar etdi və fitnə-fəsadı arxaya atdı".

Sonra dedi: "Allaha and olsun ki, o qadın bunu özündən demirdi, kiminsə sözünü təkrarlayır və doğru söyləyirdi. Allaha and olsun Ömər xilafətin xeyrini əldə etdi, şərini arxaya atdı. Yoldaşı ona qayğı göstərdi, o da onun düzgün yolunda seyr etdi. O, (dünyadan) köçdü, (lakin) onları elə haçalanmış yollarda

qoyub getdi ki, o yollarda yolunu azan dərk etməz, hidayət edilmiş isə yəqinlik tapmaz”.[1100]

Təbəri (vəfatı: h.q 310) öz “Tarix”ində Müğeyrə ibn Şöbədən rəvayət edir: “Ömər öldükdə Əbu Xeysəmənin qızı onun üçün ağlayıb deyirdi: “Vah Ömər! Əyriliyi düzəltdi, xəstəliyi müalicə etdi, fitnə-fəsadı məhv və sünnəni bərqərar etdi, dünyadan təmiz libasla və eyiblərdən uzaq şəkildə köçdü”.

Deyir: “Müğeyrə ibn Şöbə dedi: “Ömər dəfn olunduqdan sonra Əlinin (ə) yanına gəldim. Ondan Ömər barədə bir şey eşitmək istəyirdim. Saçını və saqqalını silkələyər halda qarşıma çıxdı. O, yenicə qüsl almış və libasına bürünmüşdü. Şübhə yox idi ki, bu məsələ (xilafət) ona keçəcəkdi. Dedi: “Allah Xəttabın oğluna rəhmət etsin. Əbu Həssəmənin qızı düz söylədi: “Onun xeyrini götürdü və şərindən nicat tapdı”.[1101]

Həmçinin İbn Kəsir (vəfatı: h.q 774) öz “Tarix” əsərində yazır: “Ömər öldükdə Əbu Xeysəmənin qızı onun üçün ağlayıb deyirdi: “Vah Ömər! Əyriliyi düzəltdi, xəstəliyi müalicə etdi, fitnə-fəsadı məhv və sünnəni bərqərar etdi, dünyadan təmiz libasla və eyiblərdən uzaq şəkildə köçdü”.

Deyir: Əli ibn Əbu Talib dedi: “Allaha and olsun ki, doğru söylədi. Xeyrini götürdü və şərindən nicat tapdı. Ancaq Allaha and olsun ki, bu onun sözləri deyildi, kiminsə dediyi sözləri təkrarlayırdı”.[1102]

Buradan məlum olur ki, İbn Əbülhədidin zənninin mənşəyi “Nəhcül-Bəlağə”dəki sözləri də özündə ehtiva edən həmin Əhli-Sünnə rəvayətləridir. Onun zəninin kökü məhz budur.

Əgər “Nəhcül-Bəlağə”dəki kəlamla bu rəvayətlərə hədis qaydalarını tətbiq etsək və “Allah filankəsin ölkəsinə bərəkət versin” sözünün Ömərin mədhinə söyləndiyini fərz etsək, bu zaman iki rəvayətin arasında ziddiyyəti müşahidə edəcəyik. Belə ki, İmamın (ə) *“Ömər sərt və acıdil idi, onunla görüş əziyyət verici idi*

[1100] Tarixul-Mədinə, İbn Şəbbə Nəmiri, c. 3, s. 941-942

[1101] Tarix, Təbəri, c. 3, s. 285

[1102] əl-Bidayətu vən-nihayə, İbn Kəsir, c. 7, s. 107-108

və (dini məsələlərdə) səhvləri, (verdiyi səhv fətvalara görə) etdiyi üzrxahlıqları saysız-hesabsız idi" sözləri Öməri açıq-aşkar məzəmmət və tənqid edən sözlərdir. Vəziyyət belə olduqda tərcih qaydaları tətbiq olunmalıdır. Onu məzəmmət edən məzmun İmamiyyə şiələrinin nəzərində etiqadlarına müvafiqdir. Onun mədhi barədə qeyd edilən nadir kəlmələr isə Əhli-Beytdən (ə) yalnız təqiyyə və ya ilk xəlifələrə etiqadlı şəxslərin islahı kimi xüsusi məqamlarda eşidilib.

Buna əsasən, əgər eyham vurulan şəxsin Ömər olduğunu İbn Əbülhədid kimi fərz etsək, o zaman zahiri mədh olan həmin sözlər İmamiyyə əqidəsinə uyğun kinayə olaraq məzəmmət mənasında anlaşılmalıdır.

Əgər kəlamı zahiri mədh mənasında saxlasaq, o zaman İmamiyyə etiqadına əsasən, tərifl ənən şəxsin buradakı vəsflərə sahib ola biləcək İmamın (ə) səhabələrindən biri olduğunu deyəcəyik.

Kəlamda aydın şəkildə rəyət və özünəməxsus rəftar sahibi olan bir validən (rəhbərdən) söz açıldığına görə, həmin valinin İmamın (ə) səhabələrindən olmadığı fikir yanlışdır. Çünki İmam Əli (ə) öz əshabından bəzi şəxsləri İslam ölkələrinin paytaxtlarına vali təyin etmişdi. İmamla (ə) onların arasında məktublaşmalar da mövcuddur. Məsələn, Malik Əştəri Misirə vali təyin etmişdi. Həmçinin İmam (ə) bir çox yerdə Malik Əştəri tərifləmişdi. Buna nümunə olaraq, Misir əhalisinə ünvanladığı məktubunu göstərmək olar: *"Sizə bir Allah bəndəsini göndərirəm. O, qorxu günlərində əsla yatmaz, təhlükə zamanı düşmənlərin qarşısından qaçmaz, günahkarlara qarşı oddan daha şiddətlidir. Bu şəxs Məzhic qəbiləsindən olan Malik ibn Harisdir. Ona qulaq asın, haqqa uyğun olan əmrinə itaət edin. Çünki o, itiliyi korlaşmayan və zərbəsi təsirsiz qalmayan Allah qılınclarından biridir".*[1103]

Həmçinin iki ordu rəhbərlərinə göndərdiyi məktubdakı sözləri: *"Malik ibn Haris Əştəri sizə və sizin tabeçiliyinizdə olanlara başçı və əmir təyin etdim. Beləliklə, onun əmrinə qulaq asıb itaət edin və onu (özünüzə) zireh və sipər qərar verin. Çünki*

[1103] Nəhcül-Bəlağə, 38-ci məktub, c. 3, s. 64

o, süstlük (bacarıqsızlıq), büdrəmək (səhvə yol vermək), həmçinin çeviklik və cəldlik, ehtiyata və ağıla daha uyğun sayılan yerdə asta tərpənmək, ləng hərəkət etmək, daha yaxşı olan yerdə isə tələskənlik etmək qorxusu olan adamlardan deyil".[1104]

Eləcə də onun ölüm xəbəri İmama (ə) yetişdikdə söylədiyi sözlər: *"Malik getdi, amma nə idi Malik! Allaha and olsun ki, əgər dağ idisə, ayrı və əzəmətli bir dağ idi; əgər daş idisə, elə möhkəm daş idi ki, (böyüklük və möhkəmliyindən) heç bir dırnaqlı heyvan ondan yuxarı qalxa bilmir və heç bir quş onun üzərindən uçmurdu".*[1105]

Kəlamın ərəbcə mətnində keçən "find" kəlməsi digər dağlardan öz böyüklüyü və ağırlığı ilə seçilən dağa deyilir. Belə şənə sahib olan şəxsin həmin kəlamdakı tərifənən vəsflərə müvafiq olduğu şübhəsizdir.

Xüsusən, İmamın (ə) kəlamındakı *"fitnə-fəsadı arxada qoyub sünnəni bərqərar etdi, dünyadan təmiz paltarla və az eyiblə köçdü"* sözləri Malik ibn Haris Əştərə münasib olan tərifdir. Belə ki, tərifənən şəxs fitnələr zamanında yaşamış, lakin onlardan təsirlənməmişdi. Bu fitnələrdən təmiz libasla və az eyiblə çıxmışdı.

Əvvəldə də qeyd etdiyimiz kimi, İmam (ə) "Nəhcül-Bəlağə"dəki sözlərində öz əshabını ad çəkmədən bir çox dəfə mədh edir. Onun bu sözlərinin hədəfinin bir şəxs olması digərlərini qəti olaraq bundan kənarda qoymur. Lakin bu vəsflərin bir şəxs barədə olduğuna dair aydın işarə olduqda, bu istisnadır. O baxımdan, İmamın (ə) ümumi mənada dediyi həmin kəlamı (filankəs sözünü) yalnız və yalnız bir şəxsə şamil edərək dəlil kimi göstərmək mümkün deyil. Xüsusilə də, "Nəhcül-bəlağə"də barəsində açıq-aydın məzəmmət və tənqid söylənmiş şəxs barəsində... Burada həmin şəxsin əməllərinin tənqidi məzhəbin əqidə əsaslarından olması da nəzərdən qaçmamalıdır.

İbn Əbülhədid "Nəhcül-Bəlağə"yə yazdığı şərhinin 12-ci cildini İmama (ə) mənsub "Allah filankəsin şəhərinə bərəkət versin" kəlamı ilə başlamış, sonra bu cildi bütünlüklə Ömərin sözlərinə, həyatına və əxlaqına həsr etmişdir. Sonuncu

---

[1104] Nəhcül-Bəlağə, 13-cü məktub, c. 3, s. 14

[1105] Nəhcül-Bəlağə, hikmət 435, c. 4, s. 103

fəslini isə Öməri məzəmmət edən sözlərə və onlara verdiyi cavablara ayırmışdır. Əgər İhsan İlahi Zahir İbn Əbülhədidi şiə alimi hesab edirdisə, o zaman kitabdan parçalar nəql edərək dəlil göstərmək əvəzinə, bu kitabı bütünlüklə şiələrin əleyhinə dəlil kimi təqdim edərdi!

C. İbn Meysəmin və Dənbəlinin sözləri

İbn Meysəm həmin kəlamın şərhində deyir: *"Allah filankəsin şəhərlərinə bərəkət versin və qorusun ki..." sözü tərif və mədh zamanı istifadə edilir. Necə ki, deyirlər: "Allah bol etsin!", "Allah onun atasını qorusun!", belə ki, ərəblər bir şeyin və şəxsin tərif və ya əzəmətini bildirmək üçün onu bu kəlmələrlə Allaha nisbət verərlər. "Allah filankəsin şəhərlərinə bərəkət versin və qorusun" sözünün mənası belədir: Allah yolundakı gözəl əməllərini qorusun.*

Nəql olunur ki, kəlamdakı "filankəs" Ömərdir. Qütb Ravəndiyə əsasən isə İmamın (ə) bu sözlərindəki məqsədi Peyğəmbər (s) zamanındakı bəzi səhabələrdir ki, fitnələr baş qaldırıb yayılmazdan əvvəl dünyadan köçüblər. İbn Əbülhədid deyir: "Qeyd edilən vəsflərdən məlum olur ki, onun məqsədi özündən əvvəl xəlifə olmuş şəxsdir. Bunun dəlili isə onun sözləridir: "...əyriliyi düzəltdi, xəstəliyi müalicə etdi..." Burada məqsəd hakimiyyəti dövründə baş qaldıran fitnələr və parçalanmalara səbəb olan Osman ola bilməz. Həmçinin xilafət müddəti qısa olduğu və zamanında fitnələrin alovlandığı üçün Əbu Bəkr də qəsd edilə bilməz. Bunlara əsasən, məqsədin Ömər olması daha münasibdir".

Mən isə deyirəm: Məqsədin Əbu Bəkr olması Ömərdən daha münasibdir. Çünki İmam (ə) Ömərin xilafət dövrünü qeyd etdikdə tənqidə məruz qoyur və özünün məşhur "Şiqşiqiyyə" xütbəsində onu məzəmmət edir. Necə ki, bunu mövzuya müvafiq yerdə qeyd etdik. Burada isə bir neçə xüsusiyyəti vəsf edir:

Birincisi: "əyriliyi düzəltdi"; bu, camaatın Allah yolundan yayınması vaxtı onları düzgün istiqamətə yönəltməkdir.

İkincisi: "xəstəlikləri müalicə etdi"; bu söz əziyyət verən nəfsi xəstəliklərə eyham olaraq istifadə edilir. Burada onları söz və əməli moizə, həyata keçirdiyi tədbirlərlə müalicə edən kimi vəsf olunur.

Üçüncü: "sünnəni bərqərar etdi"; yəni onu icra etdi.

Dördüncü: "fitnə-fəsadı arxada qoydu"; yəni, ondan əvvəl öldü. Burada tərif olaraq istifadə mənası isə budur ki, öz zamanında gözəl tədbir aldığı üçün fitnələrə düşmədi.

Beşinci: "təmiz paltarla köçdü"; paltar kəlməsi kənar amillərə işarədir. Yəni, tənqid ləkələrindən onu təmiz saxladı.

Altıncı: az eyibli olması;

Yeddinci: Xeyrini əldə etdi, şərini arxada buraxdı; buradakı əvəzlik barəsində söhbət açılan şəxsə qayıdır ki, xilafət dövründə tələb olunan ədalətə və Allahın dinini ayaqda saxlamağına görə axirətdə geniş savaba və dünyada uca şərəfə nail olub. "şərini arxada buraxdı" sözü isə, xilafət barəsində fitnənin qopması və ona görə qanın axıdılmasıdır.

Səkkizinci: "Allaha itaət və bağlılığı";

Doqquzuncu: "Allahın haqqını qoruması"; yəni Allahın əzabının qorxusundan haqqını yerinə yetirməsi.

Onuncu: "Özündən sonra insanları cəhalətin parçalanmış yollarında tərk edib axirət aləminə köçməsi... həmin cəhalətdə Allah yolundan azan şəxs hidayət tapmaz, hidayətdə olan şəxs də yəqinə çatmaz"; yəni müxtəlif zəlalət yolları və çoxlu müxaliflərini qoyub getdi. Ərəbcə mətndəki "tərk etdi" kəlməsinin əvvəlindəki "vav" hərfi hal "vav"ıdır (Yəni, bu halda onları tərk etdi – tərc.)

Şiələr burada bəzi suallar verərək deyirlər: "İmam Əlinin (ə) qeyd etdiyi bu tərifiər iki şəxsdən biri barəsindədir, xətaları və xilafəti qəsb etdikləri barədə icma etdiyimiz məsələlərə xilafdır. Bu ya İmamın (ə) sözü deyil, yaxud da bizim həmin məsələlər barədəki icmamız səhvdir.

Buna iki yöndən cavab verirlər:

Birincisi: Qeyd edilən ziddiyyəti qəbul etmirik. Çünki bu sözləri ilk iki xəlifənin tərəfdarlarının islahı və onların könlünü özünə tərəf çəkmək üçün söyləməsi mümkündür.

İkinci: Bu tərifərin həmin iki nəfərdən biri barədə olması mümkündür. Belə ki, onlardan sonrakı Osmanın xilafəti dövründə onun və əmisi övladlarının yarıtmazlığı səbəbindən baş qaldıran fitnələri, xilafətdəki narahatlıqları, beytül-maldan sui-istifadəsini ondan əvvəlkiləri tərifləməklə məzəmmət etmiş olur. Bunlar isə müsəlmanların hər tərəfdən axışıb ona qarşı çıxması və onu qətlə yetirməsi ilə nəticələnir. "Fitnələri arxada qoydu,.. təmiz paltarla və az eyiblə dünyadan köçdü, onun xeyrini əldə edib şərindən amanda qaldı... onları haçalanmış yollarda tərk etdi" kimi sözləri ilə bunu xatırladır. Bu sözlərdən anlaşılır ki, sonrakı validə həmin vəsflərin ziddi toplanmışdı. Daha doğrusunu Allah bilir!"[1106]

İbrahim ibn Həsən Xoyi "əd-Durrətun-Nəcəfiyyə" kitabında "Nəhcül-Bəlağə"dəki bu sözlərin şərhində deyir: *"Deyirəm: Şərhçilər bu vəsflərin şamil olduğu şəxsin kimliyi barədə ixtilaf ediblər. Ravəndiyə əsasən İmamın (ə) bu sözlərindəki məqsədi Peyğəmbər (s) zamanındakı bəzi səhabələrdir ki, fitnələr baş qaldırıb yayılmazdan əvvəl dünyadan köçüblər. İbn Əbülhədid deyir: "Qeyd edilən vəsflərdən məlum olur ki, onun məqsədi özündən əvvəl xəlifə olmuş şəxsdir. Bunun dəlili isə onun sözləridir: "...əyriliyi düzəltdi, xəstəliyi müalicə etdi..." Burada məqsəd hakimiyyəti dövründə baş qaldıran fitnələr və parçalanmalara səbəb olan Osman ola bilməz. Həmçinin xilafət müddəti qısa olduğu və zamanında fitnələrin alovlandığı üçün Əbu Bəkr də qəsd edilə bilməz. Bunlara əsasən, məqsədin Ömər olması daha münasibdir".*

Mən isə deyirəm: Məqsədin Əbu Bəkr olması Ömərdən daha münasibdir. Çünki İmam (ə) Ömərin xilafət dövrünü qeyd etdikdə tənqidə məruz qoyur və özünün məşhur "Şiqşiqiyyə" xütbəsində onu məzəmmət edir. Necə ki, bunu mövzuya müvafiq yerdə qeyd etdik. Burada isə bir neçə xüsusiyyəti vəsf edir:

[1106] Şərhu Nəhcül-Bəlağə, İbn Meysəm Bəhrani, c. 4, s. 96-97

Birincisi: "əyriliyi düzəltdi"; bu, camaatın Allah yolundan yayınması vaxtı onları düzgün istiqamətə yönəltməkdir.

İkincisi: "xəstəlikləri müalicə etdi"; bu söz əziyyət verən nəfsi xəstəliklərə eyham olaraq istifadə edilir. Burada onları söz və əməli moizə, həyata keçirdiyi tədbirlərlə müalicə edən kimi vəsf olunur.

Üçüncü: "sünnəni bərqərar etdi"; yəni onu icra etdi.

Dördüncü: "fitnə-fəsadı arxada qoydu"; yəni, ondan əvvəl öldü. Burada tərif olaraq istifadə mənası isə budur ki, öz zamanında gözəl tədbir aldığı üçün fitnələrə düşmədi.

Beşinci: "təmiz paltarla köçdü"; paltar kəlməsi kənar amillərə işarədir. Yəni, tənqid ləkələrindən onu təmiz saxladı.

Altıncı: az eyibli olması;

Yeddinci: Xeyrini əldə etdi, şərini arxada buraxdı; buradakı əvəzlik barəsində söhbət açılan şəxsə qayıdır ki, xilafət dövründə tələb olunan ədalətə və Allahın dinini ayaqda saxlamağına görə axirətdə geniş savaba və dünyada uca şərəfə nail olub. "şərini arxada buraxdı" sözü isə, xilafət barəsində fitnənin qopması və ona görə qanın axıdılmasıdır.

Səkkizinci: "Allaha itaət və bağlılığı";

Doqquzuncu: "Allahın haqqını qoruması"; yəni Allahın əzabının qorxusundan haqqını yerinə yetirməsi.

Onuncu: "Özündən sonra insanları cəhalətin parçalanmış yollarında tərk edib axirət aləminə köçməsi... həmin cəhalətdə Allah yolundan azan şəxs hidayət tapmaz, hidayətdə olan şəxs də yəqinə çatmaz"; yəni müxtəlif zəlalət yolları və çoxlu müxaliflərini qoyub getdi. Ərəbcə mətndəki "tərk etdi" kəlməsinin əvvəlindəki "vav" hərfi hal "vav"ıdır (Yəni, bu halda onları tərk etdi – tərc.).

Şiələr burada bəzi suallar verərək deyirlər: "İmam Əlinin (ə) qeyd etdiyi bu tərifər iki şəxsdən biri barəsindədir, xətaları və xilafəti qəsb etdikləri barədə icma

etdiyimiz məsələlərə xilafdır. Bu ya İmamın (ə) sözü deyil, yaxud da bizim həmin məsələlər barədəki icmamız səhvdir.

Buna iki yöndən cavab verirlər:

Birincisi: Qeyd edilən ziddiyyəti qəbul etmirik. Çünki bu sözləri ilk iki xəlifənin tərəfdarlarının islahı və onların könlünü özünə tərəf çəkmək üçün söyləməsi mümkündür.

İkinci: Bu tərifərin həmin iki nəfərdən biri barədə olması mümkündür. Belə ki, onlardan sonrakı Osmanın xilafəti dövründə onun və əmisi övladlarının yarıtmazlığı səbəbindən baş qaldıran fitnələri, xilafətdəki narahatlıqları, beytül-maldan sui-istifadəsini ondan əvvəlkiləri tərifləməklə məzəmmət etmiş olur. Bunlar isə müsəlmanların hər tərəfdən axışıb ona qarşı çıxması və onu qətlə yetirməsi ilə nəticələnir. "Fitnələri arxada qoydu... təmiz paltarla və az eyiblə dünyadan köçdü, onun xeyrini əldə edib şərindən amanda qaldı... onları haçalanmış yollarda tərk etdi" kimi sözləri ilə bunu xatırladır. Bu sözlərdən anlaşılır ki, sonrakı validə həmin vəsflərin ziddi toplanmışdı. Daha doğrusunu Allah bilir!"[1107]

Mətndəki məqsədin Ömər olduğuna dair İhsan Zahirin öz iddiasına İbn Meysəmin və Dənbəlinin sözlərini dəlil göstərməsi yanlışdır. Əvvəldə də qeyd etdiyimiz kimi, İbn Meysəm Bəhraninin "Şərhu Nəhcül-Bəlağə" və Dənbəlinin "əd-Durrətun-Nəcəfiyyə" kitabları eyni kitabdır. Dənbəlinin kitabı İbn Meysəmin qələmə aldığı kitabın xülasəsidir. Göründüyü kimi, onların cümlələrindəki kəlmələri də tamamilə üst-üstə düşür.

Həmçinin onlar İmamın (ə) sözlərindəki məqsədin Ömər olduğunu demirlər. Sadəcə bu barədə söylənmiş fikirləri qeyd edirlər. Onlardan biri də İbn Əbülhədidin sözləridir. "Küfrü nəql edən kafir sayılmaz!" Onlar İbn Əbülhədidin sözlərini rədd edir və bildirirlər ki, əgər bu şəxsin Ömər olduğuna ehtimal edilirsə, o zaman İmamın (ə) bu sözlərindəki məqsədin Əbu Bəkr olması daha münasibdir: *"Məqsədin Əbu Bəkr olması Ömərdən daha münasibdir. Çünki İmam*

[1107] əd-Durrətun-Nəcəfiyyə, Dənbəli, c. 2, s. 257

(ə) onun (Ömərin) xilafət dövrünü qeyd etdikdə tənqidə məruz qoyur və özünün məşhur "Şiqşiqiyyə" xütbəsində məzəmmət edir".

Sonra da ilk iki xəlifənin xətaları barədə şiənin icma etdiyi nəzəri əsas götürərək, belə bir mədhin ilk iki xəlifənin tərəfdarlarının islahı və qəlblərini özünə cəlb etmək məqsədilə deyilməsinin mümkünlüyünü qeyd edir. Yaxud da İmam (ə) bunu söyləyərkən özündən əvvəlki xəlifə Osmanın əməllərinə etirazını bildirmək üçün ilk iki xəlifəni belə sifətlərlə vəsf edir, Osmanın bu vəsfləri ziddinə sahib olduğuna eyham vurmaq istəyir.

Onların bu fikirlərin Əbu Bəkr haqqında deyilməsinin Ömərdən daha münasib olması barədə iddiası, buna İmamın (ə) Ömərin xilafətini "Şiqşiqiyyə" xütbəsində məzəmmət etdiyini dəlil göstərməsi mənasıdır. Belə ki, İmamın (ə) məşhur "Şiqşiqiyyə" xütbəsindəki tənqid və məzəmməti təkcə Ömərlə məhdudlaşmır, Əbu Bəkrin və Osmanının xilafətlərini də ehtiva edir.

6. Ömərin İslam sığınacağı, müsəlmanların pənahı və müraciət mənbəyi olduğu iddiası

İhsan Zahir iddia edir ki, İmam Əli (ə) Öməri İslam sığınacağı, müsəlmanların himayədarı və müraciət mənbəyi hesab edirdi. Bu sözlərinə isə yenə də "Nəhcül-Bəlağə"dən və onun şərhindən dəlil gətirir. İhsan Zahir deyir: **"Əhli-Beytin (ə) başçısı olan Əli Öməri İslam sığınacağı, müsəlmanların himayədarı və müraciət mənbəyi sayırdı. Görün onu necə bu xüsusiyyətlərlə vəsf edir. Rumlarla savaşa çıxarkən Ömər onunla məsləhətləşdikdə Əli deyir: "Sən özün bu düşmənə (Rum qeysəri və qoşunlarına) doğru gedib onlarla görüşdə məğlub olsan, ucqar şəhər və sərhədlərdəki müsəlmanlar üçün pənah yeri qalmayacaq. Onların səndən sonra müraciət mənbəyi və ətrafında birləşməyə bir kəsləri yoxdur. (Məsləhət budur ki, sən burada qal və öz yerinə) onların üstünə bir müharibə görmüş igid göndər. Döyüşün bəla və çətinliklərinə taqəti olan, öyüd-nəsihət eşidən şəxsləri onunla yola**

sal. Əgər Uca Allah (ona) zəfər yetirsə, bu elə sənin istədiyin olacaq. Başqa bir hadisə baş versə, sən müsəlmanların köməyi və pənahı olaraq qalacaqsan". (Nəhcül-Bəlağə, Sübhi Salehin təhqiqi ilə, s. 193, xütbə 135)

Cavab

İhsan Zahirin öz iddiasına "Nəhcül-Bəlağə"dən göstərdiyi dəlil yanlış və batildir. Sizə xütbənin tam mətnini və bunun dəlil olaraq iddiaya münasib olmadığının izahını təqdim edirik:

Seyyid Rəzi deyir: *"Ömər ibn Xəttab rumlularla döyüşə gedərkən İmam Əlinin (ə) məsləhətləşdiyi vaxt buyurduğu kəlamlarındandır: "Allah İslam əhlinin sərhəd və hüdudlarını qorumağa, övrətlərini (düşmənin bilməməli olduğu şeyləri) örtməyə zamin olmuşdur. Allah az olduqları və (düşməndən) intiqam ala bilmədikləri vaxt onlara yardım etdi. Az olduqları və özlərini qorumağa gücləri olmadığı vaxt onları məğlubiyyətdən qorudu. (İslamın ilk illərində bugünkü kimi saysız-hesabsız əhaliyə, gücə-qüdrətə malik olmayan müsəlmanlara kömək edən Allah indi də yardımçı olacaq. Çünki) diridir və heç vaxt ölməyəcək. (Deməli, döyüş meydanına getmə. Çünki) sən özün bu düşmənə (Rum qeysəri və qoşunlarına) doğru gedib onlarla görüşdə məğlub olsan, ucqar şəhər və sərhədlərdəki müsəlmanlar üçün pənah yeri qalmayacaq. Onların (fitnə-fəsadın qarşısını almaq üçün) səndən sonra müraciət etməyə yerləri yoxdur. (Məsləhət budur ki, sən burada qal və öz yerinə) onların üstünə bir müharibə görmüş igid göndər. Döyüşün bəla və çətinliklərinə taqəti olan, öyüd-nəsihət eşidənləri onunla yola sal. Əgər Uca Allah (ona) zəfər yetirsə, bu elə sənin istədiyin olacaq. Başqa bir hadisə baş versə, sən müsəlmanların köməyi və pənahı olacaqsan (yenidən qoşun toplayıb onlarla döyüşə göndərə bilərsən)".*[1108]

Bu dəlil iddiadan daha xüsusidir. İddia bu idi ki, İmam (ə) Öməri İslamın sığınacağı, müsəlmanların pənah və müraciət yeri sayır. Halbuki bu mətndə Ömərin rumlularla döyüş meydanında olduğu zaman kəsiyində həmin meydanda

[1108] Nəhcül-Bəlağə, xütbə 134, c. 2, s. 18

iştirak edən müsəlmanlar üçün belə olduğunu bildirir. İmamın (ə) *"ucqar şəhər və sərhədlərdəki müsəlmanlar üçün pənah yeri qalmayacaq"* sözləri cümlənin tərkibində bunu məhz həmin yerlərlə xüsusiləşdirən işarədir. Bu sözlər "müsəlmanlar" dedikdə yalnız həmin döyüşdə iştirak edənlərin nəzərdə tutulduğuna açıq dəlalət edir.

Həmçinin mətndəki *"Əgər... başqa bir hadisə baş versə"* sözü də digər bir işarədir ki, müsəlmanlar sözündə məqsədin məhz həmin döyüşdə iştirak edən müsəlmanlar olduğunu göstərir. Belə ki, Ömər döyüşün baş verdiyi həmin zaman kəsiyində və onların rumlular tərəfindən məğlub ediləcəyi təqdirdə ordunun və ətrafdakı əhalinin sığınacağı və pənah yeri olacaq.

İmamın (ə) sözlərinə diqqətlə fikir yetirən şəxs bu mətndə tərif və mədh deyil, həqiqətdə Öməri məzəmmət edən sözlərin olduğunu görəcək. İmamın (ə): *"onların üstünə bir müharibə görmüş igid göndər. Döyüşün bəla və çətinliklərinə taqəti olan, öyüd-nəsihət eşidənləri onunla yola sal"* sözlərindən bu aydın anlaşılır.

Bu sözlərdən məlum olur ki, İmam (ə) Öməri savaş əhli və çətinliklərə tab gətirən şəxs kimi görmür, müsəlmanlara savaşlarda iştirak etmiş, igid və rumlularla bu həssas savaşda əsgərlərə başçılıq edəcək bir nəfəri başçı seçməyi məsləhət edir. Rumlularla savaşda döyüş məharətlərinə sahib belə bir şəxsin rəhbər olmaması düşmənin xeyrinə işləyəcək, müsəlmanların məğlubiyyət ehtimalını daha da artıracaq, ümumi olaraq İslam dövlətini zəiflədəcək. Çünki rumlularla savaşda alınan bu məğlubiyyət və xəlifənin öldürülməsi bu və ya digər şəkildə bütün müsəlmanlara öz təsirini qoyacaq, rumluların İslamı məhv etmək tamahını daha da artıracaq.

Zəmanənin hadisələrini və işlərin aqibətini düzgün qiymətləndirən İmam Əlinin (ə) bu sözlərində Ömərin mədhinə və ya İmamın (ə) nəzərində əzəmətli məqama sahib olmasına dəlalət edən heç bir məna yoxdur. Belə ki, hərbi məsələlərdən başı çıxmayan, tam təchizatlı və nizamlı rum ordusu qarşısına çıxmaq üstün döyüş keyfiyyətləri olmayan, savaşlarda iştirak etməmiş, döyüş

taktikası və məharətlərindən məhrum şəxsin başçılığı onun ölümünü və ordusunun pərəm-pərəm düşməsini qaçılmaz edir.

Ömərin savaş və çətinlik əhli olmadığını göstərən dəlillərdən biri Xeybər savaşında Peyğəmbərin (s) bayrağı ona verərək döyüşə göndərməsi, onun isə həmin döyüşdən məğlub vəziyyətdə geri qaçmasıdır. Peyğəmbər (s) üçün həmin döyüş olduqca əhəmiyyətli idi. Ömərdən bayrağı alıb onu Möminlərin əmiri Əliyə (ə) verdi və ardınca da həmin məşhur sözləri söylədi: *"Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, o, Allahı və rəsulunu, Allah və rəsulu da onu sevir".* Peyğəmbər (s) onun əli ilə Allahın fəth bəxş edəcəyinə tam əmin idi. Çünki İmamın (ə) qətilik və möhkəmliyini, iman gücünü gözəl bilirdi. Əmin idi ki, o ya fəthlə geri qayıdacaq, ya da döyüş meydanında Allahın əmirini yerinə yetirib Peyğəmbərinə (s) itaət edərək Allahın dərgahına qovuşacaq. Ona döyüşə getmək əmr olunduqda əmri kamil şəkildə yerinə yetirəcəyini bilirdi. Geri qayıtması barədə ikinci bir əmr verilmədikcə əsla geri dönməyəcəkdi. Çünki yəqin həqiqətlə Peyğəmbərin (s) söz və hərəkətlərində hikmət sahibi olduğunu, həvaye-nəfsinə görə əmr vermədiyini bilirdi. Bilirdi ki, Peyğəmbər (s) Allah tərəfindən hər şeydən xəbərdar edilib. Müslim "Səhih"də İyas ibn Sələmənin vasitəsilə atasının ona Xeybərin fəthindən açdığı söhbəti belə rəvayət edir: *"...Ömər dəvəsinin üzərində oturduğu halda belə səsləndi: "Ey Allahın peyğəmbəri, kaş ki, Amirin bizi hələ də feyzyab etməsinə izn verəydin!"*

Deyir: "Xeybərə yetişdik. Xeybərin başçısı Mərhəb başının üzərində qılıncını yelləyərək deyirdi:

Xeybər tanıdı, bildi ki, Mərhəbəm mən!
Müharibə başlayıb, döyüş alovlanarkən,
Mahir silah ustası, təcrübəli ərəm mən!

Əmim Amir onunla təkbətək döyüşmək üçün irəli çıxdı və dedi:

Artıq Xeybər tanıdı, bildi ki, Amirəm mən,
Mahir silah ustası, cəld qəhrəmanam mən!

Təkbətək döyüş başladı və hər ikisi bir-birinə qılınc ilə zərbələr endirdilər. Mərhəbin qılıncı Amirin qalxanına dəydi. Amir də onu alt nahiyədən vurduqda qılıncı özünə qayıdaraq qolunun damarını kəsdi. Amirin ölümü də bu yaradan oldu.

Səlamə deyir: "Mən Peyğəmbərin (s) səhabələrindən birinin belə dediyini gördüm: "Amirin əməli puç oldu, o özü-özünü öldürdü!"

Mən ağlayaraq Peyğəmbərin (s) yanına gəldim və dedim: "Ey Allahın peyğəmbəri! Amirin səyi puç olub boşa getdi?" Peyğəmbər (s) bunu kimin söylədiyini soruşdu. Mən: "Bəzi səhabələr" dedim. Peyğəmbər (s) buyurdu: "Bunu söyləyən yalan demişdir! Əksinə, o, ikiqat savab qazanmışdır!"

Sonra Peyğəmbər (s) məni Əlini çağırmaq üçün göndərdi. Əli gözlərinin ağrısından əziyyət çəkirdi. Peyğəmbər (s) həmin vaxt buyururdu: "Sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, o, Allahı və rəsulunu, Allah və rəsulu da onu sevir!"

Mən Əlinin yanına gəldim. Gözləri ağrıdığı üçün əlindən tutub Peyğəmbərin (s) yanına gətirdim. Peyğəmbər (s) Əlinin gözlərinə tüpürcəyindən sürtərək dua etdi və onun gözləri dərhal sağaldı. Bayrağı ona verdi. Mərhəb irəli çıxıb dedi:...

Onun cavabında Əli dedi:

Anamın Heydər adlandırdığı mənəm...

Şeri oxuyaraq döyüşə atıldı və Mərhəbin başından qılınc ilə vuraraq onu öldürdü. Xeybər məhz Əlinin vasitəsilə fəth edildi".[1109]

Əhməd ibn Hənbəl Abdullah ibn Büreydənin vasitəsilə onun atasının belə dediyini nəql edir: *"Xeybəri mühasirəyə aldıq. Əbu Bəkr bayrağı götürüb irəli getdi, lakin fəth edə bilmədən geri qayıtdı. Ertəsi gün Ömər bayrağı aldı, o da fəth edə bilmədən geri qayıtdı. Camaat yorulub əldən düşmüşdü. Bundan sonra Peyğəmbər*

[1109] Səhih, Müslim, c. 3, s. 1433, hədis 1807

(s) buyurdu: "Mən sabah bayrağı elə bir şəxsə verəcəyəm ki, o, Allah və rəsulunu, Allah və rəsulu da onu sevir. (Xeybəri) Fəth etmədən əsla geri qayıtmaz". Bundan sonra o gecəni sabah fəth olacaq deyə, könül rahatlığı içində keçirdik. Səhər oldu, Peyğəmbər (s) sübh namazını qıldı, sonra qarşımızda dayanıb bayrağı gətirmələrini istədi. Camaat cərgələrdə durmuşdu. Peyğəmbər (s) Əlini çağırdı. Onun gözləri ağrıyırdı. Mübarək tüpürcəyini onun gözlərinə sürtdü və bayrağı ona verdi. O da Xeybəri fəthi etdi. Büreydə deyir: "Mən də o şəxsin özüm olacağına ümid edənlərdən biri idim".[1110]

Şüeyb Arnavut hədisin hökmü barədə deyir: *"Səhih hədisdir, ravilərin arasında Hüseyn ibn Vaqid Mərvəzinin olmasına görə istinadı güclüdür".*[1111]

Heysəmi də hədisi rəvayət etdikdən sonra deyir: *"Bunu Əhməd rəvayət edib, hədisin raviləri "Səhih"in raviləridir".*[1112]

Həmçinin Bəzzar öz "Müsnəd"ində Əbu Məryəmin vasitəsilə İmam Əlidən (ə) rəvayət edib: *"Xeybərə getdik. Ora yetişdikdə Peyğəmbər (s) Öməri bir dəstə adamla hücuma göndərdi. Ömər və yanındakılar məğlub olub geri qayıtdılar. Peyğəmbər (s) buyurdu: "Sabah onların üzərinə elə bir şəxsi göndərəcəyəm ki, o, Allahı və rəsulunu, Allah və rəsulu da onu sevir. O şəxs Allah fəthi bəxş edənədək onlarla savaşacaq".*

Deyir: "Camaat həmin şəxsin özləri olması ümidi ilə başlarını ona tərəf uzadırdılar. Peyğəmbər (s) bir müddət gözlədikdən sonra "Əli hardadır?" deyə soruşdu. Onun gözlərinin ağrıdığını söylədilər..."[1113]

Heysəmi hədisi nəql etdikdən sonra deyir: *"Bunu Bəzzar rəvayət edib. Orada Nəim ibn Hükeym var ki, İbn Həbban və digərləri onun etibarlı (siqə) ravi olduğunu söyləyiblər".*[1114]

[1110] Müsnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 353, hədis 23043, Büreydə Əsləminin hədisi

[1111] Həmin mənbə, Şüeyb Arnavutun hədislərə verdiyi hökmlə

[1112] Məcməuz-Zəvaid, Heysəmi, c. 6, s. 152

[1113] Müsnəd, Bəzzar, c. 3, s. 22, hədis 770. Əbu Məryəm Hənəfinin Əlidən rəvayət etdikləri

[1114] Məcməuz-Zəvaid, Heysəmi, c. 6, s. 152

Həmçinin Təbərani özünün "Möcəmus-sağir" kitabında Cabir ibn Abdullahdan rəvayət edir: *"Xeybər savaşı günü Peyğəmbər (s) bir nəfəri döyüşə göndərdi, o isə qorxub geri qayıtdı. Muhəmməd ibn Sələmə gəlib dedi: "Ya Peyğəmbər! Mən indiyədək bugünkü kimi bir şey görməmişdim". Muhəmməd ibn Sələmə ağlamağa başladı. Peyğəmbər (s) buyurdu: "Düşmənlə üz-üzə gəlməyi arzulamayın, Allahdan cansağlığı diləyin. Onlar tərəfindən başınıza nələr gələcəyini bilmirsiniz. Onlarla qarşılaşdığınız zaman deyin: "İlahi, Sən bizim də, onların da Rəbbisən, ixtiyarımız Sənin əlindədir, həqiqətən də onları öldürən Sənsən". Sonra yerə oturun, üstünüzə gəldikdə ayağa qalxıb təkbir söyləyin".*

Ardınca Peyğəmbər (s) buyurdu: "Sabah (Xeybərin üzərinə) elə bir şəxsi göndərəcəyəm ki, o, Allahı və rəsulunu, Allah və rəsulu da onu sevir. O, əsla arxa çevirib qaçmayacaq".

Səhəri gün Əlini göndərdi..."[1115]

Heysəmi Təbəraninin bu hədisi qeyd etdikdən sonra belə dediyini yazır: *"Təbərani bu hədisi "Möcəmus-səğir"də qeyd edib, orada Xəlil ibn Mərrə adlı ravi var. Əbu Zərə deyir: O, saleh şeyxdir".*[1116]

İbn Əbu Şeybə "əl-Müsənnəf"də Nəim ibn Hükeymdən, o da Əbu Məryəmdən, o da Əlidən (ə) rəvayət edir: *"Peyğəmbər (s) Xeybərə doğru yola çıxdı. Oraya yetişdikdə Ömari bir dəstə adamla şəhərin və ya qalanını üzərinə hücuma göndərdi. Onlarla savaşdılar. Qısa zamanda Ömər və adamları məğlub olub geri qayıtdılar. Ömər onları, onlar da Ömari qorxaqlıqda ittiham edirdilər. Bu vəziyyət Peyğəmbəri (s) məyus etdi və buyurdu: "Sabah onların üzərinə elə bir şəxsi göndərəcəyəm ki, Allahı və rəsulunu, Allah və rəsulu da onu sevir. O, Allah fəthi bəxş edənədək döyüşəcək və əsla fərarilik edib geri qaçmayacaq".*

Camaat həmin şəxsin özlərinin olmasını diləyir və bu ümidlə boyunlarını Peyğəmbərə (s) tərəf uzadıb özlərini ona göstərirdilər. Peyğəmbər (s) buyurdu..."[1117]

[1115] Möcəmus-sağir, Təbərani, c. 2, s. 25, hədis 790

[1116] Məcməuz-Zəvaid, Heysəmi, c. 6, s. 152

Həmçinin Hakim bunu "Müstədrək"də rəvayət edərək deyir: *"Bu, sənədi səhih hədisdir, lakin Buxari və Müslim onu nəql etməyiblər".*[1118] Zəhəbi də onun bu sözləri ilə razılaşıb.[1119]

İbn Əbu Şeybə özünün "əl-Müsənnəf"ində Abdullah ibn Büreydə Ənsari Əsləmidən, o da atasından rəvayət edir: *"Peyğəmbər (s) Xeybərin qarşısına yetişdikdə Xeybər əhalisi qorxuya düşüb dedilər: "Yəsrib əhli ilə birlikdə Muhəmməd də gəlib".*

Deyir: "Peyğəmbər (s) Ömər ibn Xəttabı bir dəstə adamla hücuma göndərdi. Xeybər camaatı ilə döyüşdülər. Xeybərlilər onları geri qaytarıb rüsvay etdilər. Onlar Peyğəmbərin (s) yanına gəldilər. Ömər adamlarını, onlar da Öməri qorxaqlıqda ittiham edirdi. Peyğəmbər (s) buyurdu: "Sabah onların üzərinə elə bir şəxsi göndərəcəyəm ki, o, Allahı və rəsulunu, Allah və rəsulu da onu sevir..."[1120]

Hakim "Müstədrək"də İbn Zübeyrdən, o da Cabir ibn Abdullah Ənsaridən rəvayət edir: *"Peyğəmbər (s) Xeybər savaşı günü bayrağı Ömər ibn Xəttaba (r) verdi. O gedib geri qayıtdı. Yanındakı adamlar onu, Ömər da onları qorxaqlıqda ittiham edirdi". Sonra Hakim deyir: "Bu, Müslimin şərtinə əsasən səhih hədisdir, lakin bunu kitablarında qeyd etməyiblər".*[1121]

Bütün bunlar Ömərin döyüş adamı və orduya başçılıq üçün üstün keyfiyyətlərə sahib olmadığını göstərir. Həmçinin böyük döyüş təcrübə və taktikalarına malik Rum qoşunu qarşısında orduya başçılıq üçün layiq komandan ola bilməyəcəyinə də dəlalət edir. Bəli, o, kobud və qəddar[1122] idi, lakin kobudluq, qəddarlıq və sərtlik döyüşlərdə şücaət, hərbi taktika və məharət demək deyil.

[1117] əl-Müsənnəf, İbn Əbu Şeybə Kufi, c. 7, s. 396, hədis 36894, Xeybər savaşı

[1118] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 40, hədis 4340

[1119] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 40, hədis 4340, Zəhəbinin "ət-Təlxis"dəki şərhələrilə

[1120] əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 7, s. 393, hədis 36879, Xeybər savaşı

[1121] əl-Müstədrəku ələs-səhiheyn, c. 3, s. 40, hədis 4341

[1122] İbn Əbu Şeybə özünün "əl-Müsənnəf" kitabında Zəbid ibn Harisə istinadən nəql edir: *"Əbu Bəkrin vəfatı yaxınlaşdıqda Öməri özündən sonra xəlifə təyin etdi. Camaat dedi: "Üzərimizə*

Bütün bunlar Rum ordusunun əlini gücləndirən, döyüşdə Ömərin öldürülmə və müsəlmanların məğlub edilmə ehtimalını artıran məsələlərdir.

Rumlular İslamın və müsəlmanların üzərinə hücum çəkməyə fürsət axtarırdılar. Bunun üçün isə müsəlmanların məğlub edildiyi və xəlifələrinin öldürüldüyü bir savaşdan daha yaxşı fürsət ola bilməzdi. Bəlkə də, onlar İslamı məhv etmək üçün bir daha belə fürsət əldə edə bilməyəcəkdilər.

Rumlular kimi zalım və təhlükəli düşmənin qələbəsi, onlar tərəfindən İslam dövlətinin başçısının öldürülməsi, şübhəsiz ki, dövlətin süqutu ilə nəticələnəcəkdi. Tarixdə müxtəlif əsrlərdə baş vermiş savaşlarda rəhbərin düşmən tərəfindən öldürülməsinin orduda ruh düşkünlüyünün yaranmasına və onun pərəm-pərəm düşməsinə səbəb olduğu dəfələrlə rast gəlinir.

Möminlərin əmiri (ə) kimi bir şəxsiyyət isə bütün varlığı ilə Ömərin deyil, İslam dövlətinin qorunmasına həris idi. Ömərin savaşa özünün getməsi ilə bağlı İmamla (ə) məsləhətləşməsi zamanı İmam (ə) orduya başçılıq xüsusiyyətlərinə sahib olmadan Rum ordusu qarşısında müsəlmanlara başçılıq etməyin sonda başçısının öldürülməsi və müsəlmanların məğlubiyyəti ilə nəticələnəcəyini, dövlətin süqut edəcəyini aydın şəkildə ona izah edir.

Bu sözləri ilə İmam (ə) Öməri rumlularla döyüşə şəxsən özünün getməsindən çəkindirir. Lakin bu çəkindirmə onu sevdiyinə görə deyil, İslam və müsəlmanlara olan şövqündən irəli gəlir.

Eləcə də bununla Peyğəmbər (s) sünnəsinin yerinə yetirilməsinə nail olmaq istəyir. Belə ki, məsləhət olunan şəxs etimad doğrultmalıdır. Necə ki, hədis hafizləri və hədisşünaslar səhih sənədlərlə Peyğəmbərdən (ə) nəql edirlər ki, məsləhət alınan şəxs əmin olmalıdır, onunla məsləhətləşən şəxsə xeyirləri gizlətməklə və ya zərərə yönəltməklə xəyanət etməməlidir.[1123]

---

kobud və qəddar bir kəsi xəlifə təyin edirsən?! Bizə rəhbər olsa, daha da kobud və qəddar olacaq. Onu üzərimizə xəlifə təyin etdiyinə görə Rəbbinin hüzurunda nə cavab verəcəksən?!" (Tarixul-Mədinə, c. 2, s. 671)

[1123] Bax: Muhəmməd Fuad Əbdülbaqinin "Sünənu İbn Macə" kitabına şərhi. c. 2, s. 1233

İhsan Zahirin İbn Əbu-Hədidin "Şərh"ini İmamın (ə) sözlərinə dəlil göstərməsi dəlil-sübutsuz, şəxsi ictihaddan savayı bir şey deyil. Eləcə də şiəyə qarşı dəlil olmaq səlahiyyəti də yoxdur. Bunu dəfələrlə qeyd etmişik. İbn Əbülhədid "Nəhcül-Bəlağə"yə yazdığı şərhinin 12-ci cildini bütünlüklə Ömərin sözlərinə, həyatına, əxlaqına və fəzilətlərinə həsr etmişdir. Əgər İhsan İlahi Zahir İbn Əbülhədidi şiə alimi olaraq sayırsa, o zaman kitabın bu cildini bütünlüklə şiələrə dəlil göstərməsi daha doğru olmazmı?!

7. "İmam Əli (ə) Ömərin keşiyində dayanır və onun həyatını qoruyurdu" iddiası

İhsan Zahir iddia edir ki, İmam Əli (ə) Ömərin müdafiəsində dayanır və onun həyatını qoruyurdu. Buna "Nəhcül-Bəlağə"dən dəlil göstərmiş, elə zənn etmişdir ki, buradakı sözlər Əhli-Sünnə kitablarında Ömərin fəziləti ilə bağlı nəql edilən sözlərin eynisidir. İhsan Zahir deyir: **"Əli Ömərin xilafəti boyunca ona qarşı bu cür idi. Onun özünü təhlükəyə atmasını istəmirdi. Nəticədə onun keşikçisinə və qoruyucusuna, məsləhətçisinə çevrilmiş, onun uzun müddət yaşayıb xilafətə rəhbərliyini davam etdirməsini arzulayır, ümmətin xeyri üçün Allaha xatir ona nəsihətlər verirdi. Bu səbəbdən, farslarla savaş barədə Ömər ibn Xəttab onunla məsləhətləşərkən onu bundan çəkindirdi və dedi: "Bu işə yardım və ya onu xar etmək (qələbə və ya məğlubiyyət) (əsgərlərin) azlığı və çoxluğu ilə olmamışdır..." (Nəhcül-Bəlağə, Sübhi Salehin təhqiqi ilə, s. 203-204, Ömərin farslarla savaşa gedərkən onunla (Yəni Əlilə) məsləhətləşdiyi zaman söylədiyi sözlər")**

Bu sözlərdən sonra Əlinin (r) Öməri Peyğəmbərin (s) yuxuda gördüyü və müsəlmanları onun zamanda İslamın ən yüksək səviyyəsinə çatacağı ilə müjdələdiyi şəxs təsəvvür etdiyinə kim şəkk edə bilər?! Ona görə də Əli (r) deyir: "Biz Allah tərəfindən verilən vədi gözləyirik. Allah öz vədinə vəfa göstərib mütləq, qoşununa yardım edər..."

O, bu sözləri ilə Peyğəmbərin (s) buyurduğu *"Sonra vedrəni Ömər aldı və onun əlində vedrə, sanki, böyüdü (yəni dövlət onun (Ömər ibn Xəttabın) əlində genişləndi – tərc.). Mən insanlardan onun kimi bacarıqlı olanı görmədim. Bu hal insanların hamısının dəvələri ilə birgə su içib, doyduqlarına qədər davam etdi"* sözünə işarə edir...

Bu barədə insanların diqqətini özünə bundan daha çox cəlb edəcək sözlər isə Uca Allahın kitabında buyurduğu vədidir: *"Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə onları özlərindən əvvəlkilər kimi yer üzünün varisləri edəcəyini, onlar (möminlər) üçün Allahın Özünün bəyəndiyi dinini (islamı) möhkəmləndirəcəyini (hər tərəfə yayacağını) və onların qorxusunu sonra əmin-amanlıqla (arxayınçılıqla) əvəz edəcəyini vəd vermişdir". (Nur, 55)*

Onun (İmam Əlinin – tərc.) "Biz Allah tərəfindən verilən vədi gözləyirik" sözləri bu mənadadır: Belə ki, Allah möminlərə və saleh əməl sahiblərinə dinini yer üzündə möhkəmləndirəcəyini və onları varislər edəcəyini söz vermişdir. Ey Faruq, biz həmin möminlər, sən isə həmin başçısan. Allah sənin xilafətin zamanı öz vədini yerinə yetirəcək, sənin rəhbərliyin, bayrağın və düzgün idarəçiliyin altında döyüşən orduya yardım edəcək. Çünki Allahın dininin qalib və üstün olması, qərar tutub yayılması lazımdır. Belə ki, din başçısının və məmləkət hökmdarının məqamı muncuqları toplayıb onları bir-birinə birləşdirən ipə bənzəyir. Əgər ip qırılsa, muncuqlar bir-birindən ayrılaraq dağılar və heç vaxt bir yerə toplanmaz".

Bu sözləri ilə də Peyğəmbərin (s) duasına işarə edir: "İlahi, İslamı Ömər ibn Xəttabla qüvvətləndir". Bunu Məclisi "Biharul-ənvar"da Muhəmməd Baqirdən rəvayət edib ("Biharul-ənvar", c.4, "Səma və aləm" kitabı). Peyğəmbərin (s) duasının mütləq qəbul olunacağı şübhəsizdir.

Əhli-Beytin ağası aralarında şiələrinin olduğu iddia edilən şəxslərlə bərabər bütün insanlara Faruqun hər hansı bir şəxs kimi olmadığını

çatdırır. Onun dəyirmanın oxu kimi olduğunu, müsəlmanların və ərəblərin dəyirmanının onun ətrafında dövr etdiyini bildirir. Əgər dəyirmanın oxu olmasa o əsla fırlanmaz! Ona görə də bu sözləri ilə Ömər qarşısında israr edir: "Çünki sən bu torpaqdan çıxsan, ətraf və nahiyələrdən ərəblər (fürsət əldə edib) sənlə olan peymanlarını pozacaq və fitnə-fəsad salacaqlar". Çünki ərəblər Faruqun kök və mehvər olduğunu bilirdilər. Əgər kök aradan getsə nə budaq, nə də yarpaq qalmayacaq. O, mehvərdir, əgər sınsa, dəyirman daşı da dövr etməyəcək. Eləcə də, sən bu qövmün və zəiflərinin himayədarısan. Bizdən uzaqlaşmağına və özünü ölümlə üz-üz qoymağına izn vermərik. Çünki biz sənsiz keçinə bilmərik..."[1124]

Cavab

İhsan Zahirin "Nəhcül-Bəlağə"dəki bu mətni öz iddiasına dəlil göstərməsi yanlışdır. Çünki oradakı sözlər iddiasına uyğun deyil. Dəlil göstərdiyi bu mətnin əslini tam şəkildə sizə təqdim edirik:

"İmam Əlinin (ə) İran əhli ilə döyüşə gedərkən buyurduğu kəlamlarındandır. Onunla məsləhətləşən Ömər ibn Xəttaba demişdir: "Bu işə (müqəddəs İslam dininə) yardım və ya onu xar etmək (lap əvvəldən qoşunun) azlıq və çoxluğu ilə olmamışdır (ki, kafirlərin qoşununun çoxluğundan və öz qoşunumuzun azlığından qorxaq). O, Allahın dinidir ki, onu (digər dinlərə) qalib edib. O, Allahın qoşunudur. Çatmalı olduğu mərtəbəyə çatana, aşkar olmalı olduğu yerdə aşkarlanana qədər onları hazırladı və kömək etdi. Biz Allah tərəfindən verilən vədi gözləyirik. Allah öz vədinə vəfa edərək qoşununa yardım edər. (Ömərin döyüş meydanına getməməli olduğu haqda fikrini əsaslandıraraq belə bəyan edir:) Rəhbərin yeri muncuqları toplayıb onları bir-birinə birləşdirən ipə bənzəyir. Əgər ip qırılsa, muncuqlar bir-birindən ayrılaraq dağılar və heç vaxt bir yerə toplanmaz. Ərəblər bu gün az olsalar da, İslam dininə (və onun başqa dinlərə qələbə çalmasına) görə çoxdurlar, birlik və

[1124] Şiə və Əhli-Beyt, s. 96

bütövlüyünə görə qalibdirlər. Sən dəyirmanın ortasındakı ox kimi (sakit və təmkinli) ol. (Müharibə) dəyirmanını ərəblərin vasitəsilə fırlat (qoşunu təchiz etməyə və işlərində nizam-intizam yaratmağa çalış). Onları müharibə alovuna daxil edərək özün döyüş meydanına getmə. Çünki sən bu torpaqdan (Mədinədən) çıxsan, ətraf və nahiyələrdən ərəblər (fürsət əldə edib) sənlə olan peymanlarını pozacaq və fitnə-fəsad salacaqlar. İş o yerə çatacaq ki, arxada qoyduğun sərhədləri qorumaq sənin üçün döyüş meydanına getməkdən daha mühüm olacaq. (Başqa cəhətdən də Sən döyüş meydanına daxil olsan,) iranlılar səni görəcək və deyəcəklər: "Bu, ərəblərin rəhbəridir. Onu aradan götürsəniz (qətlə yetirsəniz), rahatlıq taparsınız". Bu düşüncə onların sənə (sənlə döyüşə) olan hərisliyini və səni (məhv etmək) tamahını daha da artırar.

İranlıların müsəlmanlarla döyüşə gəlmələri barədə xatırlatmana gəlincə isə, (qorxusu yoxdur, çünki) səndən daha çox Uca Allah onların gəlişini xoşlamır və O, bəyənmədiyi şeyi (razı olmadığını) aradan götürməkdə daha qüdrətlidir.

Sayların çoxluğu barədə dediyinə gəlincə isə, (bunun üçün də narahatlıq yeri yoxdur, çünki) biz bundan əvvəl (Peyğəmbərin (s) vaxtında və İslamın ilk illərində kafirlərlə) qoşunun çoxluğu ilə döyüşmürdük, əksinə, Uca Allahın yardımı, köməyi ilə döyüşürdük".[1125]

Bu kəlamın məzmunu budur: müsəlmanların çoxluğu və ya azlığı onların qələbəsinə və ya məğlubiyyətinə meyar deyil. Bu, Allahın əlində olan bir məsələdir. O, dilədiyinə yardım edərək güc bəxş edir və dilədiyini də xar edir. Müsəlmanlar hidayət yolunda olduqları müddətcə Uca Allah onlara yardım edəcəyini vəd verib. O, pak və münəzzəhdir, əsla vədinə xilaf çıxmaz. Ümmətin birliyi onların başçılarının mövcud olub-olmamasına bağlıdır. Necə ki, gücləri İslamda və izzətləri vəhdətdədir. Xilafət rəhbərliyi əlində olduğuna görə isə Ömər bu vəhdəti qorumalı, şəxsən farslarla müharibəyə getmək istəyi ilə onu təhlükəyə atmamalıdır. Çünki bu addımı ərəblərin daxildə onun hakimiyyətinə qarşı üsyan

[1125] Nəhcül-Bəlağə, xütbə 146 (142); c. 2, s. 29-30

qaldırması və farsların savaşda onu öldürüb daha da güclənməsi ilə nəticələnəcək. Farsların ordusunun sayının çoxluğu Ömərin şəxsən müharibəyə getməsi üçün bir səbəb deyil. Belə ki, Allah Öz dinin qoruyucusudur. Müsəlmanlar əvvəlki savaşlarda da saylarının çoxluğuna görə deyil, Allahın yardımına əsasən qələbə qazanırdılar.

"Nəhcül-Bəlağə"dəki bu cümlələri aşağıdakı kimi qeyd etmək olar:

A. Əsgər sayının çoxluğu və ya azlığı İslamın qələbəsi və ya məğlubiyyəti üçün meyar deyil. Buna İmamın (ə) *Bu işə (müqəddəs İslam dininə) yardım və ya onu xar etmək (lap əvvəldən qoşunun) azlıq və çoxluğu ilə olmamışdır (ki, kafirlərin qoşununun çoxluğundan və öz qoşunumuzun azlığından qorxaq). O, Allahın dinidir ki, onu (digər dinlərə) qalib edib. O, Allahın qoşunudur. Çatmalı olduğu mərtəbəyə çatana, aşkar olmalı olduğu yerdə aşkarlanana qədər onları hazırladı və kömək etdi" sözləri dəlalət edir. Bu kəlam Allahın Qurani-Kərimdəki ayəsindən götürülüb:* ***"Allah sizə bir çox yerlərdə, həmçinin Hüneyn (vuruşu) günündə kömək etdi. O gün çox olmağınız xoşunuza gəlsə də, bir faydası olmadı, gen dünya sizə dar oldu, sonra dönüb qaçdınız. Sonra da Allah Öz Peyğəmbərinə və möminlərə arxayınlıq nazil etdi, görmədiyiniz əsgərlər endirdi və kafirləri əzaba düçar etdi. Bu, kafirlərin cəzasıdır!";[1126] "Allahın rəhmətinə qovuşacaqlarına inananlar isə dedilər: "Neçə dəfə olub ki, az bir dəstə Allahın izni (iradəsi) ilə çox bir dəstəyə qalib gəlib! Allah səbir edənlərlədir!"[1127]***

Bu və buna bənzər ayələr müsəlmanların çoxluq və ya azlığının qələbə və ya məğlubiyyət üçün səbəb olmadığını bildirir. İmam Əlinin (ə) sözləri də bu məzmunu ehtiva edir.

B. Müsəlmanların qələbəsi və ya məğlubiyyəti Allah tərəfindəndir. Uca Allah onlara yardım edəcəyini vəd verib. O, bütün eyiblərdən pak və münəzzəhdir, vədini yerinə yetirən və əsgərlərinə yardım edəndir. Buna İmamın (ə) *"Biz Allah*

[1126] Tövbə, 25-26

[1127] Bəqərə, 249

tərəfindən verilən vədi gözləyirik. Allah öz vədinə vəfa göstərib qoşununa yardım edər" sözləri dəlalət edir. Bu məna da Qurandan götürülmüşdür. Uca Allah buyurur: ***"Ey iman gətirənlər! Əgər siz Allaha yardım göstərsəniz, O da sizə yardım göstərər və sizi sabitqədəm (cihadda möhkəm, qüvvətli) edər";***[1128] Həmçinin buyurur: ***"Ya Peyğəmbər! Möminləri döyüşə həvəsləndir (təşviq et). İçərinizdə iyirmi səbirli kişi olsa, iki yüz kafirə, yüz səbirli kişi olsa, min kafirə qalib gələr. Çünki onlar (həqiqətən, Allahın möminlərə olan köməyini) anlamayan bir tayfadır! (Ey möminlər!) İndi Allah (yükünüzü) yüngülləşdirdi. Çünki O sizdə bir zəiflik olduğunu bilirdi. Artıq aranızda yüz səbirli kişi olsa, iki yüz nəfərə, min kişi olsa, iki min nəfərə Allahın izni ilə qələbə çalar. Allah səbir edənlərlədir!"***[1129]

Bu və bu mövzuda olan digər ayələr müsəlmanların qələbə və məğlubiyyətinin meyarlarını qeyd edir. Meyar onlardakı iman, təqva, ixlas, səbr, Allaha və rəsuluna olan itaətləridir.

İmamın (ə) sözləri də bu ayələrin məzmunundadır. Məqsədinin bu məzmun olduğuna İmamın (ə) *"...biz bundan əvvəl (Peyğəmbərin (s) vaxtında və İslamın ilk illərində kafirlərlə) qoşunun çoxluğu ilə döyüşmürdük, əksinə, Uca Allahın yardımı, köməyi ilə döyüşürdük"* sözləri də işarə edir.

C. Ümmətin parçalanmadan və təfriqədən qorunması üçün rəhbərin olması zəruridir. Onların vəhdəti buna bağlıdır. Buna İmamın (ə) *"Rəhbərin yeri muncuqları toplayıb onları bir-birinə birləşdirən ipə bənzəyir. Əgər ip qırılsa, muncuqlar bir-birindən ayrılaraq dağılar və heç vaxt bir yerə toplanmaz"* sözləri dəlalət edir.

Ç. Ərəblərin güc və izzətinin arxasındakı sirr İslam və onların birliyidir. Nə qədər ki, onlar İslamın hidayət yolundadırlar və sözləri də birdir, onlarda güc və izzət olacaq. Onları gücləri İslamda, izzətləri isə vəhdətlərindədir. Buna İmamın

---

[1128] Muhəmməd, 7

[1129] Ənfal, 65-66

(ə) "*Ərəblər bu gün az olsalar da, İslam dininə (və onun başqa dinlərə qələbə çalmasına) görə çoxdurlar, birlik və bütövlüyünə görə qalibdirlər.*" sözləri işarə edir. Bu kəlmələr də Qurani-Kərimə əsaslanıb. Uca Allah buyurur: ***"Həqiqətən, siz Bədrdə (düşmənə nisbətən az və) zəif olduğunuz halda, Allah sizə yardım etdi. (Allaha) şükür edən olmaq üçün Allahdan qorxun!"***[1130] Həmçinin: ***"Hamılıqla Allahın ipinə (dininə, Qurana) möhkəm sarılın və (firqələrə bölünüb bir-birinizdən) ayrılmayın! Allahın sizə verdiyi nemətini xatırlayın ki, siz bir-birinizə düşmən ikən O sizin qəlblərinizi (İslam ilə) birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz oddan olan bir uçurumun kənarında ikən O sizi oradan xilas etdi. Allah Öz ayələrini sizin üçün bu şəkildə aydınlaşdırır ki, haqq yola yönəlmiş olasınız!"***[1131] Və bu qəbildən olan digər ayələr...

D. Ömeri ərəblərin birliyini qorumağa çağırması; Buna İmamın (ə) "...*Sən dəyirmanın ortasındakı ox kimi ol. (Müharibə) dəyirmanını ərəblərin vasitəsilə fırlat (qoşunu təchiz etməyə və işlərində nizam-intizam yaratmağa çalış). Onları müharibə alovuna daxil edərək özün döyüş meydanına getmə"* sözləri dəlalət edir.

E. Ömərin farslarla müharibəyə getməsində iki cəhətdən zərər var:

Birincisi: Ərəblərin birliyinin parçalanması; Buna İmamın (ə) *"Çünki sən bu torpaqdan (Mədinədən) çıxsan, ətraf və nahiyələrdən ərəblər (fürsət əldə edib) sənlə olan peymanlarını pozacaq və fitnə-fəsad salacaqlar. İş o yerə çatacaq ki, arxada qoyduğun sərhədləri qorumaq sənin üçün döyüş meydanına getməkdən daha mühüm olacaq"* sözləri dəlalət edir. İmam (ə) bu sözləri ilə ümməti ağuşuna alacaq daxili təhlükədən xəbər verir. Bu isə müxalif ərəblərin İslam dövlətinə yaratdıqları təhlükədir. Onlar ölkə rəhbərinin şəhəri tərk etməsini fürsət bilib paytaxta hücum çəkəcəkdilər.

[1130] Ali-İmran, 123

[1131] Ali-İmran, 103

İkinci: Müsəlmanların müharibədəki məğlubiyyəti; Buna isə İmamın (ə) Ömərə söylədiyi *"...(Başqa cəhətdən də Sən döyüş meydanına daxil olsan,) iranlılar səni görəcək və deyəcəklər: "Bu, ərəblərin rəhbəridir. Onu aradan götürsəniz (qətlə yetirsəniz), rahatlıq taparsınız".* Bu düşüncə onların sənə (səninlə döyüşə) olan hərisliyini və səni (məhv etmək) tamahını daha da artırar" sözləridir.

F. Fars ordusunun müsəlmanlarla savaşa gəlmələrindən və saylarının çoxluğundan qorxan Öməri arxayınlaşdıraraq İmam (ə) deyir: *"İranlıların müsəlmanlarla döyüşə gəlmələri barədə xatırlatmana gəlincə isə, (qorxusu yoxdur, çünki) səndən daha çox Uca Allah onların gəlişini xoşlamır və O, bəyənmədiyi şeyi (razı olmadığını) aradan götürməkdə daha qüdrətlidir. Sayların çoxluğu barədə dediyinə gəlincə isə, (bunun üçün də narahatlıq yeri yoxdur, çünki) biz bundan əvvəl (Peyğəmbərin (s) vaxtında və İslamın ilk illərində kafirlərlə) qoşunun çoxluğu ilə döyüşmürdük, əksinə, Uca Allahın yardımı, köməyi ilə döyüşürdük".*

Bütün bunlar İmamın (ə) müsəlman ümmətinin birliyini və dövlətini qorumaq üçün çalışdığını göstərir. Burada İhsan Zahirin iddia etdiyi Ömərin şəxsiyyətinə olan heç bir məhəbbət, qayğı və ya hərislikdən söhbət gedə bilməz. İmamın (ə) Ömərə verdiyi bu nəsihətlər ona olan sevgisindən və ya həyatını qorumaq istəyindən irəli gəlmir. O, bu nəsihəti ilə İslamı və müsəlmanların birliyini qorumağa çalışır. Eyni zamanda da Peyğəmbər (s) sünnəsinə əməl edərək məsləhət istəyən şəxsə layiqli nəsihət verir.

Bu mənalar Əhli-Sünnənin Peyğəmbərdən (s) rəvayət etdiyi *"Sonra vedrəni Ömər aldı və onun əlində vedrə, sanki, böyüdü"* sözlərindəki məna ilə yaxından-uzaqdan heç bir əlaqəsi yoxdur. Göründüyü kimi, Peyğəmbərə (s) nisbət verilən bu sözlərlə Möminlərin əmiri Əlinin (ə) sözlərinin arasında heç bir cəhətdən bənzərlik görünmür. Hətta ehtimal olaraq, Əhli-Sünnədən "Nəhcül-Bəlağə"ni şərh edən şəxslər də bu rəvayətə öz şərhlərində qeyd etməyiblər. Bütün bunları rəvayətin məzmunundakı problemlərə göz yumaraq söyləyirik.

Bundan daha uzaq iddia isə İhsan Zahirin İmamın (ə) bu sözləri ilə ***"Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə onları özlərindən əvvəlkilər kimi yer üzünün varisləri edəcəyini..."*** ayəsini qəsd etdiyini söyləməsidir. Bu dəlilsiz bir iddiadır. Bunu ehtimal olaraq belə heç kəs iddia etməyib. Sanki, o, bu iddiası ilə bəzi Əhli-Sünnə alimlərinin həmin ayəni Əbu Bəkr və Ömərin xilafətinə haqq qazandıran dəlil göstərmələrinə əsaslanıb ki, guya Allah bunu səhabələrə vəd etmişdi. Uca Allahın vədi, şübhəsiz ki, haqdır. Onların iddialarına görə, səhabələrin arasından bir dəstə şəxsin xilafəti ilə Allahın dini yer üzündə qərar tutmalı idi ki, bu vəsflər də yalnız Əbu Bəkrin, Ömərin, Osmanın və Möminlərin əmiri Əlinin (ə) xilafət dövrlərində mövcud olub.[1132]

Bu cür dəlilin batil olduğu aydın məsələdir. Ayə mütləq (ümumi) mənadadır. Mütləqi xüsusiləşdirən dəlil olmadan onunla xüsusi hökm vermək yanlışdır. Başqa sözlə: Ayə yalnız möminlərin yer üzündəki xilafəti və İslamın digər dinlər üzərindəki qələbəsi barədə Uca Allahın verdiyi vədinin haqq olduğuna dəlalət edir. Lakin bunun hansı zamanda baş verəcəyinə ayədə heç bir işarə yoxdur. Eləcə də onu hər hansı şəxslərə aid etmək barədə də nə Quranda, nə də sünnədə

[1132] İci bu ayəni dəlil gətirərək deyir: "Xitab səhabəyədir və cəm kəlmədən istifadə olunduğuna görə, onların ən az sayı üç olmalıdır. Allahın vədi isə şübhəsiz ki, haqdır. Səhabələrin arasından bir dəstə şəxsin xilafəti ilə Allahın dini yer üzündə qərar tutmalı idi ki, bu vəsflər də yalnız ilk dörd xəlifənin dövrlərində mövcud olub. Bu Allahın vədi idi". (əl-Müvafiq, c. 3, s. 619)

Cəssas deyir: "Uca Allahın ***"Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə..."*** ayəsində... dörd Raşidi rəhbərin xəlifəliyinin doğruluğuna dəlalət var. Belə ki, Uca Allah onları xəlifə qərar verərək vəd buyurduğu kimi, onlarla dini yer üzündə möhkəmlətdi". (Əhkamul-Quran, c. 3, s. 425-426)

Baqilani deyir: ***"Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə..."*** ayəsilə Uca Allah dörd Raşidi imamın xəlifəliyini vəd edir". (Təmhidul-əvaili və təlxisud-dəlail, s. 185)

Səmani deyir: "Elm əhli bu ayəni dörd raşidi xəlifənin xəlifəliyinin doğruluğuna dəlil göstərir. Bunlar Əbu Bəkr, Ömər, Osman və Əlidir (r)". (Təfsir, Səmani, c. 3, s. 544).

İbn Əbu Hatəm təfsirində Əbu Tahirin belə dediyini nəql edir: "Dayım, yəni Əbdürrəhman ibn Əbdülhəmid Misri deyir: "Əbu Bəkrlə Ömərin rəhbərliyinin dəlilini Allahın kitabında görürəm. Allah-taala buyurur: ***"Allah aranızdan iman gətirib yaxşı işlər görənlərə..."*** (Təfsir, İbn Əbu Hatəm, c. 8, s. 2627-2628)

bir dəlil mövcud deyil. Onu Əbu Bəkrin, Ömərin... xilafətinə şamil etmək havadan deyilmiş söz və qeybdən verilmiş xəbər, İhsan Zahirin və onunla həmfikir olanların sırf şəxsi ictihadlarıdır.

İmamın (ə) sözlərində Əhli-Sünnənin Peyğəmbərdən (s) Ömər üçün rəvayət etdiyi duaya işarə olduğu iddiası da boş bir ictihad, ortaya atılmış dəlilsiz fikir və müsəlmanların icmasını pozmaqdır. Məzhəb fərqliliklərinə baxmayaraq, heç bir müsəlman belə bir iddia ilə çıxış etməmişdir. Həmçinin Ömər haqqında deyilmiş və Peyğəmbərə (s) nisbət verilən bu dua Əhli-Sünnənin "Səhih Buxari", "Səhih Müslim" və digər səhih kitablarında, eləcə də heç bir səhih rəvayət yolu ilə nəql edilməyib. Heysəmi "Məcməuz-zəvaid"də[1133] Peyğəmbərin (s) Ömər haqqında söylədiyi duaları qeyd etmiş, onların sənədlərindəki zəifliyi vurğulamış və buna baxmayaraq, Öməri müdafiə etməyə çalışmışdır. Həmçinin bəzi Əhli-Sünnə alimləri də duanın məzmunu barədə müzakirə açaraq Ömərin İslamı qəbul etməklə izzət tapdığını vurğulamışlar. Əkrəmədən rəvayət edirlər ki, ondan "İlahi, İslamı Ömərlə qüvvətləndir" sözü barədə soruşulduqda belə söylədi:

[1133] Heysəmi deyir: "Ömərin İslamı qəbul etməsi" babı – Abdullahdan (yəni İbn Məsuddan) Peyğəmbərin (s) belə buyurduğu nəql edilir: "İlahi, İslamı Ömər ibn Xəttabla və ya Əbu Cəhl ibn Haşimlə izzətləndir"... Bunu Təbərani "Möcəmul-kəbir"də və "Möcəmul-övsat"da rəvayət edib. "Möcəmul-kəbir"dəki rəvayətin raviləri Səhih"in raviləridir. Yalnız Mücalid ibn Səiddən savayı. Onu "siqə" (etibarlı) saymışlar. Əbu Bəkr siddiqdən nəql olunur ki, Peyğəmbər (s) buyurdu: "İlahi, İslama Ömər ibn Xəttabla güc ver". Təbərani bunu "Möcəmul-övsat"da rəvayət edib. Ravilərin arasında Muhəmməd ibn Həsən ibn Zübalə var ki, onun hədisləri tərk olunur. Ənəs ibn Malikdən nəql olunur ki, Peyğəmbər bir gün cümə axşamı belə dua etdi: "İlahi, İslamı Ömər ibn Xəttab və ya Ömər ibn Haşimlə izzətləndir". Ömər cümə günü gəlib İslamı qəbul etdi". Bunu Təbərani "Möcəmul-övsat"da rəvayət edib. Ravilərdən biri Qasim ibn Osman Bəsridir. O, zəif ravidir...

Ömərin köləsi Əsləmdən Ömər ibn Xəttabın belə dediyi rəvayət olunur: "İstəyirsiniz sizə İslamı qəbul etməyimdən danışım?" Biz "Bəli" dedik. Dedi: "Peyğəmbərə (s) qarşı ən qəddar şəxslərdən idim... Sonra mənə dedilər: "Ey Xəttabın oğlu, gözün aydın olsun! Peyğəmbər (s) bazar ertəsi günü belə dua edib: "İlahi dini Sənə sevimli olacaq iki nəfərlə – Ömər ibn Xəttab və Əbu Cəhl ibn Haşimlə izzətləndir"... Bunu Bəzzar rəvayət edib. Ravilərin arasında Üsamə ibn Zeyd ibn Əsləm var ki, o, zəif ravidir". (Məcməuz-zəvaid, c. 9, s. 61-63)

“Allaha pənah aparıram! İslam dini bundan daha izzətlidir! Lakin Peyğəmbər (s) belə demişdi: “İlahi, Öməri və ya Əbu Cəhli İslamla izzətləndir”.[1134]

Rəvayətdə diqqət çəkən məqamlardan biri “Əbu Cəhl” sözüdür. Bu sözün Peyğəmbər tərəfindən İslamın ilk dövrlərində, Ömər müsəlman olmazdan əvvəl söyləndiyi fərz olunur. Həmin vaxt Ömər “Əbülhəkəm” kimi tanınırdı. Həmçinin fərz olunan Peyğəmbərin (s) İslamın izzətlənməsi üçün bu iki nəfərdən birisi üçün dua etməsidir. Şübhəmiz yoxdur ki, bu rəvayət səhabələrin arasındakı ğulatlıq (şişirtmə, həddi aşma) əqidəsinin nəticəsində yaranmışdır. Hazırda biz bunu müzakirə etmək fikrində deyilik. Belə ki, söhbətimizin mövzusundan kənardır, inşallah, məqamı yetişdikdə söyləyəcəyik. Bəzi müəlliflər nə gözəl söyləmişlər: “Peyğəmbərin (s) dövrünü araşdıran şəxs Ömərin İslama izzət verdiyi heç bir hadisə ilə qarşılaşmaz”.[1135]

Buna əsasən, şiə mənbəyi nədir, hələ Əhli-Sünnənin özlərinin arasında bu hədislə bağlı fikir yekdilliyi yoxdur.

İhsan Zahirin Məclisinin sözləri üzərində saxtakarlığı

İhsan Zahirin “İlahi, İslamı Ömərlə izzətləndir” sözünü Əllamə Məclisinin İmam Baqirdən (ə) rəvayət etdiyi iddiası açıq-aydın saxtakarlıq və təhrifdir, dəlil kimi əsla istifadə edilə bilməz. Belə ki, kitabdakı həmin rəvayət mürsəldir (sənədsizdir), ***“Mən (insanları haqq yoldan) azdıranları Özümə köməkçi də***

[1134] İcluni deyir: “əl-Məqasid”də yazılır: “Tarixçi Əbu Bəkrin Əkrəmədən rəvayət edərək ondan “İlahi, İslamı Ömərlə qüvvətləndir” soruşulduqda, “Allaha pənah aparıram! İslam dini bundan daha izzətlidir! Lakin Peyğəmbər (s) belə demişdi: “İlahi, Öməri və ya Əbu Cəhli İslamla izzətləndir” söylədiyini səhih (doğru) hesab etmirəm. “ət-Təmyiz” kitabında deyir:

Camaatın dilində dolaşan “İlahi İslamı iki Ömərdən biri ilə izzətləndir və ya qüvvətləndir” sözünün mənbəyinin olduğunu görməmişəm.

Nəcm Süyutinin belə dediyini nəql edib: “Hazırkı dövrdə “iki ən sevimli Ömərlə izzətləndir” kimi də məşhurlaşan bu sözlərin tam araşdırmasından sonra hədis yolları ilə heç bir əsli olmadığını gördüm”. (Kəşful-xəfa, c. 1, s. 184-185)

[1135] əl-Xudətu (Sünnilikdən şiəliyə), Saleh Vərdani, s. 127-128

tutmadım!"[1136] ayəsinin nazil olma səbəbinin bəyanı ilə bağlıdır və bunu deyən şəxsə etiraz mənası daşıyır. Sizə Əllamə Məclisinin "Biharul-ənvar"dakı sözlərinin tam mətnini təqdim edirik ki, İhsan İlahi Zahirin şiə mənbələrindən nəql etdiyi sözlərdəki saxtakarlıq və uydurmalarının həcmi tam görünsün:

A. Əllamə Məclisi deyir: *"İbn Bəşirin belə dediyini rəvayət edirlər: "Əbu Cəfərə (İmam Baqirə) dedim: "Camaat Peyğəmbərin (s) "İlahi, İslamı Əbu Cəhl və ya Ömərlə izzətləndir" deyə buyurduğunu iddia edir". Əbu Cəfər (ə) buyurdu: "Allaha and olsun ki, Peyğəmbər (s) əsla belə bir şey söyləməyib. Allah öz dinini Muhəmmədlə (s) izzətləndirib. Allah dinini əsla şər məxluqları ilə izzətləndirməz".*[1137]

İhsan Zahirin məqsədinin bu rəvayət olması mümkün deyil. Çünki bu rəvayətdə İmam Baqir (ə) Peyğəmbərə (s) istinad edilən bu yalanı inkar edir. Bunu onun sözlərində aydın görürük: *"Allaha and olsun ki, Peyğəmbər (s) əsla belə bir şey söyləməyib".*

B. Əllamə Məclisi deyir: *"Təfsirul-Əyyaşi"də Muhəmməd ibn Mərvandan, o da Əbu Cəfərdən (ə) Uca Allahın* ***"Mən onları nə göylərin, nə yerin yaradılışına, nə də öz yaradılışlarına şahid etmədim və Mən (insanları haqq yoldan) azdıranları Özümə köməkçi də tutmadım!"*** *ayəsi barədə belə buyurduğu nəql edilir: "Peyğəmbər (s) "İlahi, dini Ömər ibn Xəttab və ya Əbu Cəlh Haşimi ilə izzətləndir" dedikdə, Uca Allah onların hər ikisini nəzərdə tutaraq:* ***"Mən (insanları haqq yoldan) azdıranları Özümə köməkçi də tutmadım!"*** *ayəsini nazil etdi".*[1138]

Bəlkə də, İhsan Zahirin iddiası bu rəvayətlə bağlıdır. Lakin irad olaraq bildirilməlidir ki, bu, Əyyaşinin "Təfsir"indəki[1139] mürsəl (sənədsiz) rəvayətlərdəndir. Həmçinin əvvəlki rəvayətə də ziddir. Eləcə də, bu rəvayət ***"Mən (insanları haqq yoldan) azdıranları Özümə köməkçi də tutmadım!"*** ayəsinin

---

[1136] Kəhf, 51

[1137] Biharul-ənvar, Əllamə Məclisi, c. 30, s. 382

[1138] Biharul-ənvar, Əllamə Məclisi, c. 30, s. 234; c. 54, s. 12

[1139] Təfsir, Əyyaşı, c. 2, s. 328

nazil olma səbəbinin bəyanında deyilir. Rəvayətin dəlalətinə əsasən, Uca Allah həmin ayəni nazil etməklə İslamın Ömərə və ya digər şəxsə ehtiyacının olmadığını bildirir, müşrik, kafir, münafiq və insanları haqq yoldan azdıranlar bəyənməsə də, Öz dinini bütün dinlərə qalib edəcəyini buyurur.

C. Əllamə Məclisi deyir: *"Təfsirul-Əyyaşi"də Muhəmməd ibn Mərvanın Əbu Abdullaha (İmam Sadiqə) belə dediyi nəql edilir: "Sənə fəda olum! Peyğəmbər (s) buyurub: "İslama Əbu Cəhl ibn Hişam və ya Ömər ibn Xəttabla izzət ver". Dedi: "Ey Muhəmməd, bəli, Allaha and olsun ki, bunu deyib".*

Bu mənə boynumun vurulmasında daha pis təsir etdi. Sonra mənə yaxınlaşıb dedi: "Ey Muhəmməd, Allahın nazil etdiyi ayəni bilirsənmi?" Dedim: "Sənə fəda olum, sən daha yaxşı bilərsən!"

Buyurdu: "Peyğəmbər (s) Ərqəmin evində idi. Orada "İlahi, İslama Əbu Cəhl ibn Hişam və ya Ömər ibn Xəttabla izzət ver" deyə dua etdi. Uca Allah da o ikisi barədə ***"Mən onları nə göylərin, nə yerin yaradılışına, nə də öz yaradılışlarına şahid etmədim və Mən (insanları haqq yoldan) azdıranları Özümə köməkçi də tutmadım!"***[1140] *ayəsini endirdi".*[1141]

İhsan Zahirin məqsədi bu rəvayət də ola bilər. Lakin rəvayət İmam Baqirdən (ə) deyil, İmam Sadiqdən (ə) nəql edilir.[1142] Bundan əlavə, Əyyaşinin "Təfsir"indəki[1143] mürsəl (sənədsiz) rəvayətlərdəndir, birinci rəvayətə ziddir, ***"Mən (insanları haqq yoldan) azdıranları Özümə köməkçi də tutmadım!"*** ayəsinin nazil olma səbəbinin bəyanı üçün söylənib, İslamın Ömərə və ya digərlərinə ehtiyacının olmadığına dəlalət edir.

[1140] Kəhf, 51

[1141] Biharul-ənvar, Əllamə Məclisi, c. 30, s. 234-235

[1142] İhsan Zahirin şiələrin İmamlarını (ə) düzgün seçə bilməməsi yeni məsələ deyil. Belə ki, bir neçə yerdə buna rast gəlmişik. Bununla belə o, şiə məzhəbini tam öyrəndiyini və onların əqidə əsaslarını bildiyini iddia edir!

[1143] Təfsir, Əyyaşı, c. 2, s. 328

8. Uca Allahın haqqı Ömərin dilində qərar verdiyi iddiası

İhsan Zahir iddia edir ki, İmam Əlinin (ə) etiqadına görə, Uca Allah haqqı Ömərin dilində və qəlbində qərar vermişdir. Həmçinin Ömərin Peyğəmbərin sözləri ilə danışan şəxs olduğunu düşünürdü. Bu iddiasına dəlil olaraq isə daha böyük bir iddia ortaya atmış, İmamın (ə) Ömərin hətta əhəmiyyətsiz əməl və davranışların addım atmadığını söyləmişdir. İkinci iddiasına Dinəvərinin "Əxbarut-tivar" kitabından nəql etdiyi rəvayəti, Seyyid Mürtəzaya nisbət verdiyi sözləri göstərmiş və şiə kitablarından olduğu iddiası ilə daha üç rəvayətlə bunu təsdiqləməyə çalışmışdır. İhsan Zahir deyir: **"Əlinin (r) etiqadına görə, Allah haqqı Ömərin dilində və qəlbində qərar vermişdi. Onun fikrinə əsasən, Ömər Peyğəmbərin (s) sözləri ilə danışırdı. Bu səbəbdən də, hətta kiçik və əhəmiyyətsiz görünən məsələlərdə belə Ömərin əməl və davranışına zidd addım atmırdı. Şiə Dinəvəri nəql edir ki, (Əli) Kufəyə gəldiyi zaman ona deyilmişdi: "Ey Möminlərin əmiri! Sarayda qalacaqsan?" O isə cavabında "Mənim saraya ehtiyacım yoxdur. Belə ki, Ömər ibn Xəttab buna nifrət edərdi. Mən Rəhbədə qalacağam. Sonra irəliləyib böyük bir məscidə daxil oldu, orada iki rükət namaz qıldı, ardınca Rəhbədə qərarlaşdı". (Əxbarut-tival, Əhməd ibn Davud Dinəvəri, s. 152)**

Həmçinin Fədək barədə söhbət etdikdə Ömərin rəftarının ziddinə addım atmaqdan imtina etmişdir. Seyyid Mürtəza deyir: "Xilafət Əli ibn Əbu Talibə (ə) yetişdikdə Fədək barədə söhbət açaraq dedi: "Əbu Bəkrin qadağan etdiyi, Ömərin də bu qadağanı davam etdirdiyi bir şeyi geri qaytarmağa Allahdan həya edirəm" ("əş-Şafi fil-imamət", s. 213; həmçinin, Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid)

Burada şiə kitablarından daha üç rəvayəti nəql edirik ki, bu iki rəvayətə dəstək xarakteri daşısın.

Birinci: "Həsən ibn Əli ibn Əbu Talibdən (r) belə dediyini nəql edilir: "Əlinin Ömərə zidd addım atdığını xatırlamıram. O, Kufəyə gəldikdə onun

(Ömərin) etdiklərindən heç bir şeyi dəyişmədi". ("ər-Riyazun-nəzirə" Muhib Təbəri, c. 2, s. 85)

İkinci: "Nəcran əhalisi Əlinin yanına gələrək Ömərin onlara qarşı etdikləri rəftardan şikayət etdilər. Əli onlara cavabında dedi: "Ömər dürüst xəlifə olub. Onun etdiyi heç bir şeyi dəyişməyəcəyəm". (Beyhəqi, c. 10, s. 130; əl-Kamil, İbn Əsir, c. 2, s. 201, Misir çapı; Tarixul-kəbir, İmam Buxari, c. 4, s. 145, Hindistan çapı; Kitabul-xərac, İbn Adəm, s. 23, Misir çapı; Kitabul-əmval, s. 98; Futuhul-buldan, s. 74)

Üçüncü rəvayət: "Əli Kufəyə gəldikdə buyurdu: "Ömərin bağladığı heç bir düyünü açan deyiləm". (Kitabul-xərac, İbn Adəm, s. 23; həmçinin, Futuhul-buldan, Bəlazuri, s. 74, Misir çapı)

Bütün bunların səbəbi Əlinin Öməri Peyğəmbər hədislərindən ilham alan və harada olsa ətrafında haqqın dövr etdiyi şəxs kimi görməsindən irəli gəlir".[1144]

Cavab

Bu iddialar obyektivlikdən tam uzaq və böyük Əhli-Sünnə alimlərinin etiqadlarına ziddir. Onlardan heç biri Möminlərin əmiri Əlinin (ə) Öməri Peyğəmbər (s) hədislərindən ilham alan və harada olsa ətrafında haqqın dövr etdiyi şəxs kimi gördüyünü iddia etməmişdir!

İhsan Zahir özü də bu böyük iddiasına heç bir dəlil təqdim etməmişdir. Burada yalnız öz gümanına əsasən söylədiyi **"hətta kiçik və əhəmiyyətsiz görünən məsələlərdə belə Ömərin əməl və davranışlarına zidd addım atmırdı"** iddiasına "dəlil" göstərir. Bunlar həqiqətdə dəlil hökmündə deyil, növbəti yeni bir iddiadır. Haqqın Ömərin dilində və qəlbində qərar verildiyi iddiasına da İmamın (ə) onun rəftar və əməlinə xilaf addım atmadığını dəlil göstərir. Bunlar qəribəliyin son həddidir!

[1144] Şiə və Əhli-Beyt, s. 98-99

İmam Əlinin (ə) hətta kiçik və əhəmiyyətsiz məsələlərdə belə Ömərin əməl və rəftarına zidd addım atmadığı iddiasına göstərdiyi dəlilə gəldikdə, onların heç biri dəlil və höccət səlahiyyətində deyil. Nə üçün:

Birinci: Dinəvərinin rəvayəti

Əbu Hənifə Əhməd ibn Davud Dinəvəri deyir: *"Elm əhlinin keçmişlə bağlı xəbərlərini ehtiva edən kitablarında Adəmin (ə) məskunlaşdığı yerin Hərəm olduğunu oxudum..." Sonra deyir: "Deyirlər ki, onun Kufyə gəlişi bazar ertəsi günü, hicri 36-cı ilin rəcəb ayının 12-sində olub. Ona deyildi: "Ey Möminlərin əmiri! Sarayda qalacaqsan?" O isə cavabında "Mənim saraya ehtiyacım yoxdur. Belə ki, Ömər ibn Xəttab (r) buna nifrət edərdi. Mən Rəhbədə qalacağam". Sonra irəliləyib böyük bir məscidə daxil oldu, orada iki rükət namaz qıldı, ardınca Rəhbədə qərarlaşdı".*[1145]

Bu rəvayəti Ömərin hətta kiçik və əhəmiyyətsiz hərəkətlərində belə ona zidd addım atmadığına dəlil göstərmək bir neçə cəhətdən yanlışdır:

Birinci: Mürsəl (sənədsiz) rəvayət olduğuna görə; Rəvayət sənədli şəkildə yalnız bu əlavələr olmadan rəvayət də edilib.[1146] Nəsr ibn Məzahim Minqəri (vəfatı: h.q 212) "Vaqətu Siffin" kitabında yazır: *"Əli ibn Əbu Talib Bəsrədən Kufəyə gəldikdə bazar ertəsi günü, hicri 36-cı ilin rəcəb ayının 12-si idi. Allah ona yardım etmiş və düşmənlər qarşısında qalib qərar vermişdi. Onunla bərabər böyük şəxsiyyətlər və Bəsrə əhil də Kufəyə gəlmişdilər. Aralarında qarilər və görkəmli şəxslər olan Kufə əhlindən böyük bir izdiham onu qarşılayıb təbrik etdilər. Dedilər: "Ey Möminlərin əmiri! Harada məskunlaşacaqsan? Sarayda qalacaqsan?" O isə cavabında "Xeyr, mən Rəhbədə oturacağam". Rəhbəyə gedib orada özünə yer seçdi, sonra məscidə daxil olub iki rükət namaz qıldı".*[1147]

[1145] Əxbarut-tival, Dinəvəri, s. 151-152

[1146] "Belə ki, Ömər ibn Xəttab (r) buna nifrət edərdi" sözləri orada yoxdur.

[1147] Vaqətu Siffin, Nəsr ibn Məzahim Minqəri, s. 3

Bunu ondan İbn Əbülhədid (vəfatı: h.q 656) "Şərhu Nəhcül-Bəlağə"də[1148], Əllamə Məclisi (vəfatı: h.q 1111) isə "Biharul-ənvar"[1149] kitabında nəql edib.

Həmçinin Əhməd ibn Əsəm Kufi (vəfatı: h.q 314) "Kitabul-futuh"[1150] əsərində də buna yer verib.

Bu, həmin əlavənin Dinəvəri tərəfindən artırılmış olduğunu göstərir. Bunu təsdiqləyən digər bir amil isə İmamın (ə) Kufəyə daxil olma hadisəsini yazan seyr və tarix əhlindən heç birinin bu əlavəni qeyd etməməsidir.

İkinci: Əbdürrəhman ibn Ovfun Ömərin xəlifə seçimi üçün yaratdığı şurada İmama (ə) beyət üçün şərt qoyduğu "ilk iki xəlifənin rəftarına uyğun rəhbərlik etmək" tələbinə zidd olması; İmam Əli (ə) xilafətin əldən gedəcəyinə rəğmən bu şərti qətiyyətlə rədd etmişdi. İbn Həcər deyir: *"Əbdürrəhman ibn Ovf başçılığı üzərinə götürdükdə xəlifəliyi Əliyə təklif etdi. Lakin Əli bəzi şərtlərlə razılaşmadı. Osmana təklif etdikdə isə o, razılaşdı. Bunu Asim ibn Bəhdələnin Əbu Vaildən nəql etdiyi rəvayət də təsdiqləyir. Deyir: "Əbdürrəhman ibn Ovfdan Əlini kənarda qoyub Osmana necə beyət etdiklərini soruşdum, dedi: "Mənim bunda günahım yoxdur. Əliyə təklif edib dedim: "Allahın kitabı, Peyğəmbərin (s) sünnəsi, Əbu Bəkr və Ömərin üslubuna əsaslanacağın təqdirdə sənə beyət edirəm". O isə "Bacardığım qədər..." deyə cavab verdi. Ardınca Osmana təklif etdim, o bu şərtləri qəbul etdi".*[1151]

Həmçinin Təlhə ilə Zübeyrin İmama (ə) beyətlərini pozmalarına və ona qarşı savaşa çıxmalarına göstərdikləri bəhanələrdən biri də məhz ilk iki xəlifənin idarəçilik üslubundan uzaqlaşması idi.[1152]

Əbdürrəzzaq "əl-Müsənnəf"də Muhəmməd ibn Abdullah sənədi ilə Həkəm ibn Üteybənin belə dediyini nəql edir: *"Əli, övlad sahibi kölə barəsində Ömərin*

[1148] Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid

[1149] Biharul-ənvar, Əllamə Məclisi, c. 32, s. 354

[1150] Kitabul-futuh, Əhməd ibn Əsəm Kufi, c. 2, s. 491

[1151] Fəthul-Bari, c. 13, s. 170-171

[1152] Bax: Tarix, Xəlifə ibn Xəyyat, s. 136; eləcə də həmin dövrün və Cəməl savaşının hadisələrini təfsilatı ilə qeyd etmiş "Tarixu mədinəti Diməşq", Təbərinin "Tarix"i, "Tarixu Bağdad" kimi mənbələr.

hökmünə zidd addım atdı. Belə ki, o qadın ağası üçün uşaq dünyaya gətirdikdə azad olunmurdu".[1153]

Həmçinin mütə nikahı, Nisa təvafı və heç kimin inkar etmədiyi bir çox digər məsələlərdə İmam (ə) Ömərin rəftarının əksinə addım atıb.

Üçüncü: Dinəvərinin rəvayətinin İmamiyyə şiələri üçün dəlil olmaq səlahiyyəti yoxdur; Belə ki, Dinəvərinin Hənəfi məzhəbinin alimlərindən olduğu isbatlanmışdır. Bəziləri onu hətta Hənəfilərin böyük alimlərindən hesab etmişlər. "Siyəru əlamin-nübəla" kitabında onun tərcümeyi-halında Zəhəbi yazır: *"Əbu Hənifə: əllamə, bir çox elm sahibi, Əbu Hənifə Əhməd ibn Davud Dinəvəri Nəhvi, İbn Sikkitin şagirdidir... Hicri 282-ci il cəmadil-əvvəl ayında vəfat edib. Onun "ən-Nəbat" adlı böyük məcmuəsi, "əl-Ənva" və digər kitabları var. Hənəfi məzhəbinin böyük alimlərindən olduğu da deyilib".*[1154]

Təqi Ğəzzi "ət-Təbəqatus-sünniyyə fi təracimil-hənəfiyyə" kitabında da onun adını qeyd edib.[1155]

İkinci: Seyyid Mürtəzanın sözləri

İhsan Zahirin Seyyid Mürtəzanın "əş-Şafi fil-imamət" kitabına nisbət verdiyi **"Xilafət Əli ibn Əbu Talibə (ə) yetişdikdə Fədək barədə söhbət açaraq dedi: "Əbu Bəkrin qadağan etdiyi, Ömərin də bu qadağanı davam etdirdiyi bir şeyi geri qaytarmağa Allahdan həya edirəm"** sözləri açıq-aşkar saxtakarlıq və təhrifdir. Bu barədə əvvəlki bəhslərdə söhbət açmışıq.[1156]

Üçüncü: Muhib Təbərinin rəvayəti

[1153] əl-Müsənnəf, Əbdürrəzzaq Sənani, c. 7, s. 291, hədis 13221, "Uşaq sahibi kölələrin satılması" fəsli

[1154] Siyəru əlamin-nübəla, Zəhəbi, c. 13, s. 422

[1155] ət-Təbəqatus-sunniyyə fi təracimil-hənəfiyyə, Təqi Ğəzzi, c. 1, s. 104

[1156] Bax: üçüncü bab, birinci fəsil, birinci bəhs, "İmam Əlinin (ə) xilafəti dövründə Fədək" başlığı

Muhib Təbəri "ər-Riyazun-nəzirə" kitabında yazır: *"Şəbidən nəql edilir ki, Əli Nəcran əhlinə dedi: "Ömər dürüst xəlifə idi, onun etdiklərindən heç bir şeyi dəyişməyəcəyəm".*

Yenə də onda rəvayət edilir ki, Əli Kufəyə daxil olduqda dedi: *"Ömərin bağladığı heç bir düyünü açan deyiləm".*

Həsən ibn Əlidən rəvayət edilir: *"Əlinin Ömərə zidd addım atdığını xatırlamıram. O, Kufəyə gəldikdə onun (Ömərin) etdiklərindən heç bir şeyi dəyişmədi".*[1157]

Buradakı dəlili *"Həsən ibn Əlidən rəvayət edilir: "Əlinin Ömərə zidd addım atdığını xatırlamıram. O, Kufəyə gəldikdə onun (Ömərin) etdiklərindən heç bir şeyi dəyişmədi"* sözləridir. Bu rəvayətdən öz iddiasına dəlil kimi istifadə etməsi bir neçə yöndən yanlışdır:

Birinci: Rəvayət mürsəldir (sənədsizdir); Həmçinin İmamın (ə) ilk iki xəlifənin rəftarının xilafına hərəkət etdiyinə dair isbatlanmış dəlillərə (ilk iki xəlifənin rəftarının şərt kimi irəli sürüldüyü xəlifəliyi qəbul etməkdən boyun qaçırmasına, Təlhə və Zübeyrin zidd rəftarı bəhanə edərək İmama (ə) beyətlərini pozaraq ona qarşı savaşa çıxmalarına, eləcə də İmamın (ə) övlad sahibi kölə qadın, mütə nikahı, Nisa təfavı kimi bir çox məsələdə Ömərin rəftarının ziddinə addım atmasına) ziddir.

İkinci: Muhib Təbərinin rəvayəti İmamiyyə şiələri üçün əsla dəlil sayılmaz; Belə ki, onun Şafei şeyxlərindən və öz zamanında Hicaz hədisçilərindən olduğu isbatlanmışdır. Zəhəbi onun tərcümeyi-halı barədə "Tarixul-İslam", "Təzkiratul-huffaz"da,[1158] Səfidi "əl-Vafi bil-vəfayyat"da,[1159] Sübki "Təbəqatuş-Şafeiyyə"də,[1160]

[1157] ər-Riyazun-nəzirətu fi mənaqibil-əşəra, Muhib Təbəri, c. 1, s. 188

[1158] Zəhəbi deyir: "Muhib – imam, hədisşünas, müftidir. Muhibbuddin Əbülabbas Əhməd ibn Abdullah ibn Muhəmməd ibn Əbu Bəkr Təbəri, sonra Məkki Şafei... Fəqih olmuş, dərs almış, fətva vermişdi. Şafei şeyxi və Hicaz hədisşünasıdır". (Təzkiratul-huffaz, c. 4, s. 1471-1475)

[1159] Səfidi deyir: "Qazi Muhibbuddin Təbəri Şafei: Əhməd ibn Abdullah ibn Muhəmməd ibn Əbu Bəkr ibn Muhəmməd ibn İbrahim, Hərəmin şeyxidir. Muhibbuddin Əbülabbas Təbəri

Yafii "Miratul-cinan"da[1161] və s. kitablarda bunu qeyd etmişlər. Zəhəbi "Tarixul-İslam"da yazır: *"Əhməd ibn Abdullah ibn Muhəmməd ibn Əbu Bəkr ibn Muhəmməd ibn İbrahim, Hərəmin şeyxi, Muhibbuddin Əbülabbas Təbəri Məkki Şafei, fəqihdir... Fəqih olmuş, dərs almış, fətva vermişdi. Şafei şeyxi və Hicaz hədisşünası idi".*[1162]

Üçüncü: "ər-Riyazun-nəzirə fi mənaqibil-əşəra" kitabı Əhli-Sünnə etiqadına əsasən, cənnətlə müjdələnmiş on nəfərin tərcümeyi-halı olaraq qələmə alınmış və şiələrinin onlar barəsindəki iradlarına rəddiyyə xarakteri daşıyır. Bunu müəllif özü də kitabının müqəddiməsində açıq bəyan edib. Orada yazır: *"İzzət və Cəlal sahibi Allah Peyğəmbəri üçün səhabələr seçmiş, onların məxluqların ən xeyirliləri qərar vermiş və onlardan on nəfər ən möhtərəmini digərlərindən üstün tutmuşdur. Peyğəmbərin (s) həyatı boyunca ona olan məhəbbətlərindən, birgəyaşayışlarından və ona qucaq açmalarından Allah razı qalmış, ehtirama səbəb olacaq xüsusiyyətlərlə onlara üstünlük bəxş etmiş və bir addım öndə olmaqla səadətə qovuşdurmuşdur.*

(Eyni zamanda) heç də onlarda olmayan xüsusiyyətləri onlara nisbət verən, ayrı-ayrı şəxslərində nöqsanlar göstərən, onları özlərində olmayan sifətlərlə vəsf edən kəsləri də bədbəxtliyə düçar etmişdir. Ədaləti məlum olan şəxsləri öz güman və zənlərinə əsaslanıb fasiq bilmiş, Allahın və rəsulunun razı olduğu kimsələri öz cəhalətləri ilə alçaltmaq istəmişlər. Onları öz böyük böhtan və qınaqlarının hədəfinə çevirmişlər. Halbuki Qurani-Kərimin ayələri onları mədh edir. Məlik və Cəlil olan Allah buyurur: ***"Muhəmməd (s) Allahın Peyğəmbəridir. Onunla birlikdə olanlar***

Məkki Şafei, fəqih... dərs almış, fətva vermişdi. Şafei şeyxi və Hicaz hədisşünasıdır". (əl-Vafi bil-vəfayat, c. 7, s. 90-91)

[1160] Sübki yazır: "Əhməd ibn Abdullah ibn Muhəmməd ibn Əbu Bəkr ibn Muhəmməd ibn İbrahim, hafizdir, Əbülabbas Muhibbiddin Təbəri, sonra Məkkidir. Hərəmin şeyxi, Hicaz hədisşünasıdır..." (Təbəqatuş-şafeiyyətil-kubra, c. 8, s. 9)

[1161] Yafii deyir: "Muhib Təbəri orada da vəfat etdi. Hərəmin şeyxi, imam, əllamə, hədis hafizi, bir çox kitabın müəllifidir, məşhur fəzilətlərə malikdir, Əbülabbas Əhməd ibn Abdullah ibn Muhəmməd ibn Əbu Bəkr Məkki Şafei... öz dövründə Hicaz hədisşünası və orada Şafei şeyxlərindən biri idi". (Miratul-cinan, c. 2, s. 227)

[1162] Tarixul-İslam, Zəhəbi, c. 52, s. 210-211

(möminlər) kafirlərə qarşı sərt, bir-birinə (öz aralarında) isə mərhəmətlidirlər... Bu onların Tövratdakı vəsfidir. İncildə isə onlar elə bir əkinə bənzədilirlər ki...” *(“əl-Fəth”, 29).*

Məgər onların bu vəsflərdən uzaqlaşdıqlarını, bu vəsfin onlardan götürüldüyünü və ya onlardan başqasına şamil olduğunu gördünmü? Yaxud səhabələrin kafirlərə qarşı sərt olmadığını və Peyğəmbərə (s) yardım etmədiklərini iddia etmək olar? Ya da deyilə bilərmi ki, səhabələrdən hansısa biri Peyğəmbərlə (s) olmayıb. Müsəlman və imanlı olmaq istəyən şəxsin bunu ilk qəbul etmiş şəxslərdən üstün olması, onlardan daha çox fəzilətdən pay aparması qeyri-mümkündür. Yaxud da, onlar bu sifətləri Peyğəmbərin (s) vəfatından sonra itirdilər, onlardan gözlənilən əməllərin xilafına rəftar etdilər deyilə bilməz. Çünki qəti dəlillər bunu rədd və belə düşüncəni qadağan edir. Uca Allah buyurur...

Məsələnin belə olmasından Allaha pənah aparırıq. Uca Allah da Öz Peyğəmbəri (s) üçün bu cür səhabələr seçməkdən pak və münəzzəhdir. Onlar barəsində söylənmiş zahirən ziddiyyətli məsələlərlə bağlı hüsnü-zənnə etiqad bəsləməmiz vacibdir.

Başqa cür necə ola bilər axı! Aşkar dəlillər, Kitab və sünnənin qəti dəlilləri buna hökm edir, Peyğəmbərin (s) onları cənnətlə müjdələməsi bunu bir daha təsdiqləyir. Əlbəttə, necə də olmasın! Peyğəmbər (s) onların gələcəkdə edəcəkləri əməllərindən xəbərdar idi. Onların aralarındakı münasibətləri və onlardan zahir olacaq bir çox əməlləri əvvəlcədən bildirmişdi. Nəticədə onları söyməyi qadağan etmiş, onları müzakirə etməkdən çəkindirmiş və sevməyi əmr etmişdir.

Axmaq cahil hara, onlar hara?! Peyğəmbər (s) onların bağışlanacağını bildirib. Özünü korluğa qoymuş şəxs onlar barədəki yozumları necə görə bilər?! Peyğəmbərin (s) bu sözünü necə təhrif edə bilər: “Əgər sizdən kimsə Ühüd dağı qədər qızılı ehsan edib xərcləsə, nə onların birinin sahib olduğunu və nə də onun yarısını əldə edə bilməz”. Allaha həmd olsun ki, bizi bu böyük bədbəxtlikdən xilas edib, onları sevməyi və doğru yollarında olmağı nəsib edib.

Yenə də Allaha həmd olsun ki, onların fəzilətlərini, ali dərəcələrini, şərəfli qədir-qiymətlərini, böyük üstünlüklərini və ümumi fəxr doğuran keyfiyyətlərini müxtəsər, nəzər yetirən şəxs üçün asanlıq yaratmaq məqsədilə sənədsiz şəkildə bu qələmə alınmış kitabda toplamağı bizə ilham və nəsib etdi...

Burada mən, yalnız mənbə olaraq böyük müəlliflərdən bizə nəql olunmuş, altından qırmızı xətt çəkilmiş rəvayətləri toplamışam. Bu mənbələrdən Əhməd ibn Hənbəlin "Müsnəd"i, Nəsainin "əs-Sünənul-kubra"sı..."[1163]

Ardınca müəllif müraciət etdiyi mənbələri sadalayır. Bütün bunlar Əhli-Sünnə mənbələri və onların kitablarıdır.

Bütün bunlarla bərabər, İhsan Zahir Muhib Təbərinin şiə olduğunu necə güman edə bilər ki, onun kitabındakı rəvayəti şiələrə də dəlil göstərin?! Tutaq ki, onun sünni olduğuna şəkk etsək, bəs qələmə aldığı "ər-Riyazun-nəzirətu fi mənaqibil-əşəra" kitabının Əhli-Sünnənin səhabə haqqındakı etiqadına uyğun yazıldığına, oradakı rəvayətlərin bütünlüklə Əhli-Sünnə mənbələrinə istinad edildiyinə necə şəkk edək?! Halbuki bu mənbələri müəllif özü kitabının müqəddiməsində də sadalayır!

Dördüncü: Beyhəqinin, İbn Əsirin, Buxarinin, İbn Adəmin, İbn Səllamın və Bəlazurinin rəvayətləri

Beyhəqi "Sünən"də, İbn Əsir "əl-Kamilu fit-tarix", Əbu Übeydə "əl-Əmval", Bəlazuri "Futuhul-buldan" kitablarında və digər kitablarda Əməşin vasitəsilə Salim ibn Əbülcədədən rəvayət edirlər: *"Əgər Əli (r) Ömari (r) bir gün də olsa pisləsəydi Nəcran əhli onu hər gün pisləyərdilər. Əli (r) Peyğəmbərlə (s) Nəcran əhlinin arasında məktublaşmaları yazan şəxs idi. Ömərin (r) xilafəti zamanı onların sayı olduqca artmışdı, camaat onlardan qorxmağa başlayırdı. Arasında fikir ayrılığı düşdü. Ömərin (r) yanına gələrək başçılarını dəyişməsini istədilər. Ömər də bunu etdi".*

[1163] ər-Riyazun-nəzirətu fi mənaqibil-əşəra, Muhib Təbəri, c. 1, s. 1-5, müqəddimə

Deyir: "Sonra peşman oldular, aralarında razılaşmaqdan boyun qaçırdılar və onun istefasını istədilər, Ömər isə onu işdən çıxarmaqdan imtina etdi. Əli (r) xəlifə olduqda onun yanına gəlib yenidən hökm verməsini istədilər. Əli (r) dedi: "Vay olsun sizə, həqiqətən də Ömər dürüst xəlifə idi".[1164]

Bunu Beyhəqi həmçinin "Sünən"də və Buxari "ət-Tarixul-kəbir"də Əta ibn Müslim Hələbinin vasitəsilə Saleh ibn Saleh Əsədidən, o da Əbdu Xeyrdən nəql edir: *"Allaha and olsun ki, Ömərin (r) qərar verdiyi heç bir şeyi dəyişdirməyəcəyəm. Həqiqətən də Ömər (r) dürüst xəlifə idi".*[1165]

İbn Adəm bunu "əl-Xərac"da Şəbidən mürsəl (sənədsiz) olaraq rəvayət edib.[1166]

İhsan Zahirin bu sözləri İmamın (ə) ən kiçik və əhəmiyyətsiz məsələlərdə belə Ömərin rəftarına xilaf addım atmadığı iddiasına dəlil göstərməsi bir neçə cəhətdən batildir:

Birinci: Beyhəqi, İbn Əsri, Buxari, Bəlazuri, İbn Adəm və Qasim ibn Səllam Əhli-Sünnənin böyük alimləri və hədis hafizləridir. Onlardan bir neçəsinin tərcümeyi-halını təqdim etmişik. Necə ki, Bəlazurinin tərcümeyi-halını Zəhəbi "Siyəru əlamin-nübəla"da[1167] və Təqi Ğəzzi "ət-Təbəqatus-sünniyətu fi təracimil-hənəfiyyə"[1168] kitabında qeyd ediblər.

İbn Həcər İbn Adəmin tərcümeyi-halında deyir: *"Yəhya ibn Adəm ibn Süleyman Kufi, Əbu Zəkəriyyə, Bəni-Üməyyənin azad olunmuş köləsi, etibarlı, fəzilətli və hədis hafizidir. Doqquzuncu təbəqənin böyüklərindəndir".*[1169]

[1164] Sünən, Beyhəqi, c. 10, s. 120, hədis 20162, "Hakimlərdən ictihad edən və sonra hökmü dəyişdirilənlər" fəsli; Kiabul-əmval, Qasim ibn Səllam, c. 1, s. 266, hədis 247; əl-Kamilu fit-tarix, İbn Əsir, c. 2, s. 294; Futuhul-buldan, Bəlazuri, c. 1, s. 79, hədis 205

[1165] Sünən, Beyhəqi, c. 10, s. 120, hədis 20161, "Hakimlərdən ictihad edən və sonra hökmü dəyişdirilənlər" fəsli; ət-Tarixul-kəbir, Buxari, c. 8, s. 145, rəqəm 2506

[1166] Kitabul-xərac, Yəhya ibn Adəm, c. 1, s. 22, hədis 31

[1167] Bax: Siyəru əlamin-nübəla, Zəhəbi, c. 13, s. 422

[1168] Bax: ət-Təbəqatus-sünniyyə fi təracimil-hənəfiyyə, Təqi Ğəzzi, c. 1, s. 104.

[1169] Təqribut-təhzib, İbn Həcər, c. 2, s. 296

Zəhəbi onun tərcümeyi-halında yazır: *"Yəhya ibn Adəm ibn Süleyman Əməvi, onların (Əməvilərin) azad olunmuş köləsidir, kufəlidir, künyəsi Əbu Zəkriyyədir, alim şəxslərdən biridir".*[1170]

İbn Həcər Qasim ibn Səllamın tərcümeyi-halında yazır: *"Qasim ibn Səllam Bağdadi, Əbu Übeyd, məşhur imamdır, etibarlı və fəzilət şəxsdir, onuncu təbəqədəndir, kitab müəllifidir".*[1171]

Həmçinin Zəhəbi onun tərcümeyi-halında deyir: *"Qasim ibn Səllam Əbu Übeydə Bağdadi, bir çox kitabın müəllifidir... əllamə və etibarlı şəxsdir".*[1172]

Bu alim və hədis hafizlərinin məsələsi məlumdur və əsla gizli deyil. Həmçinin rəvayət də Əhli-Sünnənin rəvayətidir. Onu şiəyə dəlil göstərmək yersizdir.

İkinci: Əbdu Xeyrin rəvayəti isə ravilərin arasında Əta ibn Müslimin varlığı səbəbindən zəifdir. İbn Həbban onu "Kitabul-məcruhin"də qeyd edərək deyir: *"Kitabları basdırıldı, ondan sonra hədis danışmağa başladı. Öz xəyalına uyğun sözlər danışır, xəta edir, hədislərində inkar olunan şeylər çox olurdu. Hədislərini dəlil göstərmək puçdur. Yalnız etibarlı (siqə) şəxslərin söylədiklərinə uyğun olan sözləri istisnadır".*[1173]

Mizzi deyir: *"Müaviyə ibn Saleh Yəhya ibn Muinə istinadən deyir: "Onda bir müşkül yoxdur. Hədisləri inkar olunur..." Əbu Hatəm deyir: "Yusuf ibn Əsbat kimi əməlisaleh şeyx olub. Kitabları basdırılmışdı, hədisləri təsdiqlənmir, güclü ravi deyil". Əbu Übeyd Aciri Əbu Davuda istinadən deyir: "Zəif ravidir".*[1174]

Şəbinin rəvayəti də mürsəldir (sənədsizdir).

Salim ibn Əbülcədənin rəvayəti isə iddiadan daha xüsusi mənadadır. Belə ki, iddia İmam Əlinin (ə) kiçik və əhəmiyyətsiz məsələlərdə belə Ömərin rəftarlarına

---

[1170] əl-Kaşif, Zəhəbi, c. 2, s. 128
[1171] Təqribut-təhzib, İbn Həcər, c. 2, s. 19
[1172] əl-Kaşif, Zəhəbi, c. 2, s. 360
[1173] Kitabul-məcruhin, İbn Həbban, c. 2, s. 131
[1174] Təhzibul-kəmal, Mizzi, c. 20, s. 104-106 (və ya 1104-1106), rəqəm 3940

zidd hərəkət etmədiyidir. Halbuki Salimin rəvayətindən anlaşılır ki, İmam (ə) Ömərin Nəcranlılar barədəki hökmünü qüvvədə saxlayır.

Heç kəs iddia edə bilməz ki, İmam (ə) Ömərin bütün verdiyi hökmlərə qarşı çıxıb və ya onları rədd edirdi. İmam (ə) bu hadisədə hökmü qüvvədə saxlayır. Niyə də olmasın? Belə ki, Ömər bir çox qərarlarını məhz İmam Əlinin (ə) məsləhəti ilə almışdı.

İmam Əlinin (ə) Ömərin verdiyi bəzi hökmləri qüvvədə saxlaması əsla İhsan Zahirin iddiasına dəlalət edə bilməz. Belə ki, İslam dini də cahiliyyət dövrünün bəzi hökmlərini qüvvədə saxlamışdı.

Üçüncü: Məlum və sübuta yetmiş faktdır ki, İmam (ə) Əbdürrəhman ibn Ovfun beyət təklifi zamanı ilk iki xəlifənin rəftarına uyğun davranmağı rədd etmişdi. Həmçinin Cəməl müharibəsində qarşı tərəfin bəhanələrindən biri də məhz İmam Əlinin (ə) ilk iki xəlifənin hakimiyyət üslubundan uzaqlaşması idi. Eləcə də İmamın (ə) övlad sahibi kölə qadın, mütə nikahı, Nisa təvafı və s. bu kimi bir çox məsələlərdə Ömərin hökm və qaydalarına xilaf çıxdığı məlumdur.

Beşinci: İbn Adəm və Bəlazurinin rəvayəti

İbn Adəm "əl-Xərac" kitabında Həccacdan, bir neçə şəxsin vasitəsilə Şəbidən rəvayət edir: *"Əli (r) Kufəyə gəldiyi vaxt dedi: "Ömərin bağladığı heç bir düyünü açan deyiləm"*.[1175]

Bunu həmçinin İbn Əbu Şeybə "əl-Müsənnəf"də də qeyd edib.[1176]

Bu rəvayətləri İhsan Zahirin öz iddiasına dəlil göstərməsi bir neçə cəhətdən batildir. Çünki:

Bu rəvayətin hökm qüvvəsi yoxdur, belə ki, Həccac tərəfindən mürsəl (sənədsiz) nəql edilir, o isə saxtakar olub və rəvayəti məlum olmayan bir neçə şəxsə istinad edir.[1177] Həmçinin Şəbi tərəfindən də mürsəldir.

[1175] əl-Xərac, İbn Adəm Qüreşi, c. 1, s. 23, hədis 32.

[1176] əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 6, s. 357, hədis 32005, "Ömər ibn Xəttabın fəziləti barədə qeyd edilənlər".

İhsan Zahirin oxucunu azdırmaq cəhdi

İhsan Zahirin əvvəlki iki rəvayəti təsdiq üçün təqdim etdiyi sonrakı üç rəvayət və bunların şiə mənbələrindən olduğu ağlasığmazdır. Şübhəsiz ki, o, bütün bu rəvayətləri Əhli-Sünnə mənbələrindən nəql edib. Lakin buna baxmayaraq, öyünərək deyir: **"Burada şiə kitablarından daha üç rəvayəti nəql edirik ki, bu iki rəvayətə dəstək xarakteri daşısın".**

Şübhə yoxdur ki, o, bu üç rəvayəti, özünün də kitabın haşiyəsində qeyd etdiyi kimi, Muhib Təbəri, Beyhəqi, İbn Əsir, Buxari, İbn Adəm, Əbu Übeydə ibn Səllam, Bəlazuri kimi Əhli-Sünnə müəlliflərinin kitablarından götürüb. Oxucunun ağıl və düşüncəsinə İhsan Zahir kimi xor baxan və saymamazlıq göstərən varmı?!

Həmçinin "ər-Riyazun-nəzirə"dəki cümlələri götürərək özünə nisbət verir və həmin rəvayətlərin şiə kitabından olduğunu iddia edir. Bununla da özünü təhqiqatçı kimi göstərməyə çalışır. Muhib Təbəri "ər-Riyazun-nəzirə" kitabında deyir: *"Şəbidən Əlinin Nəcran əhlinə belə dediyi nəql olunur: "Ömər həqiqətən də dürüst xəlifə idi. Mən onun hökmlərindən heç nəyi dəyişən deyiləm".*[1178] *Ondan yenə də nəql olunur ki, Əli Kufəyə daxil olduqda dedi: "Ömərin bağladığı heç bir düyünü açan deyiləm".*[1179] *Həsən ibn Əli deyir: "Əlinin Ömərə zidd addım atdığını xatırlamıram. O, Kufəyə gəldikdə onun (Ömərin) etdiklərindən heç bir şeyi dəyişmədi"*[1180].[1181]

Demək bu rəvayətləri şiə kitablarından götürməyib. Belə ki, şiə mənbələrində bu rəvayətlərin heç biri mövcud deyil. Bunların hamısı Muhib Təbərinin "ər-Riyazun-nəzirə" kitabından götürüb. Əhli-Sünnə kitablarında bu cür hədislərin olmasında heç bir qeyri-adilik yoxdur. Lakin İhsan Zahir bunları bizim özümüzə

[1177] əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 6, s. 357, hədis 32005, "Ömər ibn Xəttabın fəziləti barədə qeyd edilənlər".

[1178] Təhzibul-kəmal, c. 5, s. 425, rəqəm 1112.

[1179] İhsan Zahirin nəql etdiyi üçüncü rəvayət.

[1180] İhsan Zahirin nəql etdiyi birinci rəvayət.

[1181] ər-Riyazun-nəzirə, Muhib Təbəri, c. 1, s. 188

höccət və dəlil bilməyimizi istəyir. Bu rəvayətlər bizim hədis yollarımızla (bizim ravilərimiz tərəfindən) nəql edilməyib. Eləcə də bu rəvayətlərə işarə edən heç bir şiə mənbəyi də yoxdur. Yalnız İhsan Zahir kimi bir saxtakar bunu iddia edə bilər!

9. Ömərin cənnət əhli olduğu iddiası

İhsan Zahir iddia edir ki, Möminlərin əmiri Əli (ə) və İbn Abbas Ömərin cənnət əhli olduğuna şahidlik ediblər. Bu iddiasına İbn Əbülhədid Mötəzilinin rəvayətini dəlil göstərib. Həmçinin iddia edib ki, Möminlərin əmiri Əli (ə) Ömərin cənnət əhli olduğuna inanırdı. Bu sözlərinə də yeni bir iddia ilə – guya İmam Əli (ə) Allahın hüzuruna Ömərin əməl dəftərindəki əməllərlə çıxmasını arzulayır iddiasını dəlil göstərir. Buna da üç böyük şiə alimlərinə nisbət verdiyi rəvayəti dəlil kimi təqdim edir. Bu alimlər: Seyyid Mürtəza, Şeyx Tusi və Şeyx Səduqdur. İhsan Zahir deyir: **"Ömərin cənnət əhli olmasına gəldikdə... Buna Əli ibn Əbu Talib (r) və əmisi oğlu Abdullah ibn Abbas da şahidlik edib. Bu rəvayəti İbn Əbülhədid də rəvayət edir. Fars mənşəli məcusi Əbu Lulu Öməri ölümcül yaraladıqda Peyğəmbərin (s) əmisi oğulları Abdullah ibn Abbas və Əli ibn Əbu Talib onun yanına gəldilər. İbn Abbas deyir: "Ümmü Külsümün (Əlinin (r) qızının) "Vah Ömər!" sədalarını eşitdik. Onunla bərabər başqa qadınlar da ağlayırdı, ağlamaq səsləri evi titrədirdi. Ömər dedi: "Vay olsun Ömərin anasına! Həqiqətən də Allah onları (günahları) bağışlamaz". Dedim: "Allaha and olsun, bizim möminlərin əmiri və müsəlmanların başçısı olaraq tanıdığımız kimisənsə, həmişə Allahın kitabı ilə hökm vermiş və bərabər bölgü aparmısan. Mən güman edirəm ki, sən cəhənnəmi yalnız Allahın kitabında buyurduğu qədər görəcəksən: *"Sizdən ora varid olmayan kəs yoxdur"*.[1182]**

Sözüm onu təəccübləndirdi. Qalxıb oturdu və dedi: "Ey İbn Abbas, mənim barəmdə buna şahidlik edirsən?"

[1182] Məryəm, 71

Mən qorxub çəkindim. Əli (ə) mənim kürəyimə vuraraq dedi: "Şahidlik et".

Başqa bir rəvayətdə isə bu yerdə deyir: "Ey möminlərin əmiri, narahat olma! Allaha and olsun ki, müsəlmanlığın izzət və xəlifəliyin fəxr olub. Bu müddətdə yer üzünü ədalətlə doldurdun". Ömər dedi: "Ey İbn Abbas, bunlar barədə mənim üçün şahidlik edərsən?"

Ravi deyir: "İbn Abbas bir az çəkinib şahidlik etmək istəmədi. Əli (ə) dedi: "De: Bəli, mən də sənlə bərabər şahidəm". İbn Abbas "Bəli" dedi". (İbn Əbülhədid, c. 3, s. 146; Eynilə bu rəvayət "Kitabul-asar"da (s. 207), "Siyrətu Ömər", İbn Cövzi, s. 193, Misir çapı).

Bundan əlavə, Əli... onun cənnət əhlindən olduğuna iman bəsləyirdi. Belə ki, bunu Allahın məxluqlarının ən xeyirlisi, Mustafa, Sadiq və Əmin Muhəmmədin dilindən eşitmiş, bu səbəbdən də, Allahın hüzurunda Ömər Faruqun (r) həyatı boyu əldə etdiyi gözəl əməllər kimi əməllərlə çıxmağı təmənna etmişdir. Necə ki, bunu Seyyid Mürtəza, Əbu Cəfər Tusi, İbn Babəveyh və İbn Əbülhədid də rəvayət ediblər: "Ömərə qüsl verilib kəfənləndikdə Əli oraya gəlib dedi: "Mənim üçün Allahın hüzuruna bu qarşınızda kəfənlədiyiniz şəxsin əməl dəftəri ilə çıxmaqdan yer üzündə daha sevimli bir şey yoxdur". (Kitabuş-Şafi, Ələmul-Huda, s. 171; Təlxisuş-Şafi, Tusi, c. 2, s. 428, İran çapı; Məanil-əxbar, Şeyx Səduq, s. 117, İran çapı)

Bu rəvayətlər bütünlüklə Əhli-Sünnənin kitablarında da qeyd edilib: Hakimin "Müstədrək"ində (c. 3, s. 93), Zəhəbinin "Təlxis"ilə birgə, həmçinin Əhməd Hənbəlin "Müsnəd"ində, İbn Sədin "Təbəqat"ında (Əhvalu Ömər, c. 3, s. 269-270). Buna bənzəri Buxarinin və Müslimin "Səhih"ində də qeyd edilib.

İbn Əbülhədid möminlərin əmirinin (Ömərin) vurulmasını qeyd edərək deyir: "Camaat çevrilib getdi, o isə qanına bulaşmış, sübh namazını qılmamışdı. Deyildi: "Ey möminlərin əmiri, namaz!" Başını qaldırıb dedi:

“Allaha and olsun, namazını əldən vermiş bir şəxsin İslamda nəsibi olmaz”. Sonra qalxmaq üçün yerindən tərpəndi, bu zaman yarasından qan damlamağa başladı. Dedi: “Əmmaməmi gətirin!” Yarasını bağladı, namaza başladı, zikr söylədi. Ardınca oğlu Abdullaha baxıb dedi: “Ey Abdullah, yanağımı yerə qoy”. Onun bu sözünə əhəmiyyət vermədim. Zənn etdim ki, vəziyyətinin ağırlığı ağlına təsir edib. Sonra eyni sözü bir də təkrarladı. Bu dəfə də etmədim. Üçüncü dəfə dedi: “Üzümü torpağa qoy, ey anasından məhrum!” Bu dəfə ağlının özündə olduğunu bildim”. Vəziyyətinin ağırlığı bunu özünün etməsinə imkan vermirdi.

Yanağını yerə qoydum, kənarları torpağa bulaşmış saqqalının tüklərinə baxdım, ağlayırdı. Üzünü qoyduğu torpağın göz yaşlarından islandığını gördüm. Nə dediyini eşitmək üçün qulağımı yaxınlaşdırdım. O deyirdi: “Əgər Allah bağışlamasa vay olsun Ömərə, vay olsun Ömərin anasına!”

Bir rəvayətdə isə bu yerdə deyilir: “Əli (ə) gəlib onun başının üzərində dayanaraq dedi: “Bu qanına bələşmişin (və ya kəfənlənmişin) əməlləri ilə Allahın qarşısına çıxmaqdan daha xoş bir şey yoxdur mənə” (Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid, c. 3, s. 147).[1183]

Cavab

Bu iddialar batil və dəlilsizdir. Belə ki, təqdim etdiklərinin dəlil olmaq səlahiyyəti yoxdur. Bu “dəlillər” barədə müfəssəl sözlərimizi sizə təqdim edirik:

Birinci: İbn Əbülhədidin rəvayəti

İbn Əbülhədid deyir: *“Həmçinin Misvər ibn Məxrəmə rəvayət edir: “Ömər vurulduqdan sonra ağrımağa və narahat olmağa başladı. İbn Abbas, sanki, onun halına acıyaraq dedi: “Ey möminlərin əmiri, əgər beladirsə, (narahat olma,) sən Peyğəmbərə (s) yoldaşlıq etdin, ən yaxşı səhabələrindən oldun, o səndən razı halda*

[1183] Şiə və Əhli-Beyt, s. 99-101

dünyadan köçdü. Sonra Əbu Bəkrə yoldaş oldun, onunla gözəl şəkildə dostluq etdin, o da səndən razı halda dünyadan köçdü. Sonra səhabələrə sahib çıxdın. Onlarla gözəl yoldaşlıq etdin. Əgər onlardan ayrılsan belə, onlar səndən razıdırlar".

Dedi: "Peyğəmbərə (s) səhabə olmağımı və onun məndən razılığını bildirdin, bu, Allahın mənə etdiyi minnət (ehsan) idi. Əbu Bəkrə yoldaşlığım və onun məndən razılığı da Allahın mənə bir minnətidir. Lakin gördüyün narahatlığım sənə və sənin əshabına görədir. Allaha and olsun ki, əgər Yer miqdarında qızılım olsaydı və onu Allahın əzabını görməmək üçün fəda edərdim".

Başqa bir rəvayətdə isə: "...qarşıdakı qorxulu şeylərə görə onları fəda edərdim". Digər bir rəvayətdə: "Siz kimi aldadırsınız! Əgər Yer üzünün qızıl və gümüşləri mənim olsaydı, qarşıdakı qorxulu şeylərə görə onları fəda edərdim". Bir digər rəvayətdə: "Xəlifəliyimə görə məni tərifləyirsən, ey İbn Abbas?" Dedim: "Digər şeylər üçün də". Dedi: "Canımı əlində tutan Allaha and olsun, xəlifəliyə addım qoyduğum kimi ondan ayrılmaq istərdim ki, nə günahım (və ya narahatlığım) və nə ağır yüküm olardı".

Başqa bir rəvayətdə: "Əgər üzərinə Günəşin doğub-batdığı şeylər mənim olsaydı, bu saatın (ölüm saatının) bəlalarından qurtulmaq üçün fəda edərdim..."

Digər rəvayətdə: "Əgər bütün dünya və oradakılar mənim olsaydı, xəbərləri mənə çatmazdan əvvəl qarşıda məni gözləyən qorxulu şeylərdən xilas olmaq üçün fəda edərdim".

İbn Abbas deyir: "Ümmü Külsümün "Vah Ömər!" səsini eşitdik. Onunla bərabər qadınlar var idi, onlar da ağlayırdılar. Ev ağlamaq səslərindən titrəyirdi.

Ömər dedi: "Vay olsun Ömərin anasına! Həqiqətən də Allah onu (Ömərin günahlarını) bağışlamaz". Dedim: "Allaha and olsun, bizim möminlərin əmiri və müsəlmanların başçısı olaraq tanıdığımız kimisənsə, həmişə Allahın kitabı ilə hökm vermiş və bərabər bölgü aparmısan. Mən güman edirəm ki, sən cəhənnəmi yalnız

Allahın kitabında buyurduğu qədər görəcəksən: ***"Sizdən ora varid olmayan kəs yoxdur".***[1184]

Sözüm onu təəccübləndirdi. Qalxıb oturdu və dedi: "Ey İbn Abbas, mənim barəmdə buna şahidlik edirsən?"

Mən qorxub çəkindim. Əli (ə) mənim kürəyimə vuraraq dedi: "Şahidlik et".

Başqa bir rəvayətdə isə bu yerdə deyir: "Ey möminlərin əmiri, narahat olma! Allaha and olsun ki, müsəlmanlığın izzət və xəlifəliyin fəxr olub. Bu müddətdə yer üzünü ədalətlə doldurdun". Ömər dedi: "Ey İbn Abbas, bunlar barədə mənim üçün şahidlik edərsən?"

Ravi deyir: "İbn Abbas bir az çəkinib şahidlik etmək istəmədi. Əli (ə) dedi: "Bəli" de, mən də sənlə bərabər şahidəm". İbn Abbas "Bəli" dedi".

Bir rəvayətdə isə o deyir: "Onun dərisinə toxundum və dedim: "Bu dəriyə əsla od toxunmaz". Bir baxışla mənə nəzər saldı, bu an ona ürəyim yandı. Dedi: "Bunu haradan bilirsən?" Dedim: "Peyğəmbərə səhabəlik və gözəl yoldaşlıq etmisən..." Dedi: "Əgər Yer üzündəkilər mənim olsaydı, Allahın əzabını görməzdən (və ya onunla qarşılaşmazdan) əvvəl fəda edərdim".

Başqa bir rəvayətdə: "Xoş olmayan səs eşitdik, bu Əbdürrəhman ibn Ovf idi. "Möminlərin əmiri vuruldu!" deyildi. (Bir müddət sonra) Camaat çevrilib getdi. O qanına bələşmiş, sübh namazını da qılmamışdı. Deyildi: "Ey möminlərin əmiri, namaz!" Başını qaldırıb dedi: "Allaha and olsun, namazını əldən vermiş bir şəxsin İslamda nəsibi olmaz". Sonra qalxmaq üçün yerindən tərpəndi, bu zaman yarasından qan damlamağa başladı. Dedi: "Əmmaməmi gətirin!" Onunla yarasını bağladı, namaza başladı, zikr söylədi. Ardınca oğlu Abdullaha baxıb dedi: "Ey Abdullah, yanağımı yerə qoy". Onun bu sözünə əhəmiyyət vermədim. Zənn etdim ki, vəziyyətinin ağırlığı ağlına təsir edib. Sonra eyni sözü bir də təkrarladı. Bu dəfə də etmədim. Üçüncü dəfə dedi: "Üzümü torpağa qoy, ey anasından məhrum!" Bu dəfə

[1184] Məryəm, 71

ağlının özündə olduğunu bildim". Vəziyyətinin ağırlaşması bunu özünün etməsinə imkan vermirdi.

Yanağını yerə qoydum, kənarları torpağa bulaşmış saqqalının tüklərini gördüm, ağlayırdı. Üzünü qoyduğu torpaq göz yaşlarından islandı. Nə dediyini eşitmək üçün qulağımı yaxınlaşdırdım. O deyirdi: "Əgər Allah bağışlamasa, vay olsun Ömərə, vay olsun Ömərin anasına!"

Bir rəvayətdə isə bu yerdə deyilir: "Əli (ə) gəlib onun başının üzərində dayanaraq dedi: "Bu qanına bələşmişin əmälləri ilə Allahın qarşısına çıxmaqdan daha xoş bir şey yoxdur mənə!"[1185]

Bu sözlərdəki dəlil budur:

1. "İbn Abbas deyir: "Ümmü Külsümün (Əlinin (r) qızının) "Vah Ömər!" sədalarını eşitdik". Həmçinin: "Əli (ə) dedi: "De: Bəli, mən də sənlə bərabər şahidəm".

İbn Əbülhədid bu sözləri iki rəvayətin hissələrini cəm etməklə əldə edir:

Birinci rəvayət: "İbn Abbas deyir: "Ümmü Külsümün (Əlinin (r) qızının) "Vah Ömər!" sədalarını eşitdik", ta ki, "Əli kürəyimə vurub dedi: "Şahidlik et" sözünə kimi.

Bu sözlər İbn Əbülhədidin sözünün əvvəlində nəql etməyə başladığı Misvərin rəvayətinin bir parçası deyil. Belə ki, Misvərin rəvayəti *"Allaha and olsun ki, əgər Yer miqdarında qızılım olsaydı və onu Allahın əzabını görməmək üçün fəda edərdim"*[1186] sözləri ilə bitir.

[1185] Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid, c. 12, s. 192-193

[1186] Buxari "Səhih"də İbn Əbu Müleykənin vasitəsilə Misvər ibn Məxrəmədən nəql edir: *"Ömər vurulduqdan sonra ağrımağa başladı. İbn Abbas, sanki, onun halına acıyaraq dedi: "Ey möminlərin əmiri, əgər belədirsə, (narahat olma,) sən Peyğəmbərə (s) yoldaşlıq etdin, ən yaxşı səhabələrindən oldun, o səndən razı halda dünyadan köçdü. Sonra Əbu Bəkrə yoldaş oldun, onunla gözəl şəkildə dostluq etdin, o da səndən razı halda dünyadan köçdü. Sonra səhabələrə sahib çıxdın. Onlarla gözəl yoldaşlıq etdin. Əgər onlardan ayrılsan belə, onlar səndən razıdırlar".*

Dedi: "Peyğəmbərə (s) səhabə olmağımı və onun məndən razılığını qeyd etdin, bu, Allahın mənə etdiyi minnət (ehsan) idi. Əbu Bəkrə yoldaşlığım və onun məndən razılığı da Allahın mənə bir minnətidir. Lakin gördüyün narahatlığım sənə və sənin əshabına görədir. Allaha and olsun ki,

Bu isə digər bir rəvayətdir. Bunu İbn Səd kimi bəzi Əhli-Sünnə hədisçiləri və hafizləri nəql etmişlər. O, "ət-Təbəqat" kitabında İbn Abbasa istinadən yazır: *"Əli ilə birlikdə idik. Bu zaman Ömərə görə səslər yüksəldi". Deyir: "O, ayağa qalxdı, mən də onunla birlikdə qalxıb evinə getdik. "Bu nə səs idi?" deyə soruşdu. Bir qadın ona dedi: "Təbib ona meyvə suyu içirdi, o qaytardı, süd verdi, onu da qaytardı". "Axşama qalacağını düşünmürəm. Nə edəcəyəmsə, sən də et!" dedi. Bu zaman Ümmü Külsüm uca səslə "Vah Ömər!" deyə qışqırdı. Onunla bərabər ağlayan bir neçə qadın da var idi. Onların ağlamaq səslərindən ev titrəyirdi. Ömər dedi: "Vay olsun Ömərin anasına! Həqiqətən də Allah onları (günahları) bağışlamaz". Dedim: "Allaha and olsun, bizim möminlərin əmiri və müsəlmanların başçısı olaraq tanıdığımız kimisənsə, həmişə Allahın kitabı ilə hökm vermiş və bərabər bölgü aparmısan. Mən güman edirəm ki, sən cəhənnəmi yalnız Allahın kitabında buyurduğu qədər görəcəksən:* ***"Sizdən ora varid olmayan kəs yoxdur".***[1187]

Sözüm onu təəccübləndirdi. Qalxıb oturdu və dedi: "Ey İbn Abbas, mənim barəmdə buna şahidlik edirsən?"

Mən çəkindim və o, mənim kürəyimə vuraraq dedi: "Buna mənim üçün şahidlik et, ey İbn Abbas!"

Dedim: "Bəli, mən buna şahidəm".[1188]

İbn Əbülhədid bu rəvayəti qəribə şəkildə təhrif edib. İbn Sədin rəvayətində Cəhənnəmə daxil olmayacağına şahidlik etməsi üçün İbn Abbasın kürəyinə vuran şəxsin Ömər olduğu aydın şəkildə qeyd edilir: *"...Mən çəkindim və o, mənim kürəyimə vuraraq dedi: "Buna mənim üçün şahidlik et, ey İbn Abbas!" Dedim: "Bəli, mən buna şahidəm".* Ancaq İbn Əbülhədid rəvayəti təhrif edərək İbn Abbasın

---

əgər Yer miqdarında qızılım olsaydı və onu Allahın əzabını görməmək üçün fəda edərdim". (c. 3, s. 1350, hədis 3489, "Ömər ibn Xəttabın üstünlükləri" babı)

[1187] Məryəm, 71

[1188] ət-Təbəqatul-kubra, Muhəmməd ibn Səd, c. 3, s. 351-352; Usdul-ğabə, İbn Əsir, c. 4, s. 77

kürəyinə vuran şəxsin İmam Əli (ə) olduğunu iddia edir: *"Mən qorxub çəkindim. Əli (ə) mənim kürəyimə vuraraq dedi: "Şahidlik et".*

İddia oluna bilər ki, İbn Əbülhədidin məqsədi "ət-Təbəqat"dakı bu rəvayət deyil, o, başqa rəvayətə istinad edib. Cavab budur ki, belə fərz olunduqda nəql etdiyi rəvayət mürsəl (sənədsiz) olacaq. Çünki bu söz yalnız İbn Sədin "ət-Təbəqat"da nəql etdiyi rəvayətdədir.

Nəticə: İbn Əbülhədidin sözlərində işarə edilən rəvayət İbn Sədin "ət-Təbəqat"dakı rəvayətidir. Orada isə təhrif baş verib. Əhli-Sünnə rəvayəti olması ilə bərabər, bu rəvayət Ömərin cəhənnəmə daxil olmayacağı barədə İbn Abbasın hüsnü-zənnindən başqa bir mənaya dəlalət etmir. Bu isə İhsan Zahirin Ömərin cənnət əhli olması, İbn Abbas və İmam Əlinin (ə) buna şahidlik etməsi iddiasından uzaq bir fikirdir.

İkinci rəvayət: Deyir: "Başqa bir rəvayətdə isə bu yerdə deyir: "Ey möminlərin əmiri, narahat olma!..." sözündən ta ki, "...Əli (ə) dedi: "De: Bəli, mən də sənlə bərabər şahidəm" sözünədək.

Bu, İbn Əbülhədidin nəql etdiyi ikinci rəvayətdir. Bunun mənbəyi isə Xətib Bağdadinin "Tarix" kitabıdır. İsa ibn Mehrana istinadən Əmr ibn Cərir Bəcəlidən, o da İsmail ibn Əbu Xaliddən, o da Qeys ibn Əbu Hazimdən nəql edir: *"Ömərə ölümünə səbəb olan zərbə vurulduqdan sonra Əli ibn Əbu Talib və Abdullah ibn Abbas onun yanına daxil oldular. Ömərin başı oğlu Abdullahın qucağında idi. Meyvə suyu istədi, onu içdikdə yarasından çölə axdı (bəziləri yaradan axan mayenin meyvə suyu, bəziləri isə qan olduğunu söylədi). Süd şərbəti istədi, ondan içdikdə yarasından ağ süd axdı. O, öləcəyini bildi. Oğluna dedi: "Ey anasından məhrum, başımı yerə qoy". Deyir: Başını yerə qoydu. Bu vaxt Ömər dedi: "Ey anasının itirdiyi Ömər (bunu iki və ya üç dəfə təkrarladı)! Əgər şərqlə qərbin arasındakılar mənim olsaydı o qorxulu yerə getməmək üçün fəda edərdim".*

İbn Abbas ona dedi: "Ey möminlərin əmiri, narahat olma! Allaha and olsun ki, müsəlmanlığın izzət və xəlifəliyin fəthlər olub. Bu müddətdə yer üzünü ədalətlə doldurdun". Ömər dedi: "Ey qardaşımın oğlu, bunlara şahidlik edərsən?"

Ravi deyir: "İbn Abbas, sanki, şahidlik etmək istəmədi. Əli ibn Əbu Talib (ə) dedi: "De: Bəli, mən də sənlərəm".[1189]

Bu rəvayətin sənədi ravilərin arasında İsa ibn Mehranın olmasına görə zəifdir. İbn Ədiy, Əbu Hatəm Darequtni, Xətib Bağdadi, Hafiz İbn Həcər və digərləri onun zəif olduğunu bildiriblər.

İbn Əbülhədid Xətib Bağdadinin rəvayətini də təhrif edib. Belə ki, "İbn Abbas "Bəli" dedi" sözünü rəvayətə əlavə edib. Halbuki Bağdadinin rəvayətində həmin söz yoxdur.

İddia oluna bilər ki, İbn Əbülhədidin məqsədi Xətib Bağdadinin nəql etdiyi bu rəvayət deyil. Bu iddianın cavabında deyirik: "Belə iddia olunsa, o zaman İbn Əbülhədidin nəql etdiyi rəvayət mürsəl (sənədsiz) olacaq. Çünki bu mətn yalnız Xətib Bağdadinin "Tarix" əsərində nəql olunub.

2. Deyir: **"Ömər vurulduqdan sonra camaat çevrilib getdi..."** ta **"Bu qanına bələşmişin əmələri ilə Allahın qarşısına çıxmaqdan daha xoş bir şey yoxdur mənə"** sözünədək.

İbn Əbülhədidin bu sözləri də özündə iki rəvayətin parçalarını ehtiva edir:

Birinci rəvayət: "Deyilir: **"Ömər vurulduqdan sonra camaat çevrilib getdi. O, öz qanına bələşmişdi"** ta ki: **"Əgər Allah bağışlamasa vay olsun Ömərə, vay olsun Ömərin anasına!"**

Bu rəvayət Asim ibn Übeydullahındır. İbn Səd "ət-Təbəqat" kitabında Asim ibn Übeydullaha istinadən Abdullah ibn Amir ibn Rəbiədən nəql edir: *"Ömərin başı oğlu Abdullahın qucağında idi. Oğluna dedi: "Yanağımı yerə qoy". Oğlu dedi: "Ya*

[1189] Tarix, Xətib Bağdadi, c. 11, s. 167-168

yerdə, ya qucağımda, nə fərqi var". Ömər dedi: "Yerə qoy". Sonra üç dəfə dedi: "Əgər Allah məni bağışlamasa, vay olsun mənə və anama!"[1190]

Rəvayətin sənədində də qarışıqlıq var. Darəqutni deyir: *"(Əbülhəsən Əli ibn Ömər ibn Əhməd ibn Mehdidən) Osmanın Ömərdən nəql etdiyi "Yanağımı yerə qoy. Əgər Allah məni bağışlamasa, vay olsun mənə!" rəvayəti haqqında soruşuldu. Dedi: "Bu, Asim ibn Übeydullah ibn Asimin Əbdürrəhman ibn Aban ibn Osmandan, onun da atası Osmandan nəql etdiyi rəvayətdir: "Mən Ömərin dövründən qalan son insanlardanam". Deyir: Bunu Həmmad ibn Zeyd Yəhya ibn Səiddən, o da həmçinin Asim ibn Übeydullahdan rəvayət edib. Malik ibn Ənəs buna qarşı çıxıb, Yəhya ibn Səddən, o da Əbdürrəhman ibn Aban ibn Osmandan, o da atası Osmandan rəvayət edib. Lakin bunların arasında Asim ibn Übeydullahın adını qeyd etməyib. Deyilir: Malikdən, o da Yəhya ibn Səiddən, o da Həmran ibn Abandan, o da Osmandan, ona da Əbu Xəlifə Qənəbidən nəql edilir... burada da Əbu Xəlifə anlaşılmır. Bunu Sövri Asim ibn Übeydullahdan, o da Aban ibn Osmandan, o da Osmandan, o da Ömərdən rəvayət edib. Lakin burada Əbdürrəhman ibn Abanın adı qeyd edilmir. Bu qarışıqlıq Asim ibn Übeydullaha görədir. Malikin sözündəki "Yəhyadan, o da Əbdürrəhman ibn Abandan" ya anlaşılmazlıqdır, ya da bilərəkdən Asim ibn Übeydullahın adını qeyd etmir. Nəzərində zəif olan şəxsin adını sənəddə söyləməmək onda bir adət idi. Məsələn, Əkrəmə barədə olduğu kimi. Deyir: "Şöbə Asim ibn Übeydullahdan, o da Salimdən, o da Abdullah ibn Ömərdən, o da Ömərdən nəql edir. Söz Həmmad ibn Zeydindir".*[1191]

Rəvayət İhsan Zahirin Ömərin cənnət əhli olması, İmam Əli (ə) ilə İbn Abbasın buna şahidlik etməsi iddiasından uzaqdır. Rəvayətin mətnində yaxından və ya uzaqdan bu iddia ilə heç bir əlaqə yoxdur.

[1190] ət-Təbəqatul-kubra, Muhəmməd ibn Səd, c. 3, s. 360

[1191] əl-İləl, Darəqutni, c. 2, s. 8, rəqəm 83.

İkinci rəvayət: Deyir: **"Bir rəvayətdə isə bu yerdə deyilir: "Əli (ə) gəlib onun başının üzərində dayanaraq dedi: "Bu qanına bələşmişin əmelləri ilə Allahın qarşısına çıxmaqdan daha xoş bir şey yoxdur mənə".**

Rəvayəti Əhməd, İbn Əbu Şeybə və Əhli-Sünnənin digər hədis hafizləri və hədisşünasları bir çox yollarla[1192] nəql ediblər. Onların kitabları Ömər ibn Xəttabın üstün əməllərinə dair rəvayətlərlə doludur!

İbn Əbülhədidin sözləri barədə deyəcəklərimiz bu qədər. Məlum oldu ki, o, kitabındakı mətndə dörd rəvayətdən istifadə etmişdir. Bunların hamısı da Əhli-Sünnə rəvayətləridir. Necə ki, bunu sözünün əvvəlində də bəyan edir: *"Həmçinin Misvər ibn Məxrəmə rəvayət edir: "Ömər vurulduqdan sonra ağrımağa və narahat olmağa başladı..."*

İbn Əbülhədidin "Şərhu Nəhcül-Bəlağə" kitabının şiənin qarşısında dəlil sayılmayacağını, bu kitabın 12-ci cildini müəllif bütünlükdə Ömər ibn Xəttabın fəzilət, əxlaq və ömür yoluna həsr etdiyini dəfələrlə deməyimizə rəğmən, İbn Əbülhədidin özü də Əhli-Sünnə rəvayətlərinə istinad etdiyini aydın bəyan edir. Bundan əlavə, dəlil göstərilən bu rəvayətlərin bəzilərinin sənədi Əhli-Sünnənin qaydalarına əsasən də zəif və ya dəlil göstərilmək səlahiyyətində deyil.

İkinci: Seyyid Mürtəza və Şeyx Tusiyə istinad edilən rəvayət

Seyyid Mürtəza deyir: *"Kitabın müəllifi[1193] deyir: "Onların digər dəlilləri: Çox vaxt onlar bu mövzuda iddia etdikləri hədislərlə əlaqələndirirlər. O hədislərin bəzisi xəbəri vahidlər, bəziləri xəbəri vahidin şərtlərinə əsasən belə isbatlanması mümkün olmayan rəvayətlərdir. Məsələn, iddia edirlər ki, Peyğəmbər (s) səhabələrə Əliyə "Möminlərin əmiri" və bu kimi sözlərlə salam verməyi buyurur...*

Şeyximiz Əbu Əli bu hədislərin heç bir cəhətdən isbat olunmadığını, qəti dəlillərin isbatlanmasında onlara əsaslanmağın doğru olmadığını bildirib. Bu və bu kimi

---

[1192] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 109, hədis 867; əl-Müsənnəf, İbn Əbu Şeybə, c. 6, s. 359, hədis 32018

[1193] Bu, Əhli-Sünnə alimi Qazi Əbdülcabbar Mötəzilidir; "əl-Muğni" kitabının müəllifidir.

rəvayətlərin mütəvatir olduğu iddialarının da doğru olmadığını bəyan edib. Çünki mütəvatir hədislərin şərtləri onlarda cəm olmayıb...

Həmçinin (Əbu Əli) bəyan etdi ki, onların bu hədislərinə qarşı olan dəlillərdən biri də eyni sözlərin Əbu Bəkr üçün söyləndiyidir. Belə ki, hədis əhlinin arasında belə rəvayətlər çoxdur.

Həmçinin bildirdi ki, qəti dəlilin isbatı hədissiz mümkün deyil. Qədim əsrlərdəki şəraitdə isə bu olduqca çətin idi.

Möminlərin əmiri Əlinin (ə) Əbu Zərr, Əmmar, Miqdad və Salman kimi şiələrinin olduğu və onu bu adla çağırdıqları iddiasının da isbatı mümkün deyil. Belə hədislər yalnız onların Əli ilə (ə) xüsusi yoldaşlıqlarını, onun fəzilətlərini söylədiklərini, imamətə layiq olduğunu, ona və fikirlərinə bağlılığı isbatlayır. Bundan başqa iddialar isə uzaq rəylərdir. Çünki heç bir qəti dəlil onların iddialarını qeyd etmir.

Qeyd etdi ki, əgər onlar özləri üçün bir şeyin isbatında belə hədislərə əsaslanmağa razıdırlarsa, o zaman Peyğəmbərin (s) özündən sonra xəlifə təyin etmədiyinə dəlalət edən hədislər bundan daha üstündür. Belə ki, Əbu Vail və Həkəm Əli ibn Əbu Talibdən (ə) "özündən sonrakı xəlifəni vəsiyyət etməyəcəksən?" sualına cavabda belə dediyini nəql edirlər: "Peyğəmbər (s) vəsiyyət etdi ki, mən də vəsiyyət edim?! Lakin Allah camaata xeyir diləsə, onları ən yaxşılarının ətrafında toplayar. Necə ki, Peyğəmbərdən (s) sonra onları ən yaxşılarının ətrafında toplamışdı". Səsəə ibn Sovhan rəvayət edir...

O cür hədisə əsaslanmaqdansa, ondan üstün olan bu kimi hədislərə niyə etimad etmirlər?

Onların (şiələrin) bu iddiasına zidd olan digər bir məsələ Əbu Bəkrin xilafəti ilə bağlı nəql edilən rəvayətdir. Ənəs ibn Malikdən rəvayət olunur ki, Əbu Bəkr gəldikdə Peyğəmbər (s) onu cənnətlə və özündən sonra xəlifəliklə müjdələməyi, həmçinin Öməri də cənnətlə və Əbu Bəkrdən sonra xəlifəliklə müjdələməyi əmr etmişdi. Cübeyr ibn Mutəmdən rəvayət olunur... Cəfər ibn Muhəmməd atasından, o da Cabir ibn Abdullahdan rəvayət edir: "Ömərə qüsl verilib kəfənləndikdə Əli oraya gəlib

dedi: "Mənim üçün Allahın hüzuruna bu qarşınızda kəfənlədiyiniz şəxsin səhifəsi ilə çıxmaqdan yer üzündə daha sevimli bir şey yoxdur". Bu cür hədis İbn Abbasdan və İbn Ömərdən də rəvayət olunub. Və digər rəvayətlər ki, onları burada qeyd etmək sözümüzün uzanmasına səbəb olacaq.

Bu və qeyd edilməsi söhbəti uzadacaq o aşkar rəvayətlər olduğu halda, nə üçün belə üstün sübutlar, Əbu Bəkrin xilafəti və fəzilətinə... dair qəti dəlillər müqabilində onların Möminlərin əmiri Əlinin (ə) imamət və fəzilətinə dəlil olduğunu iddia edirsiniz?"[1194]

Cavabında ona deyilir: "Möminlərin əmiri Əliyə (ə) "Möminlərin əmiri" ünvanı ilə salam vermək əmrini ehtiva edən hədis şiələrin arasında nəqldə təvatür həddindədir. Həmçinin şiələr rəvayətdəki təkcə bir sözü deyil, onu barəsində mütəvatir həddində olan Peyğəmbərin (s) buyurduğu "O, müsəlmanların ağası, təqvalıların imamı, alnı parlaqların öndəridir", eləcə də "Bu, məndən sonra bütün mömin kişi və mömin qadınların rəhbəridir" sözləridir. Bu kəlmələr də həmin sözün məcrasındadır. Əgər bu hədisi yalnız şiələrin nəql etdiyini düşünürsünüzsə, onu bir çox Əhli-Sünnə raviləri də müxtəlif yollarla rəvayət etmiş və səhih olduğunu söyləmişlər. Heç bir Əhli-Sünnə ravisinin və alimin bu hədisləri inkar etdiyini və ya kənara atdığını görməmişik. Əgər İmam Əliyə (ə) "Möminlərin əmiri" ünvanı ilə salam vermək hədisi onların rəvayətlərindəki oxşar hədislərin mətninə zahirdə bənzəyirsə, bunların hamısı Əhli-Sünnə yolu ilə nəql edilibsə və Əbu Əlinin iddiasına görə mütəvatir deyillər, xəbəri vahidə də uyğun gəlmirlər, həmçinin onun iddiasına görə, mütəvatirin şərtlər bu rəvayətlərdə cəm olmayıbsa, biz kitabın əvvəlində mütəvatir üçün tələb olunan şərtlərin o rəvayətlərdə toplandığını bəyan etmişik.

Onu sözü: "Bu hədis mətəvatirlər sırasına daxil deyil. Deyilə bilər ki, şiələr əsrlər boyunca ölkələrdə çoxluq təşkil etməyiblər ki, nəticədə mütəvatirin şərtlərinin hasil olması bir kənara dursun, onların təvatür həddindəki nəqli belə mümkün olsun". Mütəvatir hədislərin necə müəyyənləşdiyini biz bilmirik? Məgər bu, əksər hallarda

---

[1194] əl-Muğni, Qazi Əbdülcabbar Mötəzili, c. 20, s. 90-91

rastlaşdığımız, tanınmış, gizli olmayan, nəsildən-nəsilə nəql edilən sifətlərə sahib hədislər deyilmi? Bilirik ki, onların birincisinin vəsfi sonuncusunun vəsflərinin şərtləri kimidir. Bunları və şiə nəqllərindəki mütəvatirin isbatının dəlillərini əvvəldə qeyd etdik. Əgər qeyd etdiklərimizə kiminsə şəkki varsa, bizə bir mütəvatir xəbəri nümunə göstərsin ki, şiə rəvayətinin onunla eyni, artıq və ya əskik səviyyədə olduğunu bilək. Əgər biz onun mütəvatirliyinə hökm etməsəydik, o zaman bu cümlənin üzərində dayanmazdıq...

Bu hədisin Əbu Bəkrlə bağlı iddia edilən qəti dəlillərə zidd olmasına gəldikdə, onun barədə də sözümüzü dedik, burada təkrara lüzum görmürük. Həmin iddianın puçluğunu bəyan etmişik. Bu dəlil şiənin Möminlərin əmiri Əli (ə) ilə bağlı təqdim etdiyi dəlillə eyni səviyyədə və ya ona yaxın da deyil, təqdim edilən dəlilin qarşısında qeyd edilmə səlahiyyəti yoxdur. Bu mövzuda şübhələri aradan qaldıracaq bir neçə cəhəti qeyd etdik...

Peyğəmbərin (s) özündən sonra xəlifə təyin etmədiyinə və ya Əbu Bəkri xəlifə təyin edərək imamətini bildirdiyinə dair Peyğəmbərdən (s) bir neçə hədisi nəql edərək şiələrin bu iddiasının ziddinə təqdim etməsinə gəldikdə: Bu barədə ona deyəcəyimiz ilk söz budur ki, ziddiyyət məqamında eyni səviyyəli, bir-birinə qarşı olmaq səlahiyyətinə sahib dəlillər olmadıqda, iddiaçının təəssübü zahir olur. Ziddinə təqdim edilən dəlillərlə bizim əsaslandığımız dəlillərin arasındakı fərqliliklər hamıya məlumdur. Belə ki, bizim təqdim etdiyimiz bütün və ya əksər hədislərin nəqlində onlarla müştərəkliyimiz var. Onların ravilərinin səhih olduğunu söyləmiş və öz kitablarında, əsərlərində "səhih" hökmü ilə qeyd etmişlər. Lakin onun iddiasına təqdim etdiyi rəvayətlər isə bir tərəfdən nəql edilmişdir. Möminlərin əmiri Əlinin (ə) müxtəlif məzhəblərdən olan şiələri bunları inkar və rədd edir, ravilərini etibarlı saymırlar. Bundan əlavə, nəql edilmiş həmin rəvayətlərə diqqətlə nəzər saldıqda, ravisini, mətnin əslini araşdırdıqda bunların Əhli-Beytdən (ə) üz döndərdikləri və onlardan uzaqlaşdıqları məşhur olan təəssübkeşlərin məhsulu olduğu aydınlaşır. Bunlar nəzərə alındıqda, onların şiə ilə mübahisələrdə təqdim

etdiyimiz dəlilin qarşılığında heç bir üstünlüyü yoxdur. Hətta bunu hamı nəql etsə, hamı razı olsa belə... Bizim mütəvatirlik vəsflərini qeyd etdiyimiz hədisin qarşısında belə rəvayətlərlə çıxmaq alimə yaraşman təəssüb deyil, bəs nədir?"[1195]

Mətndən də göründüyü kimi, Seyyid Mürtəza kitabın həmin yerində Qazi Əbdülcabbarın sözlərini nəql etməkdə və ardınca ona cavab verməkdədir. Əbdülcabbarın sözlərinin xülasəsi bu idi ki, şiələrin İmam Əlinin (ə) imamətinə dəlil göstərdikləri bu mövzuda olduğunu iddia etdikləri hədislərdir ki, onlara da öz şeyxi Əbu Əlidən nəql etdiyi sözlərlə cavab verir. Əbu Əli həmin rəvayətin elmi cəhətdən heç bir şeyi sübut etmədiyini və etimad olunmayacağını deyir, şiələrin bu rəvayətlərdən bəzilərinin mütəvatir həddinə çatdığı iddiasının mütəvatir şərtlərinin cəm olmadığı üçün düzgün sayılmadığını bildirir. Bunun qarşılığında Əbu Bəkr və Ömərin xəlifəliyi barədə qəti dəlillərin olduğunu söyləyir və deyir ki, əgər şiələr bu cür dəlillərə etimad edirlərsə, bundan daha üstün və açıq mənalı olan belə rəvayətlərə niyə əhəmiyyət vermirlər? Bunun ardınca isə xəlifənin təyin olunmadığına və ya Əbu Bəkrin və Ömərin xəlifəliyinə dair rəvayətləri qeyd edir. Bunlardan biri də İmam Əlinin (ə) Ömərə qüsl verilib kəfənlənərkən həmin yerə gəlib *"Mənim üçün Allahın hüzuruna bu qarşınızda kəfənlədiyiniz şəxsin səhifəsi ilə çıxmaqdan yer üzündə daha sevimli bir şey yoxdur"* dediyi rəvayətdir.

Göründüyü kimi, Seyyid Mürtəza da bu iddiaları müfəssəl şəkildə cavablandırır.

Buna əsasən, Ömərə qüsl verilib, kəfənlənərkən İmam Əlinin (ə) gəlib *"Mənim üçün Allahın hüzuruna bu qarşınızda kəfənlədiyiniz şəxsin səhifəsi ilə çıxmaqdan yer üzündə daha sevimli bir şey yoxdur"* dediyi iddia olunan bu sözlər Qazi Əbdülcabbarın Ömərin xilafətinə dəlil olaraq təqdim etdiyi rəvayətlərdən biridir. Bu rəvayəti isə şiələrin İmam Əlinin (ə) imamətinə göstərdikləri dəlillərin ziddinə göstərir. Lakin İhsan Zahir öz adəti üzrə yenə də saxtakarlığa əl ataraq Qazi Əbdülcabbarın sözlərini Seyyid Mürtəzanın sözləri kimi təqdim edib.

[1195] əş-Şafi fil-imamət, Seyyid Mürtəza, c. 3, s. 89-96

Buradan İhsan Zahirin Şeyx Tusiyə nisbət verdiyi sözlərin də qondarma olduğu anlaşılır. Belə ki, Şeyx Tusinin "Təlxisuş-Şafi" kitabı Seyyid Mürtəzanın "əş-Şafi fil imamət" əsərinin xülasəsindən başqa bir şey deyil. Nəticədə Qazi Əbdücabbarın sözlərini bu dəfə Şeyx Tusiyə nisbət verir.

Üçüncü: Şeyx Səduqa nisbət verdiyi rəvayət

Şeyx Səduq "Məanil-əxbar"da Müfəzzəl ibn Ömərə istinadən rəvayət edir: *"Əbu Abdullahdan (İmam Sadiqdən) İmam Əlinin (ə) ikinciyə (xəlifə Ömərə) qüsl verilib kəfənlənərkən söylədiyi "Mənim üçün Allahın hüzuruna bu qarşınızda kəfənlədiyiniz şəxsin səhifəsi ilə çıxmaqdan yer üzündə daha sevimli bir şey yoxdur" sözünün mənası barədə soruşdum". Buyurdu: "Bu sözü ilə Kəbədə imzalanan səhifəni nəzərdə tutub".*[1196]

Şeyx Səduqun rəvayətində "bu qarşınızda kəfənlədiyiniz şəxsin səhifəsilə" sözündə məqsəd İmam Sadiqin (ə) də rəvayətdə bəyan etdiyi kimi, Kəbədə imzaladıqları vərəqdir. Bu söz isə özündə Ömərə qarşı ciddi tənqid və məzəmmət daşıyır.

İmam Sadiqin (ə) rəvayətdə toxunduğu "Kəbədə imzalanmış səhifə (vərəq)" məsələsi şiə mənbələrində məşhur mövzudur. Bu vərəqdə bir dəstə şəxsin Vida Həccindən sonra xilafəti Əliyə verməyəcəklərinə dair bağladıqları əhd qeyd edilib. Şiə alimləri rəvayət edirlər ki, bir dəstə səhabə Əbu Bəkrin evində toplaşaraq Peyğəmbərin (s) xilafəti barədə müqavilə bağlamış, bunu bir vərəqdə yazmışdılar. Orada inkar edilən ilk məsələ Möminlərin əmiri Əlinin (ə) vilayətidir. Müqaviləyə əsasən, xilafət əvvəlcə Əbu Bəkrə, sonra Ömərə və ardınca Əbu Übeydəyə çatmalı idi. Sonra həmin kağız Əbu Übeydə ibn Cərraha verilərək Məkkəyə göndərilmiş, Ömər ibn Xəttabın hakimiyyətinədək Kəbədə basdırılaraq saxlanmışdı. Onu Ömər ibn Xəttab oradan çıxarmışdı.[1197]

[1196] Məanil-əxbar, Şeyx Səduq, s. 412

[1197] Kitabu Süleym ibn Qeys, Süleym ibn Qeys (vəfatı: h.q 76), s: 154, 161, 203, 269

Bu, İmam Əlinin (ə) Ömər ibn Xəttab öldükdə Allahın hüzuruna həmin səhifə ilə çıxması barədəki təmənnasıdır. Lakin İhsan Zahir bu səhifənin Ömərin əməl dəftəri olduğu xülyasını oxucuya təlqin etməyə səy göstərib. Bununla da Qazi Əbdülcabbarın söylədiyi rəvayəti Şeyx Səduqun rəvayət kimi təqdim edərək ona iftira atıb.

Dördüncü: Əhi-sünnə kitablarından dəlil göstərməsi

İhsan Zahir deyir: **"...bu səbəbdən də, (İmam Əli) Allahın hüzurunda Ömər faruqun (r) həyatı boyu əldə etdiyi gözəl əməllər kimi əməllərlə çıxmağı təmənna etmişdir. Necə ki, bunu Seyyid Mürtəza, Əbu Cəfər Tusi, İbn Babəveyh və İbn Əbülhədid də rəvayət ediblər: "Ömərə qüsl verilib kəfənləndikdə Əli oraya gəlib dedi: "Mənim üçün Allahın hüzuruna bu qarşınızda kəfənlədiyiniz şəxsin əməl dəftəri ilə çıxmaqdan yer üzündə daha sevimli bir şey yoxdur". (Kitabuş-Şafi, Ələmul-Huda, s. 171; Təlxisuş-Şafi, Tusi, c. 2, s. 428, İran çapı; Məanil-əxbar, Şeyx Səduq, s. 117, İran çapı)**

Bu rəvayətlər bütünlüklə Əhli-Sünnənin kitablarında da qeyd edilib: Hakimin "Müstədrək"ində (c. 3, s. 93), Zəhəbinin "Təlxis"ilə birgə, həmçinin Əhməd Hənbəlin "Müsnəd"ində, İbn Sədin "Təbəqat"ında (Əhvalu Ömər, c. 3, s. 269-270). Buna bənzəri Buxarinin və Müslimin "Səhih"ində də qeyd edilib".

Bu iddialar puçdur. Çünki:

Birinci: İhsan Zahirin Seyyid Mürtəzaya, Şeyx Tusi və Şeyx Səduqa iftira atdığını sübut etdik. Qeyd edilən rəvayət Qazi Əbdülcabbarın Ömərin xəlifəliyinə dəlil olaraq göstərdiyi rəvayətlərdəndir. Bunu İmam Əlinin (ə) vilayəti ilə bağlı şiə rəvayətinə qarşı dəlil kimi təqdim edir. Seyyid Mürtəza Qazi Əbdülcabbarın sözlərini onun "əl-Muğni" kitabından nəql edərək ardınca onlara cavab verir. Belə ki, Seyyid Mürtəzanın "əş-Şafi fil-imamət" kitabı məhz Qazi Əbdülcabbarın "əl-Muğni" kitabına rəddiyyə olaraq qələmə alınıb. Lakin İhsan Zahir saxtakarlıq

edərək Qazi Əbdülcabbarın sözlərini Seyyid Mürtəzanın sözləri kimi oxucuya təqdim edir. Necə ki, bunu Şeyx Tusinin "Təlxisuş-şafi" kitabı ilə də edir. Orada da Qazi Əbdülcabbarın sözlərini Şeyx Tusinin sözləri kimi təqdim edib. Adından da məlum olduğu kimi Şeyx Tusinin kitabı Seyyid Mürtəzanın "əş-Şafi fil-imamət" kitabının xülasəsidir.

Eləcə də, Şeyx Səduqun rəvayəti onun dəlil göstərdiyi rəvayətlə ziddiyyət təşkil edir. Belə ki, Şeyx Səduqun nəql etdiyi rəvayət açıq və aydın şəkildə Ömərə etirazı və onun şiddətli tənqidini özündə ehtiva edir. Lakin İhsan Zahir bu iki rəvayətlərdəki "səhifə" sözlərindən sui-istifadə edib oxucunu aldatmaq məqsədilə bunun əməl dəftəri olduğu təsəvvürünü yaratmağa çalışıb.

İhsan Zahirin dəlil olaraq göstərdiyi rəvayət yalnız və yalnız Əhli-Sünnənin hədis mənbələrində nəql olunub. O, bu rəvayəti İbn Əbülhədidin "Şərhu Nəhcül-Bəlağə" kitabında Ömərin fəzilətləri və üstünlükləri barədə nəql etdiyi Əhli-Sünnə rəvayətlərindən götürmüşdür. Lakin bununla bərabər, İhsan Zahir bundan qəflətdə qalmışdır. İbn Əbülhədidi şiə kimi təqdim edərək "bu rəvayəti şiələr nəql edib deyə" sinəsinə döyüb.

İkinci: İhsan Zahirin qeyd etdiyi Əhli-Sünnə rəvayətlərinin Əhli-Sünnə rical qaydalarına əsasən, əksəriyyətinin sənədi zəifdir.

Hakim Əbu Muhəmməd Muzəninin vasitəsilə Muhəmməd ibn Abdullah Həzrəmidən, o da Abdullah ibn Ömər ibn Abandan, o da Süfyan ibn Üyeynədən, o da Cəfər ibn Muhəmmədən (İmam Cəfər Sadiqdən), o da atasından (İmam Muhəmməd Baqirdən), o da Cabir ibn Abdullahdan (r) nəql edir: *"Ömər kəfənlənərkən Əli oraya daxil oldu və "Allahın salavatı olsun sənə!" dedi. Sonra buyurdu: "Bu kəfənlənənin səhifəsindəkilərlə (vərəqindəkilərlə) Allahın hüzuruna çıxmaqdan mənə daha istəkli bir şey yoxdur".*[1198]

[1198] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 100, hədis 4523, "Ömərin öldürülməsi" bölməsi

Bu rəvayət Muzəni səbəbilə zəifdir. İbn Həbban onun adını "əl-Məcruhin" kitabında qeyd edərək deyir: "Əbu Muhəmməd Muzəni, Bəsrədəndir, Səid ibn Əbu Ərubədən rəvayətlərə uyğun olmayan şeylər rəvayət edib. Sabit şəxslərin rəvayət etdiyi xəbərlərdə dəyişiklik edirdi. Onun rəvayətlərini dəlil qəbul etmək olmaz".[1199]

Zəhəbi ona İsmail ibn İbad Sədi adı ilə tərcümeyi-hal yazıb, Daraqutnidən onun hədislərinin tərk olunduğunu nəql edib. İbn Həbbanın isə "rəvayətlərini dəlil qəbul etmək olmaz" sözünü qeyd edib.[1200]

Hakim, eləcə də Zəhəbi "ət-Təlxis" əsərində onun barəsində susublar.

Əhməd ibn Hənbəl Əbu Məşər Nəcih Mədininin vasitəsilə Nafidən, o da Abdullah ibn Ömərdən nəql edir: *"Ömər ibn Xəttab minbərlə qəbrin arasında qoyuldu. Əli (r) gəlib onun qarşısındakı sırada dayandı və üç dəfə bunu təkrarladı: "O, budur". Sonra dedi: "Allah sənə rəhmət etsin! Peyğəmbərin (s) səhifəsindən sonra Allahın məxluqlarından bu kəfənlənmiş şəxsin səhifəsi ilə Allahın qarşısına çıxmaqdan daha sevimli şey yoxdur mənə".*[1201]

Bu rəvayət də Əbu Məşər Nəcih Mədini səbəbindən zəifdir. Hafiz ibn Həcər deyir: "Nəcih ibn Əbdürrəhman Sindi Mədəni Əbu Məşər, Bəni-Haşimin azad edilmiş köləsi. Öz künyəsi ilə məşhur idi. Zəifdir, altıncı təbəqəyə mənsubdur, rəvayətlərdə qarışıqlığa yol verirdi".[1202]

İbn Sədə gəldikdə, o, bu rəvayəti İmam Sadiq (ə), Əbu Hüceyfə, Əyyub, Ömər, İbn Dinar, Əbu Cəhzəm, Muhəmməd ibn Hənəfiyyənin vasitəsilə rəvayət edib. Bu istinadlar barədə uzun-uzadı danışmaq olar. Lakin (rəvayətlərin Əhli-Sünnə mənbələrində olmasını nəzərə alaraq) buna lüzum görmürük.

İhsan Zahirin "bu cür hədislər Buxari və Müslimin kitablarında da qeyd edilib" iddiasının heç bir əsası yoxdur. Bunların heç birinə orada rast gəlmədik.

[1199] Kitabul-məcruhin, İbn Həbban, c. 1, s. 123

[1200] Mizanul-itidal, Zəhəbi, c. 1, s. 234

[1201] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 109, hədis 866

[1202] Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 559, rəqəm 7100

Həmçinin bu rəvayətləri qeyd edən Əhli-Sünnə hədis alimlərindən heç biri də bunu iddia etməmişlər.

10. Peyğəmbərdən (s) və Əbu Bəkrdən sonra Ömərin ümmətin arasında ən xeyirli şəxs olduğu iddiası

İhsan Zahir iddia edir ki, Ömər Peyğəmbərdən (s) və Əbu Bəkrdən sonra ümmətin ən xeyirli şəxsidir. Öz iddiasına dəlil olaraq bir rəvayəti Seyyid Mürtəzaya, digərini Şeyx Tusiyə, üçüncüsünü isə Şeyx Səduq və "İmam Həsən Əskərinin (ə) təfsiri"nə nisbət verib. İhsan Zahir deyir: "Əli (r) Ömərin Peyğəmbər (s) və Əbu Bəkrdən sonra ümmətin ən xeyirli şəxsi olduğuna şahidlik edib.[1203] Onun və Əbu Bəkrin haqqında öz məktubunda yazır: "Onlar hidayət imamları, İslamın ağsaqqalları, Peyğəmbərdən (s) sonra iqtida olunan şəxslərdir. Onlara iqtida edən şəxs qorunmuşdur".[1204] Həmçinin Peyğəmbərin (s) belə buyurduğunu rəvayət edir: "Əbu Bəkrin mənə nisbəti qulaq (eşitmə üzvü), Ömər isə göz nisbətindədir".[1205]

Xüsusi qeyd edilməlidir ki, bu rəvayətləri Əli Peyğəmbərdən (s) nəql edir. Bunlar Əlinin oğlu Həsəndən (Hüseyndən) də rəvayət edilib".[1206]

Cavab

Bu iddianın heç bir dəyəri yoxdur. Çünki dəlilsizdir. İhsan Zahirin üç böyük şiə aliminə nisbət verərək nəql etdiyi bu rəvayətlər həqiqət cəhətdən lüt-üryandır. Burada İmam Əlinin (ə) ilk iki xəlifədən üstünlüyünü isbat etmək mövzusuna daxil olmaq istəmirik. Ancaq qeyd etmək istəyirik ki, ilk iki xəlifənin üstünlüyünə olan dəlillərə nisbətdə, İmam Əlinin (ə) onlardan fəzilətli olduğu hər iki məzhəbin

---

[1203] Kitabuş-Şafi, c. 2, s. 428

[1204] Təlxisuş-Şafi, Şeyx Tusi, c. 2, s. 328

[1205] Uyunu əxbarir-Rza (ə), Şeyx Səduq ibn Babəveyh Qummi, c. 1, s. 313, həmçinin Məanil-Əxbar, Şeyx Səduq Qummi, s.110; Təfsiru Həsən Əskəri

[1206] Şiə və Əhli-Beyt, s. 101-102

rəvayətləri ilə isbatlanmış məsələdir. İlk iki xəlifənin üstünlüyünü vurğulayan rəvayətlər yalnız Əhli-Sünnə mənbələrində mövcuddur. Bu səbəbdən də, burada yalnız İhsan Zahirin iddiasının puçluğunu isbatlamaqla kifayətlənirik:

Birinci: Seyyid Mürtəzaya nisbət verdiyi rəvayət

Seyyid Mürtəza deyir: *"Kitabın müəllifi*[1207] *yazır: "Onların digər dəlilləri: Çox vaxt onlar bu mövzuda iddia etdikləri hədislərlə əlaqələndirirlər. O hədislərin bəzisi xəbəri vahidlər, bəziləri xəbəri vahidin şərtlərinə əsasən belə isbatlanması mümkün olmayan rəvayətlərdir. Məsələn, iddia edirlər ki, Peyğəmbər (s) səhabələrə Əliyə "Möminlərin əmiri" və bu kimi sözlərlə salam verməyi buyurur...*

Şeyximiz Əbu Əli bu hədislərin heç bir cəhətdən isbat olunmadığını, qəti dəlillərin isbatlanmasında onlara əsaslanmağın doğru sayılmadığını bildirib, bu və bu kimi rəvayətlərin mütəvatir olduğu iddialarının da doğru olmadığını bəyan edib. Çünki mütəvatir hədislərin şərtləri onlarda cəm olmayıb...

Həmçinin (Əbu Əli) bəyan etdi ki, onların bu hədislərinin müqabilindəki dəlillərdən biri də eyni sözlərin Əbu Bəkr üçün də söyləndiyidir. Belə ki, hədis əhlinin arasında belə rəvayətlər çoxdur.

Həmçinin bildirdi ki, qəti dəlilin isbatı hədissiz mümkün deyil. Qədim əsrlərdəki şəraitdə isə bu olduqca çətin idi.

Möminlərin əmiri Əlinin (ə) Əbu Zərr, Əmmar, Miqdad və Salman kimi şiələrinin olduğu və onu bu adla çağırdıqları iddiasının da isbatı mümkün deyil. Belə hədislər yalnız onların Əli (ə) ilə xüsusi yoldaşlıqlarını, onun fəzilətlərini söylədiklərini, imamətə layiq olduğunu, ona və fikirlərinə bağlılıqlarını isbatlayır. Bundan başqa iddialar isə uzaq rəylərdir. Çünki heç bir qəti dəlil onların iddialarını qeyd etmir.

Bildirdi ki, əgər onlar özləri üçün bir şeyin isbatında belə hədislərə əsaslanmağa razıdırlarsa, o zaman Peyğəmbərin (s) özündən sonra xəlifə təyin etmədiyinə dəlalət edən hədislər bundan daha üstündür. Belə ki, Əbu Vail və Həkəm Əli ibn Əbu

---

[1207] Bu, "əl-Muğni" kitabının müəllifi Qazi Əbdülcabbar Mötəzilidir.

Talibdən (ə) "özündən sonrakı xəlifəni vəsiyyət etməyəcəksən?" sualına cavabda belə dediyini nəql edirlər: "Peyğəmbər (s) vəsiyyət etdi ki, mən də vəsiyyət edim?! Lakin Allah camaata xeyir diləsə, onları ən yaxşılarının ətrafında toplayar. Necə ki, Peyğəmbərdən (s) sonra onları ən yaxşılarının ətrafında toplamışdı". Səsəə ibn Sovhan rəvayət edir...

O cür hədisə əsaslanmaqdansa, ondan üstün olan bu kimi hədislərə niyə etimad etmirlər?

Onların (şiələrin) bu iddiasına zidd olan digər bir məsələ Əbu Bəkrin xilafəti ilə bağlı nəql edilən rəvayətdir. Ənəs ibn Malikdən rəvayət olunur ki, Əbu Bəkr gəldikdə Peyğəmbər (s) onu cənnətlə və özündən sonra xəlifəliklə müjdələməyi, həmçinin Öməri də cənnətlə və Əbu Bəkrdən sonra xəlifəliklə müjdələməyi əmr etmişdi. Cəfər ibn Muhəmməd atasından rəvayət edir ki, bir qüreyşli kişi Möminlərin əmiri Əlinin (ə) yanına gələrək dedi: "İndicə xütbəndə belə söylədiyini eşitdim: "İlahi, iki raşidi xəlifəni islah etdiyin kimi bizi də islah et". Onlar kimdir?" Buyurdu: "Mənim iki həbibim, əmilərim Əbu Bəkr və Ömər, hidayət imamları, İslamın ağsaqqalları, iki qüreyşli şəxs. Peyğəmbərdən (s) sonra onlara iqtida edən şəxs qorunmuşdur. Onların izləri ilə gedən şəxs isə Siratul-müstəqimə (düzgün yola) yönəlmişdir".

Bunu Əbu Cüheyfə, Muhəmməd ibn Əli, Əbdu Xeyr, Süveyd ibn Ğəfələ, Əbu Həkimə və başqaları da nəql ediblər. Onların sayının on dörd nəfər olduğu da deyilib.

Əli (ə) öz xütbəsində buyurur: "Peyğəmbərindən (s) sonra bu ümmətin ən yaxşıları (xeyirliləri) Əbu Bəkr və Ömərdir". Digər rəvayətdə isə deyilir: "Əgər istəsəm üçüncünün də adını çəkərəm". Bəzi rəvayətlərdə isə bu xütbəni bir nəfərin Əbu Bəkri və Öməri söydüyünü eşitdikdə söylədiyi, həmin şəxsləri çağıraraq əleyhinə şahidlərin şəhadətindən sonra cəzalandırdığı bildirilir... Və qeyd edildikdə söhbəti uzadacaq digər rəvayətlər...

Bu və qeyd edilməsi söhbəti uzadacaq o aşkar rəvayətlər olduğu halda, nə üçün belə üstün sübutlar, Əbu Bəkrin xilafəti və fəzilətinə... dair qəti dəlillər müqabilində

Möminlərin əmiri Əlinin (ə) imamət və fəzilətinə dəlil olduğunu iddia edirsiniz?...”[1208]

Cavabında ona deyilir: Möminlərin əmiri Əliyə (ə) “Möminlərin əmiri” ünvanı ilə salam vermək əmrini ehtiva edən hədis şiələrin arasında nəqldə təvatür həddindədir. Həmçinin şiələr rəvayətdəki təkcə bir sözü deyil, onun barəsində mütəvatir həddində olan Peyğəmbərin (s) buyurduğu “O, müsəlmanların ağası, təqvalıların imamı, alnı parlaqların öndəridir”, eləcə də “Bu, məndən sonra bütün mömin kişi və mömin qadınların rəhbəridir” sözləridir. Bu kəlmələr də birinci sözün məcrasındadır. Əgər bu hədisi yalnız şiələrin nəql etdiyini düşünürsünüzsə, onu bir çox Əhli-Sünnə raviləri də müxtəlif yollardan rəvayət etmiş və səhih olduğunu söyləmişlər. Heç bir Əhli-Sünnə ravisinin və alimin bu hədisləri inkar etdiyini və ya kənara atdığını görməmişik. Əgər İmam Əliyə (ə) “Möminlərin əmiri” ünvanı ilə salam vermək hədisi onların rəvayətlərindəki oxşar hədislərin mətninə zahirdə bənzəyirsə, bunların hamısı Əhli-Sünnə yolu ilə nəql edilibsə və Əbu Əlinin iddiasına görə mütəvatir deyillər, xəbəri vahiddə də uyğun gəlmirlər, həmçinin onun iddiasına görə, mütəvatirin şərtlər bu rəvayətlərdə cəm olmayıbsa, biz kitabın əvvəlində mütəvatir üçün tələb olunan şərtlərin o rəvayətlərdə toplandığını bəyan etmişik.

Onu sözü: “Bu hədis mətəvatirlər sırasına daxil deyil. Deyilə bilər ki, şiələr əsrlər boyunca ölkələrdə çoxluq təşkil etməyiblər ki, nəticədə mütəvatirin şərtlərinin hasil olması bir kənara dursun, onların təvatür həddindəki nəqli belə mümkün olsun”. Mütəvatir hədislərin necə müəyyənləşdiyini biz bilmirik? Məgər bu, əksəriyyət hallarda rastlaşdığımız, tanınmış, gizli olmayan, nəsildən-nəsilə nəql edilən sifətlərə sahib hədislər deyilmi? Bilirik ki, onların birincisinin vəsfi sonuncusunun vəsflərinin şərtləri kimidir. Bunları və şiə nəqllərindəki mütəvatirin isbatının dəlillərini əvvəldə qeyd etdik. Əgər qeyd etdiklərimizə kiminsə şəkki varsa, bizə bir mütəvatir xəbəri nümunə göstərsin ki, şiə rəvayətinin onunla eyni, artıq və ya əskik səviyyədə

[1208] əl-Muğni, Qazi Əbdülcabbar Mötəzili, c. 20, s. 90-91

olduğunu bilək. Əgər biz buna hökm etməsək, o zaman bu cümlənin üzərində dayanmazdıq...

Bu hədisin Əbu Bəkrlə bağlı iddia edilən qəti dəlillərə zidd olmasına gəldikdə, onun barədə də sözümüzü dedik, burada təkrara lüzum görmürük. Həmin iddianın puçluğunu bəyan etmişik. Bu dəlil şiənin Möminlərin əmiri Əli (ə) ilə bağlı təqdim etdiyi dəlillə eyni səviyyədə və ya ona yaxın da deyil, təqdim edilən dəlilin qarşısında höccət olmaq səlahiyyəti yoxdur. Bu mövzuda şübhələri aradan qaldıracaq bir neçə cəhəti qeyd etdik...

Peyğəmbərin (s) özündən sonra xəlifə təyin etmədiyinə və ya Əbu Bəkri xəlifə təyin edərək imamətini bildirdiyinə dair Peyğəmbərdən (s) bir neçə hədisi nəql edərək şiələrin bu iddiasının ziddinə təqdim etməsinə gəldikdə: Bu barədə ona deyəcəyimiz ilk söz budur ki, ziddiyyət məqamında eyni səviyyəli, bir-birinə qarşı olmaq səlahiyyətinə sahib dəlillər olmadıqda, iddiaçının təəssübü zahir olur. Ziddinə təqdim edilən dəlillərlə bizim əsaslandığımız dəlillərin arasındakı fərqliliklər hamıya məlumdur. Belə ki, bizim təqdim etdiyimiz bütün və ya əksər hədislərin nəqlində onlarla müştərəkliyimiz var. Onlar ravilərinin səhih olduğunu söyləmiş və öz kitablarında, əsərlərində "səhih" hökmü ilə qeyd etmişlər. Lakin onun iddiasına təqdim etdiyi rəvayətlər isə birtərəfli nəql edilmişdir. Möminlərin əmiri Əlinin (ə) müxtəlif məzhəblərdən olan şiələri bunları inkar və rədd edir, ravilərini etibarlı saymırlar. Bundan əlavə, nəql edilmiş həmin rəvayətlərə diqqətlə nəzər saldıqda, ravisini, mətnin əslini araşdırdıqda bunların Əhli-Beytdən (ə) üz döndərdikləri və onlardan uzaqlaşdıqları məşhur olan təəssübkeşlərin məhsulu olduğu aydınlaşır. Bunlar nəzərə alındıqda, mübahisələrdə təqdim etdiyimiz dəlilin qarşılığında onların heç bir üstünlüyü yoxdur. Hətta bunu hamı nəql etsə, hamı razı olsa belə... Bizim mütəvatirlik vəsflərini qeyd etdiyimiz hədisin qarşısına belə rəvayətlərlə çıxmaq alimə yaraşmayan təəssüb deyil, bəs nədir?..

Təfsilata girərək deyirik: Əmirəl-mömin (ə) barədə sözlərin isbatı üçün yozumlarında ixtilaf olsa da, səhihliyi üzərində həmfikir olunan rəvayətləri təqdim

etdik... Möminlərin əmirinə (ə) "Vəsiyyət etməyəcəksən?" deyildikdə "Peyğəmbər (s) vəsiyyət etdi ki, mən də vəsiyyət edim?! Lakin Allah camaata xeyir diləsə, onları ən yaxşılarının ətrafında toplayar. Necə ki, Peyğəmbərdən (s) sonra onları ən yaxşılarının ətrafında toplamışdı" rəvayətinin mövzusunun batilliyi demək olar ki, hamı tərəfindən bilinir...

Əbu Bəkrin xəlifəliyinə dair Əbu Əlinin etirazlarına və bu barədə ard-arda bir neçə rəvayət təqdim etdiyi hissəyə gəldikdə isə deməliyik ki, Əbu Bəkr barədəki bu dəlillər puçdur. Peyğəmbərin (s) özündən sonra Əbu Bəkri xəlifə təyin etdiyi iddiası Əhli-Sünnənin özünün bu mövzuda irəli sürdükləri dəlillərin hamısını puç edəcək. Bunu icmali və müfəssəl şəkildə qeyd etmişik. Bildirdik ki, əgər belə bir dəlil mövcud idisə, bəs nə üçün Səqifədə Ənsarın qarşısında Peyğəmbərin (s) bu sözü dəlil kimi təqdim edilmədi?!

Cəfər ibn Muhəmmədin (ə) atasından (ə) Möminlərin əmirinin (ə) sözlərini nəql etdiyi rəvayətə gəldikdə, bu cür rəvayətin belə bir ravilər yolu ilə nəql edilməsi olduqca təəccüblüdür. Belə ki, onlar bu rəvayətin ziddinə etiqadlı idilər. Çünki bir-birinin ardınca açıq-aşkar zülmlərə məruz qalan şəxslərin belə sözlər söyləməsi qeyri-mümkündür. Eləcə də bu sözlər etibarlı ravilərin nəql etdiklərinə də ziddir. Həmin etibarlı ravilərin nəql etdikləri şiənin deyil, yalnız Əhli-Sünnənin rəvayət mənbələrində mövcuddur: "İlahi, Qüreyşdən müdafiə olunmaq üçün səni imdada çağırıram! Həqiqətən də onlar mənə daşlar və qumlar sayı qədər zülm etdilər". Həmçinin buyurur: "Peyğəmbər (s) vəfat edən andan bəri mən məzlum oldum". Zeyd ibn Əli ibn Hüseynin rəvayətində İmam Əlinin (ə) belə buyurduğu deyilir: "Camaat Əbu Bəkrə beyət etdi, halbuki mən buna onlardan daha layiq idim. Qəzəbimi içimdə boğdum, gözlədim, sinəmi yerə dayadım. Əbu Bəkr həlak oldu və yerinə Öməri xəlifə qoydu. Allaha and olsun ki, o, mənim bu işə insanların arasında ən layiqli şəxs olduğumu bilirdi. Qəzəbimi içimdə boğdum, gözlədim. Ömər həlak olduqda xəlifə seçimini şuraya tapşırdı. Məni də oradakı altı nəfəri altıncısı edib (ordu başçılarına) dedi: "Müxalif olub az sayda qalan tərəfi öldürün". Qəzəbimi içimdə boğdum,

gözlədim, sinəmi yerə dayadım. Ta ki, ya döyüşmək və ya Allaha küfr etmək seçimində qaldım".

Bu sözlər qeyd etdiklərimiz üçün yetərli dəlildir. Əgər biz bu mövzuda İmam Əlidən (ə), İmam Cəfər ibn Muhəmməddən (ə) və atasından (ə), eləcə də Əhli-Beyt üzvlərindən nəql edilənləri burada sadalamaq istəsək onların sayı olduqca çox olar. Bu səbəbdən də, onun (Əbdülcabbarın) iddialarının əksinə olaraq, biz yalnız Əhli-Sünnənin özlərinin məşhur siqə (etibarlı) şəxslərindən nəql edilənləri, onlara istinad olunanları və ya onlardan söylənənləri qeyd etdik. Bundan əlavə, nəql edilmiş həmin rəvayətlərə diqqətlə nəzər saldıqda, ravisini, mətnin əslini araşdırdıqda bunların Əhli-Beytdən (ə) üz döndərdikləri və onlardan uzaqlaşdıqları məşhur olan təəssübkeşlərin məhsulu olduğunu anlayırıq. Kim bunlarla daha artıq maraqlanmaq istəsə, bu mövzularda qələmə alınmış kitablara müraciət edə bilər. Belə ki, həmin kitablarda xəstəliklərə şəfa verən və susuzluqdan sirab edən şeylərlə qarşılaşacaq. Peyğəmbərdən (s) rəvayət edilir: "Əli məndən sonra bütün möminlərin vəlisidir", "Əli müsəlmanların ağası və təqvalıların imamıdır". Bu rəvayətlərə naməlum və ya nadir damğası vurmaq mümkünsüzdür. Belə ki, onlar həm şiə və həm də Əhli-Sünnə yolları ilə nəql edilmiş, müxtəlif yönlərdən kitablarda qeyd edilmişdir. Lakin sonra buna zidd rəvayətlər nəql olunmağa başlandı.

İmam Əlidən (ə) rəvayət olunan "Peyğəmbərindən (s) sonra bu ümmətin ən yaxşıları (xeyirliləri) Əbu Bəkr və Ömərdir. Əgər istəsəm üçüncünün də adını çəkərəm" sözünə gəldikdə, bu barədə müxtəsər şəkildə əvvəldə danışdıq. Həmin sözün yanlışlığını İmama (ə) istinad edilən "Lakin Allah camaata xeyir diləsə, onları ən yaxşılarının ətrafında toplayar. Necə ki, Peyğəmbərdən (s) sonra onları ən yaxşılarının ətrafında toplamışdı" sözləri ilə isbatladıq. Bu və bu kimi rəvayətlər onların belə iddialarını puça çıxarır.

Bundan əlavə, həmin rəvayət tam fərqli bir müqəddimə ilə nəql olunub ki, girişindəki sözlər silinməklə bu vəziyyətə gətirildiyi və dəlil kimi istifadə etdikləri aydın olur. Muaz ibn Hərs Ərtəs Cəfər ibn Əbdürrəhman Bəlxidən (o, osmani idi.

Osmanı Möminlərin əmiri Əlidən (ə) üstün hesab edirdi), o da Əbu Cəbab Kəlbidən (o da həmçinin osmanidir), o da Şəbidən (onun Əhli-Beytə (ə) qarşı fikirləri məşhurdur) belə dediyini nəql edir: Vəhəb ibn Əbu Cüheyfənin, Əmr ibn Şərhəbilin, Süveyd ibn Ğəfələnin, Əbdürrəhman Həmədaninin və Əbu Cəfər Əşcəinin belə dediklərini eşitdim: "İmam Əli (ə) minbərdən buyurdu: "Bu nə yalandır danışırlar, guya "Peyğəmbərindən (s) sonra bu ümmətin ən yaxşıları (xeyirliləri) Əbu Bəkr və Ömərdir".

Əgər bu rəvayəti öz təəssübü və Əhli-Beytə qarşı mənfi münasibətilə tanınan şəxslər bu girişlə rəvayət edirlərsə, bu sözləri rəvayətin əvvəlində qeyd etmədən nəql edənlərin sözlərinə əhəmiyyət verilməz. Bu müqəddimə sözləri nəzərə alsaq, rəvayətdə dəlil olacaq heç bir xüsusiyyət qalmır. Əksinə, onların özlərinə qarşı dəlilə çevrilir, onların zənn etdiklərinin ziddinə hökm vermiş olur.

Əshabımızdan bir dəstə adam deyir: "Əgər bu sözlərin doğruluğu isbatlansa belə, onun bəzi şəxslər barədə məzəmmət və onların etiqadlarının tənqidi xarakteri daşıması da mümkündür. Sanki, deyir: "Bilin ki, onların əqidələrinə əsasən və filankəslərin rəyinə görə, Peyğəmbərdən (s) sonra ümmətin ən xeyirlisi... şəxsdir. Bu cür istifadələr Qurani-Kərimdə də varid olub. Uca Allah buyurur: ***"İbadət etdiyin ilahına bax..."*** *Halbuki həqiqətdə Allahın Özündən başqa ilah yoxdur. Lakin bu onların etiqadına görə ilah idi. Həmçinin buyurur:* ***"Dad əzabı, həqiqətən də sən qüvvətli və möhtərəm idin".*** *Yəni sən öz nəzərində və əhli-əyalının yanında belə idin.*

Eləcə də, bir kəs deyir: "Bu əsrin şairi Zeyddir". Bu sözlə həqiqətən də Zeydin həmin sifətə sahib olduğu deyil, o əsrdə yaşayanların etiqadının belə olduğunu bildirmək istəyir..."[1209]

Bu uzun mətndən aydın olur ki, Seyyid Mürtəza Qazi Əbdülcabbarın sözlərini nəql edir və ardınca onun iddialarına cavab verir. Əvvəlki iddia barədə söhbətimizdə kitabdakı bu parçanın xülasəsini qeyd etdik. Burada isə Seyyid

[1209] əş-Şafi fil-imamət, Seyyid Mürtəza, c. 3, s. 89-96

Mürtəza Qazi Əbdülcabbarın iddialarına müfəssəl şəkildə cavab verir. Lakin İhsan Zahir bu sözlərdə saxtakarlığa yol verib. Qazinin sözlərini Seyyid Mürtəzaya nisbət verərək onun adından nəql edib. Onun bu cür fırıldaqçılıq və saxtakarlıqlarının dəfələrlə şahidi olmuşuq.

Təəccüb doğuran faktlardan biri də budur ki, Qazi Əbdülcabbar İmam Əlinin (ə) şəninə olan rəvayətlərin qarşılığında onların ziddinə olduğunu güman etdiyi bu rəvayətləri nəql edir. İhsan Zahir də həmin rəvayəti öz sözünə şahid kimi göstərir. Seyyid Mürtəza isə bu rəvayəti qeyd edərək ona cavab verir və bunun dəlil ola bilməyəcəyini isbatlayır. Belə ki, deyir: *"İmam Əlidən (ə) rəvayət olunan "Peyğəmbərindən (s) sonra bu ümmətin ən yaxşıları (xeyirliləri) Əbu Bəkr və Ömərdir. Əgər istəsəm üçüncünün də adını çəkərəm" sözünə gəldikdə, bu barədə müxtəsər şəkildə əvvəldə danışdıq. Həmin sözün yanlışlığını İmama (ə) istinad edilən "Lakin Allah camaata xeyir diləsə, onları ən yaxşılarının ətrafında toplayar. Necə ki, Peyğəmbərdən (s) sonra onları ən yaxşılarının ətrafında toplamışdı" sözləri ilə isbatladıq. Bu və bu kimi rəvayətlər onların belə iddialarını puça çıxarır..."*

Buradan İhsan Zahirin Şeyx Tusiyə nisbət verdiyi rəvayətlərin də puçluğu məlum olur. Belə ki, o, dəlil olaraq "Təlxisuş-şafi" kitabındakı rəvayəti göstərir. Orada da Qazi Əbdülcabbarın sözlərini Şeyx Tusinin sözləri kimi qələmə verir. Halbuki Qazi həmin hissədə şiələrin iddia etdikləri rəvayətə zidd olan rəvayətləri sadalayır. Onlardan biri də İhsan Zahirin istinad etdiyi həmin rəvayətdir. Şeyx Tusi də bunun puçluğuna dair Seyyid Mürtəzanın cavabını nəql edir. Deyir: *"Cəfər ibn Muhəmmədin (ə) atasından (ə) Möminlərin əmirinin (ə) sözlərini nəql etdiyi rəvayətə gəldikdə, bu cür rəvayətin belə bir ravilər yolu ilə nəql edilməsi olduqca təəccüblüdür..."*

Bütün bunlardan sonra məgər İhsan Zahirin məsələni qarışıq saldığını, o səbəbdən Qazi Əbdülcabbarın sözlərini gah Seyyid Mürtəzaya, gah da Şeyx Tusiyə nisbət verdiyini necə düşünmək olar?! O bunu bilərəkdən edib. Əgər belə aydın

bir məsələ onun üçün qarışıq qalırsa, bəs hansı haqla özünü müsəlmanların əqidələrinin bilicisi və tənqidçisi kimi göstərməyi rəva görür?!

İkinci: Şeyx Səduqun rəvayəti

Şeyx Səduq "Məanil-əxbar" və "Uyunu əxbarir-Rza (ə)" kitablarında Həsən ibn Əliyə istinadən Peyğəmbərin (s) belə buyurduğunu nəql edir: *"Əbu Bəkr mənə qulaq, Ömər göz, Osman isə qəlb nisbətindədir".*

Sabahı gün onun (Peyğəmbərin) yanına getdim. Yanında Möminlərin əmiri (ə), Əbu Bəkr, Ömər və Osman var idi. Dedim: "Atacan, sənin səhabələrin barədə bu sözləri söylədiyini eşitdim. Bunun mənası nədir?" Peyğəmbər (s) buyurdu: "Bəli, söyləmişəm". Sonra onlara işarə edərək sözünə davam etdi: "Onlar qulaq, göz və qəlbdirlər. Qarşıda bu vəsimin (İmam Əliyə (ə) işarə edərək) haqqı barədə soruşulacaqlar. ***"Çünki qulaq, göz və ürək – bunların hamısı*** *(sahibinin etdiyi əməl, dediyi söz barəsində)* ***sorğu-sual olunacaqdır".***[1210]

Sonra buyurdu: "Rəbbimin izzətinə and olsun ki, bütün ümmətim Qiyamət günü durdulacaq və onun vilayəti barədə soruşulacaq. Bu da Allahın sözüdür: ***"Onları tutub saxlayın, çünki sorğu-sual olunacaqlar!"***[1211]***".***[1212]

İhsan Zahir bu rəvayətlə də saxtakarlıq edib, onun əvvəlini və cavab hissəsini kəsərək öz iddiasına münasib şəklə salmağa çalışıb. Lakin rəvayətin girişini və cavabı qeyd etdikdə İhsan Zahirin dəlilinin puçluğu gün kimi aydın olur. Belə ki, əksinə, bu, adları qeyd olunan kəsləri məzəmmət edən rəvayətdir.

Kitabının haşiyəsinə İmam Həsən Əskərinin (ə) təfsirinə istinadı isə yanlışdır. Biz orada bu rəvayətə rast gəlmədik.

[1210] İsra, 36

[1211] Saffat, 24

[1212] Məanil-əxbar, Şeyx Səduq, s. 387; Uyunu əxbarir-Rza (ə), Şeyx Səduq, c. 2, s. 280

11. Əhli-Beytin (ə) Öməri təriflədiyi iddiası

İhsan Zahir iddia edir ki, Əhli-Beyt (ə) üzvləri Öməri tərifləmişlər. Buna sübut kimi İbn Abbasın Öməri tərifləməsini göstərir. Bunun sübutu isə Məsudinin "Tarix" və "Lisanul-mülk" kimi tanınan Muhəmməd Təqi Sipihrin "Nasixut-təvarix" kitablarına nisbət verdiyi rəvayətləridir. Həmçinin Əhli-Beytin (ə) Ömərə təriflərində mübaliğələrə də yer verdiyini bildirir. Lakin bu mühüm iddiasına heç bir dəlil təqdim etmir. Sadəcə Əbu Bəkrin Əhli-Beytlə (ə) münasibətlərini müzakirə edərkən bunun dəlillərini qeyd etdiyini söyləyir. Əlavə olaraq burada bildirir ki, İmam Sadiq (ə) ilk iki xəlifəni tərifləməklə kifayətlənmir, onları özünə dost bilir və öz tərəfdarlarına da onları sevməyi əmr edir. Bu iddiasına isə Şeyx Kuleyninin "ər-Ravzatu minəl-Kafi" kitabından nəql etdiyi rəvayəti dəlil göstərir. İhsan Zahir deyir: "Əhli-Beyt Öməri mədh edib. Peyğəmbər Əhli-Beytinin ən alim şəxslərindən və başçılarından biri, Peyğəmbərin (s) əmisinin oğlu İbn Abbas (r) onu tərifləyərək deyir: "Allah Əbu Həfsə rəhmət etsin. Allaha and olsun ki, o, İslamın müttəfiqi, yetimlərin pənah yeri, yaxşılıqların mənbəyi, iman məhəlli, zəiflərin sığınacaq mağarası, xalis dindarların bağlandıqları yer idi. Allahın haqqını icra etməkdə səbrli və diqqətli idi, dini yaydı, ölkələri fəth etdi, bəndələrin təhlükəsizliyini təmin etdi.[1213]

Siddiqin münasibətlərini qeyd edərkən Zeynəlabidin Əli ibn Hüseyn ibn Əlidən, oğlu Muhəmməd Baqirdən, şəhid Zeyddən, Baqirin oğlu Sadiq ləqəbli Cəfərdən nəql etdiyimiz kimi, Əhli-Beyt üzvlərinin onu həddən artıq təriflədiyini də bildirmişdik. Necə ki, Cəfər Sadiq onların qəbrinin başına gəlir, onlara salam verir, özünə dost bilirdi. Bütün bunlar siddiq Əbu Bəkr ibn Qühafə (r) barədəki bəhsimizdə qeyd edildi. Digər mövzuya keçməzdən öncə orada qeyd etdiklərimizə bir başqa rəvayəti də əlavə etmək istəyirik. Bunu Kuleyni özünün "ər-Ravzatu minəl-Kafi" kitabında qeyd edib. Cəfər ibn Muhəmməd (şiələrin nəzərində altıncı məsum imam) onları sadəcə özünə dost tutmur, öz ardıcıllarına

[1213] Murucuz-zəhəb, şiə Məsudinin kitabı, c.3, s. 51; Nasixut-təvarix, c. 2, s. 144, İran çapı

da onları dost tutmağı əmr edib. Şiələrin məşhur səhabələrindən Əbu Bəsir deyir: "Əbu Abdullahın (ə) yanında əyləşmişdim. Yusuf ibn Ömərin torpaq hədiyyə etdiyi Ümmü Xalid oraya gəldi, görüşmək üçün izn istədi. Əbu Abdullah (ə) dedi: "Onun söyləyəcəklərini eşitmək istəyirsən?" Mən "Bəli" deyə cavab verdim. Ona içəriyə daxil olmağa izn verdi. Məni xalçanın üzərində oturdu. Xanım içəri daxil oldu və sözə başladı. Bəlağətli nitqi var idi. İmamdan o ikisi (Əbu Bəkr və Ömər) haqqında soruşdu. İmam ona dedi: "Onları özünə dost tut". Dedi: "Rəbbimlə görüşəndə sən mənə onları özümə dost tutmağı buyurduğunu deyəcəyəm". İmam dedi: "Bəli (söylə)" (ər-Ravzatu minəl-Kafi, c. 8, s. 101, İran çapı)".[1214]

Cavab

Bu iddiaya müfəssəl şəkildə cavab verildi. Bildirdik ki, Əhli-Beytlə (ə) ilk iki xəlifənin münasibətləri əsla qarşılıqlı sevgiyə əsaslanmırdı, bu münasibətlərdə ürək parçalayan nüanslar mövcud idi. Möminlərin əmiri Əli (ə) Ömərlə birlikdə olmağa və onunla oturub-durmağa ikrah edir, Əbu Bəkrlə Ömərin yalan, günah, xəyanət kimi ən rəzil sifətlərə sahib olduqlarını düşünürdü. Xilafət ardıcıllığı ilə Əbu Bəkr və Ömər də Peyğəmbər (s) ailəsinə qarşı düşməncəsinə rəftar edirdilər. Bu barədə geniş söhbət açdıq, Buxari və Müslimin "Səhih"lərindən, eləcə də Əhli-Sünnənin digər mötəbər hədis kitablarından dəlillər təqdim etdik. Həmçinin İhsan Zahirin Əbu Bəkrlə Əhli-Beytin (ə) xoş münasibətlərinə dair təqdim etdiyi rəvayətlərin də dəlil olmaq səlahiyyətində olmadığını və iddianın təsdiqinə heç bir fayda vermədiyini isbatladıq.

Lakin burada bizi maraqlandıran məsələ İhsan Zahirin Məsudinin "Tarix", Məhəmməd Təqi Sipihrin "Nasixut-təvarix" və "ər-Ravzatu minəl-Kafi" kitablarından dəlil kimi təqdim etdiyi rəvayətlərdir.

Məsudinin rəvayəti

[1214] Şiə və Əhli-Beyt, 103-104

Əli ibn Hüseyn Məsudi özünün "Tarixul-Məsudi" kimi tanınan "Murucuz-zəhəb" kitabında deyir: *"Abdullah ibn Abbas Müaviyənin yanına daxil oldu. Orada Qüreyşin möhtərəm şəxsləri əyləşmişdi. Salam verib əyləşdikdə Müaviyə dedi: "Səndən bəzi şeylər haqqında fikrini soruşmaq istəyirəm".*

İbn Abbas dedi: İstədiyini soruş.

Müaviyə: Əbu Bəkr haqqında nə düşünürsən?

İbn Abbas: Allah Əbu Bəkrə rəhmət etsin. Allaha and olsun ki, Quran tilavət edən, pisliklərdən çəkindirən, günahını bilən, Allahdan qorxan, şübhəli şeylərdən çəkinən, yaxşılığı əmr edən, gecələr oyaq qalan, gündüzləri oruc tutan, təqva və aza qane olmaqda əshabından üstün olan, zöhd və iffətlə onlara rəhbərlik edən şəxs idi. Ona nifrət edən və pisləyən kəsə Allahın qəzəbi olsun.

Müaviyə: Davam et, ey İbn Abbas, Ömər ibn Xəttab barədə nə deyirsən?

İbn Abbas: Allah Əbu Həfs Ömərə rəhmət etsin, Allaha and olsun ki, İslamın müttəfiqi, yetimlərin pənah yeri, yaxşılıqların mənbəyi, iman məhəlli, zəiflərin sığınacaq mağarası, xalis dindarların bağlandıqları yer idi. Allahın haqqını icra etməkdə səbrli və diqqətli idi, dini yaydı, ölkələri fəth etdi, bəndələrin təhlükəsizliyini təmin etdi. Allah onu ləkələyənləri cəzalandırsın və Qiyamət gününədək lənətləsin!

Müaviyə: Bəs Osman haqqında?

İbn Abbas: Allah Əbu Əmrə rəhmət etsin. Xadimlərin ən hörmətlisi, yaxşılıq edənlərin ən üstünü idi, gecələri oyaq qalar, cəhənnəm zikr edildikdə çoxlu göz yaşı tökər, hər bir möhtərəm iş üçün ayağa qalxar, bəla üz verərkən hamıdan öndə olardı, vəfalı və məğrur idi. Çətinlik zamanı yoldaşlıq edərdi. Peyğəmbər (s) onunla qohum olmuşdu. Onu lənətləyənləri Allah Qiyamət gününədək lənət deyənlərin lənəti ilə cəzalandırsın.

Müaviyə: Əli barədə nə düşünürsən?

İbn Abbas: Allah Əbülhəsənə rəhmət etsin! Allaha and olsun ki, o, hidayət bayrağı, təqva mağarası, düşüncə məhəlli, mükəmməlik zirvəsi, zülmət gecələrin

parlayan nuru, ən əzəmətli yola dəvət edən, keçmiş kitablarda olanları bilən, onları təvil edib və öyüdlərini çatdıran, hidayət təməllərinə bağlı, zülm və əziyyətdən çəkinən, məhvə aparan yollardan uzaq, iman gətirib təqvalı olmuşların ən yaxşısı, (xilafəti) köynək kimi geyinənlərin və üz döndərənlərin (həqiqətdə) ağası, həcc və səy edənlərin əfzəli, ədalətli və düzgün şəxslərin ən səxavətlisi, insanların arasında peyğəmbərlərdən və Allahın nəbisi Mustafadan savayı hamıdan gözəl danışıqlı, iki qiblə sahibi idi. Hansı tövhid əhli onunla bərabər ola bilər?! Ən yaxşı xanımın əri, (Peyğəmbərin) iki nəvəsinin atasıdır. Gözlərim onun kimi bir şəxsi görmədi, Qiyamətədək və ondan sonra da görməyəcək. Onu lənətləyən kəsə Qiyamət gününədək Allahın və bəndələrinin lənəti olacaq.

Müaviyə: Ey İbn Abbas, əmin oğlu barədə sözlərin digərlərindən daha çox oldu. Bəs atan Abbas haqqında nə deyirsən?

İbn Abbas: Allah Abbasa rəhmət etsin! Allahın peyğəmbərinə (s) qardaş kimi, gözünün nuru, əmilərinin ağası idi. Atalarının ən gözəl əxlaqlarına, babalarının şərəfli müdrikliyinə, cürbəcür fəzilətlərə sahibdi. Allahın Evinin məmurlarından və hacılara su verənlərdən, həcc əməllərinin nəzarətçilərindən idi. Niyə də belə olmasın, sinəsinə döyənlərin ən möhtərəmi onu başçı təyin etməmişdimi?

Müaviyə: Ey İbn Abbas, sənin Əhli-Beytiniz barədə gözəl danışmaqda üstün olduğunu bilirəm.

İbn Abbas: Niyə də belə olmasın? Məgər Peyğəmbər (s) "İlahi, onu dində fəqih et, təvilləri ona öyrət" deyə buyurmayıbmı?

İbn Abbas bu sözlərdən sonra dedi: "Şəni və sənası Uca olan Allah peyğəmbəri Muhəmmədə (s) onu canlarından və mallarından üstün tutan, hər bir halda özlərini fəda etməyə hazır olan səhabələr bəxş etdi. Uca Allah onları Öz kitabında ***"bir-birlərinə qarşı mərhəmətli"*** *deyərək vəsf edir. Onlar din təliminə başladılar, müsəlmanlar üçün səmimi səy göstərdilər, nəticədə dinin yolu döşəndi, təməlləri möhkəmləndi, (bununla da) Allahın nemətləri zahir oldu, din qərar tutdu, əlamətləri aydın bəyan oldu. Onların vasitəsilə müşriklik zəlil oldu, şirk başçıları*

aradan getdi, sütunları məhv edildi, Allahın sözü ən üstün, kafirlərinki isə ən alçaq sözə çevrildi. Allahın salavatı, rəhmət və bərəkəti o saf şəxslərə, uca pak ruhlara olsun! Onlar həyatda ikən Allahın dostları idilər, ölümdən sonra isə diri qaldılar. Onlar Allah bəndələri üçün nəsihətçilər idilər. Axirətə qovuşmadan əvvəl ora rehlət etmişdilər. Dünyada ikən dünyadan uzaqlaşmışdılar".

Müaviyə onun sözünü kəsərək dedi: "Yetər, ey İbn Abbas, başqa şeylər barədə danış".[1215]

Bunu həmçinin digərləri kimi "Lisanul-mülk" ləqəbilə məşhur olan Muhəmməd Təqi Sipihr özünün "Nasixut-təvarix" kitabında da nəql edib.

Bu rəvayətdən Əhli-Beytin (ə) Öməri tərifləməyinə dəlil kimi istifadə etmək bir neçə səbəbdən yanlışdır:

Birinci: Məsudinin rəvayəti sənəd və dəlalət baxımından etibarsızdır. Sənəd baxımından: O və Muhəmməd Təqi rəvayəti mürsəl (sənədsiz) olaraq nəql ediblər. Lakin Təbərani "Möcəmul-kəbir"də sənədli şəkildə Muhəmməd ibn Osman ibn Əbu Şeybədən, o da Haşim ibn Muhəmməd ibn Səid ibn Xeysəm Hilalidən, o da Əbu Amir Əsədidən, o da Musa ibn Əbdülməlik ibn Ümeyrdən, o da atasından, o da Rəbi ibn Hərraşdan nəql edir. Dedi: *"Abdullah ibn Abbas Müaviyənin yanına daxil olmaq üçün izn istədi. Onun yanında Qüreyşin hörmətli şəxsləri əyləşmiş, Səid ibn As sağında oturmuşdu. Müaviyə İbn Abbasa nəzər salıb dedi: "Ey Səid, İbn Abbasa bəzi suallar verəcəyəm ki, cavab verməkdə aciz qalacaq (çətinlik çəkəcək)". Səid ona dedi: "İbn Abbas kimi bir şəxs sənin suallarının qarşısında aciz qalmaz".*

İbn Abbas keçib əyləşdikdə Müaviyə ona dedi: "Əbu Bəkr haqqında nə düşünürsən?" İbn Abbas dedi: "Allah Əbu Bəkrə rəhmət etsin..."[1216]

Ardınca hədisi yuxarıda qeyd edildiyi kimi nəql edir.

[1215] Murucuz-zəhəb, Məsudi, c. 1, s. 370-371

[1216] əl-Möcəmul-kəbir, Təbərani, c. 10, s. 238-241, hədis 10589

Bu rəvayət Musa ibn Əbdülməlik cəhətindən zəifdir. Əbu Hatəm,[1217] eləcə də "əz-Züəfa"[1218] kitabında Buxari onu zəif hesab etmişlər.

Bəziləri də Muhəmməd ibn Osman ibn Əbu Şeybəninin zəif olduğunu söyləyiblər. İbn Həcər onun tərcümeyi-halında yazır: *"Abdullah ibn Əhməd ibn Hənbəl deyir: "Çox yalan danışandır (kəzzabdır)", İbn Xərraş isə deyir: "Hədis uydururdu". Mutayyin deyir: "O, onların uydurduqlarını udan Musanın əsasıdır". Daraqutni deyir: "Deyilir ki, o, Nümeyrin (və ya Nəmirin) kitabını götürərək hədisləri oradan rəvayət edib". Bərqani deyir: "Hələ də onun tənqid olunduğunu onlardan eşidirəm".*[1219]

Bu rəvayəti həmçinin Xətib Bağdadi öz "Tarix" əsərində də Muhəmməd ibn Əbdülmömin Bağdadinin tərcümeyi-halında qeyd edib. Orada Yezid ibn Əbu Ziyadənin vasitəsilə Əbu Züheyr Əbdürrəhman ibn Müəmmər Tunusidən, o da Maiz ibn Əbdülməlik ibn Ümeyrdən, o da babasından rəvayət edir: *"Abdullah ibn Abbas Müaviyə ibn Əbu Süfyanın yanına daxil olmaq üçün izn istədi. O, izn verdi. Onu uzaqdan gördükdə Səid ibn As dedi: "İbn Abbasa bəzi suallar verəcəyəm ki, cavab verməkdə aciz qalacaq (çətinlik çəkəcək)..."*[1220] Ardınca hədisi tam mətnlə nəql edir.

Bu rəvayət də Yezid ibn Əbu Ziyadə cəhətdən zəifdir, onun saxtakar və yalan istinadlar verdiyi qeyd olunub.[1221]

Rəvayət halqasındakı Əbdürrəhman ibn Müəmmər isə məchul şəxsdir.[1222]

Dəlalət nöqteyi-nəzərindən isə: Girişdəki sözlərdən də aydın olduğu kimi, Müaviyə İbn Abbası pərt etmək üçün suallar verəcəyini bildirir: *"İbn Abbasa bəzi suallar verəcəyəm ki, cavab verməkdə aciz qalacaq (çətinlik çəkəcək)".* Lakin

---

[1217] əl-Cərhu vət-tədil, Əbu Hatəm Razi, c. 8, s. 151, rəqəm 684

[1218] Lisanul-mizan, İbn Həcər, c. 6, s. 124, rəqəm 431

[1219] Lisanul-mizan, İbn Həcər, c. 5, s. 280, rəqəm 965

[1220] Tarixul-Bağdadi, Xətib Bağdadi, c. 3, s. 189, Muhəmməd ibn Əbdülmömin Bağdadinin tərcümeyi-halı, rəqəm 1218

[1221] Təbəqatul-mudəllisin, İbn Həcər, c. 1, s. 48, rəqəm 112

[1222] Lisanul-mizan, İbn Həcər, c. 3, s. 439, rəqəm 1713

girişdəki bu sözlər Məsudinin rəvayətində pozulub. Müaviyə Əbu Bəkr, Ömər, Osman, Möminlərin əmiri Əli (ə) və Abbas haqqındakı sualları ilə İbn Abbası Qüreyşin möhtərəm şəxsləri qarşısında utandırmaq və pərt etmək istəyirdi. İbn Abbas da bunu anlayaraq Müaviyənin məqsədini puç edəcək cavablar verir. Xüsusilə də, nəzərdə tutulmalıdır ki, Müaviyə həmin ərəfələrdə Hücrü və Peyğəmbərin (s) bəzi möhtərəm səhabələrini öldürtmüş, Möminlərin əmiri Əlini (ə) Osmanın qətlində ittiham etmiş, Osmanın intiqamı adı altında Siffin savaşı baş vermişdi. İbn Abbas həmin Müaviyənin məclisində idi və məsələdən agahdı. Bu səbəbdən də, Müaviyəni susduracaq cavablar vermiş və onun şərini özündən dəf etmişdi. Nəticədə Müaviyə onun sözünü kəsərək başqa mövzularda danışmasını tələb edir.

İbn Abbasın Müaviyəyə cavabının xülasəsi budur: Sənin əməl və rəftarın bu qeyd etdiyim şəxslərin heç birinin əməl və rəftarı ilə üst-üstə düşmür, nə Əbu Bəkrin, nə Ömərin, nə Osmanın, nə İmam Əlinin (ə) və nə də Abbasın əməl və davranışlarına uyğun deyil. Bunların hər biri barədə də nümunələr söyləyir. Nəticədə Müaviyə İbn Abbasın bu sözlərindən utanır və mövzunu dəyişməsini tələb edir.

Bu sözlər İbn Abbas tərəfindən xüsusi bir zaman kəsiyində söylənmişdir. Elə bir dövr idi ki, qəddar hökmdar bir kəsi cəzalandırmaq üçün bəhanə axtarır, onların rəyinə zidd suallarla bu məqsədini həyata keçirməyə yol axtarırdı. Həmin vaxt insanın başqalarına qarşı müxalifliyi tərk edərək onun suallarına cavabı özünə qaytarması hikmətdən irəli gəlir. İbn Abbas Müaviyəyə qarşı məhz bu cür davranır.

Xüsusilə də, bəzi rəvayətlər Müaviyənin İbn Abbası pərt etmək üçün ciddi-cəhdlə çalışdığını qeyd edir. Əbdürrəzzaq Müəmmərdən, o da İbn Tavusdan, o da atasında nəql edir: *"İbn Abbas Müaviyənin yanına daxil oldu. Müaviyə dedi: "Mən səni Əbu Talibin oğlunun dinində görürəm". İbn Abbas dedi: "Xeyr, xeyr, İbn Əffanın*

dini üzərindəyəm". İbn Tavus deyir: "Məqsədi: heç kimin deyil, Muhəmmədin (s) dini üzərindəyəm deməkdir".[1223]

Bu cavablardan hasil olur ki, Məsudinin rəvayəti bu yerdə dəlil olaraq fayda vermir. Belə ki, Əhli-Sünnə rəvayətidir, sənəd və dəlalət cəhətdən də zəifdir. Burada Müaviyənin Hücrü və əshabını tələyə saldığı kimi İbn Abbası da tələyə salmaq və ya pərt etmək istədiyinə işarələr mövcuddur. İbn Abbas isə Müaviyənin niyyətindən xəbərdar olduğu üçün verdiyi cavablarla bundan yayınır.

"Lisanul-mulk" ləqəbli Muhəmməd Təqi Sipihrin rəvayətinə gəldikdə, o "Nasixut-təvarix" kitabında bu rəvayəti digərləri kimi, Məsudinin kitabından nəql edib. Bu rəvayətin Məsudinin "Tarix", Təbəraninin "əl-Möcəmul-kəbir" və Xətib Bağdadinin "Tarix" kitablarından savayı rəvayət mənbəyi yoxdur. Lakin İhsan Zahir, bunun əksinə olaraq, rəvayətin şiə istinadlı olduğunu iddia edib.

İkinci: İhsan Zahir şiənin əleyhinə dəlil təqdim edir. Bu dəlili isə onların öz kitablarından və öz tələblərinə uyğun gətirməlidir. Şiələrin nəzərində "Əhli-Beyt" termini yalnız xüsusi olaraq "Kisa əhli"nə, ümumi olaraq isə on dörd Məsum şəxsə (ə) şamil olur. Bunlar Kisa əhli olaraq Peyğəmbər (s), Möminlərin əmiri Əli (ə), Fatimə, Həsən və Hüseyn, sonra isə Hüseynin nəslindən doqquz məsum şəxslərdir.

Demək, İhsan Zahirin İbn Abbasın Öməri tərifləməsini Əhli-Beytin (ə) tərəfi kimi təqdim etməsi əsassızdır. Çünki İbn Abbas Əhli-Beytdən (ə) deyil.

Bir çox səhih rəvayətlər "Əhli-Beyt" kəlməsinin məhz beş nəfər Kisa əhlinə şamil olduğuna dəlalət edir. Necə ki, Müslim "Səhih"də Aişədən nəql edir: *"Bir gün Peyğəmbər (s) səhər tezdən qara tüklərdən toxunmuş əba ilə çölə çıxdı. Həsən ibn Əli yanına gəldi. Peyğəmbər (s) onu əbası ilə örtdü. Ardınca Hüseyn, sonra Fatimə, sonra da Əli gəldi. Onları da əbasının altına aldı və buyurdu:* ***"Ey Əhli-Beyt!***

[1223] əl-Müsənnəf, Əbdürrəzzaq, c. 11, s. 453, hədis 20983

Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"[1224]

Tirmizi "Sünən"də Ömər ibn Əbu Sələməyə istinadən nəql edir: ***"Ey Əhli-Beyt! Həqiqətən, Allah sizdən (hər cür)çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"*** *ayəsi Ümmü Sələmənin evində Peyğəmbərə (s) nazil olduqda Fatiməni, Həsəni və Hüseyni çağırdı. Əli onun arxa tərəfində dayanmışdı. Onların hamısının üzərini öz əbası ilə örtüb buyurdu: "İlahi, bunlar mənim Əhli-Beytimdir. Onlardan hər cür pisliyi uzaqlaşdır və onları pak-pakizə qərar ver". Bu vaxt Ümmü Sələmə dedi: "Ya Peyğəmbər, mən də onlarlayam?" Buyurdu: "Sən durduğun yerdə dayan. Sən xeyir üzərindəsən".*[1225]

Ənəs ibn Malikdən nəql edir: *"Peyğəmbər (s) altı ay boyunca sübh namazına çıxarkən Fatimənin evinin qarşısından keçəndə belə deyirdi: "Namaz, namaz!* ***Ey Əhli-Beyt! Həqiqətən, Allah sizdən (hər cür) çirkinliyi (pisliyi, günahı) uzaq tutmaq və sizi pakdan pak etmək istər!"***[1226]

Buxari "Səhih"ində Kəb ibn Ücrəyə istinadən yazır: *"Peyğəmbərə (s) deyildi: "Ya Peyğəmbər, sənə necə salam verəcəyimizi bilirik, bəs salavatı necə deyək?" Buyurdu: "Deyin: İlahi, İbrahimə və ailəsinə salavat göndərdiyin kimi, Muhəmmədə və ailəsinə də salavat göndər. Həqiqətən də Sən şəni uca və tərifə layiqsən. İlahi İbrahimi və ailəsini bərəkətli qərar verdiyin kimi, Muhəmmədi və ailəsini də mübarək et. Həqiqətən də Sən şəni uca və tərifə layiqsən".*[1227]

İbn Həcər Buxarinin bu hədisinin şərhində deyir: *"Bu hədisi Müslim Muhəmməd ibn Bikara, o da İsmail ibn Zəkəriyyəyə istinadən nəql edib. Yalnız kəlmələrini nəql etməyib, əvvəlini də qeyd edib. Bu hədis onun şərtləri daxilindədir. Həmçinin Sərrac Malik ibn Miğvəlin vasitəsilə rəvayət edib. Eləcə də Əhməd, Beyhəqi, İsmail Qazi də Yezid ibn Əbu Ziyadın vasitəsilə, Təbərani Muhəmməd ibn*

[1224] Səhih, Müslim, c. 7, s. 130
[1225] Sünən, Tirmizi, c. 5, s. 30
[1226] Sünən, Tirmizi, c. 5, s. 31
[1227] Səhih, Buxari, c. 6 s. 28

Əbdürrəhman ibn Əbu Leylanın vasitəsilə, Təbəri Əcləhin vasitəsilə, Sərrac Süfyanın vasitəsilə və az fərqlə, Əbu Əvanə öz "Səhih"ində Əcləh və Həmzə Zəyyatın vasitəsilə, bunların hamısı da Həkəmdən eyni sözlərlə, eləcə də Əbu Əvanə Mücahid ibn Əbdürrəhman ibn Əbu Leylanın vasitəsilə nəql ediblər".[1228]

Əhli-Beyt kəlməsinin Quran və sünnə istilahında Peyğəmbərə (s), Möminlərin əmiri Əliyə (ə), Fatiməyə (ə), Həsən (ə) və Hüseynə (ə) aid edildiyinə dəlalət edən bu və bu kimi bir çox rəvayətlər mövcuddur. Bu qədəri üzərində müsəlmanlar həmfikirdirlər. Bundan qeyrilərinə aid edilməsi barədə isə fikir ayrılıqları var. Haqq və hidayət axtaran şəxs üçün üzərində ittifaq olunan hissəsi yetərlidir.[1229]

Üçüncü: İhsan Zahirin Əhli-Sünnə istilahlarında şiə kəlməsinin mənalarından xəbərsiz olduğunu əvvəldə də qeyd etmişdik. Belə ki, o, məsələləri daim qarışıq salır. Bu ya onun zəif təhqiqatçı olmasından, ya da qəsdən saxtakarlıq etdiyindən irəli gəlir. O, şiələrin əqidələrinin təhqiq və tənqidində qeyri-şiə mənbələrinə istinad edir, İbn Əbülhədid, Əbülfərəc İsfahani, Yaqubi, Müvəffəq Xəvarəzmi, Məsudi, İbn Nədim və digərləri kimi şiə olmayan bir çox alim və tarixçini şiə adı ilə oxucuya təqdim edir. Halbuki onların şiə olduqlarına heç bir dəlil-sübut yoxdur.

Məsudinin fiqhdə Şafei məzhəbinə, etiqadda isə Mötəziliyə mənsub olduğunu qeyd etmişdik. O, Bağdadda doğulub. Zəhəbi deyir: *"Bu, "Murucuz-zəhəb" kitabının müəllifi Əbülhəsən Hilli ibn Hüseyn ibn Əlidir. Onun İbn Məsudun (r) nəslindən olduğu da deyilir. Adı bağdadlıların arasında qeyd edilir, bir müddət Misirdə yaşayıb. Tarixçidir, əllamədir, qəribə, maraqlı və nadir xəbərlərin sahibidir.*

[1228] Fəthul-Bari, İbn Həcər, c. 11, s. 129-130

[1229] Din, Axirət və dünya işlərində bir müsəlmanın ehityacı duyduğu şeyləri öyrənməsi üçün müsəlmanların barələrində həmfikir olduqları Əhi-Beytin (ə) bu miqdarı kifayətdir. Belə ki, onların əzəməti, fəzilətləri, paklıqları, üzərilərinə salavat söylənməsinin vacibliyi barədə müsəlmanların arasında fikir birliyi mövcuddur. Nə üçün bunu başqalarından öyrənək? Məgər onlardan başqalarında öyrənmək bizə kifayət edəcəkmi? Müsəlman bir şəxs öz dinini götürdüyü mənbə barədə diqqətli olmalıdır.

Onun "Murucuz-zəhəb", "Zəxairul-ulum", "ət-Tarixu fi əxbaril-uməm"... adlı kitabları var. Mötəzili idi".[1230]

Sübki onun adını "Təbəqatuş-şafiiyyə"də qeyd edib.[1231]

"Kafi"dəki rəvayət

Şeyx Kuleyni İbn Əbu Bəsirə istinadən rəvayət edir: *"Əbu Abdullahın (ə) yanında əyləşmişdim. Yusuf ibn Ömərin torpaq verdiyi Ümmü Xalid oraya gəldi, görüşmək üçün izn istədi. Əbu Abdullah (ə) dedi: "Onun söyləyəcəklərini eşitmək istəyirsən?" Mən "Bəli" deyə cavab verdim. Ona içəriyə daxil olmağa izn verdi. Məni öz yanında, xalçanın üzərində oturtdu. Xanım içəri daxil oldu və sözə başladı. Bəlağətli nitqi var idi. İmamdan o ikisi (Əbu Bəkr və Ömər) haqqında soruşdu. İmam dedi: "Onları özünə dost tutursan?" Dedi: "Rəbbimlə görüşəndə sən mənə onları özümə dost tutmağı buyurduğunu deyəcəyəm". İmam dedi: "Bəli".*

Qadın dedi: "Sənin yanında oturan bu şəxs onlardan uzaq olmağımı, Kəsir Nəva isə onları dost tutmağımı söyləyir. Bunlardan hansı sənə daha sevimlidir?"

İmam (ə) buyurdu: "Allaha and olsun ki, bu şəxs mənə Kəsir Nəvadan və yoldaşlarından daha sevimlidir. Bu, mübahisə edərək deyir: ***"Allahın nazil etdiyi ilə hökm etməyənlər, əlbəttə, kafirlərdir", "Allahın nazil etdiyi ilə hökm etməyənlər, əlbəttə, zalımdırlar!" və "Allahın nazil etdiyi ilə hökm etməyənlər, əlbəttə, günahkarlardır!"***[1232]

İhsan Zahirin bu rəvayəti Əhli-Beytin (ə) Ömeri təriflədiyinə dəlil göstərməsi yanlışdır. Çünki bu rəvayətin nəqlində saxtakarlıq edib və rəvayətin ardını kəsib ki, öz iddiasına münasib şəklə salsın. Rəvayətin bu hissəsini nəql etmir: *"Sənin yanında oturan bu şəxs onlardan uzaq olmağımı... söyləyir".* Bu sözlər İmam Sadiqin (ə) ilk iki xəlifədən uzaq olmağa və onlardan bezarlıq ifadə edilməli olduğuna etiqad bəsləyən Əbu Bəsrin rəyini dəstəklədiyinə açıq şəkildə dəlalət

---

[1230] Tarixul-İslam, c. 25, s. 340-341. Həmçinin bax: əl-Vafi fil-vəfiyyat, Səfidi, c. 21, s. 5

[1231] Təbəqatuş-şafiiyyə, Sübki, c. 3, s. 456

[1232] ər-Ravzatu minəl-Kafi, Şeyx Kuleyni, c. 8, s. 101

edir. İmam (ə) Əbu Bəsirin etiqadını Kəsir Nəvanın etiqadından üstün tutur və Əbu Bəsiri dəstəkləmək üçün Uca Allahın bu sözlərini söyləyir: ***"Allahın nazil etdiyi ilə hökm etməyənlər, əlbəttə, kafirlərdir",***[1233] ***"Allahın nazil etdiyi ilə hökm etməyənlər, əlbəttə, zalımdırlar!"***[1234] və ***"Allahın nazil etdiyi ilə hökm etməyənlər, əlbəttə, günahkarlardır!"***[1235]

İmamın (ə) bu ayələri *"Allaha and olsun ki, bu şəxs mənə Kəsir Nəvadan və yoldaşlarından daha sevimlidir"* sözündən sonra dəlil kimi göstərməsi söhbətin bezarlıq ifadə etməkdən getməsinə dəlalət edir. Belə ki, İmam Ümmü Xalidə əvvəlki sözü təqiyyə edərək deyir. Sualı daha da genişləndirdikdə isə kinayə və eyham yolu ilə onlardan bezarlığı bəyan edir. Buna əsasən, həmin rəvayət ilk iki xəlifəni tənqid və məzəmmət edən, onlardan bezarlığı ifadə edən rəvayətlərdəndir. Burada biz onlardan bezarlığı və ya lənət söylənməsini isbat və ya inkar etmək mövzusuna toxunmuruq. Sadəcə İhsan Zahirin bu rəvayəti dəlil göstərməsinin yanlış və batil olduğunu bildirmək istəyirik. Çünki bu rəvayət onun sözlərinə dəlil olmamaqdan əlavə, onun iddiasının tam əksinə şahidlik edir. Belə ki, onları mədh və ya tərif etmir, əksinə, bezarlığı ifadə edərək lənətləyir.

12. Əhli-Beytin (ə) Ömər sevdikləri iddiası

İhsan Zahir iddia edir ki, Əhli-Beyt (ə) Ömərə sevgi bəsləyir, təqdir edir və ehtiram göstərirdi. Onlar Ömər haqqında pis danışan şəxsləri dinləmir, belə şəxslərlə heç bir əlaqələrinin olmadığını bildirir və onların bu əməllərini qınayırdılar. Ümmü Külsümün Ömərlə evləndirildiyini, Ömərə sədaqət və vəfa göstərdiklərini, ən gözəl tərzdə məsləhət və nəsihət verdiklərini, Ömərin onları vəzir təyin etdikdə və ya öz naibi qoyduqda bunu qəbul etdiklərini, bayrağının altında döyüşdüklərini, hər bir dəyərli şeylərini onun üçün fəda etməyə hazır

[1233] Maidə, 44
[1234] Maidə, 45
[1235] Maidə, 47

olduqlarını iddia edir. Ardınca ikinci iddiasına dəlillər sadalayır, haqla batili bir-birinə qarışdıraraq rəvayətlər nəql edir. İhsan Zahir deyir: "Əhli-Beyt də öz növbəsində Öməri sevir, ona ehtiram bəsləyir və hörmətlə yanaşırdı. Onlar Ömər haqqında pis danışan və onu ləkələyən şəxsləri dinləməkdən imtina edir, belə şəxslərlə heç bir əlaqələrinin olmadığını bildirir və onların bu əməllərini qınayırdılar...

Onlar Ömərin yaxşılıqlarına yaxşılıqla cavab verir, özlərinə qarşı olan hörmət və ehtiramına görə onu mükafatlandırırdılar. Onlar Peyğəmbərin (s) nəvəsini Ömərlə evləndirmişdilər. Əhli-Beyt Ömərə tabe olur, sədaqət göstərir, məsləhətlər verir, səmimiyyətlə yanaşır, müxtəlif məsələlərdə fikirlərini bildirir və bununla da düzgün qərar qəbul etməkdə ona yardım edir. Onlar əsla köməklərini Ömərdən əsirgəməzdilər. Öməri özlərinin rəhbəri seçmiş, bayrağının altında döyüşmüş, ilk mümkün halda Kitab və sünnəyə uyğun olaraq tələb olunanları onun sərəncamına verir, ən sevimli şeyləri onun ixtiyarında qoyur və bir çox şeylərini ona xatir fəda edirdilər.

Əli ibn Əbu Talib (r) bunları Misirdəki məmuru Muhəmməd ibn Əbu Bəkrin qətlindən sonra Misir əhlinə yazdığı məktubda da təsdiq edir. Həmin məktubda o, Peyğəmbərin (s) vəfatından dərhal sonra baş verən hadisələri qeyd edir və deyir: "Sonra Əbu Bəkr hakimiyyətə gəldi... Ölüm yatağında ikən xilafəti Ömrə verdi. Biz onun sözlərini dinləyir, itaət edir, məsləhətlərimizi verir və səmimiyyətlə yanaşırdıq". Ardınca öz adəti üzrə Öməri tərifləyərək deyir: "Ömər hakimiyyətə gəldi, layiqli həyat sürdü. Onun nəcib qəlbi var idi..."[1236]

Əli bununla demək istəyir ki, biz ona beyət etməkdə gecikmədik, ona itaət etdik, sözünü dinlədik, ona məsləhətlər verdik. Çünki o, ləyaqətlə yaşadı, sakit təbiətli və xeyirxah qəlbə sahib idi. Düşündüklərini uğurla həyata keçirir və qarşısına qoyduğu məqsədlərə həmişə çatırdı.

[1236] əl-Ğarat, Səqəfi, c. 1, s. 307

Şiələrin arasında böyük nüfuza sahib Şeyx Taifə Tusi "əl-Əmali" kitabında Əli ibn Əbu Talibin (ə) sözlərini rəvayət edir: "Siz Ömərə beyət etdiyiniz kimi mən də ona beyət etdim və beyətimə sadiq qaldım. O, öldükdə məni altı nəfərlik şurada altıncı şəxs qərar verdi və mən də mənə ayrılan yeri tutdum..."[1237]

Əli ibn Əbu Talib Ömərə beyət etmiş, onun sözlərinə itaət etmiş, ona məsləhətlərini vermiş, onun göstəriş və tapşırıqları ilə razılaşmışdı. Əli onun əmrinə itaət edərək, aralarından xəlifə şeçilməli olan altı nəfərlik Şuraya daxil oldu. Bundan əlavə, o, Ömərin vəziri, müşaviri və qazısı idi. Əvvəldə də qeyd etdiyimiz kimi, Ömər bir çox yerdə aralarında Əli ibn Əbu Talibin (r) də olduğu müşavirləri ilə məsləhətləşmiş, Əlinin məsləhətlərini daim onların sözlərindən üstün tutmuşdur. Şiə tarixçisi Yaqubi yazır: "Ömər Kufənin bərəkətli torpaqları barədə öz müşavirləri ilə məsləhətləşdi. Onlardan bir dəstəsi dedilər: "Bu torpaqları bizim aramızda böl". Bu vaxt Ömər məsləhət üçün Əli ibn Əbu Talibə müraciət etdikdə o dedi: "Əgər bu gün torpaqları onların arasında bölüşdürsən, sabah bizdən sonra gələn nəsillər üçün heç bir şey qalmayacaq. Qoy onların sərəncamında qalsın, orada çalışsınlar, nəticədə həm bizə, həm də bizdən sonrakılara məxsus olacaq". Ömər dedi: "Allah səni müvəffəq etsin! Ən doğru rəy də budur!"[1238]

Həmçinin bir çox rəvayətlərdə qeyd edilir ki, Ömər qəzavət məsələlərində Əlinin rəyi bir, digərlərinin rəyi başqa cür olarkən məhz onun rəyinə üstünlük verərdi. Şeyx Müfid ləqəbli şiə alimi öz kitabında "Ömərin xilafəti dövründə İmam Əlinin qəzavətləri" başlığı altında ayrıca bir fəsil açmış, orada Ömərin Əli ibn Əbu Talibin verdiyi hökmlərə uyğun qəzavətlər etdiyini sıralamışdır. Onlardan: "Ömərin hüzuruna zina etmiş bir hamilə qadını gətirdilər. O, qadının rəcm (daşqalaq) olunmasına göstəriş verdi..."

[1237] əl-Əmali, Şeyx Tusi, c. 2, s.121, Nəcəf çapı

[1238] Tarix, Yaqubi, c. 2, s. 151-152

Bütün bu qəzavətlərində Ömər Əlinin verdiyi hökmlərə əsaslanıb və onun sözlərini icra etdirib. Belə ki, şiə rəvayətlərinə əsasən, Ömər deyib: "Bizim ən yaxşı qəzavət edənimiz (qazımız) Əlidir".[1239]

Bu qəzavətlər, bu da məşvərətlər... Bütün bu sözlərdən sonra Əlinin Ömərə (r) müxalif olduğunu və ya onların arasında narazılığın düşdüyün demək mümkündürmü? Hətta nə özü və nə də yaxınları ona beyət etmədilər deyənlərin sözlərinə inansaq belə...

Necə təsəvvür etmək olar ki, bir şəxs digər şəxsin hakimiyyətini qeyri-qanuni saydığı halda ona məsləhətlər versin, mühüm və qarışıq məsələlərdə, eləcə də çətinliklər zamanı öz rəyini bildirsin, onun da sözünə dəyər verib qəbul etsinlər və onlara müvafiq hökm versinlər?

Bundan əlavə, Əlinin Peyğəmbər (s) kürəkəni, onun naibi, möminlərin əmiri və müsəlmanların xəlifəsi Ömər ibn Xəttab üçün yalnız qazı və vəzir deyil, hökm və hakimiyyətdə onun naibi də olmuşdur. Hicrətin 15-ci ilində Şam əhalisi Fələstinə qarşı onları qorumaq üçün Ömərə müraciət etdikdə öz səhabələri ilə məsləhətləşdi. Onların arasında Əli də var idi. O, Ömərin bunu etməməli olduğunu söylədi: "Özün irəli getmə, düşmən qaniçən, qəddar və təhlükəlidir". Ömər dedi: "Həqiqətən də, indi ordu ilə döyüşməklə mən Abbasın ölümünü qabaqlamaq istəyirəm. Əgər siz Abbasdan məhrum olsanız və ya onu itirsəniz, hörülmüş ipin çözüldüyü kimi şər sizə üz verəcək (Ömərin Əhli-Beytə, xüsusilə də, Əlinin (ə) əmisinə olan sevgisinə baxın)".[1240]

Ömər Şama tərəf yola düşdü və Əlini (ə) öz əvəzinə Mədinədə başçı qoydu.[1241]

Tarixçilər qeyd edirlər ki, Ömər Əlini üç dəfə möminlərin paytaxtında öz yerinə naib olaraq təyin edib. Bu hicri-qəməri təqvimi ilə 14-cü ildə İraqa hücum

---

[1239] əl-Əmali, Tusi, c.1, s. 256, Nəcəf çapı

[1240] Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid, c. 2, s. 370

[1241] Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid, c. 2, s. 370

edərkən, 15-ci ildə bizanslılarla (rumlularla) savaşa gedərkən[1242] və 17-ci ildə Əyləyə tərəf qoşunla hərəkət edərkən (Təbəri) baş verib.

Məhz buna görə, camaat Əliyə beyət etmək istəyərkən o: "Mənim sizin üçün vəzir olmağım, xəlifə olmağımdan daha yaxşıdır" deyir.[1243]

Bu sözləri ilə Əbu Bəkrin, xüsusilə də, Ömərin xilafəti dövründəki vəzirliyinə işarə edir.

O özü, oğulları və yaxınları Ömərin bayrağı altında savaşlarda iştirak etmiş, Ömərdən döyüş qənimətləri, hədiyyələr, cariyələr və əsirlər almışdı. Əgər o hakimiyyətə haqsız gəlmişdisə və onun hakimiyyəti qeyri-qanuni idisə, o zaman onun bayrağı altında savaşmaq da cihad sayılmaz, cariyə və əsirlər qanuni olmaz, onları qəbul etmək də düzgün sayılmazdı.

Buna baxmayaraq, şiə mənbələrində Peyğəmbər (s) nəvəsi Həsən ibn Əlinin (r) Ömərin xilafəti zamanı İrana yürüş üçün təşkil olunan orduda Ömərin bayrağı və başçılığı altında savaşdığı qeyd edilir. Deyilir ki, İsfahanda "Yerin dili" adlanan məscid var. Bu məscidin belə adlandırılmasının səbəbi Ömərin xilafəti dövründə Allah yolunda savaşan müsəlman ordusu ilə birlikdə Həsən ibn Əli (ə) İsfahana daxil olduqda bu yerdə dayanması, Yer onunla danışmasıdır. Bu hadisədən sonra həmin yer "Yerin dili" adlandırılmışdır.[1244] Bunlar bizim dediklərimizin doğruluğuna dəlildir".[1245]

Cavab

Kitabın bu cildinin üçüncü və dördüncü bablarında Ömərin Əhli-Beytlə (ə) rəftarı, onların da Ömərə münasibətləri barədə müfəssəl şəkildə izahlar verdik. Burada onları təkrar etməkdə lüzum görmürük. Qeyd etmək istəyirik ki, onun

---

[1242] əl-Bidayətu vən-nihayə, İbn Kəsir, c. 7, s. 35, 55, Beyrut çapı; Tarix, Təbəri, c. 4, s. 159, Beyrut çapı

[1243] Nəhcül-Bəlağə, s. 136, Sübhi Salehin təhqiqi ilə

[1244] Tətimmətul-müntəha, Abbas Qummi, səh. 390, İran çapı

[1245] Şiə və Əhli-Beyt, 113-132

hazırkı mətndə istinad və təqdim etdiyi dəlilləri iddiasına əsla cavab vermir. Onun dəlillərini və onlar barədəki sözlərimizi sizə təqdim edirik:

Səqəfinin rəvayəti

İbrahim ibn Muhəmməd Səqəfi mürsəl (sənədsiz) olaraq Əbdürrəhman ibn Cündəbdən, o da atası Cündəbdən rəvayət edir: *"Misir işğal edildikdən sonra Əmr ibn Həmiq, Hücr ibn Ədiy, Həbbə Urəni, Haris ibn Əvər və Abdullah ibn Səba Möminlərin əmiri Əlinin (ə) yanına gəldilər. O hüznlü və qəmgin idi. Dedilər: "Bizə Əbu Bəkr və Ömər haqqındakı fikirlərini açıqlaya bilərsən?" Əli (ə) onlara dedi: "Görürsünüz nə ilə məşğulsunuz? Misir yenicə fəth olunub. Orada şiələrim qətlə yetirilib! Mən sizə məktub yazıb soruşduqlarınız barədə cavab verəcəyəm. Haqqımı qorumanızı diləyirəm. Bunu şiələrimə də oxuyun, haqqa yardımçı olun".*

Bu, məktubun bir nüsxəsidir: "Allah bəndəsi Əmirə-möminin Əlidən bu məktubumu oxuyan mömin və müsəlmanlara salam olsun! Özündən başqa ilah olmayan Allahın nemətlərinə sizinlə birgə həmd söyləyirəm!

Uca Allah Muhəmmədi (s) aləmlərə xəbərdar edib qorxudan bir peyğəmbər olaraq göndərdi...

O, dünyadan köçdükdən sonra müsəlmanlar xilafət məsələsində fikir ayrılığına düşdülər. Allaha and olsun ki, heç qəlbimdən keçməz və ağlıma da gəlməzdi ki, ərəblər Peyğəmbərdən (s) sonra xilafəti Əhli-Beytdən alacaq, məni bu işdən uzaqlaşdıracaqlar. Camaatın Əbu Bəkrə beyətə yönəldiyi və beyət etmək üçün qaçdıqları təəccübümü doğurdu. Mən əl saxladım. Həmin məqama Peyğəmbərdən (s) sonra xilafəti əlinə almış kəsdən özümü daha layiq bilirdim. Allah dilədiyi qədər bu işdən çəkindim. Camaatın arasında İslamdan dönmək barədə səslər yüksəldiyini gördüm. Onlar Allahın dini, Muhəmməd (s) və İbrahimin ümmətini aradan aparmaq istəyirdilər. Qorxdum ki, əgər İslama və əhlinə yardım etməsəm sonradan

onlarda böyük yarıqlar və dağıntılar görəcəyəm. Nəticədə bu, qısa dünya günlərində bərqərar olacaq vilayət haqqımın aradan getməsindən daha böyük müsibətlər yaradacaq. Ardınca əldə edilənlər bir ilğım və ya bulud kimi yox olacaq. Həmin vaxt Əbu Bəkrin yanına gedib beyət etdim, təhlükəli hadisələrin qarşısını almaq üçün qalxdım. Nəticədə batil puç olub aradan getdi və kafirlər istəməsə belə Allahın sözü ən üstün oldu. Əbu Bəkr xilafətin rəhbərliyinə keçdi. O, işi gah asanlaşdırdı, gah çətinləşdirdi, gah bir-birinə yaxınlaşdırdı və gah qənaət etdi. Nəsihətçi olaraq yoldaşlıq etdim, Allaha mütilik göstərdiyi şeylərdə ona itaət etdim. Mən həyatda ikən onunla bir şey baş verdiyi təqdirdə, məyus və ümidsiz kimi deyil, əmin şəxs kimi barəsində ixtilafa düşdüyümüz xilafətin mənə qaytarılmayacağını bildiyim üçün ona tamah salmadım. Əgər onun Ömərlə aralarındakı razılaşması olmasaydı, bəlkə də, xilafəti məndən əsirgəməyəcəyini düşünə bilərdim. Ölüm anı yetişdikdə Ömərin ardınca adam göndərib xilafəti ona verdi. Biz sözünə qulaq asdıq, itaət etdik və məsləhətlər verdik. Ömər hakimiyyətə gəldi, layiqli həyat sürdü. Onun nəcib qəlbi var idi.

Ölüm ona yetişdikdə öz-özümə "Xilafəti məndən uzaqlaşdırmayacaq" dedim. Lakin o, məni altı nəfərin altıncısı qərar verdi. Onlara rəhbər olmağıma hamısı ikrah edirdi. Onlar Peyğəmbərin (s) dünyadan köçdüyü ərəfədə Əbu Bəkrə öz dəlillərimi təqdim edib belə söylədiyimi eşitmişdilər: "Ey qüreyşlilər! Biz Əhli-Beyt, xilafətə sizdən daha çox haqq sahibiyik! Sizin aranızda bizim kimi Quran oxuyan, sünnəni bilən və haqq dinə tabe olan bir şəxs yoxdur". Lakin onlar qorxdular. Qorxdular ki, əgər biz rəhbərliyə keçsək onların hakimiyyətdən heç bir payları olmayacaq.

Onlar (Şura əhli) yığışıb xilafəti Osmana verdilər və məni kənarda tutdular. Elə ümid etdilər ki, Osman xilafəti onlara verəcək. Sonra mənə dedilər: "Ona beyət et, yoxsa sənlə savaşacağıq". Mən məcbur qalaraq beyət etdim, səbr edib boyun əydim.

Onlardan biri mənə dedi: "Ey Əbu Talibin oğlu! Sən bu xilafətə nə qədər hərissən?!" Mən dedim: "Siz hərissiniz, yoxsa mən? Mənmi hərisəm? Mən sadəcə Allahın və Peyğəmbərinin (s) mənə verdiyi mirası və haqqımı istədim. Yoxsa siz hərissiniz ki, haqsız yerə mənim üzümə vurdunuz, mənimlə onun arasında xilafəti bu cür böldünüz. Siz yalan söylədiniz, Allaha and olsun ki, Allah zalım camaatı əsla doğru yola gönaltmaz! İlahi, mən Qüreyşə qarşı səndən yardım diləyirəm. Həqiqətən də onlar mənimlə əlaqələrini kəsdilər, mənim ali məqamımı kiçiltdilər, onlardan daha çox haqqım olan şeyi almaq üçün mənə qarşı birləşdilər və məni məhrum etdilər!

Sonra dedilər: "Bil ki, sənin onu əldə etməyin də haqdır, onun səndən alınması da! İndi istəyirsən qəm-qüssə ilə səbr et, istəyirsənsə də təəssüf və kədərlə öl. (Yəni, xilafətin qəsb edilməsinə razı olmasan səbr etmək və ya ölməkdən başqa bir çarən yoxdur.) Beləliklə, həmin zamanda Əhli-Beytimdən başqa bir dost, müdafiə edən və köməkçinin olmamasını gördüm, ölümün onları haqlamasına heyfim gəldi. (Əhli-Beytimin məhv olmaması üçün dava-dalaşa razı olmadım.) Buna görə də tikan batmış gözlərimi yumdum və boğazımda sümük qalmasına baxmayaraq, ağzımın suyunu uddum; qəzəbi yatırmaq üçün acı olan və ürəyə böyük bıçaqlardan da çox ağrı verən şeyə səbr etdim.

Ta ki, Osmana qəzəblənib üzərinə getdiniz, onu öldürdünüz. Sonra beyət etmək üçün yanıma gəldiniz. İmtina edib əlimi kənara çəkdikdə siz mənimlə mübahisə etdiniz, mən əlimi açmadığım halda zorla əlimi uzadıb beyət etdiniz. Üzərimə izdihamla gəldiniz. Elə zənn etdim ki, sanki, bir-birinizi və ya məni öldürəcəksiniz. Dediniz: "Səndən başqasına beyət etməyəcək və xəlifəliyinə razı olmayacağıq. Beyətimizi qəbul et, səndən ayrılmayacaq və sözündən çıxmayacağıq. Beyətinizi qəbul etdim və camaatı beyətə səslədim. Mütilik göstərib beyət edənlərin beyətini qəbul etdim, istəməyənləri isə məcbur etməyib öz hallarına buraxdım. Beyət edənlərin arasında Təlhə və Zübeyr də var idi..."[1246]

[1246] əl-Ğarat, Səqəfi, c. 1, s. 302-310

Bunu Əllamə Məclisi "Biharul-ənvar"da[1247] Səqəfidən və Seyyid Rəzi məktubun bəzi hissələrini "Nəhcül-Bəlağə"də[1248] nəql ediblər. Lakin orada Əbu Bəkr və Ömərin vəsfləri qeyd edilməyib. Həmçinin şiə alimi Əbu Cəfər ibn Cərir ibn Rüstəm Təbəri bu rəvayəti "əl-Müstərşid"də əlavələrlə nəql edib. Orada Ömərin vəsflərdən öncə "onların nəzərində" sözləri qeyd edilib. *"Ömər hakimiyyətə gəldi, onların nəzərində layiqli həyat sürdü və nəcib qəlbli idi".*[1249]

İhsan Zahirin bu rəvayəti dəlil göstərməsi bir neçə cəhətdən yanlışdır:

Birinci: Rəvayət mürsəldir. Əbdürrəhman ibn Cündəb isə məchul ravidir. Heç kəs onun adını ricalda qeyd etməyib. Bəli, Şeyx Tusi onun adını öz "Rical"ında[1250] zikr etsə də, bu yalnız Möminlərin əmiri Əlidən (ə) rəvayət nəql edənlərin siyahısındadır. Bu isə onun etibarlı olmasına dəlalət etməz. Belə ki, həmin siyahıda müəllif Übeydullah ibn Ziyadın da adını qeyd edir.[1251]

Təfrişinin Şeyx Tusidən nəql edərək "Əbdürrəhman ibn Cündəb: Əlinin (ə) əshabından"[1252] deməsi qeyri-dəqiqdir. Belə ki, Şeyx orada Möminlərin əmirinin (ə) əshabının adlarını deyil, ondan rəvayət nəql edənlərin adlarını sadalayır. İstər həmin şəxslər mömin olsunlar, istərsə də Übeydullah ibn Ziyad kimi fasiq. Şeyx Tusidən nəql etdiyinin doğruluğu fərz olunsa belə, bu həmin şəxsin etibarlı olmasına yenə dəlalət etməz. Belə ki, "Rical"da İmam Sadiqin (ə) əshabının arasında düşməni olan Mənsur Dəvaniqinin adı da qeyd edilib.[1253]

İkinci: Səqəfinin rəvayətinin zahirinə əsasən o, Əbdürrəhman ibn Cündəbdən yalnız *"Misir işğal edildikdən sonra Əmr ibn Həmiq, Hücr ibn Ədiy... Bunu şiələrimə də oxuyun, haqqa yardımçı olun"* hissəsini nəql edir. Lakin məktub həmin

---

[1247] Biharul-ənvar, Əllamə Məclisi, c. 33, s. 566-570

[1248] Nəhcül-Bəlağə, Seyyid Rəzi, Xütbələr, c. 3, s. 118-121

[1249] əl-Müstərşid, Muhəmməd ibn Cərir ibn Rüstəm Təbəri, s. 415.

[1250] ər-Rical, Şeyx Tusi, s. 75

[1251] ər-Rical, Şeyx Tusi. s. 78

[1252] ər-Rical, Təfrişi, c. 3, s. 45

[1253] ər-Rical, Şeyx Tusi, s. 9

rəvayətin tərkib hissəsi deyil. Necə ki, bu, Səqəfinin öz sözlərindən də anlaşılır: "*Bu, məktubun bir nüsxəsidir:..*"

Həmçinin Səqəfinin rəvayətindən aydın olur ki, məktub Möminlərin əmiri (ə) naibi tərəfindən oxunub. Bəs, Əbdürrəhman ibn Cündəb bu xütbəni tam əzbərləyərək danışır, yoxsa məktubu və ya onun nüsxəsini əzbərləyib nəql edib ki, nəticədə bu nüsxə Səqəfiyə yetişib?!

Sonuncu variant nüsxədən artırmaları və *"Bu, məktubun bir nüsxəsidir"* sözlərini kənarlaşdırmalı idi. Bu isə nüsxənin onun əlinə Əbdürrəhman ibn Cündəbdən çatıb-çatmadığını aydınlaşdırmır.

Üçüncü: İhsan Zahir rəvayətin məzmununu dəyişəcək tərzdə rəvayəti kəsib, əvvəlini və ardını qeyd etməyib ki, öz iddiasına uyğun şəklə salsın. Belə ki, İmam Əli (Səqəfinin kitabına əsasən) öz məktubunda diqqəti Peyğəmbərdən (s) sonrakı hadisələrdə cəmləşdirir, bir neçə başlıca məsələnin üzərində dayanır. Onlardan:

A. İmam Əlinin (ə) Allah və Peyğəmbəri (s) tərəfindən təyin edilən xəlifə olduğunu açıq bildirməsi: *"Mənmi hərisəm? Mən sadəcə Allahın və Peyğəmbərinin (s) mənə verdiyi mirası və haqqımı istədim".*

B. Camaatın Peyğəmbərdən (s) sonra dindən üz döndərdiyini görüb İslama görə qorxduğunu bildirməsi və bu səbəbdən, Əbu Bəkrə beyət etməsi: *"Mən əl saxladım. Həmin məqama Peyğəmbərdən (s) sonra xilafəti əlinə almış kəsdən özümü daha layiq bilirdim. Allah dilədiyi qədər bu işdən çəkindim. Camaatın arasında İslamdan dönmək barədə səslər yüksəldiyini gördüm. Onlar Allahın dini, Muhəmməd (s) və İbrahimin ümmətini aradan aparmaq istəyirdilər. Qorxdum ki, əgər İslama və əhlinə yardım etməsəm sonradan onlarda böyük yarıqlar və dağıntılar görəcəyəm. Nəticədə bu, qısa dünya günlərində bərqərar olacaq vilayət haqqımın aradan getməsindən daha böyük müsibətlər yaradacaq. Ardınca əldə edilənlər bir ilğım və ya bulud kimi yox olacaq. Həmin vaxt Əbu Bəkrin yanına gedib beyət etdim, təhlükəli hadisələrin qarşısını almaq üçün qalxdım. Nəticədə batil puç olub aradan getdi..."*

C. Qüreyşin Əhli-Beytə (ə) qarşı birləşib, haqlarına təcavüz edib hüquqlarını qəsb etdiyini bildirməsi: *"İlahi, mən Qüreyşə qarşı səndən yardım diləyirəm. Həqiqətən də onlar mənimlə əlaqələrini kəsdilər, mənim ali məqamımı kiçiltdilər, onlardan daha çox haqqım olan şeyi almaq üçün mənə qarşı birləşdilər və məni məhrum etdilər!.."*

İmam Əlinin (Səqəfinin nəql etdiyi rəvayətə əsasən) öz əshabına ünvanladığı məktubunda qeyd etdiyi bu əhəmiyyətli məsələlərə diqqət yetirməklə aydın olur ki, məktubda həmin dövrün tələbləri ümumi şəkildə nəzərə alınıb. Ona nəzər salan şəxs həmin kəlmələrdə cərgələrin birliyinə və qəlblərin yaxınlaşdırılmasına yönəlmiş xitabın izlərini açıq-aydın müşahidə edə bilər. Həmin dövr olduqca çətin və təhlükəli idi. Belə ki, Müaviyə ibn Əbu Süfyanın qoşunları Osmanın intiqamı adı altında İslam xilafətinin şəhərlərinə soxulurdu. İmam Əli (ə) isə ittiham olunanların siyahısının başında gəlirdi. İki ən yaxşı səhabəsi Malik Əştər və Muhəmməd ibn Əbu Bəkri qətlə yetirərək Müaviyənin Misiri işğal etməsi xəbəri ona çatdıqda qəlbini dəhşətli dərəcədə kədər bürümüşdü. Bu əsnada gəlib ondan Əbu Bəkr və Ömər haqqındakı fikrini soruşurlar. İmam (ə) onların sözlərindən heyrətlənir və onların sualının hazırkı vəziyyət doğru olmadığını bildirərək deyir: Məgər İslam üzərindəki təhlükələr, müsəlmanların bəla və çətinlikləri aradan qalxdımı ki, bu məsələlər barədə danışmağa başlayaraq?!

İmam (ə) bu məsələnin bitməyəcəyini, İslam tarixi boyunca davam edəcəyini və hətta çətin dövrlərdə də tərk edilməyəcəyini bilirdi.

Bu zaman məsələyə əlac etmək qərarını verdi və onları maraqlandıran məsələ barədə məktub yazaraq fikirlərini bildirəcəyini söylədi. Bunları öz sözlərində də aydın sezmək olur: *"Misir işğal edildikdən sonra Əmr ibn Həmiq, Hücr ibn Ədiy, Həbbə Urəni, Haris ibn Əvər və Abdullah ibn Səba Möminlərin əmiri Əlinin (ə) yanına gəldilər. O hüznlü və qəmgin idi. Dedilər: "Bizə Əbu Bəkr və Ömər haqqındakı fikirlərini açıqlaya bilərsən?" Əli (ə) onlara dedi: "Görürsünüz nə ilə məşğulsunuz? Misir yenicə fəth olunub. Orada şiələrim qətlə yetirilib! Mən sizə*

məktub yazıb soruşduqlarınız barədə cavab verəcəyəm. Haqqımı qorumanızı diləyirəm. Bunu şiələrimə də oxuyun, haqqa yardımçı olun".

Bu cəhətdən rəvayətdə ilk iki xəlifəyə heç bir tərif yoxdur. İmamın (ə) onlar barədəki vəsfləri Osmanın vəsflərinin müqabilində söylənmişdir. Belə ki, məktub yazılarkən hadisələr onun ətrafında dövr edirdi. İmam da (ə) ilk iki xəlifənin müxatiblərin nəzərində razı qalınacaq tərzdə davrandıqlarına işarə edir. Bu səbəbdən də, Osmanın əksinə olaraq, ümmət onlara qarşı ayağa qalxmır. Lakin Osman onlar kimi deyildi, insanların qəzəbinə səbəb olacaq addımlar atırdı. Sonda camaat ona qarşı üsyan edərək qətlə yetirdilər. Bu isə onun hərəkətlərinin və ilk iki xəlifənin rəftarına zidd atdığı addımların nəticəsidir. Düşmənçiliyi səbəbindən qətlə yetirilmiş bir kəsə görə də Müaviyənin intiqam tələb etməyə haqqı yoxdur.

Şeyx Tusinin rəvayəti

Şeyx Tusi "əl-Əmali"də Əbu Cəfər ibn Muhəmməd ibn Hüseyn ibn Həfs Xəsəmi Əşnaniyə istinadən yazır: *"İbad ibn Yaqub Əsədi Əli ibn Haşim ibn Bureyddən, o da atasından, o da Abdullah ibn Muxariqdən, o da Haşim ibn Musahiqdən, o da atasından nəql edir: "Cəməl savaşında idim. Ordu məğlub olarkən o və aralarında Mərvanın da olduğu qüreyşdən bir dəstə adam toplaşdılar. Bəziləri deyirdi: Allaha and olsun ki, bu kişiyə zülm etmişik. Ondan bir pis iş zahir olmadığı halda beyətindən imtina etdik. Ardınca o bizə qələbə çaldı. Peyğəmbərdən (s) sonra hərəkətlərində ondan kəramətlisini, bağışlamaqda ondan yaxşısını görmədik. Gəlin onun yanına gedək, etdiyimiz əməllərə görə üzr istəyək.*

Onun yanına getdik. Bizdən olan adamlar sözlərini dedikdən sonra buyurdu: "Sakit olun, kifayətdir! Mən də sizdən biriyəm. Əgər doğru desəm məni təsdiqləyin,

əgər sözlərim doğru olmasa inkar edin. Allahı sizə şahid tuturam, bilmirdiniz ki, Peyğəmbər (s) dünyadan köçəndə mən bütün insanlardan ona ən yaxını idim?"

Dedilər: "İlahi, elədir!"

Siz isə Əbu Bəkrə beyət edib məni tərk etdiniz. Mən də sizin kimi Əbu Bəkrə beyət etdim. Müsəlmanların arasında ixtilaf salıb, cəmiyyətdə təfriqə yaratmaq istəmədim. Əbu Bəkr özündən sonra onu Ömərə həvalə etdi. Siz yenə də Peyğəmbərə (s) bütün insanlardan daha yaxın olduğumu bilirdiniz. Ömərə beyət etdiyiniz kimi mən də beyət etdim. Etdiyim beyətə də vəfa göstərdim. O qətlə yetiriləndə məni altı nəfərin altıncısı qərar verdi. Məni Şuraya daxil etdiyi üçün iştirak etdim. (Şuranın aldığı qərara qarşı çıxaraq) Müsəlmanların arasında ixtilaf salıb, cəmiyyətdə təfriqə yaratmaq istəmədim. Siz Osmana beyət edəndə mən də beyət etdim. Sonra siz Osmana qarşı etiraza qalxıb onu qətlə yetirdiniz. Mən o zaman evimdə oturmuşdum. Sizi çağırmadığım və məcbur etmədiyim halda yanıma gəldiniz, Əbu Bəkrə, Ömərə və Osmana beyət etdiyiniz kimi mənə də beyət etdiniz. Onlara etdiyiniz beyətlə mənə etdiyiniz beyətin arasında fərq qoymağınıza haqqınız varmı?!

Ey Möminlərin əmiri! Saleh bəndənin dediyi kimi ol: ***"(Yusuf) dedi: "Bu gün sizə (etdiklərimizə görə) heç bir məzəmmət yoxdur. Allah sizi bağışlasın! Çünki O, rəhm edənlərin ən rəhmlisidir!".***[1254]

Mən belə deyirəm: Allah sizi bağışlasın! Çünki O, rəhm edənlərin ən rəhmlisidir! Halbuki sizin aranızda elə adam var ki, mənə əli ilə beyət etsə, arxasını çevirdikdə beyətini pozacaq (məqsədi Mərvan idi)".[1255]

İhsan Zahirin bu rəvayəti öz iddiasına dəlil göstərməsi iki cəhətdən batildir:

Birinci: Rəvayətin ravilərindən heç biri etibarlı deyil:

[1254] Yusuf, 92

[1255] əl-Əmali, Şeyx Tusi, s. 506-507

Əbu Cəfər ibn Muhəmməd ibn Hüseyn ibn Həfs Xəsəmi Əşnani – o, məchul ravidir. Şeyx Tusi onu öz "Rical"ında İmamlardan (ə) hədis nəql etməyənlərin arasında qeyd edib.[1256]

Abdullah ibn Muxariq (Muxafiv) və Haşim ibn Musahiqin adları isə ümumiyyətlə qeyd olunmayıb.

Abdullah ibn Yaqub Əsədinin tərcümeyi halı zikr olunmur.[1257] Həmçinin Əli ibn Haşim ibn Büreyd və atası Haşim ibn Bureyd də.[1258] Bəli, sonuncu iki nəfərin adını Şeyx Tusi öz "Rical"ında İmam Sadiqin (ə) əshabının arasında qeyd edir,[1259] lakin yuxarıda da bildirdiyimiz kimi, bu onların etibarlı olması demək deyil.

İkinci: İhsan Zahir rəvayəti öz iddiasına uyğunlaşdırmaq üçün əvvəlini kəsib. Belə ki, rəvayət bütünlükdə mülahizə olunduqda orada ilk iki xəlifənin təriflənmədiyi məlum olur. Buradakı sözlər İmam Əliyə (ə) beyətlərini pozan Cəməl savaşında məğlub olmuş bir dəstə insanı düşündürmək üçün qarşılarına sual şəklində qoyulur. Ümumi mənası budur: Nə üçün məndən öncəkilərə olan beyətinizə sadiq qaldınız (belə ki, mən də beyət edənlərin arasında idim və beyətimə vəfa etmişdim), lakin mənə olan beyətinizə vəfa göstərmədiniz. Halbuki öz razılıq və seçiminizlə mənə beyət etmişdiniz!

Rəvayətdəki sözlərin məqsədi budur ki, camaat İmam Əlinin (ə) Peyğəmbərdən (s) sonra bütün insanlardan üstün olduğunu bildikləri halda ondan üz döndərirlər. Halbuki o, müsəlmanların birliyini parçalamamaq üçün özündən əvvəlkilərə beyət etdi, Ömərin təsis etdiyi şuraya daxil oldu. Bütün bunlar onların hakimiyyətinin haqq olduğuna görə deyildi. Buna baxmayaraq, onlara olan beyətinə sədaqət göstərdi. Osmanın fitnəsi zamanı evində qərar tutdu, onun qətlindən sonra özünə beyət edilməsinə razı olmadı. Ona olan beyətləri də camaatın öz razılığı və öz seçmələri idi. Əvvəlki xəlifələrə beyətdən

---

[1256] ər-Rical, Şeyx Tusi, s. 442

[1257] ər-Rical, Nəcaşi, s. 293; ər-Rical, İbn Davud, s. 114; Nəqdur-rical, Təfrişi, c. 3, s. 15

[1258] İzahul-iştibah, Əllamə Hilli, s. 217; Nəqdur-rical, c. 3, s. 309

[1259] ər-Rical, Şeyx Tusi, s. 244, 319

fərqli olaraq, bu işdə heç bir məcburiyyət, zorakılıq və ya tərəddüd olmadı. İmam Əli (ə) ona olan beyətlərini pozan Cəməl savaşında məğlub olmuş həmin insanlar qarşısında bu sualları qoyur. Mənə öz razılığınız və öz seçiminizlə beyət etdiyiniz halda, nə üçün beyətinizi pozdunuz, amma məndən əvvəlkilərin beyətinə sadiq qaldınız? Onlar isə cavab üçün söz tapa bilməyib belə deyirlər: *"...Saleh bəndənin dediyi kimi ol:* ***"(Yusuf) dedi: "Bu gün sizə (etdiklərimizə görə) heç bir məzəmmət yoxdur. Allah sizi bağışlasın! Çünki O, rəhm edənlərin ən rəhmlisidir!"****.*

Ömərin xilafəti dövründə Möminlərin əmirinin (ə) qəzavətləri

Yaqubi özünün "Tarix" əsərində yazır: *"Ömər Kufənin bərəkətli torpaqları barədə öz müşavirləri ilə məsləhətləşdi. Onlardan bir dəstəsi dedilər: "Bu torpaqları bizim aramızda böl". Bu vaxt Ömər məsləhət üçün Əli ibn Əbu Talibə müraciət etdikdə o dedi: "Əgər bu gün torpaqları onların arasında bölüşdürsən sabah bizdən sonra gələn nəsillər üçün heç bir şey qalmayacaq. Qoy onların sərəncamında qalsın, orada çalışsınlar, nəticədə həm bizə, həm də bizdən sonrakılara məxsus olacaq". Ömər dedi: "Allah səni müvəffəq etsin! Ən doğru rəy də budur!"*[1260]

Şeyx Müfid "əl-İrşad" kitabında yazır: "(Əhli-Sünnə və Şiə mənbələri) rəvayət edirlər ki, zina etməkdə ittiham olunan hamilə bir qadını Ömərin yanına gətirdilər... Ömər onun daş-qalaq olunmasına hökm verdi. Möminlərin əmiri (ə) dedi: "O qadının özü günahkar olduğuna görə onun barəsində belə hökm verməyə haqlısan, amma onun bətnindəki uşaq barəsində belə bir hökmə nə haqqın var?! Uca Allah buyurur: ***"Heç kəs başqasının günahını daşımaz".***

Ömər dedi: "Əbülhəsənin iştirakı olmadan heç bir çətin məsələni Allah mənə yaşatmasın!"

[1260] Tarix, Yaqubi, c. 2, s. 151

Sonra dedi: "Bəs onunla nə edək?"

Möminlərin əmiri Əli (ə) buyurdu: "Uşağı doğanadək ona möhlət ver, onu dünyaya gətirdikdən sonra uşağa bir himayədar tapsan, qadının cəzasını icra etdir".

Beləliklə Ömər öz hökmündən dönüb Möminlərin əmiri Əlinin (ə) hökmünə üstünlük verdi.

Rəvayət edirlər ki: *"Ömər evində kişilərin toplaşıb söhbət etdiyi qadını hüzuruna çağırdı. Göndərdiyi adamlar qadının yanına gəldikdə o, keçirdiyi qorxudan bətnindəki uşağını yerə saldı. Uşaq ağladı, bir müddətdən sonra öldü. Ömərə xəbər verildikdə o, Peyğəmbər (s) səhabələrini topladı və bu vəziyyətdə nə etməli olduğunu onlardan soruşdu. Onlar bir ağızdan dedilər: "Sən mərhəmətli və ədalətlisən, heç bir pis niyyətin yox idi. Bu səbəbdən, heç bir şey etməməlisən". Möminlərin əmiri Əli (ə) yaxınlıqda əyləşmiş, lakin heç bir söz demirdi. Ömər onu görüb dedi: "Ey Əbülhəsən, bəs sən bu barədə nə deyirsən?"*

Möminlərin əmiri (ə) buyurdu: "Sən onların dediklərini eşitdin".

Ömər: Sənə Allahı and verirəm, de görüm, sən bu barədə nə düşünürsən?

Möminlərin əmiri (ə): Əgər onlar bu sözləri ilə sənin rəğbətini qazanmaq və sənə yaltaqlanmaq istəyiblərsə, o zaman səni aldadıblar. Yox, əgər öz rəylərini bildiriblərsə, o zaman ehtiyatsızlıqdan körpənin ölümünə səbəb olduğuna görə üzərindən diyəni götürməklə səhvə yol veriblər.

Ömər: Allaha and olsun ki, sən mənə ən doğru məsləhəti verdin! Bəni-Ədiyə diyələrini verməmiş yerindən qalxma.

Möminlərin əmiri (ə) bunu etdi".

Yunusdan, o da Həsəndən rəvayət edir: *"Ömərin yanına altı ayında doğmuş bir qadını gətirdilər. Ömər onun daş-qalaq edilməsinə hökm verdi. Möminlərin əmiri Əli (ə) dedi: "Allahın kitabına əsasən qadının sözünün doğruluğunu qəbul etməlisən. Uca Allah Quranda buyurur:* ***"Hamiləlik və südvermə dövrü otuz aydır".*** *Başqa bir ayədə isə buyurur:* ***"Analar gərək öz övladlarına iki il tamam süd versinlər".***

Qadının iki il südvermə dövrünü 30 aydan çıxdıqda 6 ay qalır ki, bu da hamiləliyin ən qısa dövrüdür".

Ömər qadını azad edərək Möminlərin əmirinin (ə) hökmünə üstünlük verdi. Səhabələr, tabeinlər və digərləri indiyədək bu hökmə əsaslanırlar.

Rəvayət edirlər ki: *"Bir qadın barəsində şahidlik edilib onun ərəblərin su hövzəsində ərindən başqa bir kişi ilə cinsi əlaqə zamanı yaxaladıqlarını bildirdilər. Qadın evli olduğu üçün Ömər onun daşqalaq olunmasını əmr etdi. Qadın isə: "İlahi, həqiqətən də Sən mənim günahsız olduğumu bilirsən!" deyə fəryad etdi. Ömər onun sözlərini eşidib qəzəbləndi və yüksək səslə: "Bu qadın hələ şahidləri yalan şahidlikdə ittiham edir?!" dedi.*

Bu zaman Möminlərin əmiri (ə) buyurdu: "Onu geri qaytarın və nə baş verdiyini soruşun. Bəlkə özünə haqq qazandıracaq bir səbəbi var".

Qadını geri qaytarıb hadisənin necə baş verdiyini soruşdular. O dedi: "Ərimin dəvələri var. Mən onun dəvələrini çölə çıxarmış, özümlə su da götürmüşdüm. Ərimin dəvələrindən heç biri süd vermirdi. Bu ərəfədə başqa bir kişi də öz dəvələri ilə hərəkət edirdi. Onun dəvələri süd verirdilər.

Mənim suyum bitdi, həmin kişidən mənə su verməsini xahiş etdim. Lakin o suyu yalnız bir şərtlə verəcəyini söylədi. Şərti isə mənim onunla yaxınlıq etməyim idi. Mən imtina etdim. Ancaq susuzluqdan ölmək təhlükəsini hiss etdikdə məcbur qalıb onunla yaxınlığa razı oldum".

Möminlərin əmiri (ə) dedi: "Allahu Əkbər! ***"Lakin naəlac qaldıqda zorla mənimsəmədən və həddi aşmadan məcbur olan kimsənin heç bir günahı yoxdur".***[1261]

Ömər bunu eşidib qadını azad etdi".[1262]

İhsan Zahirin bu məsləhət və qəzavətləri öz iddiasına dəlil göstərməsi yanlışdır. Çünki:

[1261] Bəqərə, 173

[1262] əl-İrşad, Şeyx Müfid, c. 1, s. 204-206

Birinci: Məsləhət və qəzavətlər yalnız məhdud və müəyyən bir hallarda İslamın paklığını qorumaq üçün baş verirdi. İmam (ə) İslamın ciddi təhlükələrlə üzləşdiyini, bəzi kəslərin cahilliyi və savadsızlığı səbəbindən İslam hökmlərinə müxalif zorakı və ədalətsiz hökmlər verildiyini gördükdə məsələyə müdaxilə edirdi. İmam (ə) bu rəftarı ilə onların cahilliyini ifşa edir və həqiqi hökmü bəyan edirdi.

İmam (ə) bunları bəzən könüllü şəkildə deyil, ondan israrla tələb olunduqda məsələləri bəyan edir, hökmlərini bildirir və ya aralarında ədalətlə hökm edirdi. Bütün bunlar onların dəvəti ilə baş verirdi ki, buna da onları yaranmış zərurət sövq edirdi. Çünki ilk iki xəlifənin siyasəti Möminlərin əmirinin (ə) hər hansı adda olursa-olsun, İslam hakimiyyətindən uzaq tutulmasına əsaslanırdı. Bu səbəbdən də, özündən əvvəlki xəlifələrin hakimiyyəti 23 ilə qədər davam etsə də, İmamın (ə) onlara məsləhətləri və ya qəzavətləri barədə tək-tük rəvayətlər zikr olunub.

İsbatına göz yummaqla, İhsan Zahirin sadaladığı dəlillərə nəzər salsaq, Ömərin farslarla, gah rumlularla savaşa getdiyi zaman İmam Əli (ə) ilə məsləhətləşməsini görərik. İmam (ə) da onu bu işdən çəkindirmiş, məsləhətli, cəsur və təcrübəli adamları savaşa göndərməyi tövsiyə etmişdi. Çünki Ömər özü şəxsən getdiyi təqdirdə bu onun öldürülməsinə, müsəlman qoşununun məğlubiyyətinə və İslamın təhlükəyə düşməsinə səbəb olardı. Belə ki, Ömər fars və Bizans kimi qüdrətli, bir çox savaşlarda iştirak etmiş və geniş təcrübəsi olan ordular qarşısında müsəlman əsgərlərə başçılıq etmək qabiliyyətinə sahib deyildi. Şübhə yox idi ki, onun şəxsən orduya başçılığı İslam ordusunu zəiflədəcək və nəticədə pərəm-pərəm salacaqdı. Digər tərəfdən, o, İslam dövlətinin rəhbəri olaraq qətlə yetirildikdə bu, dövlətin müxtəlif nahiyələrində üsyanlara səbəb olacaq, farsların və rumluların əlinə geniş fürsət verəcək, onları xilafətin üzərinə hücum çəkib İslamın kökünü kəsməyə cürətləndirəcəkdi.

Xüsusilə də, Əbu Bəkrə beyət toplayarkən, eləcə də Əbu Bəkrin xilafəti Ömərə verməsi zamanı Ömərin istifadə etdiyi zorakı üslublar, müsəlmanların arasında yaranan narazılıqlar, baş qaldıran etirazlar, Əbu Bəkrə *"Sən bizim üzərimizə kobud və qəddar bir kəsi xəlifə qoyursan"* demələri, şübhəsiz ki, Ömərin öldürülməsi fürsətini əldən verməyəcəklərinə işarə edirdi. Bu isə müsəlmanların parçalanması, bir-birinə silah qaldırması ilə nəticələnəcəkdi. Ona görə də İmam Əli (ə) Ömərə getməməsini məsləhət görür.

Əgər bunları bir kəlimə ilə xülasə şəkildə ifadə etmək istəsək deyərik: Ömər İslam hökumətini bir nəfərin əlində cəmlənmiş hakimiyyətə çevirmişdi. Belə hakimiyyətlər də həmin şəxsin ölümü ilə çökür və parçalanaraq müxtəlif kiçik dövlətlərə bölünür, yaxud da böyük dövlətlərin şikarına çevrilir.

İmamın (ə) müəyyən vaxtlarda verdiyi hökmlər də bu cürdür. Necə ki, hamilə, yaxud altı ayında uşaq doğmuş və ya zinaya məcbur edilən dəvə sahibi qadının daşqalaq edilməsi ilə bağlı verdiyi hökmlərdə bunu görürük. Bütün bunlar insan həyatının və onun ehtiramının qorunması ilə bağlı əhəmiyyətli məsələlər idi. Uca Allah buyurur: ***"Kim bir şəxsi diriltsə, sanki, bütün insanları diriltmiş kimidir".***[1263]

Eləcə də ehtiyatsızlıqdan qadının körpəsinin düşməsi ilə bağlı hökmdə oldu kimi. Belə ki, istəmədən uşağın düşməsinə səbəb olmaq, qatilin məsuliyyət daşımayacağı demək deyil. Burada diyə kimi müəyyən borclar həmin şəxsin boynuna düşər.

Əgər İmam Əli (ə) bu məsələlərə müdaxilə edərək düzgün hökmü bəyan etməsəydi, həmin yanlış hökmlər bu günümüzə qədər icra olunacaqdı. Necə ki, belə hallar Ömər hökm verərkən bəzən Möminlərin əmiri Əli (ə) düzgün hökmü bəyan etmək üçün orada olmamış və ya orada olsa da, rəyi soruşulmamış, nəticədə həmin hökm icra olunmuş və bu gün də İslam hökmü kimi istifadə edilməkdədir. Bunu Peyğəmbər (s) sünnəsində olan mütə nikahı barədəki

[1263] Maidə, 32

hökmdə də müşahidə edirik. Lakin Ömər camaatı ondan çəkindirmiş, haram etmiş və bunu edən şəxsləri də cəzalandırmışdı.[1264] Bu gün də o (Əhli-Sünnənin hökmlərində) haram edilib və onu edən şəxslər alçaldılır.

İkinci: Əgər İhsan Zahirlə məntiq dili ilə danışsaq (əgər belə bir dil ona fayda verəcəksə) deyərik: məşvərət, hökm və qəzavət məsələlərinin baş verib-vermədiyinin isbatına göz yumsaq, ortaya çıxan sual belə olacaq: Möminlərin əmiri Əli (ə) bunu niyə edirdi?

Bu suala bir neçə cavab verilib. Onlardan əsası:

1. Bu məsələlər yalnız İslamın əsası ilə bağlı bəzi həssas hökm və qəzavətlərlə məhdudlaşıb. İmam (ə) müdaxilə etməsəydi, bu, İslamın gücünü zəiflədəcək, müsəlmanların birliyini parçalayacaq və ya etiqad, əhkam və əxlaqla bağlı bir çox ilahi təlimləri aradan aparacaq, müvafiq olaraq bu da haqq təlimlərin sırasına müəyyən təhrifləri daxil edəcəkdi. O səbəbdən də, İmamın (ə) onlara verdiyi məsləhətlər, etdiyi qəzavətlər heç də özündən əvvəlkilərin hakimiyyətinin haqq olduğunun etiraf deyil, İslamın qorunması üçün atılmış addımdır.

Şiələr İmamın (ə) bu müdaxilələrinin üzərindən örtüyü qaldıracaq bir çox rəvayətlər nəql ediblər. Həmin rəvayətlərdə də məsələnin ilk iki xəlifə və ya onların xilafəti ilə bağlı deyil, məhz İslamla əlaqəli olduğu bildirilir. Bu rəvayətlər də həmin iştirakın yalnız İslamın və müsəlmanların əsas məsələləri ilə bağlı bəzi həssas hökm və qəzavətlərlə məhdudlaşdığını göstərir. Necə ki, bunu Səqəfinin yuxarıdakı rəvayətində də görürük: *"...Mən əl saxladım. Həmin məqama Peyğəmbərdən (s) sonra xilafəti əlinə almış kəsdən özümü daha layiq bilirdim. Allah*

[1264] Beyhəqi "Sünən"də Əbu Nəzrəyə, o da Cabirə (r) istinadən rəvayət edir: *"Dedim: "Zübeyrin oğlu mütə nikahından çəkindirir, İbn Abbas isə icazəli bilirdi. Cabir dedi: "Hadisənin necə baş verdiyinə şahidəm. Biz Peyğəmbərlə (s) təmättö həccini yerinə yetirərək, mütə edirdik. Habelə Əbu Bəkrin dövründə də belə idi. Ömər hakimiyyətə gəldikdə camaata xütbə edərkən dedi: "Peyğəmbər (s) həmin peyğəmbər, Quran da həmin Qurandır. Peyğəmbər (s) zamanında iki mütə var idi ki, mən onları qadağan edirəm, bu işi görənləri cəzalandıracağam. Bunlardan biri qadınların mütəsidir... Digəri isə Həcc mütəsidir. Həccinizi Ümrədən ayırın..."*

Sonra Beyhəqi deyir: "Bunu Müslim "Səhih"də Himama istinadən başqa cəhətdən rəvayət edib". (əs-Sünənul-kubra, c. 7, s. 206)

dilədiyi qədər bu işdən çəkindim. Camaatın arasında İslamdan dönmək barədə səslər yüksəldiyini gördüm. Onlar Allahın dini, Muhəmməd (s) və İbrahimin ümmətini aradan aparmaq istəyirdilər. Qorxdum ki, əgər İslama və əhlinə yardım etməsəm sonradan onlarda böyük yarıqlar və dağıntılar görəcəyəm. Nəticədə bu, qısa dünya günlərində bərqərar olacaq vilayət haqqımın aradan getməsindən daha böyük müsibətlər yaradacaq. Ardınca əldə edilənlər bir ilğım və ya bulud kimi yox olacaq. Həmin vaxt Əbu Bəkrin yanına gedib beyət etdim, təhlükəli hadisələrin qarşısını almaq üçün qalxdım. Nəticədə batil puç olub aradan getdi və kafirlər istəməsə belə Allahın sözü ən üstün oldu".[1265]

Nəticə: Belə məsələlərdə İmamın (ə) iştirakının əsas səbəbi İslam və müsəlmanların vəhdətidir. İmam Əli (ə) camaatın İslamdan döndüyünü, dini aradan aparmaq barədə səslər yüksəldiyini və kütlənin Əbu Bəkrə beyətə axışdığını gördükdə, Ömərin şəxsən Fars və Bizansla savaşa getməsinin müsəlman ordusunun xeyrinə olmadığını düşündüyü, eləcə də xilafət üzərinə silahlı üsyanın və xəlifənin qətlə yetirilməsinin gələcəkdə əsla bağlana bilməyəcək bir şər qapısını açacağına əmin olduqda Peyğəmbərin (s) iki reyhanı – Həsən və Hüseyni (Allahın salamı olsun onlara!) xəlifənin qapısına keşikçi olaraq göndərdiyi kimi digər məsələlər barədə də özündən əvvəlki xəlifələrlə müzakirələrdə iştirak etmişdir. Bütün bunların səbəbi isə həmin hakimiyyətlərin qanuniliyinə olan əqidəsi deyil, yalnız İslam və müsəlmanların qorunması idi.

2. Bu müdaxilə və iştirakların arxasındakı əsas amil özündən əvvəlki xəlifələrin hakimiyyətinin qanuniliyidir. Bu, İhsan Zahirin və onun kimilərin düşüncəsidir. Lakin bunun heç bir dəlili yoxdur. Haqqı əsla əvəz edə bilməyəcək boş bir zəndən ibarətdir. İhsan Zahirin dəlili də məhz zənnə söykənən bu iddiadır.

[1265] əl-Ğarat, İbrahim ibn Muhəmməd Səqəfi

“Ən yaxşı qəzavət edənimiz Əlidir”

İhsan Zahir İmam Əlinin (ə) Ömərin xilafəti dövründəki qəzavətlərini dəlil kimi göstərdikdən sonra deyir: **“Bütün bu qəzavətlərində Ömər Əlinin verdiyi hökmlərə əsaslanıb və onun sözlərini icra etdirib. Belə ki, şiə rəvayətlərinə əsasən, Ömər deyib: “Bizim ən yaxşı qəzavət edənimiz (qazımız) Əlidir”.**[1266]

Bu söz yanlışdır, İhsan Zahirin öz həvayə-nəfsinə uyğun “dəlillərdən” savayı heç nəyi görmədiyini və məlumatının azlığını aşkar edir. Belə ki, Ömərin bu sözünü böyük Əhli-Sünnə hədis hafizləri və hədisşünasları rəvayət ediblər. Aşağıda rəvayətin nəql yollarına qısaca işarə edirik:

1. Buxari “Səhih”də Səid ibn Cübeyrin vasitəsilə İbn Abbasdan nəql edir: *“Ömər (r) dedi: “Ən yaxşı qarimiz Übey, ən yaxşı qazımız (qəzavət edənimiz) Əlidir...”*[1267]

Əhməd ibn Hənbəl bunu Səid ibn Cübeyrə və onun da İbn Abbasa bir neçə səhih istinadları ilə rəvayət edib.[1268]

Təbərani “əl-Möcəmul-övsat”da Əbu Fərvə Müslim ibn Salimin vasitəsilə rəvayət edir: *“Əbdürrəhman ibn Əbu Leylanın belə dediyini eşitdim: “Ömərin belə söylədiyini eşitmişəm: “Ən yaxşı qəzavət edənimiz (qazımız) Əlidir”.*[1269]

2. Hakim Əlqəmənin vasitəsilə Abdullah ibn Məsuddan rəvayət edir: *“Biz söhbət edərkən Mədinə əhlinin ən yaxşı qəzavət edəninin Əli ibn Əbu Talib (ə) olduğunu söyləyərdik”.* Ardınca Hakim deyir: *“Bu, Buxari və Müslimin şərtinə əsasən səhih hədisdir, ancaq öz kitablarında rəvayət etməyiblər”.*[1270]

Həmçinin bunu İbn Həcər “Fəthul-Bari”də Bəzzardan nəql edib.[1271]

[1266] əl-Əmali, Tusi, c. 1, s. 256, Nəcəf çapı

[1267] Səhih, Buxari, c. 4, s. 1628, hədis 4211, ***“Bir ayəni nəsx etsək və ya unutdursaq, ondan daha yaxşısını gətirərik”*** ayəsi barədə fəsil

[1268] Müsnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 113, hədis 21122, 21123, 21124, “Bəsrəlilərin müsnədi”.

[1269] əl-Möcəmul-övsat, Təbərani, c. 7, s. 357, hədis 7721

[1270] əl-Müstədrəku ələs-Səhiheyn, Hakim Nişapuri, c. 3, s. 145, hədis 4656

[1271] Fəthul-Bari, İbn Həcər, c. 8, s. 167, rəqəm 4211

3. Beyhəqi Muhəmməd ibn Süleymandan, o da Raqəbədən nəql edir: *"Yezid ibn Əbu Müslim Həccacın yanından çıxdı. Həmin vaxt əmir qəzavət etmişdi. Şəbi ona dedi: "Hökm necə oldu?" O dedi: "Kişinin payı kişiyə, qadının payı da qadına çatdı".*

Şəbi dedi: "Bədr əhlindən olan şəxsin qəzavətidir bu".

Dedi: "O kimdir?"

Şəbi dedi: "Sənə deməyəcəyəm".

Yezid ibn Müslim dedi: "Səni Allaha möhkəm and verirəm, onun kim olduğu söylə".

Şəbi dedi: "Bu, Əli ibn Əbu Talibdir (r)".

Ravi deyir: "Yezid ibn Müslim Həccacın yanına girib bunu ona söylədi. Həccac dedi: "Doğru deyir. Vay olsun sənə, Əlinin qəzavətinə də əks getməliyik məgər? Biz Əlinin onların arasında ən yaxşı qazı olduğunu bilirik".[1272]

Əhli-Sünnənin bir çox hədis hafizi və hədisşünası bu sözləri Peyğəmbərdən (s) nəql ediblər. Onlardan bəzisinə işarə edirik:

4. Tirmizi, Nəsai, İbn Macə, Əhməd ibn Hənbəl, İbn Həbban Əbu Qilabənin vasitəsilə Ənəs ibn Malikdən, o da Peyğəmbərdən (s) nəql edir: *"...Onların (səhabələrin) ən yaxşı qəzavət edəni Əlidir".*[1273]

Albani İbn Macənin,[1274] Şüeyb Arnavut Əhməd ibn Hənbəlin[1275] və İbn Həbbanın[1276] nəql etdikləri rəvayətin sənədinin səhih olduğunu bildiriblər.

[1272] Sünənul-kubra, Beyhəqi, c. 10, s. 269, hədis 21085

[1273] Sünən, Tirmizi, c. 5, s. 665, hədis 3791, "Muaz ibn Cəbəl, Zeyd ibn Sabit, Übey, Əbu Übeydə ibn Cərrah" babı; əs-Sünənul-kubra, Nəsai, c. 5, s. 67, hədis 8242, "Ubey ibn Kəb" babı; Sünən, İbn Macə, c. 1, s. 55, hədis 154; Səhih, İbn Həbban, c. 16, s. 74, hədis 7131, s. 85, hədis 7137, s. 238, hədis 7252; Müsnəd, Əhməd ibn Hənbəl, c. 3, s. 281, hədis 14022

[1274] Sünən, İbn Macə, c. 1, s. 55, hədis 154, Muhəmməd Fuad Əbdülbaqinin şərhləri və Albaninin hədislərlə bağlı hökmləri ilə

[1275] Müsnəd, Əhməd ibn Hənbəl, c. 3, s. 281, hədis 14022, "Müsnədu bəsriyyin", Şüeyb Arnavutun hədislərlə bağlı hökmlərilə

[1276] Səhih, İbn Həbban, c. 16, s. 74, hədis 7131, s. 85, hədis 7137, s. 238, hədis 7252, Şüeyb Arnavutun hədislərlə bağlı hökmlərilə

5. Təbərani "əl-Möcəmus-səğir"də Muhəmməd ibn Münkədirin vasitəsilə Cabir ibn Abdullah Ənsaridən, o da Peyğəmbərdən (s) belə buyurduğunu nəql edir: *"Ümmətimin ən yaxşı qəzavət edəni Əli ibn Əbu Talibdir".*[1277]

Bunu ondan Heysəmi "Möcəmuz-zəvaid"də iki fərqli sənədlə nəql edib. Onlardan birinin ardınca: *"Sənədi həsəndir",* digərinin ardınca isə: *"Orada Mundəl ibn Əli var, o, zəifdir, bəziləri etibarlı (siqə) hesab ediblər"*.[1278]

6. Əbdürrəzzaq Müəmmərin vasitəsilə Asim ibn Süleymandan, o da Əbu Qilabədən rəvayət edir. Müəmmər Qətadənin belə dediyini eşitdiyini rəvayət edir ki, Peyğəmbər (s) buyurub: *"Onların (səhabələrin) ən yaxşı qəzavət edəni Əlidir".*[1279]

İbn Həcər bunu "Fəthul-Bari"də Müəmmərin vasitəsilə Qətadədən, o da Peyğəmbərdən (s) rəvayət edir və ardınca deyir: *"Bunu eynilə "Fəvaid"də tam sənədlə Əbu Səid Xudridən rəvayət etmişik".*[1280]

7. Əhməd ibn Hənbəl Harisə ibn Muzrəbin vasitəsilə Əlidən (r) nəql edir: *"Peyğəmbər (s) məni Yəmənə göndərdi. Mən isə aralarında qəzavət edəcəyim camaatın məndən daha yaşlı olduqlarını söylədim. Buyurdu: "Get, həqiqətən də Uca Allah sənin dilini sabitləşdirəcək və qəlbini yönəldəcək".*[1281] *Şüeyb Arnavut hədisin hökm ilə bağlı deyir: "Sənədi səhihdir, raviləri etibarlıdır (siqələrdir), Harisə ibn Muzrəbdən savayı hamısı Buxari və Müslimin raviləridir".*[1282]

Nəticə: Ömər ibn Xəttabın *"Ən yaxşı qəzavət edənimiz Əlidir"* sözü Buxarinin "Səhih"ində və digər kitablarda bir çox səhih sənədlərlə rəvayət edilib. Nəinki, hətta bir çox mötəbər yollarla Peyğəmbərin (s) də dilindən nəql olunub. Bununla İhsan Zahirin **"Belə ki, şiə rəvayətlərinə əsasən, Ömər deyib: "Bizim ən yaxşı**

[1277] əl-Möcəmus-səğir, Təbərani, c. 1, s. 335, hədis 556

[1278] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 243, hədis 14930

[1279] əl-Müsənnəf, Əbdürrəzzaq, c. 11, s. 225, hədis 20387

[1280] Fəthul-Bari, İbn Həcər, c. 8, s. 167, rəqəm 4211

[1281] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 88, hədis 666

[1282] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 88, hədis 666, hədislərə Şüeyb Arnavutun hökmlərilə

qəzavət edənimiz (qazımız) Əlidir" sözünün saxtalığı məlum olur. Hədislər mövzusunda bəhs edən bir şəxsin bundan bixəbər olması necə mümkündür?!

Burada həmin hədisin verdiyi mənalara toxunmaq istəmirik. Belə ki, bu hədisin böyük dəlalətləri var. Məlum məsələdir ki, ümmətin başçısının qəzavət etmək üçün halal, haram və şəriət hökmləri kimi elmlərə mütləq ehtiyacı var. Bu rəvayət ümmətin arasında Peyğəmbərdən (s) sonra İmam Əlinin (ə) ən elmli şəxs olduğuna şahidlik edir. Əbdürrəzzaq Vəki ibn Cərrahdan, o da Şərikdən, o da Əbu İshaqdan rəvayət edir ki, Peyğəmbər (s) canının bir parçası olan qızı Fatiməyə (ə) buyurdu: *"Səni elə bir şəxslə evləndirmişəm ki, səhabələrimdən İslamı qəbul edən ilk şəxs, onlardan ən elmlisi və ən çox helmə sahib olanıdır".*[1283]

Əhməd ibn Hənbəl və Təbərani Məqil ibn Yəsarın[1284] vasitəsilə nəql ediblər. Onlardan da Heysəmi "Məcməuz-zəvaid"də nəql edərək ardınca deyir: "Bunu Əhməd və Təbərani rəvayət ediblər. Orada Xalid ibn Təhman var. Onu Əbu Hatəm və digərləri etibarlı sayıblar. Digər ravilər də etibarlıdırlar (siqədirlər)".[1285]

İbn Əbu Hədidin rəvayəti

İbn Əbu Hədid Fələstin savaşı və Beytül-müqəddəsin fəthi mövzusundakı sözlərində deyir: *"Bu, Fələstin savaşıdır ki, həmin vaxt Beytül-müqəddəs də fəth olunmuşdu. Bunu Əbu Cəfər Muhəmməd ibn Cərir (ibn Yezid) Təbəri öz "Tarix"ində qeyd edərək yazır: "Ömər Şama doğru hərəkət etdikdə Əlini (ə) Mədinədə öz yerinə müvəqqəti xəlifə təyin etdi. Əli (ə) ona dedi: "Özün irəli getmə, düşmən qaniçən, qəddar və təhlükəlidir". Ömər dedi: "Həqiqətən də, indi ordu ilə döyüşməklə mən*

[1283] əl-Müsənnəf, Əbdürrəzzaq, c. 5, s. 490, hədis 9783, Fatimənin evləndirilməsi

[1284] Müsnəd, Əhməd ibn Hənbəl, c. 5, s. 26, hədis 20322; əl-Möcəmul-kəbir, Təbərani, c. 20, s. 229, hədis 538

[1285] Məcməuz-zəvaid, Heysəmi, c. 9, s. 123, hədis 14595

Abbasın ölümünü qabaqlamaq istəyirəm. Əgər siz Abbasdan məhrum olsanız və ya onu itirsəniz, hörülmüş ipin çözüldüyü kimi şər sizə üz verəcək".[1286]

İhsan Zahirin bu rəvayəti öz iddiasına dəlil göstərməsi yanlışdır. Belə ki, İbn Əbülhədidin sözləri üzərində saxtakarlıq edib. İbn Əbülhədid kitabda bu mətni Təbərinin "Tarix"indən nəql etdiyini aydın şəkildə bəyan edir. Təbərinin "Tarix"i isə Əhli-Sünnənin ən mühüm tarix mənbələrindən biridir. Zəhəbi və başqaları[1287] onu tərifləmişlər. Lakin İhsan Zahir İbn Əbülhədiddən nəql edərkən dürüst davranmayıb və onun mətnindən *"...Bunu Əbu Cəfər Muhəmməd ibn Cərir (ibn Yezid) Təbəri öz "Tarix"ində qeyd edərək yazır:.."* sözlərini çıxarmışdır. Bununla da İbn Əbülhədidin şiə alimlərindən olduğu xülyasını əsas götürərək, Təbərinin sözlərini öz iddiasına "dəlil" şəklinə saldığını düşünmüşdür.

Hazırkı mətn Təbərinin "Tarix" əsərindəndir. Sizə həmin kitabdakı mətni və barəsində deyəcəyimiz sözləri təqdim edirik:

Təbəri "Tarix" kitabında yazır: *"Ədiy ibn Səhl deyir: "Şam əhli Ömərdən fələstinlilərə qarşı yardım istədikdə, o, Əlini (Mədinədə) başçı qoyaraq onlara yardım üçün yola çıxdı. Əli dedi: "Özün niyə gedirsən, həqiqətən düşmən qaniçən, qəddar və təhlükəlidir". Ömər dedi: "Həqiqətən də, indi ordu ilə döyüşməklə mən Abbasın ölümünü qabaqlamaq istəyirəm. Əgər siz Abbasdan məhrum olsanız və ya onu itirsəniz, hörülmüş ipin çözüldüyü kimi şər sizə üz verəcək".*[1288]

Bu rəvayət sənədsizdir (mürsəldir).

[1286] Şərhu Nəhcül-Bəlağə, İbn Əbülhədid, c. 8, s. 298

[1287] Tarixul-uməmi vəl-muluk, ("Tarixu Təbəri" kimi məşhurdur), Əbu Cəfər Muhəmməd ibn Cərir ibn Yezid Təbəri. Zəhəbi onun tərcümeyi-halında yazır: "Muhəmməd ibn Cərir ibn Yezid Təbəri – böyük imam və təfsirçi. Künyəsi Əbu Cəfərdir. Mükəmməl əsərlərin müəllifidir. Hicri tarixilə 310-cu ildə vəfat edib. Etibarlı, dürüst şəxs olub. Azca şiələrə meylli olub. Ancaq onlarla dostluq etmək zərərli deyil... İbn Cərir etimadlı böyük İslam imamlarındadır..." (Mizanul-itidal, c. 3, s. 499)

İbn Əsir onun barəsində deyir: "Tarixi hadisələri nəql etməkdə ən etibarlı şəxsdir". (əl-Kamilu fit-tarix, c. 3, s. 263)

[1288] Tarix, Təbəri, c. 3, s. 104

Bunu İbn Əsakir Şüeyb ibn İbrahimdən, o da Seyf ibn Ömərdən, o da Əbu Zəmrə Abdullah ibn Müstəvriddən, o da atasından, o da Ədiy ibn Səhldən nəql edib.[1289]

Sənədi Şüeyb ibn İbrahim səbəbilə zəifdir. Çünki o, məchul[1290] şəxsdir. Seyf ibn Ömər də zəifdir, onun etibarlı (siqə) olduğunu heç kəs söyləməyib.[1291] Əgər onun şəxsi keyfiyyətləri tərəfdən deyil, yalnız rəvayət cəhətdən zəif olduğu deyilsə, cavab budur ki, İhsan Zahirin təmsil etdiyi məzhəbin alimləri tarixi mətnləri yalnız hədis tələblərinə əsaslanıb istifadə edirlər. Bu qaydaya uyğun olaraq Vaqidi, Kəlbi və Əbu Mixnəf kimi bir çox şəxsi, görkəmli tarixçilər olmalarına baxmayaraq, zəif hesab etmiş və rəvayətlərini qəbul etməmişlər. Səbəb isə rəvayətlərdə onları zəiflədən sözlərin olmasıdır.[1292]

Tarixçilərin sözləri

İbn Kəsir yazır: "İbn Cərir (r) deyir: *"Həmin ilin Məhərrəm ayının ilk günündə Ömər ordu ilə birlikdə Mədinədən çıxdı və Sirar deyilən bir su mənbəyinin yanına yetişdi. İraqla döyüşdə şəxsən iştirak etmək üçün orada hərbi düşərgə saldı. Mədinədə isə Əli ibn Əbu Talibi başçı qoymuşdu. Osman və böyük səhabələr Ömərə yoldaşlıq edirdilər. Verdiyi qərar barədə səhabələrlə məşvərət etmək üçün bir məclis topladı və namazın bütün camaatın iştirakı ilə qılınacağını bildirdi. Əlinin ardınca adam göndərib onu da Mədinədən çağırdı. Onlarla məsləhətləşdi, Əbdürrəhman ibn Ovfdan savayı hamı İraqla savaşa şəxsən özünün getməsi barədəki qərarı ilə razılaşdı. O, Ömərə dedi: "Qorxuram ki, əgər məğlub olsan, dünyanın digər yerindəki müsəlmanlar zəifləyəcəklər. Düşünürəm ki, öz yerinə başqa adamı göndərib özün*

[1289] Tarixu mədinəti Diməşq, İbn Əsakir, c. 26, s. 372
[1290] Mizanul-itidal, c. 2, s. 275; Lisanul-mizan, c. 3, s. 145; əl-Kamil, c. 4, s. 4
[1291] Təhzibul-kəmal, Mizzi, c. 12, s. 326-327
[1292] Bax: Təhzibul-kəmal, c. 26, s. 180-195

Mədinəyə qayıdasan". Bu vaxt camaat İbn Ovfun fikrinin düzgünlüyü barədə danışmağa başladı. Ömər dedi: "İraqa kimi göndərməyimi təklif edirsən?" Dedi: "Sən özün onu tapmısan". Ömər onun kim olduğunu soruşduqda İbn Ovf dedi: "Caynaqlı aslan Səd ibn Malik Zühri". Ömər onun fikrini bəyəndi, Sədin ardınca adam göndərib İraqla savaşa başçılıq etməsini buyurdu. Sonra isə ona tövsiyə edərək dedi: Ey Səd..."

Dedilər: "Səd üç min nəfəri yəmənli, min nəfəri isə digər camaatdan olan ordu ilə İraq tərəfə yolladı. Ordunun sayının altı min olduğu da deyilir. Ömər Sirardan ta Əvəzədək onları müşayiət etdi. Sonra orada camaatın arasında xütbə söyləməyə başladı və dedi: "Həqiqətən də Uca Allah kitabında sizin üçün..."

Səd İraqa tərəf hərəkət etdi, Ömər və onunla birlikdə olan müsəlmanlar isə Mədinəyə qayıtdılar".[1293]

Təbərinin "Tarix"indəki sözlərini sizə təqdim edirik: *"Sonra on dördüncü il daxil oldu, Məhərrəm ayının ilk günü Səriyin Şüeybdən, onun da Seyfdən, onun da Muhəmməd, Təlhə və Ziyada istinadən mənə yazdığına görə, Ömər yola çıxdı və Sirar adlanan su hövzəsinin yanında hərbi düşərgə saldı. Camaat onun hərəkətə davam edib-etməyəcəyini bilmirdi. Ondan bir şey haqqında soruşmaq istədikdə onları Osmanın və ya Əbdürrəhman ibn Ovfun yanına göndərirdi. Ömərin xilafəti dövründə Osman "Rədif" (növbəti) olacağı iddia edilirdi.*

Deyirlər: Ərəb dilində "Rədif" bir şəxsdən sonrakı adamdır. Ərəblər bunu başçılarından sonra özlərinə rəhbər olacağını düşündükləri şəxs üçün də istifadə edirlər.

Əgər bu ikisi həmin məsələni bilməsəydi üçüncü şəxsin – İbn Abbasın yanına göndərərdilər.

Osman Ömərə dedi: "Sənə nə xəbər çatıb, nəyi camaata xəbər vermək istəyirsən?"

Camaat namazı üçün nida olundu. İnsanlar toplaşdıqda onlara xəbərləri çatdırdı. Ardınca camaatın nə dediyinə qulaq asmağa başladı. Ümumi kütlə "Hərəkətə davam et və bizi də özünlə apar" deyirdi. Ömər onlarla həmfikir oldu və

[1293] əl-Bidayətu vən-nihayə, İbn Kəsir, c. 7, s. 42-43

onları qoyub getmək istəmədi, silahlanmalarını və hazırlaşmalarını söylədi. Dedi: "Bundan üstün rəy olmasa mən yola düşürəm. Ardınca rəy əhlini topladı. Peyğəmbər (s) əshabının ən hörmətli şəxsləri və ərəblərin ən elmliləri cəm oldular. Dedi: "Mən yola düşəcəyəm, siz öz rəyinizi bildirin".

Onlar toplandılar, bəziləri Peyğəmbər (s) əshabından bir nəfəri göndərməsi, Ömərin özünün burada qalması və həmin şəxsi orduya başçılıq etməsi barədə həmfikir oldular. Ömər fəthin gerçəkləşməsini istəyirsə, onların və ya özünün istədiyi şəxsi təyin etsin. Ya da o şəxsi geri qaytarıb, yeni ordunu döyüşə göndərsin. Bu addım düşməni qəzəbləndirəcək və müsəlmanları aramlaşdıracaq. Nəticədə Allah Öz vədini yerinə yetirərək qələbəni nəsib edəcək.

Ömər camaatı namaz üçün topladı. Camaat cəm oldu. Mədinədə öz yerinə naib qoyduğu Əlini (ə) çağırtdı, o da gəldi. Həmçinin önə göndərdiyi Təlhənin də ardınca ada göndərib geri qaytartdı. Sağ və solunda Zübeyr və Əbdürrəhman ibn Ovf oturmuşdu. Ayağa qalxıb dedi: "Uca Allah insanları İslamda bir yerə cəmlədi, onların qəlblərini bir-birinə yaxınlaşdırdı, onları bir-birilərinə qardaş etdi. Müsəlmanlar bir bədən kimidirlər, onun bir üzvünə toxunan şey bütün bədənində hiss edilir. Həmçinin layiqdir ki, müsəlmanlar öz işlərini aralarındakı rəy əhli ilə məsləhətləşib həyata keçirsinlər. Camaat da onların həmfikir və razı olduqları həmin rəyə tabe olmalıdır. Həmçinin hərbi məsələlərlə bağlı da beladir.

Ey camaat, mən də sizdən bir idim. Lakin rəy əhli məni şəxsən döyüşə getməkdən çəkindirdi. Mən də arxada qalıb döyüşə başçılıq üçün bir nəfəri göndərməyi düşünürəm. Bu məsələ ilə bağlı önə göndərdiyimi və arxada naib qoyduğumu da buraya çağırmışdım".

Onun Mədinədə naib qoyduğu Əli, öndən Əvəzə göndərdiyi isə Təlhə idi. Onların hər ikisini də çağırmışdı".[1294]

[1294] Tarix, Təbəri, c. 3, s. 302

İbn Kəsir yazır: *"Beytül-Müqəddəs Ömərin əli ilə fəth olundu. Bunu Əbu Cəfər ibn Cərir Təbəri Seyf ibn Ömərin həmin illə bağlı rəvayətindən nəql edir. Onun və digərlərinin qeyd etdiklərinin xülasəsi belədir:*

Əbu Übeydə Dəməşqdə işi başa vurub Əylə əhalisinə məktub yazaraq onları Allaha və İslama dəvət etdi. Qəbul etməyəcəkləri təqdirdə ya cizyə vermələrini, ya da savaşa hazırlaşmalarını bildirdi. Onun tələblərini qəbul etmədilər. Öz ordusu ilə onların üzərinə hərəkətə başladı, Dəməşqdə isə Səid ibn Zeydi başçı təyin etdi.

Beytül-Müqəddəsi mühasirəyə aldı və onları çətinliyə saldı. Nəhayət onlar bir şərtlə sülhə razı olacaqlarını bildirdilər. Bu şərt isə möminlərin əmiri Ömərin şəxsən onların yanına gəlməsi idi.

Əbu Übeydə bunu Ömərə yazdı. Ömər camaatla məşvərət etdi. Osman onları zəlil etmək və alçaltmaq üçün getməməyi söylədi. Əli ibn Əbu Talib isə onların yanına gedib müsəlmanların mühasirəsinin onlara göstərdiyi təzyiqi yüngülləşdirməyi məsləhət gördü. Ömər Əlinin məsləhətini bəyəndi, Osmanın sözlərini isə xoş görmədi. Ordu ilə Beytül-Müqəddəsə tərəf yola düşdü və Mədinədə Əli ibn Əbu Talibi özünün naibi qoydu. Abbas ibn Əbdülmüttəlib öndə gedirdi. Şama yetişdikdə Əbu Übeydə və Xalid ibn Vəlid, Yezid ibn Əbu Süfyan kimi ordu başçıları onu qarşıladılar..."[1295]

Təbəri yazır: "Səriyin Şüeybə, onun da Seyfə, onun da Əbu Osmana, Əbu Harisəyə və Rəbiə istinadən mənə yazdığı məktubda deyilir: "Ömər səhabələrlə Əylə istiqamətində yola çıxdı. Əlini Mədinədə öz yerinə naib qoymuşdu. Məntəqəyə yaxınlaşdıqda yoldan kənarlaşdı, xidmətçisi də onun ardınca gedirdi. İdrar etdi, qayıtdıqda xidmətçisinin dəvəsinə mindi. Onun dəvəsinin üzərində əksinə çevrilmiş dəri var idi. Ömər öz dəvəsini isə xidmətçisinə verdi. İnsanlar onu qarşıladıqda möminlərin əmirinin harada olduğunu soruşdular. O, özünü nəzərdə tutaraq "Qarşınızdadır" dedi. Camaat onu ötüb irəliyə doğru getdi. Ömər isə Əyləyə daxil

[1295] əl-Bidayətu vən-Nihayə, İbn Kəsir, c. 7, s. 64-65

olub dəvəsindən endi və onu qarşılayan camaata "Möminlərin əmiri Əyləyə daxil olub, artıq dəvəsindən enib" dedikdə, onu ötüb keçmiş camaat geri qayıtdı".[1296]

Bütün bunlar İhsan Zahirin **"Tarixçilər qeyd edirlər ki, Ömər Əlini üç dəfə möminlərin paytaxtında öz yerinə naib olaraq təyin edib. Bu, hicri-qəməri təqvimi ilə 14-cü ildə İraqa hücum edərkən, 15-ci ildə bizanslılarla (rumlularla) savaşa gedərkən (əl-Bidayətu vən-nihayə, İbn Kəsir, c. 7, s. 35, 55, Beyrut çapı; Tarix, Təbəri, c. 4, s. 159, Beyrut çapı) və 17-ci ildə Əyləyə tərəf qoşunla hərəkət edərkən (Təbəri) baş verib"** sözləri ilə işarə etdiyi tarixçilərin sözləridir.

İhsan Zahir adəti üzrə bu sözlərdə də saxtakarlığa əl atıb:

Hicrətin 14-cü ilində İraqla savaşda şəxsən orduya başçılıq etmək üçün yola düşərkən İmam Əlini (ə) öz yerinə Mədinədə naib qoyduğunu İbn Kəsirdən rəvayət etməsində yanlışlıq var. Belə ki, orada İbn Kəsirin Təbəriyə istinadən nəql etdiyi ilə bağlı sözlərini pozmuşdur: *"İbn Cərir (r) deyir: "Həmin ilin Məhərrəm ayının ilk günündə Ömər ordu ilə birlikdə Mədinədən çıxdı və Sirar deyilən bir su mənbəyinin yanına yetişdi. İraqla döyüşdə şəxsən iştirak etmək üçün orada hərbi düşərgə saldı. Mədinədə isə Əli ibn Əbu Talibi başçı qoymuşdu".*

Təbəri isə bu sözləri Şüeybdən, o da Seyfdən nəql edir: *"Sonra on dördüncü il daxil oldu, Məhərrəm ayının ilk günü Səriyin Şüeybdən, onun da Seyfdən, onun da Muhəmməd, Təlhə və Ziyada istinadən mənə yazdığına görə, Ömər yola çıxdı və Sirar adlanan su hövzəsinin yanında hərbi düşərgə saldı".*

Hicrətin 15-ci ili Ömər Bizansla savaşa gedərkən İmam Əlini (ə) Mədinədə naib qoyduğu ilə bağlı İbn Əsir və Təbəridən nəql etdiklərinə gəldikdə, orada da saxtakarlıq etmişdir. Belə ki, rəvayətin Təbəridən nəql olunduğu ilə bağlı giriş sözlərini kəsmişdir: *"İbn Kəsir yazır: "Beytül-Müqəddəs Ömərin əli ilə fəth olundu. Bunu Əbu Cəfər ibn Cərir Seyf ibn Ömərin həmin illə bağlı rəvayətindən qeyd edir".*

[1296] Tarix, Təbəri, c. 3, s. 164

İhsan Zahirin hicrətin 17-ci ilində Ömər Əylə istiqamətində yola çıxarkən İmam Əlini (ə) Mədinədə öz yerinə qoyduğu iddiasına gəldikdə, o, burada da saxtakarlıq edərək, rəvayətin Şüeybdən, onun da Seyfdən nəql olunduğunu qeyd etməmişdir: *"Təbəri yazır: "Səriyin Şüeybə, onun da Seyfə, onun da Əbu Osmana, Əbu Harisəyə və Rəbiə istinadən mənə yazdığı məktubda deyilir: "Ömər səhabələrlə Əylə istiqamətində yola çıxdılar. Əlini Mədinədə öz yerinə naib qoymuşdu".*

Buna əsasən, iddia olunan mənbələr bütünlüklə Təbərinin Şüeybdən, onun da Seyfdən nəql etdiyi "Tarixut-Təbəri" kitabındakı mətnlərdir. Burada tarixçilərin sözləri deyil, bircə Təbərinin Şüeyb və Seyfdən nəql etdiyi yeganə rəvayətdən söz gedir. Bunu Təbəriyə istinadən İbn Kəsir də öz kitabında rəvayət edib və mətnin əvvəlində sözlərin Təbəriyə aid olduğunu aydın şəkildə bildirib. Təbərinin "Tarix" əsərinin Əhli-Sünnənin nəzərində ən əhəmiyyətli tarix mənbələrindən olduğunu əvvəldə qeyd etmişdik. Zəhəbi və digərləri də onun barəsində tərif dolu sözlər söyləyiblər. Rəvayətin nəql olunduğu Şüeyb məchul şəxsdir, Seyf isə zəif ravidir. Bəzilərinin onu tarix və seyr məsələlərində tərifləmələri də burada fayda vermir. Belə ki, İhsan Zahirin təmsil etdiyi məzhəb hədislə tarixi rəvayətlərin arasında fərq qoymur, hədis qaydalarını (rical və mətn baxımından) onlara da şamil edir.[1297]

[1297] Vəhhabi kitab müəlliflərinin öz iddialarına şiə kitablarından dəlil göstərməkdəki acizlikləri onları belə rəzil və rüsvayçı yola əl atmağa vadar edir. Onlar bu cür batil və puç dəlillərlə oxucuda guya şiələrin mənbələrindən dəlil göstərdikləri təəssüratını yaratmaq istəyirlər. Lakin bunların böyük əksəriyyəti saxtakarlıq və iftiralardan ibarətdir. Bunun səbəbi isə həmin mənbələrdə iddialarına uyğun dəlillərin olmamasıdır. Çıxış yolunu Əhli-Sünnə mənbələrinə üz tutmaqda görürlər. Bunu vəhhabi müəllif Əli Salus özünün "Məə isna əşəriyyə fil-usul vəl-furu" kitabında da etiraf edir: "Onların əsasən Əhli-Sünnənin səkkiz kitabına: "Muvatta", Əhməd ibn Hənbəlin Müsnəd"i, Buxari və Müslimin "Səhih"ləri və dörd "Səhih" kitablara istinad etdiklərini gördüm... Amma Cəfərilərin özləri Əhli-Sünnənin kitablarına etimad bəsləmirlər. Mən onların mənbələrinə nəzər saldıqda, kitablarının yalnız öz əqidələrinə uyğun və onunla əlaqədar toplandığını gördüm". (c. 1, s. 16)

“Nəhcül-Bəlağə”dəki mətn

Seyyid Rəzi deyir: *“Osmanın qətlindən sonra ona beyət edilmək istəyərkən söylədiyi sözlərdəndir: “Məndən əl çəkib başqasını istəyin. Müxtəlif sifətləri və rəngləri olan bir işlə qarşılaşırıq ki, ürəklərin ona dözümü yoxdur və ağıllar onun yükünü çəkməyəcəklər. Üfüqləri qara bulud bürüyüb, aydın yol dəyişib.*

Bilin ki, mən sizin dəvətinizi (beyətinizi) qəbul etsəm, özümün bildiyim kimi rəftar edəcəyəm. Və (xəlifəliyi qəbul edib işə başlasam) danışanın sözünə, məzəmmət edənin qınağına qulaq asmayacağam. Əgər məni tərk etsəniz (xəlifə seçməsəniz), sizdən (insanlardan) biri kimi olaram və bəlkə də, sizin (haqsız xəlifənin nalayiq rəftarları barədə) sözlərinizə daha çox qulaq asaram (və hüququnuzu qoruyaram), özünüzə vali və hakim etdiyiniz şəxsin (İslamın buyurduqlarına uyğun əmr versə) əmrlərini daha yaxşı yerinə yetirərəm. (Buna görə də) mənim sizə vəzir olmağım, xəlifə olmağımdan daha yaxşıdır”.[1298]

Bu xütbənin məzmununa və deyildiyi zaman kəsiminə diqqət yetirən şəxs sözlərin beyət üçün gəlmiş insanlar qarşısında höccətin tamamlanması olaraq söylədiyini anındaca anlayacaq. İmam (ə) bu insanları iki seçim qarşısında qoyur: ya onların beyətini qəbul edəcək; bu da qeyd etdiyi şərtlərə əsasən: “*Bilin ki, mən sizin dəvətinizi (beyətinizi) qəbul etsəm, özümün bildiyim kimi rəftar edəcəyəm. Və (xəlifəliyi qəbul edib işə başlasam) danışanın sözünə, məzəmmət edənin qınağına qulaq asmayacağam”.* Yaxud da başqasına beyət edərək həmin şəxsə ən itaətkarı olacağını bildirir;

Bu xütbənin ehtiva etdiyi cümlələrin əsas mənası budur ki, İmam (ə) öz sözləri ilə həmin camaata xilafətə rəhbərliyə görə kiminsə sözünü və ya şərtini qəbul etməyəcəyini bildirir. Əksinə, Allahın ona bəxş etdiyi elm, hikmət və ədalətlə... davranacaq. Ya bununla razılaşıb beyət edəcəklər, ya da beyət üçün başqasını

[1298] Nəhcül-Bəlağə, xütbə 91 (90), c. 1, s. 171-172, Muhəmməd Əbdəhin təhqiq və şərhi ilə

axtaracaqlar. Onların beyət edəcəyi şəxsə isə birliklərini pozmamaq üçün özü də beyət edəcək.

Tarixi mənbələrdəki beyət hadisəsini nəql edən sözlər İmam Əlinin (ə) həmin zaman camaatın qəlbindəkiləri dəqiqliklə oxuduğuna şahidlik edir. Xilafətə rəhbərliyi qəbul etməsi üçün irəli sürdüyü şərtlərə, camaatın da öz seçimi və razılığı ilə bu beyəti qəbul etməsinə baxmayaraq, onun ədalətli idarəçiliyi onlara dar gəldi və ona qarşı beyətlərini pozub üsyan etdilər. Bunu Peyğəmbər (s) də ona (ə) xəbər vermişdi. Hakim Möminlərin əmiri Əliyə (ə) istinad edilən rəvayətində deyir: *"Peyğəmbərin (s) mənə verdiyi xəbərlərdən biri də özündən sonra ümmətin mənə qarşı çıxacağı idi".* Sonra Hakim Nişapuri deyir: *"Bu, sənədi səhih hədisdir, lakin Buxari və Müslim öz kitablarında qeyd etməyiblər".*[1299] Zəhəbi də "ət-Təlxis"də[1300] onunla razılaşıb.

Buradan da İhsan Zahirin sözlərinin saxtalığı aydın olur: **"Məhz buna görə, camaat Əliyə beyət etmək istəyərkən o: "Mənim sizin üçün vəzir olmağım, xəlifə olmağımdan daha yaxşıdır" deyir, bu sözləri ilə Əbu Bəkrin, xüsusilə də, Ömərin xilafəti dövründəki vəzirliyinə işarə edir".**

İhsan Zahirin iddiası bir çox iddiaları kimi dəlilsiz və qeybdən söylədiyi sözlərdir. Belə ki, İmam Əli (ə) həmin sözü Osmanın qətlindən sonra camaatın beyət üçün hüzuruna gəldiyi vaxt höccəti tamamlamaq üçün söyləyib.

İmamın (ə) və övladlarının Ömərin bayrağı altında vuruşması, ondan qənimət, hədiyyə, cariyə və əsirləri qəbul etmələri

Mühəddis Qummi özünün farsca olan "Tətimmətul-müntəha" kitabında deyir: *"Buradan da aydın olur ki, İsfahan əhalisi İmamiyyə şiələri deyildilər. Başqa bir tərəfdən də, məlum olur ki, onlar nasibi və inad əhli idilər. Demək, İsfahan əhalisini məzəmmət xarakteri daşıyan hədislər də həmin zamana şamil olur. Onlardan biri*

[1299] əl-Müstədrəku ələs-Səhiheyn, c. 3, s. 150, hədis 4676

[1300] əl-Müstədrəku ələs-Səhiheyn, c. 3, s. 150, hədis 4676, Zəhəbinin "ət-Təlxis"dəki şərhlərilə

Peyğəmbərin (s) bu sözləridir: "İsfahanlılar nicat tapmayacaqlar..." Bu və digər buna bənzər sözlər. Bunlar həmin zamanın əhlinə aid idi. Çünki sonrakı dövrlərdə, xüsusilə də, Səfəvi zamanından ta dövrümüzədək, Allaha həmd olsun ki, İsfahan İslamın qübbəsi, iman əhlinin axışdığı yer, elm və təhsil mərkəzidir. Burada adlarını sayıb qurtara bilməyəcəyim bir çox böyük və şərafətli alimlərin qəbirləri yerləşir. Həmçinin burada, Mizarın şərq hissəsində, Fazil Hindinin qəbrinin yaxınlığında "Yerin dili" ("Lisanul-ərz") adlanan məscid də yerləşir. Yerli əhali deyir ki, həmin müqəddəs məkan İmam Həsən Müctəba ilə (ə) dil açaraq danışmışdır. Hadisə Ömərin xilafəti dövrü İmamın (ə) müsəlman qoşunu ilə fəth üçün buradan keçərkən baş vermişdi. Ona görə də həmin məkana "Yerin dili" deyilib".[1301]

İhsan Zahirin bu sözlərdən dəlil kimi istifadə etməsi yanlışdır. Çünki bu mətndə Şeyx Qummi öz sözlərini yalnız İsfahan əhalisinə istinad edir, onların da əvvəllər müxalif və hətta nasibilərdən olduğunu bildirir. Sonra orada şiəlik yayılmış və nəticədə Əhli-Beytin (ə) tərəfdarlarına çevriliblər. Mühəddis Qummi bunları onların şiə olmasını, (mətnə əsasən) məscidlərindən birini İmam Həsənlə (ə) danışdığına görə "Yerin dili" adlandırdıqlarını bəzi İsfahan əhlinin dilindən nəql edib. Lakin alimlərin arasında bir iddianın isbatına və ya təsdiqinə bu tip rəvayətləri dəlil göstərmək əsla düzgün deyil. Təhqiq əhli qarşısında belə sözlərin dəlil kimi etibarı yoxdur. Mühəddis Qummi isə bunu İsfahan əhalisinin Əhli-Beytlə (ə) olan əlaqəsini izhar etmək üçün hekayə edir. İhsan Zahir isə öz adəti üzrə, mətnin bu hissəsindən sözləri silərək, bunu kamil bir rəvayət kimi oxucuya təqdim edir. Təhqiqat əhlinə belə bir hekayəni dəlil göstərmək olduqca gülünc və təəccüblüdür!

İhsan Zahir *"...özü, oğulları və yaxınları Ömərin bayrağı altında savaşlarda iştirak etmiş, Ömərdən döyüş qənimətləri, hədiyyələr, cariyələr və əsirlər qəbul etmişlər. Əgər o hakimiyyətə haqsız gəlmişdisə və onun hakimiyyəti qeyri-qanuni*

[1301] Tətimmətul-müntəha, s. 433-435, Sadiq Həsənzadənin təhqiqi ilə, "Muminun" nəşriyyatı, Qum, IV çap

idisə, o zaman onun bayrağı altında savaşmaq da cihad sayılmaz, cariyə və əsirlər qanuni olmaz, onları qəbul etmək də düzgün sayılmazdı.

Buna baxmayaraq, şiə mənbələrində Peyğəmbər (s) nəvəsi Həsən ibn Əlinin (r) Ömərin xilafəti zamanı İrana yürüş üçün təşkil etdiyi orduda onun bayrağı və başçılığı altında savaşdığı qeyd edilir" sözlərinə isə heç bir dəlil təqdim etmir.

İhsan Zahirin bu cümlələri tapmaca xarakterlidir. Belə ki, iddiasına ən azından bir zəif şiə rəvayətini səhifədəki şərhlərdə belə qeyd etməyib. Əgər əvvəlki rəvayətlərə istinad edibsə, biz onlara cavabımızı bildirmişik. Həmçinin Ömərin və ya hər hansı başqa bir şəxsin bayrağı altında döyüşmək həmin şəxsin hakimiyyətinin qanuniliyini təsdiq etməz. Bu cür müharibələrdə iştirak İslamı qorumaq və s. səbəblərlə bağlı ola bilər.

Bundan əlavə, əgər Əhli-Beyt (ə) üzvlərindən kiminsə İmam Əlinin (ə) xilafətindən əvvəlki hökumətlər zamanı müsəlmanların savaşlarında iştirakı isbat olunsa belə, bu, İmamın (ə) aşağıdakı sözünün məqsədini daşıyacaq: *"...onların üzərinə müharibə görmüş igidlərdən göndər. Döyüşün bəla və çətinliklərinə taqəti olan, öyüd-nəsihət eşidənləri onunla yola sal".*

Bu sözlərin Öməri tənqid etdiyini, əsla tərif xarakteri daşımadığını əvvəldə qeyd etmişik. Həmin kəlmələrdən aydın olur ki, İmam Əli (ə) Öməri müharibə və onun çətinliklərini görmüş igidlərdən, döyüş təcrübəsi və orduya başçılıq xüsusiyyətlərinə sahib şəxslərdən hesab etmirdi. Ona görə, savaşa qeyd etdiyi vəsflərə uyğun bir şəxsi göndərməsini məsləhət bilir. İmam Həsən Müctəba (ə) isə həmin bu vəsfləri özündə toplayan şəxslərdən idi. İslama yaranmış xarici təhlükələrin qarşısında Allahın dinini qorumaq əvəzinə, onların çəkilib bir kənarda durması əsla düşünülməz. Həmin rəvayət Peyğəmbər (s) Əhli-Beytinin (ə) üzvlərinə birbaşa şamildir. Onlar fərd olaraq heç kimin sahib olmadıqları məziyyətlərə malik idilər. Müsəlmanların idarəçiliyindən kənarlaşdırılmalarına rəğmən, onlar İslamın, İlahi təlimlərin və müsəlmanların vəhdətinin qorunması,

buna yönəlmiş hər bir təhdidin qarşısını almaq üçün məsləhətlər verir, müəyyən məsələlərdə yaxından iştirak edirdilər.

Nəticə: İhsan Zahir (yalnız Mühəddis Qumminin İsfahan əhalisindən hekayə etdiyi sözlər istisna olmaqla) İmamın (ə) və övladlarının Ömərin bayrağı altında vuruşmasına, ondan qənimət, hədiyyə, cariyə və əsirləri qəbul etməsinə heç bir dəlil göstərmir, boş iddialar irəli sürür. Axı İmam Əlinin (ə) Ömərin xəlifəliyinin qanuni hesab etdiyinə hansı dəlili təqdim edə bilər?!

İkinci fəsil: Ümmü Külsümün evlilik hekayəsi

Burada bir neçə məsələ var:

Birinci məsələ: Ümmü Külsümün Ömərlə izdivacı Əhli-Beyt (ə) rəvayətlərində

İkinci məsələ: Ümmü Külsümün Ömərlə izdivacı barədə şiə alimlərinin sözləri

Üçüncü məsələ: Ümmü Külsümün Ömərlə izdivacı Əhli-Sünnə rəvayətlərində

Giriş

Möminlərin əmiri Əlinin (ə) qızı Ümmü Külsümün Ömərlə evlilik məsələsi İslamın ilk əsrlərindən bəri alim və mütəfəkkirlərin mübahisə mövzusu olub. Bu barədə Şeyx Müfid (r) kimi qədim şiə alimləri də bəhs ediblər. Belə ki, o, "əl-Məsailus-sərəviyyə" kitabının onuncu və "əl-Məsailul-ukbəriyyə" kitabının beşinci bəhsini bu məsələyə həsr edib. Seyyid Mürtəza isə bu mövzuya aid xüsusi bir kitab qələmə alıb,[1302] həmçinin "əş-Şafi"[1303] və "Tənzihul-ənbiya"[1304] kitablarında bu barədə bəhs edib. Eləcə də bu, bir çox başqa alimlərin bəhs və təhlil mövzusu olub. Onunla bağlı ya xüsusi kitablar qələmə alıblar, ya da digər bəhslərin müzakirəsi çərçivəsində ona toxunublar.

Bütünlüklə olmasa da, bu bəhslərin əksəriyyəti Əhli-Sünnə alimlərinin Ömərin Əhli-Beytlə (ə) xoş əlaqələrinə sübut kimi təqdim etdikləri iddialara cavab olaraq qeyd edilib. Ömərin Əhli-Beytə (ə) qarşı düşmənçiliyi, onlarla sərt rəftar üslubu, Peyğəmbər (s) ailəsinin onun iştirakından narahatlığı və təhqir üçün Əhli-Beyti (ə) ittiham etməsi ilə bağlı Əhli-Sünnənin böyük hədis hafiz və imamlarının aydın mənalı qəti dəlilləri və rəvayətləri qarşısındakı acizlikləri səbəbindən bütün bunları ört-basdır etmək üçün bu iddialar ortaya atılmış, öz rəvayətlərini və şiə yolu ilə nəql edilmiş rəvayətləri dəlil olaraq göstərmişlər.

Bu məsələ, özünü şiələrə qarşı dəlillər təqdim etməkdə alimlərin sözləri və rəvayətlərin arasında keçilməz labirintə salmış İhsan Zahirə bir çıxış yolu kimi görünüb. Lakin yenə də sübut və dəlil olaraq zəif, tərk edilmiş və nadir xəbərləri göstərib, saxtakarlıq edib, iftira atıb, haqqı əsla əvəz edə bilməyəcək zənnə əsaslanıb və qeyri-məqbul üslublardan istifadəyə ciddi-cəhdlə davam edib. Həmçinin Dinəvəri, Müvəffəq Xəvarəzmi, Məsudi, İbn Nədim, Əbülfərəc İsfahani, İbn Həcər Mötəzili kimi Əhli-Sünnə alimləri olduğu isbatlanmış şəxslərin

---

[1302] Rəsail, Mürtəza, c. 3, s. 149

[1303] əş-Şafi fil-imamət, Şərif Mürtəza, c. 3, s. 272

[1304] Təhzihul-ənbiya, Şərif Mürtəza, s. 1911

sözlərini şiə adı ilə təqdim edərək iddialarını əsaslandırmağa çalışıb. Bunların Əhli-Sünnə alimləri olduqları barədə dəlilləri əvvəlki bəhslərimizdə təqdim etmişik.

Lakin bütün kitabda itirdiyini, sanki, bu mövzuda tapıb. Mövzu ilə bağlı şiə yolu ilə rəvayətlər nəql edib. Bu rəvayətlər şiə alimləri tərəfindən incə və dəqiq şəkildə təhqiq edilib, bununla bağlı fərqli rəylər bildirilib. Onlardan bir hissəsi belə bir evliliyin ümumiyyətlə baş vermədiyini, bəzilər məcburiyyətdən və ya xüsusi bir məsləhət səbəbindən baş verdiyini və s. qeyd ediblər. İhsan Zahir də bunu ən gözəl şəkildə istifadə etməyə çalışıb, öz adəti üzrə müqabillərinə xitabda bütün hədləri aşıb. Yaqubinin "Tarix"indən, Şeyx Kuleyninin "Kafi" kitabından, Şeyx Tusinin "Təhzibul-əhkam"ından, eləcə də şiə alim və fəqihlərindən bu nikahın baş verdiyinə dəlalət edən mətn, rəvayət və fikirləri qeyd etdikdən sonra deyir: ***"...və bunlardan savayı, sayılması mümkün olmayan bir çox alimlər. Bu evliliyin baş verdiyini yalnız təkəbbürlü cahil və inadkar inkar edə bilər"***.[1305]

Məsələ ilə bağlı həssaslığımızı və verəcəyi hökmü nəzərə almadan, mövzunu sırf elmi ruhda və bir neçə məsələ çərçivəsində təhqiq edəcəyik. Bu barədə deyilmiş və deyilməli olan sözlərlə kifayətlənəcəyik. Belə ki, düşüncə meydanı heç kəsin şəxsi inhisarında deyil və düşünmək qapısı hamı üçün açıqdır. Bu imtiyazı da bizə İslam dini və geniş ünvana malik Qurani-Kərim verib: ***"Həqiqətən, bu Quran (bütün bəşəriyyəti) ən doğru yola yönəldir, yaxşı işlər görən möminlərə böyük bir mükafata nail olacaqları ilə müjdə verir!"***[1306]

Qeyd edəcəyimiz məsələlər bunlardan ibarətdir:

Birinci məsələ: Ümmü Külsümün Ömərlə izdivacı Əhli-Beyt (ə) rəvayətlərində;

[1305] Şiə və Əhli-Beyt, İhsan Zahir, s. 107

[1306] İsra, 9

İkinci məsələ: Ümmü Külsümün Ömərlə izdivacı barədə şiə alimlərinin sözləri;

Üçüncü məsələ: Ümmü Külsümün Ömərlə izdivacı Əhli-Sünnə rəvayətlərində.

Birinci məsələ: Ümmü Külsümün Ömərlə izdivacı Əhli-Beyt (ə) rəvayətlərində

Ömərin Ümmü Külsümlə evlilik məsələləsi ilə bağlı Əhli-Beyt İmamlarından (ə) şiə ravilərin vasitəsilə bir neçə rəvayət nəql edilib. Onların hamısını burada qeyd edəcəyik. Çünki bu rəvayətlər mövzunun təməli və şiə alimlərinin sözlərinin istinad yeridir. Alimlərimiz həmin rəvayətləri ən yüksək səviyyədə araşdırıb, məsələ ilə bağlı rəylərini ortaya qoyublar. Belə ki, alimlərimiz (Allahın rizvanı onlarla olsun!) dəlillərə bağlı şəxslər, sübut və bürhan ardınca gedənlərdir. ***"O kəslərə ki, sözü dinləyib onun ən gözəlinə (düzgününə) uyarlar".***[1307] Onlar nəfslərini haqq ayələrlə (əlamətlərlə) zinətləndirmiş, həvaye-nəfs və vəsvəsələr ardınca getməkdən çəkinmiş, Allahın hidayətindən möhkəm yapışmışlar: ***"Bu (Quran) insanlar üçün bəsirət gözü, (axirətə) tam yəqinliklə inanan bir qövm üçün də hidayət (doğru yolu göstərən rəhbər) və mərhəmətdir!"***[1308]

Sizə bu evliliklə bağlı nəql edilmiş şiə rəvayətlərini təqdim edəcək və onlar barədə deyilməli olan sözləri ərz edəcəyik:

Birinci rəvayət: Şeyx Kuleyninin birinci rəvayəti

Şeyx Kuleyni (vəfatı: h.q 329) "əl-Kafi" kitabında Əli ibn İbrahimdən, o da atasından, o da İbn Əbu Ümeyrdən, o da Hişam ibn Salimdən, o da Həmmaddan, o da Zürarədən, o da Əbu Abdullahdan (İmam Sadiqdən) Ümmü Külsümün izdivacı ilə bağlı belə buyurduğunu nəql edir: *"O bizdən zorla alınmış namusdur (övrətdir)" ("Həqiqətən də bu, bizim qəsb olunduğumuz namusdur (övrətdir)").*[1309]

[1307] Zümər, 18

[1308] Casiyə, 20

[1309] əl-Kafi, Şeyx Kuleyni, c. 5, s. 346, "Ümmü Külsümün evliliyi" babı

Müzakirə

Bu rəvayətin sənədi "həsən"dir. Həmçinin rəvayətin sözlərindən evliliyin baş verdiyi anlaşılır. Lakin İhsan Zahirin bu rəvayəti öz iddiasına dəlil göstərməsi batildir. Çünki söhbətin mövzusu Ümmü Külsümlə Ömərinin evliliyinin baş verib-vermədiyi deyil, bu evliliyin baş vermə şəraiti və məzmunudur. Belə ki, bunu dəlil kimi təqdim edən kəs Əhli-Beytlə (ə) Ömərin arasındakı xoş münasibətləri və qarşılıqlı məhəbbəti isbatlamaq istəyir. Halbuki bu rəvayət aydın şəkildə Əhli-Beytin (ə) bu evlilikdən duyduğu ikrahı bəyan edir və onu qəsb adlandırır. Eynilə bu sözlər Əhli-Beytlə (ə) Ömərin arasında dərin bir uçurumun olduğuna, Ömərin onlara qarşı düşmən mövqeyinə dəlalət edir.

Demək mümkündür ki, rəvayət evliliyin baş verib-vermədiyinə aydın şəkildə dəlalət etmir. Çünki İmamın (ə): *"O bizdən zorla alınmış namusdur (övrətdir)" ("Həqiqətən də bu, bizim qəsb olunduğumuz namusdur (övrətdir)")* sözündə iki məna ehtimal olunur: məlumatlandırma və məzəmmət xarakterli sual:

Birinci: Məlumatlandırma; bu, evliliyin ikrah və məcburiyyətlə baş verdiyini xəbər verir. Belə bir dəlalət isə dostluq əlaqələrinə əsla dəlil ola bilməz.

İkinci: Məzəmmət xarakterli sual; yəni İmamın (ə) qeyd etdiyi sözlər sual əvəzliyi pozulmuş məzəmmət xarakterli sual cümləsidir. Məna isə belədir: Düşünürsünüz ki, "Bu namus (övrət) bizdən zorla alındımı?!" Yəni bu evlilik baş verməyib. Bu, Uca Allahın Qurani-Kərimdəki sözünün məcrasındadır: ***"Boynuma minnət qoyduğun bu nemət də İsrail oğullarını (özünə) qul etdiyinə görədir".***[1310] Yəni, məni himayə edib böyütdüyünü boynuma minnət qoyursan, halbuki sən İsrail övladlarını kölə edib, onları öldürürsən? Bunu nemət sayıb məni nankorluqda ittiham edirsən. Ancaq bu əsla nemət sayılmaz. Çünki sən bunun müqabilində İsrail övladlarını köləyə çevirmisən. Həmçinin İmamın (ə) *"O*

[1310] Şüəra, 22

bizdən zorla alınmış namusdur (övrətdir)" ("Həqiqətən də bu, bizim qəsb olunduğumuz namusdur (övrətdir)") sözü də belədir. Belə olduqda evliliyin baş vermədiyinə dəlalət edəcək. Sanki, İmam (ə) deyir: Ömərin bizə tay ola bilməyəcəyi üçün ona qız verməyimiz mümkün deyil.

İkinci rəvayət: Şeyx Kuleyninin ikinci rəvayəti

Şeyx Kuleyni "əl-Kafi"də həmçinin Muhəmməd ibn Əbu Ümeyrdən, o da Hişam ibn Salimdən, o da Əbu Abdullahdan (ə) belə buyurduğunu rəvayət edir: *"Ömər Ümmü Külsüm üçün elçi düşdükdə Möminlərin əmiri (ə) onun azyaşlı olduğunu söylədi.*

İmam Sadiq (ə) sonra buyurdu: "Ömər Abbas ilə görüşüb dedi: "Nə olub? Məndə hansısa müşkül var?" Abbas dedi: "Nə baş verib?" Ömər dedi: "Qardaşın oğlundan qızını istədim, məni (təklifimi) rədd etdi. Allaha and olsun, Zəm-zəmi (daş və torpaqla) dolduraram, sizin üçün bir ehtiram saxlamaram, bütün hörmətinizi məhv edərəm! Onun (İmam Əlinin) oğurluq etdiyinə dair iki şahid gətirib sağ əlini kəsdirərəm!"

Abbas İmam Əlinin (ə) yanına gəlib hadisəni ona danışdı və evlilik məsələsində qərar verməyi özünə həvalə etməsini istədi, o da razılaşdı".[1311]

Müzakirə

Rəvayətin sənədi "mötəbər"dir. Məzmunundan da evliliyin baş verdiyi anlaşılır. Lakin İhsan Zahirin bu rəvayəti dəlil göstərməsi yanlışdır. Çünki onun iddiasında söhbət evliliyin baş verib-vermədiyindən deyil, Ömərlə Əhli-Beytin (ə) arasındakı məhəbbət və xoş münasibətin isbatından gedir. Halbuki bu rəvayət özündən əvvəlki rəvayət kimi, Əhli-Beytin (ə) bu evliliyə məcbur edildiyinə

[1311] əl-Kafi, Şeyx Kuleyni, c. 5, s. 346, "Ümmü Külsümün evliliyi" babı

dəlalət edir, Ömərin öz məqsədinə çatması üçün təhdid və zorakı amillərə əl atdığını göstərir. Bu isə onların arasındakı əlaqələrin zəif və kövrəkliyinin, Ömərin onlara qarşı rəftarında hər bir vasitəyə əl atmağa hazır olduğunun sübutudur.

Bundan əlavə, rəvayətdə aydın şəkildə Ömərin Abbasla gördükdə İmam Əlinin (ə) onun təklifini rədd etdiyini söylədiyi bildirilir. Səbəb kimi isə Ümmü Külsümün azyaşlı olduğunu irəli sürür. Ardınca isə Ömər bunun baş verməyəcəyi təqdirdə Əhli-Beytə (ə) qarşı təhdidlər səsləndirir. Abbas Ömərin təhdidlərini İmam Əliyə (ə) xəbər verərək bu məsələdə onu vəkil etməsini istəyir. İmam (ə) da işi ona həvalə etməyə razılaşır.

Lakin İmam Əlinin (ə) Ümmü Külsümün yaşının az olmasını üzr kimi göstərməsi, bir bəhanə deyil, tam həqiqət idi. Belə ki, o, həmin vaxt həddi-buluğ yaşına çatmamışdı. Qarşıdakı rəvayətlərdə bunu qeyd edəcəyik.

İmamın (ə) bu evliliyə qarşı olması təkcə Ömərə olan şəxsi münasibəti səbəbindən deyildi ki, bu da təhdid və şiddət nəticəsində həll edilsin. Ümmü Külsümün yaşının azlığı təklifin rədd edilməsində ən əsas səbəb idi. Bu isə heç bir təhdid və şiddətlə aradan qaldırıla bilməzdi. İmam Əlinin (ə) nəzərində Ümmü Külsüm azyaşlı olduğu üçün evliliyə münasib deyildi. İmam (ə) kimi bir şəxsin bunu qəbul etməsi mümkünsüzdü. Qarşıya çıxan sual budur: Bəs Abbas həmin məsələni necə həll etdi? Yaşı yetmişi ötmüş, qoca Ömər ən yaxşı halda hələ doqquz yaşına qədəm qoymamış azyaşlı bir qızla evliliyi qəbul etdimi?

Xüsusilə də, İmamın (ə) məsum şəxs olaraq baş verənlərin həqiqətini bildiyi və ictihadla rəy vermədiyini, həmçinin sözünün və hərəkətinin höccət və şəriət olduğunu nəzərə almasaq, daha bir sual doğur: Hər hansı birimiz belə bir vəziyyətlə qarşılaşsaq, hökm nə olar?

Nəticə: Rəvayət bu evliliyin baş verdiyinə dəlalət etsə də, İhsan Zahirin iddiasına dəlil kimi faydasızdır. Çünki burada zor və təhdiddən, Ömərin Əhli-Beyti (ə) razılaşmağa məcbur etdiyindən söhbət açılır. Buna əsasən, belə bir

izdivacın baş verdiyi fərz olunsa da, bu, əsla onların arasındakı xoş əlaqələrin varlığına dəlalət etməyəcək.

Üçüncü rəvayət: Şeyx Kuleyninin üçüncü rəvayəti

Şeyx Kuleyni "əl-Kafi"də Hümeyd ibn Ziyaddan, o da İbn Simaədən, o da Muhəmməd ibn Ziyaddan, o da Abdullah ibn Sinan və Müaviyə ibn Əmmardan, o da İmam Sadiqdən (ə) nəql edir: *"İmam Sadiqdən (ə) əri ölmüş bir qadının ərinin evində, yoxsa istədiyi yerdə iddə saxlaya biləcəyi barədə soruşdum. İmam (ə) buyurdu: "Harada istəsə (iddə saxlaya bilər)". Sonra buyurdu: "Ömər öldükdən sonra Əli (ə) Ümmü Külsümün yanına gedərək onun əlindən tutub öz evinə gətirdi".*[1312]

Eyni rəvayəti Muhəmməd ibn Yəhya və başqaları Əhməd ibn Muhəmməd ibn İsadan, o da Hüseyn ibn Səiddən, o da Nəzr ibn Süveyddən, o da Hişam ibn Salimdən, o da Süleyman ibn Xaliddən nəql edib.[1313]

Müzakirə

Bu rəvayətin də sənədi mötəbərdir və evliliyin baş verdiyini bildirir. Burada məcburiyyətə dəlalət edən bir söz olmasa da, əvvəlki iki rəvayət bunu aydın ifadə etmişdi. Lakin Ömərin ölümünün həmən ardınca İmam Əlinin (ə) onun evinə gedərək Ümmü Külsümün əlindən tutub öz evinə qaytarması bu evliliyin İmam Əli (ə) tərəfindən könül xoşluğu ilə baş vermədiyinə başqa bir işarədir.

İmam (ə) bu məqamda şəri hökmü şəxsən özü icra etmək yolu ilə insanlara isbatlamaq istəyir. Belə ki, müxalif tərəf əri ölmüş qadının yalnız öz ərinin evində iddə saxlamasını vacib sayırdı. İmam (ə) isə bu hökmü ləğv etdi. Nəticədə

[1312] əl-Kafi, Şeyx Kuleyni, c. 6, s. 115; əl-İstibsar, Şeyx Tusi, c. 3, s. 352

[1313] əl-Kafi, Şeyx Kuleyni, c. 6, s. 115-116; əl-İstibsar, Şeyx Tusi, c. 3, s. 352

müxaliflər özləri də İmam Əlinin (ə) Ömər ölərkən qızı Ümmü Külsümün əlindən tutaraq evinə qaytardığını və iddəni də evdə saxladığını dəlil kimi istifadə etməyə başladılar. Bu, onlar üçün əri ölmüş qadının harada istəsə iddə saxlaya biləcəyinə bir dəlil oldu.

Dördüncü rəvayət: Şeyx Tusinin rəvayəti

Şeyx Tusi (vəfatı: h.q 460) "Təhzibul-əhkam"da Muhəmməd ibn Əhməd ibn Yəhyadan, o da Cəfər ibn Muhəmməd Qummidən, o da Qəddahdan, o da İmam Sadiqdən (ə), o da atası İmam Baqirdən (ə) nəql edir: *"İmam Əlinin (ə) qızı Ümmü Külsüm və onun oğlu Zeyd ibn Ömər ibn Xəttab eyni vaxtda vəfat etdilər. Onlardan hansının dünyadan birinci köçdüyü bilinmir ki, biri digərindən miras aparsın. Onların hər ikisinə birgə namaz qılındı".*[1314]

Müzakirə

Bu rəvayət tam şəkildə evliliyin baş verdiyinə dəlalət etsə də, lakin sənəd cəhətdən zəifdir. Belə ki, Qəddah zəif və lənətlənmiş[1315] şəxsdir. Həmçinin Cəfər ibn Muhəmməd Qummi məchuldur,[1316] Muhəmməd ibn Əhməd ibn Yəhyanı isə heç kim etibarlı ravi hesab etməyib.[1317]

Beşinci rəvayət: Şeyx Tusinin "əl-Xilaf"dakı rəvayəti

[1314] Təhzibul-əhkam, Şeyx Tusi, c. 26, s. 313-314, "Eyni vaxtda vəfat etmiş şəxslərin mirası" babı

[1315] ər-Rical, Əbu Davud, s. 282

[1316] Bax: Möcəmur-ricalil-hədis, Seyyid Xoyi, c. 5, s. 70

[1317] Bax: Rical, Nəcaşi, s. 348; İzahul-iştibah, Əllamə Hilli, s. 277; Xuləsətul-əqval, s. 247; Nəqdur-rical, Təfrişi, c. 4, s. 128

Şeyx Tusi "əl-Xilaf"da yazır: *"Əmmar ibn Yasirin belə dediyi rəvayət olunur: "Əlinin (ə) qızı Ümmü Külsümlə xanımın oğlu Zeyd ibn Ömərin cənazəsi götürüldü. Cənazə namazında Həsən (ə), Hüseyn (ə), Abdullah ibn Ömər, Abdullah ibn Abbas və Əbu Hüreyrə iştirak edirdilər. Oğulun cənazəsini (cənazə namazını qılan) imamın qarşısına, qadının cənazəsini isə onun arxasında qoydular. Bunun sünnət olduğunu dedilər".*[1318]

Müzakirə

Bu rəvayət də izdivacın baş verdiyinə tam dəlalət etsə də, lakin mürsəl olduğuna görə zəifdir. Heç bir hədis kitabında bu rəvayət sənədli şəkildə qeyd edilməyib. Bunu yalnız Şeyx Tusi "əl-Xilaf" kitabında birbaşa Əmmar ibn Yasirə istinadən nəql edir. Şeyx Tusi ilə Əmmar ibn Yasirin arasında isə böyük zaman fasiləsi mövcuddur!

Əhli-Beyt (ə) rəvayətləri barədə sözlərin xülasəsi

Şiə mənbələrindəki Ümmü Külsümün izdivac məsələsini araşdıran təhqiqatçı bütün rəvayətlərə nəzər salmalı, onlardan yalnız birini və ya ikisini götürməklə kifayətlənməməlidir. Həmçinin bu zaman rəvayətin sənədinə də ciddi diqqət yetirməlidir. Belə ki, bu rəvayətlərin ayrı-ayrılıqda bir-birindən fərqlənən dəlalətləri ola bilər.

Həmçinin bunları araşdıran şəxs Allahın peyğəmbər seçdiyi kimi, imam da təyin edərək məsum qərar verildiyinə dair şiələrin əqidə əsaslarını həmin rəvayətlərin təhlilində nəzərə almalıdır. Belə ki, bu və digər amillər rəvayətin mənasının anlaşılmasına daxil olmalı və hökmə təsirini göstərməlidir.

[1318] əl-Xilaf, Şeyx Tusi, c. 1, s. 723, 541-ci məsələnin mətnində

Buna əsasən deyirik: Həmin rəvayətlər ən yaxşı halda Ümmü Külsümlə Ömərin izdivacının məcburiyyət və təhdidlə baş verdiyinə dəlalət edir. Ömər bu məqsədlə Əhli-Beytə (ə) ciddi təzyiq göstərmiş, onlara qarşı təhdidlər səsləndirmişdir. Ancaq Əhli-Beyt (ə) bu hədələr qarşısında məğlub olmamış, Abbası məsələyə daxil etmişdir. Abbas da İmamdan (ə) onu vəkil etməsini istədikdən sonra məsələnin həlli ona həvalə olundu. O isə çıxış yolunu Ümmü Külsümün Ömərə verilməsində görüb.

Lakin bu evlilik heç də Ömərlə Əhli-Beytin (ə) arasındakı məhəbbət və xoş münasibətlərə dəlil kimi fayda vermir. Çünki rəvayətlər bu izdivacın Əhli-Beytin (ə) etirazına və ikrahına rəğmən baş tutduğuna dəlalət edir. Ömər öz məqsədinə nail olmaq üçün Əhli-Beyti (ə) hədələmiş və onları cəzalandıracağını vəd etmişdi.

Burada yalnız Ömərin təhdidləri qarşısında Əhli-Beytin (ə) bacardıqları qədər duruş gətirdikləri, sonda isə əlacsız qalaraq Ömərin Ümmü Külsümlə evliliyini qəbul etmələrindən söhbət gedə bilər! Evliliyin baş verdiyi qəbul olunsa belə, bu, onların arasında dostluq münasibətinin izharı kimi dəyərləndirilə bilməz. Belə ki, iddia olunan məsələ izdivacın baş tutub-tutmadığı deyil, onların arasındakı xoş münasibətdir.

İkinci məsələ: Ümmü Külsümün Ömərlə izdivacı barədə şiə alimlərinin sözləri

Şiə alimlərinin Ömərin Ümmü Külsümlə evliliyi məsələsində sözləri fərqli olub. Bəzi alimlər bu evliliyin baş tutmadığını bildirmiş, bir dəstəsi ilə baş tutduğunu təsdiqləmiş, lakin səbəbləri haqqında ixtilaf etmişlər. Onların bir hissəsi bunun məcburiyyətdən baş verdiyinə, digər hissəsi isə İmamın (ə) məsələnin həllini Abbasa həvalə etməsindən sonra Ümmü Külsümün Ömərlə evləndirildiyinə dair fikir irəli sürüblər. Məsələ ilə bağlı ən əhəmiyyətli sözlər bunlardır:

1. Evliliyin baş tutmadığı barədə fikirlər; Qədim alimlərdən bu fikri aydın şəkildə Şeyx Müfid (vəfatı: h.q 413) "əl-Məsailus-sərəviyyə" kitabında qeyd etmişdir: *"Möminlərin əmiri Əlinin (ə) qızını Ömərlə evləndirməsi məsələsi isbat olunmayıb. Rəvayət yolu Zübeyr ibn Bekardandır. O isə rəvayət nəql etməkdə etibarlı şəxs deyil. Nəql etdikləri rəvayətlərə görə ittiham olunan və İmam Əliyə (ə) nifrət bəsləyən şəxs idi. Bəni-Haşim barədə söylədiklərinə inanmaq olmaz. Hədisin isbatı Əbu Muhəmməd Həsən ibn Yəhyanın kitabında nəql etdiyinə əsaslandırılır. Camaatın əksəriyyəti də onun Ələvi bir şəxsdən rəvayət etdiyini zənn edib. Halbuki o da Zübeyr ibn Bekardan rəvayət edir.*

Hədis də öz-özlüyündə ixtilaflıdır. Gah Möminlərin əmiri Əlinin (ə) şəxsən qızını Ömərlə nikahladığı, gah da bunu Abbasın etdiyi rəvayət olunub. Gah da nəql edilir ki, bu nikah Ömər tərəfindən Bəni-Haşimə qarşı ciddi təhdidlərdən sonra baş verib. Başqa bir rəvayətdə isə bunun müstəqil seçimlə və könül xoşluğu ilə gerçəkləşdiyi qeyd edilir.

Bəzi ravilər Ömərin bu evlilikdən Zeyd adlı oğlunun olduğunu söyləyirlər. Bəziləri deyirlər: Ömər Ümmü Külsümlə yaxınlıq etməmiş öldürüldü. Digərləri isə Zeyd ibn Ömərin nəslinin davam etdiyini iddia edirlər. Başqa biriləri isə onun öldürüldüyünü və heç bir övladının olmadığını, digərləri anası ilə oğlunun

öldürüldüyünü, bir dəstə isə oğlunun ölümündən sonra anasının hələ də yaşadığını deyirlər. Onlardan bəziləri iddia edirlər ki, Ömər Ümmü Külsümə qırx min dirhəm mehriyə vermişdir. Başqaları isə bunun dörd min dirhəm və digərləri isə beş yüz dirhəm olduğunu söyləyirlər. Bu ixtilaflar da hədisi batil edən amillərdəndir. Onun heç bir qüvvəsi yoxdur.

Əgər bu evlilik doğru hesab edilsə belə, şiə məzhəbinin Möminlərin əmirindən (ə) öncə olan xəlifələrin zəlalətdə olduqları barədə etiqadına ziddiyyət təşkil etməklə iki yolla izah edilə bilər...”[1319]

2. Evliliyin ikrahla baş verməsi; Qədim alimlərdən bu sözü bəyan edən Seyyid Mürtəzadır (vəfatı: h.q 436). O deyir: *“Ümmü Külsümün bu izdivacında diqqət olunmalı məqam evliliyin ixtiyari seçim və xoşluqla baş vermədiyidir. Təkrar elçiliklər və etirazlardan sonra az qalmışdı ki, (bu məsələ) aşkar münaqişəyə səbəb olsun”.*[1320]

Başqa yerdə isə yazır: “Qızını onunla evləndirməsinə gəldikdə, bu öz seçimi və könül xoşluğu ilə baş verməyib. Bu barədə ixtilaf məşhurdur”.[1321]

Buradakı ikrahda məqsəd batini meylin olmamasıdır.

3. Evliliyin məcburiyyətdən və Abbas tərəfindən həyata keçirilməsi; Qədim alimlərdən bu rəyi Əli ibn Əhməd Kufi (vəfatı: h.q 352) bildirmişdir. O, “əl-İstiğasə” kitabında yazır: *“Ömərin Möminlərin əmiri Əlinin (ə) qızı Ümmü Külsümlə evliliyinə gəldikdə, bunu bizə etibarlı (siqə) şeyxlərimiz danışıblar. Onlardan Cəfər ibn Muhəmməd ibn Malik Kufi Əhməd ibn Fəzldən, o da Muhəmməd ibn Əbu Ümeyrdən, o da Abdullah ibn Sinandan nəql edir: “Deyir: Cəfər ibn Muhəmməd Sadiqdən (ə) Ömərin Ümmü Külsümlə evliliyi barədə soruşdum. Buyurdu: “O bizdən zorla alınmış namusdur (övrətdir)” (“Həqiqətən də bu, bizim qəsb olunduğumuz namusdur (övrətdir)”).*

[1319] əl-Məsailus-sərəviyyə, Şeyx Müfid, s. 86-90

[1320] ər-Rəsail, Seyyid Mürtəza, c. 3, s. 149

[1321] əş-Şafi fil-imamət, Seyyid Mürtəza, c. 3, s. 272

Belə ki, şeyxlərimizin ümumi olaraq bu evlilik haqqında söylədiklərində fikir ayrılığı var. Bir xəbərdə deyilir: "Ömər Abbas ibn Əbdülmüttəlibi Möminlərin əmiri Əli ibn Əbu Talibin (ə) yanına göndərərək Ümmü Külsümlə evlənmək istədiyini bildirdi. Əli (ə) isə bundan imtina etdi. Abbas Əlinin (ə) rədd xəbərini Ömərə çatdırdı. Ömər dedi: "Ey Abbas, (Əli) onu mənimlə evləndirməkdən boyun qaçırır?! Allaha and olsun ki, əgər mənimlə evləndirməsə onu (yəni İmam Əlini) öldürəcəyəm".

Abbas Əlinin (ə) yanına qayıdaraq bu sözləri ona bildirdi. İmam Əli (ə) isə rədd sözünün üzərində durdu. Abbas bunu Ömərə çatdırdıqda o, dedi: "Ey Abbas, cümə günü məsciddə ol və minbərə yaxın yerdə dayan ki, deyilənləri eşidəsən. Biləcəksən ki, əgər istəsəm onu öldürməyə də qadirəm".

Abbas həmin vaxt məscidə gəldi. Ömər xütbəsini bitirdikdən sonra dedi: "Ey camaat, Muhəmməd əshabından olan bir nəfər var ki, zina edib, həmin qadın da əməlisaleh xanımdır. Bundan təkcə möminlərin əmirinin (yəni Ömərin) xəbəri var. Bəs siz nə deyirsiniz?"

Camaat hər tərəfdən səslənməyə başladı: "Əgər möminlərin əmiri bundan xəbərdardırsa, Allahın hökmünü onun barəsində icra etmək üçün başqasının sözünə ehtiyac yoxdur".

Ömər sözünü bitirib aşağı düşdükdə Abbasa dedi: "Əlinin yanına gedib eşitdiklərini ona xəbər ver. Allaha and olsun, əgər razı olmasa dediyimi edəcəyəm".

Abbas Əlinin (ə) yanına gedərək bunları ona çatdırdı. Əli (ə) dedi: "Bilirəm ki, bu onun üçün asan işdir. Mən əsla onun istədiyini etməyəcəyəm". Abbas dedi: "Əgər sən etməyəcəksənsə, mən edəcəyəm. Səni and verirəm ki, mənim sözümə və edəcəklərimə qarşı çıxma".

Abbas Ömərin yanına getdi və bu məsələ ilə bağlı istədiyini yerinə yetirdi. Ömər camaatı toplayıb dedi: "Əli ibn Əbu Talib bu əmisi Abbasa qızı Ümmü Külsümün evlilik məsələsini həvalə edib və onu mənimlə evləndirməyi söyləyib".

Qısa bir müddətdən sonra Abbas onu Ömərlə evləndirdi və ardınca onu Ömərin evinə apardılar".[1322]

Nəticə: Şiə alimlərinin arasında bu izdivacın baş vermədiyini, yaxud da baş verdiyini, lakin ikrah və ya məcburiyyət üzündən baş tutduğunu söyləyənlər var.

[1322] əl-İstiğasə, Əbülqasim Kufi, c. 1, s. 77-79

Üçüncü məsələ: Ümmü Külsümün Ömərlə izdivacı Əhli-Sünnə rəvayətlərində

Ümmü Külsümün evlilik məsələsi əhli-sünnə rəvayətlərində daha geniş yer tutur. Həmin rəvayətlərdə elçilik, mehriyə və s. kimi məsələlərə də toxunulur. Diqqətlə araşdıran şəxsə onların bəzisində Əhli-Beytə (ə) qarşı uydurulan sözlərin qoxusu əsla gizli qalmaz. Bunların hamısını olmasa da, əsas hissəsini mövzu ardıcıllığı üzrə sizin üçün qeyd edəcək, onlara sənəd, dəlalət və məzmun cəhətdən qısaca nəzər yetirəcəyik. Çünki bizim üçün məsələnin yalnız şiə mənbələrinə əsasən öyrənilməsi vacib idi. Lakin burada Əhli-Sünnə rəvayətlərini də qeyd etməyimiz faydasız olmaz. Belə ki, həmin rəvayətlərlə bərabər evlilik hadisəsinin həcmini təsəvvür edə bilərik:

Birinci: Elçiliklə bağlı rəvayətlər

Birinci rəvayət: İbn Sədin "ət-Təbəqat"dakı rəvayəti

Muhəmməd ibn Səd "ət-Təbəqat" kitabında yazır: *"Ənəs ibn İyas Leysi bizə Cəfər ibn Muhəmmədən, o da atasından xəbər verir ki, Ömər ibn Xəttab Əli ibn Əbu Talibin qızı Ümmü Külsümə elçi düşdü. Əli dedi: "Qızlarımı (qardaşım) Cəfərin oğlanları üçün saxlamışam". Ömər "Ya Əli, onu mənimlə evləndir. Allaha and olsun ki, Yer üzündə ona mənim kimi bir yoldaş tapılmaz" dedi. Əli isə razı olduğunu söylədi.*

Ömər Peyğəmbər məscidində qəbirlə minbərin arasında toplaşmış mühacirlərin məclisinə gəldi. Ardınca Əli, Osman, Zübeyr, Təlhə və Əbdürrəhman ibn Ovf gəldilər. Ömər ətraf yerlərdə baş verən hər bir şeyi onlara xəbər verər və onlarla məsləhətləşərdi. (Ancaq bu dəfə) Ömər gəlib "Məni təbrik edin!" söylədi. Onlar da onu təbrik etməyə başladılar. Sonra dedilər: "Ey möminlərin əmiri, kiminlə

evlənirsən?" O, Əli ibn Əbu Talibin qızı ilə evlənəcəyini xəbər verdi və ardınca hadisəni onlara danışmağa başladı. Dedi: "Peyğəmbər (s) buyurub ki, "Qiyamət günü bütün nəsil bağları qırılacaq, yalnız mənim nəslimin bağlarından başqa". Mən də bu məsələdə onun nəslinə bağlı olmaq istədim".[1323]

Rəvayətin sənədinin müzakirəsi

Rəvayət sənədsizdir (mürsəldir), Əhli-Sünnə alimlərinin rical qaydalarına əsasən, sənəddə "çətinliyi" var. Belə ki, rəvayətin sənədində iki ravinin adı yoxdur, rəvayət nəql edilən İmam Muhəmməd Baqir (ə) hicrətin əlli yeddinci ilində Mədinədə dünyaya göz açıb.

Ənəs ibn İyaz Leysi (Əbu Zəmrə Mədəni) barəsində ixtilaf mövcuddur. Bəziləri onu məzəmmət edərək hədislərini pisləmiş, "çox xəta edən", "Onda şamlıların qəfləti var" və "axmaq" kimi vəsf etmişlər. İbn Həcər İbn Sədə istinadən yazır: *"Etibarlı idi, lakin çox xəta edirdi".*[1324] Həmçinin Əbu Davuddan nəql edir: *"Mahmud, eləcə də Mərvan bizə Əbu Zəmrə barədə danışaraq deyiblər: "Onda şamlıların qəfləti var".*[1325] Həmçinin Acirinin Əbu Davuddan, onun da Əhməd ibn Salehdən belə dediyini nəql edir: *"Malikin yanında Əbu Zəmrəni zikr etdilər. Dedi: "Hədisçilərin arasında ondan başqasını görmədim, lakin o, axmaqdır".*[1326]

İbn Əsakir öz "Tarix"ində və Mizzi "Təhzibul-kəmal"da İshaq ibn Mənsurdan, o da İbn Muindən nəql edir: *"Saleh demək olar".*[1327]

Bu rəvayət şiəyə dəlil göstərilə bilməz. Çünki aydın olduğu kimi, Əhli-Sünnənin rəvayətidir. Həmçinin Əhli-Sünnənin özü üçün də dəlil sayılmır. Belə ki,

---

[1323] ət-Təbəqatul-kubra, Muhəmməd ibn Səd, c. 8, s. 463
[1324] Təhzibut-təhzib, İbn Həcər, c. 1, s. 329
[1325] Təhzibut-təhzib, İbn Həcər, c. 1, s. 329
[1326] Təhzibut-təhzib, İbn Həcər, c. 1, s. 329
[1327] Tarixu mədinəti Diməşq, İbn Əsakir, c. 9, s. 330; Təhzibul-kəmal, Mizzi, c. 3, s. 351

mürsəl, hətta müşkülü olan rəvayətdir. Onun sənədində ən azı iki ravinin adı yoxdur. Eləcə də ravilərindən biri Ənəs Leysidir ki, onun barəsində ixtilaf mövcuddur. Onu həm tərifləmiş, həm də pisləmişlər. O, gah etibarlı (siqə), gah salehliyə yaxın şəxs, gah axmaq, gah çox xəta edən və gah da şamlıların qəflətində olan şəxs kimi təqdim edilib.

Ravisi barədə ixtilaf olan rəvayət onların nəzərində etibardan düşməsə də, "həsən" hədis dərəcəsində və "həsən" hədisin də "səhih" hədis kimi dəlil olduğu şübhəsiz olsa da, lakin onların rical qaydasına əsasən, əgər ravinin tənqidi həsəd, ədavət, nifrət, məzhəb fərqliliyi kimi səbəblərə söykənməsə, o zaman onun ədalətinə hökm olunar. Necə ki, buna əsasən, bir ravinin tərifləyənləri və haqq qazandıranları çoxdursa, onu tənqid edən azlığın sözlərinə əhəmiyyət verilməz. Sübki bu qaydanı "Təbəqatuş-şafiiyyə" kitabında iqrar edərək yazır: *"Nəzərimizdə doğru olan budur ki, əgər bir şəxsin imamlığı və ədaləti isbat olunsa, onu tərifləyən və haqq qazandıranlar çoxluqda olsa, az adam onu tənqid etsə və tənqidinə səbəb məzhəb təəssübkeşliyi və s. olsa, bu zaman biz onun barəsindəki tənqidə əhəmiyyət verməz, ədalətli kimi qəbul edərik. Əgər bu belə olmasa və ya tənqidini əsas götürsək, o zaman heç bir imamımız bundan salamat qalmaz. Belə ki, tənqidçilərin hədəfinə çevrilməyən heç bir imamımız yoxdur".*[1328]

Ənəs ibn İyazla onu tənqid edən və ya zəif sayanların arasında məzhəb fərqliliyi, dünyəvi münaqişə, həsəd və ya bu qəbildən hər hansı başqa bir səbəb yoxdur. Belə olduqda, qaydaya əsasən, onun tənqidi ədalətindən öndə tutular.

Rəvayətin dəlalətinin müzakirəsi

Rəvayətin dəlalətinə irad olacaq bir neçə nəzər var. Onlardan yalnız ikisini qeyd edirik:

[1328] Təbəqatuş-şafiiyyə, Əbdülvəhhab ibn Əli ibn Əbdülkafi Sübki, c. 2, s. 3

A. İslam şəriəti evlilik məsələlərinə çox əhəmiyyət vermiş, bununla bağlı qanunlar, şərtlər və ədəblər müəyyən etmişdir ki, bunlar da müqəddəs evlilik əlaqələrinin davamiyyətinə zəmin yaradan amillər sayılır. Bunlardan ən əhəmiyyətlisi evlənən cütlüyün din, əxlaq və xilqət cəhətdən həmtay olması, evlənən xanımın rəyi və evliliyə razılığı və s. məsələlərdir. Səhabələr bu məsələdə hamıdan öndə olmalıdırlar. Belə ki, İslamın evliliklə bağlı qanun, şərt və ədəblərinə riayət etməkdə onlar digərlərindən üstündürlər. Lakin İbn Sədin bu rəvayətində həmin şərtlərin bütünlüklə aradan getdiyini görürük. Eləcə də müsəlmanların rəmzi sayılan Möminlərin əmiri Əli (ə) haqqında çirkin təsəvvür yaradılır: *"...Qızlarımı (qardaşım) Cəfərin oğlanları üçün saxlamışam". Ömər "Ya Əli, onu mənimlə evləndir. Allaha and olsun ki, Yer üzündə ona mənim kimi bir yoldaş tapılmaz" dedi. Əli isə razı olduğunu söylədi".*[1329]

Lakin həmtaylıq məsələsi ifadə edilmədi. Yetmiş yaşını ötmüş, qoca, ömrünün böyük hissəsini küfrdə və yarımadanın bədəvilik həyat tərzi ilə yaşamış, bu səbəbdən, kobudlaşmış və qəddarlaşmış Ömər həddi-buluğa çatmamış, azyaşlı, Peyğəmbər (s) xanədanında tərbiyə almış, pak qucaqlarda böyümüş, babası Peyğəmbər (s), atası Əli (ə), anası Fatimə (ə), qardaşları Həsən (ə) və Hüseyn (ə) olan Ümmü Külsümə həmtay ola bilərmi?!

Məgər Ömər özü Fatimə (ə) üçün elçi düşdükdə, rəvayətə əsasən, Peyğəmbər (s) sadəcə qızının yaşının az olmasını bildirərək onun istəyini geri çevirmədimi? (Qarşıda həmin rəvayətləri qeyd edəcəyik). Halbuki həmin vaxt Xanım (ə) həddi-buluğ yaşında idi. Bəs İmam Əli (ə) bu təklifi qəbul edərkən nə dəyişmişdi ki, onun həddi-buluğa çatmamış, azyaşlı qızı ilə evlənməsinə razılıq verir?!

Ən mühüm sual budur: Niyə Ömər Fatiməyə (ə) elçi düşərkən qızının azyaşlı olmasını Peyğəmbərin (s) səbəb göstərdiyi kimi, İmam Əli (ə) də üzr kimi qeyd etmədi? Məgər yaşı yetmişi ötmüş qoca ilə həddi-buluğa çatmamış azyaşlı qızın evliliyi İslam nəzərində təbii haldırmı?!

[1329] ət-Təbəqatul-kubra, c. 8, s. 463

Həmçinin bu evlilik məsələsində Ümmü Külsümün şəxsi rəyi nəzərə alınmır. Məgər qadının evliliyə razılığı izdivacın düzgünlüyünün şərtlərindən deyilmi?

Bu sözlərə nəzər salan şəxs Ümmü Külsümün İmam Əlinin (ə) kənizi olduğunu zənn edər, Ömər isə, sanki, onu almağa gəlmişdir. Sanki, Ümmü Külsüm heç də Peyğəmbərin (s) canının bir parçası olan Fatimənin (ə) qızı deyilmiş!

Növbəti sual budur: Nə üçün İmam Əli (ə) Ümmü Külsümün fikrini soruşmalı olduğunu söyləmir?

İmam Əli (ə) ilə Ömərin sadə insanlar olmadığı, böyük səhabələr sırasında dayandıqları, onların sözlərinin və rəftarlarının İslamın anlaşılmasında mühüm vasitə olduqlarını nəzərə alsaq (İmam Əlinin (ə) imam və məsum şəxs olduğuna göz yumsaq belə), müqəddəs ailə əlaqələri ilə bağlı İslamın hökmlərinin bu cür çirkin və mənfur şəkildə tapdanmasına və kənara atılmasına nə ad vermək olar?!

Ömər – qoca, yaşı yetmişi ötmüş şəxs – azyaşlı, həddi-buluğa çatmayan Ümmü Külsümə elçi düşür, qızın atası isə bu izdivaca heç bir maneənin olmadığını düşünür, yalnız qardaşının oğlanları üçün qızlarını heç kimlə evləndirməyəcəyini söyləyir. Sonra elçi onu dilə tutur və o da razılaşır. Ancaq bu zaman qızının yaşının azlığı və ya onun fikrinin soruşulması əhəmiyyət kəsb etmir! Aman, İslamın simvollarından olan Möminlərin əmiri Əli (ə) kimi bir şəxsə bu cür iftira İslam düşmənlərinə xidmət və dinə zərbə olmasın?!

B. "ər-Rifa" (evliliklə bağlı təbrik) ərəb dilində "razılaşma", "itifaq" mənasındadır. Əvvəllər evlənmiş kişiyə təbrik olaraq "Bir-rifa vəl-bənin"[1330] (xoşbəxtlik və övlad arzu edirik) deyilərək xitab edilirdi. Bu, cahiliyyə ərəblərinin adətlərindən idi. Bir çox Əhli-Sünnənin böyük hədis hafiz və imamlarının rəvayətlərinə əsasən, İslam bunu qadağan etdi. Bunu Əhməd ibn Hənbəl "Müsnəd"də, Darəmi, İbn Macə və Nəsai öz "Sünən"lərində, Hakim "Müstədrək"də, İbn Əbu Şeybə "əl-Müsənnəf"də rəvayət edirlər: *"Əqil ibn Əbu Talib (r) Bəni-Cəşm qəbiləsindən bir qadınla evləndi. Bir dəstə adam onun evinə*

[1330] əs-Sihah, Cövhəri, c. 1, s. 53; Lisanul-ərəb, c. 1, s. 87; əl-Qamusul-muhit, c. 1, s. 16

gələrək "Bir-rifa vəl-bənin" deyə təbrik etməyə başladılar. Əqil onlara bunu etməmələrini söylədi. Onlar isə "Ey Əbu Zeyd, bəs necə deyək?" soruşdular. Əqil dedi: "Deyin: Allah mübarək etsin! Allah sizi bərəkətli etsin!" Bizə belə əmr olunub".[1331]

Əhməd ibn Hənbəl Abdullah ibn Muhəmməd ibn Əqilin vasitəsilə nəql edib: *"Biz: "Bir-rifa vəl-bənin" dedik. O isə dedi: "Bundan çəkinin və bir daha söyləməyin. Peyğəmbər (s) bizə bunu deməyi qadağan edib və əvəzində "Allah mübarək etsin!", "Allah bərəkətli qərar versin!" deməyi buyurub".*[1332]

İbn Sədin təqdim etdiyimiz rəvayəti isə (mətnindəki həmin kəlmələrə görə) Peyğəmbərin (s) qadağasına aşkar şəkildə müxalifdir. Peyğəmbərin (s) bu əmri mühacirlərdən olan böyük səhabəyə necə gizli qala bilər?!

Bu rəvayətlərdən görünür ki, Peyğəmbər (s) həmin kəlmənin yalnız mənasının deyil, söylənməsini qadağan edib. Deyilə bilməz ki, "Peyğəmbər (s) bu kəlməni başqa, yeni bir mənaya şamil edib. Bu zaman həmin kəlmə bu yeni mənası ilə öz həqiqətində istifadə edilir. Lakin bu, şəri həqiqətidir, lüğəti mənası deyil". Belə ki, bu iddia rəvayətlərin zahiri mənalarına ziddir. Çünki, qadağa həmin sözlərin təkcə mənası ilə deyil, həm də əsli ilə bağlıdır.

Nəticə: İbn Sədin rəvayətinin sənədinə və mətninə diqqət yetirən, onları mülahizə edən şəxsə açıq-aydın uydurma qoxusunu duymaq çətin olmayacaq.

Rəvayətin sənədi Əhli-Sünnə rical qaydalarına əsasən zəifdir. Hətta iki ravinin olmaması cəhətindən mürsəl və müşküllüdür. Eləcə də Ənəs ibn İyaz Leysi baxımından da zəifdir. Onun bəziləri tərifləsə də, bəziləri tənqid etmişlər. Bu məqamda tətbiq ediləcək qayda onun tənqidini tərifindən əhəmiyyətli saymaqdır.

[1331] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 201; c. 3, s. 451; Sünən, Darəmi, c. 2, s. 134-135; Sünən, İbn Macə, c. 1, s. 614-615; Sünən, Nəsai, c. 6, s. 128; əl-Müstədrək, Hakim Nişapuri, c. 3, s. 577, əs-Sünənul-kubra, Beyhəqi, c. 7, s. 148; əl-Müsənnəf, İbn Əbu Şeybə Kufi, c. 3, s. 408; əs-Sünənul-kubra, Nəsai, c. 3, s. 331; c. 6, s. 74

[1332] Müsnəd, Əhməd ibn Hənbəl, c. 1, s. 201, c. 3, s. 451

Həmçinin rəvayətin mətni də qəbuledilməzdir. Belə ki, orada həm Möminlərin əmiri Əli (ə), həm də Ömər tərəfindən şəriət və ədəb qanunlarının kobud şəkildə pozulması müşahidə edilir.

İkinci rəvayət: İbn Sədin "ət-Təbəqat"dakı ikinci rəvayət

Muhəmməd ibn Səd "ət-Təbəqat" kitabında həmçinin rəvayət edir: *"Muhəmməd ibn Əmr və başqaları deyirlər: "Ömər ibn Xəttab Əlinin qızı Ümmü Külsümə elçi düşdükdə Əli onun azyaşlı olduğunu söylədi. Ömər dedi: "Allah and olsun ki, sən buna görə imtina etmirsən. Sənin (bizimlə) hansı müşkülünün olduğunu biz bilirik".*

Əli qızına hazırlaşmasını tapşırdı. Sonra bir üst geyimini büküb ona verərək dedi: "Bunu möminlərin əmirinə apar və de: "Atam məni göndərib, sizə salam deyir və buyurur ki, əgər paltardan xoşu gəldisə, özündə saxlasın, əgər bəyənmədisə geri qaytarsın".

O, gəldikdə Ömər dedi: "Allah səni və atanı mübarək qərar versin! Biz razıyıq".

Ravi deyir: "Ümmü Külsüm atasının yanına qayıdıb dedi: "Parçanı heç açmadı, yalnız mənə baxırdı".

Əli onu Ömərlə evləndirdi, Ömərin ondan Zeyd adlı oğlu dünyaya gəldi".[1333]

Rəvayətin sənədinin müzakirəsi

Bu rəvayətin sənədi mürsəl olduğu üçün zəifdir. Həmçinin ravi Muhəmməd ibn Ömər Vaqidini Buxari və Nəsai "əz-Züəfa" ("Zəiflər") kitabında qeyd edərək "Hədislərinin tərk edildiyini" söyləyiblər.[1334]

[1333] ət-Təbəqatul-kubra, c. 8, s. 464

İbn Həcər Nəsainin "əz-Züəfa" kitabına istinadən yazır: "Peyğəmbərə (s) yalan istinad etməklə tanınan dörd kəzzab bunlardır: Mədinədə Vaqidi, Xorasanda Muqatil, Şamda edam olunmuş Muhəmməd ibn Səd..."[1335]

İbn Mədiniyə istinadən yazır: *"İbrahim ibn Əbu Yəhya kəzzabdır (çox yalan danışandır). Ancaq onun vəziyyəti mənim nəzərimdə Vaqididən daha yaxşıdır".*[1336]

Bindara istinadən yazır: *"Ondan daha yalançı bir kəs görmədim".*[1337]

Mizzi "Təhzibul-kəmal"da Müğeyrə ibn Muhəmməd Məhləbidən nəql edir: *"Əli ibn Mədininin belə dediyini eşitdim: "Heysəm ibn Ədiy mənim nəzərimdə Vaqididən etibarlıdır. Mən onun nə hədisləri, nə ənsab və nə də digər şeylər barədəki sözləri ilə razı deyiləm".*[1338]

Həmçinin Əhməd ibn Muhəmmədən nəql edir: "Əhməd ibn Hənbəlin belə dediyini eşitdim: "Biz Vaqidinin Müəmmərdən, onun da Zühridən, onun da Nəbhandan, onun da Ümmü Sələmədən, onun da Peyğəmbərdən (s) nəql etdiyi bu rəvayəti görənədək onu müdafiə edirdik: "Məgər siz korsunuz?.." Bu, Yunusun hədisidir, bunu ondan başqa heç kəs rəvayət etməyib".[1339]

Müaviyə ibn Salehdən nəql edir: "Əhməd ibn Hənbəl mənə dedi: "O, kəzzabdır (çox yalan danışandır)".[1340]

Zəhəbi isə onun tərcümeyi-halını qeyd etməkdən imtina edərək bunu "Hədislərinin tərk olunduğunda həmfikirik" sözü ilə əsaslandırır.[1341] Başqa yerdə isə deyir: "Vaqidinin zəifliyinə icma var".[1342]

Nəvəvi "əl-Məcmu" kitabında yazır: "Vaqidi ümumi rəylərinə əsasən zəifdir".[1343]

[1334] əz-Züəfaus-sağir, Buxari, s. 109; Kitabuz-züəfa vəl-mətrukin, Nəsai, s. 233
[1335] Təhzibut-təhzib, İbn Həcər, c. 9, s. 325
[1336] Təhzibut-təhzib, İbn Həcər, c. 9, s. 326
[1337] Təhzibut-təhzib, İbn Həcər, c. 9, s. 326
[1338] Təhzibul-kəmal, Mizzi, c. 26, s. 187
[1339] Təhzibul-kəmal, Mizzi, c. 26, s. 182
[1340] Təhzibul-kəmal, Mizzi, c. 26, s. 186
[1341] Təzkiratul-huffaz, Zəhəbi, c. 1, s. 348
[1342] Mizanul-itidal, Zəhəbi, c. 3, s. 666

Rəvayətin mətninin müzakirəsi

Bu rəvayətin mətnini dəlil kimi istifadə etmək mümkün deyil. Həmçinin mətn İhsan Zahirin iddiasının eynidir. Güman ki, bu rəvayət məhz Əhli-Beytlə (ə) Ömərin xoş əlaqələrinə, qızını onunla evləndirdiyinə, aralarındakı məsləhətləşmələrə və İmam Əlinin (ə) ona vəzirlik etməsinə dəlil olması üçün uydurulub. İddialar və onları cavabı artıq verilib.

Mətndən Ömərin İmam Əliyə (ə) təzyiqi və ona qarşı ittihamı aydın görünür: Ömər dedi: "Allah and olsun ki, sən buna görə imtina etmirsən. Sənin (bizimlə) hansı müşkülünün olduğunu biz bilirik". Bu, təhdid xarakteri daşıyan sözlərdir. Bəs bu mətnə zidd olan dostluq münasibətləri haradadır?!

Ömər İmam Əlinin (ə) qızının azyaşlı olması üzrünü qəbul etmir və onu yalan söyləməkdə ittiham edir! Ona təzyiq edərək imtinasında həqiqi səbəbinin özünə qarşı ədavət olduğunu bildirir. Bu sözlər məsələnin daxilindəki gizli təhdidlərdir. Öz növbəsində, bu rəvayəti İmamın (ə) ikrah etdiyi halda bu işin baş verdiyinə dəlalət edən əvvəlki rəvayətlərə aid etmək olar. Belə ki, rəvayət İmamın (ə) bu evliliyə könül xoşluğu ilə qol qoymadığından artıq məna vermir. Vaqidinin rəvayəti məhz buna dəlalət edir.

Veriləcək əsas sual budur: Nə üçün Ömər İmam Əlinin (ə) Ümmü Külsümün azyaşlı olması üzrünü qəbul etməyərək israr etdi? Halbuki o və dostu vaxtilə Peyğəmbər (s) qızına elçi düşdükdə, bu səbəbdən rədd edilmiş və heç bir inad göstərməmişdilər?! Necə ola bilər ki, həmin vaxtdan təqribən otuz il ötdükdən sonra, həmçinin Ümmü Külsümün anası Fatimə (ə) ilə müqayisədə həmin vaxt həddi-buluğ yaşına çatmamasına rəğmən İmam (ə) bu evliliyə razı olur?!

[1343] əl-Məcmuu şərhil-mühəzzəb, Muhyiddin Nəvəvi, c. 5, s. 129

Nəsai Abdullah ibn Büreydədən, o da atasından rəvayət edir: "Əbu Bəkr və Ömər Peyğəmbərin (s) qızına elçi düşdülər. Peyğəmbər (s) "O hələ kiçikdir" deyə imtina etdi. Sonra Əli elçi düşdükdə onunla evləndirdi".[1344]

Albani bu hədis haqda deyir: "Sənədi səhihdir".[1345]

Bu hədisi həmçinin Əhməd ibn Hənbəl "Fəzailus-səhabə"də[1346] və İbn Həbban "Səhih"də[1347] nəql edir. Şüeyb Arnavut hədisin hökmü barədə deyir: "Hədəsin sənədi Müslimin şərtinə əsasən səhihdir".[1348]

Hakim Nişapuri "Müstədrək"də bu rəvayəti nəql edərək səhih olduğunu bildirir,[1349] həmçinin Zəhəbi də "ət-Təlxis"də[1350] onunla razılaşır.

Vaqidinin rəvayəti camaatın arasındakı adət-ənənələrə ziddir, xüsusilə də, orada qeyd edilən Möminlərin əmiri Əlinin (ə) davranışları. İmam Əlinin (ə) öz qızına "...hazırlaşmasını tapşırdı. Sonra bir üst geyimini büküb ona verərək dedi: "Bunu möminlərin əmirinə apar və de: "Atam məni göndərib, sizə salam deyir və buyurur ki, əgər paltardan xoşu gəldisə, özündə saxlasın, əgər bəyənmədisə geri qaytarsın" dediyi iddiası aydın yalan, böhtan və iyrəncliyin son həddidir. Bunlar yalnız Vaqidi kimi hədisləri tərk olunan yalançı və uydurmaçıların xəyalının məhsulu ola bilər.

Nəticə: Bu rəvayətin sənədinə və mətninə diqqətlə nəzər yetirən şəxsin onun uydurma olmasına şübhəsi qalmaz. Rəvayətin sənədi Əhli-Sünnə rical alimlərinin qaydalarına əsasən, mürsəl olduğu üçün etibarsızdır. Həmçinin Muhəmməd ibn Ömər Vaqidinin hədislərinin tərk edildiyi barədə demək olar ki, həmfikirdirlər.

[1344] Sünən, Nəsai, c. 6, s. 62, hədis 3221

[1345] Sünən, Nəsai, c. 6, s. 62, hədis 3221, Albaninin hədislər barədə hökmlərilə

[1346] Fəzailus-səhabə, Əhməd ibn Hənbəl, c. 2, s. 614, hədis 1051

[1347] Səhih, İbn Həbban, c. 15, s. 399, hədis 6948

[1348] Səhih, İbn Həbban, c. 15, s. 399, hədis 6948, Şüeyb Arnavutun hədislərlə bağlı hökmlərilə

[1349] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 2, s. 181, hədis 2705

[1350] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 2, s. 181, hədis 2705, Zəhəbinin "ət-Təlxis"dəki şərhlərilə

Onun sənədli rəvayətləri Əhli-Sünnənin rical alimlərinin nəzərində dəyərsizdir, mürsəl rəvayəti barədə danışmağa isə ümumiyyətlə dəyməz!

Mətnini də qəbul etmək mümkün deyil. Belə ki, orada ilahi qanunların açıq-aşkar pozulduğu qeyd edilir. Həmçinin İslamın dəyərli insanları bir kənara, hətta adi müsəlmanların belə ürfündəki adət-ənənələrə heç bir dəyər verilmir.

Digər rəvayətlərin də halı sənəd və məzmun etibarı ilə bunlardan fərqlənmir. Lakin başqa səbəblərə görə onları da qeyd edir, sənədlərinə qısaca toxunuruq.

Üçüncü rəvayət: Dulabinin "əz-Zurriyyətut-tahirə" kitabındakı rəvayət

Dulabi "əz-Zurriyyətut-tahirə" kitabında Vaqidi ibn Muhəmməd ibn Abdullah ibn Ömərin vasitəsilə bəzi adamlardan rəvayət edir: ***"Ömər Əli ibn Əbu Talibin yanına Fatimənin qızı Ümmü Külsüm üçün elçi gəldi. Əli ona evdəkilərlə məsləhət etməli olduğunu bildirdi. Fatimənin övladlarını toplayıb onları məsələdən xəbərdar etdi. Onlar "evləndir" dedilər. Əli Ümmü Külsümü çağırdı, həmin vaxt o hələ azyaşlı idi. Dedi: "Qızım, möminlərin əmirinin yanına get və ona de: "Atam sənə salam söyləyir və buyurur ki, biz sənin istədiyinə razıyıq"***.

Ömər onu tutub qucaqladı və dedi: "Mən onu atasından istədim, o da qızını mənimlə evləndirdi..."[1351]

Bu rəvayətin sənədi qopuqdur.

Əbdürrəhman ibn Xalid ibn Nəcihdən, o da Malik ibn Ənəsin katibi Həbibdən, o da Əbdüləziz Dəravərdidən, o da Zeyd ibn Əsləmdən, o da atasından, o da Ömər ibn Xəttabın azad etdiyi köləsindən nəql edilir: ***"Ömər Əli ibn Əbu Talibdən qızı Ümmü Külsümü istədi. Əli məsələ ilə bağlı Abbasla, Əqillə və Həsənlə məsləhətləşdi. Əqil bu xəbərdən qəzəblənib Əliyə dedi: "Ötən günlər və aylar***

[1351] əz-Zurriyyətut-tahirə, Dulabi, c. 1, s. 255

sənin ancaq korluğunu artırıb. Allaha and olsun ki, əgər bunu etsən olanlar olacaq". Əli Abbasa dedi: "Allaha and olsun ki, bu nəsihət deyil. Ömərin ona vurdurduğu şallaqların onu nəyə vadar etdiyini görürsən..."[1352]

Bu rəvayətin sənədi Əbdürrəhman ibn Xalid ibn Nəcihə görə zəifdir. İbn Həcər "Lisanul-mizan"da yazır: *"İbn Yusuf deyir: "Hədisləri inkar olunur". Daraqutni deyir: "Hədisləri tərk olunur. Onun Malikin katibindən və Səid ibn Əbu Məryəmdən rəvayətləri mövcuddur". Başqa bir yerdə isə deyir: "Zəifdir".*[1353]

Həmçinin "əz-Zurriyyətut-tahirə"də İbn İshaqdan rəvayət olunur: *"Asim ibn Ömər ibn Qətadə mənə danışdı ki: "Ömər Əli ibn Əbu Talibin qızı Ümmü Külsüm üçün elçi düşdü. Əli onun yaşının az olduğunu söylədi. Ömər dedi: "Xeyr, Allaha and olsun ki, sən buna görə demirsən. Sadəcə məni rədd etmək üçün bunu söylədin. Əgər həqiqətən də sənin dediyin kimidirsə, onu mənim yanıma göndər".*

Əli evinə qayıdıb Ümmü Külsümü çağırdı, ona bir don verib dedi: "Bunu möminlərin əmirinin yanına apar və atanın belə söylədiyini de: "Bu don necədir?"

Ümmü Külsüm paltarı onun yanına apardı və atasının buyurduğu sözləri dedi. Ömər onun biləklərindən tutduqda, o, əllərini geri dartdı və dedi: "Məni geri göndər". Ömər onun getməsinə izn verdi və dedi: möhtərəm və ismətli qızsan. Get ona de: "Allaha and olsun ki, çox gözəl və qəşəngdir. Heç də sənin dediyin kimi deyil". Sonra onunla evləndi".[1354]

Bu rəvayət də mürsəldir, Asim ibn Ömər ibn Qətadə ilə Ömər ibn Xəttabın arasında bir çox ravilər olmalı idi.[1355]

Dördüncü rəvayət: Hakimin "əl-Müstədrək"dəki rəvayəti

[1352] əz-Zurriyyətut-tahirə, Dulabi, c. 1, s. 256

[1353] Lisanul-mizan, İbn Həcər, c. 3, s. 413, rəqəm 1624

[1354] əz-Zurriyyətut-tahirə, Dulabi, c. 1, s. 254

[1355] Bax: Təhzibul-kəmal, Mizzi, c. 13, s. 528, rəqəm 3020

Hakim Nişapuri "əl-Müstədrək"də Əli ibn Hüseyn (ə) yolu ilə rəvayət edir: "Ömər ibn Xəttab (r) Əli ibn Əbu Talibdən (r) qızı Ümmü Külsümə elçi düşərək onunla evləndirməsini istədi. Əli isə onu qardaşı oğlu Abdullah ibn Cəfərlə evləndirəcəyini bildirdi. Ömər dedi: "Onu mənimlə evləndir, Allaha and olsun ki, Yer üzündə ona mənim kimi bir yoldaş tapılmaz". Əli qızını onunla evləndirdi. Ömər mühacirlərin yanına gəlib dedi: "Məni təbrik edin!.."[1356]

Bu hədisin sənədi qopuqdur, necə ki, Zəhəbi "ət-Təlxis"də də qeyd edir. Onun "Məni təbrik edin!" sözü isə inkar olunur.

Beşinci rəvayət: Beyhəqinin "Sünən"dəki rəvayəti

Beyhəqinin "Sünən"də Süfyan ibn Vəki ibn Cərrahın vasitəsilə Ruh ibn Übadənin İbn Cərirdən, onun da İbn Əbu Müleykədən, onun da Həsən ibn Həsəndən, onun da atasından nəql etdiyi rəvayətdə deyilir: "Ömər ibn Xəttab (r) Əli ibn Əbu Talibin (r) qızı Ümmü Külsüm üçün elçi düşdü. Əli (r) qızın bu iş üçün hələ kiçik olduğunu söylədi. Ömər dedi: "Peyğəmbərin (s) belə buyurduğunu eşitmişəm: "Mənim nəsil və nəsəbimdən savayı Qiyamət günü bütün nəsil və nəsəb bağları qırılacaq". Mən də nəsəbimin Peyğəmbərə (s) bağlanmasını arzuladım". Əli (r) Həsən və Hüseynə dedi: "Onu əminizlə evləndirməyə razısınızmı?" Dedilər: "O bir xanımdır, öz həyat yoldaşını özü seçsin". Əli (r) qəzəblənib ayağa qalxdı, Həsənin (r) paltarından tutdu. Həsən dedi: "Atacan, səndən uzaqlaşmağa səbrim olmaz". Ravi deyir: Sonra onun evlənməsinə razılıq verdilər".[1357]

[1356] əl-Müstədrəku ələs-səhiheyn, Hakim Nişapuri, c. 3, s. 153, hədis 4684

[1357] Sünən, Beyhəqi, c. 7, s. 64

Rəvayət Süfyan ibn Vəki ibn Cərrah səbəbindən zəifdir. Belə ki, onun zəif[1358] və hədislərinin etibardan düşmüş[1359] olduğunu söyləyiblər.

Altıncı rəvayət: Xətib Bağdadinin "Tarix" kitabındakı rəvayət

Xətib Bağdadi özünün "Tarix" kitabında Muhəmməd ibn Abdullah ibn İbrahim Şafeinin vasitəsilə Əhməd ibn Hüseyn Sufidən, o da İbrahim ibn Mehran ibn Rüstəm Mərvəzidən, o da Leys ibn Səd Qeysidən, o da Musa ibn Əli ibn Rəbah Ləxəmidən, o da atasından, o da Əqəbə ibn Amir Cəhnidən rəvayət edir: "Ömər ibn Xəttab Əlinin Fatimədən olan qızı üçün elçi düşdü. Bunu dəfələrlə etdi. Sonra dedi: "Ey Əbülhəsən, məni dəfələrlə sənə müraciət etməyə Peyğəmbərdən (s) eşitdiyim bir hədis vadar etdi: "Qiyamət günü mənim nəsil və nəsəbimdən savayı bütün nəsil və nəsəb bağları qırılacaq". Mən də özümün siz Əhli-Beytlə bir əlaqəmin olmasını istədim".

Əli gedib qızına bəzənməsini söylədi. Ardınca onu möminlərin əmiri Ömərin yanına göndərdi. Ömər onu gördükdə ayağa qalxdı və baldırından tutub dedi: "Atana de ki, razıyam, razıyam, razıyam".

Qız atasının yanına qayıtdıqda Əli ondan Ömərin nə dediyini soruşdu. O dedi: "Məni çağırdı, öpdü, ayağa qalxdığımda isə baldırımdan tutub dedi: "Atana de ki, razıyam".

Onunla evləndi, ondan Zeyd ibn Ömər ibn Xəttab adlı oğlu oldu. O, böyüyüb boya-başa çatdıqda öldü".[1360]

Bu rəvayət də Abdullah ibn İbrahim[1361] səbəbindən zəifdir. "Məni çağırdı, öpdü, ayağa qalxdığımda isə baldırımdan tutub dedi: "Atana de ki, razıyam" sözləri isə olduqca mənfurdur.

[1358] əl-Kaşifu fi mərifəti mən ləhu rivayətun fil-kutubis-sittə, c. 1, s. 449, rəqəm 2005

[1359] Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 245, rəqəm 2406

[1360] Tarix, Xətib Bağdadi, c. 6, s. 180

Yeddinci rəvayət: İbn Əbdülbərrin "əl-İstiab"dakı rəvayəti

İbn Əbdülbərr "əl-İstiab" kitabında Muhəmməd ibn Əli Baqirin (ə) vasitəsilə rəvayət edir: "Ömər ibn Xəttab Əlinin qızı Ümmü Külsümə elçi düşdü. Əli onun kiçik olduğunu söylədi. Ömərə Əlinin bu sözü ilə onu rədd etdiyi deyildi. O, təkrarən qızı istəməyə gəldi. Əli dedi: "Onu sənin yanına göndərəcəyəm. Əgər xoşun gəlsə, sənin xanımındır".

Qızı Ömərin yanına göndərdikdə, o, uşağın baldırının üstündən paltarını qaldırdı. Qız dedi: "Əlini çək, Allaha and olsun ki, əgər möminlərin əmiri olmasaydın gözünü çıxarardım".[1362]

Bu rəvayət Əhli-Sünnə hədis qaydalarına əsasən, mürsəl olduğu üçün zəifdir. Belə ki, İmam Muhəmməd Baqir (ə) Ömərlə eyni zamanda yaşamayıb. Bu hədisi şiəyə dəlil göstərmək olmaz. Çünki bu, Əhli-Sünnə rəvayətidir. Həmçinin mürsəl olduğuna görə, Əhli-Sünnənin özünə də dəlil deyil.

"Qızı Ömərin yanına göndərdikdə, o, uşağın baldırının üstündən paltarını qaldırdı" sözləri isə olduqca çirkindir.

Elçilik rəvayətlərindən alınan nəticə

Elçilik rəvayətlərinin sənədləri zəif və məzmunları ziddiyyətlidir. Nəql olunan hadisə vahid bir xəttə sahib deyil. Bunlar:

İmamın (ə) bu elçiliyə münasibəti baxımından, bəziləri onun bu evliliyə razı olmadığını, bəziləri isə razı olduğunu qeyd edirlər.

[1361] Lisanul-mizan, İbn Həcər, c. 5, s. 228, rəqəm 804

[1362] əl-İstiab, İbn Əbdülbərr, c. 4, s. 1955

Bəziləri İmamın (ə) qızlarını qardaşı Cəfərin uşaqları ilə evləndirəcəyini, bəziləri isə azyaşlı olmasını üzr olaraq irəli sürdüyünü deyirlər.

Məsləhətləşmə cəhətindən – bəziləri İmamın (ə) yalnız Həsən (ə) və Hüseynlə (ə), digərləri isə Əqil və Abbasla məsləhətləşdiyini iddia edirlər.

Məsləhət verənlər baxımından – bəziləri Həsən (ə) və Hüseynin (ə) buna qarşı çıxdıqlarını, bəziləri qəbul etdiklərini, digərləri Əqilin inkar edib Abbasın qəbul etdiyini söyləyirlər.

İmam Əlinin (ə) məsləhətləşmədəki mövqeyinə gəldikdə, bəziləri onun Həsən (ə) və Hüseynin (ə) bu evliliyə qarşı çıxmasından qəzəbləndiyini, bəziləri İmamın (ə) imtinasına görə Əqilin qəzəbləndiyini, Əlinin (ə) isə bunu Ömərin qamçısından Əqilin qorxması ilə əlaqələndirdiyini deyirlər.

İmamın (ə) təklifi rədd etməsi ilə bağlı bəziləri Ömərin bundan qəzəblənib: "Allaha and olsun ki, sən bu səbəbdən imtina etmirsən. Sənin (bizimlə) hansı müşkülünün olduğunu bilirik" dediyini, bəziləri onun yaltaqlanaraq: "Ya Əli, onu mənimlə evləndir. Allaha and olsun ki, Yer üzündə ona mənim kimi bir yoldaş tapılmaz" söylədiyini, bir başqaları isə dəfələrlə elçilik üçün gəldiyini nəql edirlər.

Həmçinin İmamın (ə) Ömərin təklifinə razılını bildirməsi üslubları haqqında da müxtəlif iddialar ortaya atılıb. Bəziləri bunu şəxsən İmam Əlinin (ə) özünün bildirdiyini, bəziləri qızını Ömərin yanına göndərərək razı olduğunu deməsini buyurduğunu, digərləri öz razılığını qızını Ömərin yanına göndərdikdən sonra Ömərin razılığına bağladığını rəvayət ediblər.

Həmçinin Ömərin İmama (ə) razılığını bildirmə formasında da fərqliliklər mövcuddur. Bəziləri bunu Ömərin mühacir və ənsarın məclisinə gedib orada evlənəcəyini elan edərək bildirdiyini, bəziləri isə (atasının bəzəndirib göndərdiyi) qızın baldırının üstünü Ömər açaraq atasına öz razılığını söyləməsini tapşırdığını deyirlər.

Həmçinin rəvayətlərə diqqətlə nəzər salan şəxslərə buradakı digər ziddiyyətlər də gizli qalmaz.

Nəticə: Sənədlərin zəifliyi və məzmun dağınıqlığı rəvayətlərdə uydurmanın, saxtakarlığın və böyük təhriflərin olduğundan xəbər verir.

İkinci: Mehriyə ilə bağlı rəvayətlər

İbn Səd "ət-Təbəqat" kitabından Hişam ibn Sədin vasitəsilə Əta Xorasanidən nəql edir: "Ömər Əlinin qızı Ümmü Külsümə qırx min mehriyə verdi".[1363]

Bu rəvayət Hişam səbəbindən zəifdir. Nəsai və Yəhya ibn Muin Durinin[1364] sözlərinə əsasən, onu zəif hesab ediblər. Əbu Hatəm deyir: "Onun hədisləri dəlil kimi təqdim olunmaz".[1365]

Dulabi "əz-Zurriyyətut-tahirə" kitabında Abdullah ibn Zeyd ibn Əsləmin vasitəsilə atasından, o da babasından rəvayət edir: "Ömər ibn Xəttab Əli ibn Əbu Talibin qızı Ümmü Külsümlə qırx min dirhəm mehriyə qarşılığında evləndi".[1366]

Bu hədis Abdullah ibn Zeyd ibn Əsləm səbəbindən zəifdir. İbn Muin və digərləri[1367] onun zəif olduğunu söyləyiblər. Həmçinin Əli ibn Mədini ravilərdən biri olan Xalid ibn Xəddaşın da zəif olduğunu bildirib.[1368]

İbn Həcər "əl-İsabə" kitabında İbn Vəhəbdən, o da Əbdürrəhman ibn Zeyd ibn Əsləmdən, o da atasından, o da babasından nəql edir: "Ömər Ümmü Külsümlə qırx min dinar mehriyə ilə evləndi".[1369]

Bu rəvayət də Əbdürrəhman ibn Zeyd ibn Əsləm səbəbindən zəifdir.[1370]

[1363] ət-Təbəqatul-kubra, Muhəmməd ibn Səd, c. 8, s. 463-464

[1364] Bax: Təhzibul-əhkam, Mizzi, c. 30, s. 207, rəqəm 6577

[1365] əl-Cərh vət-tədil, Əbu Hatəm Razi, c. 9, s. 61, rəqəm 241

[1366] əz-Zurriyyətut-tahirə, Dulabi, c. 1, s. 257

[1367] Bax: Təhzibul-əhkam, Mizzi, c. 14, s. 535, rəqəm 3280

[1368] Təhzibul-əhkam, Mizzi, c. 8, s. 45, rəqəm 1602

[1369] əl-İsabə, İbn Həcər, c. 8, s. 465

[1370] Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 340, rəqəm 3865; əl-Kaşifu fi mərifəti mən ləhu rivayətun fil-kutubis-sittə, Zəhəbi, c. 1 s. 328, rəqəm 3196

Nəticə: Mehriyə rəvayətləri miqdar barədə müttəfiq olsalar da, lakin hamısının sənədi zəifdir.

Üçüncü: Evlilik və nəsil artımı ilə bağlı rəvayətlər

Beyhəqi "Sünən"də iki rəvayət yolu ilə Əli ibn Hüseyndən (ə) nəql edir: "Ömər ibn Xəttab (r) Əlinin (r) qızı Ümmü Külsümlə evləndikdə Peyğəmbər (s) məscidində qəbirlə minbər arasına toplaşmış mühacirlərin məclisinə getdi. Məclisdə onlardan başqa heç kəs yox idi. Onlar Ömərin evliliyin bərəkətli olması üçün dua etdilər..."[1371]

Dulabi "əz-Zurriyyətut-tahirə" kitabında Zührinin vasitəsilə rəvayət edir: "Əlinin Fatimədən olan qızı Ümmü Külsüm Ömərlə evləndi. Ondan Zeyd ibn Ömər ibn Xəttab dünyaya gəldi".[1372]

Bu rəvayət mürsəldir. Belə ki, Zühri ilə Ömərin arasında bir çox ravilər olmalı idi.

İbn İshaq yolu ilə rəvayət edir: "Əlinin qızı Ümmü Külsüm Ömər ibn Xəttabla evləndi. Ondan Zeyd ibn Ömər ibn Xəttab və bir qız dünyaya gəldi. Ömər onunla evli ikən öldü".[1373]

Bu rəvayət də mürsəldir. İbn İshaqla Ömərin arasında birdən çox ravi olmalıdır.

Eləcə də Tahir ibn Yəhya ibn Həsənin vasitəsilə onun atasından rəvayət edir: "Əlinin Fatimədən olan qızı Ümmü Külsüm Kubranın Ömərdən Zeyd və Rüqəyyə adlı övladları oldu. Onların hər ikisi də gənc ikən vəfat etdilər. Bununla da Ömərin Ümmü Külsümdən övladı qalmadı".[1374]

[1371] əs-Sünənul-kubra, Beyhəqi, c. 7, s. 64
[1372] əz-Zurriyyətut-tahirə, Dulabi, c. 1, s. 258
[1373] əz-Zurriyyətut-tahirə, Dulabi, c. 1, s. 259
[1374] əz-Zurriyyətut-tahirə, Dulabi, c. 1, s. 257

Bu rəvayət də mürsəldir, bundan əlavə, Yəhya ibn Həsən məchul şəxsdir.[1375]

İbn Həcər "əl-İsabə"də Zübeyrdən rəvayət edir: "Onun Ömərdən Zeyd və Rüqəyyə adlı övladları oldu".[1376]

Nəticə: Ümmü Külsümün Ömərdən olan övladları və nəslinin davamı ilə bağlı rəvayətlərin hamısının sənədi zəifdir.

Dördüncü: Ölümü və cənazə namazı ilə bağlı rəvayətlər

İbn Səd "ət-Təbəqat"da İsmail ibn Əbu Xalid yolu ilə Amirdən nəql edir: "Zeyd ibn Ömər və Əlinin qızı Ümmü Külsüm vəfat etdilər, onlara Abdullah İbn Ömər namaz qıldı. Zeydi öz qarşısında və Ümmü Külsümü isə arxa tərəfdə – qiblə istiqamətində qoydu. Onlara dörd təkbirlə namaz qıldı".[1377]

Bunu Dulabi "əz-Zurriyyətut-tahirə" kitabında da rəvayət edib.[1378]

Həmçinin İbn Səd "ət-Təbəqat"da Əbu Həsin yolu ilə Amirdən, o da Abdullah ibn Ömərdən nəql edir.[1379]

Cabirin vasitəsilə Amirdən, onun da Abdullah ibn Ömərdən nəql etdiyi rəvayətdə isə bu əlavələr var: "Onun arxasında Həsən və Hüseyn dayanmışdı..."[1380]

Bu, həmçinin Abdullah ibn Bəhiy yolu ilə də nəql edilib.[1381]

Eləcə də Şəbinin vasitəsilə nəql edilən rəvayətdə bu əlavə var: "Arxasında Əlinin övladları Həsən, Hüseyn və Muhəmməd ibn Hənəfiyyə, eləcə də Abdullah ibn Abbas və Abdullah ibn Cəfər dayanmışdı".[1382]

[1375] Təqribut-təhzib, İbn Həcər, c. 1, s. 589, rəqəm 7531
[1376] əl-İsabə, İbn Həcər, c. 8, s. 465
[1377] ət-Təbəqatul-kubra, Muhəmməd ibn Səd, c. 8, s. 464, 465
[1378] ət-Təbəqatul-kubra, Muhəmməd ibn Səd, c. 1, s. 267
[1379] ət-Təbəqatul-kubra, Muhəmməd ibn Səd, c. 1, s. 267
[1380] ət-Təbəqatul-kubra, Muhəmməd ibn Səd, c. 8, s. 464
[1381] ət-Təbəqatul-kubra, Muhəmməd ibn Səd, c. 8, s. 464

Bəni-Haşimin azad edilmiş köləsi Əmmar ibn Əbu Əmmar yolu rəvayət edilir: "Həmin gün onlara Səid ibn Asın namaz qıldığını gördüm. O gün camaatın əmiri idi. Arxasında Peyğəmbər (s) səhabələrindən səksən nəfər dayanmışdı".[1383]

İbn Cüreyh yolu ilə Nafidən nəql edilən rəvayətdə isə: "Arxasında Peyğəmbər (s) səhabələrindən səksən nəfər dayanmışdı" sözü olmadan rəvayət olunur.[1384]

"əz-Zurriyyətut-tahirə"də Dulabi bunu Həmmad ibn Sələmə yolu ilə Əmmar ibn Əbu Əmmardan nəql edir. Orada: "Arxasında Həsən, Hüseyn və Əbu Hüreyrə dayanmışdı" yazılıb.[1385]

İbn Həcər "əl-İsabə"də Zübeyrdən nəql edir: "Ümmü Külsüm və oğlu eyni gündə vəfat etdilər. Zeyd müharibə edən Bəni-Ədiy qəbiləsinin arasında sülh yaratmaq üçün getdikdə yaralanmışdı. Onu qaranlıq olduğundan kimin yaraladığı bilinmədi. Yaralandıqdan sonra bir neçə gün yaşadı. Həmin vaxt anası da xəstə idi. Onların hər ikisi eyni gündə vəfat etdilər".[1386]

Nəticə: Onun ölümü və cənazə namazı barədəki rəvayətlərin vahid bir dəlaləti yoxdur. Onların bir hissəsində namaz qılan şəxsin Abdullah ibn Ömər, digərlərində isə Səid ibn As olduğu qeyd edilir.

Beşinci: Ümmü Külsüm Ömərin vəfatından sonra

Dulabi "əz-Zurriyyətut-tahirə" kitabında Həsən ibn Hüseyn ibn Əli ibn Əbu Talib (ə) yolu ilə rəvayət edir: "Ömərin vəfatından sonra Əli ibn Əbu Talibin qızı Ümmü Külsüm yanına qardaşları Həsən və Hüseyn gəldilər. Dedilər: "Bildiyin kimi sən, müsəlman qadınların Xanımının qızısan. Allaha and olsun ki, əgər

---

[1382] ət-Təbəqatul-kubra, Muhəmməd ibn Səd, c. 8, s. 464
[1383] ət-Təbəqatul-kubra, Muhəmməd ibn Səd, c. 8, s. 464-465
[1384] ət-Təbəqatul-kubra, Muhəmməd ibn Səd, c. 8, s. 465
[1385] əz-Zurriyyətut-tahirə, Dulabi, c. 1, s. 266
[1386] əl-İsabə, İbn Həcər, c. 8, s. 465

vilayətini Əliyə həvalə etsən, o səni yaxın adamları ilə evləndirəcək, əgər çoxlu mal-dövlət əldə etmək istəyirsənsə, buna özün nail ola bilərsən".

Onlar ayağa qalxmamış Əli əsasına söykənərək gəldi. Oturdu, Allaha həmd-səna söylədi. Ardınca onların Peyğəmbər (s) yanındakı məqamlarından söz açdı: "Ey Fatimə övladları, Peyğəmbərə (s) yaxınlığınıza görə məqamınızı və mənim nəzərimdə də digər övladlarımdan üstünlüyünüzü bilirsiniz" dedi.

Dedilər: "Doğru buyurursan, atacan, Allah sənə mərhəmət etsin və səni bizim tərəfimizdən xeyirlə mükafatlandırsın!"

Dedi: "Bəli, qızım, Uca Allah sənin ixtiyarını öz öhdəndə qoyub. Mən istəyirəm ki, sən onu mənə həvalə edəsən".

Ümmü Külsüm dedi: "Bəli, atacan, mən də bir qadınam, qadınların istədiklərini mən də istəyirəm. Mən də digər qadınlar kimi dünyadan nəsibimi almaq istəyirəm. Bu məsələdə özüm qərar qəbul etməyi düşünürəm".

Dedi: "Xeyr, qızım, bu sənin öz fikrin deyil, bu iki nəfərin fikridir". Sonra ayağa qalxıb dedi: "Allaha and olsun ki, sən bunu etsən onların heç biri ilə danışmayacağam".

Həsən və Hüseyn atalarının paltarlarından yapışıb dedilər: "Atacan, sənin bizdən üz çevirməyinə taqətimiz çatmaz. (Ey Ümmü Külsüm), seçim ixtiyarını ona ver".

Ümmü Külsüm onlarla razılaşdı. Əli ibn Əbu Talib bu zaman dedi: "Mən səni Ovn ibn Cəfərlə evləndirdim. O, gənc oğlandır".

Sonra evinə qayıtdı, Ümmü Külsümə dörd min dirhəm verib qardaşı oğlunun evinə göndərdi və onun nikahına daxil etdi..."[1387]

Bunu həmçinin müxtəsər şəkildə Zührinin vasitəsilə də rəvayət edib.[1388]

Eləcə də İbn İshaqa istinadən müxtəsər olaraq nəql edir. Orada: "Ömərdən sonra o, Ovn ibn Cəfərlə evləndi. Onunla evli ikən Ovn vəfat etdi. Onların övladı

[1387] əz-Zurriyyətut-tahirə, Dulabi, c. 1, s. 262

[1388] əz-Zurriyyətut-tahirə, Dulabi, c. 1, s. 260

olmadı. Ardınca Muhəmməd ibn Cəfərlə ailə həyatı qurdu. O da bir müddətdən sonra dünyadan köçdü. Sonra Abdullah ibn Cəfərlə evləndi. Ondan da övladı olmadı”.[1389]

Ümmü Külsümün evliliyi ilə bağlı Əhli-Sünnə rəvayətlərinin icmalı

Yuxarıda qeyd etdiklərimiz Əhli-Sünnənin Ümmü Külsümün Ömər ibn Xəttabla evliliyi barədə nəql edilmiş əsas rəvayətləri idi. Onların müəyyən cəhətləri barədə geniş müzakirə apardıq. Burada isə iki cəhətə diqqət yetirmək istəyirik:

Birinci: Ümmü Külsümün Ömərlə evlilik hekayəsi Əhli-Sünnənin əsas hədis kitablarında nəql edilməyib. Onların “Kutubus-sittə” kimi tanınan səhih hədis kitablarının raviləri bu rəvayətlərdən yan ötüblər. Həmçinin Əhməd ibn Hənbəlin “Müsnəd”i və s. kimi mötəbər sənədli (müsnəd) kitablarda da qeyd edilməyib. Bunlar “Səhih” və mötəbər “Müsnəd”lərin hamılıqla tərk etdikləri rəvayətlərdir.

İkinci: Bu evliliklə bağlı təqdim etdiyimiz Əhli-Sünnə rəvayətləri, xüsusilə də, elçilik hekayəsi məzmun etibarı ilə olduqca dağınıqdır. Bəzilərinin məzmunu alçaldıcıdır ki, əxlaqi rəzillikləri də ehtiva edir. Ələlxüsus “baldırdan tutmaq” rəvayəti. Bunu da qeyd etməliyik ki, Əhli-Sünnənin Peyğəmbərdən (s) rəvayət etdiyi hədisdə “baldırdan tutmaq” artıq evli olan cütlərə bir eyham kimi istifadə edilib. Buyurur: “Ey camaat, talaq (boşanma) baldırı tutanın (kişinin) ixtiyarındadır”.[1390]

Əgər belə bir əxlaqi rəzilliyi özlərinin İslam rəmzlərindən hesab etdikləri Ömərə nisbət verirlərsə, o zaman alçaq və şərəfsiz insanlara hansı pislikləri nisbət verəcəklər?!

[1389] əz-Zurriyyətut-tahirə, Dulabi, c. 1, s. 96

[1390] əl-Möcəmul-kəbir, Təbərani, c. 17, s. 179

Bu məsələ həmin hekayələrdə uydurma, saxtakarlıq və təhriflərin mövcud olduğunu ortaya çıxarır, rəvayətlərin ətrafında bir çox suallar yaradır. Bütün bunlar isə Əhli-Sünnənin öz rəvayətlərinin də Ömərlə Əhli-Beytin (ə) arasındakı səmimi münasibətlərə dəlil göstərilməsinə müşkül yaradır.

Mövzu ilə əlaqədar nəql edilmiş Əhli-Sünnə rəvayətlərinin müzakirəsi barədə bu sözlərlə kifayətlənirik. Burada məqsədimiz həmin evliliyin baş verib-vermədiyini isbatlamaq deyildi. Biz burada həmin evliliklə bağlı nəql edilmiş Əhli-Sünnə rəvayətlərinin Əhli-Beytlə (ə) Ömərin arasındakı xoş əlaqələrin isbatına heç bir fayda vermədiyini bəyan etdik. Belə ki, o rəvayətlərin böyük hissəsinin sənədləri zəif, məzmunu ixtilaflı idi, özündə əxlaqi rəzillikləri ehtiva edirdi. Həmçinin Əhli-Beytlə (ə) yanaşı Ömərin özü barədə də əxlaqa sığmayan əməllər zikr olunurdu. Bütün bunlar isə həmin hekayələrdə uydurma, saxtakarlıq və təhriflərin olmasının dəlilidir.

Nəticə

Ümmü Külsümün Ömər ibn Xəttabla evliliyinə dair bütün şiə rəvayətlərini zikr etdik, mizan-tərəzinin gözünə qoyduq, onların barəsində deyilməli olan mülahizələri söylədik. Ardınca məsələ ilə bağlı Şeyx Müfid, Seyyid Mürtəza və Əbülqasim Kufi (Allahın rəhməti onlarla olsun!) kimi şiə alimlərinin əhəmiyyətli nəzərlərini təqdim etdik. Həmçinin mövzu ilə bağlı Əhli-Sünnə nəzərlərinə də müraciət etdik, mülahizələrimizi söylədik. Onlara diqqət yetirən və araşdıran şəxsə aşağıdakı mühüm mətləblər məlum oldu:

1. Şiə mənbələrindəki rəvayətlər və alimlərinin sözləri son dərəcə obyektiv və neytraldır. Lakin Əhli-Sünnə rəvayətlərində bunun əksini görürük. Həmin rəvayətlərin məzmunlarında saxtakarlıq və uydurma əlamətləri olan dağınıqlığı müşahidə etdik. Eləcə də mətnlərdə bəzi əxlaqi rəzilliklər zikr edilir ki, bunları böyük İslam şəxsiyyətləri kənara dursun, ən sıravi bir müsəlmanın qeyrəti belə qəbul etməz.

2. İzdivac məsələsi ilə bağlı şiə alimlərinin fikirləri, eləcə də şiə və Əhli-Sünnə rəvayətlərini əsla Ömərlə Əhli-Beytin (ə) arasındakı səmimi dostluq münasibətlərinə dəlil göstərmək mümkün deyil. Belə ki, şiə rəvayətləri və bu evliliyin baş verdiyini söyləyən alimlərimizin fikirləri evliliyin könül xoşluğu ilə deyil, Ömərin tətbiq etdiyi təhdid vasitələri ilə həyata keçdiyini bəyan edir. Bəzi Əhli-Sünnə rəvayətləri də bunu təsdiqləyir.

Belə olduqda Əhli-Sünnə alimləri bu rəvayətlərin qarşısında tab gətirə biləcək güclü dəlillər təqdim etməlidirlər. Onların böyük hədis alim və hafizlərinin nəql etdikləri rəvayətlər Ömərin Əhli-Beytə (ə) qarşı düşmən münasibətinə, sərt və kobud rəftarına, Peyğəmbər (ə) Əhli-Beytinin (ə) onunla həmsöhbət olmaqdan hiss etdiyi ikrahına aydın şəkildə dəlalət edir.

Bütün bunlardan sonra, İhsan Zahirin məsələ ilə bağlı fikirlərinə, təhqiqat ruhundan uzaq sözlərinə nəzər salmağa ehtiyac görmürük.